İBRAHİM ETHEM ATNUR

# OSMANLI İDARƏÇİLİYİNDƏN SOVET İDARƏÇİLİYİNƏ QƏDƏR NAXÇIVAN
## *(1918-1921)*

NAXÇIVAN – 2013

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən nəşr edilir.**

| | |
|---|---|
| Ön sözün müəllifi: | **- İsa Həbibbəyli**<br>***AMEA-nın həqiqi üzvü*** |
| Elmi redaktor: | **- Vaqif Məmmədov**<br>***tarix üzrə fəlsəfə doktoru, dosent*** |
| Azərbaycan dilinə çevirən: | **- Qənirə Əsgərova**<br>***filologiya üzrə fəlsəfə doktoru, dosent*** |

***İbrahim Ethem Atnur. Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921).*** *“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan, 2013, 496 səh.*

4700000000
053-2013

© “Əcəmi” 2013

# M Ü N D Ə R İ C A T


Türkiyədə Naxçıvan haqqında ilk monoqrafiya ...........................................8
Qısaltmalar..............................................................................................13
Giriş.........................................................................................................14

## I BÖLMƏ

A. ŞƏRQ HƏRƏKATI VƏ TÜRK ORDUSUNUN
QAFQAZA DAXİL OLMASI....................................................................19
1. Birinci Dünya müharibəsinin sonlarına yaxın
Qafqaz cəbhəsi..........................................................................................19
2. Ərzincan müqaviləsi..............................................................................20
3. Brest-Litovsk sülhü................................................................................22
4. Türk-irəli hərəkatı..................................................................................24
5. Trabzon konfransı (14 mart-14 aprel 1918).........................................26
6. Türk irəli hərəkatının davamı................................................................28
7. Batumi konfransında (11 may-4 iyun 1918)
Naxçıvan məsələsi.................................................................................. 32
B. Naxçıvanda Türk idarəsinin yaradılması..............................................36
1. Naxçıvan türk ordusunun gəlişinə qədər...............................................36
a) İrəvan vilayəti müsəlmanlarının kömək istəmələri................................42
b) Xəlil bəyin Naxçıvana gəlişi və fəaliyyəti.............................................45
c) Xəlil bəyin kimliyi və Naxçıvan məsələsi..............................................51
d) Andranikin fəaliyyəti və müsəlman əhaliyə
edilən zülmlər...........................................................................................54
2. Türk ordusunun Naxçıvana gəlməsi.......................................................61
3. Yerli və inzibati təşkilatların yaradılması...............................................66
4. Türk hərbi hissələrinin Naxçıvana göndərilməsi....................................70
a) Hərbi hissələrin yenidən nizamlanması...................................................73
b) Türk qoşunlarının ermənilərə qarşı
apardığı mübarizə......................................................................................76
c) Könüllülər dəstəsinin yaradılması............................................................81

C. TÜRK ORDUSUNUN REGİONU TƏRK ETMƏSİ.............................83
1. Regionu tərketmə əmri və görülən hazırlıqlar.........................................83
2. Bölgəni tərketmə əmri. Xalqın vəziyyəti.................................................90
3. Türk hərbi hissələrinin regionu tərk etməsi..............................................94

## II BÖLMƏ

ARAZ VADİSİNDƏ FƏRDİ (ayrı-ayrı)
HÖKUMƏTLƏR....................................................................98
A. Araz Türk hökuməti..........................................................98
1. Araz türk hökumətinin qurulmasına gedən yol.......................98
a) İdarəetmə təşkilatların yaradılması......................................98
b) Hərbi təşkilatların yaranması..............................................101
2. Hökumətin quruluşu..........................................................106
3. Hökumətin hərbi hissələr sahəsində fəaliyyəti.......................110
4. Ermənilərə qarşı aparılan mübarizələr...................................119
5. Araz-Türk hökumətinin süqutu............................................131
6. Araz-Türk hökumətinin Qars Müsəlman Şurası
hökumətinə birləşməsi məsələsi...............................................133
NAXÇIVAN HÖKUMƏTLƏRİ...................................................138
1. Yerli hökumət - "Məhəllə hökuməti" dövrü..........................138
2. Milli Şura hökuməti...........................................................143
3. Xanlar "Diktator hökuməti"................................................144

## III BÖLMƏ

NAXÇIVANDA İNGİLİS VƏ ERMƏNİ İDARƏÇİLİYİ,
AMERİKA GENERAL QUBERNATORLUĞUNUN
YARADILMASI TƏŞƏBBÜSLƏRİ.............................................155
A. NAXÇIVANDA İNGİLİS İDARƏÇİLİYİ.................................155
1. İngilis hərbi qubernatorluğunun təşkili..................................155
2. Naxçıvanda ingilislərin fəaliyyəti.........................................159
3. İngilis siyasətində dəyişiklik və Naxçıvanın Ermənistana
verilməsi məsələsi...................................................................163
a) Xan Təkinskinin fəaliyyəti və Azərbaycanın mövqeyi..............169
b) Naxçıvan əhalisinin ingilis və erməni hakim
dairələri ilə görüşləri və ilhaqa etirazı.................................... 171
4. İngilislərin Naxçıvanı tərk etməsi.........................................181

B. NAXÇIVANDA ERMƏNİ İDARƏÇİLİYİ.................................185
1. Naxçıvanın ermənilər tərəfindən işğalı...................................185
2. Naxçıvanda erməni idarəetmə sisteminin qurulması.................189
3. Erməni idarəçiliyinin fəaliyyəti.............................................191
a) Vedi döyüşləri..................................................................194
b) Araz vadisi müsəlmanlarınının kömək istəmələri və
hadisələrin Türkiyədə və Azərbaycanda əks-sədası.......................198

4. Naxçıvanda azadlıq mübarizəsinə hazırlıqlar........................................204
5. Naxçıvanda döyüşlər və erməni idarəçiliyinin sonu.............................208
6. Ermənistanda təlaş və müttəfiqlərin fəaliyyəti.......................................213

C. NAXÇIVANDA AMERİKA VALİLİYİNİN YARADILMASI PLANI........................................................................217
1. Amerikalıların Qafqaza gəlməsi. Naxçıvanla bağlı fəaliyyətlər və siyasətləri........................................................................ 217
2. Naxçıvanda bitərəf bölgənin elanı və Amerika valiliyinin yaradılması cəhdləri............................................................ 220
a) Naxçıvan və ətraf müsəlmanların Amerika Valiliyinin (general-qubernatorluğunun) təşkilinə münasibəti........................................................................................228
b) Polkovnik Riyin Naxçıvana gəlməsi və Haskel planının qüvvədən düşməsi.........................................................................229

## IV BÖLMƏ

NAXÇIVAN TÜRKİYƏ VƏ AZƏRBAYCANIN NƏZARƏTİ ALTINDA............................................................................235
A. Naxçıvanda Türkiyə və Azərbaycanın nüfuzu..................................... 235
1. Türkiyə -Naxçıvan münasəbətləri........................................................ 235
a) Türkiyə üçün Naxçıvanın əhəmiyyəti.................................................. 235
b) Naxçıvanlıların Türkiyəyə münasibəti.................................................237
c) Naxçıvan məsələləri və Türkiyə...........................................................239
d) Xəlil bəyin Naxçıvana göndərilməsi....................................................242
2. Azərbaycan üçün Naxçıvan məsələsi....................................................244
3. Azərbaycan-Naxçıvan münasibətləri.....................................................246

B. NAXÇIVANDA YERLİ İDARƏ VƏ BÖYÜYƏN HADİSƏLƏR..................................................................253
1. Güc mənbələri........................................................................................253
2. İnzibati,hərbi və iqtisadi təşkilat............................................................255
3. Amerika heyətləri ilə aparılan danışıqlar...............................................258
4. Mühacir (qaçqın) məsələsi......................................................................262
5. Ermənilərlə mübarizə..............................................................................266
a) Əylis (Göqtan) məsələsi...........................................................................266
b) Sərhəd döyüşləri.....................................................................................271
c) Naxçıvan ətrafında erməni zülmü...........................................................274

6. Liderlər arasında gərginlik və idarəetmə
sistemindəki mənfiliklər....................................................................280

C. NAXÇIVANA HƏRBİ HİSSƏ GÖNDƏRİLMƏSİ
MƏSƏLƏSİ VƏ ERMƏNİLƏRLƏ MÜHARİBƏ..................................286
1. Naxçıvana hərbi dəstə göndərilməsi məsələsi...................................... 286
2. Ermənistana qarşı nəzərdə tutulan hücum
planları və Naxçıvan...........................................................................290
3. Naxçıvanda narahatçılıq və Xəlil bəyin
Türkiyəyə qayıtması...........................................................................293
4. Mayor Veysəl bəy Naxçıvanda............................................................295
5. Gözlənilən məğlubiyyət.......................................................................297
6. Məğlubiyyətdən sonrakı hadisələr........................................................302
a) Əhali arasında şayiələr.......................................................................302
b) Şahtaxtıda müdafiə hazırlıqları və Naxçıvan Milli
Şurasının maneəolma fəaliyyətlərinə türk hərbi
dairələrinin reaksiyası..........................................................................304
c) Ermənilərə sülh təklifi........................................................................314
7. Şahtaxtının işğalı................................................................................319
8. Naxçıvandakı Azərbaycan hərbi qüvvələri və onların
Türkiyəyə gətirilməsi məsələsi................................................................323

**V BÖLMƏ**

TÜRK-SOVET MÜNASİBƏTLƏRİNDƏ NAXÇIVAN
(1920-1921 )..........................................................................................327
A. Naxçıvanda Türk-Sovet görüşü ......................................................... 327
1. Türk-Sovet münasibətlərinin başlanması və Qızıl
Ordunun Naxçıvana dəvət edilməsi..................................................... 327
2. Naxçıvanlıların Türk-Sovet yaxınlaşmasına etirazları......................... 344
3. Qızıl Ordu Naxçıvan yolunda..............................................................349
4. Gözlənilən görüş..................................................................................352

B. QIZIL ORDU NƏZARƏTİNDƏ NAXÇIVAN...................................358
1. Naxçıvanda sovetləşmə...................................................................... 358
a) Revkomun (Naxçıvan İnqilab komitəsi)
quruluşu və üzvləri................................................................................ 358
b) Keçmiş rəhbərlərin aqibəti..................................................................360
2. Türkiyəyə gedən ilk sovet heyəti və Gorus-Naxçıvan
yolunun bağlanması.............................................................................361

3. Sovet Rusiyası-Ermənistan müqaviləsi (10 avqust 1920) və Naxçıvan....................................................................364
4. Türk Qızıl hərbi hissəsinin müxtəlif fəaliyyətləri.................................371
5. Türk Qızıl hərbi hissəsinin ərzaq məsələsi...........................................374
6. Qızıl Ordu ilə ermənilər arasında döyüşlər...........................................375

C. NAXÇIVANDA ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏMİN EDİLMƏSİ..........................................................................378
1. Şahtaxtının işğalı üçün hazırlıqlar........................................................378
2. Naxçıvanda son qələbə.........................................................................384

D. GÜMRÜ MÜQAVİLƏSİNƏ GÖRƏ NAXÇIVANIN STATUSU VƏ SONRAKI PROSESLƏR...............................................389
1. Gümrü müqaviləsinə görə Naxçıvan.....................................................389
2. Gümrü müqaviləsinə görə Naxçıvandakı dəmiryollarından ermənilərin istifadəsi üçün görülən işlər.....................................................393
3. Naxçıvanın Ermənistana bağlanması məsələsi.......................................394
a) Sovet Azerbaycanın Ermənistana hədiyyəsi...........................................394
b) Naxçıvanlıların etirazı...........................................................................396
c) Naxçıvanın Ermənistana verilməsinə Türkiyənin münasibəti....................................................................................................398
d) Veysəl bəy və Vəlibəyov mübarizəsi.....................................................401
4. Naxçıvanda türk- rus gərginliyi..............................................................416
5. Naxçıvan əhalisinin bolşeviklərə qarşı üsyanı........................................421

E. MÜQAVİLƏLƏRLƏ NAXÇIVANIN STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ......................................423
1. Moskva müqaviləsi və Naxçıvan.......................................................... 423
a) Türk hərbi hissəsinin Naxçıvanı tərk etməsi..........................................428
2. Qars müqaviləsi və Naxçıvan.................................................................429
Nəticə.........................................................................................................432
Biblioqrafiya...............................................................................................435
Kataloq.......................................................................................................446

# TÜRKİYƏDƏ NAXÇIVAN HAQQINDA İLK MONOQRAFİYA

Vətən tarixinin öyrənilməsinin yeni mərhələsi olan müstəqillik dövründən başlayaraq ölkənin və xalqın gerçək tarixininin bütün əsas mənbələr və qaynaqlarla birlikdə milli mövqedən yazılması ənənəsi genişlənmişdir. Buna baxmayaraq, zəruri mənbələrin, arxiv sənədlərinin, dövri mətbuat materiallarının böyük bir qisminin Vətəndən kənardakı arxiv, kitabxana və muzeylərdə saxlanılması mövcud elmi problemlərin tərəfdaş ölkələrdəki alimlərin iştirakı ilə araşdırıb öyrənilməsi zərurətini də meydana çıxarır. Belə olduqda ən əlverişli çıxış yollarından biri də Azərbaycanda milli tarix və mədəniyyətimizin ciddi problemlərinə həsr olunmuş beynəlxalq elmi konfranslar, simpoziumlar təşkil edib, xarici ölkələrdə Azərbaycanşünaslıq sahəsində mühüm xidmətləri olan görkəmli alimlərin həmin tədbirlərə cəlbi imkanlarından səmərəli istifadə etməkdən ibarət ola bilər. Bundan başqa, xarici ölkələrdə nəşr olunmuş Azərbaycanla bağlı zəruri ədəbiyyatların dilimizə çevrilib elmi dövriyyəyə daxil edilməsi də mühüm əhəmiyyətə malik işdir. Bu istiqamətdə müstəqillik illərində respublikamızda həyata keçirilən ilk böyük tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 24 mart 1996-cı il tarixli sərəncamı ilə həmin ilin 11-13 iyulunda Naxçıvan şəhərində təşkil edilmiş "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsi olmuşdur. Bu genişmiqyaslı beynəlxalq elmi tədbir Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının çoxəsrlik tarixinin ideoloji meyllərdən uzaq, tam, bütöv, əhatəli, ümumiləşdirilmiş, obyektiv mənzərəsini yaratmaq baxımından geniş imkanlar açmışdır. Həmin beynəlxalq simpoziumda Azərbaycan elminin tanınmış tədqiqatçıları ilə yanaşı, qardaş Türkiyə Cümhuriyyətinin görkəmli elm adamlarının iştirak edib, Naxçıvan mövzusunda ciddi məruzələrlə çıxış etmələri Naxçıvanın qədim tarixinin müxtəlif inkişaf dövrlərinin bütöv və əhatəli şəkildə araşdırılıb ümumiləşdirilməsinə münbit şərait yaratmışdır. Fəraməz Maqsudov, Oqtay Əfəndiyev, Vəli Əliyev, Məşədixanım Nemətova, Ağamusa Axundov, İsmayıl Hacıyev, Nizami Xudiyev, Lətif Hüseynzadə, Nailə Vəlixanlı, Yavuz Axundlu, Seyidağa Onullahi, Səfaralı Babayev, Asif Şirəliyev, Şahin Fərzəliyev, Əbülfəz Amanoğlu, İbrahim Bağırov, Vəli Baxşəliyev və başqaları kimi Azərbaycan alimləri ilə Rəşad Gənc, Yusuf Halacoğlu, Əhməd Bican Ercilasun, Əzmi Süslü, Yücəl Özkaya, Yaşar Kalafat, İbrahim Ethem Atnur, İbrahim Bozyel kimi Türkiyə alimlərinin eyni mövzu ətrafında bir araya gəlməsi, onların araşdırmalarının

elmi nəticələri və səylərinin vahid məcrada birləşdirilməsi geniş mənada Azərbaycanın, mədəni-tarixi əlaqələrimizin, xüsusən də Azərbaycana bağlı Naxçıvan diyarının çoxəsrlik tarixinin öyrənilib ümumiləşdirilməsində mühüm addıma çevrilmişdir. Qardaş Türkiyənin arxiv, muzey və kitabxanalarında mühafizə olunan, Azərbaycan alimlərinə az bəlli olan çoxsaylı tarixi faktlar, sənədlər, əlyazmaları haqqında məlumatlar ilk dəfə elmi dövriyyəyə vəsiqə ala bilmişdir, necə deyərlər, milli tariximiz bir daha zənginləşmiş və bütövləşmişdir. Qısa müddətdə yaranmış "Azərbaycan tarixində Naxçıvan", "Naxçıvan tarixinin səhifələri", "Naxçıvan arxeologiyası", "Tariximizdə və bu günümüzdə Naxçıvan", "Naxçıvan ziyarətgahları", "Naxçıvan Muxtar Respublikası" (Azərbaycan və ingilis dillərində) və s. kimi kitablar, yüzlərlə məqalələr, konfrans materialları, doktorluq və namizədlik dissertasiyası müdafiələri "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun işığında formalaşmışdır. Eyni zamanda, "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumundan sonra Türkiyədə də Naxçıvan mövzusuna maraq daha da artmışdır. Fikrimizcə, iki cildlik "Naxçıvan ensiklopediyası", Azərbaycan və ingilis dillərində nəşr edilmiş "Naxçıvan abidələri ensiklopediyası"da mahiyyət etibarilə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun davamı olaraq meydana çıxmışdır.

Bütövlükdə milli dövlətçilik strategiyasının işığında meydana çıxmış "Uluslararası qaynaqlarda Naxçıvan" simpoziumunun materialları və tövsiyələri Naxçıvanın ən qədim türk-oğuz yurdu, əzəli Azərbaycan torpağı olduğunu və diyarın qədim tarixinin öyrənilməsi zərurətini bir daha dünya ictimaiyyətinə çatdırmaq sahəsində böyük əks-səda oyatmışdır.

Belə mühüm və ciddi elmi-siyasi əhəmiyyətini nəzərə aldığı üçündür ki, o zaman Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev beynəlxalq simpoziumun iştirakçılarına xüsusi təbrik məktubu göndərmiş, uğurlar arzulamış, qarşıda duran əsas vəzifələri müəyyən etmişdir. Mühüm tarixi əhəmiyyətə malik olan həmin təbrik məktubunda deyilirdi:

*"Hörmətli simpozium iştirakçıları!*

*Sizi – "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq simpoziumunun iştirakçılarını səmimi qəlbdən salamlayır, sizin bu dəyərli təşəbbüsünüzü ürəkdən alqışlayıram.*

*Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və çox zəngin tarixi vardır. Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində əvəzsiz rolu danılmazdır. Naxçıvan me-*

*marlıq məktəbi isə uzun əsrlər boyu Şərqin aparıcı məktəblərindən biri olmuşdur.*

*Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri, istedadlı alim və ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir.*

*Hal-hazırda ağır blokada şəraitində yaşayan Naxçıvanda bu Beynəlxalq Simpoziumun keçirilməsi onun elmi ictimaiyyətinin, bütün Naxçıvan əhalisinin öz mətanətli, fədakar sələflərinin layiqli davamçıları olduqlarına dəlalət edir. İnanıram ki, sizin zəhmətiniz gözəl bəhrələr verəcək, gənclərdə yüksək vətənpərvərlik hissinin formalaşması, doğma Azərbaycanımızın müstəqilliyinin qorunub möhkəmləndirilməsi, onun dünya birliyində layiqli yer tutması işinə xidmət edəcəkdir.*

*Əziz simpozium iştirakçıları!*

*Simpoziumun açılışı münasibətilə hamınızı təbrik edir, işinizdə böyük uğurlar, hər birinizə xoşbəxtlik və yeni-yeni nailiyyətlər arzulayıram.*

**HEYDƏR ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
*10 iyul 1996-cı il*"

"Uluslararası qaynaqlarda Naxçıvan" simpoziumunda "Naxçıvanda 1918-1921-ci illərdə siyasi və hərbi vəziyyət" mövzusunda maraqlı bir elmi məruzə ilə çıxış etmiş Ərzurum Atatürk Universitetinin müəllimi İbrahim Ethem Atnur eyni zamanda "Osmanlı idarəetmə sistemindən Sovet Hakimiyyətinə qədərki dövrdə Naxçıvan (1918-1921)" adlı doktorluq dissertasiyası barəsində də iştirakçılara məlumat vermişdir. Ərzurumlu həmkarımız simpozium iştirakçıları arasında maraq doğurmuş dissertasiyasını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov cənablarına təqdim etmişdir. Ali Məclisin Sədrinin tapşırığı və qayğısı əsasında İbrahim Atnurun əsəri Naxçıvan Dövlət Universitetində diqqətlə öyrənilmiş, mətn Anadolu türkcəsindən Azərbaycan dilinə çevirilmiş, redaktə olunmuş, müəyyən hazırlıq işlərindən sonra universitetin "Qeyrət" nəşriyyatında "Muxtariyyat ərəfəsində Naxçıvan" adı ilə kitab halında oxuculara təqdim edilmişdir. Bu, dövlət müstəqilliyinin başlanğıc illərində Azərbaycanın ay-

rılmaz tərkib hissəsi olan Naxçıvan haqqında meydana çıxan və arxiv sənədləri əsasında yazılan qiymətli elmi əsərlərdən biri idi. Sonralar İbrahim Atnurun əsəri zəruri əlavələrdən sonra Ankarada türk dilində nəşr edilərək ictimaiyyətə təqdim olunmuşdur.

İbrahim Ethem Atnurun "Muxtariyyat ərəfəsində Naxçıvan" əsəri çoxillik və səmərəli araşdırmaların nəticəsində yaranmış sanballı bir elmi tədqiqatdır. Əsərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının XX əsrin əvvəllərindəki çətin, mürəkkəb tarixi şəraiti, hərbi və ictimai-siyasi gedişatı Türkiyə mənbələri və qaynaqları əsasında dərindən araşdırılıb ümumiləşdirilmişdir. Mövzu ilə əlaqədar olaraq, İbrahim Atnur Bakının və Naxçıvanın arxivlərində və muzeylərində də axtarışlar aparmış, əldə etdiyi materiallardan monoqrafiyasında faydalanmışdır. Bununla belə, fikrimizcə, İbrahim Atnurun ən böyük xidməti Türkiyənin çeşidli arxivləri və kitabxanalarından zəngin və naməlum, yaxud az bəlli olan yeni materialları arayıb aşkara çıxarmasından, sistemli şəkildə təhlil edib dəyərləndirməsindən ibarətdir. Beləliklə, Naxçıvan diyarının tarixi ilə bağlı olan Araztürk Respublikası, Qars Cənubi Qafqaz hökuməti, Türkiyə-Naxçıvan münasibətləri, xüsusən Mustafa Kamal Atatürk və Naxçıvan məsələləri, Moskva və Qars müqavilələri geniş və elmi şəkildə ilkin qaynaqlara, gerçək sənədlərə istinad etməklə dərindən təhlil edilmişdir. Əsərin bir mühüm cəhəti də burada əsrin əvvəllərindəki erməni xəyanətkarlığı və təcavüzü haqqında Türkiyə mənbələri əsasında yeni və əhatəli məlumatların öz əksini tapması ilə bağlıdır. İbrahim Ethem Atnurun əldə etdiyi sənədlər, topladığı faktlar bədnam ermənilərin ümumən türklərə, xüsusən də Naxçıvan və Sürməli çuxuru əhalisinə qarşı törətdikləri vəhşilikləri real şəkildə göz önünə gətirir. Müəllif həmçinin Naxçıvanda Azərbaycana bağlı muxtar respublikanın yaradılması uğrunda aparılan mübarizələri də sənədli şəkildə oxuculara çatdırmışdır.

Türkiyə Tarix Qurumunun əməkdaşı, Ərzurum Atatürk Universitetinin dosenti İbrahim Ethem Atnurun Azərbaycan tarixinin öyrənilməsində, o cümlədən Naxçıvanın tarixinin yenidən yazılmasında mühüm tarixi mənbə kimi yüksək elmi dəyərə malik olan "Muxtariyyat ərəfəsində Naxçıvan" əsəri Türkiyədə muxtar respublikanı öyrənmək istəyənlər üçün əsas elmi mənbə kimi qəbul edilir. Əsərin "Muxtariyyat ərəfəsində Naxçıvan" adlanan ilk nəşri Azərbaycanda da Naxçıvan haqqında mövcud tədqiqatları tamamlayan və daha da zənginləşdirən mötəbər mənbələrdən birinə çevrilmişdir.

İbrahim Ethem Atnur Türkiyədə və Azərbaycanda tanınmış qafqazşünas alimlərdən biri kimi qəbul olunur. Onun qiymətli əlavələrdən sonra Azərbaycan oxucusuna yenidən təqdim edilən Naxçıvannaməsi tarixşünaslıq elminə sanballı elmi töhfədir.

Türkiyə-Azərbaycan elmi əlaqələrinin əhəmiyyətli səhifəsi olan, Türkiyədən, Anadoludan, Ərzurumdan baxanda özünəməxsus səviyyədə görünən Naxçıvanı orijinal biçimdə təqdim edən bu qiymətli əsər, eyni zamanda, Naxçıvan Dövlət Universitetinin qardaş Türkiyənin universitetləri və alimləri ilə səmərəli əməkdaşlığının daha bir nümunəsi sayıla bilər. İnanıram ki, həmin əməkdaşlıq bundan sonra daha da inkişaf etdiriləcək, elmimizin və ictimai fikrimizin qarşılıqlı şəkildə zənginləşməsi və yeniləşməsinə müsbət təsir göstərəcəkdir.

İbrahim Ethem Atnurun "Osmanlı idarəçiliyindən sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921)" monoqrafiyası Naxçıvanı daha dərindən öyrənmək və yaxından tanımaq istəyənlər üçün qiymətli elmi mənbədir.

**İSA HƏBİBBƏYLİ**
***AMEA-nın həqiqi üzvü***

# Q I S A L T M A L A R

A. - Arxiv
ABD - Amerika Birləşmiş Ştatları
AKP - Azərbaycan Kommunist Partiyası
ATASE - Hərbi Tarix və Strateji Etüd idarəsi Müdirliyi Arxivi
ATBD - Hərbi Tarix Sənədləri dərgisi
BEO - Osmanlı hökuməti arxivi
Bkz - bax.
BOA - Baş nazirlik Osmanlı arxivi
D - delo, iş
D. - dosya, sənəd
DH-KMS - Daxili İşlər Nazirliyi Dəftərxana Sənədləri
DH-ŞFR - Daxili İşlər Nazirliyi Şifr Şöbəsi
DH.İ/UM - Daxili İşlər Nazirliyi Ümumi İşlər Şöbəsi sənədləri
DOC. - dokument,sənəd
DUİT - Dosya Üsuli İradələr Təsnifi
F. - Fond
F. - Kataloq
GCZC - Gizli iclas protokol qeydiyyatı
Haz. - Hazırlayan
HR.HMŞ.İŞO. - Xarici İşlər Nazirliyi Osmanli Hüquq Müşavirliyi Məsləhətləşmə Bürosu
İA - İslam ensiklopediyası
İTA. - İslam Türk ensiklopediyası.
K - qovluq
L - siyahı
MDEYTA - Mərkəzi Dövlət Ən Yeni Tarix Arxivi
MVM - Vəkillər Məclisi ( Osmanlı dövründə Nazirlər kabineti) protokoları
NA - Milli arxiv
O. - siyahı
SSCB - Sovet Sosialist Respublikalar İttifaqı
TBMM - Türkiyə Böyük Millət Məclisi
USA - Amerika Birləşmiş Ştatları
Vol. - Həcm
Vs. - və sairə
ZC - Qeyd dəftəri

# G İ R İ Ş

Azərbaycan Respublikasına bağlı Naxçıvan Muxtar Respublikası şimal və şərqdə Ermənistanla (sərhədin uzunluğu 224 km), şimal-qərbdə Türkiyə ilə (sərhədin uzunluğu 11 km), cənub və qərbdə İranla (sərhədin uzunluğu 176 km) həmsərhəddir. Sahəsi 5.500 kv. km-dir.

Mərkəzi Naxçıvan şəhəri olan bu muxtar respublika 7 inzibati bölgəyə: Babək, Şərur, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək bölgələrinə bölünmüşdür. Muxtar respublikanın 4 böyük şəhəri, 2 böyük qəsəbəsi və 215 kəndi vardır. Son statistik məlumatlara əsasən Naxçıvan şəhərinin əhalisi 60.000, muxtar respublikanın əhalisi isə 300.000[1]-dən artıq olub, azərbaycanlılardan ibarətdir. Əhali əkinçiliklə, üzümçülük, meyvəçilik və baramaçılıqla məşğul olur.[2] Təbii sərvətlərdən çoxlu duz yataqları var.

Muxtar Respublikanın paytaxtı olan Naxçıvan şəhəri Qafqazın ən qədim yaşayış yerlərindən biridir. Son illərdə Naxçıvan və onun ətrafında aparılan arxeoloji qazıntılar zamanı müəyyənləşdirilmişdir ki, bu regionun Asiya, Elam, Asur və Midiya mədəniyyətləri ilə əlaqələri olmuşdur. Naxçıvanın 8 km şərqində, Naxçıvan çayının sol sahilində yerləşən Kültəpə kəndi burada qədim mədəniyyət mərkəzinin varlığını sübut edir.[3]

İlk dəfə coğrafiyaşünas Batlamyos Naşovaya (Naxçıvan) şəhərindən bəhs etmişdir. Bir çox tədqiqatçılar Naxçıvan (Naxçuan) adını Nəxi-cevan, "Nuhun ilk dayanacağı" yer olması barədə xalq inamı ilə bağlayırlar. Halbuki, bu adın-avan "yer, mahal" anlamında olması məlumdur. Qədim ərəb mənbələrində Naşava şəklində ifadə edilən Naxçıvan adı Səlcuq və İlhanlı dövrlərində isə Nakçuvan formasında işlənmişdir.[4] Övliya Çələbi göstərirdi ki, bu şəhərə "bəziləri Naxçıvan, bəziləri də Naxşevan deyirlər".[5]

Bizim eramızın III əsrində Sasani hakimiyyəti zamanında Naxçıvan tez-tez Sasani-Bizans döyüşlərinə səhnə olub, müxtəlif hakimiyyətlər altına keçirdi. Daim davam edən bu vuruşmaları İslam orduları sona çatdırdı. Naxçıvan xəlifə Həzrət Osmanın vaxtında Həbib Məsləmə tərəfindən 654-cü ildə fəth edildi. Xəlifə Müaviyə (661-680) dövründə isə Naxçıvan Əziz bəy Hətəm tərəfindən yenidən inşa olundu. Ərəb valilər bu şəhəri əsas hərbi və inzibati mərkəzlərdən birinə çevirmişdilər. Şəhərin ətrafındakı yaşayış

---

[1] Naxçıvan yaşayır, döyüşür. B., 1992, s. 2

[2] Sami Öngör, Coğrafiya lüğəti, İstanbul, 1961, s. 604

[3] Rauf Məmmədov. Naxçıvan şəhərinin tarixi oçerki. B.,1977, s. 14-15

[4] İslam Ensiklopediyası . (İE) c. IX, s. 34

[5] Övliya Çələbi. Məhmət Zilli İbn-i Dərviş, Övliya Çələbi səyahətnaməsi c. II, Dersaadet, 1314, s. 236

rayonlarına ərəb qəbilələri yerləşdirildi. Bu bölgədən Bizansa qarşı bir hərbi baza kimi istifadə olunurdu.[6]

Müsəlman şəhərinə çevrilən Naxçıvan təqribən 900-cü illərdə Bağratunilərin hakimiyyəti altına keçdi. Ancaq sacilər şəhəri geri aldılar və bura sonralar onlara tabe olan Ordubad əmirinin mülkü oldu.[7] XI əsrdə bu ərazilər səlcuqlular tərəfindən fəth edildi və Naxçıvan şəhəri sultan Alparslanın mühüm mərkəzi bölgələrindən birinə çevrildi. Səlcuqlu hakimiyyətinin zəifləməsi ilə əlaqədar Naxçıvanın Səlcuq imperatorluğunun qollarından olan Azərbaycan, Eldənizli (İldənizli) Atabəylərinin hökmranlığı altına keçdi. Eldəniz Atabəyləri Naxçıvana böyük əhəmiyyətli bir rayon kimi baxmış və buranı əsas bölgələrdən birinə çevirmişlər. Bu dövrdə iqtisadi həyatda mühüm bir inkişaf olduğu kimi, bölgədə türkçülüyün məhək daşları olan və günümüzə qədər gəlib çatan bir çox memarlıq abidələri də yaradılmışdır.

Növbə ilə monqolların və Teymurun dövründə bir çox istila və dağıntılara məruz qalan Naxçıvanda XVI əsrdə Səfəvilərin hakimiyyəti zamanı sakitlik yarandı. İqtisadi həyat sabitləşdi, sənətkarlıq inkişaf etdi. Dəmirçilik, zərgərlik, misgərlik, nəqqaşlıq, tökməçilik (qəlib düzəltmək) sahələri inkişaf edirdi.[8]

1554-cü ilin yayında "Naxçıvan səfəri" adlandırılan və şəxsən Osmanlı padşahı Qanuni Sultan Süleyman tərəfindən idarə edilən hərbi yürüş nəticəsində Naxçıvan Osmanlı ordusu tərəfindən dağıdılmış və III Murad (1578-1590) dövründə Osmanlıların əlinə keçmişdir. 1603-cü ildə Təbriz Səfəvilər tərəfindən geri alındığına görə Rəvan valisi tərəfindən Naxçıvan boşaldılmışdı. Naxçıvan bölgəsi IV Muradın (1623-1640) hakimiyyəti dövründə Osmanlı-İran müharibələri zamanı zərər görmüş,[9] Tabanı Yassı Məhəmməd Paşa tərəfindən fəth edilmiş və təkrarən Osmanlı üsul-idarəsi altına keçmişdir. Bundan sonra Naxçıvanda iqtisadiyyat və memarlıq sahələrində tərəqqi başlamışdır. Övliya Çələbi XVII əsrin ikinci yarısında bu şəhərdə torpaqla örtülmüş 10.200 ev, 70 cami (Osmanlı paşaların tikdirdikləri Cənabi Əhməd Paşa, Fərhad Paşa, Gözəl Əli Paşa, Cağaloğlu Xadim Cəfər Paşa məscidləri böyük ibadətxanalardır), 40 məscid, 20 karvansara, 7 hamam, 1000-ə qədər dükan olduğunu qeyd etmişdir.[10]

İranda Nadir şahın hakimiyyətə gəlməsi ilə Cənubi Azərbaycanda vəziyyət dəyişməyə başladı. Səfəvilərin zəifləməsi ilə əldən gedən ərazilər

---

[6] Rauf Məmmədov. "Naxçıvan tarixi" s. 34-37

[7] İslam Ensiklopediyası . (İE) c. IX, s.34

[8] Naxçıvan MSSR, B.,1975, s.7

[9] İslam Ensiklopediyası . (İE) c. IX, s.34.

[10] Övliya Çələbi. Səyahətnamə s. 236-237.

təkrar İranın əlinə keçdi (1746-cı il müqaviləsi). Nadir şah hakimiyyətini Dərbəndin şimalındakı Qızılyara qədər genişləndirdi. 1747-ci ildə Nadir şahın qətli ilə İranda yenidən anarxiya başladı. Ümumi qarışıqlıqdan istifadə edən Azərbaycan xanlıqları öz istiqlaliyyətlərini elan etdilər. Qacar Sülaləsi İranda öz nüfuzunu artırsa da, ancaq Azərbaycanın Arazdan cənubdakı hissəsini öz hakimiyyətinə tabe etmişdir. Qafqaz Azərbaycanı adlandırılan Arazdan yuxarıda yerləşən xanlıqlar isə müstəqil və yarımmüstəqilliklərini mühafizə etmişdilər.[11]

Müstəqilliyini qazanan Naxçıvan xanlığı: Naxçıvan, Şərur, Ordubad, Meğri, Qafan və Culfa rayonlarını əhatə edirdi. Digər Azərbaycan xanlıqları kimi, Naxçıvan xanlığı da Cənubi Qafqaza daxil olmaq istəyən ruslara qarşı amansız mübarizə aparırdılar. Birinci Rus-İran müharibəsi (1805-1813) zamanı Naxçıvan xanlığı rus qoşunları tərəfindən işğal edildi. Ancaq Gülüstan müqaviləsi ilə ruslar rayonu tərk etdilər.[12] 1826-cı ildə rusların İrəvan xanlığına hücumları başlandı, bu da İran-Rusiya arasında müharibənin yaranmasına şərait yaratdı. İran şahzadəsi Abbas Mirzə ordusu ilə Arazı keçdi, Naxçıvanda və İranda qanlı vuruşmalar başladı. Ruslara qarşı qəhrəmancasına mübarizə aparıldı. Ancaq Rusiyadan gələn kömək və səhra toplarının hər tərəfi dağıtması nəticəsində müvəffəqiyyətsizliklər başlandı. 7 iyun 1827-ci ildə Naxçıvan ruslar tərəfindən işğal edildi,[13] Abbas Mirzə geri çəkilməyə məcbur oldu. Onları təqib edən rus qoşunları Arazın cənubunda yerləşən Makunu, Xoyu, Səlması, eləcə də Qarabağ xanlıqlarını işğal edərək Təbrizə girdilər və nəhayət, 1828-ci ildə Türkmənçay müqaviləsini imzaladılar. Bu müqaviləyə görə Araz çayı və Talış dağları sərhəd hesab edilərək İrəvan və Naxçıvan xanlığı da Rusiyaya verilmişdir. Müqaviləyə görə İranda yaşayan bütün ermənilərə ruslar tərəfindən zəbt edilən torpaqlara köçmək hüququ verildiyindən, on minlərlə erməni İrəvan, Qarabağ və Naxçıvana köçmüşdü.[14]

Bu tarixdən etibarən Arazın şimalında yerləşən Azərbaycan xanlıqları Rus hakimiyyəti altına keçmişlər. Ancaq bu bütün xanlıqların inzibati cəhətdən rus rejiminə daxil olduğunu ifadə etmir. Gəncə ilə Bakıda 1804 və 1808-ci ildə rus hərbi idarəsi yaradıldığı halda, bu rejim digər xanlıqlarda uzun müddətdən sonra tətbiq olunmuşdu. Burada ya keçmiş xan nəsilləri iqtidara gətirilir və ya ruslar tərəfindən yeni xan təyin olunurdu.Qafqaz hərbi komandanlığının rus imperatorunun adından xanlıqlarla imzaladığı müqavilələrdə tabe olan xanların (vassal) səlahiyyətləri, imperatorluğa olan təəh-

[11] İslam Türk Ensiklopediyası (İ.T.E.) s. 715.
[12] Naxçıvan MSSR, B., 1975, s. 8
[13] Jon F.Baddeley Rusların Qafqazı işğal etməsi və Şeyx Şamil. (Tər.Sədat Özdən). İstanbul. s.176
[14] Jean Pier re Alem Y'Armenie. Paris. 1962. s.41.

hüdləri müəyyən edilmişdir. Bu sistem üzrə Naxçıvan xanlığı 1840-cı ilə qədər davam etdi.[15]

Rus işğalından sonra xanlıq (şəhər və 178 kənd) daxilində 30.323 nəfər yaşayırdı. Onun 11.341 nəfəri Ordubada və 52 kəndinə aid idi. 1896-cı ildə şəhərin əhalisi 7.433 nəfər, ətraf rayonda isə 121.365 nəfər var idi.[16]

1850-ci ildə Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək Naxçıvan, Gümrü, Yeni Bəyazit, Şərur-Dərələyəz qəzaları və Ordubad nahiyəsi daxil olmaqla İrəvan qubernatorluğu (valiliyi) yaradıldı.[17] Rusiyanın tərkibində olan Naxçıvanda bir sıra sahələrdə inkişaf var idi. Ancaq bütün Rusiyada olan həddindən çox vergilərin tətbiqi, torpaq məsələsi ilə əlaqədar ədalətsizliklər kimi narazılıqlar bu bölgədə hökm sürürdü. Belə bir şəraitdə Yaponiya tərəfindən məğlubiyyətə uğradılan Çar Rusiyasında 1905-ci il inqilabı baş verdi. Rusiyada qiyamlar, üsyanlar, daxili çəkişmələr gücləndi. Daxili sabitliyin pozulması Qafqazda da öz təsirini göstərdi. Xüsusilə türklər və ermənilər arasında qanlı hadisələr baş verdi. Bakıda baş verən hadisələr qısa bir müddətdən sonra bütün regiona yayıldı. Silahlanmağa başlamış Naxçıvan erməniləri türk əhalisinə qarşı düşmənçilik mövqeyi tuturdular. Belə ki, onlar 5 may 1905-ci ildə 3 cəhrilini yaralamış, 7 mayda isə tumbullu bir şəxsi öldürmüşdülər. Bununla əlaqədar İrəvan valisi Baranovski, İrəvan bələdiyyə rəisi Ağamalov və İrəvanda olan Naxçıvan bələdiyyə rəisi Cəfərqulu xan 8 mayda Naxçıvana gəldilər. Türk əhalisi ermənilərin onlara etdikləri zülmlərdən və tutduqları mövqedən şikayət etdilər. Ancaq hadisələrin qarşısının alınması üçün heç bir nəticə əldə olunmadı. 9 maydan etibarən hadisələr yenidən başladı.Ermənilər hücumlarını artırmışdılar. Onlar Naxçıvandakı müsəlman məhəllələrini atəşə tuturdular. Az da olsa türklər cavab verirdilər. Bu vuruşmalar 27 noyabra qədər davam etdi. Ara-bir tərəflər barışır, əl sıxır, ancaq bunlar uzun müddət davam etmir, hadisələr yenidən başlayırdı.

27 noyabrda bölgədəki kazaklarla ermənilərin əməkdaşlıq etməsi vəziyyəti dəyişdirdi. Xüsusilə rus kazakları tərəfindən türk əhalisi qətlə yetirilir, evlər, iş yerləri yandırılıb dağıdılırdı. Naxçıvan şəhərindəki müsəlman bazarı kazaklar tərəfindən yandırıldı. Türk əhalisinin onlara qarşı çıxacaq gücü yox idi.Vəziyyət bir müddət belə davam etdi və 1906-cı ildə[18] region mərkəzi hökumət tərəfindən nəzarət altına alındı.[19]

---

[15] İslam Türk Ensiklopediyası, c. 719.

[16] İslam Türk Ensiklopediyası, İX c., c. 35.

[17] Sonrakı illərdə Naxçıvana qarşı erməni iddialarında bu valilik ön plana çəkilirdi.

[18] 1906-cı ildə Gümrü-Şaxtaxtı-Naxçıvandan-Culfadan İrana gedən dəmiryolu çəkildi. Sergey İnisimov. Qafqaz bələdçisi. İstanbul. 1926, s. 271-272.

[19] Bu dövrdə Qafqazda, Naxçıvandakı hadisələrlə əlaqədar bax: M.S.Orbubadi Qanlı illər, 1905-1906-cı illərdə Qafqazda baş verən Erməni-Müsəlman davasının tarixi.

I dünya müharibəsi başlandıqda Naxçıvan bölgəsi çar Rusiyası ordusunun Qafqazda arxa cəbhə anbarlarından biri idi. Buna görə də bu bölgədə rus əsgər və zabitləri qaynaşır, öz hərəkətləri ilə xalqı narahat edirdilər.

1917-ci il inqilabını Qafqaz xalqları sevinclə qarşıladı. Ona görə ki, onlar bununla çar zülmündən azad olacaqlarına, ictimai islahatların keçirilməsinə, milli məsələnin həllinə, müharibənin gətirdiyi yoxsulluq və çətinliklərin aradan qaldırılmasına ümid edirdilər.[20]

Kerenski Müvəqqəti hökumət tərəfindən türk, gürcü və bir ermənidən ibarət xüsusi bir komitə ilə Qafqaza göndərildi. Milli müstəqillik istiqamətində Qafqazda fəaliyyəti ilə coşub parlayan bu Xüsusi Komitənin ömrü az oldu.[21] 1917-ci il Oktyabr bolşevik inqilabının şərtləri çərçivəsində 28 noyabr 1917-ci ildə Zaqafqaziya Komissarlığı yaradıldı.[22] Fevral və Oktyabr inqilablarından sonra Naxçıvanın da Qafqazdakı bu xüsusi idarəetməyə nisbətən tabe olduğu və hətta nümayəndəsinin də oraya daxil olduğu bəllidir.[23] Naxçıvanda, Şahtaxtıda olduğu kimi, bir sıra bolşevik idarələri yaradılmış, lakin rus əsgərləri regionu tamamilə tərk etdikdə bu idarələr də aradan qaldırılmışdı.[24]

---

[20] Сергей Афанасян. Y'Armenia Y'Azerbaidjan Et Ya Georgie de I'sndependance a'l. Tinstanration du pouvoir sovietique (1907-1923) Paris, 1981, s.25.

[21] Esat Uras. Tarixdə ermənilər və erməni məsələsi, İstanbul, 1987, s. 639.

[22] Документы и материалы по внешней политике Закафказия и Грузии, Тифлис, 1919, №6, с. 7-8

[23] Q. Mədətov. Naxçıvanda Sovet hakimiy. Qələbəsi və Naxçıvan MSSR-in təşkili, B.,1958, s. 14-33.

[24] Naxçıvan MSSR. s. 10.13

# I BÖLMƏ

## Şərq hərəkatı və türk ordusunun Qafqaza daxil olması

## A. Şərq hərəkatı

### I. Birinci Dünya müharibəsinin sonlarına yaxın Qafqaz cəbhəsi

Müttəfiq olduğu dövlətlərlə birlikdə 1914-cü ildə I Dünya müharibəsinə girən Osmanlı dövləti bir çox cəbhədə döyüşlər aparmaq məcburiyyətində qaldı. Osmanlı Ordusunun Qafqaz cəbhəsindəki Sarıqamış hücumu və Fələstin cəbhəsindəki Kanal hərəkatı məğlubiyyətlə nəticələndi. Xüsusilə soyuq qış aylarında (1914-cü ilin sonları) keçirilən Sarıqamış döyüşündə 3-cü ordu tamamilə dağıdıldı. 1916-cı ildə əks hücuma keçən ruslar qısa zamanda Van, Ərzurum, Muş, Bitlis, Trabzon və Ərzincanı işğal etdilər.

1916-1917-ci ilin qışında, o cümlədən fevral ayında türk-rus cəbhəsində kəşfiyyatdan başqa heç bir hadisə olmamışdır. Sanki heç müharibə baş verməmişdi. Soyuq və aclıqdan əziyyət çəkən Osmanlı ordusu 1917-ci ildə çox ağır vəziyyətdə idi. Həmin vaxt Rusiyada fevral inqilabı baş verdi (27 fevral\12 mart 1917). Bu inqilab Türkiyənin Rusiyaya yenidən məğlubiyyətinin qarşısını aldı. Fevral inqilabından sonra qərbdən başlayaraq rus cəbhələrində bir geri çəkilmə başlandı. Xüsusilə bolşeviklərin inqilabından sonra sovet hökumətinin heç bir torpaq iddiasında olmayıb şərtsiz sülh istəməsi Rus-Qafqaz cəbhəsində gözlənilməz bir parçalanma yaratdı. Parçalanma ilə bərabər, arxa cəbhədə milli hissələrin təşkilinə, erməni-gürcü hərbi hissələrinin birləşdirilməsinə başlanılmışdı. Rusiyanın hakim dairələri siyasi məqsədlərlə ermənilərdən ibarət bir çox hərbi dəstələr yaratmağa çalışırdılar. Qısa bir müddətdə ermənilərdən ibarət belə dəstələr yaradıldı. Rus və erməni zabitlərinin komandanlığı altında olan, rus silahları ilə silahlanmış bu birliklərin ruslara məxsus sahələrdə işə başlaması türk-müsəlman əhalisi üçün həqiqətən narahatçılıq yaradırdı.[1]

---

[1] Akdeş Nemət Kurat. Türkiyə və Rusiya. Ankara, 1990, c. 290-301, 331

## II. Ərzincan müqaviləsi

Rusiyada hakimiyyətə gələn bolşeviklər vədlərinə əməl etdiklərini göstərmək məqsədi ilə inqilabın səhərisi günü 26 oktyabr (8 noyabr) 1917-ci il tarixdə Sülh dekretini bəyan etdilər. Buna əsasən bütün müharibəyə girən dövlətlər müharibəni dayandırmalı, atəşkəsi təmin etməli, heç bir ərazi iddiasında olmamalı və hərbi təzminat (kontribusiya) ödəmədən ədalətli və demokratik bir sülh müqaviləsi bağlamalı idilər. Bolşeviklər ümumi bir sülh müqaviləsi bağlamaq istəyir və müttəfıqləri olan Antanta dövlətlərini də sülh müqaviləsi imzalamağa çağırırdılar. Ancaq bu dövlətlərin heç biri həmin çağırışa məhəl qoymayaraq, cavab vermədilər. Sülh dekretindən bir nəticə əldə edilmədi, sovet hökuməti bu dəfə müttəfiq dövlətlərinə müraciət etdi. 26 noyabr 1917-ci ildə rus nümayəndələri cəbhəni keçərək, Alman Ali Baş Komandanlığına müraciət etdilər. Rusların sülh tələbləri alman Şərq cəbhəsi komandanlığı tərəfindən qəbul olundu. Bu məqsədlə alman, Avstriya-Macarıstan, türk, bolqar hərbi attaşeləri ilə rus nümayəndələri Brest-Litovsk şəhərində qarşılıqlı razılığa gələrək 2 (15) dekabrda atəşkəs haqqında ümumi bir müqavilə imzaladılar və sülh danışıqlarına başlamağı qərara aldılar.[2]

Bu dövrdə Sovet hökumətinin Almaniya Ali Baş Komandanlığına bütün cəbhələrdə atəşkəs təklif etdiyini və rus ordusuna qarşılarında olan qoşun komandirləri ilə danışıqlar aparılması ilə bağlı əmr verildiyini öyrənən Ənvər Paşa vəziyyəti 3-cü Ordu komandiri Vəhib Paşaya təcili bildirdi. O, Qafqaz cəbhəsindəki rus baş komandanlığı ilə əlaqə yaradaraq atəşkəs təklifinin irəli sürülməsini tələb etdi. Ayrıca nəzərdə tutulan şərtlər bildirilməsini istədi.

Ənvər paşanın təlimatı ilə hərəkət edən III Ordu komandiri Vəhib Paşa rus ordusunun baş komandanlığına atəşkəs təklif etdi. Türkiyə tərəfindən verilən atəşkəs təklifinə Rus-Qafqaz Baş komandanlığının verəcəyi cavab gecikdi, buna baxmayaraq III Ordu komandanlığı atəşkəs təklifini və bu sahədəki fəaliyyətini davam etdirdi.[3] Türk ordusunun sülh təklifinə cavab rus baş komandanlığından deyil, Zaqafqaziya Komissarlığından[4] gəldi. Komissarlıq 21 noyabr (4 dekabr) 1917-ci il tarixdə 4 maddəlik bir qərarla türk ordusunun müraciətinin qəbul edildiyini və İngilis ordusuna zərər verməmək şərti ilə təcili Qafqaz Cəbhəsində hərbi əməliyyatların dayandırılması-

---

[2] Kurat. Türkiyədə və Rusiyada, s. 340-341

[3] Səlami Kılıc. Brest-Litovsk danışıqları və sülh (dok.dis. nəşr olunmamış) Ərzurum. 1995, s. 86-88. I Dünya müharibəsində Türk hərbi Qafqaz cəbhəsi. 3-cü ordu hərakatı. II c. Ankara 1993, s. 423-324

[4] Hökumət mənasında

nın vacib olduğunu bildirmişdi.[5] Zaqafqaziya komissarlığının sülh təklifi haqqındakı məktub Qafqaz Ordusu Baş komandiri general Perjevalski tərəfindən 22 noyabr (5 dekabr) 1917-ci ildə III Ordu komandiri Vəhib Paşaya göndərilmiş[6] və bu məktub 7 dekabr 1917-ci ildə türk ordusuna çatmışdı.[7]

Beləliklə, müxtəlif yazışmalardan sonra tərkibi müəyyənləşən Osmanlı və rus nümayəndələri rusların işğalı altında olan Ərzincan şəhərinə gəldilər. Türk heyəti III Ordu ştab rəisi polkovnik Ömər Lütfi bəyin sədrliyi ilə III Ordu Əməliyyat şöbəsi müdiri mayor Xosrov bəy və tərcüməçi kapitan Yaqub bəydən ibarət idi. Rus heyəti hərbi və mülki şəxslərdən təşkil olunmuşdur, sovet inqilabının xarakterinə uyğun idi. Heyətin rəhbəri Qafqaz Ordusu ştab rəisi general-mayor Vişinski idi. Heyətin digər üzvləri 156-cı Yelizavet piyada polk komandiri və köməkçisi, əsgər A.Simirnov, dosent V.Tevzaya və tərcüməçi kapitan Vedrinski idi. [8]

Danışıqların xeyli davam etməsinə ehtiyac qalmadı. 5(18) dekabr 1917-ci il tarixdə 14 maddəlik bir atəşkəs müqaviləsi imzalandı.[9]

Beləliklə, 29 oktyabr 1914-cü ildə tarixdə başlanan türk-rus müharibəsi sona çatdı.

---

[5] Документы и материалы по внешней политике Закафказия и Грузии, Тифлис, 1919, sənəd № 8, s. 11-12, Ronald Qriqor Suy Bakı komunçı (Rus dövründə millət və sinif) İstanbul, 1990, s. 195-196

[6] Документы и материалы, sən. № 10. s. 13

[7] Qafqaz cəbhəsi, II c.s. 425

[8] Kurat. Türkiyə və Rusiyada s. 332-333. Qafqaz cəbhəsi. II c. s. 425-426

[9]Atəşkəs haqqında bax. Baş ştab hərbi tarix və strateji etüd başkanlığı. Arxiv (ATASE) (Türkiyə Silahlı Kuvveleri Askeri Tarih ve Strateji Eğtim Bakanlığı arşivi). 4/3671. s.555.
F. 1,1-1, 1-2,1-3. ATASE 1-2, Kls 529, D 2069-354 F. 16-1, 16-2, 16-3

## III. Brest-Litovsk sülhü

15 dekabr tarixli atəşkəsdən sonra tərəflər sülh müqaviləsi üçün Brest-Litovskiyə toplandılar. 22 dekabr 1917-ci ildə başlayan və 3 mərhələdə davam edən Brest-Litovsk danışıqlarının I mərhələsində sülh şərtləri açıqlandı, qarşılıqlı olaraq tərəflərin fikirləri bildirildi. Sovet heyəti danışıqlarda əsasən ilhaqsız və təzminatsız sülh və millətlərə öz müqəddəratlarını özlərinin təyin etməsi hüququ prinsiplərinin qəbul olunmasını tələb etdi. İngiltərə və Fransa bu təklifi qəbul edərsə, Almaniya da buna razı olacağını bildirdi. İngiltərə və Fransanı konfransa dəvət etmək üçün danışıqlara on gün ara verildi.

9 yanvar 1918-ci ildə başlayan danışıqların II mərhələsində mübahisəli məsələlər ortaya çıxdı. İngiltərə və Fransa konfransda iştirak etməklə Rusiyanın sülh bağlamasına mane olmağa çalışırdılar. Ukraynanın müttəfiq dövlətlərindən ayrıca sülh istəməsi və Almaniya tərəfindən bunun qəbul edilməsi ruslar üçün bir zərbə idi. Rus heyətinin inqilabçı natiqləri isə bütün xəbərdarlıqlara baxmayaraq, əvvəlki səylərini davam etdirirdilər. Alman heyəti məsələni uzatmamağa qərar verdi. Rusiya heyətinə bir ultimatum verdi. Rus heyəti bu ultimatumu həddini aşmaq kimi qiymətləndirdiyindən danışıqların ikinci mərhələsində də bir nəticə əldə edilmədi.

Brest-Litovsk danışıqlarının III mərhələsi 29 yanvarda baş nazir Tələt Paşanın sədrliyi ilə açıldı. Ruslar əvvəlki mövqelərində durdular. Buna uyğun olaraq, müttəfiq dövlətlər Ukrayna ilə 9 fevralda müqavilə imzaladılar. Danışıqlar 10 fevralda Trotskinin dramatik çıxışı ilə bitdi. Alman komandanlığı 17 fevral 1918-ci il tarixdə ruslara hücum edəcəklərini bildirdilər. Almanlar hücuma 18 fevralda başladı və sürətlə irəlilədilər. Ruslar sülh bağlamaq istədikdə alman tərəfi ağır şərtlər irəli sürdü. Nəticədə ruslar almanların sülh şərtlərini qəbul etdilər. 28 fevralda danışıqlar yenidən başlandı. Ruslar hər təklifi qəbul etmək prinsipi ilə hərəkət edirdilər. Ancaq Kars, Ərdahan və Batuminin Türkiyəyə verilməsi maddəsi ultimatumda göstərilmədiyi üçün rusların ciddi etirazları ilə qarşılandı. Lakin son nəticədə onlar bunu da qəbul etməli oldular. Rusların etirazlarına baxmayaraq, 3 mart 1918-ci ildə Brest-Litovsk sülhü bağlandı.[10] Sülh müqaviləsinə əsasən müttəfiq dövlətləri ilə Rusiya arasında müharibə rəsmi olaraq sona çatdı. Brest-Litovsk sülh müqaviləsi Türkiyə üçün də əhəmiyyətli oldu. Belə ki, Türkiyə bununla yalnız I dünya müharibəsində itirdiyi torpaqları deyil, 1877-1878-ci ildə ruslara verdiyi Elviye Selaseni əldə etdi. Elviye Selasenin

[10] Brest-Litobsk danışıqları və sülh haqqında ətraflı məlumat üçün bax: Kılıc. Brest-Litovsk danışıqları və sülhü.

yenidən ana vətəninə verilərək Türkiyənin sərhədləri daxilində qalması böyük əhəmiyyət daşıyırdı.

Brest-Litovsk sülhünə uyğun olaraq, türk ordusu Bakıya, Naxçıvana və hətta Dağıstana irəliləyəcək və bununla bağlı müəyyən hadisələr baş verəcəkdi.[11]

[11] Kurat. Türkiyə və Rusiya s. 352

## IV. Türk irəli hərəkatı

Ərzincan atəşkəsi elan olunduqdan sonra cəbhəni tərk edən rus qoşunlarının yerini əsasən erməni dəstələri tuturdu. Daxili asayişi qorumaq bəhanəsi ilə "Erməni milis təşkilatı" yaradılmışdı. Yerli orqanlara rus yüksək hərbi dairələri tərəfindən erməni məmurlar təyin edilirdi. Bu yolla Brest-Litovsk sülhünə əsasən Şərqi Anadoludan rus qoşunları çıxarıldıqdan sonra bu rayonda bir erməni dövlətinin yaradılması üçün ciddi hazırlıq işlərinə başlanmışdı. Lenin və ətrafında olan erməni bolşeviklər elə planlaşdırmışdılar ki, rus əsgərləri də tamamilə çıxdıqdan sonra ermənilər idarə etməni ələ alsınlar və bu yerlərin yenidən türklərə qaytarılmasının qarşısı alınsın.[12]

Yeni rus rəhbərlərindən dəstək alan ermənilər müsəlman əhaliyə qarşı öldürmək, dağıtmaq əməliyyatlarına başladılar. O vaxtkı qarışıqlıqdan və rus qüvvələrinin geri çəkilməsindən istifadə edən kürdlərin erməni və xristian kəndlərinə etdikləri hücumlar bəhanə edilir. Ermənilər müsəlman kəndlərini dağıdır, əhalini öldürürdülər.[13] Buna görə də rus işğalı altında olan yerlərdəki türk-müsəlman əhalisinin mal və can təhlükəsizliyinə təminat yox idi. Erməni dəstələrinin və nizam-intizamsız rus əsgərlərinin bu hərəkətlərinin qarşısını alacaq bir rus hərbi qüvvəsi olmadığından belə bir şəraitdə türk əsgərlərinin hərəkətə keçməsi zəruri və haqlı idi.[14]

III Ordu komandiri Vəhib Paşanın ermənilərin müsəlman xalqına verdikləri zülmün qarşısını almaq üçün rus Ordu komandiri Odişelidzeyə göndərdiyi müraciət də bir nəticə vermədi.[15]

Bu vəziyyətdə, 10 fevral 1918-ci ildə Rusiyanın anlaşılmaz mövqeyi nəticəsində Brest-Litovsk danışıqları kəsildi. Almaniya 17 fevralda Rusiyaya hücum edəcəyini bildirdi. Ənvər Paşa da bu vəziyyətlə əlaqədar rus işğalı altında olan yerlərin azad edilməsini Vəhib Paşaya əmr etdi.

---

[12] Yeni sovet rəhbərliyinin ermənilər haqqında fikirlərini göstərən mühüm sənədlər: 31 dekabr 1917-ci ildə Stalin tərəfindən nəşr edilən Türk Ermənistanı ilə əlaqədar məlumat və 11 yanvar 1918-ci ildə çıxan erməni qərarnamələridir. Məlumatda ermənilərə məsələlərinin həllini sovetlər əsasında birləşən Yeni Rusiya içində axtarmaları yolunda çağırışlar edilməkdədir. İ.V.Stalin Əsərləri B., 1947, s.31-32. (Stalin bu əsəri Y.V.Stalin əsərləri adı ilə 1990-cı ildən etibarən İstanbulda nəşr olunmuşdur). Stefenos Yeranos. Millətlər və sərhədlər. Balkanlar Qafqaz və Orta Şərq (çevirəni Şirin Təpəli) İstanbul. 1994., s. 294. Qərarnamə isə Türkiyənin sərhədləri daxilində ermənilərin yaşadıqları bölgələrdəki rus ordularının geri çəkilməsini, mülki xalqın qorunması üçün bir erməni polis gücünün köçmüş ermənilərin yurdlarına qayıtmaqda müstəqil olmasını və başda Şaumyan olacağı bir daimi erməni xalq nümayəndələri soveti yaradılmasını irəli sürürdü. Документы внещней политики СССР, том 1, Москва 1952, док. № 43 с. 74-75. Геносид Армиян в Османской империи (Haz. M.G.Nersisyan), Yerevan, 1982, sənəd № 226. s. 491- 492. Yerasimov. Millətlər və sərhədlər s. 296

[13] Rayonda erməni zülmü haqqında bax: Hərbi tarix sənədləri. jurn., s. 81-85. Müsəlman əhalisinin düçar olduğu zülm haqqında. Sənədlərə əsasən məlumat. İstanbul. 1335\1919; I Qafqaz artilleriyasının 334-cü ildəki hərəkatı haqqında general Karbord sədrliyi ilə Amerika heyətinə təqdim edilən sənədlərin surəti. Ərzurum 1335\1919, Mayevski (rus generalı). Ermənilərin törətdikləri qətliamlar., (Tərcümə: Əzmi Süslü), Ankara, 1980

[14] Kurat. Türkiyə və Rusiya. s. 461-462

[15] Qafqaz cəbhəsi II c. s. 438

Türk piyadaları gözlənilməz bir anda - 12 fevral 1918-ci ildə hücuma keçdilər. Türk qoşunlarına müqavimət göstərilmirdi, qoşun irəliləyirdi. 13 fevralda Ərzincan və Mamaxatun (Tərcan) azad edildi. 19 fevralda V Qafqaz diviziyasına tabe olan hissələr Bayburta girdilər. II Qafqaz korpusu da gürcülərə doğru irəlilədi və beləliklə, fevralın sonunda Trabzon və Gümüşxana alındı. Türklərin qabağından qaçan ermənilər müsəlman əhalisinə çox zülmlər etmişdilər. Dağıdılan, yandırılan kənd və qəsəbələr çox idi. Uşaq, qadın, kişi – minlərlə insan öldürülmüşdü. Erməni orduları Ərzurum yaxınlığında türklərə müqavimət göstərmək istəsələr də, tab gətirmədilər və xeyli miqdarda itki verərək geri çəkildilər. 12 mart çərşənbə axşamı Ərzurum ermənilərdən təmizləndi. Cəbhənin ortasında türklər ciddi bir müqavimət görmədən mart ayının axırlarında 1914-cü ildəki türk-rus sərhədlərinə çatdılar.[16]

[16] V.E.D. Allen and Paul Muratoff, Caucasian Battletields, A. History of the wars On the Turcs-Cancasian Border 1828-1921, Cambiridge, 1953, s. 457-463. (Türkçesi için bak: V.E.D. Allen Paul Muratoff. Qafqaz hərəkatı 1918-1921. Türk-Qafqaz sərhədindəki döyüşlərin tarixi: Ankara 1966), Kurat. Türkiyə və Rusiya s. 461-467

## V. Trabzon konfransı (14 mart - 14 aprel 1918)

10 fevral 1918-ci ildə Brest-Litovsk danışıqlarının kəsilməsi və türk Ordusunun irəliləməsi ilə əlaqədar Zaqafqaziya komissarlığı Türkiyəyə sülh təklif etdi. Danışıqlar üçün Tiflis şəhəri təklif olundu.[17] Osmanlı hökuməti sülh təklifini müsbət qarşıladı[18] və Tiflisə heyət göndərilməsini məqsədəuyğun saydı.[19] Elə bu vaxtda 23 fevral 1918-ci ildə Tiflisdə Zaqafqaziya komissarlığının ilk yığıncağını keçirən Zaqafqaziya Seyminin[20] üzvləri sülh məsələsini müzakirə etmək üçün müştərək bir yığıncaq keçirdilər. Yığıncaqda, Türkiyə ilə danışıqlar üçün ən münasib yer Trabzon seçildi və nümayəndələrin 1918-ci il 2 mart axşamı Trabzona getmələri qərara alındı.[21] Qərar türk hökumətinə bildirildi.[22] 1 martda Türkiyə ilə bağlanacaq sülhün şərtləri müəyyənləşdirildi.[23] Ancaq 3 mart 1918-ci ildə Brest-Litovsk sülhünün imzalandığı və buna uyğun olaraq Kars, Ərdahan və Batuminin Türkiyəyə verilməsi xəbəri Tiflisə çatınca Qafqaz hökuməti buna qarşı etirazını bildirdi və sülh danışıqlarına başlayacaq heyətin səfəri dayandırıldı.

Türkiyə Brest-Litovskdə əldə etdiyi üstünlüyü itirmək istəmirdi. Buna görə də Zaqafqaziya hökumətinin bu siyasi müvəffəqiyyəti qəbul etməsi tələb olunurdu. 10 mart 1918-ci ildə Vəhib paşa Qafqaz Ordusu Baş komandanlığına bir teleqram göndərdi. Bu teleqramda Brest-Litovsk sülhünün imzalandığını, Kars, Ərdahan və Batuminin Türkiyəyə verildiyini bildirir və bu rayonun nə vaxt Türkiyəyə geri veriləcəyini soruşurdu.[24]

Türk hökumətinin ciddiliyini başa düşən Qafqaz hökuməti Türkiyə ilə sülh danışıqlarına başlamağa razı olduğunu və nümayəndələrinin Trabzona göndərildiyini bildirdi.[25] Türk hökuməti də nümayəndəsini Trabzona göndərdi. 14 mart 1918-ci ildə hər iki tərəfin nümayəndələri toplandılar. Türk heyətinə polkovnik Hüseyn Rauf bəy, Qafqaz heyətinə gürcü A.Y.Çxenkeli başçılıq edirdi.[26] Trabzon konfransı 14 mart 1918-ci ildə başlandı və fasilələrlə 14 aprel 1918-ci ilədək davam etdi. Türkiyə Brest-Litovsk sülh müqaviləsinin şərtlərinin qəbul edilməsini irəli sürür, ancaq

---

[17] ATASE A. 4-3671. Kls. 2921. D. 159-150. F.l-39
[18] Deputat zabit qaz. 11\.3, s. 442.
[19] ATASE A. 4 3671. Kls.2909. D 452-17. F.2-72.
[20] 23 fevral 1918-də Zaqafqaziya komissarlığının yaradılan məclisinə verilən addır.
[21] Документы и материалы. № 41, с. 62-66.
[22] Документы и материалы. № 42, с. 66-67.
[23] Документы и материалы. № 46, с. 83-84.
[24] ATASE A 4\3671 Kls. 2921, s. 159-510, F.-39.
[25] ATASE A 4\3671 Kls. 2921, s. 511, F. 1-93. f. 1-95
[26] Kurat. Türkiyə və Rusiya s. 467

Qafqaz heyəti isə həmin müqaviləni tanımaq istəmirdi.[27] Qafqaz heyəti üç bölgəni kompensasiya vermək istəmədiyi üçün H.Rauf bəy 6 apreldə Qafqaz heyətinə ultimatum mahiyyətində bir yazı göndərdi. Yazıda tələb olunurdu: Həm Brest-Litovsk sülh müqaviləsi Zaqafqaziya hökuməti tərəfindən tanınsın, Tür6kiyə ilə danışıqlarda iştirak etməsi üçün Zaqafqaziya respublikası özünün müstəqil bir dövlət olaraq Rusiyadan ayrıldığını qəti şəkildə elan etsin. Bunlar yerinə yetirildikdən sonra danışıqlara başlanacaqdır.[28] Ultimatumdan sonra Qafqaz heyəti sədri Çxenkeli Brest-Litovsk sülh müqaviləsini qəbul etdiklərini bildirdi, [29] ancaq bu da Tiflis tərəfindən təsdiqlənmədi [30] və Zaqafqaziya hökuməti Trabzondakı nümayəndələrini Tiflisə çağırdı.[31] Beləcə Trabzon konfransı bitdi. Bu haqda türk hökumətinə bildirildi.[32]

---

[27] ATASE A 4\3671 Kls. 2921, s. 511, F. 1-142
[28] Kurat. Türkiyə və Rusiya s. 472
[29] ATASE A 4\3671 Kls. 2918, s. 28-496, F. 1-204
[30] ATASE A 4\3671 Kls. 2918, F. 1-250
[31] Документы и материалы. sənəd № 84, c. 184
[32] ATASE A 4\3671 Kls. 29/8, D. 28-496. F. 1-252

## VI. Türk irəli hərəkatının davamı

Tiflisdə sülh ilə əlaqədar olaraq müzakirə və danışıqlar davam edərkən, III Ordu komandiri Vəhib paşa aldığı əmrlərə əsasən hərbi əməliyyatlara yenidən başladı.[33] 5-6 aprel gecəsi ermənilər Sarıqamışdan çıxaraq Yeni Səlimə doğru çəkilməyə başladılar. Ermənilər Yeni Səlim istiqamətində müqavimət göstərmək istəsələr də, 19 apreldə böyük məğlubiyyətə uğrayaraq, geri çəkildilər. Yeni Səlim vuruşmalarından sonra hər iki tərəfin orduları Qars ətrafında toplanmaqda idi. Bir sıra müvəffəqiyyətsiz atəşkəs danışıqlarından [34] sonra Türk ordusu 25 aprel 1918-ci ildə bir müqavimət görmədən Qarsa girdi.[35] Beləliklə, 18 noyabr 1877-ci ildə rusların əlinə keçmiş, 40 il 5 ay 25 gün düşmən əlində qalmış bu mühüm türk qalası ana vətənə qovuşdu. Bir neçə gün sonra isə türk qoşunları 1877-1878-ci il sərhədinə çatdılar. Hərbi əməliyyatların ən mühümlərindən biri də 1918-ci ilin 14 aprelində türk ordusunun Batumi şəhərini zəbt etməsi idi. Batumidə xeyli miqdarda hərbi təchizat və xüsusi ilə neft ehtiyatları qənimət kimi türklərin əlinə keçdi. Beləliklə, aprelin axırlarında üç rayon türk ordusu tərəfindən alındı.[36]

Elviyəyi-Selasedə ermənilərə qarşı aparılan hərbi əməliyyatlar müvəffəqiyyətlə davam edirdi. Cənubda, yəni Van, Bəyazid və İqdır rayonlarında IV korpus hazır vəziyyətdə idi. Van gölünün cənubundan hərəkətə başlayan türk hissələri şiddətli bir vuruşmadan sonra, 6 aprel 1918-ci ildə Vanı zəbt etdilər. Vandakı ermənilər Saray, Hoşab istiqamətində İran və Bəyazidə tərəf geri çəkildilər. Buna görə də türk hissələri Bəyazid və İqdır istiqamətinə yönəldilər. 14 aprel 1918-ci ildə Bəyazid ermənilərdən geri alındı. 1877-ci il sərhədlərindən o tərəfə gedə bilməyəcəklərinə görə İqdıra yönəldilmiş türk hərbi hissələri Bəyaziddə qaldılar .[37]

---

[33] Əməliyyat 4 aprel 1918-ci ildə başlamışdı. (ATAŞE A. 4-3671, K-2198, s. 28-496, f. 1-72. ATAŞE; A 4-3671. K. 2921. s. 511, f. 1-195)

[34] 22 apreldə istiqlaliyyətini elan edən Qafqaz hökuməti qurmağa səlahiyyət verən Çxenkeli türk hakim hərbi dairələrindən, Qars və Kutaisiyə doğru başlanan hərbi əməliyyatların dayandırılmasını və atəşkəs yaradılmasını tələb etmiş, buna cavab olaraq Ənvər Paşa III Ordu komandanlığına göndərdiyi 23 aprel tarixli teleqramda Qars əməliyyatı Qars şəhəri daxilində bütün materiallarla şərtsiz təslim edilərsə, dayandırılacağını, Kutaisi əməliyyatının isə Bakı-Vladiqafqaz və Naxçıvan istiqamətindəki dəmir yollarından türklərin istifadə etdikləri təqdirdə sona çatacağını bildirmişdi. (ATASE A 3671 K- 2917, səh. 493-302, f. 1-13)

[35] ATASE A 3671 K- 2917, səh. 493-302, f. 1-3, 1-5, 1-41, 148. Документы и материалы. Sənəd № 120, 121, 123, c. 251-255. I Qafqaz korpusunun 1918/1334 illərdəki hərəkatı. s. 6-7. Qarsı azad edən türk ordusu böyük bir vəhşiliklərlə qarşılaşmışdı. Şəhəri əsl sahibinə qaytarmağa məcbur olan ermənilər 100-ə qədər türk əsgərini, 50-ə qədər dinc əhalini öldürərək Qars çayına atmışlar. Kazım Qarabəkir. Şərqin qurtuluşu (Ərzincan və Ərzurumun qurtuluşu. Sarıkomış, Qars və s.). Ərzurum 1990, s. 481

[36] Kurat. Türkiyə və Rusiya s. 473

[37] Ali İhsan Sabis. Birinci Dünya müharibəsi IV c. İstanbul. 1991, s. 208; Qafqaz cəbhəsi II c. s. 491-506.

Türk ordusu əməliyyatlarını dayandırmışdı. Ermənilər isə boş durmurdular. Ermənilər Qafqazdakı müsəlmanları məhv etmək üçün fəaliyyətlərini gündən-günə genişləndirirdilər, müsəlman əhali isə türk ordusuna nümayəndələr göndərərək onları köməyə çağırırdı.[38] Ordu komandiri Nazarbekovdan qırğınların dayandırılması və türk əsirləri ilə yaxşı rəftar olunması tələb edilmiş, ancaq heç bir nəticə əldə edilməmişdir. Digər tərəfdən Şimali İran da əhəmiyyət daşıyırdı. İngilis qoşunları Xəzər dənizindən Ənzəli limanına gəlmişdilər. Rumiyədə ingilislər tərəfindən silahlandırılan xristianlar yanvar ayında qırğın törədərək müsəlman əhalini qırmışdılar.[39]

Sərhədə yaxın bölgələrdə vəziyyət belə olduğu vaxtda Türkiyə və Qafqaz heyətləri 11 may 1918-ci il tarixdə Batumidə sülh danışıqlarına başladılar. Ancaq Vəhib paşa nümayəndələrə bildirdi ki, Türkiyə hal- hazırda Qafqaz respublikaları ilə müharibə vəziyyətindədir. Qars, Ərdahan, Batumi rayonları müharibə hüququ qaydalarına uyğun alınmışdır. Qafqaz respublikası sülh istərsə, bu ancaq yeni şərtlər əsasında ola bilər. Bu şərtlər isə Axıska Axalkələk, Gümrü, Sürməli, Naxçıvan, Culfa kimi rayonların boşaldılması və bütün Qafqaz dəmiryollarından türklərin istifadə edə bilməsi idi. Bütün Qafqaz dəmir yollarından sərbəst istifadə etməklə Türkiyənin ikinci bir şərti də Türkiyə ilə Azərbaycan arasında (Batumi-Bakı) dəmiryolunun inşası idi ki, Bakı ilə əlaqədar planlanan əməliyyatı asanlaşdıracaqdı. Xüsusilə Şimali İranda aparılan hərbi əməliyyatlar üçün də Qars-Gümrü-Naxçıvan-Təbriz dəmiryolu çox əhəmiyyətli idi.

Qafqaz hökuməti Türkiyə tərəfindən istənilən yerləri tərk etmək və digər şərtlər üzərində inad etməyin heç əhəmiyyəti olmayacağını bildiyi üçün qərarını açıqladı. Ancaq İrəvanda ermənilər bu qərara tabe olmayanda türklər də atəşkəsi ləğv etdilər.[40] Qafqaz cəbhəsindəki türk komandirinin niyyəti aydın idi: Gümrü-Culfa-Təbriz dəmiryolundan təcili istifadə etmək, ingilis nüfuzunun qarşısını almaq üçün Təbrizə qoşun göndərmək. Elə bu vaxtlarda qabaqcıl birliklərdən Maku və Xoyda olan IV korpusdan bir diviziyanın Təbrizə göndərilməsi qərara alınmışdı. Ancaq I Qafqaz korpus komandiri Kazım Qarabəkir türk ordusunun qarşısında olan erməniləri bitərəf etmədən Təbrizə qoşun göndərməmək fikrində idi.

Ordu komandanlığı İrandakı vəziyyətlə əlaqədar Gümrü-Culfa dəmiryolunu təcili ələ keçirmək, ermənilərin zülmü altında məhv olmaq təhlükəsinə məhkum olan müsəlmanlara yardım etmək, hər gün müxtəlif səbəblər üzündən ölən əsirlərimizi qurtarmaq, ordumuzda nizam-intizamı möhkəmlətmək, yəni bu anarxiyanı aradan qaldırmaq üçün hərbi hissələrə

[38] ATASE A 1\4 Kls- 536, D 26-163, f 3; ATASE A 1\4 Kls- 536, D 26-163, F 5;

[39] Fəxri Bələn. I dünya müharibəsində türk hərbi 1918-ci il əməliyyatı. V c. Ankara 1967 s. 160-161.

[40] Josef Pomiankovski. Osmanlı imperatorluğunun süqutu. İstanbul. 1990, s. 321-322

15 may 1918-ci il tarixdə saat 02. 00-da Arpaçayının şərqinə keçmək əmrini verdi.[41]

1918-ci il 15 may səhəri türk hərbi hissələri Arpaçayından şərqə doğru hərəkətə başladılar. Gümrü qalasında olan ermənilərin ciddi müqavimət göstərmələrinə baxmayaraq, türk qoşunları Gümrüyə girdilər.[42] Özlərini itirən ermənilər Dilicana doğru çəkilməyə başladılar. Qarsda olduğu kimi, əsas ağırlıq türklərin üzərinə düşdü. Türk qoşunları Gümrünü almaqla Tiflis-Culfa xəttini birləşdirən çox mühüm əhəmiyyətə malik yol qovşağını nəzarət altına ala bildilər.[43]

Ənvər paşa Gümrüdən sonra əməliyyatları Şərq istiqamətində davam etdirməyi qərara almışdı. Bunun üçün Qars-İrəvan-Tiflis-Gəncə kimi mühüm mövqelər arasında olan əsas strateji yolların birləşdiyi yerdə yerləşən Qarakilsənin alınması lazım idi. Ordu komandanlığı 1918-ci il 26 mayda II Qafqaz diviziyasına Qarakilsəyə hücum əmrini verdi. 26 mayda Sərdarabad stansiyası yaxınlığında Zihni bəy hərbi hissəsinə ermənilər hücum etdilər. Hücumun qarşısı alındı. I Qafqaz korpusunun sağ tərəfindəki 36-cı Qafqaz diviziyası Başarabanı aldı.

Qarakilsəni tutmaq əmri ilə hərəkət edən II Qafqaz diviziyasına Andranikin komandirlik etdiyi erməni qüvvələri hücum etdi. II Qafqaz diviziyası Xanaqara-Arcud xəttinə doğru geri çəkilməyə məcbur oldu. Ancaq korpusun digər diviziyalarının köməyi ilə II Qafqaz diviziyası ermənilərin üzərinə yenidən hücuma keçdi. Ancaq deyilən vaxtda Qarakilsə zəbt edilmədiyindən bu vəzifə polkovnik Kazım bəyə tapşırıldı. 28 may 1918-ci ildə edilən hücum zamanı, günorta vaxtı Qarakilsə ələ keçirildi.[44] Məğlub olan erməni hissələri İrəvana doğru geri çəkilirdilər.[45]

Bəyazid və Kağızmandan keçən türk hərbi hissələri Araz boyu irəliləyir, Sürməli çuxuruna çatırlar. İqdırın qarşısında olan Sərdarabad yaxınlığındakı vuruşmada general Nazarbekovun hissələri məğlub edildi. 1918-ci ilin 20 mayında isə, 1827-ci ildə ruslara verilən İqdır anayurduna qovuşdu.[46] Bölgədə türklərin qələbəsi nəticəsində nizamlı erməni hissələri arasında parçalanma baş verdi, ermənilər partizan hərəkatına başladılar. Buna görə də

---

[41] Qafqaz cəbhəsi. II c. s. 508-509

[42] Ermənilər Gümrüdə (Aleksandropol) qəflətən tutulduqlarını bildirdilər. İ.V.Stalin. Əsərləri IV c. İstanbul, 1990, s. 100

[43] Allen and Muratoff Caucasian Battlefields. s. 471-472

[44] Qafqaz cəbhəsi. II c., s. 514-519

[45] A. Podebard, Role Militaire Des Armeniens Sur Ze Front du Caucase Apres Za Defection De Z'arme Russe (December 1917, November 1918), Paris 1920, 122

[46] Allen and Muratoff. Caucasian. Battlefields, s. 478. Nizaməddin Onk. Qafqaz səfərimiz 1918, Bakının alınması və milli meyxana. İstanbul 1977, s. 8-9

Gümrü istiqamətində və Naxçıvan ətrafında irəliləyən türk hərbi hissələrinə qarşı ancaq erməni könüllüləri müqavimət göstərməkdə davam edirdilər.[47]

I Qafqaz korpusu Gümrü-Sərdarabad xəttindən aşağıya doğru irəliləyərkən IV Qafqaz korpusu da şimali-qərbi İranda Rumiyə, Səlmas, Dilman ətrafında hərəkətdə idi. Korpusun məqsədi burada ingilislərlə əməkdaşlıq edən erməni və Nəsturi dəstələrini zərərsizləşdirmək idi.[48]

---

[47] Firuz Kazımzadeh. The struggle For Transcaucasia (1917-1921), New York, 1951, s. 124

[48] Qafqaz Cəbhəsi. II c. s. 511-514

## VII. Batumi konfransında (11 may-4 iyun 1918) Naxçıvan məsələsi

Trabzon konfransı dağıldıqdan sonra Türk irəli hərəkatının təzyiqi ilə Zaqafqaziyada bir sıra siyasi dəyişikliklər baş verdi. Dəyişikliklərin ən mühümü, şübhəsiz ki, 22 aprel 1918-ci ildə Zaqafqaziya hökumətinin özünü müstəqil respublika elan etməsi oldu. Bu hökumətə başçı türk tərəfdarı sayılan Çxenkeli seçildi.[49] Zaqafqaziya respublikasının müstəqilliyi, türk ordu komandanlığı tərəfindən tanındı və Tiflisin istəyi ilə sülh danışıqlarının keçiriləcəyi yer kimi Batumi müəyyənləşdi (28 may 1918).[50]

Türk tərəfinin sülh danışıqlarına razılıq verməsinin ən mühüm səbəbi, şübhəsiz, Yeni Zaqafqaziya hökumətinin Brest-Litovsk müqaviləsini tanıması idi.[51]

Batumidə türk heyətinin sədri Xəlil bəy idi (ədliyyə naziri, xarici işlər nazirinin vəkili), Xəlil bəyin hərbi müşaviri isə III Ordu komandiri Fariq Vəhib paşa idi. 45 nəfər üzvlə Batumiyə gələn Zaqafqaziya hökumətinə isə, baş nazir və xarici işlər naziri Çxenkeli başçılıq edirdi. Batumi konfransının ilk və son iclası 11 may 1918-ci ildə keçirildi. Xəlil bəy (türk tərcüməçisi Orxon bəy tərəfindən fransız dilinə tərcümə olunurdu) açıq nitq söylədi. Müstəqilliyi təzəcə elan edilmiş Şimali Qafqaz Respublikasının nümayəndəsi Heydər Bammatın konfransa qəbul edilməsini türk heyəti təklif etdi. Heç kim etiraz etmədi.[52] Ancaq türklərin şərtləri oxunanda Zaqafqaziya heyəti rəngdən-rəngə düşdü. Bu məsələ ilə əlaqədar Məmməd Əmin Rəsulzadənin əsərinə müraciət edə bilərik: “Batumidə danışıqlar başladı. Çxenkeli Trabzondakı türklərin tələblərinin artmayacağına ümid edirdi, həqiqətdə isə təsəvvür etdiyi kimi olmadı. Batumi və Qarsda tökülən türk qanına görə İstanbul hökuməti qan bahası olaraq, bir neçə yeni ərazini tələb edirdi.[53] Axıska, Axılkələk, Aleksandropol, Sürməli və Naxçıvan qəzaları bu

---

[49] Д.С.Завриев, К.Новейщей. Истории Северо-Восточный вилайетов Турции. 1947 с. 54,Тифлис

[50] З. Авалов. Независимость Грузии в международной политике. Парис 1924, с.33

[51] Tofiq Bıyıqoğlu. Osmanlı və türk. Şərq hüdud siyasəti. İstanbul. 1958. s.17

[52] Kazımzadeh Firuz. Transkafkasya. s. 109

[53] Ənvər Paşa. Zaqafqaziya heyətindən tələb edilən rayon və sərhəd xətti 4-5 mayda Vəhib paşaya bildirmişdir. Vəhib paşa da Xəlil paşaya 10 may 1918-ci ildə bildirmişdi. (ATASE A.3671. Kls. 29.12. D.61. 40.9), F-3-2, 3-4, 3-5.

şərtlərə daxil idi.[54] Zaqafqaziya cümhuriyyəti sülh istəyirsə, bu ancaq yeni şərtlər əsasında ola bilərdi.[55] Türk heyətinin bu tələblərinin hüquqi əsası var idi. Belə ki, əhalisi əsas etibarı ilə müsəlman gürcülərdən (acarlar) və türklərdən ibarət olan əhali 26 fevral 1918-ci ildə qəbul etdikləri ümumi bir qərarla Türkiyəyə birləşmək istədiklərini bildirmişdilər.[56] Türk şərtlərində göstərilən İrəvan vilayətinin müsəlman rayonlarının əhalisi isə İrəvan-Müsəlman Milli Komitəsi yaratmışdılar. Bu komitənin nüfuzlu şəxsləri türk Ordusundan yardım istəyirdilər. Erməni zülmündən bezmiş bu yerlərin əhalisi Türkiyə himayəsini tələb edərək bu Batumi danışıqlarında öz məsələlərinin müzakirəyə salınmasını xahiş edirdilər.[57]

Zaqafqaziya heyəti iki hissəyə bölünmüşdü: türklərin tələblərini qəbul etmək, bu tələbləri rədd etmək. Müzakirələr davam edərkən türk ordusu Gümrüyə doğru irəliləyirdi.[58] Heyətlər arası danışıqlar uzanır heç bir nəticə əldə edilmirdi.

---

[54] M.Ə. Rəsulzadə Azərbaycan Cümhuriyyəti keyfiyyəti, təşəkkülü və indiki vəziyyət. İstanbul. 1339-1341. Bihle görə Batumidə Türkiyənin tələb etdiyi bölgələrin sahəsi və əhalisi belə idi:

| | **Sahə** | **Müsəlman** | **Erməni** | **Gürcülər** | **Rum** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Axıska | 2300 | 50000 | 25000 | 12000 | - | 87000 |
| Axılkələk | 2800 | 8000 | 82500 | 7000 | - | 97000 |
| Zalka | 500 | - | 10000 | - | - | 10000 |
| Gümrü | 1800 | 3000 | 150000 | - | - | 153000 |
| Eçmiədzin | 2300 | 35000 | 55000 | - | - | 90000 |
| Sürməli | 3500 | 50000 | 95000 | - | - | 100000 |
| İrəvan-Gernibaser | 500 | 30000 | 40000 | - | - | 70000 |
| Şərur-Vedibasar | 2300 | 78000 | 13000 | - | - | 91000 |
| Naxçıvan | 4400 | 78000 | 58000 | - | - | 135000 |

**QEYD**: (WolfdieterBihl, Die Kaukasus-politik der Mittelmache, Teill II, Die-Zeit der Versuchten Kaukasischen Statlichke it (1917-1918), Köln, 1992, s.308). Statistikanın bir səhvi var. Türkiyə Eçmiədzin bölgəsini tələb etməmişdir.

[55] Pomianovski. Osmanlı imperatorluğu süqutu. s. 321

[56] Документы и материалы. № 160., с. 310-312. A.L.Stavorovski. Загафгазия после Октября. Москва, 1925... 84-85.

[57] ATASE A. 1\4 Kls- 536, D 163-26, f 3; A. Hacıyev, Qars və Araz – Türk Respublikalarının tarixindən, B. 1994, s. 45-46. ATASE A 1\4 Kls- 536, D 163-26, f 5; C.B. Quliyev, G.E.Mədətov, A.A. Надимов.

[58] F. Kazımzadeh, Transqafqaziya, s.110

Türk heyəti nüfuzunu göstərdi[59]. İlk əvvəl Qafqaz heyətindən sülhün davamlı və əsaslı olması üçün konfederasiya təşkil edən hər üç millətin bir-bir müstəqil dövlətə çevrilmələri tələb edildi.[60] İkinci, 26 may 1918-ci ildə Xəlil bəy Qafqaz heyətinə 72 saat müddətinə bir ultimatum verdi. Ultimatumda 11 mayda tələb edilən şərtlər ifadə olunurdu: Naxçıvan, Şərur, Gümrü, Sürməli, Axıska, Axılkələk Türkiyəyə verilməli[61] və Zaqafqaziya dəmir yollarından türk ordusunun heç bir şərt olmadan istifadə etməsi.[62]

Konfransda heyətlər arasında danışıqlar davam etdiyi bir vaxtda bir sıra siyasi hadisələr baş verdi. Almaniyadan dəstək alan gürcülər müstəqilliyini elan etmək istəyirdilər. Ancaq müstəqilliyini elan etmək üçün Zaqafqaziya federasiyasını dağıtmaq lazım idi. Türk ultimatumunun verildiyi gün–26 mayda Zaqafqaziya seymi son iclasını keçirdi və dağılma qərarını verdi.[63] Bir neçə saat sonra Gürcüstanın müstəqilliyi elan edildi. 27 mayda Seymin müsəlman bölməsi (fraksiyası) müstəqil Azərbaycan respublikasını yaratmağı qərara aldı və 28 mayda Oriental mehmanxanasında Azərbaycanın müstəqilliyini elan etdilər.[64]

Beləliklə, Qafqazda siyasi tərəqqi və vəziyyəti, Rusiyanm mənfi rəyi, Almaniyanın qarşı çıxmaq təşəbbüsü nəzərə almmazsa, Türkiyənin istədiyi kimi oldu.

4 iyun 1918-ci ildə Batumidə bu müstəqil dövlətlərin hər biri ilə Gürcüstanla,[65] Ermənistanla,[66] və Azərbaycanla,[67] Batumidə 4 iyun 1918-ci ildə ayrı-ayrı sülh müqaviləsi imzalandı. Bu müqavilələrə görə Batumi,

---

[59] Bu iclasda Vəhib paşa Türkiyənin tələbini ermənilərə belə açıqlamışdı: Tale Türkiyəni Şərqə aparır. Balkanları, Afrikanı tərk etdik Şərqə doğru getməliyik. Qardaşlarımız Bakıda, Dağıstanda, Türküstanda və Azərbaycandadır. Bu bölgələrə yolumuz olmalıdır. Siz ermənilər yolumuzda durursunuz. Vanı tələb etməklə İrana olan yolumuzu, Naxçıvanı və Zəngəzuru istəməklə Kür vadisinə olan yolumuzu bağlayırsınız. Kənara çəkilib bizə yol verməlisiniz. Ordumuzun irəliləməsi və özünü müdafiə etmək üçün iki ana yola ehtiyacımız var. Bunlardan biri Gəncəyə gedən Qars-Axılkələk-Borçalı-Qazax, digəri isə Kür vadisinə gedən Şərur-Naxçıvan-Zəngəzur. Siz Eçmiədzin və Yeni Bəyazid arasında qalmalısınız. (R.6 Hovannisiyan Armenia of the Road inderpendence 1918, Los Angeles, 1967, s. 195).

[60] Kurat. Türkiyə və Rusiya.

[61] Türkiyə şərtlərində bu gün Naxçıvan MR-ə aid Ordubad daxil edilmişdir. (A.B.Кадышев. Интервен цмя и гражданская война в Закафказы. Москва 1960. с. 58-59. Bihl Die Kaukasus Politik. s.59. Verner Zurrer. Kaukasien. (1918-1921) Duselldort. 1978, s. 75-76).

[62] Kazimzadeh. Transcaucasia, s. 116, Абалов. Независимость Грузии с. 61. Hovannisiyan Armenia 1918, s. 182. Xəlil bəyin 26 may tarixli ultimatumunun digər bir şərhi ermənilərin Naxçıvan bölgəsini tərk etməyə məcbur olduğunu göstərir. (Bihl, Die Kaukasus Politik, s. 39, 238).

[63] Документы и материалы. s.№162, s. 330

[64] Jean Pierre Alem. L'Armenie. Paris 1962, s. 64-65. Hovannisiyan, Armenia 1918, s. 191; Sergei Afanoşyan L'Armenie, L'Azerbaidjan Et La Georgie de l'Noderpendence a l'instauration du Pouvoir Sovietique (1917-1923), Paris, 1981, s. 57

[65] Osmanlı arxivi (BOA), HR. HMŞ, İSO. (Xarici İşlər Nazirliyi, Babi-Ali Hüquq Müşavirliyi Məsləhət şöbə Təsnifi. ATASE A.4\6520, Kls 3190, D-62, F-1-1,2 1s. Документы и материалы. № 172., с. 343-349)

[66] BOA HR. HMŞ. 107\11; ATAŞE. A.4. \ 6320 Kls. 3190 D. 62, F, 5-1, 5-2, 5-3, 6-1, 6-2, 6-3, 6-4. Le Transcaucasie Et La Respubligue D'Armenie Dans Les Tektes Diplomatiques Du Traite De Brest-Litovsk Au Traite De Kars 1918-1920. Revue Des Etudes Armeniennes, IV c. Fascicule. Paris 1924, 137-50.

[67] ATASE A. 4. 3671. Kls. 2917, D. 302. F.1-173, 1-174 BOA .HR.HMŞ.IŞO.107/7

Axıska, Axılkələk və Sürməli Türkiyəyə verilərək 1828-ci il sərhədinə çatdırıldı. Ancaq Gümrü, Şərur və Naxçıvan da sərhədləri daxilinə əlavə edildiyindən 1828-ci ildəki sərhədini keçmişdir. Gümrü-Culfa dəmiryolu tamamilə Osmanlı dövlətinin nəzarəti altında idi. Batumidə imzalanan müqavilələrin ən mühümü Azərbaycan və Şimali Qafqaz ilə [68] (8-iyun 1918) bağlanan müqavilələrdir. Həmin müqavilələr əsasında Osmanlı Dövləti bu iki dövlətin qoruyucusu olmuşdu. Bu himayədarlıq istismarçılıq mənasında deyil, soykökünə və dinə əsaslanan hərbi və siyasi mənada kömək, dəstək idi.

Osmanlı dövləti imzaladığı müqaviləyə əsasən Azərbaycanla sərhədi müəyyənləşdirmişdi. Brest-Litovsk müqaviləsindən əlavə Axılkələkdən Naxçıvana qədər 12.421 $km^2$ sahəsi və 655.000 əhalisi olan bir rayonu da əldə etmişdir.[69] Belə bir vəziyyətdə isə Ermənistanın ərazisi 400.000 nəfərin yaşadığı iki qəzadan – İrəvan və Eçmiədzindən ibarət olmuşdur.[70]

Batumi müqaviləsinin ikinci maddəsində Naxçıvan bölgəsində Türkiyə Ermənistan və Azərbaycan sərhədi belə müəyyənləşdirilmişdi: Başqıran dəmiryolu xəttinə qədər məsafəni qət edir. Qarabağlar kəndinin bir km qərbindən Şaablı, Qaraxaç, Aşağı Çanaqçıdan keçərək Jelpinçaya gəlir və bu çay boyunca Qayalı və Qayd çayından Arpaya, Arpadan sonra sərhəd şərq istiqamətində Arpaçay boyunca Ağdaban dağının zirvəsinə uzanır. Bundan sonra sərhəd Qaradurna, Aracin, Qaranlıq dağlarına, Relyan çayı vadisinə gəlir və bu çay yatağından Azanın cənubunda Əlincədən keçmiş rus-İran sərhədinə çatır.

Batumi müqaviləsindən sonra Türkiyə və Qafqaz respublikaları arasında əlaqələri daha da möhkəmlətmək məqsədi ilə İstanbulda bir konfrans keçirilməsi qərarlaşdırılmışdır. Bununla əlaqədar Qafqaz nümayəndələri İstanbula gəlir. İstanbulda erməni heyəti bir tərəfdən Naxçıvan, Zəngəzur, Sürməli, Axılkələk, Borçalı, Qazax kimi yerlərin Ermənistana məxsusluğunu xəritədə göstərib təbliğat aparır,[71] digər tərəfdən Osmanlı dövlətindən yardım gözlədiklərini bildirir.[72] İstanbulda bu konfrans keçirilmədisə də, Türkiyə Qafqaz dövlətləri ilə sıx əlaqə saxladı. Siyasi və hərbi əlaqələri inkişaf etdirmək məqsədi ilə Türkiyə bu dövlətlərə nümayəndələr təyin etdi. Gürcüstana keçmiş XII korpus komandiri Mirliva Əbdülkərim, Ermənistana keçmiş I korpus komandiri Fəriq Məmmədəli, Azərbaycana Qafqaz İslam

---

[68] BOA HR. HMŞ. 107110

[69] Zürrer Kaukasion. s. 521. Osmanlı dövlətinin əldə etdiyi bu ərazi gəlirləri haqqında İstanbul mətbuatında məlumat çıxmışdır. (Ati 12 iyun 1334. 1918 № 163. Tallin 26 iyun 1334, 1918; № 3429). Bilh əsərində sahəni və əhalisini çox göstərmişdir. Yuxarıda qeyd etdiyimiz kimi Türkiyə şərtlərində qeyd olunmayan Eçmiədzin bu statistikada var. (Bilh Die Kaukasus Politik s. 308)

[70] Kurko-Kryajin Арманский вопрос. B.1990., 11

[71] Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. B. 1990. s.49-50

[72] Təsviri Əfkar. 22 iyun 1918, № 2493

Ordusu komandiri Nuri, Şimali Qafqaza keçmiş Çanakkala qrup komandiri Yusif İzzət paşa təyin edildi.[73]

## B. Naxçıvanda türk idarəsinin yaradılması

### I. Naxçıvan türk ordusunun gəlişinə qədər

Rusiyada fevral inqilabı nəticəsində Kerenskinin sədrliyi ilə müvəqqəti bir hökumət yaradılmışdı. Müvəqqəti hökumət çar hakimiyyətinin yerinə keçmək və möhkəmlənmək üçün Petroqraddakı deputatlardan xüsusi bir Zaqafqaziya komitəsi (OZAKOM – Osobıy Zakafkazskiy Komitet) təşkil etdi və Tiflisə göndərdi.[74] Xüsusi Zaqafqaziya komitəsi Tiflisə gələr-gəlməz himayəsi altında olan rayonlara öz nümayəndələrini göndərir, bir sıra inzibati tədbirlər görməyə başlayır. Bu məqsədlə Naxçıvana və Şərur qəzalarına da nümayəndələr göndərildi. Komitənin Naxçıvandakı nümayəndəsi Burhan bəy Mahsudbəyov, Ordubad nümayəndəsi isə Bendukidze idi.

1917-ci ilin may ayında Naxçıvanda müvəqqəti hökumətin prinsiplərinə uyğun bir sıra inzibati qaydalar qoyulmağa başlandı və bu iş demək olar ki, 2-3 aya qədər davam etdi. Komitənin səlahiyyətli şəxsləri işləri yenə xan, bəy və s. nüfuzlu şəxslərlə bərabər icra edirdilər. Xalq bundan narazı idi. Xalqa hələ də Çar dövründəki kimi yanaşılır, ən kiçik hadisələrə böyük cəzalar verilirdi. Əhalinin bir hissəsi onlara qarşı edilən haqsızlıqları xüsusi Zaqafqaziya Komitəsinə və onun İrəvandakı komissarına bildirirsə də, vəziyyətdə dəyişiklik olmurdu. Bunun nəticəsində də anarxiya yaranmağa başladı. Bəzi adamlar isə inzibati və nüfuzlu şəxslərə qarşı çıxır, onlara hücum edirdilər. Rəhbərlər komitədən bu hadisələrin qarşısını almaq üçün qüvvə istəyir, əhalinin bir qismi isə təcili bu rəhbərlərin dəyişdirilməsini tələb edirdilər.[75]

Bölgədə bu narazılıqların yaranmasının bir səbəbi də ideoloji cərəyanlar idi. Hələ rus əsgər və məmurları getmədiyindən bolşevik fikirlər insanlar arasında yayılmağa başlamışdı. Belə ki, insanların çox olduğu stansiya yerlərində, bolşevik ideyalar möhkəmlənmiş və Şahtaxtı dəmiryolu stansiyasında "Əsgər sovetləri" təşkil edilmişdi.[76] Xalqın böyük əksəriyyəti bu siyasi hadisələrlə əlaqəli deyildi.

---

[73] ATASE A. 6. 5669. Kls. 4844. D.293, f. 11-1

[74] Vassal Qiray. Qafqaz rus mübarizəsi. İst. 1967. s. 75. Kurat. Türkiyə və Rusiya. s. 459, Gurko Kryajin Armyanskiy vopros. s. 10. T.Svietoxovski Müsəlman camaatdan beynəlxalq kimliyə (rus-Azərbaycan ) .1905-1920 (Tərcümə ed. Nuray Mərt, İstanbul, 1988, s. 123).

[75] Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyəti qələbəsi və Naxçıvan MSSR-in təşkili.B., 1958, s.14-18

[76] Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyəti qələbəsi və Naxçıvan MSSR-in təşkili. B. 1958, s. 12. Bu cür bolşevik idarələri rus əsgərləri getdikdən sonra ləğv edilmişdi. (Naxçıvan MSSR. B. 1973,s. 13).

Ancaq "Hümmət" qrupu[77] sosialist ideyalarının xalqa çatdırılmasında xüsusi fəaliyyət göstərirdi. Təşkilat əvvəllər təqibə məruz qalırdısa, fevral inqilabından sonra rahat bir iş şəraiti əldə etmişdir.[78] Naxçıvanda türk millətçilərin Müsavat, erməni millətçilərin Daşnak partiyaları və Molla Mahmud Çakərin yaratdığı "Məzlumların Müdafiə Komitəsi" də rayonda siyasi fəaliyyət göstərirdi.[79]

Naxçıvanda bu cür siyasi hadisələrlə bərabər bir sıra inzibati təşkilatlar da yaradılmışdı. Ordubad, Culfa və Naxçıvanda milli komitələr təşkil olunmuşdu. Bu komitələrdəki həqiqi güc rayonun türk və ya erməni nüfuzlu şəxslərinin əlində idi. Sosialist qruplar çox təsirli deyildilər. Naxçıvanda, Culfa və Ordubadda Milli Komitələr yanında "Şəhər Məclisləri" təşkil edilmişdi.[80]

25 oktyabr (7 noyabr) 1917-ci il tarixdə bolşeviklərin iqtidara gəlməsi ölkədə sakitliyi, nizam-intizamı alt-üst etmişdi. Əsgərlər cəbhələri tərk edir, idarə-mexanizmi pozulurdu. Naxçıvanda da vəziyyət belə idi. Naxçıvanın tabe olduğu Xüsusi Zaqafqaziya Komitəsi ləğv olunmuş,[81] yerinə 28 noyabr 1918-ci ildə, Zaqafqaziya Komissarlığı yaradılmışdı.[82] Rus əsgərləri getdikdən sonra Naxçıvan əhalisi müstəqil hərəkət edəcəkdi. Naxçıvan rayonunun bundan sonrakı dövrlərdə mərkəzi hökumətlə əlaqəsi olmayacaqdı.[83] Türk və erməni xalqları arasında yaxşı və ya pis bir münasibət yaranacaqdı. Bu səbəblə, onlar bir müddət öz taleləri ilə başbaşa qalmışdılar. Öz idarəetmələrini əllərinə almaq üçün bu iki millət arasında yaranan əlaqələr bölgənin taleyinə öz təsirini göstərəcək. Ancaq türk və erməni millətləri arasında yaxşı əlaqələr yaradılması çox çətin idi. Çünki 1905-ci il hadisələrinin gərginliyindən hələ azad ola bilməmişdilər. Ermənilər bütün Qafqazda olduğu kimi, Naxçıvanda da bir çox əməllər dalınca qaçır, vəziyyəti sakitləşdirməyə meyl göstərmirdilər. 1917-ci il dekabr ayından etibarən, az da olsa, qorxulu hərəkətlərə başlayır, Culfa və başqa yerlərdən gətirdikləri silahları

---

[77] Rus Sosialist İşçi Partiyasından ayrılan azərbaycanlı sosialistlər 1904-cü ildə öz təşkilatları olan Hümməti yaratdılar (Rus Azərbaycanı s. 55, 80-85). Bu təşkilat Azərbaycanda getdikcə gücləndi. Svetoxovski. Rus Azərbaycanı. s.55, 80-85

[78] Əli Əliyev Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə.B.,1960. s. 6-8

[79] Lətif Hüseynzadə 1933-cü ildə "Şərq qapısı" qəzetində dərc etdirdiyi xatirələrdə 1917-1921-ci illərdə Naxçıvanda gördüklərini yazırdı. Ancaq bəzi hadisələri qarışdırmışdır, qarışdırma ancaq tarixlərdə olmuşdur. Məs: Türk ordusu Naxçıvana gəlməkdən Amerikan valiliyi qurulmuşdur. (Hüseynzadə L. İbrət dərsləri, "Şərq qapısı" 27-31 mart, 3 aprel 1993). Biz xatirələrdən tarix sırasını nəzərə alaraq lazımi məlumatlardan istifadə edirik.

[80] Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 25-26. Müəllif sovet ideologiyasına görə yazdığından bolşevik və ya sosialist olmayan şəxslərə yer vermir. Buna görə də sovet ittifaqı zamanı 1990-cı ilə qədər yazılmış əsərlərə çox diqqətlə yanaşmalıyıq.

[81] Əsəd Uras. Tarixdə ermənilər və erməni məsələsi. İstanbul, 1987, s.639.

[82] Документы и материалы. № 6, с.7.

[83] Sərbəstlikdən istifadə edən Naxçıvan qabaqcılları Qafqaz Komissarlığını tanımaq istəmirdi. (Q.Mədətov. Naxçıvanda Sovet hakimiyyətinini qələbəsi). s.331

Naxçıvanın kəndlərinə paylayırdılar. Eyni zamanda bölgədə rus kazaklarını müsəlman əleyhinə qaldırırdılar.

Gələcəyi mübarizələrlə dolu olan müstəqillik şəraitindən istifadə edən Naxçıvanda və ətraf yerlərdə türklər və ermənilər öz milli komitələrini yaratdılar.[84] Mərkəzi Naxçıvanda olan komitələr vasitəsilə rayonda bir yerli idarəetmə mexanizmi yaratmağa çalışırdılar.[85] Ancaq ayrı-ayrı rəhbərlərlə bu bölgənin idarə edilməsinin çox çətin olduğu aydın olsa da, çoxluğu təşkil edən türklər və azlığı təşkil edən ermənilər[86] Naxçıvanda bir hökumət (Komitə) qurdular.

Naxçıvan şəhəri və ətraf kəndlərin idarə edilməsi bu yerli hökumətə verilmişdi. Bu sistem Culfada da tətbiq edildi və ortaq bir komitə yaradıldı. Dərələyəzdən başqa, Şərur qəzasında yüzə yaxın müsəlman kəndi və bir erməni kəndi olduğundan müştərək hökumətə ehtiyac yox idi. Bununla bərabər hərbi təşkilatlanma mövcud idi. Naxçıvanda da, Culfada da həm müsəlmanlar, həm də ermənilər tərəfindən hərbi təşkilatlar yaradılırdı.[87] Hərbi təşkilatlanma baxımından Culfa çox əlverişli idi. Bura İranda fəaliyyət göstərən rus əsgərləri üçün ehtiyat mənbəyi idi. Buna görə də bir çox hərbi müəssisələr mövcud olduğu kimi burada anbarlarda böyük bir ordunu

---

[84] Naxçıvanda bu cür yerli təşkilatlar yaradılmışdır. Naxçıvana yaxın olan İqdırda da belə olmuşdur. Fevral inqilabından sonra 1917-ci il mart ayında İqdırda 5 türk və 5 ermənidən ibarət İqdır İcra komitəsi yaradılmışdır. Sədr Behçət bəy idi. 1918-ci il Novruz bayramından sonra Mələkli kəndi mərkəz olmaqla İqdır Milli komitəsi yaradıldı.Sədr Rza bəy idi. Komitə xalqı silahlandıraraq erməni təhlükəsinə qarşı hazırlıq görürdü. Niaməddin Onk. Türk ordusu Azərbaycanda (1918). Türk Dünyası Tarix Dərgisi. 84 sayı(Dekabr 1993). S.53. N.Onk. Qurtuluşun 50-ci ildönümü. İqdır, 1970, s.20

[85] Mirzə Bağır Əliyev. Qanlı günlərimiz. (1918-1920 Naxçıvan). B., 1993, s.7-12

Nax.Milli Komitəsinin katibi olan M.Ç.Əliyev gördüyü hadisələri gündəlik qələmə almışdır. Ərəb hərfləri ilə yazan Əliyev hadisələrin gününü və tarixini vermişdir. Hicri və miladi təqvimlərdən istifadə etmişdir. Miladi tarixlərdə keçmiş rus təqviminə görə hərəkət edən müəllif bəzən də hicri ilə yazmışdır. Müəllifin yazdığı tarix və günləri digər mənbələrlə müqayisə etsək, çox maraqlı vəziyyətlə rastlaşırıq. 15 mart çərşənbə (Rəcəbi) deyə yazdığı tarixə 30 gün əlavə etsək, cumaya uyğun gələcəkdir. Bəzən 13 gün əlavə etmədən doğru tarixi yazmışdır. Yəni gün tarixdə də bir anlaşılmazlıq var. Bununla bağlı bir nümunə də verə bilərik. Müəllifin 31 mart şənbə (Rəcəbb il) yazdiği tarixə 13 əlavə etsək, hicri tarix 2 Rəcəbə uyğun gələcək. Yəni bir günlük tarix səhvi ortaya çıxır. Buna baxmayaraq, əsərdə doğru tarixlər vardir. Məsələn, "Şəfəq, 27 Duşənbo" 27 dekabr Bazar ertəsi və ya 7 iyul +13= 20 iyul. Müəllif, bəzən 13 gün əlavə etmədən doğru tarix göstərmişdir. Müəllif Kazım Qarabəkirin Naxçıvandan Təbrizə 1 sentyabr tarixini olduğu kimi qeyd etmişdir. Bu cür anlaşılmazlıqlar günlər, tarixlər digər mənbələrlə qarşılaşdırılır. Dəqiq olmayan tarixləri əsərə daxil etmədik.

[86] 1902-ci il Rusiya statistikasına görə Naxçıvanda 255 rus, 40974 erməni, 384 kürd, asiyalı xristian:3, müsəlman –türk 57310 nəfər var idi (Azərbaycan Cümhuriyyəti Mərkəzi Ən Yeni Tarix arxivi-MDƏYTA, Fond:970, Opis:1, Delo:232, List: 17).1906-cı il rus məlumatına görə Naxçıvan qəzasında 167 kənndə 44616 erməni, 59503 müsəlman-türk, Şərur-Dərələyəzdə 163 kənddə 20842 erməni, 55085 müsəlman-türk var idi (Qars vilayəti və ətrafında erməni zülmü (Haz: M.Fəxrəddin Kırzıoğlu), Ankara, 1970,s.124). Amerika kəşfiyyat məlumatlarında 1917-ci ilə görə belədir: Naxçıvanda müsəlman : 76173, erməni:54030, Şərur-Dərələyəzdə müsəlman: 89577, erməni:51365 (United States of America USA), National Archives (NA), Microfilm publications Microcopy, No. 353, rekords of the Department of State Relating to Internal Affairs of Turkey 1910-1929, Roll: 8, Department of State Division on Near Eastern Affairs, 867.00/1100).

[87] Bu dövrdə ermənilərin Qafqazda hərbi təşkilat yaratdığı rayonlar bunlardır: İrəvan quberniyasında Naxçıvan və İqdır, Tiflis quberniyasında Axıskal, Axılkələk, Şulavər, Gəncə vilayətində Şuşa və Nuxa (Hovannisian Armeniya 1918, s.115).

təhciz etməyə imkan verən və dəyəri təxminən yüz milyon manat olan hərbi ləvazimat var idi.

Rus əsgərləri bölgəni tamamilə tərk etmədən iki yüz nəfərlik süvari dəstə Naxçıvanda, 200 nəfərlik süvari dəstə Culfada yaradıldı. Türk və erməni nüfuzlu şəxslərinin imza etdikləri qərara görə xalq arasında qonşuluq münasibətlərini pozan şəxslər, yaradılan ortaq qüvvələr vasitəsilə cəzalandırılmalı idi. Hətta lazım gələrsə, edam etmə səlahiyyəti də verilirdi.

Bir müddət sonra bəzi mühüm məsələləri həll etmək üçün Culfadakı türk-müsəlman əsgərlərinin komandiri və sonra isə müavini Tiflisə getdi. Əhali nə qədər qayıtmaları üçün teleqram və ərizələr göndərsə də, cavab gəlmədi. Aydındır ki, zabitlər getdikdən sonra türklərin hərbi təşkilatları dağıldı. Yalnız erməni əsgərləri qaldı və qeyd etdiyimiz ləvazimata sahib oldular.[88] Bu da ermənilərə öz əməllərini icra etmək fürsəti verdi.

Onlar türk hərbi təşkilatının dağılmasından 3 gün sonra fevral ayının axırlarında Əznəbürd kəndinə hücum edib 29 qadın və uşağı qətlə yetirdilər.[89] Xəbər Naxçıvana çatan kimi müştərək komitə toplandı, günahkarların edam edilməsi qərara alındı. Canilərin ermənilər tərəfindən cəzalandırılmaması Naxçıvanda anarxiyanın yaranmasına səbəb oldu.

Artıq hökumət olmadığı bəlli idi.[90] Hər iki tərəf arasında əlaqələr getdikcə gərginləşməyə başladı. Naxçıvan şəhər mərkəzindəki azərbaycanlı məhəllələrində yaşayan ermənilər öz tərəflərinə köçürdülər. Şəhərin bazar tərəfindəki ermənilər də mağazalarını öz məhəllələrinə köçürməyə çalışırdılar. Ermənilərin bu fəaliyyəti azərbaycanlıları şübhələndirir və onlar ermənilərin müharibəyə hazırlaşdıqlarını fikirləşirdilər. Bu məqsədlə Naxçıvandakı türklər (azərbaycanlılar) silahlanmağa başladılar. 15 mart 1918-ci ildə Naxçıvanda Türk (Azərb.) Milli Komitəsinə seçkilər keçirildi, sədrliyə Mehdiqulu xan Diyarbəkirinin yerinə Mirzə Nəsrullah Əmirovun gətirilməsi qərara alındı. Elə bu vaxt müharibə başlamaq üzrə idi. Həmin gün Naxçıvan bölgəsində türk-erməni davası başladı.[91]

---

[88] Ermənilər əsas hərbi ləvazimata İrəvanda sahib oldular. Tiflisdən göndərilən Aram Manukyan İrəvanda rus hərbi hissələrindən qalan hərbi ləvazimata sahib çıxmış və yüzlərlə insanı əsgərliyə çağırmışdı. Buna həmin bölgədə yaşayan müsəlmanlar etiraz etmişlər. (Hovannisian Armeniya 1918, s.143).

[89] M.Əliyev. Qanlı günlərimiz. Əznəbürd hadisələri fevralın əvvəlində baş vermişdi və 22 nəfər öldürülmüşdür. s.10

[90] Tağı Nəbizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi. İstiqlal, 5 aprel 1919, № 9.Bu əsərdə 1918-ci ilin əvvəlindən iyun ayının sonuna qədər Naxçıvanda baş verən hadisələr haqqında mühüm məlumatlar öz əksini tapmışdır.

[91] Bu əsnada müsəlman-erməni davası yaxın rayonlarda davam edirdi. Əli Azəri bu məsələ ilə əlaqədar yazırdı: Cənubda başlayan yanğın şərqdən şimali-qərbə qədər olan məsafəni bürüdü. Urmiya, Səlmas və Xoydan sonra Culfa və Naxçıvanı təsiri altına aldı. Ermənilərlə Cənubi Azərbaycan türkləri arasındakı davanın alovları gündən-günə daha böyüyürdü. Bu qatma-qarışıqlıq Bakıya gedib çıxdı. Orada da ermənilərlə türkləri bir-birinin üstünə saldırdılar. Böyük bir qətliama səbəb oldular. Tiflisdən İrana gedən sərnişin qatarına Naxçıvan stansiyasında hücum edildi. Bir qrup erməni türkləri inandırıb vuruşmadan qurtarmaq bəhanəsilə bir otağa yığdılar. Nələri vardısa, oğurladılar. Səhərisi gün sərnişinlər çırıl-çılpaq qatara minib Culfaya gəldilər. Culfa ətrafında yaşayanlar düşdülər. 40 sərnişin jandarma komandiri polkovnik Mirzə Əkbər xanın (iranlı) köməyi nəticəsində yol xərci ödəmədən Təbrizə göndərildi. (Əli Azəri. Azadıstan dövləti və Şeyx

Naxçıvan şəhərindəki vuruşmalarda türklər üstünlük qazanırdılar. Ermənilər sülh təklif etdilər. Məqsədləri silah gələnə qədər vaxt qazanmaq idi. Bu məqsədlərinə də nail olan ermənilər toplar gəldikdən sonra var gücləri ilə hücuma keçdilər. İndi də Müsəlman Milli Komitəsi sülh təklif etdi. Ermənilər onlardan bütün topları tələb etdilər. Bəziləri bu təklifi qəbul etmək istədi, ancaq Məşədi Məhəmməd Rəfiyalov onları bu fikirdən daşındırdı. Maku Sərdarı (baş komandiri) Murtuzaqulu xan müsəlman və erməni komitələrinə sülh bağlamaqla əlaqədar məktub göndərdi. Ancaq ermənilər bu təklifi qəbul etmədilər. Dava şiddətlə davam edirdi. Naxçıvan müsəlmanlarına kənardan yardım gəldisə də, müsbət nəticə əldə edilmədi. Bunun üçün Maku Baş komandirindən kömək istəndi. Makudan gələn nümayəndələr iki xalqı barışdırmağa çalışırdılar və ermənilərin təklifini-topların təhvil verilməsini türk-müsəlman tərəfinə bildirdilər. Cəfərqulu xan bu təklifi qəbul etdisə də, xalq razılaşmadı. Səhəri gün - 8 aprel 1918-ci ildə Müsəlman Milli Komitəsi toplandı. Rəhim xan Naxçıvanski-türk dəstəsinə komandir, Hacı Mehdi Bağırov müavin təyin edildi. Yığıncağın sonunda Rəhim xana tapşırıldı ki, ya axıra qədər davanı aparmalı, ya da ermənilərlə sülh bağlasa, silahları təhvil verməməlidir. Rəhim xan bir müddət sonra ermənilərə sülh bağlamağı təklif etdi. Ermənilər 7 maddədən ibarət şərtlər irəli sürdülər. Erməni qarnizon komandiri Harazyanın dəvəti ilə görüş keçirilsə də, bir nəticə əldə edilmədi.[92] Dava yenə başladı.[93]

Naxçıvan şəhərindəki vuruşmalarda azərbaycanlılar özlərini müdafiə etsələr də, bölgənin digər tərəflərində vəziyyət başqa idi. Əlbəttə, Culfada bütün bir ordunu təmin edə bilən hərbi ləvazimata sahib olan ermənilərlə, bir tək gülləni 3 manata almaq məcburiyyətində qalan nizamsız türklər (azərbaycanlılar) müharibə edə bilməzdilər. Osmanlı türkləri gələnə qədər davam edən bu müharibədə ermənilərin nizami əsgərləri Naxçıvan bölgəsindəki müsəlman kəndlərin çoxunu yandırmış, əhalisini öldürmüşdülər. 1916-cı il bölgüsünə görə 4 nahiyəyə ayrılmış Naxçıvan qəzasında birinci, üçüncü və dördüncü nahiyələrin müsəlman kənd və qəsəbələri (Cəhri,

---

Məhəmməd Xiyabani (1918-1920).(Tərc.:Eloğlu, hazırlayan: Seyfəddin Altaylı). Ankara, 1994, s.129. Naxçıvanda döyüş getdiyi zaman Uluxanlı və Qəmərlidə də döyüş gedirdi. Yerevan-Culfa dəmir yolunu dağıtmaqda günahsız bilinən ermənilər, əslində bölgəni nəzarət altında saxlamaq istəyən ermənilər hücuma başlamışdılar. İlk hücumlar Uluxanlıda dəf edildi. 7 martda erməni dəstə rəisləri Aram, Dro və Gilikan rəhbərliyndəki dəstələr hücuma keçərək türkləri məğlub edi. Məğlub olan türklər Naxçıvana və Şərura qaçdılar. Hovanistan, Arm., 1918, s.143-144

[92] M.Əliyev.Qanlı günlərimiz. s., 925

[93] Hüseynzadə bunları yazırdı: Daşnaklar rus əsgərlərinin köməyi ilə türkləri öldürür, evləri talan edirdilər.1918-ci ilin mart ayında ermənilər Naxçıvanda Sarvanlar, Xoşulu və Dizə məhəllələrini mühasirə edib topa tutdular. 3 gün sonra məhəllə sakinləri evlərini tərk edib, Qaraçuq kəndinə qaçdılar. Şəhərdəki məscidin minarəsi topdan deşildi. Kalbalı xan ayağından yaralandı. Naxçıvanın qabaqcılları Türkiyəyə və Maku sərdarına müraciət edərək kömək istədilər. (Hüseynzadə. İbrət dərsləri). Hüseynzadə yardım, xahişinə əsasən Xəlil bəy dəstəsi ilə gəlib kəndləri azad etdiyini yazsa da, bununla əlaqədar bir yanlışlıq var. Belə ki, Xəlil bəy dostu ilə gəlmişdir.

Qaraqala və Ordubaddan başqa) hamısı tamamilə yandırılmış, əhalisi öldürülmüşdür.

Erməni zülmündən canlarını qurtarıb, evlərini tərk edən adamlar ac, çılpaq, səfillik içində yaşamalı olurdular. Bir müddət sonra bu insanlarda aclıq və müxtəlif narahatçılıqlar və vəba xəstəliyi yarandı. Erməni süngüsündən qurtaranlar da belə öldülər. Ermənilər bu qədər müsəlman kəndlərini dağıtmalarına baxmayaraq, müsəlmanları təslim etməyə və müqavimətlərini qırmağa nail ola bilmədilər. Çünki türklər gec olsa da, təşkilat yaratmış və silahlanmağa başlamışdılar.[94] Qüvvələrin nisbətən bərabərləşməsi[95] və Əkbər xan Naxçıvanskinin Makudan 149 silahlı adamla Naxçıvanın mərkəzinə gəlməsi vəziyyəti dəyişdirdi. Nəticədə Rəhim xan, Mirzə Nəsrullah Əmirov və Abbasqulu bəy Tahirov ilə erməni nümayəndələri bir qərara gələrək sülh müqaviləsi bağladılar.[96] Ertəsi gün hər iki tərəf sevincini dilə gətirib, müxtəlif söhbətlər etdilər. Sülhün ətraf bölgələrə də yayılması lazım idi. Hər iki xalqın nümayəndələri kəndlərə gedib sülhün bərpası üçün çalışmağa başladılar. Bu əsnada müsəlman və ermənilər arasındakı əlaqələri düzəltmək üçün Əlixan Makinski, Hacı Rza Məşədi Abbasqulu, Levon ağa və Böyükxan İrəvanski İrəvandan Naxçıvana gəldi.

Sülh bağlanması ilə hər iki xalq arasındakı əlaqələr düzəlməyə başladı. Bunun nəticəsi olaraq ilk müştərək bir məclis yaradıldı. Mirzə Nəsrullah bəy, Abbasqulu bəy Tahirov, Məşədi Heydər Əkbərov, Hacı Ələsgər Hüseynov, Bəylər ağa Kəngərlinski, Məşədi Məhəmmədəli Bayramov, Cəfərqulu xan və Böyük xan Naxçıvanski müştərək məclisin müsəlman üzvləri idilər. Bu məclis keçirdiyi yığıncaq nəticəsində belə qərara gəlmişdi ki, hər bir şəhər və rayon üçün bir erməni, bir müsəlman komissar təyin etsinlər. Şəhər rəisliyinə isə müsəlman tərəfdən Abbasqulu bəy Tahirov, ermənilər tərəfindən Ruben Babaxanov təyin olundu. Ayrıca könüllü qüvvələrə də iki şəxsin təyin edilməsi qərara alındı.[97] Bu qarşılıqlı razılaşmanın nəticəsi olaraq, müsəlman əhali dağıdılmış kəndlərinə qayıtmağa başladılar.[98]

Beləcə, Andranikin Naxçıvana gəlməsinə qədər nisbətən sülh dövrü

---

[94] L.Hüseynzadə yazırdı: Vaxtı ilə İrana getmiş rus əsgərləri Qafqaza evlərinə gələrkən həmin orduda olan türk əsilli bir gənc zabit Culfa körpüsünü keçən bütün əsgərlərin silahını alıb, Naxçıvan xanına vermişdir. 12 top, bir çox mərmi, silah əsgərlərə paylanmışdır. Bu zabit Naxçıvanda hərbi dəstələrin yaradılmasına kömək edəcəkdi (Hüseynzadə. İbrət dərsləri).

[95] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi.

[96] Əliyev sülhün 12-25 apreldə imzalandığını qeyd edir. (Əliyev. Qanlı günlərimiz. s., 26.). Nağdəlizadə 18 aprel – 1 may 1918-ci il olaraq verir. Nağdəlizadənin tarixini doğru olaraq qəbul edirik. (Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi Bu, Nuru Paşa tərəfindən Naxçıvana təyin edilən Xəlil bəyin ifadələrinə uyğundur. Xəlil bəyə görə, müsəlmanlarla ermənilər arasında döyüş 45 gün davam etdi. (ATASE, A.1/2, Kls. 366.D.739-1461.F.5) və nəticədə sülh bağlandı. (ATASE, A, 3/5648, Kls 3941. D.A – 159, F.461. Əliyevə görə, 40 gün, Nağdəlizadəyə görə 46 gün davam etmişdir.

[97] Əliyev. Qanlı günlərimiz. s. 25-30

[98] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi

başladı. Arabir vuruşmalar, adam öldürmə halları olurdu. Ancaq Milli Komitələr bu işə qarışır, məsələni həll edirdilər. Bu dövrdə diqqət çəkən məsələlərdən biri də komitələrdə olan şəxslərin bir-birinə dəstək olmalarıdır. Məsələn: Naxçıvan Türk Milli Komitəsi sədri Mirzə Nəsrullah bəy ilə qoşun komandiri Rəhim xanın arası dəyib, Rəhim xan istefa edən kimi, erməni komitəsi üzvləri işə qarışdı, anlaşılmazlıqları həll etdilər. Yenə erməni qarnizon komandiri Harazyanın istefasında Mirzə Nəsrullah bəy və yoldaşları araya girərək məsələni həll etmişdilər. 17 mart 1918-ci ildə Xəlil bəy və iki şəxs Naxçıvana gəldilər.[99] Xəlil bəy bölgədə asayişi təmin etməyə başlayan kimi erməni və müsəlmanlardan silahlarını tələb etdi.[100] Beləcə, bölgədə bir güc ünsürü Xəlil bəy oldu.

### a) İrəvan vilayəti müsəlmanlarının kömək istəmələri

Rusiyada baş verən inqilab nəticəsində bütün ölkədə olduğu kimi, Qafqazda da idarəetmədə bir boşluq yaranmışdı. Millətlər öz müqəddəratlarını təyin etmək, hüquqlarını qorumaq sahəsində təşkilat yaratmağa başlamışdılar. Elə bu vaxtlarda ermənilərin təzyiqinə məruz qalan İrəvan vilayəti müsəlmanları "İrəvan Müsəlman Milli Komitəsi" (İrəvan Milli Şurası) yaratdılar. Bu təşkilatın sədri Əlixan Makinski, katibi də Cabbar Məmmədzadə idi.[101]

Türk ordusunun Qafqaza yaxınlaşması İrəvan vilayəti müsəlmanlarında bir ümid yaratdı. Axır ki, illər boyu gözlədikləri xilaskarlarına qovuşacaqdılar. Bu məqsədlə ən yaxın türk hakim dairələrinə nümayəndələr və məktublar göndərməyə başladılar. Ümumi bir istək erməni zülmündən azad olmaq idi. Bəyaziddəki türk qoşunları komandanlığına İrəvan müsəlman komitəsi tərəfindən göndərilmiş möhürlü məktubda yazılmışdı: Rusların getməsi erməniləri başımıza bəla etdi. İllərdən bəri bölgədə toplanan hərbi ləvazimata sahib oldular. Uzun müddətdir ki, ürəklərində saxladıqları əməlləri həyata keçirirlər. Səfərbərlik elan etdilər və İrəvan vilayətində yaşayan müsəlmanları düşmən saydıqlarından, birinci olaraq bütün güclərini bizi aradan qaldırmağa, bizi yox etməyə yönəltdilər. Ruslardan əldə etdikləri silahları bizə tuşladılar. İki aydan bəri əsgərlər, quldur dəstələri müsəlmanlara müharibə elan etmiş kimi üzərimizə toplarla, pulemyotlarla atəş açırlar. Nahiyələri, kəndləri yandırır, qadınlara təcavüz edir, uşaqları öldürür, kişiləri boğurlar. Bu ana qədər iki yüz kənd dağıdılmış, zülmdən qurtara bilənlər dağlara qaçmışlar. Təbii ki, onların da bir hissəsi aclıq və soyuqdan öl-

99 ATASE A.1/2, Kls. 366. D.739-1461. F.5 ATASE A. 5.5649. Kls. 3941.D.A. 159. F.46
100 Əliyev.Qanlı günlərimiz. s., 32-40
101 ATASE A.1/4 kls. 536. D.163.26. F.5

müşlər. İrəvan şəhərinin 18.000 müsəlman əhalisi iki aydan bəri mühasirədədir.

İrəvan şəhərinin müsəlmanları, ümumi İrəvan vilayəti müsəlmanları adından xahiş edirik ki, bu ricamızı Vəhib paşa vasitəsilə padşahımıza çatdırasınız. Padşahımız İrəvan müsəlmanlarına mərhəmət diləsinlər. Bu məzlum türk balalarını öz himayələrinə almağa qüvvə toplasınlar. Yoxsa məhv olarıq. Ona görə də bu günlərdə Batumidə keçirilən sülh konfransına xahişimizin çatdırılması çox əhəmiyyətlidir. Bununla əlaqədar bizim tərəfdən görüləcək bir iş varsa, vəkil kimi sizin yanınıza göndərdiyimiz Abbasəli Kərimzadə və Əkbər Əkbərzadə vasitəsilə əmrlərinizi göndərin.[102]

27 may 1918-ci il tarixində İqdır türk qoşunları komandanlığma göndərilən bir başqa məktubda, yuxarıda qeyd edilən şikayətlər kimi yenə erməni zülmündən bəhs edilmişdi. Türk Ordusu yaxınlaşdıqca ermənilər zülmlərini artırmışdı. Türk ordusu İqdırda ikən, sərhədin o biri tərəfində ən pis vəhşiliklər törədilirdi. Buna görə də "İrəvan Müsəlman Milli Komitəsi" Zaqafqaziya hökumətinə ultimatum verir və türk ordusunun gəlişini gözlədiklərini bildirir.[103] İrəvan-türk-müsəlman əhalisi bir tərəfdən ermənilərlə mübarizə edir, digər tərəfdən türk ordusundan kömək istəyir.[104] Şərur bölgəsində erməni quldurları ilə mübarizədə onlar məğlub edilmiş, türk əhalisi rahat nəfəs almışdı.[105]

Türkiyənin himayəsini və ya türk ordusunun gəlib onları qurtarmasını təkcə İrəvan Müsəlman Komitəsi tələb etmirdi. Rus inzibati sistemində İrəvan vilayətinə bağlı Naxçıvan bölgəsi türkləri də bu sahədə çox fəal idilər. Türk ordusunun irəli hərəkatı Naxçıvanda bəlli olmuş, onların getdikcə Qafqaza yaxınlaşmaları müsəlman əhalisini xeyli sevindirmiş və ermənilərlə mübarizədə onlara ruh vermişdir.

Osmanlı ordusu bölgədə mübarizə getdiyini bilirdi. Yerli müsəlmanların qorxuya düşməmələri və mübarizəni davam etdirmələri üçün onlara məktublar göndərilirdi. Bu məktubların birincisi aprel ayının axırlarında alındı və burada türk qoşunlarının İqdıra doğru irəlilədiyi həmin məktubdan aydın oldu. Türk qoşunlarının daha çox yaxınlaşdığını görən Naxçıvan Müsəlman Milli Komitə sədri Mirzə Nəsrullah bəy buradakı vəziyyəti bildirən bir məktub yazdı. Çox keçmədən Bəyaziddən Bəkir Sadıq Əfəndi adlı bir osmanlı zabitindən məktubun cavabı gəldi. Bəkir Sadıq bəy məktubunda –

---

102 ATASE A.1/4, kls. 536. D.163. F.3

103 ATASE A.1/4 kls. 536. D.739-1461. F.5

104 İrəvan müsəlmanlarının vəziyyəti Bakı müsəlmanları xeyriyyə cəmiyyətini narahat edirdi. Onlara yardım edilirdi. Bu məqsədlə cəmiyyətin Kağizman nümayəndəsi 36. Qafqaz diviziyasına İrəvan müsəlmanlarını acınacaqlı vəziyyətini bildirmiş və kömək istəmişdir. Hərb tarix sənədləri dərgisi. №-85 (oktyabr 1985). s., 2034.

105 ATASE A.1/4 kls. 536. D.163-26. F.7-5

müsəlmanların sıxıntılı vəziyyətini öyrəndiyini və narahat olduğunu, ermənilərə qarşı mübarizə aparılmasını məmnuniyyətlə qarşıladığını, Bəyazidə qədər gələn Osmanlı qoşunlarının, islam dünyasına bu qədər zülm edən erməniləri cavabsız qoymayacağını, ancaq bir az səbrli olaraq mübarizənin davam etdirilməsinin zəruri olduğunu bildirir və salamlarını göndərirdi. Məktubu alan Müsəlman Komitəsi dərhal Osmanlı komandanlığına bölgədəki vəziyyəti açıqlayan bir məktub yazılmasını və Hüseynağa Novruzov ilə göndərilməsini qərara aldı.

Türk qoşunlarının Şimali-İranda apardıqları əməliyyatlar və aldığı rayonlar qısa zamanda Naxçıvanda bəlli olurdu. Məsələn, türk qoşunlarının Maku, Xoy və Səlmas ətrafındakı qələbələri Naxçıvanda böyük sevinclə qarşılandı.[106] Türk qoşunları çox yaxında idi. Bunun üçün Naxçıvan bölgəsinin tanınmış şəxslərindən Cəfərqulu xan Naxçıvanski Makuya gələrək, orada türk komandanlığı ilə əlaqə yaratmağa və Naxçıvanın türklər tərəfindən nəzarət altına alınması haqqında danışıqlar aparmağa çalışırdı. Zaqafqaziya komissarlığının Naxçıvan qəzasındakı nümayəndəsi bu vəziyyətdən narahat olaraq sədrinə göndərdiyi bir teleqramda bunları yazırdı:

"Naxçıvan xanları açıqca bildirirlər ki, onlar türklərin və Maku xanının göstərişinə əsasən hərəkət edirlər. Seymi və Rusiyanı tanımaq istəmirlər.[107] Komissarlığın nümayəndəsi səhv etmirdi. Naxçıvanın müsəlman əhalisi üzlərini türklərə çevirərək onlardan kömək gözləyirdilər. Bununla əlaqədar türk-hərbi dairələrinə daimi elçilər göndərirdilər. Bunlardan biri də Naxçıvan, Şərur-Dərələyəz qəzalarının əhalisini təmsil edən və Vəhib paşanın yanına göndərilən Kərim xan İrəvanlının sədrliyi altındakı heyət idi. Kərim xan da digər nümayəndələr kimi türk qoşunlarının Naxçıvan bölgəsinə göndərilməsini tələb edirdi".[108]

Naxçıvanlılar heyət göndərdiyi zaman türk zabitlərinin Şahtaxtıya gəlməsi xəbəri eşidildi. O zaman müştərək məclisin yığıncağı keçirilirdi, müsəlman və erməni nümayəndələri türklərin yanına nümayəndə göndərməyi qərara aldılar. Ancaq xəbərin yalan çıxması ilə əlaqədar bu qərar yerinə yetirilmədi. Bir müddət sonra həmin türk zabitlərinin Qızılboğaza gəlmələri xəbəri alındı. Mirzə Nəsrullah bəy, Abbasqulu bəy Tahirov, Hacı Məhəmməd İmanov və Məşədi Heydər Əkbərov türk zabitlərini qarşılamaq üçün yola düşdülər. Gələnlər Xəlil bəy və yoldaşları idi.[109] Naxçıvan

---

[106] Əliyev. Qanlı günlərimiz. s., 25-32

[107] Mədətov. Naxçıvanda Sovet hakimiyyətininin qələbəsi. s.331. Quliyev, Mədətov, Nadirov. Sovet Naxçıvanı. S.25. 1828-ci ildən əsarətdə yaşayan əhali bu sistemdən uzaqlaşmaq, öz talelərini həll etmək istəyirdi. Buna görə də Zaqafqaziya Komissarlığının sözü etibarsız idi.

[108] Hacıyev. Qars və Araz Türk Respublikaları. s. 45-46

[109] Xəlil bəyin Naxçıvana gəlməsi 17 may olaraq qeyd edilmiş (ATASE A. ½ kls.366. D. 739-1461. F. 4) Əliyev. 4 may, cümə, Şaban 5 kimi göstərmişdir. (Əliyev Qanlı günlərimiz. s. 35). Bu tarix üzərinə 13 gün əlavə etsək 17

müsəlman heyəti Xəlil bəy və yoldaşları ilə görüşdükdən sonra geri döndülər və saat 5-də Mirzə Nəsrullah bəyin evində bir yığıncaq keçirildi. Xəlil bəyin niyyəti və tövsiyələri komitə üzvlərinə bildirildi.[110] Komitə üzvləri çox sevindilər. Belə ki, yolunu gözlədikləri türklərin ilk nümayəndələri Naxçıvan bölgəsinə gəlmişdi.

### b) Xəlil bəyin Naxçıvana gəlişi və fəaliyyəti

Türk orduları Qafqaza yaxınlaşdığı zaman Qafqazda türk-müsəlman əhalisinin yaşadığı bölgələr haqqında türk hərbi dairələrinin bir sıra fikirləri vardı. Buna görə də illərdən bəri əsarətdə yaşayan türk-müsəlman əhalisinin nəyin bahasına olursa-olsun azad edilməsi və müstəqilliyinin təmin edilməsi vacib idi. 28 may 1918-ci ildə Azərbaycan müstəqilliyini qazansa da, bir tərəfdən bolşeviklərin, bir tərəfdən də ermənilərin təzyiqi altında idi. Azərbaycana tabe olmayan türk-müsəlman əhalinin yaşadığı bölgələr çox çətin vəziyyətdə qalmışdı. Bunlar da daima Türkiyədən yardım istəyirdilər. Türk hərbi dairələri bu bölgələri erməni zülmündən qurtarmaq fikrində idi. Batumi konfransında Axıska, Axılkələk, Gümrü, Naxçıvan, Şərur, Sürməli bölgələri Zaqafqaziya federasiyasından tələb edilir, digər tərəfdən də türk hərbi hərəkatını asanlaşdırmaq və erməni zülmünə qarşı xalqın birliyini yaratmaq üçün işlər görülürdü. Batumidə türk şərtləri irəli sürülməmişdən əvvəl Naxçıvanda təşkilat yaratmaq işi mayor Xəlil bəyə[111] və iki yoldaşına həvalə olunmuşdu.[112]

Qafqaz müsəlman ordusu yaratmaq vəzifəsi tapşırılmış Fəxri Fariq paşa ilə Mosuldan Təbrizə gələn və Naxçıvan və ətraf komandanlığına təyin olunan Xəlil bəy komandiri Nuri paşanın Azərbaycanda həyata keçirmək istədiklərini Naxçıvan bölgəsində yerinə yetirmək niyyətində idi. Yəni balaca bir islam ordusu yaratmaq məqsədilə yanında bir topçu kapitanı ilə bir piyada baş leytenant gətirmişdi.[113]

---

may cümə günü olur. Ancaq Şaban 5 olduqda 16 may axşamına uyğun gəlir. Qeyd etdiyimiz kimi Əliyev bəzən tarixlərdə səhv edir.

[110] Əliyev. Qanlı günlərimiz s. 33-35

[111] Xəlil bəyin Osmanlı Ordusunda rütbəsi kapitan idi. Piyada hissəsinə mənsub olan Xəlil bəy baş leytenantlıqdan kapitan rütbəsinə keçirilmiş və Qafqaza göndərilərək Naxçıvana gəlmişdir. (ATASE A. 5 2793. kls.324. D.9-4. F. 26-2). Ancaq ordu hissələri ilə bütün yazışmalarda mayor olaraq yazılmış və özü də Naxçıvanda olduğu zaman yuxarı dairələr ona mayor olaraq müraciət etmişlər. (ATASE A. ½ kls. 366. D. 739-1461. F. 5.5-1. ATASE A.5.5649. kls.3941. D.A.-159. F.46, 46-1, 26-2. ATASE A.4. 6520. kls. 3188. D. 46. F. 6-39). Xəlil bəy Naxçıvanda və ətrafında mayor kimi tanınmışdır. Türkiyəyə qayıtdıqdan sonra yenə özünü kapitan kimi tanıtmışdır. (Cümhuriyyət, 20 may, 1933, № 3244. Kazım Qarabəkir. İstiqlal hərbimiz. İstanbul 1988, s. 61).

[112] Xəlil bəyin Naxçıvana gəlməsi və fəaliyyəti haqqında əlimizdə 2 məlumat var. I İslam Ordusu Komandanlığına (ATASE A. ½ kls.366. D. 739-1461. F. 55-1). 2. Qafqaz artilleriyası komandanlığına (ATASE A. 5. 5649. kls.3941. D.A.159. F.46, 46-1, 46-2) göndərilmişdir.

[113] (ATASE A.5. 5649. kls.3941. D.A. 159. F. 46). Xəlil bəy və Nuri paşanın taleləri bir-birinə oxşayır. Biri Azərbaycanın, o biri Naxçıvanın müstəqilliyi üçün çalışırdı. Onlar aldıqları əmrə əsasən 1918-ci ilin mayından 1920-ci ilin yayına qədər işləmişlər. Tekirdağlı Xəlil bəy, Naxçıvanın nüfuzlu şəxslərindən Məhəmmədəli bəyin

Xəlil bəyin və yoldaşlarının Naxçıvan bölgəsinə gəlmələri müsəlmanların böyük sevincinə səbəb oldu və Müsəlman Milli Komitəsi sədri Mirzə Nəsrullah bəyin sədrliyi ilə bir heyət onları qarşılamağa getdi. Türk zabitləri ilə görüşən heyət Naxçıvana qayıtdıqdan sonra komitə sədri Nəsrullah bəyin evində bir yığıncaq keçirdi. Komitə sədri bununla əlaqədar demişdir: "Qardaşlar, mən Sizə müjdə verirəm, "Qafqaz cəbhəsinə başçı və komandir Ənvər paşanın qardaşı Nuri paşa təyin olunub". Qaraçuq tərəfə gələn Xəlil bəy belə buyurub. Qafqaza iki yüz on nəfər zabit təyin olunub. Onlardan 30 nəfəri Şərur və Naxçıvana gəlib bizlərə hərbi təlim keçəcəklər. Ənvər paşa tərəfindən topçu Hüsnü bəy bizim tərəfə göndərilib. Hələ ki, Qaraçuğdadır. Bu gecə Məşədi Heydər Əkbərovun müşayiəti ilə Naxçıvana gələcəkdir. Xəlil bəy belə buyurmuşdur: "Biz Osmanlı türkləri həmişə sizlərin qeydinə qalıb, sizi fikirləşməliyik. Məsləhət edirik: Birlik, ittifaq olsun, əl-ələ verin, şəxsi-qərəzliyi, ədavəti aramızdan götürün, sülhü qoruyun. 10 günədək bu vəziyyətdə qalın, nəqd pul saxlamayın, ərzaq alın. Bu çətin zamanda biz 10 günədək özümüzü Sizə çatdırmağa vəd edirik. Milli Komitəyə ehtiram bəsləyin, həmişə ona tabe olun, əmrini yerinə yetirin. Bu gün Şahtaxtıya, Şərura getməliyəm, müraciət etdiyiniz vaxt Naxçıvana gəlməyə söz verirəm". Xəlil bəyin sözlərini çatdıran Mirzə Nəsrullah bəy daha sonra topçu Hüsnü bəyin səlahiyyətini əks etdirən sənədini üzvlərə oxudu. Səlahiyyət sənədində yazılmış təsiredici ifadələr bəzi üzvləri ağlatmışdı. Yığıncaq qurtarmaqda ikən Osmanlı zabitlərinin Şahtaxtıya çatmaları barədə bir məktub gətirildi.[114] Beləliklə, Anadolu türkünün Naxçıvan bölgəsinin azadlığı uğrunda 1921-ci ilin ortalarına qədər davam edən fəaliyyəti başladı.

Türk Ordusunun Naxçıvandakı ilk səlahiyyətli nümayəndəsi Xəlil bəy 17 avqust 1918-ci il tarixli hesabatında Naxçıvana gəlməsini və gördüklərini belə təsvir etmişdir:

"9 may 334-cü il (hicri) tarixdə Təbrizdən Xoy yolu ilə Naxçıvana yola düşdüm. 17 may 334-cü il tarixdə Naxçıvana çatdım. Naxçıvan müsəlmanları ilə ermənilər arasında 45 gün davam edən vuruşmaların müsəlmanlarla ermənilərin razılığa gəldikləri bir atəşkəslə sona çatdığımı Xoyda eşitdim. Həqiqətən, Naxçıvana gələndə vuruşma yox idi. Ancaq Naxçıvanın ətrafına yaxın bir çox kəndlərdə ermənilər var idi. Əvvəlcədən də təşkilatları var idi. Buna görə də Naxçıvanda ermənilər hakim mövqe tutmuş, müsəlman məhəllələri ermənilərlə əhatə olunmuşdur. Naxçıvanda qalmamağı münasib gördüm. Çünki qalsam, ermənilərlə müsəlmanlar arasında atəşkəs pozulacaq və mən heç

---

qızı ilə evlənmişdir. (Cahangir oğlu İbrahim bəy. Əlyazma xatirələri. s. 7) Böyük xan və bir neçə Naxçıvan xanları Xəlil bəyin qayınatasının qohumları idilər. Xəlil paşa Xəlil bəy üçün demişdir: Mayor Xəlil bəyi İraqda ikən tanıyıram. Cəsur, cürətli atıcıdır. Müharibənin sonlarında aradakı xanların birinin qızı ilə evlənmişdir. (Xəlil paşa. İttihat və tərəqqidən Cümhuriyyətə). Xəlil paşanın xatirələri. (Həz.M.Taylan. Sorqun) İst. 1972. s. 317).

[114] Əliyev. Qanlı günlərimiz. s. 34-36

nə edə bilməzdim. Bunun üçün Naxçıvandakı topların ikisini Naxçıvanda qoydum, qalanlarını Şahtaxtıya apardım. Naxçıvandakı iki top üçün topçu-əsgər hazırlamaq və ermənilərlə olan vəziyyəti daha yaxından öyrənmək məqsədilə topçu kapitanını Naxçıvanda saxladım,[115] piyada baş leytenantı ilə Şahtaxtıya gəldim.

Şahtaxtı və Şərurda müsəlmanların qüvvələri çox olduğundan arada qalan üç erməni kəndinə,[116] müsəlmanlar hakim idi, ancaq müsəlmanlar arasında da nifaq, ədavət, qətlə yetirmə, quldurluq, hərc-mərclik hökm sürürdü. Müsəlmanları birləşdirə biləcək nüfuzlu bir rəis yox idi. O qədər hərc-mərclik var idi ki, müsəlmanlari birliyə çağırıb, onlara sözünü keçirə bilən nüfuzlu bir rəhbər, heç kimsə yox idi. O qədər ədavət var idi ki, bir kənddən o biri kəndə getmək mümkün deyildi. Hər bir kəndlə o biri kənd arasında bir nifaq-ədavət yaranmışdı.

Naxçıvandan Şahtaxtıya və Şahtaxtıdan Şərur nahiyyəsinə, xülasə, heç bir yerə hadisəsiz, təhlükəsiz getmək mümkün deyildi. Yerli hökumətin yaradılmasına böyük ehtiyac olduğunu nəzərə alaraq[117] əvvəl Şahtaxtıda və Şərurda məhəllə hökuməti, lazımi miqdarda jandarma təşkilatı yaratdım.[118] Ara-sıra "Məhəllə hökuməti" nə və məhəllələrdə və s. lazımi müəyyən məmurlar seçilir, təyin edilirdi.

"Bundan sonra əhali arasında olan nifaq və ədavəti, soyğunçuluğu və cinayətləri aradan qaldırmaq üçün kənd-kənd gəzir, söhbətlər aparır, nəsihətlər edirdim. Birliyə çağrıldısa da, mümkün olmadıqda, bir neçə qatil

---

[115] Xəlil bəyin dediyinə görə, məqsədi topçu təşkilatı yaratmaq və müsəlmanlarla ermənilər arasında münasibətləri öyrənmək olan kapitan Hüsnü bəy Naxçıvana gəldi və fəaliyyətə başladı. Yığıncaqda iştirak edərək, özünü əhaliyə tanıdan Hüsnü bəy, sonra Müsəlman Milli Komitəsinin iclasında çıxış etdi və təkliflər irəli sürdü. Hüsnü bəy topçu təşkilatı qurmaq, 48 nəfər sağlam, gümrah gənc lazım idi. Əli Ağayev, Arif bəy, Bəhlul ağa, Əliağa oğlu, Məhbul ağa Sultan ağa oğlu, İbrahim Kəngərlinski və M.Zeynalabdin Kələntərov Hüsnü bəyin təşkilatına daxil oldular. Hüsnü bəy bir tərəfdən topçu təşkilatı ilə məşğul olur, digər tərəfdən yanındakı süvarilərlə Naxçıvan ətrafını, kəndlərini gəzirdi. Şəhərdəki top və mərmilərin Şahtaxtı və Şərura göndərilməsində böyük rolu olmuşdur. Buna görə də Mirzə Nəsrullah bəy Xəlil bəydən onu Naxçıvandan çıxarılmasını xahiş edirdi. Görünür, bu xahiş yerinə yetirilməyib, çünki bir müddət sonra ermənilər Nəsrullah bəyə bir məktub göndərəcək, şəhərdə olan bir osmanlı zabitin müsəlmanlara vuruşmağı öyrətdiklərini bildirirlər. (Əliyev. Qanlı günlərimiz.s. 36-39, s.60). Naxçıvanda topçu təşkilatı yaradıldıqdan sonra Xəlil bəy Hüsnü bəyi Şahtaxtıya çağırdı. (ATASE A. ½ Kls.366. D. 73. 1461. F. 5)

[116] Xəlil bəy Şahtaxtı və Şərurda sabitliyi təmin etməyə çalışır, regionda müsəlmanlar arasında olan, təhlükə yaradan erməni kəndlərini nəzarət altına almaq istəyirdi. Buna görə də kəndlərə təslim ol təklifini irəli sürdü. 2 kənd bu təklifi qəbul etdi. Xanlıqlar kənd əhalisi 2 gün möhlət istədi. Bir müddətdən sonra Xanlıqlardakı ermənilərin bir qismi fərari oldu. O biriləri isə Xəlil bəyin şərtləri ilə razılaşdılar. Xəlil bəy Xanlıqlardakı ermənilərə Arpaçayın sol tərəfinə keçmək lazım olduğunu bildirmiş, onlar isə çıxmağı qəbul etdilər. Onlar müsəlmanlar tərəfindən hücum edilməməsini tələb etdilər. (Əliyev. Qanlı günlərimiz. s.37-38).

[117] Xəlil bəy haqlı idi. Naxçıvandakı Müsəlman Milli Komitəsinin nahiyyələrdə və böyük kəndlərdə komissarları var idisə də, onlar əhali üzərində nəzarəti saxlaya bilmirdi. Ən mühümü ermənilərin vəhşiliklərinin qarşısını almaq üçün kifayət qədər deyildilər. (Əliyev. Qanlı günlərimiz s.20-60). Xəlil bəyin fikrincə, müsəlmanların bir təşkilatı olmadığından ermənilər gecə kəndlərə hücum etməyə cürət edirdilər. (ATASE A.5. 5649. Kls.3941. D.A.159. F. 46).

[118] Xəlil bəy I Qafqaz kolordusuna bir hesabat göndərmiş və qeyd etmişdir ki, gecələri bayıra çıxa bilmirlər. Pullu jandarma tuturlar, bir yerli hökumət qurduğunu, müdirliklər təsis etdiyini, lazımi rayonlarla telefon əlaqəsi yaratdığını və hökumətin sandığında külli miqdarda pul olduğunu ifadə edir. (ATASE A.5. 5649. Kls.3941. D.A.159. F. 46-1).

və casus ən ağır cəzaya layiq bilindi və edam edildi.[119] Bundan sonra bölgədə asayiş və sakitlik bərpa olundu, heç bir yerdə kiçik bir hadisə baş vermədi. Hər kəs sərbəst istədiyi yerə gedə bilirdi. Bu yolla cinayət, ədavət, nifaqın qarşısı alındı".[120]

Şərur və Şahtaxtı bölgələrindəki sakitlik təmin edildikdən sonra hərbi işlərə böyük əhəmiyyət verildi. Naxçıvan şəhər mərkəzində türklərin əlində olan 8 rus dağ topundan 4-ü, 34 top mərmisi Şahtaxtıya aparıldı. Ermənilər bundan xəbər tutduqlarına görə digər top və mərmilər Naxçıvandan aparılmadı.[121] Bir araba ilə 50-yə qədər mərmi qaçırarkən günahkar yaxalanaraq həbs edildi. Bu hadisə erməni qarnizon komandiri Harazyanın 28 may 1918-ci il tarixdə müsəlman komitəsinə gedib şikayət etməsinə səbəb oldu. Harazyan Müsəlman Komitəsi sədri Mirzə Nəsrullah bəyə belə dedi: "Mən indi sizin fikrinizi başa düşdüm. Şəhər müsəlmanlarının saxladıqları mərmiləri Şərura və Şahtaxtıya göndərmişlər. Sizin fikirlərinizi başa düşdüm. Sizin fikriniz erməniləri məhv etmək deyilmi?

Harazyanın etirazına səbəb olan şikayət "Müsəlman Milli Komitəsi"ni xeyli narahat etdi. Sədr Nəsrullah bəy o dəqiqə təhqiqata başladı. Xəlil bəyə xəbər göndərərək, təcili topçu Hüsnü bəyin Naxçıvandan geri çağırılmasını tələb etdi.[122] Xəlil bəy 29 mayda çox sərt cavab verdi. Müsəlman və erməni Milli Komitələrinin hər birinə ayrı-ayrı məktub göndərən Xəlil bəy, hər iki tərəfdən silahların verilməsini tələb etdi. Və müsəlman Milli Komitəsinə, erməni nümayəndələrini yanıma gətirmələrinə və sağ-salamat geri qaytarılmalarına məsuliyyət daşıdığını bildirdi. O, həmçinin Dövləti-Aliyyə-i Osmaniyə tərəfindən bu bölgəyə türk və ermənilər arasındakı müharibəni durdurmaq üçün göndərildiyini də bir daha xatırlatdı.

Həmin gün yığıncaqda Naxçıvan Müsəlman Milli Komitəsi Xəlil bəyin yanına getmək üçün Böyük xan Naxçıvanski, Abbasqulu bəy Tahirov, Mehdiqulu bəy Diyarbəkir, Mirzə Mehdi Bayramov, Hacı Abdullah Şeyxzadə, Mirzə Nəsrullah və Mirzə Əmirovu nümayəndə seçdi. Sədr Nəsrullah bəy erməni komitəsinə gedərək rəis Ağayansla görüşdü, mərmiləri aparan kişini azad etdi. Ancaq erməni komitəsi Xəlil bəyin yanına getməyi ertəsi günə saxladı, Nəsrullah bəy məktubla vəziyyəti Xəlil bəyə bildirdi. Səhərisi gün erməni nümayəndələrini aparmaq üçün gələndə qəribə vəziyyətlə rastlaşdı. Ermənilər Xəlil bəyin Osmanlı zabiti olmadığını, İrana keçən Naxçıvan müsəlmanlarını türk hərbi formalarını geyərək onları inandırmaq

[119] Xəlil bəy bir mühaciri öldürən iki qardaşı asdırmışdır. (Əliyev. Qanlı günlərimiz. s.48).

[120] (ATASE A. ½ kls.366. D. 739-1461. F. 5)

[121] Nehrəm və Yaycı (Yaycı kəndlərində 4 top ilə birlikdə türklərin cəmi 12 topu var idi. Mərmilər əhalidən toplanır və Bəyaziddən gətirilirdi). (ATASE A. 5 5649. Kls.3941. D.A. 159. F. 46).

[122] ATASE A. ½ Kls.366. D.739. 1461. F. 5

istədiklərini deyirdilər. Nəsrullah bəy iki yoldaşı ilə axşam vaxtı Şahtaxtıya – Xəlil bəyin yanına gəldi. Erməni qüvvələri komandiri Harazyan isə Culfaya getdi. Harazyanı həyəcan bürümüşdü. Son zamanlarda türklərdə təşkilati iş getdiyini hiss edirdilər və bu da erməniləri qorxudurdu. Bu həyəcanlar içində Harazyan Culfaya tərəf getdi.[123] Məşədi Əli adlı bir şəxsin Müsəlman Milli Komitəsinə verdiyi məlumata əsasən Harazyan Tumbul kəndi ətrafındakı erməniləri Naxçıvandakı müsəlmanlara qarşı qızışdırırdı.[124] Ancaq bu fəaliyyətdən bir nəticə əldə edə bilməyən ermənilər özlərinin təhlükəsizliyini təmin etmək üçün Naxçıvandakı 150 nəfərlik süvari bölüyünə əlavə olaraq Culfadan bir piyada-batalyonu gətirdilər. Artıq ermənilərə qarşı hazırlanan təşkilatın varlığını gizlətmək mümkün olmadığını başa düşən Xəlil bəy müsəlmanlara ermənilərlə yaxşı davranışlarına dair bir bəyannamə verdi. Bu vaxtlarda 9 iyun 1918-ci ildə Harazyan Xəlil bəyə bir məktub göndərdi. Məktubda deyilirdi ki, o, erməni ordusu hərbi rəis Vəkilovdan aldığı bir teleqrama əsasən türk hökuməti ilə sülh müqaviləsi imzalandığı və şərq sərhədinin Arpaçay olduğunu öyrənmişdir. Buna görə də Naxçıvandakı ordusu ilə erməni sərhədinə getmək məqsədilə Şərur və Şahtaxtıdan keçməsi üçün icazə istəyirdi.[125] Harazyanın bu təklifi Xəlil bəy tərəfindən məqsədəuyğun hesab edildi və o Şahtaxtıya dəvət edildi[126]. Harazyan Müsəlman Komitəsinin yeni sədri Mehdiqulu xan Diyarbəkiri[127] ilə 12 iyunda Xəlil bəyin yanına getdilər.[128] Harazyanın Şahtaxtıya gəlməsi ilə Xəlil bəy bir sürprizlə qarşılaşdı. Harazyan aldığı bir teleqraf əsasən ikinci bir əmrə qədər Naxçıvanda qalacağını bildirdi.[129] Beləcə, Batumi müqaviləsini tanımayaraq Naxçıvanda qalan erməni qoşunlarını türk ordusu zorla çıxartmaq məcburiyyətində qalmışdı.

Şahtaxtıda görüş əvvəlcə ermənilərin çıxması məsələsi ilə əlaqədar soyuq başlandı, sonra vəziyyət yaxşılaşdı. Bu vaxtlar isə Naxçıvan bölgəsində gərgin anlar yaşanırdı. Bir sıra ermənilər qorxutma-hədələmə hərəkətlərinə başlayaraq müsəlmanları qətlə yetirirdilər. Müsəlman Komitəsi erməni Komitəsinə şikayətlərini bildirir, onlar bu hadisələrin qarşısını ala

---

123 Bu vaxt yığıncağı keçirilən Milli Müsəlman Komitəsi Xəlil bəyin Naxçıvana ayaq basması ilə əlaqədar qurban kəsilməsi qərara alındı. Əliyev. "Qanlı günlərimiz", s.40

124 Əliyev. Qanlı günlərimiz. s. 39-41

125 Əliyev. Qanlı günlərimiz. s. 41. Harazyan Naxçıvandan gedəcəyini müsəlman səlahiyyətli şəxslərə də deyirdi. (Əliyev. Qanlı günlərimiz s.46).

126 ATASE A. ½ kls.366. D. 739-1461. F.5-. 5-1

127 2 iyun 1918-ci ildə Mirzə Nəsrullah bəy Milli Komitə sədrliyindən istefa etdi. Vəziyyət Nəsrullah bəy tərəfindən Xəlil bəyə bildirildi. Milli Komitə sədrliyinə Mehdiqulu xan Diyarbəkiri seçildi. Xəlil bəy də Mirzə Nəsrullah bəyə məktub göndərərək onun könlünü aldı.Xidmətlərini davam etdirə biləcəyini söylədi. (Əliyev. Qanlı günlərimiz s.42-43).

128 Əliyev. Qanlı günlərimiz s.47

129 ATASE A. ½ kls.366. D. 739-1461. F.5-1

bilməyəcəklərinə görə narahat olduqlarını deməklə kifayətlənirdilər. Erməni quldurlarının Müsəlman Milli Komitəsinə təslim edilməsi qərara alınsa da, hadisələr davam edirdi.[130] Elə bu fürsətdən istifadə edən Xəlil bəy daha əvvəl verdiyi bəyannaməyə əsasən qan tökülməməsi və sülhün bölgədə bərqərar olması üçün yanına gələn heyətlə bir razılığa gəldilər[131]. Səhərisi gün Mehdiqulu xan və Harazyan Naxçıvana qayıtdılar. Müştərək məclis keçirildi. Hər iki tərəfdən nümayəndələr seçilərək nahiyələrə göndərildi. Məqsədləri müsəlman və erməni xalqını sakitləşdirmək və təhlükəsizliyi təmin etmək idi. Buna görə də nümayəndələr həmin dəqiqə yola düşdülər.[132]

İyun ayının ortalarında Naxçıvan bölgəsində sakitlik yaranmış və belə göründü ki, ermənilər də bu işə razı olmuşdular. Ancaq bir müddətdən sonra Andranik[133] və Yapun adlı erməni quldurların rayona yaxınlaşmaları Naxçıvan ermənilərini hərəkətə gətirdi. Bundan sonra sözsüz ki, onlar Andranik ilə əməkdaşlığa girəcəkdilər. Təbii ki, belə bir əməkdaşlıq müsəlmanlara zülm etmək istəyində olan Andranik üçün əlverişli idi. Andranik Şərur-Şahtaxtından İrana getmək üçün Xəlil bəydən icazə istədi. Belə bir icazənin müsəlman əhalisinin məhvinə səbəb olacağını bilən Xəlil bəy bu icazəni vermədi və bu bölgəni qorumaq üçün müharibə elan etdi. Xeyli qüvvə toplandı və erməni dəstələrinin yolunu kəsmək üçün Qaraçuxda mövqe tutdular. Görülən tədbir nəticəsində heç bir hücum olmadı. Ərzağı qurtaran könüllü dəstələr də dağılmaq məcburiyyətində qaldılar.[134]

Bir tərəfdən bölgədə təhlükəsizlik tədbirləri ilə məşğul olan Xəlil bəy, digər tərəfdən imkan olan kimi kiçik bir müsəlman ordusunun özəyini yaratmağa çalışırdı. İqdırda olan 13-cü alay komandanlığının göndərdiyi 32 zabit[135] bu sahədə fəaliyyətə başladı. 20, 21 və 22 yaşındakı gənclərə silah verildi. 3 gün ərzində Şahtaxtı və Şərurda iki minə yaxın qüvvə toplandı. Təlimə başlanıldı, xeyli məsafə alındı. Ancaq 13-cü alay Arazın qərbində yerləşmək üçün Şahtaxtıya yola düşmək əmri alanda, əvvəllər buraya göndərilmiş zabitlər geri çağırıldı. Toplanan qüvvələr zabitsiz qaldıqda dağılmağa məcbur oldular. Bu əhaliyə mənfi təsir göstərdi. Piyada hissəsini

---

[130] Əliyev. Qanlı günlərimiz s.45-47.

[131] ATASE A. ½ kls.366. D. 739-1461. F. 5. Kirakasyan. Xəlil bəyin razılaşdığı şəxslər arasında Məlik Musayan da var idi. (Kirakasyan. Zapadnayu Armeniya s.227)

[132] Əliyev. Qanlı günlərimiz s.48-49. Erməni nümayəndələrin hamısı, amma müsəlmanlardan bəziləri vəzifə yerinə getmişlər.

[133] Andranik Ozanyan (1865-1927). S.Kirakosyan. Malodoturki pered sudom istoriu. Erevan. 1986. (s.68.1). (ATASE A. ½ kls. D. 739-1461-f.)

[134] ATASE A. ½ kls.366. D. 739-1461. F. 5

[135] Xəlil bəy I Qafqaz artilleriyasına verdiyi hesabatda bu 32 zabitin 27 nəfərini müəllim adlandırmışdır.

ləğv edib, Şahtaxtıda yenidən topçu hissəsi yaratmağa başlanıldı. 4 top, 150 əsgər və 165 atdan ibarət bir süvari batareyası yaradıldı.[136]

Xəlil bəy hakimi olduğu Şahtaxtı və Şərurda[137] inzibati və hərbi təşkilatlarla bərabər vergi sistemi də yaratmışdır. O, Osmanlı dövlətində olduğu kimi, bütün kəndlərdən vergi yığırdı. Toplanan ərzaq bütün ordunu qidalandırmaq üçün kifayət edirdi. Ancaq Xəlil bəy sıxıntı içində idi. Bunun üçün I Qafqaz korpusu komandanlığından bəzi xahişlər etdi: "Bir qüvvə yaratmaq və ya gələn orduya birləşmək və s. indidən təmin etmək üçün kifayət qədər zabit və kifayət qədər rus tüfəngi göndərilməsinə icazə verməniz xahiş edirəm, əfəndim".[138]

Göründüyü kimi, Xəlil bəy bölgədə bir sıra işlərlə bərabər, xalqın rifahını yüksəltməyi, Osmanlı ordusunun gəlməsini asanlaşdırmağı da düşünürdü. Xəlil bəyin bütün fəaliyyəti Şərur və Şahtaxtı bölgələrini əhatə edirdi. Onun Naxçıvan şəhərinə, Culfa və Ordubada nüfuz edəcək gücü yox idi. Bu bölgələrdə həm əvvəldən erməni qüvvələri mövcud idi, həm də bu qüvvələr yeni gələn Andranikin dəstələri hesabına xeyli artmışdı. Erməni dəstələrini bölgədən çıxarmaq üçün güclü bir türk hərbi qüvvəsinə ehtiyac vardı.

Naxçıvan-Culfa istiqamətində Andranikin türk-müsəlman əhalisinə zülmü davam edərkən, türk qüvvələri Naxçıvana yaxınlaşmaqda idilər. Nəhayət, 20 iyul 1918-ci ildə Naxçıvan şəhəri ermənilərin əlindən alındı və Xəlil bəyin vəzifəsi bitdi. Xəlil bəy Nuri paşadan aldığı əmrə əsasən Ordubada getməli oldu. O, özü ilə Gəncəyə müsəlman ordusu ilə birləşməyə gedən zabitləri götürmüşdü.[139] Xəlil bəy bir müddət sonra Ordubada komandir kimi getdi. Naxçıvan, Şərur və Şahtaxtıda göstərdiyi fəaliyyətləri Ordubadda həyata keçirməyə başladı.[140]

## b) Xəlil bəyin kimliyi və Naxçıvan məsələsi

Müsəlman Ordusuna mənsub mayor Xəlil bəy Naxçıvanda fəaliyyətə başlayan kimi ətrafındakı türk hərbi dairələri ilə əlaqəyə girdi. Bu yazış-

[136] Əhali arasında dedi-qodular danışılırdı. İran demokratlarının Türkiyə əleyhinə apardığı təbliğat Naxçıvanda öz təsirini göstərdi. Şahtaxtıya gələn bir sıra türk zabitlərinin əhali ilə sərt davranışları bu təbliğatın artmasına səbəb olurdu. (ATASE A, 162. kls.366. D.739-1461.F.5-1) İran demokratları Osmanlı dövlətinə qarşı ingilislərin yanında həmişə yer tutmuşdu. Əliyev. Qanlı günlərimiz s.49

[137] Bu bölgənin Xəlil bəyin, yəni Osmalı dövlətinin nəzarəti altında olduğu Naxçıvan Milli Komitəsinə bildirmişdir. Əliyev. Qanlı günlərimiz s.53

[138] ATASE A.5. 5649. kls.3941. D.A.159. F. 46-2. Mülki və hərbi sahədə aşağı təbəqənin yuxarı dairələrdən rica etməsi müvafiq hesab olunmur. Ancaq Xəlil bəyin ifadəsində görürdük.

[139] ATASE A. ½ kls.366. D. 739-1461. F-5

[140] ATASE A.5. 5649. kls.3941. D.A.159. F. 34-2

malar nəticəsində narahatçılıq ortaya çıxmışdı. Türk hərbi dairələri Xəlil bəyin Naxçıvanda olmasından, vəzifəsindən xəbərsiz idilər. Onun bir də Naxçıvana sədr təyin edildiyini bildirməsi həyəcanlı yazışmalara səbəb olmuşdu. Yuxarıda qeyd edildiyi kimi, Xəlil bəy Naxçıvana gəldikdən sonra inzibati qaydalar yaratmış, Şərur və Şahtaxtı bölgəsində bir Hökuməti-Məhəllə təşkil etmişdi. Müəyyən dövrlərdə Xəlil bəyin həmin sahədə fəaliyyəti bu şifrli teleqraflardan bəlli olur.

**QARS**
**Şərq orduları qrupu komandanlığına**[141]

"I Qafqaz ordusuna mənsub mayor Xəlil bəy Naxçıvana çatanda Qafqaz hökuməti[142] adından Naxçıvan qəza rəisi[143] vəzifəsinə İbrahim əfəndi adlı bir şəxsi təyin etmişdir və bu bölgədə hökumətin təsisi üçün mülki məmurun təcili göndərilməsi haqqında qeyd etdiyimiz Xəlil bəy tərəfindən müraciət edildiyi 4-cü korpusundan məlumat bildirilmişdir.Xəlil bəyin vəzifəsi barədə ordu tərəfindən məlumat verilməmişdir.

19.7.34. hərəkat 3225 **9-cu Ordu komandiri Şövqü**".

Yaqub Şövqü Paşa birinci maddəsi eynilə verilən teleqramın 2-ci maddəsində, görünür, Xəlil bəydən ilham almışdır ki, Ərdahan, Qars, Kağızman istiqamətində türk qüvvələrinin əlində olan bölgələrdə idarə, siyasi və ədliyyə təşkilatlarının təcili yaradılmasını tələb edir.[144] Doqquzuncu Ordunun teleqramını alan Şərq Orduları qrup komandiri vəkili Fəriq Əsəd Paşa səhərisi gün Xəlil bəylə əlaqədar məlumat almaq üçün vəziyyəti Müsəlman Ordusu komandanlığına anlatmış və göndərdiyi teleqramın məzmununu 9-cu Orduya bildirmişdir.

Grup Qərargahı. 20.7.334
9-cu Ordu Komandanlığına
C. 19.7.34. Hərəkat 3225 -li şifr.
1.Mayor Xəlil qrupu məchuldur. Müsəlman Ordusundan soruşdum.

---

[141] Şərq orduları qrupu baş komandanlıq vəkalətinin 9 iyun 1918 tarixli əmri ilə yaradılmışdır. II Qafqaz artilleriyası ləğv edilərək yerinə IX Ordu yaradıldı və Şərq ordular qrupunda III və IX ordulardan təşkil olundu.Bu qrup VI Orduda İran və İraq əməliyyatları aparılması nəzərdə tutulurdu. Qrup komandiri Vəhib paşa III Ordu komandiri Əsəd paşa, IX Ordu komandiri Yaqub Şövqi paşa idi. (Qafqaz cəbhəsi. II c.s. 526-527. Türk hərbi. C.V. s. 164).

[142] Qafqaz hökumətindən Zaqafqaziya federasiyası ola bilməzdi. Yazışmalar aparıldığı dövrdə adı qeyd olunan federasiya çoxdan dağılmışdı. Eyni zamanda Batumi sülh müqaviləsinə görə də bölgə Türkiyəyə verilmişdi. Xəlil bəy Türkiyədən inzibati məmurlar tələb edirdi. Bu məqsədlə Qafqaz hökuməti ifadəsinə Xəlil bəyin Şərur və Şahtaxtı ətrafında yaratdığı Hökuməti-Məhəlliyə (Məhəllə hökuməti) uyğundur.

[143] Bu dövrdə, yəni iyul ayının ortalarında Naxçıvan qəzası türklərin əlinə keçməmişdir. Buna görə də Naxçıvan deyilərkən qəza deyil, bölgə nəzərdə tutulmuşdur. Bölgə dedikdə Şərur və Şahtaxtı nəzərdə tutulmalıdır. (Onlar Xəlil bəyin nəzarəti altında idi). Naxçıvan şəhəri ilə Culfa və Ordubad Xəlil bəyin səlahiyyəti altında deyildi.

[144] ATASE A.4.6520.kls. 3188. D.46.F.6-39

2. Mülki məmurun təcili təyin olunması və bildirilməsini yuxarı dairələrə yazdım, əfəndim.

Şərq Orduları qrupu komandir vəkili Fəriq Əsəd.

İslam Ordusu komandanlığına. Şifrli.

Qafqaz müsəlman ordusuna mənsub, Naxçıvana gələn mayor Xəlil bəy adlı bir zabitin İbrahim əfəndi adlı bir şəxsi Naxçıvan qəza rəisi vəzifəsinə təyin etdiyini və digər mülki məmurun təyini üçün 4-cü korpusa müraciət etdiyini IX Ordunun məlumatlarından öyrəndim. Naxçıvan şəhər qəza rəisi təyin edilən Xəlil bəy kimdir? Vəzifəsi nədir? Məlumat verilməsini xahiş edirəm.

**Şərq Orduları qrupu komandiri vəkili Fəriq Əsəd[145]**

Göründüyü kimi, Cənubi Qafqazda olan türk yüksək hərbi dairələrinin Xəlil bəyin varlığından xəbərləri yox idi və onun qəza rəisi təyin edilməsi məsələsi Şərq orduları qrupunu narahat etmişdi. Narahatçılıqla bərabər, Xəlil bəyin kimliyi məsələsi araşdırılarkən, onun Naxçıvandakı mülki idarəni təsis etməsi IX Ordunu və Şərq Orduları qrupunun komandanlığını narahat etmiş və bu sahədə onları hərəkətə gətirmişdi.Türk qüvvələri tərəfindən Naxçıvan şəhərinin azad edildiyi gün – 20 iyul 1918-ci il tarixdə Şərq Orduları qrup komandanlığı, Baş komandanlıq vəkilliyinə şifr ilə bu teleqramı göndərmişdir. "Batumi sülh müqaviləsinə əsasən Osmanlı üsuli-idarəsi altına keçən bölgələrdə iqtisadi, idari, siyasi mənafe cəhətdən mülki hökumətin təcili qurulmasını, lazım görürəm. Ərdahan, Qars, Kağızman şərqində hələ heç bir idari məmur yoxdur. Lazımi işlərin təcili görülməsini xahiş edirəm".

**Şərq Orduları qrup komandanlığı vəkili Fəriq Əsəd[146]**

Bu tələbə əsasən, Batumi müqaviləsinə görə Türkiyənin əlinə keçmiş bölgələrə, mülki təşkilatlanma baxımından məmur göndərilməsi lazım idi. Ancaq 1918-ci ilin o qatma-qarışıqlıq dövrlərində belə bir təşkilatın fəaliyyətə başlaması asan deyildi. Yolun uzaqlığı, oraya getmənin çətinlikləri bölgəyə təcili məmur göndərilməsini çətinləşdirdi. Türk hərbi dairələri bu çətinlikləri nəzərə alaraq Naxçıvana ilk dəfə II diviziyaya aid II alay komandiri Sürəyya bəyi Məhəllə hökumətinə rəis (mütəsarrif)[147] təyin edildi.[148] Daha sonra Osmanlı hökuməti sərhədləri daxilinə aldığı bölgələrdə təşkilati işlər sahəsində

[145] ATASE A.4.6520.kls. 3188. D.46.F.6-46

[146] ATASE A.4.6520.kls. 3188. D.46.F.6-45

[147] Mövzu ilə bağlı "Naxçıvanda Yerli və Milli təşkilatların yaradılması" bölməsində bəhs edəcəyik.

[148] Əliyev. Qanlı günlərimiz, s.72

fəaliyyətini davam etdirdi və 14 sentyabr 1918-ci ildə qəbul edilmiş qərarnamə ilə Batumi vilayəti təşkil olundu. Naxçıvan da bu vilayətə bağlı olan bir qəzaya çevrildi.[149] 1918-ci ilin oktyabr ayında Xalis Turqut[150] bəy Naxçıvana qəza rəis vəkili təyin edildi[151]. Beləliklə Xəlil bəyin Naxçıvanda idarəetmə təşkilatı yaratmaq istəkləri həyata keçdi.

## Andranikin fəaliyyəti və müsəlman əhaliyə edilən zülmlər

4 iyun 1918-ci ildə imzalanan Batumi müqaviləsi erməni ordusunda narahatçılıq yaratdı. Andranikin rəhbərlik etdiyi və sayı minlərlə olan dəstə[152] bu müqaviləni rədd edir şərəfsiz bir sülh adlandırırdı.[153] Müqaviləni tanımayan və buna görə də əmrlərə itaət etməyən Andranik və onun dəstəsi Nazarbəyovun komandirliyi altında olan erməni korpusundan qovuldu (5 iyun 1918).[154] Ordudan qovulan Andranikin məqsədi cənuba – Naxçıvana və Şimali İrana gedib ingilis qoşunları ilə birləşib türklərə qarşı vuruşmaq idi.[155]

8 iyunda bu məqsədlə onlar Göyçə gölü ətrafında yerləşən Elenovka kəndindən Naxçıvana yola düşdülər.[156] Andranik Şərur və Şahtaxtından keçib Naxçıvana gəlmək istəyirdi. Ancaq bu region mayor Xəlil bəyin nəzarəti altında idi. Buna görə də Andranik və quldur dəstəsi başçısı Yapun bölgədən keçmək üçün Xəlil bəyə müraciət etdilər. Xəlil bəy bu istəyi rədd etdi.

---

149 BOA. Daxili İşlər Nazirliyi. Ümumi idarə sənədi. (Dİ.Ü.İM) E.40,30,BOA.S.1.1.X c.2-ci tərtib.s. 586.587

150 (1886-1926) TBMM-nin ikinci dövrü Sivas deputatlarındandır. Yan Zuxer. İzmir sui-qəsdində günahkar hesab edildi və 1926-cı ildə edam olundu. Milli mücadilədə ittihatçılıq. İst. 1987.s. 261-271 Əli. Çankaya. Yeni mülkiyə tarixi və mülkiyəmilər. IV c.Ank.1961969.s. 15227.

151 TBMM-nin arxivi. T.B.M.M üzvünün tərcümeyi-hal vərəqəsi. № 619. Çankaya 11 c.s.1522. Əsərdə Xalis Turqud bəyin Naxçıvana təyin tarixi oktyabr 1917-ci il olaraq göstərilmişdir. Bu nəşr səhvdir və ya səhv oxunub. Belə ki, 1917-ci ilin oktyabrında Naxçıvan Osmanlı dövlətinin mülki məmur təyin etməsinə ehtimal ola bilməzdi. Bölgə rus nəzarəti altında idi. Baş nazirin arxivində 1918-ci il Qafqaz əməliyyatı nəticəsində Türkiyəyə keçən bir çox bölgələrə təyin olunan mülki məmurlar haqqında sənədlərdə Xalis Turqud bəyin təyin olunması barəsində heç bir məlumata rast gəlmədik. Ola bilsin ki, Xalis Turqud bəyin vəzifə icra etdiyi zaman təyin olunduğundandır. Qeyd etdiyimiz sənəddə mülki vəzifədən mülki vəzifəyə təyin olunanlardır. Nahiyə müdirliyindən kaymakamlığa, kaymakamlığından qəza rəisi və vəkilliyinə. (Mülkü vəzifələrə təyin olunma ilə bağlı sənədlər Baş Nazirliyin arxivindədir). Baş nazir arxivi. Dosya üsulu. (DÜİT)

152 Andranikin fikrincə sayı 3500-dür. (USA.NA. mikrofilm Publication General Records of the American Commision.The Negotrate Peace 1918-1931. Microcopy № 820).

153 Кафказское слово. 12 декабр 1918, 12 dekabr 1918 Alem Larmenıe. Afanasyan, L' Armenie Azerbaidjan Etla Georgie s.55

154 Müsəlman əhalisi düçar olduğu zülm. s.67. Kazım Qarabəkir. Şərqin azadlığı. s.471. doc.79. Andranikin erməni ordusundan qovulması əvvəlcədən hazırlanmış, planlı bir ssenari idi. Batuminin türk qoşunu tərəfindən hələ zəbt edilməmiş torpaqlarını ermənilər əldə etmək arzusunda idilər. Bunun ən asan yolu, əmrində minlərcə adam olan Andranikin ordudan qovulması idi. Ordudan qovulan Andranik Naxçıvandan keçib İrana gedəcək orada ingilislərlə görüşəcək və onların köməyi ilə Naxçıvan və Şimali İranı erməni regionuna çevirəcək. Ancaq erməni hökuməti Andraniki tanımayacaq. Bütün işğal olunmuş Azərbaycan torpaqlarında apardıqları siyasət kimi Andranikin Naxçıvana gəlməsinin səbəbi də Qafqaz və Osmanlı ermənilərinin birləşməsinə çalışmamaq və bu məqsədlə İrəvandan qovulması kimi qeyd edilir; (ATASE A.5 .5649 .kls. 3941. İş.A. 159..F-12).

155 Azərbaycan Qanuni - əvvəl dekabr 1918. №6. Кавказское слово 12 dekabr 1918

156 Кавказское слово. 12 декабр 1918. USA. NA. Paris Peace Konfranse 184.021/86

Keçmə icazəsi verilməyən Yapun 1500-ə qədər adamla o tərəfdə qaldı, Andranik isə Qarabağ-Qızılbulyan-Cəhri yolu ilə Naxçıvana gəldi. Andranik yol üstündəki müsəlman kəndlərindən ağ bayraqla keçmiş, 18-19 iyunda Naxçıvana gəlməsi barədə Xəlil bəyə məlumat vermişdi. Xəlil bəy zəif bir qüvvə ilə Andranikə qarşı çıxa bilməyəcəkdi. Vəziyyət IV korpusa bildirildi.[157]

20 iyunda Naxçıvana gələn Andranikin başçılığı altında olan erməni dəstəsi[158] türk ordusunun dəmiryolu ilə Culfaya gəlməsinə mane olmaq üçün tunelleri, körpüləri dağıtdılar.[159] 21 iyunda Culfaya gələn Andranik və dəstəsi bir kələk işlədərək Araz körpüsündən keçdilər[160] və körpünü mühafizə edən 2 türk zabitini və 20 əsgəri əsir aldılar.[161] Culfadan cənuba yola düşən Andranik ordusu 3000 piyada, 700 süvari ilə 22 iyun 1918-ci il axşamı Xoydan 30 km aralı şimalda yerləşən Evoğluya gəldilər. IV korpusa aid 12-ci piyada diviziyası 24 iyun 1918-ci il tarixdə Xoyun 3 km-ə qədər cənubunda ermənilərlə vuruşa girdi.[162] Vuruşma türk ordusunun qələbəsi ilə nəticələndi. Xoy azad edildi, Cənuba gedib ingilislərlə birləşmək istəyən on minə qədər silahlı erməni Culfa körpüsündən şimalda qaldı.[163]

Andranikin tabeliyində olan erməni qüvvələri İrandan Naxçıvana doğru çəkildilər. Bununla da Culfa, Naxçıvan və Ordubad bölgələrində qara günlər başlandı. Türk ordusundan ağır zərbə alan Andranik Naxçıvanın günahsız əhalisindən öz acığını çıxmaq istəyirdi.

Bu məqsədlə Culfaya çəkilən erməni qüvvələri sərhəddə yerləşən Naxçıvan qəzasının böyük kəndlərindən biri olan Yaycı kəndinə hücum etdilər.[164] Heç bir şeydən xəbəri olmayan Yaycı kənd əhalisi Andranikin

---

[157] ATASE A.1/2. kls.366. D.739. 1461. F.5-1.

[158] Naxçıvan Müsəlman Komitəsinin verdiyi məlumata görə Andranikin dəstəsi 400 piyada və 1000 süvaridən ibarət idi. 3 pulemyotu, 6 topu vardı. (ATASE A.5.5649.kls. 3941. D.A.159.F.12). Dəstənin bir hissəsi səhər şəhərə girmiş, bazara getmişdilər. Alış-veriş elədilər. Pul köhnə pul olduğu üçün narazıçılıq yarandı. Silahlı ermənilər müsəlmanları hədələyirdilər. Müsəlman komissarı Vəzirov Andranik dəstəsinin bazarda silahsız gəzməsini Harazyandan xahiş etdi, nəticəsi olmadı. Bunun üçün erməni dəstələri ilə alış-veriş edilməsi qadağan olunur. Müsəlmanlar vuruşa hazırlaşmağa başladılar. Əliyev. Qanlı günlərimiz s.52

[159] Əliyev. Qanlı günlərimiz s. 52-53

[160] Andranikin əmri altında olan Van ermənilərindən 400 piyada və bir qədər də süvari 22 iyunda (1918) əllərində ağbayraq Culfa körpüsünə yaxınlaşdılar, artıq sülhdür, biz Vana – kəndlərimizə qayıdırıq deyirdilər: Culfa hərbi hissəsi onlara inandılar və körpüdən keçmələrinə icazə verdilər. Sonra isə ermənilərin gözlənilməz hücumundan geri çəkilməli oldular. (Qafqaz cəbhəsi. II c.s. 553. IV korpus onların qarşısını almaq istəmişdi, ancaq mümkün olmamışdı. E.Aysan. Böyük müharibədə İran cəbhəsi IIIc. İstanbul. 1938. s. 27-28. Sabis. I Dünya müharibəsi. IV c.s. 253)

[161] USA. NA. Paris Peace Conferance 184.021/86.

[162] ATASE A.5.5649.kls. 3941. D.A.159.F.8

[163] Qafqaz cəbhəsi, II c.s. 534. Hərbi ümumidə Osmanlı cəbhələri vəkayi İstanbul. 1338.s. 16. Yerasimov. Millətlər və sərhədlər. s.308. Sabis. I Dünya müharibəsi. V c.s. 165. Aysan. İran cəbhəsi. III c.s. 29-30. Xəlil bəy Naxçıvan Milli Müsəlman Komitəsi sədrinə göndərdiyi bir teleqram Naxçıvanda, Araz çayının şimalda qalanlardan başqa 4000 nəfərlik bir dəstənin olduğunu eşitdiyini və bunların mühacir və ya əsgər olmaları haqqında məlumat verməsini istəyirdi. (Əliyev. Qanlı günlərimiz s.56).

[164] Andranikin dəstəsində olan bir kapitan və bir çavuşun ifadəsinə görə, Yaycıda erməni dəstəsinə 2 topdan atəş açılmışdı, buna görə də hücum edilmiş, kənd alınmışdı. Evlərə, qadınlara, qocalara toxunulmamışdır. Ancaq silahlı adamlar təqib edilmişdir. (Кавказское слово. 12 декабр 1918)

dəstəsi tərəfindən mühasirəyə alındı. Silahsız əhali İrana keçmək üçün Araz çayına doğru çəkildi. Ancaq Andranikin qaniçən dəstəsi ilə qonşu erməni kənd əhalisi Araz sahilində 4000-ə yaxın qadın, uşaq və yaşlıya hücum edərək, çoxusunu qətlə yetirdilər. Ölənlər o qədər çox, qalanlar o qədər az idi ki, ölənləri dəfn etməyə adam yox idi.[165] Yaycı davasında türk hərbi təşkilatının ilk təşəbbüskarlarından, bölgənin qəhrəman övladlarından Məhəmmədəli Şükürov şəhid oldu.

Yaycı soyqırımından sonra bölgənin erməniləri Andranikin dəstəsi ilə bərabər müsəlman kəndlərinə hücumlarını davam etdirdilər. Nağdəlizadə "İstiqlal" qəzetində bu hadisə ilə əlaqədar yazırdı: “Yüzlərlə müsəlman qadınlar, uşaqlar vəhşi heyvanlar kimi dağlarda səfil-sərgərdan yaşayır, ot yeyirdilər. Bir nəfər müsəlmanın bir gecə 400-ə yaxın arvad və uşağı heyvan sürüsü kimi bir müsəlman kəndinə gətirib çatdırması heç yadımdan çıxmır. Andranikin dəstəsi tərəfindən əhaliyə edilən zülmlər orta əsrlərdə Endülüstdəki zülmlərdən betərdir”.[166]

Naxçıvanda türk-müsəlman əhaliyə edilən zülm erməni korpus komandiri Nəzərbəyovu da hərəkətə gətirdi. Nəzərbəyov Gümrüdə olan Müstəqil Erməni Komissiyası sədrinə[167] göndərdiyi bir teleqramda yazırdı: “Andranikin Naxçıvan ətrafında həqiqətən bir çox zülm və faciə törətdiyini türk komandanlığına bildirmənizi xahiş edirəm.[168] Türk ordusu Naxçıvandakı vəziyyətdən xəbərdar idi. Andranikin türk-müsəlman əhalisinə zülm edə-edə Naxçıvana yaxınlaşması ilə əlaqədar mayor Xəlil bəy Şərur və Şahtaxtı əhalisini mübarizəyə çağırdı. Xeyli qüvvə toplandı.[169] Təbii ki, bunlar yalnız öz bölgələrini müdafiə edə bilərdilər. Naxçıvanın o biri rayonlarına kömək imkansız idi. IX Ordu Komandanlığı da Şərq Orduları qrupu komandanlığına Naxçıvandakı Andranikin dəstəsinin sayı, erməni əhalisinin

---

[165] ATASE A. ½, kls.366. D.739-1461.F.5. Nağdəlizadə. Naxçıvan fəlakətlərin tarixçəsi, Aysan. İran cəbhəsi. c. III, s. 31. Hüseynzadə. İbrət dərsləri, Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s.19. Əli Əliyev. Qırmızı tabur. Bakı 1990. Hacıyev. Qars və Araz-Türk Respublikaları s. 43-44.

[166] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi. İstiqlal 5 aprel 1919, № 9

[167] Batumi müqaviləsinə görə erməni və türk tərəflər arasında bir sıra məsələlərin həll edilməsi lazım idi. Bu məsələlərdən ən mühümü yeni sərhədin əsaslı surətdə müəyyən edilməsi idi. Türk və erməni heyətləri 19 iyul 1918-ci ildə Gümrüdə toplandılar. Müzakirə komissiyasına sədrliyi polkovnik Kazım Qarabəkir edirdi. Müzakirələrdən sonra türk-erməni sərhədi Hanvalıdan Arpağa mövqeyinə qədər müəyyənləşdirilmişdi. (Süleyman İzzət. Böyük hərbdə (1334-1918) 15-ci piyada diviziyasının Azərbaycan və Şimali Qafqazda hərəkat və müharibələri. İst. 1936. s. 18-19. Qarabəkir. Şərqin qurtuluşu. s. 408-428. Andranik dəstəsinin Yaycı kəndinə elədiyi soyqırımı. Nehrəmli Tağı Nağdəliyev həmin dəqiqə Naxçıvan Müsəlman Milli Komitəsinə bildirdi. (Əliyev. Qanlı günlərimiz s.56) İstiqlal qəzetində Naxçıvan fəlakətlərinin tarixçəsi adlı yazının müəllifi Tağı Nağdəliyev Əliyevin bəhs etdiyi Tağı Nağdəliyev olması çox böyük bir ehtimaldır. Hadisələri yaxından izləyən Nağdəlizadə Əliyevin əsərindən məlum olduğu kimi, Naxçıvan bölgəsinin mühüm şəxslərindəndir və hadisələri izləmişdir. İstiqlal qəzetində verilən yazıdan hadisələrin bütün təfərrüatı haqqında məlumat əldə etmək mümkündür.

[168] Sənədlər. (Ankara, 1982) Müsəlman əhalisinin düçar olduqları zülm. s.67. Qarabəkir. Şərqin qurtuluşu s. 471.

[169] ATASE A.1.2, kls.366. D.739-1461.K.5-1

silahlanması, müsəlmanların qətlə yetirilməsi haqqında məlumat verdi və çarə olaraq II Qafqaz diviziyasını bölgəyə göndərməyi münasib saydı (28 iyun 1918).[170]

Bölgədəki müsəlmanları qətlə yetirən Andranik arada Ordubada gedərək Ordubad əhalisindən çoxlu ərzaq və Xüdafərin körpüsündən keçmək icazəsi istədi. Ordubadlılar bunu qəbul etmədilər. Buna görə də Andranik Naxçıvana qayıtdı. O, Naxçıvana yaxınlaşanda top səsləri eşidilirdi.[171] Top səsləri xeyirli bir əlamət deyildi. Regiondakı erməni kəndliləri Andranikə qoşulub müsəlman kəndlərini yandırır, əhalini öldürürdülər.[172]

Elə bu vaxtlarda (iyunun axırlarında) 500-ə qədər Osmanlı əsgərinin Qaraçuqa gəlməsi xəbəri Naxçıvana çatdı. Səhərisi gün Qaraçuğdakı türk dəstəsindən Osman Nuri bəy yanında 4 süvari ilə Naxçıvana gəldi və Mirzə Nəsrullah bəyin qonağı oldu. Nuri bəy Naxçıvana gəldiyi gün bir sıra qayda-qanunlar yaratdı. Ermənilərə qarşı güllə atanların belə işlərinə son qoyuldu. Asayiş bərpa olundu, jandarmalar çıxarıldı, səngərlərin möhkəm müdafıəsi üçün tədbirlər görüldü. Bu tədbirlərdə Nuri bəyə kömək edənlər arasında Naxçıvanda yaşayan türk çavuşu Mustafa da vardı. Nuri bəyin Naxçıvandakı fəaliyyəti uzun çəkmədi. O gəldiyi günün səhərisi yanındakı süvarilərlə Qaraçuğ kəndinə geri döndü. Onun gəlişi qısa müddətli olsa da ermənilər bundan xəbər tutdular. Buna görə də Harazyan Müsəlman Milli Komitəsinə şikayət etdi.[173]

Əslində isə ermənilərin şikayət etməyə haqları yox idi. Onlar Andranikin gəlməsi ilə intizamsızlığa başlayaraq, müsəlmanları fasiləsiz surətdə narahat edirdilər. Müsəlman Milli Komitəsi də Xəlil bəydən aldığı əmrə əsasən ermənilərin atəşlərinə cavab vermir və müdafiə hazırlıqları görürdü.[174] Bu vaxt Naxçıvana yaxınlaşan Andranikin bir çox əməllər arxasınca qaçdığı göz qabağında idi.Türk qüvvələri gəlmədən Naxçıvan qəzasını nəzarəti altına almaq istəyən Andranik müəyyən işlər görürdü. 14 iyul 1918-ci ildə Naxçıvan qəzası ilə əlaqədar 1 №li əmrini verdi. Əmrdə deyilirdi:

1.Bu gündən etibarən mən öz qüvvələrimlə Rusiya Respublikası Mərkəzi hökumətinin tabeliyinə və əmrinə keçirəm.

2.Naxçıvan qəzası Brest-Litovsk sülh müqaviləsinə əsasən Rusiya respublikasının ayrılmaz parçası sayılır.

3.Qəzada müharibə vəziyyəti elan edirəm.

[170] ATASE A.4. 6520. kls.3188. D-46.K.3-4

[171] ATASE A.4. 6520. kls.3188. D-46.F.7-21. 7-7

[172] ATASE A.4. 6520. kls.3188. D-46.K.7-21. 7-7. K. 7-28. Əliyev. Qanlı günlərimiz s. 58,59,65

[173] Əliyev. Qanlı günlərimiz s.61-65

[174] Əliyev. Qanlı günlərimiz s.61-65

4.Milliyyətindən asılı olmayaraq, əhalidən silahlar təcili şəkildə alınacaqdır.

5.Respublika hakimiyyətini qəbul etməyən və ya onun düşmənlərinə yardım edən hər kəs Rusiyaya xəyanət edən şəxs sayılacaq, qeyri-qanuni hərəkətə görə cəzalandırılacaq.[175] Bundan başqa, bunların üç gün ərzində yerinə yetirilməsi şərti qoyulmuşdu.[176]

Naxçıvanı Sovet Rusiyasının hakimiyyəti altına salmaqla regionu öz nəzarəti altında saxlamaq istəyən Andranik bu məqsədlə Qafqaz komissarı Şaumyana müraciət etdi. O, bu müraciətdə yuxarıdakı fəaliyyətinə diqqəti çəkir və vəziyyətin səlahiyyətli dairələrə çatdırılmasını xahiş edirdi. Şaumyan da 17 iyul 1918-ci ildə Lenin və Stalinə göndərdiyi bir teleqrafla vəziyyəti bildirdi.[177] Ayrıca Andranikə də cavab yazdı. Bu cavabda Andranikə salamlarını göndərir, əlaqə yaratmağı və ona yardım etməyi özünə şərəf saydığını qeyd edirdi.[178]

Andranikin məqsədi bir tərəfdən Şaumyanla əlaqə saxlamaq, digər tərəfdən istəklərini Müsəlman Milli Komissarlığına bildirmək idi. Bu məqsədlə o, 15 iyulda Müsəlman Milli Komitəsinə bir məktub yazaraq nümayəndələrini Əbrəqunus kəndinə göndərmələrini xahiş etdi. Andranikin yanına gedəcək müsəlman nümayəndələri seçildi, ancaq kimsə cəsarət edib getmədi. Buna görə də Naxçıvandakı erməni qüvvələri komandiri Harazyan Andranikin adından müsəlmanlara silahlarını təhvil vermələrinə dair bir nota verdi[179]. Bu nota ilə bərabər Müsəlman Milli Komitəsinə bildirildi ki, erməni komandanlığının 14 iyul tarixli əmrləri nəzərə alınmış və Andraniklə bərabər hərəkət etmək qərarına gəlinmişdir. Müsəlmanlar bir qədər möhlət istədilər[180] və güclü erməni hücumuna qarşı hazırlığa başladılar. 16 iyulda ermənilər yenə müsəlmanlara silahlarını təhvil vermə təklifini irəli sürdülər. Onlar bu təklifə məhəl qoymayıb hazırlıqlarını davam etdirdilər. Səhərə qədər səngərdə keşik çəkirdilər.[181]

Müsəlmanlar təslim ol təklifinə əhəmiyyət vermir, hazırlıqlarını davam etdirirdilər. Andranik də özündən çox razı halda Nehrəm kəndinə doğru

---

[175] Kirakosyan, Qərbi Ermənistan s. 226-227. Qars və Araz-Türk Respublikaları s.44, Əliyev. Qırmızı Tabor. s. 17

[176] Nağdəlizadə. Naxçıvan fəlakətlərin tarixçəsi.

[177] "Бакинский рабочий", 20 iyul 1918, № 141.

[178] Hacıyev.Qars və Araz-Türk Respublikaları s.44. Adil xan Ziyadxanlı. Azərbaycan (Çevirəni Asif Rüstəmov), Bakı, 1990, s. 19.

[179] Əliyev. Qanlı günlərimiz. s.66. Naxçıvanda sovet hakimiyyətinin qurulması. s.10. Əliyev Qırmızı tabur. s.17

[180] Nağdalizadə. Naxçıvan fəlakətlərin tarixçəsi, Əliyev. Qanlı günlərimiz s.67-68. Fazil Rəhmanzadə Əsrə bərabər gecə. B. 1991. s. 81.

[181] Əliyev. Qanlı günlərimiz, s.66-67

irəlilədi və 17 iyul səhərisi hücuma keçdi.[182] Ancaq gözləmədiyi bir müqavimətlə qarşılaşdı. Öz kəndlərinə hücum ediləcəyini bilən nehrəmlilər qonşu müsəlman kəndlərinin köməyilə müdafiə hazırlıqları görmüşdülər[183]. Buna görə də Andranikin şiddətli hücumlarını müvəffəqiyyətlə dəf etdilər. Nəticədə Nehrəmdə yaxşıca dağılan Andranik dəstələri geri çəkilməyə məcbur oldular.[184] Naxçıvan çayı sahilində və şəhərin ətrafında, yamaclarda mövqe tutdular.[185] Artıq Naxçıvan şəhəri tarixdə saysız-hesabsız yaşamış qanlı günlərdən birinə bir daha səhnə olmağa hazırlaşırdı.

Andranikin dəstələri Nehrəmdə tab gətirməyib Naxçıvana doğru çəkilirdi. Harazyan isə bu vaxt müsəlmanlara üçüncü dəfə silahlarını təhvil vermək, tərksilah təklifini etdi. Ancaq müsəlmanlar silahlarını verib təslim olmaq niyyətində olmayıb, özlərindən qat-qat üstün olan düşmənlə vuruşmağa hazır idilər. Həm də onlar Andranikin əlinə keçməyin ölümdən betər olduğunu bilirdilər və digər tərəfdən, bu vaxtlarda I Qafqaz korpusunun Şahtaxtı, Qaraçuq və Naxçıvana çox yaxınlaşdığını eşitmişdilər, eləcə də Nehrəmdə Andranikin müvəffəqiyyətsizliklərindən xəbərləri var idi. Bütün bunlar onları mənəvi cəhətdən gücləndirir, hazırlıqlarını davam etdirməyə ruhlandırırdı.[186]

Naxçıvan ətrafında yerləşən erməni qüvvələrinin gözləməyə vaxtları yox idi. Türk qüvvələri Naxçıvan ətrafına gəlmiş, ermənilərə hücum etmişdi.[187] Osmanlılar Naxçıvan şəhərinə çatmadan şəhərin tamamilə nəzarətə alınması lazım idi. Şəhər müsəlmanları da Andranikin üç gün ərzində silahları təhvil vermə təklifini qəbul etməmişdi.[188] Bunun üçün də ermənilər hücuma başladı. Müsəlmanlar özlərindən on qat artıq olan düşmənlə

[182] Andranikin Nehrəmə hücumu Naxçıvan şəhər müsəlmanlarını həyəcanlandırdı. Top səsləri şəhərə qədər gəlirdi. Şəhərdəki silahlılar ermənilərə hücum etmək istədilər. Ancaq Milli Komitə buna imkan vermədi. Nehrəmə yardıma Hacı Heydər Dünyamalıoğlu və Məşədi Heydər Əkbərov getdilər. (Əliyev. Qanlı günlərimiz s.56)

[183] Xəlil bəy Andranikin Yaycıda törətdiyi soyqırımdan sonra Müsəlman Milli Komitəsinə bir teleqraf göndərmiş və teleqrafda Nehrəm və Cəhri kəndlərinə məktub yazaraq erməni dəstələrinin qarşısının alınmasını bildirmişdir. (Əliyev. Qanlı günlərimiz s.56)

[184] Əliyev. Qanlı günlərimiz s.67-68. Fazil Rəhmanzadə Əsrə bərabər gecə, Bakı, 1991. s. 81, Əliyev. Qırmızı tabur. s.17. Əliyev. Naxçıvanda sovet hakimiyyətinin qurulması s.10. Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.39. Nehrəmdəki müvəffəqiyyətdə payı olanlara, daha sonralar II Qafqaz diviziyası komandiri Cavid bəy tərəfindən nişan verilmişdi. (Əliyev. Qanlı günlərimiz s.72-73)

[185] ATASE A.4. 6520. kls.3188. D-46.7-28. Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s.11

[186] Əliyev. Qanlı günlərimiz s.67-68

[187] Əliyev. Qanlı günlərimiz s.68

[188] Xəlil bəyə görə, Andranik yerli türk əhalisinin möhlət istəyini qəbul etmiş və bu müddəti 48 saata çatdırmışdı. Möhlətin tam qurtardığı anda türk qüvvələrinin topu Naxçıvanda partlamışdı. Xəlil bəyin Andranikin əmrləri ilə əlaqədar verdiyi tarix 17 iyuldur və buna görə də bir zaman müəyyənləşdirmişdi. (ATASE A.1.2. kls.366. D.739-1461.F.5-1.) Əmr tarixi 14 iyuldur.

vuruşdular.[189] Xüsusilə Mustafa Çavuşun başçılığındakı Naxçıvan türkləri vuruşmada böyük qəhrəmanlıq göstərirdi. Şəhər tam bir döyüş meydanına çevrilmişdi. Vuruşmanın ən qızğın vaxtında II Qafqaz diviziyası naxçıvanlıların imdadına yetişdi və 20 iyulda ermənilər məğlubiyyətə uğradılıb geri çəkilməyə məcbur edildi və türklər Naxçıvana girdilər.[190] Türk qüvvələrinə tab gətirməyən Andranik dəstəsi əvvəlcə Gorus, sonra isə Sisyana getdi.[191] Beləcə, türk hissələri dəmir yolundan tamamilə istifadə etmə və bütün qüvvələri ilə Naxçıvan-Təbriz xəttinə qüvvə göndərmə imkanı qazandılar.

Naxçıvandan gedən Andranikdən minlərcə ölü, yandırılmış kəndlər və dağıdılmış evlər viran qalmışdı. Andranik vəhşiliyini bir daha göstərmişdir. Cəllad Andranik Şərqi Anadoluda törətdiklərini bu dəfə də Türk dünyasının bir başqa küncündə təkrarlamışdı. 300-dən artıq müsəlman kəndi dağıdılmış, minlərcə insan öldürülmüşdü.[192] "Azərbaycan" qəzetində Andranikin zülmləri, vəhşilikləri öz əksini tapırdı. Andranikin dəstəsində olan iki rus əsgəri bu vəziyyəti 12 dekabr 1918-ci il tarixli "Kavkazskoe slovo" qəzetində təkzib etmişdir. Onlara görə Andranik Naxçıvanda heç bir pislik etməmişdir. Hətta Andranikin əmri ilə müsəlman malına toxunmaq qadağan olunmuş və əmrə tabe olmayanlar güllələnmişdir.[193] Buna inanmaq mümkün deyildir. Erməni korpus komandiri Nəzərbekov Andranikin Naxçıvandakı zülmlərindən, ədalətsizliyindən narazı idi. 1918-ci ilin sentyabr ayının əvvəllərində Naxçıvan və Culfa ermənilərinin təşkilatını yaratmaq vəzifəsi tapşırılan Ero Harazyan da vəziyyəti etiraf etmişdir. Ero Harazyan 7 sentyabr 1918-ci il tarixində hökumətə təqdim etdiyi bir hesabatda yazırdı: "Daşnak nümayəndəsi Məlik Musayan və türk ordusunun nümayəndəsi Xəlil bəy arasında yaxşı münasibət yaranmışdı. Ancaq Andranikin qüvvələrinin buraya gəlməsi bu münasibətlərə mane oldu".[194] Sözsüz, bunda həqiqət var idi. Xəlil bəyin Naxçıvan bölgəsinə gəlməsi və türklərin təşkilatını yaratması nəticəsində ermənilər onunla sülh razılığına gəlmişdilər.

---

[189] Nağdəlizadə. Naxçıvan fəlakətlərin tarixçəsi (Əliyev, 18 iyulda ermənilərin Andranikin adından müsəlmanlara bir ultimatum verərək, silahları 24 saat ərzində təhvil verməlerini təklif etmiş və aradan bir saat keçməmiş hücuma keçdiklərini bildirmişdir. (Əliyev. Qanlı günlərimiz s.68))

[190] ATASE A.1.2. kls.366. D.739-1461.F.5-1. Əliyev. Qanlı günlərimiz. s.68-70. Qafqaz cəbhəsi. II c.s.541. Aysan İran cəbhəsi III c.s. 35.

[191] Кавказское слово. 12 декабр 1918. Hovanisyan Ermənistan 1918, s.154. 2 dekabr 1918-ci ildə göndərdiyi bir məktubda Naxçıvanda türk qüvvələri ilə olan vuruşmadan sonra dəstəsinin özünə gəlməsi üçün Qarabağa getdiyi yazılmışdır. USANA Paris Peace Conferance, 184,021/86

[192] M.B. "Naxçıvan-Şərur məsələsi", Azərbaycan 17 iyul 1919, № 227. Azərbaycan qəzetində bu məqaləni Məmmədzadə Mirzə Bala adını qısaca M.B. yazmışdır. O, Milli Azərbaycan hərəkatı adlı əsərində də bundan istifadə etmiş, izahlarda M.B. olaraq yazmışdır. (Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Milli Az. Müsavat xalq firqəsi tarixi. Berlin, 1938) Hacıyev.Qars və Araz-Türk Respublikaları s.45.

[193] Kavkazskoe slovo. 12 dekabr 1918

[194] Киракасян. Западная Армения. 227. Kirakasyan əsərində Ero Hazaryanın bu hesabatını yazdıqdan sonra ifadələrini yumşaltmış, Andraniki gördüyü işlərdə nisbətən haqlı saymışdır.

## Türk Ordusunun Naxçıvana gəlməsi

4 iyul 1918-ci ildə Ermənistan ilə imzalanan müqaviləyə görə bəzi ərazilər boşaldılacaq və Türkiyə Gümrü-Culfa dəmiryolunu öz nəzarəti altında saxlayacaqdı. Ermənilər Sərdarabad bölgəsini tərk etmişdilər, ancaq daha sonra cənubda qalan və tərk edilməsi lazım gələn Uluxanlı, Qəmərli, Naxçıvan və Culfada hələ bir iş görməmişdilər. Üstəlik o bölgələrə getmək istəyən türk qüvvələrinə Ermənistandan gələn əsgərlər və əhali tərəfindən hücum edilirdi. Türk qüvvələri zəifləmişdilər. Buna görə də Sərdarabad-Culfa dəmiryolundan istifadə edə bilmirdilər.[195]

İngilislərin irəliləməsini dayandırmaq üçün Şimali İrana kifayət qədər qüvvə göndərmək mümkün olmadığı kimi Naxçıvanda erməni zülmü altında inləyən türk-müsəlman əhalisinə yardım da lazımınca həyata keçirilə bilmirdi. Bundan belə görünürdü ki, Batumi müqaviləsinə görə Türkiyəyə verilmiş bölgələrin hərbi qüvvə ilə alınması lazım idi. Ermənistandan yaxşı niyyət gözləməklə iş həll olunmazdı. Çünki ermənilərin boşaltmalı olduqları bölgələrdə quldur qruplapı yaranmışdı. Erməni hökuməti isə bu qruplara onları tanımadıqlarını iddia edirdi.

Türkiyənin üsuli-idarəsi altına hələ keçməmiş bölgələrin, şübhəsiz ən strateji əhəmiyyəti olanı Naxçıvan idi. Əslində, 1918-ci ilin may ayının ortalarında, müsəlman ordusuna mənsub Xəlil bəy buraya gəlmiş və Naxçıvanın iki mühüm məntəqəsi olan Şərur və Şahtaxtını nəzarət altına almışdı.[196] Ancaq Naxçıvan şəhər mərkəzində və Culfada, xüsusilə Andranikin gəlməsilə erməni hakimiyyəti möhkəmlənmişdi. Naxçıvan şəhərindəki erməni komandanlığı Xəlil bəyə Batumi müqaviləsinə görə bölgəni boşaldacaqlarını bildirmiş, sonra ikinci bir əmrə qədər təxirə saldıqlarını bəyan etmişdilər.[197]

Türk hərbi dairələri üçün ən mühüm məsələ Şimali İranın ələ keçirilməsi idi. Bu məqsədlə Şərq orduları qrupu komandanlığı 11 iyun 1918-ci ildə IX orduya bu vəzifəni tapşırmışdı: “İngilislərin İrandakı fəaliyyətlərini dayandırmaq bolşeviklərə ingilislər tərəfindən yardım göstərilməsinə mane olmaq üçün Urmiya gölü ilə Xəzər dənizi arasındakı məntəqənin ələ keçirilməsi və lazım gələrsə, VI ordu ilə Bağdadın qurtarılması”.[198] IV korpus komandiri bu əmrin verildiyi tarixdən əvvəl Şimali İranda əməliyyat aparırdı. İyun ayının ilk günlərində vəziyyət belə idi: VI korpusun qabaqcıl dəstələri

---

[195] ATASE A.4. 6520. kls.3188. D.50. F.2-37. ATBD. № 85 (oktyabr 1985) s. №2035. Document. Vol.III. (Ankara, 1986) Doc 2035

[196] ATASE A.1/2, kls.366. D.739-1461.F.5.5-1; ATASE A/5.5649. kls.3941. D.A. 159.F.46

[197] ATASE A. ½, kls.366. D.739-1461.F.5-1. Boşaldılma qərarının təxirə salınmasında Andranikin Naxçıvana gəlməsinin böyük rolu var idi.

[198] Qafqaz cəbhəsi. II c. Səh.528. Belen. Türk hərbi. Cild V. s. 165. Aysan. İran cəbhəsi. III cild. s. 23. Fövzi Çakmak. Böyük hərbdə Şərq cəbhəsi hərəkatları şərq vilayətlərimizdə, Qafqazda və İranda. Ankara. 1936. s.270.

ilə 36-cı alay Sofyanı, süvari bölüyü isə 8 iyulda Təbrizi işğal etdi.[199] Sonra 36-cı alay Təbrizə göndərildi.[200] Bu vaxtlarda 5-ci diviziyaya bağlı 36-cı alayın iki batalyonu İğdırda, bir batalyonu isə Makuda idi. Bir müddətdən sonra VI korpus komandanlığının əmrinə əsasən Makudakı batalyon, ardınca da İğdırdakı alayın böyük hissəsi Şahtaxtıya gəldi.[201] Birliklər Araz çayının qərbində idilər, şərqə keçməyəcəkdilər.[202] IV korpus komandiri Ali İhsan paşaya görə, nizami birliklərinin hələlik Culfa[203] ilə İrəvan arasında Araz çayının şərqinə keçmələrinə ehtiyac yox idi.[204] Türk hərbi dairələri ilk əvvəl təcili Şimali İran məsələsini həll etmək niyyətində idilər.

Ancaq bir müddət sonra Andranikin başçılığı altında olan erməni qüvvələrinin Naxçıvana gəlməsi, dəmir yollarının dağıdılması və əhaliyə zülm edilməsi nəticəsində Arazın şərqinə keçmək zəruri olmuşdu. IV korpusa bağlı birliklər əvvəlcədən Naxçıvana getmək üçün istifadə olunan iki mühüm qovşaq nöqtəsi Şahtaxtı və Culfa körpülərini nəzarət altına almışdılar.[205] I Qafqaz korpusu hissələri Qafqaz cəbhəsindən Culfaya yola düşmək üçün hazırlaşırdı bir hissəsi isə yola düşmüşdü.[206] Korpusun əməliyyatı, heç şübhəsiz, dəmiryolu ilə bağlı idi. Ancaq dəmiryolu ermənilər tərəfindən bir neçə yerdən dağıdılmış və təmirə möhtac olmuşdu. Bunun üçün 17 iyun 1918-ci il tarixdə I Qafqaz korpusu İstehkam komandiri kapitan Şükrü bəyin əmri altında bir erməni zabiti olmaqla qatarla istehkam rotası Şahtaxtıya göndərildi. Əmrə əsasən rota dəmiryollarını təmir edərək Culfaya kimi gedəcəkdi. Qatarın hərəkəti haqqında Naxçıvandakı türk və erməni Milli komitələrinə məlumat bildirilmişdi.[207] Səhərisi gün yola düşən qatar, yolların xarab olması ucbatından Naxçıvana ancaq 19 iyun axşamı çata bilmişdi.[208]

---

[199] Təbrizin alınması İstanbul mətbuatında öz əksini tapmışdır, hadisələrin siyasi və hərbi cəhətlərinə toxunulmuşdur. (Təsviri-əfkar, 15 iyun 1334 1918, № 2486. Təsviri-əfkar. 16 iyun 1335), 1918. №2487

[200] Çakmak. Böyük hərbdə Şərq cəbhəsi hərəkatları. s. 269-270. Belen. Türk hərbi. V c.s. 164-165.

[201] 12 iyunda türk qüvvələrinin Şahtaxtıya daxil olmaq xəbəri dərhal Naxçıvana çatdı. (Əliyev. Qanlı günlərimiz s.47)

[202] Xəlil bəyin ifadəsinə görə bu birliklər əmrə qarşı çıxaraq şərqə keçmiş, əhali ilə pis davranmışlar. (ATASE A.5/5649. kls.3941. D.A.159.F.46. ATASE A. ½, kls.366. D.739-1461.F.5-1)

[203] İyunun ortalarına qədər Culfaya 40-a yaxın Osmanlı əsgəri gəlmiş və bir neçəsi Yaycı kəndinə gedib, əhali ilə söhbət etmişdilər. (Əliyev. Qanlı günlərimiz IV c. s.45)

[204] Sabis. I dünya müharibəsi. IV c.s. 225

[205] Sabis. I dünya müharibəsi. IV c.s. 227

[206] Aysan. İran cəbhəsi. III c.s.23

[207] Xəlil bəy Naxçıvan Milli Komitəsinə göndərdiyi məktubda heyətin gələcəyini bildirmiş və Nehrəm tərəfdə dəmiryolu məmurları varsa, bunların gələcək zabit və əsgərlərə təqdim edilməsini xahiş etmişdir. Şükrü bəy sədrliyində istehkam rotasının gələcəyindən xəbər tutan Müsəlman Milli Komitəsi onları qarşılamaq üçün hazırlıqlar gördü və bununla əlaqədar iki heyət təşkil etdi (Əliyev. Qanlı günlərimiz s.50)

[208] Naxçıvan Müsəlman Komitəsi 18 iyunda təntənəli bir şəkildə bir istehkam rotasını qarşılamaq üçün stansiyaya gəlmişdi. Ancaq həmin gün ermənilər Culfa tərəfdən başqa bir qatar gətirərək müsəlmanları aldatmışdılar. Yol xarab olduğu üçün Şahtaxtıdan qatar gəlməmişdi. Səhərisi gün müsəlmanlar və bir neçə erməni nümayəndələri stansiyada qarşılamaq üçün hazırlıqlar görürdülər. Nəhayət, təqribən 19. 00 – da qatar gəldi. Müsəlman heyətini

Rotanın üzvləri o gecə Naxçıvanda qaldılar. Səhərisi gün qatar yola düşdüyü bir vaxtda Andranikin başçılığı altında olan qüvvələr Naxçıvan ətrafına gələrək Naxçıvan çayı üzərindəki körpünü dağıtdılar.[209] Körpü təmir edilsə də, istehkam rotası Culfaya getmək fikrindən daşındı. Şahtaxtıya və oradan da Gümrüyə qayıtdı.[210]

Yuxarıda qeyd olunduğu kimi, 20 iyunda Naxçıvana, sonra Culfaya gələn Andranikin qüvvələri Culfa körpüsünü keçərək Xoya hücum etmişdilər. Ancaq türk qüvvələrinin təzyiqi nəticəsində erməni hərbi dəstələri Culfanın şimalına keçmişdilər.Bu vaxtlarda (21 iyun 1918) IX Orduya belə bir əmr verilmişdi: "Şimali İrana yığışmaq, ingilislərlə ermənilərin birləşməsinə mane olmaq və sonra VI Ordu ilə birlikdə İraqdakı ingilis qüvvələrinə hücum etmək. Bu məqsədlə I Qafqaz korpusunun Qafqaz cəbhəsində vəzifəsi bitdikdən sonra Culfaya yola düşəcək və IV korpus Dilman-Xoy-Culfa xəttində toplanacaqdı.[211] Ancaq IV korpusun döyüşçüləri Şimali İrandakı erməni və Nəsturi dəstələri ilə Naxçıvan ətrafındakı ermənilər arasında qaldıqlarından çox narahat idilər.[212] Andranik qüvvələri də Culfanın Şimalına sıxışdırılmışdır. Ancaq ermənilərin bu bölgədə yenidən toplanması və müsəlman əhalisinə edilən zülmlər IV korpusu hərəkətə gətirdi.

IV korpus komandiri Əli İhsan paşa, I Qafqaz korpusundan təcili olaraq Naxçıvan və Culfaya gələrək digər ermənilərin İran tərəfə keçmələrinə mane olmağı, Araz çayını nəzarətdə saxlamağı və Xoyda məğlub edilən düşmənə arxadan zərbə vurmağı xahiş etmişdi.[213] Əli İhsan paşa I Qafqaz korpusunun gecikə biləcəyini nəzərə alaraq IX Ordu komandanlağından, II Qafqaz diviziyasını sürətlə Naxçıvana gətirilməsini tələb etdi.[214] IX Ordu komandanlığı bu fikirlə razılaşdığını 28 iyul 1918-ci il tarixdə Şərq orduları qrup komandanlığına bildirdi və icazə istədi.[215] Belə görünürdü ki, icazə verilmişdi. IX Ordu komandiri IV korpusa kömək etmək, Rumiyə gölünün qərb sahəsini quldurlardan tamamilə təmizləməyə imkan vermək və eyni zamanda Araz vadisini, həmçinin dəmiryolunu tutmaqla I Qafqaz və IV korpus hərbi birləşmələri arasında əlaqəni, gediş-gəlişi təmin etmək məqsədilə IV korpusa mənsub Qafqaz

təntənəli surətdə qarşıladılar. Naxçıvanda olan kapitan Hüseyn bəy və yeni gələn Şükrü bəy, Hilmi bəy və bir erməni zabiti faytonla şəhərə gəlib, Bəylərağa Kəngərlinin evində qonaq oldular. (Əliyev. Qanlı günlərimiz s.50-51)

209 Andranik dəmir yolunu və körpüləri dağıdaraq Osmanlı əsgərlərinin yolunu bağlamaq istəyirdi. (Əliyev. Qanlı günlərimiz s.53)

210 ATASE A.1/2. kls.366. D.739-1461.F.5-1. Andranikin bu hərəkəti Batumi müqaviləsinin 5-ci maddəsinə uyğun deyildi və vəziyyət Gümrüdəki erməni komissiya sədrinə bildirilmişdi. (Qarabəkir "Şərqin qurtuluşu" s.467)

211 Aysan. İran cəbhəsi III c.s.33

212 ATASE A/4. 6520. kls.3188. D-46.F.3-4

213 ATASE A.5.5649. kls.3941. D.A. 159.F.8

214 Sabis. I dünya müharibəsi. IV c.s. 254. Aysan. İran cəbhəsi. IIIc.s. 34

215 ATASE A.4. 6520. kls.3188. D-46.F.3-4

diviziyasının Naxçıvan-Culfa regionuna gəlməsini məqsədəuyğun saydı. Bu məqsədlə o, diviziyanın 29 iyundan etibarən bölgəni 36-cı diviziyaya verərək yola düşməsini əmr etdi. 11-ci Qafqaz diviziyası birbaşa IX Ordu komandanlığının tabeliyində olacaqdı.[216] Naxçıvana qüvvələr göndərilməsi sahəsində IV korpusa bir sıra qaydalar yaratdı və Şahtaxtını bir güc, qüvvə mərkəzinə çevirdi.[217] Beləcə, Naxçıvana hücum hazırlıqlarını yekunlaşdırmağa çalışırdılar.

II Qafqaz diviziyası 8 iyul 1918-ci ildə Sərdərabad Sədərək[218] istiqamətində sərhəd daxilində olan erməni dəstələrini ortadan qaldırmaq əmri aldı.[219] Diviziya Naxçıvana doğru irəlilədikcə ermənilər Naxçıvana tərəf çəkilirdilər.[220] IX Ordu komandanlığının bir narahatçılığı var idi ki, bu da Naxçıvan ətrafında olan Andranik qüvvələrinin həmin erməni quldurlara yardım etməsi ehtimalı idi.[221] Ancaq II Qafqaz diviziyası qarşısındakı dəstələrini dağıdaraq irəliləyirdi. 10 iyul 1918-ci ildə Uluxanlı ətrafındakı erməni quldur dəstələri dağıdılmış,[222] 11 iyulda türklər Naxçıvan qəzası ətrafına çatmışdılar. 17 iyulda Şahtaxtının cənubunda düşmənlərin müqavimət göstərdiyi erməni kəndi olan Əznəbürd ələ keçirildi.[223] Həmin günlərdə Şahtaxtı və Şərurda türk bayrağı dalğalandı, top atəşləri türk qüvvələrini salamladı.[224]

Mayor Xəlil bəy, Andranikin Naxçıvanda olmasını və Naxçıvan çayının Şərq tərəfindəki dağlarda müdafiə üçün hazırlaşdığını IX Orduya bildirmişdi.[225] Diviziya ermənilərin möhkəm hazırlaşmalarına imkan verməmək üçün əməliyyatlarını sürətləndirirdi. II Qafqaz diviziyası 11 iyulda ermənilərin Naxçıvanın qərb və Şimaldakı mövqelərinə yaxınlaşdı.[226] 1 iyulda hücum başlandı. II diviziyanın hücumunda 12-ci piyada diviziyasının Culfadakı köməkçi qüvvəsi – 36-cı piyada alayı da iştirak edirdi.[227] Ermənilər Naxçıvanın qərb və şimalında bağ ətrafında inadcıl şəkildə özlərini müdafiə edir, vuruşmalar getdikcə şiddətlənirdi. Ermənilər tərəfindən Naxçıvandakı kazarmalar yandırıldı. Həmin gün

---

[216] Aysan. İran cəbhəsi. IIIc.s. 34. Qafqaz cəbhəsi. II c.s. 537

[217] Sabis. I dünya müharibəsi. IV c.s.268-269

[218] Bu gün Naxçıvan Muxtar Respublikasında, Türkiyə- Naxçıvan sərhəd xəttində olan Dilucu istiqamətində yaşayış məntəqəsidir.

[219] (Ankara, 1982) dos.82

[220] Aysan. İran cəbhəsi. IIIc.s. 35

[221] ATASE A/4. 6520. kls. D-46.F. 7-7

[222] ATASE A/4. 6520. kls.3188. D-46.f.7-3

[223] ATASE A/4. 6520. kls.3188. D-46.F.7-32. Cavid bəy komandirliyi ilə 11-ci Qafqaz diviziyası 16 iyulda Şahtaxtıya gəlmişdi. (Əliyev. Qanlı günlərimiz s.67)

[224] ATASE A/4. 6520. kls.366. D.7399-1461.F.5-1

[225] ATASE A/4. 6520. kls.3188. D-46.F. 7-28. Buradakı ermənilərin qüvvəsi təqribi belədir. 3000 piyada, 500-600 süvari. (ATASE A.4. 6520. kls.3188. D-46.F. 7-32. Aysan. İran cəbhəsi. IIIc.s. 35)

[226] Əliyev. Əsərində türk qüvvələrinin 18 iyulda ermənilərə hücum etdiyini yazır. (Əliyev. Qanlı günlərimiz s.68)

[227] IV korpus komandiri Əli İhsan paşanın 17 iyulda verdiyi əmrə görə, 35-ci piyada alayı ilə Şahtaxtıda olan 13-cü alayın ikinci batalyonu əməliyyatda iştirak edəcək idi. Əsas vəzifələri Arazı keçərək Naxçıvandan gedən ermənilərin geriyə qayıtma yollarını kəsmək, onları dağlara çəkilməyə məcbur etmək idi. (Sabis. I dünya müharibəsi. IV c.s.282) Elə bu qüvvələr 19 iyulda Culfadan şimala doğru hücuma başlamışdılar. ( Qanlı günlərimiz s.69)

Naxçıvanın ermənilərdən xilas edilməsi mümkün olmadı.[228] Səhərisi gün (20 iyul) II Qafqaz diviziyasının hücumu gücləndi və Naxçıvan yaxınlığında yerləşən Əliabad və Şıxmahmud kəndləri ələ keçirildi.[229] Son nəticədə, ermənilərin möhkəmləndirilmiş cəbhəsi yarıldı və Türk qüvvələri Naxçıvana girdilər.[230] Şəhərdə şiddətli vuruşmalar baş verdi.

21 iyul səhəri şəhərdəki ermənilərin qaçdıqları bəlli oldu.[231] Türk qüvvələri onları təqib edirdi.[232] Andranik bu dəfə əvvəlcə Gorusa və Sisyana,[233] sonra Qarabağa çəkildi.[234]

35-ci alay da erməniləri şimala doğru sıxışdırırdı. Culfa stansiyasının 8 km şimalında ermənilərin hakim olduqları Culfanı[235] zəbt etdilər. Beləliklə, Naxçıvan-Culfa ətrafında müxtəlif və əvvəlcə məlum olan miqdardan bir dəfə də artıq hissələrdən ibarət Erməni qüvvələri 2 gün davam edən şiddətli vuruşmalar nəticəsində məğlubiyyətə uğradıldı. Düşmən qüvvələrinin kiçik bir hissəsi Araz boyunca şərq tərəfdəki dağlara qaçdı. Naxçıvanda 4 pulemyot, 1 top və xeyli silah və qənimət ələ keçirildi.

---

[228] ATASE A.4. 6520. kls.3188. D.46.F.7-34. Aysan. İran cəbhəsi. IIIc.s. 35. Qafqaz cəbhəsi. II c.s.541

[229] Əliyev. Qanlı günlərimiz s.69

[230] ATASE A. ½, kls.366. D.739-1461.F.5-1; Əliyev. Qanlı günlərimiz s.69. Aysan. İran cəbhəsi. IIIc.s. 35. Qafqaz cəbhəsi. II c.s.541. Yerasimov Millətlər və sərhədlər s.308-309. Naxçıvanın alınması ilə bağlı Sovet hakimiyyəti illərində doğru məlumat yox idi. Bu əsərlərdə türk hərbi dairələri ilə bağlı ağla gəlməyən iftiralar, təhqirlər mövcuddur. Siyasi baxımdan yazılan bu ifadələr həqiqətdən uzaqdır. Buna görə də bu tədqiqatda bu ifadələrə yer verilməmişdir. Ancaq türk ordusunun Naxçıvanı ermənilərdən qurtarması ilə bağlı həqiqətlərə diqqət çəkmək və Naxçıvan əhalisinin tərk ordusuna münasibətini göstərmək baxımından o dövrdə yaşamış L.Hüseynzadə və Mirzə Bağır Əliyevin xatirələrində çox mühüm məlumatlar vardır. Məsələn; Hüseynzadə xatirələrində bununla bağlı yazırdı: "Türk ordusunun bu tarixi qalibiyyəti, türk xalqının Naxçıvanın ağır günlərində ona göstərdiyi böyük fədakarlığı, naxçıvanlılar böyük şükranlıqla, minnətdarlıqla qarşıladılar. Məsciddə din adamları türk ordusuna dualar oxuyur, qurbanlar kəsir, ehsanlar verirdilər. Qalib türk ordusunun bayraq qaldırma mərasimi keçirildi.Bu təntənəli mərasimdə iştirak etmək üçün hər tərəfdən gənclər, qocalar, qadınlar, uşaqlar gəlmişdilər. Qurbanlıq qoç gətirmişdilər. Böyük bağın qabağında minlərcə adam toplanmışdı. Bayrağın qaldırılması, xeyriyyəçilik tədbirləri keçirilməsi elan edildi. Hər kəs öz sərvətini fəda edib, bayrağı qaldırmağa çalışırdı. Bu tədbir 10 məcidiyə (20 quruş) ilə açıldı, məbləğ 700 keçdi, 800 məcidiyə deyən səs eşidildi. Bu səs vətənini, millətini sevən cəhrili Kərbəlayı Abbas Hacı Kərim oğlu Bayramovun səsi idi. Kərbəlayı Abbas Bayramov 800 məcidiyə verib, bismillah deyib, taxtın üstünə çıxdı. Türk milli marşının sədaları altında ay-ulduzlu türk bayrağı göylərə yüksəldi. Naxçıvan üzərində türk bayrağı dalğalanırdı.

Kərbəlayı Abbas türk dövlətinin nişanı ilə təltif olundu. Türk Ordusunun və Kazım Qarabəkirin xatirəsini əbədiləşdirmək üçün Naxçıvanda iki gözəl çeşmə inşa edildi.

Çeşmələrin birinin üstündə "IX türk artilleryası", o birinin üstündə "Kazım Qarabəkir adına XI Qafqaz artilleriyası" sözləri yazılmışdı. Çox təəssüf ki, hər iki çeşmə indi dağılmışdır. (Hüseynzadə L. İbrət dərsləri) Hüseynzadənin ifadəsində bir səhvlik vardır. "XI Qafqaz artilleriyası" ifadəsidir. Bölgədə olan I Qafqaz artilleriyasıdır. Naxçıvanı azad edən XI Qafqaz diviziyasıdır. Hüseynzadə II diviziya ilə XI artilleriyanı qarışıq salmışdır.

Mirzə Bağır Əliyevin bu məsələ ilə bağlı xatirələri də L.Hüseynzadə ilə eynidir. Əliyevin xatirəsinə görə, Naxçıvan şəhərindən ermənilər çıxarıldıqdan sonra Cavid bəy, Həsən bəy, Akif bəy və digər türk zabitlərinə Rəhim xanın evində ziyafət verilmişdir, sonrakı günlərdə də şənliklər keçirilmişdir. Daha sonra türk bayrağını göyə qaldırma mərasimi keçirilmiş 350 lirə verən Kərbəlayı Abbas Bayramov türk bayrağını göylərə qaldırmış və Cavid bəy də onu Osmanlı medalı ilə təltif etmişdir. (Əliyev. Qanlı günlərimiz s.68-73)

[231] Naxçıvandakı müsəlmanlar ermənilər getdikdən sonra evlərini talan etmişdilər, ancaq bütün bunlara türk dairələri tərəfindən son qoyulmuşdur. (Əliyev. Qanlı günlərimiz. s.68-73)

[232] ATASE A.1.2. kls.366. D.739-1461.F.5-1

[233] Кавказское слово, 12 декабр 1918. Hovanisian A. Ermənistan. 1918.s. 194

[234] İ.A. № A 184.021.86

[235] Bölgədə indiki kimi iki Culfa var. Biri İranın tərkibində, o biri isə Nax..MR tərkibindədir. Qədim vaxtlarda İran tərəfdəkinə İran Culfası, Rusiya tərəfdəkinə isə Rus Culfası deyilirdi.

Naxçıvan və Culfanın alınmasından sonra 11-ci Qafqaz diviziyası IX Ordunun əmrinə uyğun olaraq bir alayı Culfada, bir alayı Şahtaxtıda, qalan hissəsi isə Naxçıvanda yerləşdirməklə müdafiə mövqeyinə keçdi. Diviziya şərq və cənubi-şərqdən gözlənilən hücumlara qarşı təhlükəsizlik tədbirləri gördü. Kəşfiyyat vasitəsilə ermənilər haqqında məlumat əlavə edildi.

35-ci alay Naxçıvanı zəbt etdikdən sonra II Qafqaz diviziyası hissələri Culfaya gəldi, 23 iyulda IV korpusun əmrinə əsasən bir batalyon və 12 diviziyanın süvari rotası rus Culfasında qaldı və alayın iki batalyonu Təbrizə göndərildi.[236]

Naxçıvan bölgəsinin türk qüvvələrinin əlinə keçməsi ilə regionun əhalisi erməni zülmündən qurtarılmış,[237] Gümrü-Culfa dəmiryolu tamam nəzarət altına alınmış,[238] IV korpusla birbaşa əlaqə yaradılaraq qüvvələrin Şimali İrana getməsi asanlaşdırılmış və bu da hərbi əməliyyatlar üçün böyük bir şərait yaratmışdır.[239] Naxçıvan bölgəsinin tutulması nəticəsində Batumi müqaviləsinin şərtləri felən yerinə yetirilmiş və bölgə türk idarəetmə sisteminə keçmə mərhələsinə girmişdi.

### 3. Yerli və inzibati təşkilatların yaradılması

Türk orduları Naxçıvana gəlməmişdən əvvəl bu şəhərdə müsəlman və erməni milli komitələri mövcud idi.[240] Ancaq bölgə türk üsuli-idarəsinə keçəndən sonra bu cür müəssisələr aradan qaldırılır, yerini Osmanlı sistemi tuturdu. Türk hərbi dairələri vəziyyəti nəzərə almış, Şərq Orduları komandanlığı 20 iyul 1918-ci il tarixli teleqramı ilə Osmanlı üsuli-idarəsinə keçən bölgələrdə idarəetmə təşkilatlarının yaradılmasını və bununla əlaqədar gərəkli şəxslərin göndərilməsini tələb edirdi.[241]

Tələbin təcili yerinə yetirilməsi mümkün deyildi. Müharibə şəraiti, İstanbulun uzaqlığı, nəqliyyat çətinliyi və sistem dəyişikliyi[242] kimi səbəblər

---

[236] Aysan.İran cəbhəsi, c.III. s.35-36

[237] M.B. Naxçıvan-Şərur məsələsi. Osmanlı türklərinin bu yaxşılığını inkar etmək biharamlıq olacağını Azərbaycan türkləri deyirdilər. (Nağdəlizadə "Naxçıvan fəlakətlərin tarixçəsi"). Naxçıvan bölgəsinin türk nəzarəti altında olmasının bir faydalı nəticəsi odur ki, o dövrdə Naxçıvanda çox ölümə səbəb olan vəba əleyhinə tədbirlər görüldü. Əliyev. Qanlı günlərimiz s.50,65,72.

[238] 1918-ci ildə başlayan irəli hərəkat nəticəsində 1914 sərhədindən başqa bu dəmiryollar da əlimizə keçmişdir. Batumi-Gürcüstan sərhədi 32 km, Sarıqamış-Gümrü 135 km, Gümrü-Naxçıvan (Culfa) 320 km. Bütün bu dəmiryolların bütöv uzunluğu 487 km-dir. (Təsviri-Əfkar) 19 iyun 1334. 1918. №2490.Təsvir-Əfkar. 25 iyun 1334. 1918. № 2496

[239] Zürrer. Qafqaz. s.531

[240] ATASE A.1.2. kls.366. D.739-1461.F.5-1. Əliyev. Qanlı günlərimiz s.9-72

[241] ATASE A.4. 6520. kls.3188. D-46.F.6-45.

[242] Osmanlı dövlətinə yeni daxil olan bölgələr uzun müddət Rusiyaya bağlı qalmışdır. Rus sistemi bu bölgələrdə möhkəmlənmişdir. Bir anda rus sistemindən Osmanlı sisteminə keçmək çox çətindir. Osmanlı hökuməti bunu bildiyindən Qafqazda ilhaq edilən bölgələrdə rusların vaxtındakı vergilərin və keçmiş bələdiyyə sisteminin davam etdirilməsini məqsədəuyğun hesab etdi. (BOA, MVM. 22 may 1334.1918, 212.32; BOA.MVM. 4 sentyabr 1334.1918:212.169)

bu sahədə əsas faktorlar sayılırdı. Digər tərəfdən, Osmanlı üsuli-idarəsinə keçən bölgələrdə tez bir zamanda təşkilati işlərə baxmaq lazım idi. Belə çətinliklər və sıxıntılar üzündən bölgəyə idarəetmə məmurları göndərilmədi, hərbi dairələr işə qarışdı. Yeni ələ keçirilən bölgələrin əhalisinin iştirakı ilə təşkilati işlər başlanıldı.

İlk olaraq II alay komandiri Sürəyya bəy Naxçıvana məhəlləyi-rəisi (qəza rəisi) təyin edildi.[243] Naxçıvana gələn Sürəyya bəy əhalinin nümayəndələri ilə bir yığıncaq keçirdi. Yığıncaqdakı çıxışında Sürəyya bəy milli komitənin ləğv edildiyini, yerində jandarma, ədliyyə və bələdiyyə idarələrinin yaradıldığını dedi. Jandarma rəisliyinə Məmmədəli xan, müavini Cani bəy Vəzirov, bələdiyyə rəisliyinə[244] Cəfərqulu xan, üzvlüyə isə Hacı Abdulla Şeyxov, Tağı Nağdəliyev, Mülki məhkəməyə Şeyx-Kərim Axundzadə, Cabbar Kələntərov, Vəli ağa Kəndlinski təyin olundular[245]. Onlar dərhal vəzifələrinin icrasına başladılar. II Qafqaz diviziyasının Təbrizə hərəkəti qərara alındı. Sürəyya bəyin yerinə Naxçıvan Yerli hökumət rəisliyinə mayor Əli Şəfiq bəy təyin olundu.[246]

Əli Şəfiq bəy Naxçıvan bölgəsində bir sıra qaydalar qoydu və dəyişikliklər apardı. İlk olaraq jandarma komandirliyinə Cavad bəy adlı bir türk zabitini təyin etdi. Keçmiş komandiri və müavini isə onun müavinləri oldular. Ancaq bir müddətdən sonra jandarma komandirləri müavinlərindən Cani bəy Culfa anbar məmurluğuna təyin edildi. Həmin günlərdə (11-12 avqust) Cəfərqulu xan Naxçıvan bələdiyyə rəisi vəzifəsindən çıxdı. Yerinə qardaşı Rəhim xan gəldi. Naxçıvan qəzası nahiyələrə bölündü, nahiyələrə müdirlər müəyyənləşdirildi. Bu zaman İbrahim bəy Qədimov Şərur nahiyəsi müdiri vəzifəsinə, Naxçıvanın keçmiş şeflərindən Cabbar ağa Vəzirov isə şəhər

---

[243] Osmanlı hərbi yazılarında Hökuməti-məhəlləyi-rəisliyi şəklindədir. Əliyev isə xatirələrində bu vəzifəni ümumiyyətlə mütəsarif (qəza rəisi) adlandırsa da, bəzən hökuməti-məhəlliyə adlandırmışdır. Xalis Turqut bəy özünün 1918-ci ilin oktyabrında Naxçıvan yerli hökuməti rəisi vəkili təyin edildiyini qeyd etmişdir. Ancaq Naxçıvanda mutasarıflıq yoxdur İğdırda olduğu kimi (ATASE A.4. 8314. kls.251. D.1-4.F.3-1), Naxçıvanda da yerli hökumət rəisi (Hökuməti-məhəlləyi-rəisliyi) mövcud olmuşdur. (ATASE A.4. 8314. kls.251. D.1-4.F.2-2.17). Xalis Turqut bəy də Naxçıvan hökumətinin mülki məmuru olduğunu söyləməsi bu cəhətdəndir. (TBMM, Arxivi, TBMM üzvünün tərcümeyi-hal vərəqəsi, nümunəsi № 619). Beləcə də, Xalis Turqut bəy Naxçıvanda bir hökumətin varlığından bəhs etmişdir.

[244] Eyni dövrdə Şərur, Qəmərli və Culfada bələdiyyələr təyin edilmişdir. ATASE A.4. 8314. kls.251. D.1-4.F.43-1

[245] Mədətov Naxçıvan türk üsul-idarəsinə keçdikdən sonra Milli Komitə öz fəaliyyətini davam etdirdiyini və bu komitə ilə türk hərbi dairələri arasında Rəhim xan, Kamran xan və Cabbar ağa Vəzirovun əlaqə saxladıqlarını yazırdı. (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.41) Hacıyev bu fikirləri qeyd edir. (Hacıyev. Qars və Araz-Türk Respublikaları s.46) Mədətov və Hacıyevin yazılarında elmi əsas yoxdursa da, İbrahimov nisbətən mövzuya yaxınlaşa bilmişdir. Buna görə də türklər Naxçıvanın Türkiyəyə verildiyini elan etdikdən sonra 17 iyulda Naxçıvan Milli Şurasını ləğv edib, əvəzində Türkiyə bələdiyyə idarəsi yaratdılar. Naxçıvan vilayətinə Türkiyə kaymakamı, Naxçıvan, Şərur, Ordubad bölgələrinə isə Türk komandirləri təyin edildi. (İbrahimov. Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. s.492)

[246] Əliyev. Qanlı günlərimiz s.72-75.

polis idarəsi müdirliyinə təyin edildi. Eləcə də şəhərdə məhəllə muxtarları təyin olundu[247] və işlər çox asan bir şəkildə başladı.

Naxçıvan bölgəsində türk hərbi dairələri ilə yerli əhali imkanları daxilində yerli və inzibati idarələr yaradılması sahəsində müəyyən işlər görürdülər. Osmanlı hökuməti də boş durmurdu. 1918-ci ildəki Şərq əməliyyatları nəticəsində əldə edilən Elviyə-i-Selase və Batumi müqaviləsinə əsasən ələ keçirilən bölgələrdə inzibati idarənin qurulması üçün fəaliyyətə başlamışdı.

Brest-Litovsk müqaviləsinə görə, Türkiyəyə verilən "Elviyə-i-Selasedə" Türkiyə ilə birləşmək istəmələri üçün plebist (rəy sorğusu) keçirmək lazım idi. Plebist keçirildi və xalqın əksəriyyəti türk üsul-idarəsini üstün tutdu. Buna görə də 15 avqust 1918-ci ildə padşah Məhəmməd Vəhidəddin tərəfindən Elviyə-i Selase əhalisinə bir bəyannamə verildi və rəsmən bu torpaqlar Türkiyəyə birləşdirildi.[248] Bu birləşmə qərarından sonra bölgədə Batumi müqaviləsi əsasında alınan yerlər də daxil olmaqla idarəetmə, hərbi və maliyyə işlərinin qaydaya salınması sahəsində fəaliyyət başlandı.

Daxili işlər nazirliyinin səlahiyyətli şəxslərdən toplanan bir heyəti Elviyə-i Selase, Gümrü, Axıska, Axılkələk və Sürməli bölgələrinin inzibati, hərbi və maliyyə işləri ilə əlaqədar bir sıra qərarlar qəbul etdi. Qərarlarda Elviyə-i Selasedə bir sıra qaydaların qoyulması ön plana çəkilirdisə, Gümrü, Axıska, Axılkələk və Sürməli üçün fərqli şərtlər-məsələlər meydana çıxmışdı. Buna görə də bu bölgələr "Elviyə-i Selase" kimi hələ Osmanlı dövlətinə ilhaq edilmədiyindən kadrların tənzimlənməsi üçün məmur göndərilməsinə imkan yox idi. Daxili işlər nazirliyinin məsləhətçisi tərəfindən göndərilən məlumata görə, adı göstərilən rayonlar iki qəsəbəyə ayrılaraq xüsusi şəkildə idarə olunacaqdı. Ancaq qarışıqlığa yol verilməməsi üçün Elviyə-i Selasedə qanunlar və vergilər necə tətbiq olunurdusa, Axılkələk, Gümrü və Sürməlidə[249] də eyni cür olması məqsədə uyğun sayılmışdı.

Hazırlanan bu layihələr vəkillər məclisinə təqdim olunmuş və bu məclisin 4 sentyabr 1918-ci ildə keçirilən yığıncağında qeyd olunan bölgələrin idarə edilməsi ilə əlaqədar təşkilatın, ümumi idarə edilməsinin qanun layihələrinin hazırlanması yuxarıda adı çəkilən heyətə tapşırılmışdı.[250]

---

[247] Bu dövrdən sonra idari dairələrdə bir sıra dəyişikliklər oldu. Məsələn, Naxçıvan yerli hökumətinə bağlı olan Qəmərli nahiyə müdirliyinə Mirzə Tağı Nağdəliyev təyin olundu, o, bunu qəbul etmədi. Bu vəzifə Cami bəyə verildi. (11 sentyabr 1918) bundan iki gün əvvəl Əli Şəfiq bəy Rəhim xanı bələdiyyə rəisliyindən azad edib, yerinə Mirzə Bağır Əliyevi təyin etmişdi. (Əliyev. Qanlı günlərimiz s.75-79)

[248] BOA, DUİT, 1-1

[249] 4 sentyabrda təşkil edilən Batumi vilayətində Naxçıvan qəza olaraq müəyyənləşdirilmişdir. Axıska, Axılkələk, Gümrü və Sürməlinin adı çəkilməmişdir. Digərləri yuxarıda qeyd edildiyi kimi özəl idarə təşkil etdilər və ya Batumi müqaviləsinə görə ələ keçirilən bölgələrdən ancaq Naxçıvan qəza olaraq qaldı. Digər bölgələr isə ən yaxın qəzaya bölgə olaraq bağlanmışdır.

[250] BOA, DUİT sentyabr 1334/1918, 212/169

İşlər sürətlə davam etdirilirdi. 7 sentyabr 1918-ci il tarixdə Daxili İşlər Nazirliyi Batumi və Qars qəsəbələrindən ibarət 1 vilayət, inzibati cəhətdən bu vilayətə bağlı 23 qəza və 100 nahiyənin təşkilinin vacib olması haqqında "Əsbabi-Mucibə" layihəsi (Lazımi səbəblər layihəsi) nəşr etdirdi. 11 sentyabrda qərarnamə hazırlanması üçün layihə məclisi-ümumiyəyə göndərildi.[251] Batumi vilayətinin təşkili haqqında hazırlanan qərarnamə 14 sentyabrda qəbul edildi və qüvvəyə mindi. Qərarnamənin surəti belə idi:

Birinci maddə - Qars, Ərdahan və mərkəzə bağlı Batumi və Qars qəsəbələrindən ibarət Batumi vilayəti təşkil olunmuşdur. Batumi qəsəbəsi- Orta Batumi, Çürüksu, Borska, Maradit, Aşağı Acara, Yuxarı Acara, Artvin, Ardanuç, Şavşat qəzaları ilə 35 nahiyədə, Qars qəsəbəsi- Ərdahan, Gölə, Çıldır, Nəfsi Qars, Şürəgəl, Ağbaba, Zaraşad, Sanqamış, Xorasan, Kağızman, Naxçıvan,[252] Oltu, Tavuskerd və Poshof qəzaları ilə 65 nahiyədən ibarətdir.

İkinci maddə - Qeyd edilən vilayətlərin özəl vəziyyətlərinə və ümumi idarə olunma qanunlarına əsasən ilhaq olunmamış bu yerlər vilayətə bağlanacaqdır.

Üçüncü maddə - Vilayət, qəsəbə, qəza və nahiyələr vilayətə aiddir.

Dördüncü maddə - Bu qərarnamə nəşr olunduğu gündən etibarlıdır.

Beşinci maddə - Bu qərarın icrasına vəkillər heyəti məsuldur.

14 sentyabr 34-cü il.[253]

Beləliklə, Naxçıvanın mülki idarəsini yaratmaq məqsədilə Xalis Turqut bəy Naxçıvana təyin olunması ilə əlaqədar bu məlumatı vermişdir: "1333 və 1334-cü illərdə batalyon yavəri idim. Həmin ildə Naxçıvan inzibati hökumətinin təşkilinə qatıldım və rəis vəkili (mütəsərrif vəkili)[254] oldum.[255] Bu vəzifəni icra edərkən ehtiyatda olan zabit deyildim, əsgər idim.[256] "Xalis Turqut bəy bu vəzifədə qısa bir müddətdə çalışdı. Bölgənin boşaldılması haqqında qərar verildi və 1918-ci ilin noyabr ayında bölgədən getmək məcburiyyətində qaldı. Tərxis edildi və Sivasa qayıtdı.[257] Xalis

---

[251] B.OA,D, DUİT, 1-1

[252] Bizim bildiyimiz Naxçıvan bölgəsidir.

[253] BOA. DN-İVM, E/40-30; DUİT 1-1. Düstur, C.X.2.tərtib, s. 586-587; Ati, 16 sentyabr 1334/1918№ 202; Hilmi Uran. Xatirələrim .Ankara, 1956, s. 105-106

[254] O dövrdə əsgərlikdə olan xalis Turqut bəy Naxçıvan inzibati hökumətinin yaradılmasına məmur təyin edilmişdir. Belə başa düşmək olar ki, Xalis Turqut bəy yerli hökumət rəisi Əli Şəfiq bəyə idarə etmə işlərində köməkçi olaraq təyin edilmişdir.Bəlkə də mütəsərriflik-yerli hökumət mənasındadır. Əslində Naxçıvanda-mütəsərriflikdən söz açmaq mümkün deyildi. 14 sentyabr tarixli qərarnaməyə əsasən Naxçıvan qəzadır, sancaq deyildir. Həm də araşdırmalar zamanı Naxçıvana nə kaymakam, nə də mütəssərrif təyin edildiyinə rast gəldik. Əliyev Sürəyya bəydən mütəsəərrif deyə söz açırsa da, əsərin digər hissələrində yerli hökumət rəisi olaraq yazılır.

[255] Çankaya. Mülkiyyətlər.c.IV, s.1522

[256] TBMM arxivi üzvünün tərcümeyi-hal sənədi. № 619

[257] Çankaya. Mülkiyyətlər.c.IV, s.1522

Turqut bəyin bölgədən dəqiq nə vaxt ayrıldığını bilmirik. Ancaq bildiyimiz budur ki, türk ordusu bölgədən çıxana qədər. Naxçıvan Yerli hökumət rəisi Əli Şəfiq bəy burada qalmış, yerli əhalinin öz idarəetmə və hərbi təşkilatlarını yaratmasında böyük rol oynamışdır.[258]

**Türk hərbi hissələrinin Naxçıvana göndərilməsi**

Türk hərbi hissələri Naxçıvan regionuna (Ordubaddan başqa) gəldikdən sonra hərbi hissələr müxtəlif bölgələrdə yerləşdirilmişdir. Buna görə də 18-ci Qafqaz alayı və bir dağ batareyası Şahtaxtı ilə Uluxanlı arasında, bu alayın bir batalyonu Naxçıvanda, 33-cü Qafqaz alayı Naxçıvanın şimal-şərqindəki Qızılboğaz, Alagöz, Məzqa, Qaraqala, Barmasa istiqamətində yerləşdirilmişdi. 34-cü Qafqaz alayının bir dağ batareyası 29 iyun 1918-ci ildə Culfaya getmək üçün hərəkətə başladı. II Süvari bölüyü Culfanın qərb hissəsində, II Qafqaz diviziyasının qərargahı və qalan hissələri isə Naxçıvanda yerləşdirilmişdir.[259] Ancaq II Qafqaz diviziyasının həyata keçirdiyi bu tədbir uzun sürmədi. Baş komandanlıq vəkilliyindən bir əmr [260] gəlmişdi. Şərq orduları qrup komandanlığı IX Ordu komandanlığına İranda qüvvələrin artırılması lazım olduğunu bildirdi. 29 iyul tarixli əmrə əsasən II Qafqaz diviziyasının nəzarəti altında olan Naxçıvan regionuna 9-cu Qafqaz diviziyası göndərildi.[261] II Qafqaz diviziyası isə Təbrizə yığışacaqdı. Onunla əlaqədar 1 avqustda korpuslar təşkilatı və cəbhələrində dəyişikliklər edildi. Yeni tərtibə əsasən 15-ci diviziya və 36-cı diviziya II Qafqaz korpusunun tərkibində [262] Gümrüdə qaldı. 9 və 11-ci diviziyalar I Qafqaz korpusuna verildi. Beləcə Şimali İran və ya başqa cür desək, Cənubi Azərbaycan və Naxçıvan I Qafqaz korpusunun nəzarəti altında idi.[263] 1 avqust 1918-ci il tarixində I Qafqaz korpusu və 9-cu Qafqaz diviziyasının göndərilməsi üçün 28 vaqon ayrıldı. Əmrə görə 9-cu diviziyanın qərargahı Şahtaxtıya, I Qafqaz korpusu qərargahı isə Naxçıvana köçürüləcəkdi.[264] IX Ordunun bu əmrinə qarşı I Qafqaz korpusu komandiri Kazım Qarabəkir paşanın bir çox təklifləri var idi. 6 avqustda Gümrüdən Naxçıvana göndəriləcək artilleriya qərargahı üçün ayrılan vaqonlar məsələsində etirazını bildirmişdi. Çünki korpus

---

[258] ATASE. A.4. 8314. kls. 251. s. 1-4. f. 17, 35-3, 35-4

[259] ATASE. A.4. 6520. kls.3188. D.46. F.6-24.

[260] Qafqaz cəbhəsi II c.s. 541

[261] ATASE. A.4. kls.3188. D.46. F.16. Aysan. İran cəbhəsi III c.s. 46. Əliyev.Qanlı günlərimiz s.74-75

[262] II Qafqaz korpus əvvəlcədən edilən dəyişiklik nəticəsində IX Ordu komandanlığına çevrilmişdir.

[263] Qarabəkir. Şərqin qurtuluşu. s. 431-484. I Qafqaz artilleriyasının 334-cü ildəki hərəkatı. s.93.

[264] ATASE. A.5. 564. kls. 3933. D. 134-36. F.2. Bu nəqletmədə 1906-cı ildə rusların saldıqları dəmiryolundan istifadə olunacaqdı. Culfaya çatmaq üçün qatarlar bu stansiyalardan keçməli idi. Sərdarabad, Uluxanlı, Markara, Qəmərli, Dəvəli, Arazdöyən, Noraşen, Baş Noraşen, Şahtaxtı, Qaraquluq, Bambaşı, Qızılvəng, Nehrəm (Mehram), Culfa. (Serqey İnisimov Qafqaz bələdçisi. 1926,271-272. II c.s.516)

komandanlığının yeni göndərəcəyi və hökumətin şərəfini təmsil edəcəyi bir regionda vaqonlar üzə çıxmalı halda deyildir. Bunula əlaqədar Paşa, Qarsda təmir edilmiş vaqonlardan bir qismini müvəqqəti istifadə üçün almaq fikrində idi. Kazım Qarabəkir Paşa IX ordudan Naxçıvan bölgəsində istifadə etmək üçün hər biri 15 vaqonluq olan 3 qatar istəyirdi. Bu qatarlar regionda asayişi mühafizə edən türk hərbi hissələrinin hərəkət etmələrinə kömək edəcəkdi.[265]

Paşanın vaqon tələb etməsinə baxmayaraq, ancaq IX ordu komandanlığı korpusa Naxçıvan regionunda istifadə üçün qatar ayrılması və verilməsini məqsədəuyğun saymamışdı. Çünki Dəmiryol idarəsi [266] yaradılmış və Ordudan ayrılmışdı.

Ancaq Naxçıvanın kifayət qədər qatarla təmin edilməsi üçün IX Ordu komandiri Yaqub Şövqü Paşa dəmiryolu idarəsinə əmr edə bilər.

5 avqust 1918-ci il tarixdən etibarən I Qafqaz korpusunun 4 mərhələdə Naxçıvana göndərilməsinə başlanıldı. Qrup komandirləri Naxçıvana çatan kimi vəziyyəti telefonla bildirməli idilər.[267] I hissə Naxçıvanda qərargah üçün seçilən yeri düzəldəcəkdi. Naxçıvana çatan qrup komandirləri bir-bir korpusa vəziyyəti bildirdilər.[268] Bu köçürülmə əsnasında hərbi hissələrin bir qisminin Naxçıvanın müxtəlif yerlərində yerləşdirilməsi və Dəvəlidə bir cəbbəxana yaradılması nəzərdə tutulmuşdu.[269] Korpusun hələlik Naxçıvana gəlməyən hissələri İğdır və Sərdarabadda məhsul yığımı ilə məşğul olanlar və korpusun ət ehtiyatını təmin edən qoyunlar idi. Onlar Naxçıvan ətrafında münasib bir otlaq tapılana qədər İğdır və Sərdarabad bölgəsində qaldılar.[270]

I Qafqaz korpusunun qalan hissələrini Naxçıvana göndərmək üçün 6 avqust 1918-ci il tarixdə qatarlar müəyyənləşdirilmiş[271] və 7 avqustda

---

[265] ATASE. A.5.5649.kls.3933.s.134-36. F.2-11

[266] Türk ordularının Qafqazda irəli hərəkatı başlayan kimi bir sıra dəmiryollarını ələ keçirdi. Əllərində olan və ələ keçiriləcək dəmiryollarından istifadə etmək lazım idi. Bunun üçün Hərbi Nazir vəkillər Məclisinə müraciət etdi. Qafqaz cəbhəsindəki dəmiryollarının işlədilməsinə və onların hicaz və hərbi dəmiryolları və limanlar idarəsinə verilməsini tələb etdi. Bu tələb Vəkillər Məclisinin 18 iyul 1918-ci il tarixli iclasında qəbul edildi. (BOA, MVM, 18 aprel 1334. 1918; 211 175) Qarabıyıq-Sarıqamış və Sarıqamış-Qars-Gümrü dəmiryollarının işə salınması ilə əlaqədar dəmiryolları İşlətmə Müdiriyyəti yaradıldı. Burada rəis istehkam podpolkovnik Əli Şəfiq bəy təyin edildi. Ancaq bu dəmiryolunu işləmək üçün mütəxəssis yox idi. Bu məqsədlə bolşevik idarəsindən narazı olan, Sarıqamış, Qars və Gümrüdə qalmış ruslardan istifadə olunurdu. Sonradan 25-30 nəfərlik dəmiryol işçisi İstanbuldan gəlir. (Rüfət Ərdal. Bir ehtiyatda olan subayın I dünya hərbi xatirələri 3. Qurtuluş savaşı başlayır. Həyat Tarix Məcliyəsi. II (IX c.(1971)s.74). Vəkilər məclisi. Şərq Orduları qrup komandanlığının hərbi Nazirdən etdiyi ricaya əsasən Qafqaz cəbhəsindəki dəmiryollarının qonşu dövlətlərlə tranzit əlaqəsi və b. məsələlərlə əlaqədar bir sıra qərarlar qəbul etmişdi. (BOA MVM, 2 təşrini-əvvəl 1334, 23 oktyabr 1918.212.197)

[267] ATASE. A.5.5649.kls.3933.s.134-36. F.2-12.2-14.2-15

[268] Qatarlar Gümrüdən Naxçıvana 15 saata gəlirdilər. (ATASE. A.5.5649.kls.3933.D-134-36. F.2-9)

[269] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-26, 2-27, 2-28, 2-80, 20-47, 2-50

[270] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-3

[271] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-44

Kazım Qarabəkir Paşa Naxçıvana gəlmişdi.[272] Korpus qərargahından sonra korpus hissələrinin və eləcə də 9-cu Qafqaz diviziyasına aid qüvvələrin Naxçıvana göndərilməsi davam edirdi.[273] Regiona gələn hərbi hissələr korpus komandanlığının müəyyən etdiyi yerlərdə yerləşirdilər.[274] Bunlardan əlavə, Naxçıvana bir sıra ərzaq məhsulları, işçi qüvvəsi və xırda buynuzlu heyvan sürüləri göndərilirdi.[275]

I korpus qərargahı və 9-cu Qafqaz diviziyası Naxçıvana çatan kimi regionu yeni qüvvələrə təhvil verən II Qafqaz diviziyası Təbrizə yola düşdü. Diviziyanın 1-ci hissəsi 16 avqust 1918-ci ildə, son hissəsi 20 avqustda Təbrizə çatdı.[276] Qərargahını Naxçıvanda yaradan Kazım Qarabəkir paşa bölgədə uzun müddət qala bilmədi. 0, Naxçıvanla Azərbaycan arasında bir maneə sayılan erməni dəstələrinin nəzarəti altında olan Zəngəzuru ələ keçirmək, türk dünyası arasında həqiqi əlaqəni yaratmaq istəyirdi. Ancaq onun təklifləri qəbul olunmadı və Təbrizə getməsi qətiləşdi.[277] 1 sentyabrda Naxçıvanda hazırlanan qatar Qarabəkir paşanı və korpus qərargahını Təbrizə aparmaq üçün saat 16.00-da yola düşdü.[278] Axşam üstü Culfaya çatdılar. Erməni dəstələrinin körpünün altına dinamit qoyduqlarını ehtimal edərək, gecəni sərhəddə keçirdilər. Səhərisi günü körpü yoxlandıqdan sonra qatar yola düşdü. Təbriz stansiyasında korpusu İran vəliəhdi Məhəmməd Şah qarşıladı[279] (2 sentyabr 1918).[280] Beləcə, Türk hərbi hissələri Gümrüdən Naxçıvana, oradan da Təbrizə doğru istiqamət götürdülər. Dəmiryolu üzərində baş verən hadisələri Erdoğan xatirələrində[281] belə dilə gətirmişdir: "Ordumuz maddi və mənəvi cəhətdən xeyli qüvvətlənmişdi. Hara gedirdilərsə, orada ruslardan qalan anbarlarda hərbi ləvazimatlar, ərzaq, geyim bolluğu ilə rastlaşırdılar. Əsgərlər təzə paltarlar geyinmişdilər, Qafqazın havası, suyu və zəfər eşqi ilə hər biri coşmuş aslana bənzəyirdi. Kazım Qarabəkir

---

[272] Qarabəkir. Şərqin qurtuluşu. s.431-484; I Qafqaz korpusunun 334-cü ildəki hərəkatı s.13. Süleyman İzzət Böyük müharibədə 15-ci piyada diviziyası, s.19. Qarabəkir paşanın Naxçıvana gəlmə gününü 6 avqust olaraq göstərən Əliyev paşanın qarşılanmasını belə əks etdirmişdir: "Bu gün jandarma komandanlığı tərəfindən dükanların bağlanması və əhalinin dəmiryolu stansiyasına toplanması bildirilmişdir. Məlum oldu ki, Kazım Qarabəkir paşa və digər məmurlar gələcəkdir. Axşam təqribən saat 20 $^{00}$ -da paşa 20-ə qədər zabit və jandarmalarla Naxçıvana gəldi. Rəhim xanın malikanəsinin qarşısı bəzədilmiş, marş çalınırdı. Camaat tərəfindən paşaya ziyafət verildi. Səhərisi gün sabah erkəndən əhali hissə-hissə Rəhim xanın malikanəsinin önünə gəlirdi. Kazım Qarabəkir paşanı görmək və onu təbrik etmək istəyirdi. (Əliyev. Qanlı günlərimiz s.74)"

[273] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-51, 2-52, 2-39, 2-4, 2-73

[274] ATASE. A.5.5649.kls.3933.D.13-36. F.2-667, 2-69.

[275] ATASE. A.5.5649.kls.3933.D.13-36. F.2-90, 2-93, 2-94, 2-95

[276] Aysan. İran cəbhəsi III c.s.48

[277] Qarabəkir. Şərqin qurtuluşu s. 431

[278] Şəhərdəki məmurlar stansiyaya gəlib paşanı yola salırdılar. (Əliyev. Qanlı günlərimiz s.78)

[279] Ərdal. Qurtuluş savaşı başlayır. s.74.

[280] Qarabəkir. Şərqin qutuluşu s.431-484; I Qafqaz korpusunun 334-cü ildəki hərəkatı. s.13

[281] Fəxrəddin Ərdoğan. Türk ellərində xatirələrim. Ankara, 1954, s.163

paşa ordusunu Culfa yolu ilə Təbrizə göndərdi. Özü də qərargahını orada yaradırdı. Arxadan gələn qüvvələr bir ip kimi Qars və Təbriz arasında uzanıb gedirdilər. Qatarlar gecə-gündüz əsgərləri, hərbi ləvazimatları və ərzağı fasiləsiz daşıyırdı. 1917-ci ilin[282] payız aylarına təsadüf edən bu hərəkat zamanı bütün meyvələr yetişmişdi. Kəndlilər yollarda durur, səbətlərə doldurduqları üzüm, qovun və s. meyvələri əsgərlərə verir, onlara sağ-salamat yol arzulayırdılar".

### a) Hərbi hissələrin yenidən nizamlanması

Türk qüvvələri Naxçıvan regionuna gəldiyi gündən etibarən hərbi işə başladılar və bu işin ilk mərhələsini dəmiryolu, körpülər və s. stansiyalar təşkil edirdi.[283] Məqsəd, bu körpü və stansiyaları erməni dəstələrindən qorumaq idi. Bu məqsədlə körpüləri təmir etmək, stansiyalarını ətrafını simlərlə örtmək və içəridə hərbi hissələrin yerləşdirilməsini həyata keçirmək qərara alınmışdı.[284] Türk ordusu Naxçıvan regionunu öz nəzarətləri altına aldı, hərbi qüvvələr Culfa-Təbriz istiqamətində hərəkət etdiyi zaman körpülərin və stansiyaların mühafızəsi və təmiri daha çox əhəmiyyətli oldu. Nəqliyyatın hərəkəti üçün körpülərin təmiri çox əhəmiyyətli idi. Xüsusilə, İğdır ətrafından gələn nəqliyyat üçün Markara körpüsünün təmiri çox vacib sayılırdı. Bu məqsədlə avqust ayının əvvələrində körpünün təmir işlərinə başlanılmış və 23 avqustda sona çatmışdı.[285]

Regionda dəmiryolu xəttinin mühafizəsi və təmiri istehkam rotalarına aid idi. Naxçıvan alındıqdan sonra bu vəzifəni II Qafqaz diviziyasının istehkam rotası yerinə yetirmiş, daha sonra bu vəzifə 9-cu Qafqaz diviziyasına həvalə edilmişdi. Mühafizə zamanı istehkam rotası kifayət etmədikdə ətrafdakı hissələrdən də kömək alınacaqdı.[286] Bu işlər davam etdiyi bir zamanda 9-cu Ordu komandanlığı I Qafqaz korpusundan Sərdarabad və Culfa arasındakı stansiyalarda olan komandirlər və onların rütbələri haqqında məlumat istədi. Dəmiryol xəttini nəzarət altında saxlayan 9-cu diviziya komandanlığı da lazımi məlumatı korpusa - komandanlığına bildirdi.[287] Bu məlumatdan aydın oldu ki, bölgənin mühafizəsi üçün çox əhəmiyyətli olan dəmiryol xətti tamamilə nəzarət altına alınmışdır.

---

[282] 1917-ci il tarixi səhv yazılmışdır, 1918-ci il olmalıdır. 1917-ci il Qafqazda türk hərəkatı yox idi.

[283] Türk qüvvələri bölgəyə gələndə, ermənilərdən alınan və müsəlman əhalinin əlində olan bir çox dəmiryolu materiallarına sahib oldular. (ATASE. A.5/5649.kls.3933.D.134-136. F.1-3. Qarabəkir. Şərqin qutuluşu s.416-417)

[284] ATASE. A.4. 6520. kls.3188. D.46. F.7-19.

[285] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-74, 2-74, 2-75, 2-77, 2-83.

[286] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-70, 2-71, 2-87

[287] ATASE. A.5.5649.kls.3933.D.134-36. F.2-53, 2-54.

20 iyun 1918-ci il tarixə qədər Batumi müqaviləsinə əsasən türk idarəetmə sisteminə verilən Naxçıvan regionu (Şərur-Şahtaxtı, Culfa və Naxçıvan) tamamilə nəzarət altına alınmışdı. Ancaq Batumi müqaviləsinə əsasən Azərbaycanın tərkibində saxlanılan Ordubad tamamilə ermənilər tərəfindən mühasirəyə alınmışdı. Azərbaycan Respublikasının bu bölgədə hökmranlığı yox idi. Bu bölgə nisbətən türklərin əlində olmasına baxmayaraq, ermənilərin təsiri güclü idi. Müsəlman əhaliyə zülm edilirdi. Zəngəzurdakı müsəlman əhali erməni dəstələri tərəfindən mühasirəyə alınmışdı və bu vəziyyət Azərbaycanla əlaqə yaratmağa mane olurdu. Ona görə də Zəngəzura giriş qapısı olan Ordubadı nəzarət altına almaq əsas vəzifələrdən idi.

1918-ci ilin may ayında Nuru paşa Ordubadın nə qədər əhəmiyyətli olduğunu başa düşdü və mayor Xəlil bəyə lazımi göstəriş verdi. Buna görə də Xəlil bəy Naxçıvan, Şərur və Şahtaxtıda bir milli dəstə yaradacaq, turk ordusunun gəlişini asanlaşdıracaqdı. Türk qüvvələri bölgəni nəzarət altına alana qədər həmin hissə bu vəzifəni yerinə yetirmək üçün Ordubada getməli idi. Belə ki, Naxçıvan şəhər mərkəzinin 20 iyulda azad edilməsi ilə Xəlil bəyin vəzifəsi sona yetdi. Artıq Ordubada yola düşməyin vaxtı çatmışdı. Xəlil bəyin əlinin altında 1 topçu, 1 piyada kapitanı, 5 nəfər leytenant, 6 piyada və 2 topçu leytenant var idi. Xəlil bəy onu müşayiət edənlərlə bərabər, Ordubada getmək istəyirdi. Ancaq yolların təhlükəli olması onu gözləməyə məcbur etdi.[288]

Lakin bir müddət sonra Xəlil bəy onu müşayiət edənlərlə bərabər Ordubada getdi və milli dəstə yaratmağa başladı. Lazımi materiallar Osmanlı ordusu tərəfindən təmin edilir, nizami hissələr yaradılırdı. Ətrafda yerləşən və əvvələr üsyan vəziyyətində olan bütün erməni kəndləri itaət altına salındı. Ordubadda yaradılmış hissələrdən Zəngəzur ermənilərinə qarşı da istifadə edildi. Xəlil bəyin müvəffəqiyyətlərinə baxmayaraq sıxıntıları çox idi. Həqiqətən o, I Qafqaz korpusu komandanlığına göndərdiyi 10 oktyabr 1918-ci il tarixli teleqramda göstərirdi ki, hərbi işləri daha sürətləndirmək məqsədilə lazımi ərzaq məsələsi təmin edilməli idi. Bundan başqa, vəziyyətlə əlaqədar Culfa-Ordubad arasında normal telefon əlaqəsinin yaradılmasını da Xəlil bəy nəzərdə tuturdu. I Qafqaz korpusu Xəlil bəyin tələblərini nəzərə aldı və Ordubaddakı dəstənin ərzaq ehtiyaclarının təmin edilməsi 18-ci alay komandanlığına həvalə edildi.[289] Yuxarıda qeyd edilənlərdən aydın oldu ki, Ordubadda yerli hərbi işlər görülmüş və sonrakı işlərdə

---

[288] ATASE. A.1/2.kls.366, D.739-1461, F.5.

[289] ATASE. A.5.5649.kls.3941.D.A.159, F.34-2

baş verə biləcək erməni təhlükəsinə qarşı əhəmiyyətli bir zəmin yaradılmışdı.

9-cu diviziya komandanlığı Naxçıvan regionunda nəzarəti ələ keçirdikdən sonra diviziyanın qərargahı və əsas ağırlıq mərkəzləri Yengicə və Baş Noraşen kəndlərində yerləşdirildi. Bu kəndlərdə havanın çox isti olması və ağcaqanadların çoxluğuna görə 17-ci alay, topçu alayı və diviziya qərargahı 13 sentyabr 1918-ci ildə Xaçınə köçürüldü. Oktyabr ayında havalar soyuduğundan Xaçındən çıxmaq qərarı verildi. Baş Noraşen və Yengicə kəndləri əlverişli olmadığından diviziya qərargahının Qəmərli və Naxçıvana köçürülməsi IX Ordudan tələb edildi.[290] Görünür, bu, qəbul edilməmiş, diviziya qərargahı Baş Noraşendə qalmış və bütün yazışmalar burada aparılmışdı.[291]

Naxçıvan regionundakı hərbi hissələrin qaydaya salınıb nizamlanması regionda asayişi qorumaq və ilk növbədə düşmənə qarşı mübarizə aparmaq, ən önəmlisi isə sərhədin o tərəfindəki ermənilərdən mühafizə olunmaq üçün vacib idi. Buna görə də sərhəd daim nəzarət altında saxlanılır, vəziyyət haqqında ordu və korpusa məlumat verilir, lazımi tədbirlər görülürdü.[292] Naxçıvandakı diviziyanın nizamlanması ilə əlaqədar IX Ordu bir sıra əmrlər verirdi. Belə ki, IX Ordu komandanlığının 9-cu Qafqaz divizyasına göndərdiyi bir teleqramda yazılmışdı: “Diviziyanın məntəqəsi ordu üçün ən mühüm bölgədir. Vəziyyət çox mühümdür. Dəmiryol xəttinin, Araz vadisinin bölgədəki mənbələri və müsəlman əhalisinin mühafizəsi əsasdır. Bunun üçün də bölgənin hər tərəfində olmalısınız. Divizyanın işini asanlaşdırmaq məqsədilə 3-cü diviziyadan bir alay Culfaya göndərilir. Alay Culfa körpüsünü və ətrafını mühafizə etməyə məsuldur. Diviziya qüvvələri də Naxçıvan, Şahtaxtı, Sədərək, Qəmərli, Eçmiədzin bölgələrində qüvvətli qruplar şəklində olmalı və bütün sərhədin rota və patrullarına nəzarət edilməlidir. Mərkəz sayıla bilən Sədərək ətrafında diviziya qərargahının yerləşməsini münasib görürəm. İndiyə qədərki, kəşfiyyat və təcrübələrinizə əsasən hərəkət edə bilərsiniz.[293]

IX Ordunun bu teleqramına 9-cu diviziya komandiri polkovnik Rüşdü bəy 16 oktyabrda cavab vermişdi. Cavaba görə, diviziya bu qaydada nizamlanmışdı. Süvari rotasından bir hissə qüvvələrlə bərabər üç batalyon piyada sərhədin əsas nöqtələrini qoruyurdu. Yeddi rota Naxçıvanın doqquz kilometrliyə qədər cənubundakı Təzəkənddən Sərdarabad stansiyasına qədər olan bölgədəki dəmiryol xəttini, Araz çayı üzərindəki körpü və keçidləri

---

[290] ATASE. A.5.5649.kls.4844.D.293. F.26-3.

[291] ATASE. A.5.5649.kls.4844.D.293, F.61, 64, 67-3, 43-3

[292] ATASE. A.6/.5669.kls.4844.D.293. F.17-1, 17-2, 23-4.25

[293] ATASE. A.5/5669.kls.4844.D.293. F.35

mühafizə edirdi. Bütöv halda altı rota Naxçıvanda, altı rota Yengicədə, 5 rotaya qədər qüvvə də Böyük Vedidə qalmışdı. Zəngəzurdakı Andranikin və Dərələyəzdəki Yapunun dəstələri əlaqə yaratmış və hər hansı bir hücumlarına qarşı Culfa, Naxçıvan, Şahtaxtı və Noraşen bölgələrində güclü qüvvəyə ehtiyac olduğundan qüvvələrin daha artıq paylanmasına imkan yox idi. Andranikə qarşı müsəlman ordusu tərəfindən aparılan hərəkatın nəticəsində Culfaya gələn alaydan sonra bölgədə daha artıq hərbi hissə yaradılması mümkündür. Diviziya komandiri Rüşdü bəyə görə diviziya qərargahının Sədərəkdə qalması mümkün deyildi. Sədərəkdə nə su, nə də qalmaq üçün əlverişli bir şəraiti var idi. Qərargah yenə Baş Noraşendə qalmalı idi.[294] Elə də olmuş, diviziya qərargahının yeri dəyişməmiş və hərbi nizamlanma eyni ilə saxlanılmışdır. Ancaq Naxçıvanı tərk etmə əmri alınanda vəziyyət dəyişdi.

### b) Türk qoşunlarının ermənilərə qarşı apardığı mübarizə

1918-ci ilin iyul ayında türk hərbi hissələri Naxçıvanın mərkəzinə doğru irəliləyirdi. Batumi müqaviləsinə əsasən Türkiyəyə verilən və əhalisinin əksəriyyəti türk olan Vedibasar[295] bölgəsində türk və müsəlman əhalisi ermənilərlə münaqişə vəziyyətində idi. Türk birlikləri hələ bölgəyə gəlməmişdilər. Buna görə də müsəlmanlar ancaq özünü müdafiə edirdi. 1918-ci ilin iyun ayında Aydoğmaz kəndi ilə Dəvəli və Şəfəqli kəndlərində 17 daşnak quldurу öldürüldü. Daşnaklar vedililərə ultimatum verərək hər öldürülən şəxs üçün 17.000 manat pul və öldürülənlərin əvəzinə 17 müsəlmanın verilməsini tələb edirdilər. Vedililər daşnakların ultimatumunu rədd etdilər. Buna görə də daşnak lideri Dro Arampaşa və Dəli Kazonun liderliyi altında Bek Pirimovun alayı Vediyə hücum etdi. Hücum zamanı Çəmənkənd, Çığın dərəsi və Vedibasarın digər bütün kəndlərinin əhalisi qısa zamanda Böyük Vediyə yığışdı. Türk əhalisinin lideri Abbasqulu Şadlinski idi. Vuruşmalar bütün gün davam etdi. Gecə Abbasqulu bəy və adamları hücuma keçərək erməniləri məğlub etdilər. Ermənilərdən bir çox top, 8 pulemyot və xeyli miqdarda silah alındı.[296] Vuruşmalardan bir qədər sonra türk qüvvələri bölgəyə girdilər, bölgəni nəzarət altına aldılar. Beləliklə, ermənilər Vedibasarda bir müddət sakit durdular.

Vedidəki əməliyyatlar, Vedi əhalisi və sonra türk qüvvələri tərəfindən sıxışdırılan ermənilər Ermənistan daxilində qalan müsəlmanlara rahatlıq

[294] ATASE. A.5/.5669.kls.4844.D.293. F.43-2, 43-3

[295] Adı Vedi çayından götürülmüş bu bölgə Böyük Vedi, Kiçik Vedi və ətrafında bir neçə kənddən ibarətdir. Bölgə İrəvan tərəfindən Naxçıvana giriş qapısıdır. 1918-1921-ci il Naxçıvan-erməni davasında bu yol qapalı olmuşdur. Çox cəsur insanları vardır. 1920-ci ilin iyul ayına qədər erməni dəstələrinə qarşı möhkəm dayanmış, Naxçıvana hücum edən erməni qüvvələrinə səd çəkmişlər. Bu gün bölgə Ermənistanın sərhədləri daxilindədir.

[296] Əliyev. Qırmızı tabor. s.12-13

vermirdilər. Kəndlərdə evlər yandırılır, əhaliyə zülm edilirdi. Çarəsiz qalan müsəlman əhali türk ordusuna vəziyyəti bildirir, çarə axtarırdı.[297] Türk ordusu bu vəziyyətdə hərbi əməliyyat apara bilmədiyindən müəyyən təşəbbüslər edirdi. Kazım Qarabəkir paşa erməni korpus komandiri Nazarbekovun nəzarəti altında olan vəziyyəti protest edir və vəziyyətlə əlaqədar erməni dəstələrinin fəaliyyətlərinin dayandırılmasını tələb etdi.[298]

Türk ordusu Batumi müqaviləsinə əsasən ona verilən hüquqlarından istifadə etmək istəyirdi. Bunun üçün də ermənilərin yanına nümayəndə sifətilə bir zabit göndərilmiş, İrəvan müsəlman əhalisi ilə əlaqə yaratmaq da ona tapşırılmışdı. Əlaqə yaradan zabitin fikrinə görə erməni hökumətinin daxilindəki müsəlmanlar daim təhlükədədirlər. Ölümə və soyğunçuluğa məruz qalırlar. Erməni hökumətinə edilən etirazlar faydasızdır. Yalnız adı olan bu hökumət bir şey etməyə acizdir. Ermənilərin məqsədi müsəlmanlan məhv və yox etməkdir.[299] Erməni hökumətinin acizliyi bu erməni dəstələrini nəzarət altına ala bilməsi kimi görünsə də, hökumətin bu dəstələrə gizlincə kömək etməyi məlum idi.

Ermənilər ancaq Ermənistan daxilində deyil, Batumi müqaviləsinə əsasən Azərbaycana aid tarixən türk yurdları olan Zəngəzur və Qarabağ da döyüş vəziyyətində idilər. Türk-müsəlman əhalisinə soyqırım tətbiq edilirdi. Soyqırımının baş qəhrəmanı Naxçıvandan çıxmaq məcburiyyətində qalan Andranikdir.[300] Hələ Andranik Qarabağ və Zəngəzura gəlməmişdən əvvəl də bu bölgələrdə münaqişə var idi. Bu səbəblə İslam Ordusu Komandanlığı Şərq Orduları qrupu komandanlığından 19 iyun 1918-ci ildə Culfa-Ordubad-Zəngilan və Şuşadakı müsəlman əhaliyə yardım göndərilməsini tələb edirdi .[301]

Türk qüvvələri 20 iyulda Naxçıvan şəhərini tutan kimi bölgədə olan ermənilərə qarşı mübarizə başlandı. Zəngəzurda ermənilərin təcavüzünə məruz qalıb dağlara qaçan müsəlman əhalisinin Naxçıvan ilə əlaqəsini kəsən Naxçıvan vadisindəki ermənilərin üstünə bir dəstə göndərildi. Bundan başqa, Ordubad yaxınlığındakı Aza kəndi ətrafında da erməni dəstələri var idi və bunlar II diviziya qüvvələrinə qarşı çıxırdılar.[302] Bölgənin tamamilə

---

[297] BOA, BEO, 339163. Erməni zülmündən bəzən bir sıra müsəlman əhali Gümrüyə və Naxçıvana gəlirdilər. (Əliyev. Qanlı günlərimiz s.77)

[298] ATBD. Dekabr 1982, №81, sənəd №1882. Qarabəkir. Şərqin qurtuluşu s.460

[299] Documents, Vol II. (Ankara, 1983), sənəd №1945; ATVD, sayı №83 (1983) s.1945

[300] Andranik müsəlman əhaliyə qarşı mübarizədə Dərələyəzdə olan Yapun adlı bir quldurla bərabər hərəkət edirdi. (Əliyev. Qanlı günlərimiz s.77)

[301] Rüşdü Böyük müharibədə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi hərbi məcmuənin tarix bölməsi. 1 iyun 1934. №34, s.50

[302] ATASE, A.4/6520, kls.3188, D.46, F.7-91, 7-93. Türk qüvvələri Azadakı müqaviməti qısa vaxta qıraraq kəndə girdilər. (Əliyev. Qanlı günlərimiz s.73).

nəzarət altına alına bilməsi üçün Müsəlman Ordusu əmrində olan Xəlil bəy Ordubada gəldi və burada yerli türkləri təlimatlandıraraq bir dəstə yaratdı. Bu dəstənin vasitəsi ilə Ordubad ətrafındakı erməni kəndləri nəzarət altına alınmış, asayiş təmin edilmişdi.[303]

I Qafqaz korpusu qərargahı 7 avqustda Naxçıvana köçürüldü, cəbhə komandanı Kazım Qarabəkir paşanın ilk məqsədi Naxçıvan-Zəngəzur-Azərbaycan əlaqəsini yaratmaq idi. Əldə kifayət qədər qüvvə varkən Zəngəzur ermənilərdən təmizlənməli, Bakıya qədər mükəmməl, təhlükəsiz bir yol açılmalı idi. Ancaq paşanın bu fikri Şərq orduları qrupu komandanlığı tərəfindən qəbul olunmadı və korpus Təbrizə göndərildi.[304] Beləcə, Zəngəzur və Qarabağın müsəlman əhalisi erməni zülmü altında qaldı. Müsəlman Ordusu Qarabağ və Zəngəzura əməlli-başlı bir kömək edə bilmirdi. Buna görə də Nuru paşa Şərq orduları komandanlığından Azərbaycandan cənub-qərbə və Naxçıvandan şimala doğru müştərək bir əməliyyat keçirilməsini tələb etdi. Nuru paşaya görə, Ermənistan və Azərbaycan sərhədləri hələ müəyyənləşmədiyindən, ermənilər Qarabağdakı müsəlmanları yox edərək öz xeyirlərinə uyğun sərhəd xəttini müəyyənləşdirmək istəyirlər.[305] Ermənilər bu dağıtma, yoxetmə, viranetmə siyasətini Qarabağdan başqa Zəngəzurda da davam etdirirdilər.

Andranikin quldurları 1918-ci ilin sentyabrında Zəngəzurun Rut, Dərəbas, Abudu, Bahudi, Araxlı, Şükür Məlikli, Pulkənd, Şəki, Qızılçək, Qarakilsə, İrlik və Paxlalı kəndlərini yandırmış, beş yüzdən artıq Azərbaycan türkünü qətlə yetirmişlər.[306] Erməni zülmü türk qüvvələrinin regiona təcili müdaxiləsinin vacib olduğunu göstərsə də, Kazım Qarabəkir paşanın və Nuru paşanın bu sahədəki təklifləri Baş komandanlıq tərəfindən qəbul edilməmiş, Naxçıvandan şimala qüvvə göndərilməmişdi. Ancaq Bakının alınmasından sonra türk qüvvələrinin bir hissəsi Qarabağa Andranikə qarşı göndərildi.[307] Müsəlman Ordusu komandanlığının əmri ilə Xəlil bəy

---

[303] ATASE, A.5/5649, Kls.3941. D.159, F.34-2. Hovanisiana görə Ordubad bölgəsində olan doqquz kəndin erməni əhalisi davanın sonuna qədər təslim olmamışlar. (Riçerd, G.Hovanisian. Ermənistan Respublikası 1919-1920. II c. Los-Anjeles 1982, s.234)

[304] Kazım Qarabəkir, İstiqlal hərbimiz. İstanbul. 1988. s.896; Kazım Qarabəkir, İstiqlal hərbimizdə Ənvər paşa və İttihat və Tərəqqi İrkanı. İstanbul. 1990, s.12.

[305] Dokuments (Ankara 1982) Doc. №82.

[306] Rəhmanzadə. Əsrə bərabər gecə. s.82. Andranikin yanında olan biri zabit, biri çavuş olan iki rus əsgəri Andranikin fəaliyyəti barədə "Kavkazskoe slovo" qəzetinə məktub göndərmişdir. Məktubda Andranikin zülm etmədiyi, əksinə müsəlmanlarla yaxşı davrandığı, İzzət bəy adlı türk zabitinin bölgə müsəlmanlarını ermənilərə qarşı qızışdırdığı, Qaladərəsi kəndinin yandırıldığı və buna görə də müsəlman kəndlərinə hücum etdikləri qeyd olunur. (Kavkazskoe slova. 12 dekabr 1918). Bu əsgərlər Andranik haqqında çox yumşaq ifadələr yazmışlar. Andranik Naxçıvana çox zülmlər vermişdir. Bu, ancaq Zəngəzur günahları ört-basdır etmək üçündür. Həm Osmanlı, həm də Azərbaycan mənbələrində Andranikin bu regionda verdiyi zülmlər haqqında dəqiq məlumatlar var.

[307] Bıyıqlıoğlu. Hüdut politikası.s.20.

Ordubadda yaratdığı topçu batareyasının bir dəstəsini Zəngəzura göndərdi.[308] Məqsəd Andraniki şimaldan və cənubdan sıxışdırmaq idi. Bununla əlaqədar daim məlumat alınır, harada nə iş görüldüyü araşdırılırdı. Naxçıvandakı 9-cu diviziya bununla əlaqədar ən yaxşı məlumatı Bazarçaydakı malakanlardan alırdı. Malakanlar Culfa və Çöl nahiyyə müdirlərinə adamlar göndərərək vəziyyəti bildirmiş, əgər Osmanlı dövləti onları himayə edərsə, o ətrafda olan Andraniki yaxalayacaqlarını bildirmişdilər. 2 oktyabr 1918-ci ildə 28-ci alaydan bu xəbəri eşidən 9-cu diviziya komandiri Rüşdü bəyin, həmin gün 28- ci alaya göndərdiyi bir yazıda qeyd olunurdu ki, malakanlar sözlərinin üstündə durarlarsa, himayə təminatı verilə bilər.[309] Vəziyyət 3 oktyabrda II Orduya bildirildi. IX Ordu komandiri ertəsi gün tapşırdı ki, malakanlara xəbər göndərilsin, Andraniki yaxalayıb təslim edərlərsə, onların həm himayə altına alınacağı, həm də mükafatlandırılacaqları bildirilsin. Ordu komandirlərinə görə, Andranik haqqında dürüst məlumat alınmalı və onun hər hansı bir hücumuna qarşı lazımi tədbirlər görülməli idi.[310]

Erməni dəstələrinin hər hansı bir hücumuna qarşı 9-cu Qafqaz diviziyası hazır vəziyyətə gətirilmişdi. Bir erməninin ifadəsinə görə, Andranik özünə bir sıra dəstək axtarmış və Sədərək tərəfdən Xaçınə[311] hücum etməyi qərara almışdı. Bu səbəbdən də 9-cu Qafqaz diviziyası Andranikin hücum etmək ehtimalı olan bölgələrdə bir çox hərbi hissələrin yaradılmasını həyata keçirdi. Əmrə görə 28-ci alay Naxçıvan və Cəhri vadilərini, 17-ci alay Arpaçayını, 29-cu alay Şaqabulu, Qarabağlar və Vedi çayı istiqamətlərini, süvari rotası Horadiz və Keşişkənd rayonlarını nəzarət altına alacaq, dəmiryol xətti daim mühafizə olunacaqdı. 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəyin məqsədi Qarabağ ətrafında müsəlman ordusu tərəfindən sıxışdırılan Andranikin Naxçıvana hücumunun, İrəvana getməsinin qarşısını almaq idi.[312] Rüşdü bəy yanılmamışdı. Şimaldan sıxışdırılan Andranik dəstəsi Zəngəzurda müsəlman əhalisinə qarşı hücuma başlamışdı. Qarakilsə ve Darıkənd ətrafında əhali ilə Andranik qüvvələri arasında vuruşmalar oldu və nəticədə bir çox müsəlman kəndi yandırıldı.[313] Andranikin bölgədəki qüvvəsi 1000 piyada, 2 top, kifayət qədər pulemyotdan ibarət idi. Bunlar bölgədə tez-tez yer dəyişdirir və onlar haqqında məlumatlar malakanlar tərəfindən türk hərbi hissələrinə çatdırılırdı.[314] Ancaq Naxçıvan ətrafında türk

---

[308] ATASE, A.5/5669, Kls.3941. D.159, F.34-2.
[309] ATASE, A.6/5669, Kls.4844. D.293, F.4-2, 4-3,6.
[310] ATASE, A.6/5669, Kls.4844. D-293, F.11.
[311] ATASE, A.6/5669, Kls.4844. D-293, F.7-2.
[312] ATASE, A.6/5669, Kls.4844. D.293, F.9.
[313] ATASE, A.6/5669, Kls.4844. D.293, F.13-5.
[314] ATASE, A.6/669, Kls.4844. D.293, f. 29-4.32.

qüvvələri Andranik haqqında məlumat toplayır, amma hücuma keçmirdilər. Hücum yalnız İslam Ordusu dəstələri tərəfindən edilirdi. Onlar 6 oktyabrda Andranik dəstəsini də məğlub etmişdilər.[315] Ancaq Andraniki tutmaq və onun bütün fəaliyyətini dayandırmaq mümkün olmadı.[316] Erməni dəstələri aradan qaldırılmadığından 1920-ci ilin sonlarına qədər Naxçıvanın Azərbaycan və bilavasitə Türkiyə ilə əlaqəsi hələ də təmin edilməmişdi.

Naxçıvandakı 9-cu Qafqaz diviziyası şimala doğru hərəkətə başlamamışdan əvvəl, yuxarıda qeyd olunduğu kimi, müdafiə üçün bir sıra hazırlıqlar görülmüşdü. Hazırlıqlar zamanı kəşfiyyat dəstələrinin məlumatları nəzərə alınmışdı.[317] Bu hərbi hazırlıqlarla əlaqədar Qafqaz diviziyası əmri altındakı birliklərlə daim lazımi əlaqə saxlayırdı.[318] IX Ordu komandanlığı da əlaqə saxlayır və bildirirdi ki, erməni dəstələrinin hücumlarının qarşısının alınması lazımdır. Ordu komandanlığı 9-cu Qafqaz diviziyasından Culfadan Eçmiədzinə qədər olan məsafədə daha çox qüvvə yerləşdirilməsini tələb edirdi.[319] Ancaq 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy ordunun bu tələbinə qarşı çıxırdı. Çünki Sərdarabad və Eçmiədzin ətrafında heç bir hadisə baş verməmişdi. Naxçıvan isə Dərələyəzdəki Yapunun və Zəngəzurdakı Andranikin təhlükəsi altında idi. Buna görə də diviziyanın böyük əksəriyyəti Naxçıvan bölgəsində qalmalı və hazırlanmalıdır.[320]

Naxçıvan regionundakı türk qüvvələri bir tərəfdən sərhədin o tərəfindən gələn erməni təhlükəsinə qarşı tədbirlər görməli, digər tərəfdən də daxildən təhlükəsizliyini qorumalı idi. Asayişi pozan, itaət etməyən erməni kəndləri türk qüvvələrini çətin vəziyyətdə qoyurdu. Bu kəndlərin alınması regionun kəndləri üçün çox əhəmiyyətli idi. Hərbi səlahiyyətlilər erməni kəndlərini nəzarət altına almaq məsələsində çox yumşaq davranırdılar. Təslim olmayan kəndlər üzərinə əsgər yox, mülki şəxslər göndərilərək, itaət etməyi tələb edirdilər.[321] Erməni kəndləri təslim olmur, döyüşə

---

[315] Çakmaq, Şərq cəbhəsi hərəkatları. s.35; Ermənilər Andranikin qüvvələrinin məğlubiyyətini, bir çox uydurma xəbərlərlə ermənilərə zülm etdiyini göstərirdilər. (BOA, BEO 320775)

[316] Mudros atəşkəs müqaviləsindən sonra İngilis nümayəndəsinin təkidi ilə Andranik və yerli türk qüvvələri arasında vuruşmalar dayandırıldı. (Afanasyan L'Armenie, L'Azerbaijan Et la Georqie, c.73). müsəlmanlar müdafiə xəttindən uzaqlaşan kimi Andranik gözlənilmədən hücuma keçdi. 9-12 dekabrda çoxlu müsəlman qətl edildi. Buna görə də Zəngəzurdakı Azərbaycan qüvvələri komandiri Məlik Namazəliyev hökumətdən kömək istədi. (Azərbaycan 15 dekabr 1918, №59). Ancaq alınan kömək bir nəticə vermədi. Andranik bölgədə fəaliyyətini davam etdirdi. 1919-cu ilin yayında Fransaya getdi.

[317] ATASE, A.6/5669, Kls.4844. D.293, F.17-1.

[318] ATASE, A.6/5669, Kls.4844. D.293, F.23-4.

[319] ATASE, A.6/5669, Kls.4844. D.293, F.35.

[320] ATASE, A.6/5669, Kls.4844. D.293, F.-18-243-2, 43-3.

[321] ATASE, A.6/5669, Kls.4844. D.293, F-18-2.

hazırlaşırdılar.[322] Bununla əlaqədar 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəy IX Orduya vəziyyəti bildirdi və nə edəcəklərini də soruşdu.[323] Ancaq IX Ordunun bununla əlaqədar nələr etdiyi bilinmir. Lakin sərhədə yaxın olan bu erməni kəndlərinin tamamilə nəzarət altına alınmaması məlumdur. Çünki əvvəlcədən itaət etməyən erməni kəndlərinə qarşı sərt tədbirlər görməyən türk hərbi dairələri bir müddətdən sonra onlar geri çəkilmə əmri aldıqlarından bu işə lazımınca vaxtları qalmadı.

Türk hərbi dairələri Türkiyə sərhədləri daxilində olan erməni kəndlərinə qarşı ciddi tədbirlər görmürdülər, amma Ermənistan daxilindəki müsəlman əhalisinə də ciddi tədbirlər görülürdü. Belə ki, 29-cu alay komandiri tərəfindən 9-cu Qafqaz diviziyasına 9 oktyabr 1918-ci ildə göndərilmiş bir teleqramda ermənilərin sərhəd yaxınlığındakı bir müsəlman kəndini mühasirə edərək, əhaliyə zülm etdikləri göstərilmiş və bununla əlaqədar İrəvandakı Osmanlı nümayəndələr vasitəsilə etiraz etmək lazım olduğu qeyd edilmişdi.[324] Səhərisi gün hadisə diviziya vasitəsilə orduya bildirildi. Mühasirəyə düşən müsəlman kəndləri erməniləri məğlub etmişdilər. Silahsız olan əhali də 29-cu alaya müraciət etdi. Ancaq bu iş silah yardımı ilə bitən iş deyildi Son bir aydan bəri ermənilər sərhədləri daxilində olan türk kəndlərinə hücumlar edir, əhaliyə əzab verirdilər, heyvanları və əşyaları aparırdılar. Faciələrin qarşısının alınması üçün İrəvanda bir sıra siyasi təşəbbüslər edilməli idi.[325] Siyasi təşəbbüslərdən də heç bir zaman nəticə əldə edilməsi mümkün deyildi.[326] Çünki erməni hökuməti bu gün olduğu kimi o zaman da çətin vəziyyətdə günahı dəstələrin üzərinə atır, hökumətin rolu olmadığını bildirirdi.

### s) Könüllülər dəstəsinin yaradılması

Yuxarıda qeyd edildiyi kimi, 1918-ci ilin may ayında Naxçıvana gələn Xəlil bəy xüsusilə Şərur, Şahtaxtı və Ordubadda hərbi işlərə başlamışdı. Gənclərə silah verilmiş, piyada, süvari və topçu dəstələri üçün təlimlər təşkil olunmuşdu. Ordubadda yaradılmış dəstə bu sahədə mühüm bir addım idi.

---

[322] Naxçıvan regionunda itaət etməyən erməni kəndləri olduğu kimi, bəzi quldur dəstələri də var idi. Belə bir qrup Badamlıya hücum etdiyi kimi, Kal, Bist, Qarabağlar, Əbrəqunus kəndlərinə qayıdan ermənilər müsəlman əhalisinə hücum etmişdilər. (Əliyev. Qanlı günlərimiz s.74-77)

[323] ATASE, A.6/5669, Kls.4844. D.293, F.23-3, 26-2.

[324] ATASE, A.6/5669, Kls.4844. D.293, F.55-8.

[325] ATASE, A.6/5669, Kls.4844. D.293, F.55-8.

[326] Daimi olaraq erməni hökumətinə xəbərdarlıq edilirdi. Oktyabr ayının əvvəllərində Göyçə gölü ətrafında müsəlman əhaliyə edilən zülmlə əlaqədar İrəvandakı Osmanlı nümayəndələrindən erməni hökuməti qarşısında təşəbbüs qaldırmaları tələb edilmişdi. (Ankara 1982). Ancaq bunlardan bir nəticə əldə edilmədi. Hadisələr davam edirdi.

Türk hərbi birlikləri Naxçıvan şəhərinə gəldikdən sonra regionda[327] türk zabitlərinin rəhbərliyi altında könüllülər dəstəsinin yaradılmasına başlanıldı. İlk əvvəl 23 iyulda 18-20 yaşlar arasındakı müsəlman gənclərdən əsgər toplamaq əmri verildi. Kəndlərdən əsgər yığmaq işi komissar Məhəmmədəli xana tapşırıldı. Şəhərdən toplanan əsgərlər türk komandanlığının önünə yığışdılar. Məhəmmədəli xan yanında türk zabiti Mahmud bəy və Əfəndi Fazil 24 iyul - 31 iyul tarixləri arasında bölgədə əsgər yığmağa çıxmış, Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə yaxın əsgər yığaraq gətirmişlər. Bu əsgərləri əsgərlik şöbəsinə verirdilər. Ancaq türk hərbi dairələri kifayət qədər əsgər yığa bilmədiklərindən ikinci bir əmrlə 20-40 yaşlar arasında kişilər arasından əsgər yığacaqlarını və həftədə bir dəfə təlim keçəcəklərini elan etdilər. Təlim yalnız əsgər yığılan kişilərə deyil, Naxçıvan şəhərindəki əhaliyə də keçirilirdi. Yerli hökumət əhali arasında bir hərbi təşkilatlanma işləri görərkən bölgədəki silahlı kişiləri də yaddan çıxartmadı. Onları Naxçıvana çağırdı, yığıncaq keçirildi. Kazım Qarabəkir paşa da çıxış etdi. Ayrıca məhəllə müvəkkillərinə verilən əmrdə əhalinin əlindəki silahların miqdarı, növü haqqında məlumat tələb edilmişdi. Yerli əhali arasında könüllülər dəstəsi yaradılması sahəsində fəaliyyət davam etdirilirdi, bu sahədə xoşagəlməyən hallar da olurdu. Hərbi dairələr arasında fərarilərin olması müşahidə edilirdi.[328]

İllərdən bəri əsgərlikdən, bilavasitə müharibədən soyumuş region əhalisində bu duyğuları yenidən yaratmaq və yaradılacaq könüllülər batalyonu vasitəsilə türk əsgərlərinin yükünü azaltmaq istəyən komanda heyəti belə hadisələrə əhəmiyyət vermədən fəaliyyətini davam etdirirdi. Təşkil edilən könüllüləri, xüsusilə atı olanları sərhədlərdə kəşfiyyata göndərirdilər. Ancaq 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy bu könüllüləri və hissələri kifayətləndirici saymırdı. Buna görə də o, 7 oktyabr 1918-ci ildə IX Ordu komandanlığına göndərdiyi bir teleqramda müxtəlif təkliflər irəli sürmüş və bunları belə ifadə etmişdi: “Diviziya bölgədəki müsəlman gənclərdən könüllü süvari və piyada milis dəstələrinin yaradılmasını və öz içlərindən etibarlı, nüfuzlu olanlardan komandir seçilməsini nəzərdə tutmuşdu. Onlar növbə ilə həftədə 2-3 dəfə qonşu hissələrə gedəcək, hissələrdən seçilən zabit və əsgərlər vasitəsilə hərbi təlimin silah atmaq və s. kimi mühüm qayda-qanunlarını öyrənəcək və lazım gələrsə, onlardan istifadə ediləcəkdi. Hələlik onlara geyim, ərzaq, təchizat və silah verilməyəcək. Əllərində olan müxtəlif cür rus silahlarından istifadə edəcəklər. Ancaq silah ata bilənlərə müəyyən qədər rus hərbi ləvazimatı veriləcək və ondan istifadəyə vəzifəli zabitlər nəzarət edəcəklər. Əhali içərisindən belə bir milis təşkilatının yaradılmasına və tamamilə nizami bir təşkilat olacağına bir o qədər də inanmasaq da, az-çox ondan istifadə edilməsinə ümid edirik. Buna

[327] Qarabəkir. İstiqlal hərbimiz s.28. Hacıyev. Qars və Araz-türk respublikaları. s.46.
[328] Əliyev. Qanlı günlərimiz, s.71-73, 76-79

görə müvafiq komandirlərə onların təşkilinə, idarə olunmalarına aid əmr və təlimatların göndərilməsinə icazə verilməsi məqsədə uyğundur.[329]

Göründüyü kimi, Rüşdü bəy diviziyasının olduğu regionda güclü bir könüllülər dəstəsi yaratmağı qərara almış və mühüm fikirləri ordu komandanlığına bildirmişdi. Görünür, IX Ordu bu tələbə müsbət cavab vermişdir ki, müəyyən müddətdən sonra bir sıra könüllülər batalyonu ortaya çıxmışdır.[330] 9-cu Qafqaz diviziyasının nəzarəti altındakı bölgədə könüllülər batalyonunun sayı 20-yə qədərdir. 220-500 nəfərdən ibarət batalyonların dördü Naxçıvanda, üçü Şərur-Dərələyəzdə, digərləri Vedibasar, Zəngibasar, Qəmərli və Başkənddə (Aralıq) idilər.[331] Türk hərbi dairələri tərəfindən təşkil edilən könüllülər qüvvəsi sonrakı mərhələlərdə başlarında bacarıqlı rəhbərlər olduğu müddətdə ermənilərə sədd çəkmiş və regionda türklərin mövcudluğunu bu günə qədər yaşatmışdır.

## C. TÜRK ORDUSUNUN REGİONU TƏRK ETMƏSİ

### 1. Regionu tərketmə əmri və görülən hazırlıqlar

1918-ci ildə Qafqaz cəbhəsində daim qələbə qazanan Osmanlı qüvvələri digər cəbhələrdə getdikcə müvəffəqiyyətsizliklərə uğrayırdı. Üst-üstə gələn məğlubiyyətlər ölkənin taleyi baxımından ürək açan deyildi. Xüsusilə Fələstin cəbhəsindəki məğlubiyyətlər və İnqilab ordusunun Balkanlardan Türkiyəni hədələməsi böyük bir sıxıntı yaratmışdı. Bu sıxıntıları görən IX Ordu komandanlığı gələcək üçün narahatçılıq keçirirdi. Onun əsas məqsədi İrandakı əşya, ərzaq və bütün materialları Naxçıvan və Bəyazid yolu ilə Şimala gətirmək idi. Osmanlı hökumətinin sülh təşəbbüsləri IX Ordunu hərəkətə gətirdi.

11 oktyabr 1918-ci il tarixdə IX ordu komandanlığı I Qafqaz korpusuna göndərdiyi əmrdə bu tələblərini bildirmişdir: "Vəziyyəti və ümumi əhval-ruhiyyəni nəzərə almaqla tez-gec İranı tərk etmək lazım olacaqdır. Bu işdə yubanmamaq və əsas işləri yekunlaşdırmaq üçün indidən tədbirlər görmək və işləri çox sürətlə bitirmək zəruridir". IX Ordu yuxarıda qeyd edildiyi kimi, bölgəni tərk etməyin zəruri olduğunu başa düşdüyündən regiondakı qüvvələri keçmiş sərhəddən içəri daşımaq istəyirdi.[332]

Bu zamanlarda Ənvər paşa çox narahatçılıq keçirirdi. Qafqazda lazımi işlər görüldüyü təqdirdə, çəkilən əziyyətlərin boşa çıxması ehtimalı var idi. Bu vəziyyəti başa düşən Ənvər paşa "Şərq Orduları Qrupu

---

[329] ATASE, A.6/5669, Kls.4844. D.293, F.20-2.
[330] ATASE, A.4/8314, Kls.251. D.1-4. F.28-2.
[331] Cahangiroğlu. Xatirələr. s.9-10.
[332] Aysan, İran cəbhəsi. III c.s.58-61.

Komandanlığı"na göndərdiyi 5-6 oktyabr 1918-ci il tarixli əmrdə Qafqazdan çıxmağa məcbur olduqda nüfuzlarını saxlamaq məqsədilə Azərbaycanda və Şimali Qafqazda qalacaq türk birliklərindən bir hərbi hissə yaratmaq lazım olduğunu qeyd etmişdir. Ancaq iqtidarın dəyişməsi və gələcək rəhbərin regionu tamamilə tərk etmək ehtimalı Ənvər paşanı yeni əmrlər verməyə məcbur etdi. Belə ki, o, Şərq Orduları Qrup komandiri Xəlil paşaya göndərdiyi başqa bir əmrdə Nuru paşadan orada onunla işləmək üçün qalacaq zabit və əsgərləri indidən müəyyənləşdirib, fəaliyyətə başlamasını tələb edirdi.[333] Ənvər paşa beləcə Qafqazda müstəqilliyini təzəcə qazanmış soydaşlarının yenidən əsarətə düşməsinin qarşısını almaq istəyirdi.

Aradan uzun müddət keçməmişdi ki, Ənvər paşanın fikirləşdiyi kimi hökumət dəyişikliyi oldu. 14 oktyabrda Əhməd İzzət paşa hökuməti yaradıldı. Yeni hökumət, Brest-Litovsk müqaviləsi ilə ana vətənə qovuşan 3 rayonu (Batumi, Qars, Ərdahan), bundan əlavə Azərbaycan və Dağıstanı əldə saxlamaq üçün hətta Batumi müqaviləsi əsasında alınan yerlərin (Axılkələk, Gümrü, Sürməli, Naxçıvan)[334] boşaldılmasına qərar verdi.[335] 21 oktyabr 1918-ci il tarixdə qəbul edilən qərar IX Orduya bildirildi.[336] Tərketmə ilə əlaqədar kömək etmələri üçün Qafqaz hökuməti ilə lazımi danışıqların Sədərək kanalı ilə aparılması Xarici İşlər Nazirliyindən xahiş edildi.[337] Tərketmə əmri səhərisi gün IX Ordu komandanlığından I Qafqaz korpusunda[338] və IX Qafqaz diviziyasına bildirildi.[339] Diviziyaya şifr ilə göndərilən teleqramda yazılmışdı:

1.İran ərazisini və Naxçıvan, İğdır, Gümrü, Axılkələk, Axıska, qəzalarını, yəni Brest-Litovsk müqaviləsindən kənarda qalan ərazini də tərk etmək əmri aldıq. Ancaq bu boşaltmanın zamanı və icra tərzi hələ bilinmir. Bu haqda məlumat verəcəyəm.

---

[333] Qafqaz cəbhəsi, II c.s. 601, 622: Ənvər paşanın bu tələbinin gerçəkləşdiyi və Nuru paşa ilə dostlarının Azərbaycan türklərinə kömək etmək məqsədilə 1920-ci ilin yayına qədər regionda qalmışdır.

[334] Osmanlı hökuməti adı qeyd olunan bölgələri boşaltma əmri verdiyi günlərdə Rusiyanın gecikmiş bir etirazı ilə qarşılaşdı. Rusiya Osmanlı qüvvələrinin Elviyeyi-Selasedən başqa digər fəaliyyətlərindən şikayətlənir, təzminat istəyirdi. Xarici İşlər Nazirliyi tərəfindən hadisə 26 oktyabr 1918-ci ildə Sədarətə bildirildi. 6 noyabrda məsələ vəkillər məclisinin gündəliyinə salındı və təzminat verilməsi haqqında söhbət ola bilməzdi. Buna görə də qərar verildi və vəziyyət Xarici İşlər Nazirliyinə bildirildi. (BOA, BEO, 340541; BOA MVM, 6. Təsirini-Sahi. 1334/6 noyabr 1918, 213/7)

[335] Qafqaz cəbhəsi, II c.s.622; Bıyıqlıoğlu. Sərhəd siyasəti, s.21.

[336] Tofiq Bıyıqlıoğlu. Mudros müqaviləsində Elviyeyi-Selase ilə əlaqədar yeni sənədlər, Bülleten XXI. 84, (1957) s.572-573.

[337] Sədarət vəziyyəti həmin gün Xarici İşlər Nazirliyinə bildirmiş və təcili lazımi işlər görülməsini tələb etmişdir. (BOA, BEO, 340383).

[338] ATASE, A.5/5649, Kls.3941. D.A.159, F.38-8.

[339] ATASE, A.6/5669, Kls.4844. D.293, F.58.

2.Tərketmə hazırlıqlarının mümkün qədər sürətlə və sakitliklə, eyni zamanda çox gizli saxlanılması, əhalinin və əsgərlərin nizam-intizamına xələl gətirməməsi lazımdır.

Tərketmə əmri verilən kimi, çıxmaq üçün bir sıra hazırlıqlar görülməli idi. IX Ordunun 9,12, 36-cı diviziya komandirlərinə, Naxçıvan və İğdır yerli hökumət rəislərinə və I Qafqaz korpusu komandanlığına verdiyi 22 oktyabr 1918-ci il tarixli regionu tərk etmə əmrində bir sıra hazırlıq işlərinin görülməsi də qeyd olunmuşdur. Əmrə əsasən:

1) 12-ci diviziya və IV korpus topçuları sürətlə Gömrüyə gələcəkdir.

2) 9-cu diviziya indiki vəziyyətini davam etdirəcək və ermənilərin hər cür hücumuna qarşı hazır olacaqlar. Əllərində silah olan bütün əhali qrup-qrup yığılacaq, ermənilərin hücumuna qarşı türk əsgərləri ilə bərabər mübarizə edəcəklər. Dəmiryol xətti ciddi qorunmalıdır.

3) 9-cu diviziya bölgəsindəki yeyinti məhsulları, əşyalar və s. təcili qatarla Qarsa göndəriləcək. İlk əvvəl yeyinti məhsulları göndəriləcək. Bu işləri yerinə yetirmək üçün məmurlar təyin edilməli və məsuliyyət daşımalıdır.

4) Bölgədəki anbarlardan əsgərlərə lazım olan materiallar verilməlidir.

5) Əhali əlindəki nəqliyyat vasitələrindən ehtiyaca görə istifadə etməlidir.

6) Hərbi birliklərin yanında ən çox 15 günlük azuqə olacaqdır. Bu müddət ərzində azuqə qurtarsa, ehtiyac ərzağı satın almaqla təmin ediləcək.

7) Naxçıvan, İğdır və Qəmərli yerli hökumət rəisləri və mövqe komandirləri indiyə qədər yığdıqları azuqəni təcili qatarlara yığıb, Qarsa göndərəcəklər. Yeyinti məhsulları göndə-rildikdən sonra əşya və s. materiallar göndəriləcək.

8) Tərketmə məsələsi haqqındakı fəaliyyət son dərəcə gizli saxlanılmalı və əlaqə şifr ilə aparılmalıdır.[340]

Bu əmrdən sonra çıxmaq hazırlıqlarına başlanılmış, danışıqlar aparılmış, əmrlər verilmişdir. 22 oktyabrda çıxma əmrini alan 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəy 24 oktyabrda IX Orduya müraciət etdi. Əsas məsələ diviziyanın hərəkətinə mane olmaması üçün bir sıra əşya və heyvanların Kağızmanın 30 km şərqində yerləşən Naxçıvan regionuna [341] indidən göndərilməsi idi.[342] Ordu komandiri Şövqü paşa səhərisi gün verdiyi ca-

---

[340] ATASE, A.6/5669, Kls.4844. D.293, F.58

[341] Burada adı qeyd olunan Naxçıvan Qarsa bağlı bir kənddir. Bizim dissertasiyamızda əsas olan Naxçıvan ilə sadəcə olaraq ad oxşarlıq var.

[342] ATASE, A.6/5669, Kls.4844. D.293, F.63-3. Rüşdü bəy ordusu yazdığı müraciətin bir nüsxəsini də 27 oktyabrda I Qafqaz artilleriyasına göndərmişdir. O, bu müraciətində Noraşen hərbi anbardakı cəbhəxananın

vabda diviziyanın hələlik lazım olmayan əşyalarının Arpaçayın qərbindəki Naxçıvana göndərilməsini, ancaq böyük və xırda buynuzlu heyvanlar həmişə lazım olacağından bunların göndərilməməsini məqsədəuyğun hesab etdi.[343]

Regionu tərketmə hansı yolla yerinə yetirilməsi ilə əlaqədar yazışmalar davam edirdi. 31 oktyabr 1918-ci ildə IX Ordu vasitəsi ilə Baş komandanlığın qəti əmri gəldi. Buna əsasən İran və Qafqaz noyabr ayının sonuna qədər tamamilə boşaldılmalı olacaqdı. Bununla əlaqədar bölgədəki silah, cəbbəxana və əşyaların noyabr ayının sonunda geriyə daşınması məsələsi həll olunmalı idi.[344] Bu məsələdə ən mühüm iş yeyinti məhsullarının, silahların, cəbbəxananın daşınması sayılırdı.

22 oktyabrda çıxmaq əmri 1 Qafqaz korpus komandanlığına çatanda Kazım Qarabəkir paşa qərargahını yenidən Naxçıvana köçürmək üçün Təbrizdən ayrıldı.[345] Naxçıvana gələn Kazım Qarabəkir paşa 30 oktyabrda bir sürprizlə qarşılaşdı. Bu tarixdə 1 Qafqaz korpus qərargahı ləğv olundu[346] və Kazım Qarabəkir qərargahın Batumi yolu ilə İstanbula qayıtması əmr edildi.[347] Paşa qərargahı ilə bərabər 1 noyabrda Naxçıvandan çıxdı.[348] I Qafqaz kolordusu ləğv edildi və altındakı diviziyaların statusunda da dəyişikliklər edildi. II Qafqaz diviziyası[349] və 9-cu Qafqaz diviziyası 31 oktyabr 1918-ci il tarixdə korpus əmri altından çıxarılaraq IX Orduya aid edildi. Həmin gün ordudan 9-cu Qafqaz diviziyasına göndərilən başqa bir məlumatda diviziyanm olduğu bölgədəki bütün alman əsgərlərinin İstanbula göndərilməsi əmr edilmişdi.[350]

Regionu tərketmə məsələsi ilə əlaqədar işlər görülürdü. 30 oktyabr 1918-ci ildə Mudros barış müqaviləsinin imzalanması haqqında Əhməd İzzət paşanın imzası ilə ordulara məlumat bildirildi.[351] Müqaviləyə əsasən əvvəlcədən başlanan Şimali İran və Qafqazın boşaldılması davam etdiriləcəkdi. Ancaq bu işə müttəfiq dövlətlərin nümayəndələri tərəfindən nəzarət

---

əsgərlərin üstündəki lüzumsuz əşyalar ilə zəif heyvanların Arpaçayın qərbindəki Naxçıvan Karyesinə göndərilməsini tələb edirdi. (ATASE, A.6/5669, Kls.4844. D.293, F.76-2.)

343 ATASE, A.6/5669, Kls.4844. D.293, F.68-1

344 ATASE, A.6/5669, Kls.4844. F.96. Aysan əsərində regionu tərk etmə əmrinin 29 oktyabrda baş vəzir və hərbi baş komandan Əhməd İzzətin imzasıyla IX Orduya göndərilmişdir. (Aysan. İran cəbhəsi. III c.s.62).

345 Qarabəkir. Şərqin qurtuluşu. s.4844. Qarabəkir. I Qafqaz artilleriyasının 334-cü ildəki hərəkəti, s.13.

346 Kazım Qarabəkir paşa qərargahın ləğv tarixini 31 oktyabr 1918-ci il olaraq göstərir. (Şərqin qurtuluşu, s.484, İstiqlal müharibəmiz s.2) Yuxarıda qeyd edilən 30 oktyabr tarixdə ordu qərargahının ləğv edildiyi IX Ordu komandiri Şövqü paşa tərəfindən 9-cu Qafqaz diviziyasına bildirilmişdir. 30 oktyabr E.Aysan tərəfindən qəbul edilmişdir. Xəbərin bir gün sonra çatdırılması ehtimal oluna bilməz. Burada səhvlik olmuşdur.

347 ATASE, A.6/5669, Kls.4844. D.293, F.89, Aysan. İran cəbhəsi.Ş. c.s.62; Qafqaz cəbhəsi, II c.s.626.

348 Qarabəkir. İstiqlal hərbimiz s.4.

349 Aysan. İran cəbhəsi.kls 4844, D293, F.93-1-95

350 ATASE, A.6/5669, Kls.4844. D.293, F93-1-95.

351 ATASE, A.4/8314, Kls.251. D.1-4, F.1-9. Aysan. İran cəbhəsi. c. III, s.65; Qarabəkir. İstiqlal müharibəmiz. s.4

olunacaqdı.[352] Bir müddət sonra fransız və ingilis nümayəndələri ordunun çıxmasına nəzarət etmək məqsədilə Cənubi Qafqaza gəldilər.[353] Nümayəndələrin regiona gəlməsi ilə Antanta dövlətlərinin, xüsusilə İngiltərənin Cənubi Qafqaz (Ermənistan, Naxçıvan, Qars) macərası başladı.

Hərbi sahədə regionu tərketmə fəaliyyəti davam edərkən , siyasi məqsəd daşıyan işlər də nəzərdən qaçırılmadı. Səlahiyyətli şəxsləri düşündürən ən mühüm məsələlərdən biri region boşaldıqdan sonra ermənilərlə türklər arasında baş verə biləcək mübarizənin qarşısını almaq idi. Bununla əlaqədar bir sıra qərarlar verildi. Kazım Qarabəkir paşanın 26 oktyabr 1918-ci ildə Naxçıvandan IX Qafqaz diviziyasına verdiyi məlumata görə, boşaldılan regionun hansı dövlətin sərhədləri daxilində olacağı məlum olana qədər, əlaqədar hökumət nümayəndələrindən ibarət heyət təşkil ediləcək və hökumətlərin eyni nisbətdəki qüvvələri də asayişi təmin edəcəklər.[354] Baş komandanlıq tərəfindən verilən bir əmr 1 noyabrda yenidən gündəliyə daxil edildi. Şövqü paşa Baş komandanlıqdan daha əvvəl verilmiş məlumata əsasən iş görülüb-görülmədiyini soruşdu. Əgər iş görülməyibsə, müsəlman əhalisinin himayəsi üçün hansı işlərin görüləcəyinin bildirilməsini istədi.[355] Paşanın ağlına gələn ilk münasib fikir bu idi ki, hərbi nazirlik tərketmə bitməmişdən əvvəl əlaqədar dövlətlərdən müştərək nümayəndələrin göndərilməsini istəsin. Osmanlı hökuməti xarici dil mənimsəmiş və ölkənin vəziyyətini yaxşı bilən nümayəndələr seçilməsini təklif edirdi.[356] Ancaq bu tələblər və təkliflər həyata keçirilə bilmədi. Həyata keçirilsə də, nəticəsi olmayacaqdı. Sonrakı illərdə bu sınaqdan keçirilmiş, xarici qüvvələr ermənilərin tərəfini saxlamış, onların müsəlman əhalisinə zülm etmələrinə kömək etmiş və ya tamaşaçı olmuşlar.

Gələcəkdə bir narahatçılıq yaranmasın deyə, çıxmaq üçün hazırlıqlar görülməli, əsas işlər müəyyən edilməlidir. Bununla əlaqədar Xarici İşlər Nazirliyi müstəşarı Rəşad Hikmət bəyin sədrliyi ilə xarici və hərbi nazirliyin səlahiyyətli nümayəndələrindən ibarət bir komissiya yaradıldı. Komissiya keçirdiyi yığıncaqlardan sonra 10 noyabr 1918-ci ildə bu qərarları qəbul etdi. 1.Müsəlman əhalisi olmayan boşaldılan rayonlardan əsgərlər və ərzaq

---

[352] Qarabəkir. İstiqlal müharibəmiz s.4

[353] A. Poidebord.İran yolları qovşağında səyahət, (Çev: mayor Nəzmi və Əmin), İstanbul. 1341/1925, s.61.

[354] ATASE, A.6/5669, Kls.4844. D.293, F.71-1

[355] ATASE, A.4/8314, Kls.251. S1-4, F.5. Baş komandanlığın IX Orduya cavabı mənfi olmuşdur. Cavab teleqramla göndərilmiş, baş vəzir Əhməd İzzət paşanın imzası vardı. Cavaba görə Osmanlı dövləti sülh üçün təşəbbüs göstərəcəkdi. Sülh bağlayacağı dövlətləri razı salmaq üçün bəzi işlər görüləcəkdir. Bu məqsədlə, Qafqazdakı müsəlman əhaliyə olan yardım kəsilməli, ordunun dörd həftə ərzində qalmaq istəyən zabit və əsgərlərdən başqa digərləri bölgəni tərk etməlidirlər. (Endər Göydəmir. Cənubi-Qərbi Qafqaz dövləti. Ankara, 1989 s.36-37) Əhməd İzzət paşa hər nə qədər müsəlman əhaliyə yardım göstərilməməsini istəyirdisə də, sonrakı bölmələrdə gördüyümüz kimi yardım kəsilməmişdir.

[356] ATASE. A. 1/1. kls.D144-130, F.12-1

dərhal çıxarılsın. 2.Müsəlman əhalisi olan yerlərdə ehtiyac nəzərə alınmaqla ərzaq müəyyən miqdarda saxlanılsın, qalan hissəsi daşınsın. 3.Daşınma işində bir çətinlik olarsa, kömək üçün erməni və gürcü hökumətləri qarşısında siyasi təşəbbüs qaldırılsın. 4. Müsəlmanların olduğu yerlərdə yaradılması nəzərdə tutulan jandarma heyətinə ingilislərin daxil edilməsi tələb edilsin. 5.Göndəriləcək ərzaq mümkün qədər Elviyeyi-Selasedən kənara daşınsın. 6.Tərk edilən bölgələrin müsəlman əhalisinin, can və mal təhlükəsizliyi təmin edilsin və komandirlər bu barədə əhaliyə məlumat versinlər.[357]

Çıxmaq şərtləri ilə əlaqədar bir sıra qaydalar müəyyənləşdirildi. Baş komandanlıq baş ştabın 10 noyabr 1918-ci il tarixli əmrinə əsasən çıxarılan hissələrin köçürüləcəyi rayonları açıqladı. 9-cu diviziya Qarsa, II diviziya Van və Bəyazidə, 36-cı diviziya Ərzuruma, 15-ci diviziya Samsuna, 3-cü diviziya Ərdahana, 12-ci diviziya Sarıqamışa, 5-ci diviziya isə hələlik Batumiyə köçürüləcək.[358] Hərbi hissələrin köçürülməsi ilə əlaqədar hazırlıq işləri aparıldığı bir zamanda hərbi nazir 1282/1866-1300/1884-cü ildə doğulanlar üçün tərxis olunma əmri verdi.[359] Hərbi nazirliyin l4 noyabr tarixli əmrində ölkənin maddi sıxıntısını nəzərə alaraq, səfər təşkilatını ləğv etdi.[360] Beləliklə, ordu regionu boşaltma, tərxis işlərindən başqa, bir də bu işlərlə məşğul olmaq məcburiyyətində qaldı. Bu isə ordunun hərəkətini olduqca ağırlaşdırırdı.

IX Ordu komandanlığı tərxis, çıxma və səfər təşkilatını ləğv etmək işləri ilə məşğul olmaqla bərabər erməni və bəzən də gürcülərin hücumlarının qarşısını almağa çalışırdı. Bu sahədə əziyyət çəkən hissə - Naxçıvan, Şahtaxtı, Ordubad, Vedi, Uluxanlı, Qəmərli və Eçmiədzin bölgələrini ermənilərdən qoruyan 9-cu Qafqaz diviziyası idi. Osmanlı Ordusunun Araz vadisini tərk edəcəyini bilən ermənilər hərəkətə gəldilər. Regiondakı yezidilər də ermənilərlə bərabər idilər.[361] İrəvandakı Osmanlı nümayəndəsinin dediyi kimi, onların məqsədi Araz vadisini işğal etmək, oradakı ərzağı ələ keçirmək idi. Buna yol verməmək üçün 24 oktyabr 1918-ci ildə IX Ordu 9-cu Qafqaz diviziyasını xəbərdar etdi və lazımi göstərişlər verdi.[362] Ordunun xəbərdarlığından əvvəl vəziyyətin təhlükəli olduğunu başa düşən diviziya komandiri Rüşdü bəy əmri altında olan hissələrin hamısını şimaldan gələn təhlükə ilə əlaqədar xəbərdar etdi.[363] Səhərisi gün, 24 oktyabrda erməni

---

[357] ATASE. A.1/2. kls.56, D.223-19, F.22-20

[358] Aysan. İran cəbhəsi. Ş.c.s.66; Qafqaz cəbhəsi, II c.s.631.

[359] Qafqaz cəbhəsi II c.s. 631

[360] Aysan. İran cəbhəsi. III c.s.66

[361] ATASE, A.6/5669, Kls.4844. D.293, F63-2

[362] ATASE, A.6/5669, Kls.4844. D.293, F.64

[363] ATASE, A.6/5669, Kls.4844. D.293, F.61

təhlükəsinin qarşısını almaq üçün hazırlanan hərbi plan IX Orduya təqdim edildi.[364] Bundan əlavə, 25 oktyabr 1918-ci ildə 9-cu Qafqaz diviziyası ilə I Qafqaz korpusu arasında erməni təhlükəsinə qarşı hərbi planla əlaqədar bir çox yazışmalar getdi. Rüşdü bəy fikrini bildirdi.[365] Kazım Qarabəkir paşa da Rüşdü bəyin fikirləri ilə razılaşdı. Hərbi nizamnamə qaydaları ilə əlaqədar əmr verdi.[366] Bu əmr Şövqü paşanın razılığından sonra qüvvəyə mindi.[367] Ancaq bu əmrə əsasən ermənilər hücum edərsə qarşısı alınacaq, təqib əmri verilməzsə, erməni sərhədini keçməyəcəklər.[368]

Türk qüvvələrinin erməni təhlükəsinə qarşı hazırlaşmasının müsbət təsiri 2 gündən sonra bəlli oldu. Belə ki, Ermənistanda səfərbərlik elan edildi. Göyçə göldə, Yeni Bəyaziddə, Ağbulaq və İrəvanda 18 yaşından 35 yaşına qədər olan kişiləri səfərbərliyə aldılar. Gənc ermənilərin ölkədən kənara çıxmaları qadağan olundu. Belə ki, Uluxanlı və Qəmərlidəki ərzaq və digər materiallara göz dikən ermənilər, Naxçıvan sərhədinə yaxınlaşan Andranikin qüvvələri ilə birləşərək bir nəticə əldə etmək istəyirdilər.[369] Onlar məqsədlərinə çatmaq üçün çox gözləmədilər. Sərhəddəki türk dəstələrinə hücuma başladılar[370] və 30 oktyabrda Türkiyədə olan Arpa kəndini işğal etdilər. Kənddə olan anbarları qarət etdilər.[371] Bununla əlaqədar Kazım Qarabəkir paşa səhərisi gün 9-cu Qafqaz diviziyasına göndərdiyi əmrdə bildirdi ki, İrəvan və Eçmiədzin tərəfindən gələn təhlükələrdən qorunmaq üçün Böyük Vedi dağları müdafiə olunmalıdır.[372] Türk qüvvələri sərhədləri diqqətlə və ciddi bir şəkildə nəzarət altında saxlayırdı və bu da ermənilərə istənilən fürsəti vermədi. Ancaq yenə də onlar kiçik hücumlardan əl çəkmədilər.[373] Xüsusilə noyabr ayının ortalarında türk sərhədlərinə yaxın kəndlərə hücum etməyə başladılar. Ancaq müvəffəqiyyət qazanmadılar.[374]

---

[364] ATASE, A.6/5669, Kls.4844. D.293, F.63-2

[365] ATASE, A.6/5669, Kls.4844. D.293, F.67-3

[366] 28-ci alaydan bir batalyon Şahtaxtıya gələcək, bir rota da Noraşendə qalacaq. 17-ci alay Vedi, 29-cu alay Uluxanlı, Qəmərli bölgəsində yerləşəcəkdir. 9-cu diviziya qərargahı Qəmərlidə olacaq. Kolordu qərargahı hələlik Naxçıvanda yerləşəcək (ATASE, A.6/5669, Kls.4844. D.293, F.69).

[367] ATASE, A.6/5669, Kls.4844. D.293, F.67-4, 68

[368] ATASE, A.6/5669, Kls.4844. D.293, F.73

[369] IX Ordu komandanlığına bu məlumatlar İrəvandakı Osmanlı nümayəndəsi M.Əli paşa və İslam ordusu komandanlığı tərəfindən bildirilmişdir. (ATASE, A.6/5669, Kls.4844. D.293, F78-1)

[370] ATASE, A.6/5669, Kls.4844. D.293, F.80-5.

[371] ATASE, A.6/5669, Kls.4844. D.293, F.86-8.

[372] ATASE, A.6/5669, Kls.4844. D.293, F.93.

[373] 4 noyabrda Naxçıvanın 40 km şimalında Sultanbəy yolu ilə erməni əhalisi Cəhri kəndinin müsəlman əhalisinə mənsub heyvanları götürmüş və erməni əsgərləri kəndə xəbər göndərərək təslim olmalarını tələb etmiş, yoxsa kəndi yandıracaqlarını bildirmişlər. (ATASE. A. ½,kls.82, D.304-210, F.1). Erməni quldur dəstəsinin lideri Yapun Dərələyəz bölgəsindəki kəndlərə ultimatum göndərmiş, silahların verilməsini tələb etmiş, əks taqdirdə kəndi zəbt edəcəyini bildirmişdi. 7 noyabr 1918-ci ildə Ermənistandakı müsəlman əhalisinə bəzi mükəlləfiyyətlər qoyulmuşdu. Yerinə yetirməyənlər cəzalandırılırdı (Gökdəmir. Qafqaz hökuməti. s.56-57).

[374] ATASE. A.1/1, kls.23, D.151.f.24.

Ermənilər türk qüvvələrinin regionu tərk etmələrini gözləyirdilər. O zaman onlar öz əməllərini həyata keçirəcəklərinə inanırdılar.

## 2. Bölgəni tərketmə əmri. Xalqın vəziyyəti

Brest-Litovsk müqaviləsinə daxil olmayan sahələrdə fəalliyət göstərən Osmanlı qüvvələrinə 21 oktyabr 1918-ci ildə çıxma əmri verilmiş və gizli saxlanılması nəzərdə tutulmuşdu. Ancaq bu gizlilik müəyyən dərəcəyə qədərdi. IX Ordu komandanlığının 22 oktyabr tarixli əmrinə əsasən məhəllə hökumət rəisləri firqə komandirləri daha çox məhrəm sayılan müsəlman əhalisinin nüfuzlu şəxslərinə tamam və açıq deməsədən regionu tərketmə işləri haqqında məlumat verilmişdir. Mühacirət istəyib-istəmədikləri soruşulacaq, köçmək istəyənlər özləri ilə ərzaq götürməli olacaqdı, çünki ac qalmaq təhlükəsi ola bilərdi, köçmək istəyənlər əvvəlcədən məlumat verməli idi. Nüfuzlu şəxslərlə müzakirə olunmalı və verilən qərar təcili orduya bildirilməlidi.[375] Göründüyü kimi, çıxma əmri ilə əlaqədar nümayəndələr vasitəsilə xalqın nəbzi tutulurdu. Məqsəd mühacirət edib-etməyəcəklərini öyrənmək, mühacirətin çətinliklərini bildirmək idi.

Yaqub Şövqü paşa xalqın köçmək məsələsinə müsbət baxsa da, baş komandanlıq bu fikirdə deyildi. Yaqub Şövqü paşanın imzası ilə IX Ordudan 9-cu Qafqaz diviziyasına 24 oktyabrda göndərilən şifrli teleqramda göstərilirdi: "Tərk edilməsi nəzərdə tutulan bölgələrin müsəlman əhalisinin köçməyib, sakit və rahat yerlərində qalmaları baş ştab tərəfindən verilmiş əmrdə ifadə olunmuşdur. Bununla əlaqədar əhalinin nümayəndələri ilə keçirilən gizli yığıncaqlarda əhaliyə köçmək haqqında heç bir məlumat verilməyəcək, bu fikir təlqin edilməyəcək. Əgər müsəlman əhali arasında mühacir olmaq istəyi olarsa, onlara təbliğat aparılacaq və yerlərində qalmalarına çalışılacaqdır. Əgər mütləq getmək istəyən olarsa, o şəxs haqqında orduya məlumat veriləcək. Tərkedilən ərazidə bir qədər əsgər qalacaq, onlar da müsəlman əhalisini mühafizə etməyə məsul olacaqlar.[376]

Məcburiyyət qarşısında bu məsələ xalqa bildiriləcək, təsəlli veriləcək, sakitlik təmin ediləcəkdi.[377] Bu əmrlərin yerinə yetirilməsi üçün xalqla birbaşa əlaqə yaradılmalıdır. Regionda xalq ilə birbaşa əlaqə saxlayan yerli hökumətlərdir. Bununla əmrlər 25 oktyabrda mayor Əli Şəfiq bəyin sədr olduğu Naxçıvan hökumətinə bildirilirdi.[378]

---

[375] ATASE, A.6/5669, Kls.4844. D.293, F.58

[376] Baş komandanlıq bu qərarı o zaman üçün vermişdir. Mudros müqaviləsindən sonra Antanta dövlətlərinin təzyiqi nəticəsində bu qərar gündəliyə daxil edilməmişdir.

[377] ATASE, A.6/5669, Kls.4844. D.293, F.64-1

[378] ATASE, A.6/5669, Kls.4844. D.293, F.69-1

Osmanlı hərbi dairələri çıxma əmrini bir müddət gizli saxlamağa çalışsalar da, xalq bundan xəbər tutdu. Bu, böyük bir qorxu yaratdı.[379] Çünki onlar Osmanlı ordusu çıxan kimi erməni zülmünə məruz qalacaqlarını bilirdilər. Bu mərhələdə xalq arasında iki fikir mövcud idi. Birincisi, köçmək ikincisi müdafiə olunmaq.[380] Xalqın belə bir həyəcanı, qorxuya düşməsi və müdafiə təlaşı IX Ordunu hərəkətə gətirdi. 9-cu Qafqaz diviziyasına gizli bir teleqram göndərildi. Regionu tərketmə zamanı müsəlman əhalinin lüzumsuz həyəcanı istər hökumətin, istərsə də orada qalan müsəlman əhalinin zərərinə idi. Tərketmənin müntəzəm və sakit aparılması üçün heç bir şey dağıdılmamalı idi. Müsəlman əhalinin silahlı etirazı və ya üsyanı türk tərəfindən təşkil olunmasa da, kənar dairələr tərəfindən türklərin təşkil etdiyi bir tədbir hesab olunacaq və bu siyasətə qarşı fəaliyyət sayılacaq. Bununla əlaqədar bu teleqramı alan hər bir məmur və komandir indidən region əhalisinə bu işi məqsədəuyğun, şifahi şəkildə başa salmalıdır.[381]

Ordunun əmrinə əsasən xalqı sakitləşdirməyə çalışırdılar. Ancaq İğdırda vəziyyət dəyişdi. İğdır yerli hökumət rəisi Məhəmməd Mühiddin bəy regiona gələn 12-ci diviziya rəisi Əli Rüfət bəyin fəaliyyətindən narazı idi. Əhali tamamilə sakitləşdirilmişdi. Əli Rüfət bəy çətinliklər içərisində əsgər toplamağa və onları silahlandırmağa başladı. Bu adamlar ermənilərlə hər dəqiqə münaqişə törədə bilərdilər. Mühiddin bəy İğdırda mühacirətin qarşısını almışdı. Ancaq xalq üçün narahatçılıqları var idi. İğdır ovalığında yaşayan adamlar illərdən bəri idi ki, ermənilərlə mübarizə aparırdı. Talan etmələrinə görə kürdlərlə araları yox idi. Əhali köçmək istəsə, gərək idi ki, Bəyazid və Kağızman tərəfində güclü qüvvə toplansın, yoxsa kürdlər tərəfindən bu adamlar öldürülərdi[382]. Mühiddin bəy 1 noyabr 1918-ci ildə Şövqü paşaya müraciət etdi. Şövqü paşa səhərisi gün cavab verdi və qeyd etdi ki, xalqın köçməsi qəti surətdə məqsədəuyğun deyil. Üsyan və s. kimi fəaliyyətlərə mane olmalıdırlar.[383]

IX Ordunun köçmənin qarşısını almaq üçün göstərdiyi cəhdlər öz səmərəsini verdi. Bəzi bölgələrdən köçmək istəyən əhali sakitləşdirildi.[384] Mühacirətin qarşısının alınması çox vacib idi. Əgər müsəlman-türk əhalisi regiondan köçsəydi, müsəlman əhalinin sayı azalacaqdı, bu da ermənilər üçün əlverişli olardı. Emiqrasiyanın qarşısı alınsa, gələcəkdə regionda türk-

---

[379] Əliyev. Qanlı günlərimiz.s.81

[380] Xalqın bu vəziyyəti IX Ordu komandiri Y.Şövqü paşa tərəfindən 29 oktyabr 1918-ci il tarixdə baş ştata bildirildi (ATASE. A.1/2, kls.56, D.223-19,F.1).

[381] ATASE, A.6/5669, Kls.4844. D.293, F.96; Aysan. İran cəbhəsi. III c.s.64-65

[382] ATASE. A.4/8314. kls.251, D.1-4,F.3-1

[383] ATASE. A.4/8314. kls.251, D.1-4,F.3

[384] Ordunun bölgədən çıxmasına görə Sərdərabad əhalisi köçmək istədi. 12-ci diviziya komandiri Əli Rüfət bəyin tövsiyələri nəticəsində əhali bu fikirdən daşındı. (ATASE. A.6/8314. kls.251, D.1-4,F.32-1.)

müsəlman əhali qalacaq, ermənilərin planı pozulacaqdı. Anadoluya köçən adamlar da aclıqdan, yoxsulluqdan məhv olacaqdılar.

Müsəlman əhali də mühacirətə çox ümid bəsləmirdi. Ancaq qorxu və həyəcanlar vardı.Türk Ordusu onları xilas edənə qədər ermənilər vəhşiliklərini davam etdirirdilər.[385] Buna görə də türk ordusundan bir sıra xahişlər etmişdilər. Y.Şövqü paşa, baş ştaba göndərdiyi 1 noyabr tarixli teleqramda Axıska, Axılkələk, Gümrü, İğdır və Naxçıvan müsəlman əhalisinin xahişlərini belə ifadə etmişdi:

a) Osmanlı hökuməti ərazimizdən ordusunu çıxarmasın;

b) Əsgərlərin çıxarılması zəruridirsə, hər bir qəzada bir nümayəndə, müəyyən miqdarda əsgər saxlasın;

v) Qəzamıza gələn xristian əhalisinin bizi məhv etməməsi, öldürməməsi və bizim müstəqil qalmağımız təmin edilsin;

d) Gürcü və ya erməni hökumətlərinin üsul-idarəsi altına düşməməyimiz təmin edilsin.[386]

Göründüyü kimi, xalq, boşaltmadan sonra xristianların gəlib onlara zülm edəcəklərindən qorxur,[387] öz gələcəklərini düşünürdülər.

Xalq qorxduğuna görə tez-tez xahişlər edir, səlahiyyətliləri tələsdirirdi. Belə ki, Naxçıvan əhalisindən seçilmiş bir heyət noyabr ayının əvvəlində Naxçıvan hökumət rəisi, mayor Əli Şəfiq bəyi ziyarət etdi.[388] Onlar həyəcan və narahatçılıqlarını bildirib, xahişlərini etdilər. Əhalinin fikrincə, onların müntəzəm bir təşkilatları olmadığından topa, tüfəngə sahib olsalar da, əsgərlər çıxdıqdan sonra özlərini ermənilərdən qoruya bilməyəcəklər. Ermənilər birdən olmasa da, uzun müddətdən sonra onları məhv edəcəklər. Buna görə də qəti surətdə onlarla müştərək heç bir şey etmək istəmirdilər. Çarə ancaq müəyyən miqdarda əsgər saxlamaq idi.[389] Əhalinin bu qədər narahatçılığına əsas yox idi. Müsəlman əhalini bir qədər bu fikirlərdən uzaqlaşdırmaq lazım idi.

---

[385] ATASE.A. 1/1, Kls. 37, D.144-30-130, F.12-1

[386] ATASE, A. ½, Kls. 56, D.223-19, F.3

[387] Əhalini qorxudan hadisələrdən biri, türk hərbi dairələrinin bölgədən gedən erməni mühacirlərin geri qayıdacaqlarını əhaliyə bildirməsi idi. 9-cu diviziya komandanlığı Naxçıvandakı 28-ci alaya və Naxçıvan hökumətinə verdiyi əmrdə əhalinin erməni mühacirlərlə yaxşı davranmalarını, mühacirlərin ərzaqla təmin edilməsini, ermənilərə məxsus kənd və binaların boşaldılmasını tələb edirdi. (ATASE. A.1/2. kls.65.D.254-101, F.21-2. Əliyev.Qanlı günlərimiz.85). Y.Şövqü paşa bununla əlaqədar 25 noyabr 1918-ci il tarixində Hərbi Nazirliyə göndərdiyi bir hesabatda yazırdı: Siyasətə görə biz ermənilərlə xoş davranırıq. İaşə ehtiyaclarını təmin etmək üçün hökumət adından taxıl verdik. Müsəlman əhalisinə də yaxşı davranmalarını tapşırdıq. Bu ay ərzində erməni mühacirlərin qəbulu, yerləşdirilməsi və iaşə ehtiyacları ilə məşğul olduq (BOA, BEO, 340775). Y.Şövqü paşanın mühacirlər üçün göstərdiyi fəaliyyət, özü dediyi kimi siyasət idi. Tətbiq olunan siyasətə uyğun erməni və rumlar əvvəlki yerlərinə qayıdır, mal-mülklərinin qaytarılması üçün işlər görülürdü. Ətraflı məlumat üçün bax: İbrahim Ethem Atnur "Mühacirətdən qayıdan erməni və rumların yenidən məskunlaşması məsələsi" nəşr olunan dissertasiya işi, Ərzurum, 1991

[388] Əliyev.Qanlı günlərimiz s.81

[389] Əli Şəfiq bəyin fikrincə Naxçıvan əhalisinə ermənilər heç bir şey etməsələr belə onların arxasında olan ədavət, anlaşılmazlıq bir-birlərini yox etməyə kifayətdir. (ATASE. A.4/8314. kls.251, D.1-4,F.2-2.) Bu məsələlərin həll olunması üçün bir sıra tədbirlər görülməlidir.

Bununla əlaqədar IX Ordu komandanlığı 2 noyabr 1918-ci ildə regiondakı vəziyyətlə əlaqədar hakim dairələrə[390] əhalinin narahatçılığını aradan qaldırmaq və xahişlərini müəyyən dərəcədə yerinə yetirmək üçün tədbirlər görməsini tapşırdı. Əhaliyə bunları açıqlamaq lazımdır.

1. Brest-Litovsk müqaviləsinə daxil olmayan ərazidən çıxmağımızı eşidən müsəlman əhalisi hər qarşısına çıxandan, komandanlıqlardan və s. məlumat soruşur, qorxurlar ki, biz çıxdıqdan sonra xristianlar onları öldürəcəklər. 2. Xalqın bu vəziyyəti onların cahilliyindən, bir-birlərinə inanmamasından, güvənməməsindən irəli gəlirdi. Bir-birinə etimad bəsləməli, güvənməli olduqlarını bilməlidirlər. 3. Əhalinin bir hissəsi Osmanlı əsgərlərinin çıxmasını istəyirdi. Bunun hələlik mümkün olmadığı izah edilməlidir. Əhalinin bir hissəsi isə mühacirət etmək fikrində idi. Onların məhv ola biləcəkləri hər kəs bilməlidir. Əhalinin müəyyən hissəsi isə zabit və əsgərlərin bir hissəsinin saxlanmasını istəyirdi. Bu iş istər açıq, istərsə də gizli saxlanılsa da, bir gün bəlli olacaqdır. Bu vəziyyət həm Osmanlı dövlətini, həm də xalqı çətin vəziyyətdə qoyur. Bundan başqa bir yol tapmağa çalışacağıq. 4. Əhalinin bir qismi də silah, cəbbəxana istəyir. Bunları verəcəyəm. Ancaq əvvəlcə əmrinizdə nə qədər və hansı növ tüfəng, mərmi, patron olduğu təcili orduya bildirilməlidir ki, mən də əldə mövcud olam bu əsasa görə onlara verim. 5. Əhalinin bir qismi isə xristianlar gəldikdən sonra mütləq bir münaqişə yaranacağına inanır. Bu münaqişəyə yol verməmək mümkündür. Gələn xristianlar onlardan azdırlar. Hər qəzanın müsəlman əhalisi müştərək yerli hökumət təsis etsələr, bu hökumətin hər bir əmrini yerinə yetirsələr gələn xristianlar da onlara tabe olarlar. 6. Tərk etdiyimiz regiona hansı xristian gələrsə-gəlsin ərazinin sahibi deyil. Erməni və gürcü dövlətləri hələ Avropa tərəfindən tanınmamışdır. Bu ərazilərin hansı hökumətə veriləcəyi və əhalinin hansı hökumətə tabe olacağı sülh müzakirəsində qərara alınacaq. Buna görə də o vaxta qədər səbrlə gözləməliyik. 7. Gələn xristianlar əhaliyə zülm edərlərsə (hər bir qəzada nümayəndəmiz olmasa) İrəvan və Tiflisdəki nümayəndələrimiz[391] vasitəsilə müsəlman əhali dərdlərini bizə çatdıra bilərlər. 8. Bu, əhaliyə bildirilməli, əhali sakitliyə dəvət olunmalı və öz təşkilatının fəaliyyətlərinin davam etdirilməsi tövsiyə olunmalıdır.[392]

Göründüyü kimi, xalqda təhlükəsizlik hissi aşılamağa çalışmaq və ən mühümü isə əhalinin milli təşkilatını yaratmaq lazımdır. Artıq region yeni bir dövrə girirdi. Tərk ediləcək rayonların sahibsiz və təşkilatsız qalmamaları üçün IX Ordu komandanlığı hərəkətə başladı. Yuxarıda qeyd etdiyimiz

---

[390] Axılkələk, Gümrü, İğdır mövqe komandanlıqlarına, Naxçıvan hökumətinə, 3-cü firqə, 9-cu firqə, 36-cı firqə, 12-ci firqə komandanlıqlarına.

[391] Bunlar İrəvan və Tiflisdəki Osmanlı nümayəndələridir.

[392] ATASE, A.4/8314, Kls.251. D.1-4, F.2.

kimi, əhali öz hökumətlərini qurmaq istəyir. Onlara silah və sursatın veriləcəyi məlum olurdu. Əhalinin qabaqcıl nümayəndələri Türk Ordusunun dəstəyi ilə öz fəaliyyətlərinə başlayacaqdılar. Ancaq yenə həyəcan və narahatçılıq var idi. Naxçıvan bölgəsinin qabaqcıl nümayəndələri öz tələblərini daha yuxarı dairələrə çatdırmaq istəyir, bununla da bir qurtuluş yolu axtarırdılar. Bununla əlaqədar Mirzə Nəsrullah bəy və Bağırbəy Məhəmmədbəyzadə nümayəndə kimi Qarsdakı Şövqü paşanın yanına göndərildi. Onlar Qarsa gəldikdən sonra Naxçıvan hökuməti rəisi Əli Şəfıq bəyə teleqram göndərdilər, bu teleqramda Osmanlı hökumətinin Naxçıvanda qalmasını, Azərbaycan, ingilis, gürcü və erməni nümayəndələrindən təşkil olunmuş bir kommissiyanın ən yaxın zamanlarda Naxçıvana gələrək erməni və müsəlman əhali arasında danışıqlar aparmasını tələb edirdilər.[393] Buna bənzər istəklər bölgənin digər əhalisi tərəfindən edilir, türk əsgəri çıxdıqdan sonra onları öldürəcəklərini deyirdilər.[394] Ancaq bunlar nisbətən azalmışdı. Artıq əhali silah, cəbbəxana, ərzaq istəyirdi.[395]

Deməli, gələcəkdə baş verəcək erməni hücumuna qarşı hazırlıq görülürdü.

### 3. Türk hərbi hissələrinin regionu tərk etməsi

Regionu tərk etmə işləri başlayanda türk hərbi dairələrinin ən böyük narahatçılığı bölgədən göndərilməsi lazım olan materiallar idi. O cümlədən, Şimal-Qərbi İranda 2000 ton yeyinti məhsulları, Culfa, İğdır, Eçmiədzin, Axıska, Axalkələk qəzalarında 10.000 ton yeyinti məhsulları, Gümrü bölgəsində 18000 ton yeyinti məhsulları, əşya və digər hərbi ləvazimat var idi. Onlar 100.000 nəfərdən ibarət olan və 40000 heyvana malik IX Ordunun bir neçə aylıq ehtiyacını təmin edə bilərdi. Əgər bunlar aparılmazsa, üç bölgədən və Şərq vilayətlərindən toplanmış ordunun iaşə məsələsi təhlükəli vəziyyətə düşərdi.[396] Bu sıxıntıya yol verməmək üçün təcili həmin materiallar göndərilməli idi. Türk dairələrinin əlində bu qədər materialları nəql etmək üçün kifayət qədər vəsait və ən mühümü, qatarlar üçün mazut yox idi. Türk əsgərlərinin çıxmasına kömək etmələri üçün erməni və gürcü hökumətlərinə müraciət olunması qərara alındı.[397] Ancaq bu işdə bir nəticə əldə edilmədi. Gürcülər qatarın gedişinə mane olmaq üçün əllərindən gələni edir, lazımi

---

393 Əliyev.Qanlı günlərimiz s.81-82

394 Naxçıvan və İğdır əhalisi adından Qars mülkü müfəttişi Hilmi bəyə müraciət edən bir neçə kişi bölgədən türk ordusunun çıxmasını istəyir, bildirirdi ki, yoxsa ermənilər onları məhv edəcəklər. Hilmi bəy, bunu Daxili İşlər Nazirinə bildirdi, əhalidəki bu narahatçılığın əsası olduğunu ifadə etdi. Buna görə də çarə axtarılmalı idi. (BOA, DM. 1. UM. 20-20. 13. 27).

395 ATASE, A.4/8314, Kls. D.1-4, F.33.

396 Türk İstiqlal Hərbi-Mudros müqaviləsi, 1.Ankara, 1982, s.227.

397 ATASE. A. ½. Kls.56, D.223-19, F.22-20.

mazutun Azərbaycandan göndərilməsinə mane olurdular.[398] Bölgədəki ərzaqda gözü olan ermənilər də, sözsüz ki, kömək etməyəcəkdilər.

Noyabr ayının ortalarından etibarən çıxma işlərinə başlandı. Şimali İrandakı digər birliklər Culfa, Xoy, Dilmanda idilər və Van, Bəyazid bölgələrinə kömək üçün hazırlaşırdılar.[399] Azərbaycanda olan türk əsgərləri də çıxmaq ərəfəsində idilər. Buna görə də 17 noyabrda Bakı boşaldılmış və türk əsgərləri Batumiyə doğru yola düşmüşdülər.[400] Şimali İranda və Azərbaycanda bu çıxma işləri getdiyi bir vaxtda Batumi müqaviləsi əsasında ələ keçirilən bölgələrdə heç bir fəaliyyət yox id.[401] Qüvvələr əvvəlki yerlərini mühafizə edirdilər. Belə bir vəziyyətdə bölgənin noyabr ayının sonuna qədər boşaldılması haqqındakı əmr etibarını itirmişdi. Belə görünürdü ki, çıxma dekabr ayının əvvəllərində sona çatacaq.

Osmanlı qüvvələri Qafqazdan və Şimali İrandan çıxarkən hökumət bir sıra siyasi təzyiqlərə məruz qaldı. Təzyiqlərin əsasını türk əsgərinin bölgədə qalması, çıxmanın məqsədli aparılması və boşaldılacaq yerlərdən bütün ərzağın daşınması kimi məsələlər təşkil edirdi. Fransız ikinci flot komandiri admiral Vis Ametin Qafqazda əsgər saxlanılmasının müqaviləyə zidd olduğu və bunun Osmanlı və Antanta dövlətləri arasında münasibətlərə zərər gətirə biləcəyi haqqındakı şikayəti Xarici İşlər Nazirliyinə bildirilmişdi. Xarici İşlər Nazirliyi şərtlərin ağırlığı üzündən boşaltmanın gecikdiyini admirala bildirdi, vəziyyət haqqında 27 noyabrda baş nazirə məlumat verdi və bu işdə məsuliyyət daşıyan komandirlər haqqında tədbirlər görülməsini tələb etdi.[402]

Şikayətə səbəb olan məsələ 28 noyabrda Vəkillər məclisində müzakirə olundu. Qafqazı tərk etmə ilə əlaqədar əmrlərin yerinə yetirilməməsinin Osmanlı dövlətinə zərər gətirə biləcəyi qeyd edildi. Ancaq bununla bərabər, əhalinin can təhlükəsizliyinin təmin edilməsi və mövsüm şərtlərinin əlverişsizliyi səbəbindən gecikmənin Antanta dövlətləri nümayəndələrinə bildirilməsi qərara alındı.[403] Lazımi işlərin görülməsi 30 noyabrda Xarici İşlər Nazirliyinə bildirildi.[404] Qafqazdakı hərbi hissələrin də xəbərdar edilməsi lazım idi. Şikayətlər yaranmasın deyə Hərbi Nazirlik IX Ordu komandan-

---

[398] Aysan. İran cəbhəsi. III c.s.63.

[399] ATASE. A.1/1. kls.2, D.10-137, F.12, ATASE. A. 1/1. kls. 7, D.29-144.

[400] Çakmak, Şərq cəbhəsi hərəkatları. s.274; Həmin gün Bakı ingilis qüvvələri tərəfindən işğal edildi. Gotthard jaeschke "Derfreiheitskampf des Türkischen Volkes, Ein die welt des Islams, Band 14.Berlin 1932, s, 8"

[401] ATASE. A.1/1. kls.2, D.10-137, F-12

[402] BOA, BEO, 340760.

[403] BOA, MVM, 28 Təşrinisani 1334/21 noyabr 1918, 213/37

[404] VOA, VEO, 340/760. Bu vaxtlarda ingilis rabitə zabitlərinin istəklərinə cavab vermək üçün səlahiyyətli cəmiyyətlər arasında yazışmalar aparılırdı. (ATASE. A.1/2. kls.2, D.10, F.13, VOA, VEO 340/752).

lığını boşaldılan bölgələrdə qəti surətdə əsgər və zabit saxlanılmaması[405] üçün xəbərdar etmişdi.[406]

Ancaq şikayətlər ortaya çıxan kimi Hərbi Nazirlik IX Ordunu Şimali İranda və Cənubi Qafqazda əsgər saxlanılmaması və məsələ barədə əlaqədar komandirlərə məlumat verilməsi üçün xəbərdar etdi. IX Ordu komandiri Y.Şövqü paşa da məsələni Nuru və İzzət paşalara bildirdi.[407] İngilislər Osmanlı Ordusunun bölgələri tərketmə işlərindən narazı idilər. Onlar əvvəlki şikayətlərini təkrarlayaraq Osmanlı hökumətindən Şövqü və İzzət paşanın, həmçinin Emin bəyin İngilis hərbi divanına verilməsini tələb edirdi.[408]

Bölgələri tərketmə ilə əlaqədar bu cür şikayət və yazışmalar davam edərkən, osmanlı qüvvələri bölgəni ağır-ağır boşaldırdılar. 4 dekabr 1918-ci ildə Şimali İran bölgəsi türk qüvvələri tərəfindən tamamilə boşaldıldı[409] və qüvvələr 5 dekabrda daha əvvəlcədən müəyyən edilmiş Van-Bəyazid xəttinə doğru getdilər.[410] Naxçıvanda boşaltma işləri aparılırdı. Sərhədə gedən zabitlər erməni səlahiyyətliləri ilə danışıqlar aparır və Osmanlı Ordusu getdikdən sonra erməni əsgərlərinin türk qüvvələrinə 5 km-dən artıq yaxınlaşmamaları bildirilirdi.[411]

Naxçıvan bölgəsində olan 28-ci alayın boşaltma işlərinə başladığını bilən Xəlil bəy Orduya kömək üçün məmurları ilə birlikdə Şahtaxtıya gəldi. Ancaq islam ordusundan bir teleqram gəldi və ikinci əmrə qədər onun bölgədə qalması əmr edildi. Xalq da Xəlil bəyi və yoldaşlarını bölgədə saxlamağı qərara almışdılar və vəziyyəti onlara bildirdilər.[412] Xəlil bəy də Nuru paşadan alacağı ikinci əmri gözlədiyinə görə və Ordubaddakı təşkilatı dağıtmamaq şərti ilə Naxçıvanda qaldı.[413]

---

[405] Hərbi Nazirlik IX Ordunu əsgər saxlamamaq üçün xəbərdar edir. Ordu komandiri Şövqü paşa 9-cu Qafqaz diviziyasına göndərdiyi 11 noyabr tarixli bir teleqramda yazmışdır: Tərxis olunan ehtiyat zabitlərdən Naxçıvan və İğdır bölgəsində yaradılan təşkilatda işləmək istəyənlər orada qala bilərlər, ancaq osmanlı forması geyməsinlər. (ATASE, A.4/8314, Kls.251. D.1-4, F-22).

[406] ATASE. A.1/1. Kls.37, D.144-130, F.10

[407] ATASE. A.1/1. Kls.63, D.244-17, F.63

[408] ATASE. A.1/1. Kls.7, D.29-144, F.14

[409] ATASE. A.1/1. Kls.4, D.18-2, F-34, Mudros müqaviləsi, s.227.

[410] Aysan. İran cəbhəsi. III c.s.67.

[411] Xəlil bəy türk ordusu Naxçıvanı tərk etdikdən sonra baş verən hadisələrə dair hesabatında türk hərbi hissələri regionu boşaltdıqdan sonra erməni əsgərlərinin Naxçıvana gələcəyini bildirmişdi. Bu cümlədə bir səhv var, erməni əsgəri deyil, erməni mühacirləri olmalıdır. Əgər erməni əsgərinin bölgəyə girməsinə icazə verilsəydi, niyə türk dairələri əhalinin özlərini müdafiə etmələri üçün təşkilat yaradıb, silah paylayırdı. Deyə bilərik ki, Xəlil bəy erməni hərbi hissələri kəlməsini səhv olaraq işlətmişdir. Qeyd edilən erməni mühaciridir. Hesabatın o biri hissələrində erməni mühacirlərindən bəhs edilmişdir. (ATASE. A. 1-2; Kls.65, D.254,101, F.21-2, 21-3, 21-4).

[412] Xəlil bəy Naxçıvandan gedəcəyini bildirəndə əhali arasında həyəcan, qorxu yarandı. Əli Şəfiq bəyin yerinə təyin olunan Mirzə Nəsrullah bəy Xəlil bəyin yanına getdi., danışıqlar apardı. Nəticədə Xəlil bəy Naxçıvanda iki top qoydu, Şahtaxtıya getdi. Ailəsini də aparmaq istədi, qayın atası razı olmadı. Şahtaxtıya apara bilmədi. (Əliyev. Qanlı günlərimiz.s.84-86).

[413] Fəxrəddin Erdoğan xatirələrində 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəy Naxçıvandan çıxarkən Xəlil bəy adlı bir kapitanın çoxlu silah və hərbi ləvazimatı bölgədə saxladığını yazırdı. (Erdoğan, xatirələrim, s.184) Burada

Bu vaxt 28-ci alay Naxçıvanı tərk etdi.[414] 1 dekabrdan etibarən Naxçıvan və nəzarəti altında olan bölgələri boşaltmağa başlayan 9-cu Qafqaz diviziyası 11 dekabr 1918-ci ildə Kağızmandan Sarıqamışa gəldi.[415] Bölgədəki türk hissələri demək olar ki, boşaltma işlərini tamamlayıb, Brest-Litovsk müqaviləsində göstərilən sərhədə çatdılar. Ancaq indi də Antanta dövlətləri Mudros müqaviləsinin 11-ci maddəsinə əsaslanaraq Elviyeyi-Selasenin də boşaldılmasını tələb edirdi.[416] Beləliklə, türk qüvvələri irəli hərəkətləri zamanı əldə etdikləri bölgələri tamamilə boşaltmalı oldular.

---

qeyd etdiyimiz kimi, Xəlil bəy İslam ordusundan aldığı əmr və əhalinin xahişi ilə Naxçıvanda qalmışdır. Mədətov da, türk ordusu Naxçıvandan çıxdıqdan sonra bölgədə 5 zabit və 300 əsgər və Xəlil bəyin Araz Respublikasında qaldığını yazırdı. (Mədətov, Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.43), Naxçıvanda nə qədər əsgər və zabit qaldığını bilmirik. Türk ordusu çıxdıqdan sonra Xəlil bəy yoldaşları ilə 5 yanvar 1919-cu ildə Naxçıvandan çıxaraq Bəyazidə gedir. Xəstə olduğu üçün yalnız Xəlil İbrahim əfəndi qalmışdır. (ATASE. A. ½, Kls.65, D.254-101,F.21-4).

[414] ATASE. A. ½, Kls.65, D.254-101,F.21-2. Türk əsgərləri Naxçıvan şəhərindən getmədən bir gün əvvəl əhalidə qorxu yaranmış və əllərində fanarlar küçələri gəzməyə başlamışdılar. Türk əsgərlərini yola salmaq üçün əhali stansiyaya gəlmişdi. (Cahangiroğlu, Xatirələr, s.7) Boşaltma ilə əlaqədar mayor Əli Şəfiq bəy və jandarma komandiri Cavid bəy də Naxçıvanı tərk etdilər. (Əliyev.Qanlı günlərimiz s.84-85)

[415] Qafqaz cəbhəsi. II, s.633-634

[416] Mudros müqaviləsi, I c.s. 228-230

# II BÖLMƏ

## ARAZ VADİSİNDƏ FƏRDİ (AYRI-AYRI) HÖKUMƏTLƏR
## ARAZ-TÜRK HÖKUMƏTİ

### 1) Araz-Türk hökumətinin qurulmasına gedən yol

### a) İdarəetmə təşkilatların yaradılması

Batumi müqaviləsinə əsasən hüquqi cəhətdən Türkiyə torpaqlarına birləşmiş Naxçıvan, Şərur, Qəmərli, Uluxanlı, Sərdarabad və Vedinin türk-müsəlman əhalisi türk ordusunun çıxarılmasını eşidən kimi böyük bir qorxuya, həyəcana düşdü. Çünki onları qara günlər gözləyirdi. 1918-ci ilin yaz və yay aylarında onları erməni zülmündən qurtaran türk ordusu regionu tərk etməyə hazırlaşırdı. Deməli, yenidən tarixən düşmənləri olan ermənilərlə üz-üzə gələcəkdilər. Son illərdə mükəmməl şəkildə silahlanan nizamlı hissələr yaradan və ən mühümü, bir dövlətə sahib olan, Rusiyadan və Antanta dövlətlərindən dəstək alan ermənilərin hücumlarından müsəlmanları müdafiə edən yeganə qüvvə türk ordusu idi. Türklər getdiyinə görə müsəlmanlar sahibsiz qalacaqdılar. Buna görə çox narahat idilər. Tez-tez türk səlahiyyətli şəxslərindən nə edəcəklərini soruşur, xahişlər edirdilər. Ən mühüm ricaları isə əgər türk ordusu onlan qorumayacaqsa, onda onların köçmələrinə kömək etmələri idi.

Ancaq əvvəlki bölmədə qeyd etdiyimiz kimi, türk hərbi dairələri əhalini köçmək fikrindən uzaqlaşdırır, onları Milli Müdafiə və daha mühümü Milli təşkilat yaratmağa sövq edirdilər. IX Ordu komandiri Yaqub Şövqü paşanın səlahiyyətli dairələrə, xalqın nüfuzlu şəxslərinə çatdırmaq üçün göndərdiyi 2 noyabr 1918-ci il tarixli teleqram Araz vadisi tarixinin dönüş nöqtəsini təşkil etdi.[1] Bu teleqramda gələcəkdə erməni hücumundan qorunmaq üçün əhaliyə silah paylanacağı və s. bildirilirdi, ən mühümü o idi ki, qəzanın əhalisi öz bölgələrində bir yerli şura yaradıb,[2] bütün işləri öz əllərinə almalı[3] və beləcə idarə etməlidirlər.[4] Y.Şövqü paşa milli təşkilat

---

[1] Brest-Litovsk müqaviləsinə daxil olmayan regionları tərketmə əmrini alan kimi türk ordusunun səlahiyyətli dairələri xalqın gələcəyi üçün narahat oldular. Bununla əlaqədar hökumət orqanları arasında müəyyən fikirlər gəzdi. Bunlardan biri, şübhəsiz, ən əhəmiyyətlisi, erməni təhlükəsinə qarşı sərhəd boyu və o tərəfdəki xalqın təşkilatını yaratmaq, xalqa silah paylamaq və bölgədə zabit saxlamaqdır. (BOA,BEO,Daxili İşlər Nazirliyi dəftəri, №475,173/5/29) Bu fikir sonralar qərara çevrilmişdir ki, Y.Şövqü paşa bununla əlaqədar əmr vermişdir.

[2] Əvvəlcə qeyd etdiyimiz kimi, Yerli (məhəlli) hökumətlər türk hərbi dairələrinin əlində idi. Bu səbəbdən xalqdan özlərinə yeni hökumət qurmaları tələb olunurdu.

[3] Y.Şövqü paşa bölgənin sahibsizliyini nəzərə alaraq belə bir hökumət qurmağa çalışırdı. Əslində bu bölgə hüquqi cəhətdən heç bir dövlətin torpağı deyildir. Haqqı müdafiə edən dövlətlər də vardır. Vilsonun fikrinə görə bölgədə əksəriyyət təşkil edən türklər hakimiyyətdə olmalı idilər.

yaratmaq üçün xalqa əmr və dəstək verir, həm də onları sakitləşdirmək üçün türk hakim dairələrinin onların can, mal və namuslarını qorumaq üçün hər cür tədbir görəcəyini bildirir.[5]

Türk ordusunun imkan daxilində əhalini mühafizə etmək üçün fikirləşdiyi ən böyük iş onların şuralarını yaratmaq, onların idarəetmələrini öz ixtiyarlarına vermək idi. Bu məqsədlə Y.Şövqü paşanın 2 noyabr tarixli əmrinə oxşar 3 noyabrda əmr verdiyini görürük. Verilən əmr əvvəlki əmrlə eynidir. Əmri alan Rüşdü bəy əmrə uyğun işə başlamış və 10 noyabr 1918-ci ildə IX Ordu komandanlığına bu məlumatı vermişdir: 3.11.34-cü il tarixli əmrinə əsasən Naxçıvan, Şahtaxtı, Yengicə, Noraşen, Qəmərli və Sərdərabad bölgələrində bir baş müdirlik, bu bölgələr ətrafında birləşmiş baş müvəkkilliklər təşkil edilməsi qərara alındı. Onların hamısının İğdırda yerləşən yerli hökumətlə əlaqə saxlamaqla fəaliyyətə başlamaları münasib şəxslərə bildirildi. Baş müdirliklər əhalinin təhlükəsizliyini təmin etməli, hörmət və ehtiramını qazanmalı, yerli hökumət-idarəetmə işlərinə alışmalıdır.

Ancaq bu bölgənin əhalisinin özlərini idarə etmək qabiliyyəti olmadığından bacarıqlı, nüfuzlu rəhbərə ehtiyacları olmuşdur. Bu qənaətdəyik ki, İğdırda olan yerli hökumət rəisi və milis təşkilatı mərkəzləri olan bu yerdə zaman və şəraiti uyğun olsa, bölgə əhalisi tərəfindən hər cür qeyd və sirlər mühafizə edilməklə, tərxis edilən və ehtiyat zabitlərdən münasib miqdarda saxlayarlarsa, çox əhəmiyyətli olar. Qalmaq istəyənlər də var.[6] Müvafiq hərəkət haqqında əmr və məlumat verilməlidir.[7]

Göründüyü kimi, Araz-türk hökumətinin təməli qoyulmuş və ordu komandirindən bir sıra məsləhətlər alınmışdır. Mühümü o idi ki, yaranacaq təşkilatlarda təcrübəli şəxslərə ehtiyac olduğundan tərxis olunan ehtiyat zabitlərindən müəyyən miqdarda hökumətin tərkibinə daxil edilməsi məqsədəuyğun hesab edilirdi. Regionda təşkilat yaratmaqla böyük əməyi olan IX Ordu komandiri Y.Şövqü paşa Rüşdü bəyin təklifinə səhərisi gün dərhal müsbət cavab verdi. Cavaba görə: “Tərxis olunan ehtiyat zabitlərindən İğdır, Naxçıvan və ətrafından təşkilata daxil olmaq istəyənlərdən istifadə etmək

---

[4] ATASE. A.4/8314. kls.251, D.1-4,F-2. Y.Şövqü paşa milli təşkilatla əlaqədar əhaliyə məsləhətlər verirdi. Bəzi komandirlər də öz fikirlərini bildirirdilər. Şərq Orduları qrupunun Təbriz nümayəndəsinin IX Ordu komandanlığına göndərdiyi 2 noyabr 1918-ci il tarixli teleqrafda yazılmışdır: 1) İrandan çıxdıqdan sonra Təbriz və ətrafının erməni quldurlarının hücumundan qorumaq üçün təşkilata ehtiyac vardır. 2) Culfadan başlayaraq Qafqaza getdiyimiz yerlərdə əhalini qorumaq və müdafiə etmək üçün təşkilat yaradılmalıdır. 3) Buralardan çıxdıqdan sonra bacarıqlı və etibarlı siyasi məmurlar təyin edilərək, Təbriz ilə əlaqənin saxlanılması lazımdır. (ATASE. A.4/8314. kls.251, D.1-4,F-6).

[5] ATASE. A.4/8314. kls.251, D.1-4, F.5.

[6] Sonrakı günlərdə bölgəyə səfər edən Cahangiroğlu İbrahim bəy xatirələrində göstərirdi ki, türk zabitləri bölgəni tərk etdikləri zaman çox məyus idilər. Bir çox çavuş və əsgər qalmaq istəyirdi. (Cahangiroğlu İ. Xatirələr.s.5).

[7] ATASE. A.4/8314. kls.251, D.1-4,F.22-1.

müvafiqdir.[8] Ancaq onların Osmanlı uniforması geyməməli və onların ordu və ya hökumət tərəfindən göndərildiyi deyilməməlidir.[9] Artıq bölgədə milli təşkilatın yaradılması üçün böyük bir fəaliyyət başlamışdı. Fəaliyyətin 2 əsas nöqtəsi var idi: Naxçıvan, İğdır. Burada işi icra edənlər türk ordusuna mənsub, yerli hökumətə rəhbərlik edən Əli Şəfiq və Məhəmməd Mühiddin bəylər idi. Naxçıvan yerli hökuməti rəisi mayor Əli Şəfiq bəy, Y.Şövqü paşanın 2 noyabr tarixli əmrinə əsasən fəaliyyətlərini davam etdirirdi.[10]

Əvvəl keçmiş Qəmərli, Şərur, Naxçıvan, Yengicə, Ordubad nahiyələri yenidən təşkil edilmiş və daha əvvəllər Əli Şəfiq bəyin müavinləri olan Məşədi Əli Əsgər ağa[11] məmləkəti olan Yengicə nahiyyəsinə müdir təyin olunmuşdu.[12] 9-cu Qafqaz diviziyası komandanlığı Naxçıvandakı təşkilat yaratmaq cəhdlərini yaxından izləyirdi. Bu məqsədlə Naxçıvan yerli hökumət rəisliyinə görüləcək işlərlə əlaqədar təkliflərini irəli sürdü. Rüşdü bəyin təklifləri bunlardı: 1) Naxçıvan tacirlərindən Mirzə Nəsrullah bəyin[13] yerli hökumət rəisi müavinliyinə təyini 2) Naxçıvan bölgəsindəki fəaliyyətlərinin sürətlə davam etdirilməsi və lazım olan məhəllələrin baş müvəkkillik və müvəkkilliklərə ayrılması, 3) Baş müvəkkillikdən bir şəxs kimi üzv idarə işlərinə daxil edilməsi üçün lazımi tədbirlər görülməsi. 4) Polis müdiri Abbasqulu bəylə, nahiyə müdiri Mirzə Məmmədxanın üzvlər sırasına daxil edilməsi və bu heyətin hökumət işlərinə alışdırılması, hökumət işlərinə başlaması. 5) Eyni vaxtda milis və jandarma təşkilatının genişləndirilməsi.

Əli Şəfiq bəy, 9-cu Qafqaz diviziyasından aldığı şifrli teleqramın surətini 13-14 noyabr 1918-ci il tarixdə Y.Şövqü paşaya göndərir və

---

[8] Bölgədə təşkil edilən Araz-Türk hökumətinin tərkibində işləyənlərdən biri TBMM 2-ci dövr Ərzurum deputatı Hüseyn Avni (Ulaş) bəydir. Fəxrəddin Kırzıoğlu, Ədəbiyyatımızda Qars, II İstanbul, 1958, s .148. Esin (Dərinsu) Dayı, Elviyeyi-Selase (Qars, Ərdahan, Batumidə) Milli Təşkilatlanma (nəşr olunmamış doktorluq dissertasiyası), Ərzurum, 1991, s.221.

[9] Bölgədə qalmaq istəyənlərin adları, rütbələri orduya bildirilməli idi. (ATASE. A.4/8314. kls.251, D.1-4,F.22).

[10] Əli Şəfiq bəy və Naxçıvandakı digər nüfuzlu şəxslər təşkilat yaratmaq fəaliyyətlərini xoş bir niyyətlə davam etdirdiyi bir halda, bəzi adamlar xalq arasında narazılıq yaradır, işləri pozmağa çalışırdılar. Tiflisdə erməni və gürcü pulu ilə yaradılan Hümmət cəmiyyətinin nümayəndələri Əli Şəfiq tərəfindən müəyyən edildi. Vəziyyət 4 noyabrda Y.Şövqü paşaya bildirildi. Paşa bu cəmiyyəti idarə edənlərin həbs olunmasını tələb etdi (Gökdəmir, Qafqaz hökuməti ,Ankara, 1989, s.55).

[11] Cahangiroğlu İbrahim bəy Məşədi Əli Əsgər ağa deyə bəhs edərkən (Cahangiroğlu, Xatirələr s.22-25).Əliyev Məşədi Əsgər ağa Həmzəyev olaraq ifadə edir. (Mirzə Bağır Əliyev. Qanlı günlərimiz.1918-1920 Naxçıvan), Bakı, 1932. s.94. 15 noyabr 1918-ci ildə keçirilməsi nəzərdə tutulan, Qars Müsəlman Şurası konqresində Yengicə nahiyyəsinin nümayəndəsi kimi Əli Əsgər ağa Həmzəzadə kimi bilinmişdir. (ATASE. A.4/8314. kls.251, D.1-4,F.13). Mirzə Bala tərəfindən də Məşədi Əli Əsgər ağa Həmzəyev olaraq ifadə olunmuşdur. (M.B. "Naxçıvan-Şərur məsələsi I", Azərbaycan 17 iyul 1919, №227).

[12] Əli Şəfiq bəy görülən işlər haqqında 9 noyabr 1918-ci ildə Ordu komandanlığına məlumat verdi (ATASE. A.4/8314. kls.251, D.1-4,F.-17).

[13] Adı çəkilən Naxçıvan Müsəlman Milli Komitəsi sədri Mirzə Nəsrullah Əmirovdur. Ancaq türk hərbi yazışmalarında Əmirov yerinə Əmir kimi qeyd olunmuşdur.

bura görülən işlər haqqında məlumatı və təkliflərini əlavə edir. Lazımi göstəriş verilməsini xahiş edirdi.[14]

1) Naxçıvan qəzasının idarəetmə təşkilatı yerli əhalidən təşkil olunmalı, işlər onlar vasitəsilə həyata keçirilməlidir.

2) Hər bir nahiyədəki kəndlərdə bir baş müvəkkillik idarəsi olmalı və onlar nahiyə müdirliyinə tabe olmalıdır. Buna görə də baş müvəkkillikdən üzv lazım deyil.

3) Jandarma təşkilatının genişləndirilməsi əmr edilərsə, jandarmaların sayı müəyyən miqdarda artırılmalıdır.

4) 2 noyabr tarixli əmrinizə uyğun olaraq Sərdarabaddan Ordubada qədər Araz vadisindəki bölgədə təşkilat yaradılmasına çalışdığından sizinlə görüşmək üçün Qarsda nümayəndə olan, idarəetmə məclisi üzvlərindən Mirzə Nəsrullah Əmir bəyin baş müdir kimi təşkilata daxil edilməsini və ya Ordubada qədər olan ərazidə yaradılan təşkilatın əsası kimi qəbul edilməsi haqqında məlumat verilməsi gərəkdir.

Əli Şəfiq bəyin verdiyi məlumatlardan məlum olur ki, regionda təşkilat yaratmaq işi sürətlə gedir və idarəetmə təşkilatlarının yaradılmasma çalışırlar.

İğdırda bu fəaliyyətlər davam edir. İğdır yerli hökumət rəisi Məhəmməd Mühiddin bəyin bildirdiyinə görə, burada müsəlman əhali "İttihadi millət firqəsi" adlı hərbi təşkilat yaratmışdı. 11 noyabrda təşkilatın yığıncağı keçirilmiş, Ordudan silah və döyüş sursatı istəmişdilər.[15] Beləliklə, qurulacaq hökumət üçün bütün lazımi işlər yerinə yetirilirdi.

## b) Hərbi təşkilatların yaranması

Daha əvvəl qeyd etdiyimiz kimi, türk ordusunun qabaqcıl nümayəndəsi kimi Naxçıvana gələn Xəlil bəy regionda kiçik bir müsəlman ordusu yaratmaq fikrində idi. Şahtaxtı, Şərur və Naxçıvanda təşkil edilən hissələrə piyada və topçu təlimi keçirilmiş, Ordubadda yerli adamlardan ibarət nizamlı bir hissə yaradılmışdı. Bölgədə əvvəl yaradılmış könüllülər dəstəsi türk ordusu gəldikdən sonra da fəaliyyətini davam etdirirdi. Sərhədlərdə erməni təhlükəsinə qarşı könüllü süvarilər kəşfiyyatlar aparırdılar.[16] Oktyabr ayında 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəyin fəaliyyəti ilə əlaqədar könüllü təşkilatlar genişləndi.[17] Cahangiroğlu İbrahim bəyin qeyd etdiyinə

[14] ATASE. A.4/8314. kls.251, D.1-4,F.35-3, 35-4

[15] ATASE, A. 4/8314, Kls.251, D.l-4, F.24: Ender Kökdəmir, Cənubi-qərbi Qafqaz hökuməti, Ankara, 1989, s.51.

[16] ATASE A, 65669. Kls. 4844. D.293, f.21. Əliyev.Qanlı günlərimiz s.71,73, 76-77.

[17] ATASE A, 65669. Kls. 4844. D.293, f.20-2.

görə, 20-ə qədər könüllü batalyon yaradılmışdı.[18] 250-500 nəfərdən ibarət bu birliklərdən 4 batalyon Naxçıvanda, 3 batalyon Şərur-Dərələyəzdə və digər batalyonlar Vedibasar, Zəngibasar, Qəmərli, Başkənd (Aralıq) kəndində idi. İğdırda belə bir hissə yox idi.[19]

İbrahim bəyin İğdır üçün bu ifadəni işlətməsinə baxmayaraq, bölgədə oktyabr ayının axırlarından etibarən hərbi hissələrin yaradılmasına başlanılmışdı. 12-ci diviziya komandiri Əli Rüfət bəy yerli hökumətdən kürdləri icma halına salmağı, əsgərliyə çağırmağı, silahlı olanları əmrə hazır vəziyyətə gətirməyi tələb edir, silahlı olmayanlara silah verəcəyini[20] bildirirdi. Gələcəkdən narahat olan xalqa Rüfət bəyin fəaliyyəti təsir etdi. Əhalinin qabaqcılları hərbi dairələrin köməyi ilə fəaliyyətə başladılar. İğdır yerli hökumət rəisi Məhəmməd Mühiddin əhalinin fəaliyyəti haqqında 11 noyabr 1918-ci ildə IX Ordu komandanlığına bu məlumatları vermişdi:

"Buradakı müsəlman əhali "İttihadi-millət firqəsi" adında 4 alaydan, hər alay 4 batalyondan, hər batalyon 400 piyada, 25 süvaridən ibarət olmaqla bir fırqə yaratmışdı. Bu firqə on min mauzerlə bir sandıq döyüş sursatı verilməsini xahiş edir".[21] Göründüyü kimi, qurulan hökumətdə iş başına gələn, idarəetmə bacarığı olan şəxslər hərbi sahədə də əhəmiyyətli işlər görə bilmişdilər. Naxçıvanda da bəzi işlərin, könüllülər (milis) və jandarma dəstələrinin genişləndirilməsi nəzərdə tutulmuşdu.[22] Türk hərbi dairələri idarəetmə təşkilatı kimi hərbi hissələrin mərkəzinin İğdırda yerləşməsinə dair

---

[18] Gökdəmir əsərində Cahangiroğlu İbrahim bəyin xatiratına istinad edərək göstərirdi: "20-ə qədər batalyon təşkil etmişdik. Bəziləri isə türk ordusu orda ikən bu təşkilatı yaratmışdılar"- deyə yazırlar. (Gökdəmir. Qafqaz hökuməti s.51) İbrahim bəy bununla əlaqədar yazırdı: 20-yə qədər batalyon təşkil edilmişdi. Türk Ordusu orda olduğu zaman bu təşkilatı yaratmışlar, (Cahangiroğlu, Xatirələr, s.91.) Deməli, bu batalyonlar rayondan çıxmamışdan əvvəl yaradılmışdı.

[19] Cahangiroğlu, Xatirələr s.9-10

[20] ATASE, A. 4/8314, Kls.251, D.l-4, F.3-1

[21] ATASE. A,4\8314, Kis.251, D.l-4, F.24. Gökdəmir əsərində İğdırdakı hərbi təşkilatların Cahangiroğlu İbrahim bəy vasitəsi ilə yaradıldığını, İğdır hökumət rəisi Məhəmməd Mühiddin bəyi isə Araz-Türk hökumətinin İğdır nümayəndəsi kimi qeyd edir. (Gökdəmir, Qafqaz hökuməti. s.51). Cahangiroğlunun mətnində qeyd edilən Məhəmməd Mühiddin bəyin 11 noyabr tarixli teleqramla heç bir əlaqəsi ola bilməz. Çünki İbrahim bəy 30 noyabrda başlayan, 2 gün davam eden Qars Müsəlman Şurasına sədr seçilmiş (Gökdəmir. Qafqaz hökuməti. s.70, Fəxrəddin Kırzıoğlu. Milli Mübarizədə Qars. I kitab, Sənədlər, İstanbul, 1960, s.8-9), regiona qayıtdıqdan sonra Araz-Türk hökuməti sədri Əmir bəy tərəfindən Qars Müsəlman Şurası sədri kimi təqdim olunmuşdur. İbrahim bəy də xatirələrində Naxçıvanda, Şərurda, İğdır və Qəmərlidə Şuranın şöbələrini açmaq üçün çalışdığını yazırdı. İbrahim bəyə görə , bu fəaliyyətdən 5 gün sonra türk qüvvələri Naxçıvandan çıxacaqdır. (Cahangiroğlu. Xatirələr. s.3,4,8) 9- cu diviziya komandiri 1 dekabrda başladığı boşaltma işlərini qısa müddətdə bitirdi. 11 dekabrda Kağızman yolu ilə Sanqamışa gəldi. (Qafqaz cəbhəsi. II , 633-634) Bu səbəblə dekabrın əvvəllərində bölgəyə gələn İbrahım bəyin noyabr aytndakı fəaliyyətlərlə əlaqəsi ola bilməz. Əslində Gökdəmir əsərin 75-ci səhifəsində İbrahim bəyin dekabr ayının 15-dən fəaliyyətə başladığını qeyd edır. Bununla əlaqədar deyə bilərik ki, Araz-Türk hökumətinin quruluş tarixində və İbrahim bəyin bölgəyə gəlmə tarixində bir sıra səhv etmişdir. Gökdəmirin qeyd etdiyi kimi, Məhəmməd Mühiddin bəy Araz türk hökumətinin nümayəndəsi deyildir. Bu şəxs türk ordusuna mənsub yerli hökumət rəisi, həm də İğdır Mövqe komandiridir. (ATASE A,4\8314, Kls.251,D.l-4, F.28-3).

[22] ATASE A, 4\8314, Kls.251, D.l-4, F.35-3

qərar vermişdilər.[23] Deməli, nəzərdə tutulan hökumət rahat şəkildə fəaliyyətə başlayacaqdı.

Hərbi hissələrin təşkili zamanı yaradılmış və yaradılacaq könüllülər və jandarma üçün silah, cəbbəxana, hərbi ləvazimat lazım idi. Bundan əlavə, türk ordusu çıxdıqdan sonra ermənilərin gələcəyini[24], bundan sonra nələr baş verəcəyini bilən xalq da silahlanmaq istəyirdi.

Bununla əlaqədar türk hərbi dairələrinə tez-tez müraciət edirdilər. Nəticədə IX Ordu komandiri Y.Şövqü paşa 2 noyabr 1918-ci ildə bölgədəki səlahiyyətli təşkilatlara, silah və hərbi ləvazimat istəyən əhaliyə bunları verə biləcəyini, ancaq əvvəlcə nə qədər silahın olması haqqında orduya təcili məlumat verilməsini və bundan sonra məsələni həll edəcəyini bildirdi.[25]

19 oktyabr 1918-ci ildə IX Ordu komandanlığı ona tabe olan dairələrdən regiondakı əhalinin əlində olan silah və hərbi ləvazimat haqqında məlumat istədi.[26]

Bölgəni tərketmə əmri verilən kimi xalq silah istəməyə başladı, buna görə də 19 oktyabr tarixli əmri təcili yerinə yetirmək lazım idi. Bununla əlaqədar hərbi dairələri tələsdirildi. Birinci olaraq Əli Şəfiq bəy 6-7 noyabrda Naxçıvandakı adamların və silahların sayı haqqında orduya məlumat verdi. Məlumatda göstərilirdi ki, Naxçıvanda 8040 əsgər ola bilər və onların müxtəlif silah və hərbi ləvazimatları var.[27] Bu məlumat ordunu əsəbiləşdirdi və Naxçıvan hökumət rəisi Əli Şəfiq bəyə 8 noyabrda sərt bir xəbərdarlıq edildi. Naxçıvanda yalnız əsgər ola bilənlərin deyil, bütün əhali və silah, tüfəng və s. haqqında məlumat verilməsi də tələb edildi.[28] Həmin gün qəzada olan 21-35 yaşlar arasında olan şəxslərin bölgü jurnalı, silah və hərbi ləvazimatların növü, miqdarı haqqında cədvəllər orduya göndərildi. Bu jurnallara əsasən Naxçıvan şəhər mərkəzində 348 piyada, 43 atlı, Şahtaxtı nahiyəsinə bağlı 86 kənddə 2843 piyada, 243 atlı, Naxçıvan qəzasına bağlı 4 nahiyədə 1517 piyada, 241 atlı, Qəmərli və onun kəndlərində 2639 piyada, 419 atlı var idi.[29] Əli Şəfiq bəy 10 noyabr 1918-ci ildə əhali və silahlar haqqında ayrıca bir cədvəl də göndərdi.[30]

---

[23] ATASE, A. 4/8314, Kls.251, D.l-4, F.22-1

[24] Y.Şövqü paşa bölgəyə 20.000 erməni mühacirin gəlməsinə icazə vermişdi. (Cahangiroğlu. Xatirələr, s. 9) Ancaq əhali silahlı gələn erməniləri qəbul etməməyi qərara almışdı. Çünki illərdən bəri iki millət arasında olan kin-küdurətin Osmanlı hökumətinin verdiyi tövsiyələrlə yox olmayacağını bilirdi. Sonrakı hadisələr bunu isbatladı. (ATASE A,l/2, Kls.65, D.254-101, F.21-2, Əliyev. Qanlı günlərimiz. s.84).

[25] ATASE A, 4/8314, Kls.251, D.l-4, F.2

[26] ATASE A, 4/8314, Kls.251, D.l-4, F.28-2, 28-3

[27] ATASE. A, 4/8314, Kls.251, D.İ-4, F.15-1

[28] ATASE. A, 4/8314, Kls.251, D.l-4, F.15.

[29] Bu soylar göstərilərək, şəxsin adı bir-bir qeyd olunmuşdur. ATASE A. 4/8314, Kls.251, D.l-4, F.16

[30] ATASE. A,4/8314. Kls.251, D.l-4, F.20.

Əhali əllərindəki silahlar haqqında ətraflı məlumat yalnız 9 noyabr 1918-ci il tarixdə 9-cu Qafqaz diviziyası tərəfindən IX orduya bildirildi. Məlumat belə idi: "Naxçıvan qəzasında 1205 rus beşatılanı, 17, 584 patronu, 245-Berdanka, 567 patronu, 57 rus üçatılanı-3108 patronu, 7 ingilis tüfəngi-14 patronu, 43 fransız tüfəngi, 2487 patronu, 10 İran tüfəngi-206 patronu, 6 alman tüfəngi-85 patronu, 4 Avstriya tüfəngi- 137 patronu.

Şahtaxtı-Noraşen-Yengicə-Yağmacı-Sədərək bölgələrində 298 düz mauzer, 14 açarlı, 13 kassalı, 80 düz martin, 13 böyük kalibrli Osmanlı tüfəngi var. 8923 kiçik və 162 böyük kalibrli patron vardır. 259 rus beşatılanı, 204 rus üçatılanı, 606 Berdanka, 83 rus doqquzlusu var. 16732 kiçik kalibrli 21.296 rus üçatılanı, 1915 rus doqquzlusuna uyğun patron vardır".

Böyük Vedi - Mallıdərə - Qəmərli - Uluxanlı - Eçmiədzin - Sərdarabad məntəqələrində:

"738 kiçik kalibrli Osmanlı mauzeri,93 düz martin, 32 doqquzlu, 11 aynalı və 6608 rus patronu var. 648 rus beşatılanı, 1344 Berdanka, 6 rus üçatılanı və 11.511 rus patronu, 14 alman, 24 Avstriya, 25 ingilis, 29 üç atılan, 4 fransız, 2 bolqar tüfəngi mövcuddur, onların tüfəng başma (minimum) 25 patronu var.[31]

İğdır Yerli hökumət rəisi və mövqe kormandiri Məhəmməd Mühiddin bəy IX Orduya 7-8 noyabr 1918-ci ildə bölgəsi ilə əlaqədar bu məlumatı vermişdir: l.İğdır qəsəbəsi və ətraf rayonlardakı müsəlman əhalinin əlində 776 böyük kalibrli, 229 kiçik kalibrli Osmanlı mauzer tüfəngi, 136 düz martin və 28 ədəd Osmanlı qapaqlı tüfəng və 450 iki kiçik kalibrli rus beşatılanı, 2 rus üçatılanı, 686 tək atəşli ras tüfəngi, 3 ədəd qara tüfəngi, 7709 Osmanlı kiçik kalibrli patron, 114 ədəd böyük kalibrli patron, 29263 ədəd rus kiçik kalibrli patronu, 20174 ədəd rus yerli patronu var.

2. Bundan başqa, Ekradlardan Zilan tayfasında 1800 beşli Osmanlı kiçik kalibrli və 200 ədəd beşatılan rus kiçik kalibrli tüfəng və hər biri üçün 50 patron, Berunki tayfasında 300 ədəd kiçik kalibrli Osmanlı beşatılanı və 200 ədəd kiçik kalibrli rus beşatılanı və hər tüfəngin 50 patronu var.[32] IX Orduya verilən bu məlumat ümumiləşdirilərək bir tək siyahı şəklinə salındı. Siyahıda silah, hərbi ləvazimat və əsgər ola bilən şəxslərin sayı haqqında məlumat toplanmışdı. Beləliklə, Naxçıvan bölgəsində[33] 7636 piyada, 606 süvari, İğdırda isə 4305 piyada, 8 süvari var idi.[34]

Yuxarıda qeyd etdiyimiz əhalinin əlində silah, ləvazimat vardı, amma gələcəkdə baş verə biləcək təhlükənin qarşısını almaq üçün kifayət

---

[31]ATASE. A,4/8314, Kls.251, D.l-4, F.28-2, Kökdəmir. Qafqaz hökuməti. s.50-51.

[32]ATASE. A, 4/8314, Kis.251, D.1-4, F.28-3

[33] Naxçıvan bölgəsindən verilmiş məlumata Qəmərlidəki döyüşçülər də daxildir.

[34]ATASE. A, 4/8314, Kls.251, D.l-4, F.45

qədər deyildi. Bundan əlavə əli silah tuta bilən əhali və təşkil edilmiş könüllü jandarma dəstələri üçün çoxlu silah və hərbi ləvazimat lazım idi. Noyabrın əvvəllərində silah paylanmasına başlanılmışdı. Lakin bu kifayət qədər deyild.[35] Silah və hərbi ləvazimat paylanmaqla əlaqədar IX Orduya müxtəlif təkliflər təqdim olundu. 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy 9 noyabrda teleqramla müraciət edərək Ordudan Naxçıvan regionunda yaradılmış könüllülər batalyonu üçün 400, Alagöz könüllü batalyonu üçün 350, Cəhri batalyonu üçün 300 tüfəng və kifayət qədər hərbi ləvazimat istədi, həmçinin bölgədə hələ təşkilat şəklinə salınmamış xalq üçün də silah, hərbi ləvazimat göndərilməsini tələb etdi.[36] Səhərisi gün yenidən xahiş edən Rüşdü bəyin 9 noyabr tarixli teleqramına bunlar əlavə olunmuşdur: I. Ağbaş, Uluxanlı, Eçmiədzin və Sərdarabad bölgələrindəki əhali üçün 5563 tüfəng, lazımi qədər patron lazımdır. Qəmərli, Vedi, Sədərək, Noraşen, Yengicə bölgələri üçün də bu qədər ehtiyac olduğu nəzərdə tutulur. 2. Hər ehtimala qarşı fırqəyə ehtiyat ləvazimat azaldığından müraciət edən əhaliyə paylamaq üçün Osmanlı mauzer patronu və nəzərdə tutulan miqdarda rus tüfənginin birbaşa Qəmərli stansiyasına çatdırılmasına sərəncam vermənizi xahiş edirik”.

Y.Şövqü paşa Rüşdü bəyin bu xahişini müsbət qarşıladı, əlaqədar təşkilatlara bir sıra göstərişlər verdi. Silah, patron çox gizli göndəriləcək. Hərbi ləvazimat 9-cu diviziya və İğdır Mövqe komandanlığına paylanacaqdır. 2000 rus tüfəngi ilə 500 qutu patron, 500 qutu rus mauzer patronu, müəyyən qədər Osmanlı mauzer patronu göndəriləcəkdi.[37] Şövqü paşanın göstərişinə əsasən görülən işlər haqqında 11 noyabrda hərbi ləvazimatın göndəriləcəyi Gümrü Mövqe komandanlığına[38] və bu materialları alan 9-cu Qafqaz diviziyastna məlumat verildi.[39] 12 noyabrda Gümrüdən ləvazimat göndərilməsinə başlanıldı.[40] IX Ordu komandanlığı, İqdır mövqe komandanlığına Naxçıvan və İqdır əhalisinə paylamaq üçün IX Qafqaz diviziyasına 2000 ədəd silah göndərdiyini bildirdi və bunların kimə veriləcəyi haqqında məlumat istədi.[41] Ancaq aradan 2 gün keçəməsinə baxmayaraq, silahlar 9-cu Qafqaz diviziyasına çatmadı. Rüşdü bəy də vəziyyəti Orduya bildirdi, yenə bir sıra xahişlər etdi. İqdırda əhali narahat olduğundan, hərbi

[35]Naxçıvan mövqe komandanlığı I Qafqaz korpusundan aldığı minə qədər rus tüfəngini əhaliyə paylamış və vəziyyəti 7 noyabrda orduya bildirmişdir, (ATASE. A, 4/8314, Kls.251. D. 1-4, F. 14.)

[36] ATASE, A. 4/8314, Kls.251, D.l-4, F.28-2. Göydəmir. Qafqaz hökuməti s.51

[37]Osmanlı mauzer patronlarına Naxçıvandan nəzərdə tutulmuşdur. (ATASE A, 4/8314, Kls.251, D.l-4, F.21-1).

[38]ATASE A, 4/8314, Kls.251. D.l-4. F.23

[39]ATASE A.4/8314, Kls.251, D.l-4, F.23-1. Tüfənglər bir məmur nəzarəti altında Qarsdan bağlı vaqonlarla göndəriləcək, bir hissə də Naxçıvandakı anbarlardan götürüləcək. (ATASE A, 4/8314, Kls.251, D.1-4.F.21).

[40]ATASE A, 4/8314, Kls.251, D.l-4, F>26-1

[41]ATASE A, 4/8314, Kls.251, D, 1-4. F.27

ləvazimat istəyirdi. Diviziyanın yerləşdiyi bölgədə əhali qismən silahsız idi, göndərilən silah da kifayət qədər deyildi. Buna görə də İqdırdakı diviziya bölgəsindəki əhaliyə paylamaq üçün 3000 rus beşatılan tüfənginə və kifayət qədər döyüş sursatına ehtiyac var idi.[42] IX Ordunun bu təkliflərə cavabı haqqında heç bir sənəd əldə edə bilmədik. Ancaq bizim fikrimizcə, müsbət həll olunmuşdur. 15 noyabrda Ordudar 12-ci diviziyaya əmr verilmişdir ki, Sərdarabad stansiyasında olan silah və patronlar xalqa paylansın,[43] hərbi ləvazimat köməyi sonralar da davam etdirilmişdi.[44]

Beləliklə, türk hərbi dairələrinin köməyi nəticəsində[45] xalq gələcəyindən qorxmamağa, özünə güvənməyə başlamış, hərbi və idarəetmə təşkilatlarının yaradılması sahəsində xeyli əhəmiyyətli işlər görülmüşdür. Bu iki istiqamətli təşkilatın yaradılması Araz-türk hökumətinin qurulmasına zəmin yaratmış oldu.

## Hökumətin quruluşu

Türk hərbi dairələrinin köməyi və əhalinin iştirakı ilə yaradılan milli təşkilatlar nəticəsində 18 noyabr 1918-ci ildə Qəmərli qəsəbəsində bir yığıncaq[46] keçirildi və Araz-türk hökumətinin yaradıldığı elan edildi.[47] Quruluş bəyannaməsində yazılmışdır:

---

[42]ATASE A,4/8314, Kls.251, D. 1 -4, F.29

[43]ATASEA, 4/8314, Kls.251, D.l-4, F. 32

[44]Gümrüdə olan rus əl bombalarından 100 qutu Araz vadisi əhalisinə paylanmaq üçün 9-cu Qafqaz diviziyasına göndərilmişdi. ATASE A, 4/8314, Kls. 251, D.l-4, F.42-1,42

[45]Osmanlı hərbi dairəsi Araz vadisi türk əhalisinə hərbi ləvazimat paylamışdır. 24 yanvar 1918-ci ildə Bakıdakı İrəvan vilayəti "Həmşəri Yardımlaşma Cəmiyyəti" tərəfindən Naxçıvana göndərilən və 20 fevralda buraya gələn Mirabbas Mirbağırov türk ordusu çıxdığı zaman bütün silahları, top və pulemyotları apardığını qeyd edirdi. (Azərb. Resp. MDEYTP. F . 894, Op. 10, D.70,1.4) Top və pulemyotları bilmirik, ancaq silahları xalqa paylamışdılar.

[46]Qəmərlidə keçirilən və Araz-türk hökumətinin yaradılması elan olunan yığıncağa 9-cu diviziya komandiri Rüşdü bəy sədrlik edirdi. (Əliyev. Qanlı günlərimiz s.82).

[47]Araz-türk hökumətinin yaradılma tarixi 18 noyabr 1918-ci il göstərilir. Buna əlavə etmək lazımdır. 16 noyabr 1918-ci ildə IX Ordu komandanlığına göndərilən bir teleqrafın altında müvəqqəti Araz-türk hökuməti və hökumətin Qəmərli, Naxçıvan, Şərur, Zəngibasar, Vedibasar və Gəncəbasarlı üzvlərinin imzaları vardır. (ATASE A, 4/8314, Kls. 251. D.l-4, F.33) 16 noyabrda hökumət adına təsadüf etsək də, 18 noyabrda Qəmərlidə böyük bir yığıncaq keçirilmiş və Araz-türk vadisi müsəlmanlarının nümayəndələri Araz-türk hökuməti qurduqlarını elan etmişdilər. Həmin tarixdə bu, 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy tərəfindən IX Orduya bildirilmişdi. (ATASE A, 4/ 8314, Kls.251, D.l-4, F.35-2,34). 18 noyabrda keçirilən yığıncaqda yaradılmış hökumət Araz-türk hökuməti elan edildi. Y.Şövqü paşanın əmri ilə yaradılan təşkilatlar nəticəsində Araz hökuməti adlı hökumət qurulmasına qərar verildi, 18 noyabrda keçirilən yığıncaqda bu ada türk- sözü əlavə olundu.

Gökdəmir əsərində bu tarixi 3 noyabr olaraq göstərir və Rüşdü bəyin IX Orduya göndərdiyi 3 noyabr 1918-ci il tarixli teleqrama əsaslanır (Gökdəmir. Qafqaz hökuməti. s.46-48) . Y.Şövqü paşa mərkəzi İqdır olacaq hökumətin qurulması üçün 2 və 3 noyabrda əmr vermişdi. Əmr verilən gün hökumət qurula bilməzdi.

Gökdəmirin istifadə etdiyi ATASE sənədinə rast gelmədik, fərqli nömrəli sənədə əsasən Rüşdü bəy tərəfindən 18 noyabr 1918-ci ildə Araz-türk hökumətinin yaradılması IX Orduya bildirilmişdi. Y.Ş. Paşanın 3 noyabr 1918-ci il tarixli əmri ilə bölgədə Araz-türk hökuməti yaradılmışdı. Bunun, 3 noyabrda yaradılması mümkün deyildi. Cahangiroğlu xatirələrində türk ordusu çıxmamışdan bir həftə əvvəl hökumətin yaradıldığını qeyd edir. (Cahangiroğlu. Xatirələr s.3). Türk Ordusu dekabrın əvvələrində getdiyinə görə bu tarix noyabr ayının sonlarına uyğun gəlir. İbrahim bəy də tarixi bir az gec göstərsə də ayın əvvəllərində deyildi.

18 Təşrini-sani (noyabr) 1334-də Rəvan vilayətində Araz vadisində olan bir milyona qədər əhali Osmanlı ordusu getdikdən sonra, özlərinin təhlükə altında qalmaması naminə, çarə tapmaq üçün Rəvan mühacirləri, Naxçıvan, Şərur, Eçmiədzin və Sürməli bölgələrinin nümayəndələri yuxarıda qeyd etdiyimiz tarixdə Qəmərli qəsəbəsində bir yığıncaq keçirdilər və bir sıra təklif və müzakirələrdən sonra bir təşkilat yaratmağı qərara aldılar. Biz, Araz kənarında yaşayan bir milyona qədər müsəlman camaatı hüququmuzu müdafiə və mühafizə üçün Araz-türk hökuməti adında təşkilat yaratdıq. Onun mərkəzi İqdır qəsəbəsi müəyyən edildi. Və sair yerlərdə şöbələr açacaq, millətimizin hüququnu müdafiə və mühafızə edəcək, heç bir dövlətin hüququna toxunmayacağıq. Ancaq başqaları bizə hücum edərlərsə, ümumi səfərbərlik elan ediləcək. Silaha sarılıb, malımızı, canımızı bir damcı qanımıza qədər hüququmuzu qorumaq səlahiyyəti yuxarıda qeyd edilən hökumətə veriləcək.

Bacarıqlı, ağıllı şəxslərdən bir hökumət təşkil etdilər ki, millətin, camaatın hüququnu müdafiə və mühafizə etsin. Bunun üçün məclis lazım bildi ki, hərbi, mülki, ədliyyə, maliyyə, xarici və digər işlər üzrə məmurlar təyin etsinlər. Buna görə də məclis buna qərar verdi - şəxsi möhtərəmləri seçdilər. Hökumət bu şəxslərdən təşkil olunurdu:

Hökumət rəisi[48]: Əmir bəy Zamanbəyzadə[49]
Hərbi nazir: Cahangiroğlu İbrahim bəy
Maliyyə naziri: Qənbər Əlibəy Bənəniyarlı
İnzibati nazir : Bağır bəy Rzazadə[50]
Ədliyyə naziri: Məhəmməd Bəyzadə
Xarici işlər naziri: Həsənağa Səfizadə
Şeyxülislam: Mirzəhüseyn Mirzə Həsənzadə və lüfti Xoca Ekid Əfəndi.
Fəxri üzv və aşirətlər rəisi: General Əli Əşrəfbəy[51]

Y.Şövqü paşanın əmri yerinə yetirilmiş, əhalinin gələcəyini qoruyan təşkilat qurulmuşdur. Mərkəzi İqdır[52] olan bu hökumət, heç şübhəsiz, yerli

---

[48] Araz-türk hökumətinin quruluş bəyannaməsində Əmir bəyin titulu "Əvvəlki diktator"dur (ATASE A, 4/8314, Kls. 251, D.4-1, F.43) Əliyev isə Hərbi diktator deyə ifadə etmişdir. (Əliyev. Qanlı günlərimiz, s. 82).

[49] Cahangiroğlu İbrahim bəy xatirələrində Araz-türk hökuməti sədrinin adını Əmir bəy Vəzirov olaraq ifadə edir. (Cahangiroğlu. Xatirələr s.4, 8,14) Əliyev Əmir bəy Nərimanbəyov olaraq yazır (Əliyev. Qanlı günlərimiz s.827). Gökdəmir isə Əmir bəy Əkbərzadə adı ilə verir. (Gökdəmir. Qafqaz hökuməti. s.46,49). Ancaq burda bir yanlışlıq var. Gökdəmir, Cahangiroğlu İbrahim bəyin xatirələrində eyni nəql etdiyi hissədə: Qəmərlidə İrəvan gənclərindən bir neçəsi ilə görüşdüm. Əmir bəy Əkbərzadə adını xatırlayıram deyir və bunu hökumət rəisi olaraq qəbul edir. Xatirələrin orijinalında isə Əkbər bəy Əkbərov ismini xatırlayıram. Əvvəlcə Təbrizdə mənimlə İran inqilabında iştirak etmişdir. (Cahangiroğlu. Xatirələr s.4) Görünür, Gökdəmir Əkbər bəy Əkbərov ilə hökumət rəisi Əmir bəy Vəzirovu səhv salmışdır.

[50] Bağır bəy. İbrahim bəyin xatirələrində maliyyə naziri kimi göstərilir. (Cahangiroğlu. Xatirələr s. 15)

[51] ATASE. A, 4/8314, Kls.251, D.4-1, F.43.43-1. Gökdəmir. Qafqaz hökuməti s.46-47. Gökdəmir.Araz-türk hökuməti 3 noyabr 1918 beşinci millətlərarası türkoloji konfrans. İstanbul 23-28 sentyabr 1985. III türk tarixi. lc. İstanbul.1985.s. 238-240. Əliyev. Araz-türk hökuməti üzvlərini belə sıralayır. 1. İbrahim ağa. Qarslı-vəziri-cəng. 2. Əmir bəy Nərimanbəyov-hərbi diktator, 3. Bağır bəy Rzayev-inzibati nazir. 4, Qənbər Əli bəy Bənəniyarlı maliyyə naziri 5. Məhəmməd bəy Məhəmmədbəyov ədliyyə naziri. 6-Həsən bəy Səfiyev-xarici işlər naziri. 7. Mirzə Hüseyn İrəvan Şeyxülislamı. 8. Əli Əşrəf bəy (Kürd) - Kürdlərin müftisi, (Əliyev. Qanlı günlərimiz. s.82-83). Göründüyü kimi, Araz-Türk hökuməti tərkibində iki kürd vardı: Əli Əşrəf bəy və müftisi Hoca Ekid Əfəndi.

xalqın mövcudluğu baxımından həm də müqaviləyə əsasən geri çəkilən Türkiyənin region ilə əlaqəni davam etdirməsi baxımından əhəmiyyətli idi. Buna görə də 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy, Araz-türk hökuməti qurulan gün IX Orduya məlumat verdi. Orduya göndərilən şifrli teleqramda yazılmışdır:

3.II.34 tarixli şifrli əmrin 5-ci maddəsinə əsasən:

I.Bu bölgədəki müsəlman əhalisinin qabaqcıl-nüfuzlu şəxsləri yığışaraq mərkəzi İqdır olan müvəqqəti Araz-türk hökumətini- altı üzv və rəisdən ibarət bir hökumət heyəti təşkil etmişdilər. Bir tərəfdən də könüllülər təşkilatını genişləndirirdilər. Rüşdü bəy hökumətin quruluşu və səlahiyyətlərini qeyd etdikdən sonra onların Ordudan bir sıra xahişlər etdiyini qeyd edir. Bu xahişlərdən biri silah, hərbi ləvazimat, zabit və ərzaqdır. İkincisi isə, Araz-türk hökumətinin hərbi naziri seçilən qarslı Cahangiroğlu İbrahim bəyin Qəmərliyə göndərilməsinə icazə verilməsidir.[53] Y.Şövqü Paşanın icazəsi ilə İbrahim bəy Qarsdan Qəmərliyə getmək üçün yola düşmüşdür. İbrahim bəy Araz-türk hökumətinin quruluşu və səfərinin məqsədini belə izah edir: "Biz Qarsda Milli Şura seçməklə məşğul olduğumuz zaman Türk Ordusu Naxçıvan, Şərur, Dərələyəz, Qəmərli, İqdır, Gümrü və Zəngibasardan çıxmazdan bir həftə əvvəl Qəmərlidə toplanmış, orada Araz-türk hökuməti altında bir hökumət təşkil etmişlər və mən hərbi nazir seçilmişəm. Milli Şuranın 14 maddəlik qanununun bir maddəsində hər tərəfdə şöbə açmaq nəzərdə tutulur.

Milli Şura Məclisin bu maddələrini oxumağa və bəzi yerlərdə şöbə açmağa icazə verdi. Bundan 5 gün sonra türk Ordusu Naxçıvanı tərk edəcək. Şövqü paşa həzrətlərinə müraciət etdim. Xüsusi bir qatarla Naxçıvana və oradan da geri qayıtmağımızla əlaqədar lazımi əmrlər versinlər. Bizə verilən vaqona bizdən başqa hər kəs komandanlıq edirdi. O gecə Gümrüdə qaldıq. Ertəsi gün tezdən hazır olduq. Dəmiryol mərkəzinə gəldik. Mərkəzdə Araz-türk hökuməti adından gəlmiş tanımadığımız iki şəxsi gördüm. Görüşdük. Mənə bir məktub verdilər. Açdım, oxudum. Osmanlı ordusu bu günlərdə çıxacaqdır. Bu səbəbə görə təşkil olunmuş Araz-türk hökumətinə Sizi hərbi nazir seçdilər və buradakı heyət Sizə məlumat vermək şərəfini mənə həvalə etdi. Bu xəbəri

---

[52]Araz-türk hökumətinin mərkəzi ilə əlaqədar müxtəlif fikirlər vardır. Bir fikrə görə, mərkəz Naxçıvandadır. (Kazım Qarabəkir. İstiqlal hərbimiz İst. 1988.s. 288.) Aydın Hacıyev. Qars və Araz-türk respublikalarının tarixindən, Bakı.1994. s. 47. Nəsib Nesibzadə. Azərbaycan Demokratik Respublikası l990. s. 50. Əli Əliyev. Araz-Türk respublikası. Yaddaşdan xatirələr. Azərbaycan. 1 may 1991 Nç 18 (81). T Abbasov. Araz-Türk respublikası, Açıq söz. 13 mart, 1992. № 9 (37).Başqa bir fikrə görə, mərkəz Qəmərlidir. M.B. Naxçıvan-Şərur məsələsi, Azərbaycan Demokratik Respublikası. Bakı. 1992. s, 66. Nizaməddin Önk. Türk Ordusu Azərbaycanda 1918, Türk dünyası tarixi dərgisi. Dekabr 1993, № 84. s. 53. Bu hökumətin elanı Qəmərlidə baş vermişdir. Hökumət rəisi Əmir bəy Qəmərlidə olmuşdur. Sənədlərə əsasən demək olar ki, İqdırda heç bir yığıncaq keçirilməmişdir. İqdır uzaq olduğundan, bütün tədbirlər, işlər sərhəd yaxınlığında yerinə yetirilmişdir. Mərkəz yenə rəsmən İqdır idi. Araz-türk hökumətinin mərkəzini Qars hesab edənlər də var idi. İsmayıl Qayatalı-Qəməndər Arslanoğlu Azərbaycan türkləri kültür tarixinin ana cizgiləri, Azərbaycan Türk Kültür dərgisi. № 222. (Aprel-may-iyun 1977 s.84) Ancaq Qarsın mərkəz olması fikri səhvdir. Qars bu dövlətin sərhədləri daxilində deyildi.

[53]ATASEA, 4/8314, Kls. 251, D.4-1, F.35-2, 34, 34-1, 34-2. Kökdəmir. Qafqaz hökuməti s. 48

vermәklә bәrabәr, burada olmasını gözlәyir, Sizә sadiq qalacağımızı tәkrar söylәmәyimizlә fәxr edirik, әfәndim.

**İMZA**
Müvәqqәti Araz-türk hökumәti[54] rәisi
Әmir bәy Vәzirov"

Günorta Gümrüdәn qatarla yola düşdük vә o biri gün Qәmәrliyә gәldik. Hökumәt rәisi ilә lazım olan mәsәlәlәr barәsindә uzun-uzadı danışdım. Әmir bәyә söz verdim. Naxçıvandan qayıdanda Qәmәrlidә qalacağam. Qәmәrlidә İrәvan gәnclәrindәn bir neçәsi ilә görüşdüm. Bu arada Әkbәr bәy Әkbәrovu xatırlayıram. Әvvәlcә Tәbrizdә mәnimlә bәrabәr İran inqilabında iştirak etmişdi. Yaxşı bir adam idi. Vәtәn vә millәt yolunda canın verәn bir adamdır. Onlar ilә görüşdüm, sonra da, Naxçıvana gәldik.[55] Mәrkәzi İqdır olan Müvәqqәti Araz-türk hökumәtinin[56] sәrhәdlәri daxilindә Eçmiәdzinin (üç kilsә) bir hissәsi, Sәrdәrabad, Uluxanlı, (Zәngibasar) Qәmәrli (Gernibasar), Vedi (Vedibasar), Şәrur, Naxçıvan, Ordubad[57] vә Sürmәli bölgәsi yerlәşirdi.[58] Araz vadisinin әhalisinin çox hissәsini әhatә edәn türk-müsәlman sakinlәr tәrәfindәn qurulan bu hökumәt haqqında müxtәlif fikirlәr mövcud idi. Ermәni müәllif Hovanesyan onu sözdә hökumәt[59] azәrbaycanlı müәllif Mәdәtov Oyuncaq hökumәt,[60] Yalançı respublika[61] adlandırmışlar.

---

[54] Xәlil bәy Naxçıvanda Osmanlı ordusu çıxdıqdan sonra Qarsdan gәlәn 2 şәxsin az bir tәrәfdarla Araz-türk hökumәtini qurduğunu göstәrir. (ATASE A, 4/8314, Kis.251, D.4-1, F.21-2) Xәlil bәy sәhv etmişdir. Hökumәt 18 noyabrda qurulmuşdur. İbrahim bәy vә yoldaşı dekabrın әvvәlindә Naxçıvana gәlmişdilәr. Araz-Türk hökumәtinin rәhbәrlәri ilә Xәlil bәyin arası yaxşı deyildi. Buna görә dә düzgün mәlumat vermәmişdir.

[55] Cahangiroğlu. Xatirәlәr s.3-4

[56] Bu hökumәt müvәqqәti olaraq qurulmuşdur. Bölgә әhalisi, sülh konfransının verәcәyi qәrara qәdәr ermәnilәrdәn qorunmaq üçün belә bir hökumәt yaratmışdır. (ATASE A, 4/8314, Kls.251, D. 4-1, F.33) Türkiyә ilә ayrılığın qısa müddәtli olacağına inanırdılar. Türkiyәdәn ümidlәrini kәsәn әhali ümid işığını Azәrbaycan Cümhuriyyәtindә tapacaqlar. (Azәrb. Cum. MDEYTA. F.894. Op. 10. D. 70. 1. 1-6. 24 dekabr 1918; № 72 M.B. Naxçıvan-Şәrur mәsәlәsi 1 Fazil Rәhmanzadә. Әsrә bәrabәr gecә. Bakı, 1991. s. 132; T.Köçәrli. Azerbaycan Demokratik respublikası vә Azәrbaycanın әrazi bütövlüyü mәsәlәsi. "Kommunist" 30 sentyabr 1990, № 226 (21294)).

[57] Bәzi Azәrbaycan müәlliflәri Ordubadı Araz-türk hökumәtinin tәrkibinә daxil etmirdilәr. Ordubad isә Azәrbaycanın sәrhәdlәri daxilindәdir. (M.B. Naxçıvan-Şәrur mәsәlәsi. I) Batumi müqavilәsinә әsasәn bu doğrurur. Arada Zәngәzur yerlәşirdi. Bu da ermәnilәrin әlindә idi. Buna görә dә Azәrbaycanın bölgәdә hakimiyyәtdә olması mümkün deyildi. Ordubadın Araz-türk hökumәti tәrkibindә yer almasına dair heç bir sәnәd әldә edә bilmәdik. Ancaq Ordubad vә Culfa Naxçıvan qәzasının tәrkibindә olduğundan başqa bir mәlumat nәzәrdә tutulmamışdır. 15 noyabrda Qarsda Müsәlman Şurasına Ordubaddan da nümayәndә dәvәt etdiyinә görә Araz-Türk dövlәti üçün dә etibarlı sayılmalıdır. (ATASE A. 4/8314, Kls.251, D.4-1.F.13. Dadı. Elviyeyi-Selasedә Milli tәşkilatlar. s. 92).

[58] ATASE A, 4/8314, kls.251, D.4-1, F.43. M.B. Naxçıvan-Şәrur mәsәlәsi. I. Veysәl. Ünivar. İstiqlal hәrbindә bolşeviklәrlә 8 ay. İstanbul. 48, s.9. C.Quliyev, Q. Mәdәtov, A.Nadirov. Sovet Naxçıvanı, 1984, s. 27. Hacıyev. Araz-türk respublikası s. 47. Qarabәkir. İstiqlal hәrbimiz s.289. Әliyev.Araz-türk respublikası, Eynulla Mәdәtli. 1918- 1920-ci illәrdә Naxçıvanda azadlıq mübarizәsi, Şәrq qapısı, 28 may 1993, № 40, (16.260). Bәzi müәlliflәr Araz-türk hökumәtinin sәrhәdlәrini fәrqli, sәhv qeyd edirlәr. Bu fikirlәrә göre hökumәtin tәrkibinә, Eiviyeyi- Selasenin böyük hissәsi daxildir. Şәmsәddinov – Bağırov: Qara günün dostluğu. s.143, Onv. Türk ordusu Azәrbaycanda s.53-54. Başqa bir flkrә görә, Araz-türk hökumәtinә Naxçıvan, Şәrur, Dәrәlәyәz qәzaları daxildir. (Q.Mәdәtov Naxçıvanda Sovet hakimiyyәtinin qәlәbәsi vә Naxçıvan MSSR-nin tәşkili. Bakı. 1958.s.42)

[59] Richard G. Hovannisian, the Republic of Armenia, Vol: 1, the First Year. 1918-1919, Los Angeles, 1971, 8.229.

[60] Quliyev, Mәdәtov, Nadirov. Sovet Naxçıvanı s. 26.

[61] Mәdәtov Araz-türk hökumәti haqqında bunları yazır: Türklәr Naxçıvandan getmәmişdәn әvvәl yardımçıları – müsavatçıların kömәyi ilә yalançı Araz respublikasını qurdular. Türklәr yalançı cümhuriyyәt qurmaqla bölgәnin Azәrbaycan vә ya Ermәnistanın tәrkibinә daxil olmasına mane olmaq istәyirdilәr. belәliklә, onlar Naxçıvanı yenidәn işğal etmәk üçün әllәrindә bir imkan olmasına çalışırdılar. Kommunistlәr zamanı yazılan әsәrlәrdә bir sıra sәhv fikirlәr vardır. Mәdәtov bu hökumәtin rәisinin Naxçıvan

Araz-türk hökumətinin bu günkü mənada bir təşkilata sahib olmaması da bu sözlərlə ifadə edilmişdir: Ömrü qısa olsa da hökumət bölgə sakinlərinin xilas edilməsində böyük rol oynamışdır.

### 3. Hökumətin hərbi hissələr sahəsində fəaliyyəti

18 noyabrda rəsmi elan edilən Araz-türk hökumətinin fəaliyyət göstərməsi və region əhalisinin təhlükəsizliyini təmin etməsi üçün hərbi hissələrin yaradılması lazım idi. Noyabr ayının əvvələrindən etibarən türk hərbi dairələrinin köməyi ilə bu işlər sürətlənməli, türk əsgəri getmədən qurtarmalı idi. Bütün bunlar nəzərə alınmış, yığıncaq keçirilmiş, Araz-türk hökumətinin elan edilməsindən iki gün əvvəl, 16 noyabr 1918-ci ildə hökumətin quruluşunu hazırlayan heyət tərəfindən IX Ordu komandanlığına bir teleqram göndərilmişdi. Teleqramda türk ordusunun getməsindən narahat olduqlarından, başlarına gələ bilən hadisələrdən və bir sıra təkliflərdən bəhs edilmişdir:

Əsrlərdən bəri türk arzusu ilə yaşayan Qafqazın yüz minlərcə müsəlman əhalisinin dini və qanıbir qardaşlarına qovuşduğu bu məsud günləri tərif etməkdə acizik. Bununla bərabər, siyasətlə bağlı müvəqqəti ayrılığımızı eşitdiyimiz gündən kədərliyik. Ancaq Allahın taleyimizə bəxş etdiyi bu qüdrətə inanırıq, lakin qısa bir vaxtdan sonra məqsədimizə çatacağımıza, bu yolda hər şeyi nəzərə alaraq yenə qovuşacağımıza ümid edirik, təsəlli tapırıq. Nəyin bahasına olursa-olsun, biz buna nail olmağa and içmişik. Yeganə ümid və pənahımız olan Osmanlı dövlətinin bizi unutmayacağını bilirik.

Türk ordusu burdan çıxmağa məcbur edilib, türk müsəlman torpağında qalan biz, Qafqaz müsəlmanları, günü-gündən kin-küdurəti artan, daim bizim qanımızı içməyə hazır olan, buna fürsət axtaran, qaniçən, canavar, hər cür alçaqlıqdan, fəlakətlərdən zövq alan erməni əsgərlərinin, erməni əhalisinin hücumuna məruz qalmağımızdan, çoxlarımızın qanı hədər gedəcəyindən, oğul-uşağımızın süngülər altında məhv olacağından qorxuruq. Bizlər bu vəziyyət qarşısında köməksiz, rəhbərsiz, ləvazimatsız necə hərəkət edəcəyimizi, necə müqavimət göstərəcəyimizi bilmirik. Allah islam millətinin və xüsusilə türklüyün banisi və hamisi olan öz patşahımızı, millətimizi hər zaman saxlasın.

Namus və həyatımızın müdafiəsi üçün İqdır Araz əhalisi adından müzəffər Ordu komandanlığımızdan bunları vermənizi çox-çox xahiş edirik:

1.Araz-türk hökumətinin milisləri (könüllü) üçün iki top, kifayət qədər pulemyot, bunlar üçün döyüş sursatı və ləvazimat daşımaq üçün

---

xanlarından Cəfərqulu xan olduğunu göstərir. Hacıyev isə Əmir bəy ilə Naxçıvan xanları arasında narazıçılıq olduğunu qeyd edir. Cəfərqulu xan bölgədə xan nəslindən olanları iqtidara gətirmək istəyir. (Hacıyev. Qars və Araz-türk respublikaları s.46) 1. Hacıyev bu ifadəsində doğru yönlər də yox deyildi. İbrahim bəy də xatirələrində xanların bölgədə öz hakimiyyətlərindən başqa qüvvə istəmədiklərini yazırdı. (Cahangiroğlu. Xatirələr s.7-8) Araz-türk hökuməti dağıldıqdan sonra Əmir bəyin Naxçıvanda iqtidara gəlmək təşəbbüsü Kalbalı xanın adamları tərəfindən sərt qarşılanmışdı. (Azərb. Cüm. MDEYTA F.894, Op. 10. D.70. 14).

heyvan. Osmanlı hökumətini nəzərə alaraq mühafizəsini təmin edəcəyimiz zabit, əsgər, 2 həkim və müəyyən qədər dava-dərman, tibbi ləvazimat.

2.Yeni geyim alan Osmanlı hərbi hissələrinin köhnə geyimlərinin milislərə verilməsi.

3.Eçmiədzin, İqdır, Naxçıvan bölgələrindəki ərzağın indidən verilməsini xahiş edirik.16 noyabr 334

| Naxçıvan | Şərur | Zəngibasar | Vedibasar | Gərnibasar |
|---|---|---|---|---|
| üzv | üzv | üzv | üzv | üzv |
| imza | imza | imza | imza | imza |

**Müvəqqəti Araz hökuməti**
**Qəmərli imza**[62]

Kədər və həyəcan içində yazılan bu teleqramdan məlumdur ki, hərbi hissələrin yaradılmasındakı nöqsanları tamamlamaq istəyir. 18 noyabrda yaradılan Araz-türk hökuməti türk Ordusundan bəzi xahişlər etdi:

1. İki top, heyvanla bərabər
2. Osmanlı hissəsi yerdən götürən on iki top[63]
3. Pulemyot - 50 ədəd
4. Bunlara lazım olan mərmi və güllə
5. Kifayət qədər zabit və əsgər
6. Əsgərlərə təlim üçün 40 nəfər zabit və 40 nəfər çavuş, yefreytor
7. On min bomba, əlli min beşaçılan tüfəng
8. Mümkün qədər əsgər üçün paltar
9. Səhiyyə arabaları, ləvazimat, yük arabaları və maşın, lazımi qədər əşya
10. Mövcud ərzaqdan 400 ton bizə ayırsınlar. 100 ton Naxçıvanda, 100 ton Şərurda, 100 ton Qəmərlidə, 100 ton İqdırda. Naxçıvan yerli hökumət rəisi qalan ərzağı yığır. Mane olunmazsa, bizə heç nə qalmayacaq.
11. Məhəmməd Əli paşanın öhdəsində mühafizə olunan 250 min manat[64] mühacir pulu
12. Naxçıvan Yerli hökuməti nəzdində Qəmərli, Şərur və Naxçıvan bələdiyyələrinin pulu

[62] ATASE, A. 4/8314, Kls.251, S.l-4, F.33. Əsl mətndə türk sözü yoxdur.Gökdəmir. Qafqaz hökuməti. s.53-54

[63] İfadədəki anlaşılmazlıq mənbədən irəli gəlir.

[64] Sənədin əslində 250.000 milyon manat yazılmışdır. Sonra milyon sözü pozulmuşdur. Ona görə də 250.000 nəzərdə tuturuq. (ATASE 4.8314.kls.251. s.4-l. F.40-l)

13. İqdır komandanlığında olan bələdiyyə idarəsinin 200.000 manatdan artıq pulu
14. İrəvan şahbəndəri (ticarət işlərinə baxan məmur) Nuri bəy də əmanət qoyulmuş Rəvan mühacirlərinin tüfəngləri-1000-dən çox
15. Telefon hər yedə var, əvvəlki kimi qalmalı
16. Mümkün olsa, təşkilatımız doğru yolu tutunca və ya əmniyyət hasil olunca bu firqə əsgərlərin burada qalması
17. Xarici nümayəndələr daxil olmaqla sülh və sərhəd məsələsinə qərar vermək üçün bir komissiya yaradılması
18. Sülh və sərhəd məsələsi həll olmayınca erməniləri bu tərəfə buraxmamalı.

**Hökumət rəisi**
**Əmir bəy Möhür**[65]

Araz vadisində hökumət yaradılmasında mühüm rol oynayan Rüşdü bəy Araz-türk hökumətinin istəklərinə diqqətlə yanaşırdı. IX ordu komandanlığına göndərdiyi 18 noyabr şifrli teleqramda istəkləri ifadə etdi. Yuxarıda qeyd edilən tələblərin xülasəsi sayılan teleqramda bunlar əks olunmuşdu: “Region” tərk etdikdən sonra ermənilərin hücumu olarsa, müdafiə üçün ayrılan milis dəstələrinin ərzaqla təmini üçün Naxçıvan, Noraşen, Sərdarabad və ya Eçmiədzin məntəqələrində müəyyən qədər ərzaq və silahsız əsgərlər üçün bir neçə min tüfəng və hərbi ləvazimat istəyirik. Göndərilən rus tüfəngləri yararsızdır, qırıqdır. Beşaçılan tüfəng verilməsini xahiş edir. Zabit, pulemyot, hətta top istəyirlər. Bunun üçün bir heyət göndərilməsini xahiş etmiş və ilk qatarla Qarsa gələcəkləri və bunun siyasətə müvafıq və müsaid olduğu məlum deyilsə[66] də, az-çox varlığı hiss edilməsini istəyirdilər.

Hökumət təşkilati işləri davam etdirirdi, Araz-türk hökumətinin fəaliyyətinə nəzər salsaq görərik ki, hökumət ona lazım olan pul mənbəyi axtarırdı, Türk hərbi dairələri nəzarət etdikləri Naxçıvan və İqdır[67] yerli hökumətlərinin əlində olan və bölgə bələdiyyələrinə mənsub pulları tələb edirdilər[68]. Bundan əlavə, İrəvandakı Osmanlı nümayəndəsində olan Müsəlman Şurasına mənsub 250.000 manatın qaytarılması lazım idi. Vəziyyəti öyrənən Y.Şövqü paşa 25 noyabr 1918-ci ildə Məhəmməd Əli paşaya bu

---

[65] ATASE, A.4/8314. kls.251, s. 4-1,F. 43-1, Gökdəmir. Qafqaz hökuməti s.52.

[66] ATASE, A.4/8314. kls.251, s.4-1, F.35-2.

[67] İqdır yerli hökumət rəisi Məhəmməd Mühiddin bəy eyni zamanda mövqe komandiridir.

[68] Əliyevin fikrinə görə, hökumətin istəyi tamamilə yerinə yetirilməmişdir. Naxçıvandan çıxmağa çalışan Əli Şəfiq bəy hökumət kassasında olan bir milyona yaxın pulu və 8 vaqon arpa və buğdanı aparmaq istəyirdi. Naxçıvanın nüfuzlu şəxsləri bir heyət göndərərək pul və ərzağı istədilər, lakin verilmədi (Əliyev. Qanlı günlərimiz. s.85)

teleqramı göndərdi:İrəvan mühacirlərindən Hacı Zeynalabdin oğlu Mirzə Əli bəydə,[69] İrəvan Müsəlman Şurasına aid təxminən 250.000 manat vardır, İqdır və Naxçıvan əhalisi adından pulun geri qaytarılmasını xahiş edirik.

Yuxarıda qeyd edilənlər zati-alilələrinə göndərildi. İcrası dövlət rəyinə bağlıdır, əfəndim[70].

Araz-türk hökuməti təşkilati işlərini tamamlamaq üçün bir sıra hazırlıqlar görür, xahişlər edir, yerli səlahiyyətlilər bir sıra işlər görərək müəyyən qərarlar qəbul edirdilər.Yerli hökumət rəisi Əli Şəfiq bəyin sədrliyi ilə keçirilən yığıncaqda Naxçıvanın nüfuzlu şəxsləri bu qərarları qəbul etmişdir: 1) Məcburi səfərbərlik. 2) Əsgərləri batalyonlara bölmək və kazarmalarda saxlamaq. 3) Gedən ermənilərin əmlakının hökumətə[71] verilməsi. 4) Hökumət anbarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud[72] verilməsi. 5) Təzə əsgərlərə hökumət tərəfindən geyim və s. əşyanın verilməsi. 6) Əsgərliyə getməyən əhalidən silahları yığaraq, silahı olmayan əsgərlərə paylamaq. 7) 20-35 yaşlar arasında kişilərin hamısmı əsgərliyə çağırmaq.[73]

Naxçıvandakı təşkilati fəaliyyətlər bu yığıncaq ilə qurtarmadı. Araz-türk hökumətinin qurulması ilə əlaqədar Qəmərliyə gedən nümayəndələrlə Qarsa Şövqü paşanın yanına gedən Mirzə Nəsrullah bəy və Bağır bəy Rzayevin Naxçıvana qayıtması nəticəsində bu fəaliyyətlər sürətləndi. Mirzə Nəsrullah bəy və Bağır bəy Naxçıvana qayıtdıqdan sonra gördükləri işlər ilə əlaqədar qabaqcıl, nüfuzlu şəxslərə məlumat vermək üçün məsciddə ümumi bir yığıncaq keçirildi.[74] Yığıncaqda Nəsrullah bəy verdiyi izahatdan sonra nümayəndələr Əli Şəfiq bəyin yanına getdilər və orada Mirzə Nəsrullah bəy

---

[69] ATASE-də işlədiyimiz zaman vizit kartoçkasına rast gəldim: Hacı Zeynalabdin oğlu Mirzə Əli, Ünvan: Siyasi və tarix, Burhani-həqiqət məcmuəsinin müdiri və naşiri İrəvan şəhər məktəbinin türk dili və coğrafiya müəllimi, xeyriyyə cəmiyyətinin idarə heyətinin üzvü və katibi, İrəvan vilayəti türk Müəllimlər İttifaqının sədr müavini, Müsəlman klubu-idarəsi heyət üzvü və müdiri, Müsəlman Milli Şurasının katibi və möhtac mühacirlərə yardım edən komitənin üzvü və baş katibi. (ATASE. A.4/8314. kls.251. D.4-1. F.40)

[70] ATASE A,4/8314. kls.251, D.4-1, F.40-1.

[71] Burada qeyd edilən Naxçıvandakı yerli hökumətdir.

[72] 16.4 kq rus ağırlıq ölçüsüdür.

[73] Əliyev. Qanlı günlərimiz, s.82

[74] Naxçıvan heyəti Qarsda bu işləri görmüşdür. 1 -Müsəlman əhalisinin Osmanlı dövlətinə tabe olub ona birləşmək. 2. Naxçıvan əhalisinə Osmanlı dövləti tərəfindən silah verilməsi. 3. Naxçıvan əhalisinə top, tüfəng, patron verilməsi. 4. Naxçıvanda Milli Şuranın təşkili. 5. Şəhər gəlirlərinin hamısının Milli Şuraya verilməsi. 6. 28 000 manat pulun Osmanlı hökuməti tərəfindən qaytarılması. 7. Osmanlı əsgər və zabitlərdən bir hissəsinin bölgədə qalması. 8. Səlmas tərəfindən Qarsa gedən Sərdar Şuca və Mükərrəmil Humayun ilə görüşməsi. 9. Qarsda Y.Şövqü paşa ilə görüşmək və padşaha Naxçıvan əhalisinin vəziyyəti haqqında məlumat çatdırılması. 10. Türk Ordusunun Naxçıvanda qalması ilə əlaqədar İngilis, Fransız, İtalyan, Amerika səfirlərinə teleqram göndərilməsi. 11. Erməni mühacirlərinin silahsız olmaqla, əvvəlki yerlərinə qaytarılmaları. 12. Müsəlmanların şəhərdən çıxmalarının qadağan edilməsi və müdafiələrinin təmin olunması. 13. İbrahim bəyin dəstəsinin yaxın zamanda Naxçıvana gəlməsi. 14. Qafqazda türk zabitlərinin könüllü qalması. 15. Qars Milli Şurasına Əliyev tərəfindən on lirə verilməsi. 16. Andranik dəstəsinə Qafqaz nümayəndələri tərəfindən ultimatum verilməsi. 17. Yerli əsgərlərə geyim ve ərzaq verilməsi. 18. Araz-türk hökumətinin təşkili. 19. Qarsda Milli Şuranın açılışı. (Əliyev. Qanlı günlərimiz.s. 83-84).

qəbul olunmuş qərara görə Yerli hökumət rəisi təyin olundu.[75] Beləliklə, səlahiyyətlərini yerli əhaliyə verən Türk hərbi dairələri artıq bölgəni tərk etməyə hazır idilər. Ancaq bu vəziyyət Araz-türk hökumətinin xoşuna gəlmədi. Əslində, təşkilati işlərin qızğın dövründə onların bilikli mütəxəssislərə böyük ehtiyacları vardı. Ehtiyacları təmin etməyin tək bir yolu türk hərbi dairələri idi. Buna görə də hökumət daim hərbi dairələrdən bu sahədə xahişlər edirdi. Türk hərbi dairələri də onlara müsbət cavab verirdi. Y.Şövqünün əmri ilə bölgədə ancaq tərxis olunmuş ehtiyat zabitlər qala bilərdi. Rütbəli və rütbəsiz əsgərlərdən də bölgədə qalmaq istəyənlər var idi.[76] Hüquqçu Hüseyn Avni bəyin Araz-türk hökumətində qaldığını gördük.[77] Mədətov, Hacıyev, Gökdəmir Naxçıvandakı Xəlil bəyin Araz-türk hökumətində işlədiyini qeyd edirlər.[78] Həqiqətdə isə belə deyildir. Əslində isə, Xəlil bəy II diviziya komandiri Cavid bəyə təqdim etdiyi yanvar 1919-cu il tarixli məlumatında yazırdı: "Araz-türk hökuməti bizə heç bir vəzifə vermək istəmədiyi kimi, biz də getmədik.[79] İbrahim bəy də bunu təsdiq etməkdə idi. O da Araz-türk hökumətinin

Xəlil bəyə vəzifə vermədiyindən bəhs edir.[80] Mədətov Xəlil bəydən başqa türk Ordusunun Naxçıvanda 5 zabit və 300 əsgər saxladığını yazırdı.[81] Bu məlumatı təsdiq edəcək başqa bir sənəd əlimizdə yoxdur. 1919-cu ilin əvvəllərinə aid Antanta dövlətləri nümayəndələrinin məlumatlarından[82] və

[75] Bu vaxt Naxçıvanda bələdiyyə sədri Hacı Mehdi Bağırov, polis müdiri Abbasqulu bəy Tahirov və hərbi komandir Kalbalı xan idi. (Əliyev. Qanlı günlərimizs. 84-85, 88)Naxçıvanda gördüyümüz bu idarəetmə təşkilatı ancaq şəhəri əhatə edirdi və Araz-türk hökumətinə bağlı idi.

[76] Cahangiroğlu. Xatirələr s. 5.

[77] Qırzıloğlu. Ədəbiyyatımızda Qars. II. s. 148. Dayi (Elviyeyi-Selasedə Milli təşkilatların yaradılması. s. 121.)

[78] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi..s. 43. Hacıyev. Qars və Araz-türk respublikaları.s.48. Gökdəmir. Qafqaz hökuməti, s.62.

[79] Xəlil bəyin Araz-Türk hökuməti ilə rəsmi əlaqəsi olması da, onun hökumət rəisi ilə bəzi məsələlərdə fikir mübadiləsinə gəldiyini görürük. (Əliyev. "Qanlı günlərimiz", s.87).

[80] İbrahim bəy xatirələrində Xəlil bəyin Naxçıvan xanları ilə əlaqəsini belə ifadə edir: Ancaq arada bir şey var idi: O da firqəçilik. Buna birinci səbəb, Təkirdağlı kapitan Xəlil bəyin buraya gəlməsi, Naxçıvanda Məhəmməd Əli bəyin qızı ilə evlənməsi idi. Məhəmməd Əli bəy rus dövründə millətlə yaxşı davranmamışdır, buna görə də onu istəməzdilər. İkinci səbəb də, Araz-türk hökumətinin Xəlil bəyə vəzifə verməməsidir, nəticədə o, fürsət düşəndə, fitnə-fəsadçılıq törədirdi. Mərhum Abbasqulu xan İrəvanskinin oğlu Kərim xanla dostluq edirdi. Kərim xan Y.Şövqünün vaxtında Qarsa gəlmişdi. Y.Şövqü paşa və Milli Şura bu şəxsə iltifat göstərmədi. Üçüncü səbəb: Xan Naxçıvanski ilə qohum idi. Onlar istəmirdilər ki, xanlar, bəylər vəzifə başında olsunlar. Halbuki, Xan Naxçıvanskinin oğlu Kalbalı xandan xalq razı idi. Naxçıvanlıların onun üçün məndən onun ümumi Naxçıvan komandiri təyin edilməsini xahiş etdilər. Xan Naxçıvanskinin də vəzifədə olması üçün Kərim və Xəlil bəyin işdə olmaları lazım idi. Onlar Xəlil bəy ilə bərabər olmasaydılar, Xəlil bəyin qayınatası onlardan ayrılacaqdı. Bu isə onların heç birinin mənafelərinə uyğun deyildi. Onlar ilə elə adamlar vardı ki, öz xeyirləri üçün hər şeyi qurban edirdilər. Onlar məndən qorxurdular. (Cahangiroğlu. Xatirələr s. 7-8).

İbrahim bəy, Xəlil bəyi çox ağır ittiham etmişdir. Naxçıvan xanları da öz mənfəətləri üçün dünyanı qurban edən deyildirlər. Xəlil bəy Anadoluya qayıtdıqdan sonra öz rahatçılığını ataraq, Naxçıvana qayıtmış və iki ilə yaxın ermənilərlə, ingilislərlə, amerikanlarla mübarizə aparmış, dostla dost, düşmənlə düşmən olmuşdur. Milli məsələlərdə güzəştə getməmişdir.

[81] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 43. Hacıyev. Qars ve Araz-türk respublikaları. s. 48

[82] Yenə orada, səh. 39

İbrahim bəyin xatirələrindən məlum olur ki, regionda türk əsgərləri qalmışdır. Beləliklə, deyə bilərik ki, Araz-türk hökumətində Hüseyn Avni bəy kimi, daha bir çox tərxis edilmiş şəxslər var idi.[83]

Tərxis edilmiş, bölgədə qalan şəxslərlə hərbi hissələrin yaradılması işləri tamamlana bilməzdi. Bu tədbirdə əhalinin kütləvi iştirakı vacib sayılırdı. Əhalidən təşkil olunmuş hissələrə silah və hərbi ləvazimat lazım idi. Vəziyyəti başa düşən Araz-türk hökuməti Osmanlı hərbi dairələrindən daim kömək istəyir. Yuxarıda ətraflı olaraq bəhs etdiyimiz xahişlərin bir hissəsinə cavab verirdi. IX Ordu komandiri 21 noyabr 1918-ci ildə 9-cu Qafqaz diviziyasına, Naxçıvan yerli hökumət rəyasətinə və İqdır mövqe komandanlığına göndərdiyi əhalinin silahlanması başlıqlı teleqramda yazırdı:

1. Ordumuz on günə qədər Arpaçayın şərqindəki torpaqları tərk edəcəkdir. Əhali öz asayişi üçün istənilən təşkilatı yaratmaqda sərbəstdir. Ancaq Osmanlı əsgərlərinin bu işə qarışması məqsədəuyğun deyildir. Bu işlərdə məsləhət və kömək mümkündür.
2. Əhali yaratmaq istədiyi təşkilatı indidən yaratsın.
3. Tərketmə zamanı bütün əsgər və jandarma gedəcəyindən müəyyən tədbir görülməlidir.
4. Əhaliyə silah və s. vermək imkanı yoxdur.
5. Araz vadisi çox zəngin olduğundan və bu günlərdə yığılacaq nə məhsul orada qalacağından, artıq başqa ərzağa ehtiyac olmayacaq.
6. Mühacirət məsələsinə gəldikdə, köçməyi hökumət məqsədəuyğun hesab etmir. Köçmək istəyənlərə mane olmayacağam. Ancaq qatarlardan istifadə edə bilməzlər. Çünki qatarlar məşğul olacaqdır.
7. Bütün bunları əhalinin qabaqcıl nümayəndələrinə bildirmək lazımdır[84].

Y.Şövqi paşa yuxarıdakı teleqramda artıq silah, hərbi ləvazimat və s. verilməyəcəyini qeyd etmişsə də, bir müddət sonra fikrini 9 və 12-ci diviziyalara verdiyi əmrdə belə ifadəedirdi:12-ci fırqə komandanlığı tərəfindən Gümrüdə mövcud rus əl bombalarından ayrılan 100 qutu və 27.11.34-də gedəcək yük qatarları ilə Uluxanlı stansiyasına gətiriləcəkdi. 9-cu Qafqaz diviziyası bu bombaları Uluxanlı stansiyasından götürəcək, Araz vadisinin müsəlman əhalisinin qabaqcıl nümayəndələrinə veriləcəkdi. Bu, gizli saxlanılmalıdır.[85] Y.Şövqi paşanın əmri səhərisi gün yerinə yetirildi və əl bombası olan 100 qutu Uluxanlıya göndərildi.[86] Yenə bu vaxt Axıska və Axılkələk

---

[83]Cahangiroğlu İbrahim. Xatirələr s. 10-23.

[84]ATASE A.4/8314, kls.251, D.4-1, F.35, 35-1.

[85]ATASE A.4/8314, kls.251. D.4-1, F.42-1

[86] ATASE A.4/8314, kls.251, D.4-1, F.42

əhalisinə silah, hərbi sursat paylanıldı.[87] Boşaldılacaq bölgə əhalisi özünü müdafiə üçün hazırlamaqda idi.

Araz-türk hökumətinin təşkilat yaratmaq təşəbbüsləri erməni hökumətini narahat edirdi. Bu məqsədlə erməni Xarici İşlər Nazirliyi 21 noyabr 1918-ci ildə İrəvandakı Osmanlı nümayəndəsi Məhəmmədəli paşaya müraciət edərək narahatçılıqlarını bildirdi. Erməni dairələri, Araz vadisində müsəlman əhalinin alaylar təşkil etməsi, hərbi hazırlıqlar görməsi ilə əlaqədar erməni mühacirlərinin də narahat olub silahlanmasını bildirir. Bu fəaliyyətlərə son verilməsini tələb edirdi.[88] Həmin gün Məhəmməd Əli paşa ilə Şövqü paşa arasında yazışmalar aparıldı. Məhəmməd Əli paşa Y.Şövqü paşanın teleqramını almamışdan əvvəl, erməni Xarici işlər Nazirliyinə tutarlı cavab verdi və mətnin bir nüsxəsini də IX Ordu komandanlığına göndərdi. Erməni xarici işlər nazirliyinə göndərilmiş cavabda bildirilirdi:"Ermənistanın bütün əhalisi silahlandığından boşaldılan Araz vadisindəki müsəlman əhali ancaq özlərini müdafiə etmək üçün silahlanmağa məcbur olmuşdur. Belə adamlardan alay təşkil edilməsinə ehtimal yoxdur. Osmanlı hökumətinin məqsədi qonşusu erməni hökuməti ilə yaxşı münasibət saxlamaqdır. Sərhədlərin ciddi mühafizəsi hər iki dövlətin əlindədir.[89]" Y. Şövqü paşa da teleqramda göstərirdi ki, Araz vadisində yaradılan təşkilata Osmanlı Ordusunun heç bir təsiri yoxdur, bu əhali öz namus və həyatlarını qorumaq sahəsində sərbəstdirlər, gələcək mühacirlərlə yerli əhalinin qaynayıb-qarışması üçün tədbirlər görülür.[90]

Osmanlı hərbi dairələri, Araz vadisindəki müsəlman əhaliyə hərbi hissələrin yaradılmasına kömək etmədiklərini nə qədər desələr də, bu, həqiqətə uyğun deyildi. Əslində siyasətə görə belə deyilirdi. Osmanlı hərbi və idarəetmə dairələri, boşaldılacaq bölgədə olan türk-müsəlman əhalisinin gələcəyini nəzərə alaraq əllərindən gələni əsirgəmirdilər. Daim İstanbul ilə əlaqə saxlanılır, hakim dairələrin fikirlərini soruşurdular.[91] Region əhalisinin təzyiqi və xahişləri Osmanlı dairələrinə də öz təsirini göstərirdi.[92] Əhalinin bir hissəsi, təşkilatlar yaratsa da, yenə qorxu və həyəcan içərisində idi.

---

[87]ATASE A.4/8314, kls.251, D.4-1, F.39

[88]Gökdəmir. Qafqaz hökuməti s. 66-67

[89]ATASE, A.4/8314, kls.251, D.4-1, F.36

[90] Yaqub Şövqü paşanın erməni mühacirlərinin məskunlaşması haqqındakı fikirləri həqiqət idi. İcazə verilmiş, erməni mühacirləri gəlməyə başlamış, məskunlaşmaları təmin edilmişdir. 25 noyabr 1918-ci ildə İrəvan yolu ilə gələn 622 və səhərisi gün Eçmiədzin tərəfindən gələn 239 erməni mühacirlərini kəndlərinə göndərmişlər, Mühacirlərin üstləri axtarılır, silah və patronları alınırdı. Gələcək təhlükələrin qarşısını almaq istəyirdilər. (Gökdəmir. Qafqaz hökuməti s.67-68). Araz-türk hökuməti mühacirlərin silahsız gəlmələrinə çox diqqət yetirirdi. Araz-türk hökuməti qurulduqdan sonra erməni hökumətinə bir nota vermiş və sərhədləri daxilinə gələn erməni mühacirlərinin silahsız gəlmələrinə şərt qoymuşdur. (ATASE A. 1.2, kls 65. D.254. 101. F.21-1) Naxçıvanlılar dağ bölgələrinə gələcək erməni mühacirlərinin silahsız olmasını istəyirdilər. (Əliyev. Qanlı günlərimizs. 84)

[91] BOA.BEO, Daxili İşlər Naz.dətləri №1127.15668. 85.31.34 .ATASE, A.l.l.kls.37, L.I44-130.F.16.

[92] Qars inzibati müfəttişi Hilmi bəy 20 noyabr 1918-ci ildə Daxili İşlər Nazirliyinə oradan da sədrəzəm Sadrayan Tofiq paşaya bir məlumat göndərmişdi. Dünən Naxçıvan və İqdır əhalisi adından bir neçə şəxs müraciət edərək bildirmişlər ki, ordu çıxdıqdan sonra kimsəsiz və köməksiz qalacaqlar, vaxtı iİə ermənilərlə pis-yaxşı bir idarə altında yaşayırdılar. Osmanlı ordusu oraya gəldikdən sonra bu, imkansızdır, orada yaşayan müsəlmanlar

Bu cür narahatçılıqlara baxmayaraq, Araz-türk hökuməti təşkilatlanma sahəsindəki fəaliyyətlərini davam etdirir, türk ordusu da müştərək bölgəni yavaş-yavaş tərk edirdi. Elə bu vaxt, Araz-türk hökumətinin hərbi naziri seçilmiş Qars müsəlman Şurası rəisi Cahangiroğlu İbrahim bəy,[93] müavini Emin bəy və katibi Sami bəy Naxçıvana gəldilər. Məqsədi Qars Müsəlman Şurasının qəbul etdiyi qərarları oxumaq və Araz vadisində şöbələr açmaqdır. Ancaq Araz vadisinə gələn İbrahim bəy Qars Müsəlman Şurasının şöbələrini açmaq əvəzinə, regionda hərbi təşkilatların yaradılması ilə məşğul oldu. Əmir bəy, Bağır bəy və İbrahim bəy Naxçıvana gələrək, məscidə toplaşan əhaliyə hərbi hissə haqqında məlumat verdi. Sonra Cəhri kəndinə yola düşdülər. Məqsəd burada yerləşən Cəhri batalyonunu ziyarət etmək idi. İbrahim bəy Cəhriyə gəldikdən sonra sərhəddə olan istehkamları yoxladı, bir sıra məlumatlar əldə etdi və təkrar Naxçıvana qayıtdı. Ancaq Naxçıvanda kədərli dəqiqələr yaşanırdı.Türk əsgəri bölgədən çıxmaq hazırlıqları görür, əhali isə həyəcan və qorxu içərisində gözləyirdi[94].Belə bir vaxtda İbrahim bəy əhali ilə bərabər türk əsgəri bölgəni tərk etdikdən sonra nə edəcəklərini müzakirə etdi[95]. Bir müddət sonra türk əsgəri ilə Naxçıvandan çıxan İbrahim bəy Qəmərliyə gəldi.

Qəmərliyə gələn İbrahim bəy buradakı hərbi hissə yaratmaq işini sürətləndirdi. Bütün batalyon və rota komandirlərini Qəmərliyə çağırdı. Əvvəldə qeyd olunduğu kimi, türk ordusu çıxmamışdan əvvəl 20-yə qədər batalyon yaradılmışdı. 250-500 nəfərdən ibarət olan batalyonun dördü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə ,digərləri də Vedibasar, Zəngibasar, Qəmərli və başkənddə (Aralıq) idi. İqdır tərəfindən hələ kifayət qədər hissə yox idi.[96] İbrahim bəy xatirələrində bundan sonra gördüyü işləri belə ifadə edir:

---

soyqırımına məruz qalacaqlar. Bir neçə günə ordu çıxacaq, bunun ardınca anarxiya yaranacaq, yenidən bu iki tərəf arasında arzuedilməz münaqişə yaranacaq və köçmüş bir çox erməni kəndləri, vaxti ilə kəndləri ermənilər tərəfindən yandırılan yerlər müsəlmanlar tərəfindən işğal etməsi, erməni mal və əmlakını müsəlmanların mənimsəməsi müqabilində ermənilər də bunu bəhanə edərək onlara hücum etmək sevdasına düşür. Anarxiya başlayır. Arzu edilməyən döyüşlər labüddür. Qafqaz müsəlmanları ermənilər içərisində var idi. Bundan sonra onların bir arada yaşaması imkansızdır.

Bu teleqrafdan məlum olur ki, həm Qarsa gedən naxçıvanlıların və iqdırlıların, həm də Qars inzibati müffəttişi Hilmi bəyin Araz-türk hökumətinin yaranmasından xəbərləri yox idi. Bu, çox çətin idi. Hilmi bəy ilə nümayəndələrin görüşməsi 19 noyabrda olmuşdur. Bu gün qısa bir zamanda hadisə haqqında xəbər tutmaq mümkündürsə, o zaman bu imkansız idi. Region ilə xəbərlər ancaq hərbi dairələr tərəfindən aparılırdı.

[93] Cahangiroğlu İbrahim bəy, 30 noyabr 1918-ci ildə toplanıb, iki gün davam edən Qars Müsəlman Şurasınm yığıncağında Milli Müsəlman Şurası hökumətinin rəisi seçilmişdi. (Erdoğan. Türk ellərində xatirələrim. s. 169 Elviyeyi-Selasedə Milli təşkilatlar.s 941. Gökdemir Qafqaz hökuməti. s. 69-71).

[94] Siyasi mühitdə qatma- qarışıqlıqlara baxmayaraq iqtisadi həyatda qaydalar davam edirdi. Naxçıvanlı tacirlər xüsusilə İran ilə alış- veriş edirdilər. (British. Documents on Foreigin Affars. Port.II, series B. Turkiye İran and the Middlı East. (1918-1939) Vol: 16, Perisc, 1 January, 1919-1921 University Publications of Amerika, 1990, Doc.54. s. 36)

[95] Cahangiroğlu. Xatirələr s. 5-6. Əliyev. Qanlı günlərimiz. s. 84-85

[96] İqdırda hərbi təşkilati fəaliyyətləri tam şəkildə olmadığından İbrahim bəy belə ifadə etmişdi.

“Aralıq- Başkəndin qabaqcıllarından bir neçəsini çağırdım. Onlara lazımi məsləhətlər verdim. O böyük adamlar bir gecə icazə istədilər, erkəndən gəldilər. Bir alay 1500 nəfər olmaq şərti ilə 5 süvari rotası, 11 kənddəki əsgərlərin adları olan dəftərləri (oxuna bilmədi) özləri ilə gətirdilər. O saat oraya bir zabit, bir çavuş, on yefreytor, türk əsgəri göndərdim. Zabitə pul, lazımi şeylər hökumət tərəfindən verildi. Aralıq-Başkəndə zabit göndərdikdən sonra Araz-türk hökuməti yığıncaq keçirdi. Hər tərəfdən oraya nümayəndələr çağırıldı, müzakirələr başladı. Ermənilərin türk və müsəlmanlara elədikləri zülmləri bir-bir saydılar. Çox uzun müzakirələrdən sonra çıxış edənlərdən biri dedi ki, indi ermənilərə qarşı nə etmək lazımdırsa, onu demək lazımdır. Bundan sonra türk yoxdur. Türkiyə də uzaq. Sabah, o biri gün ermənilər sərhəddimizə gələcəklər. Təkrar edirəm, ona qarşı nə etməliyik. Yerdən ümumi cavab verildi. Erməniləri buraxmırıq, birimiz qalsaq da belə. Əksəriyyət isə müharibə etməyi təklif etdi, yığıncaq dağıldı, bölgü keçirildi. Hərbi komandirlər əmrləri alıb, geri qayıtdılar. Biz də hazırlıq gördük. Bir heyətlə bərabər sərhədləri gəzdik, lazım olan yerləri gördük. Qəmərlidən çıxdığımız zaman erməni kəndlərində yaşayan mühacirlər köçməyə başlamışlar. Əmr verdik, mənim əmrim olmasa heç kəs kənddən çıxa bilməz. Biz o gün Akçabaş kəndinə gəldik və orada işə başladıq. Sərhəd boyu lazım olan əsgərləri yerləşdirdik. O gün 8 saat sərhədboyu gəzdik, axşamüstü yenə Qəmərliyə gəldik.[97] İbrahim bəy və Araz-türk hökumətinin qabaqcılları yaxınlaşan erməni təhlükəsini görürdülər, ölkənin təhlükəsizliyini təmin etmək üçün daim çalışırdılar. Sərhədlər yoxlanılır, müvafiq əmrlər verirdilər.[98]

İbrahim bəy və yoldaşları böyük strateji əhəmiyyəti olan Uluxanlını qorumaq üçün bir sıra tədbirlər görməyi nəzərdə tuturdular. Bu məqsədlə Uluxanlıya gələn heyət böyük çətinliklərlə qarşılaşdı. Əhalinin bir hissəsi erməni təbliğatına uyaraq, Araz-türk hökumətinə əhəmiyyət vermirdilər.[99] Buna görə də Türk hərbi dairələrinin Uluxanlı stansiyasında Araz-türk hökumətinə verdikləri 40 arabaya qədər bombanın daşınması üçün lazım olan daşıma vasitəsini vermək istəmirdilər.

Müsəlman əhalisinin bir hissəsinin bu cür davranışlarına baxmayaraq, İbrahim bəy və yoldaşları Uluxanlı ətrafında olan könüllülər rotasını sərhədə yerləşdirmək üçün mübarizə edirdi.[100]

Artıq, ermənilər hər an gələ bilərdilər.

---

[97] Cahangiroğlu. Xatirələr. s. 8-10.

[98] Naxçıvanda yerli səlahiyyətlilər hərbi təşkilatlar sahəsində boş durmurdular. Naxçıvan qəzasında yığılan əsgəriərin and içmə mərasimi keçiriimişdir, Əvvəlcədən bölgədə olan Xəlil bəylə bərabər topçu kapitan Hüsnü bəy, Şahtaxtıda topçu əsgər hazırlayırdılar. (Əliyev. Qanlı günlərimiz s.87.)

[99] Cahangiroğlu. Xatirələr s. 6-7.

[100] Əliyev. Qanlı günlərimiz, s.88

## 4. Ermənilərə qarşı aparılan mübarizələr

Erməni təhlükəsinin qarşısını almaq üçün hərbi hissələr yaradan Araz-Türk hökumətini buna vadar edən səbəblər var idi. Bunlardan ən mühümü ermənilərin siyasəti, bölgədə üstünlük qazanmaq istəmələri ruhlarında qaynayan vəhşilikləri türklərə tətbiq etmələri idi. Erməni tarixçisi Hovanisyana görə İrəvan vilayətindəki ermənilərin sayının müsəlmanlardan artıq olmasına baxmayaraq, Sürməlinin cənubunda, Şərur-Dərələyəz və Naxçıvanda əksəriyyəti təşkil edən türklər ölkənin ətrafını, nəqliyyat və rabitə yollarını nəzarətləri altında saxlayırdı. İrəvanın yaxınlığında yerləşən Zəngibasarda əksəriyyəti təşkil edən türklər erməniləri istəmirdilər.[101] Belə bir vəziyyətdə erməni hökuməti cümhuriyyətin İran sərhədinə qədər uzanan zəngin bölgələrinə nəzarəti ələ keçirməyi vacib bilirdi.[102]

Ermənilərin bölgəyə olan marağı türk ordusu bölgəni tərk etmədən əvvəl bəlli idi. Osmanlı hökuməti nə qədər onlarla yaxşı davransa da, kömək etsə də ermənilər rahat durmurdular. Y.Şövqü paşanın hərbi nazirə göndərdiyi 25 noyabr tarixli teleqramda bu maraqlı ifadələr diqqəti cəlb edir:

"Siyasətə əsasən biz ermənilərlə xoş keçinir, onlarla səbirli davranırıq. Ərzaq ehtiyacları təmin etmək üçün hökumət adından çox taxıl verdik.[103] Müsəlman əhalisini sakitliyə dəvət etdik. Bu ay ərzində erməni mühacirlərini qəbul etdik, məskunlaşmasına, ərzaq ehtiyaclarına kömək etdik. Müsəlman əhalisi də erməni mühacirlərinə hüsnü-rəğbət bəslədilər. Bunun qarşılığında erməni mühacirləri kiçik, əhəmiyyətsiz bir-iki hadisə törədərək erməni hökumətinin diqqətini cəlb etdilər, özlərinin haqlı olduqlarını göstərməyə çalışdılar. Bununla da onlar gələcəkdə edəcəkləri fıtnə-fəsadlara, ədavətə zəmin hazırlayırdılar. Bu əsassız şayiə Ermənistanm Xarici İşlər Nazirliyi tərəfindən xarici hökumətlərə çatdırılır və bu da Ermənistan hökumətinin müsəlman əhaliyə hüsnü-rəğbəti olmadığını göstərirdi.[104]

Bəli, Y.Şövqü paşanın dediyi kimi, ermənilər müsəlmanlara xoş münasibət bəsləmirdilər. Antanta dövlətlərinin dəstəyi ilə ərköyünləşən ermənilər türk ordusunun gözü qabağında, öz sərhədləri daxilində olan müsəlmanlara zülm edirdilər. Noyabr ayının axırlarına yaxın Naxçıvan və Göyçə gölü arasında qalan müsəlman əhaliyə ermənilər top və pulemyotla hücuma keçərək kəndləri dağıdır, əşyaları zəbt edir, torpaqlarından qovurdular, digər tərəfdən,

[101] Hovanisyanın yaddan çıxardığı bir şey var. O da budur ki, erməniləri istəməyən yalnız Zəngibasar türkləri deyil, bu, Qəmərli və Vedi bölgələrinə də aiddir. Qəmərli, öz varlığı üçün qərarlı addımlar atan Araz-Turi hökumətinin paytaxtıdır.Bu gün Ermənistan torpaqlarına daxil olan iki bölgə sərhəddən baxanda İrəvan şəhərinin xarici məhəllələri kimi görünür. 1970-ci ildə Qəmərlidən İrəvana məsafə 29 km, Zengibasardan (Uluxanlı) İrəvana 20 km-dir. (Əziz Ələkbərli. Qədim türk oğuz yurdu Ermənistan. B., 1994, s.89,90.117)

[102] Hovanisyan.Ermənistan Respublikası. s.228-220.

[103] Ermənistandakı Osmanlı nümayəndəsi Məhəmməd Əli paşanın ifadəsinə görə verilən buğda 450 tondur. Ordu erməni mühaciriərinə buğda vermişdir. (Tesviri-Əfkar, 30 dekabr 1918 F.2606)

[104] BOA, BEO. 340775

İran tərəfində boş durmayan ermənilər üç yüz, dörd yüz nəfər müsəlman əhalini Naxçıvana doğru çəkilməyə məcbur etdilər.[105]

Həmin dövrdə ermənilər, Naxçıvan qəzasının şimalında Zəngəzur ilə Naxçıvan arasında olan türk-müsəlman kəndlərinə hücum edərək, əhalini incitmişdilər.[106] Soyqırımından canlarını qurtara bilənlər Naxçıvan və Gəncəyə qaçmışdılar. Zəngəzurda mindən artıq müsəlman şəhid olmuş, 133 kənd boşaldılmışdı.[107] Qarabağda və Zəngəzurda zülmlər edən Andranik Naxçıvana xəbərlər göndərir, müsəlmanları hədələyirdi.[108.] Andranik boş yerə hədələmədiyini sübut etmək üçün Zəngəzur və Ordubad arasındakı türk-müsəlman kəndlərini mühasirəyə almağa və əhalini öldürməyə başladı. İrana qaçmaq istəyənlər Araz çayında boğulurdu.[109] Elə bil ki, Andranik 1918-ci ildə Naxçıvanda elədiyi vəhşilikləri təkrarlayırdı.

Təbii ki, sərhədlərə yaxın rayonlarda baş verən vəhşiliklər Araz- türk hökumətini və xalqı narahat edir, bir gün də növbənin onlara çatacağını bilirdilər. Bundan sonra Araz-türk hökuməti Ermənistana verdiyi bir notada, Osmanlı dövlətinin qoyduğu sərhəddin silahlı ermənilər tərəfindən keçilməməsini tələb edir, əks-təqdirdə qan töküləcəyini bildirdi.[110] Ancaq əvvəlcə sərhəddi silahlı ermənilər deyil, onların bir çox mülki adamları keçirdilər. Müsəlmanlardan, ermənilərdən təşkil olunmuş heyətlərin hiylə və şirnikdirmə ilə regionun qabaqcıl-nüfuzlu şəxslərini öz tərəflərinə çəkməkdir. Türk-müsəlman əhaliyə Ermənistanın yaxşı niyyətli olması, sülh sevməsi haqqında təbliğat aparılır, Antanta dövlətlərinin regionunu Ermənistana verdiklərini bildirirdilər.[111] Bu məqsədlə İrəvandan Qəmərliyə iki müsəlman (Mir Cəfər ağa və Mir Babayev) və iki ermənidən ibarət bir heyət göndərildi. Araz-türk hökumətinin binasında səlahiyyətli şəxslərlə yığıncaq keçirildi. İbrahim bəyə görə, onun və müavinlərinin yığıncaq salonuna gəldikləri zaman heyət əsl məqsədlərini gizlətdi, hökumətlərinin onları Qəmərliyə, türklərlə ermənilərin necə münasibət saxladıqlarını öyrənmək üçün göndərdiklərini bildirdilər. Ancaq orada hökumət rəis

---

[105] ATASE.A.1.2.kls.82. D.304-210.F.7-1, 7-2; ATASE.İ/.2..Kls.56.. D.223-19.F.7-19, Dayı.Elviyeyi – Selası de Milli təşkilatı. s.85-86

[106] Ermənilərin vəhşilikləri xəbəri Naxçıvana çatdıqda əhali narahat olurdu. Əliyev. Qanlı günlərimiz. s.85

[107] ATASE, A.1.2, kls.82, D.304-210, F.6-5

[108] ATASE, A.1.2, kls.82, D.304-210, F.8

[109] Müsəlmanların bu acınacaqlı vəziyyəti Ordubaddan "Azərbaycan" qəzetinə göndərilən bir məktubla gözlər önünə gətirildi. Məktubda imza edən Hacıyev bölgəyə azərbaycanlı və gürcüstanlı nümayəndələr göndərilməsini və buradakı dəyişiklikləri görmələrini tələb edirdi. (Azərbaycan, 2 dekabr 1918; №62)

[110] ATASE, A.1.2. kls.65, D.254-101, F.21-2

[111] Bu təbliğatlar qısa bir zamanda təsirini göstərdi. Naxçıvanın Ermənistana verildiyi və ermənilərin hücum edərək rayonu ələ keçirəcəkləri xəbəri əhalidə böyük bir qorxu və kədər yaratdı. Bir çox adamlar İrana müraciət etdilər. Naxçıvanın nüfuzlu şəxsləri məscidə yığışdılar ki, bu məsələni müzakirə etsinlər. Nəticədə Şeyx Kərim Axundzadə. Mehdiqulu xan Diyarbəkir və Abbas ağa Kəngərlinski İrandakı Antanta dövlətləri nümayəndələrindən vəziyyəti soruşmaq üçün getdilər. Digər tərəfdən yerli hökumət pis təbliğatın nəticələrini aradan qaldırmağa çalışırdı. Bu məqsədlə ətrafa məktublar göndərildi. Həmin təbliğatları eşidən Xəlil bəy telefonla Araz-türk hökuməti rəisi ilə danışmış, ermənilərin sərhədi keçib-keçmədiklərini soruşmuşdu. Hökumət ancaq silahsız erməniləri sərhəddən buraxırdı. Əmirbəyin sözü qətidir. Silahlı gələnlər münaqişəyə səbəb olardı. (Əliyev. Qanlı günlərimiz s. 86,88)

Əmir bəy və digər səlahiyyətlilər onların niyyətini bilirdilər. Buna görə də, erməni heyətindəki müsəlmanlara ağır sözlər dedilər və nəticədə heyət İrəvana qayıtmağa məcbur oldu.

Erməni heyəti getdikdən sonra Araz-türk hökuməti tərəfindən böyük bir yığıncaq keçirildi. Hər tərəfdən nümayəndələr çağırıldı. Uzun müzakirələrdən sonra belə qərara gəldilər ki, ermənilər hücum edərlərsə, tək bir nəfər qalana qədər mübarizəni davam etdirəcəklər. Hökumət vətəni müdafiə etmək üçün mühüm qərarlar qəbul edir, bir sıra işlər görürdü, ermənilər də boş durmurdular. İbrahim bəyə görə onlar pulla əldə etdikləri mollalar, İrəvanlı xanlar və tacirlər vasitəsilə müsəlman xalqının fikirlərini yayındırmağa çalışırdılar. Bu cür təbliğatlar, xüsusilə, Uluxanlıda çox təsirli olmuşdu. Belə ki, sərhədlərdə lazımi tədbirlər görən Araz-türk hökuməti heyəti həm Uluxanlıda qarşılanmamış, həm də istədikləri yerinə yetirilməmişdi. İbrahim bəyin sədrliyi ilə olan heyət Uluxanlıya bağlı Keçili kəndində qalmışdı. Gecə heyətin yanına ətraf kəndlərdən adamlar və hərbi komandirlər gəldi. Bunların hamısı müharibə tərəfdarı deyildi. Uluxanlı nahiyə müdiri: Bu alçaqlar, ermənilərə söz vermişlər deyirdi. Nahiyə müdiri haqsız deyildi. Sabah axşam yenə həmin kənddə keçirilən ümumi bir yığıncaqda ətrafdan gələn bütün nümayəndələr, sərhəddən erməni əsgərlərin keçməsinin müharibəyə səbəb olacağını bildirdilər. Uluxanlı nümayəndələr bu fikirdə deyildilər.

Yığıncaq zamanı gələn Allahyar adlı birisi, nümayəndələrin müharibə tərəfdarı olduğunu görüncə icazə istəyərək çıxış etdi. Məqsədi onların fikirlərini yayındırmaq idi. Bir neçə gün əvvəl İrəvanda dəli Qazan adlı bir daşnağın evində qonaq olan Allahyar bəy sözlərinin inandırıcı olması üçün türk zabiti, kapitan, milliyyətcə ərəb olan Əbdülqədir bəyə istinad edirdi. Əbdülqədirin fikrincə, ermənilərlə boş yerə müharibə aparmaq lazım deyil. Çünki Antanta dövlətləri bölgəni Ermənistana vermişdir. Nümayəndələr bunu çox sərt qarşıladılar, inanmadılar. Ancaq bu səfər də Pənah xanın oğlu Əli xan meydana çıxdı. Əmir bəy və İbrahim bəy Əli xanı təsirsiz hala gətirmək istədilər, ancaq onun Maku xanın qohumu olduğunu bilərək niyyətlərindən əl çəkdilər. Ancaq Əli xanın xalq arasında mənfi təbliğatlarını eşidincə hərəkətə keçdilər.[112] Əli xanı Uluxanlıdan tutub gətirmək işi Əkbər bəy Əkbərova və Rəşid bəy Şəmsəddinova tapşırıldı. Onlar özləri ilə kifayət qədər süvari götürdülər, bir gün sonra Uluxanlıya getdilər. Onların Uluxanlıya çatmalarına bir saat qalmış İrəvan və Eçmiədzin tərəflərdən gələn 300 süvari və 400-500 piyada erməni əsgəri

---

[112] İbrahim bəyin xatirələrində Əli bəyin fəaliyyəti belə göstərilir. Kənd əhalisinə cibindəki pulu çıxarıb göstərmiş və demişdir:- Əgər ermənilər buralara gələrlərsə, siz də mənim kimi pul ilə oynayacaqsınız. Əgər müharibə etsəniz, ermənilər sizi qırar. Oğul-uşağımız ayaq altında qalar. Türklər axirətə getdilər, onların üzünü görməyəcəksiniz. (Cahangiroğlu. Xatirələri. 14). Əliyev göstərirdi ki, Uluxanlıya gələn İrəvanlı Pənah oğlu Əli xan və Mirbağır ağa camaatı məscidə yığıb, onlara erməni hökumətinin yaxşılıqlarından bəhs etmiş, Antanta dövlətlərinin Naxçıvanı Ermənistana verdiklərini demişdi. (Əliyev. Qanlı günlərimiz. s. 88)

bölgəni öz nəzarətləri altına aldılar.[113]

Ermənilər Araz-türk hökumətinə qarşı bir neçə tərəfdən hücum etmişdilər.[114]

Böyük strateji əhəmiyyəti olan Uluxanlı-Qəmərli xəttindən Şərura 10 dekabrda başlayan hücumu Albay Dulxanov idarə edirdi.[115] Digər tərəfdən də Osmanlı ərazisindəki ermənilərdən ibarət bir erməni qüvvəsi Dərələyəz tərəfdən müsəlman əhaliyə hücum edərək bir kəndi boşaltmış[116] və onların yerinə erməniləri yerləşdirmişdilər.[117] Eyni vaxtda ermənilərin liderlərindən Yapun ilə əməkdaşlığa girən Andranik də Xudafərin körpüsünə doğru hərəkətə başladı. Təbii ki, Andranik bu hərəkəti zamanı xarakterinə yaraşan hadisələr törədəcəkdi və törədirdi.

Onun zülmündən Naxçıvana qaçanlar vəhşiliklərini danışıb qurtara bilmirdilər.[118]

Uluxanlının ermənilərin əlinə keçməsi Qəmərlidə şok yaratdı. Təcili bir yığıncaq keçirildi. İrəvana iki nəfərlik heyət göndərilməsini qərara aldılar. Yaxınlaşan təhlükənin ciddiliyini başa düşən İbrahim bəy Qəmərlidəki mühüm materialları arabalarla Araz çayının qarşı tərəfinə daşıtdırdı. İrəvana gedən heyət o gecə geri döndü. Bundan sonra baş verən hadisələri İbrahim bəy xatirələrində belə təsvir etmişdir: “Hökumət rəisi Əmir bəy və Maliyyə naziri Bağır bəydən başqa bir kimsə qalmadı. Kimə müraciət etdik bir nəticəsi olmadı. İki gün sonra müavinim Emin bəy icazə istədi, Qarsa qaçdı. Ümumi katib Sami bəyə icazə verdim, məni qoyub getmədi. Mən səni buraxmam,- dedi. Biz Qəmərlidən çıxdıq. Araz-türk hökumətinin üzvləri çıxdıqdan bir saat sonra Əli xan erməniləri Qəmərliyə gətirdi.[119] Beləliklə,

---

[113] Cahangiroğlu. Xatirələri. 8-9. Əliyev. Qanlı günlərimiz, s. 88. İbrahim bəyə görə erməni əsgərlərini Uluxanlıya mollalar, tacirlər, xan və bəylər dəvət etmişdilər. Bu haqda “Azərbaycan” qəzetində də məlumata rast gəlirik. (17 iyul, 1919) Yazıda yazılmışdır: “Erməni cümhuriyyəti özlərinə yaxın olan müsəlman yerlərini xain və təcrübəsiz müsəlmanların köməyi ilə öz hökmranıığı altına alırdı. Məs.: İrəvan uyezdinin Zəngibasar bölgəsini İrəvan xanzadələrindən Əli xan Makinskinin vasitəsilə öz taxtı-tacı altına keçirdi. (M.B, Naxçıvan-Şərur məsələsi. I) Əli xan Makinski İbrahim bəyin qeyd etdiyi Əli xandır. s.18).

[114] Araz-türk hökumətinin sərhədləri daxilində türklərin əksəriyyət təşkil etməsinə ermənilər əhəmiyyət vermirdilər. Məhsuldar torpaqların əllərindən çıxması ölkə iqtisadiyyatına zərər verərdi. Kaçaznuniyə görə Ermənistan Şərur və Naxçıvansız yaşaya bilməzdi. (O.V.Kaçaznuni. Daşnaksütyun artıq heç nə edə bilməz. B., 1990, s.18)

[115] ATASE, A.1.2.kls. 65, D.254-101, F. 21-2. Tarix, fəisəfə, hüquq. Xəbərlər. Azərb. SSR. EA №- 4. B. 1984. s.114 Ə.Əliyev. Naxçıvanda sovet hakimiyyətinin qurulması uğrunda mübarizə.1920-1921-ci illər. B. 1960. s. 114. İbrahim bəy Naxçıvandan Qarsa qayıdarkən Bəyazidə gəlmiş və burada aldığı məlumata görə hücum edən ermənilərin lideri Papu adlı bir nəfərdir və dəstəsində 1200 nəfər var. (BOA.D. 4. l.UM. 20-18. 12-3. BOA. BEO. 341-351)

[116] Hovanisyan qeyd edir ki, ermənilər üçün bu əməliyyat çox əhəmiyyətli idi. Çünki İrəvandan Zəngəzura uzanan təhlükəli dağlıq yolu türklərin Naxçıvan ve Şərur yolunu tutduqları bir zamanda erməniləri nəzarət altına almışdır. Hovanisyan Ermənistan Respublikası. I, s., 279.

[117] ATASE A.1.2.kls. 66. D.304-210. F.6-5.

[118] ATASE A.1.2.kls. 66. D.254-101. F.21-3. Əliyevə görə Zəngəzurda Nejde adlı bir erməni lideri müsəlman əhaliyə zülm edirdi. (Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması.. s.11)

[119] Cahangiroğlu. Xatirələr. s.15. Əliyev qeyd edirdi ki, Qəmərliyə gələn erməni qüvvələri əhalini soyurdular. Şərurdakı həyəcan və qorxu Naxçıvanı da bürüdü və onlar şəhərlərini müdafiə etməyi qərara aldılar. (Əliyev.Qanlı günlərimiz. s.88-89).

hökumətin qeyri-rəsmi mərkəzi olan Qəmərli ermənilərin əlinə keçdi və hökumət üzvləri ilə müsəlman əhalisi də Naxçıvana doğru çəkilməyə başladılar.

Uluxanlını və Qəmərlini döyüşsüz ələ keçirən ermənilər[120] Dəvəliyə doğru irəliləyirdilər. Hovanisyana görə, məqsədləri Dəvəli ətrafındakı müsəlmanların nəzarəti altmda olan erməniləri qurtarmaq və ermənilərin cənuba getməsinə mane olan Böyük Vedi bölgəsini də təsirsiz hala gətirmək idi.[121] Ancaq ermənilər Vedidə gözləmədikləri bir müqavimətlə qarşılaşdılar. Abbasqulu Şadlinskinin komandanlığındakı türk müdafiəsi ermənilərə keçid vermirdi.[122]

Digər tərəfdən, Naxçıvana çəkilən Araz-türk hökumətinin səlahiyyətli nümayəndələri Dəvəli kəndində böyük bir qarma-qarışıqlıqla qarşılaşdılar. Kənd əhalisindən kürdlər yaxınlaşan erməni təhlükəsindən qurtulmaq üçün Dəvəlidən çıxmışdılar.[123] Qalan türklər isə yaxınlıqdakı digər kəndlərlə birləşərək müdafiə olunmağı qərara almışdılar. Kənd yaxınlığından gələn silah səsləri yenidən həyəcan, qorxu yaratmışdı. Əmir bəy və İbrahim bəy əhalini sakitləşdirərək kənddən çıxmışdılar. Yolların vəziyyəti dəhşətli idi. Erməni təhlükəsindən qaçan xalq yağış və palçıq içində Şərura doğru çəkilirdilər. Hökumət üzvlərinin ətrafına toplaşan adamlar nə edəcəklərini Əmir bəydən soruşurdular. Əhalinin belə narahat, həyəcanlı vəziyyətləri qarşısında çarəsiz qalan hökumət üzvləri Sədərəyə gəldilər. Səhərisi gün 40 araba bomba ilə yola çıxıb gecə Baş Noraşenə çatdılar. Hökumət üzvləri Noraşenə gəldikləri günün səhərisi yaxınlıqdakı Yengicəyə getdilər. Yengicə kəndinin sakinləri Məşədi Əli, Əsgər Ağa Həmzəzadə,[124] Kərbəlayı Məhəmməd bəy, Hacı Cabbar ağa ilə görüşdülər. Həmin gün ətrafa əmrlər göndərildi, Şərur-Dərələyəz bölgəsinə bağlı kəndlərin nümayəndələri Yengicəyə dəvət edildi. Səhərisi gün nümayəndələr gəldi və Yengicə stansiyasında bir yığıncaq keçirildi. Hökumət rəisi Əmir bəyin çıxışından sonra bir neçə nüfuzlu şəxslər də çıxış etdi. Nümayəndələr qəti qərara gəldilər ki,

---

[120]ATASE.A.1.2.kls.66. D.254-101.F.21-2.Cahangiroğlu. Xatirələr, s.15. Əliyev qeyd edirdi ki, müsəlman qüvvələrinin Qəmərliyə gedib, erməniləri məğlub etməsı Naxçıvana telefonla bildirmişdir. (Əiliyev.Qanlı günlərimiz, s.89). Digər mənbələr bunu isbatlamır.

[121]Hovanisyan. Ermənistan respublikası. I c. s.289

[122]M.B. Naxçıvan-Şərur məsələsi I, İzvestiya, 1989, №-4. S.l 18-120. Əli Əliyev. Qırmızı Tabur B., 1990, s.13.

[123] İbrahim bəy xatirələrində Türk ordusu bölgədən çıxmadan bölgəni öz nəzarəti altına alan 9-cu diviziya komandiri Rüşdü bəyi günahlandırır. Ona görə ki, Rüşdü bəy Dəvəlidəki müsəlmanlara hərbi ləvazimat vermədiyi halda, kürdlərə xeyli hərbi sursat vermişdi (Cahangiroğlu. Xatirələr, s.16).

[124] Məşədi Əli Əsgər Ağa Araz-türk hökuməti qurulmağa hazırltqlar görüldüyii zaman Əli Şəfiq bəy tərəfindən Yengicə nahiyəsinə müdir təyin edilmişdı. (ATASE, A.4\83İ4, kis.251, D.l-4, F.17)

Vətən müdafiə olunmalıdır. Çünki düşmən artıq Dəvəlini ələ keçirmişdi. Sədərəyə yaxınlaşırdılar.[125]

Təhlükə çox yaxınlaşdığından Araz-türk hökuməti silahlı qüvvələrin nizamlanmasına diqqəti artırdı. Artıq ermənilərin qabağından çəkiləcək yer yox idi. Döyüşmək lazım idi. Bu fikirdə olan Əmir bəy, İbrahim bəy və digər hökumət üzvləri artıq fəaliyyətə başladılar. İbrahim bəy 500 nəfərlik süvari alayı yaratmağa başladı. İlk mərhələdə 120 nəfər adını qeyd etdirdi. Ətrafdan gələn könüllülər üçün qalacaq yer müəyyənləşdi. Onlar Dəmirçi kəndinə yığışdılar, adlarını dəftərə yazdırdılar. Noraşendə də bu fəaliyyətlər davam etdirilirdi. İbrahim bəy Noraşen bəylərinden birini cəbhəyə mövqe komandiri təyin etdi və eyni vaxtda Naxçıvandan könüllü əsgər istədi. Kərim xan intriqaya başladı. Buna görə də həm telefona cavab vermədilər, həm də əsgər göndərmədilər.[126] Naxçıvandan kömək gəlməsə də, ətrafdakı bölgələrdən axın-axın könüllü qüvvələr gəlirdi və bunlardan rota, batalyon yaratmaq da mümkün idi.[127]

Bu qüvvələrin yaradılması zamanı bizim qarşılaşdığımız milli qüvvələrdən[128] - Nehrəm batalyonuna Kəblə Muxtar, Cəhri batalyonuna Kəblə Kərim, Dizə batalyonuna Qulubəy, Məhəmməd Rza bəy, Şərur batalyonuna Hüseyn Əliyev, Şərur-Sədərək kəndlərindəki birliklərə Həsən Şahverdioğlu, Yengicə qüvvələrinə Məşədi Ələsgərağa, Kərkər qüvvələrinə Möhsün Camalov, Baş Noraşen - Zeyvə-Düdəngə kənd qüvvələrinə Fətullah Hüseynov və Kərbəlayı Həbib bəy, Ordubad batalyonuna müəllim İbrahim Xəlil Axundov komandirlik edirdilər.[129] Göründüyü kimi, milli qüvvələr yerləşdiyi bölgələr, Ordubad istisna olmaqla, hamısı Naxçıvanın qərbində, yəni erməni hücumu qarşısında idilər.

Araz-türk hökuməti erməni hücumunun qarşısını almaq üçün bir sıra hərbi hissələr yaradarkən, sözsüz ki, böyük maddi sıxıntı içində idi. Köməyə ehtiyacı var idi. Türkiyədən yardım alınmasına imkan yox idi. İdarəçilik boşluğu olan İrandan da dəstək almaq mümkün deyildi. Yeganə, bəlkə də ən yaxşı köməyi ala biləcək region qanı bir, dili bir, insanları bir Azəbaycan idi. Hökumət də bunu təqdir etdiyindən, bölgənin fəal gənclərindən Paşa

---

125 Cahangiroğlu. Xatirələr. s.16-19. Şərurdakı həyəcan və qorxu Naxçıvanı da bürüdü və onlar şəhərlərini müdafiə etməyi qərara aldılar (Əliyev. Qanlı günlərimiz .s.88-89).

126 Naxçıvandan istənilən köməyə həmin gün müsbət cavab verilməmiş, səhərisi gün yardım edilməsi qərara alınmışdır. Ancaq yardımı Şərura düşmən gəldikdən sonra göndərmək mümkün olmuşdu (Əliyev. Qanlı günlərimiz. s.90).

127 Cahangiroğlu. Xatirələr. s.19

128 Milli qüvvələr - təşkilat yaratmaq bölməsində qeyd etdiyimiz kimi, daha əvvəllər yaradılmışdı.

129 Milli qüvvələr döyüşə öz silahları, atı, geyimləri və ərzağı ilə gedir, olduqları kəndlərdən kömək alacaqlar.(Əliyev. Araz-Türk Respublikası: Hacıyev İ. Qars və Araz Türk Respublikası. s.48-52)

Bayramov Azərbaycana kömək üçün göndərildi.[130] Paşa Bayramov Bakıya çatar-çatmaz fəaliyyətə başladı. İlk əvvəl Azərbaycan hökumətinin səlahiyyətli şəxsləri ilə görüşdü, Araz- türk hökumətinin istəklərini bildirdi. 24 dekabr 1918-ci ildə "Azərbaycan" qəzetində bir xəbər nəşr olundu. Bu xəbərdə Paşa Bayramovun Azərbaycan hökumətinə Araz vadisində ermənilərin elədikləri zülm və vəhşiliklərdən məlumat verməsi göstərilir və müsəlmanlara dəyən zərərin yerindəcə müəyyən edilməsi üçün Antanta dövlətlərinin və Azərbaycan nümayəndələrinin regiona gəlməsini istədiyi bildirilirdi.[131]

Paşa Bayramov da çox qeyrətli bir adam idi. Onun fəaliyyəti nəticəsində Bakıda yaşayan İrəvan vilayəti müsəlmanları "İrəvan vilayəti həmyerlilərin Yardımlaşma Cəmiyyəti" yaratdılar. Cəmiyyətə üzv seçkisi keçirildi. Fəaliyyətlər nəticəsində cəmiyyət Araz vadisindəki mühacirlərə pul yardımı etdi.[132] Azərbaycan hökuməti də Araz-türk hökumətinə qüvvələrin təşkili üçün 1.000.000 rubl göndərdi.[133] Ancaq Paşa Bayramov və Yusif bəy Qazıyev tərəfindən Tiflis yolu ilə gətirilən pul nə Araz-türk hökumətinin əlinə keçdi, nə də Naxçıvana çatdı.[134] Yardım pullarının regiona gətirilməməsi regiondakı mövcud sıxıntıların artmasına səbəb oldu.

Araz-türk hökuməti bir tərəfdən hərbi hissələrin təşkilini tamamlamağa çalıştr, bir tərəfdən maddi kömək axtarır, erməni təhlükəsi də getdikcə yaxınlaşırdı. Onlar Arazdəyənə qədər gəlmişdilər.[135] Dəhnə boğazına çatmamış ermənilər, müsəlmanlardan ibarət bir heyəti Araz-türk hökumətinə göndərdilər və təslim olmalarını təklif etdilər. Hökumətin qüruruna toxunan bu təklif rədd edildi.[136] Ermənilərin Sədərək yaxınlığındakı Arazdəyənə gəldiyini öyrənən Tağı bəy fəal nümayəndə kimi bölgəyə göndərildi. 2 gün

---

[130] M.B. Naxçıvan-Şərur məsələsi I. Naxçıvan-Şərur məsələsi III, "Azərbaycan", 22 iyul 1919, №-231. Bəzi bölgə nümayəndələrinin də Azərbaycanla əlaqə saxladığı məlumdur. 7 dekabr 1918-ci ildə ilk yığıncağını keçirən Azərbaycan parlamenti (Eraq Kürçüoğlu, 1918-1920 Türkiyə-Azərbaycan münasibətləri (dok. dissertasiyası nəşr olunmayıb) Ərzurum 1994), Ordubad əhalisi adından A.Hacıyev bir təbrik teleqramı göndərmiş və bütün Qafqaz müsəlmanlarının ümidgahı olduğunu bildirmişdir. (Hacıyev. Qars və Araz-türk respublikaları s.50).

[131] Azərbaycan, 24 dekabr 1918, №-72

[132] M.B. Naxçıvan-Şərur məsələsi III

[133] Azərb. Cüm. MDƏYTA f.894. 0.10. D.7, N2.

[134] Yardım pullarını Bakıdan alıb Tiflisə gələn Paşa Bayramovu və Yusif bəy Qadıyevi burada bir sürpriz gözləyirdi. Bu dövrdə (yanvar 1918). Araz-türk hökuməti devrilmiş, yerinə Naxçıvan Şura hökuməti qurulmuşdu. O zaman Tiflisdə olan Naxçıvan Şura hökumətinin xarici işlər komissarı Bəhram Xan Paşa Bayramovun pul gətirdiyini bilərək ondan pulu istədi. Bəhram xan deyirdi: Araz-türk hökuməti dağılmış, yerinə Naxçıvan Şura hökuməti qurulmuşdur. Özü də hökumətin üzvü olduğuna görə pul ona çatmalı idi və o, bu pulu Naxçıvana aparacaqdı. Bəhram xanın və Azərbaycan Parlamentinin üzvü Camalbəyovun intriqası nəticəsində pul Naxçıvana çatmadı, Bakıya geri qaytarıldı. (M.B. Naxçıvan-Şərur məsələsi III). Bakıdakı Yardımlaşma Cəmiyyəti boş durmadı və Naxçıvan, Şərur, Ordubad və Sürməlidəki vəziyyəti müəyyənləşdirmək üçün Mir Abbas Bağırovu regiona göndərdi. 20 fevralda Naxçıvana gələn Mir Abbas Bağırov Sürməli işğal olunduğundan bölgəyə girə bilmədi (Azərb. Cüm. MDƏEYTA f.894. 0.10. D.70. İL- 6. M.B. Naxçıvan-Şərur məsələsi III).

[135] Cahangiroğlu. Xatirələr. s.19

[136] Tağı Nağdəlizadə. Naxçıvan ətrafında. İstiqlal, 14 fevral, 1919, №-2

sonra Tağı bəydən gələn məlumat ürəkaçıcı deyildi. Yanındakı qüvvələrlə Arazdəyənin yaxınlarına gələn Tağı bəy, sayca üstün olan erməni birlikləri ilə döyüşmüş və məğlub olmuşdu.[137]

Məğlub olan Tağı bəy Dəhnəyə doğru çəkilərək burada müdafiə hazırlıqlarına başladı.[138] Məğlubiyyət xəbərini hökumətə bildirən Tağı bəy təcili qüvvə və hərbi ləvazimat istəyirdi. İbrahim bəy Tağı bəyin istəklərini həmin dəqiqə yerinə yetirmiş və ona görəcəyi işlər haqqında siyahı da vermişdi. Bu siyahıya görə, Dəhnə boğazında[139] müdafiə hazırlıqlarına başlanılacaq, istehkamlar tikiləcəkdi. Bundan başqa, əsgərin yemək, geymək, qalma və istilik ehtiyacları təmin edilir və sonra onlar cəbhəyə göndərilirdi. Ancaq Tağı bəy Dəhnədə qalmır. Dəmirçiyə gəlir. Qüvvələri burada qoyub Noraşenə gedir.[140]

Qarşılarında ciddi bir maneə görməyən erməni qüvvələri Şəruru (Şurur) ələ keçirmək üçün 14 dekabr 1918-ci ildə ümumi bir hücuma başladı.[141] Sərhəddəki dağ kəndlərindən Noraşenə hücum edildi. Əvvəlcə erməni hücumu müvəffəqiyyət qazandı, sonra dəf edildi və ermənilərə xeyli zərər verildi. Ancaq yeni hücumun Dəhnə boğazından olacağını bilən İbrahim bəy, təcili olaraq Tağı bəyi oraya göndərdi. Tağı bəy boğaza gələndə döyüş başlamışdı. Ondan əvvəl bölgədə olan Məşədi Əli Əsgər ağa[142] kəşfiyyata gələn erməni süvariləri ilə vuruşurdu. Ermənilərə gələn köməyin hesabına döyüş gücləndi. Məşədi Əli Əsgər ağa onları geri çəkilməyə məcbur etdi. Sonra ardına düşdülər. Müəyyən qədər qənimət əldə edən türk qüvvələri xeyli irəli gedərək, erməni topların atəş mənzilinə girdilər. Sonra nə oldusa, meydana gəldilər. Üç tərəfdən erməni hücumuna məruz qalan

---

137 Tağı bəyin qüvvələrinin məğlubiyyəti nəticəsində erməni qüvvələri Sədərəyə gəlmişdi. (İzvestiya, 1989, №4,s.118)

138 13 dekabr 1918-ci ildə Şərurdakı hökumət qüvvələrinə yardım göndərilməsi qərara alındığı kimi, İranın Təbriz və Xoy şəhərlərindəki səlahiyyətli dairələrindən də kömək istənildi və vəziyyət Antanta dövlətlərinin nümayəndələrinə bildirildi, onlardan bölgəyə nümayəndə göndərilməsi tələb oiundu (Əliyev. Qanlı günlərimiz. s.90). İrandan kömək istəməyin 2 cəhəti var idi: 1. Xəlil bəyin iştirakı ilə İrandan yardım istənməsi (ATASE A.1.2 . 151. D.254. 101 F.21-2), digəri İran tabeliyine keçmək təklifi idi. (Azərb. Cüm. MDƏYTA f.970. Op.l.D.42. 1.3-4). Tağıyeva, Nəsibzadə. 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri. s.66. Hacıyev. Qars və Araz-türk respublikaları. s.53

139 Dəhnə Boğazı Nax. MR ilə Türkiyə Respublikası arasında sərhəddin kəsişdiyi və hər iki tərəfdə gediş-gəlişi təmin edən Dilucu bölgəsinin 7-8 km şərqində yerləşir. Sürməli. Ovası deyə adlandırılan yer geniş və məhsuldar torpaqlardır. Dəhnə boğazında kiçilir, boğazın çıxış hissəsində yenə böyük sahə çevrilir. Müdafiə üçün çox əlverişli bir yer olan Dəhnə boğazı ilə Vəlidağ arasında Qurd qapısı və ya Qurd qapıları da adlanır.

140 Cahangiroğlu. Xatirələr s. 19,20,22

141 ATASE, A.1.2, kls.65, D.254-101, F.21-3, Əliyev. Qanlı günlərimiz s.90

142 Məşədi Əli Əsgər ağanın ermənilərə qarşı döyüşü Y.Şövqü paşa tərəfindən hərbi nazirliyə bildirilmiş, türk dairələrinin hadisələrdən xəbəri olmuşdu. (ATASE, A.1.2, kls.82, D.304-210, F.13, ATBD, №-85)

Araz-türk hökuməti qüvvələrı 20-yə qədər şəhid verərək geri çəkilməyə başladılar.[143]

Bu vaxt 18 türk əsgərlə Dəhnə boğazına gələn Araz-türk hökuməti hərbi naziri İbrahim bəy qorxulu bir mənzərə ilə qarşılaşdı. Yerli türk qüvvələri dəstə-dəstə düşmənin qarşısından geri çəkilirdi. İbrahim bəy onların dayanması üçün xəbərdarlıq etsə də, nəticəsi olmadı. Bununla əlaqədar yanındakı əsgərlərə cəbhədən qaçanları vurmağı əmr edərək irəliyə getdi. Ancaq cəbhədə vəziyyət pis idi. Yerli qüvvələr dəstə-dəstə cəbhəni tərk edir, Məşədi Əli Əsgər ağa Həmzəyev və Tağı bəy çarəsizlik içində qüvvələrini nizamlı bir şəkildə irəli toplaya bilmirdilər. İbrahim bəyin dediyinə görə, bir müddət sonra cəbhədə özü və 2 komandirdən başqa heç kim qalmamışdı[144] və türklərin geri çəkildiyini görən erməni qüvvələri silahları çiyinlərində Dəhnə boğazına girdilər.[145]

Dəhnə boğazını rahatlıqla keçən erməni qüvvələrinin qarşısında çətin keçidlər deyil, işğal edilməsi çox asan olan düz bir ovalıq dururdu. Onlar ilk həmlədə Dəmirçi Quşçu kəndini işğal etdilər.[146] Kənddən köçməyib qalan xalqla yaxşı rəftar edirdilər.[147] Ancaq silahları yığmaqla kifayətləndilər. Səhərisi günü yaxınlıqdakı Maxta kəndi də işğal edildi. Bu kənd əhalisi ilə də ermənilər çox yaxşı davrandılar. Xəlil bəyə görə, ermənilərin bu davranışı bir inandırma idi, (özlərini ədalətli göstərirdilər)[148] və Şərur, Şahtaxtı və Naxçıvana

---

[143] Əliyevə görə, Dəhnə döyüşü zamanı Naxçıvandan Arslan Həsən bəyin rəhbərliyi ilə 1 top və 500 əsgər göndərilmişdi. Bu döyüşlər türklər üçün məğlubiyyətlə nəticələndiyi vaxtda Şahtaxtına həmin qüvvələr yeni çatmışdılar və bir müddətdən sonra geri qayıtdılar (Əliyev. Qanlı günlərimiz. s. 90, 91, 93). İbrahim bəy bununla əlaqədar Xəlil bəyi və Kərim xanı günahlandırır: "intriqalardan əl çəkib, vaxtında qüvvə göndərsəydiniz, yerli qüvvələr Dəhnəni tərk etməzdilər",- deyirdi (Cahangiroğlu. Xatirələr. s.19).

[144] Naxçıvan Şura hökumətinin hərbi naziri Bəhram xan həmin hadisələr haqqında Tiflisə bu məlumatları vermişdi: Dəhnə və Vəlidağ təpələri arasında erməniləri dayandırmaq üçün başda Həmzəyev olmaqla min nəfərlik qüvvə göndərildi. Ermənilər mühasirəyə alındı, ancaq erməni komandiri hiylə işlədərək geri çəkildi, Naxçıvanlı qüvvələri düzənliyə çıxartdı. Həmzəyev bu hiyləni başa düşmədi, ermənilərin qaçdığını zənn etdi, qüvvələri onun ardınca göndərdi. Ermənilər birdən hücuma keçdilər. Naxçıvanlı əsgərlər döyüşə bilməyərək qaçdılar (Azərb. Cüm. MDEYTA. F.870. on.l. D.42. L.3-4, izvestiya, 1990, Ns2, 63).

[145] İbrahim bəy Dəhnə məğlubiyyətini vaxtında qüvvə göndərilməməsi ilə əlaqələndirirdi (Cahangiroğlu. Xatirələr. s.19, 22, 24). Xəlil bəy nizamsızlığa görə (ATASE-A, 1/v, kls 65, D-254-101, F.21-31), Əliyev isə sayca üstün olan müsəlmanları nizamsız, ciddi döyüşməmələri ilə əlaqələndirirdi. Dəhnə boğazındakı məğlubiyyət Naxçıvan və Şahbuz əhalisi arasında böyük bir qorxu yaratdı, xalq köçmək istəyirdi. Ancaq Naxçıvandakı qüvvə komandiri Kərim xanın fəaliyyətləri nəticəsində mühacirliyin qarşısı alındı, tədbirlər görülmüşdü (Əliyev Qanlı günlərimiz s.90-91).

[146] ATASE. A.1.2. kls.65. D.254-101. F.21-3. İbrahim bəy və Məşədi Əli Əsgər ağa Yengicəyə, Tağı bəy isə Noraşenə getmişdi. İbrahim bəyə görə yollar kəndlərini tərk etmiş adamlarla, onların heyvanları ilə dolmuşdu. Və o, burada çox dayana bilməmiş və Şahtaxtıya getmişdi (Cahangiroğlu. Xatirələr. s.24).

[147] Əliyevə görə, ermənilər Dəmirçi Quşçuya hücum etdikləri vaxt əhalinin soymuşdular, geri döndükləri vaxt kürdlər onları soymuşdular (Əliyev. Qanlı günlərimiz s.91). Bu sözlər Xəlil bəyin sözlərinə uymur. Xəlil bəy hadisələri çox yaxından izlədiyindən biz birinci fikrin doğruluğuna inanırdıq.

[148] Ermənilər müsəlmanları inandırmaq üçün müxtəlif yollara əl atırdılar. Uluxanlı stansiyasında bir erməni əsgəri müsəlmandan yemək almış, pulunu verməmişdi. Yerli türk erməni komandanlığına şikayət etmiş, erməni komandiri də hamının gözü qarşısında əsgəri döydürmüş və onun pulunu artıqlaması ilə vermişdi. Ermənilərin lehinə təbliğat aparanlar tez fəaliyyətə başlayaraq baxın, bu ədalət Osmanlılarda ola bilər? sualını vermişdilər (Cahangiroğlu. Xatirələr. s.21).

girməyi planlaşdırırdılar. Bunun üçün bir sıra təbliğatlar aparırdılar. [149] Dəmirçı Quşçuya gedən müsəlman heyətindən bir doktor 2 nəfər erməni komandiri tərəfindən inandırılmışdı. Erməni komandirindən aldığı pullara aldanan xain doktor[150] qısa bir müddətdə ətraf kəndlərin əhalisini vuruşmamaq üçün inandırmağa başladı.[151] Nisbətən müvəffəqiyyət əldə etdi. Bir sıra kəndlərdən əsgər toplanmadı.[152] Ermənilər Şərur düzündə xalqı inandırmaq üçün fəaliyyətə başlayıb, ədalətli idarəetmə nümunələri göstərməyə çalışırdı. Ancaq Uluxanlı, Qəmərli, İqdır və Sədərək bölgələrının, Vedinin bir sıra müsəlmanları çox ağır vəziyyətdə idilər. Ermənilər Uluxanlıdan hərəkətə başlayaraq rast gəldikləri türk əhaliyə zülm edirdilər. Müqavimət görmədən Qəmərliyə girən erməni qüvvələri qəsəbə əhalisinə işgəncələr verirdilər[153] və Sədərək əhalisinə də bunu təkrarladılar. Sədərək gənclərini naməlum tərəflərə göndərdikləri kimi, yaxınlıqdakı üç türk kəndini də tamamilə yandırdılar.[154] Ermənilərin vəhşi hərəkətləri böyük bir mühacirlik dalğası yaratdı. Ağır vəziyyətdə olan əhali İrana və Naxçıvana çəkilirdilər.[155]

Osmanlı rəsmi dairələri tərəfindən Araz-türk hökuməti torpaqlarında ermənilərin törətdikləri cinayətlər öyrənildi. Bəyazid yolu ilə Qarsa qayıdan İbrahim bəyin verdiyi məlumata görə: Naxçıvan tərəfə hücum edən ermənilər mühacir olan 1204 nəfəri öldürmüşlər. Vedibasarda da gənc qadınları ayırıb, 2000 nəfəri xırmanda öldürmüşlər, 40 qadın və uşağı bir yerə yığaraq yandırmışlar, bundan başqa, nüfuzlu şəxslərdən Seyid Həsənin ailəsinə təcavüz etmişdilər. Bu vəziyyəti görən əhali evlərini tərk edərək, soyuğa, aclığa düçar oldu.[156] İbrahim bəyin bu məlumatını Qarsdan hərbi Nazirə göndərilmiş teleqram da təsdiqləyir. 27 dekabr tarixli bir teleqramda göstərilirdi ki, Vedi və Sədərək ətrafında ermənilərin törətdikləri zülm və vəhşiliklər nəticəsində nüfuzlu şəxslərdən Əlizadə Dəmir bəy və Fəthi Bəyzadə Bədri bəy şəhid olmuşlar. Bu vəziyyətlə əlaqədar 500-600 narahat müsəlman Araz çayının sağ tərəfindəki Bəyazidə doğru çəkilirdi. İrəvan

[149] ATASE, A.1\2, kis.65, D.254-101, F.21-3

[150] Doktorun adı Hüseynqulu bəy Səfiyevdir. Onun erməni komandiri Dulxanov ilə arası çox yaxşı idi. O, erməni qüvvələri Naxçıvanı tutduqdan sonra məktublar göndərərək müsəlmanları inandırmaq üçün fəaliyyətə başlamışdı (Əliyev. Qanlı günlərimiz. s.96-97).

[151] Bir müddət sonra əhali belə adamlara nifrət etdi. Onlardan irəvanlı Abuş bəy Mirzəbağır Sükuf Naxçıvanda müsəlmanlar tərəfindən faciəli surətdə öldürüldü. (M.B.Naxçıvan-Şərur məsələsi I).

[152] Cahangiroğlu. Xatirələr.S. 24-25.Ə.Əliyev. Qanlı günlərimiz. s.93

[153] Qəmərliyə mühacir kimi gələn ermənilər əvvəlcə müsəlmanlardan dəstək gördülər. Ancaq ermənilər Qəmərlini işğal etdikdən sonra müsəlmanlarla pis davrandılar. Müsəlmanları evlərindən qovmağa başladılar. Müsəlmanların erməni dairələrinə şikayəti nəticəsiz qaldı. Onlar müsəlmanlara Siz türkləri bura gətirdiniz, sizi kəsmək lazımdır deyirdilər. (İzvestiya, 1989, №- 4, s. 118)

[154] ATASE, A.1/2, kls.65, D.254-101, F.21-2. Sədərəkdə iki müsəlman nümayəndəsi həmin dəqiqə edam edilmiş,60 yaxın adam həbs olunaraq, İrəvana göndərilmişdi. İzvestiya, 1989, №-4,s.1118

[155] Cahangiroğlu. Xatirələr.s.16-17. Ünivar. Bolşeviklərlə 8 ay. s.15

[156] BOA.Dn. (I- UM. 20-18, 12-3 BOA, VEO, 341351)

yaxınlığındakı müsəlmanlar da çətin vəziyyətdə idilər və dəhşətli zülmə məruz qalmışdılar. İbrahim bəyin məlumatına əsasən yuxarıda qeyd etdiyimiz və Yapun adlı erməni qulduru tərəfindən edilən soyqırımı bu teleqramda öz əksini tapmışdır. Y.Şövqü paşa soyqırımı ilə əlaqədar erməni hökuməti ilə əlaqəyə girdiyini göstərir, vəziyyətin İstanbulda olan Antanta nümayəndələrinə bildirilməsini və bu qış günündə davam edən vəhşiliklərə son qoyulmasını tələb edirdi.[157] Ancaq Antanta dövlətlərindən dəstək alan ermənilərin fəaliyyətlərinin dayandırılması mümkün deyildi.[158] Müdafiəsız türkü tutmuşdular, əks-müqavimət görmədən buraxmaları mümkün deyildi.

Erməni hücumları nəticəsində Araz çayının sol sahilindəki Araz-türk hökumətinin torpaqları bir-bir əldən çıxır, əhali zülmə məruz qalırdı. Araz çayının sağ tərəfində yerləşən, hökumətin rəsmi mərkəzi sayılan İqdırda həyəcanlı günlər yaşanırdı. Erməni qüvvələri Uluxanlı-Qəmərli xətti üzrə Naxçıvana doğru irəliləyərkən, min nəfərlik 8-ci erməni piyadaları da Sürməliyə hücum etdi.[159] Digər rayonlarda olduğu kimi, burada da bir müsəlman ermənilərin qabağında gedirdi. Məşhədi Rəşa bəy Topçubaşev adlı xainin əməlləri nəticəsində, ermənilər Sürməlini işğal etdilər.[160] Araz-türk hökumətinin mərkəzi İqdırın və Sürməli ovlağının qərbində yerləşən Qulp (Duzluca) ermənilərin əlinə keçdi.[161]

Bu dəqiqələrdən etibarən İqdırda və ətrafında qanlı günlər başlandı. İqdırdan Bəyazidə qaçan Əli Əkbər bəy və üç yoldaşı erməni zülmkarlığını Ərzuruma bildirdilər. Ərzurum valisi vəziyyəti Daxili İşlər Nazirliyinə və IX Ordu komandanlığına bildirdi.[162] 26 dekabrda Y.Şövqü paşa İqdırdakı zülmləri teleqramla hərbi nazirliyə bildirmişdi: Osmanlı əsgərlər tərəfindən İqdır boşaldıldıqdan sonra geri dönən ermənilər zülmə başladılar. İqdır qəsəbəsində müsəlman gənclərini yığır, məchul yerlərə göndərir, müsəlman əhaliyə mənsub ərzağı zorla alırdılar. Oğul-uşağı qarlar üzərinə qoyurdular. Osmanlı sərhədləri daxilinə qaçan müsəlmanlar Osmanlı hökumətindən kömək istəyirdilər.[163] Müsəlman əhalisi çıxılmaz bır vəziyyətdə idi. Osmanlı hökuməti Antanta dövlətləri nümayəndələri ilə danışıqlar apararaq zülmə

---

[157] ATASE, A.1\2, D.304-210, F.12-1, ATASE.A, 1\2, kls.63, D.244-17, F.17. BOA.BEO. 341149. Dokument (Ankara, 1986) s.№- 2038. ATBD. Ns 85. (oktyabr 1985), s. №-2038

[158] Türk dairələri tərəfindən müəyyən edilmişdi ki, ermənilər həmin vaxtda Xınalı Qaraxaçdakı qərargahlarına yığdıqları 7.600 müsəlmanı yandırmış, 360 gənc qadını özləri ilə aparmışlar.

[159] Hovanisyan. Ermənistan Respublikası. c 1, s.223.

[160] Bölgənin türk əhalisi bu adamın xəyanətini başa düşmüş və onu öldürmüşlər. (M.B. Naxçıvan-Şərur məsələsi).

[161] Hovanisyana görə İqdır və Qulp bölgəsindəki strateji yerlərə qarnizon yerləşdirilmişdir. Milli Müdafiə Naziri Haqverdiyan bölgəni qorumaq üçün artıq hissə verə bilmirdi. Hovanisyan.Ermənistan Respublikası. c 1, s.229.

[162] BOA. DN. I- IM. 20-17, 12-47

[163] ATASE, A.01.2, kls.82, D.304-210, F-10. Y.Şövqü paşanın bu teleqramı hərbi nazir tərəfindən Xarici İşlər Nazirliyinə təqdim olundu, Antanta dövlətləri qarşısında məsələ qaldırılması və zülmə son qoyulması xahiş edildi. (Dokument, №-01, Ş Ankara, 1986) s.2039. ATBD. №-85 (oktyabr, 1985) s. №-2039

son qoymaq istəyirdilər.[164] Belə bir təşəbbüsün nəticə verməyəcəyi məlum idi və doğrudan da, nəticə vermədi. Sonra görəcəyik ki, Antanta dövlətləri ancaq türklər qələbə qazananda müdaxilə edəcəklər.

Ermənilərin Dəhnə boğazına və Şərura hücumları davam edərkən, müsəlman əhali axın-axın İrana qaçmaqdaydı.[165] İrana getmək üçün Araz çayı üzərindən keçməyə məcbur olan qaçqınların bir hissəsi çayın azğın sularında yox olmuşdular.[166] Beləcə, erməni zülmündən qurtaranların bir hissəsi də Arazın sularına qarışdı. Erməni hücumu türk-müsəlman əhali üçün çox ağır oldu. Belə ki, bu dövrdə İqdır, Qəmərli, Dərələyəz, Uluxanlıda yaşayan adamların bir hissəsi yurdlarından qovulmuş, Qəmərlidə 48, Vedibasarda 18, Dərələyəzdə 74, Şərurda 7 kənd yandırılmış, əhaliyə işgəncə verilmişdi.[167]

Araz-türk hökumətinin sərhədləri daxilində qara günlər yaşanırdı. Azərbaycan hökuməti hadisələr haqqında Paşa Bayramovun verdiyi məlumatlardan başqa bir şey bilmirdi. Ancaq Naxçıvana nisbətən yaxın olan Cəbrayıl əhalisi soydaşlarının başına gələnləri 28 dekabrda Azərbaycan Daxili İşlər Nazirliyinə bir teleqramla bildirdilər. 10 yanvarda bu teleqramın mətni Azərbaycan qəzetində dərc olundu. Bu mətndə göstərilmişdir: Erməni qüvvələri Sədərəyə girmiş, 8 müsəlman kəndini mühasirəyə almış, əhali də İrana qaçmışdır. Araz-türk hökumətinin sərhədləri içərisində baş verən hadisələrin müzakirəsi 8 yanvar 1919-cu ildə Azərbaycan Parlamentinin gündəliyinə daxil edildi. Bölgə nümayəndələri Azərbaycan Parlamentinə erməni zülmlərinə aid ərizə ilə müraciət etmişdilər.[168] İclasın sonunda bu zülmlərə son qoymaq üçün tədbir görülməsi təklif edildi.

Ermənilər yavaş-yavaş Şərurun kəndlərini işğal edir, müsəlman əhali arasında əks-təbliğat aparırdı. Araz-türk hökumətinin səlahiyyətli şəxsləri də böyük sarsıntıya baxmayaraq, regionun müdafiəsi üçün bir sıra təşəbbüslərə əl atdılar. Bu məqsədlə hökumət rəisi Əmir bəy, hərbi nazir İbrahim bəy, komandirlərdən Tağı bəy Şahtaxtıya yığışdılar. İbrahim bəy Naxçıvana zəng edib, kömək istədi. 2 gün sonra Naxçıvandan Kərbəlayı xanın[169] komandanlığı ilə 400 nəfərlik bir qüvvə gəldi. Naxçıvana yenidən zəng edildi, ancaq cavab alınmadı.[170] Buna görə Şərurda işlərin necə getdiyini yaxından

---

[164] BOA. BEO. 341149

[165] Univar. Bölşeviklərlə 8 ay s.15. İrana qaçanlar içərisində Naxçıvanın varlı ailələri də var idi. (Əliyev. Qanlı günlərimiz. s. 94)

[166] Nağdəlizadə. Naxçıvan ətrafında. Hacıyev. Qars və Araz-türk respublikaları. s.51, M.B.Naxçıvan. Şərur məsələsi.

[167] Əliyev. Araz-türk respublikası.

[168] Hacıyev Azərbaycan parlamentində müzakirə edilən bu məsələni Araz-türk hökumətinin parlament üzvlərinin təqdim etdiklərini yazırdı (Hacıyev. Qars və Araz-türk respublikaları.s. 51). Əlimizdə hökumətin parlamenti olduğuna aid bir sənəd yoxdur. Təxminən, bu, belə olmalı idi. Hökumət yığıncaq keçirdiyi zaman ətrafdan nümayəndələr çağırırdı. Bu cəhətdən ona parlament demək mümkündür.

[169] Kərbəlayı Naxçıvanın nüfuzlu şəxslərindən Cəfərqulu xanın oğlu idi. Xalq tərəfindən sevilən bu şəxs rus ordusunda xidmət etmişdir. (Cahangiroğlu. Xatirələr. s.8).

[170] Bu vaxt Naxçıvan ilə Şahtaxtı arasında telefon əlaqəsi kəsilmişdir. Təmir üçün telefonçu Qurban Əli Abbasov Şahtaxtıya yola düşmüşdür (Əliyev. Qanlı günlərimiz, s. 93).

görmək üçün İbrahim bəy, Kərbəlayı xan və Məşhədi Əli Əsgər ağa bölgənin mərkəzi olan Noraşenə getdilər. Ancaq buradakı vəziyyət ürək açan deyildi. Yuxarıda qeyd etdiyimiz kimi, erməni təbliğatı xalqa xeyli təsir etmişdi və bir çox kəndlər əsgər verməkdən çəkinirdilər. İbrahim bəyin cəhdləri bir nəticə vermədi. Yenidən Şahtaxtıya getmək qərara alındı. Burada Naxçıvandan qüvvə almağı fikirləşirdilər. İbrahim bəyə görə, artıq bərabər hərəkət edəcək bir kimsə qalmamışdı. Məşhədi Əli Əsgər ağa bəylərdən çəkinirdi. Şahtaxtıya gələn İbrahim bəy, Naxçıvan ilə teleqram və telefon əlaqəsi yaratmağa çalışsa da, nəticəsi olmadı.[171] Nəticədə Qarsa qayıtmaq üçün Şahtaxtından ayrıldı.[172] Maku-Bəyazid,[173] Qarakösə, Kağızman yolu ilə Qarsa qayıtdı.[174]

İbrahim bəy Şahtaxtıdan çıxdı, Qarsa gedərkən Şərur yaxınlığındakı erməni hücumları dayanmışdı.[175] Elə o vaxtlarda Loridə erməni gürcü münaqişəsi başlamışdı.[176] Erməni komandanlığının Şərur türkləri ilə döyüşü nəzərdə tuta bilmirdi.[177] Ermənilər üçün iki cəbhədə birdən vuruşmaq çətin idi.

## 5. Araz-Türk hökumətinin süqutu

Erməni qüvvələri Dəhnə boğazını keçib Şərurun mərkəzində yerləşən Noraşenə yaxınlaşdığı vaxtlarda Araz-türk hökuməti də son günlərini yaşayırdı.

---

[171] İbrahim bəyin Naxçıvanla əlaqə yaratmağa çalışdığı vaxtda şəhərdə həyəcanlı anlar yaşanırdı. Xoydakı İran komandiri göndərdiyi məktubda bir sıra suallar soruşduqdan sonra yaxınlarda 2 top, 2 pulemyot və silahlanmış 500 əsgər ilə Maku yolu ilə Şahtaxtına gələcəyinə, ancaq hərbi xərc üçün 2.000 qızıl lirənin hazır edilməsini tapşırırdı. Bununla əlaqədar Naxçıvan yerli hökumət rəisi Mirzə Nəsrullah bəy əhalini məscidə çağırıb, istənilən pulu toplamaq üçün fikirlərini öyrənmək istədi. Elə bu vaxt Şahtaxtıdan hərbi nazir yavəri Davudun zəngi ortalığı qarışdırdı. Davud Kərim xana bildirirdi ki, Naxçıvan qüvvələri geri qayıtdılar, çünki, şərurlular döyüşmək istəməyiblər, ermənilərə təslim olublar. Xəlil bəy qüvvələri ilə Şahtaxtıya gələcək. Xəbərin xalq arasında yayılması qorxuya səbəb oldu, əhalinin müəyyən hissəsi Naxçıvan şəhərinədək qaçmağa başladı. Şəhərdə meydana gələn qarışıqlıqla əlaqədar Mirzə Nəsrullah bəy yerli hökumət rəisi vəzifəsindən ayrıldı, yerinə Hacı Məşhədi Bağırzadə Hacı Hüseyn Əli Qurbanov təyin olundu. (Əliyev. Qanlı günlərimiz. s. 93-94.)

[172] Cahangiroğlu. Xatirələr. s. 24-26. İbrahim bəyin Qarsa qayıtmasına bu təsirlərin böyük rolu olmuşdur. 1). Araz- türk hökumətinin dağılmaq üzrə olması və İbrahim bəyin bölgədə tək qalması; 2) Qars müsəlman şura rəisi İbrahim bəyin Qarsda çox işlər olduğunu fikirləşməsi; 3) Qarsdan İbrahim bəyin geri çağırılması.

[173] İbrahim bəyin Bəyazidə gəldiyini 23 dekabr 1918-ci ildə Ərzurum valiliyinə, 25 dekabrda Daxili İşlər Nazirliyinə bildirdilər. (BOA. DN. 1-UM 20-18, 12-13 BOA, BEO. 341351)

[174] İbrahim bəy "Xatirələr"ində Şahtaxtıdan çıxdıqdan sonra 18 gündə Qarsa çatdığını yazırdı. (Cahangiroğlu. Xatirələr. s.26-31) Qarsa qayıdan İbrahim bəy bölgədə türklərin qalması üçün mühüm işlər görməyə başladı. Ancaq digər Cənubi Qafqaz hökumətinin üzvləri kimi Maltaya sürgün edildi. Maltadan qayıtdıqdan sonra 1922-ci ildə bələdiyyə sədri oldu. İbrahim bəy bir sıra idarəetmə və siyasi vəzifələrdə çalışdı. (S.Ağaoğlu. Babamın arkadaşları. İst., 1969, s. 156-161) və 1948-ci ildə vəfat etdi. (Gökdəmir. Qafqaz hökuməti.s. 225).

[175] Xəlil bəy erməni hücumunun dayanmasına çox əhəmiyyət yerməmişdir. ATASE A.11.2 kls.65.D.254101. F.2-3. Onlar Şahtaxtı və Şərur əhalisinin köçmələrini gözləmir, zəhmət çəkmədən bölgəni ələ keçirdilər. (ATASE A. ½, kls 65. D.254-101, F.21-3).

[176] В.Гурко. Армянский вопрос. Б., 1950, с.27

[177] Hovanısyan. Ermənistan Respublikası. c. I., s.290

Erməni hücumları nəticəsində Qəmərlidən Naxçıvana gələn[178] Araz-türk hökumətinin bir sıra üzvləri çıxıb getmiş[179] və əhali arasında nüfuzdan düşmüşdülər.[180]

İbrahim bəyin dediyinə görə hələ Qəmərliyə erməni hücumu olmamışdan əvvəl, orada özündən, Əmir bəy və Bağır bəydən başqa bir kimsə qalmamışdı.[181] Naxçıvana gəldikdən sonra da vəziyyət dəyişmədi. Şərur bölgəsinin 2 mühüm şəxsini – Tağı bəyi və Məşhədi Əli Əsgər ağanı yanlarına alan Əmir bəy və İbrahim bəy mübarizəni davam etdirirdilər. Mənbələrdən göründüyü kimi, digər hökumət üzvləri ortada yox idi. Belə görünür ki, hökumət zəifləmiş, yalnız Əmir bəylə İbrahim bəyin şəxsi nüfuz və təşəbbüsləri sayəsində ayaq üstə durmuşdu. Hökumətin zəifləməsi, Naxçıvandakı yerli hökumətin və bilavasitə hərbi gücü əllərinə alan xanların qüvvətlənməsinə, nüfuzlarının artmasına səbəb oldu. İ.Hacıyevin fikrinə görə, Araz-türk hökumətində yeri olmayan və olmaları istənilməyən bu şəxslər indi erməni qələbələrini bir fürsət sayır və bundan istifadə edirdilər.[182] Təbii ki, məqsədləri iqtidara gəlməkdi.

Sədərək məğlubiyyətindən sonra (Naxçıvan yerli hökuməti) bilavasitə xanlar niyyətlərini biruzə verdilər. Araz-türk hökumətinin xəbəri olmadan onlar İrandan yardım istədikləri kimi, Naxçıvana gələn erməni nümayəndələri ilə görüşmək üçün də özlərini səlahiyyətli hesab edirdilər.[183] Dəhnə döyüşlərində hərbi nazir İbrahim bəyin istədiyi qüvvələri vaxtında göndərməmələri və telefonlara cavab verməmələri[184] də Naxçıvanın nüfuzlu şəxslərinin hökumətə etibar etmədiklərini göstərirdi. Dəhnə məğlubiyyəti və nəticədə ermənilərin Şərur bölgəsinə gəlməsi, əhalinin erməni təbliğatına inanaraq əsgər vermək istəməməsi hökumətin nüfuzunu aşağı salmış, Naxçıvan xan və bəyləri isə xeyli güclənmişdi. Bu güclənmə elə bir güclənmə idi ki, artıq Yengicə nahiyəsi müdiri Araz-türk hökumətinin səlahiyyətli şəxsləri ilə ermənilərə qarşı can-başla mübarizə edən Əli Əsgər ağa belə bəylərdən çəkinməyə, qorxmağa başladı.[185] Belə görünür ki, o dövrdə hökumət simvolik bir məna daşıyırdı. Təşkilatı tamam dağılmışdı. Cahangiroğlu İbrahim bəy də bu vəziyyəti yaxşı başa düşmüşdü, buna görə də bölgədə çox qalmadı və Qarsa getmək üçün Şahtaxtından çıxdı. İbrahim bəyin Naxçıvandan

---

[178] Azərb. Cüm. MDƏYTA. F.970. Op.1.D.42. L.3-4. c.s. 1990, №2..63. Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s.66

[179] M.B. Naxçıvan-Şərur məsələsi II. Azərb. 20 iyun, 1919, №-229

[180] M.B. Naxçıvan-Şərur məsələsi I

[181] Cahangiroğlu. Xatirələr. s.15

[182] Hacıyev. Qars və Araz-türk respublikaları. s.53

[183] Əliyev. Qanlı günlərimiz. s. 89-90

[184] Cahangiroğlu. Xatirələr.S. 19,23-25. Əliyev. Qanlı günlərimiz. s. 90, 93

[185] Cahangiroğlu. Xatirələr. s. 25

çıxması nəticəsində Araz-türk hökuməti ən böyük dayağını, təşkilatçısını itirmiş oldu. Artıq orada rəis Əmir bəydən başqa bir kimsə qalmadığından Araz-türk hökuməti felən süqut etdi.[186] Beləliklə adına bir türk kəlməsini birləşdirən və bu cəhətdən böyük əhəmiyyət daşıyan Araz-türk hökuməti mühüm hadisələrlə tarixdə öz yerini tutdu. Artıq Naxçıvan bölgəsində yeni qüvvələr, başqa-başqa siyasi quruluşlar meydana çıxacaqdı.

## 6. Araz-Türk hökumətinin Qars Müsəlman Şurası hökumətinə birləşməsi məsələsi

21 oktyabr 1918-ci il tarixli əmri ilə türk ordusu Batumi müqaviləsi ilə alınan yerləri boşaltmağa hazırlanırdı. Bölgəni tərk edən birliklərin özləri ilə lazımi materialları Elviyeyi-Selaseyə aparması nəzərdə tutuldu. Ancaq Mudros sazişi imzalandıqdan sonra vəziyyət dəyişməyə başladı. Antanta dövlətləri Elviyeyi-Selasenin də boşaldılmasını istəyirdilər.[187] Araz vadisində başlayan həyəcan Elviyeyi-Selaseni də bürüdü. Əhali çox yaxşı bilirdi ki, türk ordusu buranı tərk etdikdən sonra erməni və gürcülərlə baş-başa qalacaqlar. Bu məqsədlə, IX Ordu komandiri Y.Şövqü paşadan və Qars valisi Hilmi bəydən dəstək alan Piroğlu Fəxrəddin bəy və yoldaşları Qarsda bir Müsəlman Şurası yaratdılar.[188] 15 noyabr 1918-ci ildə Qars Müsəlman Şurası Qarsda ümumi bir konfrans keçirmək məqsədilə fəaliyyətə başladı. Batumidən Ordubada qədər olan bölgələrdən nümayəndələr çağrıldı. Araz-türk hökumətindən[189] bu şəxslər çağrılmışdı: Ordubaddan bələdiyyə rəisi Rza bəy, Məşhədi Abbas Ramazanov; Naxçıvandan Məşhədi Abbas Bayramzadə, Hacı Əbdülabbas Şeyxzadə, Şərurun Yengicə nahiyəsindən[190] Əli Əsgər Ağa Həmzəzadə, Tağı bəy Səfizadə, İqdırdan Rəşid bəy Şəmsəddinov, Şamil bəy Parnavudlu, Qəmərlidən Kərbəlayı Xudayar, Uluxanlının

---

[186] Azərb. Cüm. MDƏYTA. F.894. Op.lO. D.70. L.3. Azərb. Cüm. MDƏYTA. F.970. Op.l. D.42 L.3-4. M.B Naxçıvan-Şərur məsələsi. II c., 1990, s. .63. Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. S.66. Bəzi Azərbaycan müəllifləri Araz-türk hökumətinin dağılmasını, sadəcə hökumət dəyişikliyi kimi göstərir, bəziləri də heç bir şey olmamış kimi, yəni hökumətin fəaliyyətini davam etdirdiyini qeyd edirlər. (Nağdəlizadə. Naxçıvan ətrafında, Fazil Rəhmanzadə. Əsrə bərabər gecə. B., 1991, s.132. T.Köçərli. Azərbaycan Respublikası və Azərbaycanın ərazi bütövlüyü məsələsi. Kommunist, 30 sentyabr 1990, №-226 (21294). Hüseynzadə. İbrət dərsləri. Şərq qapısı, 3 aprel 1993). Yuxarıda göstərdiyimiz kimi, hökumət yıxılmşdı. Məs.: Tiflisdə Araz-türk hökuməti tərəfindən Azərbaycana göndərilmiş Paşa Bayramov ilə qarşılaşan Naxçıvan Şura hökumətinin Xarici İşlər Naziri Bəhram xan ona Araz-türk hökumətinin yıxıldığını, yerində onun mənsub olduğu hökumətin qurulduğunu bildirmişdir. (M.B. Naxçıvan-Şərur məsələsi. III).

[187] Mudros müqaviləsi və tətbiqi. s.229. Gökdəmir. Qafqaz hökuməti s.63

[188] Fəxrəddin Erdoğan. Türk ellərində xatirələrim. İstanbul, 1954., s. 166. Fəxrəddin. Qars tarixi. İstanbul, 1953, s.556. Qothayd Jeask. Qurtuluş müharibəsi ilə əlaqədar İngilis sənədləri. Ankara, 1991, s. 43. Gökdəmir. Qafqaz hökuməti.s. 63

[189] 15 noyabrda Qarsda keçirilən konfransa nümayəndələr 1918-ci ildən dəvət olunurdu. Bu vaxt Araz-türk hökuməti qurulmamışdı. Ancaq biz sərhəd bilinsin deyə bu ifadəni işlətmişik.

[190] Sənəddə Yengicə kəndi göstərilirdi. O dövrdə isə Yengicə nahiyə idi. Məşhədi Əli Əsgər ağa oraya nahiyə müdiri təyin olunmuşdu. (ATASE. A.4.8314. kis.251. D.l-4. F.35-3. 35-4)

Neçili kəndindən Hacı Məhəmmədoğlu Məhəmmədzadə, Mirzə Cabbar, Hacı Rəcəb.[191]

15 noyabrda digər bölgələrdən də gələn nümayəndələrin iştirakı ilə I Qars konfransı keçirildi.[192] Nəticədə Piroğlu Məhəmməd bəyin sədrliyi ilə 8 nəfərlik müvəqqəti heyət, Kəpənəkçi Emin ağanın sədrliyi ilə Qars Müsəlman Şurası Ümumi Mərkəzi yaradılmışdı. 30 noyabrda keçiriləcək II Qars Konfransı üçün bu təşkilatlar ətrafa məlumatlar göndərməyə başladı. Bu çağırışlara əsasən Ordubad, Naxçıvan, Qəmərli, Sürməli, Sərdarabad, Şərqi Şürəgəl, Axılkələk, Axıska, Qars, Ərdahan, Batumi bölgə və qəsəbələrindən gələn nümayəndələrin iştirakı ilə 11 Qars Konfransı 30 noyabr 1918-ci ildə açıldı. Cahangiroğlu İbrahim bəy sədr seçildi. Konfrans öz işini qutardı. Nəticədə "Qars Müsəlman Şurası" hökuməti quruldu və rəis Cahangiroğlu İbrahim bəy seçildi. Sərhədləri Naxçıvandan Batumiyə qədər uzanırdı.[193] Bu məlumata əsasən bəzi müəlliflər konfransda Araz-türk hökuməti ilə Axıska müvəqqəti hökumətinin "Qars Müsəlman Şurası" ilə birləşdiyini göstərirlər.[194] "Azərbaycan" qəzetinin 22 aprel 1919-cu il tarixli sayında "Qars Müsəlman Şurasının" sərhədlərindən bəhs edilərək, Araz-türk hökumətinə aid sahələr eyni ilə verilmişdir.[195] Ancaq Atabəyə görə Qafqaz Müsəlman Şurası sərhədlərinə Batumi, Qars, Artvin, Oltu, Axıska, Sürməli (Tuzluca-İqdır-Aralıq) Axılkələk ilə Eçmiədzinin qərb bölgələri daxildir.[196] Naxçıvan və Şərur onun sərhədlərinə daxil edilməmişdir.

17-18 yanvar 1919-cu ildə III Qafqaz konfransı keçirildi. Həmin gecə qəbul edilən qərara əsasən sədr Cahangiroğlu İbrahim bəy olmaqla Müvəqqəti Milli Cənubi-Qərbi Qafqaz hökuməti təşkil edildi.[197] Axıska, Axılkələk, Ərdahan, Oltu, Kağızman, İqdır, Şavşat, Qəmərli, Naxçıvan,

---

[191] 15 noyabrda cümə günü dəvət olunanlar Qars Müsəlman Millətlər Şurasında olmalı idilər. (ATASE, A.4\8314.kls.251, D.l-4, F.13. Dayan. Elviyeyi-Selasedə milli təşkilatlanma s.92).

[192] I Qars konfransının 14 noyabrda keçirildiyini deyənlər də var. (Fəxrəddin Kırzıoğlu. Milli mübarizədə Qars, I.kitab, sənədlər, İstanbul, .1960, s.8. Gökdəmir Qafqaz hökuməti, s.65). Ancaq bütün dəvətnamələrdə 15 noyabrda keçiriləcəyi qeyd olunmuşdur.

[193] Erdoğan.Türk ellərində xatirələrim, s.169. Qırzıoğlu. Milli mübarizədə Qars. s.8-9, Kırzıoğlu. Qars tarixi. I s.556- 557. Sami Onal. Milli mübarizədə oldu. 1968, s.41. Hacıyev. Qars və Araz-türk respublikaları.s..16. Fəxrəddin Qırzıoğlu. Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti (Qars Milli Şura hökuməti) Türk Kültürü, №-72 (oktyabr, 1968), s.957-958

[194] Gökdəmir. Qafqaz hökuməti. s.70. Dayı Elviyeyi-Selasede Milli təşkilatlanma s.94. Nəsibzadə. Azərbaycan Demokratik Respublikası .B., 1990. s.50. Nilgün. Erdaş Milli mübarizə dövründə Qafqaz Cümhuriyyətləri ilə münasibətlər (1917-1921), Ankara, 1994, s.59

[195] Azərbaycan, 22 aprel 1919,№-163

[196] Sərvər Atabəy, 1919, s.5.

[197] Gökdəmir. Qafqaz hökuməti. s.90. Dayt Elviyeyi-Selaseydə Milli təşkilatlanma.s.99. Kırzıoğlu. Milli mübarizədə Qars. s.10-11. 18-19 Hovanisyan. Ermənistan respublikası. I c., s.205.Erdaş Qafqaz respubiikalası ilə münasibətlər. s.62. Qırzıoğlu. Cənub-Qərbi Qafqaz Respublikaları. s.961-964

Ordubad, Qars, Batumi bu hökumətin tərkibinə daxildir.[198] Yəni Milli Şuranın sərhədləri eyni ilə mühafizə edilirdi.

Yuxarıda qeyd etdiyimiz məlumatdan aydın olur ki, Osmanlı ordusu 1914-cü il sərhədlərinə çəkilmək üçün hazırlıqlar gördüyü zaman regiondakı müsəlmanların müştərək narahatçılıqları onları yaxınlaşdırmağa başlamışdı. Ancaq bu yaxınlaşma nə dərəcədə idi? Buna ciddi diqqət yetirmək lazımdır. Keçmiş İrəvan quberniyasında yaşayan müsəlmanlarla Elviyeyi-Selasedəki müsəlmanlar bir tale birliyi yarada bilmişdilərmi? Naxçıvan, Sürməli, Qəmərli, Uluxanlı bölgələrindən gəlib, Qarsdakı konfranslarda iştirak edənlər öz xalqlarını necə təmsil edirdilər? Araz-türk hökuməti və Qars müsəlman hökuməti Qars Müsəlman Şürası ilə birləşmişdirmi? Qars Müsəlman Şurasının və daha sonra Cənubi-Qərbi Qafqaz hökumətinin Araz vadisindəki hökmranlığı təsis edilmişdirmi? Yoxsa müəyyənləşdirilən sərhədlər ancaq kağız üzərində qalmışdı?

Araz vadisindən olan nümayəndələrin I və II Qars konfranslarında iştirakı dəqiqdir. Hətta Erdoğan xatirələrində, II Qafqaz konfransında yaradılan Milli Şüranın Naxçıvanda 5 nəfərlik bir şöbəsinin də açılmasını qərara aldığını və bu işin Həmzəoğlu Əli Əkbərin sədrliyi ilə Hacı Cabbar, Allahyar və Həsən bəyə tapşırıldığını, bu şəxslərin fəaliyyətə başladığını, İqdırda isə Məhəmməd bəy Əlizadənin ümumi vali təyin olduğunu göstərir.[199]

Fəxrəddin bəyin ifadələri bir sıra ziddiyyətlər yaratdı. Bunlardan birincisi, Naxçıvanda Qars Müsəlman Şurasının şöbəsinin açılması məsələsi və bununla əlaqədar bir çox adamların fəaliyyətə başlamasıdır. Ancaq Qars Müsəlman Şurasının qəbul etdiyi qərarları oxumaq və şöbə açmaq üçün Cahangiroğlu İbrahim bəyin Araz vadisinə getdiyini bilirik.[200] Maraqlı budur ki, nə İbrahim bəy, nə də başqa mənbələr Fəxrəddin bəyin ifadələrini təsdiqləməmişdir. Araz-türk hökumətinin hərbi naziri kimi bölgəyə gələn İbrahim bəyin fəaliyyəti əsnasında ancaq Naxçıvanda Qars Müsəlman Şurasının bir mərkəzi şöbəsini açmaq istədiyini bilirik. Ancaq şöbənin açılmasına dair heç bir məlumat yoxdur. İbrahim bəy bölgədə Araz-türk

---

[198] ATASE, A.1\1. kls.23, D.151, F.38. Erdoğan. Türk ellərində xatirələrim. s..194-195, 202, 258-260. Qırzıoğlu. Milli Mübarizədə Qars. s.26-27. Dayı Elviyeyi-Selasedə milli təşkilatlanma.s..105-106. Gökdəmir. Qafqaz hökuməti.s.401. Hacıyev. Qars və Araz-türk respublikaları s. 29-30. Osmanlı qüvvələrindən dəstək alan Cənub-Qərbi Qafqaz hökuməti təşkilatlanma işlərini bitirib, bir tərəfdən erməni və gürcülərə qarşı mübarizə aparır, digər tərəfdən isə ingilislərin təzyiqinə sinə gərirdi. Regionu ermənilərə vermək üçün plan hazırlayan ingilislər Cənubi Qafqaz hökumətini zəiflətmək üçün Qarsa gəlişində bir planla gəlirdi. (ATASE, A.1\2. Kls.65, D.254-101, F.56-1, 20-2). Azərbaycan, 11 aprel 1919, №-155; Erdoğan.Türk ellərində xatirələrim. s.179- 80, 187-188. Nəticədə ingilislər planlarını daha uzatmadılar. Qərbi Qafqaz hökumətini dağıtdılar və üzvlərini Maltaya sürgün etdilər. (ATASE A.1/2;Kls. 78,D. 29. 1-78.F.7; Nassibian. Ermənistan məsələsi. s.157.Tofiq Bıyıkoğlu. Osmanlı və Şərqi Sərhəd siyasəti. İstanbul, 1958 ,s.25.

[199] Erdoğan.Türk ellərində xatirələrim s. 169-171

[200] Cahangiroğlu İ. Xatirələr.s..3-4

hökumətinin üzvü kimi fəaliyyətə başlamış və xüsusilə hərbi hissələrin yaradılmasına fikir vermişdir. Əslində, Xəlil bəy də demişdir ki, Naxçıvandan Osmanlı Ordusu çıxdıqdan sonra əvvəlcə milli komitənin təşkili məqsədilə Qarsdan gələn bir-iki şəxslə "Müvəqqəti Araz-türk hökuməti" adında bir hökumət[201] elan etdilər. Xəlil bəy Araz-türk hökumətinin quruluşu haqqında səhv ifadə işlətsə də, Qarsdan gələn şəxslərin Araz-türk hökuməti ilə əlaqə saxladığını bildirmişdir. Göründüyü kimi, gündəlik eşitdiyi hadisələri qeyd edən, bizə çatdıran Əliyev də İbrahim bəyin yanında hökumət rəisi Əmir bəy və Daxili İşlər Naziri Bağır bəy olmaqla Naxçıvana gəldiyini və bunların siyasəti ilə bağlı söhbətlər apardığını göstərir.[202] Qars İslam Şurası hökumətinin şöbə açmaq kimi fəaliyyətindən isə bəhs etmirlər.

I və II Qars konfranslarına dəvət olunan və iştirak edən şəxslərin də öz bölgələrini nə dərəcədə təmsil etdikləri şübhəlidir. Araz vadisində türk Ordusu vasitəsilə bir təşkilat yaradılmasına çalışdığı halda, Qarsda başqa bir təşkilata daxil olmanın elə bir əhəmiyyəti yox idi. Qarsdakı Şuranın səlahiyyətli şəxsləri də bunu fikirləşirdilər. Ancaq türk hərbi dairələrinin belə bir birlik haqqında heç bir fikir və niyyətləri yox idi. Onlar buna görə də bir-birlərinə çox uzaq olmayan iki bölgədə ayrı-ayrı təşkilatlar, hökumətlər yaradılmasına kömək etmişdilər. Əgər istəsəydilər, qısa bir zamanda yaradılan hökumətlərin birləşməsinə çalışardılar. Biz Osmanlı hərbi dairələrinin belə bir fəaliyyətinə rast gəlmədik. Türk hərbi dairələrinin dəstəyini almayan və ya onların regionda yaratdıqları təşkilata baxmayaraq başqa bir təşkilata daxil olmaq istəyən şəxslərin nə dərəcədə xalqlarını təmsil etdikləri şübhəlidir. Araz-türk hökumətinin təşkili dövründə də göstərildiyi kimi, Osmanlı dairələri noyabr ayının əvvəllərindən etibarən Araz vadisinin türk müsəlman əhalisi ilə bərabər idarəetmə və hərbi təşkilatlar yaratmağa başlayaraq bütün işləri yerli şəxslərin nəzarətinə buraxmışlar.[203] Xalqdan dəstək alan yerli idarə rəhbərləri də fəaliyyətlərini davam etdirirdilər. İndi bölgədə xalqın dəstəyi ilə işləyən bu rəhbərlər ola-ola, Qars konfranslarında iştirak edən şəxslərin təmsil gücünü yaxşı fikirləşmək lazımdır. Görünür, Qars konfransında iştirak edənlər nümayəndə kimi deyil, dəvətnaməyə əsasən iştirak etmişdilər. Bölgədə hər hansı bir cəmiyyətin Qarsa nümayəndə göndərməsi haqqında heç bir sənəd, qeyd yoxdur. Araz-türk hökumətinin Qars Milli Şura hökuməti ilə birləşməsi məsələsinə gəlincə, biz əlimizdəki sənədlər və həqiqətlərə əsasən belə bir iddianı qəbul etmirik. Araz-türk hökuməti, Qars Milli Şura hökuməti ilə birləşmiş olsaydı, o zaman Qarsdan Araz vadisinə gələn Cahangiroğlu İbrahim bəyi hökumət rəisi kimi

201 ATASE, A.l\2. kls. 63. D.254-101, F.21-2

202 Əliyev.Qanlı günlərimiz.s.84.

203 ATASE, A.4\83 ] 4, kls. 251, D. 1-4, F.35-3

qarşılayardılar, halbuki, Araz hökuməti bunu eləmədi. İbrahim bəyi əvvəlki kimi hərbi nazir olaraq qarşıladı və ona bu vəziyyəti bildirdi.[204] İbrahim bəy bölgəyə qayıtdıqdan sonra Araz-türk hökumətinin bir üzvü kimi fəaliyyətini davam etdirdi. Əmir bəyi hökumət rəisi kimi tanıdı və bir nazir kimi hərəkət etdi. İbrahim bəyin xatirələrində bununla əlaqədar dediyi sözlər çox əhəmiyyətlidir: "Hökumət rəisi Əmir bəy Vəzirov həzrətləri məndən izahat istədi, Hökumət rəisi Əmir bəy təşrif gətirdilər, işə başladı.[205] Hökumət rəisi Əmir bəy də İbrahim bəyi erməni nümayəndələrinə "Qars Milli Şura" rəisi kimi təqdim etmişdir.[206] Şayət, ortada bir birləşmə məsələsi olsa idi, bu cür davranış və ifadələr olmamalı idi. Qars Milli Şura hökuməti qurulduqdan sonra bölgəyə gələn bəy, rəis kimi qarşılanmalı və Araz vadisindəki bütün işlər onun əmri ilə olmalı idi. Əmir bəyin hökumət rəisi adı olmamalı idi. Yuxarıda qeyd etdiyimiz kimi, Qars Milli Şura hökumətinin Araz vadisinə hər hansı bir təsiri olmur. Araz-türk hökuməti öz fəaliyyətini davam etdirdi. Bu dövr haqqında yazdıqları ilə günümüzə məlumat çatdıran Xəlil, İbrahim və Mirzə Bağır bəylərin yazılarında və müxtəlif arxiv sənədlərində birləşmə məsələsi haqqında ən kiçik bir işıq ucu yoxdur. Yalnız gerçək olan varsa, o da erməni hücumları nəticəsində ölkə torpaqlarını qoruya bilməyən Araz-türk hökumətinin xalq arasında nüfuzunun düşməsi və dağılmasıdır. Onun yerində isə başqa bir hökumət qurulmuşdu. Bu həqiqətə arxiv sənədlərində, müxtəlif qəzet xəbərlərində və tədqiqat əsərlərində rast gəlmək mümkündür.[207]

Hadisə beləcə açıq-aydın bəlli olduğu halda, birləşmə məsələsinin nədən ortaya atıldığı ağıla gəlir? Sualın cavabını hər halda II Qars konfransının müəyyən etdiyi sərhəd məsələsində axtarmaq lazımdır. Hökumətin rəsmi olaraq elan etdiyi sərhəddi görən bəzi tədqiqatçılar bu fikrə gələ bilərlər. Yuxarıda qeyd edildiyi kimi, Qars Milli Şurasının sərhədləri Araz-türk hökumətini də əhatə edirdı. Ancaq Hacıyevin göstərdiyi kimi, Qars Müsəlman Şurası hökumətinin sərhədlərinin Naxçıvan və İqdır bölgələrini əhatə etməsi sadəcə görünüşdə belə idi. Həqiqətdə isə Araz-türk hökumətinin müstəqil bir quruluşu var idi.[208] 30 noyabrda işə başlayan Qars konfransı bunu Araz vadisindən iştirak edən bir çox nümayəndələrin təsiri ilə və ya daha mühümü o dövrdə heç bir köklü dövlətə bağlı olmayan və çoxlarının sahib olmaq istədiyi bölgəni sərhədləri daxilinə alaraq, özünü xarici aləmə

---

[204] M .Cahangiroğlu.Xatirələr s.4.

[205] Yenə orada, s.14-19.

[206] Cahangiroğlu. Xatirələr. s.9

[207] Azərb.Cüm. MDƏYTA. F.894. Op.IO. D.70. L.3. Azərb.Cüm.MDƏYTA. Op.l. F.9780. D.42. L.3-4. M.B. Naxçıvan-Şərur məsələsi II. M.B. Naxçıvan-Şərur məsələsi III, 1990, №-2, s.63. Tağıyeva, Nəsibzadə. Azərbaycan- İran münasibətləri. S.66. Hacıyev. Qars və Araz-türk respublikaları. s..53

[208] Hacıyev.Qars və Araz-türk respublikaları. s.52.

güclü göstərmək, həm də oradakı insanları qorumaq məqsədilə edilmişdir. Mərkəzi Qars olan Cənubi-Qərbi Qafqaz hökuməti bu yolla getdi. Naxçıvan, İqdır, Uluxanlı, Qəmərli və Ordubad bölgələrini tamamilə öz sərhədləri daxilində göstərdi və bunu xarici aləmə elan etdi.[209] Bundan əlavə, Qars, Batumi və Naxçıvanda Milli Şura şöbəsinin açılması qərara alınmışdı.[210] Əslində, bu dövrdə Cənubi-Qərbi Qafqaz hökumətinin Naxçıvan və İqdır bölgələrini həqiqətən öz sərhədləri daxilinə alması, bu regionda hökumət qurması mümkün deyildi. Çünki 10 dekabrda başlayan erməni hücumları nəticəsində İqdır, Uluxanlı və Qəmərli tamamilə ermənilərin nəzarəti altına keçmiş, regionun Qars ilə əlaqəsi kəsilmişdir.[211] Naxçıvanda da Milli Şura hökuməti var idi.[212] Qarsdan Naxçıvana getmək üçün Türkiyə və İran sərhədlərindən keçmək lazım gəlirdi. Belə bir vəziyyətdə Cənubi-Qərbi Qafqaz hökumətinin sərhədlərinin Batumidən Ordubada qədər uzanması fıkri həqiqətə uyğun olmayıb, bu ancaq özünü böyük göstərmək, soydaşlarına sahib çıxma hissindən faydalanmaq məqsədi daşıyırdı.

## B. NAXÇIVAN HÖKUMƏTLƏRİ
## I. YERLİ HÖKUMƏT – "MƏHƏLLƏ HÖKUMƏTİ" DÖVRÜ

Erməni hücumları nəticəsində, Araz-türk hökuməti zəifləyib dağılmağa başlayır, Naxçıvan şəhərində isə yerli hökumət[213] günü-gündən güclənirdi. Araz-türk hökumətinin Naxçıvandan yardım istəməsi və bölgəyə Kalbalı xanın komandirliyi ilə qüvvə göndərilməsi yerli hökumətin gücünü artırdı. Xüsusilə Naxçıvanda hərbi qüvvələri əllərinə alan xanların bölgədə nüfuzu hiss edilməyə başladı. Belə ki, baş verən hadisələr nəticəsində Araz-türk hökuməti nüfuzunu itirib dağılan kimi Naxçıvandakı yerli[214] və nisbətən ona bağlı fəaliyyət göstə-

---

[209] ATASE, A.l.1. kls.23, D.151. Erdoğan.Türk ellərində xatirələrim. s.194- 195, 202 -258. Qırğızoğlu. Milli mübarizədə Qars. s.26-27. Dayı Elviyeyi-Selasedə Milli təşkilatlar. s.105-106. Gökdəmir .Qafqaz hökuməti. s.101. Hacıyev .Qars və Araz-türk respublikaları. s.29-30.

[210] Kırzıoğlu. Cənubi-Qərbi Qafqaz Cumhuriyyəti, s. 963-964

[211] Naxçıvandan Qarsa İbrahim bəy Şahtaxtı - Maku - Bəyazid - Kağızman yolu ilə getmişdi. (Cahangiroğlu. Xatirələr, s. 25-32)

[212] Əliyev. Qanlı günlərimiz. s. 105

[213] Yuxarıda qeyd etdiyimiz kimi, rəhbər dedikdə Araz-türk hökumətləri nəzərdə tutulurdu.

[214] Bununla bağlı, doğrudan da, bir məlumat yoxdur. Naxçıvana gələn heyətlərin, göndərilən nümayəndələrin yerli hökumətin ətrafında dönməsi bizi bu fikrə gətirmiş, Araz-türk hökumətinin süqutundan sonra xanların iqtidarı -Naxçıvan hökuməti yaradılmışdı. (Əliyev. Qanlı günlərimiz. s.96, 98-104). (Azərb. Cüm. MDƏYTA. V. 970. Op. I. s. 42. L. 3-41. Azərb. Cüm. MDƏYTA. F. 894. Op. 10. s.70. L.3. M.V. Naxçıvan-Şərur məsələsi III, İzvestiya, 1990, №-2, s.163. Hacıyev. Qars və Araz türk respublikaları. s. 53. Tağıyeva, Nəsibzadə. Azərbaycan İran münasibətləri. s. 66. Başqa bir fikrə görə, Araz-türk hökuməti yerinə Milli Şura hökuməti qurulmuşdu. (M.B. Naxçıvan-Şərur məsələsi II). Bu hökumətlər Naxçıvanda iqtidara gəlmişdir. Hadisələri hər gün qələmə alan Əliyevin əsərlərində buna aid aydın məlumatlar var. Əliyevə görə sıra ilə Yerli hökumət (Məhəlli hökumət), Milli

rən xanlar vəziyyətə nəzarəti ələ keçirdi.

Naxçıvan yerli hökuməti nüfuz boşluğunu doldurmağa çalışırdı, bu əsnada isə bölgədə çoxlu sıxıntılar, narahatçılıqlar var idi. Bu sıxıntının ən ciddisi, şübhəsiz, düşmən işğalına məruz qalmış vətən torpaqlarını qorumaq idi. Yerli hökumət, Araz-türk hökuməti öz nüfuzunu itirməmişdən əvvəl bu məsələnin həlli üçün hərəkətə keçmiş, İrandan yardım istəmişdi. Məsələ İran şahına bildirilmiş və Naxçıvana lazımi yardım göstərilməsi qərara alınmışdı.[215] Əvvəlcə hərbi yardım göstərmək nəzərdə tutulmuşsa və bir sıra tədbirlər görülmüşsə də, sonradan bu fikrə əhəmiyyət verilməmişdi. Naxçıvana və bilavasitə İrəvana iki erməni və iki müsəlmandan ibarət bir heyət göndərilmişdi.[216] 23 dekabrda Naxçıvana gələn heyətin məqsədi türklər ilə ermənilər arasında sülhü təmin etmək və erməni hücumunu dayandırmaq idi.[217] Gecə Naxçıvanda qalan İran heyəti səhərisı gün tezdən səlahiyyətlilərlə görüşdü və saat 11 radələrində İrəvana yola düşdü. Naxçıvandan seçilən Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xan da İran heyəti ilə bərabər getdi. Naxçıvan heyətinin məqsədi ermənilərlə müsəlmanlar arasında müvəqqəti atəşkəs müqaviləsi bağlamaq və İrəvana gedəcək İran heyətinin fəaliyyətinin nəticəsini gözləmək idi.[218] Naxçıvan heyəti Dəmirçi, Quşçu kəndində olan erməni komandiri Dulxanova müvəqqəti atəşkəs təklif etdi, qarşı tərəfdən müsbət cavab gözləyən heyət bir anda donub qaldı. Çünki Dulxanov Naxçıvan heyətini həbs etdirdi, Noraşen və Yengicəyə hücum əmri verdi.[219]

Ancaq bu dəfə ermənilərin ümidləri boşa çıxacaqdı. Çünki qarşılarında qısa zamanda mütəşəkkil təşkil olunmuş, Naxçıvandan Kalbalı xanın rəhbərliyi altında yardıma gələn əsgərlərlə müstəqilliklərini qorumağa and içmiş qüvvə dururdu.[220] Kalbalı xan və Məşhədi Əli Əsgər ağanın

---

Şura hökuməti və xanların nəzarəti altında Naxçıvan hökuməti iqtidara gəlmişdi. (Əliyev. Qanlı günlərimiz. s. 104-108)

[215] İran hərbi qüvvələrinin xərclərini naxçıvanlılar ödəməlidirlər (Əliyev, Qanlı günlərimiz s. 93).

[216] ATASE, A. 1\2, kls. 65, s. 254-101. F. 21-3, BOA. BEO 118, 173 5129 Azərb. Cüm. MDƏYTA. F. 970. Op.l s.42. L.3-4. Azərb. Cüm. MDƏYTA. Fg.894. Op.iO. L.3, 1990, №2 s.63. Univar. Bolşeviklərlə 8 ay. S. 16. Hacıyev. Qars və Araz-türk respublikaları. s.53, Tağıyeva, Nəsibzadə. Azərbaycan İran münasibətləri. s. 66

[217] İran hökuməti göndərdiyi məlumatda erməni hökumətinə bunları bildirməsini tələb etmişdir: Ermənilər Arazın şimalındakı müsəlmanlara qarşı hərəkətlərini davam etdirərlərsə, İran hökuməti sərhədlərində olan əhalisini qorumağa məcbur olacaqdır və bu hadisələrlə əlaqədar İranda müsəlmanlarla ermənilər arasında münaqişə çıxsa, İran hökuməti məsuliyyət daşımayacaqdır.

[218] ATASE, A.l\2. kls.65, s.254-101, F. 21-3, 21-4, Əliyev. Qanlı günlərimiz. s. 95-96. Ünivar. Bolşeviklərlə 8 ay s. 16. Xəlil bəy və Veysəl bəy İran heyətinin İrəvana getmə tarixini 25 dekabr 1918-ci il olaraq göstərirlər.

[219] ATASE, A. 1\2. kis. 65, s.254-101, F. 21-4, Ünivar. Bolşeviklərlə 8 ay s. 16. Əliyevə görə, yerli türk qüvvələri ermənilərə hücum etmişdir (Əliyev.Qanlı günlərimiz. s.96). Biz bu hadisələri daha yaxından izləyən Xəlil bəyin ifadələrini düzgün sayırıq. Hovanisiyana görə, erməni-gürcü münaqişəsi ingilislərin təkidi ilə dayandırıldıqdan sonra müdafiə naziri Haqverdiyan Dəvəlikdəki erməni qüvvələrinə hücuma hazırlaşmalarını əmr etmişdir. Bundan əvvəl də Şərur və Naxçıvan qüvvələri sülh bağlanmasını təklif etmişdilər (Hovanisyan. Ermənistan Respublikası. s.230). Hovanisyan bu sahədə səhv etmişdir. Onun dediyi kimi, erməni qüvvələri Qurd keçidin (Dəhnə boğazı) ətrafında qalmayıb, Şərura girmiş və bölgənin bir hissəsini işğal etmişdilər. Naxçıvan əhalisi yurdlarını qorumaq üçün hazırlaşarkən İran və yerli türk nümayəndələri İrəvana yola düşdülər. Erməni komandiri Dulxanov atəşkəs təklifini qəbul etmədi. Qüvvələrə hücum əmri verdi. Həmin döyüşdə türklər qələbə qazanmış, Dəvəliyə qədər erməniləri çəkilməyə məcbur etmişlər. Ermənilərin Dəvəli mövqeyində olduğu bölgəyə başqa bir müsəlman heyəti getməmişdir.

[220] İngilis mənbələrinə görə, bu döyüş əsnasında müsəlman qüvvələri 6000-10000 arasında idi. (Azərb. Cüm. MDƏYTA. F. 970 Op. 1. s.42. L. 3-4. İzvestiya, 1990, №-2, s.63, Hovanisyan. Ermənistan Respublikası. s. 230)

komandirliyi altında türk qüvvələri ermənilərin gözləmədikləri ciddi müqavimət göstərdilər, birinci gün onları Maxta və Dəmirçi kəndlərindən çıxardılar. Əsl döyüş səhərisi gün Dəhnə boğazı (Qurd keçidi) ətrafında oldu. Bacarıqlı, ağıllı komandirlərin rəhbərliyi altındakı qüvvələr erməni qüvvələrinə ağır zərbə endirmişdilər. Dəhnə boğazında məğlub olub oranı tərk edən erməni qüvvələrini Arazdəyənə qədər qovalayaraq xeyli qənimət ələ keçirmişdilər.[221] Türk qüvvələri Arazdəyəndə, ermənilər isə Dəvəlidə yerləşdilər.[222] Ancaq məğlubiyyəti heç cür qəbul etməyən ermənilər polkovnik Dulxanovu geri çağırdılar və yenidən hərbi hazırlığa başladılar. Onlar Vedinin kəndlərindən intiqamlarını almaq istəyirdilər. Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşar kəndləri ətrafında döyüşlər başladı. Bu dəfə də ermənilər qəhrəman vedililər tərəfindən məğlub edilərək İyova, Dəvəliyə geri çəkildilər.[223]

Erməni qüvvələri dalbadal məğlubiyyətə uğrayarkən zəfərlərə görə Naxçıvanda xoş saatlar yaşanırdı. Dəhnə döyüşlərində mühüm rol oynayan və xalq tərəfindən qəhrəman elan edilən Kalbalı xan[224] əmri altında olan qüvvələrlə birlikdə 28 dekabrda Naxçıvana gəldi. Qəhrəmanlıq nəğmələri oxuya-oxuya şəhərə girən əsgərləri xalq sevinclə qarşıladı, qazandıqları qələbələr haqqında söhbət etdilər. Həmin gün yerli hökumət rəisi Mehdi Bağırov və komandir Kərim xan Şərura getdilər. Səhərisi gün Naxçıvan şəhər klubunda əsgərlərin şərəfinə bir ədəbiyyat gecəsi keçirildi və 300-ə yaxın varlı adam buraya dəvət edildi. Ancaq istənilən səviyyədə iştirak edən olmadı. 30 dekabrda Naxçıvanda Şərurdan gələn əsgərlərin qeyri-qanuni hərəkətləri baş verdi. Onlar xainlərə aid sözlər deyirdilər. Özləri kimi xain hesab edirdilər, onu da tələb edirdilər.[225]

Qiyama qalxan əsgərləri sakitləşdirməyə çalışırdılar, bu vaxt Naxçıvanda Andranikin səs-sədası eşidilməyə başladı. Andranikdən keçmiş Naxçıvan Milli Komitəsi sədri Mehdiqulu xan Diyarbəkrlininin adına bir məktub gəldi.[226] Andranik, Erməni və Azərbaycan türkləri arasında sülh

---

[221] ATASE, A. 1\2. kis. 65, s.254-101, F. 2, №-24, Azərb.Cüm.MDEYTA F.970.Op 1.s.42 L.3-4.Azərb.Cüm.MDƏYTA F.894.Op 10.s.70.L.Z.Nağdəlizadə Naxçıvan ətrafında, M.B.Naxçıvan Şərur məsələsi.II, İzvestiya,1989 №-4, s.118. İzvestiya 1990, №-2, s.63. Əliyev. Araz-Türk respublikaları. Əliyev. Qanlı günlərimiz. s.96-97. Ünivar. Bolşeviklərə 8 ay. s.16. Nağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s.66. Hacıyev. Qars və Araz-türk respublikaları. s.53. Əliyev. Araz-türk respublikası.

[222] Nağdəlizadə yazırdı ki, türk qüvvələri Arazdəyənə gələn zaman ingilislər döyüşlərə müdaxilə etdilər. Daşnaklar ingilislərə şikayət etmişdilər ki, Naxçıvan qüvvələri içində Osmanlı əsgərlər var. Buna görə də onlar məğlub olmuşlar. İngilislər fakt tapa bilmədilər. (Nağdəlizadə. "Naxçıvan ətrafında").

[223] İzvestiya, 1989, №-4, s.118

[224] M.V. Naxçıvan-Şərur məsələsi II

[225] Əliyev. Qanlı günlərimiz.s. 98-99.

[226] Bu dövrdə ingilis komandanlığının təsiri ilə Qarabağdan Gorusa gedən Andranik və dəstəsi dəhşətli sıxıntı içərisində idilər. Yaxınlarındakı mühacirlər aclıq çəkirdilər. Buna görə də Andranik bunların bir hissəsini Naxçıvanda yerləşdirmək istəyirdi. İngilisiər də bu fikirdə idilər. Zəngəzurdakı mühacirlərin yerlərinə

bağlanmasına əsasən Naxçıvandan köçmüş ermənilərin qeydsiz-şərtsiz yerlərinə qaytarılmalarını təklif edirdi.[227] Mehdiqulu xan da yazdığı məktubda bildirirdi ki, sülh danışıqları aparmaq üçün İran və Naxçıvan heyətləri İravəna gediblər, onlar qayıdana qədər heç bir şey etməyəcəklər.[228] Naxçıvanlılar sülh təmin olunmadan ermənilərlə bir yerdə yaşamaq istəmirdilər.

1 yanvar 1919-cu ildə bir tərəfdən Arazdəyəndə erməni və türk qüvvələri arasında münaqişə xəbəri gəldi, digər tərəfdən isə Naxçıvanda azadlıq mübarizəsinin bayraqdarlarından olan Xəlil bəyin vida məktubu oxundu.[229] Müsəlman ordusu komandiri Nuri paşa tərəfindən 3 noyabrda yazılan, 20 dekabrda Naxçıvana gələn əmrə əsasən Xəlil bəy Naxçıvandan gedirdi. Ayrılıq xəbəri Naxçıvanda gərginlik yaratdı. Həmin dəqiqə yerli hökumətin yığıncağı keçirildi. Xəlil bəyin və yoldaşlarının getməməsi və maaşların hökumət tərəfindən ödənilməsi qərara alındı. Qərarı bildirmək və Xəlil bəyi Türkiyəyə göndərməmək üçün Bəhram xan Naxçıvanlı Hacı Hüseyn Qurbanov, Mirzə Cabbar Bəktaşi və Mehdiqulu xan Diyarbəkirdən ibarət heyət təşkil olundu. Xəlil bəy aldığı əmri yerinə yetirməli idi. O, bu heyəti inandırdı, onların razılığını aldıqdan sonra xəstə, kiçik leytenant Xəlil İbrahim əfəndini Naxçıvanda qoydu və digər yoldaşları ilə bərabər 5 yanvar 1919-cu ildə Naxçıvandan çıxdı.[230] Beləcə 1918-ci ilin mayından başlayan Xəlil bəyli günlər sona çatdı.

Bildiyimiz kimi, Şərura gedən hökumət rəisi Hacı Mehdi Bağırov 2 yanvar 1919-cu ildə Naxçıvan şəhərinə qayıtdı və həmin vaxt ətrafdan çağırılmış nümayəndələrlə bərabər ümumi bir yığıncaq keçirdi. Ordubad yerli hökumət rəisi Böyükxan Naxçıvanskinin tələbləri yığıncağın əsas məsələsi idi. Böyükxan Ordubaddakı hərbi hissələrin dağıldığını bildirir, Naxçıvan qapısı mövqeyini daşıyan bölgədə yenidən hərbi hissə yaratmaq üçün zabit və əsgər göndərilməsini tələb edirdi.[231] Naxçıvan hökuməti bir yandan belə təklifləri yerinə yetirməyə çalışır, digər tərəfdən gücünü xalqa bildirmək, təşkilatını genişləndirmək üçün bir sıra siyasi fəaliyyətlər həyata keçirirdi. Məqsəd yeni hökumət rəisi seçmək və parlament təşkil etmək idi. Bu məqsədlə hökumət 4 yanvar 1919-cu ildə qəbul etdiyi qərara əsasən hər

---

göndərilməsi ilə əlaqədar Vilyam D.Hibbon Naxçıvana gəldi. O müsbət nəticə əldə edə bilmədi (Hovanisyan. Ermənistan Respublikası. s. 189-190; Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.45).

[227] Andranik belə bir təklif edəndə Ermənistandan çıxarılmış müsəlmanları yaddan çıxarmışdır.

[228] ATASE, A 1\2 , kls. 65, s. 254-101, F.21 -4, Əliyev Qanlı günlərimiz.s. 99-100

[229] Əliyev. Qanlı günlərimiz. s. 100

[230] ATASE A,l\2, kis. 65, s .254-101, F.21-4, Əliyev. Qanlı günlərimiz. s. 100. Xəlil bəyin Türkiyəli günləri uzun sürmədi və o, 17-18 iyulda gecə Bəyaziddən çıxaraq (Qarabəkir, İstiqlal hərbimiz. s.73) 12-20 iyul gecəsi Naxçıvanın Yengicə nahiyəsinə gəldi (ATASE A, 5. 2797, kls. 814. s. 5-9. F.128-1, Cümhuriyyət, 20 may 1933, №-3244 ).

[231] Əliyev. Qanlı günlərimiz. s. 101

məhəllədən savadlı, təcrübəli 5 nəfərin seçilməsini əmr etdi. Seçkilər başlandı. Ancaq bəzi yerlərdə hökumətin əmrinə zidd olaraq savadsızlar seçilirdi.

Seçkilər davam edirdi. 12 yanvar 1919-cu ildə axşam İrəvana gedən heyət geri qayıtdı. Ancaq onların yanında 2-si Ermənistan hökumətindən, 2-si də Andranikin dəstəsindən olan 4 nümayəndədən ibarət bir heyət də Naxçıvana gəlmişdi. Səhərisi gün şəhərin tanınmış şəxsləri və məhəllə vəkilləri yığıncağa çağırıldı, hökumət rəisi Hacı Mehdi Bağırovun sədrliyi ilə bir yığıncaq keçirildi. Ancaq nə İrəvandan qayıdan İran və Naxçıvan heyətlərindən, nə də erməni nümayəndələrindən bir məlumat əldə olunmadı. Belə vəziyyətdə müxtəlif dedi-qodular yayılmağa başladı. 14 yanvarda erməni nümayəndələri təkliflərini irəli sürdülər: 1) Dəhnə boğazı hər iki tərəf üçün sərhəd olsun, bunun qərbində qalan bölgələr ermənilərin, şərqi müsəlmanların nəzarəti altında qalsın; 2) Erməni qatarlarının son dayanacağı Dəvəli, müsəlman qatarlarının son dayanacağı Dəhnə olsun. İki tərəfin qatarları bir-birlərinin sərhədlərini keçməsin. Ancaq ticarət üçün gediş-gəliş kəsilməsin; 3) Müsəlmanlar İrəvan ermənilərinə pudu altı manata 12. 000 pud buğda satsınlar. Hökumətin idarə heyəti və bilavasitə rəis Hacı Mehdi Bağırov tərəfindən ermənilərin təklifi qəbul edildi və müqavilə imzalandı.[232]

Hökumətin bundan sonrakı məsələsi İran heyəti və ingilis nümayəndəsi olduğunu söyləyən şəxslə əlaqədar idi. İran heyətinin sədri, əvvəlcə Naxçıvan şəhərində əvvəlki erməni-müsəlman münasibətlərinə dair suallar verirdi.[233] Naxçıvanda erməni mühacirləri məsələsini həll etmək üçün gələn general Tomsonun rabitə zabiti Vilyam D.Gibbona[234] hökumət rəisi Hacı Mehdi Bağırov və digər səlahiyyətlilər tərəfindən böyük hörmət göstərilir, Naxçıvan müsəlmanlarının vəziyyəti ona bildirilməyə cəhd göstərilirdi.[235] Ancaq Gibbon məqsədini bildirdikdə vəziyyət dəyişdi. Hörmət yerini ciddilik aldı. Çünki onlar bu qarışıq vəziyyətdə yurdlarına qaçqın qəbul etmək istəmirdilər.[236] Əvvəlki acınacaqlı təcrübələr onları buna sövq edirdi.

---

[232] Əliyev. Qanlı günlərimiz. s.102-104. Hovanisyana görə İrəvana gedən nümayəndələrlə aparılan danışıqlar nəticəsində Kaçaznuni kabinəsi on gün cəbhədə dayanmağı əmr etdi. Bu müddət ərzində türk elçiləri xalqını sakitləşdirəcək və həm də erməni və müsəlmanların bütün hüquqlarını ordu və hökumətə qəbul etdirməyə çalışacaqlar. Yuxarıda qeyd etdiyimiz kimi. Naxçıvana gələn Ermənistan hökuməti nümayəndələrinin belə bir təklifi olmamışdır.

[233] İran heyəti Naxçıvandan getdiyi zaman türk heyəti də onlarla bərabər getmişdir. Bir müddətdən sonra İrandan telefonla bildirildi ki, Naxçıvan heyəti Vəliəhd tərəfindən hörmətlə qəbul edilmişdir. İran vəliəhdi türklər və ermənilər arasında münaqişənin bitməsindən xeyli məmnundur (Əliyev. Qanlı günlərimiz. s. 104-108).

[234] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi.s.45, Hacıyev. Qars və Araz-türk respublikaları. s.52. Hovanisyan. Ermənistan Respublikası. s. 190.

[235] Səlahiyyətlilərin bu ehtiramına baxmayaraq, əhali V.D.Hibbondan rəsmi sənədi olmadığına görə şübhələnirdi. (Əliyev. Qanlı günlərimiz. s. 104)

[236] Hovanisyan. Ermənistan Respublikası. s. 190.

## 2. MİLLİ ŞURA HÖKUMƏTİ

4 yanvar 1919-cu ildə hökumətin əmri ilə başlanan seçkilər sona çatmış, nümayəndələr bəlli olmuşdu. Naxçıvan yerli hökuməti, parlament təşkil etmək üçün 17 yanvar 1919-cu ildə onların hökumət binasına getmələrini xahiş etmişdi. Həmin gün Ordubad, Şərur və Naxçıvan nümayəndələri hökumət binasına yığışdılar. Ümumi bir məclis təşkil olunması ilə əlaqədar böyük bir müzakirə başlandı. Keçmiş Araz-türk hökuməti rəisi Əmir bəy, Məşhədi Abbas Əli Hacı Kərimoğlu İrəvani və Xəlil ağa Ağalarov tərəfindən danışıqlar aparıldı. Əmir bəy çıxışında təcili olaraq ümumi bir məclis yaradılmasını məqsədəuyğun saymadı. Müzakirə zamanı parlament sözü ləğv edildi, Milli Şura yaradıldı.[237] Əmir bəyin sədr olduğu Şuranın digər üzvləri bunlardır: Nehrəmdən Kərbəlayi Muxtar Hacı; Cəhridən Məşhədi Sadıq və Əbdül Əzim Rüstəmov; Naxçıvandan Hacı Mehdi Bağırov, Axund Əli Həsənzadə, Xəlil ağa Ağalarov, Mirzə Abbas Qədimov və Cəfərqulu xan Naxçıvanski; Əlincəçay nahiyyəsindən Məsuməli bəy Binənikari və Qənbər Əli bəy Binənikari.[238]

Milli Şuranın təşkilindən sonra üzv və işçilərin maaş məsələsi ilə əlaqədar bir sıra işlər görüldü. Ancaq yerli hərbi təşkilat bu işə əks münasibət göstərirdi. Məsələnin həlli üçün yığıncaq keçirilməsi qərara alındı. Şura daxili məsələləri həll etməyə çalışırdı, kənardan gələn xəbərlər isə ürəkaçıcı deyildi. Naxçıvan sərhəddindəki adamlar imdad istəyirdilər. Böyük Vedi və Zəngəzur ətrafındakı əhalini erməni hücumları ağır vəziyyətə salmışdı. Müsəlman əhali soyqırımı ilə üz-üzə idi.[239] 18 yanvar 1919-cu ildə kapitan Fridrix İstfild Landtonun sədrliyi ilə bir ingilis heyəti Naxçıvana yola düşdü.[240]

İrəvandakı Naxçıvan nümayəndəsi Mirzə Cabbar Məhəmmədov vəziyyəti dərhal hökumətə bildirdi. Ertəsi gün səhər saat 9-da Naxçıvana

---

[237] Milli Şuranın quruluşu haqqında Əliyevin əsəri istisna olmaqla, digər Azərbaycan mənbələrində məlumat yoxdur. Bu təşkilat erməni qüvvələri Naxçıvandan çıxarılmamışdan əvvəl yaradılmışdı. (Azərb. Cüm. MDƏYTA f. 970, Op. 1. s. 42. L. 3-4. M.V Naxçıvan-Şərur məsələsi II. İzvestiya, 1990 №-2, s.63). Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s.66. Tarix səhvdir. Milli Şura 17 yanvarda ermənilər Naxçıvandan çıxarıldıqdan sonra yaradılmışdır.

[238] Əliyev. Qanlı günlərimiz. s. 104-105. Əliyev, nədənsə Milli Şuraya Şərur və Ordubaddan seçilən üzvləri göstərməmişdir. Əmir bəy və Məşhədi Əli Əsgər ağanın Şərur adından orda olmaları fikrindədir. Çünki Şərur bölgəsinin 2 nüfuzlu şəxsi olan adamlar Ordubaddan namizəd ola bilməzdilər.

[239] ATASE A. 1\2. kls.65.. D. 254-101. F. 22-2,23-2.Böyük Vedi və ətrafındakı kəndləri heç cür ələ keçirə bilməyən ermənilər fasiləsiz hücumlar edir, müdafiəsiz insanları öldürür, qadınları qaçırırdılar. Amma əhalinin möhkəm dirənişi onlara bölgəni işğal etməyə imkan vermirdi (İzvestiya, 1989, № 4,s.118; Əliyev. Qanlı günlərimiz,s.105-106). Vedi əhalisi nisbətən özünü qoruyurdu; Sərdərabad, İrəvan və İqdırda əhali üçün qara günlər başlanmışdır. Osmanlı sərhədinə sığınanların ifadəsindən, göndərilən məktublardan vəhşiliyin dərəcəsi çox yaxşı başa düşülürdü. Müsəlman əhali tezliklə kömək edilməsini gözləyirdi (ATASE, A1/2, Kls.65, D.254-101, F.22-2, 23-2; ATASE, A.1/2, Kls.82, D.304-210, F.11; ATASE, A.1/1, Kls.5, D.22-36, F.22-1,11; BOA, BEO, 341351).

[240] Hovanisyan. Ermənistan Respublikası. s.230

gələn ingilis heyətini baş komandan Kərimxan, rota komandiri Bəhram xan və jandarma rəisi Məhəmməd Əli xan və bir çox süvari əsgərlər qarşıladı. İngilis heyəti Naxçıvanda yerləşdikdən sonra Milli Şura üzvləri ilə onlar bir araya gəldilər və bərabər bir sıra məsələlərdə razılaşdılar. Qəbul edilən qərarlar bunları əhatə edirdi: sərhəddin müəyyən edilməsi, dəmiryolunun işə düşməsi, teleqraf sisteminin işləməsi və Amerikanın yardım cəmiyyətlərinə buğda satılması.[241] Sərhədlər müəyyənləşdikdə müsəlmanların tabeliyində olan bölgələr yenə onların nəzarəti altında saxlanılırdı. Milli Şura buna bir söz demədi. Ancaq onlar ermənilərin istila siyasətinə protesto etdilər, Naxçıvanın özünü müdafiə etmək üçün hər an hazır olduğunu bildirdilər.[242] Şura sədri Əmir bəy də açıq-aydın özlərini Azərbaycanın bir parçası hesab etdiklərini deyirdi.[243]

Naxçıvan Şura hökuməti qeyd etdiyimiz ingilis tələblərinə ətraflı cavab verməmiş, qarışıqlıqlar meydana çıxdı. İlk əvvəl Kərim xan vəzifəsindən istefa etdi. Kərim xanın istefası əsgərlər arasında həyəcan yaratdı. Bir sıra narahatçılıqlar doğurdu. 22 yanvar 1919-cu ildə isə belə bir şayiə yarandı ki, Şərur əhalisi Naxçıvan əsgərini istəmir və onlardan bölgəni tərk etmələrini tələb edir. Bu, Naxçıvanda böyük bir narahatçılıq yaratdı. Az sonra Milli Şura sədri Əmir bəy və Şərur bölgəsinin nüfuzlu adamlarından Məşhədi Əli Əsgər ağa Həmzəzadə əsgərlər tərəfindən həbs olundular.[244] Xalq həyəcan içində idi. Milli Şuranın ləğv olunub olunmadığı bəlli deyildi. İstefa ərizəsini geri götürən Kərim xan və Kalbalı xan bütün hökuməti nəzarət altına almışdı. Onlar Şura üzvlərini 24 yanvarda yığıncağa çağırdılar. Bu vaxt həbsdən çıxan Məşhədi Əli Əsgər ağa və bir çox şərurlular Naxçıvana gəldilər. Əmir bəy həbsdən azad etdirildi. Günahkarların müəyyən edilməsinə çalışıldı. Yığıncaq zamanı Şura üzvlərinin hamısı bu narahçılığın Hacı Mehdi Bağırovun hiyləgərliyi nəticəsində baş verdiyini bildirdilər və o, vəzifədən azad edildi.[245]

## 3. XANLAR "DİKTATOR HÖKUMƏTİ"

Naxçıvandakı qatma-qarışıqlıqlar və Əmir bəyin həbs olunması Cəfərqulu xan, Kalbalı xan və Kərim xan üçün əlverişli idi. Əmir bəyin nüfuzu aşağı düşmüş, onun yerinə isə ermənilərlə döyüşlərdə məşhurlaşan, qəhrəman elan edilən Kalbalı xan öz varlığını yaxşıca hiss etdirməyə başlamışdı.

---

[241] Əliyev-"Qanlı günlərimiz".s. 105-107. Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.45

[242] Hovanisyan. Ermənistan Respublikası. s.230

[243] Rəhmanzadə. Əsrə bərabər gecə. s. 132

[244] Əliyevin yazdığına görə qarışıqlıqlar davam edərkən 4 nəfərdən ibarət türk əsgər qrupu bəlli olmayan səbəbdən Naxçıvana gəlmişdi. (Əliyev. Qanlı günlərimiz. s. 108)

[245] Qanlı günlərimiz. s. 107-109

Kalbalı xanın qüvvətlənməsi, Milli Şuranın zərbə alması, bütün bunlar hökumətin Kalbalı xanın atası Cəfərqulu xanın və qohumları Kərim xanın idarəsi altına keçmələrinə imkan yaratmışdı.[246]

Hökumət rəisi Cəfərqulu xan, müavini Abbasqulu bəy Tahirov, baş komandan (hərbi nazir) Kərim xan, müavini Kalbalı xan[247], xarici işlər naziri Bəhram xan idi[248.] Hökumət[249] ilk iclasını 25 yanvarda Cəfərqulu xanın sədrliyi ilə keçirdi. Milli Şura ləğv edildi. Hacı Mehdi Bağırovla əlaqədar istintaq aparıldı. Səhərisi gün Şərur və Naxçıvan nümayəndələrinin hökumət binasında keçirdikləri müştərək iclasında bu qərarlar qəbul edildi: 1.Amerika komissiyasına, Şərurdan on min pud buğda, pudu əlli manata satılması; 2.Qaçqınlara yardım edilməsi ilə əlaqədar, Şərurun mədaxil və məxariclərinə nəzarət etmək məqsədilə ikisi Şərurdan ikisi də Naxçıvandan olmaqla 4 müfəttiş müəyyənləşdirilməsi.

Hökumət bu qərarları qəbul etdiyi bir vaxtda tərkibində 13 erməni olan bir Amerika komissiyası Naxçıvana gəlib Bəhram xanın evində qonaq oldu. Məqsədi ərzaq almaq olan komissiya Naxçıvan üçün nəzərdə tutduğu fəaliyyətləri bildirmişdi. 28 yanvarda açıqlanan layihəyə görə 1. Şəhərdə 50 yataqlı bir xəstəxananın açılması, 2.150 nəfərlik uşaq evinin açılması, 3. Bu təşkilat üçün 50.000 manat pul və 4.000 pud buğdanın ayrılması.[250]

Amerika komissiyası qısa bir zamanda planları gerçəkləşdirməyə başladı. Naxçıvanda 200 nəfərlik uşaq evi açıldı. 50 nəfərlik dispanser açmağı planlaşdıran Amerika heyəti üzvləri, Naxçıvanda fabriklər təsis etməyi düşündüklərini də bildirirdi.[251] Amerika yavaş-yavaş bölgədə yerləşmək istəyirdi. Daha sonralar görülən işlər bunu isbat edəcəkdi.

Xanlar iqtidarının fəaliyyətlərindən biri də Xarici İşlər Naziri Bəhram xanı Tiflisə göndərmək olmuşdur. Naxçıvanda müəyyənləşəcək sərhəd məsələsi ilə əlaqədar Bəhram xan Tiflisdəki ingilis rəsmi dairələri ilə

---

[246]Azərb. MDEYTA, F. 894, Op.10, D.70, L.3; M.B.”Naxçıvan-Şərur məsələsi II”. Əliyev. Qanlı günlərimiz. s. 108-110, Hacıyev. Qars və Araz türk respublikaları, s.53; Hüseynzadə. “İbrət dərsləri”

[247] Əliyev.Qanlı günlərimiz.s. 109. Hüseynzadə. İbrət dərsləri

[248]Azərb.Cüm. MDƏYTA F.970. Op 1. s. 42 s. 3-4.M.B.Naxçıvan Şərur məsələsi III; Hüseynzadə. İbrət dərsləri. İzvestiya, №-2 s. 63; Hökumətin digər üzvləri haqqında məlumat əldə edə bilmədik. Ancaq Amerika-Rusiya missiyasına aid Tiflis bölməsi sədri Benjamin Burqer Moçenin 13 aprel tarixli məlumatında dövrü bəlli olmayan Naxçıvan hökumət üzvlərinin siyahısı vardır. Bu siyahıda qeyd etdiyimiz 2 nəfərin də adı var. Bu məlumata əsasən üzvlər bunlardır: l.Sədr: Qənbər Əli Binəinkari
(sosial-demokratik bolşevik) 2. Birinci müavin: Mehdi Bağırov ( bolşevik ) 3. Hərbi nazir: Kalbalı xan 4.Daxili İşlər Naziri Hacıyev (təhlükəli) 5. Xaricı İşlər Naziri Bəhram xan ( USA №-Paris Peace conlemce 184. 021 (10 )

[249] Bəhram xan bu yeni hökuməti Naxçıvan Türk hökuməti adlandırmışdır.( M. B. Naxçıvan - Şərur məsələsi II).

[250] Əliyev. Qanlı günlərimiz. s. İ09-1İ0.

[251] Azərb. Cüm. MDƏYTA. f. 894,On. 10. D.70. L.İ.

görüşəcək,[252] oradan da Bakıya gələcəkdi. Azərbaycan hökumətinə İrəvan vilayətindəki vəziyyət haqqında[253] məlumat verəcəkdi.[254]

Tiflisdə işlərini bitirən Bəhram xan Hüseyn Cavidlə bərabər Bakıya getdi,[255] F.X.Xoyski və Tomsonla görüşdü.[256] Ancaq o, Tiflisdə ikən Naxçıvan əhalisi üçün çox zərəri olan bir fəaliyyətə girmişdi ki, bu haqda danışmaq faydalı olar.

Daha əvvəl qeyd etdiyimiz kimi, ağır vəziyyətdə qalan Araz-türk hökuməti, yardım almaq ümidi ilə Paşa Bayramovu Bakıya göndərmişdi. Paşa Bayramovun sonsuz əməyi nəticəsində "İrəvan Vilayəti Müsəlmanları Yardımlaşma Cəmiyyəti"qurulmuşdu. Nəticədə, Azərbaycan hökumətinin və cəmiyyətin Naxçıvana yardım olaraq göndərdiyi pulları alan Paşa Bayramov və Yusif bəy Qazıyev Tiflisə gəlmişdilər. Məqsədləri buradan Naxçıvana getmək idi. Ancaq onları orada bir sürpriz gözləyirdi. Tiflisdə olan Naxçıvan Xarici İşlər Komissarı Azərbaycan məclisi üzvü Camalbəyovdan Paşa Bayramovun Azərbaycandan aldığı pullarla Tiflisə gələcəyini öyrənmişdir. Bir müddət sonra Bəhram xan Camalbəyovla bərabər Paşa Bayramovla görüşmüş və ona Araz-türk hökumətinin dağıldığını, yerində Naxçıvan Türk hökumətinin qurulduğunu və özünün bu hökumətin Xarici İşlər Komissarı təyin edildiyini, bu məqsədlə gətirilən pulların ona verilməsinin məqsədəuyğun olduğunu demişdi. Digər tərəfdən Camalbəyov məclis üzvü olduğuna görə Naxçıvan ətrafındakı qaçqınlara göndərilən pulun geri alınmasını Azərbaycan hökumətinə təklif etmişdi. Bu maneələrə görə[257] Paşa Bayramov və Yusif bəy Qazıyev pulu Naxçıvana gətirmədilər, Bəhram xana və Camalbəyova da vermədilər, Bakıya gətirib hökumət xəzinəsinə verdilər. Pulun Naxçıvana gətirilməməsi, region əhalisi üçün ağır günlərin daha da pisləşməsinə səbəb oldu.[258]

Əgər bir milyondan artıq manat gətirilsəydi, Naxçıvanda və ətrafında həm hərbi hissələrin təşkili sahəsində xeyli iş görülərdi, həm də qaçqınların

---

[252] M. B. Naxçıvan-Şərur məsələsi III

[253] Naxçıvan, Şərur, Ordubad, Vedi müsəlmanlarının vəziyyəti nəzərdə tutulmuşdur.

[254] Azərb. Cüm. MDƏYTA f.970. On. 1 s. 42. s. 3-4 çş 1990, №-2. s. 63

[255] Hüseynzadəyə görə, Bəhram xan və şair Hüseyn Cavid İran yolu ilə Bakıya getmişdir (Hüseynzadə İbrət dərsləri). Fikirlərini təsdiq edəcək başqa bir mənbəyə rast gəlmirik. Azərbaycan mənbələrində Bəhram xanın Tiflisdən Bakıya gedəcəyi haqda məlumat var.

[256] Mədətov. Bəhram xanın görüşləri nəticəsində Azərbaycan hökumətinin Naxçıvana polkovnik Uquşovun komandirliyi ilə 11 zabit göndərdiyini yazır, ancaq burada bir səhvlik var. (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 47-431). Yanvar ayının axırlarında Tiflisə gedən Bəhram xan Bakıya ancaq fevral ayında gələ bilərdi. Azərbaycanın hərbi heyəti isə 24 yanvar 1919-cu ildə Naxçıvana doğru yola düşmüşdü. Azərb. Cüm. MDƏYTA. F. 894. On. 10 D.701.2

[257] Azərbaycandan Tiflisə gələn pulun bölgəyə çatdırılmasında bir sıra maneələrin olması haqda Naxçıvanda xəbər yayıldı. (Azərb. Cüm. MDƏYTA.f.894. On. 10. s.70 1.3.)

[258] M. B. Naxçıvan- Şərur məsələsi II.

dərdlərinə dərman ola bilərdi.

Bəhram xan Tiflisdə bir sıra ingilis səlahiyyətliləri ilə sərhəd məsələsini müzakirə etmək istərkən, Naxçıvandakı ingilis nümayəndəsi F.E.Lotn da 27-ci diviziya qərargahına verdiyi bir məlumatda, Naxçıvanda hərbi bir idarə, rəhbərlik yaradılmasını təklif edirdi.

Lotnun təklifi 26 yanvarda keçirilən yığıncaqda qəbul edildi və onun özü Naxçıvana yerli podpolkovnik rütbəsi ilə hərbi vali təyin edildi.[259] Ancaq ermənilər, ingilis hərbi valiliyinə çox etibar etmədilər. Lotnun təyin olunmasından qısa bir müddət sonra ermənilər Dəvəli yaxınlığındakı Avşar kəndinə hücum edərək, yüzə qədər müsəlman öldürdülər. Böyük vedililərin köməyə gəlməsi nəticəsində ermənilər məğlub edilib kənddən çıxarıldı. Xəbər Naxçıvana çatan kimi Kalbalı xan və polkovnik Lotn təcili Dəvəliyə getdilər.

Dəvəlidə erməni hücumu davam edir, müsəlman qüvvələri isə müdafiə olunurdular. Dəmiryolu ilə gələn ingilis hərbi valisi erməni zabitinə öz sərhədi olan Yuva kəndinə çəkilməsini əmr etdi. Erməni generalı Primov Lotnun təklifinə etiraz etdi və nəticədə aralarında münaqişə yarandı. Nəticədə hirslənən Lotn onu müşayiət edənlərlə İrəvana yola düşdü. Kslbalı xana dəmiryolunun mühafizə edilməsini bildirdi və özünün 3 günə qədər Naxçıvana qayıdacağını dedi.[260]

Lotn İrəvanda məqsədlərini həyata keçirmədən Şərura qayıtdı. Ardınca general Georgi T.Forister-Volker, general Verney Eserle bərabər Naxçıvana gəldi. 6 fevral 1919-cu ildə Lotn bəzi sərhədlərin müəyyənləşməsində Baş Noraşene yollanan ingilis hərbi səlahiyyətli şəxsləri ilə razılıq əldə etdi.[261]

Səhərisi gün hərbi vali (general qubernator) Lotnun müşayiəti ilə Naxçıvana gəldi. Stansiyada böyük bir təmtəraqla qarşılanan ingilis valisi şərəfinə ziyafət verildi. Artıq Naxçıvan regionunda Lotnun sözü keçərli idi. Naxçıvan hökumətinin əmri ilə müsəlman bayrağı qüllədən endirilmiş və gizlədilmişdi.[262] Naxçıvan hökuməti yarım müstəqil bir vəziyyətə düşmüşdü.[263]

---

[259] Hovannisian. The Republic of Armenia voi: I c 261. M. Balaya görə Naxçıvan müsəlmanlarını qorumaq üçün Azərbaycan hökumətinin razılığı ilə ingilislər polkovnik Lotnu hərbi vali təyin etmişdilər. ( M.B.Naxçıvan - Şərur məsələsi I ) Tiflisdə ingilis generalı Bik ilə görüşən bir azərbaycanlı səlahiyyətli şəxs Azərbaycanın Qafqazdakı mübahisəli bölgələrlə (Naxçıvan, Zəngəzur, Qarabağ, Borçalı, Axalkələk, Axıska, İrəvan və Eçmiədzin ) əlaqədar məsələnin sülh yolu ilə həll edilməsi tərəfdarı olduğunu və sülh təmin edilənə qədər bu məntəqələrə Antanta dövlətlərinin nəzarət etməsinin lazım gəldiyini bildirmişdir ( Azərb. Cüm. MDƏYTA. F. 970. 0n. 1. s. 42. 1 3-4). İzvestiya,1990, №-2, s.61-63

[260] Əliyev.Qanlı günlərimiz .s. 110-111

[261] Hovanisyan The Republie of Armenia Vol: I s. 232

[262] Əliyev. Qanlı günlərimiz, s.112

[263] USA NA Paris Peace conferance 184. 021\ 10

Naxçıvana gələn vali Lotn, Noraşendə müəyyənləşdirdikləri sərhədlə əlaqədar bir bəyannamə nəşr etdirdi. Buna əsasən, regionun sərhədi Vedinin böyük bir hissəsini içinə almış, xeyli miqdarda genişlənmişdi. Erməni sərhədi isə Qəmərlinin yanında yerləşən Yuva (Şaumyan) kəndi oldu. Sədərək ilə Yuva arasında ingilislərin nəzarəti altında neytral zona yaradılmış və burada vəzifələr müsəlmanlara verilmişdi. Sədərəkdən Ordubada qədər olan bölgə Naxçıvanın nəzarəti altında olacaqdı. Ancaq buradakı hökumətə ingilis valisi nəzarət edəcəkdi.[264] İngilislər bir tərəfdən Naxçıvan türkləri ilə ermənilər arasında ortaya çıxacaq böyük müharibənin qarşısını almaq üçün bu cür sərhəd müəyyənləşdirir, digər tərəfdən regionu öz nəzarətləri altına alırdılar.

Naxçıvanın qabaqcılları, nüfuzlu şəxsləri bilirdilər ki, bir gün gələcək ingilis idarəetməsi sona çatacaq. Onlar indidən hansı hökumətə tabe olacaqlarını fikirləşirdilər. Naxçıvan hökumətində bununla əlaqədar bir sıra müzakirələr keçirildi.[265] Mirzə Balanın qeyd etdiyinə görə, hökumət rəisi Cəfərqulu xan və onun qohumu olan xanlar İrana tabe olmaq istəyirdilər. Naxçıvanlı qohumları olan Maku xanı kimi iqtidarlı bir xanlığa çevrilmək niyyətində idilər. Bu məqsədlə Maku xanının köməyi ilə İran vəliəhdinin yanına nümayəndələr göndərildi.[266] Digər tərəfdən əhalinin çox hissəsi Azərbaycana tabe olmaq istəyirdi, fəaliyyətə keçmək üçün bir əsas tapa bilmirdilər. Azərbaycanla heç cür əlaqə təmin edilmədi. Çünki iki bölgə arasındakı yerlər erməni dəstələrinin əlində idi. Azərbaycan hökuməti və Bakıda yaradılan "İrəvan vilayəti Həmyerlilər Yardımlaşma Cəmiyyəti" də Araz valisi müsəlmanları ilə əlaqə yaradıb, onlara yardım edə bilmədiklərindən narahat idilər. Onların göstərdiyi təşəbbüs yuxarıda qeyd etdiyimiz kimi, Tiflisdə maneəyə rast gəlmiş, Naxçıvana göndərilən yardım yerinə çatmamışdı.

Ancaq Həmyerlilər Yardımlaşma Cəmiyyəti və Azərbaycan hökuməti pulu Tiflis yolu ilə bərabər, öz adamlarını (mütəxəssis) İran yolu ilə Naxçıvana göndərmək istəyirdi. Beləliklə, Azərbaycan hökumətinin istəyi ilə cəmiyyətin nümayəndəsi və hərbi nazirlik tərəfindən vəzifə tapşırılan polkovnik Ququşovun sədrliyi ilə 11 zabit 24 yanvarda İran yolu ilə Naxçıvana yola düşdü.[267] Məqsədləri Araz vadisindəki vəziyyəti yaxından öyrənmək və müsəlman əhalisinə yardım etmək idi. Heyət ağır, çətin bir səfər-

---

[264] M. B.Naxçıvan - Şərur məsələsi II. Hovanisyan The Republic of Armenia Vol: I s. 232

[265] Əliyev, Qanlı günlərimiz, s.113

[266] M. B. Naxçıvan-Şərur məsələsi II

[267] Kağızmandan Y. Şövqi Paşaya 15.3.1919-cu il tarixli bir teleqram göndərmiş: "Azərbaycan hökuməti polkovnik Həsən ağa Ququşovun sədrliyı ilə 12 zabit və bir milyon manat pul Naxçıvana göndərilmişdir. (ATASE A. 4\83\4. kle. 254 s.10-6 f. 14) Naxçıvana 1 polkovnik, 11 zabit göndərilmiş və onlar pul gətirməmişlər. Pul Tiflis yolu ilə göndərilmişdi.

dən sonra Ordubada gəldi. Ordubad əhalisi tərəfindən böyük bir sevinclə qarşılanan heyət gəlmələrinin məqsədini bildirdi, onlara Azərbaycan haqqında məlumat verdilər. Ordubadı idarə edən Milli Şura İcriayyə komitəsi və Naxçıvana təyin edilən şəhər komandiri heyətə xoş münasibət bəsləyirdilər. Milli Şura İcraiyyə komitəsi Ordubad xalqının Azərbaycana birləşmək arzusuna dair protokolu heyətə təqdim etdilər.[268]

Azərbaycandan nümayəndələrin Ordubada gəlməsini telefonla Naxçıvan hökumətinə bildirdilər. Heyəti Naxçıvana gətirmək üçün Culfaya xüsusi bir qatar göndərildi. Ordubada gəlmələrinin 5-ci günü, nümayəndələr Culfaya, oradan da göndərilmiş qatarla Naxçıvana yola düşdülər. Azərbaycandan gələn zabitlər heyətini qarşılamaq həyəcanı bütün Naxçıvanı bürümüşdü. Mirzə Nəsrullah bəyin evində ziyafət hazırlanmışdı; dükanlarını bağlayan sənətkarlar stansiyanı gəzir, uşaqlar, əsgərlər milli mahnılar oxuyurdular. Elə bil ki, Naxçıvanda Novruz bayramını qeyd edirdilər. Ancaq gözlənilən saatda Azərbaycan heyəti gəlmədi, camaat evlərinə qayıtdı. Nəhayət, 20 fevral[269] axşam saat 22:00-da heyət Naxçıvana gəlmiş və böyük ziyafət verilmişdi. Yemək zamanı ədəbi söhbətlər aparılmışdı. Mir Abbas bəy Azərbaycan hökuməti və "İrəvan Vilayəti Həmyerlilər Yardımlaşma Cəmiyyəti" haqqında məlumat verdi və Naxçıvan əhalisinə hər zaman yardıma hazır olduqlarını, bu məqsədlə Paşa Bayramov və Yusif Qazıyevin 1 milyon manat pul gətirdiyini bildirdi.[270]

Fevralın 22-də polkovnik Ququşov, Mir Abbas bəy, hökumət rəisi Cəfərqulu xan və oğlu Kalbalı xan ingilis valisini ziyarətə getdilər. Vali onların kim olduqlarını və məqsədlərini soruşdu. Polkovnik Ququşov, yerli əhalinin xahişi ilə Azərbaycan hökuməti tərəfindən göndərildiklərini və məqsədləri Naxçıvanda nizamlı bir hərbi təşkilat yaratmaq olduğunu dedi. Podpolkovnik Lotn sərt cavab verdi. Onun fikrincə, hələlik Azərbaycana bağlı olmayan və kimə veriləcəyi hələ məlum olmayan bu regionda ingilis valiliyi mövcuddur. Buna görə də onlar qonaqdırlar və qonaq kimi də gedəcəklər. Mir Abbas bəyin danışması gərgin havanı yumuşaltdı və mövzu dəyişidi. Vali Cəfərqulu xana ermənilər üçün təkliflər verdi. Erməni qaçqınlarına Naxçıvana qayıtma icazəsi və ermənilərə 1000 pud buğda verilməsi təklifini irəli sürdü. Azərbaycan nümayəndələri ilə məsləhətləşən Cəfərqulu xan valiyə dedi ki, carçıları gəlməsi sülh konfransının qərarına qədər təxirə

---

[268] Azərb. Cüm. MDƏYTA f. 894. Op. 10. s. 70 Ls. Hacıyev. Qars və Araz-türk respublikaları.s.54

[269] Əliyev yazırdı ki, heyət Naxçıvana 18 fevralda gəlmişdi (Əliyev. Qanlı günlərimiz. s. 113-114).

[270] Azərb. Cüm. MDƏYTA f. 894. Op.10. s. 70.1.2. M.B. Naxçıvan-Şərur məsələsi. Əliyev. Qanlı günlərimiz. s.113-114: Hacıyev. Qars və Araz-türk respublikaları. s.54

salınmalıdır və əhalinin ehtiyacını nəzərə alaraq buğdanı qənd və neft ilə dəyişdirə bilərlər.[271]

İngilis valisi ilə danışıqlar davam edərkən şəhər xəbərçiləri xalqa səhəri gün məscidə yığışmalarını elan etdilər. Fevralın 23-də saat 11-də iclas keçirildi. Nümayəndələrin çıxışından sonra camaat Azərbaycanla birləşmək istədiyini böyük sevinclə bildirdi, məmur göndərilməsini tələb etdi. Bu vaxt divarlara xalqı Azərbaycanla birləşməyə dəvət edən elanlar yapışdırılırdı. Xan iqtidarı tərəfdarları Azəbaycana birləşməyə qarşı çıxır, elanları cırırdılar. Ancaq qarşılarına mühüm bir qüvvə çıxıb, fəaliyyətlərinə mane olurdu. Bunlar da Azərbaycana xoşniyyətlə baxan Naxçıvan əsgərləri idi.[272] Azərbaycandan gələn zabitlər qısa müddətdə əsgərlərə çox təsir göstərmişdilər. Bu da Naxçıvan hökumətini narahat edirdi.

Hökumət yanında xalqı təmsil etmək və bir növ məclis və ya məsləhət qrupu rolunu oynayan Milli Şuraya[273] seçkilər keçirilən zaman narahatçılıqlar daha da artdı. 1919-cu il fevralın 24-də saat 11-də Milli Şuranın təşkili üçün Şərur, Vedibasar, Cəhri, Əlincəçay, Nehrəm və Naxçıvan nümayəndələri Naxçıvan Bələdiyyə binasına axışdılar. Cəfərqulu xanın sədrliyi ilə açılan yığıncaq çox gərgin keçirdi. Müzakirələr zamanı Kərim xanın istefa ərizəsi oxundu, ardınca Cəfərqulu xan da vəzifəsindən istefa etdiyini bildirərək salonu tərk etdi. Yığıncaq davam edirdi. Ancaq bu dəfə də Kalbalı xan hirslənərək salonu tərk etdi. Ardınca yığıncaqda iştirak edənlər narazı bir şəkildə dağıldılar. Bir müddət sonra Şura iclasının həmin gün yenidən keçirilməsi qərara alındı, nümayəndələr çağırıldı. Salonda olan Əlincəçay, Nehrəm, Cəhri, Sələsüz və Şərur batalyon komandirləri Kalbalı xandan narazı qaldıqlarını bildirdilər və polkovnik Ququşovun üsul-idarəsi altına keçdiklərini elan etdilər.[274] Artıq Naxçıvan qarışıq bir dövrə girdi.

Keçmiş Araz-türk hökuməti rəisi Əmir bəy və yoldaşları da hakimiyyəti ələ keçirmək üçün hazırlaşırdılar. Azərbaycandan gələn zabitlərdən bir neçəsi Kalbalı xana xəbər verdi, onu özlərinin rəisi görmək istədiklərini bildirdilər. Əks-təqdirdə onlar hadisələrə tamaşaçı olmayacaqlar. Həmin gün (25 fevral) hakimiyyətə gələcək hökuməti müəyyənləşdirən toplantı keçirildi. Kalbalı xan Mir Abbas bəylə toplantı salonuna getdi. Çıxışlar çox gərgin oldu. Tərəflər bir-birlərini tapança və xəncərlə hədələyirdilər. Toplantıda olan Mir Abbas bəy və bəzi zabitlər nümayəndələri sakitləş-

---

[271] Azərb. Cüm. MDƏYTA f. 894. Op.10. S. 70.1.2. M.B. Naxçıvan-Şərur məsələsi. Əliyev. Qanlı günlərimiz. s.113-114: Hacıyev. Qars və Araz-türk respublikaları. s.54

[272] Azərb. Cüm. MDƏYTA. F. 894. Op. 10. S.. 70.1; M.B. Naxçıvan-Şərur məsələsi III. Əliyev. Qanlı günlərimiz. s.l 15; Hacıyev. Qars və Araz - türk respublikaları. s.54-55

[273] Hakimiyyəti ələ keçirən xanlar Milli Şuranı ləğv etdilər. İndi yeni seçkilər keçirilməsi nəzərdə tutulurdu.

[274] Azərb.Cüm. MDƏYTA f.894. Op. 10. s. 70.1. 2-3 . Əliyev. Qanlı günlərimiz .s.l 15-116

dirdilər. Azərbaycan nümayəndələri öz çıxışlarında mövcud hökuməti rəsmən tanıdıqlarını və onlarla işləyəcəklərini bildirdi. Buna görə keçmiş hökumət yerində qaldı. Ayrıca bir Milli Şura yaradıldı. Toplantıda iştirak edənlər, Azərbaycan hökumətindən öz işçilərini göndərməsini xahiş etdilər. Nümayəndələrin təklifi ilə könüllü surətdə Azərbaycana birləşmək üçün xahişnamə yazıldı. Bu xahişnamə siyasi, hərbi, mülki, iqtisadi, maddi və mədəni sahələri əhatə edirdi. Hökumət, Milli Şura üzvləri və əhalinin nümayəndələri tərəfindən imzalanan xahişnamə hökumət möhürü ilə təsdiq edildikdən sonra, Azərbaycan hökumətinə təqdim etmək üçün seçilən nümayəndələrə təqdim edildi.[275] Onlar ilhaq qərarını götürüb Azərbaycan hökumətinə çatdıracaq və bölgələri üçün bir sıra təkliflər edəcəkdilər.[276] Artıq Naxçıvanda sabitlik yaranmışdı. Yəqin ki, Azərbaycan nümayəndələrinin təsiri nəticəsində xanların gücü zəifləməyə, demokratik qüvvələrin nüfuzu artmağa başlamışdı.[277] Hökumət yanında Milli Şuranın olması bunu sübut edirdi.

Azərbaycan nüfuzunu yavaş-yavaş Naxçıvanda hiss etdirməyə başlamışdı. Azərbaycan Hərbi Nazirliyi tərəfindən göndərilmiş zabitlər xidmət bölgələrinə paylanmışdı.[278] Vedi, Şərur, Naxçıvan və Ordubadda 20 piyada rotası, bir batareya üçün topçu qrupu, 400 nəfərlik süvari rotası, pulemyotçular dəstəsi və Naxçıvanda bir təlim qrupu yaradılacaqdı. Mir Abbas bəyə görə, türklər gedərkən bütün silahları-topları, pulemyotları apardıqları üçün Naxçıvan əsgərlərinin əlində kifayət qədər sursat yox idi.[279] Buna görə də polkovnik Ququşov hərbi nazirliyə silah göndərilməsi haqqında raport yazmış və Azərbaycana çatdırmaq üçün Mir Abbas bəyə vermişdi.[280] İşini qutaran Mir Abbas bəy vali Lotnun köməyi ilə Tiflisə yola düşdü. Azərbaycana qayıdanda gördüyü işlər və təklifləri əhatə edən bir hesabatı hökumətə təqdim etdi.[281]

---

[275] Naxçıvandan iki, Şərur, Zəngəzur və Vedibasardan bir nümayəndə təyin edilmişdi. (Azərb.Cüm. MDƏYTA f.894. op. 10 s. 70 1.4.). Hacıyev. Qars və Araz-türk respublikaları. s.55-56

[276] Hacıyev. Qars və Araz-türk respublikaları. s.55-56

[277] ABS. Milli arxivi. 184.021/10

[278] ABS. Milli arxivi. 184.021/10.

[279] Osmanlı qüvvələri bölgəni boşaldarkən bir çox hərbi hissələrin təşkilinə və silahla təminatına kömək etmişdilər. Osmanlı hərbi dairələrinin Araz vadisində top və pulemyot saxlamalarına dair sənəd yoxdur. Ancaq erməni ordusu ilə döyüşən və qələbələr əldə edən hərbi hissələrin top və pulemyotları olmalı idi. Ermənilər də Naxçıvan türklərinin çox yaxşı silahlandıqlarını göstərirdilər. Hovanisyan. Ermənistan Respublikası. I c., s.230

[280] Azərb.Cüm.MDƏYTA f.894.op.10 s. 70.1.4

[281] Mir Abbas bəy hesabatında Naxçıvan regionu ilə əlaqədar bu təklifləri etmişdir: 1. Naxçıvanın idarəsi üçün azərbaycanlı vali təyin etmək lazımdır. 2. O, İran və Ermənistanın təsirinə qarşı çıxmalı, xanlara, nüfuzlu şəxslərə rəğbət bəsləməli, xarici təsirlərə qapılmamalı, qəti bir siyasət aparmalı, əzmli olmalı, rüşvət almamalıdır. 3. Bu xüsusiyyətlərə sahib səlahiyyətli şəxs Hərbi Nazir tərəfindən müəyyənləşməlidir. 4. Mülki idarə və məhkəmələrin idarə edilməsi üçün qəti surətdə Azərbaycandan işçi təyin olunmalıdır. 5. Naxçıvana daha çox zabit göndərilməlidir. 6. Çox zəngin olan bu region müttəfiqlər, İran və erməni təsirinə məruz qalır. Təsirin qarşısını

Azərbaycan hökumətinin dəstəyini aldığına inanan Naxçıvan hökuməti öz regionundakı müsəlmanların və həm də erməni nəzarətində olan yaxın bölgələrdəki soydaşlarının hüququnu qorumağa çalışırdı. Bunun üçün 26 fevral 1919-cu ildə hökumət və Şura üzvlərinin imzaları ilə Naxçıvandakı ingilis valisinə bir məktub göndərildi. Onlar keçmiş İrəvan vilayətinə bağlı bölgələrin (Naxçıvan-Şərur, Sürməli, Vedi, Qəmərli, Uluxanlı) müsəlmanlannın razılığı olmadan Ermənistana verilməsini protesto edirdilər.[282] Məktubda yazılmışdı ki, müsəlman xalqından heç bir üstünlüyü olmayan, əksinə bir çox cəhətdən geri qalan ermənilərə tabe olmaq mümkün deyildir. Məktubda bir çox digər səbəblər də göstərmişdir. Əvvəlcə İranla birləşmək istəsələr də, indi Cənubi Qafqazın digər bölgələrindəki müsəlmanlar kimi onlar da qanları, dinləri, mədəniyyətləri bir olan Azərbaycana birləşmək istəyirdilər. Bu istiqamətdə bir addım da atılmış, 25 fevralda Sürməli və İrəvana yaxın bölgələrdən gələn nümayəndələrin iştirak etdiyi yığıncaqda Azərbaycana ilhaq qərarı qəbul edilmişdi. İndi onlar, indiki və gələcək nəsillərin səadəti üçün vali Lotndan Azərbaycana birləşmələrində kömək etmələrinin istəyirdilər. Təbii ki, bu işdə ingilis valisi vasitəsi olmasını gözləyə bilməzdilər. Onların özlərinə məxsus siyasətləri, planları var idi.

Mart ayının əvvələrində Naxçıvan hökuməti üçün əhəmiyyətli olan daha bir hadisə baş verdi. Erməni yolunun bağlı olması ilə əlaqədar Naxçıvan-Şərur və ordubadli bir çox adam Tiflisdə qalmışdı. Əksəriyyəti Osmanlı üsuli idarəsi dövründə İstanbula göndərilən gənclərdən ibarət olan bu adamlar vətənlərinə qayıda bilmirdilər. Məsələnin həll edilməsi üçün Cəfərqulu xan 14 mart 1919-cu ildə Gürcüstandakı Azərbaycan səfiri Yusif Cəfərova bir məktub göndərdi. Məhəmməd Yusif bəydən Tiflisdəki adamların Naxçıvana göndərilməsinə kömək etməsini xahiş edən Cəfərqulu xan, Azərbaycan hökumətinə çatdırmaq məqsədilə bir sıra məlumatlar da verdi və giley etdi. O, Naxçıvanda gərgin vəziyyətdə olmuş və soyuqdan ölümlə üz-üzə qalan 100.000 müsəlman qaçqına Azərbaycandan yardım göndərilmədiyinə görə şikayət edir və hər an Bakıdan maddi və mənəvi kömək gözlədiklərini bildirirdi.[283] Belə gileylər Tağı Nağdəlizadə tərəfindən də edilirdi.

O, "İstiqlal" qəzetinin 5 aprel 1919-cu il tarixli sayında Naxçıvanla bağlı yazdığı məqalənin son hissəsində göstərilirdi ki, naxçıvanlılar Azərbaycana nümayəndələr göndərərək regiona vali təyin edilməsini xahiş edir, ancaq hələ ki, bir şəxs göndərilmədiyindən narahatdırlar. Onlar Azərbaycan

---

almaq üçün pul yardım edilməlidir. (Azərb.Cüm.MDƏYTA F.894.0n,10.s.70.1.5.). Hacıyev. Qars və Araz-türk respublikaları. s.55-57

[282] Bu dövrdə Naxçıvan və Şərur üçün belə bir layihə olmamasına baxmayaraq hökumət bəzi xəbərlər almışdı. s.145

[283] Hacıyev. Qars və Araz-türk respublikaları.s.59

hökumətinin səlahiyyətli dairələrinin Naxçıvana lazımi qədər əhəmiyyət vermələrini və tez bir zamanda fəaliyyətə başlamalarını arzu edirdilər.[284] Bu şikayətlər haqlı şikayətlər idi. Cəfərqulu xanın və Nağdəlizadənin xahiş və şikayətləri müqabilində Azərbaycan hökuməti də imkanları daxilində bir şeylər etməyə çalışırdı.

Ancaq onun ən böyük narahatçılığı Naxçıvan ilə əlaqə saxlaya bilməməsi idi. İki tərəf arasında gediş-gəliş imkanı çox ağır şərtlər altında əldə edildi. Ermənilər tərəfindən bütün yollar bağlanmışdı. Piyada yolla İran tərəfindən əlaqə yaratmaq nisbətən mümkün idi. Ancaq bu yoldan Naxçıvana maddi yardım çatdırmaq imkansız görünürdü. Ancaq bu yoldan - Tiflis yolu ilə göndəriləcək bir yardım heyəti Ermənistandan keçməyə məcbur olduğundan ingilislərin köməyinə ehtiyac var idi. İngilis hərbi dairələri isə belə bir kömək etməyi heç fikirləşmirdilər. Bəhram xanın sədrliyi ilə Bakıya gələn Naxçıvan heyətindən region haqqında mühüm məlumat əldə edən Azərbaycan hökuməti Araz vadisinə bir heyət göndərməyi qərara almışdı.[285] Araz vadisində erməni zülmündən qaçaraq qaçqın olmuş müsəlmanlara bir milyon manat pul yardım gətirən, onların vəziyyətini yaxından incələyən heyətin Naxçıvana təhlükəsiz gəlməsi lazım idi. Onun üçün də Azərbaycan Nazirlər Şurasının sədri Fətəli xan Xoyski 3 aprel 1919- cu ildə ingilis generalı Tomsondan kömək istədi. İngilis hərbi dəstəsinin heyəti mühafizə etməsi lazım idi. General Tomsonun cavabı mənfi oldu. O, Azərbaycan heyətinin region üçün fayda gətirməyəcəyini bildirdi və ingilis idarəetməsi altında olan bölgələrə gedəcək nümayəndələrə təhlükəsizlikləri üçün dəstə verilməsini də məqsədəuyğun saymırdı.

Şübhəsiz ki, Azərbaycanın əvvəlcədən nəzərdə tutulmuş bir sıra planlarına Tomsonun bu hərəkəti mane olacaq idi. Azərbaycan hökuməti bir tərəfdən Ağdam-Füzuli-Naxçıvan arasında poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizəsi üçün fəaliyyətə başlayır, digər tərəfdən Naxçıvan və Qarsa çox böyük ehtiyacı olan neft göndərmək barədə düşünürdü.[286] Ancaq bütün bu işlər ingilislərin köməyi ilə mümkün idi və onlar da belə bir köməyi etmirdilər. Tomsonun mənfi cavabı onların Cənubi Qafqazda siyasətini dəyişməsinə bir işarə idi. Onlar artıq müqavilədə göstərilmiş region torpaqlarını bölüb, özləri də aradan çıxmaq istəyirdilər. Naxçıvan-Şərur bölgələrini ermə-nilərə vermək istəyən ingilis dairələri, strateji nöqtələri ələ keçirmiş, hərbi güclərini artıraraq yerli hökuməti əzmək siyasəti tətbiq edirdilər.[287] Azərbaycan zabitləri buradan uzaqlaşdırılır, türk təbəələri həbs edilir, bəzi bölgələrdə əhali

---

[284] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi.

[285] Heyətdə Teymur bəy Makinski, R. İsmayılov və doktor Qənizadə var idi. (Hacıyev. Qars-Araz-türk respublikaları. s.62).

[286] Hacıyev.Qars və Araz-türk respublikaları. s.61-62

[287]USA NA. Paris Peace Conferance 184 021\10 Hovanisyan.Erməni Respublikası. vol 1: c.215,216,236

silahsızlaşdırılırdı.[288] Artıq Naxçıvan hökumətinin varlığı-yoxluğu bəlli deyildi. Onlar ancaq etirazlarını bildirir, irəli gedə bilmirdilər. İngilis valiliyi bütün inzibati və hərbi orqanları nəzarəti altına almışdı. Naxçıvan camaatı üçün qəmli günlər yaxınlaşırdı.

[288] Tamaşaçı. Naxçıvan məktubları 1. Ermənilər Naxçıvana necə sahib oldular? Azərbaycan, 9 iyul, №-220. Əliyev. Qanlı günlərimiz

# III B Ö L M Ə

## Naxçıvanda ingilis və erməni idarəçiliyi, Amerika general qubernatorluğunun yaradılması təşəbbüsləri

### a) Naxçıvanda ingilis idarəçiliyi
### 1. İngilis hərbi qubernatorluğunun təşkili

Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Osmanlı dövləti çox güclü bir şəkildə yerləşdiyi Qafqaza vida etdikdən sonra, onun yerini Antanta Dövlətləri adından İngiltərə tutmaq üzrə idi. Onlar o qədər sürətli hərəkət edirdilər ki, hələ Osmanlı qüvvələri regiondan tamam çıxmamış əsas mərkəzləri işğal etdilər. 17 noyabrda Bakı 27 dekabr 1918-ci ildə isə Batumi ingilis qüvvələrinin nəzarəti altına alınmışdı.[1] Strateji cəhətdən böyük bir əhəmiyyət kəsb edən Cənubi Qafqazda əsas mərkəzləri nəzarət altına alan İngiltərə bir tərəfdən dünya siyasətində nüfuzunu artırmış, digər tərəfdən, bölgədəki camaatın himayəçiliyini öz üzərinə almışdır. İlk əvvəllər hadisələrə humanist bir şəkildə yaxınlaşmaq qərarında olan ingilis hərbi dairələri Cənubi Qafqazda qanayan yaraya məlhəm qoymaq istəmişdilər. Buna görə də çətin vəziyyətdə olan bölgələrə qüvvə göndərərək, insanlar arasında olan kin-küdurəti aradan qaldırmaq və bilavasitə müharibəyə mane olmaq istəyirdilər. Bu cəhətdən ingilisləri düşündürən ən mühüm məsələlərdən biri qaçqınlar məsələsi idi. Təbii ki, bu onların ilk düşündükləri qərbin məzlum uşağı rolunu oynayan ermənilərdi, erməni qaçqınları idi. Elə ingilislərin Naxçıvan ilə ilk əlaqələri də bu erməni qaçqınları məsələsilə bağlı oldu.

1918-ci ilin dekabrında ingilis hərbi dairələrinin təsiri ilə Gorusa gedən Andranik, burada böyük bir sıxıntıya düşmüşdü. Regiona yığışmış qaçqınların dolanması üçün imkan yox idi. Qaçqınları evlərinə göndərmək lazım gəlirdi. İlk mərhələdə 15 000 erməni qaçqınlarının Naxçıvana göndərilməsi qərara alındı.[2] Bu məqsədlə Andranik Naxçıvana məktub göndərdi və məktubda bölgədən olan qaçqınların şərtsiz qəbul edilməsini tələb etdi. Naxçıvanlı səlahiyyətlilər də İrəvana bir heyət göndərdiklərini və onun aparacağı danışıqların nəticəsinə qədər bir qərar vermələrinin mümkün

---
[1] Gotthard Jaeschke, «Der Freileitskampf Des Turkischen Volkes Ein Beitrag Zur Politischendechicte der Nachkriegzeif» Des Islams, Band 14, (Berlin, 1932), s. 9 dn, 47

[2] Richard. C. Hovannisian The Republic of Armenia Volume I. The First Year 1918-1919 Los Angeles, 1971 c. 189- 190

olmadığını bildirdilər.[3] Naxçıvandan mənfı cavab gəldiyindən işə ingilislər qarışdı. Bakıdan Zəngəzurdakı erməni mühacirlərə bir milyon manat pul yardımı gətirən Vilyam Gibbon məsələni həll etmək üçün Naxçıvana göndərildi.[4] 14 yanvar 1919-cu ildə Naxçıvan hökumətinin səlahiyyətli şəxsləri ilə görüşən V.Gibbon əvvəl çox ümidli idi. Naxçıvanın nüfuzlu şəxsləri ona hörmət göstərir, dərdlərini deyirdilər.[5] Ancaq V.D.Gibbon, Naxçıvana erməni mühacirlərinin məsələsini həll etmək və onları buradakı evlərində yerləşdirmək üçün gəldiyini deyincə vəziyyət gərginləşdi. Naxçıvanın nüfuzlu şəxsləri keçmişin acı təcrübələrini, Ermənistandakı müsəlmanlara qarşı edilən hərəkətləri, erməni hücumlarından qaçaraq Naxçıvana və İrana sığınan on minlərcə müsəlman mühacirlərinin acınacaqlı vəziyyətini unutmamışdılar, hər şey göz qabağında ikən belə bir təklifi qəbul edə bilməzdilər və etmədilər də. Gibbon təcili Naxçıvandan getməli oldu. Zəngəzura qayıdan Gibbon qaçqınların vəziyyətinin hələlik yaxşı olduğunu və onlar Araz vadisinə köçərlərsə, təhlükəsizliyinə təminat verilməyəcəyini bildirdi.[6]

V.D.Gibbonun getməsindən qısa bir müddət sonra İrəvandakı Naxçıvan nümayəndəsi Mirzə Cabbar Məmmədov telefonla məlumat verdi ki, 30 nəfərlik bir ingilis heyəti Naxçıvana yola düşmüşdür.[7] 18 yanvarda İrəvandan yola düşən kapitan Fridrix İsfıld Lotnun sədrliyində ingilis heyəti səhərisi gün saat 9:00-da Naxçıvana gəldi.[8] Naxçıvan dəmiryol stansiyasında baş komandan Kərim xan, tabur komandiri Bəhram xan və jandarma komandiri Məhəmməd Əli xan tərəfindən qarşılanan ingilis heyətinin tərkibində (Əliyevə görə) kapitan Lotn, köməkçisi, şotlandiyalı zabit, bir mühəndis, Naxçıvanda doğulmuş, böyümüş və rus ordusunda aşağı rütbəli bir zabit Saşa Şanov, Naxçıvanın Təzəkənd kəndindən iki erməni və iki minə yaxın ingilis əsgəri[9] var idi. İngilis heyəti bir az istirahət etdikdən sonra şəhəri gəzməyə çıxdı. Tərk edilmiş erməni evlərini gəzdilər. 20 yanvar 1919-cu ildə Milli Şura üzvləri ilə ingilis heyəti müştərək bir yığıncaq keçirdi. Bu qərarları qəbul etdilər:

---

[3] Mirzə Bağır Əliyev. Qanlı günlərimiz (1918-1920, Naxçıvan ). Bakı, 1993, s.99-100

[4] Hovannisian. The Republie of Armenia s.190. Q. Mədətov Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Nax. MSSR-nin təşkili 1958, s.45.

[5] Mirzə Bağır Əliyev. Qanlı günlərimiz. s. 104-105.

[6] Hovannisian. The Republic of Armenia Vol: Ic. 190.

[7] Belə bir xəbər yayılmışdır. İngilis nümayəndələri İrəvan-Naxçıvan dəmiryolunu təmir edib, erməni mühacirlərini öz evlərinə gətirmək istəyirlər. Əliyev. Qanlı günlərimiz, s. 106.

[8] Əliyev. Qanlı günlərimiz s. 105-106. Hovannisian. The Republic of Armenia Vol: I c. 230

[9] Əliyev. Naxçıvana ilk mərhələdə 2 min ingilis əsgərinın gəldiyini yazır. Rəqəm bir qədər böyüdülmüşdür. İngilis mənbələrinə istinad edən Hovanisyana görə, F. E. Lauteni Naxçıvan səfərində piyada briqadasının leytenantı F. L. Şvindin komandirliyindəki 4-cü batalyonun bir rotasından təşkil olunmuş bir dəstə qoruyurdu. Hovannisian. The Republic of Armenia Vol: 1 s.230, dn 8.

Dəmiryolu ingilislər tərəfindən təmir ediləcək və istifadəyə veriləcək. 2. Teleqraf xətləri açılacaq, Culfadan Sədərəyə qədər Naxçıvan türklərin nəzarətində, Sədərəkdən İrəvana qədər ermənilərin nəzarətində olacaq. 3.Müsəlmanların sərhədi Arazdəyən, ermənilərin sərhəddi İrəvan Yengicəsi olacaqdır. 4. Dəhəkənd nahiyəsində Danzik müsəlman nəzarətində, ərəbə isə erməni nəzarətində sərhəd təşkil edəcəkdir. 5.Naxçıvan müsəlmanları Amerika Yardım heyətinə erməni qaçqınlara paylamaq üçün 10.000 pud buğda, pudu 50 manatdan verəcəkdir.[10]

Naxçıvanda Şura hökuməti ilə görüşüb razılaşan kapitan F.İ.Lotn Naxçıvanda hərbi qubernatorluq yaradılmasını və cənubdakı silahlı qüvvələrin İrəvana çəkilməsi üçün Ermənistana əmr verilməsini təklif edən bir raportu təcili 27-ci diviziya qərargahına çatdırdı. 26 yanvarda general Georgi, T.Foristr Valker, hərbi kəşfiyyat şefi Vilyam N. Biiç, ştab rəisi Çarls Q.Qarten Belev 8-ci briqada komandiri Robert N. Styvard və müavinləri bir yerə toplandılar. Müzakirələr nəticəsində Lotn podpolkovnik rütbəsilə Naxçıvan regionuna qubernator (vali) təyin edildi və ona 8-ci briqadadan bir rota göndəriləcəyi bildirildi. Naxçıvanın yeni ingilis hərbi valisinə 26 yanvar tarixli rəsmi əmrlər, 3 gün sonra yola düşəcək Qonvel Dukunun 132 nəfərdən ibarət piyada əsgərlərin müşaiyəti ilə təqdim ediləcək idi. Paris Sülh konfransı regionun gələcəyi haqqında qərar verənə qədər ingilis valiliyinin (qubernatorluğunun) qanun və nizam-intizamı qoruması üçün yaradıldığının bildirilməsi Lotndan tələb edilirdi.[11] Podpolkovnik Lotn vəzifəsi ilə əlaqədar əmrlər göndərildiyi zaman o da rəislərinə 2-ci əsas bir təklif göndərdi.

Təklifdə deyilirdi: Əgər sabitliyin qorunması üçün şimal sərhədini genişlədib türklərin əksəriyyət təşkil etdiyi bölgələri Ermənistandan ayırmaq istəmirsinizsə, bu məsələ ilə əlaqədar ermənilərlə görüşün.[12] Lotn bu təklifi edərkən Ermənistan-Naxçıvan sərhədində bir sıra hadisələr baş verdi. Ermənilər Dəvəli ətrafında olan Əfşar kəndinə hücum etmiş və ancaq müsəlmanlar tərəfindən geri oturdulmuşdu. Kalbalı xan ilə sərhədə gedən Lotn burada erməni zabitlərini məzəmmətlədi, geri çəkilmələrini tələb etdi. Ancaq erməni zabitləri ona qulaq asmaq istəmirdilər. Bundan qəzəblənən Lotn İrəvana getdi.[13] Lotn Erməni hökumətinə bildirdi ki, İrəvanın cənubunda, yəni Naxçıvan sərhədinə yaxın bölgələrdə ancaq mülki vəzifəlilər qala bilər və onların da onun göstərişlərinə tabe olmaları üçün əmr verilməlidir. Erməni hökuməti bu təklifi qəbul etmədi. Lotn İrəvandan qayıtdı. Ardınca

[10] Əliyev.Qanlı günlərimiz s.107
[11] Hovannisian. The Republic of Armenia Vol: 1 s-231
[12] Hovannisian. The Republic of Armenia. Vol: I, s.231
[13] Qanlı günlərimiz s. 110-111

general Volker və general Eser Naxçıvana yola düşdülər, 6 fevralda Lotnun onları gözlədikləri Baş Noraşenə çatdılar. Qatarda keçirilən yığıncaqda Naxçıvan valiliyinin nəzarət sahələri genişləndirildi. Qurd qapısı və Sədərəkdən Vedi çayına qədər. Bu bölgələr bitərəf zona olacaq və 8-ci briqadanın birinci və ikinci rotaları tərəfindən qorunacaqdı. Qəbul edilmiş qərara görə Volker Dəvəlidə 50 nəfərlik bir qüvvə istisna olmaqla,[14] erməni əsgərlərinin 8 fevralda Vediçaya çəkilməsi əmrini vermək üçün İrəvana getdi. Kaçaznuni kabineti etiraz etdisə, ingilis hərbi dairələri buna qulaq asmadılar. Nəticədə, 10 fevralda erməni qüvvələri Qəmərli çayının arxasına çəkildilər.[15] İngilis hərbi dairələri daha əvvəllər Lotna təklif etdikləri kimi türklərin əksəriyyət təşkil etdikləri bölgələri öz nəzarəti altına almalı[16], iki tərəf arasında baş verə bilən münaqişənin qarşısı alınmalı idi.

Səhərisi gün Naxçıvanın ingilis valisi podpolkovnik Lotnun yanında iki erməni nümayəndəsi və İrana gedən ingilis konsulu Naxçıvana gəldi. Qubernatoru təntənə ilə qarşılayan naxçıvanlılar onun şərəfinə ziyafət hazırlamışlar. Qarşılama və ziyafət mərasimləri qurtaran kimi Lotn qubernatorluq vəzifəsinin icrasına başladı.[17] Xalqın ağır vəziyyətini aradan qaldırmaq üçün ilk olaraq bir osmanlı lirəsinin 25 manatdan aşağı olmaması haqqında əmr verdi.[18] İkinci və daha mühüm olan isə bu idi ki, Şərurda rəisləri ilə qəbul edilmiş qərarları bütün Naxçıvan əhalisinə çatdırmaq üçün bir bəyanat nəşr etdirdi:[19]

1.Təhlükəsizlik və asayiş üçün Araz çayının bütün sərhədi müvəqqəti olaraq ingilis hökumətinin əlində qalacaq.

2.Yuva kəndindən qədim İrəvan quberniyasının sərhədinə qədər olan yerlər müvəqqəti ingilis idarəçiliyində olacaq, icranı hökumət edəcəkdir. (Yuvadan Sədərəyə qədər olan yerlərdə, yəni bitərəf zonada idarəetmə ingilislərin əlində olacaq, hökumət işçiləri isə müsəlmanlar olacaq.) 3.Bitərəf zonadan bu yana,Sədərəkdən başlayıb Culfaya, Ordubada qədər Naxçıvan hökuməti (bir müsəlman hökuməti belə) də ingilis nəzarətində olacaqdır. 4.Erməni hökuməti öz əsgərlərinin hamısını müsəlman sərhədlərindən

---

[14] Lautenin Naxçıvanda nəşr etdiyi bəyannamədə bu rəqəm 40 göstərilmişdir. (M.B. Naxçıvan-Şərur məsələsi II Azərbaycan 20 iyul 1919;№229)

[15] USA Na Paris Peace Conferance 184.021/17. Hovannisian. The Republic of Armenia Vol. I. c 232.

[16] Ümumiyyətlə, Vedi bölgəsini əhatə edən bu məntəqə müsəlmanların nəzarəti altında idi. Ancaq daim erməni hücumlarına məruz qalırdılar. Ermənilər heç cür bu bölgəni ələ keçirə bilmirdilər.

[17] Naxçıvandan 3 km. aralı hərbi kazarmada yaşayırdı, (C.B.Quliyev, Q.Mədətov, A.A.Nadirov), Sovet Naxçıvanı Bakı, 1984, s.28

[18] Əliyev. Qanlı günlərimiz. s.112-113

[19] Bəyannamə 59 maddədən ibarətdir. M.Bali daha mühüm olanları göstərmişdir.( M.. Naxçıvan-Şərur məsələsi II)

geriyə çəkəcəkdir. Kiçik bir dəstədən-40 nəfərdən ibarət erməni əsgəri də, ingilis əsgəri ilə bərabər Dəvəlidə qalacaqdır.

İngilis qubernatorunun imzası ilə nəşr edilən bəyannamədə açıq-aydın göstərilmişdir ki, erməni və Naxçıvan hökuməti arasında fərq yoxdur, hər ikisi ingilis dairələri üçün eynidir. İngilis dairələri, müsəlmanların çoxluq təşkil etdiyi bölgələri felən erməni hücumlarından qoruyub öz idarəçiliyi altına alır, yerli əhaliyə bir sıra vəzifələr verməklə türk əhalini məmnun etməyə çalışırdılar. Hər addımbaşı da ermənilərlə müsəlmanlar arasında fərq qoymadıqlarını iddia edirdilər. Onlar beləcə Naxçıvan regionunda nüfuz qazanmağı fikirləşirdilər. Əvvəl kifayət qədər qüvvələri olmadığına görə güclü hərbi təşkilata sahib Naxçıvan hökumətindən çəkinirdilər. Ancaq ingilislərin Naxçıvan ətrafındakı bölgələri öz idarəçiliyi altına alıb, bununla türk və ermənilərə qarşı eyni cür davrandıqlarını göstərmələri müsəlmanları aldatmaqdan başqa bir şey deyildir. İngilislərin bitərəf zona elan etdikləri bölgənin böyük bir hissəsi əslində müsəlmanların nəzarətində idi. Naxçıvanda onlar erməniləri ciddi məğlubiyyətə düçar edərək oradan çıxarmışdılar. Erməni gücü buralara girə bilmirdi. Hər bir hücüm böyük bir məğlubiyyətlə nəticələnirdi. İngilislər, Erməni hücumu qarşısında olan bölgələri bitərəf zona elan etməklə hücumların qarşısını aldılarsa da, dedikləri kimi, əhalisinin əksəriyyəti müsəlman olan regionun gələcəyini heç fikirləşmirdilər. Erməni işğalı altında olan türk bölgələrinə-Qəmərli, İqdır, Uluxanlıya əhəmiyyət vermir, bu regionun əhalisinin müstəqil yaşaması üçün heç bir cəhd göstərmirdilər. Bu da Poidbardın dediyi kimi, ingilisləri düşündürən yaşaya biləcək bir Ermənistan yaratmaq idi.[20] Hələlik ingilislərin bu sahədəki niyyətləri bəlli olmurdu, ancaq gələcəkdə görəcəyimiz kimi, onlar erməni nəzarətində olmayan bölgələri belə, öz qüvvələrinə istinad edərək, Ermənistana vermək üçün çalışacaqdılar.

## 2. Naxçıvanda ingilislərin fəaliyyəti

Naxçıvanda ingilis rəhbərliyi işə yaxşı başlamışdı. Xalq və idarə rəhbərləri çox şikayət etmirdilər. İnglislərin ermənilərlə, türklərlə eyni səviyyədə davrandıqları, bəzi erməni təkliflərinə qarşı sədd çəkmələri türk əhalisinin xoşuna gəlirdi. Naxçıvanda kifayət qədər gücə sahib olmamasından irəli gəlir ki, qubernator Lotn bütün səlahiyyətli şəxsləri əlinə ala bilməmişdi.[21]

[20] Poidbard. İran yollarına səyahət. (Tərc. Nəzmi və Əmin) İstanbul 1341. s.112. Tiflisdə ingilis generalı Biiclə görüşən Azərbaycan rəsmisi Azərbaycanın sərhədlərini ifadə edəndə Biic belə halda Ermənistanın yox ola biləcəyindən şikayətləndi. (Azər.Cüm.MDƏYTA, F.970.Op-1. D-42, L-3-4); İzvestiye. SSP 1. EA. Tarix. Fəlsəfə. Hüquq. B.1990. №2, s.61-63.

[21] Mədətov Naxçıvanda qurulan ingilis valiliyinin olduqca səlahiyyətli olduğunu isbat etmək üçün yazırdı: "ingilis işğalçıları Araz cümhuriyyətini dağıtdılar, parlamenti qovdular. Türk tərəfdarı olan Kərim xan İrəvanlı Əli Mərdan bəy Nərimanbəyovu hökumət üzvlüyündən çıxartdı, öz adamlarını Bənəniyarskini və Nehrəmlini təyin

Mühüm məsələlərdə o, Naxçıvan hökumətindən icazə istəyir, təklif edə bilirdi. Belə ki, 22 fevralda Azərbaycandan gələn heyətin, hökumət rəisi Cəfərqulu xanın və oğlu Kalbalı xanın iştirak etdiyi toplantıda qubernator ermənilərin Naxçıvana və yaxın erməni kəndlərinə qayıtmaları və Şərurdan Ermənistana 1000 pud buğda verilməsi üçün icazə istədi. Hökumət nümayəndəsi bildirdi ki, qaçqınların qayıtması sülh konfransının qərarına qədər təxirə salınmalıdır. Buğda isə əhalinin ehtiyacı olan mallarla dəyişdirilə bilər. Başqa bir toplantıda qubernator bir az sərt davranan kimi Azərbaycan heyətindən Mir Abbas bəy Kalbalı xana dedi ki, Lotna vəzifəsinin bildirilməsi lazımdır.

İngilis vali Lotn naxçıvanlıların qəbul etdiyi təkliflərdə onları məcbur etmir və ya edə bilmirdi. Bəlkə də, həqiqətləri gördüyündən erməni tələblərinə sədd çəkirdi. 20-26 fevralda rəhbərlərinə göndərdiyi raportda o, erməni hökumətinin tələbi ilə Naxçıvana qaçqın göndərilməsi təklifinə qarşı çıxırdı. Onun fikrincə, indi qaçqınların qayıtması tezdir və bu tərəflər arasında münaqişə çıxmasına səbəb ola bilərdi.[22] Eyni vaxtda da general Volker buna bənzər fəaliyyətlər göstərirdi. Erməni qüvvələrinin Sürməlidə, Naxçıvan sərhədlərinə yaxın bölgələrdə (Aralıq ətrafında) toplanmasını, güclənməsini qadağan etdi. Ermənilər bu vəziyyətdən acı-acı şikayətlər edir, ingilislərin qadağan qoymalarının türklər üçün sərfəli olduğunu isbat etməyə çalışırdılar. Buna görə də Erməni Müdafiə Naziri Haqverdiyan 28 fevral 1919-cu il tarixli raportunda yazırdı: “Müsəlmanlar məsələnin həllini gözləmir, Qars və Naxçıvanı qızışdıraraq türk-rus sərhədi boyundakı geniş bölgəni işğal etmək istəyir. Beləcə Rusiya Ermənistanı Türkiyə Ermənistanından ayrılacaqdır.[23]

Ermənilər Naxçıvana hücum edəndə müsəlman qüvvələri həm cəbhədə döyüşür, həm də arxanı möhkəmləndirirdilər. Naxçıvanlılar Böyük Vedi ilə daim təmasda olan Aralığı möhkəmləndirməyə çalışırdılar. Aralıq müsəlmanlarının təşkilatını yaratmaq Maku xanına tapşırıldı. Onun nümayəndəsi tez-tez Aralıq və Şərura çağırıldı. Aralıq və Şərur arasında teleqraf xətləri təmir edilirdi. Ermənilərin Dəvəlidən Qəmərliyə çəkilməsi, türklərin Şərurdan Aralığa qədər güclərini mühafizə etmələrini təmin edirdi.[24]

---

etdi. Əsgərlərin xərcini fəqir xalqdan alırdılar. Q.Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili, B, 1958, s. 46-47. Quliyev, Mədətov, Nadirov. Sovet Naxçıvanı, s. 28). Biz Mədətovun ifadələrinin doğru olduğuna şübhə edirik. Heç bir mənbədə Lautenin belə sərt davranışlarına rast gəlmədik Hökumətlə, əhali ilə sərt davranması mümkün deyildir. Əsərin əvvəlində göstərilirdi ki, ingilislərin Naxçıvandakı mövqeləri möhkəm deyildir, dəmiryolunu və şəhəri əldə saxlaya bilmirlər, vali qorxudan şəhərdən 3 km aralı kazarmada qalır, indiki fikirlərinin əksinədir. Naxçıvanda hökumət və parlamentin dagılması üçün müvafiq vəziyyət mövcud deyildir”.

[22] Hovannisian. The Republic of Armenia. Vol 1. c.233

[23] Bölgədəki bəzi Amerika rəsmiləri də eyni fikirdədir. Onlar Sürməli və Aralıqdakı hərəkatın Qarsdan Naxçıvana qədər yayıldığını, İrəvan-Van yolunu qapatmaq və beləcə də müsəlman zəncirini yaratmaq məqsədi daşıdığını ifadə etmişdir. (USA. NA. Paris Peace. Conferance 814.021/10).

[24] Ermənilər Sürməli bölgəsinin şərqində ancaq Daşburuna qədər irəliləyə bilmişdir. Aralıq-Başkənd tərəfində yerli müsəlmanlar seçdikləri Milli Şura tərəfindən idarə olunurdu. Sürməlinin qərbində yerləşən Qulp bölgəsində vəziyyət fərqli deyildir. Müsəlmanlar erməniləri yurdlarına buraxmayıb, müstəqilliklərini qoruyurdular. ( M.B. Naxçıvan-Şərur məsələsi II)

Fevralın ilk yarısında alınan məlumata görə, müsəlmanların ermənilərə qarşı müqavimət qüvvələrinin Sürməli bölgəsinin cənub sərhədi boyunca, Aralığın qərbinə doğru yerləşdirilməsi nəzərdə tutulmuşdu. Aralıqdan İqdıra və Uluxanlıya[25] müsəlman əhalisini üsyana qaldırmaq üçün adamlar göndərildi. Aralıqdan bir hücum olarsa, bu mümkündür ki, İqdır və Qulpdağı hərbi dəstələrin İrəvan ilə əlaqəsi kəsiləcək, bütün Sürməli bölgəsi müsəlmanların əlinə keçəcəkdi. Bu vəziyyət Erməni Cümhuriyyətinin varlığını təhlükəyə salır. İngilislərin 8-ci piyada alayı bölgəni Naxçıvan-Şərur və Qars müsəlmanlarından qoruya bilməzdi. Bunun üçün Aralığın işğalı əsas şərtdir. Əgər işğal ingilis hərbi dairələrinin əmri ilə yerinə yetirilməzsə, erməni birlikləri Aralığa hücum etsələr, müsəlmanların müqaviməti ilə qarşılaşacaqlar.[26]

Haqverdiyan hadisələri şişirdilmiş göstərməyə çalışsa da, onun haqlı olduğu cəhətlər də vardır. Həqiqətdə də ingilis hərbi valisi idarəçiliyindəki Naxçıvan və onun bölgələrində təşkilati işlər başlanmışdı. Azərbaycandan gələn zabitlər Naxçıvan, Şərur, Vedi və Ordubadda hərbi hissə yaratmaq üçün fəaliyyətə başlamışdır.[27] Amerika və Fransanın informasiya mənbələri Naxçıvandakı təşkilatlanma işlərindən bəhs edirdilər.Onlara görə; 1) Türk (tatar) hərəkatına alman təsiri mövcuddur və Təbrizdəki alman konsulluğu bu işi dəstəkləyir, 2) Azərbaycan zabitləri Naxçıvanın bütün kəndlərinə gedərək, hərbi təşkilatlanma ilə məşğul olurmuşlar, 3) Maku xanı Şimaldakı dindarları dəstəkləyir, hətta orda düşərgələri də var; 4) Naxçıvanda olan Türk zabitləri də yerli əhalinin təlimində mühüm rol oynayır.[28] Tiflisdəki Amerika missiyasının sədri Noraşendə bir türk çavuşu ilə şəxsən görüşdüyünü, Naxçıvandakı türklərin sayını dəqiq bilməsə də, şəhər telefon stansiyasında bir türk olduğunu bildirirdi.[29] Lotnun yerinə Naxçıvana qubernator təyin olunan polkovnik Simpson da bölgədəki hadisələri görmüş, əlaqədarların diqqətini çəkmişdi.[30]

Naxçıvandakı ingilis qüvvələri dəmiryolunu nəzarətlərində saxlamaq məqsədilə Noraşen, Şahtaxtı, Naxçıvan və Culfa stansiyalarında müəyyən qədər əsgər saxlayır,[31] yardım göstərirdilər. Yardımın ağırlıq nöqtəsi, ermənilərin ifadəsi ilə desək, Ermənistanda olan naxçıvanlı və türkiyəli

---

[25] Naxçıvandan İrəvan yolu ilə Bakıya qayıdan Mir Abbas bəy, Qəmərli və Uluxanlıda ermənilərin vəhşi hərəkətləri nəticəsində müsəlman qalmadığını bildirmişdir. (Azərb.Cüm. MDƏYTA F. 894. On 10 s. 70. 1. 5.)

[26] USA NA Paris Peace Conferance 184 021/7. Hovannisian. The Republic of Armenia Vol : 1. c. 233.

[27] Azərb.Cüm. MDƏYTA f. 894. On 10 s. 70. 1. 4.

[28] USA NA Paris Peace Conferance 184 021/10. USA NA Near Easlern Affairs 867. 00/1100.

[29] USA NA Paris Peace Conference 184.021/10.

[30] USA NA Near Eastern Affairs 867. 00/1100

[31] USA. NA Paris Peace Conferance 184 021/10. Ə.Əliyev. Araz-türk cümhuriyyəti; Yaddaşdan xatirələr, Azərbaycan, 1 may 1991, №18 (81). Hovannisian. The Republic of Armenia Vol: 1.c.207, dn. 17.

mühacirlər idi.[32] “Transkafqaziya post” qəzetinin 28 fevralda verdiyi xəbərə görə 5 gün ərzində Batumiyə 5.000 ton un gətirilməsi gözlənilir. Onlar Batumidən dərhal Gümrüyə, İrəvan, Naxçıvan və digər bölgələrə göndəriləcək və qaçqınlara paylanılacaqdı. [33] İngilis valiliyinin Naxçıvanda olan türk qaçqınlara yardım etməsi haqqında hər hansı bir məlumata rast gəlmirik. Ancaq onların ermənilər lehinə bir çox işlər gördükləri bəllidir. Naxçıvana gəldikləri gündən bəri Ermənistandakı qaçqınlara buğda almaq üçün çalışırlar. Türklər verdikləri buğdanın əvəzini istəyəndə iş düyünə düşürdü.[34] Nəticədə ingilis dairələri bu məsələni həll etdilər. Naxçıvandan buğda satın almağa başladılar.[35] Buğdalar Ermənistana göndərilərək mühacirlərə paylanırdı.

İngilis hərbi dairələri Ermənistanın hər cəhətdən dəstəkləməyə çalışarkən, onlar da ingilis rəhbərliyindən şikayətlərini edir, hər zamankı məzlum rolunu oynamağa çalışırdılar. Ermənistan Xarici İşlər Naziri Tiqranyan Parisdə olan erməni nümayəndələrinə verdiyi məlumatda qısaca bunları ifadə edirdi: “Şərur və Naxçıvan müvəqqəti olsa da, bizdən alınmış, ingilis hərbi qubernatorluğu yaradılmışdır[36] və erməni birlikləri müsəlman sərhədlərinə yaxın bölgələrdən uzaqlaşdırılmışdır. Türklər eyni oyunu Sürmölidə oynamaq üçün hazırlıq görürlər. İngilis dəstəyi ilə Qarabağ Azərbaycan idarəçiliyinə verilmişdir. Axıska, Axılkələk türklər tərəfindən gürcülərin əlindən alınmışdır. Beləcə, ingilis hərbi nüfuzunun mövcud olduğu bölgədə Zaqafqaziya türk millətçiliyi alman-osmanlı üsuli-idarəsində elədiklərindən daha nəzərə çarpan şərtlər irəli sürür. Bunlar bizi qorxuya, stressə salan səbəblərdir. Təbii ki, bu vəziyyətin səbəbi ingilis hərbi qüvvələrinin zəifliyidir. Keçən yaz və yay aylarında almanlar türk komandanlarının istəklərinə necə boyun əyirdilərsə, ingilis generalları indi həmin vəziyyətdədirlər. Bütün bunlar sadəcə Ermənistanın gücsüzlüyünü deyil, eyni zamanda İngiltərənin zəiflədiyini göstərir. Çünki ingilis hərbi rəhbərliyi gücsüzdür və türklər də onlar üzərində nüfuz və gücünü göstərdilər”.[37]

Təbii ki, Tiqranyan hadisələri öz mənfəətləri baxımından qiymətləndirir, ingilisləri şikayət edirdi. Özü də yaxşı bilirdi ki, türklərin fəaliyyət göstərdiyindən şikayət etdiyi bölgələrdə əhalinin əksəriyyəti müsəlman-

---

[32] The Trans Coicasion. Post, 25 Fevruary 1919 № 2

[33] The Trans Coicasion. Post, 28 Fevruary 1919 № 3

[34] Azərb.Cüm. MDƏYTA. F. 894 On. 10. s. 70. L.2.

[35] Amerikan məlumatlarına görə Naxçıvan və Makuda müsəlmanların böyük taxıl anbarları var və tarlaları əkilmişdir. USA NA Paris Peace Conferance 184 021/10. 184 021/18.

[36] Tiqranyan Parisə göndərdiyi məlumatın sülh konfransında iştirak edəcək digər dövlətlərə veriləcəyini bildiyindən, hadisələri şişirtməkdə, məzlum rolu oynamaqda idi. Həqiqətdə isə onlar Şərur və Naxçıvanı almaq istəmiş, ancaq müdhiş məğlubiyyətə uğramışlar. İngilislər türk nəzarətində olan bir bölgədə valilik yaradılmışdır Ermənilərin əlindən Şəruru və Naxçıvanı almışdır. Almaq niyyətləri olsa idi Sürməlini də alardılar.

[37] Hovannisian.The Republic of Armenia Vol: s.235

lardır. 1918-ci ilin əvvəllərində İrəvan daxil olmaqla, yaxınlığında yerləşən bütün bölgələrdə çoxlu türklər yaşayırdılar.[38] Ancaq onların müstəqil və böyük bir Ermənistana ehtiyacları var idi. Azlıq təşkil etmələrinə baxmayaraq, Araz vadisi onların qan damarları idi. Araz vadisi olmadan yaşamaları mümkün deyildi. [39] Özləri bu bölgələri tək başlarına ələ keçirə bilmədiklərinə görə müttəfiqləri ingilislərə arxalanırdılar. Həqiqətən də, əvvəl Qafqazda kifayət qədər hərbi qüvvəsi olmayan ingilislər, erməniləri istədikləri kimi dəstəkləməyəndə, Tiqranyanın dediyi fikirlər meydana çıxdı. Ermənilərin bu cür şikayətləri nəticə verməyə başladı. Türklərin güclənməsindən çəkinən[40] və Qafqazda özlərini bir az qüvvətli hiss etməyə başlayan ingilislər artıq siyasəti dəyişməyə başladı.

### 3. İngilis siyasətində dəyişiklik və Naxçıvanın Ermənistana verilməsi məsələsi

İngilislərin Araz vadisinə gəlmələri və Naxçıvanda general-qubernatorluq (valilik) yaratmaları müsəlman əhali arasında dedi-qodular yaranmasına səbəb oldu. Kim tərəfindən yayıldığı bəlli olmayan və gələcəkdə həqiqətə çevriləcək bu dedi-qoduların ana xətti bölgənin ermənilərə veriləcəyi və erməni qaçqınların Naxçıvana göndəriləcəyi idi. Əslində, ingilislərin Naxçıvana erməni qaçqınları göndərmək fıkirləri qəti idi, ancaq bölgənin ermənilərə veriləcəyi haqqında rəsmi bir söz, bir qeyd yox idi. Ancaq belə şayiələr xalq arasında gəzir, hökumət üzvlərini də təsirə salırdı. 25 fevral 1919-cu ildə keçirilən toplantıda Azərbaycan ilə birləşmələrinin qəbulundan sonra[41] Naxçıvan hökumət rəisi Cəfərqulu xan və Milli Şura üzvləri tərəfindən ingilis hərbi qubernatoru Lotna bir məktub göndərildi. 26 fevral tarixli məkubda göstərilmişdir ki, İrəvan vilayətindəki müsəlman bölgələrinin, bilavasitə Naxçıvan və Şərurun razılıqları olmadan ermənilərə verilməsinə protest edilir, heç bir cəhətdən türkdən üstün olmayan, hətta qüsurları olan bir millətlə birləşmənin mümkün olmayacağı açıq-aydın göstərilirdi.[42]

Qubernator söz vermişdi ki, bölgə qəti surətdə erməni işğalına verilməyəcək.[43] Ancaq mart ayının əvvəllərindən etibarən onun bölgə əhalisi ilə

---

[38] Qafqazda olan fransız hərbi missiyası sədri polkovnik Chardigny Rus Ermənistanında ermənilərin heç bir yerdə çoxluq təşkil etmədiklərini, türk və kürdlərlə bərabər yaşadıqlarını ifadə edirdi. (Dokuments on British Foreidn Policy 1919-1939 Vol:4 London 1952 s. 965).

[39] Качазнуни: Дашнакситюн "Больше ничего лелать".1990.. 18 Akaby Nassibian Britain and the Armenian Question 1915-1923 New York 1984,156,Swietochowski, Müsəlman camaatdan milli kimliyə, Rus Azərbaycanı, 1905-1920, İstanbul, 1988, s.210

[40] Hovannisian. The Republic of Armenia Vol 1 s.235.

[41] Azərbaycan cümhuriyyəti. MDƏYTA, F. 894, or 10, s.70,1.4.

[42] A.Hacıyev. Qars-Araz-Türk respublikaların tarixindən. B.1994. s. 57-58

[43] USA NA Near Eastern Affairs 867.00/ 1100

münasibətləri pozulmağa başladı. İrəvandakı general Eserin əmri ilə keçmişdə Naxçıvanda türklərin ermənilərə qarşı işlətdiyi günahları araşdırmaq üçün Lotn tərəfindən xüsusi bir komissiya təşkil olundu. Ancaq 14 mart 1919-cu ildə general Eserə göndərdiyi cavabda göstərildi ki, komissiyanın fəaliyyəti müsbət nəticə vermədi, əksinə iki xalqın münasibətləri çox pozuldu.[44] Əslində pozulan türk-erməni münasibətləri deyildi. Pozulan türk-ingilis münasibətləri idi. Çünki artıq Qafqazdakı ingilis siyasəti dəyişir, rüzgarlar ermənilər lehinə əsirdi.

10 martda general Tomsonun Bakıdan Tiflisə gəlməsi ingilis siyasətinin dəyişməsinin başlanğıcı oldu. Hovanisyana görə, bu tarixdən etibarən Qars, İrəvan, Axılkələk, Naxçıvan və Ermənistan kənarlarında olan ingilis rəhbərlərinin raportları ciddi bir şəkildə dəyişmişdir. Onlar artıq müsəlmanların siyasətlərini başa düşmüş və bu işdə türk tərəfinin barmağı olduğunu anlamışlar. İngilislərə görə, Qarsdan Naxçıvana qədər olan yerlərdə türklər təşkilatlar yaratmışlar. Naxçıvandakı podpolkovnik Lotn Şuranı acınacaqlı bir şəkildə qiymətləndirirdi. O, özünün zənn etdiyi nüfuzunu itirirdi. Lotnun günahkar yerli qəsəbə sakinlərinə cəza verməyə cəhd etməsi silahların səslənməsinə səbəb oldu. İrəvandakı hərbi nümayəndə polkovnik Temperleynin hər şeyə baş üstə deyən xan və amirət rəisliyini sakitləşdirmə cəhdləri bir nəticə vermədi.

Naxçıvanda Rəhim xan, Abbasqulu xan və Kalbalı xandan ibarət türk nüfuzlu şəxslərin bu hadisədə rolu olduğu da düşünülürdü.[45]

Ermənilərin təbliğatlarının təsiri ilə ingilislər müsəlman əhaliyə güvənməməyə başladılar. Naxçıvanın sayılan şəxslərinə də ingilislər çox ümidlə baxmırdılar. Onlar regionda baş verən bir çox qarışıq hadisələrdə ingilis əsgərlərini günahkar sayırdılar. Şərurdakı süvari qüvvələri komandiri Məşhədi Əli Əsgər Həmzəzadənin Kalbalı xana göndərdiyi bir məlumatda xanlıqlar kəndində baş verən cinayətləri törədənlərin və Baş Noraşendə yanğın törədənlərin ingilis əsgərləri olduğunu bildirir və əhali tərəfindən bu məlumatın təsdiq edildiyini göstərir.[46]

Naxçıvanda türk səlahiyyətlilərinə güvənməyən Lotn özünü təhlükəsiz hiss edə bilmirdi. Tabeliyindəki az qüvvələr ermənilərə qarşı səfərbər edildiyi düşünülən Naxçıvan ordusu qarşısında əriyib yox ola bilərdi. Bunun üçün general Tomson 16 martda 2-ci rajput [47] yüngül piyada alayının 1-ci

---

[44] Mədətov."Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi"s.49

[45] Hovannisian. The Republic of Armenia vol 1.s. 235-236. Bu dövrdə türk zabiti Xəlil bəy və Azərbaycan nümayəndəsi Səməd bəy gəlmişdi. Hovanisyan səhvliyə yol vermişdir. Zabitlər mart və aprel aylarında deyil, 1919-cu ilin yayında Naxçıvana gəlmişdilər.

[46] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 49

[47] Hindistanda bir bölgə əhalisinə verilən ad.

batalyonundan iki bütöv nizamlı rotanı Naxçıvana göndərdi. Bir həftə sonra rajputların komandiri podpolkovnik Con Çalmers Simpson Lotndan hərbi valilik vəzifəsi səlahiyyətlərini almaq üçün yola düşdü.[48] Podpolkovnik Simpsonu Naxçıvana göndərib, 28 martda Tiflisdən İrəvana gələn Tomson burada erməni təkliflərini aldı. Erməni hökuməti Naxçıvan və Şərura erməni qaçqınların göndərilməsi üçün türk əhaliyə qarşı qəti tədbirlər görülməsini istəyirdi. Bundan başqa, Sürməli bölgəsi də türk quldurlarından təmizlənməli, Türkiyə ermənilərinin Van, Eleşkird və digər yerlərə göndərilməsi təmin edilməli, Aralıqda ingilis komandanlığının nəzarəti altında ingilis və ya erməni jandarma birləşmələri yerləşdirilməli idi.[49] Tomson erməni təkliflərini xoş qarşıladı. Hətta o, bu təkliflərlə əlaqədar bir çox qərarlar qəbul etməklə məşğul oldu. Belə ki, Tomson İrəvandakı nümayəndəsinə Vediçayı-Sədərək bölgəsinin cənub sərhədini qaydaya salmağı və lazım gələrsə, erməni əsgərlərinə bölgənin şimalını istila etmək səlahiyyəti verdi. Xatisyan ilə görüşdə Tomson İrəvan-Culfa dəmiryolunun Ermənistan üçün çox əhəmiyyətli və bu yol boyunca İrəvanın cənubunda yaşayan müsəlmanların[50] başqa bölgələrə göndərilməsinin vacib olduğunu qəbul etdi. Tomsona görə yer dəyişilməsinə maneə çıxmazsa, göndəriləcək əhalinin xərclərinin ödənilməsi və Şərura, Naxçıvana yerləşmələri üçün yardım edilməsi vacib idi. Bu qərarlar sülh konfransında ingilis nümayəndələrinə təqdim etmək üçün general Biçiin hazırladığı hesabata əlavə edildi.[51] Artıq Cənubi Qafqaz yeni quruluşlara hazırlanırdı. Qafqazdakı ingilis hərbi dairələri öz təşəbbüslərinə uyğun hərəkət edərək, bir çox bölgülər aparmışdır. Buna görə Paris Sülh konfransı qərarına qədər Qarabağ və Zəngəzur Azərbaycanın, Qars, Sürməli, Şərur və Naxçıvan Ermənistanın nəzarəti altında olacaqdı.[52]

Şübhəsiz, ingilis hərbi dairələri Qafqazda belə bölgü apararkən həm erməniləri razı salmaq və həm də bölgədə, guya müsəlmanların yaratdığı narahatlığı aradan qaldıraraq öz nüfuzlarını nisbətən təmin etmək

[48] Hovannisian. The Republic of Armenia s. 236-237. Mədətov Ermənistan arxivinə istinad edərək bir daşnak komandirinin Ermənistan Daxili İşlər Nazirliyinə göndərdiyi bir teleqramda polkovnik Temperleyin ermənilər Aralığı işğal edərlərsə, buna ingilis dairələri etiraz etməyəcəkdir fikrini ifadə etmişdir. Deməli, erməni təkliflərindən əvvəl ingilis siyasətində dəyişiklik var idi (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s 47).

[49] Azərbaycan, 11 aprel 1919-cu il №155, çş 1989, №4 s.98.

[50] Uluxanlı, Qəmərli, Dəvəli müsəlmanları nəzərdə tutulmuşdur. Ermənilərə görə bu insanlar həm dəmiryolunu, həm də İrəvanı hədələyirdi.

[51] Hovannisian . The Republic of Armenia Vol 1.s.237.

[52] Hovanisyanın qeyd etdiyinə görə, general Biçin çəkib, Parisdəki ingilis nümayəndələrinə göndərdiyi xəritədə Zəngəzur Ermənistanın sərhədləri daxilində idi. (Hovannisian. The Republic of Armenia Vol 1. s.237.) Digər mənbələr də bunu təsdiq edir. (USA NA Paris Peace Conferance 184.021/126.) Tamaşaçı Naxçıvan mətbuatı, Azərbaycan, 14 iyul 1919, № 224. Hacıyev. Qars və Araz-türk respublikaları. s. 62-63. 28 maydan 27 aprelə qədər Milli Azərbaycan təqvimi tutulmuş № 19 ( may 1936) s. 546. Tomson ermənilərə təklif edirdi ki, Qarabağ və Zəngəzur Azərbaycana verilmələrini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altında olmalarına kömək edəcəkdir. ( Stefana Yerasimos, Millətlər və Sərhədlər. Balkanlar, Orta Şərq. İstanbul.1994. s. 320).

istəyirdilər.[53] Onlara belə gəlirdi ki, ədalətli davranıblar. Ancaq heç də belə deyildi. Onların bu siyasəti həm müttəfiqlərinin narazılığına, həm də müsəlmanlar arasında ingilislərə qarşı bir düşmənçiliyin yaranmasına səbəb olacaqdı.[54] Hətta Naxçıvandakı ingilis hərbi valisi podpolkovnik Lotn ölkəsinin regionunda səhv bir siyasət dəyişikliyi etdiyinə görə narahat olurdu.[55] Gələcəkdə görəcəyik ki, ingilislər Zəngəzurun Azərbaycan idarəçiliyinə verilməsində bir cəhd göstərmədən, Naxçıvan, Qars bölgələrini Ermənistana verməyə cəhd edəcəkdir. Beləcə, Qafqazda ani bir siyasət dəyişikliyi oldu. Ermənilərə hamilik edən ingilis hərbi dairələri İrəvan, Qars və Naxçıvan bölgələri üçün məsul olan general Deviyə bir çox göstərişlər verdilər. Bu göstərişlərə əsasən Paris Sülh konfransının qərarına qədər Qars və Naxçıvan bölgələri Ermənistanın səlahiyyətinə veriləcəkdir. Naxçıvandakı hərbi valilik ləğv olunacaqdır. Bütün bu işlər aprelin 30-na qədər bitəcək və bu tarixdən etibarən ingilis əsgərləri bölgəni tərk etməyə başlayacaqdır.[56] Yəni adı qeyd olunan bölgələrdə erməni nəzarəti təmin olunduqdan sonra ingilislərin vəzifəsi bitmiş sayılacaq.

3 aprel 1919-cu ildə Lotndan sonra Naxçıvan valisi olan podpolkovnik Simpsonu[57] ağır günlər gözləyirdi. Çünki, İngiltərənin Naxçıvan siyasətində böyük bir dəyişiklik olmuşdu və müsəlman əhalini erməni nəzarəti altına girməyə məcbur etmək üçün bir çox qəti tədbirlər tətbiq ediləcəkdi. Simpson hakim dairələrin qəbul etdiyi qərarları əvvəlcə Naxçıvan Milli Şurasına və əhaliyə bildirmədi.

Ancaq müsəlman əhalini passiv bir fəaliyyətə gətirməyə çalışdı.[58] İlk əvvəl Naxçıvan hökumətinin, xalqının, bilavasitə özü-özünü idarə edə

---

[53] İngilislərin belə hərəkət etmələrinə səbəb olanlardan biri erməni hay-küyüdür. Erməni hökuməti əvvəl ələ keçirə bilmədiyi türk bölgələrini ələ keçirmək üçün ingilis dəstəyini almadıqda gileyli təbliğata başlamış, türk zabitlərinin təşkil etdiyi müsəlman əhalinin Ermənistanı hədələdiyi haqqında bir sıra bəyannamələr verirdi. Tiflisdə nəşr olunan "Trans-Caucasian Post" qəzeti də bu istiqamətdə fəaliyyətlər göstərir, Qars, Naxçıvan, Sürməli, Qarabağ, Axıska, Axılkələk kimi strateji bölgələrdə olan türk və Azərbaycan zabitlərin yerli əhalini Ermənistana qarşı qızışdırdığını yazırdı. (The Frans-Caucasion Post, 26 mart 1919, №10). Təbliğatlar ingilis hərbi dairələrinə tez təsir etdi. Osmanlı hökumətinə şikayət etdilər. Şuralar əsgər yığaraq Ermənistanı sıxışdırdılar. Təbii ki, türk zabitləri bu işdə aktivdirlər. Osmanlı hökuməti ingilislərin səhv etdiyini nəzərə alaraq onlara cavab verilməsini qərara aldı. ( BOA, BEO, 343081).

[54] Poidebard, İran yollart s. 112

[55] USA NA Paris Near Eastern Affairs 867.00/1100.

[56] Hovannisian .The Republic of Armenia. Vol: 1. c.215,237.

[57] Hovanisyan bizim, yuxarıda qeyd etdiyimiz, Amerika informasiya məlumatlarındakı 3 aprel tarixinin ingilis müharibə sənədlərində olmadığını qeyd edir. Bu sənədlər Lautenin 12 apreldə Tiflisə qayıtdığını göstərir.(Hovanisyan, göstərilən əsər, s.237) "Azərbaycan" qəzetində belə bir məlumat verilmişdir: Naxçıvan general-qubernatoru (valisi) 13 aprel 1919-cu ildə 7 №-li sürət qatarı ilə Gəncədən Tiflisə yola düşdü. (Azərbaycan l6 aprel 1919 №158)

[58] Həmin dövrdə Qarsda buna oxşar fəaliyyət var idi. Cənubi-Qərbi Qafqaz hökumətini yerli-yersiz sıxışdırır, Batumi və Naxçıvan ilə əlaqə yaratmasını istəmirdilər. (ATASE A l/2 kls.65.s. 254-101 f.56-1) Hökumət ingilislərin bu istəyini rədd etmişdir. Ancaq dekabr 1918-ci ildən etibarən Naxçıvan ilə əlaqə yaratmaları haqqında sənədə rast gəlmişdik. Belə bir sənədin olması ehtimal edilir.

bilmədiyini deyən vali əhaliyə elan etdi ki, İngiltərə və müttəfiqlər əleyhinə hər kim söz desə, düşmən hesab olunacaq və cəzalandırılacaq.[59]

İkincisi, Ermənistanın başının bəlası olan və hücumlarına sədd çəkən Vedi bölgəsi əhalisini silahsızlaşdırmağa çalışdılar.[60] Ancaq bu işdə müvəffəqiyyət əldə etməyən ingilis rəhbərliyi üzünü yenidən Naxçıvana çevirdi. Naxçıvandakı Osmanlı vətəndaşlarının bir gün ərzində ingilis valiliyinə gəlmələri əmr edildi. Əmrə tabe olmayanlar cəzalandırılacaqdır. Bundan başqa, podpolkovnik Simpsonun bir başqa əmri ilə polkovnik Ququşovun sədrliyindəki Azərbaycanın zabitlər heyətinin Naxçıvanı tərk etmələri tələb olundu. Bir həftə sonra azərbaycanlı zabitlər Naxçıvanı tərk etdilər.[61] Qərarlarını həyata keçirmək üçün qarşılarındakı maneələri bir-bir bitərəf etməyə çalışan ingilis rəhbərliyi bir tərəfdən nüfuzunu mühafizə etmək üçün tez-tez zirehli qatar göndərir, [62] digər tərəfdən hər hansı bir məsələ çıxmadan Naxçıvanı erməni nəzarətinə vermək üçün bölgəyə yeni birliklər yığırdı.[63]

Naxçıvandakı ingilis hərbi valiliyi qəbul edilən qərara əsasən bölgə daxilində hazırlıqlar görürdü. Hadisələr İrəvana bildirilir, dəyərləndirilir, yolla əlaqədar müxtəlif proqramlar hazırlanırdı. Hadisələrin bir anda dəyişməsinə sevinən erməni hökuməti Şərur və Naxçıvanı ayrı bir bölgə kimi cümhuriyyətlərinə birləşdirməyi planlaşdırdılar. Ordubad, Şərur və Naxçıvandan ibarət bu bölgənin ilk valisi Gevorq Varshaniyan olacaqdı. Xatisyan, Dro, Varshaniyan və general Haqverdiyandan ibarət özəl bir komitə bu birləşmənin detallarını nəzərdən keçirib qərar qəbul etməkdə idilər. Ancaq bu əsnada erməni dairələri arasında iki fikir meydana çıxdı. Millətçi liderlərdən dəstək alan Dro, Naxçıvana bir hücum edərək müsəlmanları sülh bağlamağa məcbur etmək istəyirdi. Ermənistanda daha çox rəğbət görən bu fikrə görə ingilislərdən dəstək alaraq, hərbi işğal üçün münasib bir vaxt müəyyənləşdirilməli idi.[64] İkinci versiyaya görə, razılaşma ilə, müsəlmanların sədaqətini sülh yolu ilə qazanmaq olar.

Naxçıvanın erməni idarəsinə tabe olmasının ilk mərhələsini general Devi 17 apreldə Xatisyan ilə Gümrüdə müzakirə etdi. Sonra isə Dro

---

59 Tamaşaçı. Naxçıvan məktubatı, Ermənilər Naxçıvana necə sahib oldular. Azərbaycan, 9 iyul 1919 №220.

60 Əliyev. Qanlı günlərimiz. s.118. Bu dövrdə erməni hakimiyyətinə və silahsızlaşdırmaya qarşı müqavimət göstərən Vedi əhalisinin lideri Abbasqulu Şadlinski ingilislərlə danışıq aparmaq üçün Dəvəli stansiyasına dəvət edildi. Vaqon aparılacaqdı. Abbasqulu bəy vaqona girən kimi qatar İrəvana yola düşdü. İngilislər Abbasqulu bəyi ermənilərə təslim etdilər. Abbasqulu bəy yol taparaq Vediyə qayıtdı. (Əliyev. Qırmızı tabur. 1990.s. 15).

61 Tamaşaçı. Naxçıvan mətbuatı, Əliyev. Qanlı günlərimiz, s.118. Hacıyev. Qars və Araz-türk respublikaları. s.66. Hovanisyan, göstərilən əsər. s.242.

62 USA NA Paris Peace Conferance 184 021\10.

63 Əliyev. Qanlı günlərimiz s.139. Hovanisyan, göstərilən əsər, s.238

64 İngilislər 13 aprel 1919-cu ildə Qarsdakı Cənubi Qərbi Qafqaz Cümhuriyyəti Parlament binasına girib hökumət üzvlərini Maltaya sürgün etdilər.Bu hərəkətdən erməni yuxarı dairələri razı qaldılar. (Azərb.Cüm.MDƏYTA F.894.0n.l0,s.94 1.9-15. E. Gökdəmir. Cənubi Qərbi Qafqaz hökuməti. Ankara 1989.s.156-157. Hovanisyan. göstərilən əsər, s.219-220. Hökumət dağıldıqdan sonra Qarsda başda Korqanovun olduğu bir erməni valiliyi yaradılmışdır. (ATASE, A.l/2 kls.78, s.291-118 F.7).

hazırladığı hərbi planın müzakirəsi üçün İrəvana getdi. Dronun Naxçıvanı hərbi qüvvə ilə ələ keçirmə planı 3 mərhələli idi. Plana əsasən 1-5 may tarixlərində Dəvəli Vediçayı, Sədərək; 5-10 mayda Baş Noraşen, Naxçıvan; 10-15 mayda isə Ordubad və Əylis xətləri nəzarət altına alınacaqdır. Rajput birliklərinin də Naxçıvan-Sədərəkarası dəmiryolunun nəzarət altına alınmasını nəzərdə tutan Dro işğal olunmuş bölgələrdə bütün irqdən olanların silahsızlaşdırıldığını və bitərəf bölgə olduğunu müəyyən etmək üçün ingilis nümayəndələrinə səlahiyyət verilməsi təklifini irəli sürdü. General Devi və Naxçıvanın ingilis hərbi valisi podpolkovnik Simpson 19 apreldə Dəvəli stansiyasında görüşüb, Dronun planını müzakirə etdilər. Simpson öz rajput birlikləri istisna olmaqla, planı məqsədə uyğun sayırdı. Onun fikrincə, plana uyğun tanınmış 2 erməni birliyi zirehli qatarla təcili (Dəhnə Boğazı) Qurd Qapısına göndərilməlidir. Naxçıvan regionunun açarı rolunu oynayan bu keçidi nəzarət altına alan birliklər əsl qüvvəni gözləməli idilər. Dəvəli stansiyasındakı rajput birliklərinə cənub bölgələrinə həyəcan işarəsi verilməməsi üçün teleqraf xətlərini kəsmək tapşırılmışdır. Simpson isə arxada qalan üç rajput hissəsinin alay qərargahında saxlanılmasını israr edirdi. [65]

İngilis və erməni hərbi dairələrinin hazırladıqları plan general Tomsonun təsdiqinə verilməli idi. Elə də oldu. Simpson ilə razılaşan Devi proqramı təsdiq etmək üçün Tiflisə göndərdi. Ancaq general Tomson həm Dronun, həm də Simpsonun strateji planını rədd etdi. 23 apreldə öz əmr və xəbərdarlıqlarını bildirdi. General Tomsonun əmrləri qısaca belə idi: “Çox gərəksiz sərt güc tətbiqi böyük hay-küy yarada bilər. Müsəlmanları tərksilahetmə təklifi tətbiq oluna biləcək bir fikir deyildir. Mühüm vəzifə hər millətin qaçqınlarının öz yurduna geri göndərilməsidir. Naxçıvan regionunun Ermənistana verilməsi və hərbi rəhbərliyin sona çatması planlaşdırılması deməkdir. Nəzərdə tutulmuş planda məqsəd bir erməni hərbi istilası deyildir. 2000 piyada, 2 səhra topu və bir süvari rotası olan qüvvənin ingilis hərbi qüvvələrinin köməyi ilə proqramı yerinə yetirməyə gücü çatacağına inanıram. Bundan başqa, qaçqınların yerlərinə göndərilmələri üçün podpolkovnik Simpson bu bölgələri işğal edəcəkdir: Dəvəli, Sədərək, Yaycı və Ağrı. Digər ingilis qüvvələri Naxçıvanda qalacaqdır. Bir problemin çıxmaması üçün bütün imkanlardan faydalanmalıyıq və nəzərdə tutulmalıdır ki, regionun hərbi işğalı yaxşı bir nəticə verməyəcəkdir.[66] Erməni hökuməti Naxçıvanda seçilmiş şəxslərdən bir mülki rəhbərlik yaratmalıdır, amma

---

[65] Hovanisyan. Göstərilən əsər. s.238-239

[66] General Tomson bilirdi ki, məcburi bir döyüş ilə Naxçıvanı işğal etmək müharibəyə səbəb olacaqdır. Erməni qüvvələrinin əvvəllər olduğu kimi, on minə yaxın türk qüvvələri qarşısında müvəffəqiyyət qazanması mümkün deyildi. İngilis əsgərlərinin hadisələrə qarışması daha çox insan itkisinə səbəb olar. Zatən ingilis hərbi dairəsi bölgədəki münaqişələrdə ingilis əsgərlərini risqə atmaq istəmirdi. (Hovanisyan. Göstərilən əsər. s.213).

diqqətli davranmalıdır. Bu rəhbərliyin ahəngdar işləməsi üçün müsəlmanlardan da nümayəndə salınması məqsədəuyğun ola bilər.[67]

Dro bu qaydalara tabe olacağını bildirərək 2 səhra topu yerinə 4 səhra topundan istifadə etməyi təklif etdi. Bundan başqa, qaçqınların və birliklərin bəslənmələri və hazırlanmaları üçün əməliyyatın 3 maya qədər təxirə salınması lazım olduğunu bildirdi. Devi də əlavələr etdi. O, ağır silahlardan istifadəni məqsədəuyğun gördü və rajput dəstələri təyin edilmiş tarixdə Tomsonun əmrlərində göstərilmiş kəndləri nəzarət altına alacaqlarına dair zəmanət verdi. Qarsı tədqiqat məqsədi ilə gəzən general Miln və general Tomson İrəvana qayıdıb, 30 apreldə Xatisyan ilə görüşdülər. Tomson hərbi istila ilə əlaqədar Xatisyana xəbərdarlıq etdi. Çünki, bu, razılıq əsasındakı birləşmə prinsiplərini poza bilərdi. Bundan əlavə, o, proqrama mane olmamaları üçün müsəlmanların həyat və mallarına toxunulmayacağına dair bəyannamələr nəşr edilməsini tapşırdı. Erməni birliklərinin və mühacirlərinin Naxçıvana doğru irəliləyişi ancaq general Devinin nəzarəti altında olacaqdı. Ermənilər ilə bərabər müsəlman qaçqınlara da vətənlərinə qayıtmalarına icazə verilməlidir.[68]

### a) Xan Təkinskinin fəaliyyəti və Azərbaycanın mövqeyi

İngilis və erməni hakim dairələri Naxçıvanın ilhaq edilməsi ilə əlaqədar planlar hazırlayarkən, Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsı Xan Təkinski bu cəhdlərin qarşısını almağa çalışırdı. Ancaq o, mart 1919-cu ildə gəldiyi gündən bəri İrəvanın cənubundakı vəziyyət haqqında məlumatı şifrli teleqramlarla hökumətinə bildirirdi. Bu bölgədəki müsəlmanlar üçün xeyli pul tələb etdi. Şərur-Naxçıvan üzərindəki təzyiqi azaltmaq üçün Ermənistanın şimali-şərq sərhədində bir güc göstərməyi xahiş etdi. Ancaq kəşfiyyat dəstəsi tərəfindən Xan Təkinskinin şifrəli məlumatlarını açdılar. Xan Təkinski imzalı teleqramlarında Ermənistan Cümhuriyyəti və ordusunun daxili qaydaları haqqında ümumi bir məlumat verirdi. 16 apreldə Azərbaycan hökumətinə göndərilən teleqramda ingilis hərbi dairələrinin Ermənistanın Qarsa doğru sahəsini genişləndirməsini xoş qarşıladıqlarını, Şərur və Naxçıvanın ilhaqını da təsdiq etdiklərini bildirdi. 29 apreldə Təkinski Tiflisdə olan Xarici İşlər Naziri Yusif Cəfərova göndərdiyi bir məlumatda Ermənistanın Naxçıvanın ilhaqına 3 mayda başlayacağını, Naxçıvandakı ingilis hərbi rəhbərliyinin azərbaycanlı zabitləri bölgədən çıxarmaq təşəbbüslərini qeyd edirdi. O, həm də bölgədəki mövcud birlikləri nəzərə

[67] Hovannisian, The Republic of Armenia, vol: 1, s. 239-240

[68] Hovanisyan. Ermənistan Respublikası. Vol. 1. s. 240-241

alıb-almayacaqlarını, müsəlman xalqın könüllü silahlandırılıb-silahlandırılmayacağını soruşurdu.

Bu vaxt Təkinski, Xatisyan, Miln və Tomsonun görüşməsindən xəbərdar oldu, Xarici İşlər Nazirliyinə göndərdiyi bir teleqramda Naxçıvanla əlaqədar qərarı protest edilmədən əvvəl ingilis generalları ilə görüşmək istədiyini bildirdi. O, Naxçıvan əhalisinin müqavimət göstərməyə hazır olduqlarını, ancaq ingilislərin qorxusundan Azərbaycandan bir işarət gözlədiklərini bildirdi.[69] Xan Təkinskinin və gələcəyi həyəcan içində olan Naxçıvan Milli Şurasının göndərdiyi teleqramlar Azərbaycan hökumətini hərəkətə gətirdi. Hökumət, Təkinskiyə Ermənistana nota verməsini tapşırdı.[70] Elə bu vaxtlarda (25 aprel 1919) Tiflisdə Azərbaycan, Gürcüstan, Dağıstan və Ermənistan arasında başlayan konfransda[71] iştirak edən nümayəndəsindən bu hadisə ilə maraqlanmasını tələb edirdi.[72] Bundan əlavə, ingilis dairələrinə və Paris Sülh Konfransına etiraz teleqramları göndərilirdi.[73] Münaqişənin demokratik yolla həlli axtarışlarından bir nəticə çıxmadı. Təkinski hadisələr haqqında daim hökumətinə məlumat verməyə çalışırdı. O göndərdiyi teleqramlarda, ermənilərin hələ sərhəddi keçmədiklərini, Qurd Qapısının türklər tərəfindən qorunduğunu, ingilislər qarışmasa, müsəlmanların mübarizə aparacaqlarını bildirir və müsəlmanlar ondan nə edəcəklərini, belə bir vəziyyətdə Azərbaycanın yardım edib-etməyəcəyini soruşduqlarını qeyd edirdi. Təkinski hökumətinin bölgənin taleyi ilə maraqlanıb-maraqlanmayacağını bilmək istəyirdi.[74]

Ancaq Azərbaycandan Təkinskiyə gələn cavablardan özü də, Naxçıvan əhalisi də razı qalmadı. Çünki imkansızlıq naxçıvanlıların istəyini yerinə yetirməməyə səbəb olurdu.[75] Azərbaycan Ordusu heç bir iş görə bilməyəcəkdir. Ancaq ingilis və erməni hakim dairələrinə bu hadisələr protesto ediləcəkdir. Elə də oldu. Azərbaycan hökuməti yarım milyon türkün yaşadığı Naxçıvan regionunu özünün bir parçası sayaraq, vəziyyəti erməni, ingilis hakim dairələrinə, Paris Sülh Konfransına çatdırdı və öz etirazını bildirdi.[76] Azərbaycan xalqı da hökumətlə bərabər etiraz səslərini ucaldaraq,

---

[69] Hovanisyan. Ermənistan Respublikası. Vol. 1. s. 241-242.

[70] Təkinski məsələ ilə əlaqədar notanı 3 may 1919-cu ildə Ermənistan Xarici İşlər Nazirinə verdi. (Hacıyev, Qars və Araz-türk respublikaları, s.68-69).

[71] 25 apreldə başlayan Tiflis konfransında siyasi, iqtisadi, maliyyə məsələləri, sərhəd problemləri müzakirə edildi. Ancaq bir nəticə əldə olunmadı. (N.Nəsibzadə, Azərbaycan Demokratik Respublikası, B. 1990. s.18. Erol Kürkçü oğlu. 1918-1920. Türkiyə-Azərbaycan münasibətləri (nəşr olunmamış doktorluq dissertasiyası) Ərzurum, 1994. s. 344).

[72] Hacıyev. Qars və Araz-türk respublikaları s. 69

[73] Hovanisyan. Ermənistan Respublikası. Vol. 1.s.243

[74] Hacıyev. Qars və Araz-türk respublikaları s. 69-70. Hovanisyan. Göstərilən əsər. s.242

[75] USA NA Near Eastern Affair 867.00/1100.

[76] А.Раевски: Мусаватской Правителъства на Версалской конференции Баку, 1931, с. 67.

Naxçıvanın Ermənistana verilməsini etirazla qarşıladı. Belə ki, Bibiheybət rayonu, mədən işçiləri yığıncaq keçirib, Naxçıvandakı vəziyyətlə əlaqədar protest etməyi qərara aldılar."Azərbaycan" qəzetində Naxçıvanla bağlı 21 may 1919-cu ildə dərc etdiyi yazının müəllifi Firuz bəy, Ordubad və Naxçıvanın Azərbaycanla olan əlaqəsindən söz açır, narahatçılığını bildirirdi.[77] Yenə orada, 15 may 1919-cu ildə nəşr olunan xəbərdə bildirilirdi ki, general Devi Naxçıvana gəlmiş və regionnun Ermənistana verilməsi elan edilmişdir, xalq isə bunu rədd edərək erməniləri regiona buraxmırdı və bu yazıda hökumətin təcili bu işə qarışması istənilirdi.[78]

### b) Naxçıvan əhalisinin ingilis və erməni hakim dairələri ilə görüşləri və ilhaqa etirazı

Naxçıvanda bir ingilis qubernatorluğu(valiliyi) təsis edildikdən sonra xalq və rəhbər işçilər arasında yavaş-yavaş regionun Ermənistana verilməsi haqqında şayiələr gəzirdi. Rəhbər işçilər haqlı olaraq etiraz edirdilər, bunun qarşılığında bir Amerika informasiya məlumatında göstərildiyi kimi, podpolkovnik Lotn və Naxçıvanın digər ingilis rəhbərləri belə bir hadisənin baş verməyəcəyinə dair qəti söz vermirdilər.[79] Ancaq bir gün gəldi ingilis siyasəti dəyişdi. Regionun müvəqqəti Ermənistana verilməsi qərara alındı. Əvvəlcə naxçıvanlıların bu cür plandan xəbəri olmadı. İngilis və erməni hakim dairələri ilhaqın həyata keçrilməsinə dair lazımi proqram hazırladıqdan sonra vəziyyəti əhaliyə və bölgəni idarə edənlərə bildirməyi düşünürdülər.

Əliyevin xatirələrində göstərildiyinə görə, naxçıvanlılar məsələdən ilk olaraq xəbəri şayiələrdən aldılar. 28 aprel 1919-cu ildə Naxçıvan qüvvələri bir yerli məsələni həll etməklə məşğul olduqları vaxtda regionun Ermənistana verilməsinə dair aldıqları xəbər xalq arasında böyük bir həyəcan yaratdı. Milli Şuranın dəvəti ilə müsəlman əhali məscidə yığışdı. Şuranın sədr müavini İrəvanlı Əliş bəy lazımi izahat verdi. Naxçıvan müsəlmanlarının İrana və ya Azərbaycana birləşməsi məsələsi müzakirə edildi. Nəticədə Azərbaycan Cümhuriyyətinə birləşmə qərara alındı.[80] Aradan 5 gün keçmişdi ki, 3 may 1919-cu ildə Dro və general Devinin imzası ilə bəyanat nəşr edildi.[81]

Bəyanatda yazılmışdı:

**Naxçıvan regionu üçün əmrlər**
**3 may 1919, İrəvan**

---

Hovanisyan. Göstərilən əsər. 242-243. Hacıyev Qars və Araz-türk respublikaları. s. 70-71.

[77] Hacıyev. Qars və Araz-türk respublikaları. s.71-72

[78] Azərbaycan, 15 may 1919, № 184

[79] USA NA Near Eastern Affair s.867.00/ 1100

[80] Əliyev. Qanlı günlərimiz. s.l 19

[81] Tamaşaçı. Naxçıvan məktubatı. Hovanisyan. Göstərilən əsər. s.243

Müharibə qurtardı. Xalqın çəkdiyi əzab və işgəncə sona çatmalıdır. Hər kəs öz ocağına qayıtmalı və sülh içində işinə yenidən başlamalıdır.Din və millət fərqi olmadan hər kəs üçün bir sülh dövrü başlayır, Naxçıvana müttəfiqlərin və hökumətin əmri gəldi.

Əmrin altındakı birliklərə müraciət edirəm; siz hökumətin nümayəndələrisiniz. Milləti ayırmadan, cümhuriyyətin bütün vətəndaşlarının can və mallarını qorumalısınız. Bu, sizin vəzifənizdir. Hansı zabit, əsgər və ya könüllü əmri pozsa, silahdan istifadə etsə və ya xalqın bir hissəsini o birinə qarşı qızışdırarsa, vurulacaqdır. Günahkara ən ağır cəza verə bilmək üçün birliklərin qanunsuz hərəkəti xalq tərəfindən yerli komandirlərə bildirilməlidir. Hər bir hissədə sülh, sakit həyatın qurulmasına mane olan quldurlara qarşı hərbi məhkəmələr qurulmalıdır. Hər hissə komandirinə xəbərdarlıq edirəm, meydana çıxan hər hansı qeyri-qanuni hərəkətə onlar cavabdehdir. Yaddan çıxarmayın, dövlətiniz Ermənistan cümhuriyyətidir. Ermənistanda yaşayan bütün xalqları cümhuriyyəti. Hökumətin əsas məqsədi cümhuriyyətin bütün millətləri üçün sərbəst bir həyat yaratmaqdır. Xristian və müsəlmanlar üçün qanunlarımız eynidir. Hər kim qanunu pozarsa, eyni şəkildə cəzalandırılacaq.

Naxçıvan xalqı, sizə də müraciət edirəm. Mən müttəfiqlərin və hökumətin əmri ilə, erməni və müsəlman qaçqınlarını evlərinə gətirmək üçün Naxçıvana gəldim. Hökumətimiz regionda qanunsuz müsadirə edilən bütün torpaqları öz əsl sahiblərinə qaytaracaqdır. Erməni və ya türk olsun, əməkçi xalqın bu qanuni arzusuna qarşı çıxan bütün vətəndaşlar cəzalandırılacaqdır.

Qarşı çıxan kəndlər qanuna qarşı çıxan hesab olunacaq və cəzalandırılacaqdır. Evini-eşiyini qoruyan hər kəs, sülh sevən xalqın malından varlanmaq istəyən pis niyyətli adamların işinə mane olmalıdır. Bütün xalqa bildirirəm, Cənubi Qafqaz münasibətləri üçün bu, məcburidir.

Hissə komandirləri bu əmrləri başa düşməli və hər yerdə qayda-qanunu, sabit həyatı qorumalıdır. Pis niyyətli adamlar cəzalandırılmalı, millət fərqi olmadan hər xalqdan yardım görməlidir, Hissələr üçün lazım olan hər şey pulla alınacaqdır.

**İngilis generalı Davie**
**Dro, İrəvan hərbi hissə komandiri Muradyan, İrəvan ştab sədri**[82]

General Tomsonun göstərişi ilə nəşr olunan və müsəlman əhaliyə eyni cür davranılacağını göstərən, onların əməliyyata mane olmalarının qarşısını almağa yönəldilmiş bu bəyanat Naxçıvanda böyük bir narazıçılıq yaratmışdı. Naxçıvanın bu dövründə yaşamış və gördüyü hadisələri 1919-cu ilin iyulunda "Azərbaycan" qəzetində Naxçıvan məktubları adı altında çap etdirən Tamaşaçı[83] bununla əlaqədar yazırdı:

---

[82] USA NA Paris Peace Conferance 194. 021/15
[83] Təəssüf ki, müəllifin əsli haqqında məlumatımız yoxdur.

“Əhalidə böyük bir həyəcan yaranırdı. Hər kəsin əlində bir kağız vardı. Bütün əhalinin kədərə və qəmə qərq oluduqları görünürdü. Mən birinə yaxınlaşdım nə olub - deyə soruşdum, bizim ərazini ermənilərə vermişlər, -cavabını aldım. Mütəəsir oldum, elanı alıb oxudum... Əhalı bu elanı oxuduqdan sonra 3-4 saat məst olmuş kimi nə edəcəyini bilməyərək özünü itirib, müxtəlif sözlərlə təsəlli axtarırdı. Məsələn: Bəziləri Gümrüyə bağlı bir Naxçıvan kəndi olduğunu və bu elanın ora əhalisinə müraciətən yazıldığını deyirdilər”.[84]

Ancaq bir müddət sonra özünə gələn əhali Milli Şura binasına gedib rəisdən ingilis qubernatoru ilə görüşməsini xahiş etdi. Şura sədri bir heyətlə yaxınlıqdakı kazarmaya gedib, valinin müavini ilə görüşdü. İngilis səlahiyyətli şəxsinin dediyi cavab çox maraqlı idi. O bildirdi ki, bu hadisə haqqında heç bir məlumata sahib deyildir.

General Devi iki gün sonra Naxçıvana gələcək. Ondan lazımi məlumat alına bilərdi. Xalq öz gələcəyini qaranlıq görürdü. Buna görə də həmin günün axşamı Naxçıvan Milli Şurasında yığıncaq keçirildi. Azərbaycanla olan coğrafı maneəyə görə, İrana tabe olmaq məqsədəuyğun sayıldı.[85] Bundan sonra İrana gedib məsələyə dair vəliəhd ilə danışıqlar üçün nümayəndələr seçildi. Şübhə içərisində qalan Naxçıvan camaatı bir tərəfdən İrana 3 nəfərlik heyət göndərir, digər tərəfdən qayğılı bir şəkildə general Devinin yolunu gözləyirdi.[86]

General Devinin Naxçıvana gəlməsini gözləyən müsəlman əhaliyə 4 mayda stansiyaya getmək əmr edildi. Əmrə görə, general Tomson gələcəkdi[87]və Naxçıvan camaatı onu böyük bir təntənə ilə qarşılamalı idi. Xalq və rəhbər işçilər stansiyaya gəldilər. Həmin gün Tomson gəlmədi.[88] Səhərisi gün (5 may) general Devi, bir çox ingilis zabitləri və Naxçıvanın hərbi valisi Naxçıvana gəldilər. Onlar əhali, rəhbər işçilər və əsgərlər tərəfindən təntənə ilə qarşılandı.[89] Devi əvvəlcə maşınla kazarmaya getdi. Sonra

---

84 Tamaşaçı. Naxçıvan məktubları II.

85 3 saat davarn edən yığıncaqda Cəfərqulu xan çox sərt danışdı. O deyirdi: “Camaat, siz-müsəlmanlar işi vaxtında görmədiniz. Bir ay əvvəl mən nə qədər fəryad etdim ki, bizdən hökumət olmaz, bizə muxtariyyat verilməz, İrana bağlanaq, sözlərimə heç kim əhəmiyyət etmədi. Hamı: “Xanlar keçmiş hüquqlarını qazanmaq istəyirlər”,- dedi. Halbuki mən bu günki vəziyyəti əvvəlcədən görürdüm”. (Tamaşaçı. Naxçıvan məktubları IV, 15 iyul 1919, № 225).

86 Tamaşaçı. Göstərilən əsər. Əliyev. Qanlı günlərimiz. s.119.

87 Tomsonun gəlməsi əmrində səhvlik olmuşdur. Çünki bu dövrdə general Tomsonun Naxçıvana gələcəyinə dair heç bir qeyd yoxdur.

88 Əliyev. Qanlı günlərimiz s.120

89 Tamaşaçı. Göstərilən əsər.II, Azerbaycan 19 may 1919. №184. Əliyev. Qanlı günlərimiz s. 120. T. Köçərli. Azərbaycan Demokratik Respublikası və Azərbaycanın ərazi bütövlüyü məsələləri. Kommunist, 30.10. 1990, № 226.

ətrafındakılarla bərabər qonaq kimi Bəhram xanın evinə yollandı.[90] Minlərcə naxçıvanlı hal-vəziyyətlərini ərz etmək və regionun Ermənistana verilməsinə etirazlarını bildirmək məqsədilə, hind əsgərləri tərəfindən qorunan xanın evinin ətrafına yığışdılar. Buraya gələn Devi, xalq ilə görüşmədən birbaşa evə girdi. İçəridə Milli Komitə üzvləri ilə Devi arasında danışıqlar gedirdi.[91] Xalq isə içəridən bir xəbər ala bilmir, səbrsizliklə bayırda gözləyirdi.

Tamaşaçıya görə, görüşün keçirildiyi otaqdan bir saat sonra çıxan İbrahim bəy Kəngərli ətrafına yığışan camaata bu məlumatı verdi: Devi cənablarının bizim sözlərimizə cavabı belə oldu: "Əhaliyə paylanmış elanlarda göstərilənlər doğrudur, ona mən özüm imza etdim. 3 maydan etibarən Naxçıvan, Şərur, Ordubadın müsəlman əhalisi müvəqqəti olaraq Ermənistan vətəndaşı sayılır. Ermənilərə qarşı heç bir etiraz-filan qəbul olunmayacaq. Çünki Qafqazdakı Azərbaycanla Ermənistan arasındakı mübahisəli ərazilər iki millət arasında münaqişə və müharibə yaradır. Bunun qarşısını almaq üçün İstanbuldakı müttəfiq dövlətlərin nümayəndələri Qarabağ və Zəngəzurun Azərbaycana, Şərur və Naxçıvanın müvəqqəti olaraq Ermənistana verilməsini əmr etdilər.[92] Adı qeyd olunan bölgələrdə yaşayan hər kəs, müsəlman və ermənilər öz hökumətinə tabe olmalıdır. Əks-təqdirdə cəzalandırılacaqlar. Çünki Azərbaycana və Ermənistana itaət etmək istəməyənlər, bizə itaət etmirlər deməkdir".

Həmin vaxt Milli Şura rəhbərləri etiraz etdilər, biz ermənilərlə yaşaya bilmərik, bizimlə onlar arasında olan qanlı hadisələri bilirsiniz. Mümkündürsə, Naxçıvan və Şərur qəzalarının idarə olunması qonşumuz İran hökumətinə verilsin. Və ya sülh konfransının nəticələrinə qədər bu bölgələri ingilislər idarə etsinlər, - dedik. Devi isə cavab verdi ki, keçmiş qanlı günlər arxada qaldı, ermənilər müsəlmanlara qarşı heç bir pis hərəkət etməyəcək, çünki Naxçıvanda ingilis komissiyası olacaq və haqsızlığın qarşısı alınacaq. Bundan əlavə, o, camaatın etirazlarını, etirazlarını davam etdirə biləcəklərini, hətta ingilis hakim dairələri tərəfindən şikayət və fikirlərinin müttəfiqlərə çatdırıla biləcəyini dedi.[93]

General Devi və Milli Şura üzvləri arasında keçirilən görüş barəsində Əliyev yazır: Görüş zamanı Devi, qəti bir şəkildə Naxçıvanın Ermənistana verildiyini və bunu müttəfiqlərin istədiyini bildirdi. Naxçıvanın

---

[90] Tamaşaçı göstərir ki, Devi Kalbalı xanın evində qonaq olmuşdur. Biz Əliyevin göstərdiyi qeydi qəbul etdik. Çünki mənbələrdən məlum olur ki, Naxçıvana gələn qonaqlar ümumiyyətlə bu evdə qalırdılar.

[91] Tamaşaçı. Göstərilən əsər. Əliyev. Qanlı günlərimiz, s.120-121

[92] Mənbələrdən məlum olur ki, bu bölgünü ingilis yuxarı dairələri etmişdir. Fransa, Amerika və İtaliya bu bölgüdə iştirak etməmişlər.

[93] Tamaşaçı. Göstərilən əsər II.

qabaqcılları o saat etiraz etdilər, regionun ermənilərə verilməməsini istədilər. Əks-surətdə Naxçıvan müsəlmanlarına bir neçə gün möhlət və başqa bir bölgəyə keçmələri üçün icazə verilməlidir.[94] Ancaq Devi bu təklifləri qəbul etmədi, bildirdi ki, iki günə qədər erməni hökuməti Naxçıvana gələrək idarəçiliyi əlinə alacaq. Bundan başqa, Devinin verdiyi əmrə görə, Cəhri, Culfa, Sədərək, Vedi, Dəvəli və Şahtaxtı nahiyələrinə rajput birlikləri göndərildi. Əhali böyük bir ümidsizliyə düçar oldu. Adamlar Naxçıvanı tərk edib, başqa yerlərə köçməyi düşünürdülər. Əsgərlər də belə fikirdə idilər. Onlar dağılıb, Azərbaycana getmək istəyirdilər. Naxçıvanın yoxsul adamları qorxu içərisində yaşadıqları erməni evlərindən çıxaraq şəhərin müsəlman hissəsinə köçməyə başladılar. Şəhər sanki böyük yas içində idi. Camaatın gözündən ölüm səssizliyi oxunurdu.[95]

Ancaq bu yas və səssizlik uzun sürmədi. Əhalinin müəyyən hissəsi və nüfuzlu şəxslər hökumət binasına yığışdı. Həmin dəqiqə bir etiraz mətni hazırlandı. Səhərisi gün Devi Naxçıvandan getdikdən sonra, general Tomsona çatdırılması üçün bu etiraz mətni hərbi valiyə veriləcək idi. 6 mayda Milli Şura sədri protesto mətnini podpolkovnik Simpsona verdi və ondan qısa müddətə yerinə çatdırılacaq cavabını aldı. Naxçıvan əhalisi onlara rəva görülən bu hərəkətə üsyan edir və deyirdi: "Biz ermənilərə tabe olmaq istəmirik. İngilis hökuməti bizi zorla ona tabe etdirir. Biz ermənilərə tabe ola bilmərik, çünki, onların da bizim kimi hökumətləri təsdiq olunmamışdır".[96]

Özünü idarə edə bilməyən bir millət bizə hökmran ola bilməz. Bizimlə onların arasında nə kimi hadisələr baş verdiyini, qanlar töküldüyünü bilirsiniz. Belə düşmənçilikləri olan iki millətin birini digərinə hakim etmək, qurda quzunu verməkdir. Hakim tərəf, təbii ki, qisas alacaqdır. Şanlı, mədəni ingilis nümayəndələrindən acizanə xahiş edirik ki, bizi vəhşi ermənilərin əlinə verməsin. Ya İranla birləşdirsin, ya da özləri idarə etsin. Bu da

---

[94] Azərbaycan Dövlət arxivindəki bir sənədə əsasən Hacıyevə görə, naxçıvanlılar Devidən bu təklifləri xahiş etmişdilər: 1. Sülh konfransının qərarı olmadan bölgəmizin müvəqqəti Ermənistana verilməsi haqqında rəsmi sənəd verilsin. 2. Regiondakı ingilis idarəsinə müsəlmanlardan daxil edilsin. Buraya Milli Şura tərəfindən seçilmiş bir nəfər, ona köməkçi olaraq iki nəfər daxil edilsin. 3. Erməni ümum-valisinin müavini Milli Şura tərəfindən seçilən bir müsəlman olmalıdır. 4. Erməni hökuməti əhalini silahsızlaşdırmamalıdır.5. Müsadirə edilməməli, alınan hər şey könüllü və razılıqla olmalıdır. 6. Erməni hökuməti əhaliyə nəzakətlə yanaşmalı, intiqam almamalıdır. (Hacıyev. Qars və Araz-türk respublikaları.s.64.) Hacıyev bunların Devinin Naxçıvana gəlməsi zamanı 2 mayda yazıldığını qeyd edir. Müəllif tarix məsələsində səhv etmişdir.

[95] Əliyev, Qanlı günlərimiz, s. 120-121

[96] Paris sülh konfransı Ermənistanın istiqlalını 1920-ci ilin yanvarında tanımışdır. ((Təsviri-Əfkar, yanvar 1920, № 2969). Qouthard Gaks. Türk qurtuluşu savaşı xronologiya Mudrosdan Mudanyaya qədər. ( 30 oktyabr 1918- 11 oktyabar 1922 ) Ankara, 1989, s. 85. Qouthard Gaks. 28 maydan 27 aprelə qədər. Milli Azərbaycan təqvimi, Qurtuluş, № 21.s. 21 iyul. Avqust 1936. s.21)

mümkün deyilsə, bizi azad buraxsınlar, özləri də nəzarət etsinlər. Belə olmazsa, biz bunu protest edirik.[97]

Naxçıvan əhalisinin haqq arayan səsi, ona edilən hərəkətə etiraz səsi davam edirdi. İngilis yuxarı dairələrinə ardı-arası kəsilmədən etirazlar edilir, Bakıya, Tiflisə nümayəndələr göndərilirdi. İrəvandakı Xan Təkinski ilə əlaqə yaradılaraq, onun vasitəsilə Azərbaycan hökumətinə məlumatlar çatdırılırdı.[98] Tək ümid qapısı olan Azərbaycandan kömək gözləyirdilər.

Ancaq bütün bu fəaliyyətlər, işlər Naxçıvan əhalisinin ürəyindəki üsyanı sakitləşdirə, kədəri yox edə bilmirdi. Buna görə onlar hər yerdə mitinqlər keçirir, gündə ən azı on dəfə Şura binasına yığışır, fikir mübadiləsi aparırdılar.[99] Ancaq bu arada ingilis və erməni hakim dairələri arasındakı ani bir gərginlik Naxçıvanda vəziyyətin nisbətən sakitləşməsinə səbəb oldu. Ermənistanın Zəngəzurda bir üsyan yaratmaq təşəbbüsündə olduğunu bilincə, general Tomson ermənilərin Naxçıvana aid planlarını qəti surətdə dayandırdı.[100] Elə bu vaxtlarda Naxçıvan valisi Simpson işə qarışaraq regiondakı hüzn və üsyan əhval-ruhiyyəsini dağıtmağa təşəbbüs göstərməyə başladı. O, Kalbalı xan və Milli Şura sədri ilə apardığı danışıqlarda bildirdi ki, ermənilərin regiona gəlməsi dayandırılmışdır.[101] Ona görə də hərbi idarəetmə təşkilatlarını dağıtmayın. Rəhbər işçilər də vəziyyəti əhaliyə və əsgərlərə bildirib, işlərinin başında olmalarını əmr etdilər.[102] Vali və rəhbərlərin yumşaq davranışları onlara təsir göstərdi. Əhalidə böyük bir rahatçılıq yarandı. Naxçıvanlılar artıq regionlarını ermənilərə verməyəcəklərini düşünürdülər. Vilson prinsiplərinin onlar üçün etibarlı olmasına inanmış, hətta İrana mallarını qaçıranlar peşman olmuşdular.[103]

Naxçıvan əhalisi hər tərəfdən xəbər gözləyir, özlərinə məxsus fikirlər irəli sürürdü. Bu zaman İrana gedən heyətin Təbrizdən məktubu gəldi. Təbrizdəki Naxçıvan heyəti gördüyü işlər haqqında qısa məlumat verirdi: "Biz sağ-salamat Təbrizə çatdıq. Mehdiqulu xan ilə bərabər Vəliəhd həzrətlərinin hüzuruna getdik. Naxçıvan və ətrafın müsəlman əhalisinin İran təbəəsi olmaq istədiklərinə dair müraciətnamələri təqdim etdik. Vəliəhd həzrətləri ilə çay, qəhvə içdik. O bildirdi ki, bu məsələ ilə əlaqədar Tehranla əlaqə saxladım. Ancaq buna kafi cavab ala bilmədim. İnşallah, axırı xeyirdir. Siz də çalışın, mən də gecə-gündüz bir dəqiqə durmadan çalışacağam.

---

[97] Tamaşaçı. Göstərilən əsər . Hovanisyan. Göstərilən əsər s. 65.

[98] Hacıyev. Qars və Araz-türk respublikaları s. 69-70.

[99] Tamaşaçı. Göstərilən əsər. IV , Azərbaycan 15 iyul 1919. №225.

[100] Azərbaycan, 19 may 1919, №184. Hovanisyan. Göstərilən əsər, s.243-244

[101] Simpson erməni planının niyə dayandırıldığını deməmişdir. Milli Şura da bunun səbəbini öyrənməyə çalışırdı. (Hacıyev. Qars və Araz-türk respublikaları s.65).

[102] Tamaşaçı. Göstərilən əsər IV . Əliyev Qanlı günlərimiz s.121

[103] Tamaşaçı. Göstərilən əsər, IV

Sonra biz Amerika konsulluğuna getdik. Konsul bizi hörmətlə qarşıladı, fikirlərimizi dedik. O da bizə bildirdi ki, bu qədər adamı zorla bir millətin himayəsinə vermək heç bir qanunda yoxdur. Bunlar barədə mən Amerikaya və sülh konfransına məlumat verəcəyəm, Vilson həzrətlərindən sizin azad olmanıza köməklik göstərməsini xahiş edəcəyəm. Ardınca İtalyan, İngilis [104] və s. konsullarla görüşdük. Hamısı bizə təsəlli verdi".[105]

Təbrizdən məktub gəlməsi əhaliyə bildirildi. Dükanların bağlayan sənətkarlar və digər əhali bir yerə yığıldılar. Məktub oxundu. Səhərisi gün yenə Təbrizdən telefon edildi və işlərin normal olduğuna dair məlumat verildi. Bu məlumat bir həftə davam etdi. Axırda nümayəndələr bir nəticə əldə etmək üçün Tehrana getməli oldular, bunun üçün pul lazım idi. Onlar pul göndərin xəbərini bildirən kimi əhali bu işdən ümidlərini kəsdi.[106]

Naxçıvanın müsəlman əhalisinin İrandan gələn xəbərlərlə başı qarışdığı vaxt ingilis-erməni gərginliyi aradan qalxmış, 9 may 1919-cu ildə general Tomson erməni qüvvələri ilə mühacirlərin Şərura gəlmələrinə icazə vermişdi.[107] Bundan sonra Naxçıvan regionunda yenidən kədərli günlər başladı. Artıq ermənilərin gəlməsinə çox az qalmışdı. Əhali çarəsiz qalmış, nə edəcəyini bilmirdi. Tamaşaçı qeyd edirdi: "Bəziləri: bizi xanlar satdı, bəziləri onun zamanı deyildir, çarə tapmalıyıq, bəziləri ya ölərəm, ya azad olaram",- deyirdi. Əhalinin bir hissəsi isə Naxçıvan ermənilərə verilərsə, Azərbaycana getməyi nəzərdə tutur, bəziləri də dağlara çəkilib, mübarizə aparmağı qərara alırdı.[108] Ancaq artıq çox gec idi. Dronun əmri ilə yenidən hərəkətə keçən erməni qüvvələrindən 200 nəfərlik bir qabaqcıl qrup, 2 top və 10 pulemyotla Şərurun Noraşen kəndinə gəldi.[109] Əhali həyəcan zirvəsində idi. Gözlənilən an yaxınlaşırdı. Ancaq onlar yenə öz-özlərinə ümid yaratmaq üçün əllərindən gələni edirdilər. Həmin günlərdə Şahtaxtıya gələn bir erməni zirehli qatarını onlar ingilis qatarı kimi qələmə verirdilər. Adamları buna sövq edən ən mühüm səbəblərdən birisi, şübhəsiz, vali Simpsonun sözləri idi. O, ermənilərin Naxçıvana gəlməsinə bir gün qalmış əsgərlərin tərxis edilməməsini, şəhər və ətrafın qorunmasını bildirdi.[110] Təbii ki, bu

---

[104] İrandakı ingilis nümayəndəsi ser Pered Koks hökumətinə, Araz vadisindəki məsələnin İngiltərənin İran üzərindəki planlarını alt-üst edə biləcək təsirini bildirdi. Ermənistan Respublikası. Vol. 1.s. 65

[105] Naxçıvan heyətinin işləri haqqında erməni mətbuatında yer almış, "Arəf" qəzetində xəbər çap olunmuşdur. Azərbaycan, 23 may 1919, № 186

[106] Tamaşaçı. Göstərilən əsər. s. V- VII. Azərbaycan 16 iyul 1919, № 226

[107] Hovanisyan. Göstərilən əsər. s. 244

[108] Tamaşaçı. Göstərilən əsər. Bu dövrdə naxçıvanlıların Azərbaycanı dəstəklədiyi, ingilislərin də onları sakitcə etmənilərə qarşı qoymağa çalışdıqları bəlli idi. Onlar niyyətlərini Xan Təkinski vasitəsilə Azərbaycan hökumətinə bildirmişdilər və hadisə mətbuata yol tapmışdı. Azərbaycan, 19 may 1919, № 184. Hacıyev. Qars və Araz-türk respublikaları s. 69

[109] Tamaşaçı. Naxçıvan məktubları. V-VII. Əliyev. Qanlı günlərimiz. s. 121

[110] Tamaşaçı. Naxçıvan məktubları. V-VII

hadisə əhaliyə müsbət təsir edir, ürəklərindəki həyəcan və üsyan hisslərini sakitləşdirirdi. Bəlkə də vali ona görə belə edirdi ki, əhali hər hansı bir hadisə törətməsin.

13 may 1919-cu ildə vali Simpson kazarmadan şəhərə zəng etdi, erməni valisinin 14 mayda gələcəyini bildirdi və 2 nüfuzlu şəxs ilə onun qarşılanmasını söylədi. Bundan əlavə Milli Şura sədrinə saat $16^{00}$-da onun yanına gəlməsini tapşırdı. Simpson Şura sədrinə bir çox tapşırıqlar verdi. Əlinizdə nə qədər silah var, gizlədin. Erməni hökuməti getdikdən sonra rahatca istifadə edə bilərsiniz. Əhali nə qədər özünü sakit apararsa, özləri üçün yaxşı olar. Milli Şura yerinə Milli Komitə qurulmalıdır. Naxçıvanlılar bu xəbəri eşidən kimi Milli Şura binasına yığışdılar, bu qərarları qəbul etdilər. Buna görə: 1. Erməniləri qarşılamağa Şura sədrindən başqa heç kim getməyəcək. 2. Ermənilərə xidmət edənlər edam olunacaqdır. 3. Hər kəs yeni yaradılan Milli Komitəni tanıyacaq, şikayətlərini oraya edəcəklər. 4. Erməni hökumətini və məhkəməsini tanımayacaqlar. Onlara şikayət edənlər cəzalandırılacaqdır. 5. Erməniyə tabe olmamaq üçün İrana qaçanlara icazə verilməyəcək. Çünki onlar var-dövlətlərinə arxayın olub qaçacaq, fəqir-füqəranı ermənilər məhv edəcək. Ermənilər gəlsə belə, bu böyüklükdəki türk yurdunun ocağını söndürmək qəbul oluna bilməzdi.[111]

Həmin gün məhəllə vəkillərinin yığıncağı[112] oldu, Milli Şura ləğv edildi və Milli Komitə yaradıldı. Sədr Əliqulu Alış bəy Sultanov oldu. Üzvlər: Mirzə Nəsrullah Əmirov, Kərbəlayı Abbas Bayramov, Heydərqulu bəy Muradəsilov, Mirzə Cabbar Məhəmmədağa, Kərbəlayı Muxtar Nehrəmli idi.[113] Əliyevin qeydinə görə, yığıncaq zamanı Heydər ağa Bənəniyarlı da gələcək erməni valisinə müavin təyin edildi.[114] Bəlkə də onlar, yuxarıda qeyd olunan qərarların, əksinə, yaranacaq erməni idarəetməsində üst təbəqədə olmaq istəyirdilər.

Naxçıvan türkləri bir yandan sakitcə müqavimət göstərməyi qərara alır, digər tərəfdən ingilis valisinin tapşırığı ilə hazırlıqlar görürdülər. Ermənistanın baş naziri Xatisyan, general Devi, Naxçıvana vali təyin olunan Gevorq Varshamyan və onu müşayiət edənlər 13 mayda İrəvandan yola düşdülər.[115] 14 mayda səhər Naxçıvana gələn Xatisyan, Devi və Varshamyan, Kalbalı xan, Alış bəy Sultanov və vali Simpson, Rajput hissəsi tərəfdən

[111] Tamaşaçı. Naxçıvan məktubları .V-VII

[112] Yığıncağın keçirildiyi saatı Əliyev 16°°-da, Tamaşaçı 18 olaraq göstərir.(Naxçıvan məktubları .V-VII)

[113] Tamaşaçı. Göstərilən əsər. Azərbaycan 18 iyul 1919, № 228. Əliyev. Qanlı günlərimiz. s. 120-121.

[114] Əliyev. Qanlı günlərimiz. s. 121

[115] Hovanisyan. Naxçıvan məktubları .V-VII. s. 245

təntənə ilə qarşılandılar.[116] Stansiyada tərəflər arasında qısa bir danışıq oldu.[117] General Devi Şərur və Naxçıvanın müvəqqəti erməni cümhuriyyətinə verilməsini bildirəndə Kalbalı xan sərt cavab verdi. Mülki bir rəhbərdən başqa heç bir erməni idarəsi olmamasını və qaçqınların qayıtmamasını tələb etdi. Xatisyan Naxçıvanda qarışıq bir erməni idarəçiliyinin yaradılacağını, valinin müavinlərindən birinin türk olacağını, erməni əsgərlərinin çox nizamlı bir şəkildə sabitliyi qoruyacaqlarını deyərək, erməni qaçqınların geri qayıtmağa haqları olduğuna işarət etdi və bununla Kalbalı xanın istəklərini rədd etdi.[118]

Stansiyadakı danışıqlardan sonra Xatisyan Devi və Varshamyan Culfaya getdilər.[119] Culfada Xatisyan İran baş nazirinə bir məktub göndərdi. Hovanisyan qeyd edirdi ki, İran baş naziri də ona cavab göndərdi.[120] Bu cavaba görə, İran baş naziri Ermənistan ilə ənənəvi əlaqəni dəyərləndirir və Ermənistan Cümhuriyyətini qonşu kimi məmnuniyyətlə qəbul edir. Culfadakı işini bitirən Devi, Xatisyan və Varshamyan mayın 15-də səhər yola düşdülər. Ancaq onların 14 maydakı gedişlərindən etibarən Naxçıvanda qızğın bir fəaliyyət başlanmışdı. Xatisyan və Devi Naxçıvana gəlməmişdən əvvəl onlara verəcəkləri cavabı hazırlamaq istəyirdilər. Bunun üçün Milli Komitə sədri Alış bəy Sultanovun rəhbərliyi altında komitə üzvləri və nüfuzlu şəxslər dalbadal yığıncaqlar keçirir, qərarlar qəbul edirdilər. Nəticədə general Deviyə təqdim olunacaq protest mətni və Xatisyana cavab mətni hazırlandı. Xatisyana cavab mətnində yazılmışdi: "Sizin cümhuriyyətinizdə zülm və zorbalıq var. Bizim sizə tabe olmaq istəmədiyimizi və protest etdiyimizi bildiyiniz halda, bizi məcburi özünüzə tabe etmək istəyirsiniz. Biz naxçıvanlılar sizə bildirmək istəyirik ki, biz sizə tabe olmağı qəbul etmir və[121] etiraz edirik.[122]

---

[116] Tamaşaçı. Naxçıvan məktubları .VII-IX. Əliyev. Qanlı günlərimiz. s.122. Hovanisyan. Ermənistan Respublikası 65. Əli Əliyev. Naxçıvanda sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə B. 1960. s. 13.

[117] Əliyev.Qanlı günlərimiz. s.122.

[118] Hovanisyana görə Xatisyanın Naxçıvan müsəlmanlarından tələb etdikləri ilə D.Sultanovun Qarabağ ermənilərindən tələb etdikləri eyni idi. (Hovanisyan. Göstərilən əsər, s.245). Müəllif göstərmək istəyirdi ki, 2 ayrı regionda 2 ayrı xalqla eyni cür davranmışlar. Hovanisyan bir şeyi unutmuşdur. O da Qarabağ və Naxçıvanın etnik tərkibidir. Hər iki bölgədə türklər çoxluq təşkil edirlər. Qarabağın əksinə Naxçıvan ermənilərə verilmişdir.

[119] Tamaşaçı. Göstərilən əsər. Hovanisyan. Göstərilən əsər. V. I s.245. Əliyev. Qanlı günlərimiz. s.127.

[120] Hovanisyan. Ermənistan Respublikası. I c.s.246. İran baş nazirinin belə bir cavabı çox qəribədir. İran bir tərəfdən naxçıvanlıların onlara birləşməsini xoş qarşılayır, digər tərəfdən və ən mühümü Paris Sülh konfransına verdikləri notada Naxçıvan da daxil olmaqla bütün Cənub Qafqazı tələb edirdilər.(Firaz Kazemzadeh.The Struggle For Transcaucasia (1917-1921), New York, 1951,c.267 Nəsibzadə. Azərbaycan Demokratik Respublikası, s. 27).

[121] Tamaşaçı. Naxçvan məktubları .VIII-IX. Əliyev. Qanlı günlərimiz. s.122.

[122] Tamaşaçı. Göstərilən əsər.

15 mayda saat 10°°-da Devi, Xatisyan və Varshamyan Naxçıvana gəldi birbaşa Milli Komitənin binasına getdilər. Danışıqlar başladı. İlk çıxış edən general Devi oldu. O, regionda Erməni hökuməti qurulacağını, yolların açılacağını, bolluq olacağını bildirdi. Milli Komitə üzvləri və s. qabaqcıl nüfuzlu şəxslər Deviyə çox sərt şəkildə etirazlarını bildirdilər, ancaq bir nəticə əldə olunmadı. İkinci çıxışı Xatisyan etdi. Çox yumşaq bir dillə: "Yoldaşlar, qardaşlar, hər şey keçdi. Biz yaxşı bilirik ki, hər iki tərəf sıxıntılar çəkdi. Ancaq biz keçmiş hadisələri unudub, yenidən yaxşı qonşuluq münasibətlərini qurmağa çalışaq. Sizə hər cür yardımı vəd etməklə bərabər çox səmimi deyirəm, erməni əsgərləri sizə hörmət və ehtiramdan başqa, heç bir pis hərəkət etməyəcəklər. Ümid edirəm ki, siz bizimlə yaxşı işləyəcəksiniz. Milli Komitənin razılığı ilə istədiyiniz qədər müsəlman hökumət işində vəzifə ala bilər".[123] Nümayəndələr Xatisyana etiraz etdilər, təbii ki, bu da işə yaramadı. Xatisyan, Naxçıvanda hakimiyyət qurmaq istəmədiklərini, ingilis hakim dairələrinin əmri ilə buraya gəldiklərini dedi.[124] Sonra Devi və Xatisyan bina ətrafında yığışmış camaat ilə görüşmək üçün bayıra çıxdı.[125]

General xalqa müraciət etdi: "Camaat, bu tarixdən etibarən ermənilər sizə hakimdir. Vali də gəldi. Hər kəs ona itaət etməlidir. Onu tanımayanlar və itaət etməyənlər, erməni hökumətini tanımırlar,-deməkdir. Onların hakimiyyətinə girmək istəməyənlər bizim düşmənimiz hesab olunacaqdır".

Yuxarıda qeyd etdiyimizə uyğun olaraq xalq cavab verdi: "Xeyr, biz erməni hökumətini tanımırıq. Onlar hökumət deyildir, başları xarabdır. Biz onlara tabe olmuruq. Bizi zorla onlara verirsiniz. İngilis hökumətindən narazı deyilik. Ermənilər xaindirlər. Biz onlara tabe olmayacağıq. Onlar özlərini düzəltsinlər, idarə etsinlər. Sonra bizə hakim olsunlar. Bu dövrdə də İrəvanda quldurlar yol kəsir, adam öldürür, müsəlmanları incidirlər.[126] Xatisyan onları qaydaya salsın. Biz məhv olsaq da, onlara tabe olmaq istəmirik".

Tamaşaçıya görə, Xatisyan bu sözlərdən qızarıb, çox utanmışdır və heç bir söz deməmişdir.[127] Kalbalı xan da vəziyyətin gərginləşdiyini

---

[123] Şahtaxtı stansiyasında keçirilən mitinqdə bir daşnaq nümayəndəsi əhaliyə Naxçıvanın Ermənistana verildiyini dedikdə müsəlmanlardan biri bu erməninin ağzından vurub öldürmüşdür. (Ə.Əliyev. Bu xüsusda ilk dəfə Araz-türk Cümhuriyyəti. Yaddaşdan xatirələr). Azərbaycan,1 may 1991, №18 (81)

[124] Təbii ki, Xatisyan yalan deyirdi, ingilislərin icazəsi və yardımı ilə gəldikləri doğru idi. Naxçıvanda hakimiyyət qurmaq istəmədikləri çox gülməli idi.

[125] Tamaşaçı. Göstərilən əsər. Hacıyev.Qars və Araz-Türk Respublikası.122-123. s. 65 L.Hüseynzadə. Tarix. Nümunə və İbrət dərsləri. Şərq qapısı, 31 mart 1993.

[126] Ermənistan Cümhuriyyəti yarandığı andan etibarən ölkə daxilində və hüdudlarında hakimiyyətini qura bilməmişdir. Ölkə daxilində anarxiya və aclıq mövcud idi. İrəvanda müsəlmanlar böyük bir təhlükə içində idilər. Polislər belə onları qarət edirdilər. (Azərb. Cüm. MDƏYTA f.894.0n.10. s. 70.1.5. İgdam, 31 dekabr 1918 №7 862).

[127] Əhali Xatisyana vəziyyəti etiraz edən bir məktub vermiş və Ermənistanın bu sevdadan əl çəkməsini istəmişdi. (Hacıyev. Göstərilən əsər. s.67-68).

görüncə onları çay, qəhvə içməyə apardı.[128] Səhərisi gün, 16 mayda vali Varshamyan Naxçıvanda qaldı. Devi və Xatisyan İrəvana yola düşdü.[129]

Vali Varshamyanın öz işçiləri ilə Naxçıvanda qalması və nisbətən idarəetmə sistemini ələ almaq üçün fəaliyyətə başlaması[130] regionda feləen erməni idarəetmə sisteminin qurulmasını göstərirdi. Naxçıvanda böyük bir hüzn var idi.[131] Xalqın etirazlarından bir nəticə əldə edilmədi. İngilislər erməni vali Varshamyanı və məmurlarını Naxçıvana gətirməklə planın birinci mərhələsini yerinə yetirmişdi. Növbə hərbi hissələrin və mühacirlərin gəlməsi idi. Bir neçə gün sonra o da oldu. Erməni hərbi hissələri və mühacirlər Naxçıvana axmağa başladılar.[132] Artıq Naxçıvanda yeni bir dövr başladı. İngilislər işlərini yerinə yetirdiklərinə görə özlərini rahat hiss edirdilər.

## 4. İngilislərin Naxçıvanı tərk etməsi

Qafqaza sülh gətirmək istəyən ingilis hakim dairələri dövlətlər arasındakı ziddiyyətləri, sərhəd anlaşılmazlıqlarını həll etmək üçün bir sıra planlar hazırlamış və qüvvələrinə arxalanaraq yerinə yetirməyə başlamışdılar. Şübhəsiz, ingilis planının ən mühüm hissələrindən biri ermənilərin rahat yaşaya bilmələri üçün bir Ermənistan yaratmaq idi. Buna görə də Qars və Naxçıvanı Ermənistan hökumətinə hədiyyə etmiş, yerli rəhbərləri susdurmuşdular. Artıq ingilislərin vəzifələri sona çatmışdı. Daha əvvəl verdikləri qərara görə çıxacaqdılar.[133] Onlar hərbi xərcləri azaltmaq və Amerikanın "çıxın" sözünü sanki qulaqlarında hiss etdiklərinə görə Qafqazdan çıxmağı fikirləşirdilər.[134] İngilis dövlət adamları arasında belə inam yayılmışdı ki, Qafqazdakı dövlətlərin mülki həyata qayıtmaları üçün onların çıxmaları lazımdır.[135]

Belə bir vəziyyətdə 22 mayda general Devi və Qafqazdakı yeni ingilis komandiri G.N.Kari Naxçıvanda son çalışmalarını etdilər. 30 mayda podpolkovnik Simpsona Naxçıvandakı dəstələrinə çıxarılması işi tapşırıldı.

---

[128] Tamaşaçı. Göstərilən əsər; Hacıyev bir Azərbaycan arxiv sənədinə əsasən göstərirdi ki, Kalbalı xan onu dəvət edən Xatisyana Mən Ermənistanı tanımıram, - deyərək getməmiş, general Deviyə etiraz mətnini vermişdi. Kalbalı xana görə, yarım milyon türkün yaşadığı Şərur və Naxçıvan bölgəsi Azərbaycanın ayrılmaz hissəsi hesab olunurdu.(Hacıyev. Qars və Araz Türk Respublikası. s.70). Müəllif, Kalbalı xanın Xatisyan ilə görüşmədiyini qeyd edirsə də, mənbələrə əsasən deyə bliərik ki, 14 mayda Naxçıvanda, 15 mayda Culfada görüşmüşlər.

[129] Tamaşaçı. Göstərilən əsər. Hovanisyan. Göstərilən əsər. s.246. Hacıyev. Göstərilən əsər, s. 65-66

[130] Tamaşaçı. Göstərilən əsər.VIII- IX

[131] Əliyev.Qanlı günlərimiz. s.123

[132] Tamaşaçı. Göstərilən əsər. Azərbaycan, 21 iyul 1919 №230. Əliyev. Qanlı günlərimiz. s.123. Hovanisyan. Ermənistan Respublikası. s.246

[133] Hovanisyan. Göstərilən əsər. s.237

[134] Amerikalılar əvvəlcə müsəlmanları, sonra erməniləri dəstəkləyərək ikiüzlü bir siyasət aparırdılar. (Hovanisyan. Göstərilən əsər.s.227.) Kazım Qarabəkir Ərzurumda görüşdüyü bir amerikalı əsgərdən eşitmişdi ki, ingilislərin Qafqazdakı hakimiyyətini istəmirlər.(Kazım Qarabəkir. İstiqlal hərbimiz. 1988, s.39)

[135] Hovanisyan.Ermənistan Respublikası. s.119

Naxçıvanda ancaq F.L.Şvindin rəhbərliyi altında hərbi heyət olacaqdır.[136] General Kari Xatisyana bu məsələ ilə əlaqədar məlumat verdi. Bundan sonra tərk etmə sürətlə davam etdi.[137] Podpolkovnik Simpson və hərbi hissə qərərgahı 1 iyunda Naxçıvanı tərk etdi.[138] Qalan qüvvələr üç gün sonra çıxmağa başladılar. Noraşen, Dəvəli və digər bölgələrdə olan rajput qüvvələri də çıxmağa başladı. 7 iyunda İrəvanın cənubunda Naxçıvandakı bir ingilis hərbi heyətindən başqa heç bir qüvvə qalmamışdı. 12 mayda general Devi yerinə təyin olunan podpolkovnik J.G. Plovdeni Xatisyan ilə tanış etdi, həm də Qars, Naxçıvan və Şərurda müvəffəqiyyətli işlər gördüyünə inanan erməni hökumətinə vida ziyarəti keçirdi.[139]

General Devi vidalaşıb İrəvanı tərk edərkən erməni hakim dairələri sıxıldı. İngilis qüvvələri Naxçıvanda olduğu kimi Qars və Ermənistanın digər bölgələrindən də çıxırdılar. Bu iş qısa müddətdə sona çatdı.[140] Erməni səlahiyyətliləri çaşıb qalmışdılar. Çünki 27-ci ingilis diviziyası buranı tərk etdikdən sonra həftələrcə Gürcüstan və Azərbaycanda qalmışdı.[141] İngilis ordusunun Ermənistandan çıxması ermənilər üçün təhlükəli bir vəziyyət yaratmışdı. Çünki Erməni hökumətinin zəifliyi və müdafiənin kifayət qədər olmaması ortaya çıxdı. İngilislər tərəfindən ermənilərə bəxş edilən bölgələrin türk əhalisi hər an bu zəiflikdən istifadə edə bilərdi.[142] Erməni ordusunun buna qarşı gücü yox idi. Hovanisyana görə, 300 mildən daha geniş bir əraziyə yayılan Ermənistanın vəsaiti və ordusu lazımi miqdarda deyildi. Bu da ölkənin müdafiəsi üçün təhlükəli idi.[143] Bundan başqa, münaqişəli ərazilərə görə hər an Azərbaycanla dəhşətli müharibənin başlanması ehtimalı gözlənilirdi.[144]

Belə ki, öz zəifliyini bilən və bilavasitə qazandıqları ərazini itirmək

---

136 İngilislər getdikləri zaman Qars, Ərdəhan, Axılkələk ve İrəvanda hərbi nümayəndəliklər yaradacaqdılar. (“Azərbaycan”, 10 iyun 1919. №200. Hovanisyan. Göstərilən əsər.s. 62). Bu nümayəndəliklər vasitəsilə regionda baş verən hadisələr haqqında hər gün məlumat ala biləcəkdirlər. (Hovanisyan. Göstərilən əsər.s.247).

137 İngilis əsgərlərinin Naxçıvandan çıxmasını XV kolordu komandiri Kazım Qarabəkir öyrənmiş və hərbi nazirliyə bildirmişdi. Naxçıvan, Şahtaxtı və Dəvəlidə olan və sayı bilinməyən ingilis birliklərinin 2\3-si 5 iyundan etibarən Təbrizə doğru çəkilirdi. Kazım Qarabəkir. İstiqlal hərbimiz. s.42. (ATASE. A.l/16 kls.182, s-83-14. F-399, 399-1 ATASE A1/2 kls. 78 s.291-118; ATASE A.l/l kls.23. s. 151-92. F-79.) Ancaq görünür, Kazım Qarabəkirə çatan məlumatda ingilis əsgərlərinin çəkildikləri yer düzgün göstərilməmişdir. Onlar Təbrizə yox, İrəvana doğru çəkilmişlər. Azərbaycanın İrəvandakı səfiri Xan Təkinski ingilislərin Naxçıvandan çıxdığını 4 və 11 iyunda hökumətə bildirmişdir. (Hovanisyan. Göstərilən əsər. s. 248. Hacıyev. Göstərilən əsər, s.72.)

138 Amerika məlumatlarına görə, Naxçıvandakı ingilis birlikləri may ayının ortalarından çıxmağa başlamışlar.(USA NA Paris Peace Conferance. 184 021/216 General George Van Horn Mosli, Mandatory Over Armenia Repon, Waşinqton 1920.C.18) Biz, ingilis hərbi mənbəyinə əsaslanan Hovanisyanın məlumatlarını doğru qəbul edirik. Hadisələrin inkişafı bunu sübut edir.

139 Hovanisyan. Göstərilən əsər. s. 246-247

140 Azərbaycan , 10 iyun 1919 №200. Hovanisyan. Göstərilən əsər. s. 62, 74.

141 Hovanisyan. Göstərilən əsər. s.74.

142 Nassibian (“Armenian Question” s.163. Hovanisyan. Göstərilən əsər. s. 62. Raxton Hibben “Kepinq the Ptace in Qranscaucasic”Asia (American Madazine on the Oritnt) Audust 1920 c.723

143 Hovanisyan. Ermənistan Respublikası. s.62.

144 Nasibian. Armenia Question. s.198

istəməyən erməni rəhbər orqanları ingilislərin getməsini istəmirdilər[145], lakin buna mane ola bilmədikdə, beynəlxalq ictimaiyyətdən istifadə edərək yenidən Ermənistana qüvvə göndərilməsini istəyirdilər. Bir tərəfdən Xatisyan və İrəvandakı ingilis nümayəndəsi podpolkovnik Plovden, general Karidən yardım istəyir, digər tərəfdən isə Ermənistan Xarici İşlər Naziri Axaronyan da Avropa liderlərinə teleqramlar göndərir, ingilislərin Qafqazdan çıxmasının Ermənistana hücum üçün türklərə cəsarət verdiyini qeyd edir, Ermənistanın acınacaqlı vəziyyətdə olduğunu göstərirdi.[146] Ermənilər bu təbliğatla beynəlxalq sosialist qrupların diqqətini cəlb etmişdi.[147] Ancaq ingilislərin qərarı qəti idi. General Milnein general Kariyə verdiyi əmrə görə, heç bir ingilis dəstəsi hadisələrə qarışmayacaq. Yerli əhali öz məsələlərini öz aralarında həll edəcəkdir, nəticədə dözəcək, ayaq üstə durmağı öyrənəcək. Elə bu səbəblə Xatisyan və Plovdenin tələbləri qarşılığında Kari İrəvandakı ingilis nümayəndəsinin mühafizəsi üçün bir Penjab dəstəsi göndərmişdi. Kari 25 iyulda general Milnə bildirdi ki, türk və Azərbaycan agentlikləri müsəlman xalqını qızışdırır, bunun qarşısını almağın tək bir yolu ya bu ölkələrin işğalı, ya da Ermənistana himayəlikdir. Ancaq Ermənistana himayəçilik 2-3 il davam edəcəyindən bunun da mümkün olmadığını bildirdi. Bununla bərabər, italyanlar Qafqazda məsuliyyət daşımağı qəbul etdikləri vaxt İrəvan və Gümrüyə bir çox birliklər göndərə biləcəkdilər.[148]

İngilis hakim dairələri İrəvana bir qədər qüvvə göndərməyi nəzərdə tuturdular, digər bölgələrə qarışmaq istəmirdilər. Beləliklə, iyul ayının axırlarında Naxçıvanda ağır vəziyyətə düşən ermənilərin yardım xahişləri ingilislər tərəfindən rədd edildi. Onlara məsləhət verilmişdi ki, nəzarət edə bilmədikləri yerlərdən çıxsınlar. Heç bir zaman ingilis birlikləri bu işlərlə məşğul olmayacaq. Naxçıvan və bu kimi bölgələrdə ingilis səlahiyyətliləri ancaq vasitəçilik edə[149], atəşkəs əldə etməklə məşğul ola bilərlər.[150] General Kari İrəvandakı ingilis nümayəndəsi podpolkovnik Plovden və Naxçıvan-

[145]Ermənilər bu hərəkəti özlərinə qarşı bir xəyanət hesab etmişdilər. (USA NA Paris Peace Conferance 184021/185 ATASE A.I/l. kls 23 s. 151-92. f. 79-79-1. ATASE A.1/2 kls 78 s. 291-118 f. 24-1. Atatürkün teleqram və bəyannamələri IV. Ankara 1919.s.33-34).

[146] İngilislərin Qafqazdan çıxmasına “Tayms” qəzeti etirazını bildirmişdi. Qəzetə görə ingilislərin Batumidən çıxması Ermənistanın Avropa ilə əlaqəsini kəsəcəkdi. (Hakimiyyəti - Milli 29 iyul 1336 (1920) №51). Ermənilərə milli planlarını yerinə yetirməyi söz vermişdilər. Bu da türk millətpərəstlərin diqqətini cəlb etdi, belə bir vəziyyətdə ermənilər özlərini necə idarə edə bilərdilər.

[147] Ermənilər Parisdəki nümayəndələri vasitəsilə türk əhaliyə qarşı təcili silahlandırılmalarını tələb edirdi.

[148] Hovanisyan. Göstərilən əsər. s.74, 114.

[149] İngilis rəhbər orqanlarının bu sahədəki əmrinə baxmayaraq, podpolkovnik Plovden bir tərəfdən Vediyə hücumla əlaqədar erməni səlahiyyətliləri ilə razılığa gəlir, (Hovanisyan. Göstərilən əsər.s. 661), digər tərəfdən isə Naxçıvan müsəlmanlarını məğlubiyyətə uğratmaq üçün səfərbərliyə başlayan Xatisyanı dəstəkləyirdi. (А.Я.Вазиянт. О вопросе захватической политик США в Азербаджане (1919-1920) Ученые записки Института Востоковедение АН СССР. Москва 1958.с.31.

[150] İngilislərin bu siyasəti qərb cəbhəsində məğlub olan yunanlar lehinə göstərdikləri fəaliyyətə oxşayırdı.

dakı səlahiyyətli şəxs Şvind Naxçıvandakı hadisələrdə vasitəçilik etmək istəmişdilər, lakin ermənilər lehinə bir şey edə bilməmişlər. Naxçıvanlılar və liderləri artıq ingilisləri dinləmək istəmirdilər,[151] çünki ingilislərin regionda nə gücü, nə də nüfuzu qalmışdı. İngilislərin hərbi valilik qurduqları Naxçıvanı öz əlləri ilə ermənilərə təqdim etməsi müsəlman əhalinin etiraz və nifrətinə səbəb olmuşdu. Onlar ingilisləri müsəlmanın düşməni, ermənilərin tərəfdarı adlandırırdılar. İngilislərlə görüşməyi qəbul etmirdilər. Şərurun nüfuzlu şəxsi Məşhədi Əli Əsgər ağa Həmzəzadə ingilislərə nifrət bəsləyərək türk-erməni müharibəsində onları günahlandırırdı. Naxçıvanın ilk hərbi valisi Lotn müsəlmanların kinini normal qəbul edirdi, bir ingilis səlahiyyətli şəxsin Naxçıvanda mühafizəsiz gəzə bilməyəcəyini deməklə, hökumətinin regionda apardığı siyasətdən məyus olurdu.[152]

Türk əhalinin nəzərində etibarını itirmiş ingilislərin Naxçıvandan çıxması ilə özlərinin və ya ermənilərin lehinə olan əməlləri də sona çatdı. Ancaq onlar region ilə əlaqələrini tamam kəsmədilər. Naxçıvanda olan amerikalıları agentləri vasitəsilə izləyir, bütün hadisələrdən xəbərdar olmaq istəyirdilər.[153] Onlar Naxçıvandakı fəaliyyətlərini Təbrizlə Tehran vasitəsilə davam etdirir və lazımi məlumatlar vaxtında Londona çatdırılırdı. Türk və sovet təsirinin artması ilə Naxçıvandan xəbər axını daha sürətləndi. İngilislər İrandakı nümayəndələri hadisələrin günbəgün hakim dairələrinə çatdırdılar.[154] İngilislər, xüsusilə Ermənistan və İran vastəsilə regionda gücünü və prestijini davam etdirməyə çalışır, Türkiyənin və xüsusən Rusiyanın regionda nüfuz qazanmasını istəmirdi. Regionda gücünü saxlamaq üçün fasiləsiz Ermənistanı silahlandırırdı. Buna görə də 10 avqustda Sovet Rusiyası ilə Ermənistan arasında imzalanan müqavilə İngiltərəni şok etdi, bunu İngiltərəyə qarşı xəyanət, aldatma hesab edirdilər. Müqaviləyə görə, Ermənistanın Şahtaxtı-Culfa dəmiryoluna nəzarət etməsi onları maraqlandırmırdı.[155] Mühüm olan regionda İngiltərənin Rusiyaya qarşı gücünü itirməsi idi. Ancaq ingilislərin məyus olmasına səbəb yox idi. Sonra biz bu haqda söhbət açacağıq. Türkiyə və Sovet Rusiyası arasındakı müqavilələr, onların birgə fəaliyyətləri nəticəsində qısa zamanda Qafqazda siyasi vəziyyəti dəyişəcək, bilavasitə İngilis təsiri tamamilə yox olacaqdı.

---

[151] Hovannisian.The Repubiic of Armenia. II. s.69, 74-75. Nasibian. Armenia Question. s.164. (Nasibian Armenia Question. s.164). USA/ NA/ Near Eastern Affairs 867/00|1100.

[152] USA NA Near Eastern Affairs 867 00/1100. Pondebard İran yolları s.112. Mədətov. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi. s.50

[153] USA NA Near Eastern Affairs 867 00/1047.

[154] Britisch Documents on Foreiqn Affairs Port II. Series B. Turkey. Iran and the Muddle East Vol : 16 Persia II Jan 1919- June 1921. University Publications of Amerika 1990, Belqe: 372 c.276-277. Belqe vol c.294.B.483 c. 351-52. B. 503. c. 367-368.

[155] Bilal Şimşir. İngilis sənədlərində Atatürk 1919-1938. l-c.1919 aprel,1920 mart, Ankara 1973 c. 250. Nasibian Armenia Question. s.205-206.

## B. Naxçıvanda Erməni idarəçiliyi.
## 1. Naxçıvanın ermənilər tərəfindən işğalı

Qafqazdakı ingilis hərbi dairələri tərəfindən Şərur və Naxçıvanın Ermənistana verilməsi ermənilər üçün xəyalın həqiqətə çevrilməsi olmuşdu. Müharibə ilə əldə edə bilmədikləri bölgələr onlara hədiyyə edilmişdi. Onlara hədiyyə edilən bölgələrdə əhalinin əksəriyyətinin müsəlman olmasına ermənilər əhəmiyyət vermirdilər. Onlara görə, bu torpaqlar Ermənistanın tarixi parçasıdır və çox məhsuldar torpaqları olan bölgələrin əldə edilməməsi Ermənistan iqtisadiyyatı üçün çox böyük itki olacaqdı.[156] Kaçaznuniyə görə, Ermənistan Şərursuz və Naxçıvansız yaşaya bilməzdi.[157] Başqa bir fikrə görə Naxçıvansız, Şərursuz, Axılkələksiz, Lorisiz, Qarabağsız Ermənistan yarımçıq qalmış binaya bənzəyir.[158] Buna görə də ermənilər beynəlxalq platformalarda, Paris Sülh Konfransında daim Naxçıvanı tələb edərək Azərbaycan ilə qızğın mübahissələrə girirdilər.[159] Çar üsul-idarəsinin dağılmasından sonra ermənilər belə əməllərini çox qızğın şəkildə davam etdirirdilər. Bəzən siyasətə, bəzən gücə əl atırdılar. Ancaq heç birində müvəffəqiyyət qazana bilmədilər. 1919-cu ilin yanvar ayında Naxçıvanda ingilis valiliyi qurulması onlara fürsət qapılarını açdı. İngilis valiliyindən istifadə etmək lazım idi. Bu dövrdən etibarən ermənilər Naxçıvana rəsmi işçilərini göndərməyi, Ermənistan Dövlət Bankının bir şöbəsini açmağı və yerli liderlərə 2 milyon manat verməyi nəzərdə tuturdular.[160] Ancaq Naxçıvan hökuməti onlara belə bir fürsət vermədi. Ümumi bir sülh yaranmadan Ermənistan ilə əlaqələrə girmək istəmirdilər.

Müsəlmanlar nə qədər ki, belə bir fikirdə idilər, zaman Ermənistan üçün əlverişli oldu və ingilis hərbi dairələri, daha əvvəl qeyd etdiyimiz kimi, Naxçıvanı müvəqqəti olaraq Ermənistana verdi. Erməni hökuməti də birləşmənin əsas prinsipləri haqqında qərar qəbul etdi. Artıq ingilis zabitlərinin müşayiəti ilə erməni qoşunları Naxçıvana gəlməyə başladılar. Dronun əmri ilə erməni qoşunları Qəmərlidən yola düşdülər. Hərəkət başlanmışdı. Bu vaxt İrəvan dəstə komandiri Dro, general Devi və İrəvan dəstəsinin ştab rəisi Muradyanın imzası ilə bir deklarasiya nəşr edildi. Burada erməni əsgərlərinin və Naxçıvan əhalisinin tabe olacağı şərtlər yada salınırdı.[161] Dro tərəfindən koordinə edilən general Şilkovnikovun əsgərləri və Muskel Avetisyanın

[156] Nassibian. Armenian Questions c. 156

[157] Качазнуни. Болъше нечего делатъ. с. 18.

[158] Aleksandır Muçiri. Birlik olsa idi. Sovet Gürcüstanı, 20 sentyabr 1910. №11 (9806)

[159] Əsəd Uras. Tarixdə ermənilər və erməni məsələsi. İstanbul, 1987. s. 658-671. Bəxtiyar Nəcəfov. Azərbaycan Demokratik Respublikası. (Daxili və Xarici Siyasət.) Bakı, 1992.s. 44-45, Kazemzadeh. Transcaucasia s.255, 268.

[160] Azərb. Cüm. MDƏYTA. f. 894. On. 10.c. 70. L. 3.

[161] USA NA Paris Peace Conferance 184. 021/15 Hovanisyan. Göstərilən əsər.s. 243

komandirliyi altında Türkiyə ermənilərindən ibarət Soson süvari rotası Qəmərlinin cənubundakı böyük müsəlman kəndlərindən keçərək Dəvəliyə çatdı. Burada erməni əhali tərəfindən duz-çörəklə qarşılandı. Ancaq sonra erməni qoşunlarının gəlişi dayandı.[162] General Tomson Zəngəzurda Azərbaycan əleyhinə yönəlmiş fəaliyyətlərə erməni hökumətinin qarışdığını öyrənən kimi general Devidən lazım gələrsə, silahdan istifadə etməklə Naxçıvana doğru hərəkətin dayandırılmasını tələb etdi.[163] Hovanisyana görə, Tomsonun əmri Erməni Cümhuriyyətinə bağlı cənub bölgələrini təhlükəyə atırdı. Bu məqsədlə Xatisyan general Deviyə Ermənistanın Zəngəzurdakı Şura üzərində səlahiyyəti olmadığını bildirdi. Zəngəzurda Azərbaycana qarşı meydana gələcək müqavimətin erməni hökumətinin bir əmri ilə qarşısı alınacağını düşünmək mənasız olardı. Devi Naxçıvana doğru hərəkatın planlı şəkildə icra edilməsi üçün diqqətli davranırdı. Və o, 7 mayda general Tomsona Xatisyanın izahatını nəql edərkən, öz fikirlərini də bildirdi: Naxçıvan ilə əlaqədar planların gecikməsi və təxirə salınması, təkcə Naxçıvanda deyil, Qarsda da əhaliyə təsir edəcəkdi. İnsanların öz yerlərinə geri göndərilməsi planda nəzərdə tutulduğu kimi davam etməlidir. Əks-təqdirdə planın təxirə salınması qaçqınlara, orduya və Ermənistan hökumətinə mənfi təsir göstərəcəkdir. Səhərisi gün Tiflisdə erməni lideri general Tomsona kabinetinin Zəngəzurdakı hadisələrə məsul olmadıqlarını, ancaq dağlıq rayonlarda sülhü təmin etmək üçün əllərindən gələni edəcəklərinə dair söz verdi. Zəngəzurdakı türk çobanlarının hər yay ot üçün xahişləri olacaqdı. 9 may axşamı Tomson yaxşıca inandırılmış, sakitləşdirilmişdi. Belə bir şəraitdə hərəkəti dayandıran Tomson qərarını ləğv etdi. İrəliləmənin davam etdirilməsinə icazə həmin dəqiqə teleqramla Droya bildirildi.[164] Yenidən hərəkətə başlayan və Naxçıvan torpaqlarına girən erməni qoşunlarının qabaqcıl dəstələri qısa bir vaxtda Noraşenə çatdı. 2 top, 10 pulemyot və 200 əsgərdən ibarət birliklər Noraşendə yerləşdi.[165] Qarsdan İrəvana qayıdan general Devi ilə Xatisyan, vali Varshamyan və əlaltıları ilə bərabər Naxçıvana yola düşdülər. Əvvəlcə Culfaya gedən və 15 mayda təkrar Naxçıvana qayıdan N. Xatisyan, Devi və Varshamyan Naxçıvanın səlahiyyətli şəxsləri ilə görüşdülər. 16 may 1919-cu ildə Xatisyan və Devi İrəvana qayıtdılar, Varshamyan Naxçıvanın ilk erməni valisi olaraq şəhərdə qaldı.[166] General Devi və baş nazir Xatisyan getdikdən 4 gün sonra ingilis nəzarəti altında irəliləyən bir erməni

---

[162] Hovanisyan. Göstərilən əsər.s. 243

[163] Azərbaycan, 19 may 1919. Hovanisyan. Göstərilən əsər.s. 243-244

[164] Hovanisyana görə Tomson qərarı ləğv etməsə idi, ingilislərin geri çəkilmə proqramı alt-üst ola bilərdi. Hovanisyan. Ermənistan Respublikası. s.244.

[165] Tamaşaçı. Naxçıvan məktubları V-VII, Əliyev, Qanlı günlərimiz, s.121.

[166] Tamaşaçı. Göstərilən əsər. Əliyev. Qanlı günlərimiz. s. 122. Hovanisyan. Göstərilən əsər.s. 245-246. Hacıyev.Türk-Araz Respublikası. s. 65-66.

dəstəsi Naxçıvana daxil oldu.[167] Qarşılarında heç bir maneə görməyən erməni qüvvələri Naxçıvana axışmağa başladı.[168] Erməni qüvvələri ilə birlikdə erməni mühacirləri də Naxçıvan bölgəsinə gəldilər.[169] Həm də vaqonlarla. Öz ev və kəndlərinə getmələri üçün onlara icazə verilmirdi. Naxçıvanın yeni erməni rəhbərliyi onları böyük imarətlərə yığırdılar. Uşaqlar və qadınlar küçələri, müsəlman dükanlarını gəzir, onlara yardım edilməsini istəyirdilər. Türk əhali isə onlardan yardım istəyənlərə əllərindən gələn köməyi edirdi.[170]

Naxçıvan küçələri erməni qaçqınları ilə dolmuşdu. General Şelkovnikov 200 erməni əsgəri ilə Naxçıvan şəhərinə gəldi.[171] Ardınca başqa qüvvələr də Naxçıvana gəldi.[172] Artıq Naxçıvan şəhəri işğal edilmişdi.[173] İngilis nəzarətindəki erməni qüvvələri Naxçıvanın müxtəlif bölgələrinə paylanırdı. Bu vaxtlarda Naxçıvan və ətrafında baş verən hadisələrdən türk kəşfiyyat hissələrinin xəbəri olurdu. Van valisi Heydər bəy 2 iyun 1919-cu ildə İstanbula bir teleqram göndərmişdi. Bu teleqrama görə, top və pulemyotlarla silahlanmış və qoşun başlarında ingilis zabitləri olan, təxminən altı minə qədər erməni qoşunu Naxçıvanı zəbt etmişdir. İki ingilis zabiti Makunun hərbi komandirinin yanına gedərək, erməniləri Vana keçirmək üçün icazə istədi. Komandir isə icazə vermədi.[174] İngilis zabitləri isə bir başqa yol taparıq - deyə

---

[167] Hovanisyan. Göstərilən əsər. s.246. Bir Amerika kəşfiyyat məlumatına görə ingilis nəzarətindəki erməni qüvvələri iyunda Şəruru və Naxçıvanı işğal etmişdir.(USA.NA.Near Eastern Abbaird 867. 00/1 100) İşğal 15 maydan əvvəl başlanmışdır və ağır-ağır davam edirdi.

[168] Naxçıvandakı yerli türk qüvvələri Azərbaycandan yardım gözləməli olmadıqda, müqavimət göstərə bilməmişlər. (USA NA Near Eastern Affairs 867. 00/1100.(Müsəlman qüvvələrin əlini-qolunu bağlayan, şübhəsiz, ingilislərin erməniləri bölgəyə gətirməsidir.Ermənistanın Baş Naziri Xatisyan bir çıxışda demişdir: "Əsgərlərimiz ingilis əsgərlərinin açdığı yolda irəliləyirlər. Çətin keçilən mövqeləri asanlıqla aşa bilirlər. Buna görə də Naxçıvan və Vedidəki planlarımız müvəffəqiyyətli olmuşdur."(ATASE A 1/1 kls.23, s. 151-92, F. 99, Albayraq, 28 avqust 1335/1919 №23 Qarabəkir. İstiqlal hərbimiz. s 283

[169] Şərur və Naxçıvana 20 mayda ilk gələn mühacirlər 800 nəfər idi. Erməni mətbuatı Naxçıvana göndərilən mühacirlərin yemək və müvəqqəti qalmaq yerləri ilə təmin edildiyini yazır. ("Azərbaycan" 5 iyun 1919. №196) Gələn mühacirlər pərişan, ac idilər.

[170] Tamaşaçı. Göstərilən əsər X-XI məktublar. Azərbaycan, 21 iyul 1919 № 230; Əliyev. Qanlı günlərimiz № l23

[171] Tamaşaçının fikrinə görə, Şelkovnikovun əmri altındakı əsgərlər ac və yorğun görünürlər. Hamısı mühacirlərin toxuduğu paltarları geymişdilər. (Tamaşaçı. Naxçıvan məktubatı X-XI).

[172] Əliyev.Qanlı günlərimiz, s.123

[173] Azərbaycan, 5 iyun 1919 № 196

[174] Bu vaxt ermənilər bir sıra mənbələrdən də eşitmişdilər ki. Ermənistan sərhədi Vana qədər uzadılacaq, ermənilər rayonlarına gələcəklər. Ərciz bələdiyyə rəisi, müftisi (şeyxi) amirət rəisləri və digər nüfuzlu şəxslər Baş Nazirə bir teleqram göndərdilər və bildirdilər ki, onlar belə vəziyyətə razı ola bilməzlər. Lazımi tədbirlərin görülməsini xahiş edirlər (BOA, BEO, 343 078). Hadisədən xəbərdar olan 11-ci diviziya 4 iyuldan etibarən təhlükəyə qarşı hazırlığa başlamışdılar. (Saib Telli oğlu. Şəxsi arxivdən, iyun 1919 tarixli sənəd).

geri qayıtmışdılar.[175] Bir müddət sonra Naxçıvandakı ingilis və erməni qoşunları haqqında ətraflı məlumatlar Kazım Qarabəkir paşanın əlinə keçməyə başladı. Paşa da aldığı məlumatları Müdafiə nazirliyinə göndərirdi. Bu məlumata əsasən, ingilis zabitləri tərəfindən idarə edilən təxminən 6.000 erməni qoşunu 24 may 1919-cu ildə Naxçıvan və ətrafını işğal etmişdir.[176] 11 iyun tarixli teleqrama görə Culfada 400 əsgər, Naxçıvanda 350 əsgər və 2 pulemyot, Şaxhtaxtında 100 əsgər və 3 top, Yengicə stansiyasında 100 əsgər var idi.[177] Ancaq bu məlumatlar ilk günlərin təxmini rəqəmləri idi. Günlər keçdikcə Naxçıvandakı erməni qüvvələrin sayı artmağa başladı. 20 iyuna qədər Dronun qüvvələri Naxçıvandakı bütün strateji mövqeləri işğal etmişdilər.[178]

Naxçıvanı işğal edən erməni qoşunları haqqında ən dəqiq məlumatı, şübhəsiz, regionu yaxşı tanıyan Xəlil bəy verirdi. Naxçıvanda general Şelkovnikovun komandasında 9000 nəfərlik 2, 3 və 7-ci alaylardan ibarət

[175] Heydər bəy yuxarıdakı məlumatları bildirdikdən sonra, Vanda müvafiq tədbirlər gördüyünü əlavə etmiş və bu sahədə bütün varını-yoxunu fəda edəcəyini demişdir.Həmin günlərdə Ərzurumdan Daxili İşlər nazirliyinə buna bənzər teleqram göndərilmişdi. Teleqrama görə Ermənilər sərhədə əsgər yığır, Andranik 30.000 nəfərdən ibarət qoşunla Vana gəlmək istəyir. Osmanlı hökuməti İzmirin işğalı kimi bir hadisə ilə qarşı-qarşıya qala bilərdi. Nəticədə hökumət böyük bir tələşə düşmüş, nazirliklər arasında yazışmalar başlamışdı (BOA, BEO, 343307). Nəticədə vəkillər məclisi toplanaraq hadisələri müzakirə etdi. Ordunun müsəlman əhalini və yerli asayişi qoruması qərarlaşdırıldı. Lazımlı əmrin verilməsi üçün Müdafiə Nazirliyinə məlumat göndərildi. Erməni qoşunlarının başında İngilis zabitlərinin olması uyğunsuz hesab edilir, vəziyyətin incələnməsi, hadisələrlə bağlı orduya özünü müdafiə etmə əmri verilməsi, hücum davam edərsə, hərbi quvvətlərin artırılacağı və hadisələrin qısa müddətdə qarşısı alınması Antanta dövlətlərinə bildirilməsii Xarici İşlər Nazirliyinə tapşırıldı.. Daxili İşlər Nazirliyi də əlaqədar vilayətlərdə lazımlı tədbirlərin görülməsini tələb etdi. (BOA, MVM, 216/24; BOA-DH-KMS, 53-2/4; BOA, BEO, 343307; HTVD, Sayı: 4 (İyun 1953 ), Sənəd No: 81). Dərhal Trabzon, Ərzurum, Van və Bitlis vilayətlərinə lazımlı təlimat verildi (BOA, DH-ŞFR, 100-77; BOA, DH-KMS, 53-2/4). Eyni zamanda Antanta dövlətləri nümayəndələri ilə İngilis zabitlərinin etdiyi hərəkətlər müzakirə edildi.. Lazımlı təhqiqat aparılacağı və cavab veriləcəyi bildirildi (BOA, DH-KMS, 53-1/56; BOA, DH-ŞFR, 100-85). Van valisi Heydər bəy Maku sərdarına ermənilərə yol verməməsi, onun özünə lazımı yardımın ediləcəyini yazmış, müsbət cavab almışdı. (BOA BEO, 341351). 11 iyunda Kamal Paşa və Kazım Qarabəkir Paşaya baş ştab rəyasət heyəti tərəfindən məlumat verilmiş. Lazımlı tədbirlərin görülməsini tapşırmışdır. (HTVD, Sayı: 4 (İyun 1953), Sənəd No: 82). Hadisələr dövlət səviyyəsinə qədər yüksəlmişdir. Belə bir vaxtda IX Ordu Müfəttişi M. Kamal Paşa, XV korpusdan Ərzurum valisi Münir Bəyin göndərdiyi teleqramda göstərilən Qars və Sarıqamışda 10.000 erməni qoşununun toplandığının, Andranikin 30.000 nəfərdən ibarət dəstə ilə Vana doğru gəldiyinin doğru olub-olmamasını soruşdu. Kazım Qarabəkir Paşa dərhal Vali Münir Bəyə, bu xəbərlərin gerçək olmadığını, bundan sonra alınan məlumatların özünə çatdırılmasını və lazımı yoxlamadan sonra yuxarı dairələrə çatdırılacağını bildirdi. IX Ordu Müfəttişliyini də mövzu haqqında məlumatlandıran Kazım Qarabəkir valiliklərin həmişə düşünmədən xəbər verdiklərini, Andranik kimi bir quldurun başına 30.000 adam yığa bilməyəcəyini ifadə edirdi (Qarabəkir, İstiqlal Harbimiz, s.33-34). Bu dövrdə Osmanlı orqanları arasında yazışmalara səbəb olan hadisələrdən biri də, İngilis zabiti uniforması geyən ermə-nilərin Bəyazidə gələrək, buranın Ermənistan dövlətinə verildiyini söyləməsi olmuşdur. XV korpus komandanlığı dərhal lazımı tədbiri görmüş, aid orqanlara məlumatı çatdırmışdır. (ATASE, A . I/16, Kls.182, D.83-14, F.268; ATASE, A.I/2, sayı 5 (sentyabr 1953 ) Sənəd No :104, Qarabəkir.İstiqlal müharibəmiz.s.403) Ermənilərin məqsədi ingilis uniforması geyib, türkləri inandırmaqdır. Kazım Qarabəkir paşanın Milli Müdafiə Nazirliyinə göndərdiyi bir teleqrama görə ermənilər Gümrüdə ingiliscə bilən əsgərlərdən bir polk yaratmışlar və onlara ingilis uniforması geyindirmişlər. Məqsədləri müsəlmanları yenə bu geyimlə aldatmaqdır. (ATASE. A.1/1.Kls.23, D.151-92, F.-85; ATASE.A.1/2, Kls.78, D291-118, F.29-2; BOA,DH-KMS,53-3/) 15; Albayraq, 18 avqust 1335 1919, №20)

[176] ATASE, A. 1/2, kls.78, D. 291-118, F. 19, ATASE, A. 1/6, Kls. 189. D. 104-8, F. 67, HTVD. Sayı 4. iyun 1953, s.N85

[177] ATASE, A. 1/1, Kls. 23, D. 151-92, F. 79; ATASE, A. 1/2, Kls.78, D.291-118, F.24.

[178] Hovanisyan. Göstərilən əsər. s.249.

bir diviziya var idi.[179] Bunlardan 2-ci alay, 2 səhra topu və Sərhəd rotası adlı hissə Naxçıvanda, bu hissənin 2 rotası Culfada, 40-a qədər pulemyotu olan 3-cü və 7-ci alaylar, 2 rus səhra və 2 dağ topu, bir neçə pulemyotlarla silahlanmış 2 zirehli qatardan ibarət olan hissə isə polkovnik Qarakeşişovun komandanlığı altında Noraşen və Yengicə stansiyasında, bir rota da Dəhnədə idi. Bundan başqa, 2 piyada rotası, 2 top və bir çox pulemyot olan 1 hissə Sədərəkdə, Vediyə hücum edən və müxtəlif qüvvələrdən ibarət güclü bir hissə Qəmərlidə olaraq Dronun əmri altındaydı.[180]

## 2. Naxçıvanda erməni idarəetmə sisteminin qurulması

16 mayda Ermənistanın baş naziri Xatisyan və ingilis generalı Devi Naxçıvandan getdilər və regiona vali təyin olunan Varshamyan[181] isə öz vəzifəsinə başladı.[182] Varshamyan ilk günlər əmri altındakı məmurlarla şəhərin kənarındakı kazarmada ingilis valisinin yanında qalmağa başladı. Rəhbərliyinin ilk günlərində hökumət və polis idarələri üçün yer axtarmaqla məşğul oldu.[183]

Vali Varshamyan yavaş-yavaş təşkilati işlərlə məşğul olarkən, əhali arasında bir hərəkət, bir oyanma baş verirdi. Əhali arasında erməni idarəsində müsəlman məmuru olub-olmayacağı haqqında söhbətlər gedirdi. Əhalinin bir hissəsi erməni idarəsində müsəlmanların işləməsini istəyirdi. Ona görə ki, ermənilərlə bərabər işləyəcək, həm siyasi hadisələrdən xəbərləri olacaq, həm də qardaşlarına kömək edə biləcəklər. Əhalinin bir hissəsi isə ermənilərlə birlikdə işləməyi məqsədəuyğun saymırdı, belə olarsa, əvvəlcə edilən protestlərə qarşı bir vəziyyət yaranacaqdı. Erməni idarəsində işləməyin müsəlmanlara xeyirdən çox zərəri olacaqdı. Nəticədə bir müddət sonra əhalinin çox hissəsi ermənilərlə birlikdə işləməyi qərara aldı. Ancaq bu vaxt gizli yaradılmış bir komitə gecə ətrafa elanlar yapışdıraraq, ermənilərlə birlikdə işləyəcək şəxsləri hədələyirdi. Elanlara görə, hər kim erməni hökumətinə iş görməyə gedərsə və ya onların iş təklifini qəbul edərsə, öldürüləcəkdi.

---

[179] Erməni ordusu 2 qrupdan ibarət idi: 1. İrəvan qrupu: 1 piyada briqadası, 1 könüllü briqadası, 1 milis briqadasından ibarət bu qüvvə İqdır, Yeni Bəyazid, Qəmərli, İrəvan və Naxçıvanda yerləşdirilmişdi. 2) Gümrü qrupu: 2. piyada briqadası, hava dəstəsi və maşinistlər batalyonundan ibarət qüvvələr isə Qars, Sarıqamış, Gümrü, Dilican, Qarakilsə bölgələrində yerləşmişdi. (Mosely: Mandatory Over Armenia, Repoumrt c. 20).

[180] ATASE, A.5, 2793, Kls.814, s.5-9, F.128-1, Cümhuriyyət, 20 may 1933 № 3244.

[181] 45 yaşında olan Gevorq Varshamyan bakılıydı və evi hələ də orda qalırdı. Şairliyi olan bu şəxs xoşagəlim idi. (Tamaşaçı. Naxçıvan məktubları X-XI. Hovanisyan. Ermənistan Respublikası. s.246).

[182] Tamaşaçı. Hovanisyan. Naxçıvan məktubları VIII-IX. s.246 Hacıyev. Göstərilən əsər.s.65 Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması s. 13.

[183] Tamaşaçı. Göstərilən əsər. Hovanisyan. Göstərilən əsər. s.246 Hacıyev. Qars, Araz-Türk Respublikası.s.65 Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması s.13.

Əhali nə edəcəyini bilməyərək çaşıb qalmışdı. Erməni məmurlar işə başladı. Erməni idarəsində işləmək təklif edilir, keçmiş polis müdiri və işçilərinə vəzifələrinə başlasalar, maaşlarının 3 maydan hesablanacağı bildirilirdi. İşsiz qalan məmurlar, bir çox bəylər erməni idarəsində işləmək niyyətində idilər.[184] Ancaq erməni səlahiyyətli şəxsləri işə götürəcəkləri adamlardan Milli Komitədən alacaqları bir şəhadətnamə tələb edirdilər. Beləliklə, onlar həm Milli Komitəni, həm də erməni idarəsini fəaliyyətə gətirdilər. Tamaşaçı bununla əlaqədar yazırdı: "Bir həftə sonra erməni hökumət idarəsinə getdim, gördüm ki, həqiqətən bir müəssisə kimi işləyir. Gizli komitənin hədələmələrinə heç kim əhəmiyyət vermirdi. Tanınmış xanzadə və bəylərdən vəzifə alanlar var idi, onlara da heç kim söz demirdi. Erməni əsgərləri hələ gəlməmişdi və əhali mülki idarə ilə yaxşı dil tapırdı.[185] Keçmiş Milli Şuranın binasının bir hissəsində işləyən erməni məmurları xalqla yaxşı davranırdılar.[186]

Ancaq çox keçmədən erməni əsgərləri Naxçıvana gəlməyə başladılar. Artıq erməni mülki idarəsi ilə bərabər bir hərbi idarə də ortaya çıxırdı. Erməni hərbi qoşun komandiri Şelkovnikov 200 əsgərlə Naxçıvana gəldi. Vali Varshamyanla Milli Komitəyə gelən general çox sərt davranırdı. O, Milli Komitə rəisinə dedi: "Bu nə toplantıdır, bu nə şuradır? Belə şuralar heç bir vəziyyətdə yaradıla bilməz. Çünki qanuna ziddir. Hökumət daxilində hökumət qurula bilməz". Sonra general Şelkovnikov hərbi vəziyyət elan etdiyini bildirdi. O, Milli Komitə üzvlərinə suallar verir, qəbul etdiyi qərarları bəyan edirdi. Şelkovnikov Naxçıvanda olan yerli piyada və süvari əsgərlərin sayını öyrənmək istəyir, silahla gəzməyi qadağan edirdi. Əmrə tabe olmayanların ağır cəzalandırılacağını bildirirdi. Vəziyyət gərginləşdi. Buna görə də vali Varshamyan həmin dəqiqə söz aldı. O öz çıxışında Milli Komitənin içində olduqlarını, siyasi məsələyə baxılmadığını və toplantının keçirilməsində məqsəd qaçqınlar məsələsini həll etmək olduğunu göstərdi. Gərginlik azaldı, söhbət başladı. Görünür, general Milli Komitə binasını çox bəyənmişdir, çünki binanın yarısından çox hissəsini öz hərbi idarəsi üçün aldığını dedi.

Tamaşaçıya görə, erməni əsgərləri şəhərə gələnə qədər əhaliyə erməni təbəəsi olmaq o qədər də təsir etmirdi. Erməni əsgərləri gəldikdən sonra bütün camaat məyus oldu. İndiyə kimi küçələrdə gəzən türk əsgərlərinin yerini ermənilər almışdı. Nəticədə adamlar narahat olur, bəzən də gözləri dolurdu. Osmanlı əsgərləri getdikdən sonra öz başlarına yaşayan Naxçıvan və Şərur əhalisi müstəqilliyin qiymətini başa düşdü. Keçmiş günlərdə yol

---

[184] Tamaşaçı. Naxçıvan məktubları X-XI

[185] Tamaşaçı. Göstərilən əsər X-XI

[186] Əliyev. Qanlı günlərimiz s. 123

verilmiş "Şərurlu" və "Naxçıvanlı" parçalanmalarına lənətlər yağdırırdılar. Erməni əsgərlərinin gəlişi ilə onlar sanki yuxudan ayıldılar.[187] Yenidən keçmiş günlərin həsrətini çəkdilər.

Təbii ki, yuxarıda qeyd etdiyimiz kədər bütün Naxçıvan əhalisinə aid deyildi. Çünki erməni rəhbərliyi regionun hər tərəfində hakimiyyətini qura bilməmişdi. Erməni nəzarəti dəmiryolu ətrafındakı kənd və qəsəbələri əhatə edirdi. Şose və dəmiryolundan aralı ərazilər yerli liderlərin əlində idi.[188] Ordubad bölgəsinə ermənilər heç girə bilməmişdilər. Onlar da Bakıya nümayəndə göndərərək Azərbaycanla əlaqə yaratmışdı.[189] Mədətovun göstərdiyinə görə, bu dövrdə Şərurda Məşhədi Əli Əsgər ağa, Naxçıvanın şimal tərəfində Bəhram xan, Ordubadda isə Səmədbəyov müstəqil idilər. Naxçıvan şəhəri içərisində belə, ermənilər üçün təhlükəsizlik tam təmin olunmamışdı. Buna görə də vali və ingilis nümayəndəsi şəhərdən 3 km aralı hərbi kazarmada qalırdılar.[190]

### 3. Erməni idarəçiliyinin fəaliyyəti

Erməni əsgərlərinin əsas mövqeləri nəzarətə almalarına baxmayaraq, Naxçıvan regionunun digər sahələrini də öz idarəçilikləri altına almaq arzusunda idilər. Tam şəkildə hakimiyyəti qurmaq üçün əhalinin də tərk-silah edilməsi lazım idi. İngilis hərbi dairələri ermənilərə bunu qadağan etsələr də, onlar öz hakimiyyətləri üçün bu işi vacib bilirdilər. Hovanisyan göstərirdi ki, ermənilərin ingilislərə verdikləri sözə tabe olurdular,[191] ancaq bunun həqiqət olmaması aşkardı. Erməni mətbuatında çıxan xəbərlərə görə, ingilislər hələ Naxçıvandan çıxmamış həm əhalini erməni hakimiyyətinə tabe etmək və həm də tərk-silah etmək üçün fəaliyyətə keçmişdilər. Erməni qüvvələri ona yardım edirdilər.[192] İngilislər getdikdən sonra ermənilər bu sahədəki fəaliyyətlərini artırmışdılar. Silahlarını verməyənləri vəhşicəsinə qətlə yetirirdilər. Naxçıvan əhalisi silahını verməmək üçün müqavimət göstərir, ancaq ingilis nümayəndəsi işə qarışaraq onların həyatlarına toxunmayacaqlarına dair təminat verirdi. Müsəlman əhali də bu təminata əsasən silahlarını verirdilər. Əsl erməni hücumu bundan sonra gerçəkləşdi. Əliyalın əhalisi olan kənd və qəsəbələrə hər gün erməni əsgərləri tərəfindən hücumlar edilir, silah axtarmaq bəhanəsi ilə camaata zülm edirdilər.[193] Bu səbəblə Naxçıvanın

---

[187] Tamaşaçı. Naxçıvan məktubları X-XI.
[188] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.51.
[189] "Azərbaycan" 6 iyun 1919, № 217.
[190] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.51
[191] Hovanisyan. Ermənistan Respublikası. II c. s.65.
[192] Azərbaycan, 23 may 1919, № 186. Qəzet bu xəbəri Aref dən götürüb çap etmişdir.
[193] Qarabəkir. İstiqlal hərbimiz s.289.

nüfuzlu şəxsləri silah yığma, qəsb və s. hadisələrin Xatisyanın və Devinin vədlərinə əməl etmədiklərini İrəvandakı Azərbaycan diplomatik nümayəndəsi Xan Təkinskiyə bildirərək müttəfiqlər qarşısında məsələ qaldırmasını xahiş etdilər.[194]

Erməni əsgərləri bu cür işlərlə məşğul olduqları zaman bəzən heç gözləmədikləri bir müqavimətlə qarşılaşırdılar. Naxçıvandakı erməni rəhbərləri iyun ərzində əhalidən silahları yığmaq məqsədilə şəhərin lap yanında yerləşən Bulqan kəndinə bir süvari və bir piyada rota göndərmişdilər. Bulqan və qaraçuqlular erməni rəhbərliyinin niyyətindən xəbər tutaraq əsgərlərin yolunu kəsdilər. Qarşılarında maneə görən erməni əsgərləri atəş açdılar,[195] müsəlmanların müqavimətini gördükdə Naxçıvana geri qayıtmağa məcbur oldular. Ermənilərin yenidən gələcəyini fikirləşən əhali tamamilə silahlandı, strateji yerlərdə səngərlər qazdı. Ancaq erməni əsgərləri qayıtmadı. Bunun əvəzinə valinin təklifi ilə Mirzə Nəsrullah bəy, Axund Əli Həsənzadə və Heydərqulu bəy, Muradəsilov Bulqan və Qaraçuq kəndlərinə gəldilər. Günahkarların verilməsini istədilər. Ancaq müsəlman əhali heyətin təklifini qəbul etmədi və onları kəndlərindən qovdu.[196]

Naxçıvanda erməni rəhbərliyi işə başlayanda regionun mühüm mərkəzlərindən olan Ordubadı nəzarət altına ala bilməmişdilər. Bu məqsədlə daşnaq liderlərindən Aşot Məlik Mosesyansın komandirliyi altında bir qüvvə Ordubada yola düşdü. 1 iyulda Ordubadın yaxınlığına gələn Mosesyans türk əhalisinin nümayəndələri ilə görüşdü. O bildirdi ki, Ordubad Ermənistana verilib və o da buraya qəza rəisi təyin olunub. Təbii ki, ordubadlılar bu təklifi qəbul etmədilər. Bir şey edə bilməyən Mosesyans yaxınlıqdakı Əylis kəndinə gəldi. Səhərisi gün Ordubad bölgəsi əhalisinə ermənilər tərəfindən ultimatum verildi. Bu ultimatumda Ordubad əhalisinin təslim olması, silahlarını təhvil verərək erməni idarəçiliyinə keçmələri tələb olunurdu. Həmin ultimatum Ordubad və ətrafında böyük bir həyəcan yaratdı. Belə bir şayiə gəzirdi ki, ermənilər müsəlmanları qətlə yetirəcəklər. Məlik Mosesyansa əhali tərəfindən yazılı bir protest bildirildi və tələbləri rədd edildi.[197] Artıq müsəlman əhali erməni hücumuna qarşı hazırlıq görməyə başladı. Çox keçmədən erməni hücumu başladı. Ermənilər çox qəddar idilər, əhaliyə zülm edirdilər. Ancaq ordubadlılar şəhəri qoruya bildilər, ermənilərə təslim olmadılar. Ermənilər çəkildikdən sonra Azərbaycana nümayəndələr

---

[194] Hacıyev. Qars və Araz-Türk Respublikası. s.75. Hovanisyan. Ermənistan Respublikası. s. 249.

[195] İzvestiya 1989, № 4. s. 111.

[196] Əliyevin qeydlərinə əsasən erməni hərbi dairələri Zəngəzura gələn Azərbaycan qüvvələrinin qarşısını almaq məqsədilə bu bölgəyə qüvvə göndərmiş və Bulqan ilə maraqlanmamışlar. (Əliyev. Qanlı günlərimiz s. 126 ).

[197] Hacıyev. Qars və Araz-türk respublikaları s. 73-74.

göndərildi. Nə edəcəkləri barədə təlimat istəyirdilər.[198] Azərbaycan hökuməti də siyasi məmur Səməd bəy Cəmilinskini Ordubada göndərdi.[199]

Müsəlman əhali Azərbaycan ilə əlaqə yaratmağa çalışır, Naxçıvandakı erməni rəhbərliyi isə Ordubad qəzası və Yaycı kəndini hakimiyyətləri altına almaq üçün başqa bir yol axtarırdılar. Erməni valisi müsəlman əhali arasında nüfuzu olan şəxslərdən istifadə edərək onları öz təsirləri altına almaq istəyirdi. Bunun üçün Böyük xan Ordubada[200], qardaşı Sərvər xan Yaycıya göndərildi. Yaycıya gələn nümayəndələr əhaliyə silahların verilməsini təklif etdilər. Əhali öz liderinin ağzından təslim sözünü eşidəndə çox narahat oldu. Buna görə də nümayəndələri möhkəm təhqir etdilər. Yaycıda gözləmədikləri bir şəkildə qarşılanan Böyük xan və Sərvər xan Ordubada yola düşdülər. Burada da əhaliyə eyni təklifi etdilər. Ordubad əhalisi də yaycılılar kimi təklifə çox sərt cavab verdi. Erməni rəhbərliyi Bulqan və Qaraçuq kəndlərinə Kalbalı xanı göndərərək günahkarları təslim etməyi və 17.000 manat pul cəzası vermələrini tələb etdilər.[201] Ancaq türk əhali ermənilərin təkliflərini, istəklərini qəbul etmir, müstəqilliklərindən ötrü təzminat vermək istəmir, güzəştə getmirdilər.

Dəmiryolu və şosedən uzaq olan bölgələrdə müsəlmanlar ermənilərə qarşı çıxırdı. Qeyd etmək lazımdır ki, digər yerlərdə yaşayanların vəziyyəti heç də yaxşı deyildi. Daşnaklar qeyri-qanuni hərəkətlərə başlamışdılar. Müsəlmanların nüfuzlu şəxsləri həbsə alınaraq Ermənistana göndərilir, malları qarət olunurdu.[202] Ermənilərin əllərindən qurtara bilənlər ətraf kəndlərə sığınırdılar.[203] Ermənilərin təzyiqi həmişə onların üstündə idi. Naxçıvana gələn erməni qaçqınları keçmiş evlərinə yerləşdirmək üçün erməni rəhbərləri çox ciddi davranırdılar.[204] Vali tərəfindən erməni evlərində yaşayan[205] müsəlmanların evdən çıxmaları əmr olunur, lakin bu əmr müsəlman evlərində oturan ermənilərə şamil edilmirdi. Belə ki, Şərurun Keştaz kəndinə gələn bir səlahiyyətli erməni şəxs erməni evlərində yaşayan müsəlmanlara evlərdən

---

198 Azərbaycan , 6 iyun 1919, №217; Hacıyev. Göstərilən əsər. s.74-75.

199 ATASE, A.5/2793, Kls.814, s. 5-9, f. 128-2. K.Qarabəkir. İstiqlal hərbimiz s.305.

200 Azərbaycan qəzetində göstərilmişdi ki, Ordubada nümayəndə olaraq Cəfərqulu xan, Kalbalı xan, Böyük xan və Məhəmmədəlixan göndərilmişdi. ("Azərbaycan" , 6 iyun 1919, №217).

201 Əliyev. Qanlı günlərimiz s.127.

202 Azərbaycan, 15 iyul 1919, № 225, izvestiya, 1989, № 4. s.111, Əliyev. Qanlı günlərimiz, s. 124-127, Hacıyev, Qars və Araz-türk respublikaları, s. 76-77.

203 "Qanlı günlərimiz" əsərinin müəllifini ermənilər tutmaq istəyərkən Nehrəm kəndinə qaça bilmişdir. Naxçıvanın bir çox varlıları Tiflisə köçmüşdürlər. Əliyev. Qanlı günlərimiz. s.124-126.)

204 Ermənilər Naxçıvandakı müsəlman əhaliyə təzyiq göstərdiyi zaman erməni mətbuatı hadisələrə başqa bir gözlə baxırdı. "Azərbaycan" qəzetinin "Aref" qəzetindən götürdüyü bir məlumatda göstərilirdi ki, Naxçıvandakı müsəlman əhali erməni rəhbərliyi ilə dostluq edirdi. Müsəlman mühacirləri yerlərinə qayıtmağa başlamışdılar. Müsəlmanların evlərini və əmlaklarını qarət edən ermənilər indi onları sahiblərinə qaytarırdılar.( Azərbaycan, 5 iyun 1919 N № 196)

205 Əliyev. Qanlı günlərimiz s. 126

çıxmağı təklif etmişdi, ancaq onlar da bildirdilər ki, kənd və evlərini ermənilər işğal etdiklərinə görə çıxmayacaqlar. Buna görə də, oraya 30-a qədər silahlı erməni əsgərləri göndərilmişdi. Keştazda qalan 4 osmanlı əsgəri əhalini silahlandırdığından onlar hücumun qarşısını ala bilmiş, 15 əsgərlə birlikdə erməni səlahiyyətli şəxs də öldürülmüşdü. Müvəffəqiyyət əldə edə bilməyən ermənilər zirehli vaqonlarla, toplarla yenidən kəndə hücum etdilər, müsəlman əhali müqavimət göstərdi. Ermənilər kəndi işğal edə bilmədilər, ancaq çoxlu insan tələfatı oldu, kənd xarabazara çevrildi.[206] O dövrün mənbələrinə əsasən, ermənilər Naxçıvan regionunda soyqırımına ara vermirdilər. Silahları yığmaq bəhanəsilə kəndlərə hücuma keçir, qarətlə məşğul olur və soyqırımı edirdilər.[207] Naxçıvan və Şərur ətrafındakı 45 kənd erməni əsgərlərinin təcavüzünə məruz qalmış, dəmiryoluna yaxın bölgələr zirehli vaqonlardan atəşə tutulmuş, əhali məhv edilmişdi.[208] Müsəlmanlar tərəfindən yaxalanan ermənilər bildirmişdilər ki, onların rəhbərlərinin qərarlarına əsasən Naxçıvanda bir müsəlman qalmayana qədər soyqırımı davam edəcək və ya bütün müsəlmanlar Araz çayına axıdılacaq. Erməni birliklərinə yazılan və əldə edilən bir əmr bunu sübuta yetirir: “Şərur əhalisini Araz çayına tökmək üçüncü alay komandanlığının vəzifəsidir”.[209]

### a) Vedi döyüşləri

Ermənilər Naxçıvana və Şərura hücum zamanı əsasən şose və dəmiryolundan istifadə etmışdilər. Ətrafda olan kəndlərə toxunmamışdılar. Bunu ingilislər istəmirdilər. Yəni onlar tam hərbi işğalı məqsədəuyğun saymırdılar. İşğalın erməniləri ağır vəziyyətə salacağını bilirdilər.[210] Buna görə də, ingilislər Naxçıvandan çıxan kimi ermənilər bütün regionu istila etmək sevdasına düşdülər. Regionda qalan ingilis nümayəndələri, görünür, buna razı olmuşdular. Ermənilər Naxçıvan və Şərurda əhalidən silahları yığmaq bəhanəsi ilə onları qətlə yetirir, məcburi köçkün olmağa məcbur edərək regionda ermənilərin çoxalması üçün çalışırdılar. Onlar Ermənistan üçün

---

206 BOA, DN KMS 53-3/15

207 ATASE, A. 1/16. kls.189, s.104-8, F.57-58, 65 89. ATASE, A.l/2kls.78, D.291-118, F.32-33, 35-20,38.

208 USA NA Near Eastern Affairs. 867.00/1100.

209 ATASE, A.l/2 kls. 78, s.291-118, f.35-13, BOA. DN. Kls. 53-3/56, BOA.DN. kls.53-15. Erməni zülmü yalnız Naxçıvan və Şərurda deyil, Qars, Zəngəzur, Yeni Bəyazid, Dərələyəz, İqdır, Qəmərli kimi rayonlarda da davam edirdi. Müsəlman əhali qətlə yetirilir, yurd-yuvalarından sürgün edilirdi. (ATASE A.1/2.kls. 78.s 291-118. f. 33, 36-2,37-1, BOA .DH.KMS. 53-3/15. ATASE A. 1/1. kls. 23. s. 151-92. f.76. USA. NA. Near Eastern Affaris 867.00/1100. HTVD, S.9 (SENTYABR 1954) S. № 196; 1335-ci il iyul ayı ərzində Qafqazda müsəlmanlara edilən erməni zülmü. İst.1919 s.4.6. Qarabəkir, İstiqlal hərbimiz s.286. 289-292. (Nasibian. Armenia Question. s.163). Amerika kəşfiyyatı öz məlumatlarında ermənilərin müsəlmanlara etdikləri zülmü göstərir, onların Dərələyəz, Göyçəgöl ətrafındakı müsəlmanları yurdlarından sürgün etdiklərini yazırdılar. Hovanisyan isə müsəlman mühacirlərin Dərələyəz və İrəvana geri qayıtdıqlarını, erməni müdafiəsinin zəiflədiyini göstərirdi. (Hovanisyan. Göstərilən əsər.s .249)

210 Hovanisyan. Ermənistan Respublikası. s.240

çox böyük strateji əhəmiyyət daşıyan və hər vaxt Naxçıvana gəlmələrinə mane olan Vedini unutmurdular.[211] Vedi mütləq ələ keçirilməli idi. Yoxsa, Naxçıvanda təhlükəsizliklərini təmin edə bilməzdilər. Çünki meyvə və üzüm bağları ilə əhatə olunan Böyük Vedi ermənilərə müqavimət göstərən könüllülərin mərkəzi olmuşdu.[212]

Hovanisyanın dediyinə görə, Vedi münaqişəsi türk könüllülərinin 9 əsgər və 12 erməni kəndlisini öldürməsi ilə başlamışdır.[213] İrəvandakı ingilis hərbi nümayəndəsi podpolkovnik Plovdenlə razılaşan erməni dairələri Vediyə polkovnik Apresniakın[214] komandanlığı altında 400 nəfərlik bir qüvvə göndərmişdi.[215] Böyük Vediyə yaxınlaşan polkovnik onunla görüşmək üçün nümayəndələr göndərilməsini təklif etdi.[216] Erməni komandir ilə görüşmək üçün türk tərəfi Zeynalabdın Şeyx Əli oğlu və Nəsrullah bəy adlı iki nümayəndə göndərdi. Ermənilərin tələbləri bunlar idi: 1. Silahlar təhvil veriləcək. 2. Əhalinin liderləri təslim olacaq. 3. Məhsul yığılmayacaq. 4. Öldürülən ermənilər üçün 6.30.000 manat təzminat ödəyəcəklər.[217]

Döyüşlərin ilk dəfə necə başlaması haqqında müxtəlif fikirlər var. Erməni mənbələrə görə danışığa gələn türk nümayəndəsi Böyük Vediyə qayıdan kimi müsəlman könüllülər birdən atəş açdılar, ermənilərə böyük ziyan verdilər.[218] Azərbaycan hökuməti və bilavasitə Xan Təkinski isə bu fikirdədilər ki, döyüş ermənilərlə danışığa gələn 2 müsəlman nümayəndənin öldürülməsi nəticəsində başlamışdır.[219] Əliyevə və Hacıyevə görə, vedililər ermənilərin təklifini rədd etdiklərinə görə erməni hücumu başlamışdır.[220] Vedi döyüşləri haqqında ətraflı məlumat verən bir Azərbaycan arxiv sənədində yazılmışdır: "Danışıqlar zamanı erməni süvari dəstəsi yavaş-yavaş Vediyə doğru hərəkət edərək mövqe tutmağa başladılar. Vedililər vəziyyəti belə görəndə hissənin hərəkətinin dayandırılmasını və geri qayıtmasını tələb

---

[211] Vedinin mərkəzindən İrəvana olan məsafə 49 km-dir. (Əziz Ələkbərli. Qədim Türk-oğuz yurdu Ermənistan, Bakı. 1994, s. 66-67).

[212] USA NA Near Eastern Affairs 867.00/1100. Hovanisyan.Göstərilən əsər. c. II s.66.

[213] Müəllif Vedi müharibəsinin bu səbəblə başladığını yazır, Naxçıvan və Şərurdakı bir tərəfli müharibənin niyə başladığına dair məlumat vermir. Amerika mənbələri göz qabağındadır.

[214] Nəşr olunmamış bir Azərbaycan arxivində bu ad Aprosimov olaraq qeyd olunmuşdur. ("İzvestiya", 1989, № 4 s.119)

[215] Hovanisyan. Göstərilən əsər. s.66-67. Azərbaycan mənbələrinə görə Vedi üzərinə Sason alayı göndərilmişdir ("Azərbaycan" 12 iyun 1919, № 222. "İzvestiya" 1989 № 4 s.119) Türk mənbələrinə görə ermənilər Vedi üzərinə 2 alay ilə hücum etmişdilər. (BOA. DH. KMS. 53-2/56: 53-3/15. ATASE, A. 1/1, Kls.23, D 151 -92, F.76).

[216] Azərbaycan, 12 iyul 1919. № 222.İzvestiya,1989 № 4 s.119. Hacıyev. Göstərilən əsər. s.77-78.

[217] Azərbaycan, 12 iyun 1919 № 222. İzvestiya, 1989 s.119. "İzvestiya" 1989, № 4. Əliyev.Qanlı günlərimiz s.127. Hovanisyan. Göstərilən əsər, s.67. Hacıyev. Qars və Araz-Türk Respublikası. s.77.

[218] Hovanisyan. Ermənistan Respublikası. s.67. Amerikan məlumatında da eyni fikir ifadə olunur. (USA NA Paris Peace Conferance 184 021/85.

[219] Azərbaycan, 12 iyun 1919 № 222. Hovanisyan. Göstərilən əsər. s.67. Hacıyev. Qars və Araz-Türk Respublikası s.82.

[220] Əliyev, Qanlı günlərimiz, s.127. Hacıyev. Göstərilən əsər s.77.

etdilər. Vedi türkləri tələblərinə cavab ala bilmədiklərini, üstəlik mühasirəyə alındıqlarını görüb qorxurdular və erməni süvarilərinə atəş açdılar. Artıq döyüş başladı.[221]

Vedililərin atəşinə ermənilər top və pulemyotlarla cavab verdilər. Piyadalar hücuma keçdi. Çox ağır döyüşlər gedir, müsəlman qüvvələri qəhrəmanlıq dastanları yazırdılar. Erməni qüvvələri böyük bir məğlubiyyətə uğradılmışdı. Xeyli ziyan verən erməni qüvvələrinin döyüş meydanında xeyli qəniməti qalmışdı.[222] Onlar pərişan halda geri çəkilirdilər.[223] Ermənilər məğlubiyyətin səbəbini vedililər arasında olduğunu iddia etdikləri türklərdə görürdülər və bu məsələdə ingilislərə təsir etməyə çalışırdılar.[224]

Məğlubiyyət erməni ordusunun əhval-ruhiyyəsini dəyişdirmiş, yüksək rütbəli komandirlərin qürurları sınmışdı. Nəyin bahasına olursa-olsun Böyük Vedi alınmalı idi. Bunun üçün hazırlıqlarını tamamlayan erməni qəvvələri tanınmış daşnaq dəstə rəisi Dronun komandirliyi altında Böyük Vediyə doğru hücuma keçdilər.[225] Böyük Vedi ətrafında yerləşən türk kəndləri şiddətli atəşə tutulmuş və mühasirəyə alınmışdı. Qaşlı, Kələban, Çimənkənd, Xalisə, Əfşar, Kiçik Vedi, Şirazlı və Yengicə kimi kəndlərin əhalisi müqavimət göstərmək istəsələr də, çox üstün düşmən qüvvələri qarşısında dağlara çəkilməyə məcbur olmuşdular. Ermənilər bu kəndlərdəki bütün məhsulu və əşyaları qarət etmişdilər. Ancaq onlar hələ bölgənin qəlbi sayılan Böyük Vedini ələ keçirə bilməmişdilər. Abbasqulu Şadlinski komandanlığındakı əsl qüvvələr erməniləri gözləyirdi. Abbasqulu Şadlinski bütün qüvvələri kənddəki evlərin içində bağçalarda, bağlarda yerləşdirmişdi. Elə görünürdü ki, Böyük Vedi kəndi boşaldılmışdı. Böyük Vediyə yaxınlaşan erməni qüvvələri ortalığın səssizliyini görəndə, o biri kəndlər kimi bu kəndin də boşalmış olduğunu zənn etdilər. Kəndə girən erməni ordusu bir anda nə baş verdiyinə çaşıb qaldı. Gizlənən bütün türklər əllərində silah,

---

[221] İzvestiya, 1989 № 4 s. 119. Bu vaxt 2 nümayəndə də ölmüşdü. (Hacıyev. Göstərilən əsər s.78).

[222] Ermənilərin itkiləri haqqında müxtəlif fikirlər mövcuddur. Əliyevə görə, ermənilər 1000 nəfərdən çox tələfat verdilər. 6 pulemyot, 8 araba ərzaq, 4 araba patron qənimət qoymuşdular. (Əliyev.Qanlı günlərimiz, s.128). Hacıyevə görə, döyüş meydanında 200-dən artıq əsgər, ondan da artıq zabit itki verildi. 2 top, 8 pulemyot qoymuşdular. (Hacıyev. Göstərilən əsər s.78) Hovanisyanın əsərində isə göstərilmişdir ki, 5 zabit və 30 əsgər itki verən erməni qüvvələri ağır silahlarını qoyub getmişdilər. İngilis mənbələrinə əsaslanaraq yazan müəllif 26 zabit və 200 əsgərin məhv olduğunu yazır. (Hovanisyan. Göstərilən əsər s.67) Kazım Qarabəkir isə Vedidə 800 erməni ölüsü və 1200 yaralı olduğunu göstərir. 2 top və 6 pulemyot qalmışdır. Bundan sonra İrəvandan 2 ingilis zabiti gələrək demişdir: "Ermənilərlə müsəlmanları barışdıracağıq, toplar ingilislərindir və topları almışlar. Bu zabitlərin ingilis uniforması geyən ermənilər olduğunu müsəlmanlar başa düşmüşdülər. (Qarabəkir. İstiqlal hərbimiz. s. 63-64) "Albayraq" qəzetindəki bir məlumata əsasən döyüş meydanında 700 erməni ölüsü və bir çox silah və 6 pulemyot qalmışdı. (Albayraq, 31 avqust 335/1919, № 24) Amerika məlumatına görə isə 6 zabit ölmüş, 9-u yaralanmış, 100-ə qədər əsgər ölmüş və ya yaralanmışdı. (USA NA Paris Peace Conferance 184.021/85).

[223] Azərbaycan, 12 iyul 1919, № 222, Albayraq 31 avqust 1919, № 29, Qarabəkir İstiqlal hərbimiz s.63. Əliyev. Qanlı günlərimiz. s.127-128. İzvestiya, 1989, № 4 s.119. Hovanisyan. Göstərilən əsər s.67.

[224] Hacıyev. Göstərilən əsər. s.78. Hovanisyan. Göstərilən əsər s.67

[225] Hacıyev erməni hücumunu 12 iyul 1919-cu il olaraq göstərir. (Hacıyev. Qars və Azərbaycan Respublikası s.78). Hovanisyan 14 iyul olaraq göstərir. Hovanisyan. Ermənistan Respublikası. s.67.

balta, bıçaq və oraqla dəhşətli bir hücuma keçdilər. Erməni ordusu geri çəkilmək istədi, ancaq zabitlərin təzyiqi altında yenidən hücuma keçdilər. Lakin onlar yenə də bu dəhşətli məğlubiyyətdən canlarını qurtara bilmədilər. Döyüş meydanında 1000-dən çox cəsəd və xeyli silah qoyan ermənilər İyova çəkildilər.[226]

Qəmərlidə olan erməni qüvvələri içərisində böyük bir həyəcan var idi. Dalbadal məğlubiyyətə düçar olan erməni əsgərlərinin əhval-ruhiyyəsi pozulmuşdu. Vedi üzərinə yenidən hücum etmək istəmirdilər. Əsgərlərin əhval-ruhiyyəsini qaldırmaq üçün çıxışlar edilir, hətta qızlar da kürsüyə çıxırdılar.[227] Ancaq ermənilərin döyüşə girəcək halları yox idi. Hovanisyana görə, türk zabitləri Məhəmməd Çavuş və polkovnik Məhəmməd bəy də bölgəyə gələrək müsəlmanları hazırlaşdırırdılar.[228] Erməni mətbuatında da Vedi məsələsinə toxunularaq, baş məqalələr yazılırdı. Belə ki, "Nor Aşhatovar" qəzeti məsələ ilə əlaqədar bu şərhi verirdi: "Böyük Vedi hadisəsi çoxdan bəri müttəfiq hökumətlərinin diqqətini cəlb etmək istədiyimiz hərəkatın, fəaliyyətin bir hissəsidir. Süngü ilə, pulemyotla apardığımız hərbi hərəkat bunu sübut edir. Ancaq silahlı Vedi əhalisi arasında minlərlə türk və Azərbaycan zabiti var idi. Azərbaycan hökuməti xeyli hərbi sursat göndərmişdi. Müttəfiqlərin gözləri önündə belə bir qüvvənin təşkil edilməsi maraqlıdır. Təcili ciddi tədbirlər görülməli, Böyük Vedi və ətrafındakı kəndlər türk-Azərbaycan təsirindən qurtarılmalıdır. Bir dəqiqə belə işi yubatmaq olmaz. Çünki bu cür hadisənin cümhuriyyətin ortasında davam etməsi onun təhlükəyə düşməsi deməkdir. Vətənimizi pis qüvvələrdən qutarmaq hökumətin vəzifəsidir".[229]

Erməni mətbuatı hökumətdən Böyük Vedi məsələsinin həll edilməsini istəyirdi, hökumətin isə bu işi həll etməyə gücü qalmamışdı.

---

[226] BOA – DH. KMS. 53-2/30. ATASE, A. 5/2793, Kls.322, D. 1-33, F.137-1, BOA. DH. KMS 53-2/15. USA NA Near Eastern Affairs. 867.00/1100. Azərbaycan, 16 iyun 1919, №226, Azərbaycan, 23 iyul 1919. № 232, Albayraq, 31 avqust 1919, №24, İzvestiya, 1989; № 4 s.119. Hacıyev Göstərilən əsər, s.67.

[227] Azərbaycan, 23 iyul 1919, №232.

[228] Hovanisyan. Göstərilən əsər. s.67. Tədqiqatlar zamanı Vediyə zabit göndərilməsinə rast gəlmədik. Onlardan gələn məlumata da rast gəlmədik. Əgər bir polkovnik Böyük Vediyə və ya Qəmərliyə göndərilsə idi, mütləq məlumat, sənəd olmalı idi. Regiondakı bütün hadisələri diqqətlə izləyən və araşdıran K.Qarabəkir paşanın əsərində və digər mənbələrdə digər bölgəyə göndərilən şəxslərdən bəhs edildiyi kimi, bu şəxslərdən də bəhs edilməli idi. Bıyıklıoğlu müsəlman əhalini təlimatlandırmaq, təşkilatlandırmaq üçün yetreytor göndərildiyini qeyd etmiş, polkovnik göndərilməsi haqqında heç bir məlumat yoxdur. (Tofek. Bıyıklıoğlu. Osmanlı və türk Şərq sərhəd politikası, İstanbul, 1958, s.27).

[229] Azərbaycan, 21 iyul 1919. №230. Emənilər Böyük Vedidə minlərlə türk və azərbaycanlı zabit olduğunu yazırdılar. Ermənilər öz məğlubiyyətlərinin səbəbini bunda axtararaq xalqın bu məğlubiyyəti məqbul saymaları, əhalinin qürurunu qırmamaq və təbliğat aparmaları üçün belə etmişdilər. Kazım Qarabəkir göstərirdi ki, ermənilər əməliyyatlarda müqavimətə rast gəlirdilər, onlar türk və azərbaycanlıların bu hadisələrdə iştirakını göstərməklə xarici aləmə təbliğat aparırdılar. Türk və Azərbaycan hökumətləri bunu təkzib etsələr də, müvəffəqiyyət əldə edə bilmədilər. (K.Qarabəkir. Makina səhifəli qeydlər. s.44) Bu qeydlər paşa tərəfindən yazılmış və kürəkəni prof. doktor Fəruq Özrəngin istifadə etməsinə icazə vermişdir.

Ermənilərin xeyli hərbi qüvvə itirdiyini, çətin vəziyyətdə qaldığını başa düşən ingilislər atəşkəs təklifi irəli sürürdülər. Erməni rəhbərliyi bu təklifi qəbul etdi.[230] Ancaq bölgədə sülhün yaradılması mümkün deyildi. Bu bölgədə ermənilər öz iddialarından əl çəkməmiş, Naxçıvanda döyüş başlamışdı. Hər bir cəhətdən Naxçıvana bağlı olan Vedidə sabitlik yaratmaq mümkün ola bilməzdi.

## b) Araz vadisi müsəlmanlarının kömək istəmələri və hadisələrin Türkiyə və Azərbaycanda əks-sədası

Naxçıvanda erməni üsuli-idarəsinin qurulması ardınca müsəlmanlara edilən təzyiqlər və zülmlər qarşısında xalq çarəsiz vəziyyətə düşmüşdü. Erməni nəzarəti altında olan müsəlmanlar dəhşətli vəhşiliklərlə üz-üzə qalmışdı. Onlara yardım edə bilən, səsinə səs verən, vəziyyətlərini dünya ictimaiyyətinə yaya bilən iki dövlət vardı: Türkiyə və Azərbaycan. Naxçıvan əhalisi İrandan umduğunu əldə edə bilməmişdi. Buna görə də onlar üzlərini Türkiyəyə və Azərbaycana çevirdilər.

Ərzurumda bir vilayət konfransı keçiriləcəyini və Bəyaziddən bir nümayəndə dəvət edildiyini eşidən naxçıvanlılar, özləri də Türkiyədə yaradılacaq bir təşkilata girmək, beləcə ermənilərin əlindən xilas ola bilmək ümidi ilə fəaliyyətə başlamışdılar. Bu məqsədlə Hacı Cabbar (kömək) nümayəndə seçilərək Bəyazidə göndərildi. O, yerli konfransda iştirak etmək üçün 1 iyul 1919-cu ildə müraciət etdi. Ərzuruma göndərilən teleqramda yazılmışdı: “Bütün Naxçıvan, Şərur, Ordubad, Vedibasar müsəlman əhalisi tərəfindən seçilmiş bir heyətimizin Ərzurumda keçiriləcək konfransda iştirak edə bilib-bilməyəcəyimizi bildirmənizi xahiş edirik”.

İlk müraciətindən sonra 11 iyulda Hacı Cabbar bəy Ərzurum hüquq müdafiə cəmiyyətinə ikinci bir teleqram göndərdi.[231] Teleqramda göstərilmişdir: “Müsəlmanların yaşam məsələləri ilə əlaqədar heyətimizin oraya gəlməsi səmimi istəyimizdir. Lakin Bəyazid qəsəbəsindən konfransa nümayəndə seçilmədiyi üçün tək başına ora gələ bilməyəcəyim təbiidir. İngilis əsgərlərinin Naxçıvandan çıxması, müsəlman əhaliyə edilən zülmün araşdırılması vəziyyəti dəyişdirmişdir. Erməni qüvvələri özlərini heç bir şey olmamış kimi aparırlar. Son göstəriş və tövsiyələrinizi gözləyirəm”.[232]

Ərzurum ilə yazışmalar davam edərkən ermənilər Naxçıvandakı vəhşiliklərini artırmışdılar. Buna görə də naxçıvanlılar bölgələrində olan

[230] Hovanisyana görə, erməni hərbi dairələrin boyun əyməsi onların zəifliyini göstərirdi. Hovanisyan. Göstərilən əsər. s.67-68

[231] Qırzıoğluna görə, Hacı Cabbarın xahişi nizamnaməyə uyğun olmadığından qəbul edilməmişdir. (Qırzıoğlu : Bütün Ərzurum konfransı.I c. Ankara 1993, s.227).

[232] Ərzurum konfransı ilə əlaqədar sənədlər. Ankara, 1969. s.6.

haqsızlığı, zülmü türk hakim dairələrinə çatdırmağa, yardım çağırışları etməyə başladılar. Naxçıvanda baş verən hadisələr haqqında ilk xəbəri Cabbar bəy Tağızadə çatdırdı. Ardınca Bəyazid valiliyi Şərurun Keşdaz kəndinə ermənilərin hücumu xəbərini təcili Ərzuruma çatdırdı.[233] Artıq zülmlər və vəhşiliklər haqqında dalbadal xəbərlər, teleqramlar Ərzuruma çatdırılırdı. Naxçıvanlılar onlara yardım edilməsini, əks təqdirdə məhv olacaqlarını bildirirdilər.[234] Bəyaziddən Ərzuruma göndərilən 12 iyul 1919-cu il tarixli teleqramda göstərilən məlumatlar Naxçıvan əhalisinin acınacaqlı vəziyyətini gözlər qarşısında canlandırır. Məhvi qərarlaşdırılmış bu məsum kütlə gözlərini yollara dikmiş, binamusların ayaqları altında tapdalanmaması, millətimizin müdafiəsi üçün müşfiq hökumətimizin 3 aydanbəri Allahın ədalətinə sığınaraq, ən yaxın zamanda azadlığımızı gözlədiyimiz zaman Vedibasarlı Musaoğlu Ağa və Əbdürrəhmanoğlu İbrahim adında şəxsin ifadələrinə görə amansız düşmən 45 kəndin əhalisini, 4 kəndin mərkəzi, 4 nahiyənin qapısı sayılan məkanviran olmuş, belə davamedərsə, qısa zamanda məzarlığa çevriləcək, şiddətli qanlı döyüş başladı. 8 topla silahlanmış təxminən 4 minlik bir erməni qüvvələri intiqam hissi ilə mühasirəyə alaraq və müdafiə üçün hər vəsaitdən mərhum olan müsəlman əhalini zirehli qatardan bombardman elədi. Məlunların məqsədi məhsul mövsümündəki məhsullara sahib olmaqdır. Osmanlı hökumətin, vicdanpərvər nahiyələrin yetim və zəif əhalisinin zülmə və vəhşiliyə qurban getmələrinə qətiyyən razı olmaz. 3 aydan bəri fəryad-fəğanımızı izhar etdik. Ermənilərə qarşı ölümlə pəncələşməyin nə qədər çətin olduğu məlumdur. Zavallı qadınların, ağsaqqalların, südəmər uşaqların fəryadı, güllələrin səsindən eşidilmirdi. Fəlakət törədənlərə, barbar qüvvələrə qarşı müqavimətimiz qeyri-mümkündür. Ağladıq, sızladıq, yazdıq, bağırdıq. Hətta millət prinsipi maskası altında bəşəriyyəti əzməyə çalışanlara fəryad etdik. Başımızda partlayan güllələrin səsindən eşidilmədi. İslam aləminin yeganə valisi Xəlifə hökuməti də fəryadımıza etina etmədi. Artıq kimə gedək, hansı yad ətəklərə sarılaq. Bu şikayətimizi aid təşkilatlara bildirməklə həyatımızın müdafiəsini xahiş edirik.

**İmza: Naxçıvan rəisi vəkili**
**Müftizadə Sarıbəy**[235]

---

[233] BOA. DH. kls. 53-3/15.

[234] ATASE, A.l/2, Kls.78, D.291-118, F. 24.32.35-1, 35-13, 35-20.36-2. 38; ATASE, A.1/1. Kls.23. D. 151.-92 F.76, 89. ATASE, A.l/2, kls.89. s.142-327, F.7-1; ATASE, A.l/16, Kls.189, s.104-8, F. 57, VOA DH, Kls.53-3/15.

[235] BOA. D.N. 53-3/15. ATASE, A.l/2, kls.82, s.304-210, f.32-33, 32-4, 32-5. ATASE, 1/2, Kls.78. D.291-118, f.35-13, 35-14, 35-15, 35-16, 35-17, 35-18. Qarabəkir. İstiqlal hərbimiz, s.293. Naxçıvandakı bu acınacaqlı vəziyyəti göz qarşısında canlandıran teleqram Osmanlı dairələri arasında müxtəlif yazışmalara səbəb oldu. Osmanlı katiblər bir neçə söz başqa cür oxumuşdular. İkisindən başqa heç birinin altında imzası yoxdur. "İstiqlal hərbimiz" adlı əsərdə kiçik dəyişikliklər mövcuddur. Həm də teleqramın altındakı isim "Naxçıvan və ətrafi" üzrə

Araz vadisindən gələn bu "imdaddiləmə" teleqramları əvvəlcə Ərzuruma, oradan da XV korpus komandanlığına və Kazım Qarabəkir paşaya göndərildi. Qafqazın strateji əhəmiyyətini çox yaxşı bilən və orada yaşayan türklərin dərdini öz dərdi sayan Kazım Qarabəkir paşa hadisələri yaxından izləyir və xəbərlərlə çox maraqlanırdı.[236] Ermənilərin müsəlmanlara etdiyi zülmlə əlaqədar xəbərlər paşanın diqqətini lap çox çəkirdi.

Araz vadisində ermənilər tərəfindən müsəlmanların qətlə yetirilmələri haqqında xəbərlər Kazım Qarabəkir paşanı hərəkətə gətirdi. Ərzuruma gəlib ordan Sivasa gedən amerikalı zabitə vəziyyəti bildirdi. Ərzurumda olan ingilis nümayəndəsi Ravlinson ilə əlaqə yaratdı.[237] Daim Ravlinsona soyqırımı ilə əlaqədar məlumatlar verilirdi. Paşa ondan bunların qarşısını almaq üçün məsələ qaldırmasını xahiş edirdi.[238] Podpolkovnik Ravlinson aldığı məlumatlara əsasən fəaliyyətə başladı. Ona verilən məlumatların doğru olub-olmadığını araşdırdı və ilk mərhələdə Osmanlı sərhəddindən o tərəfdə sabitlik olmadığına inandı.[239] Bu məqsədlə o, 27 iyul 1919-cu ildə İstanbuldakı ingilis qərargahına məsələ ilə əlaqədar bir teleqram göndərdi.[240] Ravlinson Elviyaye-Selasedə və Araz vadisində ermənilərin soyqırımı törətdiklərini bildirir və heç cür tabe olmayan vəhşi erməni millətinin yola gətirilməsi üçün müttəfiq qüvvələri tələb edirdi.[241] Genişlənən hadisələrin həlli ilə əlaqədar Ərzurumda məsələlər qaldıran Kazım Qarabəkir paşa Müdafiə Nazirliyinə gərəkli məlumatlar verir və bu xahişlər edirdi:[242] "İnsanlıq aləmindən imdad diləyən bu biçarələrə edilən və vicdanımızı sızlatan bu faci-

---

vəkil Cabbarzadə Nağı olaraq oxunmuşdur. Naxçıvandan müxtəlif imzalarla göndərilirdi. Çox az da olsa, səhv oxunması ehtimal oluna bilər.

[236] Bu dövrdə Kazım Qarabəkirin diqqətini çəkən hadisə Andranikin Avropaya getməsi oldu. İstanbul qəzetlərində Andranikin Avropaya getdiyini oxudu və tez hərbi nazirlikdən bunun doğru olub-olmadığını soruşdu. Hərbi nazirlikdən alınan cavabda göstərilirdi ki, Andranik Selanikdən Parisə yola düşmüşdür. Beləcə, onun aldığı bir məlumatda Andranikin İqdır və Naxçıvan ətrafında olması göstərilirdi. Bu doğru deyildi. (ATASE, A.l/16, kls.l82a. s.83-14. F. 19-18. ATASE, A. 1/2, kls.78, s.291-118, F.34).

[237] ATASE, A. 1/2 kls.78, s. 291-118, F. 32, 35-22, ATASE, A. 1/16, kls. 189. s.104-8. F.58.

[238] Qarabəkir. İstiqlal hərbimiz, s. 68, 82-83

[239] ATASE A.1/2, kls.78, s.291-118, F.33

[240] Ravlinsonun İstanbul ilə yazılı əlaqəsi Tiflis-Batumi yolu ilə olurdu. (A. Ravlinson Advanturtures in the Near East 1918-1922. New York 1924.c.218 ).

[241] ATASE, A.l/2, kls.78, s 291, F. 34-4. BOA DH.KMS 53-3/15 №85. (Oktyabr 1985) Bu vaxt Bəyazidə gedən amerikalı topçu kapitan Nilis və müavini burada qonaq edilmişdir. Əsas vəzifəsi erməni və müsəlmanların sayını, yerli ehtiyaclarını müəyyənləşdirmək, erməni zülmünü incələmək olan amerikalılara bölgədə baş verən erməni zülmü dəlillərlə göstərilmiş, Araz vadisində baş verən hadisələr haqqında məlumat verilmişdi. Bəyaziddəki səlahiyyətli şəxslər amerikalılara Naxçıvan və ətrafındakı zülmləri ətraflı şəkildə və dəlillərlə sübut etmək üçün Araz vadisi müsəlmanları ilə əlaqə yaradılmış, gətirilən şəxslər amerikalılarla görüşdürülmüş, yazılı məlumatlar verilmişdi. Amerikalılar məyus şəkildə bu məlumatları İstanbuldakı və Tiflisdəki Amerika heyətlərinə bildirmişdilər (BOA. DH. Kls. 53-3/15 ).

[242] Hovanisyana görə Kazım Qarabəkir paşa Naxçıvandakı hadisələrin sona çatması üçün general Milnə etiraz etdi (Hovanisyan. Göstərilən əsər). Biz heç bir protesto mətninə rast gəlmədik. Kazım Qarabəkir paşanın general Milnə protest etməsi mümkün deyildi. O, hərbi nazirliyə məlumat vermiş, Xarici İşlər Nazirliyi qarşısında lazımi təşəbbüslər qaldırmışdır.

əyə və zülmə son qoyulması, heç olmazsa sağ qalanların həyatlarına təminat vermənizi xahiş edirəm.[243] Paşanın fikrincə, bu vəziyyət davam edərsə, müsəlman əhali məhv olacaq.[244]

Araz vadisindəki zülmlərə aid məlumatlar İstanbula çatan kimi hökumət idarələri arasında yazışmalar başladı. Hərbi Nazirlik müsəlmanların zülmdən qutarmaları üçün siyasi yoldan istifadə edilməsini və Osmanlı sərhəddinə sığmayan qaçqınların yerləşməsi və ərzaqla təmin edilməsi üçün mülki dairələrə lazımi əmrin verilməsini baş nazirdən xahiş edirdi.[245] Baş Nazir də belə düşünürdü.[246]

Hadisələrin dayandırılması üçün siyasi yoldan istifadə edilmiş, İstanbuldakı ingilis rabitə zabitinə Naxçıvanda və ətrafında baş verən hadisələrlə əlaqədar bölgə əhalisindən gələn imdad teleqramları təqdim edilmiş, zülmə son verilməsi xahiş olunmuşdu. İngilis rəsmi şəxsi bir muddət sonra Xarici İşlər Nazirliyinə lazımi cavabı verdi. Bu cavaba əsasən, bu zülmlə əlaqədar alınan xəbərlər Naxçıvandakı ingilis nümayəndəsinə verilmiş, o isə belə hadisələrin olmadığına dair raport göndərmişdi.[247] Təbii ki, Naxçıvandakı ingilis nümayəndəsindən başqa cür cavab gözlənilə bilməzdi. Çünki o, hadisələrin gerçəkliyini qəbul etsə idi, özü və İrəvandakı nümayəndəsi Plovden günahkar sayılacaqdı.[248] Xan Təkinskinin fikrincə, Plovden Xatisyanın bütün fəaliyyətini dəstəkləyirdi.[249]

Naxçıvan camaatı bir tərəfdən Türkiyədən yardım istəyir,məsələləri türk dairələrinə bildirir, digər tərəfdən də Azərbaycanla əlaqə saxlayırdı. Çünki onlar özlərinə hər cəhətdən yaxın olan Azərbaycana rəsmən birləş-

---

[243] Hovanisyana görə, K. Qarabəkir hadisələri böyüdür, məsələyə siyasi məna verirdi, erməni rəhbərliyi bacarıqsız, zavallı təqdim edirdi (Hovanisyan. Göstərilən əsər). Erməniləri zavallı, bacarıqsız sayan yalnız türklər deyil, amerikalı və ingilis rəhbərləri də bu fikirdə idilər. Onlar da göstərirdilər ki, yardım olmadan ermənilər başqalarına hökm edə bilməzlər (USA NA Near Easteren Affairs 867.00/ 1100). Documents on British Vol: IV c. 9651 İngilis Xarici İşlər Naziri Lord Qurzon erməni rəhbərliyini dəyərsiz kimsələr, Ermənistandakı müttəfiq yüksək komissarı polkovnik Haskeli isə professional dilənçi adlandırmışdılar. (Salahi R. Sonyel. Türk qurtuluşu savaşı və xarici siyasət. II Ankara 1986.s. 36 )

[244] ATASE, A.5/2793, Kls322, s.1-33, F. 7371.

[245] ATASE, A. 1/2. Kls.78, s. 291-118, F.35-20.

[246] Ərzurumdan Daxili İşlər Nazirliyinə göndərilən 22 iyul tarixli bir teleqramda naxçıvanlıların Osmanlı hökumətindən müəllim və on zabitin gizlicə göndərilməsi xahiş olunmuşdur. Daxili İşlər Nazirliyi belə bir yardımın mümkün olmadığını bildirmişdir. Bu, həm Osmanlı dövlətinə, həm də sərhədin o tərəfindəki müsəlmanlara zərər gətirəcəyi üçün qəbul edilmədi. Məsələnin siyasət yolu ilə həll olunması Xarici İşlər Nazirliyinə həvalə edildi və hökumətin bu haqda fikri Ərzuruma bildirildi. ( BOA. DN. kls53-2/50)

[247] Osmanlı və Azərbaycan rəsmiləri və Araz vadisi müsəlmanları tərəfindən daim sıxışdırılan və protesto edilən general Miln bir təhqiqata başladı. Naxçıvandakı hərbi nümayəndə F.L.Şvind və Cənubi Qafqaz Ofisi "Araz vadisində hər hansı bir soyqırım olmadığına dair" bir məlumat göndərdi. (Hovanisyan. Ermənistan Respublikası. II c. s. 65).

[248] XV Kolordudan aldığı və Hərbi Nazirliyə təqdim etdiyi bir arayışda Naxçıvan və Qəmərli ətrafında erməniləri müsəlmanlara qarşı qızışdıran ingilislərdir və ermənilər bunu açıqca ifadə edirlər. ATASE, A. 112, kls. 89, s.142-327, F. 7-1; ATASE, A. 111, Kls.23, s. 115-92, F.89.

[249] Hacıyev. Qars və Araz-Türk respublikaları. s.81.

mək qərarı qəbul etmişdilər, həm də beynəlxalq platformada Azərbaycan Naxçıvanı öz torpağı hesab edirdi. Bu məqsədlə Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi Xan Təkinski Naxçıvanla sıx əlaqə saxlayır, bölgə ilə hökumət arasında, adətən,bir körpü vəzifəsini yerinə yetirirdi. Naxçıvanlıların istək və şikayətləri bu kanalla Azərbaycana və başqa dairələrə çatdırılırdı.

Ermənilər Naxçıvanı nəzarət altına alıb, bir sıra ciddi tədbirlər tətbiq edincə Araz vadisindən fəryadlar yüksəlməyə başladı. 21 iyun 1919-cu ildə Xan Təkinski Naxçıvan Milli Komitəsindən aldığı bir təklifi Azərbaycan hökumətinə çatdırdı. Bu məlumata görə ingilis generalı Devi və Xatisyanın vədlərinin əksinə olaraq. Naxçıvandakı erməni dairələri müsəlmanlardan silah və malları zorla almağa başlamışdı. İndi onlar Təkinskidən xahiş edirdilər ki, müttəfiqlər qarşısında təşəbbüs qaldırılması və hadisələrin qarşısının alınması üçün çalışsın.[250] İrəvan müsəlmanları rəisi Şeyxov imzası ilə buna oxşar məzmunda teleqram Azərbaycan hökumətinə göndərildi. 25 iyul 1919-cu il tarixli Azərbaycan qəzetində nəşr olunan bu teleqramda göstərilmişdi ki, Naxçıvan, Şərur və Ordubad müsəlmanlarına divan tutulur, kəndlər atəşə tutulur, soyğunçuluq edilirdi. Buna görə də Azərbaycan hökumətinin Ermənistan hökumətini protest etməsi, ingilislərin hadisələrə qarışması lazım idi. Yoxsa qısa müddətdə müsəlman kəndləri məhv ola bilər.[251]

Azərbaycan hökuməti və onun İrəvandakı diplomatik nümayəndəsi Xan Təkinski Araz vadisində cərəyan edən hadisələrə laqeyd qalmadı və qala da bilməzdi. Xan Təkinski gizlicə Naxçıvana kuryer göndərmişdi və bölgədən aldığı xəbərləri vaxtında hökumətə çatdırırdı. Azərbaycan hökuməti Təkinskinin göndərdiyi xəbərlərlə maraqlanır, Naxçıvanla sıx əlaqə yaratdığına görə hökumət tərəfindən təşəkkür edilir, daim ondan Araz vadisi ilə əlaqədar geniş məlumatlar istənilirdi. Naxçıvanda erməni vəhşiliyinin artması Təkinskinin və bilavasitə Azərbaycan hökumətinin fəaliyyətini xeyli sürətləndirmişdir. Tiflisdə olan Azərbaycanın səlahiyyətli şəxsləri bu vəhşiliklə əlaqədar hökumətlərinə tez-tez məlumatlar verirdilər. Buna görə də, Naxçıvanın nüfuzlu şəxslərinin həbs olunması xəbərini, Gümrüyə aparıldıqlarını Tiflisdəki Əli Səbri bəydən eşidən Azərbaycan Xarici İşlər Naziri, təcili Təkinskiyə həbs edilmiş şəxslərin azad olunması üçün təşəbbüs göstərməsini tapşırdı.[252]

Vedi bölgəsinə erməni hücumunun başlamasını Təkinski Azərbaycan hökumətinə bildirdi. Hökumətin təcili tədbirlər görməsini istəyən Təkinski Böyük Vediyə xaç yürüşünün başladıldığını və bu işdə erməni din

[250] Hacıyev. Qars və Araz-türk respublikaları, s.75.
[251] "İzvestiya" 1989 №4s. 111 .Hacıyev. Göstərilən əsər.s.75-76
[252] Hacıyev. Qars və Araz-Türk respublikaları. s.71-77

xadimlərinin iştirakını nəzərə çatdırdı. Təkinski bu tədbirlərin görülməsini istəyirdi: 1.Vedi bölgəsi əhalisinə mənəvi cəhətdən yardım etmək üçün təcili buraya bir nümayəndə göndərilməlidir. 2.Sərhədlərə əsgər yığaraq müsəlmanların təhlükəsizliyi təmin edilməlidir.

Hərəkətə başlamaq vaxtı idi. Hovanisyana görə, Təkinskinin təklifinə əsasən Azərbaycan hökuməti təqribən 200.000 hərbi sursatı və 300.000 rus rublunu İranın şimalında yerləşən Naxçıvana göndərdi. 20 iyulda əlavə olaraq 4 milyon rubl. Tiflis yolu ilə Xan Təkinskiyə çatdırıldı.[253] Azərbaycan bir tərəfdən Naxçıvana qismən yardım edir, digər tərəfdən Vedi məsələsini dövlətlər arası gündəliyə salmağa çalışırdı. Vedi döyüşlərinin ən qızğın vaxtlarında Azərbaycan Xarici İşlər Naziri Y.Cəfərov Bakıdakı Ermənistan nümayəndəsinə nota verdi. Azərbaycan hökuməti məsələlərin qan tökülmədən sülh yolu ilə həll edilməsini istəyir, erməni hücumlarının təcili dayandırılmasını tələb edirdi.[254] Bundan başqa, hökumət Bakıdakı ingilis komandiri ilə general Miln hadisələrlə əlaqədar protest göndərdi və öz fikirlərini bildirdi.[255] Bir neçə gün ərzində erməni və ingilis hakim dairələrindən Azərbaycanın nota və protestlərinə cavab verildi. Ermənistan dövləti adından Xatisyan və Bekzadyanın verdiyi cavablara görə, bu, Ermənistanın daxili işi olduğundan Azərbaycaınn bu cür işlərə qarışmağa haqqı yoxdur. Böyük vedililər isə hökumətə qarşı çıxdıqları üçün cəzalandırılırdı. Azərbaycan fəaliyyətini davam etdirirdi. 2-3 kənd tək başına müstəqil ola bilməzdi.[256] Vedi əhalisi istəsələr, tamamilə Azərbaycana köçə bilərlər.

İngilislərin cavabı ermənilərin cavabından fərqli deyildi. Onlar deyirdilər ki, Ermənistanda yaşayan müsəlmanlar Ermənistan qanunlarına tabe olmalıdırlar.[257] Naxçıvan bölgəsində deyilən zülm olmamışdır.[258] Ancaq Təkinskinin məlumatına görə ermənilər müsəlmanlara hücüm etmək üçün böyük bir səfərbərlik başlamışdı və İrəvandakı ingilis nümayəndəsi podpolkovnik Plovden də onları dəstəkləyirdi. Təkinski Xarici İşlər Nazirliyindən erməniləri Vedidən uzaqlaşdırmaq üçün əllərindən gələni etməsini xahiş edir, əks-təqdirdə müsəlmanların vəziyyətinin çox təhlükəli bir hala çevriləcəyini bildirirdi.[259]

---

[253] Hovanisiyan. Ermənistan Respublikası. s. 68. Bu dövrdə Azərbaycanın Naxçıvana pul yardımı etməsi haqda Azərbaycan mətbuatında məlumat verilmişdir (Azərbaycan, 23 iyun 1919 № 232).

[254] Hacıyev. Göstərilən əsər. s. 78-79

[255] Azərbaycan, 12 iyul 1919; № 222. Hovanisyan. Göstərilən əsər. s. 65. Hacıyev. Göstərilən əsər. s. 79. Jalschke Milli Azərbaycan təqvimi. s. 21

[256] Ermənilərin iki-üç kənd dedikləri bölgə bu günkü statistiklərə görə 2 böyük qəsəbədən və 30 kənddən ibarətdir. (Ələkbərli. Ermənistan. s.66-67). Bu bölgənin taleyi də Naxçıvandakı kimidir. Bunu nəzərə alsaq, ifadənin gülünclüyü məlum olar.

[257] Hacıyev. Göstərilən əsər. s.80

[258] Hovanisiyan. Göstərilən əsər. s. 65

[259] Hovanisiyan. Göstərilən əsər. s. 81

Araz vadisindəki hadisələr Azərbaycan hökumətinin gündəlik məsələsinə çevrilmiş, Qafqazdakı müxtəlif mətbuat orqanları da məsələni gündəliyə salmışdılar. Şübhəsiz, müsəlmanlara edilən zülmlər haqqında ilk olaraq "Azərbaycan" qəzeti yazılar yazmışdı. İmkan daxilində qəzet öz səhifələrində həmin hadisələrə yer verir və hökumətin bu məsələni həll etməsini istəyirdi.[260] Gürcüstan mətbuatı da az bir müddətdə ermənilərin müsəlmanlara rəva gördüyü vəhşiliklər haqqqında oxucularına məlumat verdi. Belə ki, "Borba" qəzeti bu hadisələrlə əlaqədar yazırdı: "Əhalinin və ərazinin 90%-i müsəlmanların, 10%-i ermənilərindir. Belə bir vəziyyətdə isə ermənilər hakim, müsəlmanlar haqsız hesab edilir. Naxçıvandakı hadisələr nə anarxiyadır, nə də müharibə. Bəlkə də, zorla tabe olmağa məcbur edilən erməni hakimiyyətinə qarşı üsyanların hələ başlanğıcıdır. Ermənilərin daşnak komitəsi isə hadisələri həqiqi şəklindən uzaqlaşdırır, ümumi bir türk təhlükəsi olduğunu göstərir və Gürcüstanı bu sahədə qızışdırmaq istəyirdi. Ermənilər qonşuları türklərə qarşı intiqam siyasəti davam etdirir, öz məzarlarını hazırlayırdılar".[261] Qafqaz mətbuatında çıxan xəbərlər ermənilərdə narahatlıq yaradırdı. Buna görə də Ermənistanın baş naziri Xatisyan bu xəbərləri rəsmi şəkildə təkzib edirdi.[262]

Mətbuatda belə yazıların dərc olunması, Azərbaycanda yaşayan, əslən naxçıvanlı olanları hərəkətə gətirdi. Onlar 12 iyul 1919-cu ildə Gəncədə bir mitinq keçirdilər. Mitinqin sonunda Azərbaycan parlamentinə teleqram yazıldı: "Ermənilərin Vedibasarda və Naxçıvanda elədikləri zülmlər, Naxçıvanın nüfuzlu şəxslərinin həbs olunması haqqında xəbərlər xatırladıldı və məsələnin həlli üçün müttəfiqlərlə və Ermənistanla danışıqların aparılmasını tələb etdilər".[263]

## 4. Naxçıvanda azadlıq mübarizəsinə hazırlıqlar

İngilislərin Naxçıvanı ermənilərə verməsi türk əhalisinin qüruruna toxunmuşdu. İngilislər olmasa, erməni hərbi birliklərini ölkələrinə buraxmazdılar. Artıq iş-işdən keçmişdi. Ermənilər Naxçıvanın strateji nöqtələrində, dəmiryolu ətrafında öz hakimiyyətlərini qurmuşdular, digər yerlərdə yerli qüvvələrin hakimiyyəti davam edirdi. Erməni hərbi qüvvələrinin Naxçıvanda tam hakimiyyətlərini təmin etmək arzusu, bilavasitə müsəlmanlara

---

[260] Azərbaycan, 7 iyul 1919 №218; Azərbaycan, 15 iyul 1919 № 225; Azərbaycan, 23 iyul 1919 № 232; İzvestiya, 1989, №4 s. 111

[261] Ermənilərin törətdikləri vəhşilikləri, zülmü diqqətli şəkildə izləyən "Albayraq" qəzeti yuxarıda qeyd etdiyimiz yazını "Borba" qəzetindən götürmüşdür. Albayraq, 21. 335/1919, №29.

[262] Hacıyev. Qars və Araz-Türk Respublikası. s.75.

[263] Yenə orada s.79

qarşı tətbiq etdikləri metodlar region əhalisinin möhkəm qəzəbinə səbəb oldu.[264] Digər tərəfdən erməni qaçqınların soyğunçuluğu tarazlığı pozdu. Müsəlman əhali evlərindən çıxarılmış, yoxsulluq başlamış, pulun dəyəri düşmüşdü.[265]

Belə bir şəraitdə ingilislərin çıxması fürsətindən istifadə edən naxçıvanlılar erməni vəhşiliklərinin qarşısını almaq və nəticədə ölkələrindən çıxarmaq üçün fəaliyyətə başlamışdılar. Əliyevə görə ermənilərə qarşı ilk üsyana hazırlıq Naxçıvanın Qaraqaç məhəlləsində başlamışdı. 50 nəfərlik silahlı bir qrupa naxçıvanlı demokratlardan Məmməd Rəhimov və Mirzəli bəy Bektaşev rəhbərlik edirdilər. Günü-gündən də gücləri artırdı.[266] Digər tərəfdən, Ordubad, Şərur, Yaycı, Bulqan, Vedibasar və Naxçıvanın şimal tərəflərində olan yerli liderlerin rəhbərliyi altındakı könüllülər əllərində silah ermənilərə qarşı partizan müharibələri apararaq ölkələrini müdafiə edirdilər.[267]Yerli qüvvələr Naxçıvan şəhərində müsəlmanlara qarşı edilən təzyiq və zülmlərin qarşısını almaq üçün fəaliyyət göstərirdilər. Belə ki, Cəhri kəndində qərargah yaradan Kərbəlayi Kərim xan Naxçıvanın nüfuzlu şəxslərinin həbs olunması ilə əlaqədar fəaliyyətə başladı. Bir basqın nəticəsində 6 nüfuzlu ermənini yaxaladı və erməni hakim dairələrinə həbs edilmiş müsəlmanlarla dəyişdirməyi təklif etdi.[268]

Vedibasarda başlayan döyüşlər üstün olan erməni qüvvələrinin ağır məğlubiyyəti ilə nəticələndi. Vedi türklərinin qələbəsi naxçıvanlı soydaşlarına çox müsbət təsir göstərdi. Onlar bu qənaətə gəldilər ki, birlik şəklində olsalar erməniləri ölkələrindən çıxara bilərlər. Naxçıvan bölgəsində əvvəlcə olduğu kimi yenidən könüllü dəstələr yaradılmağa başlandı. Təbii ki, yeni birliklər daha əvvəllər yaradılmış batalyonlar əsasında qurulurdu. İ.Hacıyev qısa bir müddət ərzində top və pulemyotları olan 6.000 nəfərlik süvari hissə yaradıldığını və döyüş zamanı könüllülərin iştirakı ilə bu rəqəmin təqribən 10.000-ə çatdığını göstərirdi.[269]

Ermənilərə qarşı mübarizənin başında duran Xəlil bəy əlinin altında 600 nəfərlik bir könüllü batalyon, 500 piyada, 80 süvari və müəyyən miqdarda silahlı əhali olduğunu göstərirdi.[270] Gözlənilən vaxt yaxınlaşırdı. Bu məqsədlə Gürcüstandakı Azərbaycan nümayəndəsi F. Vəkilov ilə görüşən

---

[264] USA NA. Near Eastern Affairs 867.00/1100.

[265] "Azərbaycan" 7 iyul 1919, №218, Qarabəkir. İstiqlal hərbimiz. s.286.

[266] Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s.13-14.

[267] ATASE, A. 1/1.kls 23, D. 151-92, f.79; ATASE, A. 1/2. kls. 78, s.D. 291-118, f.24, Əliyev, Qanlı günlərimiz s.127.

[268] Əliyev, Qanlı günlərimiz, s. 127.

[269] Hacıyev. Qars və Araz-Türk Respublikası. s. 71-75.

[270] Cümhuriyyət, 20 may 1933. №3244. Aradakı fərq bir az şişirdilmişdir. Döyüş zamanı bütün qüvvələrin Xəlil bəyin əmrində olmamaq ehtimalı vardır.

Naxçıvan Milli Komitə üzvü Bağırov erməni hökumət nümayəndələrini qovmaq üçün hər şeyin hazır olduğunu bildirərək Azərbaycan hökumətindən bunları xahiş edirdi: “Müvəqqəti olaraq Bakıda və Tiflisdə yaşayan naxçıvanlıların geri göndərilməsinin böyük mənəvi əhəmiyyəti vardı. Onların qayıtması əhalinin əhval- ruhiyyəsini xeyli yüksəldəcəkdi”.[271]

Naxçıvanda ermənilərə qarşı birliyin yaradılmasında, şübhəsiz, Azərbaycan hökumətinin, bilavasitə Xan Təkinskinin böyük rolu vardı. Naxçıvanın ermənilərin əlinə keçməməsi üçün çalışan Xan Təkinski indi də Naxçıvanı ermənilərin əlindən qurtarmaq üçün mübarizə aparırdı. Belə ki, ingilislər Naxçıvandan çıxar-çıxmaz Təkinski planlarını həyata keçirməyə başladı. 4 iyun 1919-cu ildə hökumətinə ingilislərin getdiyini bildirən Təkinski ermənistana neft göndərilməsinin dayandırılmasını, Naxçıvandakı müsəlman təşkilatlarına yardım göstərilməsini təklif edirdi.[272] Beləcə, həm Naxçıvandakı hərbi hissələr qüvvətlənəcək, həm də Ermənistanın Azərbaycana edəcəyi hər hansı bir hücumunun qarşısı alına biləcək.[273] Təkinski hökumətinə bildirirdi ki, bir həftə ərzində Naxçıvanda olan əsgərlərin sayını 6.000-dən 10.000-ə qədər yüksəldəcək. Yaxşı bir hərbi təşkilata sahib olan könüllü batalyonlar kifayət qədər maddi və mənəvi dəstək görərlərsə, erməniləri yurdlarından çıxara biləcəklər.[274] Ancaq Azərbaycandan yardımın vaxtında gəlməməsi və ermənilərin Naxçıvanda ciddi əməliyyatlara başlaması nəticəsində maddi cəhətdən əziyyət çəkən batalyonlar dağılırdı. Buna görə də Təkinski hökumətindən erməni sərhəddi boyunca əsgər toplamaq, Naxçıvandakı müqaviməti dəstəkləmək üçün kürd lideri Simko və Maku xanla ittifaqa girmək üçün səlahiyyət verilməsini xahiş edirdi.[275]

Vedi döyüşlərinin başlaması bölgədə narahatçılığın artmasına səbəb olmuşdu. Xan Təkinski döyüşlərlə əlaqədar daim hökumətinə məlumatlar verir, vedililərə dəstək olmaq üçün bir nümayəndə ilə silah və hərbi sürsat göndərilməsini tələb edirdi. Hovanisyana görə 200.000 hərbi sursat və 300.000 rus rublu şimali İrandan Naxçıvana çatdırılmışdı. 20 iyulda əlavə olaraq 4 milyon rubl Tiflis yolu ilə Təkinskiyə göndərilmişdi.[276] Təkinski bu pulları müavini Rəhim xanın oğlu İsgəndər xan və şəxsi kuryeri ilə Naxçıvana göndərir. İyul ayının əvvələrində Xan Təkinskinin Naxçıvan Milli

---

[271] İ.Hacıyev. Qars və Araz-Türk Respublikası. s. 83.

[272] Təkinskinin maddi yardım təklifi Azərbaycan Xarici İşlər Naziri Cəfərov tərəfindən müsbət qarşılanmış, lazımi tədbirlərin görülməsinə dair söz vermişdir. (Hovanisyan. Ermənistan Respublikası. s.248 )

[273] Hovanisyan . Göstərilən əsər. I c. s. 248; Hovanisyan. Göstərilən əsər. II c.s.64

[274] Hovanisyan. The Republic of Armenia

[275] Hovanisyan . Göstərilən əsər. s.64. Hacıyev. Göstərilən əsər. s.75.

[276] Hovanisyan.Göstərilən əsər.s.68. AZƏRBAYCAN” qəzetində verilən xəbərə görə, Naxçıvana göndərilən pullar mühacirlərə xərclənəcək idi. Milli komitə bu işi yerinə yetirməli idi. “Azərbaycan” 23 iyul 1919-cu il. №232.

Komitəsi ilə əlaqələri xeyli yaxşılaşmışdı. 7 iyul 1919-cu ildə hökumətinə verdiyi məlumatda deyilirdi: "Gördüyüm işlər nəticəsində Şərur, Ordubad və Naxçıvan Milli Şura ətrafında birləşərək mənimlə daim sıx əlaqə saxlayırlar.[277] Bu da Naxçıvanda Milli təşkilatlar yaradılması baxımından çox əhəmiyyətli idi.

Hovanisyana görə, ingilis, fransız, amerika və erməni mənbələrində Araz vadisində bir hadisənin partlamaq üzrə olduğu göstərilir. Erməni hakim dairələrinin türk zabitlərinin keçidi hesab etdikləri Aralıq və ətraf kəndlərini işğal etməsini İrəvandakı ingilis zabitləri dəstəkləyirdi. Ancaq Tiflisdəki ingilis komandiri bu təklifi qəbul etmədi. Paris Sülh Konfransının qərarına qədər hər hansı bir torpaq dəyişikliyi olmayacaqdı. İrəvandakı podpolkovnik Plovden daha əvvəlki tələblərini yenidən təkrarladı. Türklər Aralıqdan keçərək Araz vadisinə gəlir, müsəlmanları ermənilərə qarşı üsyana sövq edir, təşkilatlar yaradırdılar. Naxçıvanlılar Maku tərəfdən silah alırdılar.[278] Amerika kəşfiyyat məlumatına əsasən türk və Azərbaycan millətçiləri Naxçıvanda ermənilərə qarşı mübarizəyə hazırlaşırdılar və Cənubi Qafqazın bu günkü vəziyyətində türklərin fəaliyyətləri çox təhlükəli idi.[279] Türklər əleyhinə işləyən, təbii ki, erməni dairələri və mətbuatı idi. Onlar məğlubiyyətə uğrayanda səbəbkar kimi türk və azərbaycanlı mütəxəssisləri görürdülər.[280] Bu bir həqiqət idi ki, Türkiyə və xüsusilə Azərbaycan Araz vadisinin müsəlman əhalisinə yardım edirdi. Ancaq ermənilərin dediyi həcmdə, yəni şişirdilmiş yardım deyildi. Hovanisyan göstərirdi ki, Araz vadisinin əhəmiyyətini çox yaxşı bilən Kazım Qarabəkir paşa əvvəlcə bölgə ilə hərbi əlaqəyə girmədi. Münaqişələr gərginləşdikdən sonra müdaxilə etdi.[281] Şahtaxtı ətrafında erməni zülmünə məruz qalan müsəlman əhaliyə 3 türk süvarisinin yardım etdiyi "Azərbaycan" qəzetində yazılmışdı.[282] Onların daha əvvəllər

---

[277] Hacıyev. Qars və Araz-Türk Respublikası. s.64. Bir amerikan məlumatına əsasən Xan Təkinskinin hökumətinə göndərdiyi 20 teleqramda Naxçıvanda ermənilərə qarşı başlayan hərəkatı Azərbaycanın təşkil etdiyi, maddi cəhətdən yardım göstərdiyi bəlli olur. USA. NA. Paris Peace Conferance 184.021/80. Təkinskinin bu sahədəki fəaliyyətinə görə İrəvandakı İngilis nümayəndəsi podpolkovnik Plovden general Koryudən onun sorğuya çəkilməsini tələb edirdi. (Hovanisyan. Ermənistan Respublikası. s.67).

[278] Hovanisyan. The Republic of Armenia, Vol: 11, c. 65,66; Nassibian, Armenian Question, c.163.

[279] USA NA Paris Peace Conferance 184.021.02/6.184.021/16.

[280] Əvvəllər olduğu kimi Vedi döyüşlərində də ermənilər məğlubiyyətlərinin səbəbini müsəlmanlar arasında türklərin və azərbaycanlıların olmasında görürdülər (Azərbaycan, 21 iyul 1919, №230. Kaçaznuni. Болше нечего делат. 33 Hovanisyan. Göstərilən əsər. s.67. Hacıyev. Göstərilən əsər. s.78

[281] Hovanisyan. Göstərilən əsər. Paşa bununla əlaqədar bunları yazırdı: ermənilərin hücumları və müsəlman əhalinin soyqırımına qarşı hücumunu nəzərə aldım, Soğanlı keçidini tutdum və bəzi yerlərdə könüllülər dəstəsini zabit və əsgərlə təslim etdim. Xüsusən Naxçıvan bölgəsini işğal edən ermənilərə bir gecə basqın edərək o məntəqəni aldım. Əgər bunları etməsəydim, bir çox türk xalqı məhv olacaqdı. (Kazım Qarabəkir. Makina səhifəli qeydlər. s.47-48 ).

[282] Azərbaycan 15 iyul 1919. № 225

bölgədə qalan əsgərlər, yoxsa Bəyaziddəki 11-ci diviziyadan göndərilən əsgərlər olması haqqında əlimizdə məlumat yoxdur.

## 5. Naxçıvanda döyüşlər və erməni idarəçiliyinin sonu

İyul ayının əvvələrində Vedibasarda başlayan döyüşlər yavaş-yavaş Naxçıvana doğru irəliləyirdi.[283] İngilislər narahat idi. Bu səbəblə ingilis nümayəndəsi Şvind 18 iyulda Tiflisdəki qərargaha göndərdiyi bir teleqramda Naxçıvanda nəzarəti öz üzərinə götürdüyünü və erməni rəhbərliyinin zəif olduğunu göstərirdi. İngilislər vasitəçilik etməyi fikirləşirdilər, hadisələrə qarışmayacaqdılar. Podpolkovnik Plovden Şvinde təklif etdi ki, İrəvana getsin və Naxçıvandakı könüllülərin komandiri kimi sayılan Kalbalı xan hər hansı bir bəhanə ilə bölgədən uzaqlaşdırılsın. Ancaq nəzərdə tutulan bu iki əməliyyat üçün yubanmışdılar. Çünki 20 iyunda Naxçıvan şəhərində artıq hadisələr baş verirdi.[284]

Naxçıvan şəhərində başlayan döyüşlərin səbəbini müxtəlif cür izah edirdilər. Türk mənbələrinə görə 20 iyun saat 10.00-da Naxçıvanda yerli bir qadınla evlənib orda qalan bir türk erməni əsgərləri tərəfindən həbs edilmiş və sonra isə öldürülmüşdü. Öldürülən əsgərin qaynatası idarəyə gələrək iki erməni əsgərini vurmuşdu. Artıq Naxçıvanda mübarizə başlamış, erməni əsgərləri müsəlmanlara hücum etmişdilər.[285] Hovanisyanın yazdığına görə, Naxçıvan bazarında bir müsəlman tərəfindən yaylım atəşi açılmış və bu vaxt bir erməninin qulağı yaralanmışdı. Bir neçə dəqiqədən sonra bütün şəhərdə döyüş başladı.[286]

Naxçıvan bazarında erməni əsgərlərinin hücumu nəticəsində dükanlarını bağlayan sənətkarlar silahlarını götürmək üçün evlərinə gedib, yarım saat sonra qayıtdılar. Məqsədləri dükandakı malları evlərinə daşımaq idi. Aradan bir saat keçmişdi ki, erməni əsgərləri və yerli polis məmuru Babayev şəhər bazarındakı müsəlmanları tutmaq istədilər. Ancaq başlanan döyüşdə bir erməni zabiti öldürüldü. Babayev də bir dükanda yaxalandı. Bir müddət sonra Kalbalı xan hadisələrə qarışdı. Vəziyyət sakitləşmək üzrə idi ki, erməni snayperçilər tərəfindən müsəlman məhəllələri tüfəng və top atəşinə tutuldu. Toplardan açılan atəş nəticəsində bir çox müsəlman evi dağıdıldı. Saat 17-dən sonra atəşkəs üçün danışıqlar başlandı.[287] Kalbalı xan, erməni rəhbərliyi və ingilis nümayəndəsi Şvind ilə görüşdü, podpolkovnik Plovdenin təklifi ilə lazımi istintaq aparılması üçün 3 günlük atəşkəs

[283] İzvestiya, 1989 №4 s.119

[284] Hovanisyan. Ermənistan Respublikası. s.69

[285] Əliyev. Qanlı günlərimiz, s.128. "İzvestiya", 1989 № 4 s. 119-120. Cümhuriyyət, 20 may 1933. № 3244.

[286] Hovanisyan. Göstərilən əsər. s.69

[287] Əliyev. Qanlı günlərimiz, s.128-129

müəyyənləşdirildi. Ancaq atəşkəs olmadı. Səhərisi gün döyüşlər yenidən başlandı.[288]

Naxçıvan şəhərində döyüşlər başladığı vaxt Şərur bölgəsində də gərgin anlar yaxınlaşırdı. Kazım Qarabəkir tərəfindən vəzifə verilən Naxçıvanın keçmiş komandiri Xəlil bəy 3 zabit və 7 əsgərlə bərabər 17- 18 iyulda Bəyazitdən sərhəddi keçərək 19-dan 20-ə keçən iyul gecəsi Yengicəyə gəldi. Naxçıvanlı Hacı Cabbar ağa da onun yanında idi.[289]

Şərurdakı qüvvələrin başında duran Xəlil bəy özünü ermənilərə bildirməməyə çalışdısa da, bu mümkün olmadı.[290] Xəlil bəyin orda olmasını öyrənən polkovnik Qarakeşişov 20-21 iyul gecəsi bunu İrəvana və Naxçıvandakı divizya komandanlığına bildirdi. Belə deyirdi: "Keçən il bu regionda türk komandiri polkovnik Xəlil bəy, onu müşayiət edənlərlə bərabər bu gecə bura gəlmişdir. Xəlil bəyin qüvvə gətirdiyi və ya gətirəcəyi hələ ki, məlum deyil. Hər halda bədniyyətlə gəlmişdir. Lazımi tədbir görülmüşdür.[291] Qarakeşişov tədbirlər görürkən, Xəlil bəyin yanında olan baş leytenant Xəlil İbrahim bəy əfəndi 21 iyulda Şahtaxtı əhalisi ilə bərabər Şahtaxtı stansiyasında olan erməni qüvvələrinə hücum etdi.[292] 40-a qədər itki verən ermənilər Xanlıqlar kəndinə çəkildilər. 22 iyulda baş leytenant Nacinin komandirliyi altında olan birliklər Dəhnə boğazını ələ keçirdilər.[293] Beləliklə, starateji cəhətdən çox əhəmiyyətli olan bölgə nəzarət altına alındı.

Ermənilərə qarşı bir çox qələbələr qazanmasına baxmayaraq, Xəlil bəy narahat idi. Çünki, bu iki qüvvə arasında həm sayca, həm də təchizat baxımından bir sıra fərqlər var idi. Xəlil bəy bununla əlaqədar yazırdı: Qüvvəmiz düşmən qüvvəsinin onda biri qədər etmir. Hərbi sürsat demək olar ki, yoxdur. Süngü hücumuna başlasaq belə, heç kimsədə süngü yox,[294] nə

---

[288] Hovanisyan. Ermənistan Respublikası. s.69

[289] ATASE, A.5/2793, Kls. 814, D 5-9, F. 128-1; Cümhuriyyət, 20 may 1933, №3244 Qarabəkir. İstiqlal hərbimiz, s.73. Türk istiqlal hərbi III Şərq cəbhəsi (1919-1921). Ankara, 1965, s.63-64. Hovanisyan. Göstərilən əsər.s.68-69

[290] "Şərq cəbhəsi III" adlı əsərdə göstərildiyinə görə polkovnik Qarakeşişov onların Azərbaycana gəlməsindən şübhələnmişdir. Onlar da gələcəklərini bildirdiklərindən bir tədbir görməmişdir. (Şərq cəbhəsi III s.64)

[291] Cümhuriyyət, 20 may 1933. № 3244.

[292] "Şərq cəbhəsi" adlı əsərdə Şərur bölgəsindəki ilk hücumun 19-20 iyul gecəsi olduğu ifadə edilirdisə də, (Şərq cəbhəsi III, s. 64) yuxarıda göründüyü kimi, Xəlil bəyin ilk hücumunun 21 iyulda olduğu bilinir.

[293]ATASE, A.5/2793, kls 814, s.D. 5-9, F. 1281. Amerikan mənbəyinə görə Naxçıvandakı üsyanla paralel Kağızman və Qulp bölgələrində üsyanlar baş verdi. (USA NA Paris Peace Conferance, 184.02102/15).

[294] Bir Amerikan məlumatında Xəlil bəyin dediklərinin əksi yazılır. 24 iyul tarixli məlumata görə erməni əsgərlərinin uniforması və ayaqqabıları hətta hərbi sursatları yoxdur, türklər isə təmin olunmuşdur. (USA NA Paris Peace Conferance 184. 021/126) Bizcə bu səhvdir. Müttəfiqlər tərəfindən dəstəklənən, daim yardım alan bir dövlətin əsgərlərinin təchizatının sahibsiz bir bölgənin əsgərlərinin təchizatından zəif olması mümkün deyildi. Türkiyə və Azərbaycandan göndərilən silah və s. ilə tam təchizatlı bir ordu yaratmaq imkan xaricində idi. Bu bir həqiqətdir ki, Naxçıvan döyüşlərində ermənilərdən qənimət olaraq alınan silahlar yalnız nizamlı orduda ola bilərdi. Bir başqa Amerika məlumatında isə göstərilirdi ki, ermənilərlə Naxçıvanda döyüşən türk könüllüləri uniformasız, ayaqqabısız və nizamsızdırlar. (USA NA Near Eastern Affairs 867.01100). Ancaq yaxşı münasi-

olacaq? Bunun cavabını verə bilmirəm. Öz-özümə fikirləşib qalıram. Xəlil bəy bu fikirlər içərisində sıxıntı çəkərkən, polkovnik... Qarakeşişov tərəfindən ona rusca yazılmış bir məktub gəldi. 22-23 iyul 1919- cu il tarixli bu məktubda yazılırdı: "Biz bura müharibə etmək üçün gəlməmişik, bunun üçün əmr də yoxdur. Mən sizin fikrinizi bilirəm. Bizim burada olmağımızı istəmirsiniz. Bizi buradan çıxarmaq üçün çalışırsınız. Madam ki, belədir bizə yol verin, İrəvana gedək. Bu gecə cavabınızı gözləyirəm. Hörmətlə". Məktubdan ermənilərin zəifliyini başa düşən Xəlil bəy dərhal rusca bir cavab yazdı. Ermənilərə 24 saatlıq bir ultimatum göndərildi. Silah və hərbi ləvazimatlarını aparmamaq şərtilə yol veriləcəyi bildirildi. Ancaq ermənilər səhərisi gün cavab verməyərək döyüşə başladılar.[295]

Buna görə də 23 iyulda səhər Xəlil bəy 500-ə qədər qəhrəman könüllü[296] ilə Yengicə stansiyasında və Noraşendə olan polkovnik Qarakeşişovun qüvvələrinə hücuma keçdi. Saat yarım davam edən döyüşdən sonra erməni qüvvələri məğlub oldu. Qarakeşişov döyüş meydanından ancaq bir neçə adamı ilə bərabər qaça bildi. Ermənilərdən qənimət olaraq 4 top, bir zirehli qatar, 42 dəzgahlı pulemyot alınmışdı.[297] Səhərisi gün Xanlıqlar döyüşsüz təslim oldu. Bu kənddə 217 əsgər və 7 zabit əsir alındı, 600 tüfəng ələ keçirildi.[298] Artıq Naxçıvandakı erməni diviziyasının Şərurdakı böyük bir hissəsi təsirsiz hala gətirildi.

Şərurda şiddətlı döyüşlər getdiyi zaman, Naxçıvan şəhəri də tam bir döyüş vəziyyətində idi. 20 iyulda razılaşdırılmış atəşkəs səhərisi gün pozulmuşdu. Hovanisyana görə, müsəlmanlar səhərə yaxın stansiyaya hücum edərək ələ keçirdilər və qatarları qarət etdilər.[299] 21 iyul səhər ermənilər müsəlman məhəllələrini topa tutdular. Hər iki tərəfə güllələr yağış kimi yağırdı. Elə bu vaxt Nehrəm kəndindən Kərbəlayı Hacı Muxtar Cəfərəli oğlunun rəhbərliyi ilə 200-ə qədər süvari və piyada naxçıvanlı türklərə yardıma gəldi. Axşama yaxın döyüşlər sakitləşdi və səhərə yaxın isə qızışdı. Ermənilərin hücumu dəf edildi və əks-hücumla onlara xeyli zərər verildi. Həmin gün erməni komandiri Şelkovnikov müəyyən qədər qüvvələri Şıxmahmud kəndinə göndərdi və Qızılbənaz tərəfdən gələn yardımın qarşısını almaq istədi. Digər tərəfdən isə müsəlmanlara sülh təklif edildi. Ancaq

---

bətdədirlər. Silahlar çox köhnədir. Rəhbərlərin bəzilərinin silahı yoxdur. (USA. NA, Near Eastern Affairs, 867.00/1100).

[295] "Cümhuriyyət", 20 may 1993. №3244.

[296] Yengicəli Hacı Cabbar və Abbasqulu bəyin əmri altında 2000-ə qədər könüllü ermənilərə qarşı vuruşurdu. (Şərq cəbhəsi, III c. s. 64).

[297] Yengicə stansiyasındakı vaqonlarda olan ərzaqlar da türklərin əlinə keçmişdir, dəvələrlə Şərqi Bəyazidə göndərildi. (Şərq Cəbhəsi. III s. 64).

[298] ATASE, A.5/2793, Kls.814, iş. 5-9, F. 128-1. İzvestiya, 1989. №4. s. 120. Şərq Cəbhəsi III, s. 64. Hovanisyan. Ermənistan Respublikası. s.70.

[299] Hovanisyan. Göstərilən əsər. s.69.

bir nəticə əldə edilmədiyindən döyüş yenidən başladı.[300] Türklər ani bir hücumla erməni qarnizonuna hücum etdi.[301] Polis idarəsi ələ keçirildi. Ancaq Naxçıvandakı müsəlman döyüşçüləri hər cür silaha sahib general Şelkovnikovun qüvvələri ilə mübarizə aparmağa çətinlik çəkirdilər.[302] Buna görə ətrafdakı müsəlman kəndlərdən kömək istənirdi. 23 iyulda Nehrəm, Bulqan və Zeynəddin kəndlərindən Naxçıvana kömək gəldi və hücum nəticəsində ermənilərə xeyli zərər verildi. Bundan başqa Qızılboğaz tərəfdən Naxçıvana gələn 400 nəfərlik erməni qüvvələrin qarşısını cəhrililər kəsdi. Çox şiddətli döyüşlər oldu və erməni qüvvələrinə xeyli zərər verildi.[303] Artıq Naxçıvandakı erməni qüvvələri çətin vəziyyətə düşmüşdülər. Ermənilərin əsas dayaq nöqtəsi olan Şahtaxtı və baş Noraşenin alınması Naxçıvandakı diviziyaya hücumları asanlaşdırmışdı. General Şelkovnikov 24 iyulda səhərə yaxın tam qüvvə ilə hücuma keçdi, axşam qaranlığından istifadə edərək Əznəbürtdən Almalıya və oradan da Novo Bəyazidə çəkildi.[304] Xəlil bəyin dediyinə görə hərbi kazarmada çoxlu silah, ləvazimat qalmışdı və bunlar əhali tərəfindən qarət olunmuşdu.[305] Naxçıvandan çıxan erməni qüvvələri Arpa və Naxçıvan çayları boyunca könüllülər tərəfindən təqib edilirdi.[306]

Culfa tərəfdə də şiddətli döyüşlər oldu.[307] Ermənilərin bir hissəsi qaçmağı bacarmış, bir hissəsi isə təsirsiz hala gətirilmişdi. Culfadakı erməni əsgəri və erməni qaçqınları Culfa körpüsündən İrana keçmək niyyətində idilər. Naxçıvandakı ingilis missiyası Amerika yardım heyəti də bu niyyətdə idilər. Ermənistan tərəfinin bağlı olması, dəmiryolunun dağıdılması onları bu fikrə salmışdı. 28 iyulda xəstəxananı və yetimxananı türklərə verən 2 qadından ibarət Amerika yardım heyəti və Şvind, yanındakı ingilislər dəmiryolu ilə Culfaya,

---

[300] Əliyev. Qanlı günlərimiz, s. 129-130

[301] O günləri görən Əliyev yazırdı ki, müsəlman qüvvələri erməni qarnizonuna tunel açmış, ora barıt qoyaraq partlatmışlar. (Əliyev. Araz-türk cümhuriyyəti)

[302] Hovanisyan. Ermənistan Respublikası. s. 70

[303] Əliyev. Qanlı günlərimiz s. 130.

[304] ATASE, A.5/2793, kls.814, F. 128-2.USA NA Paris Peace Conferance 184.021/85 İzvestiya, 1989. №4, s.120. Hovanisyan. Ermənistan Respublikası. II c.70. Ermənilərin Naxçıvandan çıxma tarixini Xəlil bəy 24 iyul, Amerika mənbələri və Hovanisyan isə 25 iyul göstərirdi. Xəlil bəy döyüşlərdə olduğundan onun məlumatını dəqiq hesab edirik.

[305] Xəlil bəy əhali tərəfindən qarət olunan silahları toplamışdır. Amma əhali bir neçə pulemyotu Maku xanına satmışdır. Xəlil bəy belə bir qənaətdə idi ki, 1920-ci ilin yayına qədər hələ də bəzi evlərdə pulemyot vardır (ATASE, A.5/2793, Kls.814, F.5-9, F.128-2).

[306] Hovanisyan. Naxçıvan bölgəsinin azad edilməsindən sonra türk dəstələrinin Amerika xəstəxanasında olan erməni xəstələrə və ətrafdakı kəndlərə kin bəslədiyini və 600 mühacirin Zəngəzur və Nova Bəyazidə getdiyini qeyd edirdi. Erməni idarəetmə sistemi zamanı Naxçıvanda baş verən cinayetləri Türkiyə və Azərbaycan dünyaya səs salanda müəllif hadisələrin şişirdilmiş olduğunu göstərirdi. Naxçıvanlılar yurdlarını düşməndən təmizləmək məqsədilə baş verən hadisələrə hər halda özləri siyasi cəhətdən yaxınlaşmamışdılar.

[307] İzvestiya, 1989, № 4.s.l20.

oradan da 29 iyul axşamı Təbrizə çatdılar.[308] Ordubad bölgəsindəki Əylis[309] ətrafında bir çox döyüşlər baş verdi. 3 gün davam edən döyüşlərdən sonra erməni müqaviməti qırılmış, kəndlər ələ keçirilmişdi. 25 iyuldan etibarən bölgənin mərkəzi müsəlman qüvvələri tərəfindən əhatə olunmuşdu.[310] Bu bölgədəki erməniləri təsirsiz hala gətirməyə çox az vaxt qalmışdı. Naxçıvanın şərqində kiçik döyüşlər baş verdiyi zaman hərbi əməliyyatlar qərbdə Qurd qapısı, Sədərək, Vedi və Dəvəli ətrafında baş verirdi. Xəlil bəyin komandanlığı altında türk könüllüləri Qurdqapısı, Sədərək ətrafındakı erməni qüvvələrini möhtəşəm bir məğlubiyyətə uğratdı. Onların ən böyük silahı olan zirehli qatar zərərsizləşdirildi. Dəvəliyə çəkilən ermənilər burada qala bilməyib və Qəmərliyə getdilər. Böyük Vedi ətrafında olan erməni qüvvələri döyüşləri dayandıraraq Vedinin şimalındakı dağlara çəkilib, burada istehkam yaratdılar.[311] Artıq Naxçıvanı düşməndən qurtaran türk könüllüləri İrəvana yaxınlaşırdı.[312] Məğlubiyyət ermənilər üçün acınacaqlı idi. Hovanisyan yazırdı ki, ağlagəlməz dərəcədə ermənilər itki verdi. 25 zabit ölmüş, 50-ə qədəri də yaralanmışdır, zirehli qatar, 8 paravoz və 100-dən çox yük vaqonu müsəlmanların əlinə keçdi. Ermənilər çox böyük hərbi təchizatı itirmişdilər.[313] Müsəlmanların əlində çoxlu erməni əsiri var idi. Hacıyevə görə onlar 800 əsgərdən və 8 zabitdən ibarət idi.[314] Kazım Qarabəkir Paşa Hərbi Nazirliyə göndərdiyi bir teleqramda göstərir ki, 400-dən çox erməni ölmüş, 5 zabitlə 213 əsgər isə əsirdir.[315]

Belə bir şəraitdə naxçıvanlıların lideri Xəlil bəy 25 iyulda Qəmərlidəki erməni qərargahına 29 yaralı göndərdi və onlara bir ultimatum verdi. Xəlil bəy düşmənçiliyin qurtarmasını istəyir, Naxçıvandakı ermənilərin həyatlarına təminat verir və sülh konfransının nəticələrinə qədər Naxçıvanda və Şərurda bir yerli türk idarəetmə sistemini tanınmasını tələb edirdi.

---

[308] USA NA Paris Peace Conferance 184. 021/85. Hovanisyan. Göstərilən əsər. s.71.

[309] Ermənilər buraya Ordubadla bərabər Goqdan deyirlər.(USANA Paris Peace Conferance185.021/285)

[310] USA NA Paris Peace Conferance 185. 021/285. Hovanisyan. Göstərilən əsər. s.234-235.

[311] ATASE, A.5/2793, Kls.814, İş. 5-9 f, 128-2, USA NA Near Easteren Affairs 867.00/1100 İzvestiya, 1989, № 4. s. 120. Hovanisyan. Ermənistan Respublikası. s.70.

[312] Naxçıvandakı qələbə, ermənilərin məğlubiyyəti qısa bir vaxtdan sonra Türkiyədə və Azərbaycanda bilindi. Kazım Qarabəkir qələbəni dərhal yuxarı təşkilatlara bildirdi. Bu Türkiyənin gündəliyinə daxil oldu. ( ATASE, A. 1/2 kls 82 q. İş. 304-210, f. -55; ATASE, A. 1/1 kls 23, İş 151-92, F. 114, ATASE, A. 1/16, kls. 184, İş 88-19, f.41, “Al bayraq”, 31 avqust 335/1919. №24, “Al bayraq”, 28 avqust 335/1919 №23: Mustafa Kamal Atatürk. Çıxışlar. III.c. vəsiqələr. İstanbul 1967. s.10-18 Naxçıvanın azad olması Azərbaycanda sevinc yaratdı. Məmməd Əmin Rəsulzadə Azərbaycan qəzetində belə yazmışdı: “Naxçıvan Azərbaycanın ayrılmaz parçasıdır, bu bölgənin qəhrəman adamları ana vətənləri ilə birləşmək üçün üsyan hüququndan istifadə etdi. Erməni istilaçı ordusunu qovdu”. (Hovanisyan. Göstərilən əsər. s. 188-189. Hacıyev.Göstərilən əsər. s. 188-189, Hacıyev. Göstərilən əsər, s. 85).

[313] Hovanisyan. Göstərilən əsər. s.71. Kazım Qarabəkir Paşa teleqramda göstərmişdir: Əsirlərin silahlarından başqa ermənilərdən 2 səhra, 2 dağ topu, pulemyot, hərbi sürsatlar, müxtəlif ərzaq, 3 zirehli vaqon, 3 qatar, 5 vaqon, bir vaqon mazut və teleqraf stansiyası alınmışdır. (ATASE, A.l/2, kls. 82, İş 304.210, F. 40-2, ATASE, A. 1/16. Kls 184, İş. 88-19, F. 41).

[314] Hacıyev. Qars və Araz-Türk Respublikası. s.85. Hovanisyan əsirlərin sayını 73-74 göstərmişdi. Yuxarıdakı mənbələrə əsasən Xanlıqlar kəndində 200 əsir alınmışdır.

[315] ATASE, A. 1/16, Kls. 184, D. 88-19, F.41, ATASE, A.1/2, kls.82, D. 304-21, F.40-2.

Hovanisyana görə Xəlil bəy xəbərdarlıq etmişdir ki, əllərindəki əsirlərin taleyi ermənilərin qəbul etdiyi qərarlardan asılı olacaq.[316]

## 6. Ermənistanda təlaş və müttəfiqlərin fəaliyyəti

Naxçıvan regionunda baş verən hadisələrlə əlaqədar çətin vəziyyətdə qalan Ermənistan hökuməti dərhal səfərbərliyə başladı. İngilis podpolkovniki Plovden və İrəvandakı amerikalılar hökumətin bu sahədəki fəaliyyətini dəstəkləyirdi.[317] 23 iyulda hökumətin verdiyi əmrə əsasən İrəvan Eçmiədzin və Sürməli bölgəsindəki 26-28 yaşlı gənclər silaha sarılmaq üçün çağrılırdılar.[318] Səhərisi gün dərc olunan bir elanda isə dövlətin silah və cəbbəxanası olmadığından əsgərliyə çağırılan şəxslərin öz silahları ilə gəlmələri tələb olunurdu. Ancaq istənilən miqdarda qüvvə toplanmırdı. Fərarilər çoxalmışdı. Bununla əlaqədar çox ciddi qərar qəbul edildi və qüvvəyə mindi. Nəticədə istənilən qüvvə müəyyən dərəcədə toplandı. Artıq İrəvana yaxınlaşan türk ordusuna qarşı şəhər mühafizə altına alınmışdı.[319]

Erməni rəhbərliyi bir tərəfdən səfərbərliklə məşğul olur, digər tərəfdən ingilislərin və müttəfiqlərin faktiki yardımını almaq istəyirdi. Bu səbəblə, İrəvandakı ingilis nümayəndəsi podpolkovnik Plovdenin dəstəyini alan Xatisyan ingilis hakim dairələrindən əsgər tələb etdi.[320] Qafqazdakı ingilis komandiri general Kori İrəvandakı nümayəndəliyi mühafizə etmək üçün iki Pencab rotası göndərdi. İngilislər daha artıq qüvvə göndərmək fikrində deyildilər. Bu məqsədlə general Miln Koriyə atəşkəs bağlamağa səlahiyyət vermiş, ermənilərin nəzarət edə bilmədikləri bölgələrdən çıxa biləcəklərini bildirmişdi.

Heç bir vaxt ingilis qoşunu göndərilməyəcək və bu işlərlə məşğul olmayacaqdır.[321]

İngilis komandanlıqlarının belə bir mövqeyi müqabilində İrəvanda olan Amerika nümayəndələri Ermənistana təcili yardım göstərməyə çağırırdılar. Türklər İrəvana yaxınlaşırdılar. Dəmiryol xətti işləmirdi. Müxtəlif yerlərdən erməni mühacirlərinə yardım göstərilməsinə türklər tərəfindən

---

[316] Bu ultimatum cavabsız qalmışdı. (USA NA Paris Peace Conferance, 184.021/85; Hovanisyan. Ermənistan Respublikası. s. 72-74.

[317] Базийан О вопрос захватческой политики США в Азербайджане (1919-1920) с.3.

[318] Bir osmanlı mənbəyi İqdır bölgəsində 15-30 yaşlı gənclərin əsgərliyə çağrıldığını göstərirdi. ( BOA. Dİ. 53-3/15).

[319] Hovanisyan. Göstərilən əsər. s. 74

[320] Xəlil bəyin sülh çağrışı olduğu halda ermənilərin ingilis qüvvəsini tələb etməsi təxminimizə görə ingilislərin sayəsində itirdikləri torpaqları geri almaqdır. Yəqin ki, ingilislər bu niyyəti başa düşmüş və əsgər göndərməmişlər.

[321] Hovanisyan. Göstərilən əsər s.74.

maneə var idi.[322] Bu vəziyyət Ermənistanı və bilavasitə erməniləri məhv olma təhlükəsinə gətirirdi. Qafqazdakı ingilis qüvvələrinin bir hissəsi Ermənistana göndərilsə də, belə bir çətin vəziyyətin öhdəsindən gəlmək üçün kifayət qədər deyildi. Erməni birlikləri də ölkələrini müdafiə etmək üçün kifayət qədər deyildilər. Təcili bir tədbir görülməsə, fəlakət olacaqdı, bu labüd idi. İrəvandakı Fransız nümayəndəsinin fikrinə görə, döyüş sahələrində erməni mühacirlərin və birliklərin vəziyyəti çox ciddi idi. Ləvazimat qurtarmışdı. Ermənilər belə hesab edirdilər ki, müttəfiqlər onları tərk etmiş və xəyanətə yol vermişlər.[323] Nisbətən nizamlı türk qüvvələrinin qələbələri İrəvanda böyük narahatçılıq yaratdı və ermənilərin şişirdilmiş fikirlərinə müttəfiqlər də inanmışdılar. Həqiqətdə isə bu, ölkələri istila olunan adamlarının müstəqillik uğrunda mübarizəsi idi. Yuxarıda dediyimiz kimi, vəziyyəti başa düşən ingilis komandirlər Ermənistana təklif edirdilər ki, nəzarət altında saxlaya bilmədikləri bölgələri tərk etsinlər. İngilislər atəşkəs yaratmaq cəhdi göstərirdilər.

Əslində atəşkəs yaratmağa daha əvvəllər komandirlərinin əmrindən əvvəl Plovden və heyəti tərəfindən başlanılmışdı. 25 iyul 1919-cu ildə leytenant Çarlz ağ bayraq əlində döyüş meydanına girdi, ancaq maşını türk könüllüləri tərəfindən atəşə tutulduqda və çavuşu həbs olunduqdan sonra İrəvana qayıtmaq məcburiyyətində qaldı.[324] İki gün sonra, 27-ci diviziya komandiri polkovnik Çarlz Qatten Bele erməni rəhbərləri ilə görüşdü. Onlardan öyrəndi ki, Xəlil bəy qarantiya vermişdir ki, Şərur və Naxçıvan yerli müsəlmanların nəzarəti altında qalarsa, düşmənçilik sona çatacaq, oradakı ermənilərin təhlükəsizliyi təmin ediləcək. Qəmərlidə Dro və general Avanes Haqverdiyan ilə aparılan danışıqlardan sonra Qatten Bele, Plovden və fransız hərbi nümayəndəsi kapitan Antoni Poidbard 1 avqustda Baş Noraşendə Xəlil bəy tərəfindən qəbul edildilər.[325] Xəlil bəy hadisələrin üsyan deyil, özlərini müdafiə olduğunu dedi. Ermənilərə qarşı bütün fəaliyyətlər dayandırılmışdı, hakimiyyət əsla bir daha xoş qəbul edilməyəcəkdi. Qatten Bele Xəlil bəyin sözlərinə inanaraq Tiflisə qayıtdı. Ermənilərin danışıqlarla və ya silahla Böyük Vedini almaq ehtimalı vardı, amma Şərur və Naxçıvandan qəti surətdə əl çəkməlidirlər.[326] Naxçıvanlıların isə Vedibasardan əl çəkmələri haqqında söhbət belə gedə bilməzdi. Vedi onların həyat sığortası idi. Bu, Qatten Belenin fikri ola bilərdi. Xəlil bəy bu məsələ ilə əlaqədar yazdığı

---

[322] USA NA Paris Conferance 184 021\126, 184 021\85

[323] USA NA Paris Conferance 184 021\85

[324] Daha əvvəllər göstərildiyi kimi naxçıvanlılar onları hiylə ilə erməni idarəetmə sistemi altına salan ingilislərdən yanıqlı idilər. Müharibə yarandığı zaman bu daha bəlli oldu.

[325] ATASE, A.5/2793, Kls.814, D 5-9, F. 128-2

[326] Hovanisyan. Ermənistan Respublikası.s 74-75

bir məlumata görə müttəfiq heyəti müharibənin dayandırılmasını və erməni əsirlərinin qaytarılmasını tələb etmişdi.[327] Vedi məsələsi müzakirə olunmamışdı. Müzakirə olunsaydı belə, Xəlil bəyin mövqeyi gələcəkdə baş verən hadisələrdən bəlli idi. O, milli mənafeyini hər şeydən üstün tuturdu. Buna görə də müttəfiqlərin zabitləri tərəfindən çox sevilmirdi.

Müttəfiqlərin nümayəndələrinə görə problem hələ həll olunmamışdı. Bu məqsədlə İrəvanı tərk etməyi əmr edilən podpolkovnik Plovden getməmişdən əvvəl bir müqavilə bağlamağı nəzərdə tuturdu. Çətinliklərə, yubanmalara baxmayaraq, Plovden avqust ayının ortalarında Naxçıvana gedərək Müsəlman Komitəsi ilə görüşdü.[328] Poidbard, ARA- dan mayor Styvard Forbes və ACRNE[329] - dən doktor Klarens Userdən[330] ibarət həyət ən azı Culfa ilə İrəvan arasında dəmiryolunun işləməsinə ümid edirdilər. Ancaq 3 gün sonra Naxçıvandan naümid qayıtdılar. Naxçıvanda ABŞ və İngiltərəyə qarşı çox sərt danışan Xəlil bəy tərəfindən həm söz, həm fiziki cəhətdən təhqir olundular. Hətta bir neçə saat belə həbs olunmuşdular.[331] Heyətin məlumatına görə Naxçıvandakı yardım işləri müvəffəqiyyətsizliyə uğrayır və müsəlman nümayəndəsi Amerika yardım heyətinin mallarını qaytarmaq istəmirdilər. Türk zabitləri hər qəsəbə və kənddə yerləşdirilmişdi. Osmanlı Ordusundan tərxis edilmələrinə baxmayaraq, bir çoxları Makudan Naxçıvana gəlirdilər.[332] Plovdenə görə türklər çox yaxşı təşkilatlanmışlar.[333]

Müttəfiq nümayəndələri Naxçıvan ilə Ermənistan arasındakı məsələləri bir az öz mənafelərinə uyğun həll etməyə çalışırdılar. İrəvandakı Azərbaycanın diplomatik nümayəndəsi Xan Təkinski hadisələrin gedişindən çox razı idi. Zəhmətinin bəhrəsini görmüş, ermənilər Naxçıvandan çıxarılmışdı. Türk Ordusu İrəvana 20 vers qədər yaxınlaşmışdılar.[334] Ancaq Təkinski bunu kifayətedici hesab etmirdi. O, türk könüllülərinin hücumla İrəvana girmələrini istəyirdi, könüllülərin bunu istəməməsi onu narazı salırdı. Buna

---

[327] ATASE, A.5/2793, Kls.814 D. 5-9, F 128-2.

[328] Nossibian. Naxçıvandakı müsəlman liderini Xan Təkinskini göstərir və Plovdenin onunla görüşdüyünü yazır. Müəllif səhv etmişdir. Naxçıvanda Plovden ilə Xəlil bəy görüşmüşdür. (Nasibian. Armenian Question s.160)

[329] ARA-Amerika Yardım İdarəsi. ACRNE. - Yaxın Şərq Amerika Yardım İdarəsi.

[330] Amerika yardım heyətinin Qafqazdakı baş tibb zabiti doktor Klorens D.User (TJSA NA Paris Peace Conferance 184 021/285) və fransız kapitan Poidebard Türkiyədə bir neçə il missionerlik etmişlər, erməni tərəfdarıdırlar, pis bir ad qazanmışdılar. (USA. NA.Near Eastern Affairs 867 00/1100 ).

[331] Xəlil bəy öz məlumatında belə bir hərəkət etdiyini yazmamışdır. (ATASE, A. 5/2793, Kls. 814, D.5-9, f.128-2).

[332] Müttəfiq nümayəndələri özlərinin acizliyini ört-basdır etmək üçün bölgədə çoxlu türk zabiti olduğunu iddia edirlər. Türk Ordusu böyük bır sıxıntı içində olduğu bir vaxtda Naxçıvana bir çox adamın göndərilməsi mümkün deyildi. Xəlil bəyin və Kazım Qarabəkirin dediklərindən məlum olur ki, regiona 3-5 zabit göndərilmişdir. Əgər daimi zabit axını olsa idi, türk mənbələrində bu axına rast gələrdik. O dövrdə Naxçıvana kim göndərilmişsə hamısı bəlli olurdu.

[333] Hovanisyan. Göstərilən əsər. s.74-75. Nassibian, Armenian Question, s.164

[334] USA NA Paris Peacc Conferance 184.021 02\15.

görə də o, hökumətinə təklif edirdi ki, Zəngəzurdakı məsələləri həll edərək Azərbaycan qüvvələrini Qəmərliyə gətirsinlər. İngilislərin ermənilərə yardım etməyəcəyindən əmin olduğuna görə rəsmi müharibə elan etmədən aparılacaq əməliyyatlar qurtara bilərdi. 3 avqustda göndərdiyi xəbərdə yazılmışdı: "Sizdən xahiş edirəm, zamandan istifadə edin, vaxtı itirməyin. Təkinskinin məlumatları ələ keçirilir, bundan xəbərsiz olaraq göndərdiyi son xəbər müttəfiq nümayəndələrini hövsələdən çıxarmışdı. Onlar Tiflisdəki General Korinin məsələyə qarışmasını tələb etdilər. Və nəticədə Xan Təkinski hökumətinin istəyi ilə 8 avqustda İrəvanı tərk etdi.[335]

Regiona hələ sülh daxil olmamışdı.[336] Erməni hakim dairələri türklərin İrəvan üçün ciddi təhlükə olmaması üçün heç olmazsa Böyük Vedini ələ keçirmək niyyətində idilər. Polkovnik Plovdenin ciddi etirazına baxmayaraq, Dronun komandanlığı altında erməni qoşunu 3 istiqamətdə Böyük Vediyə doğru hücuma keçdilər. Şıxlar, Şirazlı, Qaralar və Reyhanlı kimi kəndlər ermənilərin əlinə keçdi. Ancaq birləşən türk kəndləri və könüllülərin qəhrəmancasına vuruşmaları, əhval-ruhiyyələri pis olan erməni qoşununu məyus etdi. Məğlub olan ermənilər hücumu dayandıraraq geri çəkildilər.[337] Bir Azərbaycan mənbəyinə əsasən deyə bilərik ki, ermənilər 400-ə qədər itki vermişdi.[338]

Artıq ermənilər üçün bir müddət də olsa, Naxçıvan macərası qurtarmışdı.[339] Çünki onlara hədiyyə edilən bir bölgədə, Kaçaznuninin dediyinə görə, silah gücünə belə, hakimiyyət qura bilməmişdilər.[340] Müttəfiq nümayəndələri də ermənilərin röyasının qurtardığına inanırdılar. 22 avqust tarixli bir Amerika məlumatında deyilirdi: 1. Erməni hökuməti üçün Naxçıvan bölgəsini işğal etməyə təşəbbüs qəti surətdə imkansızdır. 2. Qaçqınların öz yerlərinə qayıtmalarını düşünmək giclikdir. 3. İndi erməni və Ermənistan üçün ən yaxşı şey, onu öz idarəetmə sisteminin hüdudlarını bilməsidir.[341] Bu məsələ ilə əlaqədar bir başqa müttəfiq nümayəndə yazırdı: "Bu yay Naxçıvanda baş verən hadisələr bir daha göstərmişdir ki, Ermənistan Cümhuriyyəti

---

335 Hovanisyan. Ermənistan Respublikası. s.76.

336 USA NA Near Parıs Peace Conferance 184.021\185

337 USA NA Eastern Affairs 867.00/1100. İzvestiya, 1989, İzvestiya, 1989, №4, s. 120. Hovanisyan. Göstərilən əsər. s.77

338 Известия 1989, № 40, 120

339 Ermənilərin Naxçıvan arasında dağıtma, yıxma var idi. Kaçaznuni də bunu etiraf edirdi: Biz Ağababa kimi heyvandarlıq mərkəzini, Şərur kimi taxıl anbarını, Vedibasar kimi bağlı, bostanlı, meyvəli kəndləri darmadağın etdik.(Качазнуни. Болше нечего делатъ с. 7 Əliyev. Qırmızı Tabur, s.21).

340 Kaçaznuni. Göstərilən əsər. s.33

341 USA NA Paris Peace Conferance 184.021/85.

şəxsən öz gücü ilə müsəlman bölgələrini hakimiyyətləri altına salmağa qadir deyildir”.[342]

Ermənilər Naxçıvanda hakimiyyətlərini davam etdirə bilməyib məğlub oldular, məyus halda geri çəkildilər, türklər isə vətənlərini azad etdiklərinə görə çox şən görünürdülər. Əhval-ruhiyyələri çox yüksək idi. Onların zəfərləri Qafqazdakı bütün müsəlmanlara təsir etmişdir. Araz vadisi yeni bir dövrə girirdi. Əvvələr olduğu kimi Naxçıvan və ətrafında Milli Şura Hökumətləri yaradılmağa başlamışdı.[343]

## C. Naxçıvanda Amerika Valiliyinin yaradılması planı
## I. Amerikalıların Qafqaza gəlməsi. Naxçıvanla bağlı fəaliyyətlər və siyasətləri

Birinci Dünya müharibəsi qurtardıqdan sonra Qafqazdan çıxan Osmanlı qoşununun yerini ingilis qüvvələri almağa başlamışdı. Həmin dövrdə müttəfiqlərin ən güclüsü ABŞ Qafqazda hərbi qüvvə saxlamaq əvəzinə çox təsirli yardım təşkilatları qururdu. Yardıma möhtac olanlara, xəstələrə və kimsəsiz uşaqlara kömək etmək üçün lazımi işlər görmək məqsədilə bir çox amerikalı Cənubi Qafqazın müxtəlif yerlərinə gəlmişdilər. Əsas işləri erməni qaçqınlarına yardım etmək olan Amerika heyəti, az da olsa, möhtac müsəlmanları və yetimləri də yaddan çıxarmırdılar.[344] Bu səbəblə İqdır, İrəvan, Eçmiədzin, Axılkələk və Naxçıvan kimi bölgələrdə xəstəxanalar, pulsuz yeməkxanalar, yetimxanalar açırdılar.[345] İngilislər Naxçıvana gəldikdən sonra Amerika yardım heyətinin çalışma sahəsinə Naxçıvan da daxil edildi. Əvvəlcə 200 nəfərlik uşaq evi açıldı. Xəstəxana açmaq üçün işə başlanıldı. Amerika heyəti gələcəkdə Naxçıvanda fabrik açmağın nəzərdə tutulduğunu bildirirdi.[346] Amerikalılar Naxçıvanda fabrik açmadılar, ancaq bir xəstəxana təşkil etdilər. Bununla bərabər ətraf kənd və qəsəbələrdə yardım işləri davam edir, ehtiyacı olanlara əllərindən gəldiyi qədər kömək edirdilər. Türk əhalinin ermənilərə qarşı apardığı müstəqillik mübarizəsi zamanı Naxçıvandakı Amerika heyətinin fəaliyyəti dayandı. Mürəkkəb şəraitdən çəkinən Amerika yardım heyətinə mənsub 2 qadın, xəstəxana və uşaq evini

---

[342] Documents on Britisd vol. 4 c. 965.

[343] BAO BEO 34597. ATASE, 1/2 Kls. 108, s. 391-151. F. 11-4, Albayraq, 31 avqust 335.1919 №24. İzvestiya, 1989, №4. s. 121. Qarabəkir. İstiqlal Hərbimiz. s. 391

[344] Kazım Qarabəkir paşa göstərirdi ki, amerikalılar Ermənistanda da, Gürcüstanda da uşaqlara və kimsəsizlərə yardım edir, təlim-tərbiyələri ilə məşğul olurlar. Müsəlman uşaqları da onlar arasında din və millətlərini itirir, hətta onlar xristian adlar ilə çağırılırdı. (Qarabəkir. İstiqlal hərbimiz. s.277)

[345] USA NA Paris Peace Conferance 184 021/186,184 021/85,184 021/21 29 avqust 1335/1919. №2 827."Təsviri-Əfkar" 2 oktyabr 1919. №2858. "Milli idarə" 8 dekabr 1919. №15."Yeni dünya" 11 sentyabr 1920 №32.

[346] Azərb. Cüm. MDƏYTA.f. 894.0n.10. İş 70.1. 5.

müsəlmanlara verərək 29 iyulda Təbrizə getdilər.[347] Yardım heyətinə aid bir çox mallar Naxçıvanda qalmışdı. Ermənistan ilə Naxçıvan arasında sülh danışıqları zamanı heyətlər bu malları istədilər, cavab rədd edildi.[348] Bu dövrdə ingilislərin Ermənistandan və Naxçıvandan çıxması nəticəsində müttəfiqlər əleyhinə bir boşluq yaranmışdı. Belə məlum olurdu ki, Amerika Qafqazda yeni bir qüvvə olmaq istəyirdi. Ancaq, o hərbi bir qüvvə əvəzinə yardım işlərinə arxalanan siyasi bir qüvvə olmaq niyyətində idi. Bu məqsədlə regionu yaxından tanımaq istəyən amerikalılar Naxçıvan və onun ətrafında baş verən hadisələrlə bağlı tez-tez məlumat yazır, yuxarı təşkilatlarına göndərirdilər.[349] Naxçıvanda erməni ordusunun məğlub edilməsi və türk qüvvələrinin İrəvana yaxınlaşmaları müttəfiq nümayəndələri hərəkətə gətirdi. Belə ki, Amerika yardım cəmiyyəti rəhbərlərindən Stivart Forbes və doktor Klarens D.User siyasi danışıqlarda iştirak etmək üçün Naxçıvana Xəlil bəyin yanına gəldilər.[350]

Amerikalıların Qafqazda nüfuz qazanmaları 1919-cu ilin iyun ayında Paris Sülh konfransı tərəfindən amerikalı polkovnik Vilyam Haskelin Ermənistanın Ali komissarı təyin edilməsi ilə başladı.[351] Avqust ayının ortalarında Qafqaza gələn Haskel üzdə müttəfiqlərin adını daşısa da, əslində Amerika siyasətinə uyğun işə başladı. Onun Amerika lehinə və siyasətinə uyğun olaraq, gördüyü ən mühüm iş, şübhəsiz, Naxçıvan, Şərur, Dərələyəz bölgələrini neytral zonaya çevirmək və oraya Amerika valisi təyin etmək sahəsindəki fəaliyyəti idi.[352]

Amerikanlar Haskelin bu fəaliyyətinin regiondakı qanı dayandırmaq və yoxsullara yardım etmək məqsədi güddüyünü göstərsələr də,[353] biz bunu Amerkanın Qafqazda hərbi baza əldə etməsi sayırıq. Amerika heç bir dövlətə tabe olmayan, başqa bir sözlə desək, sahibsiz strateji bölgədə valilik (qubernatorluq) yaradaraq həm İran, Azərbaycan, Gürcüstan və bilavasitə

---

[347] USA NA Paric Peace Conferance 184 021/85.Hovanisyan. Ermənistan Respublikası.s.71.

[348] Hovanisyan.Göstərilən əsər.s.75

[349] USA NA Paric Peace Conferance 184 021/10.184 021/17. 184 021/216. USA NA New Eastern Affairs 867.00/1100. 867.00/1047.

[350] Hovanisyan. Göstərilən əsər. s.75.

[351] V.N.Haskell ABŞ İngiltərə, Fransa və İtaliya hökumətləri adından ali komissar təyin edilmişdir. (Yerasimos. Millətlər və sərhədlər. s.325; Baziyants..A вопросе Захватнической политика США (1919-1920) в Азербайджане с.27. İ.Musayev, 1919-cu ildə Naxçıvan bölgəsində vəziyyət və ABŞ-ın siyasəti (Nəşr olunmamış tezis) s. 1.

[352] Azər.Cüm.MDƏYTA. f.894. 0n. 10 s.94.v.9-15.Azər.Cüm. MDƏYTA. f.970 on.l.s.93, v.3-4. Боръба за победу советской власти в Азербайджане. Документи и материалы. №288. USA NA Paris Peace Conferance 184.021/305; Musayev. "ABŞ-ın siyasəti".

[353] USA NA Paris Peace Conferance 184 021/85.USA NA Near Eastern Affairs 967.00/1047 Haskel axan qanları dayandırmaq və yoxsullara yardım etməyi düşünürdüsə, o zaman Zəngəzurda belə bir idarə yaratsa idi, yaxşı olardı. Bu vaxt Zəngəzurda vəziyyət mürəkkəb idi, daim mübarizələrə səhnə olurdu. Ancaq Zəngəzurun Naxçıvan kimi strateji və ekonomik xüsusiyyəti yoxdur və bu bölgədə ermənilərin fəaliyyəti mövcud idi.

Hindistan yolunda özünə nüfuz sahələri əldə etmək və həm də neft mənbələrinə yaxın olmaq istəyirdi. Əslində standart Neft Şirkəti, Standart Oil Kompaniyası nə vaxtdır ki Qafqaz nefti ilə maraqlanırdı.[354] Bu səbəblə 22 iyulda Lord Qurzon Qafqaza bir ingilis komissarı təyin etməyi qərara aldı.[355] O, Tiflisdə yaşayacaqdı. İngilis kəşfiyyatçıları da amerikalıların Naxçıvandakı fəaliyyəti ilə maraqlanır,onları izləyirdilər.[356]

Ermənistan da mandatlı dövlət idi. Buna görə də general Harbardın sədrliyi ilə ilk əvvəl araşdırma səfəri təşkil edən Amerika idarəetmə[357] sistemi bəlkə də qəbul edəcəyi[358] Ermənistan mandatı ilə birgə öz valiliyini yaratmış Naxçıvanı birləşdirmək fikrində ola bilərdi.[359] Yəqin ki, Naxçıvandakı müsəlman liderlər və bilavasitə Xəlil bəy belə bir fikri ağıllarına gətirmişdilər və buna görə də Amerika təklifini qəbul etmədilər.[360] Onlar çox yaxşı bilirdilər ki, Qafqazdakı Amerika Yardım Missiyası erməni hökumətini və ordusunu açıqca dəstəkləyir, amerikalıların ifadəsi ilə desək, yardım heyətlərindən hərbi sursat və s. alan erməni ordusu türklərə zülm edirdi.[361] Bundan başqa, Naxçıvanın nüfuzlu şəxsləri Haskelin Ermənistan lehinə, türklər əleyhinə etdiyi çıxışları eşidirdilər.[362] İngilislərdən aldıqları dərsi yaddan çıxarmamışdılar. Haskelin Ermənistana ali komissar təyin olunması, Harbordun Qafqaza səyahətı amerikanların Naxçıvana gəlmələrini xeyli artırmışdı. Erməni mandatı gündəmdə olan Amerika üçün Naxçıvan çox əhəmiyyətli idi. Buna görə də, bir tərəfdən bölgədə yardım işləri davam edir, digər tərəfdən də doktor G.D.User və M.Karlton Ayernin 17 sentyabrda Naxçıvana

---

354 Yerasimos. Millətlər və sərhədlər. s.325 Dəniz Bilgən. (Sivas Konqresində iştirak edən amerikalı Loüs Edgan Brovne (Nəşr olunmamış dok. dis.) Ərzurum, 1996. s.234). "Nyu-York Tayms" qəzetində çıxan Qafqaz neftini zəbt etmək müttəfiqlərin vəzifəsi olduğu göstərilir. (Базиянс. А вопросе Захватнической политика США (1919-1920) в Азербайджане s.24)

355 Yerasimov. Millətlər və sərhədlər .s.325

356 USA NA Near Eastern Affairs 867.00/1047.

357 Seçil Ağgün, General Harbırdın Anadolu səyahəti və (Erməni məsələsinə dair) məlumat (Qurtuluşun savaşı başlanğıcında). İstanbul 1981 56-57. 68,75.

358 Amerika heyəti Ermənistanda mandat qəbul etməyi təklif etmiş, hökumət də bunu qəbul etmirdi, fəaliyyətlərini dayandırmışdı. (A1bayraq, 12 fevral, 336/1920. №97.Milli hakimiyyət. 8 iyul 1920/1936. №44. A. Raевски. Мусаватское Правительство на Версалской Конференции. Б.1931, с.67.

359 22 iyulda Ermənistan məclisindəki çıxışda Haskel ingilislər tərəfindən qoyulmuş sərhədə hücum etdiyindən Azərbaycanı hədələyirdi. O, Naxçıvan məsələsində mövqeyini gizlətməmişdi. ("Təsviri Əfkar". 11 sentyabr 1919/1335. № 2837.) 29 avqustda Azərbaycandakı çıxışında Haskel Ermənistandakı çıxışını təkzib etmişdir, ancaq sonralar Ermənistan lehinə çıxış etmişdir. (Azərb. Cüm. MDƏYTA. F. 894 On.10. D-94. L-9-15)

360 ATASE, A. 5/2793, kls.814, s.5-9, f. 128-3, USA NA Near Eastern Affairs 867.00/1100. 867.00/1047. Hovanisyan. Ermənistan Respublikası.s.255. İradeyi-Milli, 24 noyabr 1919

361 USA NA Near Eastern Affairs 867.00/1047. "Təsviri-Əfkar" qəzetinin 13 aprel 1920-ci il tarixli nömrəsində polkovnik Haskelin işlədiyi müddət ərzində Amerika yardım heyətinin Ermənistanda 80 uşaq evi, 36 xəstəxana yaratdıqlarını, 4.000 yetim və 360.000 mühacirin bütün ehtiyacını öz üzərinə götürdüklərini yazmışdılar. (Təsviri-Əfkar, 13 aprel 1336/1920 № 3024.)

362 Təsviri-Əfkar, 11 sentyabr 1919. № 2837 Haskel Qafqazda olduğu müddət ərzində hər zaman Ermənistan xeyrinə çıxışlar etmiş, hətta Qarsı Ermənistanın mərkəzi kimi görmək istədiyini bildirmişdir. (ATASE, A 1/2, Kls 108. D.391-151, f.51)

səyahəti başlayır. Onlar yardım işləri, Naxçıvanda Amerika idarəetmə sisteminin qurulması və bölgədəki ermənilərin vəziyyəti ilə maraqlandılar.[363] Həmin dövrdə rəsmi heyətlərdən başqa bir çox agentlər də Naxçıvan və Təbrizə gəlir, məlumatları gizli olaraq Haskelə göndərirdilər.[364] Harbord heyətinə mənsub üzvlər Naxçıvanın səlahiyyətli şəxsləri ilə danışıqlar aparırdı.[365] General Van Hörn Mosli və kapitan Qustav Vilyart Naxçıvana gələrək Xəlil bəy başda olmaqla digər türk liderləri ilə görüşdülər.[366] Müsəlman liderlər qan tökülməsinin səbəbini pis erməni idarəetmə sistemi ilə bağlayır və əhalinin 90% müsəlmanlar, 10%-i ermənilər olduğu halda niyə hökumətlərinin başında erməni durduğunu başa düşmədiklərini bildirir və tədqiqatlar aparmaq üçün heyət göndərilməsini təklif edirdilər. Eyni zamanda onlar Naxçıvanda bir çox siyasi məsələlərlə məşğul olan amerikalı missiyanın regionu tərk etməsini tələb edirdilər. Harbord heyəti Naxçıvan səfərindən xeyli razı qayıtdılar.[367]

## 2. Naxçıvanda bitərəf bölgənin elanı və Amerika valiliyinin yaradılması cəhdləri

İyul ayında baş verən döyüşlər nəticəsində erməni idarəetmə sistemi Naxçıvanda ləğv edilmiş, əhali yenidən müstəqilliyini qazanmışdı. Xəlil bəy Naxçıvanın Azərbaycanla birləşməsini məqsədəuyğun hesab etdiyindən Ordubadda olan Azərbaycan nümayəndəsi Səməd bəy Cəmillinskini Naxçıvana gətirib vali təyin etdi. Özü də Naxçıvan regionunun ümumi komandiri olan Xəlil bəyin müavini isə milis komandiri Kalbalı xan idi.[368] Naxçıvanda yeni idarəçilik yarandığı günlərdə Ermənistanın Ali komissarı təyin olunan polkovnik Vilyom N.Haskel Qafqaza gəldi. Ermənistanın Ali komissarı təyin olunmasına baxmayaraq Tiflisdə qərargah yaradan Haskel[369] Naxçıvan ətrafında bitərəf bölgə yaratmaq və burada bir Amerikan valiliyi təsis etməyi nəzərdə tuturdu.

Beləcə həm axan qanlar dayandırılacaq, həm də yoxsullara rahat bir şəkildə yardım ediləcəkdi.[370] Planını gerçəkləşdirmək istəyən Haskel 28

---

[363] USA NA Paris Peace Conferance 184.021/285 USA NA Near Eastern Affairs.867 00/1100, Hovanisyan, Göstərilən əsər, II. 209-204.

[364] USA NA Paris Peace Conferance 184.021/286

[365] General James Harbord Report of the Amerikan Millitary Mission to Armenia, Washinqton. 1920.5.3-4.

[366] Xəlil bəy, general Moslinin verdiyi icazəyə əsasən Naxçıvana gəldiyini göstərir. (ATASE, A.5/2793. Kls. 8/4, D.5-9, f. 128-2)

[367] USA NA Paris Peace Conferance 184.021.02/15. ATASE A.5-2793 Kls 814, D.5-9, F. 128-2,128-3. Mosely Mandatory Over Armenia s. 18-19. Hovanisyan. Göstərilən əsər.s.349

[368] ATASE, A.5/2793, Kls. 814, D.5-9, f. 128-2. Qarabəkir. İstiqlal müharibəmiz. s.304-305, Hacıyev. Qars və Araz-Türk Respublikası.s.85. Hovanisyan. Ermənistan Respublikası.s.105.

[369] Qafqaza gələn general Harbord Haskelin Tiflisdə qərargah yaratmasına çalışmışdı. Hovanisyan. Göstərilən əsər. s. 349

[370] USA Na Paris Peace Conferance 184.021/85. USA Na Near Easteren Affaris 867.00/1047.

avqustda Bakıya gəldi. Məqsədi Azərbaycan hökuməti ilə görüşüb onlardan razılıq almaq, köməkliklərini istəməkdi. Buna görə də 29 avqustda polkovnik Haskel ilə Azərbaycan hökumətinin rəsmi şəxsləri arasında danışıqlar aparıldı.[371] Hər iki tərəf bu məsələlərdə razılığa gəldilər.

1. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq valilik yaradılacaqdır (general-qubernatorluq).
2. Polkovnik Haskel tərəfindən, Amerika vətəndaşları olan vali (qubernator) təyin ediləcəkdir.
3. Bərabər, gizli səsvermə yolu ilə seçilən Milli Şuralar tərəfindən qəzalar idarə olunacaqdır.
4. Valilik ərazisində olan məhkəmə, dəmir və şose yolları, poçta və teleqraf, milli təhsil Şuranın səlahiyyəti altındadır.Ancaq valilik tərəfindən nəzarət ediləcəkdir.
5. Valiliyin təyin etdiyi Şura tərəfindən çoxluq təşkil edən millətin nümayəndələrindən yerli idarə təşkil olunur.
6. Bütün valilik ərazisində mətbuat, nəşr, vicdan, fikir, kommunikasiya və şəxsiyyətin toxunulmazlığı kimi azadlıqlar elan ediləcək.
7. Azərbaycan parlamenti tərəfindən valilik büdcəsi təmin ediləcək, çatışmayan hissə isə Azərbaycan xəzinəsi tərəfından təmin ediləcək.
8. Valilik bölgəsində rəsmi pul Azərbaycan pulu sayılacaq.
9. Vali seçkilərə qədər hüquqi asayişi qorumağa kömək etmək məqsədilə Azərbaycandan 2 məsləhətçi dəvət edəcəkdir.
10. Bu bölgədə salınacaq Bakı-Culfa dəmiryolunun inşaat sahəsi Azərbaycanın nəzarəti altında olacaqdır.
11. Əhalidən silahlar yığılmayacaq.
12. General qubernatorluğun ərazisində torpaq və siyasi məsələlərlə əlaqədar yaranan bütün cinayətlərə ümum əfv elan olunacaq.[372]

29 avqust tarixli müqavilənin şərtlərindən Azərbaycanın Naxçıvan üzərində hüquqi varlığı bəlli olurdu.Yəni Haskel tərəfindən Naxçıvan, Şərur və hətta o dövrdə böyük bir hissəsi Ermənistanın əlində olan Dərələyəz bölgəsinin hüquqi cəhətdən Azərbaycana aidliyi, bu qəzalardakı əhalinin əksəriyyəti türk olduğu qəbul edilmişdir. Ancaq Tiflisə qayıdan Haskelin yuxarıdakı şərtlər çox xoşuna gəlmədi, Ermənistan hökumətinin narazı qalacağını düşünərək təsdiq olunmuş maddələrin bir hissəsini ləğv etdi. Yeni bir şərtlər yazdı və 21 maddədən ibarət layihəni imzalayaraq 1 sentyabrda Azərbaycan və Ermənistan hökumətlərinə göndərdi. Haskelin təsdiq üçün göndərdiyi yeni layihə bu maddələri əhatə edirdi:

---

[371] Azərb.Cüm. MDƏYTA f. 894. On 10. s.29. 1.9-5. Musayev. ABŞ-ın siyasəti. s.2

[372] Azərb.Cüm. MDƏYTA f. 894. On, s.146, 1.7, Azərb.Cüm. MDƏYTA f. 970. On, 1, D. 93, 1.5; Musayev, ABŞ-ın siyasəti s.2; Hacıyev, Qars və Araz-türk Cümhuriyyəti, c. 87

1. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında bitərəf bölgə yaradılmalıdır.
2. Bitərəf bölgəni polkovnik Haskell tərəfindən təyin edilən bir amerikalı vali idarə edəcəkdir.
3. Yerli idarəçilik müsəlmanların əlində olacaq, erməni əhali əksəriyyət təşkil etdiyi yerlərin idarə olunmasını amerikalı vali təyin edəcəkdir.
4. Azərbaycan və Ermənistan hökumətləri dərhal qoşunlarını bitərəf bölgədən çıxarmalıdır. Bu birliklər ancaq amerikalı valinin istəyi ilə geri qaytarıla bilər.
5. Azərbaycan və Ermənistan hökuməti yerli əhali arasında olan və onları qızışdıran casus nümayəndələri geri çağırmalıdır.
6. Azərbaycan və Ermənistan hökumətlərinin vətəndaşları əleyhinə 1 sentyabr 1919-cu ilə qədər törədilmiş bütün cinayətlər üçün ümumi bir əfv elan olunacaq. Ancaq bu əfv ingilis hərbi iqtidara qarşı törədilmiş cinayətlərə aid deyildir.
7. Bitərəf bölgədə yerli işçilər amerikalı vali tərəfİndən təyin ediləcək. Vali imkan daxilində yerli işçilərin seçki gününü müəyyənləşdirəcəkdir. Bitərəf bölgələrdə rüşvət və digər səbəblərə görə günahkar sayılan işçiləri vali işdən çıxarmağa səlahiyyətlidir.
8. Azərbaycan hökuməti bitərəf bölgədə və İrəvandakı türk əhalini sakitləşdirmək üçün bütün nüfuzundan istifadə edəcəkdir.
9. Ermənistan hökuməti bitərəf bölgədə və Zəngəzurda erməni əhalini sakitləşdirmək üçün bütün imkanlarından istifadə edəcəkdir.
10. Ermənistan və Azərbaycan hökuməti öz vətəndaşları olan müsəlman və ermənilərin həyatlarını və mallarını qorumalıdır.
11. İrəvan və İran sərhədi arasında, Şərur, Dərələyəz və Naxçıvan bölgələrindən keçən dəmiryolu və teleqraf xətti təmir olunacaq və istifadəyə veriləcəkdir. Dəmiryolu amerikalı valinin nəzarətində olacaq və valinin qərarı ilə türk və erməni kadrlarının işləyəcəyi xətt Ermənistan dəmiryolu şəbəkəsinin bir hissəsi kimi fəaliyyət göstərəcəkdir. Millət fərqi olmadan dəmiryolu bütün əhaliyə xidmət edəcəkdir.
12. Azərbaycan hökuməti bütün yolları yoxlayacaq, Şuşa və Gorusdakı Yaxın Şərq Yardım Komitəsinin işlərini asanlaşdıracaq.
13. Azərbaycan hökuməti ölkəsində olan və müttəfiq Yüksək Komissarlığı tərəfindən qayıtmaları zəruri hesab edilən erməni qaçqınların Ermənistana göndərilməsi üçün bütün tədbirləri görəcəkdir.

14. Böyük Vedinin müsəlman əhalisi Amerika valisinin nəzarəti altında bitərəf bölgədə müəyyənləşən bir yerə köçürüləcək əhaliyə bütün mallarını götürməyə icazə veriləcək.
15. İnşa edilən Bakı-Culfa dəmiryolu Azərbaycanın nəzarətində olacaq və bunun üçün çətinlik yaradılmayacaq. Dəmiryolu boyu və bitərəf bölgə ilə Ermənistan arasında sərhəd Qurd Qapıları ətrafında olacaqdır.
16. Bitərəf bölgənin idarə edilməsi üçün lazımi olan pul yerli vergilərdən ödəniləcək. Amerika valisinin rəhbərliyi zamanı Azərbaycandan əlavə heç bir pul tələb olunmayacaq.
17. Tərəfsiz bölgədə məktəblər, məbədlər əvvəllər olduğu kimi yenə fəaliyyət göstərəcəkdir.
18. Bitərəf bölgədə bütün ayinlər sərbəstdir.
19. Bitərəf bölgədə vicdan azadlığı olacaq.
20. Bitərəf bölgədə Amerika valisinin əmri ilə fərq qoyulmadan hamıya yardım ediləcək, imkan daxilində Azərbaycanın yoxsul bölgələrinə də maddi yardım göstəriləcək.
21. Bu şərtlərin iki surətini sizə göndərirəm. Onların birini imzalayaraq mənə göndərmənizi xahiş edirəm. İkinci surət icra üçün sizdə qalsın.[373]

Haskel 29 avqustda Azərbaycan səlahiyyətliləri ilə razılaşdığına baxmayaraq, mətnə yeni maddələr əlavə etmişdi. Azərbaycanın Naxçıvandakı hüquqi statusu qaldırılmış, bölgə ilə heç bir əlaqəsi qalmamışdı, ancaq Ermənistan birbaşa işə qarışırdı. Ermənistanın hücumlarının qarşısını kəsən, Naxçıvanı hücumlardan qoruyan qəhrəman vedililər öz yurd-yuvalarından çıxarılmaq və beləcə Ermənistan üçün əlverişli şərait yaratmaq niyyətində idilər. Polkovnik Haskel sanki bu yeni maddələri Ermənistanın mənafeyini qorumaq, onların avantürist planları üçün yazmışdır.

Haskelin Ermənistan üçün bu təşəbbüslərindən başqa, erməni liderlərinin öz təklifləri var idi. Buna görə də bitərəf bölgə ilə əlaqədar maddələri müzakirə etmək üçün Xatisyan və Ruben Ter-Minasyanın sədrliyi ilə erməni heyəti 6 sentyabrda Tiflisə getdi. Ermənilərin şərtləri bunlar idi:

1. 1918-ci ildəki türk idarəetmə sistemi zamanında belə Naxçıvana aid olmayan Dərələyəzi bitərəf bölgəyə daxil etmək məqsədəuyğun deyildir. 2. Bitərəf bölgədə Ermənistan imtiyazlı tərəf kimi tanınmalıdır. Çünki bu bölgə Ermənistan üçün çox vacibdir. Azərbaycan, Paris Sülh Konfransının

---

[373] Azərb. Cüm. MDƏYTA. F.970 Op.1. D.93 L.3-4. ATASE, A.1/2, Kls.89, D.142-327, F.49-1-7; Albayraq, 2 noyabr 1919, №41; A.Şəmsəddinov, Y.A. Bağırov. Bir qaragün dostluğu. Qurtuluş müharibəsi illərində Türkiyə-SSRİ əlaqələri. İstanbul 1979, s.145. Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 87-88; Musayev. ABŞ-ın siyasəti. s.3

qərarlarını qulaqardına vurmuş, bu da bölgədə üsyana səbəb olmuşdur. 3. Azərbaycanın bölgəyə pul göndərməsinə icazə verilməməlidir. 4. Bakı-Culfa dəmiryol xəttinin Azərbaycan tərəfindən inşasına icazə verilməməlidir. 5. Zəngəzur erməni bölgəsidir, toxunulmamalıdır. Qısacası, Ermənistanın irəli sürdüyü planı Dərələyəz istisna olunmaqla qəbul ediləcəkdi. Bundan başqa Bakı-Culfa dəmiryolu məsələsində hər iki tərəf arasında (Azərbaycan-Ermənistan) müqavilə bağlanmalı idi. İrəvan-Culfa dəmiryolunun erməni dəmiryolları idarəsi tərəfindən işlədilməsi üçün plan yenidən gözdən keçirilməli idi.

Haskel erməni heyətinin təkliflərini məqsədəuyğun saydı. Haskel tərəfindən şərtlərin qəbul edilməsinə sevinən erməni heyəti 14 sentyabrda İrəvana qayıtdı,[374] bitərəf bölgə ilə əlaqədar hazırlanan layihə Azərbaycan əleyhinə yenidən dəyişdirilirdi.[375]

Haskelin ermənilərin təklifləri əsasında hazırladığı yeni layihədə əvvəlki plandan fərqli məqamlar bunlardır: Dərələyəz bitərəf bölgə sayılmayacaq.

Böyük Vedi əhalisi yerində qalacaq, ancaq silahları yığılacaq.[376]

Bakı-Culfa dəmiryolunun bitərəf bölgədə olan hissəsi Azərbaycan-Ermənistan arasında imzalanacaq müqavilə əsasında yaranmış xüsusi bir komissiyanın nəzarəti altında olacaqdı.[377] Haskel hazırladığı yeni şərtlərin qəbul edilməsi üçün 27 sentyabrda və sonra 30 sentyabrda Azərbaycan Xarici İşlər Naziri M.Y.Cəfərova bir teleqram göndərdi. Naxçıvan və Şərurda bitərəf bölgə yaradılması qəbul edilməzsə, polkovnik Haskel general Denikinin nəzarəti altındakı bölgə ilə Azərbaycan arasında bitərəf bölgə yaratmaq üçün çalışmayacaq və bu yaxınlarda gedəcəyi Parisdə Azərbaycanın digər məsələləri ilə maraqlanmayacaq. Bundan başqa Azərbaycan Sülh Konfransı tərəfindən tanınmaq istəyirsə, şərtləri qəbul etməli idi.[378] Planını qəbul etdirmək məqsədilə Azərbaycan hökumətini təzyiq altına almaq istəyən polkovnik Haskel həmin gün bitərəf bölgə ilə əlaqədar yeni planı Tiflisdəki Azərbaycan Hərbi Naziri Səməd bəy Mehmandarova təqdim etdi. 27 sentyabrda bitərəf bölgə ilə əlaqədar maddələr Bakıya bildirilmişdi.[379]

---

[374] Hovanisyan. Ermənistan Respublikası. s.200-202.

[375] USA NA Near Eastern Affairs 867.00/1047.

[376] Haskelin Azərbaycan hökumətinə göndərdiyi 27 sentyabr tarixli planda Vedi məsələsi yer almamış, ancaq amerikalı vali istədiyi şəxsləri silahdan məhrum etmək səlahiyyətinə sahibdir. (Azərb. MDƏYTA, F-970. Op.1. D. 93, L-6).

[377] Azərb.Cüm. MDƏYTA f.970 op. 1 s.93 v.6. Hovanisyan. Göstərilən əsər. s.202.

[378] Azərb. Cüm MDƏYTA f 970 on 1. c.93 v.8. Боръба за победы Советской Власти в Азербайджане. Документы и материалы. е.№442 .286. Hacıyev. Qars və Araz-Türk Respublikası. s.91. Musayev. “ABŞ-ın siyasəti” Baziyans. О вопросе захватнической политике США в Азербайджане (1919-1920) s.30

[379] Azərb. Cüm. f.970 op l.Sənəd.93.v.6. Боръба за победы Советской Власти в Азербайджане. Документы и материалы.342.286. Hacıyev. Göstərilən əsər. s.90; Musayev. ABŞ-ın siyasəti s. 3-4.

Azərbaycan hökuməti böyük bir narahatçılıq içində idi. Əvvəlcə Bakıda razılaşdırılmış şərtlər getdikcə Azərbaycan əleyhinə dəyişdirilirdi. Sentyabr ayının əvvəllərində Tiflisdə olan Azərbaycan Nazirlər Şurası sədri Nəsib Yusifbəyov Haskelin erməni heyəti ilə razılaşdığı şərtlərə kəskin şəkildə etirazını bildirdi. Nəsib bəy deyirdi: "Azərbaycan pulu Naxçıvanda işlədilməli, Dərələyəz bitərəf bölgəyə daxil edilməli, Bakı-Culfa dəmiryolunun inşaatı haqqından təzminat verilməyəcək, bundan başqa amerikalı rəhbər ancaq xarici nəzarəti təmin etməli, daxili işlər yerli rəhbərliyə həvalə edilməli, Ordubad bitərəf bölgəyə daxil edilməyəcək, Azərbaycan idarəetmə sisteminə veriləcək. Əgər bu şərtlər qəbul edilərsə, o zaman Dərələyəz bitərəf bölgəyə daxil edilməyəcək. Müzakirələr xeyli uzandı və nəticə əldə edilməyincə Nəsib bəy Bakıya qayıtdı. Haskel ümidini itirirdi və Xatisyana bildirdi ki, hərbi qüvvə olmadan razılıq əldə etmək çətin olacaq.[380] Ancaq Haskelin yardımına istinad edəcəyi bir hərbi qüvvə yox idi. Buna görə də o, Azərbaycan hökumətini şantaj etməyə başladı. Yuxarıda qeyd etdiyimiz 26 sentyabr tarixli teleqramı Bakıya göndərdi, sonra Tiflisdə olan Azərbaycan Hərbi naziri Səməd bəy və Gürcüstandakı Azərbaycan səfirinin köməkçisi F. Vəkilov ilə görüşdü.

F.Vəkilovun 27 sentyabrda hökumətinə göndərdiyi teleqrama görə danışıqlar 26 iyulda keçirilmişdir. Danışıqlar zamanı Səməd bəy İtaliyadan hərbi təchizat almağa kömək etməyi Haskeldən xahiş etmişdi. Haskel isə Azərbaycana İtaliyadan silah almaq və Dağıstanda bitərəf bölgə yaratmaq məsələlərinə kömək edə biləcəyini bildirdi, ancaq şərti dərhal Naxçıvan və Şərurda bitərəf bölgənin yaradılması idi. Vəkilova danışıqlardan aydın olmuşdu ki, qısa müddətdə bitərəf bölgənin yaradılmasını fikirləşən polkovnik Haskel Azərbaycanın bu işə mane olacağına inanırdı. Azərbaycan hökuməti şərtləri qəbul edərsə, Azərbaycan hakimiyyətinin bu regiona yayılacağına inanan Haskel ermənilərlə həmfikir olmağa başlamışdı. Tiflisdə bu məsələ ilə əlaqədar çalışan erməni heyəti olduğu halda, Azərbaycandan heç kim yox idi. Buna görə də dərhal Tiflisə səlahiyyətli şəxslər göndərilməli, məsələnin həllinə çalışmalı idi.[381] Haskelin təzyiq və daim dəyişən şərtləri ilə Azərbaycanı sıxışdırması Bakıda narahatlıq yaradırdı. Bu səbəblə Nəsib bəy ingilis nümayəndəsinə Vardroba şikayət etdi. Hökumətin bitərəf bölgə yaratmağa hazırlıq işləri gördüyü vaxt Haskel planı dəyişdirmiş və dağıstanlıların taleyi ilə oynamağa başlamışdı.[382] Digər tərəfdən də Azərbaycanın

---

[380] Hovanisyan. Göstərilən əsər. s.201-202

[381] Борьба за Советской власти в Азербайджане. Документы и материалы. s.344. s.287-288

[382] Hovanisyan. Göstərilən əsər. s.203

xarici işlər naziri M. Cəfərov da 29 sentyabrda[383] və 1 oktyabrda[384] Haskelə göndərdiyi teleqramlarda bitərəf bölgə haqqındakı fikirlərini açıqladı. Teleqramda deyirdi: 29 avqust 1919-cu ildə siz, Azərbaycan Nazirlər Şurası sədri və mənim iştirakım ilə əhalinin əksəriyyəti müsəlman olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti idarə olunması üçün ümumi qaydalar hazırladınız. Nəsib bəy bu şərtləri yazılı olaraq vermənizi xahiş etdi. Siz də 1 sentyabrda bu şərtləri bildirdiniz. Ardınca 27 sentyabrda yeni şərtlər göndərdiniz. Sizin 1 sentyabr və 27 sentyabr tarixli şərtlərinizin bəzi maddələri 29 avqust tarixli şərtlərə ziddir. Buna baxmayaraq, bizim hökumətimiz inanır ki, aparılacaq danışıqlarda prezident Vilsonun elan etdiyi hüquqlar əsasında məsələnin həlli yolunu tapacaqdır. Bir də Vedibasar bölgəsindəki Azərbaycan xalqı İrəvan vilayətinin digər müsəlman qəzalarının əhalisi kimi erməni dairələri tərəfindən müntəzəm və kütləvi bir soyqırımına məruz qaldığı üçün əllərinə silah alaraq erməniləri məğlub etdi və artıq orada sabitlik yaradılmışdır. Azərbaycan hökuməti hər vaxt sülhü qorumağa hazırdır. Bu məqsədlə sizin təyin edəcəyiniz valini də biz dəstəkləyəcəyik. 30 sentyabr tarixli teleqramınızda göstərirsiniz ki, Sülh Konfransı bitərəf bölgə ilə əlaqədar Azərbaycanın şərtlərini qəbul etməyəcək. Biz də deyirik ki, Azərbaycanın ayrılmaz parçaları olan bu qəzaların idarəedilməsi üçün verdiyiniz əmrlərə qarşı çıxmayacağıq. Ancaq biz ümid edirik ki, millətlərin hüququ ilə əlaqədar Vilsonun elan etdiyi prinsiplərə əvəz bu qəzalardakı türk əhalinin iradəsinə uyğun olaraq siz Sülh Konfransı qarşısında Azərbaycan xalqının haqlı tələblərini müdafiə edəcəksiniz. Azərbaycan xarici işlər naziri Haskellin təzyiqi altında bir qədər yumşalmışsa da, yenə də bitərəf bölgələrin Azərbaycanın ayrılmaz parçası olduğunu dedi və ondan Sülh Konfransında kömək istəməsini xahiş etmişdi.

M.Yusif bəy göndərdiyi teleqramla kifayətlənmədi, Tiflisə getdi. Ancaq Haskel dəyişiklik etmək istəmirdi.[385] Bitərəf bölgədə tam səlahiyyətli Amerika valiliyi qurulmalı idi. Naxçıvana gedən Amerika heyətləri bölgədə türklər və ermənilər arasında münasibətin gərginliyini və dərhal Amerika valiliyinin vəzifəsinə başlamasını lazım bilirdilər. Məsələ ancaq bu yolla həll oluna bilərdi.[386] 17-27 sentyabr tarixlərində Naxçıvana gələn doktor

---

383 Борьба за Советской власти в Азербайджане. Документы и материалы е. №346..289. "Azərbaycan arxivi" jurnalı. 1-2. 1988. s.145

384 Azərb.Cüm. MDƏYTA f.970. on. 1 s.92. v. 8. Biz Azərbaycan arxivindən götürdüyümüz sənəddə 1 oktyabr tarixi göstərilirdi. Həmin məsələ ilə əlaqədar Cəfərovun teleqramına əsaslanan Hacıyev və Musayev 4 oktyabr göstərirlər. (Hacıyev, Qars və Araz-türk respublikaları. s.91; Musayev ABŞ-ın siyasəti. s.4). Hadisələrin gedişindən məlum olur ki, bu tarix uyğun deyil. Belə ki, 4 oktyarbda Azərbaycan-Ermənistan arasında bitərəf bölgə haqqında müqavilə imzalanmışdır. (USA NA Near Eastern Affairs. 867.00/ 1100)

385 Hovanisyan.Ermənistan Respublikası. s. 202.

386 USA NA Paris Peace Conferance 184.021/286. 284.02102/15 Mandatry Over Armenia. c. 18-19

C.D.User və K.S.Ayer mövcud şərtlər altında türklərin və ermənilərin bir-birlərini idarə edə bilmədiklərini, son aylarda hər iki millətin bir-birlərinə nifrətləri artdığını, adamların bir-birlərinə güvənmədiklərini bildirdilər. Onların fikirincə, cavabdeh hökumət ancaq xaric olmalıdır.

Hər iki millət Amerika və ya İngilis nəzarətini arzu edirdilər.[387] Xəlil bəy və Kalbalı xan kimi çox az sayda adamlar şəxsi qüvvələrinin yox olmasından məyus olurdular. Bitərəf bölgəyə amerikalı vali təyin olunması üçün amerikalılar Azərbaycana ciddi təzyiq göstərdilər. Bundan başqa, hadisələrin qarşısını almaq üçün Cənubi Qafqazda hərbi hökumət qurulmalı idi. 5.000 Amerika əsgəri Ermənistan və Cənubi Qafqaz üçün kifayət deyildi.[388]

Göndərilən məlumatların təsiri ilə polkovnik Haskel bitərəf bölgə məsələsi ilə əlaqədar Ermənistan və Azərbaycanı inandırmağa çalışırdı. Haskelin qoyduğu şərtlər ermənilərin lehinə olduğundan Xatisyan 2 oktyabr 1919-cu ildə Haskelə göndərdiyi bir teleqramda Naxçıvan üzərində hüquqlarına baxmayaraq, Amerika valiliyini dəstəklədiklərini bildirdi.[389] Növbə, Azərbaycanı razı etməyə gəldi. Aparılan danışıqlar nəticəsində Haskel 4 oktyabr 1919-cu ildə Azərbaycan və erməni hökumətləri arasında bir müqavilə bağlanmasına şərait yaratdı.[390] Belə ki, Naxçıvan və Şərur bölgələrində Amerika valisinin rəhbərliyi altında bitərəf bölgə yaradıldı. Müqavilənin şərtləri belə idi: 1. Valiyə kömək məqsədilə bir məsləhətçi qrup yaradılacaqdır. Bu qrupun üzvləri vali tərəfindən seçiləcək. 2. Milli rəhbərlər əhaliyə görə türk və ermənilərdən ibarət olacaq. 3. Türklər və ermənilər bitərəf bölgədən əsgərlərini çıxaracaqlar. 4. İrəvan-Culfa dəmiryolu təmir ediləcək və dərhal istifadəyə veriləcəkdir. Telefon və teleqraf xətləri istifadəyə veriləcək və bunların hamısı valinin nəzarətində olacaqdır.[391]

---

[387] Amerikan heyətinin bu məlumatı necə yazdıqlarını bilmirik. Ermənilər xarici nəzarəti istəsələr də, Naxçıvan türklərinin bunu istəmələri mümkün deyildi, hətta onlar amerika hakimiyyətini qəbul etmədilər. Xalqın ingilisləri istəməsi, desək komik olar. Yenə Amerika raportlarında göstərildiyinə görə Naxçıvan regionunda ingilislərə qarşı böyük bir düşmənçilik hissi var idi. Naxçıvanda vali olan podpolkovnik Louten demişdir: Bir ingilis bu bölgədə mühafizəsiz gəzə bilməz. (USA NA Near Eastern Affairs 867.00/l 100).

[388] USA NA Paris Peace Conferance 184.021/285. Hovanisyan.Göstərilən əsər. s.203-204.

[389] Musayev. ABŞ-ın siyasəti s.4.

[390] USA NA Near Eastern Affairs. 867. 00/ 1100, 867. 0/1047. Haskelin planının qəbulu mətbuatda geniş əks-səda doğurdu. Tiflisdə yayınlanan "Ertabo" qəzetinin 20 oktyabr 1919-cu il tarixli sayında oxucularına tərəfsiz bölgənin layihəsinin Azərbaycan və Ermənistan tərəfindən qəbul edildiyini bildirdi və Haskelin doğru, ağıllıca hərəkət etdiyini qeyd etdi. Daşnak partiyasının mətbuat orqanı "Araç" qəzeti 22 oktyabr tarixli sayında hadisəyə geniş yer verdi. Müqaviləyə görə Qarabağ Azərbaycanın nəzarətində qalmışdır. Zəngəzurda vəziyyət qorunurdu. Şərur və Naxçıvanda tərəfsiz bölgə yaradılmışdır. Azərbaycan və Ermənistan öz siyasətlərini davam etdirirdilər. Bu vəziyyət regionda sülhün bərqərar olmasına vəsilə ola bilər. (USA NA Near Eastern Affairs. 867.00/1047) Ermənistan mətbuatında "Hayastani Aşhatavor" və "Jagovurd" qəzetində bu məsələyə səhifələrində yer ayırmışdılar. Onlar Azərbaycanla olan bu anlaşmanın Ermənistanın ərazi bütövlüyünə zidd olduğunu yazırlar. (Musayev. ABD-nin siyasəti s.5).

[391] USA NA Near Eastern Affairs. 867.00/1100.

## a) Naxçıvan və ətraf müsəlmanların Amerika valiliyinin (general-qubernatorluğunun) təşkilinə münasibəti

Naxçıvan və Şərur - Dərələyəz qəzalarında Amerika valiliyinin qurulması məsələsi ilə əlaqədar Ermənistan Ali komissarı polkovnik Haskelin Azərbaycan hökuməti ilə görüşdüyünü eşidən Araz vadisi müsəlmanlarının nümayəndələri 9 sentyabrda Tiflisə gəldilər. Sürməli, Milistan, Naxçıvan, Ordubad, Şərur və Vedibasarın təmsilçiləri olduğunu söyləyən şəxslər[392] ilk əvvəl Tiflisdəki Azərbaycan Nazirlər Sovetinin sədri Nəsib bəylə görüşdülər, Azərbaycan cümhuriyyətinə bağlılıqlarını bildirdilər. Haskel ilə görüşlərdə onların xahişlərini nəzərə almalarını təklif etdilər. Bundan başqa Naxçıvan-Zəngəzur yolunun açılmasını tələb etdilər. Sonra Əli Səbri Qasımov və K.M. Əsgərov Haskellə görüşməyə getdilər. Onlar Haskelə on maddəlik bir təklif irəli sürüb valiliyin qurulmasında bunları nəzərə almağı arzuladılar. Onlar həmçinin Araz vadisindəki müsəlman bölgələrində referendum keçirilməsini təklif etdilər.[393] Hovanisyanın əsərində isə göstərilirdi ki, 9 sentyabrda Cənubi Qərbi Azərbaycanın müsəlman nümayəndələri Haskelin yanına gələrək bildirdilər ki, onların öz-özlərini idarə etmələrinin təsdiq olunması şərti ilə, Paris sülh konfransı bölgənin Azərbaycana aid olduğunu təsdiq edənə qədər Amerika valiliyini qəbul edəcəklər. Onların ermənilərlə bir problemi yoxdur. Ancaq Daşnak quldurları tərəfindən məhv olmağı qəbul etməkdənsə, əldə silahlı ölməyi üstün tuturdular. Bununla bərabər Haskelin orijinal planı dəyişdirməsi Araz vadisi əhalisini gərgin vəziyyətə saldı.[394] Onlar artıq Amerikan valiliyini istəmirdilər.

Polkovnik Haskel bir neçə türk nümayəndələrinin onu ziyarət etməsinə baxmayaraq, tərəfsiz zona yaratmaq istədiyi bölgələrə nümayəndə göndərərək yerində vəziyyəti müəyyən etməyi və təyin ediləcək valinin funksiyalarını müsəlman liderlərə bildirməyi nəzərdə tuturdu. Bu məqsədlə köməkçilərindən podpolkovnik Donald A.Robinsonu[395] Naxçıvana göndərdi.[396] 1 oktyabr 1919-cu ildə Rəhim xanın evində Xəlil bəy, Kalbalı xan, Səməd bəy və podpolkovnik Robinsonun iştirakı ilə bir görüş keçirildi.

---

[392] Bu şəxslər Ermənistandakı müsəlman cəmiyyətlərinin nümayəndələri olmalı idilər. Bu dövrdə bu şərtlər daxilində Naxçıvan, Şərur, Ordubad və Vedibasardan Tiflisə nümayəndə göndərmək mümkün deyildi. Sərhəd bağlı idi.

[393] Azərbaycan Respublikası MDƏYTA. f.894, On 10, D. 94, s.9-15, "Albayraq", 30 oktyabr 1919, № 40. Hacıyev. Qars və Araz-türk respublikaları, s. 88-89.

[394] Hovanisyan. Göstərilən əsər. s.203.

[395] Musayev, "Azərbaycan" qəzetinə istinad edərək General Robinson deyərək bəhs etmişdir. (Musayev. ABŞ-ın siyasəti, s.5). Hovanisyan Amerika mənbələrinə istinad etmiş, rütbəsi yuxarıda göstərdiyimiz kimidir. Hovanisiyan. Göstərilən əsər. s.204, dn. 88).

[396] Podpolkovnik Robinsonun Naxçıvana gəldiyi vaxt, İrəvan müsəlmanlarının lideri Sultanov da bu bölgəyə gəlmişdir. Sultanov Naxçıvan liderləri ilə Haskelin planını müzakirə etmişdir. (Hacıyev, Qars və Araz-türk Respublikaları, s.92).

Şərur və Naxçıvanda Amerika valiliyi qurulması məsələsinin müzakirəsi nəticəsində podpolkovnik Robinsona Naxçıvanın idarə edilməsi ilə əlaqədar 12 maddəli bir cavab məktubu verildi:

1. Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistanda əhalinin əksəriyyəti türklər olduğundan iqtisadi, strateji və siyasi cəhətdən Azərbaycanın ayrılmaz parçalarıdır.
2. Bu bölgənin türkləri Azərbaycan Cümhuriyyəti qanunlarından faydalanaraq özlərini idarə edəcəklər. Biz Azərbaycan Hökumətindən başqa bir rəhbərlik tanımayacağıq.
3. Biz öz qanımızla azadlıq qazandıq və Vilsonun elan etdiyi 14-cü maddəyə uyğun olaraq, buna hüququmuz vardır.
4. Biz mədəni Amerika xalqının nümayəndələrini də öz aramızda görməkdən şad olarıq, ancaq vali sifətində deyil, nümayəndə olaraq.
5. Əgər hər kim xalqın iradəsinə zidd olaraq bizi ermənilərin hakimiyyəti altına salarsa, biz onu düşmənimiz qəbul edəcək və əldə silahla qarşılayacağıq.

Düşmənlərimiz cəsədlərimizin üstündən keçərək evlərimizə girə bilərlər.[397] Naxçıvanlılar müstəqilliklərini qoruyur, güzəştə getmirdilər. Bu yolda çox qərarlı idilər.

Podpolkovnik Robinson gedən kimi naxçıvanlı liderlər dərhal müdafiə üçün hazırlıq görməyə başladılar, bir sıra qaydalar tətbiq etdilər.[398]

### b) Polkovnik Riyin Naxçıvana gəlməsi və Haskel planının qüvvədən düşməsi

4 oktyabrda bitərəf bölgə və Amerikan valiliyi məsələlərində Ermənistan və Azərbaycanın razılığa gəlməsi Qafqazdakı Amerikan siyasəti baxımından çox əhəmiyyətli idi. Bölgədə həm Haskel, həm də ABŞ siyasəti etibar qazanmışdı. Buna görə də o dövrdə Tiflisdə olan general Harbord Azərbaycan Xarici İşlər naziri M.Yusif Cəfərova 6 oktyabrda bir təbrik teleqramı göndərdi.Teleqramda belə yazılmışdı: Parisə getməmişdən əvvəl polkovnik Haskel sizin Naxçıvan regionunda bitərəf bölgə yaratması barədə razılığa gəldiyinizi xəbər verdi. Belə bir ağıllı qərarınız üçün sizi təbrik edirəm. Bu çox gözəl bir təəssürat yaradacaqdır".[399] Haskel bitərəf bölgə ilə əlaqədar müqavilənin bağlanmasını təmin etdi və qüvvəyə minməsini gözləmədən general Harbord ilə bərabər Parisə getdi. Məqsədi müttəfiqlərin Yardım İşləri üzrə ümumi koordi-

[397] Hovanisyan. Ermənistan Respublikası, s.203-204: Musayev, ABŞ-ın siyasəti, s.6. Hacıyev Qars və Araz-Türk respublikası. s.92

[398] Musayev, ABŞ-ın siyasəti. s 6

[399] USA NA, Paris Peace Conferance, 184.021309.

natoru H.Klark Hovə Ermənistandakı yardımlarla əlaqədar məlumat vermək və sülh konfransından Ali komissarlıq səlahiyyətlərinin Azərbaycan və Gürcüstan üçün də etibarlı sayılmasını xahiş etmək idi.[400]

Haskel olmayanda Naxçıvan və ətrafında bitərəf bölgə yaratmaq və valiliyi qurmaq vəzifəsi polkovnik Cems Ri tərəfindən yerinə yetiriləcəkdi. Polkovnik Ri 16 oktyarb 1919-cu ildə vəzifəsi ilə bağlı ilk işinə başladı və Naxçıvan regionu komandiri Xəlil bəy və Milli Şuraya çatdırmaq üçün bir məktub yazdı, podpolkovnik Robinsonla Naxçıvana göndərdi. Məktubda belə deyilirdi: "Müttəfiq Ali Komissarlığın nümayəndəsi olaraq bildirirəm ki, Naxçıvan və Şərurda sabitliyi təmin etmək sahəsində Azərbaycan və Ermənistan hökumətləri razılaşdılar və bu bölgədə Amerika valiliyinin qurulmasını qərara aldılar. ABŞ ordusunun mühəndislərindən polkovnik Edmund L.Deli vali təyin edildi və o, 23 oktyabrda erməni və Azərbaycan nümayəndələri ilə birlikdə vəzifəyə başlayacaqdı.[401] Polkovnik Riyin 16 oktyabr tarixli məktubundan sonra -18 oktyabrda Bakıya getdi. Azərbaycanlı nümayəndələrin də Amerikan valiliyin strukturuna daxil edilməsini istəyirdi. Ancaq Azərbaycan hökuməti polkovnik Rinin təklifini rədd etdi. Azərbaycan rəhbərliyi, Haskeli bitərəf bölgə ilə əlaqədar şərtlərin daimi dəyişdirdiyinə görə belə bir qərarı qəbul etmişdi.[402] Bundan başqa, Azərbaycan hökuməti Naxçıvan xalqının istəmədiyi bu planda iştirak etməyəcəyini bildirdi. Əgər naxçıvanlılar Rinin təklifini qəbul etsələr, ona da qarışmayacaqdılar. Polkovnik Rhea məyus halda Tiflisə, oradan da İrəvana qayıtdı. Erməni hökuməti də nümayəndə verməyi rədd edirdi. Azərbaycan nümayəndələri gəlmədiyi üçün onlar da iştirak etməyəcəklər. Amerika prestiji yox olurdu. Bitərəf sahə layihəsi təhlükə qarşısında idi. Bir Amerika məlumatında göstərilirdi ki, polkovnik Rhea aldadıcı sözlərlə Amerikan nüfuzunu qorumaq istəyirdi. Bunun üçün 24 oktyabrda Naxçıvana yola düşdü. Yanında polkovnik Ed-

---

[400] Hovanisyan. Ermənistan Respublikası II, c. s.203. Baziyants. О вопросы Захватнической политика США в Азербайджане. (1919-1920) s.30. Musayev. ABD-nin siyasəti s.6. İstanbula gələn polkovnik Haskel Təsviri-Əfkar müxbiri ilə görüşdü. (Təsviri-əfkar, 13 oktyabr 1919. № 2869 ) 26 noyabrda Parisdən İstanbula qayıdan polkovnik Haskel Təsviri-Əfkarın müxbiri ilə yenidən görüşdü. Haskelin dediyinə görə səyahətin səbəbi sırf Ermənistanın vəziyyəti haqqında sülh konfransına məlumat vermək idi və 14 noyabrda bu vəzifəni yerinə yetirdi. (Təsviri-əfkar, 2 noyabr 1919 № 2916).

[401] "Azərbaycan arxivi" jur. 1988, №1-2, s. 150-151. Боръба за победы Советской Власти в Азербайджане. Документы и материалы. №372. s.314; Hovanisian, The Republic of Armenia, Vol:II, s.204. Hacıyev, Qars və Araz-Türk Respublikaları.s.94. Musayev. ABŞ-nin siyasəti. s.6. Базиянтс. О вопросе Захватнической политика США в Азербайджане (1919-1920) s.30.

[402] Polkovnik Haskel göstərirdi ki, Azərbaycanın müqaviləni rədd etməsinin səbəbi Xəlil bəy üzərində təsirlərinin olmaması idi. USA NA Near Eastern Affairs 867.00/1108. Bundan başqa 28 oktyabrda M.Y.Cəfərovun Ermənistandakı nümayəndəsi Ə.Haqverdiyevə göndərdiyi bir teleqramdan məlum olur ki, Azərbaycanın bu planı rədd etməsinin səbəblərindən biri ermənilərin Zəngəzurdakı fəaliyyətlərinin dayandırılmaması və üstəlik bölgəyə yeni qüvvələr göndərməsi idi. (Hovanisyan. Ermənistan Respublikası s.206).

mund L.Dolex, podpolkovnik Donald A.Robinson, Samner Veyt və Cems Şelli, mayor Parker, R.Kallox və kapitan Pakston Hibben var idi.[403]

Bir Amerika məlumatında və Naxçıvan səyahətində iştirak edən kapitan Pakston Gibbenin 1920-ci ildə yazdığı xatirələrində göstərilirdi: "Naxçıvana yola düşən Amerika heyəti yolda səfalətlə rastlaşdı. Sərhəd tikanlı simlərlə əhatə olunmuşdu və türk xalqının və əsgərlərin yoxsulluğu görünürdü. Taxıl tarlaları xarab olmuşdu. 50.000-ə qədər türk qaçqını çadırlarda qalırdı. Azərbaycan və Amerika bayraqları vurulmuş avtomobillə irəliləyən heyət Naxçıvan şəhərinə çatdı. Naxçıvan səmalarında Azərbaycan bayrağı ilə üzərində ulduz və ay olan türk bayrağı dalğalanırdı. Amerikalıları Səməd bəy Cəmilinski və Xəlil bəyin katibi Cəfər Məmmədov qarşıladı.

Ertəsi gün türk mülkü paltarlı, papaq qoymuş və uzun jaket geyimli Xəlil bəy göründü.[404] Böyük xanın evində hər iki tərəf arasında yığıncaq keçirildi.[405]

Yığıncaqda türk tərəfindən Xəlil bəy, Kalbalı xan Naxçıvanski, Heydərqulu bəy və Səməd bəy Cəmilinski iştirak edirdi. Yığıncaq başlar-başlamaz polkovnik Ri Amerika tərəfinin şərtlərini təkrarlayaraq Haskelin bölgədə Amerika valiliyinin qurulması ilə əlaqədar planını oxudu. Şərur və Naxçıvanda qurulacaq Amerika valiliyinin başında polkovnik Edmund L.Dali duracaqdı. Bölgədə yaşayan xalqların sayına əsasən türk və ermənilərdən müştərək bir Şura yaradılacaqdı. Erməni və Azərbaycan hökumətləri bölgənin sərhədlərindəki qüvvələrini oradan çıxaracaqlar. Dəmiryolu və teleqraf xətləri valinin nəzarəti altında olacaqdır. Ri valiliklə əlaqədar şərtləri yazılı olaraq xalqa paylamaq istədi. Ancaq icazə verilmədi. Əvvəllər göstərdiyimiz kimi Haskelin planını müsəlman liderləri qəbul etmirdilər, ona bir müddət əvvəl polkovnik Robinsona təqdim etdikləri 12 maddəlik cavab mətni vermişdilər. Amerikalılar Xəlil bəyi çox qəddar hesab edirdilər. Xəlil bəy deyirdi: "Biz bu ölkəni qılınclarımızla fəth etdik, qılınclarımızla əldə tutmalıyıq. İngilislər bura gələndə Araz vadisinə sahib olacağımızı",- dedilər. Ancaq 3 ay sonra bölgəni ermənilərə verdilər. "O bizimdir, biz onu geri qaytardıq. Və əlimizdə saxlayacağıq". Hər şey göz qabağında idi: amerikalılar açıq-açığına erməniləri dəstəkləyir, müsəlmanlara heç bir şey etmirdilər. Buna görə də türklər amerikalılara güvənmirdilər. Güvənmələrinə bir səbəb də yoxdu. Polkovnik Deli öz həyatını qarantiya edə bilmirdi. Naxçı-

[403] USA NA Near Eastern Affairs 867.00/1100, 867.00/1047; Hovanisyan. Göstərilən əsər, s.204-205; Musayev, ABŞ-ın siyasəti s.8.

[404] USA.NA, Near Easteren Affaire,867.00/1100; Hibben, Keepinq The Peace in Transcansasia, s.724-725 Hibben göstərirdi ki, ermənilərlə türklərin arasını vuran Xəlil bəy Batumi konfransındakı türk heyətinə başçılıq etmişdir. Hibben İttihad və tərəqqinin qabaqcıllarından deputatlar məclisi sədri Xəlil bəy ilə kolorduya mənsub Xəlil bəyi qarışdırmışdı.

[405] Hovanisyan toplantının Kalbalı xanın evində keçirildiyini yazırdısa da, şəxsən toplantıda iştirak edən Hibben Böyük xanın evində olduğunu göstərirdi. (Hibben, Keepinq The Peace in Transcausnsasia, s.725.

vanlılar bu müqaviləni istəməsəydilər, Azərbaycan hökuməti də onları məcbur etməzdi.[406] Naxçıvan və Şərur özləri hakimdir. Azərbaycan və ya sülh konfransı nə qərar verirsə versin, mövcud vəziyyətlərini davam etdirəcəklər.[407]

Bununla bərabər, Xəlil bəy sülhsevər olduğunu da göstərirdi. Polkovnik Delinin Naxçıvanda vali kimi deyil, nümayəndə kimi qala biləcəyini dedi. Bundan başqa yardım işlərində amerikalılara kömək edəcəkdi.[408]

Xəlil bəy və digər naxçıvanlı rəhbərlərdən istədiyini əldə edə bilməyən polkovnik Ri xalq ilə görüşmək istədi. Xəlil bəy də bu fikirlə razılaşdı. Vedibasar, Şərur və Ordubad bölgələrindən gələn nümayəndələr Naxçıvana yığışmışdılar. Naxçıvan camaatı da liderləri ilə həmfikir idi. Ölmək var, müstəqillikdən dönmək yox. Öz amalları əleyhinə qərar verən heç bir hökuməti tanımırdılar.[409] Vəziyyətin getdikcə gərginləşdiyini başa düşən Ri yardım işlərinə başladı. Naxçıvanda 50.000-dən artıq ac yaşayan türk qaçqını olduğunu bilirdi. Müharibədən çıxan Naxçıvanda qış yaxınlaşırkən soyuq və aclığın əlamətləri hiss olunurdu. Ri vəd verdiyi yardım nəticəsində valilik planını gerçəkləşdirməyi nəzərdə tuturdu. Bunun üçün Ri ilk əvvəl Xəlil bəyə Naxçıvanda daha əvvəl amerikalıların açdığı xəstəxana və uşaq evinin yenidən bərpasını təklif etdi. Xalq və liderlər Xəlil bəyin əvvəlki təklifinə əsasən Reyin yardım işlərini dəstəkləyirdi. Ancaq Amerika valiliyi məsələsində kiçik bir ümid vermirdilər. Polkovnik Rey bəlkə də amerikan valiliyi planınıdan əl çəkmişdi. Naxçıvana un göndərəcəyini və bunun insaflı bir şəkildə paylanmasını və bölgədəki ermənilərə pay verilməsini söylədi və onu qane edən cavabı aldı.[410] Xəlil bəyin təklif etdiyi və zamin olduğu polkovnik Deli Naxçıvanda müttəfiq Ali Komissarlığının nümayəndəsi və Yaxın Şərq Yardım fəaliyyətinin rəhbəri olaraq burda fəaliyyət göstərəcəkdi.[411] Delinin Naxçıvanda qalmaqla gələcək işlərinə bir dayaq

---

[406] 8 noyabr 1919-cu ildə Kazım Qarabəkir paşaya göndərdiyi məlumatda amerikalı vali istəmədiklərini və bunu Azərbaycanın da məqsədəuyğun hesab etmədiyini yazır (Qarabəkir. İstiqlal müharibəmiz, s.346).

[407] Amerika heyətilə aparılan danışıqlar zamanı Şərq Orduları Qrup komandiri Ənvər paşanın əmisi Xəlil paşa Naxçıvanda idi. Xəlil bəy hər halda Xəlil paşa ilə görüşürdü. (Xəlil paşa, Bitməyən savaş, s. 317). Danışıqlar zamanı Xəlil bəy tez-tez bayıra çıxırdı. Amerikalılara görə o, hər halda bəzi nüfuzlu şəxslərlə görüşürdü. (USA NA Near Eastern Affairs, 867.00/1100)

[408] USA. NA, Near Eastern Affairs, 867.00/1100. ATASE, A. 5/2793, Kls 8/4, s.5-9, f.128-3. Hovanisyan. Ermənistan Respublikası. s. 205; Hacıyev. Qars və Araz-Türk Respublikası. Hibben Keepinq The Peace in Transcansasia s.725-726. Musayev. ABŞ-ın sıyasəti. s. 6-7. Azərbaycan tərəfindən hadisələrə münasibətini bildirən Hacıyev, Musayev amerikalılarla görüşdə Səməd bəyi ön plana çəkirdilərsə, Amerika, İngilis, erməni və türk mənbələri regionun ən səlahiyyətli şəxsinin Xəlil bəy olduğunu göstərirdilər. Bu görüşlər amerikalı heyətinin tərəf müqabili Xəlil bəy idi.

[409] Hibben Keepinq The Peace in Transcansasia. s.725-726; Musayev.ABŞ-ın siyasəti s.7

[410] Hibben. Keepinq The Peace in Transcancasias. 726.

[411] ATASE, A. 5/2793. kls 814, D. 5-9, f. 128-3. USA NA Near Eastern Affairs. 867.00/1100, 867.00/1047 İradeyi-milliyət 24 noyabr 1919. №13. Hovanisyan. Göstərilən əsər. s.205. Hacıyev. Qars və Araz-Türk Respublikası s.94. Bəxtiyar Nəcəfov. Azərbaycan Demokratik Cümhuriyyəti. Bakı, 1992 s.44-45. Musayev. ABŞ-ın siyasəti s.7; Köçərli Azərbaycanın ərazi bütövlüyü.

mərkəzi əldə etmək niyyətində olan Rhea[412] başqa bir işi qalmadığından onunla gələnlərlə bərabər 28 oktyabrda İrəvana qayıtdı.[413]

Riyin sədrlik etdiyi heyət sakit və məyus idi. Planları baş tutmadı. Amerikalı və bilavasitə Qafqazdakı amerikalı səlahiyyətlilərin nüfuzu sarsılmışdı. Buna görə də onlar planın yerinə yetirilməməsində, Amerika heyətinin acınacaqlı vəziyyətə düşməsində Azərbaycan hökumətini günahkar bilirdilər. Azərbaycanın xarici işlər naziri Y.Cəfərov bunları rədd etdi. 3 dekabrda Qafqaza qayıdan və hadisələrin bu cür inkişafına çox məyus olan polkovnik Haskel yuxarı təşkilatlarına, Qafqazda yox olan nüfuzu haqqında məlumat vermək məcburiyyətində idi. Hökumətinə göndərdiyi 2 yanvar 1920-ci il tarixli raportda Naxçıvandakı müvəffəqiyyətsizliyin səbəbini yenə Azərbaycanda görür və azərbaycanlıları günahlandırırdı.[414] Bu işdə Xəlil bəy və polkovnik Ri günahkar idi. Admiral Bristol da Riyin planlarını yerinə yetirməkdə bacarıqsız olduğunu Haskelə bildirmişdi.[415] Ancaq bir həqiqət var idi ki, Naxçıvan camaatı müstəqillik yolunda qəti mövqe tuturdular. Onlar bunu nəzərə almırdılar. Sanki Azərbaycan hökuməti polkovnik Riyin yanına 2 nümayəndə qoşub Naxçıvana göndərsəydi və ya Ri başqa bir yol tapsaydı vəziyyət başqa cür olacaqdı. Amerika raportlarında göstərildiyi kimi, başda Xəlil bəy olmaqla bütün naxçıvanlıların qərarı qəti idi. Araya hansı hökumət girirsə-girsin, müstəqillikdən əl çəkməyəcək, güzəştə getməyəcəkdilər. Çünki naxçıvanlılar bir dəfə ingilislərin oyununa düşmüşdü. Artıq yeni bir hiylə ilə qarşılaşmaq niyyətində deyildilər.

Haskel planına etina edilməməsi Qafqazdakı amerikalıların əksinə olaraq Naxçıvan əhalisi və Azərbaycan hökuməti üçün xoş bir addım idi. Bu məqsədlə Azərbaycanın Xarici İşlər naziri Yusif Cəfərov Ermənistandakı nümayəndə Ə.Haqverdiyevə Naxçıvan liderlərinin çox yaxşı bir qətiyyətlilik göstərdiyini və indi Səməd bəyin polkovnik Deli ilə yaxşı münasibətlər yaratmaq lazım olduğunu dedi.[416]

Yusif bəy amerikalılarla dostluq əlaqəsi yaratmaq sahəsində göstəriş verirdi. Digər tərəfdən başda polkovnik Ri olmaqla digər səlahiyyətlilər türklərlə yaxşı münasibətlər qurmaq üçün çalışırdılar. Əslində onlar Naxçıvandakı müvəffəqiyyətsizliklərin səbəbini çox yaxşı bilirdilər.[417] Müsəl-

---

[412] USA NA, Near Eastern Affairs, 867.00/1047.

[413] USA NA, Near Eastern Affairs, 867.00/1100. Hovanisyan. Göstərilən əsər, s.205.

[414] USA NA, Near Eastern Affairs, 867.00/1108. Hovanisyan. Ermənistan Respublikası, s.205.

[415] Naxçıvan məsələsi Haskel ilə Reyin arasını pozmuşdu və Haskel Qafqaza qayıtdıqdan bir həftə sonra Rhea vəzifəsindən istefa verdi. (Hovanisyan. Göstərilən əsər. s. 277)

[416] Hovanisyan. Ermənistan Respublikası. s. 205.

[417] Amerikalılar Araz vadisində sabitliyin təmin edilməsi ilə əlaqədar bir çox təkliflər vermişdilər. Onlara görə bölgədə narahatçılığın başlıca səbəblərindən biri kifayət qədər taxıl istehsal edilməməsi idi. Buna görə yerliləri torpaqla işləməyə sövq etməli idilər. Vedibasar bölgəsindəki türklərlə Əylisdəki ermənilər yerlərini dəyişdirə

manlar amerikalılara güvənmirdilər. Amerika məlumatlarında açıq şəkildə etiraf edilmişdi ki, bunun səbəbi Amerika Yardım heyətlərin Ermənistana həddindən artıq yaxşı münasibət və dəstək göndərməsi idi. Bu dəstək tək mühacirlərə və yoxsullara edilmirdi, Ermənistan Ordusunun da qismətinə bir şey düşürdü. Amerika Yardım heyətləri tərəfindən erməni ordusuna xeyli miqdarda hərbi sursat verildiyi kimi ayaqqabı və s. verilirdi. Erməni ordusuna kömək etməkdə məqsəd onları türklərdən qorumaq olduğunu söyləyən amerikalılar, dəstək alan erməni ordusunun türklərə çox zülm etdiklərini və təəssüf ki, onların da bu işə köməkçi olduqlarını etiraf edirdilər. Ermənistan hökumətinə göstərilən açıq dəstək Azərbaycan və Gürcüstan hökumətləri ilə Araz vadisindəki, müsəlmanların da Amerika missiyasına qarşı bir hiss yaranmasına səbəb olmuşdu. Haskel Qafqaza gəldikdən sonra amerikalıların ermənilərə daha çox dəstək verdiyi görünürdü. Polkovnik Ri bu şəraitdən rahatsız idi. O, əziyyət çəkən, yoxsulluq içində yaşayan türk qaçqınlarına müəyyən qədər yardım edilməsini istəyirdi.[418] Bu məqsədlə onun Naxçıvanda nümayəndə olaraq müəyyən etdiyi polkovnik Deli dərhal işə başladı. Təbrizə getdi və orada Naxçıvan bölgəsindəki türklər və qaçqınlar üçün müəyyən miqdarda ərzaq təmin edə bildi. Bu mallar Naxçıvana dəmiryolu vasitəsilə gətirilməli idi. Ancaq iyul ayının axırlarında baş verən hadisələr zamanı ermənilər Culfada, Araz çayı üzərindəki körpünü dağıtmışdılar. Deli körpünün təmir etdirilməsinə başlamışdı və bir ay ərzində təmiri qurtarmağı nəzərdə tuturdu. Əhali və liderlər Deli ilə münasibətləri yarada bilmişdilər.[419]

Xəlil bəy məlumatında göstərirdi ki, polkovnik Deli Naxçıvanda olduğu müddət ərzində özünün icazəsi ilə İngilis-Hindistan teleqraf xəttini təmir etdirmiş və qaçqınlara cüzi yardım göstərmişdir. 2 ay sonra isə nədənsə Naxçıvandan getdi.[420] Polkovnik Delinin Naxçıvandan çıxmasına səbəb olan hadisə noyabr ayı ərzində Naxçıvana bir çox Amerika zabitlərinin gəlməsi və onlara qarşı əhalinin narazılığı idi. Naxçıvanlıların istəyi ilə Deli onları İrəvana göndərdi. Özü isə 1920-ci ilin yanvarında onu müşayiət edənlərlə bölgəni tərk etdi.[421] Beləliklə, Naxçıvanda Amerikanın nüfuzu və bilavasitə siyasəti sona çatdı.

---

bilməzdilər. Bölgədə hər hansı bir iş zorla deyil, türklərlə tamamilə əlaqə yaradılaraq gerçəkləşdirilə bilərdi. (USA. NA, Near Eastern Affairs. 867.00/1100).

[418] USA.NA, Near Eastern Affairs, 8600/1047. Kapitan Hibbenə görə polkovnik Rhea Xəlil bəylə görüşü, sonra gördüyü işlər türklər və ermənilər arasında şöhrət qazandırmışdı (Hibben. Keerinq The Peace Transcanckasia s.728).

[419] USA NA Near Eastern Affairs 867.00/1100, 867.00/1047

[420] Polkovnik Deli getdikdən sonra Xəlil bəy ingilis-Hindistan teleqraf xəttini yenidən dağıtmışdı. Təbrizdəki ingilislərə və Londondan gələn məlumatlara baxmayaraq qərarı dəyişdirməyib, ermənilərlə müharibədəyik cavabını vermişdi. ATASE. A. 5/2793, Kls. 814, s.5-9, F.128-3.

[421] Hacıyev. Qars və Araz-türk respublikaları. s.96, Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.59. Musayev . ABŞ-ın siyasəti s.8

# IV BÖLMƏ

## Naxçıvan Türkiyə və Azərbaycanın nəzarəti altında

## A. Naxçıvanda Türkiyə və Azərbaycanın nüfuzu

### 1. Türkiyə-Naxçıvan münasibətləri

### a) Türkiyə üçün Naxçıvanın əhəmiyyəti

Əvvəlki bölmələrdə qeyd etdiyimiz kimi, Birinci Dünya müharibəsinin axırlarında, yəni 1918-ci ildə Qafqaz cəbhəsində mühüm dəyişikliklər olmuşdu. Türk ordusu irəliyə doğru əməliyyatlara başlamış, 1828-ci il sərhəd xəttini açmış, 4 iyun 1918-ci ildə imzalanan Batumi müqaviləsinə əsasən əhalisinin əksəriyyəti türk olan Naxçıvan, Axıska, Axılkələk, Gümrü bölgələri Osmanlı dövlətinin əlinə keçmişdi. Bununla belə Osmanlı dövləti Mudros sazişinə uyğun Elviyeyi-Selase torpaqları da daxil olmaqla bu bölgələri tərk etməyə başladı. Ancaq türk əhalisinin mövcudluğunun davamını əks etdirən Qars İslam Şurası və Araz-Türk hökumətinin təməlləri qoyuldu. Yerli əhalinin təşkilat yaratmalarına kömək edildi. Ancaq müttəfiqlərin dəstəyini alan və böyük Ermənistan röyalarını həqiqətə çevirmək istiqamətində fəaliyyətə başlayan İrəvan hökuməti müsəlman əhalini və türk tərəfini hədələyirdi. Ermənilər Naxçıvan bölgəsini ələ keçirərək həm geniş taxıl sahələrinə sahib olmaq, həm də Türkiyənin Azərbaycan və bilavasitə Orta Asiya ilə əlaqəsini təmin edən yeganə koridoru bağlamaq istəyirdi. Ancaq türk Milli Mübarizəsinin liderləri Mustafa Kamal və Kazım Qarabəkir paşa Naxçıvanın strateji əhəmiyyətini çox yaxşı başa düşürdülər.

Kazım Qarabəkir paşanın 3 may 1919-cu ildə Ərzuruma gəlib, XV korpus komandiri vəzifəsinə başlaması ilə Türkiyənin Naxçıvan siyasəti açıq-aydın bəlli olmağa başladı. Regionu çox yaxından tanıyan, ermənilərin müsəlman əhaliyə göstərəcəyi təsiri və Türkiyə tərəfinə verəcəyi zərəri başa düşən Kazım Qarabəkir paşaya görə Naxçıvan Şərqin qapısı olduğundan onu əldə saxlamaq zəruri idi. Ərzurum konfransından sonra mayor Veysəl bəyə və 11-cidiviziya komandiri Cavid bəyə göndərdiyi məktubda Paşa belə yazırdı: "Hər tərəfdən mühasirə olunmuşuq, ancaq Naxçıvan pəncərəsi Azərbaycana açıqdır.Onun bağlanmamasını istəyirəm.[1]Qarabəkir paşa Azərbaycana və bilavasitə Orta Asiya-türk dünyasına açılan yeganə koridor

---

[1]Veysəl Ünüvar. İstiqlal müharibəsində bolşeviklərlə 8 ay (1920-1921). İstanbul, 1984.s.4.

sayılan və əhalisinin əksəriyyəti türk olan Naxçıvan regionunun əhəmiyyətini əvvəlcədən başa düşmüş və bu regionda yerli əhalidən könüllülər alayı təşkil etmişdi. 1919-cu ildə müttəfiqlərin dəstəyi ilə böyüyən və Naxçıvanı ələ keçirən Ermənistanı geri addım atmağa məcbur etmək üçün ən əlverişli yer Naxçıvan idi. Paşa həm müsəlman əhalinin azadlığı və həm də Ermənistana qarşı əməliyyat üçün Naxçıvanı əldə saxlamaq istəyirdi. Əslində buranın İrəvana yaxın olması Ermənistanın diqqətini çəkirdi.[2]Xəlil bəy və yoldaşları 17-18 iyulda Naxçıvana göndərilmiş,[3] ermənilərin Naxçıvandan çıxarılması təmin edilmiş, beləcə ermənilərin İran ilə əlaqəsi kəsilmiş və Van üzərinə hücumlarına mane olunmuşdu.[4] Bundan başqa, Ermənistana qarşı olan hücumda çox strateji mövqe ələ keçirilmişdi.

Türkiyədə TBMM hökumətinin idarəetməni ələ alması Naxçıvanın əhəmiyyətini daha da artırdı. Müstəqillik mübarizəsini davam etdirməyi nəzərdə tutan TBMM hökumətinin kömək olması lazım idi. Bu dövrdə onun kömək ala biləcəyi tək bir ölkə Sovet Rusiyası idi. Erməni əngəlləri üzündən Qars yolu bağlanmış, nəticədə geriyə tək bir yol Naxçıvan-Zəngəzur yolu qalmışdı.[5] Sonra bu haqda ətraflı danışacağıq. Türkiyə bu koridorun əhəmiyyətini başa düşmüş, Naxçıvana bir alay göndərmişdi və bu bölgələrə çağırılan Qızıl Ordu hissələri ilə bərabər Azərbaycan yolu açılmışdı. Ermənistan təsirsiz hala gətirilmiş və bölgə Sovet Rusiyası ilə münasibətlərdə bir mərkəzə çevrilmişdi. Beləcə, Türkiyə və Rusiya bir-birlərini daha yaxşı tanımış və Anadolunun ehtiyacı olan kömək göndərilə bilmişdi.

Sülh sahəsində Naxçıvanın Türkiyə üçün çox böyük bir əhəmiyyəti vardır. Sovet Rusiyası ilə müqavilə bağlamaq üçün Moskvaya getməzdən əvvəl M.Kamal paşa ilə vidalaşan Yusif Kamal (Təngirşək) bəy “Paşam, ruslar Naxçıvan üzərində möhkəm durarlarsa nə edim?”, - deyə soruşmuş və bu cavabı almışdır: “Naxçıvan türk qapısıdır. Bu xüsusiyyəti nəzərə alaraq əlinizdən gələni edin”.[6]Bəli, Naxçıvan Kazım Qarabəkirin dili ilə desək, Şərq qapısı, Mustafa Kamal paşanın dili ilə desək, Türk qapısı idi.Türkiyə ilə Azərbaycanı və bilavasitə Orta Asiya ilə türk dünyasını bir-birlərinə bağlayan bir koridor idi. Buna görə də Türkiyə və Orta Asiya türkləri üçün Naxçıvan çox böyük əhəmiyyət daşıyırdı.

---

[2] Kazım Qarabəkir, İstiqlal müharibəmiz. İstanbul 1988. s.28,306

[3] ATASE, A.5/2793, Kls.814, s. 5-9, F.128-1, Cümhuriyyət, 20 may 1933, №3244; Qarabəkir, İstiqlal müharibəmiz. s.61

[4] Qarabəkir, İstiqlal müharibəmiz s. 153.

[5] Poidebard, İran yollarına səyahət (tərcümə edəni mayor Nəzmi və Emin), İstanbul, 1341, s.62.

[6]Mustafa Kamal paşa. Naxçıvan türk qapısıdır, Türk dünyası Tarix jurnalı, №64 (aprel 1992), s.5-6

## b) Naxçıvanlıların Türkiyəyə münasibəti

I Bölmədə göstərdiyimiz kimi, türk ordusunun Naxçıvana gəlməsi təntənə ilə qarşılanmış, bayraqlar qaldırılmış, ziyafətlər verilmiş və həmin gündən xatirə bulaqları salınmışdı. Naxçıvanlıların türk rəhbərliyi ilə çox yaxşı münasibətləri var idi. Türk Ordusunun çıxmaq xəbəri böyük bir narazıçılıq yaratmış, əhali yasa bürünmüşdü. Naxçıvanlılar hər bir cəhətdən onlara oxşayan Türkiyədən ayrılmaq istəmirdilər. Ayrılıq zəruri olduğundan Türk Ordusundan əsgər və silah istədilər. Qalan zabit və əsgərlərlə mehribançılıqla davranıb öz idarəetmə sistemlərini davam etdirdilər. 1919-cu ilin aprelində ingilislərin Naxçıvanı Ermənistana verməsi və erməni idarəetmə sisteminin işə başlaması ilə türk əhalisi üçün qara günlər başlamışdı. Erməni təzyiqinə və terroruna məruz qalan Araz vadisi əhalisinin yardım ala biləcəyi, dəstək görə biləcəyi iki dövlət var idi: Türkiyə və Azərbaycan. Qanı bir, dili bir, dini bir bu iki dövlətin hər vaxt yanlarında olacağını çox yaxşı bilirdilər. İran bu sahədə dəyişən bir siyasət aparırdı. Erməni zülmündən yaxa qurtarmaq istəyən naxçıvanlılar 1918-ci ildə olduğu kimi indi də onlara Türkiyədən kömək gələcəyinə inanırdılar. Buna görə də onlar əvvəl Ərzurumda keçrilməsi qərara alınan Vilayət konfransına nümayəndələrini göndərmək istəyirdilər.[7] Ardınca Naxçıvandan kömək çağırışları gəlməyə başladı. Erməni təzyiqinə, vəhşiliyinə dözə bilməyən Naxçıvan əhalisi soydaşlarından yardım istəyirdi.[8] "Ağladıq, sızladıq, yazdıq, bağırdıq. Hətta millət prinsipi maskası altında bəşəriyyəti əzməyə çalışanlara fəryad etdik. Başımızda partlayan güllələrin səsi üzündən eşidilmədi. İslam aləminin yeganə valisi Xəlifə hökuməti də fəryadımıza etina etmədi. Artıq kimə müraciət edək, hansı yad ətəklərə sarılaq. Bu şikayətlərimizi aid təşkilatlara bildirməklə bərabər həyatımızın müdafiəsini xahiş edirik.[9] Naxçıvanlılar özünə rəhbər gördüyü, Osmanlı hökumətindən müəllim, on nəfərlə bir zabitin gizlicə göndərilməsini xahiş edirdi."[10]

Kazım Qarabəkir paşa tərəfindən Naxçıvana göndərilən Xəlil bəy və yoldaşları 1918-ci ilin mayında olduğu kimi hörmətlə qarşılandılar. Regiondakı nüfuzu sayəsində Xəlil bəy dərhal rəhbərliyi ələ almış, hörmət qazanmışdı.[11] Erməniləri Naxçıvandan çıxardıqdan sonra Xəlil bəyin və

---

[7] Ərzurum konfransı ilə bağlı sənədlər, Ankara 1969; s.6-10. Ərzurum konfransının bütün materialı (Haz.M.F,Qırzıoğlu) Ankara, 1993, s.31,37.

[8] ATASE, A.l/2, kls.78, S.291-118, f.32, 35-22; ATASE. A.l/16, kls.189, DN. 104-8, f.58, BOA, BEO. 343186; BOA, D KMS, 53220, 53-2-30.

[9] BOA. DH. KMS, 53.2/56, 53-315. ATASE, A.1/2, kls 78, D.291-118, f. 35-13, ATASE, A.l/2, kls. 82, D. 304-210, f.32-3.

[10] BOA, DN. KMS, 53-230.

[11] ATASE, A. 5/2793. kls.814. s. 5-9 f. 128-3. Cümhuriyyət, 20 may 1933. №3244

bilavasitə Türkiyənin regionda təsiri daha çox artdı. Əhalinin Türkiyəyə və bilavasitə Xəlil bəyə qarşı münasibət və davranışları çox yaxşı və səmimi idi. Ancaq Xəlil bəyin nüfuzunu özləri üçün zərərli görənlərlə bir çox xanlar Türkiyə əleyhinə çevrilmişdilər. Xüsusi ilə, xanlar nüfuzlarını itirəcəklərindən qorxaraq Türkiyəyə müxalifət kimi baxaraq, İranla birləşmək niyyətində idilər. Belə olan halda xanlıq və bəyliklərini qüvvətli bir şəkildə davam etdirəcəkdirlər. Xəlil bəyin dili ilə desək, bu cür insanlar daim türklərin nüfuzunu qırmağa və türkpərəst olanları əzmək və zülm etmək üçün var qüvvələri ilə səy göstərirdilər. Bu yolla zülm və hədələməklə nüfuzlarını artırmağa çalışırdılar. Bu xanları o regiondan çıxartmalı və ya yaxşı idarə edilməlidir. Naxçıvan xanlarına İranla birləşmələrinə, Türkiyə əleyhinə fəaliyyətlərinə Maku xan kömək edirdi.[12]

Xəlil bəy bir tərəfdən əhalini Türkiyə əleyhinə qızışdıran xanların cəhdlərinə qarşı çıxır, digər tərəfdən özünün Naxçıvana vali təyin etdiyi Səməd bəy Cəmilinskinin fəaliyyətinə mane olmağa çalışırdı. Səməd bəy fasiləsiz əhali arasında Türkiyə əleyhinə təbliğat aparır, hətta Azərbaycandan gələn pulları həvəslə bu məqsədə xərcləyirdi. Belə xanlarla əməkdaşlıq edən Səməd bəy Xəlil bəyi və yoldaşlarını Naxçıvandan çıxartdıraraq, xalqın nəzərində Türkiyəyə olan məhəbbətini yox etməyə can atırdı. Ancaq böyük bir xalqın dəstəyini alan Xəlil bəy buna imkan vermədi və Səməd bəyi Naxçıvandan çıxartdı.[13] Türkiyə əleyhinə olan təbliğatlar bir az dayandı. Türkiyə ilə əlaqələr davam etdirilir, naxçıvanlı İsmayıl ağa kuryer olaraq daim Bəyazidə gedib-gəlirdi.[14] Əhali yeni xahişlər edir, yaxınlaşan erməni təhlükələrinə qarşı təcili yardım istəyirdi.[15] Hazırlıqlı mütəşəkkil erməni hücumuna qarşı Xəlil bəyin qüvvələri kifayət deyildi. Buna görə də naxçıvanlı 58 nüfuzlu şəxsin imzası ilə göndərilən gileylər ifadə olunan teleqramda deyilirdi: Biz müsəlman və türkük. Bizi sizdən ayıran qüvvə nədir bilmirik? Buna görə də yarım milyon əhali öz fəryad səslərini ucaldır, Bəyazitdə olan ordunun hamısı və ya bir hissəsi bizə gəlsin, indiyə qədər hüquq və namusumuzu qorumaq üçün tökdüyümüz sel kimi qanların boşa getmədiyini görək və millətin arzusu sizə qovuşmaqdır.[16]

Naxçıvanlılar özlərini Türkiyə ilə o qədər birləşmiş görürdülər ki, onlar Ermənistana qarşı əməliyyatın təxirə salınmasından məyus oldular və dərhal TBMM-nin sədri M.Kamal paşaya bir teleqram göndərdilər.

---

[12]ATASE, A. 5/2793, kls.814, s. 5-9 f.128-3, ATASE, A.6/6686, kls.923, s.1-2, f.34-2, 59-2, ATASE, A.l/4282, Kls.587, s. 116-6, f.17.

[13]ATASE, A. 5\2793. kls.814. s. 5-9 f. 128-3. Cümhuriyyət 20 may, 1933. №3244

[14]Xəlil paşa, İttihad və tərəqqidən Cümhuriyyətə qədər qurtarmayan müharibənin qəhramanı Xəlil paşanın xatirələri İstanbul. 1972, 313

[15]ATASE, A. 4/8316, kls.254, s.9-11, f. 11-1, 11,9.

[16]ATASE, A. 1/4282, kls.586, s.l 15-33, f.1, Qarabəkir, İstiqlal müharibəmiz, s.737.

Əməliyyat təcili başlanmazsa, Naxçıvan regionunda məsum uşaqların çoxalacağını bildirdilər.[17] Naxçıvan əhalisi türk ordusunu öz ordusu, öz qüvvəsi kimi görürdü. "Albayraq" qəzetinin 12 iyun 1920-ci il tarixli nömrəsində dərc olunan"Naxçıvanlı himayədar korpusa lazımi şükürlərin bağışlanması" adlı xəbər bir nümunədir: "Naxçıvanın millət vəkili Hacı Cabbar bəy Tağızadə sülhün bağlanmasına qədər ölkə daxilində hər cür mal və s. ticarətdən əldə edəcəyi gəlirdən özünə aid xərcləri çıxdıqdan sonra qalan miqdarı XV korpusa könüllü bağışlayacağını bildirmiş və yuxarıda adını qeyd etdiyimiz şəxs bu bağışlanmanın ilk hissəsi olan 8700 quruşu məmnuniyyətlə korpus xəzinəsinə təqdim etmiş və qeyd olunmuşdur. Buna görə də ona və onun insanlıq duyğusuna korpus adından təşəkkür edirəm".

**XV korpus komandiri vəkili**
**Polkovnik Kazım**

Polkovnik Kazım bəyin yazısının altında "Albayraq" qəzetində bir qeyd yazılmışdır: "Millətin davamı üçün ordusuna malını əsirgəməyən bu xeyirxah insanı alqışlayıram.[18] Həqiqətən bu xeyirxah yardımı alqışlamağa dəyərdi. Həm də Araz vadisi əhalisinin Türkiyəyə münasibəti baxımından əhəmiyvətli idi. Onlar üzlərini Türkiyəyə çevirmiş, ümidlərini yenə Anadoluya bağlamışdılar. 1920-ci ilin iyul ayında Erməni hücumuna məruz qalan Vedibasar əhalisi bir başqa yerə deyil, Türkiyəyə gəlmək istədiklərini bildirmişdilər. [19] Bolşeviklərin iqtidarı ələ keçirməsi, türk milli mübarizə liderlərinin Sovet Rusiyası ilə müttəfiq olmaq təşəbüsləri və nəticədə 28 iyul 1920-ci ildə Naxçıvana Qızıl Ordu hissələrinin gəlməsi[20] ilə başlanan yeni dövrdə əhalinin Türkiyəyə münasibətində bəzi dəyişikliklər oldu. Bolşeviklər Türkiyəni və orada olan türk əsgərlərinin əleyhinə təbliğata başlamışdılar. [21] Ancaq sağlam görüşlü Naxçıvan camaatı onlara istədikləri qədər dəstək vermirdi.

### c) Naxçıvan məsələləri və Türkiyə

Türkiyənin Naxçıvan məsələlərinə münasibətini iki hissəyə ayırmaq lazımdır. I Osmanlı hökumətinin hadisələrə münasibəti;II Milli mübarizə liderlərinin mövqeyi. Məlumdur ki, Osmanlı ordusu Qafqazdan çıxarkən

[17]ATASE, A. 1/4282, kls.586, s.l 15-33, f.1-3.
[18] Albayraq, 12 iyun 1336.1920 №100.
[19]ATASE, A. 6\6686, kis.923, s.2-5, 6, f.21.
[20] ATASE, A. 1/4282, kls.586, sl 15-35, f.23, Qarabəkir, İstiqlal müharibəmiz, s.798, Ünüvar. Bolşeviklərlə 8 ay, s.36; Qotthard Jaeschke Qarabağ, Zəngəzur və Naxçıvan Sovet siyasətinin ticarət əmtəəsidir. Qurtuluş №17 (mart 1936) s.488
[21]Sonrakı bölmələrdə bu haqda ətraflı məlumat veriləcəkdir.

əhalinin əksəriyyəti müsəlman olan bölgələrdə hərbi hissələr təşkil etmiş, hərbi ləvazimat və silah qoyaraq onlara lazımi dəstək vermişdir.

Ancaq Mudros sazişinin ardınca işə başlayan Osmanlı hökuməti Araz vadisinin yardım xahişlərinə siyasi yolu ilə cavab verməyə çalışdı. İstanbuldakı ingilis zabitləri ilə rabitəyaradaraq zülmün dayandırılmasını tələb etdi.[22]Nazirliklər arasında aparılan danışıqlar bir nəticə vermədi. Erməni zülmündən qaçaraq gələn qaçqınların yerlə təmin edilmələri, əsgər və silah xahişləri hökumət üzvlərini həyəcana gətirmişdi. Naxçıvanlıların bu xahişlərinə hökumət Ərzurum yolu ilə cavab verir, bölgəyə əsgər və s. yardımın mümkün olmadığını, əksinə, hər iki tərəf üçün onların zərərli olacağını bildirirdi".[23]

Araz vadisi əhalisinin soyqırımından qurtarılması üçün Osmanlı hökumətinə dərhal müraciət edən Kazım Qarabəkir paşa,[24] qısa müddət ərzində bir nəticə əldə edə bilməyəcəyini başa düşmüşdü. Naxçıvan əhalisinə edilən zülmün qarşısını almaq və Türkiyə tərəfini qorumuq üçün ermənilərin regiondan çıxarılması vacib idi. Bunun yerinə yetirilməsi üçün Naxçıvana yardım edilməsi zəruri idi. Siyasi yol ilə məsələ həll oluna bilməzdi. Kazım Qarabəkir paşa bunu nəzərə alaraq kapitan Xəlil bəyin sədrliyində 4 zabit və 7 əsgəri gizlicə Naxçıvana göndərdi.[25] Bundan başqa, Zəngibasara və digər bölgələrə müəyyən qədər çavuşların rəhbərliyi altında qüvvələr göndərildi.[26]

Nümayəndə heyəti yarandıqdan sonra Naxçıvan məsələsi Türkiyənin gündəliyində geniş yer tutmağa başladı. Nümayəndələr heyətinin iclaslarında əsas mövzuya çevrilmiş və hətta o dövrün siyasətinə uyğun Rauf bəy tərəfindən Van və Bəyazid bölgələrinin də Naxçıvanla birləşməsi belə təklif olunmuşdu.[27]Mustafa Kamal paşa Naxçıvandakı hadisələr barədə məlumat alır, hadisələri incələyirdi.[28] Naxçıvan sərhədləri ətrafında yerləşən türk bölgələrinə edilən hücumlar XV korpus tərəfindən dərhal nümayəndələr heyətinə bildirilmiş[29] və Mustafa Kamal Paşa da 22 və 28 martda vəziyyəti

---

[22]ATASE, A. 1/2. kls. 78. s.291-118. f.35-20. 35-2

[23]BOA. DN. KMS, 53-250, 53-230, 53-315, BOA. BSO. 343186; BOA. DH-ŞFR, 100-19. ATASE.A.1/2. Kls.78.D.291-118. F.35-20

[24] ATASE, A. 1/2. kls.78. s.291-118, f.35-13.

[25] ATASE, A.5/2793, kls.814, s.5-9, f.1 28-1. "Cümhuriyyət" 20 may 1933, №3244. Qarabəkir. İstiqlal müharibəmiz, s. 61.737.

[26] Tofiq Bıyıqlıoğlu, Osmanlı və Türk-Şərqi Sərhəd siyasəti İstanbul, 1958, s. 27; Kazım Qarabəkir paşanın əsgər və zabit göndərməsi müttəfiq nümayəndələr tərəfindən öyrənilmiş və onlar türklərin fəaliyyətini izləyirdilər. (USA NA Paris Peace Conferance. 184.021.0212, 184.-021216; USA NA. Near Eastern Affairs. 867. 001100. 867. 001047; Documenc On British Foreiqı n Polisy, London, 1958, c.818).

[27] Nümayəndə heyəti protokolları. (Haz. Uluğ İqdəmir), Ankara, 1975. s.97

[28]Mustafa Kamal Atatürk. Çıxışlar, sənədlər. III cild. İstanbul. 1967. s. 1018. İngilislər də Mustafa Kamal paşanın Naxçıvanla maraqlandığını bilirdilər. (Bilal Şimşir. İngilis sənədlərində Atatürk. (1919-1938) 1, aprel 1919, mart 1920, Ankara 1973, s.180.

[29] MTSD. №26 (dekabr 1958), s.№679.

dünya dövlətləri qarşısında etiraz etmişdi.[30] Kazım Qarabəkir Paşa dərhal işə başladı, erməni hökumətini protest etdi və ermənilərə yardım edən Maku xana xəbərdarlığını bildirdi.[31] Sonra o, sərhədləri xaricində ermənilərin törətdikləri cinayətləri türk və dünya ictimaiyyətinin nəzərinə çatdırmaq üçün bir məktub dərc etdirdi.[32]Bu dövrdə milli mübarizəyə dəstək olan türk mətbuatı da başda "Albayraq" qəzeti olmaqla Naxçıvandakı hadisələrə geniş yer verirdi.[33]

1920-ci ilin yazında erməni ordusunun Oltudan Naxçıvana və Zəngəzura qədər uzanan geniş sahədə hücumu başlandı. Ermənilər hücumları sərhədlər ətrafında yerləşən türk bölmələrini istila etmək və beləliklə həm böyük Ermənistan idealına bir addım yaxınlaşmaq, həm də Türkiyə ilə Azərbaycan yolunu bağlayaraq, ingilislərin istəyinə əsasən türk sovet yaxınlaşmalarına mane olmaq istəyirdilər. Kazım Qarabəkir paşa vəziyyətin təhlükəli olduğunu görmüş və hazırlıqlara başlamışdı. Naxçıvandakı Xəlil bəyin qüvvələrini artırmağı nəzərdə tuturdu.[34] Ancaq Xəlil bəyin əleyhinə təbliğatın başlanması nəticəsində o, vəzifəsindən istefa etdi.[35] Və vəzifəsinə Bəyazitdən iki batalyondan ibarət bir dəstə ilə mayor Əli Teymur bəy[36] Naxçıvana göndərildi.[37]Ardınca 11-ci diviziya ştab rəisi mayor Veysəl bəy[38] Naxçıvan müfəttişi adı ilə 5 iyulda Bəyazitdən yola düşdü.[39] Kazım Qarabəkir paşa bölgəyə qüvvə toplayaraq yaxınlaşan erməni təhlükəsinin qarşısını almaq və Ermənistana qarşı aparılacaq əməliyyatlarda güclü olmaq istəyirdi. Beləliklə, Ermənistana qarşı strateji bir üstünlük əldə edəcək, Naxçıvan əhalisini də bu təhlükədən qurtaracaqdı.

---

[30] Atatürkün teleqram və bəyannamələri, IV , Ankara, 1991, s. 281; Atatürkün Milli Xarici Siyasəti, 1919-1923,1 c, Ankara, 1981, s.154.

[31] İradeyi-Milliyyə, 29 mart 1920, №33; Qarabəkir. İstiqlal müharibəmiz, s.525-526, 572.

[32] 1335-ci ildə iyul ayı ərzində Qafqazda müsəlmanlara qarşı erməni zülmü haqda alınan xəbər. (İstanbul, 16 iyul 1920, №147)

[33]Albayraq, 21 sentyabr 1335-1919, № 29;Albayraq,9 Təşrini əvvəl 1335/ 9 oktyabr 1919, №34, Albayraq, 2 Təşrini Sani 1335/2 noyabr 1919 №41; Albayraq,26 fevral 1336/1920, №71; İradeyi Milliyə, 12 aprel 13356/ 1920, № 36, İstiqbal, 10 aprel 1336/1920, №128; Milli hakimiyyət, 28 fevral 1336/1920, № 12; Milli hakimiyyət,13 aprel 1336/1920. №21;Milli hakimiyyət, 8 iyul 1336/1920, № 44.

[34]ATASE, A.5/2793, kls.324, s.9-4, f. 26, Qarabəkir. İstiqlal müharibəmiz, s. 636

[35] "Cümhuriyyət", 20 may 1933, №3244. Qarabəkir. İstiqlal müharibəmiz, s. 61. Ünüvar. Bolşeviklərlə 8 ay, s.23; Türk İstiqlal cəbhəsi, III Şərq cəbhəsi (1919-1921), Ankara. 1965. s.102

[36]Bu ad Ünüvar Əlidəmir bəy olaraq göstərilmişdi. (Ünüvar Bolşeviklərlə 8 ay s.23-25). Digər sənədlərdə (ATASE., A.6/6686, kls.923, s.7-8, f.1-32, 1-14) Xəlil bəyin xatirələrində, Cümhuriyyət qəzetində (Cümhuriyyət 20 may 1933. №3244.) və Şərq cəbhəsi adlı əsərdə Əli Teymur bəy olaraq göstərilir.

[37]ATASE, A.6/6686, kls.923, D.7-8, f.1-32, Cümhuriyyət 20 may 1933 №3244 Ünüvar, Bolşeviklərlə 8 ay, s.23.

[38]Doğulduğu il: Ərzurum h.1300, ölümü, Ankara, 1954.

[39] Ünüvar. Bolşeviklərlə 8 ay, s.23, Şərq Cəbhəsi, III, s.102.

## d) Xəlil bəyin Naxçıvana göndərilməsi

Ermənilərin Naxçıvan regionunda müsəlman əhaliyə zülm və təzyiqləri onların Türkiyədən yardım istəmələrinə səbəb olmuşdu. Ancaq Türkiyədən gələn mənfi cavablardan sonra 1918-ci ildə Naxçıvan ümumi komandanlığını yaratmış, oradan evlənmiş və region əhalisi içərisində nüfuz qazanmış Xəlil bəyə məktub göndərib bölgəyə dəvət etdilər. O, burada istədiyi qədər qüvvə toplayacaqdı. Xəlil bəy belə bir dəvətə yox demədi. O, Naxçıvanda baş verən hadisələri izləyir və məyus olurdu. Naxçıvana getməsi özü ilə bərabər əsgər və zabit götürməsi yuxarı təşkilatların icazəsindən asılı idi. Bu məqsədlə o vaxt mayor Qaraköşədə (Ağrıda) olan Kazım Qarabəkir paşaya iyul 1919-cu il tarixli teleqram göndərdi və Ərzuruma görüş üçün gəlməyə icazə istədi. Bir neçə gün cavab gəlmədi.Xəlil bəy bu məsələ ilə bağlı yenə teleqram göndərdi və nəticədə Xəlil bəyin Ərzuruma gəlməsinə icazə verildi. Ərzurumda Rüşdü bəyin[40] də iştirak etdiyi bir yığıncaqda Xəlil bəy Kazım Qarabəkir paşaya Naxçıvanın vəziyyətini bildirdi, regiona göndərilməsini xahiş etdi. Rüşdü bəy Xəlil bəyi dəstəklədi və onun mübarizədə müvəffəqiyyət qazanacağını dedi. Görüş nəticəsində Xəlil bəyə bir neçə zabit verilərək Naxçıvana göndərilməsi qərara alındı.[41]Xəlil bəy və yoldaşları Bəyaziddən gecə yola çıxacaq və diviziya dərhal onu fərari kimi qeydə alacaq, qanuni prosesə başlayacaqdı. Arada rabitə yaratmaq üçün şifr hazırlanacaq və çox etibarlı vasitələrlə əlaqə davam etdiriləcəkdi.[42]

Ancaq Xəlil bəyin xatirə dəftərlərindən götürülmüş, "Cümhuriyyət" qəzetində[43]dərc olunan yazıya görə Kazım Qarabəkir paşanın verdiyi bir əmrə əsasən bu vəzifə ikinci əmrə qədər təxirə salındı. Və bu vaxt Xəlil bəylə Naxçıvana gedəcək baş leytenant Ədib əfəndi icazə müddətindən artıq istifadəsi ilə əlaqədar həbs olundu. Xəlil bəy şübhələnməyə başladı. Aldadıldığına inanmırdı. 2 gün sonra vəzifəsi ləğv edilib onun diviziyanın əmrinə göndərildiyini eşitdi.

---

[40] 9-cu diviziya və mövqe komandiri.

[41] 1920-ci ilin martında da Naxçıvana qüvvə göndərilməsi və erməni hücumlarına qarşı tədbir görülməsi ilə əlaqədar yazılı sənədlər içərisində 31.5.36 tarixli əmr və Naxçıvana getmək üçün bir dəstədən bəhs edilmişdir. (ATASE, A.5/2793, kls.324, s.9-4, F.24, 26-2) Artıq məlumat verilmədiyi üçün qəti bir fikir söyləyə bilmirik.

[42] Cümhuriyyət, 20 may 1933, №3244, Kazım Qarabəkir paşa Xəlil bəyin cəsur bir zabit olduğunu və Naxçıvana göndərildiyini, bu məqsədlə Bəyazitdən Ərzuruma gəldiyini və onun görəcəyi işlər haqda ona göstəriş verildiyini deyirdi. (Qarabəkir İstiqlal müharibəmız s. 617)

[43] 1933-cü ildə qəzet sütunlarında Mustafa Kamal paşa və Kazım Qarabəkir arasında gedən mübahisələrdən bəhs edilmişdir. Mustafa Kamal lehinə, Kazım Qarabəkir əleyhinə yazılar dərc olunmuşdu. Bunlardan biri Xəlil bəyin xatirə dəftərinə əsasən Cümhuriyyət qəzetinin 20 may 1933-cü il tarixli nömrəsində Kazım Qarabəkiri təkzib etmək üçün dərc olunan "Ölən bir türk zabiti məzarından hayqırır" adlı yazı idi.

Xəlil bəy dərhal Kazım Qarabəkir paşaya bir teleqram göndərdi: "Vəziyyət çox pisləşmişdir. Vəzifə və ya səlahiyyət verilmədiyi təqdirdə özbaşıma getməyə cürət edəcəyim təbiidir.[44]

Xəlil bəy yeni vəzifəyə başlamasından 2 gün sonra diviziya komandiri tərəfindən geri çağırıldı. Naxçıvana getməsinə icazə verilmişdi. Cavid bəy ilə nə edəcəkləri müzakirə olundu. Bəyaziddən gecə yola düşəcək, sərhədi sakit bir yerdən keçəcəkdilər. Beləliklə, fərari olduğu təəssüratı yaradılacaqdı. Xəlil bəyin söylədiyinə görə əməliyyatı heç kim bəyənmir və müvəffəqiyyət qazanacağına heç kim inanmırdı. Bundan başqa ona 5-10 zabit verilməsi əvəzinə 3 zabit verilmişdi.[45]

Piyada kapitan Xəlil bəyin yanında topçu baş leytenant Naci,[46] baş leytenant Ədib,[47] leytenant Osman Nuri və 7 əsgər olmaqla 17,8 iyul gecəsi Bəyazid qarnizonundan yola düşdülər.[48] Yanlarında naxçıvanlı Hacı Cabbar bəy də olan kiçik Osmanlı dəstəsi 19 maydan 20 maya keçən gecə (1919) Yengicəyə çatdı.[49] Xəlil bəyin Naxçıvan günləri yenidən başlayırdı.

Xəlil bəy və yoldaşlarının Naxçıvana keçməsi əvvəlcədən qərara alındığı kimi fərari olaraq qiymətləndirildi[50] və onlar haqqında qanuni tədbirə başladılar. Xəlil bəyin Naxçıvandakı mübarizədə fəal rol oynaması, ermənilərə vurduğu zərbələr onun nüfuzunun sərhədləri də aşmasına səbəb oldu. Van valisi Heydər bəy Naxçıvandakı hadisələrdən xəbər tutdu. O, Daxili İşlər Nazirliyinə göndərdiyi 13 avqust 1919-cu il tarixli şifrli teleqramda: "Naxçıvanda Qafqaz əsgəri ilə bərabər Xəlil paşa adında bir nəfərin ermənilərlə vuruşduğu və onlara xeyli zərər verildiyi bildirilirdi".[51]

Daxili İşlər Nazirliyini həyəcan bürümüşdü. Bir türk zabitinin Naxçıvana keçib, müsəlman əhalini başına yığaraq vuruşması, hökumətin apardığı siyasətə zərər verə bilərdi. Buna görə də Van valisi Heydər bəydən izahat tələb edildi. Xəlil paşa kimdir? Bölgədə nələr olurdu? Heydər bəyin 15 avqustda Daxili İşlər Nazirliyinə göndərdiyi cavab, milli mübarizənin əvvəlində hərbi və mülki təşkilatların bir-biri ilə əlaqələrinin olması baxımından, hərbi təşkilatların mülki təşkilatlara güvənmədiyi baxımından

---

[44] Bu kapitanın ordu komandirinə belə bir teleqram göndərməsi nə dərəcədə mümkündür deyə bilmərik. Əlimizdə başqa bir sənəd olmadığı üçün "Cümhuriyyət" qəzetindəki bu yazını doğru qəbul edirik.

[45] Cümhuriyyət, 20 may 1933, №3244.

[46] General Naci Altuğ.

[47] İstiqlal müharibəsi əsərində Ədib bəy kiçik leytenant olaraq göstərilir. (Qarabəkir İstiqlal müharibəmiz, s.61) Xəlil bəy isə onu baş leytenant olaraq göstərir. (Cümhuriyyət, 20 may 1933) Ədib və Polkovnik rütbəsinə qədər yüksəlmişdir.

[48] Qarabəkir. İstiqlal müharibəmiz, s. 61-73 Şərq cəbhəsi s.63-64. Qotthar Jaeschke 28 maydan 27 aprelə qədər Milli Azərbaycan təqvimi. Qurtuluş, avqust 1936. №21. s. 22.

[49] ATASE, A. 5/2793, kls. 814, s.5-9, f.128-1.

[50] Qarabəkir. İstiqlal müharibəmiz, s. 61-73.

[51] BOA. DN. KMS, 53-2/87.

maraqlıdır. Heydər bəy belə yazırdı: "13 avqustda Şahtaxtında ermənilərlə müharibə edən, əvvəlcə Naxçıvan komandanlığında olan və sonra fərari kimi ordu tərəfindən qeydə alınan, haqqında qanuni təhqiqat aparılan Xəlil bəydir. Təhqiqatların nəticəsindən bəlli olur.[52]

## 2. Azərbaycan üçün Naxçıvan məsələsi

Çar Rusiyası dövründə başqa bölgələrdə olduğu kimi Qafqaz da bir çox quberniyalara (vilayətlərə) ayrılmış, Fevral inqilabı nəticəsində çar üsul-idarəsinin dağılması Qafqazda vəziyyəti dəyişdirmiş, "Ozakom" yaradılmışdı. Oktyabr inqilabından sonra növbə ilə "Zaqavkom", 28 noyabrda isə "Zaqafqaziya" komissarlığı və 22 apreldə Zaqafqaziya hökuməti quruldu. Nəhayət, Batumi konfransından əvvəl cümhuriyyət yaradan Gürcüstan, Azərbaycan və Ermənistan müstəqilliklərini elan edərək müstəqil dövlətlər kimi dünyada tanındılar. Bu dövrdə ruslardan dəstək alan ermənilər əhalisinin əksəriyyəti müsəlman olan İrəvanı (Rəvanı) özlərinə mərkəz etmişdilər. Bilavasitə İrəvan quberniyasına daxil olan uyezdlərə (qəza) sahib olmaq istəyirdilər. Bunun əksinə olaraq əvvəl mərkəzi Gəncə, sonra Bakı olan Azərbaycan Cümhuriyyəti də bu sahədə işə başladı. Onlar Cənubi Qafqazda əhalisinin əksəriyyəti müsəlman olan bölgələri öz torpaqları kimi görürdü. Bunun bir səbəbi bu bölgədə yaşayan adamların dil, din, irq və hətta məzhəb cəhətdən Azərbaycan əhalisi ilə eyni olmaları idi. İkinci səbəb isə, Osmanlı ordusu çıxdıqdan sonra Ermənistan ətrafındakı türk bölgələrinin sahibsiz qalmaları idi. Türkiyə imzaladığı müqaviləyə əsasən bu bölgənin əhalisi ilə maraqlanmırdı. Orada bu adamları qoruyacaq, qayğısına qalacaq tək dövlət Azərbaycan qalmışdı. Bölgədə müstəqil hökumətlər şəklində yaşamağa çalışan hökumətlər də Naxçıvanda olduğu kimi, Azərbaycanı özününkü hesab etdiklərindən onunla birləşirdilər.[53] Buna görə də Azərbaycan vəziyyəti yaxşı bildiyindən Naxçıvan başda olmaqla müsəlmanların əksəriyyət təşkil etdikləri bölgələri öz parçası sayır və millətlərarası platformada onların hüququnu müdafiə edirdi.[54]

25 yanvar 1919-cu ildə Tiflisdə ingilis generalı Vilyam Henri Biiç ilə görüşdə azərbaycanlı bir səlahiyyətli şəxs ölkəsinin sərhədlərini Dağıstandan başladaraq buraya Borçalını, Tiflis vilayətinin bir hissəsini, Eçmiədzin qəzasının kürdlər yaşayan hissəsini, İrəvan, Qars vilayətlərini,

[52]VOA. DN. KMS. 53-2/87.

[53] Azərbaycan Respublikası, MDƏYTA, f.894, On. 10, s.70, v. 2-6; Parisdəki sülh konfransında Qafqaz Azərbaycanı sülh heyətinin tələbləri; (Tərcümə: Vilayət Quliyev) Azerbaycan Demokratik Cümhuriyyəti, B. 1992, s. 177- 178.

[54] T.Köçərli Azərbaycan Demokratik Respublikası və Azərbaycanın ərazi bütövlülüyü məsələləri: Kommunist, 30 sentyabr 1990, №226 (21294).

Axılkələk, Ərdahan və Batumi qəzaların daxil etmişdi. General Biiç dərhal etiraz edərək Ermənistana yer qalmadığını bildirdi.[55] Azərbaycan hökuməti sərhəd xətlərini bir az da geri çəkərək Paris Sülh Konfransına getdi. Ancaq burada Azərbaycanın iki rəqibi var idi: Ermənistan və İran. Hər üç dövlət konfransda çox böyük tələblərlə iştirak edirdi. Azərbaycan Borçalı, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları və Yeni (Novo) Bəyazid, Eçmiədzin və Gümrü qəzalarının bir hissəsini tələb edir, Batumi və Qars üzərində haqları olduğunu göstərirdi.[56] Ermənistanın tələbləri daha böyük idi. Onlar Cənubi-Qafqazdan başqa Anadolunun da yarısını istəyirdilər.[57] Bu, Sovetlərin əvvəlki müqavilələrin ləğv etdiyini bildirən İranın Paris Sülh Konfransında fantastik tələblər etməsinə səbəb olmuşdu. İran nümayəndəsi Əliqulu xan Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ və İrəvanı tələb edirdi. Əliqulu xan Cənubi Qafqaz müsəlmanlarının mədəniyyət və din cəhətdən İran əhalisi ilə eyni olduğunu bildirir və naxçıvanlıların İranla birləşmək arzusunu dəlil kimi göstərirdi.[58]

Konfransda Azərbaycan və Ermənistan arasında çox ciddi mübahisələr olurdu. Xüsusilə, Naxçıvan məsələsi düyün nöqtəsi idi. Azərbaycan heyəti Naxçıvan və Şərurun öz torpaqları olduğunu irəli sürür,[59] bunu isbat etməyə çalışırdı. Erməni heyəti isə sənədlərlə konfransa gəlmiş Azərbaycanı "məsum" Ermənistana qarşı pis niyyətlər bəsləməkdə, Qarabağ və Naxçıvandakı müsəlmanların sayını şişirtməkdə ittiham edirdilər.[60] İran ilə anlaşılmazlıqların aradan qaldırılması mümkün olmurdu. Oktyabr 1919-cu ildə Azərbaycan nümayəndəsi Topçubaşov və İran xarici İşlər Naziri Əliqulu xan arasında danışıqlar anlaşılmazlıqlarla sona çatdı. Ancaq konfransın İranın tələblərinə xoş münasibət bəsləməsi nəticəsində İran-Azərbaycan münasibətləri düzəlmiş və İranda Azərbaycan səfirliyi və konsulluğu açılmışdı.[61]

Naxçıvan Azərbaycan üçün strateji baxımdan çox böyük bir əhəmiyyətəmalik idi. Azərbaycan Naxçıvan vasitəsilə qardaş ölkə Türkiyə ilə əlaqə yaratmaq niyyətində idi. Buna görə də Bakı-Culfa[62] dəmiryolu xəttini

---

[55] Azərbaycan Respublikası Cüm. MDƏYTA f.970, On. 1, s.42 v 3-4; История, философия, прав. АН. Азерб. ССР, Б.1990, №2, s.61-62.

[56] Azərbaycan sülh heyətinin tələbləri ,s. 176-178

[57] Bıyıqlıoğlu. Sərhəd siyasəti. s.27

[58] Firuz Kazımzadə, The Struqqle for Transcaucasia (1917-1921). New York, 1951, s.267; Nəsib Nəsibzadə.

[59] Azərbaycan Demokratik Respublikası. Bakı., 1990, s.27; Şövkət Tağıyeva. Nəsib Nəsibzadə. 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri və Azadistan məsələsi, Azərbaycan Demokratik Cümhuriyyəti B, 1992, s.67

[60] F. Kazımzadə, Transcaucasia, s. 268

[61] Tağıyeva, Nəsibzadə. Azərbaycan İran münasibətləri, s.67-69.

[62] Culfadan Bakıya Araz çayı boyunca yaxşı bir torpaq yolu var. A.B.Kadışev. Интервентсия и гражданская война и Закавказйе. Москва. 1960.c.55

Şahtaxtı-Maku, Bəyazid və Ağrıdan[63] Ərzuruma qədər uzatmaq istəyirdi.[64] Digər tərəfdən də dəmiryolu vasitəsilə Naxçıvanı nəzarətdə saxlamaq asanlaşacaq, Ermənistan üzərində üstünlük əldə ediləcək. Azərbaycanın Naxçıvanı əlində saxlaması həm siyasi, həm də hərbi cəhətdən çox əhəmiyyətli idi. Buna görə də Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi Xan Təkinski 4 iyun 1919-cu ildə hökumətinə göndərdiyi bir teleqramda bildirirdi ki, Azərbaycana qarşı baş verəcək erməni-rus könüllülərin (Denikin Ordusu) birgə əməliyyatlarının dayandırılmasının ən münasib yolu Naxçıvanda qüvvətli olmaq və ermənilərə xəbərdarlıq etməkdir. Naxçıvanlılar Zəngəzurun ələ keçirilməsində mühüm rol oynaya bilərdilər.[65] İki tərəfdən sıxışdırılan ermənilər bölgədən çıxa bilərlər. Daha sonralar Azərbaycan və Naxçıvan qüvvələri bu istiqamətdə müştərək bir əməliyyat aparmışdılar.[66]

## 3.Azərbaycan-Naxçıvan münasibətləri

Azərbaycan ilə Naxçıvanın əlaqə qurması həqiqətən çox çətin idi. Arada yerləşən Ermənistan Respublikası Zəngəzur erməni dəstələrinin nəzarəti altında idi və daim münaqişələr baş verirdi. Bakı-Tiflis-İrəvan-Naxçıvan dəmiryolu ermənilər tərəfindən kəsilmişdi. Azərbaycanlıların Ermənistandan keçməsinə icazə verilmirdi. Azərbaycan və ya Naxçıvan nümayəndələri ya müttəfiqlərin yardımı ilə Tiflis-İrəvan yolundan və ya İranın şimal hissəsindən istifadə edə bilərdilər.

Araz-Türk hökuməti əsasında müstəqil şəkildə yaşayan türk-müsəlman əhali 7 dekabr 1919-cu ildə Azərbaycan parlamentinin açılışına çox sevinmişdilər. Açılışa nümayəndə göndərildiyi kimi, Ordubad əhalisi təbrik teleqramı da göndərmişdi. Müsəlman əhali Azərbaycan parlamentinin bütün Qafqaz müsəlmanlarına sahib çıxacağına inanırdı. Naxçıvana erməni hücumunun başlaması, Araz vadisi əhalisinin Azərbaycanla olan əlaqələrini daha da artırırdı. Azərbaycan parlamentinə bölgədə baş verən hadisələr haqqında məlumat verildi. Vəziyyətin ciddi olduğu bildirilirdi. Parlament dərhal hökumətdən lazımi tədbirlərin görülməsini tələb etdi.[67] Ancaq Azərbaycan hökuməti bir çox imkansızlıq və təşkilatsızlığa görə Araz vadisinə dərhal

---

[63]Ruslar tərəfindən Culfa-Şahtaxtı- Maku-Bəyazid və Ağrı arasında bir dəmiryolu çəkilmişdi.(Təsviri-Əfkar 11 mart 1920, № 3009)

[64] Qarabəkir. İstiqlal müharibəmiz, s.345. Qafqaza səyahət zamanı general Harbord Azərbaycan dəmiryolu məsələsində niyyətini anlamışdı. (USA NA Paris Peace Conferance.. 184-02. 102\2. Dokuments on British Foreiqn Policy, First Series, Vol:IV. London 1958, c.818.

[65]Hovanisyan. Göstərilən əsəri. From Versailes to London, 1919-1920 Los Anqeles, 1982, c.64 Beləliklə M.Ə Rəsulzadənin dili ilə desək Azərbaycanı idealı həqiqətə çevrilmiş olardı. (Richard G. Hovanisyan. The Republic of Armenia The First Year 1918-1919. Vol. I. Los Anqeles, 1971, s.188-189).

ATASE, A.5/2793, kls.814, s.5-9, f. 128-3, ATASE, A.l/l kls.23, s.95-161, F.29. Qarabəkir, İstiqlal müharibəmiz, s.346.

[67] Aydın Hacıyev, Qars və Araz-türk respublikaları tarixindən. B. 1994, s. 50.

yardım əlini uzada bilmədi. Araz-Türk hökuməti isə erməni hücumları nəticəsində zəifləmişdi, köməyə ehtiyacı var idi. Buna görə də Araz-Türk hökuməti bölgənin fəal gənclərindən Paşa Bayramovu Bakıya göndərdi. Bayramov Azərbaycanınsəlahiyyətli şəxsləriylə görüşdü, hökumətinin xahişlərini bildirdi.[68] Bakıda yaşayan İrəvan Vilayəti müsəlmanları ilə görüşdü və nəticədə "İrəvan vilayəti müsəlmanlara həmyerlilərin Yardımlaşma Cəmiyyəti" quruldu. Paşa Bayramovun fəal çalışması nəticəsində Araz vadisindəki qaçqınlara yardım göndərərkən,[69] Azərbaycan hökuməti də Araz-Türk hökuməti hərbi hissələrinin yaratmaları üçün bir milyon rubl vermişdir.[70] Ancaq əvvəl göstərdiyimiz kimi, Araz vadisi üçün çox mühüm olan bu pul müəyyən məsələlərlə əlaqədar bölgəyə çatmadı.

Digər tərəfdən Azərbaycan hökumətinin razılığı ilə 24 yanvar 1919-cu ildə "İrəvan Vilayəti Müsəlmanları Həmyerlilərin Yardımlaşma Cəmiyyəti"-nin nümayəndəsi Mir Abbas Mirbağırov və hökumətin səlahiyyət verdiyi polkovnik Həsən Ağa Ququşov və ona tabe 11 zabit Cəbrayıl- Şimali İran yolu ilə Naxçıvana göndərildi.[71] Məqsədləri Araz vadisi əhalisinin ehtiyaclarını təmin etmək idi. 20 fevral 1919-cu ildə Naxçıvana gələnAzərbaycan heyəti təntənə ilə qarşılandı. Azərbaycanın dəstəyi ilə həvəslənən naxçıvanlılar bölgələrində ingilis valiliyi (general-qubernatorluq) qurulmasına baxmayaraq, Azərbaycanla birləşməyi qərara aldılar. Azərbaycan zabitləri də bölgəyə paylanaraq hərbi hissələrin yaradılması ilə əlaqədar işə başladılar.[72]Mir Abbas bəy Bakıya qayıdan kimi hökumətə bir hesabat təqdim etdi, görüləcək işlər haqqında tövsiyələr verdi. Onun fikrincə, Naxçıvana dürüst bir azərbaycanlı vali göndərilməli və bu şəxs İran ilə Ermənistanın Araz vadisindəki fəaliyyətinə mane olmalıdır. Eyni zamanda bir komandir təyin olunmalı, mülki idarə və məhkəmələrin idarə edilməsi üçün azərbaycanlı məmurlara vəzifə verilməlidir. Kifayət qədər zabit göndərilməlidir. İran və Ermənistanın təsirinə məruz qalan Naxçıvan, Şərur və Ordubada çoxlu pul göndərilməlidir. Bundan başqa Azərbaycandan Culfaya çəkilməsi nəzərdə tutulan və ancaq relslərin döşənməsi qalmış bu dəmiryolunun çəkilməsi tez başa çatmalı idi.[73]

---

[68] M.B.Naxçıvan-Şərur məsələsi I, Azərbaycan, 17 iyul 1919, №227, Naxçıvan-Şərur məsələsi III. Azərbaycan, 22 iyul 1919, №231,Azərbaycan, 24 dekabr 1918, №72.

[69] M.B. Naxçıvan-Şərur məsələsi III

[70] Azərbaycan Respublikası. MDƏYTA, F.894. On. 10 D.70. v.2

[71] Azərbaycan Respublikası. MDƏYTA, F.894. On. 10 D.70. v 1-6. ATASE, A. 418316, Kls.254. s.10-6. F. 14 M.V.

[72] Azərbaycan Respublikası. MDƏYTA, F.894, On. 10, s.70, v.4. M.B. Əliyev, Qanlı günlərimiz (1918-1920 Naxçıvan) B.1993, s.115; Hacıyev, Qars və Araz-türk respublikaları, s.55-56.

[73] Azərbaycan Respulikası. MDƏYTA, f.894 On. 10 s. 70 v. 5-6 Hacıyev. Qars və Araz-türk respublikaları. s.56-57.

Ermənistandakı müsəlmanlara edilən zülm və işgəncələr Naxçıvanda böyük bir kədərin yaranmasına səbəb oldu. Ermənistandan qaça bilən müsəlman qaçqınları Naxçıvana gəlməyə başladı. Qaçqınların sayı yüz minə çatmışdı. Buna görə də Naxçıvan hökuməti rəisi Cəfərqulu xan 14 mart 1919-cu ildə Azərbaycanın Tiflisdəki nümayəndəsi Məmməd Yusif Cəfərova bir teleqram göndərdi.Bu teleqramda Azərbaycanla birləşdikləri üçün Cəfərovu öz nümayəndələri hesab etdikləri bildirildi. Ermənistanın mane olması üzündən Tiflisdən Naxçıvana gələ bilməyənlərin ingilislər vasitəsilə göndərilməsini tələb etdi. Sonra isə Naxçıvanda olan qaçqınlara dərhal yardım göndərilməsini xahiş etdi.[74] Xarici İşlər Naziri Bəhrəm xan Naxçıvansikinin başçılığı ilə Bakıya göndərilən Naxçıvan heyəti Azərbaycan Nazirlər Şurası sədri Fətəli xan Xoyski və ingilis generalı Vilyam M.Tomson ilə görüşdü, xahişlərini bildirdi.[75]

Azərbaycan hökuməti bütün imkansızlıqlarına baxmayaraq, Naxçıvanla maraqlanmaq istəyirdi. Mart və aprel aylarında bir çox fikirlər və fəaliyyətlər oldu. İndiki Füzuli-Naxçıvan arasındakı poçta-teleqraf xəttinin istifadəyə verilməsi və mühafizəsi ilə əlaqədar yazışmalara başlandı. Naxçıvana neft göndərilməsi üçün təşəbbüs göstərildi. Teymur bəy Makinski, R.İsmayılov və doktor Qənizadədən ibarət bir heyətə Araz vadisindəki müsəlmanların vəziyyətini yaxından görmək, incələmək vəzifəsi tapşırıldı.[76]

Ancaq bu zaman Cənubi Qafqazda Azərbaycanın Naxçıvan siyasətinə küləklər əsməyə başladı. Qafqazdakı ingilis qoşunlarının baş komandanı general Tomson bir sıra ərazi bölgüsü etmiş, Şərur və Naxçıvanı da Ermənistana verməyi nəzərdə tutmuşdu.[77] Azərbaycan hökuməti və bilavasitə İrəvandakı nümayəndəsi Xan Təkinski çox narahat oldular. Erməni idarəçiliyi altında qalmaq Naxçıvan əhalisini məyus etmişdi və bununla Azərbaycanın Naxçıvandakı varlığı sona çatdı. Buna görə də ingilis valisi Azərbaycan zabitlərinə Naxçıvandan çıxmaları üçün ultimatum vermişdi.[78] İrəvanda erməni və ingilis təşkilatlarının Naxçıvanı işğal planlarına şahid olan Xan Təkinski hadisələrə mane olmaq üçün bir çox işlər gördü. Təkinski böyüyən hadisələr haqqında gizli məlumatlarla hökumətinə məlumat verir

---

[74]Hacıyev. Qars Araz-türk respublikaları. s.59.

[75]Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və MSSR-in təşkili. B. 1958. s.47-48. Hacıyev. Qars və Araz-türk respublikaları, **s.** 61.

[76]Hacıyev. Qars və Araz-türk respublikaları, s. 61-62.

[77]USA NA, Paris Conferance, 184021/126; Tamaşaçı. Naxçıvan məktubları II "Azərbaycan" 14 iyun 1919, №224. Hovanisyan. Ermənistan Respublikası. s .237. Akaby Nassibian. Britain and the Armenian Question 1918-1923, New York, 1984, s. 156; Hacıyev. Araz – türk Respublikaları, s. 62-63. Gothard Jaske. 28 maydan 27 aprelə qədər milli Azərbaycan təqvimi, Qurtuluş, №19, (may 1936), s.546.

[78]Tamaşaçı, Naxçıvan məktubları I Ermənilər Naxçıvana necə sahib oldular? Azərbaycan 9 iyul 1919, №220. Əliyev, Qanlı günlərimiz. s. 118; Hacıyev, Qars və Araz-türk respublikaları. s. 66. Hovanisyan. Göstərilən əsəri s.242.

və Naxçıvandakı müsəlmanların müqavimətlərini dəstəkləmək üçün pul istəyir. Naxçıvan və Şərur üzərində erməni təzyiqini azaltmaq üçün sərhədlərdə öz güclərini nümayiş etdirməyin lazım olduğunu bildirir. Bundan başqa o, Naxçıvanda xalqın könüllü olaraq silahlandırılıb-silahlandırılmaması haqqında məlumat istədi və müqavimətə hazır olan Naxçıvan türklərinin Azərbaycandan işarət gözlədiyini bildirdi.[79]

Həqiqətən də naxçıvanlılar Sədərək yaxınlığındakı Qurd qapısını pulemyotla atəşə tutmuşdular və ingilislər ermənilərə yardım etməsəydilər, onları yurdlarına buraxmayacaqdılar. Naxçıvanlılar Azərbaycanın yardımını gözləyirdi.[80] Ancaq Təkinskinin ümid etdiyi şəkildə Azərbaycan hökuməti hərəkətə gəlmədi. Azərbaycan hökuməti Naxçıvanın ana vətən olan Azərbaycandan ayrılmaması üçün etirazdan başqa bir şey etməyəcəkdi.[81] Naxçıvanlıların erməni qüvvələrinə müqavimət göstərmələrindən razı qalacaqdılar.[82]

Naxçıvanda erməni idarəetmə sistemi özü ilə bərabər bir çox sıxıntılar gətirmişdi. Ermənilər vəd etdiklərinin əksinə olaraq müsəlman əhaliyə qarşı çox sərt davranır, hakimiyyətləri uğrunda türk kəndlərini dağıdırdılar. Demək olar ki, belə bir şəraitdə çarəsiz qalan Naxçıvan camaatı üzünü Azərbaycana çevirdi. İrəvanda olan Xan Təkinskidən və Azərbaycan hökumətindən yardım istənildi.[83] Erməni hücumlarını dəf edən Ordubad əhalisi Bakıya nümayəndə göndərib, görüləcək işlər haqqında sərəncam verilməsini istədi.[84]

Araz vadisi ilə daim sıx əlaqə saxlayan Xan Təkinski Naxçıvanda olan özəl kuryeri vasitəsi ilə bölgədə cərəyan edən hadisələri öyrənib həmin anda hökumətinə bildirirdi. Hökumət də Təkinskinin bu enerjili fəaliyyətini təqdir edir və fəaliyyətinin davamını gözləyirdi. İngilislər Araz vadisindən çıxan kimi Azərbaycan hökuməti fəal bir siyasətə başladı. Tiflisdə Naxçıvanın nüfuzlu şəxslərinin tutulduğunu və Ermənistana göndərildiyini öyrənən hökumət Təkinskiyə dərhal lazımi təşəbbüslər göstərməsini tapşırdı.[85] Erməni hakim dairələri qarşısında türk əhalisinin hüquqlarını qorumağa çalışıldığı bir vaxtda ermənilərin Vediyə xaç yürüşü başlamışdı. Vedinin yardıma ehtiyacı var idi. Xan Təkinski hökumətindən təcili, mühüm

---

[79] Hovanisyan. Göstərilən əsər, s.241-242.

[80] Hacıyev. Qars və Araz-Türk Respublikaları, s.69-70. Hovanisyan. Göstərilən əsər. s.242.

[81] Azərbaycan hökuməti 3 may 1919-cu ildə Ermənistan hökuməti (Hacıyev. Qars və Araz-türk respublikaları s.68-69) və daha sonra da ingilis yuxarı dairələri məsələyə etiraz etdi. (A.Reavski. Мусаватское Правительство на Версальской Конференции. Б. 1931. s.67).

[82] Hovanisyan. Göstərilən əsər. s.242.

[83] История Философия. Право Известия А.Н. Азерб ССР. Б.1989. №4. с. 111. Hacıyev, Qars və Araz-türk respublikaları. s. 75-76.

[84] Azərbaycan. 6 iyul 1919 №217.

[85] Hacıyev. Qars və Araz-türk respublikaları, s. 71-77.

tədbirlər görməsini xahiş etdi. Sərhədlərə əsgər toplayaraq Vedi üzərində erməni təzyiqi azaldılmalı və müsəlman əhalisinin əhval-ruhiyyəsini yüksəltmək üçün bir nümayəndə göndərilməli idi. Hovannisyan göstərirdi ki, Təkinsknin xahişlərini nəzərə alaraq Azərbaycan hökuməti 200.000 hərbi sürsat və 300.000 rublu İranın şimalından Naxçıvana göndərmişdi.[86] Digər tərəfdən Vedi məsələsi dövlətlərarası məsələyə keçmiş və Azərbaycan hökuməti erməni və ingilis dairələrinə protest etmişdi.[87]

Ancaq Azərbaycan hökuməti və Təkinski protestlərlə kifayətlənmədilər. Erməniləri Naxçıvandan çıxarmaq üçün planlar hazırladılar. İngilislərin çıxması onlara bu fürsəti verdi. 4 iyun 1919-cu ildə ingilislərin çıxdığını hökumətinə bildirən Təkinski Ermənistana neft göndərilməsinin dayandırılmasını və Naxçıvandakı müsəlman əhaliyə aid təşkilatlara yardım göstərilməsini təklif etdi.[88] Ancaq Azərbaycan hökuməti söz verdiyi halda əvvəlcə Araz vadisinə kömək göndərə bilmədi. Ermənilərin əməliyyatları nəticəsində Naxçıvandakı könüllü dəstələr dağılırdı. Buna görə də Təkinski hökumətdən yeni tələblər edirdi: "Erməni sərhədi boyunca əsgər düzülməli və Naxçıvandakı müqavimətə dəstək olmaq məqsədilə Maku xanla və kürd lideri Simko ilə əlaqəyə girmək üçün ona səlahiyyət verilməlidir".[89] Təkinskinin tələbləri və Vedi döyüşlərinin başlaması Azərbaycanın Naxçıvana yardım fəaliyyətini gücləndirdi. Hərbi sursat və pul göndərildi.[90] Ordubad əhalisinin tələbi ilə bölgəyə siyasi nümayəndə Səməd bəy Cəmilinski göndərildi.[91] Arxalarında Azərbaycan dəstəyini görən naxçıvanlılar müntəzəm surətdə Xan Təkinski ilə əlaqə saxlayır və onun tövsiyəsi ilə Milli Şura ətrafında birləşirdilər. Artıq təşkilatları yaranmağa başlamışdı. Bakı və Tiflisdə olan naxçıvanlıların geri göndərilməsini Azərbaycandan tələb edirdilər. Məqsədləri onlarla Naxçıvan camaatına mənəvi dayaq olmaları idi.[92] Ermənilər və müttəfiq dövlətlərin nümayəndələri Türkiyə və Azərbaycanın Araz vadisi əhalisinə etdiyi bütün yardımı çox yaxşı bilir və bunu məlumatlarında göstərirdilər.[93] Əslində bu nümayəndələr erməni təbliğatla-

---

[86]Hovanisyan. Ermənistan Respublikası s.68.

[87]Azərbaycan, 12 iyul 1919 №222. Hacıyev, Qars və Araz-türk respublikaları, s. 78-79; Hovanisyan, Göstərilən əsəri. s.65. Jaske Milli Azərbaycan təqvimi s. 11

[88]Hovanisyan, Göstərilən əsəri, s. 248.

[89]Hovanisyan, Ermənistan Respublikası s.64, Hacıyev, Qars və Araz-türk respublikaları, s.75.

[90]Azərbaycan, 23 iyul 1919. №232. Hovanisyan. Göstərilən əsər s.68.

[91]ATASE, A.5/2793, Kls.814, s.5-9, f.128-2.

[92] Hacıyev, Qars və Araz-türk Respublikaları, s. 71-72-83.

[93]USA. NA, Paris Peace Conferance 184.021\10, 184.0202\2184. s. 21/216. USA NA Near Eastem Affairs 867.00\1047, 867.00\1100, Documents On British foriqn Policu 818, Кацазнуни. Дашнакцитюн, Болше нечего Делать, Б, 1990; 280. Hovanisyan, göstərilən əsəri, s. 68-69.

rına uyub, rəqəmləri bir az şişirtsələr də, yardım edilməsi bir həqiqət idi.[94] Əslində Naxçıvanın istiqlal qazanması və sonrakı dövrü ilə əlaqədar olaraq Azərbaycan Cümhuriyyəti liderlərindən M.Ə.Rəsulzadə yazırdı: "Bakıdan çox uzaqda yerləşən Naxçıvanın Ermənistan hökumətinə qarşı mübarizəsi maddi, mənəvi və siyasi cəhətdən dəstəklənərək və oraya vali göndərməklə Azərbaycana bağlılığı təmin edilmişdir.[95]

Naxçıvan müstəqillik qazandıqdan sonra Xəlil bəy Ordubadda olan Azərbaycanın siyasi nümayəndəsi Səməd bəyi gətirib vali təyin etdi. Naxçıvan regionunu Azərbaycana ilhaq etdiyini bildirdi və Xəlil bəy də Azərbaycanın Naxçıvan regionunun ümumi komandiri oldu.[96]

Bu tarixdən sonra Azərbaycan-Naxçıvan əlaqələri daha da inkişaf etdi. Azərbaycan hökuməti Naxçıvanda görülən işləri məqsədəuyğun sayır və pul yardımı göstərirdi.[97] Azərbaycanın Naxçıvan üzərində təsiri olduğuna görə Naxçıvan və ətrafında Amerika general-qubernatorluğu qurmağa cəhd göstərən Vilyam N. Haskel planını Azərbaycan hökumətinə qəbul etdirmək üçün çalışır, hətta şantaja belə əl atırdı.[98]

Bu vaxt Araz vadisi əhalisi də Azərbaycan hökumət rəisi Nəsib bəy Yusifbəyova göndərdikləri bir məlumatda Haskel ilə danışıqlarda onların təkliflərinin nəzərə alınmasını, bundan başqa, Daşnak zülmünü sübut etmək üçün bitərəf heyətin yaradılmasını və Naxçıvan-Azərbaycan yolunun dərhal açılmasını tələb etmişdi.[99]

Əvvəllər olduğu kimi, yenə də İrəvanda olan Azərbaycan nümayəndəsi vasitəsi ilə Azərbaycan-Naxçıvan münasibətləri davam etdirilirdi. Ə.Haqverdiyev və Əli xan Makinski bu işdə fəal rol oynayırdılar.[100] Naxçıvan valisi Səməd bəy də müntəzəm surətdə Ə.Haqverdiyev ilə əlaqə saxlayır, regionun məsələlərini, xahişlərini Azərbaycan hökumətinə bildirirdi.

---

[94] İyul ayı ərzində Naxçıvanda başlayan döyüşlərdə türklərin iştirak etməsi Ermənistana qarşı hərəkət edən gizli birAzərbaycan-Kamalist müqaviləsinin olması haqqında qərb mətbuatında yazılar çıxmasına səbəb olmuşdu. Əli Mərdan Topçubaşov Parisdə Azərbaycana müttəfiq dəstəyini itirməmək üçün bu dedi-qoduları təkzib edirdi. (Tadeuş Svyatoxovski. Müsəlman camaatdan milli şəxsiyyətə. Rus Azərbaycanı, 1905-1920, İstanbul.1988. s.214)

[95] M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyətinin təşəkkülü və indiki vəziyyəti. İst. 1339-1341, s.88. Mirzə Bala da əsərində bunu göstərmişdir. (Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Müsavat xalq firqəsi tarixi. İstanbul 1938. s.166.)

[96] ATASE, A.5/2793, Kls.814. s.5-9, f. 128-2, Qarabəkir. İstiqlal müharibəmiz, s.304. Hacıyev. Qars və Araz-türk respublikaları s.84-85. Kazım Qarabəkir paşa Naxçıvanın Azərbaycanla birləşməsi məsələsində bu məlumatı verirdi: Naxçıvan regionu Türkiyəyə aiddir. Milli sərhədləri daxilinə almaq imkanı olmadığından Azərbaycanla birləşərək ona bağlanması və ya müstəqil idarə olunması üçün Xəlil bəyə göstəriş verilmişdir. Vəziyyətə görə münasib olanı xalq nümayəndələri ilə müəyyənləşdiriləcəkdir. (K.Qarabəkir İstiqlal müharibəmiz s. 304.)

[97] ATASE, A.5/2793, Kls.814. s.5-9, f. 128-2, Qarabəkir. İstiqlal müharibəmiz, s.304.

[98] Ətraflı məlumat üçün bax III bölməyə.

[99] Azərbaycan qəzeti. Bu məlumatı 19 sentyabr 1919-cu il tarixli Azərbaycan qəzetindən almışdır. ("Al bayraq" 30 oktyabr 1919 №40)

[100] Hacıyev. Qars və Araz-Türk Respublikaları, s.93.

Səməd bəyin və bilavasitə Araz vadisi əhalisinin ən böyük sıxıntıları, dərdləri ermənilərin sakit durmamaları idi. Ermənilər bir tərəfdən Vedibasar və Ordubad kimi sərhəd bölgələrinə hücum edir, digər tərəfdən Sürməli, Zəngibasar və Eçmiədzin tərəflərindəki müsəlman əhaliyə zülm edirdilər. Zülmdən canını qurtaran adamlar Naxçıvana sığınırdılar. 100 mindən artıq mühacirin vəziyyəti dözülməz idi. Naxçıvan regionunun imkanları ilə bu mühacirlərin ehtiyaclarını təmin etmək mümkün deyildi. Polkovnik Haskel Ermənistandakı müsəlmanlarla maraqlanmırdı. Buna görə də Səməd bəy vəziyyəti müxtəlif teleqramlarla Azərbaycan hökumətinə bildirdi və kömək istədi.[101] Regionda baş verən erməni zülmü ilə əlaqədar Ermənistan və Qafqazda olan müttəfiq nümayəndələrinə etirazlarını bildirdi.[102] Digər tərəfdən, Azərbaycanda yaradılan "İzmir, Zəngəzur, Naxçıvan, İrəvandakı fəlakətə düçar olanlara Müavinət Komitəsi"nin köməyi ilə Araz vadisi üçün yardım kompaniyasına başlanılmış, müsəlman mühacirlərin dərdlərinə dərman tapmağa çalışıldı.[103] 1919-cu ilin axırlarından etibarən Azərbaycanın Naxçıvan valisi Səməd bəyin xanlarla, bir müddət sonra da Xəlil bəylə münasibətləri pisləşdi. Azərbaycan mənbələrinə görə, Kalbalı xanın başına yığdığı xanlar İranla birləşmək və beləliklə, öz idarəetmə sistemlərini yaratmaq istəyirdilər. Bu məqsədlə Azərbaycanın əleyhinə iş aparır və bir çox haqsız işlərlə məşğul olurdular.[104] Əvvəlcə, Xəlil bəy Səməd bəylə xanların arasındakı münasibətləri düzəltməyə çalışdığı halda, özünün də Səməd bəylə münasibəti pozuldu. Raportda qeyd edildiyi kimi, Səməd bəy Naxçıvanda türk təbəəsinin olmasından narahat olur və bunun əleyhinə iş aparırdı.[105] Azərbaycanın Ermənistanla müqavilə bağlamasına çalışması və bilavasitə Səməd bəyin də bu fikirdə olması Xəlil bəyi olduqca narahat edirdi. Münasibətlər pozulmağa başladı. İrəvandakı Azərbaycan elçisi Ə. Haqverdiyev hökumətdən Xəlil bəyin geri çağrılmasını istəyir, Səməd bəy isə təcili tədbirlər görülməsini və onun yerinə təcrübəli bir şəxsin təyin olunmasını tələb edirdi.[106] Ancaq Haqverdiyevin və Cəmilinskinin təklifləri yerinə yetirilməmiş, Xəlil bəy Türkiyə mövqeyini nəzərə alaraq 1920-ci ilin mart ayının ortalarında Səməd bəy Cəmilinskini Naxçıvandan çıxartdı və yerinə azərbaycanlı Qara bəy adlı birini vali təyin etdi.[107]

---

[101] Azərbaycan Respublikası. MDƏYTA, f.970, On.l. s.104. v. 2-3. Hacıyev. Qars və Araz-türk respublikaları s.96-97.

[102] Azərbaycan Respublikası, MDƏYTA, f.897, On.l. s. 116, v. 11-14; Azərbaycan Respublikası, MDƏYTA, f. 894, On. 10, D.94, v.9-15.

[103] "Al bayraq", 12 aprel 1920. №83.

[104] Hacıyev. Qars və Araz-türk Respublikaları, s.99-102. Bu haqda digər bölmələrdə ətraflı məlumat veriləcəkdir. s. 96-97.

[105] ATASE, A.5/2973, Kls.814, D.5-9, F.128-3.

[106] Hacıyev. Qars və Araz-türk respublikaları, s. 105-107

[107] ATASE, A.5/2973, Kls.814. D.5-9, F, 128-3. Cümhuriyyət, 20 may 1933, №3244

Azərbaycan hökuməti Xəlil bəyin bu sərt tədbirindən narazı qalmışdı.[108] Ancaq Azərbaycan ilə Naxçıvan münasibətlərində soyuqluq çox uzun çəkmədi. Belə ki, 27 aprel 1920-ci ildə Bakının XI Qızıl Ordu hissələri tərəfindən işğalı ilə Azərbaycanda sovet dövrü başladı. [109] Buna görə Naxçıvan Azərbaycan münasibətləri müvəqqəti donduruldu.[110]

## B) Naxçıvanda Yerli İdarə və böyüyən hadisələr

### 1. Güc mənbələri

Erməni ordusu məğlub edilərək Naxçıvandan çıxarıldıqdan sonra Naxçıvan regionu müstəqilliyini qazanmışdı. Yeni bir idarəetmə sisteminin yaradılması lazım idi. Müharibənin qurtarmasına yaxın müttəfiq dövlətlərin nümayəndələri ilə sülh danışıqlarını aparan və əvvəlcədən regiondaböyük nüfuz qazanan Xəlil bəy bölgənin siyasi vəziyyətini müəyyən edəcək ən mühüm qüvvə mərkəzinə çevrilmişdi.Türk hərbi nümayəndəsi olması, yerli əhalinin və bilavasitə könüllülərin dəstəyinə sahib olması, eyni zamanda Naxçıvanın nüfuzlu xanlarından Məhəmməd Əli xanın qızı ilə evlənməsi, təşkilatçılığı, ermənilərlə döyüşlərdəki zəfərləri və nüfuzu[111]Xəlil bəyi güclü edən səbəblər idi.[112] Bir Amerika kəşfiyyat məlumatında göstərilirdi ki, Xəlil bəy türk əhali tərəfindən sevilmir, ancaq ona hörmət və itaət edilirdi.[113]

Regiondakı nüfuzunu bilən Xəlil bəy dərhal yeni bir idarəetmə sistemi yaratmağa başladı. Kazım Qarabəkir Paşanın tövsiyəsi və əhalinin razılığı əsasında Naxçıvanın Azərbaycana bağlanmasını məqsədəuyğun gördü. Azərbaycan hökuməti tərəfindən Ordubada siyasi nümayəndə kimi göndərilən Səməd bəy Cəmilinski[114] Naxçıvana çağırılıb vali təyin olundu.[115]Naxçıvanın Azərbaycana bağlanması elan edildi və burada Azərbaycan bayrağı dalğalandı.

---

[108]ATASE, A.5/2973, Kls.814. D.5-9, F, 128-3.

[109]Ətraflı məlumat üçün bax; M.Ə Rəsulzadə. Azərbaycan Cümhuriyyəti, s. 107-111; Məmməd Şərif Əfəndizadə. Azərbaycan və inqilabı. İstanbul,1921, s.40-44; Kazımzadə. Zaqafqaziya. s. 276-285. Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası Bakı.1990. s.38-41, Z.İbrahimov, Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. B.1957.S. 574-576. Eral Kürkcüoğlu. 1918-1920. Türkiyə-Azərbaycan münasibətləri (nəşr olunmamış doktorluq dissertasiyası), Ərzurum, 1994.s. 406.

[110] Sovet Azərbaycanı və Naxçıvan münasibətləri haqqında V bölmədə bəhs ediləcək.

[111]Xəlil bəy nüfuzu müvəffəqiyyətin bir sirri kimi göstərir və əhali ilə ciddi davranmağı məqsədəuyğun sayırdı. Əhali və nüfuzlu şəxslər çox səmimi olmur, onlarla sərt davranılması gərəkdiyini nəzərə alır. Əgər əhali komandanından qorxmazsa, döyüşdə müvəffəqiyyət əldə edə bilməz – deyə düşünürdü.

[112] Haskelə görə, Xəlil bəy Naxçıvanda çox güclü idi. Buna görə də Azərbaycanın onun üzərində nəzarəti az idi. USA. NA, Near Eastern Affairis. 867.00/1108.

[113]USA. NA, Near Eastern Affairs, 86700\1100.

[114]26 yaşlı Səməd bəy Petroqrad Universitetinin məzunu idi. (Hovanisyan.Ermənistan Respublikası. s. 107).

[115]Naxçıvanın birləşmə qərarı Azərbaycan hökumətinə bildirildiyi kimi, Naxçıvan əhalisinin Azərbaycanla birləşməsinə dair yığıncaq qərarları da Bakıya göndərildi. (Hacıyev. Qars və Araz-türk respublikaları. s.84).

Xəlil bəy də özünü Azərbaycanın Naxçıvan regionunun komandiri elan etdi.[116] Kalbalı xan isə həm Xəlil bəyin köməkçisi, həm də milis komandiri idi.[117]

Bundan başqa, erməni idarəetmə sistemi dövrünün əvvəllərində yaradılan Milli Komitə ləğv edilmiş, yenə də əhali içərisindən seçilmiş nümayəndələrin iştirakı ilə Milli Şura təşkil olunmuşdu. SədrHeydərqulu bəy idi.[118] Səmada hakimiyyət rəmzi olaraq Türkiyə və Azərbaycan bayraqları dalğalanırdı.[119]

Bir Amerika raportunda göstərildiyi kimi, Naxçıvan idarəetmə mexanizmində olan şəxslər arasında fikir ayrılığı var idi. Millətçi dünyagörüşünə sahib Xəlil bəy, Kalbalı xan və Heydərqulu bəydən ibarət birinci qrup, II qrup Böyük xan və oğlundan ibarət idi. İkincı qrupun üzvlərı Azərbaycana daha çox meyilli idilər.[120] Ancaq onlar çox güclü deyildilər.[121] Əsl güc Xəlil bəy və Kalbalı xanın əlində idi. Səməd bəy üçüncü güc mərkəzi sayılırdı və Hacıyevin fikrinə görə, onun valilik səlahiyyəti çərçivə içində idi. Azərbaycanın Qarabağ, Qazax və s. valilərinin səlahiyyətləri və hüquqları ilə Səməd bəyin səlahiyyəti müqayisə edilə bilməzdi. Səməd bəy də bu vəziyyəti bildiyindən üç qrupdan şikayət edirdi.[122] Naxçıvandakı qruplar arasında fikir ayrılığı, xarici heyətlərlə keçirilən görüşlərdə daha çox bəlli olurdu. Xüsusi ilə amerikalıların ermənilərin lehinə olan fəaliyyətlərini çox yaxından izləyən Xəlil bəy və yoldaşları güzəştsiz bir siyasət aparırdılar. Azərbaycan hökumətinin təsiri ilə Səməd bəy bərabərlik siyasətini davam etdirir və əməkdaşlıq üçün Amerika heyətlərinə söz verirdi. Belə bir vəziyyət isə bu qüvvələr arasında sıxıntıların çıxmasına səbəb olurdu.[123] İlk dövrlərdə Xəlil bəyin Azərbaycan hökuməti ilə münasibətində bir narazıçılıq yox idi. Hətta o, Azərbaycan hökumətinin əmrinə əsasən Zəngəzurdakı erməni dəstəsinin üzərinə hücum etmişdi.[124] Sonrakı dövrdə Səməd bəyin

---

[116] ATASE.A.5\2973.KLS. 81 4. s.5-9. F. 128. Naxçıvanın Azərbaycanla birləşməsi türk dairələri arasında yazışmalarda öz əksini tapmışdı. ATASE A.1/2.kLs.108. s.391-151. F.12,12,1. 29-1. ATASE A.5\5405. Kls.294. s.(7)-4. f.l. ATASE, A.l\2. Kls.82. s.304-210. F.55-56.

[117] ATASE A.5\2973. Kls.814. s.5-9. F. 128-2. Hacıyev. Qars və Araz-türk respublikaları. s.85. Hacıyev göstərirdi ki, Səməd bəy Azərbaycan tərəfindən Naxçıvana vali təyin olunmuş, o da Kalbalı xanı və Xəlil bəyi vəzifəyə təyin etmişdi. Bu məlumat həqiqəti əks etdirməyir. O vəziyyətdə nə Azərbaycan Naxçıvandakı güc qarşısını alaraq belə bir iş görə bilməzdi və nə də Səməd bəy iki nüfuzlu şəxsi təyin edəcək qədər səlahiyyətə sahib deyildi.

[118] USA. NA, Near Eastern Affairs, 867.00\1100. Paxton Hibben Keepinq The Peace in Transcaucasia, Asia Amerikan Maqazine on the Orient. Ağustos. 1920. c. 725.

[119] P.Hibben Keepinq. The Peace in Transcaucasia . s.725.

[120] Azərbaycanın ən yaxşı tərəfdarı olan Böyük xan Anadoluya gələrək türk zabitlərini bol pul vədi ilə Azərbaycana aparırdı. Kazım Qarabəkir Paşa məsələnin ciddiliyini başa düşərək, bu cür fəaliyyət göstərənlərə çox sərt davranırdı (Qarabəkir. İstiqlal müharibəmiz s.335.)

[121] Near Eastern Affairs. 867.00/11.00

[122] Hacıyev, Qarsvə Araz-türk Respublikaları. s.86-115

[123] USA NA Near Eastern Affairs. 867.00/100. USA NA Paris Peace Conferance.l84.021\285.

[124] ATASE A.5/2973. Kls.814. s.5-9, F.128-3, ATASE A.l/l, Kls.23. s.95-161, F-29

Naxçıvanda Türkiyə və bilavasitə Xəlil bəyin əleyhinə bir siyasət aparması, eyni zamanda Azərbaycan hökumətinın Ermənistan ilə müqavilə zəmini axtarması Xəlil bəyi narahat etmişdi. Bu da Naxçıvanda qüvvə bərabərliyini dəyişdirib yeni bir zəminin yaranmasına səbəb olmuşdu.[125]

## 2. İnzibati, hərbi və iqtisadi təşkilat

Yeni dövrdə Naxçıvanda yaradılan idarəetmə təşkilatları haqqında əlimizdə ətraflı bir məlumat yoxdur. Ancaq bilinən budur ki,Heydərqulu bəy sədrliyində Milli Şura,[126] bir valilik və Səməd bəy tərəfindən Şərurda, Ordubad və Naxçıvanda idarəetmə təşkilatları yaradılmışdı.[127] Xəlil bəy və bir çox türk mənbələri Naxçıvanda bir hökumətin varlığından söz açırlar. Ancaq bu hökumət vəNaxçıvan İslam hökuməti terminləridir.[128] Hacıyev göstərirdi ki, Naxçıvanda erməniləri çıxartdıqdan sonra hakimiyyəti ələ keçirən Kalbalı xan keçmişi şübhəliolan şəxslərdən hökumət təşkil etmişdi. Onların arasında Sələsüz Batalyon komandiri Fətəli xan və Naxçıvan şəhərinin polis rəisi Cabbarağa Vəzirov da var idi.[129] Naxçıvanda mövcud olan hökumət müəssisələri haqqında bunlardan başqa bir məlumatımız yox-dur. Xəlil bəyin dediyi türk mənbələrində rastlaşdığımız hökumət sözünün Milli Şura mənasındamı və ya valilik mənasında işləndiyi məlum deyildi. Müşahidələrimizə əsasən deyə bilərik ki, Xəlil bəy hökumət dedikdə valiliyi nəzərdə tuturdu. Vali Səməd bəy ondan və Türkiyə əleyhdarlarından söz açdığı zaman xanlar ilə hökumətin əməkdaşlığından şikayət edirdi.[130] Hacı-yev də hökumətlə bağlı ifadələri Səməd bəylə Kalbalı xan arasında narazı-çılıqdan bəhs edərək işlətmişdir. Müəllif Səməd bəyin tərəfini saxladığından Kalbalı xanı çox güclü göstərmək istəyərək belə yazmışdı. Buna görə də Hacıyev əsərində hökumətlə əlaqədar məlumatından başqa heç bir şey yaz-mamışdı. Yenə mənbələrdən məlum olur ki, normal bir qaydada hökumət rəisinin yerinə yetirəcəyi bütün işləri Səməd bəy icra etmişdir. Hətta Səməd bəy idarəetməyə qarışdıqlarına görə Xəlil bəy və Kalbalı xandan şikayət edirdi.[131]

---

[125]Bax: Liderlər arasında gərginlik və idarəetmədə mənfiliklər.

[126]USA NA, Near Eastera Affairs. 867.00/11.00. Hibben. "Keepinq The Peace in Transcatıkasia", s.725. Bu dövrdə Naxçıvan şəhərinin yerli nümayəndəsi 23 nəfərdir. Onlardan 8 nəfəri Milli Şura üzvüdür. Ancaq rəqəm kifayətedici olmadığına görə bir yığıncaq nəticəsində Şuradakı nümayəndə miqdarı 13 nəfərə çatdırtlmışdır. Əkbər xan, Kalbalı xan Naxçıvanski, Məmməd Sadıq bəy. Bəkir ağa Kəngərlinski, Məmməd Əlizadə və Cahangirzadə Həsən Safvət də bu üzvlər arasında idi. (ATASE, A.6\6686. Kls.924, s. 6-1, F. 16-16.)

[127] Hacıyev, Qars və Araz-türk respublikaları. s. 85

[128]ATASE. A.5\2793, Kls.814. s.5-9. F. 128-3, 128-4, ATASE, A.l\2, Kls.108, s.391-151, F. 129-1, 12. ATASE. A.5\5404, Kls.294, s.(7)-4. F 1

[129] Hacıyev. Qars və Araz-türk respublikaları, s.102

[130] ATASE. A.5\29973. Kls.814. s.5-9. F.128-3

[131]Hacıyev. Qars və Araz-Türk Respublikaları, s.86

Azərbaycanla birləşmiş və başında mülki bir vali duran regionda ayrıca siyasi iqtidar mənasında bir hökumət olması ağla sığmazdır. Əslində Naxçıvana gələn bütün Amerika heyətləri də regiondakı nüfuzlu adamların – Kalbalı xan, Əli bəy, Səməd bəy və Milli Şura sədri Heydərqulu bəyin adlarını raportlarında çəkmiş, heç bir hökumət və rəisindən söz açmamışlar.[132] Əgər bir hökumət, bilavasitə sədr olsaydı amerikalıların onlarla da danışıqları olmalı idi.

Region həm idarəetmə, həm də hərbi cəhətdən 4 bölgəyə – Ordubad, Naxçıvan, Şahtaxtı və Şərur bölgələrinə ayrılmışdı. Bölgə komandirləri alay komandirləri səlahiyyətinə sahib idilər. Xəlil bəy Naxçıvan regionu komandiri. Kalbalı xan da həm Xəlil bəyin müavini, həm də könüllülər dəstəsi komandiri idi. Ordubad bölgəsi komandiri baş leytenant Ədib, Şərur bölgəsi komandiri baş leytenant Naci idi.[133] Hərbi təşkilatlara-hərbi hissələrə böyük əhəmiyyət verilirdi.[134] Könüllülər dəstəsi yarana biləcək erməni təhlükəsinə qarşı yenidən nizama salınırdı.[135] Ancaq onları yaradacaq və idarə edəcək zabit yox idi. Buna görə də Xəlil bəy və Səməd bəy Kazım Qarabəkir paşadan zabit, doktor və ehtiyac olan qənd tələb etdilər. Xəlil bəy təşkil olunmuş hərbi hissələrə aid hazırlanmış cədvəlləri göndərdi.[136] Döyüş zamanı hansı bir yolla hərəkət ediləcəyinə dair qaydalar da qəbul olunmuşdu. Buna görə də döyüş bölgələrinə ancaq aid hissələri göndərəcəkdilər. Ordubada hücum edilərsə, Naxçıvan istisna olmaqla Şahtaxtı və Şərurdan əlavə hissə göndərilməyəcəkdi. Ancaq hər bir hissə öz cəbhəsində sakitlik olduğu vaxt ermənilərə hücum edəcək və onları sıxışdıracaqdı. Ermənilər Naxçıvana hücum edərlərsə, müvəffəqiyyət qazana bilməzdilər, buna görə də buradakı hissələr bütün bölgələrə yardıma göndərilə bilərdi.[137] Hərbi hissələr üçün çox mühüm olan təchizat Türkiyə və Azərbaycandan ödənilirdi. 9 oktyabr 1919-cu il tarixdə Naxçıvan və Sürməlidə 60. 000 ədəd rus hərbi sursatı var idi. Bölgədən yeni hərbi sursat və s barədə gələn

---

[132] USA. NA, Paris Peace Conferance 184.021.0215, 184.021/285; USA.NA, Near Eastern Affairs 867001047, 867001100; Ceneral Van Horn Mosely, Mandatoru Over Armenia Report, Vashinqton, 1920, c. 18; Hibben Keepinq The Peace in Transcancasia, s. 725.

[133] ATASE, A.5\2973, Kls.814, S.5-9, F.128-2; Şərq cəbhəsı III, s.64: Hacıyev, Qars və Araz-Türk Respublikaları, s.85.

[134] Sentyabr ayının axırlarına yaxın Naxçıvana gələn Xəlil paşa bir ay ərzində bölgədəki zabit və əsgərlərin təlimi ilə məşğul olmuşdu. (Xəlil paşa, Qurtarmayan müharibə, s.317).

[135] USA. NA, Near Eastern Affairs 867.001100. Oktyabr ayında Naxçıvana gələn polkovnik rəhbərliyindəki heyətin müşahidələrinə görə sərhəddə olan yerli müsəlman əsgərləri köhnə silahlarla, patronlarla silahlanmışdılar. Uniformaları çox pis vəziyyətdə idi. Yaxşı bəslənilməmişlər. Bilikləri də zəif idi.

[136] ATASE, A. 5/2973, Kls.814, D.5-9, F.128-2, Qarabəkir. İstiqlal müharibəmiz, s.305-306.

[137] ATASE, A. 5/2973, Kls.814, D.5 9, F. 128-2.

xahişlərə[138] ordu komandirlərinin qərarı ilə cüzi miqdarda pul ilə veriləcək, həmin pul da milli qüvvələr üçün xərclənəcəkdi.[139]

Digər tərəfdən, bir Amerika kəşfıyyat raportunda göstərilirdi ki, Bakıdan Naxçıvana pulemyotlar göndərilir, əhali silahlandırılırdı. Təlim verən Kalbalı xan idi.[140] Artıq Naxçıvanda hərbi hissələrin yaradılması sahəsində xeyli iş görülmüşdü. Bu səbəbdən də türk hərbi dairələrindən hərbi yardım istəyən Sürməli nümayəndəsinə Naxçıvan ilə əlaqə saxlamaları təklif edildi.[141]

Naxçıvan və ətrafında iqtisadi təşkilatlar əvvəlcə olduğu kimi idi. Məhsuldan vergi alınırdı. Sahibsiz mallar kirayə veriləcək, gəlirləri toplanacaqdı. Duz mədəni nisbətən işlədilir, dəmiryolu və gömrükxanalardan gəlir əldə edilirdi. Taxıl anbarı sayılan Naxçıvan regionunun ümumi gəliri 1920-ci il üçün təxminən 200.000 pud idi. 1919-cu ildə erməni idarəetmə sisteminin yaradılması və baş verən döyüşlərdə ümumi gəlir vergisi yığılmamışdı; Ancaq kəndlərdən ianə yolu ilə müəyyən miqdarda gəlir əldə edilmişdi. Kirayə verilən sahibsiz mallardan 5.000.000 rubl gəlir əldə olunmuşdu. Dəmiryolu və gömrükxanalardan ayda 2.000.000 manata yaxın qazanc götürülürdü, bunun yarım milyonu dəmiryolu və gömrük işçilərinin, fəhlələrin maaşlarına xərclənir, qalan hissəsi büdcəyə daxil olurdu. Xəlil bəyin fikrincə, Naxçıvan regio-nunda ümumi və digər vergilər müntəzəm alınsa, bunun yarısı həm yerli idarəetməyə, həm də hərbi hissəyə kifayət edərdi. Qalan hissə isə kənara satıla bilərdi.[142] Ancaq işlər onun fikirləşdiyi kimi getmirdi. Haqsızlıq, oğurluq, tərəfkeşlik mövcud idi. On minlərcə qaçqının Naxçıvana gəlməsi bir çox sıxıntılar da gətirmişdi. 1919-cu il Naxçıvan camaatı üçün çox ağır keçirdi. Müharibələrə görə tarlalar əkilməmiş, əkilənlər xarab olmuşdu. Əhalinin ərzaqa, geyimə, dərmana odeyallara, yanacağa ehtiyacı var idi.[143] Buna görə də Azərbaycandan yardım xahiş edilir və hökumət də imkanı daxilində maddi yardım edirdi.[144]

---

[138] Xəlil bəy XV korpus komandanlığına göndərdiyi 8 noyabr 1918-ci il tarixli teleqramda Bəyaziddəki hər bir sursatdan Naxçıvana təcili göndərilməsinə dair əmr verilməsini tələb edırdi, Qarabəkir. İstiqlal müharibəmiz, s.346

[139] ATASE, A. 5/2973, Kls.323. f.58, ATASE, A. 4/8316. Kls.254, S.9-11, 11-1 HTVD №9 (sentyabr 1954), s.215.

[140] USA. NA, Near Eastern Affairs 867. 00/1333.

[141] ATASE, A. 5/2973, Kls.323, D.5-32, F. 58; HTVD. Sayı 9 (sentyabr 1954), sənəd № 255

[142] ATASE, A. 5/2973, Kls.814. D.5-9, F.128-4.

[143] USA. NA, Near Eastem Affairs 867. 00/1100.

[144] ATASE. A. 5/2973. Kls.814. s.5-9, f. 128-3, 128-4 Azərbaycan Respublikası. MDƏYTA, F.970, On. 1. S.104, v 2- 3; Qarabəkir. İstiqlal müharibəmiz, s.304. Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 85, 93, 96.

### 3. Amerika heyətləri ilə aparılan danışıqlar

Türk-erməni müharibəsinin qurtarmasından sonra Naxçıvanda müəyyən qədər erməni ailəsi və əsir qalmışdı. Hər nədənsə Ermənistan sərhədləri daxilində yaşayan müsəlmanların acınacaqlı vəziyyəti ilə çox maraqlanmayan Amerikanın yardım heyətinin səlahiyyətli şəxsləri Naxçıvandakı ermənilərlə və bilavasitə yerli idarəetmə sistemi ilə yaxından maraqlanırdı. Birinci məqsəd Əylisdəki ermənilərin vəziyyətini yaxından öyrənmək, ikinci və ən mühümü isə polkovnik Haskellin Naxçıvanda bir Amerika valiliyini yaratmaq planı ilə əlaqədar təhqiqat aparmaq idi. Buna görə də Qafqaz baş tibb zabiti Doktor Klarens D. User və Karlton S. Ayerdən ibarət Amerika heyəti 17-27 sentyabr tarixlərində Naxçıvanı, Ordubadı, Əylisi ziyarət etdi, bir çox görüşlər keçirdi. İlk dayandıqları yer yollarının üzərində yerləşən Xanlıqlar kəndi oldu. Oradan da Xəlil bəyin əmri ilə Yengicəyə gəldilər. Xəlil bəy erməni tərəfdarı Doktor Userə qarşı çox ciddi idi və onu tənbeh etdi. Müttəfiq və Sülh konfransına qarşı çox qəzəblənən Xəlil bəy onları özünə düşmən elan edir, sədr Vilsonu axmaq sayırdı. 19 sentyabrda Naxçıvan şəhərində Kalbalı xan tərəfindən verilən yemək çox sakit keçmişdi. Kalbalı xan heç bir erməni hökumətinin onları idarə etməyəcəyini bildirdi. Sonra heyət Naxçıvanın 26 yaşlı gənc valisi Səməd bəylə görüşdü. Onların təsəvvürlərinə görə, Səməd bəy mədəni, xoş bir adam idi. Türk və erməni qaçqınlarının məsələləri ilə yaxından maraqlanır, əməkdaşlıq üçün söz verirdi. Səməd bəy vali olduqdan bəri xalq vəziyyətdən razı idi. Ancaq onun nüfuzu Xəlil bəy və Kəlbalı xan tərəfindən zəifləyirdi. Culfa, Ordubad və Əylisi ziyarət edən və ermənilərin vəziyyətini öyrənən Amerikan heyəti 24 sentyabrda Naxçıvana qayıtdı və müsəlman liderlər ilə son dəfə danışıqlar aparıldı. Daha əvvəllər ermənilər tərəfindən tutulmuş 3 nəfər, 127 əsir ilə dəyişdirilə bilərdi. 26 sentyabrda Naxçıvandan gedən Amerika heyəti üzvləri səyahət təəssüratlarını raport şəklində hazırlamış, Naxçıvandakı ermənilərin vəziyyətini qənaətbəxş hesab etməmişdilər. Bir həftə ərzində Naxçıvanda Amerika valiliyi yaradılmalı, regiondakı türk zabitləri ölkələrinə qayıtmalı idilər. Əks-təqdirdə sıxıntılar qurtarmazdı. Türklərin və ermənilərin bir-birlərini idarə etmələri imkansız idi. Son hadisələr iki xalq arasında münasibətləri gərginləşdirmişdi. 5.000 nəfərlik Amerika qüvvəsi Ermənistan və Cənubi Azərbaycanda sabitliyi təmin edə bilərdi.[145]

Doktor User və K.S.Ayer Naxçıvandan getdikdən bir az sonra polkovnik Haskelin nümayəndəsi podpolkovnik A.Robinzon Naxçıvana gəldi. Məqsədi,əvvəllər qeyd etdiyimiz kimi təsis edilməsi nəzərdə tutulan Amerika valiliyi və bitərəf zona məsələsi ilə əlaqədar müsəlman liderləri ilə

---

[145]USA. NA, Paris Pease Conferanse, 184.021\285; USA. NA, Near Eastem Affairs, 867.00/1047, 867.001100; Hovanisyan,Ermənistan Respublikası. s. 106-108, 203-204.

görüşmək,onları inandırmaq idi. Ancaq Xəlil bəyin, Kalbalı xanın və Səməd bəyin qərarı qəti idi. Onlar güzəştə getməyəcəkdilər, müstəqilliklərindən təzminat verməyəcəkdilər. Bu məqsədlə podpolkovnik Robinsona 12 maddəlik bir cavab məktubu vermişdilər. [146] Robinson dərhal Naxçıvandan ayrıldı, 20 oktyabrda yenidən gəldi. Polkovnik Jems Reyni Xəlil bəyə və Milli Şuraya yazılmış məktubu gətirdi.[147]

Naxçıvanda Amerika valiliyi yaratmaq cəhdləri davam etdiyi bir vaxtda Xəlil bəydən alınmış icazə əsasında Harbord heyətinə mənsub general Van Horn Moseli və kapitan Kustave Vilyart Naxçıvana gəldilər.[148] General Moslini təntənə ilə qarşıladılar. Məqsədi türk və ermənilər arasında münasibətləri yaxından izləyib, Paris Sülh Konfransına məlumat vermək olan Amerika heyəti[149] lazımi incələmələr üçün türk liderləri ilə əlaqəyə girmişdilər. Mosli ilə danışıqlara başlamadan müştərək bir qərar qəbul etmək niyyətində idilər. Toplantı keçirilməsi nəticəsində bu qərarların generala verilməsi qərarlaşdırıldı. "Avropa və Amerika diasporuna və Avropa mətbuatına istinad edən ermənilər müdhiş bir iftira kampaniyası ilə Naxçıvan hadisələrini tərsinə çevirir və əks təbliğat aparırdılar. Naxçıvanda müsəlmanlar çoxluq təşkil edirlər. Buradakı müvəqqəti erməni idarəetmə sistemi hadisələri qan tökülməsinə aparıb çıxarmışdı. Ermənistanda yaşayan müsəlmanlarla sərt davranıldığı aşkardır. Naxçıvan ilə Ermənistan bu saat müharibə vəziyyətindədir. Böyük Vedi hadisələri buna örnəkdir. Biz dili, ədəbiyyatı, dini və mədəniyyəti bir Azərbaycanla birləşdik. Naxçıvanda Azərbaycan qanunları qüvvədədir. Ermənistanda anarxiya mövcuddur, Naxçıvanda sakitlikdir. Bu da idarəetməyə kimin daha çox haqlı olduğunu göstərir".[150]

Beləliklə, Xəlil bəyin, Səməd bəyin, Kalbalı xanın və kapitan Vilyartın iştirak etdiyi müştərək bir toplantı keçirildi. Qarşılıqlı fikir mübadiləsi aparıldı. Amerika mənbələrinin toplantı ilə əlaqədar verdiyi məlumat qısaca belədir: "Qan tökülməsinin səbəbini erməni idarəetmə sistemində görürlər. Xarici aləmin bölgələrindəki hadisələrdən xəbərdar olmaları üçün bir heyətin tədqiqat aparmasını istəyirlər. Harbord heyətinin vəziyyəti tədqiq etməsindən razı qalmışdılar. Onlar bölgədə əhalinin 90%- ni müsəlmanlar, 10%- ni

---

[146] Hovanisyan. Ermənistan Respublikası. Musayev. 1919-cu ildə Naxçıvan bölgəsində vəziyyət və ABD-nin siyasəti (Nəşr olunmamış teziş) s.6.

[147]Hacıyev. Qars ve Araz-türk respublikaları,. səh. 94. Musayev. ABŞ-ın siyasəti, s.6.

[148]Xəlil bəy general Moselinin 19 oktyabrda Naxçıvana gəldiyini yazır. ( ATASE, A. 5\2973, Kls. 814, s.5 9, f,128-2 ), digər rnənbələrdə isə heyətin Naxçıvana sentyabr ayında gəldiyi göstərilir. 28 sentyabrda məlumat verilmişdir.Hovanisyan göstərirdi ki, Moseli və Villord Naxçıvandan İrəvana qayıtmış və general Harbırdla görüşmüş, 2 oktyabrda Tiflisə yola düşmüşdür. Hacıyev Səməd bəyin 7 oktyabrda Qarabağ valisi Xosrov bəy Sultanova göndərdiyi gizli məlumatda general Moselin niyyətini açıqladığını göstərmişdir. ( Hacıyev. Qars və Araz-türk respublikaları. s. 92-93 ).

[149]ATASE. A. 5/2973, Kls.814, s.5-9, F.128-3.

[150]Hacıyev. Qars və Araz-türk respublikaları. s. 93

ermənilər təşkil etdiyini göstərirdilər. Ortada bir həqiqət var, belə halda niyə erməni hökuməti onları idarə edir? Bunu başa düşmürdülər.

Ermənistandakı müsəlmanlarla pis, ermənilərlə yaxşı rəftar edildiyini bildirirdilər. Onlar dili, dini, adət-ənənələri bir olan Azərbaycanla birləşməyi məqsədəuyğun sayırdılar. Onlar deyirdilər ki, ermənilər regiona sıxıntılar gətirib və onlar isə həm erməni, həm də türk qaçqınlarına sahib çıxırlar. Əzablara son qoymaq üçün əsirlərin dəyişdirilməsini təklif edirlər. Azərbaycan torpaqlarını versə belə, onlar boyun əyməyəcəklərini bildirirdilər. Regionda bir Amerika valisinin rəhbərliyi altında bitərəf bölgənin elan edilməsi təklifi ilə məsələ həll olunmaq üzrə idi. Ancaq bu da məsələni ancaq müvəqqəti olaraq həll edə bilərdi. Sərhəd məsələsi olmasın deyə Kəlbalı xan bütün Qafqaz dövlətlərinin müştərək bir qüvvə altında saxlanılmasının lazım olduğunu irəli sürdü.[151]

Naxçıvanın qabaqcılları Amerika heyətinə dediklərini isbat etmək üçün Ermənistandan qaçıb gəlmiş qaçqınların acınacaqlı vəziyyətini yaxından görmək üçün general Mosliyə şərait yaratdılar. Yeni gələn qaçqınlara general da şahid oldu.[152] Bundan başqa, Naxçıvandakı müsəlman mühacirlər tərəfindən onların acınacaqlı vəziyyəti haqqında Amerika heyətinə yazılı məlumat təqdim edildi. Məlumatda deyilirdi: "Bu ərazini Amerika nümayəndəsinə təqdim edən bizlər, Qafqazın İrəvan quberniyasının qədim sakinləri olan türklərdənik. Son günlərdə ermənilərin soyqırımına başlaması nəticəsində vətənimizi tərk edib dağlara, buralara sığışdıq.Vətənimizdə nisbətən xeyli az olan ermənilərlə yaxşı yola gedirdik. Rusların çıxması nəticəsində əllərinə keçirdikləri silahla bizə qarşı çıxdılar və dərhal yarımızdan çoxunu qırdılar. Onlara qarşı çıxacaq silahımız yox idi. Bizi niyə qırırsınız?-soruşduqda, burada erməni bəyliyi yaradacağıq - deyirdilər. Siz indi çoxsunuz, bizdən az olmalısınız- deyə cavab verirlər. Bir müddət sonra osmanlı əsgərinin gəlməsi nəticəsində bir az rahatladıq. Çox keçmədi Osmanlılar da getdilər. Qafqazın digər bir milləti kimi biz də bir xanlıq yaradaraq Qarsda Şuramızı təşkil etdik. Bir neçə aydan sonra İngiltərə tərəfindən Şuramızın dağıdıldığını eşitdik. Bundan sonra erməni əsgərləri aramıza girdilər. Ölümlə hədələyərək pul və heyvanımızı əlimizdən aldılar.Üç-üç, beş-beş kənd əhalisini öldürməyə başladılar. Şikayət edəcək bir yer də qalmadı. Təqribən ay yarım bundan əvvəl çox vəhşiliklərə məruz qaldıq. Qəflətən kəndimizə hücum etdilər, heç bir səbəb olmadan arvad-uşağımızı öldürdülər, bəzilərini evlərə yığaraq bir-bir boğdular, gənc qızlarımızı apardılar.Canlarını qurtara bilənlər ac və səfil bir halda dağlara, buralara sığındıq, nə edəcəyimizi də bilmirik. Qarşıdan qış gəlir, sığınacaq yerimizdə yoxdur. Salamat qalan

---

[151]USA. NA, Paris Peace Conferance. 184021 02\15; Mantalory Over Armenia. Səh. 18-19

[152] Hacıyev. Qars və Araz-Türk Respublikaları. s. 93

kəndlərimizi indi də dağıdırlar. Canlarını qutaranlar da gözlərimiz qarşısında aclıq və səfalətdən məhv olur. Vətənimiz qəbiristanlığa çevrildi. Namusumuz tari-mar oldu. Ey biçarələrin haqqını qaytarmağa qabil olan amerikalılar! Müxtəlif vəhşiliklərin qurbanı olanların cənazəsi xarabazar kəndlərimizin içində yanır. Bu faciəni şəxsən görmək üçün bir şəxs göndərin, biz onu müşayiət etməyə və məlumat verməyə hazırıq. Sizə son ay ərzində əhalisi ilə bərabər məhv edilən kəndlərimizin siyahısını təqdim edirik. Fəryadlarımıza insanpərvər ürəklərinizin səs verəcəyinə şübhə etmirik. Son ümidimiz sizsiniz, namus üçün bizi gözləyən ölümə atılmağa tərəddüd etməyəcəyik. Bu məlumatı hörmətlə təqdim edirəm".[153]

Xəlil bəyə görə, general Mosli regionda aparılan bir çox tədqiqatlar nəticəsində müsəlmanların hər məsələdə haqlı olduqlarına inanmış və Naxçıvandan son dərəcə razı qayıtmışdır.[154] Ancaq Naxçıvandan getdikdən sonra general Mosli 16 oktyabr 1919-cu il tarixli raportunda ermənilərə qarşı hücumları idarə edən türk zabiti Xəlil bəyi burada gördüyünü və mənfi xarakterinin dəlili kimi çirkin bir üzü olduğunu göstərir[155]və beləcə, Xəlil bəyin xoş niyyətinə qarşı çox kobud bir qarşılıq verdi.

24 oktyabr 1919-cu ildə Naxçıvan şəhəri yeni bir Amerika heyətini qonaq etməyə hazırlaşırdı. Gələnlər polkovnik Rhea, Naxçıvana vali təyin edilməsi nəzərdə tutulan polkovnik Deli və 4 amerika zabiti idi. Əvvələr ətraflı məlumat verdiyimiz kimi görüşlər çox sərt keçirdi. Naxçıvan türkləri müstəqilliklərini itirmək niyyətində deyildilər. Polkovnik Rhea, Xəlil bəyin və yoldaşlarının qəti qərarına görə Amerika valiliyi fikrindən əl çəkdi. Xəlil bəyin təklifi ilə polkovnik Delini Naxçıvanda nümayəndə kimi qoyaraq, regionu tərk etdilər.[156]Noyabr ayının əvvəllərində polkovnik Rhea, polkovnik Deliyə kömək məqsədilə müəyyən qədər zabit göndərdi. Amerikalı zabitlərin Naxçıvana gəlməsi əhali arasında narahatçılığa səbəb olmuşdu. Amerikalıların da ingilislər kimi yavaş-yavaş ermənilərə tərəfdar olacağını fıkirləşirdilər. Buna görə də, əhali valiliyin qabağına yığışaraq amerikalı zabitlərin dərhal Naxçıvandan çıxarılmasını tələb etdilər. Narazıçılıqların artması polkovnik Dellinin zabitləri geri göndərməsinə səbəb oldu[157] və özü də bir müddət sonra regiondan getdi.[158]

---

[153]Al bayraq, 9 oktyabr 1919, №34.

[154]ATASE, A. 5/2973. Kls.814, s.5-9, F. 128-3

[155] USA. NA, Paris Peace Conferance. 184021 02\15; Mosely. Mandatory Over Armenia. c. 13-14; Hovanisian. The Republic of Armenia. c. 349.

[156] USA. NA, Near Eastern Affairs, 867 00\ 1047. 867 00\1100, ATASE, A. 5\2973, Kls.814, s.5-9, f. 128-3, Hovanisian. The Republic of Armenia,Vol:II, c. 204-205; Hacıyev, Qars və Araz-türk respublikaları. s.94. Hibben. Keepinq The Peace in Transcaucasıa. c. 725-726. Musayev. ABŞ-ın siyasəti, s.6-8

[157]Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi.s.59. Hacıyev. Qars və Araz-türk respublikaları, s.96

[158]ATASE, A. 5\2793, Kls.814, S.5-9, f.128-3; Musayev. ABŞ-ın siyasəti, s.8.

## 4. Mühacir (qaçqın) məsələsi

Ermənilərdən müstəqilliklərini geri alan Naxçıvan əhalisi və rəhbərliyi bir müddət sonra böyük bir sıxıntı ilə üz-üzə gəldi. Əslində ermənilər Naxçıvandakı məğlubiyyətin heyfini çıxarmaq istəyir, İrəvan, Sürməli, Eçmiədzin və Zəngəzur müsəlmanlarına zülm edir, vəhşiliklərdən canlarını qurtara bilən sahibsiz müsəlman əhali, ən etibarlı və yaxın yer olan Naxçıvana köçürdülər.[159] Qısa bir müddətdə əvvəl gələnlərlə bərabər rəqəm 50.000-ə,[160] başqa bir mənbəyə görə isə 70.000-ə[161] çatmışdı. Bir neçə kənddə düşərgə yaratmışdılar.[162]

Beləcə, Naxçıvan regionunda sıxıntılı, ehtiyac dolu günlər başlamışdı. 1918-ci ilin axırları və 1919-cu ilin müəyyən dövrlərində müxtəlif mübarizələrə səhnə olan Naxçıvan və Şərurda sahələr kifayət qədər əkilməmiş və buna görə də məhsul götürə bilməmişdilər. Ərzaq, geyim, dərman və yanacaq qıtlığı son həddə çatmışdı. Naxçıvan camaatı kifayət qədər olmayan ərzaq ehtiyatlarını mühacirlərlə, qaçqınlarla bölürdülər. Ancaq bu, kifayət qədər deyildi, qışın yaxınlaşması əhaliyə qorxulu anlar gətirirdi.[163] Mühacirlərin və bilavasitə yerli əhalinin vəziyyətinin getdikcə ağırlaşması rəhbərliyi hərəkətə gətirdi. B. Şahtaxtılının sədrliyi ilə "Qaçqınlar komitəsi" təşkil edildi. Komitə mühacirlərin yaşaması, məskunlaşması və onlara əkmələri üçün torpaq paylanması və s. işlərlə məşğul olur, eyni zamanda Azərbaycan hökumətindən pul, ərzaq və dərman istəyirdilər.[164]9 sentyabrda Azərbaycanın baş naziri Nəsib bəy ilə Tiflisdə görüşən Araz vadisi müsəlman nümayəndələri Ermənistandan qaçan müsəlman mühacirlərin Azərbaycanda yerləşdirilməsini tələb edirdilər.[165]

Naxçıvan valisi Səməd bəy qaçqınlar üçün əlindən gələni etmək istəyirdi. Dərhal mühacirlərə kömək etmək lazım idi. Buna görə də o, oktyabr ayında İrəvandakı diplomatik nümayəndə Ə. Haqverdiyev vasitəsilə hökumətinə gizli və təcili bir məlumat göndərdi. Ermənistanda müsəlmanlara edilən zülmdən və bu hadisələr qarşısında polkovnik Haskelin susmasından

---

[159]Azər. Cüm. MDƏYTA F. 970. On. 1. s.104. v. 2-3. Hacıyev. Qars və Araz-türk respublikaları.s.85-104. Bu vaxt Bəyazidə gələn Hilali-Əhmər heyəti Araz vadisindən qaçıb gəlmiş mühacirlərlə qarşılaşmışdı. Ərzaq sıxıntısı ilə əlaqədar mühacirlərin bır hissəsinə İran və Naxçıvanın varlı kəndlərinə getmələri məsləhət bilinmişdi. f 3 deka'br 1919 №l9).

[160]USA NA Near Eastern Affairs 867.00/1100

[161]Hacıyev. Qars və Araz-türk respublikaları. s.85

[162]USA NA Near Easteı n Affaırs 867.00/ 1100

[163]USA NA Near Eastern Affairs 867.00/1100. ATASE A. 5\2793 kis. 814. s.5-9. f. 128-4. Hibben. Keepind The Peace in Transcaucasia. c.725

[164]Hacıyev. Qars və Araz-türk respublikaları. s. 85

[165]Azərb. Cüm. MDƏYTA, f. 894. On. 10. s. 94. v. 9-15. Albayraq, 30oktyabr 1919, № 40. Hacıyev. Qars və Araz- türk respublikaları. s.88-89

bəhs edən Səməd bəy qaçqınlar haqqında bu məlumatı verirdi: "Ermənilərin vəhşilikləri və Amerika nümayəndələrinin bu hadisələrə biganə qalması nəticəsində göstərilən iki qəzanın 100.000 nəfərlik müsəlman əhalisi məhv oldu. İndi də Aralıq - mərkəz bölgəsi, Şərur və Naxçıvan qəzaları qaçqınlarla dolmuşdur. On minlərcə adam evini, çörəyini, ev əşyalarını, əziz uşaqlarını, bacı-qardaşlarını, ata-analarını itirmiş və xəstə, ümidsiz bir halda Naxçıvana gəlmişdi. Ancaq İrəvan və Dərələyəz qəzalarının yüz minlərlə qaçqınının gəldiyi Naxçıvanda onlar üçün nə ev, nə çörək, nə də pul var idi. Maddi və tibbi yardımın olmamasından hər gün 300-ə yaxın mühacir ölür. Uzun müddət sabitliyin olmamasına görə, münaqişələrin müflisləşdirdiyi yerli əhalinin bu qədər çox mühacirə kömək edəcək imkanı yox idi. Naxçıvan regionu mühacirləri üçün Azərbaycan hökuməti tərəfindən qışda verilən 2.000.000. manatdan (rubl) aprel ayında buraya ancaq 400.000 manat (rubl) çatmışdı. Burada bacarıqlı iqtidarın olmamasına görə həmin məbləğ bədbəxt mühacirlərə deyil, tək-tük təsadüfi şəxslərə verilmişdir. İndi mən onları qanun qarşısında cavab verməyə çağırıram.

Əgər qısa bir müddətdə Azərbaycandan inanılmış şəxslərlə böyük məbləğdə pul göndərilməzsə, erməni vəhşiliklərinin bu bədbəxt qurbanlarının sözsüz, əzablı bir şəkildə məhv olacaqlarına şübhə ola bilməz. Bunları deyərkən, mən inanıram ki, siz zati-aliləri bizim acı çəkən və məhv olan xalqımıza məhəbbətlə yanaşacaq və təcili tədbir görəcəksiniz. Ən qısa müddətdə mühacirlərə yardım göstərilməsi üçün hökumət valiliyə kifayət qədər məbləğ ayırmalıdır. Oktyabr ayının axırına qədər Zəngəzur vasitəsilə Qarabağ və Naxçıvan arasında yol açılmazsa, təhlükəsiz rabitə yaradılmazsa, bu qədər mühaciri olan Naxçıvanın vəziyyəti çox böhranlı olacaqdır.[166]

Naxçıvan rəhbərliyi Azərbaycandan yardım istəməklə bərabər, başda amerikalılar olmaqla müttəfiqlər qarşısında ətraflı şəkildə məsələni qaldırmaq fikrində idi. Sentyabr və oktyabr aylarında Naxçıvana müxtəlif Amerika heyətlərinin gəlməsi yerli rəhbərləri dərhal hərəkətə gətirdi. Naxçıvana gəldikləri zaman yol ətrafında qaçqınların acınacaqlı vəziyyətini gözləri ilə görən heyətlərin[167] hadisələrin bütün gerçəkliyi ilə müşahidə etmələrinə şərait yaradılırdı.[168]Mühacirlər tərəfindən general Mosli sədrliyindəki Amerika heyətinə başlarına gələn fəlakətlərlə əlaqədar bir ərizə verilmiş, onlardan yardım tələb edilmişdir.[169] Canlarını qurtara bilənlər ac və səfil dağlara, buraya gəldilər, nə edəcəyimizi bilmirik. Qarşıdan qış gəlir sığınacaq yerimiz yoxdur. Ey biçarələrin haqlarını geri qaytarmağa qadir olan

[166]Azərb. Cüm. MDEYTA. f. 970. On. 1. s. 104. v. 2-3. Hacıyev. Qars və Araz- türk respublikaları. s.96.
[167]USA NA Near Eastern Affairs .867. 00\1100. Hibben Keepinq The Peace in Transcaucasia. c. 725.
[168] Hacıyev. Qars vəAraz- Türk Respublikaları. s. 93
[169] "Albayraq" 9 oktyabr 1919. №34. Təsviri-əfkar. 15 noyabr 1919, № 2902

amerikalılar! Düşdüyümüz bu fəlakətləri tədqiq edib, günahkarları cəzasız qoymayacaqsınız. Son ümidimiz sizədir",-deyə çıxılmaz vəziyyəti göz önünə gətirdilər.

Bundan başqa, vali Səməd bəy Naxçıvandakı bu sıxıntıları 11 maddə şəklində yazaraq Təbrizdəki Amerika konsulluğuna və digər müttəfiq dövlətlərin nümayəndələrinə verdi.[170] Azərbaycan hökuməti də aldığı məlumatlar əsasında müsəlmanlara edilən zülmü Ermənistan hökumətinə polkovnik Haskelə və digər müttəfiq dövlətlərin nümayəndələri qarşısında etirazını bildirdi. Haskel zülmü araşdırmaq uçun xüsusi bir komissiya yaradıldığını bildirdi.[171] Polkovnik Riyin fəaliyyəti nəticəsində 23 noyabr 1919-cu ildə Tiflisdə Azərbaycan və Ermənistan arasındakı məsələlərin həlli üçün müştərək bir konfrans keçirildi. İlk yığıncaqda mühacirlərin məsələsi gündəliyə salınmadı. 2 dekabrda keçirilən 2-ci yığıncaqda mühacirlərin məsələsi gündəliyə salındı. Ancaq nəticədə onların vəziyyətini düzəldəcək heç bir şey əldə edilmədi.[172]

Xüsusilə amerikalılar qarşısında qaldırılan təşəbbüslər qısa bir zamanda öz təsirini göstərməyə başladı. Qafqazda erməni tərəfdarı polkovnik Haskelin Parisə getməsi, yerinə polkovnik Riyi təyin etməsi və onun da Naxçıvana gəlməsi qaçqınlar üçün müsbət nəticələr vermişdir. Haskelin ermənilər lehinə, bilavasitə müsəlmanlar əleyhinə olan fəaliyyətlərinin olduğunu başa düşən polkovnik Ri erməni zülmündən dözülməz vəziyyətə düçar olan müsəlman qaçqınlara yardım edilməsinin lazım olduğunu bildirdi.[173]24 oktyabrda Naxçıvana gələn polkovnik Rey əvvəllər olduğu kimi regionda yenidən yoxsullar və mühacirlərlə əlaqədar işə başlamaq niyyətində idi.[174]Müsəlman liderlərlə aparılan danışıqlar nəticəsində və Xəlil bəyin təklifi ilə polkovnik Ri vali təyin edilməsi nəzərdə tutulan polkovnik Dellini regionda müttəfiqlərin nümayəndəsi və eyni zamanda qaçqınlara yardım işləri üzrə səlahiyyətli şəxs təyin etdi. Naxçıvanda qalan polkovnik Delli mühacirləri və yoxsulları ərzaqla təmin etmək məqsədilə Təbrizə getdi və müəyyən qədər ərzaq əldə edə bildi. Yardım mallarını Təbrizdən Naxçıvana gətirmək üçün Culfa körpüsünün inşasına başlanılmışdı.[175] Xəlil bəyin

---

[170]Hacıyev. Qars və Araz-türk respublikaları. s. 93.

[171]Azər. Cüm. MDƏYTA. f. 897. On.l s.l 16. v 11-14. Azərb. Cüm MDƏYTA f.894. On 10. s. 94. v. 9-15.

[172] İradeyi-Milliyə, 22 dekabr 1919 №17, Kürkçüoğlu. Türkiyə-Azərbaycan münasibətləri. s. 371-372. Hovanisian. The Republic of Armenia. c. 222-223. Hibben Keepind The Reace in Transcaucasia. c. 728-729. Jaske. Milli Azərbaycan təqvimi, s.23

[173]USANA Near Eastern Affairs .867. 00\ 1047.

[174]Hibben. Keepind The Peace in Transcaucasia. c. 725-736, 728.

[175] USA NA Near Eastern Affaırs 867.00\1100.

dediyinə görə, polkovnik Dellinin əməyi nəticəsində müsəlman qaçqınlara müəyyən qədər yardım edilmişdi.[176]

Ancaq bu yardımların kifayət qədər olmadığı görünürdü. Əslində əsaslı tədbirlər görülmədiyi müddətdə məsələ həll oluna bilməzdi. Digər tərəfdən də bölgəyə yeni mühacirlər gəlirdi. Mühacirlərin sayının artması bir çox mənfi hadisələrin yaranmasına səbəb oldu. Belə ki, erməni zülmündən baş götürüb qaçan və Ordubad ətrafına gələn Zəngəzur müsəlmanları dekabr ayının axırlarında Aşağı Əylisdə yaşayan erməniləri Yuxarı Əylisə qovmuşdular. Ermənistan da bu hadisədən Azərbaycana qarşı bir fürsət kimi istifadə etməyə başladı.[177] Ancaq yenə hadisənin kökü erməni zülmünə dayanırdı. Hadisə öz yurd-yuvalarmdan qovulan türk qaçqınlarının təşəbbüsü ilə baş vermişdi. Azərbaycan ilə heç bir əlaqəsi ola bilməzdi. Digər tərəfdən 22 dekabrda İrəvandan Bakıya göndərilən bir teleqram qaçqınlar üzərində oynanan oyunun ortaya çıxması baxımından maraqlı idi. Naxçıvandakı müsəlman mühacirləri öz tərəfinə çəkmək üçün İran hökuməti bır çox vədlər verirdi. Belə bir iş Naxçıvan üçün çox təhlükəli olub, bölgədəki sabitliyi alt-üst edər, Naxçıvanın müdafiəsini zəiflədə bilərdi. Bunun üçün də Azərbaycan hökuməti bu məsələni diqqətlə incələyirdi.[178]

Naxçıvanda erməni zülmündən Türkiyədə isə yunan zülmündən qaçanların yaratdığı mühacir kütləsi Azərbaycan və türk əhalisinin qəlbində dərin bir yara açmışdı. Buna görə də acınacaqlı vəziyyətdəki qaçqınlara yardım etmək məqsədilə İzmir, Zəngəzur, Naxçıvan, İrəvan müsəlmanlari qaçqınlarına "Osmanlı Müavinət Mərkəzi Komitəsi" adlı yardım təşkilatı təşkil edilmişdi. Qəzetlərə elan verərək vətəndaşlardan yardım istəyirdilər. Azərbaycan qəzetində dərc olunan və buradan iqtibasla "Albayraq"da nəşr olunan bir xəbərdə deyilirdi:

"Vətəndaşlar, millətdaşlar!

İzmir faciəsindən sonra yardıma ehtiyacı olan türklərə kömək etmək nə qədər vicdanlı bir vəzifədirsə, Zəngəzur, Naxçıvan kimi Azərbaycanımızın ayrılmaz bir hissəsi olan vətənimizin qaçqın müsəlmanlarına da eləcə mərhəmət və şəfqət göstərmək vacibdir.

İzmirdə fəlakətə düçar olanlara imdad! Zəngəzur, Naxçıvan qaçqınlarına yardım bu gün bizim üçün ümumi bir şəfqət və hümmət şüarı olmalı, hamımız ürəkdən malımızı, pulumuzu fəda edib milli və dini vəzifəni icra etməliyik.

İrəli vətəndaşlar!"

---

[176]ATASE, A. 5\2793. Kls.814. s.5-9. F.128-3.

[177]Hacıyev. Qars və Araz-Türk Respublikaları. s. 104 -105

[178]Hacıyev. Qars və Araz-Türk Respublikaları. s. 103

İzmir fəlakətlərinə düçar olanlara yardım edin! İzmir türklərinin yarasına dava olun. Zəngəzur, Naxçıvan qaçqınlarına yardım ediniz. Hər iki zülmə düçar olan bədbəxtlərə pulunuzu əsirgəməyin. Çünki, İzmir fəlakətlərinə düçar olanlara ianə Allaha ibadətdir. Çünki, Zəngəzur, Naxçıvan, İrəvan qaçqınlarına imdad vətənin və millətin səadətinə təşəbbüsdür.

İanələr Azərbaycanın hər tərəfində yaradılmış İzmir, Zəngəzur, Naxçıvan, İrəvan fəlakətlərinə düçar olanların Müavinət Komitəsi tərəfindən qəbul olunur.

Azərbaycanın hər tərəfində Müavinət Komitələrinin keçirdiyi məclislərdə, tədbirlərdə bütün vətəndaşlarımızın iştirakı xahiş olunur.

Müavinət Komitələri martın 9-dan 18-nə qədər ianə toplamağa başlayacaqdır. Bütün vətəndaşları ianə verməyə çağırırıq.

**İzmir, Zəngəzur, Naxçıvan, İrəvan**
**Müsəlman qaçqınlarına Osmanlı**
**Müavinət Mərkəzi Komitəsi adından.**[179]

Azərbaycan hökuməti və Naxçıvan rəhbərləri əllərindəki imkan çərçivəsində qaçqınlar məsələsini həll etməyə çalışsalar da, bunun üçün qəti bir yol tapmaq mümkün olmurdu. Çünki erməni hücumu qurtarmayınca qaçqın məsələsi də bitməyəcəkdi. Belə ki, 11 iyul 1920-ci ilin səhəri Vedibasar bölgəsindən başlayan erməni hücumu Vedi əhalisinin tamamilə qaçqın olaraq Şahtaxtıya. Oradan da İrana keçməsinə səbəb olmuşdu. Bu mühacirət Şərur və Şahtaxtı əhalisinə də aiddir. Ermənilər qarşısındakı məğlubiyyət əhalinin İran tərəfinə keçməsinə səbəb oldu.[180]

Qaçqın saxlayan Naxçıvan əhalisinin özü də bu vəziyyətə düşdü. Artıq Azərbaycan vadisindəki mühacir məsələsinin sona çatması üçün türk ordusunun erməniləri məğlubiyyətə uğratmasını və Ermənistanın sovetləşərək sakit durmasını gözləmək zəruri idi.

## 5. Ermənilərlə mübarizə

### a) Əylis (Göqtan) məsələsi

Erməni hərbi qüvvələrinin Naxçıvandakı məğlubiyyətindən sonra bir çox erməni hərbi hissələrinin ardınca bölgəni tərk etdilər. doktor Userin fikrinə əsasən, Naxçıvanda 3100-ə qədər erməni qalmışdı. Onların bir hissəsi Xanlıqlar kəndi ətrafında, bir hissəsi isə Əylis ətrafında yerləşmişdilər.

---

[179] Albayraq,12 aprel,1920, № 83

[180] ATASE,A.6/6686, Kls.923,D.1-2, F.12, ATASE,A6/6686,Kls.924, D.4-8, F.1, 1-1, 2, 2-1; Univar. Bolşeviklərlə 8 ay, s.25-35

Qaytarılandan başqa, 120-dən artıq erməni əsiri var idi.[181] Əylisdəki ermənilərdən başqa, bütün ermənilər türk hakimiyyətini tanımışdı. Ermənilərin yığışdığı Əylis isə 1918-ci ildə olduğu kimi, yenə də müqavimət göstərərək hakimiyyəti qəbul etmək istəmirdilər. Zəngəzur tərəfdən yardım alaraq hakimiyyətlərini davam etdirməyə ümid edirdilər. Bu vəziyyət isə Naxçıvan regionunun bütövlüyünü təhlükə altına almış, narahatçılığa və bilavasitə mübarizəyə səbəb olurdu.

20 iyulda Naxçıvan şəhərində başlayan döyüş Şərur-Şahtaxtı bölgələrində olduğu kimi, Ordubad və ətrafında gedirdi. 3 gün davam edən döyüşlərdən sonra ermənilərin müqaviməti qırıldı. Əylis ətrafında arabir döyüşlər baş verirdi. Əylis ətrafındakı kəndlər nəzarət altına alındı. Türk könüllülərinin dağlıq bölgələrə irəliləməsi nəticəsində bir çox erməni kəndləri Ordubadın yeni rəhbəri Abbasqulu bəy Tahirova sədaqətli olacaqlarına and içdilər. Türk hakimiyyətini qəbul etmək istəməyən Əylis erməniləri isə 25 iyuldan etibarən Əylisin mərkəzinə çəkilərək müdafiə olunmağa başladılar.[182] Bölgənin nüfuzlu liderlərindən Aşot Məlik Musayan ilə Movses Qulnazaryan Ermənistan hökumətinə və Zəngəzurdakı müxtəlif erməni təşkilat və şuralarına müraciət edərək yardım istədilər. Ən çox 10 və ya 15 gün müdafiə vəziyyətində qala bilərdilər. Təcili azad olmaq üçün bir çarə tapılmalı, ən azı 400 əsgər göndərilməli idi. Əylis erməni liderlərinin müraciətlərində bölgənin türklər qarşısında ölümə məhkum olmasında Ermənistan hökumətinin məsuliyyət daşıdığı göstərilirdi. Erməni hökuməti müdafiə işlərini təşkil etmək üçün avqust ayında Nejdeni Əylisə göndərdi. Ardınca da Baş-Qarni könüllülərinin lideri Xazar Kosparyanın komandirliyi altında kiçik bir dəstə sentyabr ayının əvvəllərində Dərələyəz-Zəngəzur yolu ilə Əylisə göndərildi. Ancaq bu vaxtlarda erməni könüllülərinin müdafiə dairəsi xeyli daralmışdı. Erməni hökuməti əlavə yardım göndərməyəcəkdi. Buna görə Məlik Musayana və Nejdeyə dəstəsi ilə bərabər Zəngəzura çəkilmələri məsləhət bilindi. Əylisdən çıxdıqdan sonra Zəngəzura gedən yolların türklərə açılacağından narahat olan Nejde hökumətin təklifini qulaq ardına vurdu. Əylisdəki müqaviməti dəstəkləmək üçün bir çox cəhdlər etdi.[183]

Bölgədəki bu hadisələr baş verdiyi zaman Tiflisdəki Əylis erməniləri müxtəlif təşkilatlarda toplanmışdılar. Məqsədləri Əylisdə baş verən hadisələri dünya ictimaiyyətinə çatdırmaq və bölgəyə yardımı təmin etməkdi. Onlar bölgədəki hadisələri dünya ictimaiyyətinə bildirərkən Naxçıvan

---

[181] Naxçıvandakı erməni əsirlərinin sayını doktor User 120 olaraq göstərirdisə (USA NA Paris Peace Conferansce. 184.021/285), bir Amerika məlumatına əsaslanan Hovannisyan 127 olaraq göstərir (USA NA Near Eastern Affairs, 867 00/1100. Hovannisian. The Republic of Armenia. C.106).

[182] USA NA Paris Peace Conferance 184.021/285. Hovannisian. The Republic of Armenia.s.234-235

[183] Hovanisyan. The Republic of Armenia.s. 234-235

türklərinin də etdiklərini şişirdir, hadisələri həqiqətdən uzaqlaşdırırdılar. Beləliklə, müttəfiq dövlətlərin nümayəndələrində bir ürəkyanma hissi yaradaraq, 1919-cu ilin mayında olduğu kimi, türk əhali əleyhinə yeni bir təşkilat yaratmaq fikrində idilər."Göktanın (Əylisin) Əmniyyət Birliyi" təşkilatı adından 12 sentyabr 1919-cu il tarixində Tiflisdə Leon Sarkisyan tərəfindən polkovnik Haskelə verilən ərizədə də bu xüsusiyyətlər özünü əks etdirirdi. Sarkisyana görə, Naxçıvandakı erməni idarəetmə sistemini yıxan yerli türk qüvvələri ilə Əylis erməniləri arasında döyüş çox ağır keçmişdi. Türk könüllüləri erməni qüvvələrini məğlub edərək onların kəndlərini dağıtmışdılar. Kəndlilərə qarşı çox sərt davranılırdı.

Regionda ərzaq qıtlığı və müharibə nəticəsində Əylis əhalisi ölümlə üz-üzə qalmışdı. Ancaq polkovnik Haskelin yüksək nüfuzu sayəsində bu ümidsiz region azad ola bilərdi. Tiflisdəki Əylis erməniləri yığıncaq keçirərək, bölgələrinin azad olması üçün lazımi tədbirlərin görülməsini təklif etdilər:

1. Azərbaycan hökuməti və Naxçıvanın türk valisi[184]düşmənçilikdən əl çəkməyə məcbur edilməlidirlər.
2. Nümayəndələrinizi Əylisə göndərməli və əmrlərinizin yerinə yetirildiyinə nəzarət etməlisiniz.
3. Xalqı aclıqdan qurtarmaq üçün ərzaq və digər yardımlar göndərilməli, xəstə və yetimlərin qorunması lazımdır.Göktanın Əmniyyət Birliyi Haskelin uyğun tədbirlər görməsinə ümid edir.

Naxçıvanda Amerika valiliyi yaratmaq təşəbbüsündə olan Haskell Sarkisyanın bu dramatik ərizəsi əsasında dərhal hərəkətə başladı.[185] Bölgədəki vəziyyəti daha yaxından incələmək məqsədilə doktor G.Aser və K.S.Ayerdən ibarət bir heyəti Naxçıvana göndərdi. 17 sentyabrda Naxçıvana gələn Amerika heyəti birinci olaraq Şərurun Xanlıqlar kəndində olan ermənilərlə görüşdülər. Heyətin məlumatına görə, ermənilərin evlərinə getməsinə icazə verilmirdi. Pis qidalanma və dizenteriyadan hər gün 10-20 nəfər ölürdü. Ermənilər qorxudan doktor Aserin gətirdiyi yardımı qəbul etmək istəmirdilər. Ancaq Əylisdə vəziyyət başqa cür idi. Bölgə əhalisi Amerika heyətinin gəlməsindən cəsarətlənmişdi. Ermənistan hökuməti tərəfindən verilən pulları heyət əhaliyə paylayırdı. Yerli liderlərin razılığı ilə ehtiyacı olan müsəlmanlara da müəyyən qədər pul paylanmışdı. Heyətin müşahidələrinə görə Ordubad və Əylis ermənilərinin vəziyyəti Abbasqulu bəy bölgə rəhbəri olduqdan sonra düzəlmişdi. Əhalinin bir hissəsi türk idarəetmə sistemini qəbul etmişdi. Amma yenə bölgədə vəziyyət gərgin idi, hər dəqiqə münaqişə şəraiti yarana bilərdi. Naxçıvan valisi Səməd bəy Amerika heyəti

[184]Xəlil bəy nəzərdə tululur
[185]USA NA Paris Peace Confranse. 184. 021/285.

ilə əməkdaşlığa razılaşmış. Onlarınermənilər lehinə olan təkliflərinin yerinə yetirilməsinə təminat vermişdi. Amerika nümayəndələri bu təminatı kifayət qədər hesab etmədiyindən, Tiflisə qayıdan kimi polkovnik Haskeldən dərhal Naxçıvan və Şərurda Amerika nəzarətinin yaradılmasını tələb etdi. Onlara görə bu yolla hadisələrin və soyqırımının qarşısı alına bilərdi.[186] 20 sentyabr 1919-cu ildə gizli olaraq Haskelə bir raport verən M.K.Donald adlı bir Amerika kəşfiyyat mütəxəssisi göstərirdi ki, yerli türk liderləri istənilən hər şeyə söz verməlawrinə baxmayaraq, Amerika hərbi valiliyi yaradılmazsa, bölgədə vəziyyət kritik olacaqdır.[187]

Amerikalılar erməni əhalisinin acınacaqlı vəziyyətindən söz açıb, quracaqları valilik üçün zəmin hazırladıqları vaxt oktyabr ayı içində Ordubad və ətrafında döyüşlər baş verdi. Zəngəzurdakı Daşnak qoşunundan yardım alan erməni qüvvələri yerli türklərə qarşı hərəkətə keçdi. Ancaq müsəlman əhalinin müqavimət göstərməsi və hərbi hissələrin mütəşəkkil olması sayəsində ermənilər ağır bir məğlubiyyətə uğradıldı. Zəngəzur tərəfdən gələn Daşnak dəstələri qaçdı. Qalan ermənilər dərhal yerli rəhbərlərə yenidən tabe olacaqlarına, müsəlman əhali ilə sakit yaşayacaqlarına and içərək silah və hərbi sursatları təhvil verdilər.[188]

Ancaq dağlıq hissələrdə olan Daşnak könüllü liderləri Gilnazaryan, Koçaryan və Nejde bu fikirdə deyildilər. Onlar Zəngəzurdan aldıqları dəstək ilə Əylisin mərkəzində və dağlıq hissələrdəki hakimiyyətlərini davam etdirmək istəyirdilər. Bu vaxt Naxçıvan sərhədlərinə yaxın Zəngəzurun müsəlman kəndlərində başlayan soyqırımı da ermənilərin iki bölgədə birdən hərəkətə keçəcəyini göstərirdi. Meğri və Qafan bölgələrində başlayan vəhşiliklər bir çox müsəlman kəndlərinin, demək olar ki, yox edilməsi ilə nəticələnmişdi. Müsəlman kəndlərinə edilən zülmlər qısa bir müddətdən sonra Ordubadın dağlıq hissələrinə də yayıldı. Əvvəlcədən Oxçu, Şabadin və Qığı bölgəsindəki əhalinin tərksilah olunmasını tələb edən Daşnak liderləri hücuma keçdilər. Şabadin kəndindən 8 kişi, 7 qadın canlarını qurtara bildi. Atqız kənd əhalisi qaçaraq xilas ola bilmişdilər. Ancaq onlardan 167-si Ordubad və Qığı dərəsi yolunda donaraq öldü. Şabadin, Pirdov, Atqız və Oxçu kəndlərinin 4.000 əhalisindən yalnız 261 nəfəri sağ qalmışdı və onlar da Ordubada sığınmışdılar.[189]

Noyabr ayı ərzində Naxçıvan sərhədlərindəki türk kəndlərinə qarşı başlayan erməni hücumları və Azərbaycanın Zəngəzur tərəfə hərəkəti

[186] USA NA Paris Reace Conferanse 184. 021\285. USA NA Near Eastem Affairs, 867.00U100. Hovannisıan.The Republic of Armenia. s.106-107, 235-236.

[187] USA NA Paris Peace Conferanse . 184 021/286.

[188] ATASE, A 1/2, kls. 89. s. 142-327, f.50-1, “Albayraq” 2 noyabr 1919. №41

[189] Azərb. Cüm. MDƏYTA, F. 970. On. 1. s. 104.2-3.S.Axundzadə. Saxta isbatlar, Azərbaycan, 11 yanvar 1920, №9 Qarabəkir. İsttiqlal müharibəmiz. s. 383. Hacıyev. Qars və Araz-türk respublikaları. s.97-98

Naxçıvan hərbi qüvvələrinin hərəkətə gəlməsinə səbəb oldu. Sərhədlərdəki erməni hücumları dərhal dəf edildi.Azərbaycan hökumətinin razılığı ilə Xəlil bəyin başçılıq etdiyi Naxçıvan qüvvələri Sisyana hücuma keçdi,[190]türk zabitləri tərəfindən idarə edilən müəyyən bir qüvvə də Ordubad tərəfdən Zəngəzur yolunu açmaq və müsəlman əhaliyə zülm edənləri cəzalandırmaq məqsədilə Əylisin dağlıq hissələrinə doğru hərəkətə başladı. Bölgədə hakimiyyət tanımayan yaşayış mərkəzlərinə hücum edildi. Daşnak dəstələri müqavimət göstərirdi. Əlincəçay və Ordubad hərbi hissələrinin birgə hücumları nəticəsində düşmən yerində oturduldu. 26 noyabrda Vərməziyar və Ələkli kəndləri ələ keçirildi. Ancaq Azərbaycan ordusunun Zəngəzurdan çıxdığına və Xəlil bəyin çətin vəziyyətə düşdüyünə görə Xəlil paşanın əmri ilə əməliyyat dayandırıldı. Bu vaxt özünü xeyli qüvvətli hiss edən Nejde Ordubadı ələ keçirməyi, Əylisi mühasirədən çıxarmağı və beləcə Zəngəzurun qərb tərəfini təhlükəsiz vəziyyətə gətirməyi planlaşdırırdı. Ancaq Gorusdakı nüfuzlu mülki və hərbi adamlar onun bu planını qəbul etmədilər. Əmrə tabe olmaq məcburiyyətində qalan Nejde Əylisə hücumu təxirə saldı.[191]Türk qüvvələrinin möhkəm müqaviməti bu təxirə salmada böyük rol oynadı.[192]

Elə bu vaxt erməni zülmünə görə Zəngəzurdan qaçıb gələn müsəlman qaçqınları Aşağı Əylisi xilas edib, buradakı erməniləri çıxartdılar. Onlar Yuxarı Əylisə sığındı.[193]Hovanisyana görə, Aşağı Əylisdəki erməni malları qarət edilmiş və ələ keçənlər öldürülmüşdü. 1918-ci ildə olduğu kimi, yenə Ordubad komandiri olan baş leytenant Ədib bəy 19 dekabrda erməniləri sakitləşdirməyə çalışdı. Sabitliyi qorumaq üçün lazım gələrsə, Bəyaziddən nizami hərbi hissə tələb edə biləcəyinə və ya vəziyyət pisləşərsə, erməni əhalinin təhlükəsiz şəkildə bölgəni tərk etməsi işində onları müşayiət edə biləcəyinə təminat verdi. Amma hər iki tərəfdən də silahlı dəstələrin ortaya çıxması davam edirdi. Soyğunçuluq, qarətçilik başladı. Əylisdəki ermənilərin bölgədən çıxarılması qərara alındı. Ancaq ermənilər onları təhlükəsiz bir şəkildə müşayiət edəcək şəxsi bəyənmədiklərindən yerlərini tərk etməyə razı olmadılar. Yaranan münaqişə nəticəsində 25 dekabrda Əylisdə ermənilərin varlığı sona çatdı.[194] Zəngəzurdan gələn müsəlman qaçqınları ermənilərdən çəkdikləri zülmün təsirindən bölgədəki tarazlığı alt-üst etdilər. Əylisdəki hadisələrin qarşısını almaq üçün Azərbaycan hökuməti nüfuzundan istifadə etməyi qərara aldı.[195] Ancaq Naxçıvandakı liderlər

---

[190]ATASE, A. 5\2793, Kls.814, s.5-9, F. 128-4.

[191] Hovannisian, The Repubiic of Armenia. c.236. Hacıyev. Qars ve Araz-Türk Respublikaları s.98-99.

[192] Azərb. Cüm. MDƏYTA. f. 897. On. 1. s.116. v. 11-14.

[193] ATASE, A. 5/2793, Kls.814, s.5-9, F. 128-3. Qarabəkir. Istiqlal müharibəmiz, s.383, Hacıyev, Qars ve Araz-türk respublikaları, s.104-105, Hovvanisian. The Republic of Armenia. s.236

[194]Hovvanisian. The Republic of Armenia. s.236-237

[195]Hacıyev. Qars və Araz-türk respublikaları, s.105

arasında çəkişmələr və Zəngəzurdakı münaqişə Azərbaycanın bölgəyə müdaxiləsinə imkan vermədi.

## b) Sərhəd döyüşləri

Müstəqil Naxçıvanın sərhədləri demək olar ki, 1918-ci ilin iyul ayından başlayan Osmanlı idarəetmə sistemi dövründəki hüdudları əhatə edirdi. Qəmərli və bir neçə kənd erməni nəzarəti altında qalmışdı. Naxçıvanın Cənub, yəni Iran ilə olan sərhədini bu günkü kimi Araz çayı təşkil edirdi. Şimal-Qərbdə Aralıq və Zəngibasar bölgələrində hakimiyyətdə olan şahtaxtılı kapitan Çingiz bəyin Milli Şurası ilə müştərək bir sərhəd mövcud idi.[196]

Naxçıvanın sərhədləri qərbdə Dəvəli və Böyük Vedini əhatə edirdi. Türk və erməni sərhədləri daxilində bitərəf bölgə vardı. Qəmərlinin erməni sərhədləri daxilində olmasına baxmayaraq, düşmən hərbi qüvvəsi yox idi.[197] Bu gün Ermənistanın sərhədləri daxilində olan Arpa, Çivə, Almalı, Gülüstan, Çul və s. kəndlər Naxçıvanın cənub sərhədlərinə daxil edilirdi.[198] Şərqdə daşnak dəstələrinin nəzarətində olan Zəngəzur ilə sərhəd, demək olar ki, bu günkü şəkildə idi.

Erməniləri ağır məğlubiyyətə uğradaraq, bu sərhədlər daxilində müstəqil yaşamağa başlayan naxçıvanlılar, bir müddət sonra yenidən mübarizə etməli oldular.Aldığı məğlubiyyətdən yaraları sağalmış erməni hökuməti Naxçıvan sərhədlərinə qüvvə yığaraq, hücumlara başladı.[199] İlk hədəf Ermənistanın baş bəlası olan Böyük Vedi idi. Qarsdan gətirilən 4 böyük top, 500 nəfərlik bir alay Böyük Vedinin şimal tərəflərində yerləşdirilmişdi. Ermənilər ağır toplarla Vedini atəşə tutmağa başladı.[200] Sərhədlərdə kiçik döyüşlər başlamışdı. Çivə kəndi ətrafındakı erməni kəndləri sakit durmurdu. Buna görə də sərhədə hücum edən 5-6 erməni kəndi Xəlil bəyin əmri ilə təsirsiz hala salındı.[201]

Noyabr ayının əvvəllərində Naxçıvanın şimal sərhəddində yenidən hücumlar başladı. Xəlil bəyin əmri ilə hərəkətə keçən Naxçıvan qüvvələri

---

[196] ATASE, A. 1\2, Kls.108, s.391-151, F.11-4, 12,29-1. Hakimiyyəti-milliyə. 28 fevral 1336/1920. Qarabəkir. İstiqlal müharibəmiz, 28 fevral s.396. Nizaməddin Onk. Qurtuluşun 50-ci ildönümü, 12 noyabr, təqdir. 1970, s.22.

[197] USA NA Near Eastern Affairs 867.00\1100. Qarabəkir. İstiqlal müharibəmiz, s. 304, Hibben. Keepinq The Pease in Transcaucasia, s. 724-725

[198] ATASE, A. 5/2793, Kls.814. s.5-9, F.128-2, 128-3

[199] Azərb. Cüm. MDƏYTA. F.970. On.l. s.104. v.2-3

[200] Azərb. Cüm. MDƏYTA. F.970. On.l. s.104. v.2-3. Qarabəkir. İstiqlal müharibəmiz, s.304. Hacıyev. Qars və Araz-türk respublikaları s.96

[201] ATASE, A. 5/2793, Kls.814. s.5-9, F.128-2.

Sultan bəy, Martiros və Sis kimi erməni kəndlərini təsirsiz hala saldılar.[202] Qısa bir müddət ermənilər sakit oldular.[203]

Ancaq, 18 noyabrda yenidən hərəkətə gələn çoxsaylı erməni qüvvələri Çul və ətrafdakı bir çox müsəlman yaşayış mərkəzlərinə hücum etdilər. Bir çox müsəlman kəndləri dağıdıldı, viran edildi.Qismən Çul alındığı vaxt Şərur qüvvələri Dərələyəz cəbhəsinə hücum etdi və Naxçıvan könüllüləri ilə Çul uzərinə hərəkətə keçdilər. Hücuma məruz qalan yaşayış yerləri azad edildi.Ancaq, ermənilərə əks-hücum ediləcəyi anda Azərbaycan hökumətindən bir əmr gəldi. Azərbaycan hökuməti 23 noyabrda Gorus istiqamətində hücum ediləcəyini bildirir və Naxçıvan qüvvələrinin də Sisyana hücum etməsini tələb edirdi. Buna görə də Çul ətrafındakı hərbi hücum fıkrindən daşınıldı.[204]

Dağlıq Qarabağ və Lənkəranda Azərbaycan hakimiyyətinin qurulması, Naxçıvanın Azərbaycana ilhaq edilməsi, Zəngəzur məsələsini gündəliyə gətirdi. Məmməd Əmin Rəsulzadənin dili ilə desək, artıq Zəngəzur yolunun açılma vaxtı gəlmişdi.[205] Beləcə, Azərbaycan ilə Naxçıvan bütövləşəcək, Araz vadisi əhalisinin arzuları həyata keçəcək,[206]bilavasitə ermənilərə qarşı bir bütünlük və müdafiə xətti yaradılacaqdı. Türkiyə ilə Azərbaycan arasında etibarlı bir koridor təşkil ediləcəkdi.[207] Belə bir yolun açıla bilməsi üçün həm Naxçıvan, həm də Azərbaycan qüvvələri tərəfindən Zəngəzur üzərinə müştərək bir hücum etmək lazım idi. Çünki Xəlil bəyin dediyi kimi, Zəngəzurdakı daşnak könüllülər dəstəsi çox güclü idi.[208] İki tərəfli bir hücumla daha təsirli bir nəticə əldə etmək olardı. Oktyabr ayından etibarən Azərbaycan qüvvələri Zəngəzurda hakimiyyət qurmaq məqsədilə hərbi fəaliyyətə başlamışdı.[209] Bölgənin mərkəzi sayılan Gorusun bir hücumla ələ keçirilməsi qərara alındı. Belə bir şəraitdə Xəlil bəyin başçılığı ilə Naxçıvan qüvvələri də Sisyana doğru hərəkətə keçdi.[210]

---

[202]Bu kəndlər bu gün Ermənistanın Soylan bölgəsinə aiddir.

[203] Xəlil bəyə görə, ermənilər istər hücum, istərsə də və s. nə etsələr gecikmədən 10 qat artıq cavab verməklazımdır ki, gözləri qorxsun (ATASE A. 5/2793. kls.814. s.5-9. F. 128-3)

[204]ATASE A.5/2793. kls.814. s.5-9. F.128-3.

[205]Hovanisian.The Republic of Armenia. s.211.

[206]Albayraq, 30 oktyabr 1919, №90. Hacıyev. Qars və Araz-türk respublikaları s.88-89

[207]1918-ci ildə irəli hərəkat zamanı diviziya ilə Naxçıvanda olan Kazım Qarabəkir Şərq orduları qrup komandiri Xəlil paşaya Zəngəzurun erməni dəstələrindən təmizlənib, Azərbaycan yolunun açılmasını təklif etmiş, ancaq mənfi cavab almışdı. ( Kazım Qarabəkir. İstiqlal müharibəmizdə Ənvər paşa və İttihad-Tərəqqi Erkanı İst. 1990. s. 14. Qarabəkir. İstiqlal müharibəmiz s.383 )

[208]ATASE, A. 5/2793, Kls.814. s.5-9. F.128-5 .

[209]ATASE, A. 1\2. Kls.89. s. 142-327. F. 51-1. Mirzəbala. Milli Azərbaycan hərəkatı. s.171.

[210]ATASE, A. 5/2793. Kls. 814. s.5-9. F.128-3. Hovanisyan. The Republic of Armenia. s.211.

24 noyabr 1919-cu ildə Anqelaut ətrafında Naxçıvan qüvvələri ilə ermənilər arasında döyüşlər başladı. Əvvəlcə 3 erməni kəndi ələ keçirildi.[211] Bu vaxt Azərbaycan qüvvələri Gorusa hücum etdisə də, müvəffəqiyyət qazanmadığından geri çəkilmək məcburiyyətində qaldı[212] Alman dəstək qüvvələri ilə ikinci dəfə də hücum etmək nəzərdə tutulurdu, lakin ingilislərin və xüsusilə polkovnik Riyin işə qarışması ilə əməliyyat dayandırılmışdı. Hərbi hissələr Bakıya doğru geri çəkilmiş, əhalinin həyəcanını sakitləşdirmək üçün Denikin təhlükəsi bəhanə edilmişdi. Azərbaycan ordusunun cəbhəni tərk etməsi Xəlil bəyi çox çətin vəziyyətdə qoymuşdu. Hadisələrdən xəbəri olmayan Naxçıvan qüvvələri tam əsir düşmək ərəfəsində ikən, son həmlə ilə Zəngəzuru tərk edə bilmişdilər.[213]

Ermənilər bir müddət Naxçıvan sərhədlərində görünmədilər. Daha güclü bir hücum etməyə hazırlaşırdılar. 11 fevral 1920-ci ildə Naxçıvan müsəlmanları adından Gürcüstan hökuməti sədri Jordanyaya göndərilən teleqramda erməni hücumları haqqında məlumat verib kömək istəyirdilər. 6 yanvarda başlayan hücumlar 23 yanvara qədər davam etmişdi. Naxçıvanlıların fikrincə, ermənilər həm sərhədlərə hücum edir, həm də onları dəstəkləyən mətbuat vasitəsilə hadisələri əks yönə yönəldərək, türkləri günahlandırırdılar. Buna görə də Gürcüstan Baş Nazirindən və xarici dövlətlərin səfirlərindən hücumların dayandırılması üçün erməni hökumətinə təzyiq göstərilməsi tələb edilirdi.[214]

Erməni hökumətinə təzyiq göstərilib göstərilməməsi haqqında əlimizdə məlumat yoxdur. Ancaq həqiqət budur ki, erməni qüvvələri mart ayında yenidən Naxçıvan sərhədlərinə hücum etməyə başladılar. Sərhəd bölgələrinə topladıqları qüvvə ilə yaxşıca güclənən erməni qüvvələri 19 mart 1920-ci ildə qəflətən Vedibasara, Naxçıvan və Ordubad sərhədlərinə hücuma keçdilər.[215] Əksəriyyəti Zəngəzur könüllülərindən ibarət erməni qüvvələri Ordubad bölgəsinə 800 piyada, bir top və bir neçə pulemyotla, Çivə kəndi ətrafına 300 piyada, 4 pulemyot və 2 topla, Böyük Vediyə 600

---

[211] ATASE, A. 5/2793, Kls.814, s.5-9, F.128-3, ATASE, A. 1/1, Kls.23, s.95-161, F.29, İradeyi-Milliyə, 15 dekabr 1919, № 16. Naxçıvan qüvvələrinin Zəngəzurdakı 3 kəndi tutması və əvvəlcədən edilən müvəffəqiyyətlər Naxçıvanda Azərbaycan yolunun açılması fikrini irəli atmışdı və vəziyyət Bəyazid yolu ilə XV korpus bildirilmişdi. Ancaq sonra gələn bir şifrəli teleqramda müvəffəqiyyətsizlik bildirilmişdir.(ATASE, A. 1/2, Kls.89, s. 142-327. F.66 )

[212] Naxçıvandan alınan bir kəşfiyyat məlumatında Əli paşa Şıxlınskinin başçılıq etdiyi Azərbaycan ordusunun ermənilərlə çox ciddi vuruşmadığı və buna görə də bir çox əsgərin edam edildiyi, bir hissəsinin erməni tərəfinə keçdiyi bildirilirdi.(ATASE A.l/2. kls.89. s.142-327, F.66)

[213]ATASE. A. 5/2793, Kls.814, s.5-9, F.128-3, Qarabəkir. İstiqlal müharibəmiz, s.383

[214] Azərbaycan, 18 fevral 1920, №35. Hacıyev, Qars və Araz-türk respublikaları.s.108-109

[215] ATASE, A.5/273. Kls.814, s.5-9, F. 128-2. Kazım Qarabəkir Naxçıvana edilən hücumlara qarşı bir sıra tədbirlər gördü. Sərhəddən kənar bütün Şura qüvvələrinə tərəflərindəki ermənilərə hücum etmə əmri verdi. Ermənilərə yardım edən Maku xanına xəbərdarlıqedildi. (HTSD. №26 (dekabr 1958) s.67 Qarabəkir. İstiqlal müharibəmiz s.548,572. Şərq cəbhəsi, s.66

piyada, 6 pulemyotla, 2 səhra və 4 dağ topu ilə, Axura kəndinə 150 piyada ilə hücum edirdi. İlkəvvəl erməni hücumu təsirli oldu. Culfa və Ordubad arasında yerləşən Aza kəndi ermənilərin əlinə keçdi.[216]Ancaq namus və müstəqilliyini qorumağa qəti qərar verən naxçıvanlılar erməni hücumlarına cavab verdilər. Ordubad cəbhəsində türk zabitləri Ədib bəy və Zob bəy, Kolabadda Kəlbalı xan, Şərurda Xəlil bəy, Vedibasarda Naci və Nuri bəylər komandirlik edirdilər. Ordubad ətrafında döyüşlər çox ağır gedirdi. Ermənilər Ordubadı güclü atəşə tutmuşdular. Hər iki tərəf çox itki vermişdi. Ədib bəyin tərtib etdiyi mütəşəkkil bir planla Ordubad cəbhəsindəki ermənilər böyük məğlubiyyətə düçar oldular.[217] Digər cəbhələrdə dalbadal müsəlmanlar qələbələr əldə etdilər. Sərhəddə erməni hücumunun qarşısı alındı, əks-hücuma keçdilər. Hətta Vedibasar cəbhəsində sürətlə irəliləyən Naxçıvan qüvvələri İrəvanın 8 kilometrliyinə qədər yaxınlaşdı və burada güclənmək məqsədilə simləri kəsərək geri qayıtdılar. Naxçıvana hücum ermənilərə çox baha başa gəlmişdi.Ordubad cəbhəsindən qaçan ermənilər döyüş meydanında 200 ölü, 7 pulemyot, 12 qatır qoyub getmişdilər. Vedibasarda da vəziyyət eyni idi. Döyüşlərdə Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə Vedi əhalisinin fəal vuruşması erməniləri böyük məğlubiyyətə uğratdı. Döyüş meydanında xeyli erməni ölüsü qalmışdı, 4 pulemyot üçün mərmi və bir çox qənimət müsəlmanların əlinə keçdi. Bundan başqa, əvvəllər ermənilərin əlində olan Böyük Vedinin şimalındakı təpələr türklərin nəzarətinə keçmişdi.[218] Sanki erməni hökumətinin günahı yoxmuş. Xarici aləmdə ermənilər türklərin hücumuna məruz qaldıqlarını elan edirdilər.[219] Artıq erməni hücumları dayanmışdı və onlar yeni hücuma hazırlaşırdılar. Digər tərəfdən də Naxçıvan valisi Səməd bəydən, mühacirlərdən və əhalinin nümayəndələrindən regionun ağır vəziyyətini öyrənən Azərbaycan hökuməti bu məsələni 9 apreldə Tiflisdə keçirilən Cənubi Qafqaz konfransına çıxardı, Ordubad, Naxçıvan və Vedibasara erməni hücumlarının dayandırılmasını tələb etdi.[220]

Təbii ki, nəticə əldə etmək mümkün deyildi.

### c) Naxçıvan ətrafında erməni zülmü

Naxçıvandakı məğlubiyyətinin hayıfını hakimiyyətləri altında yaşayan müsəlman əhalidən çıxarmaq istəyən və bununla da ictimaiyyəti

---

[216] ATASE, A.5/2793, Kls.814. s.5-9, F.128-2

[217] Hacıyev, Qars və Araz- türk respublikaları, s.110-111.

[218] ATASE, A.5/2793, kls 814, f. 128-2. İstiqlal, 10 aprel 1920, № 128. Qarabəkir. İstiqlal müharibəmiz s. 552, 558-559, 570, 575. Şərq cəbhəsi, s.66-67.

[219]Qarabəkir. İstiqlal müharibəmiz s. 554. Naxçıvan sərhədlərinə ermənilərin hücum etdiyini Türkiyədə bilən kimi Mustafa Kamal Paşa fəaliyyətə başladı. Qərb dövlətlərinə hadisəni protesto etdi. (Atatürkün Milli Xarici siyasəti, s. 154, Atatürkün teleqram və bəyannamələri, s. 281, Qarabəkir. İstiqlal müharibəmiz, s. 526 ).

[220]Hacıyev. Qars və Araz türk respublikaları s. 111

sakitləşdirməyə çalışan erməni dairələri avqust ayından etibarən bu istiqamətdə işə başladı. Onlar bir tərəfdən ingilis hərbi dairələrinə İqdır bölgəsində Osmanlı zabitlər tərəfindən idarə edilən kürdlərin hücumuna məruz qaldıqları haqda məlumat verir, digər tərəfdən onlar İqdırdə səfərbərlik elan edir və həm də bu bölgəyə 13000-dən artıq bir qüvvə göndərirdi.[221] Digər tərəfdən kürd tayfa rəislərinə məktub yazıb, erməni-kürd ortaqlığının və ya əməkdaşlığının yaradılmasına çalışırdılar. Kürdlərin ermənilərə cavabı qəti idi: Əgər bir əməkdaşlıq istəyirlərsə, dərhal erməni hissələri Araz çayının sol tərəfinə geri çəkilməlidir.[222] Ümidləri boşa çıxan erməni dairələri əvvəlcə bölgəyə göndərdikləri qüvvələrə İqdırın ətrafındakı kəndlərə hücum əmri verdilər. İlk mərhələdə - 17 sentyabr 1919-cu ildə Oba və Yaycı kəndləri məhv edildi.[223] Ardınca Araz çayının sağ və sol tərəfində, İqdır ətrafında dəhşətli vəhşilik başladı. Özlərini müdafiə edə bilməyən 30-a qədər müsəlman kəndi yerlə-yeksan edildi. Müsəlman əhali müdhiş bir soyqırımına məruz qaldı.[224] Erməni zülmünə qarşı çıxan müsəlman əhali hücum edərək İqdırə girdilər, amma əks-hücuma dayana bilməyib oranı tərk etdilər.[225]

Mühacirlərdən nüfuzlu adamlardan alınmış məlumatlara görə əhalinin yarıdan çoxu öldürülmüş və 500-dən artıq qadın naməlum yerlərə aparılmışdı. Zülmdən canlarını qurtara bilən müsəlman əhalinin əksəriyyəti Naxçıvana qaçır,[226] bir hissəsi Türkiyə sərhədlərinə sığınırdı. Vəziyyətləri acınacaqlı idi.[227]

Ermənistanın nəzarəti altında olan bölgələrdə yaşayan müsəlmanlara edilən zülmdən Azərbaycan hökuməti narahat olmuşdu. İrəvandakı Azərbaycanın səlahiyyətli şəxsləri Əli Xan Takinski və doktor Qənizadənin məlumatlarına görə, 13.000 müsəlman mühacir İrəvanda, 50.000 nəfər Ermənistanın digər bölgələrində sahibsiz və acınacaqlı bir vəziyyətdə idi.[228] Təcili onlara kömək etmək lazım idi. İrəvan vilayəti müsəlmanları təcili

---

[221] BOA. DHKMS 53-2\70. Hərbi nazirlik XV artilleriyadan Osmanlı zabitlərinin kürdləri qızışdırdıqları haqda gedən sözlərlə əlaqədar məlumat soruşdu. Kazım Qarabəkir Paşa verdiyi cavabda bunların doğru olmadığını və ermənilərin Iqdir və Kağızmanda zülmlər etdiklərini bildirdilər. (HTSD №9. sentyabr 1954-1957. Sənəd №96

[222] Albayraq, 9 oktyabr 1919, №64. Təsviri-Əfkar, 15 noyabr 1919, № 2902. İradeyi-milliyə. 29 oktyabr 1919. №9. Qarabəkir. İstiqlal müharibəmiz, s.337- 338

[223] Albayraq, 9 oktyabr 1919, №34. 335 və 36-cı illərdə Qafqazda müsəlmanlara qarşı icra olunduğu açıqlanan erməni zülmü. Qars.1921.s,17

[224] "Albayraq" qəzeti 23 oktyabr tarixli sayında "Usta oğru" başlığı altında ermənilərin elədikləri vəhşilikləri göz önünə gətirdi. Dağıdılan kəndlərin adlarını, evlərin sayını və kişilərin sayını nəşr etdirdi. (Albayraq, 23 oktyabr 1919, №38)

[225] 335 və 36-cı illərdə erməni zülmü. s.17.

[226] Azərb. Cüm. MDƏYTA.f. 970. On. 1. s.104. v.2-3

[227] Təsviri-Əfkar, 3 dekabr, 1919,№2920. Esin Dayi.Elviyeyi-Selasede (Qars, Ərdahan, Batumi) milli hissələrin yaradılması. (Nəşr olunmamış doktorluq dissertasiyası). Ərzurum, 1991,s. 158

[228] Hovanisian. The Republic of Armenia.c. 182.

onlara yardım göstərilməsini tələb edirdilər.[229] Buna görə də Azərbaycan hökuməti ağır vəziyyətdə olan müsəlmanlara kömək etmək məqsədilə 22 sentyabr 1919-cu ildə Ermənistana və Qafqazdakı müttəfiq dövlətlərin nümayəndələrinə sərt bir nota verdi. Polkovnik Haskel Azərbaycanın notasına cavab verərək Eçmiədzin və Sürməli bölgəsindəki müsəlmanların vəziyyətini tədqiq etmək üçün bir komissiya yaradıldığını bildirdi.[230] Digər tərəfdən, Hovanisyanın fikrinə görə, erməni zülmünün qurbanlarına kömək etmək istəyən Azərbaycan hökumətinə erməni rəsmi şəxsləri mane olmurdular. Azərbaycandakı erməni nümayəndəsi Bekzadyan vasitəsilə İrəvana çatdırılan yardımlar zərərçəkmiş müsəlmanlara paylanılırdı.[231]

Ermənistanın zülm və təzyiq siyasəti müsəlman əhali arasında bir tərpənişə səbəb oldu. Onlar bir tərəfdən erməni zülmünə qarşı birləşir, digər tərəfdən isə Gürcüstan Xarici İşlər Naziri Gegeçkorinin təşəbbüsü ilə Tiflisdə bir konfrans keçiriləcəyini eşidən kimi dərhal işə başlayaraq məlumatlar göndərir və onların nümayəndələrinin də bu konfransda iştirakının gərəkli olduğunu bildirirdilər. Azərbaycan hökuməti onların nə qədər hüquq və haqlarını müdafiə edirdisə də, ancaq nümayəndələrinin Tiflisdə olması əsas şərt idi. Əks-təqdirdə konfransın qərarını tanımayacaqdılar. Əslində qəddar və ədalətsiz erməni hakimiyyətini qəbul etmirdilər.[232] Araz vadisində zülmə düçar olan əhali ilə zülmdən canlarını qurtaranlar birləşərək ermənilərə qarşı çıxırdı. Yardıma ehtiyacları var idi. Buna görə də oktyabr ayının əvvəllərində Bəyazidə nümayəndələr göndərərək silah və hərbi sursat istədilər. Türk hakim dairələri əvvəlcə Sürməlidəki təşkilatlarını və siyasi dairələri inkişaf etdirmək üçün Naxçıvan ilə əlaqə yaratmağı məsləhət bilmiş və müəyyən qədər rus hərbi sursatı göndərməyi məqsədəuyğun hesab etmişdi. Daha sonra silah və sursatın cüzi miqdarda pulla verilməsi qərara alındı[233] Qərara uyğun Araz vadisinə imkan daxilində yardım edilməyə başlanmışdı.

Türk hakim dairələrinin verdiyi dəstək və müsəlman əhalinin gücü ilə Aralıq, Zəngibasar, İqdır və Eçmiədzinin bəzi bölgələrində çox ciddi hərbi dəstələrin yaradılmasına başlanıldı.

---

[229] 1919-cu ilin payızında Naxçıvandan Bakıya gedən Xəlil paşa vasitəsilə Azərbaycan Xarici İşlər Naziri ilə görüşmüş və bir çox qərarlar qəbul edilmişdi. (ATASE, A. 5/2793 Kls. 324, s 9-4. F. 2-2. Şərq cəbhəsi III, s.68).

[230] Azər. Cüm. MDƏYTA f. 894. On. 10. s.94. v. 9-15

[231] Hovannisian. The Republic of Armenia. s. 182

[232] ATASE, A. 1\2, Kls.82, S.304-210, F.54-1. Albayraq, 2 oktyabr 1919, № 32

[233] ATASE, A. 5/2793, Kls.323, s.5-32, F.58. ATASE, A. 4/8316, Kls.254, s.9-11. F.9. 9-11,11, 11-1, 12. (Sentyabr 1954). s. 215

Hovanisyanın fikrincə, Uluxanlı (Zəngibasar) könüllülərinin başında duran polkovnik Məmməd bəy[234] bölgədə təşkilatın ən nüfuzlu adamı idi. Hərbi dəstələrdə türk və azərbaycanli zabitlər var idi.[235] Naxçıvan komandanı Xəlil bəy də Zəngibasarı ziyarət edirdi.[236] Türk ordusu zabitlərindən kapitan, şahtaxtılı Çingiz bəy bölgədə böyük bir nüfuza sahib idi və əhalinin bir-birinə qaynayıb qarışmasında, milli bir hərbi hissənin yaradılmasına başçılıq etmişdi. Belə qəhrəman zabitin və digər şəxslərin zəhmətləri sayəsində Araz vadisindəki erməni hücumunun qarşısına sədd çəkildi. Dekabr ayı ərzində Aralıq, Zəngibasar bölgələrində, İqdir və Eçmiədzinin mərkəz qəzalarından başqa digər qəzalarda şahtaxtılı Çingiz bəy Şura hökuməti yaratdı. Beləcə, ucqarlarda yaradılan şuralar Araz vadisində və Arpaçayın qərbindəki bəzi mərkəzlər istisna olmaqla erməni hakimiyyətinin nə qədər zəif olduğunu ortaya çıxardı.[237]Kazım Qarabəkir paşa ermənilərin Araz vadisində şuralar qarşısında gücsüzlüyünü çox yaxşı bilirdi. 21 yanvar 1920-ci ildə Ərzurum valiliyi tərəfindən Daxili İşlər Nazirliyinə bir teleqram göndərilmişdi. Bu teleqramda ermənilərin İqdırə silah və əsgər gətirdikləri, müsəlmanlara qarşı soyqırımına hazırlaşdıqları göstərilirdi. Bu teleqram hökuməti narahat edəndə, Kazım Qarabəkir paşa ermənilərin Araz vadisində qüvvə toplayacaq gücü olmadığını bildirmişdi.[238]

Fevral ayında ancaq ermənilərin yavaş-yavş hazırlaşdıqları görünürdü. Bəyazidə çatan və Kazım Qarabəkir paşaya verilən məlumatda ermənilərin hər an Zəngibasar bölgəsinə hücum edə biləcəkləri göstərilir və yardım tələb edilirdi.[239]Kazım Qarabəkir paşa 11-ci diviziya komandiri Cavad bəyə tapşırdı ki, bu hadisəni aydınlaşdırsın. Zəngibasara rus hərbi sursatı və lazım gələrsə, 2 zabit və əsgər göndərsin.[240] Buna əsasən Cavid bəyin Şərqi Bəyaziddəki 18-ci alaya verdiyi əmrdə göstərilirdi: "14 fevral 1920-ci il tarixdə kapitan Mühiddin və ehtiyatda olan zabit İhsan bəy Zəngibasara göndərildi. Ardınca müəyyən qədər hərbi sursat, silah göndərildi.

---

[234] Əvvəl göstərdiyimiz kimi, Zəngibasara bir polkovnik göndərilməsinə rast gəlmədik. Bizcə bu şəxs rütbəsiz bir zabitdir. Əslində kapitan Xəlil bəyi Hovanisyan polkovnik olaraq göstərmişdir. Komanda heyəti cəhətdən sıxıntı çəkən XV korpusun bir polkovniki Zəngibasara göndərməsi imkansızdır.

[235] Hovanisian. The Repuplic of Armenia. s.182. Vol II . s.183.

[236]USA NA. Near Eastern Affairs. 867.00/1067

[237]Bu dövrdə Osmanlı sərhədləri daxilində erməni hakimiyyətinə və zülmünə sədd çəkmək məqsədilə Qulplu Şamilbəy Şurası, Pozatlı Bəkir bəy Şurası və Oltu Şurası kimi yerli idarələr yaradılmışdı. (ATASE, A.l/2, Kls.108, s.391- 151, F.11-4. 12, 29-1, ATASE, A.5/ 5404. Kls. 294. s. (7)-4.F.l. BOA, BEO 435975. Hakimiyyəti-Milliyə. 10 yanvar. 1920, №1; Hakimiyyəti-Milliyə. 28 fevral 1920, №12. İradeyi-Milliyə, 22 mart 1920. №32. Qarabəkir. İstiqlal müharibəmiz, s.391-396. ONK. İqdır s.22).

[238] BOA, BEO 341351: ATASE, A.l/2, Kls.108, D.391-151, f.27-1.

[239] Türk dairələrindən belə bir rica edən Xelil paşadır. Zəngibasar nümayəndələri ilə Bakıda bir sıra işlər görən paşa Azərbaycan hökumətinin göstərdiyi cəhdlər son nəticə verənə qədərZəngibasarın əldə qalması üçün bölgəyə hərbi yardım göstərilməsini xahiş etmişdi. (ATASE, A. 5/2793, kls.324, S.9-4, F.22,2-3)

[240] ATASE, A. 5/2793, kls.324, S.9-4, f.2.

Kapitan Mühiddin bəy Zəngibasarda yaxşı bir hərbi hissə yaratmışdir. Ermənilərin Naxçıvana hücumu zamanı o, Xəlil bəyin razılığı ilə İqdıra hücum etdi. Ancaq bir nəticə əldə edə bilmədi”.[241]

Türk əhalisinin yaxşı bir təşkilata sahib olmasına baxmayaraq, ermənilər müdafiəsiz müsəlmanlara qarşı hücumlarını dayandırmırdılar. 6 fevral 1920-ci ildə ermənilər Qarğabazar kəndinə 200 nəfərlik bir qüvvə ilə hücum edərək 40 nəfəri öldürmüş və qalanları isə qaçmışdılar. Qaradağlı kəndinə hücum edən ermənilər bu kəndin əhalisini yurd-yuvalarından qovmuş, soyğunçuluq etmişdilər. Yenə 23-24 may gecəsi, 300-dən çox erməni süvarisi Uluxanlının 5 km şimalındakı Cəbaslı kəndini mühasirə edərək əli silah tutan adamları süngüləmişdilər.[242] İrəvandakı Azərbaycan nümayəndəsinin verdiyi vəsiqə ilə Gəncəyə gedən 500-ə qədər türk Gümrüdə qatardan endirilmiş və öldürülmüşdü.[243] “İrəvan Müsəlman İttihadı” tərəfindən istər Tiflisdə və istərsə də İstanbulda xarici nümayəndələrə təqdim edilən yazılı memorandumda erməni hökumətinin müsəlmanlara indiyə qədər etdikləri zülmlər açıq statistik məlumatlarla göstərilmişdi. Bu memorandumda göstərilirdi ki, İrəvan, Yeni Bəyazid, Sürməli və s. bölgələrdə ermənilər tərəfindən 199 kənd yandırılmış, 135.000 əhalidən əksəriyyəti öldürülmüş, qalanları isə Azərbaycana, Gürcüstana qaçmışdılar. Azərbaycan parlamentinin mühacirlərə yardım üçün 260 milyon manat ayırması bu problemin bütün cəhətlərini ortaya çıxarırdı.[244] Bu məlumatdan sonra da iyun ayından etibarən müsəlmanlara qarşı erməni zülmü davam edirdi. İyun ayının əvvəllərində İqdır,[245] Qulp və Zəngibasar bölgələrindəki müsəlmanlar hücuma məruz qaldı. Xeyli adam öldürüldü, evsiz-eşiksiz qaldılar. Ancaq 19 iyunda başlayan erməni hücumu ilə böyük bir soyqırım ortaya çıxdı. Zəngibasar Şura qüvvələri ermənilərə qarşı çıxsa da, daim yardım alan düşmən qarşısında müvəffəqiyyət qazana bilmədilər. Əhali pis vəziyyətdə idi. Ermənilərin qabağından qaça bilənlər İrana sığındılar.[246]

Naxçıvanın qərbində vəziyyət belə idi, şərqində yəni Zəngəzurda da eyni ssenarilər davam edirdi. 1918-1919-cu ildə Andranik, Dro, Nejde kimi Daşnak dəstə rəisləri Zəngəzurdakı müsəlman əhali arasında vəhşiliklər törətmişdilər.[247]Ermənilərin Naxçıvanda aldıqları böyük məğlubiyyət və Azərbaycanın Zəngəzura qüvvə göndərməsi bölgədəki müsəlmanların

---

[241] Şərq cəbhəsi III. s.68-70

[242] 335 və 36 illərdəki erməni zülmü. s. 16. Qarabəkir. İstiqlal müharibəmiz s. 728.

[243] Hakimiyyəti-Milliyə.13 aprel 1920, №21, 335 və 36-cı illərdəki erməni zülmü. s. 16-17.

[244] Hakimiyyəti-Milliyə.17 iyun 1920 №39

[245] Bir Amerika yardım heyətinin 20 may 1920-ci il tarixdə yazdığı məlumatda İqdırda dəhşətli aclıq olduğu və insanların bir-birinin ətlərini yedikləri göstərilir. (USA NA Paris Peace Conferance 184. 021/21)

[246]Ünüvar. Bolşeviklərlə 8 ay, s. 27. Şərq cəbhəsi III, s. 101-102. ONK. İqdır, s.22

[247]Ətraflı məlumat üçün bax: Axundzadə. Saxta isbatlar. Səbahəddin Eloğlu. Zəngəzur hadisələri, B. 1992

əleyhinə olan vəziyyəti düzəltmiş, hədələmələr qısa bir müddətdə azalmışdı. Azərbaycan qüvvələri şimalda yerləşən Gorusa doğru irəliləyərkən, cənubda Meğri və Qafan tərəflərindəki türk kəndlərinə qarşı bir hücum başlanmışdı. Erməni liderləri Baranyans və Amazasp təslim ol təklifmi qəbul edən müsəlman kəndlilərini öldürməkdən çəkinmirdilər. Səməd bəyin dediyinə görə, hücuma məruz qalan türk kəndlərindən canlarını qurtaranların sayı çox az idi.[248]

Azərbaycan qüvvələrinin Zəngəzurdan çıxması erməni təsirini artırdı. Dekabr ayının əvvəllərində nazir Xatisyan, Amerika və Denikin orduları nümayəndələrinin də iştirak etdiyi bir mərasimlə Dronun rəhbərlik etdiyi Daşnak qüvvələrini Zəngəzura göndərdi.[249] Zəngəzurdakı Azərbaycan nümayəndəsi Sadıq Axundzadə göstərirdi ki, dekabr ayı ərzində çox qanlı hadisələr baş verdi.[250] Xüsusilə yanvar ayında bir çox türk kəndi dağıdıldı, insanlar öldürüldü. Azərbaycan hökuməti daha susa bilməzdi. Dərhal Xəlil bəyin komandirliyi ilə Zəngəzura qüvvə göndərildi. Müsəlman kəndlərinə hücum edən erməni ordusu ağır bir məğlubiyyətə düçar oldu.[251] Digər tərəfdən bu vəhşiliklərə görə Azərbaycan hökuməti Ermənistana kəskin şəkildə etirazını bildirdi.[252]Zəngəzurda vəziyyət nisbətən düzəlməyə başladı.

Ancaq Naxçıvana qarşı ümumi bir hücuma hazırlaşan ermənilərin o biri tərəflərdə olduğu kimi Zəngəzur tərəfdə də əsgər yığması lazım idi. Bu vəziyyət Zəngəzurdakı sabitliyi alt-üst etdi. Ordubada hücum edildiyi zaman Zəngəzurdakı türk kəndlərini boş qoymaq mümkün deyildi. Onlar da erməni hücumlarından öz paylarını almışdılar. Ermənistan tərəfindən müsəlman əhaliyə edilən vəhşiliklər Azərbaycan parlamentini narahat edirdi. Buna görə də bu hadisələrlə əlaqədar hökumətdən gördüyü tədbirlər haqqında izahat tələb edildi.[253] Sərhəddən uzaqda yerləşən bölgələrə mühüm bir yardım göstərilməzsə də, Zəngəzur üçün tədbir görülmüşdü. Azərbaycan qüvvələri Zəngəzurda erməni qüvvələri ilə döyüşürdü. Aprel ayının əvvəllərində iki tərəf arasında şiddətli döyüşlər gedirdi. Azərbaycan qüvvələrinin hücumu müvəffəqiyyətlə irəliləyirdi.[254] Ancaq yenə də erməni qüvvələri döyüş meydanından kənarda yaxaladıqları müdafiəsiz müsəlmanları öldürürdülər.

---

[248] Hacıyev. Qars və Araz-türk respublikaları, s.97-98

[249] Hacıyev. Qars və Araz-türk respublikaları, s.95

[250] Axundzadə. Saxta isbatlar.

[251] Döyüş meydanında 400 ölü, 1 top, 2 pulemyot qalmışdı, erməni qüvvələri qaçmışdılar (ATASE, A. 1/2, Kls.108, s.391-151, F.34-3. Atatürkün Teleqram və bəyannamələri s. 212)

[252]İradeyi-Milliyə, 4 mart 1920. №28. Qarabəkir. İstiqlal müharibəmiz, s. 468

[253] "Albayraq" 25 mart 1920. №83.

[254] İradeyi-Milliyə.8 aprel 1920. №35, Albayraq, 12 aprel 1920. №83. Qarabəkir. İstiqlal müharibəmiz. s.566.

Azərbaycan qəzetləri erməni vəhşilikləri ilə əlaqədar xəbərlərlə dolub daşırdı.[255] Mətbuat 2 ölkədə yaşayan millətlərin vəziyyətini müqayisə edirdi. "İstiqlal" qəzetinin 20 aprel 1920-ci il tarixli sayında Cümhuriyyətçi imzası ılə dərc olunan bir yazı da bu cəhətdən çox maraqlı idi. Belə yazılmışdı: "Qarsın, Naxçıvanın, Ordubadın, Zəngəzurun və qeyri türk ölkələrinin dağlarında zavallı türk xalqının qanı axarkən Azərbaycan-türk xalqı öz hökumətinin səsinə səs verərək erməni vətəndaşları ilə münasibətlərini pozmamışdır".

Ermənistan torpaqlarında müsəlmanlar yaşaya bilməsə də, Azərbaycan daxilində ermənilərin bütün hüquqi, siyasi, milli və mədəni haqları təmin edilmiş, ermənilərə parlamentdə və hökumət vəzifəsində[256] də yer vermişdilər.[257]

27 aprel 1920-ci ildə Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsi və Qızıl Ordu hissələrinin Azərbaycana girməsi ilə Zəngəzur məsələsi gündəlikdə fəal yer tutdu. Azərbaycanda Sovet hökuməti və Azərbaycandakı Sovet Rusiya səlahiyyətli adamları Ermənistan hökumətinə bir nota verərək Qarabağ və Zəngəzurun boşaldılmasını, müsəlmanlara qarşı soyqırımın dayandırılmasını tələb etdilər. Əks-təqdirdə Sovet Rusiyası və Azərbaycan Ermənistanınonlara qarşı müharibə elan etdiyini düşünəcəklər.[258] Ermənistan rədd cavabı verdi. Zəngəzura Qızıl Ordunun hərəkəti başladı. Bir çox bölgələr işğal edildi. Ermənistan protest etdisə də, bir nəticə hasil olmadı.[259] Bu barədə bütün təfərrüatı ilə söhbət açacağıq. Sovet ordusunun Naxçıvan yolunu açma təşəbbüsü davam etdi. Onlar həqiqi müttəfiqləri olan türklərlə birləşib, Daşnak Ermənistanını cənubdan mühasirə etmək və əvvəlki sərhədlərinə çatmaq istəyirdilər.

## 6. Liderlər arasında gərginlik və idarəetmə sistemindəki mənfiliklər

Naxçıvanda müstəqil bir idarəetmə sistemi yaradıldıqdan sonra iki ayrı-ayrı fikir meydana çıxdı. Xəlil bəy, Kəlbalı xan və Heydərqulu bəyin rəhbərliyindəki qrup müttəfiq dövlətlərin nümayəndələri və ermənilər qarşısında milli mənfəətlərindən güzəştə getməyən bir siyasət yeridir, Səməd bəy, Böyük xan və oğlundan ibarət qrup isə Azərbaycana meyilli olub güzəştli siyasət aparırdılar.[260] Səməd bəyin fikrincə regionda üçhakimiyyətlilik

[255] Albayraq.12 aprel 1920 № 83.

[256] Vəzifə mənasındadır.

[257] Cümhuriyyətçi. Vəziyyeti-Hazır. İstiqlal, 20 aprel 1920 № 14

[258] Albayraq.13 may 1920. №91. Qarabəkir. İstiqlal mühanbəmiz. s. 683. Nəsib Nəsibzadə. AKP və vətənin bütövlüyü məsələsi problemi, Azadlıq, 9 dekabr 1991. Q.Jaske. Qarabağ, Zəngəzur ve Naxçıvan Sovet siyasətinin ticarət əmtəəsıdir. Qurtuluş. №17.(Mart 1936) s.488

[259] İstiqbal.10 iyun 1920 № l45

[260] USA NA Near Eastem Affairs 867.00\ 1100.

mövcud idi. Kəlbalı xan Azərbaycan tərəfdarı olub, xanların qanunsuzluğundan şikayətçi Keçili kəndi əhalisini cəzalandırmaq üçün öz qüvvələrini oraya göndərirdi. Xəlil bəy də inzibati işlərə qarışırdı. Əhali valini və Azərbaycan hökumətini müdafiə edirsə də, bu adamlara qarşı çıxacaq silahlı qüvvəsi yox idi.[261] Gənc vali Səməd bəy Xəlil bəyi və Kalbalı xanı özünə rəqib hesab edirdi. Arxasında əhalinin müəyyən bir hissəsinin dəstəyini hiss edən Səməd bəyin Azərbaycandan kifayət qədər dəstək almaması onu nisbətən zəiflətmişdi. Belə bir şəraitdə münasibətlər orta səviyyədə idi; nə çox yaxşı, nə çox pis idi. Ermənilərlə mübarizədə daha çox müvəffəqiyyət qazanan Xəlil bəy bütün naxçıvanlılar və Səməd bəy tərəfindən bölgənin yeganə qoruyucusu kimi tanınırdı. Noyabr ayından etibarən Kalbalı xanla Səməd bəy arasında münasibətlər pozulur. Qarabağ valisi Xosrov bəy Sultanova göndərdiyi 5 dekabr 1919-cu il tarixli bir məlumatında Səməd bəy hadisə ilə bağlı ətraflı məlumat verirdi. Səməd bəyə görə ağılsız, yarı dəli Kalbalı xan "özünü bölgənin ağası" hesab edir, insanların nəyi varsa, onun ayaqları altına tökməsini istəyir. Belə bir vəziyyət Naxçıvanda anarxiyanın yaranmasına səbəb olur. Xalq Azərbaycana qarşı əks münasibət bəsləyir, öz nüfuzlarını artırmaq niyyətində olan xanların sərt davranışlarından bezmişdilər".Kəlbalı xan Azərbaycan hakimiyyətini tanımaq istəmirdi. Buna görə də Azərbaycan və bilavasitə Səməd bəy əleyhinə bir kampaniya yaranmışdı.[262] Atası və bir çox xanlar kimi İran hakimiyyətinə keçmək arzusunda idilər.[263] Qohumları olan Maku xan kimi imtiyazlı bir xanlıq halına gəlmək, onların əvvəlki arzuları idi.[264]

Səməd bəy Kalbalı xanın bir çox xoşagəlməz hərəkətlərini ortaya çıxarmaq məqsədi ilə işə başladı. O, baş verən hadisələr haqda hökumətinə məlumat göndərirdi. İlk əvvəl Culfada olan sement xammal maddəsini Kalbalı xanın İrana satdığı bəlli olmuşdu. Bölgədəki növbətçiləri Səməd bəy dəyişdirdi. Oğurluq dayandı. Ancaq Kalbalı xanın və tərəfdarlarının təzyiqi ilə Maku xanla və s. nüfuzlu şəxslərlə satış işləri yenidən başladı. Səməd bəy iddia edirdi ki, Kəlbalı xan Azərbaycandan qanunsuz yerə pul almaq üçün öz adamlarına saxta sənədlər vermiş, bir çox cinayətlər törətmişdir. Tutulan adamlarını həbsdən azad etməyə çalışır, Culfa, Naxçıvan və Noraşendə 13 tank qaz yağının yeddisini götürmüş, qalanlarını da əsgərlərinə

---

261 Hacıyev, Qars və Araz-türk respublikaları, s. 86

262 Hacıyev, Qars və Araz-türk respublikaları, s.99-100.

263 Kalbalı xan, polkovnik Ri rəhbərlik etdiyi heyətlə görüşündə məqsədi müstəqil Şərur-Naxçıvan xanlığı yaratmaq olduğunu demişdir. Xanlıq iran və Türkiyə təsirindən uzaq olacaq. (USA NA, Near Eastern Affairs, 867.00/1100). Kalbalı xan hər halda Amerikadan dəstək almaq üçün demişdir. İran və Türkiyənin təsiri altında olarsa, müttəfiqlərin diqqətini çəkə bilərdi. Kəlbalı xan bilirdi ki, erməni təhlükəsi olduğu halda müstəqil bir Naxçıvan xanlığı yaratmaq imkansızdır.

264 ATASE, A. 5\2793, kls.814, s.5-9. F.128-4; M.B. Naxçıvan – Şərur məsələsi II Azərbaycan, 20 iyul 1919, №229. Hacıyev. Qars və Araz-Türk respublikaları. s.106-107.

paylamağı tələb edirdi. Kalbalı xan isə Xəlil bəyə Zəngəzur yolunu aça bilməyəcəyini bildirir, digər tərəfdən Qarabağ valisi Xosrov bəyin göndərdiyi 2 zabiti Naxçıvandan qovmağın yollarının axtarırdı. Münasibətlər gərginləşirdi. Səməd bəyin tərəfdarı Nehrəm batalyonu komandiri Karbəlayi Müxtar ilə Kalbalı xan arasında münaqişə 2 tərəf arasında qanlı bir döyüşə gətirib çıxarmaq üzrə idi ki, Xəlil bəy işə qarışdı və buna mane oldu.

Kalbalı xanın fəaliyyətini təhlükəli hesab edən Azərbaycan hökuməti tədbir görməyə başladı. Yüksək vəzifə təklif edilərək Kalbalı xan Bakıya çağırıldı. Ancaq Kalbalı xan bu təklifi qəbul etmədi.[265]Xanların Naxçıvandakı nüfuzunu yox etmək üçün oraya təcili hərbi hissə göndərilməli idi. Bu qüvvələr vasitəsilə Azərbaycan qanunları Naxçıvanda tətbiq ediləcək, cinayətlərin qarşısı alına biləcəkdi. Dövlətə layiq adamların işləməsi üçün hökumətə kifayət qədər pul göndərilməli, bundan başqa, Naxçıvandakı vəziyyəti yaxından müşahidə etmək üçün Azərbaycan nümayəndəsinə səlahiyyət verilməli idi.[266]

Səməd bəy hökumətinə xanlardan şikayət etdiyi vaxt özü də boş durmurdu. Bölgəni, tamamilə Azərbaycanın bilavasitə öz hakimiyyəti altına salmaq üçün fəaliyyət göstərirdi. Məqsədinə çatması üçün xanların, xüsusilə Türkiyə nümayəndəsi Xəlil bəyin nüfuzunun aşağı salınması lazım idi. Eyni zamanda xanlar da Naxçıvanda öz hakimiyyətlərini qurmaq üçün Azərbaycanın nüfuzunu və xüsusilə Xəlil bəyin nüfuzunu aşağı salmağa çalışırdılar. Onlar Xəlil bəydən çəkinirdilər. O neytrallaşarsa, bitərəf Türkiyənin regiondakı nüfuzu ortadan qaldırılacaq, onların yeganə bir qüvvə olması təmin ediləcəkdi. Beləliklə, belə bir şəraitdə Naxçıvanda üç qrupun mübarizəsi başladı.[267] Cəfərqulu xanın rəhbərliyindəki xanlar qrupu İran üsul-idarəsində yarıfeodal bir hökumət qurmaq fikrində idilər. Onlar qohumu Maku xan tərəfindən dəstəklənir, bir tərəfdən də qızışdırırdılar.

Şərur bölgəsinin nüfuzlu adamlarından Tağı bəy Səfıyev də xanları dəstəkləyirdi.[268] Naxçıvanın xarici siyasətində Azərbaycan hökuməti kimi yumşaq bir siyasət aparan, regionu tamamən öz nəzarətinə almaq istəyən

[265] Hacıyev yazırdı ki, Kalbalı xan Naxçıvaındakı siyasi, hərbi və daxili gücü əlində tutmuş, adamları, xəzinəni, dəmiryolunu, poçt və teleqraf müəssisələrini idarə edir. Özünün müəyyən etdiyi vergilər qoymuşdur. (Hacıyev, Qars və Araz-türk respublikaları. s. 103.) Bunlara baxmayaraq, biz bunların həqiqəti əks etdirdiyini qəbul etmirik. Çünki ortada Xəlil bəy olduğu halda bütün bunların Kalbalı xanın əlinə keçməsi mümkün deyildi. Xətil bəyin bir raportunda xəzinə, poçta, teleqraf, dəmiryol valiliyin öz nəzarətində olduğu göstərilir. O, Səməd bəyə hirsləndiyindən bunların idarə edilməsini öz əlinə almışdı.

[266] Hacıyev. Qars və Araz-türk respublikaları. s. 101-103

[267] Əliyev göstərirdi ki, qruplar arasında Mirzalı bəy Bektaşev, Nəcəfqulu Nəcəfov və Əhməd Əzimovun liderlik etdiyi bolşevik düşüncəli olanlar da var idi. (Ə.Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə. B. 1960, s. 17.) Biz də bunu qəbul edirik, ancaq əllərində gücləri ve bilavasitə rəhbərlik üzərində heç bir təsiri olmadığı üçün onları qruplar içərisinə daxil etmədik.

[268]ATASE, A. 5\2793, Kls.814. s.5-9, F. 128-4, M.B. Naxçıvan-Şərur məsələsi.Əliyev.Naxçıvanda Sovet hakimiyyətinin qurulması.s 17. Hacıyev. Qars və Araz-türk respublikaları. s. 106-107

Səməd bəy və tərəfdarları 2-ci qrup təşkil edirlər. Vali Səməd bəy Azərbaycandan göndərilən pulları bu yolda xərcləyirdi.[269] Üçüncü qrup isə Naxçıvanın milli mənfəətlərindən pay verməyən, güzəştə getməyən və bölgənin müstəqil olması üçün ermənilərə qarşı hər zaman hazır olmağı lazım bilən Xəlil bəy və yoldaşlarından ibarət idi. Əmri altında olan zabit və əsgərlər, Böyük xan[270] və Şərurun qəhrəmanlarmdan Məşhədi Əli Əsgər Ağa Xəlil bəyi dəstəkləyirdilər.[271]

Şübhəsiz, Türkiyənin nümayəndəsi olması, nüfuzu, ermənilərlə döyüşlərdə üstünlüyü, bacarığı, yaxşı bir əsgər olması və xan qızı ilə evlənməsi Xəlil bəyin Naxçıvanda güc mənbəyi olmasına səbəb olmuşdu. Buna görə də Səməd bəy və xanlar əməkdaşlığa girərək Xəlil bəyin nüfuzunu aşağı salmaq üçün onun əleyhinə təbliğat aparmağa başlamışdılar. Ancaq təbliğat aparmaqla Xəlil bəyin nüfuzunu itirməyəcəyini başa düşən Səməd bəy hərbi qüvvələr üçün lazım olan pulları verməməyə və ya minbir minnət ilə verməyə başlamışdı.[272] Erməni təhlükəsinin astanasında olduğu sərhədlərdə döyüşlərin davam etdiyi bir dövrdə bu mənfi fəaliyyətlər və Səməd bəyin Azərbaycan hökuməti kimi daşnaklarla əməkdaşlıq üçün yumşaq bir siyasətə tərəfdar olması Xəlil bəyi narahat edirdi.[273] Xanların hərəkəti də başqa bir narahatçılıq gətirirdi. Bir tərəfdən Türkiyə əleyhinə təbliğat aparırlar, digər tərəfdən isə Türkiyəni və bilavasitə Xəlil bəyi dəstəkləyən adamları incitmək və onlara zülm etməyə var qüvvələri ilə çalışırdılar.[274]

Ancaq onu da nəzərə almaq lazımdır ki, Xəlil bəyin və yoldaşlarının əleyhinə nə qədər iş görülsə də, onların nüfuzu azalmaq əvəzinə artırdı. Sərhədlərdə davam edən döyüşlər, erməni zülmündən qaçan mühacirlərin dedikləri o vəhşiliklər Xəlil bəyin yeritdiyi siyasətin nə qədər düzgün olduğunu göstərir, həm də əslində əhali arasında Türkiyəyə olan müsbət münasibəti artırırdı.[275] Xalq Xəlil bəy və Türkiyə olmasaydı, onların nə vəziyyətə düşəcəyini çox yaxşı bilirdi.[276]

---

[269] ATASE, A. 5\2793, Kls.8I4, s.5-9, F. 128-3. Hacıyev. Qars və Araz-türk respublikaları. s.106

[270] Əliyevin fikrincə, əvvəllər Səməd bəyin yanında olan Böyük xan Xəlil bəyi dəstəkləyirdi. (Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s. 17.) Böyük xan Xəlil bəyin qaynatası Məhəmməd Əli xanın qardaşı idi. Onun Kazım Qarabəkir paşa ilə daim əlaqədə olması Türkiyə siyasətini dəstəkləməsi səbəblərindəndir.

[271] Hacıyev. Qars və Araz-türk respublikaları. s.107. Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s. 17

[272] ATASE, A. 5\2793, KIs.814, S.5-9, F.128-4.

[273] Hacıyev. Qars və Araz-türk rcspublikaları. s.105.

[274] ATASE. A 5/2793, kls.814. S.5-9. F. 128-3, 128-4. 128-3.

[275] Hacıyev. Qars və Araz-türk respublikaları. s. 107.

[276] Azərbaycanın Zəngəzur tərəfdən Naxçıvana yol aça bilməməsi xalqı Türkiyəyə yaxınlaşdıran səbəblərdən biri idi. Azərbaycan əleyhinə təbliğat aparan Kəlbalı xan Azərbaycanın zəifliyini göstərmək üçün belə bir təbliğat aparırdı. (Hacıyev. Qars və Araz-türk respublikaları. s. 101).

Xəlil bəy nə qədər özünü güclü hiss etsə də, maddi mənəvi sıxıntıları var idi. Artıq mövcud qruplaşmalar Naxçıvanın gələcəyini təhlükəyə atırdı. Buna görə də Xəlil bəy müəyyən tədbirlər görməyə başlamışdı. Fevral ayının əvvəllərində Səməd bəyin tərəfdarlarına qarşı işə başladı.[277] İrəvandakı Azərbaycan elçisi Ə.Haqverdiyev 4 fevral 1920-ci ildə vəziyyət haqqında Bakıya məlumat verdi. Xəlil bəyin Naxçıvandan geri çağırılması üçün bir iş görülməsini tələb etdi. Hacıyevin fikrincə narahatçılıq artdığına görə Səməd bəy A.Haqqverdiyev vasitəsilə 29 fevralda Azərbaycan hökumətinə bir məlumat göndərdi. O, özünün işdən çıxarılmasını, yerinə təcrübəli birinin təyin edilməsini və təcili tədbirlər görülməsini tələb etdi.[278]

Artıq çox gec idi. Xəlil bəy qərarını vermişdi. Regiondakı narahatçılığın ən mühüm səbəbi olan valini Naxçıvandan çıxartmalı idi. Xəlil bəy bununla əlaqədar yazırdı: "Nəhayət, valini Naxçıvandan çıxartmağa məcbur oldum və çıxartdım.[279] Yerinə vəkil kimi qarabağlı bir şəxsi təyin etdim. Azərbaycan hökuməti mənim bu hərəkətimdən narazı idisə, əhəmiyyət vermədim".[280]

Mart ayının ortalarında Səməd bəyi Azərbaycana göndərən, yerinə vali vəkili olaraq qarabağlı Qara bəyi təyin edən Xəlil bəy,[281] Naxçıvanda qruplaşmanın ən böyük mənbələrindən birini aradan qaldırdı. Ancaq o, öz vəziyyətinin və bilavasitə Naxçıvanda hərbi hissələrin güclənməsi, daxili çəkişmələrin maddi cəhətdən əsgərə təsir etməməsi üçün mühüm qərar qəbul etdi. Dəmiryolunu və gömrükxananı öz nəzarəti altına aldı. Toplanan gəlir hərbi hissələrə xərclənəcəkdi. Artıq pul üçün minnət etmək lazım olmayacaqdı.[282]

Əliyev və Mədətov Xəlil bəyin yuxarıda qeyd etdiyimiz fəaliyyətlərindən başqa, bir də onun Naxçıvanın Türkiyə ilə birləşməsi üçün göstərdiyi təşəbbüslərdən bəhs etmişlər. Buna görə də 11-ci diviziya komandiri Cavid bəydən aldığı əmrə əsasən 4 fevral 1920-ci ildə Naxçıvanın

---

[277] Hacıyev göstərir: Xəlil bəy fevralın ilk günlərində Səməd bəyin tərəfdarlarına qarşı çıxır, Naxçıvandahakimiyyəti ələ keçirməyə çalışırdı. Xəlil bəy Naxçıvanın ən güclü şəxsi idi. Demək olar ki, bütün qüvvələr onun əlində idi. Türkiyə əleyhinə olan bir neçə Səməd bəy tərəfdarlarını cəzalandırmışdır. Müəllif bir mənbəyə istinad edirdi, tez-tez səhvlərə yol vermişdir. Əsərin bir yerində Naxçıvanda bütün gücün Kalbalı xanın əlində olduğunu yazan müəllif burada da Səməd bəyin güclü olduğunu göstərir, Xəlil bəy də ona qarşı çıxır.

[278] Hacıyev, Qars və Araz-türk respublikaları. s.107.

[279] Hacıyev göstərir ki, mart ayında Səməd bəy Naxçıvanı tərk etmişdir. (Hacıyev. Qars və Araz-türk respubiikaları. S.107). Mədətov da göstərirdi ki, Səməd bəyin bölgədən çıxardılmasında Kalbalı xanın fəaliyyəti var. (Q.Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. B. 1958, s. 62.)

[280] ATASE, A.5\2793, kls.814, s.5-9, f.128-3. Naxçıvandakı daxili çəkişmələr erməni mətbuatında yer almışdır. Buna görə də Azərbaycan qəzetində dərc olunan bir məqalədə erməni iddialarına qarşı çıxır. Naxçıvanda ictimai, siyasi ve iqtisadi həyatın Ermənistandan yaxşı olduğu göstərilirdi. (Hacıyev. Qars və Araz-türk Respublikaları. s. 107.)

[281] Cümhuriyyət, 20 may 1933 №3244

[282] ATASE, A.5\2793, Kls.814, s.5-9, F.128-3, 128-4

ağsaqqallarından 60 nəfəri yanına çağıran Xəlil bəy onlara regionun Türkiyə ilə birləşməsi, Naxçıvana hərbi qüvvə göndərilməsinin tələb edilməsi və türk əsgərlərinin xərcliyini ödəyib-ödəməyəcəkləri ilə bağlı suallar verdi. Alınan cavablar Mirzə Nəsrullah bəy tərəfindən Bəyaziddəki Cavid bəyə çatdırıldı.[283] Q.Mədətova görə Kəlbalı xanın Azərbaycana olan ədavətindən Türkiyə məqsədləri üçün istifadə edirdi. İşin sonunda Kalbalı xanı bitərəf etmək asan idi.[284]

Xəlil bəyin Səməd bəyə olan münasibəti aydın idisə, xanların Türkiyə əleyhinə apardığı təbliğata əsasən necə siyasət yeritdikləri bəlli deyildi. Həqiqət bu idi ki, Xəlil bəy xanları istəmirdi. Onların Naxçıvan üçün nə qədər zərərli olduqlarını bilirdi. Ona görə də onlar ya regiondan çıxarılmalı və ya xoş bir niyyətlə idarə olunmalıdırlar.[285] Xəlil bəy ikinci yolu seçdi. Erməni təhlükəsi astanada ikən əllərində hərbi qüvvə olan xanlarla məşğul olmaq məqsədəuyğun deyildi. Əlimizdəki məlumatlara əsasən deyə bilərik ki, son qəbul etdiyi qərarlara görə daha da güclənən Xəlil bəy xanları müəyyən bir müddətdə idarə edə bilmişdi. Ancaq Azərbaycan ordusunun Naxçıvana gəlməsi Xəlil bəy üçün böhranlı günlərin başlanmasına səbəb oldu.[286]

Erməni hücumlarına baxmayaraq, Azərbaycanın torpaq bütövlüyünü qorumuş, yaxşı bir hərbi hissə yaradılmışdır, ancaq işlər heç də yaxşı getmirdi. İnzibati və ictimai həyatdakı çatışmazlıqlar son həddə çatmışdı.Xəlil bəyin Kazım Qarabəkir paşaya göndərdiyi 21 iyun 1920-ci il tarixli məlumatında bölgədəki çatışmazlıqlar və çarələr haqqında bir məlumat verirdi: "Naxçıvan regionunda fikir əvəzinə daha çox çomaq, çəlik işlənir. Hökumət məmuru, alay və batalyon komandirləri bu cür şəxslərdən təyin edildiyindən daha çox haqsızlıqlar, cinayətlər, oğurluq olur. Xalq bu cür idarədən şikayətçidir. Lakin, polad çomaq sahiblərindən qorxduqlarından səslərini çıxara bilməzlər. Təmiz, namuslu şəxslərdən biri vəzifəyə gətirilə bilməz. Çünki qəsbkarlar dəstəsi çətinlik yaradar, hətta üsyan da edərlər. Zabitlər çox olsa, ümumiyyətlə, inzibati və hərbi işləri idarə etsələr, bu müşküllük azalar. Ancaq oradakı zabit mələk kimi olmalı, xidmətdən başqa heç bir məqsəd və iş ardınca getməməlidir. Əks-təqdirdə üsyanlar hazırdır.

Əhali arasında bir hadisə baş versə, hökumət haqq və ədalətlə iş görə bilməz. Hansı tərəf çox pul versə, iş o tərəfin xeyrinə istədiyi kimi həll edilər. Qarşı tərəf isə məcbur olub komandanlığa şikayət edər, komandanlıq da bu işlərə baxmağa məcbur olar. Buna görə də Naxçıvan regionunda komandir və vali bir şəxs olmalıdır.

---

[283] Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.62. Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. *s.62.*

[284] Mədətov .Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 62. Şəmsəddin Bağırov. Bir qaragün dostluğu. s.147- 148.

[285] ATASE, A.5/2793, kls.814, s.5-9, F.128-4.

[286] Qarabəkir. Istiqlal rnüharibəmiz. s.61. Ünüvar. Bolşeviklərlə 8 ay, s.23. Şərq cəbhəsi III, c s.102

Bu şəraitdə əhaliyə üz vermək, nəzakət göstərməyə dəyməz. Dərhal açılışır, yenidən nüfuz altına salıb iş görmək olmur. Yuxarı təbəqə ilə belə sərt və ciddi rəftar edilməlidir. Əhali düşməndən çox komandirdən qorxmasa, döyüşlərdə sağlam və istənilən əməliyyat aparıla bilməz. Buna görə də ən kiçik qəbahət və xəyanət edən dərhal cəzalandırılmalıdır. Xülasə, burada olan komandir bir az qəddar davranmalıdır. Təbii ki, əhali razı qalmayacaq. Başqa cür region mühafizə edilə bilməz. Komandirin sərt və ciddi əməlləri ermənilərə böyük təsir edər.[287]

## C. Naxçıvana hərbi hissə göndərilməsi məsələsi və ermənilərlə müharibə

### 1. Naxçıvana hərbi dəstə göndərilməsi məsələsi

Ərzuruma gəldiyi gündən bəri Naxçıvanın Türkiyə və türk dünyası üçün əhəmiyyətini bilən Kazım Qarabəkir paşa regionun bütün problemləri ilə maraqlanmış, müsəlman əhalini ermənilərin əlindən qurtarmaq, yeni bir təşkilat yaratmaq üçün Xəlil bəyi və yoldaşlarını Naxçıvana göndərmişdi. Ancaq Müttəfiq dövlətlərinin Osmanlı hökumətinə təzyiqi və atəşkəs müqaviləsinin bağlanmasına görə bütün bu işlər gizli görülmüş, Naxçıvana göndərilən Xəlil bəy və yoldaşları guya fərarilik etmiş, onlar haqqında qanuni iş qaldırılmışdı. Məqsəd bu işlərdə türk ordusunun iştirakını gizlətmək və rəsmi bir dəlil və iz buraxmamaqdı. Buna görə də Xəlil bəyin rəsmi türk dairələri ilə yazılı əlaqə saxlaması XV korpusun ciddi narazılığına səbəb olmuşdu.

13 dekabr 1919-cu ildə Bəyazid Mövqe Komandanlığına göndərilən şifrli bir teleqramda belə yazışmaların ölkə üçün çox zərərli olduğu xatırladılmış və vəziyyət dərhal Xəlil bəyə bildirilmişdi. Xəlil bəy Bəyazid Mövqe Komandanlığı ilə qeyri-rəsmi yazılı əlaqə saxlaya biləcək və o vaxta qədər yazılmış sənədlər və sonrakı sənədlərin qaralaması da saxlanılmayacaq, yandırılacaqdı.[288]

16 mart 1920-ci ildə İstanbulun işğalı və deputatlar məclisinin bağlanması, bir çox üzvlərin tutulması Anadoludakı prosesləri dəyişdirmişdi. Artıq ölkənin taleyini öz əllərinə almaq lazım gəldiyini bilən Milli Mübarizə liderləri müttəfiq dövlətlərin və bilavasitə ingilislərin Türkiyənin gələcəyi üçün nə qədər təhlükəli olduğunu yaxşıca başa düşmüşlər və hansı tərəfə meyl etmək lazım olduğu məlum olmuşdu. Müttəfiq dövlətləri Anadolunu zəbt etmək istərkən, Mustafa Kamal Paşa və yoldaşları türk xalqını qurtarmaq istəyirdilər. Osmanlı hökuməti seyrçi mövqeyində idi. Gözləyəcək,

[287] ATASE, A. 5/2793, Kls.814, s.9-5, F.128-4
[288] ATASE, A. 4/8316, Kls. 254, s.9-11, F.12

gizlədəcək bir şey qalmamışdı. Buna görə də Kazım Qarabəkir paşa dərhal hərəkətə keçdi. Naxçıvan regionu 11-ci diviziya komandanlığının əmri altına verildi. Bu tarixdən etibarən Xəlil bəy Cavid bəylə rəsmi surətdə əlaqə saxlayacaq və yardımı ondan alacaqdı.[289] Türkiyə üçün Naxçıvanın əhəmiyyəti daha da artmışdı. Azərbaycana və Qafqaza gələn bolşeviklərlə əlaqə yaratmaq, Ermənistana qarşı hücumda çox böyük bir üstünlük əldə etmək üçün Naxçıvanda güclü bir qüvvəyə sahib olamaq lazım idi. Buna görə də Kazım Qarabəkir paşa Naxçıvana bir hərbi dəstə göndərməyi qərara aldı. Naxçıvana gələn dəstə Zəngəzur yolunun açılması üçün dərhal hərəkətə başlayacaqdı. Ancaq Kazım Qarabəkir paşa Xəlil və Nuri paşalara göndərdiyi 17 mart 1920-ci il tarixli məktubda eyni vaxtda Qarabağ tərəfdən Azərbaycan ordusunun dərhal əməliyyata başlamasını xahiş edirdi.[290] Digər tərəfdən Paşa Naxçıvan regionu üçün məsuliyyət daşıyan və göndəriləcək dəstəni təşkil edən 11-ci diviziya ilə dərhal yazılı əlaqə saxladı. Diviziya komandiri Cavid bəyin məsələ ilə əlaqədar fikrini soruşdu. Cavid bəy də bildirdi ki, göndəriləcək dəstə Zəngəzura hücum edib onu ala bilməyəcək. Azərbaycan ordusu ilə əlaqə yaratmaq baş tutmayacaq. Cavid bəy Naxçıvan regionu üçün mühüm olan İqdırın müdafıəsi üçün 18-ci alayın hazırlandığını bildirdi. 33-cü alayın 2-ci batalyonunda bir mexanikləşdirilmiş hərbi dəstə və topçu alayındakı bir rotadan ibarət Naxçıvan dəstəsi təşkil edilməsi nəzərdə tutulurdu. Ancaq Naxçıvan dəstəsinə kim komandirlik edəcəkdi? Diviziyada mayor rütbəsində bu dəstəyə komandirlik edəcək bir adam yox idi. Batalyon komandirləri kapitan idi. 33-cü alayın 2-ci batalyon komandir vəkili kapitan Əhməd Həmdi Əfəndi bu dəstəyə komandirlik edə bilərdi. Ancaq Cavid bəyin fikrincə, o şəraitdə dəstənin Xəlil bəyin əmri altına girməsi lazım idi. Xəlil bəyin Naxçıvana gəldiyi gündən bütün fəaliyyətlərindən razı qalan Cavid bəy onun dəstə komandirliyi məsələsi və regionda görəcəyi işlər ilə əlaqədar yazırdı: “Bu qədərki məlumat kifayət deyildir. Bir tərəfdən hökumət və hərbi işlərlə məşğul olmaq, digər tərəfdən də döyüş cəbhəsinə gedib komandirlik etmək ayrı-ayrı işlərdir. Buna görə xalqı bir fıkir ətrafında toplamaq, hərbi sahə və s. işlər üçün Xəlil bəyin daim Naxçıvanda qalması, bir çox işləri görməsi və partiyaları nifaq və ədavətdən uzaq tutması lazımdır. Ordunun nizamlanması, göndərilməsi və rəhbərliyi üçün bacarıqlı, nüfuzlu bir hərbçinin və mümkün olmazsa, bir dəstənin göndərilməsinə və idarə edilməsinə bacarığı olan nüfuzlu bir şəxsə (xalqın bir nümayəndəsinə) kapitan rütbəsi verilməklə Naxçıvan regionuna“Səfər hərəkatı” komandiri adı altında göndərilməsi mümkündür. Bu şəxs Xəlil bəy ilə bərabər çalışacaq və hər nə lazımdırsa Naxçıvan hökumətinə bildiriləcək,

---

[289] “Cümhuriyyət”. 20 may 1933. № 3244

[290] Qarabəkir. İstiqlal müharibəmiz.s. 508-509

regionu müdafiə etməyə, əməliyyatları müstəqil idarə etməyə müvəffəq olacaq. Bizə mütəmadi məlumatlar verə bilər, bizimlə bərabər hərəkət edə bilər. Korpus tərəfindən uyğun şəxslərin müəyyənləşdirilməsini xahiş edirəm”. Naxçıvana göndəriləcək dəstənin yollar bağlı olduğundan may ayında hərəkət edə biləcəyini bildirən Cavid bəy, bir sıra dəstələlərini də Van, Arnis və Tatvanda qoyan, bir batalyon, bir batareya və mexanikləşdirilmiş bir hissəni də Naxçıvana göndərməyə məcbur olan diviziyanın əlində kifayət qədər qüvvə olmadığından şikayət edirdi.[291] Cavid bəyin 23 mart tarixli şifrli teleqrama Kazım Qarabəkir paşa 29 mart 1920-ci ildə cavab verdi. O göstərirdi ki, göndəriləcək hissə o regiondakı qüvvələr kimi Xəlil bəyin əmri altında olmaqla bərabər, batalyon komandiri də öz hissəsini müstəqil idarə edə bilər. Ərzurmudan bir zabit göndərilməsi mümkün deyildi.[292]

Paşa, Cavid bəyə Ərzurumdan zabit göndərə bilməyəcəyini bildirməsinə baxmayaraq, təcili məsələni həll etmək lazım olduğunu çox yaxşı bilirdi. Buna görə də IX diviziya komandiri Xalid bəyi aprelin 8-də Ərzuruma çağırdı. Göndərdiyi teleqramda Naxçıvanın əhəmiyyətinin daha çox artdığını göstərir və bölgədəki hadisələrdən söz açırdı. Yaxşı bir hərbi hissələri olan naxçıvanlıların erməni hücumlarından vətənlərini qəhrəmancasına müdafiə etdiklərini, ancaq onları mükəmməl bir şəkildə idarə edə biləcək komandir olmadığından qələbələrin də daimi olmayacağını bildirdi. Sonra isə yazırdı: “Qafqaz və Azərbaycanla gediş-gəliş yolunun üstündə yerləşən bizim üçün əhəmiyyətli olan Naxçıvan regionuna bacarıqlı bir komandir və kifayət qədər zabit və qüvvə göndərilməsini, onlarınizamlamağı, Zəngəzuru ermənilərdən təmizləməklə Xəlil paşa ilə əlaqəni təmin etməyi 11-ci diviziya komandiri Cavid bəyə yazdım: “Daha çox əhəmiyyətli və bir çox mühüm hadisələrə səhnə olan bu regionu yaxşıca idarə edəcək, Xəlil paşa və Azərbaycanla işləyə biləcək və gərəkirsə, ermənilərin naxçıvanlılarınİrana qovulmalarına mane olacaq tədbirləri görməyə iqtidarlı bir kimsənin olmadığını, buna görə də, korpus tərəfindən bir komandirlər heyətinin lazım olduğu cavab olaraq bildirilmişdir. Korpusla daha sağlam əlaqə saxlamaq, Oltu cəbhəsinə yardım etmək və daha çox əhəmiyyətli olan bu məsələyə qərar vermək üçün təcili Ərzuruma gəlmənizi xahiş edirəm.[293]

Kazım Qarabəkir paşa Xalid bəyin də fikirlərini nəzərə almaq istəyirdi. Naxçıvanın əhəmiyyətini çox yaxşı bilən Kazım Qarabəkir paşa yuxarıda qeyd etdiyimiz kimi regiondakı proqramı ancaq təcrübəli, yüksək rütbəli bir zabit yerinə yetirə biləcəyini bilirdi. “Şərq cəbhəsi” əsərində göstərdiyi kimi, Xalid bəyi Ərzuruma çağırmaqda məqsədi onu Naxçıvana

[291] ATASE, A. 5\2793, Kls.324, D.9-4, F.-26-2, 26-3, 26-4

[292] ATASE, A. 5\2793, Kls. 324, D.9-4, F.26

[293]ATASE, A. 5\2793, Kls.324, s.9-4, F.42

göndərmək idi. Buna qərar verilmişdi. Oltu bölgəsinə erməni hücumlarının başlaması və sonrakı hücumlarda cəbhənin sol tərəfinə məhəl qoymaq istəməyən paşa sonra bu fikrini dəyişdirdi.[294] Göndərilən hissəyə kimin komandirlik edəcəyi məsələsi yenə fikirləri məşğul etdi.

Sərhədlərdə ermənilərlə daim vuruşan və onların böyük bir hücuma hazırlaşdıqlarını eşidən naxçıvanlılar Bəyaziddən bir hərbi dəstə göndəriləcəyini öyrənən kimi çox sevindilər. Ancaq hərbi hissənin gəlməsi yubanırdı. Naxçıvan camaatı Bəyaziddən türk əsgərlərinin heç cür bura gələ bilməməsindən narahat idilər. Onlar bu narahatçılığı yox etmək və bir çox xahişlərini bildirmək üçün 13 may 1920-ci ildə XV korpus komandanlığına 58 imzadan ibarət bir məktub göndərdilər.[295] Kazım Qarabəkir paşa da Naxçıvandan göndərilən məktubu 31 mayda TBMM-nin sədrliyinə təqdim etdi. Məktubda deyilirdi: "Naxçıvan və ətrafında yaşayan yarım milyon qərib türklərin aşağıda imza etmiş biz vəkilləri zati-alinizə bu xahişnaməni təqdim edirik. Müsəlman düşmənləri ermənilərin 4 ildən bəri bizim hüquq və namusumuzu tar-mar etmək istədiklərini indiyə kimi baş verən hadisələr sübut edir. Ancaq biz öz hüququmuzu, namus və qeyrətimizi indiyə kimi heç kimsiz, təkbaşımıza, yalnız ALLAHA ümid edərək qanımızla, malımızla qoruduq. Son vaxtlarda düşmənimiz olan ingilislər əziz xəlifəmizin taxt-tacını işğal etməklə müsəlman aləminə xəyanətlərini sübut etdilər. Buna görə də düşmənimizin zalım məqsədlərinə ancaq Naxçıvanın hədəf olmadığı bəllidir. Millətimizlə ittifaqa girən Azərbaycan və Rusiya Şura hökumətlərinin qüvvələri bizə köməyə gəlmələri üçün xeyli maneələri keçməsi lazımdır. Halbuki yanımızda olan Bəyaziddə toplanan qüvvənin Naxçıvana gəlməsinə heç bir maneə yoxdur. Onun Bəyaziddə qalması bizim burada indiyə kimi tək qalmağımıza səbəb olur. Bu da bizi dilxor edir. Biz məzlum müsəlmanıq. Bizi sizdən ayıran qüvvə nədir, bilmirik? Buna görə də yarım milyon əhali sizə ərz və fəryad edirik ki, Bəyaziddəki qüvvələrin ya hamısı, ya da bir hissəsi bura gəlsin, indiyə kimi hüquq və namusumuzun müdafiəsi üçün sel kimi axıtdığımız qanların boş yerə getmədiyinə və sizə qovuşmaq arzumuza nail olduğumuzu görək.[296]

Kazım Qarabəkir paşanın ermənilərə qarşı nəzərdə tutduğu hücum planı və naxçıvanlıları erməni hücumlarından qorumaq üçün nəzərdə tutulmuş hərbi dəstənin bölgəyə təcili göndərilməsi lazım idi.[297] Artıq yollar

---

[294] Şərq cəbhəsi III, s.66

[295] Qarabəkir bu məktubun altında 60 imza olduğunu göstərdi. (Qarabəkir. İstiqlal müharibəmiz. S.736). ATASE arxivindəki məktubun altında 58 imza var idi. (ATASE, A. 1/4282, Kls.856, s.115-35, f.1,1).

[296] ATASE,A.1/4282,Kls.586,,D.115-35.F.1.1-1.TBMM 3 iyul tarixli iclasda naxçıvanlılar bu teleqramı oxumuş, ancaq üzvlər bununla əlaqədar fikirlərini bildirməmişlər. (TBMM.3 c.Dövrə 1.2.s.156).

[297] Bu dövrdə Zəngibasara bir hissə göndərilməsi nəzərdə tutulmuş, ancaq Kazım Qarabəkir bu fikirdən daşınmış, bölgəyə silah və sursat göndərməyi məqsədəuyğun saymışdır. (ATASE,A.1/4282,Kls.586,D.114-34,F.14).

açılmış, lazımi qüvvələr Bəyazidə toplana bilmişdi. Buna görə mayor Əli Timur bəy komandanlığında 11-ci diviziyanın 34-cü alayının 1-ci batalyonu ilə bir pulemyot totası və bir süvari batareyasından ibarət türk hərbi hissəsi iyul ayının əvvəllərində Naxçıvana yola düşdü.[298] 14 iyulda Əli Timur bəy Xəlil bəydən vəzifəsini təhvil aldı.[299]

## 2) Ermənistana qarşı nəzərdə tutulan hücum planları və Naxçıvan

Qafqaza gələn bolşevik qüvvələrinin Denikin ordusunu məğlub edərək cənuba hərəkəti Kazım Qarabəkir paşanı bir tərəfdən sevindirərkən, digər tərəfdən də narahat edirdi. Ona görə sevinirdi ki, əməkdaşlıq etmələri nəzərdə tutulan bolşeviklər sərhədlərə yaxınlaşırdı, narahatçılığı isə əvvəllər Osmanlı dövlətinə aid olan bölgələri ələ keçirərək yaxınlaşan Qızıl ordu hissələrinin Anadoludan daha çox üstünlük əldə etməsi ehtimalı idi. Məhz buna görə də 20 mart 1920-ci ildə nümayəndə heyətinə bir teleqram göndərdi.[300] Həmin gün əmrliyindəki hissələrə buna bənzər məzmundaəmr verdi. Belə yazılmışdır: "Bolşevik orduları yaxında Ermənistana və İrana gələcəklər. Bu da onların bizim üzərimizə hakim kəsilmələrini təmin edə biləcəkdir. Elviyəyi-Selasə işğal ediləcək, bu fürsət əldən verilməyəcək. Bundan başqa, ruslarla başlanmış Brest-Litovsk müqaviləsi ilə müəyyənləşmiş sərhədlərin işğal fürsəti əldən verilməklə tarix və millət qarşısında məsuliyyət daşıyacaqdı".[301]

Kazım Qarabəkir paşanın planına görə, 11-ci diviziya İqdırı işğal etməli və Araz çayına qədər olan sahəni nəzarət altına almalıdır. 11-ci diviziyaya aid hissələr Bəyazidə yığışacaq. Naxçıvana göndəriləcək hissə hazır vəziyyətdə gözləməli idi. Şimaldan hərəkətə keçən bolşeviklərin sıxışdırması nəticəsində ermənilər ya təslim olacaq və ya cənuba çəkilərək

---

[298]Bir çox müəlliflər Əli Timur bəyin komandirliyi ilə gələn hissənin mart ayında Naxçıvana gəldiyini yazırlar. (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.62; Hacıyev. Qars və Araz-türk respublikaları. s.207; Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması.s.16; Şəmsəddinov, Bağırov. Bir qaragün dostluğu.s.148). Bu məlumatın doğru olmadığını yuxarıdakı məlumatlara əsasən deyə bilərik. İngilis məxəzlərinə istinad edən Sarkisyan və eləcə də Şəmsəddinov və Bağırov Cavid bəyin komandası altında 9-10 min nəfərlik 11-ci diviziyanın iyul ayında Naxçıvana gəldiyini göstərirlər. (Е.К.Саркисйан. Энсиклопедичесская политика Османской Империи в Закавказии накануне и в года первой мировой войны. Ереван, 1962.с.439). Şəmsəddinov-Bağırov. Bir qaragün dostluğu. s.148. Müəlliflər Əli Timur bəyin dəstəsini şişirdilmiş rəqəmlə göstərirlər.

[299]ATASE,A.6/6686,Kls.923, D.7.8, F.1-32. Ünüvar. Bolşeviklərlə 8 ay,s.23. K.Qarabəkir. İstiqlal müharibəmizin əsasları. İstanbul 1999,s.252. Şərq cəbhəsi III, s. 66-102

[300]ATASE,A.5/2793,Kls.324,D.9-4,F.25.HTSD.№ 26 (DEKABR 1958). Nümayəndə heyətinin sədri Kazım Qarabəkir paşanın qərarını məqsədəuyğun görmüş və əməliyyat günü gizli saxlanılmışdı. İşlərin sürətlənməsini və fürsətin əldən verilməməsini 29 martda bildirmişdir (HTVD, №26, DEKABR 1958. s. № 685. Şərq cəbhəsi III.s.59)

[301]ATASE, A. 5\2793, Kls.324, D.9-4, F.24,Şərq cəbhəsi III, s.58

müsəlmanları öldürəcəklər. Təbii ki, bu istiqamətlər Bəyazid-Maku və Naxçıvan olacaqdır. Ermənilər Naxçıvandan keçmək istəsələr, 11-ci diviziya Naxçıvan üçün ayırdığı hissəni dərhal göndərəcək, Şahtaxtı körpüsü tutulacaq və ətrafdakı müsəlmanlar təhlükədə qalmayacaqdı.[302] ermənilərə hücum edildiyi zaman Naxçıvana Xəlil bəyə dəstək olaraq göndərilən qüvvələr Ermənistanın mərkəzi İrəvanı hədələməlidirlər.[303] Kazım Qarabəkir paşanın planlarının həyata keçirilməsi üçün işlər görülməli idi. Şübhəsiz, görüləcək ilk növbədə 11-ci diviziya hissələrini Bəyazidə toplanmaq idi.

Ağır qış şərtlərinə görə, Cavid bəy hissələrin may ayında toplanmasını təklif etdi.[304] Kazım Qarabəkir paşa lazım gələrsə, yolları açdıraraq hissələrin dərhal Bəyazidə göndərilməsini tələb etdi.[305] İkincisi isə, Kazım Qarabəkir paşanın 11-ci  diviziyaya 30 mart 1920-ci il tarixli verdiyi əmrə uyğun olaraq əməliyyat öncəsi lazım olan nəqliyyat vasitələri (sürücüləri ilə bərabər) Naxçıvan və Şərur tərəfdən təmin ediləcəkdi... Əməliyyat zamanı lazım olan ərzaq məhsullarının çox hissəsini Şərur və Naxçıvan təmin edəcəkdi. Bunlar daha öncə verilən silah və hərbi ləvazimata görə alınacaqdı.Xəlil bəyə vəziyyət bildiriləcək, nə qədər ləvazimat göndərilərsə, münasib qiymət əsasında bu pulun müqabilində taxıl göndərilməsi nəzərdə tutulacaq və ərzaq dərhal Bəyazidə göndəriləcəkdi.[306]

Aprel ayında, bir tərəfdən məğlub olan Denikin ordusundan Ənzəliyə qaçanların Miyana yolu ilə Təbrizə gəlib oradan Ordubad və Naxçıvanı keçərək ermənilərlə əməkdaşlığa girə biləcəyini 11-ci diviziyaya bildirən Kazım Qarabəkir paşa[307] digər tərəfdən də Ankarada yeni təşkil olunmuş TBMM-ni sıxışdırırdı.[308] Belə ki, aprel ayının 26-da MəclisəQafqazdakı vəziyyəti bildirərək, dərhal hücum əmri verilməsini tələb etdi. Aprelin 27-də verilən cavabda məclisdə qərarın veriləcəyi xatırladılmış, hazırlığın davam etdirilməsi məqsədəuyğun hesab edilmişdi. Ancaq TBMM hökumətinin həqiqi qərarı may ayının 6-da Kazım Qarabəkir paşaya göndərilən teleqramda bəlli oldu. Mustafa Kamal paşanın imza etdiyi bu teleqramda hələlik ordu Ermənistana qarşı bir əməliyyatdan çəkinməli, bunun əvəzində sərhədin o tərəfindəki Şura hökumətlərinin könüllü dəstələrini möhkəmləndirərək, Gəncəyə qədər irəliləmiş bolşevik ordusu ilə birlikdə hücumun məqsədəuyğunluğu

[302]ATASE, A. 5\2793, Kls.324, D.9-4, F.24, 26-2. Şərq cəbhəsi III, s.59-60

[303]Qarabəkir. İstiqlal müharibəmiz.s.636

[304]ATASE, A. 5\2793, Kls.324, D.9-4, F.24, 26-3

[305]ATASE, A. 5\2793, Kls.324, s.9-4, F.24

[306]ATASE, A. 5\2793, Kls.324, s.9-4, f.27.

[307]Qarabəkir. İstiqlal müharibəmiz. s.592, 595.

[308]Bu vaxt Azərbaycanda olan Xəlil paşa Naxçıvandakı Xəlil bəy vasitəsilə Kazım Qarabəkir paşaya göndərdiyi bir məktubda türk ordusunun dərhal ermənilərə hücum etməsini tələb edirdi. Beləcə Azərbaycanda iqtidar dəyişiləcək, bu da Türkiyənin işinə gələcəkdi. Qarabəkirpaşa 21 apreldə verdiyi cavabda azərbaycanlıların ermənilərə hücumunu davam etdirmələrini istədiyini bildirdi. Yolların bağlı olduğuna görə ancaq may ayında hücuma keçə biləcəklər. (Qarabəkir, İstiqlal müharibəmiz. s.618-619).

bildirilmiş, paşanın fikri soruşulmuşdu.[309] May ayının 9-da Kazım Qarabəkir paşa cavab verdi. Paşa hərbi əməliyyatların dərhal başlamasını istəyirdi. Əks təqdirdə bütün bu hazırlıqlar boşa gedəcəkdi.[310] Ərzurum və Ankara arasında belə yazışmalar davam etdi. Kazım Qarabəkir paşa heç olmazsa, müdafiə vəziyyətini düzəltmək üçün Soğanlı keçidlərinin və Sarıqamışın işğal edilməsinə icazə verilməsini qəti surətdə tələb etdi. İyun ayının 6-da Elviyəyi-Selasenin alınmasına icazə verildi. Buna görə də korpus bölgəsində səfərbərlik hazırlıqları görülməyə başlandı.[311] 13 iyunda əməliyyat planının həyata keçirilməsi üçün lazımi əmr verildi. 11-ci Qafqaz diviziyası Şərqi Bəyaziddə toplanacaq və bu diviziyaya mənsub Naxçıvan hissəsi Milli Şura qüvvələrinin əmri altında olacaq, Azərbaycan ordusu ilə əməkdaşlığa girərək, hücum əmri gözləyəcəkdi. Naxçıvan bölgəsində 2 alay, 3 müstəqil batalyon, 3 mexanikləşdirilmiş batalyon, 3 top, 250 süvari və cəmi 5000 nəfərlik bir qüvvə vardı. Kazım Qarabəkir paşanın planına əsasən bu qüvvələr qarşısında özləri qədər qüvvəni nəzərdə tutaraq İrəvanı hədələyəcək və korpusunun digər hissələrini sakit vəziyyətdə saxlayacaqlar.[312]Naxçıvan bölgəsi komandirliyinə Vedi və Dəvəli bölgəsində zahiri bir hücum edilməsi əmri də verilmişdi.[313]

Bu vaxt Şərq cəbhəsi yaradılmış və 23 iyun üçün hücum əmri verilmişdi. Hissələr hücum dəqiqəsini səbrsizliklə gözləyirdilər. Ancaq 20 iyunda Ankaradan gələn bir xəbər Kazım Qarabəkirin qərargahında bir sıxıntı yaratdı. Sovet Rusiyası Xarici İşlər Komissarı Çiçerin göndərdiyi məktubda ermənilərlə müharibə edilməməsini, hər iki tərəfin münasibətlərinin normallaşdırılacağını bildirmişdi. Sovetlərlə müqavilə fürsəti axtaran TBMM hökuməti də bu fürsəti əldən verməmək üçün hücumun təxirə salınmasını istəyirdi.[314] Hücum dayandırılmış, hissələrə lazımi əmrlər verilmişdi. Kazım Qarabəkir və ətrafındakılar məyus olmuşdu. Məyus olan ancaq onlar deyildilər. Türk ordusunun sərhəddin o tərəfində hücumunu gözləyən türk xalqı da olduqca məyus idi. Əslində əməliyyatın təxirə salınması Naxçıvanda da kədər və narahatçılıqla qarşılanmışdı. Naxçıvan əhalisi adından Cabbar bəy

---

309 ATASE, A. 1\105, Kls.259, s.21-20, F.7

310 ATASE, A. 5\2793, Kls.813, s.5-65, F.7-7, 7-8, 7-9, 7-10, Qarabəkir. İstiqlal müharibəmiz. s.684, 688

311 Şərq cəbhəsi III, s. 83-84

312 Qarabəkir. İstiqlal müharibəmiz. s.770, Şərq cəbhəsi III, s. 52

313 Şərq cəbhəsi III, s.94

314 Kazım Qarabəkir paşanın makina səhifəli qeydləri, s.66. Qarabəkir. İstiqlal müharibəmiz, s.773. Şərq cəbhəsi III, s. 94. 23 sentyabr 1920-ci ildə Naxçıvana gələn Şuşadakı 28-ci bolşevik diviziya komandiri Nikolay və yanındakı siyası komissar və mayor Veysəl bəy arasında Türkiyənin Ermənistana hücum etməsi məsələsi müzakirə olunanda Nikolay rus ordusu Bakıya gəlməmişdən əvvəl daşnaklara hücum edib, Qars və İrəvanı işğal etməməniz böyük bir xətadır. İki ölkə arasında atəşkəs müqaviləsi olmadığından müharibə edilə bilər, demişdi. Veysəl bəy bildirdi ki, Moskvanın ermənilərə hücum edilməməsi məktubu var. Siyası komissar cavab verdi ki, türklər daşnakları yıxıb, İrəvan Şura hökumətini qursalar, buna Moskva tərəfdar olar və yardım edərdi. (ATASE A.6/6686 kls. 924. s.6-1. F. 16-1. ATASE A. 1/4282. Kis.591. s. 129-40. F.31-2, 31-3).

26 iyulda TBMM sədri M.Kamal paşaya bir teleqram göndərərək hadisələrdən məyus və narahat olduqlarını belə ifadə etmişdir: “Məsələnin təxirə salınmasından məyus və mütəəssir olduq, uğurlu qədəmlərinizi bizim torpağa basınca buradakı məsum uşaqları görərkən gözlərinizdən yaşlar axacaqdır. İndidən mütəxəssisləri nəzərə almanızı Naxçıvan əhalisi adından xahiş və rica edərik, Paşa həzrətləri”.[315]

### 3) Naxçıvanda narahatçılıq və Xəlil bəyin Türkiyəyə qayıtması

Əvvəlcə qeyd etdiyimiz kimi, Naxçıvanda liderlər arasında başlayan gərginlik və narazıçılıqlar Xəlil bəyin işə qarışması ilə nisbətən dayanmışdı. May ayının ortalarında Naxçıvana gələn mayor Veysəl bəyin dediyinə görə, bu dövrdə vəziyyət çox yaxşı idi. “Təşkilatlar, mütəşəkkil qüvvələr qibtə ediləcək bir vəziyyətdə olsa da, yaxınlaşan rus təhlükəsi sevinclərinə kölgə salırdı. Bolşevik nə idi, bilən yox idi. Belə fikirləşirdilər ki, onlar aclıq və səfaləti yox edəcək, hər kəslə insan kimi davranacaqlar. Naxçıvanlılar bunu şüar kimi qəbul edərək, Rusiyadan gələn bir çox kommunistə hüsn-rəğbət göstərir, onları qonaq edir, tövsiyələrini diqqətlə dinləyirdilər”.[316] Ancaq Azərbaycandan bir çox xəbərlərin Naxçıvan əhalisinə çatması, bölgədə siyasi havanı pozmağa başlamışdı. Türkiyənin bolşeviklərlə anlaşması, türk zabitlərinin bolşevikləri Bakıya gətirməsi təbliğatları, Qızıl Ordunun etdiyi böyük zülm, qarət və soyqırımı xəbərinin yayılması, indi də fəlakətin Naxçıvanın başı üstündə olması əhaliyə erməni zülmünü unutdurmuşdu. Naxçıvanda türk zabitlərinə qarşı mənfi münasibət yaranmağa başlamışdı. Azərbaycanı Qızıl Orduya təslim etməsini söyləyərək türklərin eyni şeyi Naxçıvanda da rəva görəcəklərini deyirdilər. Türkləri ruslarla müttəfiq olmaqda günahlandırırdılar.[317] Siyasi məqamda görünən ən təhlükəli məsələ, şübhəsiz, bolşeviklərdən qaçıb Naxçıvana gələn Azərbaycan qüvvələri olmuşdu.[318] Azərbaycanlıların apardığı təbliğatlar əsasında nüfuzlarını itirmək qorxusu ilə yaşayan Naxçıvanın xan və bəyləri bolşevik təhlükəsi qarşısında birləşmiş, türk zabitlərinə qarşı mövqe tutmağa başlamışdılar. Bolşevik təhlükəsi məqamında hər an Naxçıvana hücuma hazırlaşan erməni hökuməti ilə razılığa gəlmək istəyirdilər. İdarədə iki tirəlik yaranmış, türklər əleyhinə

---

[315] ATASE, A.1/4282. kls.586. S. 115-35. F. 1-3.

[316] Ünüvar. Bolşeviklərlə 8 ay s. 17

[317] ATASE, A. 6\6686, Kls.924, s.l-6. Ünüvar. Bolşeviklərlə 8 ay, s.24, Şərq cəbhəsi III, s.102

[318] Bolşeviklərlə döyüş zamanı məğlub olan Nuri paşanın komandirliyi altında qüvvələr Ordubad yaxınlığındakı Xudafərin körpüsünə geri çəkilmişdilər. Nuri paşa bu bölgədən Naxçıvandakı keçmiş zabit Xəlil bəy ilə əlaqə saxlayır, Naxçıvana gəlmənin münasib olub-olmadığını soruşur, qüvvələri Ermənistandan Gürcüstana keçirmək üçün yol axtarırdı. (ATASE A. 1\4282. Kls.586, S.114-34, F.70-1,52.Qarabəkir.İstiqlal müharibəmiz s.771)Nuri paşa iyul ayının axırlarında qüvvələri ilə Ərzuruma gəldi və erməni hərəkatında iştirak etdi. (Qarabəkir. İstiqlal müharibəmiz. s.772, d.2).

aparılan təbliğatlar xalqın beynini qarışdırmışdı. Türk zabitləri ilə yaxşı rəftar edilmirdi. Əvvəlki hava yox idi.[319]

Naxçıvanda bu cür narahatçılıqların başlaması uzun zamandan bəri həyatını regionun xarici təhlükələrə və hədələrə qarşı qorunmasına həsr etmiş Xəlil bəyi çox mütəəssir etmişdi. Haqqında min cür dedi-qodular danışılması, onunla yaxşı davranılmaması illərdən bəri Naxçıvanın bir nömrəli şəxsi Xəlil bəyin qüruruna toxunurdu. Artıq o, Naxçıvanda qala bilməzdi. Müstəqilliyi üçün iki ilə yaxın bir müddətdə mübarizə apardığı bölgədə yadlaşmağa başlamışdı. İrəli gələnlər illərdən bəri mübarizə apardıqları Araz vadisi türkünün başlıca düşməni olan ermənilərlə anlaşmaq istəyirdilər.[320] Buna görə də o, rahatsızlığını bildirərək Kazım Qarabəkir paşaya istefa ərizəsini verdi.[321] Regiondakı hadisələri yaxından izləyən paşa Xəlil bəyin istefasını qəbul etdi və ona 23 iyun 1920-ci il tarixli teleqram göndərdi: "Bir ildən bəri Naxçıvan əhalisinə göstərdiyiniz xidmət və fədakarlığınıza görə təşəkkür edirəm. Bu müddət ərzində yorğunluqdan doğan istefanıza mütəəssirəm, qəbul edirəm. Vəzifənizi 11-ci hissədən gələn mayor Əli Timur bəyə verəcəksiniz. Yuxarıda qeyd etdiyimiz kimi vəzifə təhvil veriləcək. Naxçıvanın inzibati vəziyyəti haqqında ətraflı məlumat verməniz və həm də ora haqqında bizi məlumatlandırmanız üçün Ərzuruma gəlmənizi xahiş edirəm".[322]

Paşanın ifadə etdiyi kimi, mayor Əli Timur bəy kiçik bir dəstə ilə Naxçıvana yola düşdü.[323] Əli Timur bəyin Naxçıvana gəlməsi ilə Xəlil bəy vəzifəsindən ayrıldı. Nəzarətində olan kassanı 14 iyulda Əli Timur bəyin sədrliyindəki komissiyaya verdi.[324] 1919-cu ilin iyul ayında birlikdə

---

[319] ATASE A. 1\4282. Kls.587, S. 116-6, F.17, ATASE, A. 5\2793, Kls.814, s.5-9, F.85. Ünüvar. Bolşeviklərlə 8 ay, s.24. Qarabəkir. İstiqlal müharibəmiz, s.61. Şərq Cəbhəsi, s.102

[320] Qarabəkir. İstiqlal müharibəmiz, s.61. Ünüvar. Bolşeviklərlə 8 ay,s.23, Şərq Cəbhəsi, s.102

[321] "Cümhuriyyət" qəzetində M.Kamal və Kazım Qarabəkir paşalar arasındakı münaqişələr zamanı Xəlil bəylə əlaqədar verilən məlumatda onunla yaxşı davranmayan Kazım Qarabəkir paşanın qədirbilməz olduğuna görə istefa etdiyini yazsa da ( Cümhuriyyət, 20 may 1933, № 3244), bunun həqiqətlə əlaqəsi yoxdur. Əslində Kazım Qarabəkir paşa əsərində yazır ki, Xəlil bəy haqqında dedi-qodulara, yalanlara görə Naxçıvanı tərk etmişdi. (Qarabəkir. İstiqlal müharibəmiz s. 61).

[322] Cümhuriyyət, 20 may 1933. №3244. Xəlil bəy Ərzuruma qayıdan paşanın razılığı ilə Naxçıvan haqqında 21 iyul 1920-ci ildə müfəssəl bir hesabat təqdim etmişdi. (ATASE A. 5\2793. Kls.814. s.5-9. F.128, 128-1,128-2, 128-3. 128-4, 128-5)

[323] Naxçıvana qüvvə göndərdiyi zaman bir çox türk səlahiyyətliləri Naxçıvandan Təbrizə getmişdilər və Təbrizdəki ingilislərin məlumatına görə onlar "Şahsevən" qəbilələri ilə görüşmüşdülər. (Vritish Document on Foreiqn Affairs Part: II Series V, Turkey-İran and The Middle East Vol: 17 Persia II July 1921, June 1922. Universitu Publications of America 1990, Doc: 27. C.34)

[324] Kassa Xəlil bəyin əmrində olduğundan lazımi yerlərə xeyli pul xərcləmişdi. Maaşların sənədi olmadığından komissiya Xəlil bəyin hansı aya qədər maaş aldığını bilməmişdi. Ancaq Xəlil bəy may ayının sonuna qədər pulunu aldığını bildirdi. (ATASE A. 6\6686. Kls 923. S 7-8. F 1 -32) Xəlil bəyin nəzarətində olan kassanın hesab işləri daha sonra Naxçıvan Milli Şurası tərəfindən gündəliyə salınmış, Veysəl bəydən kassanın hesabları istənmişdi. Əks- təqdirdə o, məsuliyyət daşıyacaqdı. (ATASE, A. 5\2793, Kls.814, S.5-9, f.62)

gəldikləri baş leytenant Edib bəy ilə Naxçıvanı tərk etdilər.[325]Artıq Xəlil bəyin Naxçıvanlı günləri sona çatmışdı və o, bir daha qayıtmayacaqmış kimi çox sevdiyi bu regiondan incimiş bir halda getdi.

### 4) Mayor Veysəl bəy Naxçıvanda

Məlumdur ki, Naxçıvanda baş verən narahatçılıqlara görə Xəlil bəy istefa etməyə məcbur olmuş, vəzifəsini hərbi hissəsi ilə Naxçıvana gələn mayor Əli Timur bəyə vermişdi. Ancaq Naxçıvanın həm ermənilərlə aparılan mübarizələrdə, həm də bolşeviklərdənhərbi baxımdan üstün olacağını çox yaxşı bilən Kazım Qarabəkir paşa regionda təşkilatçı vəzifəsini öz üzərinə götürür və narahatçılığı aradan qaldıra biləcək bir səlahiyyətli şəxsi Naxçıvana göndərməyi nəzərdə tuturdu. Qısa müddət içində qərar verildi. 1918-ci ildən bəri bölgəni tanıyan, yerli işləri bilən 11-ci diviziya ştab rəisi mayor Veysəl bəy Naxçıvan bölgəsi müfəttişi vəzifəsinə təyin edildi.[326]

Bu, Veysəl bəyin Naxçıvan bölgəsinə ilk gəlişi olmayacaqdı. İlk dəfə 1918-ci ildə irəli hərəkat zamanı Naxçıvan ilə tanış olan Veysəl bəy, bildiyimiz kimi, ikinci dəfə 1920-ci ilin may ayının əvvəllərində Naxçıvana gəlmişdi. Qafqazdan cənuba gələrək Azərbaycanı sovetləşdirən bolşeviklərlə əlaqə yaratmaq və onları yaxından tanımaq istəyən Kazım Qarabəkir paşa mayor Veysəl bəyi Bakıya göndərməyi qərara almışdı. Xüsusi göstərişlər verilən Veysəl bəy Naxçıvan-Culfa yolu ilə[327] Bakıya gələcəkdi. Yanında leytenant Kamil və Cəlal bəylərvar idi. May ayının 6-da Bəyaziddən çıxan Veysəl bəy mayın 9-da Şahtaxtıya çatdı. 10 mayda Bəyaziddən bir teleqram gəldi. Teleqramda bildirilirdi ki, Veysəl bəyin Bakıya getməsinə ehtiyac yoxdur. Kamil və Cəlal bəylərin getməsi kifayət edər. Veysəl bəy Naxçıvanda olduğu müddətdə regionun nüfuzlu adamları ilə görüşdü. Dəvəlidən Culfaya qədər olan yerləri gəzdilər. 1920-ci ilin may ayının 16-da Veysəl bəy Şahtaxtıdan çıxaraq Bəyazidə qayıtdı.[328]

Veysəl bəyin Naxçıvana üçüncü gəlişi 5 iyulda oldu.[329]Yolda gecikməyən Veysəl bəy tez bir zamanda Naxçıvana çatdı.[330]

---

[325] Şərq cəbhəsi III, s.102

[326] Ünüvar. Bolşeviklərlə 8 ay. s.23

[327] Culfadan sonra çox güman Şimali İran yolundan istifadə olunacaqdı.

[328]Ünüvar.Bolşeviklərlə 8 ay. s.57-8, 18-20.

[329]“Şərq cəbhəsi III” adlı əsərdə Veysəl bəyin 9 iyulda Naxçıvana gəldiyi qeyd edilmişdir. Biz Veysel bəyin öz ifadəsini qəbul edirik.

[330]Ünüvar. Bolşeviklərlə 8 ay. s.23. Qarabəkir paşa əsərində Veysəl bəyin bir dəstə ilə Naxçıvana gəldiyini yazır. (Qarabəkir.İstiqlal müharibəmiz. s. 252.). Biz Veysəl bəyin xatirələrinə, digər mənbələrə əsaslanaraq deyə bilərik ki, Naxçıvana göndərilən Timur bəy bir batalyonla 1 iyulda bölgəyə gəlmişdir. Digər tərəfdən paşanın öz imzası ilə 20 iyunda hərbi nazirliyin rəyasət heyətin göndərdiyi teleqramda Naxçıvana göndərilən batalyonların nizamlanmasını ifadə edirdi. (ATASE A.1/4282. Kls. 586. D. 114-34. F-54)

Mayor Əli Timur bəy Naxçıvan komandiri, mayor Veysəl bəy Naxçıvan müfəttişi idi.[331] Əli Timur bəy lazımi əmrləri Veysəl bəydən alırdı.[332] Yeni vəzifəsində Veysəl bəy bir sıra işlər görməyə başladı. Şahtaxtıda xəstəxana açmaq üçün müəyyən hazırlıq işləri aparıldı. Sağ cinah qrupu komandanlığından[333] bir çox istehkam materialları tələb edildi.[334] Şahtaxtının nüfuzlu adamlarından İbrahim ağa Şahtaxtı alay komandiri təyin olundu. Ordubad bölgəsində komandir İbrahim Xəlil əfəndinin vəzifəsinin kapitan Həmdi Əfəndiyə verilməsi qərara alındı.[335] Digər tərəfdən hər dəqiqə bir erməni hücumu gözləyən Veysəl bəy cəbhə ilə əlaqədar bir çox işlər də gördü. Mayor Əli Timur bəy 2 batalyon və iki səhra topu ilə şimala-Dəvəliyə qəhrəman vediliiləri dəstəkləmək üçün göndərildi. Şərur və Qaraların könüllü batalyonları da həmin cəbhəyə göndərildi.[336] 1 iyulda Bəyaziddən Şahtaxtıya göndərilmiş 18-ci alayın 1-ci batalyonu da Zəngəzur və Dərələyəz tərəflərində istifadə edilmək üçün Naxçıvanda yerləşdirildi.[337] 11 iyulda bütün bölgə komandirlərinə düşmənə qarşı diqqətli olmaları tapşırıldı.[338]

Naxçıvana gəldiyi gündən bəri bir çox işlər görən Veysəl bəy əslində çaşbaş qalmışdı. Sanki 16 mayda getdiyi bölgə deyildi. Xəlil bəyi buradan getməyə məcbur edən səbəblər, bəlkə də 2 qat artmışdı. Türkiyə əleyhinə böyük bir təbliğat aparılırdı. Açıqca deyirdilər ki, Türkiyə özünü qutarmaq üçün bizi qurban edir, əgər bolşeviklərin xətri üçün hücum fikrindən daşınmasaydılar, bu gün biz iki düşmən arasında qal- mazdıq. Naxçıvandakı Azərbaycan qüvvələrinin təşəbbüsü ilə bolşeviklərə qarşı ermənilərlə anlaşmaq istəyirdilər. Veysəl bəy bununla əlaqədar demişdi: "Əvvəlcə ermənilərin mənfəətlərinin nədə olduğunu müəyyənləşdirəcəklərini düşünmüşdülər. İkinci səhvləri də erməniləri öz səmimiyyətlərinə inandırmaq üçün silahlarını təhvil vermək və müqavimət göstərməmək idi. Üçüncüsü isə silahlı qüvvələrin müqavimətimizə mane olmaq üçün əleyhimizə təbliğat aparmaları, bizim əlimizdə olan cəbbəxananı, ərzaq məhsullarını və pul kimi müdafiə vasitələrini bizdən almağa çalışmaları idi. Yəni bizi də üçüncü dərəcəli düşmən sayırdılar. Məqsədimiz hər kəsə qarşı qüvvətli olmaqdır.[339]

---

[331]ATASE, A. 6\6686, Kls.923, s.l-2, F.81

[332] ATASE, A. 6\6686, Kls.923, S.l-2, F.14. Ünüvar. Bolşeviklərlə 8 ay s.25.

[333] Ermənistana qarşı hərbi əməliyyat aparılması qərara alındığı zaman 15 iyul 1920-ci ildən etibarən XV korpus komandanlığı Şərq cəbhəsi komandanlığı adını aldı. (Şərq cəbhəsi III. s.92) 11 diviziya Sağ cinah qrupu komandanlığı adlandı.

[334] ATASE, A. 6\6686, Kls.923, s.l-2, F.1-1, 1-6.

[335] ATASE, A. 6\6686, Kls.923, s.l-2. F-l. ATASE, A.6\6686, Kls.923 s.l-5, 6, F.9-1.

[336]Ünüvar.Bolşeviklərlə 8 ay, s.25

[337]Ünüvar.Bolşeviklərlə 8 ay, s.24, Şərq cəbhəsi, III.s.103

[338]ATASE, A. 6\6686, Kls.924, s.l -6, F.2-6

[339] Ünivar. Bolşeviklərlə 8 ay.s.24

Veysəl bəy Sağ Cinah qrupu komandanlığına göndərdiyi 10 iyul tarixli teleqramda bölgədəki narahatçılıqdan söz açmışdır. Nə edəcəklərini soruşurdu. Buna görə də ətrafda dedi-qodular nəticəsində türklərin Naxçıvanı bolşeviklərə verməsi danışılmağa başlanıldı. Etimadsızlığa əsasən Azərbaycandan gələn qüvvələri Naxçıvanda saxlayır və bölgəni Azərbaycana bağlı kimi qəbul edirdilər. Veysəl bəyin fikrincə, belə bir şəraitdə bolşeviklərlə müttəfiq olmaq imkansızdır. Bölgədə hansı yolla hərəkət edilməli? Hökumətin Naxçıvan haqqında fikri nədir? Naxçıvan Türkiyənin, yoxsa Azərbaycanın tərkibində sayılacaq? Sonuncu iki versiyaya görə, türk hissələrinin vəziyyəti necə olacaq? Bolşevizmə və bolşeviklərə qarşı necə hərəkət ediləcəkdi? Əhali bolşeviklərə qarşı mübarizə etməyə qərar vermişdi. Azərbaycan qüvvələrinin Türkiyəyə göndərilməsi bizə qarşı olan itaətsizliyi artıracaqdı. Əhalinin bu qüvvələri burada saxlamaq istəməsinə qarşı qüvvə işlətmək məqsədəuyğun olardımı?[340] Kazım Qarabəkir paşanın cavabı qəti idi: Azərbaycan qüvvələri Naxçıvanda qalır. Bolşeviklərə qarşı döyüşlər aparılarsa, türk qüvvələri Naxçıvandan çıxacaq və bolşeviklərlə müharibə zamanı bolşeviklərin tərəfində olacaq. Naxçıvanın taleyi Türkiyə, bolşevik rus-Azərbaycan hökumətləri arasında müəyyənləşdiriləcəkdi.[341]

### 5) Gözlənilən məğlubiyyət

Bakıda bolşeviklərin iqtidarı ələ keçirməsi, Azərbaycan ordusunun dağılmasına səbəb olmuşdu. Qarabağ və Zəngəzurda döyüşən erməni qüvvələri Azərbaycan ordusunun dağılmasına sevinmişdilər.[342] Qızıl Ordu hissələri Qarabağ və Zəngəzurdakı erməni qüvvələrinə hücum etdilər, ancaq həm müvəffəqiyyət əldə etmələri,[343] həm də Gəncədə üsyan çıxması bolşeviklərin əməliyyatı dayandırmalarına, Ermənistan sərhədlərindən hərbi hissələrini çıxarmalarına səbəb oldu.[344] Bu vəziyyət erməni hökumətinə axtardığı fürsəti vermişdi. Sovet Rusiyası ilə Türkiyənin yaxınlaşmasının onlar və müttəfiqləri üçün təhlükəli olduğunu çox yaxşı bilirdilər. Türkiyə və Azərbaycanın bilavasitə Sovet Rusiyasına birləşməsinin, bir-birinə kömək etməsinin dərhal qarşısı alınmalı idi. Bu işdə ən təsirli yol, şübhəsiz, Naxçıvan koridorunu ələ keçirməkdi. Buna görə də erməni qüvvələri Qarabağ və Zəngəzurdakı vəziyyətlərindən yaxşıca istifadə edərək 1920-ci ilin iyun

---

340 ATASE, A.6\6686, Kls.924, s.l-6, F. 1-2,1-3

341 ATASE, A.6\6686, Kls.924, s.l-6, F.l-1,1,11

342 British Documents On Foreiqn Affairs Vol: 17 Persia II, Doc.27. c.34

343 Qarabəkir.İstiqlal müharibəmiz. s. 780

344 Şərq cəbhəsi III.s. 100, Sovet xarici işlər komissarı XI Qızıl ordu komandiri Orconikidze 22 iyun tarixli teleqramda, Azərbaycan hökumətinə hələlik Naxçıvan və Culfanı nəzarət altına ala bilməyəcəyini və hərbi fəaliyyətin dayandırılmasının səbəblərini izah edilməsini istəyirdi. (Nəsibzadə. Vətənin bütövlüyü problemi)

ayından etibarən hazırlıq işləri görməyə başladılar.[345] Kazım Qarabəkir paşa ermənilərin belə bir plan hazırladıqlarını başa düşmüş və Vedinin qüvvə ilə ələ keçirilməsinin vacib olduğunu qeyd etmişdi.[346]

Gözlənilən erməni hücumu Zəngibasar bölgəsindən başladı. General Skobof 18 iyun 1920-ci ildə Zəngibasar Milli Şurasına bir ultimatum verdi və 19 iyulda 1.700 piyada, 8 top və bir zirehli qatarla Zəngibasara şimaldan və şərqdən hücuma keçdi.[347] İçlərində Bəyaziddən göndərilən əsgərlərdən[348] ibarət türk qüvvələri Uluxanlı körpüsünü dağıdaraq hücuma keçən erməni həmlələrini ilk əvvəl dəf etdilər və xeyli zərərə uğratdılar.[349] Ancaq yeni dəstələrlə güclənən, silah cəhətdən üstün olan erməni qüvvələrinin ardı-arası kəsilməyən hücumları qarşısında 20-ə qədər şəhid verən türk döyüşçüləri geri çəkilməyə başladılar. Araz çayının cənubundakı Dizə və Cənnətəbad kəndlərinə gəldilər. Daha sonra isə diviziyanın əmrinə əsasən hərbi hissələr Həsən xan və Bulaqbaşı istiqamətinə çəkildilər. Dizə və Cənnətabad boş olduğundan ermənilər tərəfindən işğal edildi. Əhali məyus halda Arazın cənubuna və İrana köçməyə başlamışdı.[350]

Zəngibasar ətrafında qələbələr əldə edən və Naxçıvana yaxınlaşmağa başlayan ermənilər eyni vaxtlarda Anqelaut[351] və Çaykənddə qüvvə toplayırdılar. Məqsədləri Naxçıvanı şimal-şərqdən sıxışdırmaqdır. 30 iyun 1920-ci ildə iki min piyada və 2 pulemyotdan ibarət bir erməni qüvvəsi Çulu işğal etdi. Kükü və Hanziriq istiqamətində irəlilədi. Naxçıvan komandiri Əli Timur bəy ermənilərin qarşısını almaq üçün leytenant Cəlil bəyin rəhbərliyində 150 könüllü və bir qədər süvari göndərdi. Bu qüvvə 25 şəhid verərək Çuldan gedən könüllülərin Naxçıvanın şimalında Məzrə-Ərniç xəttində mövqe tutmalarını təmin etdi və erməniləri dayandırdı. Ardınca Məzrə-Ərniç xəttini möhkəmləndirmək məqsədilə 2 könüllü batalyonu türk əsgərlərindən ibarət "Naxçıvan İnzibati hissəsi" və bir top bölgəyə göndərildi. 1 iyulda olan hücumda ermənilər məğlubiyyətə uğradıldı, türk kəndləri azad edildi. Hər zaman olduğu kimi, ermənilər çıxdıqları kəndləri yandırmışdılar.[352]

Heç şübhəsiz, əvvəlki mərhələlərdə olduğu kimi, gözlənilən erməni hücumu Vedi tərəfdən ediləcəkdi. Ancaq 22 və 23 iyundan etibarən

---

[345]Bilal N.Şimşir. İngilis sənədlərində Atatürk (1918-1938)s.2. Aprel-dekabr 1920. Ankara, 1975. s.299-300.

[346]Qarabəkir. Istiqlal müharibəmiz. s.780

[347]ATASE, A. 1\4282, Kls.586, s.l 14-34. F.64.

[348]Zəngibasarda 2 piyada rotası var idi. ATASE A.l/4282 kls.586. s.114-34. F.64.

[349]İstiqbal. 23 iyul.1920 №l49. Şərq cəbhəsi III. s.101.

[350]ATASE A. 1\4282. Kis.586. s.l 14-34. F.64,ATASE,A5/2793,Kls.815,D.(69)-11, F12; Şərq cəbhəsi III,s.101-102

[351]Bunun başqa cür deyilişi var. Anqehakot və Anqeğaqot

[352]Hakimiyyəti-Milliyə, 8 iyul 1920, №44. Şərq cəbhəsi III, s. 103

ermənilərin çoxlu piyada və topçu qüvvələrini Vedi cəbhəsinə topladığı xəbəri eşidildi. Mayor Əli Timur bəy və Veysəl bəy lazımi tədbir görürdülər. Zəif bir piyada batalyonu ilə 2 toplu batareya və 4 ağır pulemyot Dəvəli kəndində, Vedi könüllü alayı isə Vedi-Qaralar istiqamətində idi. Veysəl bəy Əli Timur bəyi Vedi bölgəsinə göndərmişdi. Kalbalı xan və general Həbib Səlimovun təsiri altındakı könüllü batalyonlarının verdikləri əmrlərə itaət etməsi Veysəl bəyi ümidləndirmişdi.[353] Ancaq Əli Timur bəy cəbhəyə çatmamış, türk qüvvələri Vedidə kifayət qədər möhkəmlənməmiş 11 iyulda səhər saat 5-də ermənilər hücuma başladı.[354] 2000 piyada və 10 topdan ibarət erməni qüvvəsi çox üstün idi. Qaralar batalyon komandiri şəhid oldu, batalyon dağıldı. Buna görə də Veysəl bəy Naxçıvandakı ehtiyat qüvvəni də cəbhəyə göndərdi[355] və Vedibasar bölgə komandanlığına bu əmri verdi:

1. Əli Timur bəy kifayət qədər qüvvə ilə qatarla yola düşmüşdür. 2. Qaralar batalyonuna osmanlı çavuşlardan birini komandir təyin edin, batalyonu dərhal toplatdırın. 3. Sədərək batalyonu yola düşmüşdür. 4. Fərarilərin edam edilməsi lazımdır.[356]

Türk hərbi səlahiyyətlilərin bütün cəhdlərinə baxmayaraq, Qaralar könüllülər batalyonu toplanmadı. Buna görə də ermənilər Qaralar-Alməhəmməd xəttini işğal etdi. 12 iyun 1920-ci ildə Əli Timur bəydən Veysəl bəyə göndərilən raport çox maraqlı idi:"Bütün Vedi cəbhəsində sakitlikdir. Çünki düşmən gəlməmiş bütün könüllülər dəstəsi mövqelərini tərk etmişdi".[357] Vəziyyət pis idi. Naxçıvanda uzun müddətdən bəri aparılan təbliğatlar öz nəticəsini vermişdi. Veysəl bəyin dili ilə desək, Naxçıvan Milli Şurası oturduğu budağı kəsmişdi. Qarşılarındakı könüllülər batalyonunun dağıldığını görən ermənilər irəliləyirdilər. Əli Timur bəy və Veysəl bəy qaçan könüllüləri toplamağa çalışırdılar. Döyüşə getməyənlərin edam edilməsinə qərar verildi. Cəbhəni qüvvətləndirmək üçün Naxçıvandan ehtiyat hissələr göndərilirdi.[358] Ancaq bu qüvvələri cəbhəyə çatmadan Dəvəlidə ermənilərə qarşı çıxmağa çalışan Əli Timur bəy Dəhnə boğazına çəkilməyi qərara aldı. Çünki əlindəki bü qüvvələrlə ermənilərə qarşı çıxmaq mümkün deyildi. Buna görə Əli Timur bəy cəbhədəki vəziyyəti belə ifadə edirdi: "Dəvəli xəttindən çəkilməyi qərara aldım. Saat $4^{00}$-dən sonra geri çəkilməyə başladım. Saat 5-də ehtiyat qüvvələri gətirən qatar Dəvəli stansiyasına gəlsə

---

353 Ünüvar. Bolşeviklərlə 8 ay, s.25. Şərq cəbhəsi III. s. 104

354 Bir türk məlumatında hücumun 10 iyulda başladığı göstərilir. (ATASE A. 1\4282 Kls. 587. s. 116-6. F.21-1).Bəzi mənbələr və Veysəl bəy 11 iyul tarixini göstərir .

355 Ünüvar,Bolşeviklərlə 8 ay, s.25-26. Şərq Cəbhəsi. s.104.

356 ATASE A. 6\6686, kls, 923. s. 1 -2. F.3

357 Ünüvar.Boişeviklərlə 8 ay, s.26. Şərq cəbhəsi III, s.105.

358 ATASE A. 6\6686, kls, 923. s.1-2. Ünüvar.Bolşeviklərlə 8 ay, s.26. Şərq cəbhəsi III, s.105

də, bu qüvvələrdən istifadə etmək mümkün olmadı. Azərbaycan piyada batalyonu da qaçan mühacirlərin içinə qarışaraq geri çəkilmişdir. Batalyonu əlimdə saxlamağa çalışıram, amma cüzi bir hissəsi əlimdədir. İndi əlimdəki osmanlı nizamlı qüvvəsi ilə boğazın müdafiəsi üçün çalışıram. Bu qüvvənin miqdarı məlumdur. Zəki əfəndinin bir topu və səhra topları, Azərbaycan süvari rotası əlimdədir. Zəki əfəndinin bir topu işləmədiyindən Şahtaxtıya göndərildi. Yerli suvari və piyada heç kəs yoxdur. Onların xeyrindən çox ziyanını gördüm. Bizə göndərilən çörək ancaq bir günlük qida üçün kifayətdir. Düşmən on topdan istifadə edir. Piyada hissə təxminən 600-700, süvari isə 200 nəfərdir”.[359]

Veysəl bəy və sağ cinah qrup komandanlığı xətti ilə Naxçıvandakı hadisələri yaxından izləyən Kazım Qarabəkir paşa çox narahat idi. Buna görə də 12 iyul 1920-ci il tarixdə Sağ Cinah qrupu komandanlığına bir teleqram göndərdi. Teleqramda deyilirdi: “Naxçıvanlılar milli varlıqlarını mühafizə etmək istəyirlərsə,var qüvvələri ilə mübarizə etməlidirlər.Naxçıvandakı türk əsgərləri də naxçıvanlılarla əməkdaşlığa girərək çalışmalıdırlar. Lazım gələrsə, Azərbaycan qüvvələri də müharibədə iştirak edəcəkdir. Mən əminəm ki, keçən il çox az qüvvə ilə erməniləri məyus edən qəhrəman naxçıvanlılar bu il də onlara unutmayacaqları dərs verəcəklər. Və əldən verdikləri yerləri geri alacaqlar. Bolşeviklərə qarşı çıxmağı nəzərdə tutanların bu vəzifəni yerinə yetirməsi lazımdır. Biz hərbi ləvazimat və əsgər göndərərək yardım etdik. Ermənilər düşmənlərin ən qorxağıdır. Gündüz edə bilmədikləri işləri gecə edirlər. Bu gün Naxçıvan ətrafındakı hərəkətləri də qorxaqlıqlarını göstərir. Əslində Vedi ətrafındakı qüvvələri də azdır. Əsl güc Sarıqamış və ətrafındadır. Komanda heyəti bilməlidir ki, ermənilərə qarşı ciddi mübarizə aparılmazsa, Naxçıvan tamam əldən çıxar. Əgərermənilər bəzi yerləri ələ keçirsə, müsəlman əhali heç bir tərəfə köçməməli, yerində qalması təmin edilməlidir. Çünki bu mühacirət böyük bir narahatçılıq gətirəcəkdir. Naxçıvan adından bizim atəşkəs təklifimiz doğru deyildir. Çünki təsirsiz olacaqdır. Özlərini Azərbaycanın bir parçası elan edən naxçıvanlılar dərhal Azərbaycan və rus bolşevik qüvvələrinin yardımını tələb etməlidir”.[360]

Kazım Qarabəkir paşa Ərzurumdan naxçıvanlıların ermənilərə qarşı mübarizəsində onlara dəstək olur, bir çox təkliflər irəli sürür. Naxçıvanda icra olunan təhlükəli oyunların zərərini naxçıvanlı rəhbərlərə deyən Veysəl bəy Kəlbalı xanı və general Həbib Səlimovu Dəhnəyə getməyə razı salmışdı. Digər tərəfdən, Əli Timur bəy və Veysəl bəy 13 iyulda qarşılıqlı

---

[359] ATASE A. 6/6686, kls, 924. D. 6-1. F.1-7. Veysəl bəy Əli Timur bəyin bu raportunu Sağ cinah qrupu komandanlığına göndərmişdi. (ATASE A. 6/6686, kls, D. 1-2. F.1, Şərq cəbhəsi III, s.10).

[360]ATASE, A. 6\6686, Kls.924, s.6-1, F.l-6

yazışmalarla cəbhəni qaydaya salmağa və qüvvətləndirməyə çalışırdılar. Veysəl bəyin istəməsinə baxmayaraq, ermənilərə qarşı hücum etmək artıq imkan xaricində idi. Çünki əlindəki bu qüvvələr kifayət qədər deyildi. Könüllülərin çoxu çıxıb getmişdi. Toplananlar isə Əli Timur bəyin dediyi kimi, ən kiçik bir atəşlə yenidən qaçacaqdılar. Sədərək ətrafındakı əhali də köçdüklərindən onlardan istifadə etmək mümkün deyildi. Buna görə də Dəhnə boğazının müdafiə edilməsi qərara alındı. Veysəl bəy bir tərəfdən cəbhədəki əsgərlərin ərzaqla təmin edilməsi üçün əmrlər verir, digər tərəfdən isə qaçan könüllülərin yenidən toplanmasına çalışırdı.[361] Veysəl bəy bütün işlərində Sağ Cinah qrupu komandiri Cavid bəyin göstərişlərini əsas tuturdu. 14 iyul 1920-ci ildə Veysəl bəyə bir teleqram göndərən Cavid bəy bu teleqramda tələb edirdi ki, cəbhədən qaçanlar bütün əsgərlərin gözü qabağında güllələnsin və əhaliyə müharibədən qaçmamaları və vətənlərini müdafiə etmələri üçün bir bildiriş nəşr etdirsinlər.[362] Həmin gün Veysəl bəy Naxçıvan, Şərur və Şahtaxtı əhalisi və könüllüləri üçün bu bəyannaməni nəşr etdirdi:

1.Əhalinin düşmən qabağında durmayıb qaçması həm osmanlı əsgərlərini sıxıntılı vəziyyətə salır, həm də milyardlıq sərvət və mülkün ermənilərə keçməsinə şərait yaradır. Erməni ordusu çox azdır. 50 ermənininin qabağından yüzlərlə adam atəş açmadan qaçır. Noraşen alay komandiri Tağı bəy iki gün əvvəl Çivəyə göndərildiyi halda batalyonu ilə bərabər kəndlərdə gizlənmişdir. Dəhnədə osmanlı və Azərbaycan əsgərlərindən başqa kimsə yox idi. Bu gözəl yurdu düşmənə verməyi qərara almışsınızsa, bizə də xəbər verin. Əsgərlərinizi toplayın, silaha sarılın. Sizin yerinizə ermənilər qaçacaqdır. Xainlərin sözlərinə baxmayın. Bu gün Naxçıvanda təbliğat aparan bir xaini həbs etdim. Onlar ermənidən pul alıb sizi qorxudaraq yurd-yuvanızdan çıxartmaq istəyirdilər. Belə adamları əsgərlərə təhvil verin.

2. Bu əmri qəza rəisləri, nahiyə müdirləri və mollalar əhaliyə bildirəcək, kəndləri gəzəcək, qaçanları cəbhəyə göndərəcəklər.[363]

Artıq gec idi. 1920-ci ilin iyul ayının 13-də Dəhnə boğazının önünə yığışan və 14 iyulda hücuma keçən erməni ordusunun qarşısında 4 piyada və bir pulemyot rotasından ibarət türk qüvvələrindən başqa heç kim yox idi. Vəlidağda olan türk qüvvələri sayca və silah cəhətdən üstün olan ermənilərin qabağından çəkilmək məcburiyyətində qaldılar. Ardınca Dəhnə dağındakı türk qüvvələri də çəkilməyə başladılar. Beləliklə, Şərur bölgəsinin və bilavasitə Naxçıvanın müdafiəsi üçün çox strateji bir mövqedə yerləşən

---

[361] ATASE, A. 6\6686, Kls.923, s.2-5,6, F.12-1, ATASE, A. 6\6686, Kls.924, s.6-1, F.l-8. ATASE, A. 6\6686, Kls.923, D-1-2. F.15-1.18.Ünüvar. Bolşeviklərlə 8 ay. s.26

[362] ATASE, A. 6\6686, Kls, 923, s.l-2, F.23-1

[363] ATASE, A. 6\6686, Kls.924, s.6-1, F.1-9, 1-10

Dəhnə boğazı saat $16^{00}$-da ermənilərin əlinə keçdi.[364] Məğlubiyyətin səbəbləri var idi; erməni qüvvələrini rus zabitlərinin idarə etməsi, sayca çox üstün olan rus topçusunun çox güclü atəşləri qarşısında türk qüvvələrinin iki topunun heç bir iş görə bilməməsi, könüllülərin birdən dağılması bu səbəblərdəndir.[365] Əli Timur bəy çox möhkəm əsəbləşmişdi və məğlubiyyətin səbəbini belə izah edirdi: "Bizə ermənilər yox, nə etdilərsə, siyasətçilər etdilər. Ermənilər ardımızca tamaşaçı kimi gəlirdilər, biz getdikcə onlar da arxamızca gəlirdilər.[366] Naxçıvan regionunun keçmiş komandiri Xəlil bəyə görə, müvəffəqiyyətsizliyin səbəbi əvvəlcə onun qoyduğu qaydaya tabe olunmaması[367] və komandirlərin şəxsən döyüş meydanında iştirak etməməsi idi.[368]

## 6.Məğlubiyyətdən sonrakı hadisələr
### a) Əhali arasında şayiələr

Vedibasar və Dəhnə boğazındakı məğlubiyyətdən sonra müsəlman əhali arasında bir narahatçılıq yaranmışdı.Zəngibasar bölgəsinin türk əhalisinin başına gələnlər və erməni vəhşiliyindən canlarını qurtaranlarınqaçqın olmaları Naxçıvan əhalisinin əhval-ruhiyyəsini pozmuşdu. Belə bir əhval-ruhiyyə, regionda aparılan təbliğatlar erməni hücumunun başlaması ilə könüllülərin və Azərbaycan əsgərləri kimi müsəlman əhalinin birdən dağılmasına səbəb oldu. Vedibasardan cənuba doğru bütün xalq yurd-yuvalarını qoyub qaçdılar. Kazım Qarabəkir paşanın əhalinin yerlərini tərk etməməsi haqqındakı əmrinə qulaq asan yox idi. Qaçqın olan əhali, türk əsgərlərinin onları lazımi səviyyədə müdafiə etmədiklərinə inanır və onları günahlandırırdılar.[369] Əslində isə əsil günahkarların könüllülər müqavimət göstərməsin deyərək türk qüvvələrini gözdən salmaq, bölgədən çıxmalarını təmin etmək və beləliklə, ermənilərlə razılığa gəlmək istəyən yerli liderlər olduğunu bilmirdilər. Bilsəydilər belə, artıq iş-işdən keçmişdi. Şərur ovalığı qaçqınlarladolu idi. Veysəl bəy demişkən "könüllülər döyüşməsin" deyənlər bunu düşünməmişdilər. Könüllülərin ermənilərə müqavimət göstərməsi asandır. Dəhşətlisi isə qadın və uşaqların tərk edilməsi, ermənilərin əlinə ve-

---

[364] Ünüvar.Bolşeviklərlə 8 ay. s.26. Şərq Cəbhəsi III c. s. 105.

[365] Şərq cəbhəsi III, s.106. Erməni ordusu içərisində gördüyüm rus əsgərləri bolşeviklər qarşısında dağılan Denikin qüvvələrinə mənsub bu əsgərlər Ermənistana gəlmişdilər. (British Document on Foreiqn Affairs, Part II, Serves B. Vol: 16, Persia I Doc.368. s.270.)

[366] ATASE, A. 6\6686, Kls.923, s.2-5, 6, F.l0-7; Bolşeviklərlə 8 ay, s.26. Şərq cəbhəsi III, s.102.

[367] Bax: VI Bölmə. İnzibati hərbi və iqtisadi təşkilat.

[368] ATASE, A. 5/2793, Kls.814, s.5-9. F. 128-2.

[369] ATASE, A.6/6686, Kls.923, s.2-5-6, F.10-7. Ünüvar.Bolşeviklərlə 8 ay, s.6, Şərq cəbhəsi III, s.102

rilməsi idi.[370] Əleyhinə min bir təbliğat aparılan mayor Əli Timur bəyin əmri altındakı türk qüvvələri özlərini fəda edərcəsinə, qaçqınkarvanlarının ayerqardçılığını edir, qadın, uşaq, qocaların hər hansı bir vəhşiliyə məruz qalmadan təhlükəli bölgədən çıxmasına şərait yaradırdılar. 14 iyundan 15-nə keçən gecə Noraşendən Ərəblər kəndinə qədər olan yollar adamlarla, arabalarla və heyvan sürüləri ilə dolu idi. Zirehli qatarın qorxusundan əhali dəmiryolundan uzaq yollardan istifadə edirdi. Quldurlar arabir güllə ataraq xalqı qorxudur, qarətçiliyə təşəbbüs göstərirdilər. Ancaq diqqəti cəlb edən bir şey var idi. Vedibasar istisna olunmaqla, digər könüllülər dəstəsi düşmən qarşısında heç bir ölü və yaralı vermədikləri halda, Şərur ovasında talançılıq zamanı qaçqinlar öz içərilərindən 100-ə qədər adam öldürmüşlər.[371] Demək olar ki, qaçqinların silah və patrondaşları dolu idi. Veysəl bəyin fıkrincə, onlar silahlarını ya bir-birlərinə qarşı istifadə üçün, ya da mühacirlikdə olduqları zaman satıb qarınlarını doyurmaq üçün saxlayırdılar.[372]

Vedibasar-Şərur istiqamətindən gələn minlərcə qaçqin Şahtaxtı körpüsünün yanına yığışmışdı. Təhlükədən qurtarmaq üçün İrana keçmək istəyirdilər. Ancaq İran rəhbərliyi qaçqınlara keçmə icazəsi vermirdi. Ermənilər körpünün başına gəlib bircə dəfə atəş açsaydılar, fəlakət ola bilərdi. Buna görə də Veysəl bəy İran tərəfindəki Ərəblər kəndində olan Babur xanın yanına xahiş üçün bir zabit göndərdi. Bir nəticə əldə edilmədi. Veysəl bəy Maku sərdarına zəng etdi. Nəhayət, gecə yarısı körpü açıldı. Veysəl bəyin lazımi tədbirlər görməsinə baxmayaraq, Şahtaxtı körpüsündə izdiham var idi. Könüllülər çiyinlərində tüfənglər və 3 cərgə patrondaş olmaqla, uşaqlarınəllərindən tutub körpüdən keçmək üçün arabalar, sürülər arasında növbə gözləyirdilər. 15 iyundan 16 iyuna keçən gecə yarısına qədər qaçqınların keçidi davam etdi.[373]

Minlərcə qaçqın[374] İran torpaqlarında yerləşmək üçün yer axtarırdı. Qaçqınlarkütləsinin mühüm bir hissəsini təşkil edən Vedibasar əhalisi İrandansa, Türkiyəyə yerləşmək istəyirdilər. Buna görə də Vedi hissəsində səlahiyyətli olan Mustafa Kamal Əfəndi[375]qaçqınlar adından Veysəl bəyə müraciət etdi. Veysəl bəy vəziyyəti 16 iyul 1920-ci il tarixdə Cavid bəyə bildirdi. Belə ifadə olunmuşdu:"Vedibasar qaçqınları 24 min evdir. 15 min

---

[370] Ünüvar.Bolşeviklərlə 8 ay, s. 26-27

[371] ATASE, A. 6/6686, Kls.924, s.8-4, F.l Ünüvar.Bolşeviklərlə 8 ay, s. 27

[372] ATASE, A. 6/6686, Kls.924, s.8-4, F.l.

[373] ATASE, A.6/6686, Kls.924, s.8-4, F.l. Ünüvar. Bolşeviklərlə 8 ay, s.27-28

[374] Yerasimovun bir ingilis mənbəyinə dayanaraq verdiyi məlumata əsasən İrana keçən türk mühacirlərin sayı 50.000 nəfər idi. (S.Yerasimov.Millətlər və Sərhədlər. Balkanlar, Qafqaz və Orta Şərq İst. №1994, s.337 ) Veysəl bəyin Sağ Cinah qrupu komandirinə 16 iyulda göndərdiyi məlumatda 24.000 ev olduğu göstərilmişdir. (ATASE, A.6/6686. Kls923, s.2-5-6, F. 21)

[375]Mustafa Kamal Əfəndi türk ordusuna mənsıb bir səlahiyyə yefreytoru idi. 1918-ci ildə çıxma zamanı bölgədə qaldı və evləndi. Cəsur, bacarıqlı, Naxçıvanda şöhrət qazanmış bir adam idi. (Ünüvar-Bolşeviklerlə 8 ay s.85).

silahları, 5 pulemyotları, hərbi ləvazimatları, heyvanları, iribuynuzlu heyvanları var. Onlar Türkiyəyə keçmək istəyirlər. İcazə verilib-verilməyəcəyi haqda məlumat verin. Bu qaçqınlar iaşə ehtiyaclarını satacaqları silah, hərbi sursat və heyvanların hesabına təmin edəcəklər. İranda qalarlarsa, bu silah və hərbi sursat iranlıların əlinə keçəcəkdir. Bəyaziddə qalarlarsa, kürdlərin əlinə keçəcəkdir. Yurdumuzda olan boş erməni kəndlərinə yerləşdirilməsi və bu işlək adamların torpağımızda əmək sərf etmələri müvafiqdir və heç olmazsa, osmanlı cəbbəxanaların hökumətimiz tərəfindən satın alınması doğru olacaqdır.[376]

Türk dairələri Vedibasar qaçqınlarınınxahişini qəbul etməmişdi. Bir müddət erməni hökumətinin, bilavasitə əsgərlərin başına bəla olmuş bu qəhrəman adamlar liderləri Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə İranın Mərənd şəhəri ətrafında yerləşmişdilər.[377]

### b) Şahtaxtıda müdafiə hazırlıqları və Naxçıvan Milli Şurasının maneolma fəaliyyətlərinə türk hərbi dairələrinin reaksiyası

Dəhnə boğazındakı məğlubiyyət nəticəsində qaçqin karvanlarının içərisinə qarışan türk qüvvələri müdafiə üçün əlverişli olan Şahtaxtıya doğru çəkilirdilər. Onlar 15 iyul axşamı yəni geri çəkilmə əmrindən 24 saat sonra Şahtaxtıya yığışa bilmişdilər. Döyüşən hissə 197 piyadadan, 17 süvaridən, 17 topçu, 15 zabitdən və 28 pulemyotdan ibarət idi. Başda Əli Timur bəy olmaqla hərbi hissə çox yorğun idi. 14 iyulda Naxçıvandan Şahtaxtıya gələn Veysəl bəy Cavid bəydən həmin gün aldığı əmrə əsasən müdafiə hazırlıqlarına başlamışdı. Buna görə də Şahtaxtıda müdafiə xətti müəyyənləşdiriləcək, məğlub olan dəstə Arazın qərbinə gedəcək, Əli Timur bəy və əvvəldən bölgədə olan əsgər və könüllülər Naxçıvan, Ordubad və Culfanın müdafiəsini öz üzərlərinə götürəcəklər.[378]

Əlindəki zəif bir qüvvə ilə Veysəl bəy bu plana əsasən 14 iyuldan müdafiə hazırlıqlarına başladı. Bir tərəfdən Naxçıvandan 3 könüllü batalyonunu Şahtaxtıya gətirmək üçün tədbir görür, digər tərəfdən Şahtaxtı körpüsünün 3 km şimalındakı təpələrdə gözətçi postları yaradırdı. Qıvraq kəndi ilə Araz çayı arasındakı təpələr müdafiə məqsədilə nəzarət altına alındı.[379]

Veysəl bəy Şahtaxtı ətrafında müdafiə hazırlıqlarına başladığı vaxtlarda Kazım Qarabəkir paşa bölgədən gələn xəbərlərə görə narahat idi.

---

[376] ATASE, A.6/6686, Kls.923, s.2-5-6, F 21

[377] Ə.Əliyev Bununla əlaqədar ilk dəfə Araz-türk respublikası, "Yaddaşdan xatirələr" Azərbaycan, 1 may 1991. №18 (81). Abbasqulu bəy 12 sentyabr 1920-ci ildə onu müşayiət edənlərlə bərabər Naxçıvana qayıtmışdı.

[378] ATASE, A.6/6686, Kls.924, D.8-4, F.l. Ünüvar.Bolşeviklərlə 8 ay, s.28. Şərq cəbhəsi III c.s.106.

[379] ATASE, A. 6/6686, Kls.924, D.8-4, F.l. Ünüvar.Bolşeviklərlə 8 ay, s.28. Şərq cəbhəsi III c.s. 106.

Dəhnə boğazını keçən erməni qüvvələrinin Şərura doğru irəlilədikləri barədə xəbər Veysəl bəy tərəfdən Türkiyəyə çatdırılmış, vəziyyəti öyrənən paşa isə 14-15 iyul gecəsi Sağ cinah qrupu komandanlığına bir teleqram göndərərək Naxçıvanda nələr olduğunu soruşmuşdu. Şərurun işğal olunması xəbərini Veysəl bəy haradan öyrənmişdir. Əgər bu məlumat əhalidən alınmışdısa, sözsüz şişirdilmiş bir məlumat, şayiə ola bilər. Bəlkə də Şərurun şimalındakı bəzi kəndlərə ermənilər girmiş və oradan qaçanlar bu şayiəni yaymışdılar. Ermənilər haraları işğal etmişdilər? Əli Timur bəy haradadır? Bizim qüvvələrimiz, könüllülərimiz hansı xətdədir? Bu döyüşlərdə Azərbaycan qüvvələri iştirak etmişdirmi? Bundan başqa paşa Maku sərdarına etimad etmədən Makunu hədələyəcəkdi. Buna görə də mövqedə topçu və piyada qüvvələrinin olmasını əmr edirdi.[380]

Həmin gecə Cavid bəy suallara cavab verdi. Veysəl bəy qatarla bölgənin bir hissəsini gəzərkən Şərurun işğalını şəxsən görmüşdü. Şərur əhalisi ermənilər qarşısında dayana bilməmiş, qaçmışdı. Əli Timur bəy müəyyən bir qüvvə ilə Şahtaxtıya çəkilmişdi.[381]

Naxçıvanda baş verən hadisələr haqqında kifayət qədər məlumatı olan Kazım Qarabəkir paşa dərhal Cavid bəyə lazımi göstərişlər verdi. Naxçıvandan gələcək könüllülərin yardımı və var qüvvələri ilə Şahtaxtını əldə saxlayacaq və körpülərin dağıdılmasının qarşısı alınacaqdı. Bundan başqa İran tərəfində top və pulemyot səngərləri yaradılacaqdı.[382]

Veysəl bəy əvvəlcə Cavid bəydən aldığı əmrə əsasən Şahtaxtıda müdafiə hazırlıqlarına başlamışdı. Ancaq sayı 250-ə çatmayan türk əsgərləri ilə bu işi görmək çətin idi. Naxçıvan yerli batalyonlarının və bölgədəki Azərbaycan qüvvələrinin köməyi vacib idi. Buna görə də Veysəl bəy bir tərəfdən qaçmış könüllülərintoplanmasına çalışır, digər tərəfdən, Naxçıvan Milli Şurasından yerli könüllülər batalyonlarının Şahtaxtıya göndərilməsini fasiləsiz tələb edirdi. Amma Naxçıvan Milli Şurası əsgər tələbinə heç cür cavab vermirdi. Çox əsəbləşən Veysəl bəy bu məzmunda bir teleqram göndərdi:"Bu vətən sizindir, biz köməkçiyik. Vətəninizi ermənilərə peşkəş etmək istəmirsinizsə, onda qüvvə göndərin, əks-təqdirdə mən də əsgərlərimi çıxardacağam. Teleqramı alan Milli Şuranın ilk gördüyü iş gecə yarısı silahlı adamlar göndərib hərbi kassa, anbar və dəmiryol idarəsini zəbt etmək oldu.[383]

---

[380] ATASE, A. 6/6686, Kls.923. D.1-2, F.25.

[381] ATASE, A. 5/2793, Kls.814, D.5-9, F.12. Ünüvar. Bolşeviklərlə 8 ay, s.28. Şərq Cəbhəsi III, c.s.106.

[382] Cavid bəy Kazım Qarabəkir paşadan aldığı göstərişi 15 iyulda Naxçıvan müfəttişi Veysel bəyə çatdırmışdı. (ATASE, A. 6/6686, Kls.923,D.1-21, F.30).

[383] ATASE, A.6/6682, Kls.921, D.8-4, ATASE, A. 5/2793, Kls. 814. s.5-9, f.11. Ünüvar. Bolşeviklərlə 8 ay. s.27-28

Dağılan könüllülər batalyonunu yenidən yığmaq mümkün deyildi. Qarabağlar və Şahtaxtınınkönüllülər dəstəsi komandirləri əsgərləri dağıldığından batalyonlarını yenidən qura bilməyəcəklərini bildirdilər. Qıvraq batalyonu yolları kəsib qaçqinları soymağa başlamışdı. Şərur alayları pulemyotları ilə Arazın qərb tərəfinə getmiş və dağılmışdı. Veysəl bəy alay və batalyon komandirlərini çağırıb əsgərlərini yığmağa göndərdi, ancaq bu işdən də bir nəticə əldə edilmədi.[384] Azərbaycan qüvvələri və Naxçıvan qüvvələri heç cür Şahtaxtıya gəlmək istəmirdilər. Buna görə də məsələyə birbaşa Cavid bəy qarışdı. Telefonla Kalbalı xanla danışdı, ona çox ağır sözlər dedi vəhəmingün Kazım Qarabəkir paşaya bölgədəki vəziyyətlə əlaqədar müfəssəl məlumat verdi. Kalbalı xan Cavid bəyin bu sərt danışığından sonra Naxçıvanda əsgər yığdığını, Şahtaxtıya yardım edəcəyini və hərbi sursat göndəriləcəyini bildirdi. Cavid bəy Kalbalı xandan təcili Şahtaxtıya getməsini, bundan başqa, Azərbaycan süvari alayının da ermənilərlə əlaqəni təmin etmək üçün ön xəttə göndərilməsini tələb etdi. Cavid bəyin verdiyi məlumata görə, Veysəl bəy sıxıntı içində idi. Az miqdarda türk qüvvəsi ilə Şahtaxtıda dayanmaq mümkün olmadığını deyirdi.

Milli Şura Naxçıvandakı hərbi kassanı zəbt etmiş və türk intendant işçisini işdən çıxarmışdı. Türk zabitlərindən heç biri Naxçıvana getmək istəmirdi. Çünki naxçıvanlıların"bizim vətənimizi müdafiə etmədiniz", "bizi aldatdınız" kimi sözləri əsgərlərə çox ağır gəlirdi. Naxçıvan camaatı müharibə zamanı Bəyaziddəki türk diviziyasının gəlib onları müdafiə edəcəklərinə ümid bəsləyirdilər. Ancaq naxçıvanlılara belə bir söz verilməmiş, təşkilatlarını düzgün yaratmalarına kömək edilmişdi.[385]

Milli Şuraya görə türk qüvvələri və komanda heyəti xaindirlər. Onlar könüllülərin geri çəkilməsini Əli Timur bəyin hərbi sursat verməməsi ilə əlaqələndirməyə başladılar.[386] Veysəl bəy onların bu hərəkətinin arxasında gizlənən səbəbi belə ifadə edirdi: "Başa düşdüm ki, ermənilərə atəşkəs müqaviləsi təklif etmişdilər. Bizim orada olmağımızın bu təklifin ermənilər tərəfindən qəbul edilməsinə mane olacağını düşünürdülər. Buna görə də bizləri oradan çıxarmağı nəzərdə tutmuşlar. Bunu açıq şəkildə deyə bilmədikləri üçün sursat verməmək, topla yardım etməmək və s. deməklə bu məğlubiyyətə səbəb olduğumuzu irəli sürürdülər".[387]

Belə bir mürəkkəb və təhlükəli inamsızlıq şəraitdə Əli Timur bəyin xəstələnməsi nəticəsində komandanlığı ələ alan Veysəl bəy[388] Şahtaxtıda

---

[384] ATASE, A. 6/6682, Kls.924, D.8-4, F.1.

[385]ATASE, A.5\2793, Kls.814, D.5-9, F.11, 11-1

[386] ATASE, A. 6/6682, Kls.924, D.8-4, F.1

[387] Ünüvar.Bolşeviklərlə 8 ay, s.29.

[388] ATASE, A. 6/6682, Kls.921, D.8-4, F.1

müdafiə hazırlıqlarını və könüllülərin toplanması ilə əlaqədar fəaliyyətlərini davam etdirirdi. Naxçıvanın azərbaycanlı valisi Qara bəy də Şahtaxtıya gəldi, o da könüllülərin və Azərbaycan əsgərlərinin toplanılmasına çalışırdı. Ancaq Azərbaycan süvari alay komandiri Naxçıvana getdiyindən əsgərlər də dağıldı, onları toplamaq mümkün olmadı.[389] Rus dağ və səhra topuna malik bir Azərbaycan hissəsinin Şahtaxtının Şərqindəki Xok kəndinə qaçdığı eşidildi. Veysəl bəyə görə, Azərbaycan qüvvələrinə Naxçıvanda aparılan təbliğatların təsiri olmuşdu.[390] 15 iyulda Şahtaxtıya gələn[391] Kalbalı xan və Həbib Səlimovun çalışmaları nəticə vermədi. 15 iyul saat $15^{00}$-dan sonra Şahtaxtıya gələn Kalbalı xan və Həbib Səlimov 2 saat ərzində qaçqinlar arasından 100-ə qədər süvari və piyada topladılar. Ancaq 2 liderin səmimi olmayan fəaliyyətləri nəticəsində bir tərəfdən toplanan könüllülər digər tərəfdən qaçırdılar. Şahtaxtı ətrafında olan azərbaycanlılar dərhal Naxçıvana göndərilirdi. Kalbalı xan topladığı müəyyən qədər könüllülər dəstəsi ilə Qıvraq kəndi ətrafında gözətçi vəzifəsini icra etməyə başladısa da, o və Həbib Səlimov Şahtaxtı ətrafında Şahtaxtı hissəsi əleyhinə açıq-aşkar təbliğat aparmağa başlamışdılar. Veysəl bəy müxalifət təbliğatları bir tərəfdən təsirsiz hala gətirməyə çalışır, digər tərəfdən, Bəyaziddən gələn hərbi sursatın bölünməsini fikirləşirdi. Naxçıvanlılara güvənə bildiyi vaxt onlara Şahtaxtını qorumaq üçün hərbi ləvazimat verə bilərdi.[392]

Ancaq münasibətlərin getdikcə gərginləşməsi Veysəl bəyə istədiyi fursəti vermirdi. 16 iyul 1920-ci ildə gözlənilən Naxçıvan, Dizə, Nehrəm və Qaraçuğ könüllü batalyonları Şahtaxtıya gəldi və bu Veysəl bəyi xeyli ümidləndirdi. Ancaq onun sevinci uzun sürmədi, verilən bir nota onu sarsıtdı. Şahtaxtı dəstəsinin əlində olan hərbi sursatların, pulemyotların və topların vətən və millət üçün onlara verilməsini Kalbalı xan tələb edirdi. Veysəl bəyin cavabı qəti idi. Belə deyirdi: "İstədikləri şeylər, onlarıdüşmənə qarşı istifadə etməyi bilənlərə məxsusdur. Bu silahları onların öz yurdları üçün biz daha yaxşı istifadə edirik". Veysəl bəy narahat idi və qorxurdu. Buna görə də sui-qəsd və basqın təhlükəsinə qarşı tədbirlər görürdü.[393] Kiçik leytenant Sadəttini könüllülər batalyonuna göndərdi. Dəmiryolunun o

---

[389] ATASE,A5/2793,Kls.814, D.5-9,F13,19; ATASE, A.6/6686,Kls.923,D.1-2,F.31. Cavid bəyin aldığı bir məlumata görə Azərbaycan süvarisinin bir hissəsi nizamsız şəkildə Bəyazidə doğru gedirdi.(ATASE, A.5/2793,Kls.814,D.5-9, F.14)

[390] ATASE, A.5/2793, Kls.814, D.5-9, F.l.

[391] Ünüvar əsərində Kalbalı xan və Həbib Səlimovun 16 iyulda Şahtaxtıya getdiyini göstərir. (Ünüvar.Bolşeviklərlə 8 ay, s.28). Onun Cavid bəyə verdiyi və onun da Kazım Qarabəkir paşaya təqdim etdiyi məlumatları özündə əks etdirən ATASE sənədləri bu tarixi 15 iyul olaraq göstərir.

[392] ATASE, A. 5/2793, Kls.814, D.5-9, F.17-19.

[393] Veysəl bəy bu məsələ ilə əlaqədar bunları demişdi: Vəziyyət belə olduqda sui-qəsd, basqın ehtimalı ortaya çıxırdı. 200 əsgərin , 4 könüllülər batalyonu tərəfindən təslim edilməsi mümkün idi. Ancaq unutmuşdular ki, bir əsgərin sevgisi deyil, 4 könüllülər batalyonunun, bütün qafqazlıların qəlblərinə girmişdilər. (Ünivar, Bolşeviklərlə 8 ay, s.29).

biri tərəfindəki çayırlıqda səngər qazmalarını və dəmiryolunun türk əsgəri olan hissəsinə bir silahlı buraxmamalarını tapşırdı. Batalyonlar Kalbalı xanla məsləhətləşmədən istədiklərini etmiş və Şahtaxtı hissəsindən uzaqlaşmışdılar. Vəziyyət belə olduqda Kalbalı xan səhərisi gün batalyonları Şahtaxtıda qoyaraq Naxçıvana getdi.[394]

Bölgədəki hadisələr türk hərbi dairələrinin narahatçılığını günü-gündən artırdı. Naxçıvanda istənilən rahat bir şərait heç cür təmin olunmurdu. Azərbaycan qüvvələri komandiri Həbib Səlimov və naxçıvanlıların hərbi lideri Kalbalı xanın əks təbliğat və fəaliyyətlərinin qarşısı alına bilərdi. Buna görə də Cavid bəy Həbib Səlimovu və Naxçıvan Milli Şurasını xəbərdarlıq etmək lazım olduğunu anladı. İlk əvvəl Həbib Səlimovla telefonla danışdı. Xülasəsi belə idi: "Şahtaxtıda olan Azərbaycan qüvvələri öz komandiri tərəfindən səbəbini bilmədiyim qəribə bir tərzdə Naxçıvana aparılmışdır. Əgər müharibədirsə, bu qüvvələrin heç olmazsa süvari alayı Naxçıvanda yox, Şahtaxtıda olmalıdır ki, alayın kəşfiyyat aparması, ön xətdə düşmənlə döyüşməsi mümkün olsun. Müharibə aparılmayacaqsa, bu bölgənin şərəfini mühafizə etmək üçün Azərbaycandan Naxçıvana gəlmiş və gətirilmiş bu qəhrəman əsgərlərin şərəfli bayraq və silahlarını müqavilə ilə ermənilərə vermək əvəzinə Türkiyəyə gəlmələri daha münasib olar. Çünki naxçıvanlıların göndərdiyi heyətə ermənilər silah və cəbbəxanalarını təslim etmələrini təklif edəcəklər. Fasiləsiz fərarilərin olması Naxçıvanda ermənilərə qarşı artıq dayanmaqgücü olmadığını göstərir. Əksəriyyəti pul, sərvət, əşya dərdində olan Naxçıvanınnüfuzlu şəxsləri sərvətlərini, canlarını qurtarmaq məqsədilə ermənilərin ən ağır şərtlərini belə qəbul edəcəklər, beləcə sizi silahlardan məhrum edəcək və ya bölgədən çıxaracaqlar. Buna görə də Naxçıvandakı lazımi xidmət göstərdikdən sonra bizimlə birləşin".[395]

17 iyul 1920-ci ildə Cavid bəy Naxçıvan Milli Şurasına bir teleqram göndərmiş, türk hərbi dairələrin regiondakı hadisələrdən mütəəssir olduğunu göstərmiş və xülasə olaraq bunları ifadə etmişdi: "Naxçıvanlıların bu son ayda intriqalara uyaraq türklər əleyhinə dedikləri sözlər və gördükləri işlər ürəyimizi dağladı. Zabitlərim bu əməllərə qarşı aldıqları hərbi tərbiyəyə əsasən susdular, qürurlarına toxundu. Bu narahatçılıq sizin tərəfdən aradan qaldırılsa, daha yaxşı olar. Biz əlimizdən gələn yardımı etməyə hazırıq. Əleyhimizə olan təbliğatlara baxmayaraq, biz yenə son vəzifəmizi yerinə yetirdikdən sonra gedəcəyik. Sizə bu sözlərimi yazmaq istəməzdim, ancaq vətənləri üçün xeyli qan axıtdıqları, müsəlman qardaşlarımızın göstərdiyi qonaqpərvərlik ürəyimizi yandırdı. Müraciətlərinizə əsasən idarəetmə və

[394] ATASE, A. 6/6682, Kls.924, D. 8-4, F-1. Unüvar Bolşeviklərlə 8 ay, s. 29

[395] ATASE, A. 6/6686, Kls.923, D.l-2, F-32. Cavid bəy Həbib Səlimovla görüşü haqqında Kazım Qarabəkir paşaya məlumat vermişdir. (ATASE, A.5/2793, Kls.814, D.5-9, F.38)

hərbi təşkilatlarınızı qurmaq üçün Xəlil bəyi göndərdik. İş görmək əvəzinə partiya münaqişəsinə başladınız. Nəhayət, onunla da yola getmədiniz. Yenə müraciətinizə əsasən ən dəyərli yoldaşlarımızı ora göndərdik. Cavid bəy gileylərlə bərabər, Şuraya Şahtaxtı hissəsinin ərzaq ehtiyaclarına kömək edəcəyini xatırlatdı.[396]

Həmin gün Cavid bəy tərəfindənNaxçıvan Milli Şurasına və Veysəl bəyə əmr mahiyyətində bir teleqram göndərildi. Cavid bəy Naxçıvan regionunda türk qüvvələri əleyhinə təbliğat aparıldığını xatırlatmış və qısaca bunları yazmışdır: "Bu təbliğatlar erməni və ya ingilis intriqaları üçün alətə çevrilmiş, bir neçə dəlinin tərbiyəsizliyi üzündən ortaya çıxmışdır. Məqsədləri günahsız xalqı müdafiəsiz qoyaraq geri çəkilməklərini təmin etməkdir. Siz bunlara imkan verməyin. Bununla bərabər, türk qüvvələri əleyhinə təbliğat aparanlar hər kim olursa-olsun dərhal həbs olunub, qolları bağlı Bəyazidə göndəriləcək. Qarşı çıxan hər kim olursa-olsun osmanlı hərbi hissəsi komandanlığı tərəfindən edam ediləcək. Edam səlahiyyəti ancaq Veysəl bəyə, həbs etmə səlahiyyəti də Veysəl bəyin təyin etdiyi inzibati zabit və məmurlarına aiddir".[397]

Cavid bəy sərt davranışı ilə Naxçıvandakı əks-təbliğatın qarşısını almaq və "hər kim olursa olsun" ifadəsi ilə Milli Şuranın bu cür fəaliyyətlərdən uzaqlaşdırmaq istəyirdi.Ancaq Kalbalı xanın atası Cəfərqulu xanın başçılıq etdiyi Milli Şura qızışdırıcı fəaliyyətlərindən əl çəkmirdi. Onlar Veysəl bəydən, Xəlil bəy tərəfindən yaradılmış kassanın son hesabını tələb etdilər. Əks-təqdirdə Veysəl bəy məsuliyyət daşıyacaqdır. Bu, Cavid bəyi möhkəm əsəbləşdirmişdi. Dərhal Şuraya yenidən teleqram göndərildi: "İndiyə qədər edilən yardımlara və yüzlərlə şəhidlərin qanına qarşı bu əməllər Milli Şuranın və xalqın göstərdiyi cəhalətdir. Yaxınlarda Naxçıvana gələcək, hesabları şəxsən heyətə verəcək, ancaq bu hesab əsasında Naxçıvana indiyə kimi xərclənmiş pul, verilmiş sursat, silah və s. dəyərləri, şəhid olmuş əsgər və zabitlərin ailələrinə veriləcək təzminat da gündəliyə salınacaqdır", - deyən Cavid bəy indi hesab vaxtı olmadığını, Naxçıvanın bağrına xəncər kimi saplanmış erməniləri çıxartmağın vacib olduğunu, bunun üçün də türk qüvvələrini hər tərəfli dəstəkləmək lazım olduğunu bildirirdi.[398]

Cavid bəydən Naxçıvan Milli Şurasının mövqeyini və 18 iyulda Veysəl bəyin hesabatından Naxçıvan Şurasının və Həbib Səlimovun istənilən yardımı göndərmədiyini, Həbib Səlimovun intriqa içində olduğunu

---

[396]Bu teleqram məlumat üçün Veysəl bəyə yazılmış və onun vasitəsilə Şuraya verilmişdir. (ATASE, A. 6/6686, Kls.923, D.l-2, F.34-2. Ünüvar. Bolşeviklərlə 8 ay s.29-30).

[397]ATASE, A. 6/6686, Kls.923, D.l-2, F.34, ATASE, A. 5/2793, Kls.814, D.5-9. F.58

[398] ATASE, A. 5/2793, Kls.814, D.5-9. F.62

bilən,[399] bundan başqa, Kalbalı xanın intriqalarını öyrənən Kazım Qarabəkir paşa Cavid bəyə xəbərdarlıq etmək lazım olduğunu başa düşdü. Diqqətli olması xahiş edildi. Cavid bəydə 19 iyulda paşadan aldığı göstərişin surətini Veysəl bəyə verdi. Teleqramda bunlar ifadə olunmuşdur: "Kalbalı xanın mövqeyini və vəziyyətini bəyənmirəm. Şahtaxtıdakı könüllülər qüvvələrinə müstəqil olaraq komandirlik etməsidoğru deyildir. Ancaq Veysəl bəyə itaət edərsə əmrləri yerinə yetirmək şərti ilə könüllülərə komandirlik edə bilər. Veysəl bəy şəxsən daha çox nüfuz qazanması və Naxçıvanda olan osmanlı və yerli azərbaycanlılardan ibarət bütün əsgərlərin əmr və komandirliyini ələ almalı, bunu möhkəmcə mühafizə etməlidir. Maku sərdarının qohumu, Naxçıvanın varlılarından olan Kalbalı xanın könüllülər dəstəsindən və Azərbaycan qüvvələrindən sui-istifadə etməməli, Şərura gələn ermənilərin qarşısını almalı idi. Bunu etməməsi və ya osmanlı əsgərlərinə qarşı düşmən mövqedə durması göstərirdi ki, o, ermənilərlə razılığa gəlmiş, bəlkə də bolşeviklərə müqavimət göstərmək fikrində olduğunu göstərir, çox güman ki, Şahtaxtıdakı top və pulemyotları ələ keçirmək istəyər. Bunun əhəmiyyətini nəzərə alaraq əlimizdəki silah və cəbbəxananı, top və pulemyotları, tüfəng və piyadanı səylə və böyük bir diqqətlə mühafizə etmək lazımdır. Sinəsindən "müharibə" medalımız çıxarılan İbrahim ağa[400] sıxışdırılarsa, bu hərəkətin məqsədi aydınlaşar, bəlkə də bu şəxsi (m,g,n,h,h,v,h) Kalbalı xan və onun adamları təhqir etmişdilər.[401]

Naxçıvan Milli Şurası və Kalbalı xan kimi yerli liderlərin türk hərbi dairələrinə qarşı istifadə etdikləri ən böyük fürsətlərdən və bilavasitə 2 tərəf arasındakı anlaşılmazlığın səbəblərindən biri də Naxçıvandan gəldiyi andan etibarən əlindəki bütün imkanlardan istifadə edərək türk qüvvələrini regiondan çıxarmaq istəyən Naxçıvan milli Şurasınınərzaq məsələsində də sıxıntı yaratmağa[402] başlaması idi. Əvvəl türk əsgərlərinin artıq ərzaq almalarına qarşı etiraz səsləri yüksəlməyə başladı.

Veysəl bəyin qeyd etdiyinə görə, türk hissələrinin əlindən cəbbəxananı, ərzaq məhsullarını, pulu almağa çalışırdılar. Onların ilk hədəfləri Xəlil bəy tərəfindən yaradılan hərbi kassa və anbar oldu. Əvvəlcə, birbaşa müdaxilədən çəkindikləri üçün dolayı yollarla hərbi kassadakı pulu almağa çalışdılar. Naxçıvan valisi Qara bəy idarə işçilərinin və günəmuzd qulların maaşlarını ödəmək üçün əllərində kifayət qədər pul olmadığına görə Əli

---

[399] ATASE, A. 5/2793, Kls.814, D.5-9, F.85

[400] 17 iyulda Şahtaxtılı İbrahim ağa ağlaya-ağlaya Veysəl bəyin yanına gəlmiş və sinəsindəki müharibə medalını qopardıqlarını demişdir, fəqət kim elədiyini deməmişdi. Veysəl bəy hadisəni araşdırmağa başlamışdı. (ATASE A,5/2793. kls.814. D.,5-9. F.28)

[401] ATASE, A. 6/6686, Kls.924, D.6-1, F.1-13.

[402] ATASE, A. 6/6682, Kls.814, D.2-5, 6, F.78.

Timur bəydən hərbi kassadan bir milyon manat ödənməsini xahiş edirdi.[403] Hər bir dəqiqə erməni hücumunun gözlənildiyi və hərbi məsrəflər üçün pulun çox vacib olduğu bu dövrdə Əli Timur bəyin pul verib-vermədiyini bilmirik. Ancaq bilinən və gerçək olan bu hadisədən 4 gün sonra iyunun 14-dən 15-ə keçən gecə Milli Şura hərbi kassa və anbarı , gəlirləri hərbi kassaya daxil olan dəmiryol müəssisəsini zəbt etdi.[404]

Şahtaxtıda müdafiə hazırlıqları ilə məşğul olan və hər an bir erməni hücumunu gözləyən türk hərbi hissəsində ərzaq sıxıntısı son həddə çatmışdı. Naxçıvan Milli Şurası daha əvvəl söz verdiyi yardımı kəsmişdi. Çarəsiz qalan Veysəl bəy də mənsub olduğu 11-ci diviziyadan hissənin ərzaq ehtiyaclarını ödəməyi xahiş etdi. Ancaq Veysəl bəyin xahişini öyrənən Kazım Qarabəkir çox hirslənmişdi. Hər cəhətdən taxıl anbarı kimi görünən Naxçıvanda kiçik bir hissənin qidalandırılması və əslində ərzaq cəhətdən sıxıntı çəkən diviziyadan yardım istəməsi Paşanı hərəkətə gətirdi. 15 iyul 1920-ci ildə Sağ Cinah qrupu komandanlığına bu teleqramı göndərdi: "Veysəl bəyin gözünün önündən minlərlə iribuynuzlu heyvan keçdiyini dediyi halda bir dəstə əsgərin ərzağını diviziyadan istəməsi və hesabat oxumaq üçün əsgərlərin yanında olan kibritlə çır-çırpını və ya taxta parçası yandırması çox təəccüblüdür.

Heç olmazsa, bundan sonra daha ağıllı və diqqətli hərəkət etmək üçün Veysəl bəyə sakit və soyuqqanlı olmağa imkan verin. Hər halda ərzağı təmin etsin və özü mətin olsun, ümumi mənəviyyatını pozmasın".[405]

Kazım Qarabəkir paşanın sərt xatırlatmasına baxmayaraq, Veysəl bəyin ərzaq məsələsində görəcəyi elə bir iş yoxdu. Naxçıvan Milli Şurası heç bir istəyinə cavab vermirdi. Hərbi kassa zəbt edilmişdi. Pul sıxıntısı var idi.[406] Məcburiyyətdə qalan Veysəl bəy 16 və 17 iyulda yenə Sağ Cinah qrupu komandanlığına müraciət etdi. Əsgərlərin ərzağı, heyvanların yemi qalmamışdı. 16 iyulda heyvanlara yem verilməmişdi. Buna görə də təcili olaraq Bəyaziddən yardım xahiş edirdi.[407]

Şahtaxtı hissəsinə Milli Şura tərəfindən rəva görülən hərəkətlərə və bu səbəbdən də əsgərin ac qalmasına Cavid bəy çox narahat olmuşdu.

---

[403] ATASE, A. 6/6686, Kls.924. D.6-1, F.2-4.

[404] ATASE, A. 6/6686, Kls.924, D.8-4, F.1, Ünüvar. Bolşeviklərlə 8 ay, s.28

[405] ATASE, A.D 5/2793, Kls.814, s.5-9, F.2

[406] Qeyd etdiyimiz kimi, Xəlil bəy hərbi xərcləri ödəmək üçün Naxçıvanın bir çox gəlirlərini müsadirə etmiş və hərbi kassa yaratmışdır. Xəlil bəy Naxçıvandan getdikdən sonra və Əli Timur bəyin komandasındakı türk hissəsinin Naxçıvana gəlməsi ilə kassanın nəzarəti Əli Timur bəyin əlinə keçmişdi. Əli Timur bəyin bu hissənin hərbi xərclərini, heç olmazsa zabitlərin xərclərini bu kassadan ödəyib-ödəmədiyini bilmirik. Bildiyimiz ancaq Kazım Qarabəkir paşanın 25 iyul tarixli teleqramdakı məlumatlardır. Buna əsasən əsgərlərin xərclərini Milli Şura ödəyir. Korpus tərəfindən ödəmə yoxdur. (ATASE. A. 6/6686, kls.923. s.2-5, 6 F. 1-1) Şuranın iaşə məsələsi ilə əlaqədar çətinlik yaratdıqda zabitlərin sıxıntı çəkdikləri ehtimal olunur.

[407] ATASE, A. 6/6686, Kls.923, D.1-2, F.34-2

İllərdən bəri ermənilərə qarşı qorunulan, uğrunda şəhidlər verilən naxçıvanlılar indi varlıqlarına təminat verən türk əsgərinə üz vermirdilər[408] Cavid bəy 17 iyulda Naxçıvan Milli Şurasına məsələ ilə əlaqədar giley dolu teleqramı göndərmiş və türk ordusunun lazımi ərzaq malları ilə təchiz edilmədiyini bildirmişdir: "Yardım məqsədilə Şahtaxtıda olan Osmanlı əsgərlərinin 3 günlük ərzağı, heyvanların 2 günlük yem ehtiyatı qurtarmış və əsgərlər aclığa məruz qalmışlar. Buradan bir qədər ərzaq göndərdim. Mən Naxçıvanın müdafiəsi üçün yardım məqsədilə oraya gələn əsgərlərimizin naxçıvanlılar tərəfindən aclıq çəkmələrini ümid etməzdim. Bu, son vaxtlar, yəni müharibə başladıqdan sonra göndərdiyim hərbi sursat 120 min Osmanlı və 180 min rus patronundan çoxdur. Bunun müqabilində heç olmazsa, bir qədər taxıl vermək olmazdı məgər?"

Cavid bəy daim Veysəl bəyə göndərdiyi teleqramları eyni ilə Şuraya da göndərmiş və Şahtaxtıdakı vəziyyəti göz önünə gətirmişdi.[409]

Türk hərbi dairələrinin fasiləsiz xəbərdarlıqlarına məruz qalan və onların artıq ciddi tədbir görmək məcburiyyətində olduğunu bilən və bölgədə ermənilərlə müqavilə bağlamadan əvvəl vəziyyəti bir qədər yumuşaltmaq istəyən Naxçıvan Milli Şurası birdən mövqeyini dəyişdirdi.[410] Yenə Veysəl bəy məsələ ilə əlaqədar Sağ Cinah qrupu komandanlığına teleqram göndərdi. Bu gün yenidən naxçıvanlıların göz bəbəyi olduq. Bu axşam Səlimov gəldi. Ermənistana gedən nümayəndələr qayıtdıqdan sonra Ümumi komandanlığa müraciət edəcəklərini və indidən Naxçıvan Milli Şurasına üzv olaraq qəbul edilmiş, zabitlərə şəkər, əsgərə tütün veriləcəyini yoldaşları yanında bildirdi. Bununla əlaqədar komandirlərə əmrbildirilsin".[411]

Cavid bəy Veysəl bəyə bu cavabı verdi: "Naxçıvanlı olmadığınızdan və regionda türk qüvvələri komandiri olduğunuzdan Milli Şura üzvülüyünü qəbul etmək məqsədəuyğun deyil. Əslində Milli Şura təyinetmə yolu ilə deyil, xalqın əksəriyyətinin razılığı ilə təşkil ediləcək. Revkom[412] və ya komitə tipli idarələrin qurulması gündəlikdə olan bir məsələ olduğu dövrdə Şura üzvünün heç bir rolu olmayacaq. General Həbib Səlimovun şəxsən iştirak etmədiyi hər şeyə müxalifət olduğu bəllidir. Bolşeviklərlə gizlicə müzakirə edin. Əgər siyasətə və indiki vəziyyətə müvafiq görürsünüzsə, Naxçıvan ətrafının ümumi komandanlığını general Həbibə veriniz. Şahtaxtıda sizin komandirlik etdiyiniz türk hissəsi adı altında ancaq Vedi, Çivə və digər qaçqınlardan ürəkliolanları ilə genişlətdiyiniz təşkilatdan ibarət bir qüvvəni,

---

[408]ATASE, A. 5/2793, Kls.814. D.5-9, F.62
[409] ATASE, A. 6/6686, KIs.923, D.l-2, F.34-2.
[410] Şurada siyasətin dəyişməsinə bolşeviklərin Naxçıvana daha çox yaxınlaşmasının da təsiri ola bilərdi.
[411] ATASE, A. 6/6686, Kls.923, D.l-2, F.39-1. Ünivar. Bolşeviklərlə 8 ay,s.32
[412]Rusca Milli Şura mənasına gəlir.

Əznəbürddə Həbib Səlimovun yığa bilmədiyi könüllülər dəstəsini və Azərbaycan qüvvələrinin birhissəsinin komandirliyini Həbib Səlimova verə bilərsiniz. Bu, bir əmr deyil, məsləhətdir. Fikirləşin, fikrinizi yazın. Kazım Qarabəkir paşa ilə danışaq. Ermənilər hücuma davam edərlərsə, bir başa Naxçıvan üzərinə gələcəklərini Milli Şuraya yazmış, Badamlı, Əznəbürd, Şahtaxtı xəttini nəzarətdə saxlamalarını bildirmişəm. Siz də bu məsələ ilə əlaqədar lazımi işi görün."[413]

Görünür, Veysəl bəy şəraiti müvafiq hesab etməyib ki, Naxçıvan ümumi komandanlığı general Həbib Səlimova vermədi. 20 iyulda ermənilərə veriləcək cavabın müzakirəsi üçün Milli Şuranın toplantısı keçirildi. Veysəl bəy vətənin müdafiəsi məsələsini gündəliyə saldı, Həbib Səlimovun könüllülər dəstə komandirliyinə təyin olunmasını, dağılan əsgərlərin toplanmasını, hərbi vəziyyət elan edilməsini təklif etdi. Müzakirələrdən sonra təklif qəbul edildi.[414] Bu, Veysəl bəyi çox sevindirmişdi. Artıq türk əsgəri ilə Naxçıvan Milli Şurası arasındakı münasibətlər düzəlməyə başladı və qəbul edilən qərarlardan sonra müdafiə hazırlıqları rahat bir şəkildə davam edə bilərdi. Şuranın dəstəyi təmin edilmişdi. Əslində münasibətlərin gərginləşdiyi vaxtlarda Veysəl bəy müdafiə hazırlıqlarını imkan daxilində davam etdirirdi. Hissənin qüvvəsi kifayət etmədikdə Sağ Cinah qrupundan əlavə qüvvə tələb etdi.[415] Cavid bəy də bildirdi ki, Naxçıvana göndəriləcək zabit qalmamışdır.[416] Sonra 34-cü alayın 2-ci batalyonu, pulemyot rotası ilə bərabər bölgəyə göndərilmişdi.Bu qüvvə 18 iyulda Şahtaxtı tərəfdə yerləşən Ərəblər kəndinə gəlmişdi.[417] Digər tərəfdən Veysəl bəy diviziyanın göndərdiyi qazma və bellə 17 iyuldan etibarən mövqeyini möhkəmləndirməyə başladı. Qıvraq kəndindən Araza qədər səngərlər qazıldı. Araz tərəf münasib olmadığından sim çəkildi. Cəbhə ilə hərbi hissə mərkəzi arasında telefon xətti yaradıldı.

İndi Veysəl bəyin arzusu həyata keçdi. Şuranın göstərdiyi dəstək nəticəsində könüllülər və Azərbaycan qüvvələri cəbhədəki yerlərini tutmuşdular. Veysəl bəy general Həbib Səlimov ilə müdafiə planını müzakirə etmiş və ardınca könüllülər batalyonları hissənin verdiyi qazma və bellərlə öz səngərlərini hazırlamış və süvarilər də daxil olmaqla vəzifə bölgüsü aparılmışdı. Veysəl bəy könüllülər dəstəsinə güvənməyə başlamışdı və buna görə də onlara 127 qutu müxtəlif döyüş sursatı vermişdi. Azərbaycan qüvvələri də könüllülər dəstəsinə dəstək olmalı idi. Ancaq Şərur və Dəhnə

---

413 ATASE, A. 6/6686, Kls.924, D.3-4, Ünüvar. Bolşeviklərlə səkkiz ay, s.32

414 ATASE, A. 6/6682, Kls.924, D.8-4, F-l, Ünüvar. Bolşeviklərlə 8 ay s.32

415 Şərq Cəbhəsi III. c.108

416 ATASE, A. 6.66\86, Kls.923, D.2-5, 6, F. 19

417 Şərq Cəbhəsi III. c.108

döyüşlərində könüllülərin könülsüz olduqlarını yaxından görən Azərbaycan qüvvələri gündüz cəbhənin arxasında durur, gecə isə Şahtaxtı körpüsünün başına yığışırdılar. Belə bir ehtimal var idi ki, düşmən Araz keçidlərindən keçərək bu hissənin İran tərəfindəki ağırlıq mərkəzlərinə hücum edə bilər. Buna görə də bir çox quldurların təyziqinə qarşı süvari rotasının çox hissəsini Ərəblər kəndi ətrafına yerləşdirmişlər. Ermənilərin zirehli qatarla hücumunu dayandırmaq məqsədilə Püsyan kəndinin 2 km cənub-qərbində olan və əvvəlcə yandırılmaq istənmiş, ancaq yanmayan taxta körpü yenidən dağıldı. Dəmiryol xəttindəki reyslər çıxarıldı. Düşmənin dəmiryol vasitəsilə türk müdafiə xətləri yaxınlığına qüvvə gətirməsinin qarşısını almaq üçün tədbir görüldü.[418]22-23 iyul gecəsi Təzəkənd keçidi 34-cü alayın 2 batalyonu tərəfindən tutuldu.[419]

Veysəl bəyin fəaliyyəti qrup komandiri Cavid bəy tərəfindən yaxından izlənir, cəbhə və Araz keçidləri məsələsi xatırladılırdı.[420] Bundan başqa, Veysəl bəyə xəbər verildi ki, hissə üçün lazım olan sursat Naxçıvana 54 dəvə ilə yola salınmışdır.[421]Veysəl bəy bir tərəfdən aldığı xəbərlər əsasında işini qaydaya salır,[422] digər tərəfdən də hələ toplanmamış Çivə və Şərur könüllülər batalyonlarının toplanması ilə məşğul olurdu. Ancaq sərf edilən bütün cəhdlərə baxmayaraq, onları toplamaq mümkün olmurdu.[423]

### c) Ermənilərə sülh təklifi

Bolşeviklərin Azərbaycanda idarəetmə sistemini ələ keçirməsi Qızıl Ordu hissələrinin Ermənistan və Naxçıvana doğru gəlməsi xalqı çox həyəcanlandırmışdı. Qızıl Ordunun Azərbaycanda etdiyi vəhşiliklər haqqındakı xəbərlər, Azərbaycan qüvvələrinin verdikləri məlumatlar türk əhalidə qorxu yaratmışdı. Türk hərbi dairələrinin bolşeviklərlə ittifaqa girməsi və Ermənistanın bolşeviklərə qarşı çıxması bölgədə müstəqil və ya İrana bağlı yarım müstəqil bir idarəetmə sistemi yaratmaq məqsədi güdən Naxçıvan xan və beylərini hərəkətə gətirmişdi. Onlar özləri üçün təhlükəli hesab etdikləri türk əsgərləri əleyhinə bir kompaniya yaratmış, erməni daşnakları ilə bolşeviklərə qarşı ittifaq yaratmaq niyyətinə düşmüşdülər. Bu məqsədlə iyul ayının əvvələrində Milli Şura tərəfindən İrəvana bir heyət göndərildi, ancaq

---

[418]ATASE, A. 6/6682, Kls.924, D.8-4, F.l. Ünüvar. Bolşeviklərlə 8 ay.s.32-33

[419]ATASE, A. 6/6682, Kls.924, D.8-4, F.1. Şərq cəbhəsi.III s.108.

[420]ATASE, A. 6/6686, kls.923. D.2-5,6 F.46. Cavid bəy yunanların qərbi Anadoluda etdikləri zülmü protest etmək məqsədilə Mustafa Kamal paşanın hazırladığı bəyannamənin İran və Azərbaycanda nəşr edilməsi üçün Veysəl bəydən lazımi təşəbbüslər göstərməsini tələb edirdi. (ATASE, A. 6/6686, Kls.923, D.2-5-6, F.35)

[421] ATASE, A. 6/6686, Kls.923, D.2-5-6, F.5-2,5-3.

[422] ATASE, A. 6/6686, Kls.923. D.2-5, 6. F.79.

[423] ATASE, A. 5/2793, Kls.814, D.5-9, F.125.

ermənilər onları həbs etdilər, cavab da vermədilər.[424] Çünki onlar naxçıvanlılar ilə sülh bağlamaq deyil, bolşeviklərlə türklər birləşmədən o bölgəni istila etmək istəyirdilər. Naxçıvan rəhbərləri də Ermənistanın sülh bağlaması səbəbini aralarındakı türk əsgərlərində görür və ona görə də müxtəlif siyasətlər aparırdılar. Apardıqları siyasət nəticəsində könüllülər batalyonu ermənilər hücum etmədən dağılmışdı. Beləcə, məğlubiyyətin səbəbini türk hissəsinə bağlayır, xalq arasındakı onların etibarının itirilməsini və regionu tərk etmələrini istəyirdilər.[425] Türk hərbi dairələri məğlubiyyətə və əleyhlərinə aparılan fəaliyyətlərə baxmayaraq, Naxçıvanda qalmağı və regionu qorumağı qərara almışdılar.

Dəhnə boğazındakı məğlubiyyət və Şərur ovalığının ermənilərin əlinə keçməsi, bəlkə də türk dairələrinin təsiri ilə Naxçıvan Milli Şurası öz adından ermənilərə sülh təklif etməyi qərara aldı.[426] İlk dəfə 14 iyulda Həbib xan adında bir naxçıvanlı gizlicə ermənilərin yanına göndərilmişdi,[427] ardınca İrəvana göndəriləcək heyətin hazırlanması üçün mühüm təşəbbüslər göstərilməyə başlandı. Milli Şura özünün seçdiyi şəxslərlə bərabər Ərəblər kəndindəki Babur xanın, Makuda olan bir ingilisin dəəgər varsa, heyətin tərkibində olmasını məqsədəuyğun saymışdı. Buna görə də Maku xanından lazımi köməklik göstərilməsi xahiş edilmişdi.[428]

Naxçıvan heyətinin tərkibində kimlər olduğu və nə zaman İrəvana yola düşməsi haqqında bir məlumat əldə edə bilmədik. Ancaq onu bilirik ki, heyət 19 iyulda Naxçıvana qayıtmışdır. Ermənilərin verdiyi cavabı müzakirə etmək üçün həmin gün axşam Veysəl bəy Naxçıvana dəvət edildi və o, da gecə yarısı şəhərə çatdı.[429] Səhərisi gün Milli Şura toplandı. Şura binasının qabağı qələbəlik idi, xalq nəticəni gözləyirdi. Ermənilərin şərtləri ağır olub, bu maddələrdən ibarət idi.[430]

---

424 ATASE, A. 1/4282, Kls.587, D.16-6, F.17. Ünüvar. Bolşeviklərlə 8 ay, s.24. Əliyev, Cəfərqulu xanın bolşeviklərə qarşı ermənilərlə razılaşmaq üçün təklif etdiyini, bu məqsədlə İrəvandan Əli xan İrəvanski adlı bir şəxsin Naxçıvana gələrək bolşeviklər əleyhinə müqavilə hazırladığını göstərir, ancaq tarix göstərməmişdir. (Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qrulması. s. 19-20).

425 Ünüvar.Bolşeviklərlə 8 ay.s.28-29.

426 Kazım Qarabəkir paşa göstərirdi ki, ermənilərin Dəhnə boğazındakı qələbələri nəticəsində Cavid bəy naxçıvanlılara bir atəşkəs müqaviləsi ilə özlərini qurtarmalarını təklif etdi. Paşa özü də naxçıvanlıların cəbhədən qaçmalarını və erməniləri dayandırmaq və ya aldatmaqla müdafiə və ya atəşkəs üçün vaxt qazanmalarını təklif etmişdi (Qarabəkir. İstiqlal müharibəmiz s.784). Paşa və Cavid bəyin məqsədi vaxt qazanmaq idi. Naxçıvanlıların atəşkəs müqaviləsi işinə Maku xanı və ingilisləri daxil etməsi hər 2 komandiri əsəbləşdirmişdi. Cavid bəy buna görə Veysəl bəyin zabit istəmək təklifini məqsədəuyğun hesab etməmişdi. (ATASE, A. 6/6686, Kls.923, D.2-6. F.19) Erməni təklifləri Naxçıvana çatanda Kazım Qarabəkir paşa bu şərtlərlə atəşkəs və ya sülh bağlamağın Naxçıvanı öz əlləri ilə öldürmək olduğunu Şuraya bildirmişdi.

427 ATASE, A. 5/2793, Kls.814, D.5-9, F.11.

428 ATASE, A. 6/6686, Kls.923, s.1-2, F.27, ATASE, A. 5/2793, Kls.814, s.5-9, F.14

429 ATASE, A. 6/6682, Kls.924. D.8-4, F.1. Ünüvar.Bolşeviklərlə 8 ay, s.30

430 Veysel bəy erməni şərtlərini Asur krallarının kitabələrinə bənzədirdi. (Ünüvar.Bolşeviklərlə 8 ay. s.30)

1. Bütün Naxçıvan regionu Ermənistana ilhaq ediləcək, istəməyənlər istədikləri yerə gedə bilərlər.
2. Şərur qaçqınları öz yerlərinə qayıtmalıdır.
3. Maxta, Quşçu, Dəmirçi, Həmzəli, Dizə, Mahmudkənd, Abbaskənd kəndlərinin müsəlmanları Yengicəyə köçüb orda məskunlaşmalıdırlar.
4. Baş Noraşen, Sarıxanlı, Aşağı Muğancıq, Yuxarı Muğancıq və Qarabürc kəndlərinin müsəlmanlarının bir hissəsi Çapakçur, bir hissəsi də başqa kəndlərdə məskunlaşmalıdır.
5. Naxçıvan Milli Şurası üzvləri arasına türkləri, Vedibasar və Zəngəzur qaçqınlarını və Azərbaycandan gələn əsgərləri daxil etməməlidir.
6. Naxçıvan və Şərur yerli idarələrində müsəlmanlara vəzifə veriləcəkdir.
7. Şəriət məhkəmələri mühafizə ediləcək.
8. İki həftə ərzində müsəlmanlar 50.000 manat dəyərində 300.000 pud buğda, bundan başqa hər pudu 2.000 manat olmaqla 300.000 pud buğda, hər pudu 3.000 manat olmaqla 2 ay ərzində 100.000 pud düyü verməlidirlər.
9. Naxçıvanlılar dəmiryolların təmiri üçün fəhlə verəcəklər.
10. 1919-cu ildə erməni qüvvələrindən zəbt edilən silahlardan başqa hər iki evdən bir silah təhvil verilməklə, 15.000-dən aşağı olmamaq şərti ilə silah təhvil veriləcək.
11. 24 saat içində hərbi hissələr silah, mərmi və s. təhvil verəcəklər.
12. Bu şərtlər tamamilə yerinə yetirilənə qədər hər şəhərdən beş, hər kənddən isə üç nəfər girov verilməlidir.
13. Cavabüçün 60 saatlıq vaxt verilmişdir.[431]

Ermənilərin bu təklifi dərhal Bəyaziddəki Cavid bəyə və oradan da Kazım Qarabəkir paşaya çatdırıldı. Paşa 20 iyulda Naxçıvan Milli Şurasının sədrinə və Naxçıvan qəhrəmanlarına xitabən bir teleqram göndərdi. Teleqramda qısaca belə deyilirdi: Ermənilərlə müqavilə bağlamaq öz əllərimizlə Naxçıvanı məhv etməkdir. Erməniləri İrəvan qapılarına qədər qovan Naxçıvanın qorxmaz və qəhrəman xalqı indi yurdlarının varlığını və rahatçılığını qurban edərək vəhşi daşnakların qadın və uşaq demədən insanları qətl etmələrinə razı olacaqlarmı? Daşnakların istədiklərini bir dəfə daha diqqətlə oxuyun, onlar hər şeydən əvvəl, sizin silahlarınızı istəyir. Silahlarınızı verdikdən sonra nə edəcəklərini görərsiniz. Ümid edirəm ki, içimizdə bir kişinin namus və şərəfi sayılan silahı öz arzusu ilə düşmənə təslim edəcək

[431] Erməni şərtləri 18 maddədir. (ATASE, A.6/6686, Kls.923, D.1-2, F.41. Ünüvar. Bolşeviklərlə 8 ay, s.30-31)

kimsə yoxdur. Ermənilərin qüvvə və qüdrəti olsaydı, sizinlə razılaşıb silahlarınızı sözlə almaq istəməzdi. Qüvvəsinə güvənərək əsgəri ilə istədiyini edərdi. Müttəfiqlərimiz Azərbaycan və rus Qızıl Ordusu Zəngəzurun ortalarına qədər irəliləmiş, daşnak lideri Dro məğlub olaraq qaçmışdır. Bu qüvvələr İrəvana doğru getməyə hazırdır. İndiyə qədər sizlərlə can və vətən dostluğu edən əsgərlərimiz də hazırdır. Bu 2 qüvvənin arasında qalan daşnaklar iki gün sonra başlarına gələcək fəlakəti fikirləşərək qorxularından titrəyirdilər. Heç olmazsa sizləri inandırıb, sözlə əlinizdəki silahları almağa və ağıllarınca aramızı pozmağa çalışırlar. Buna aldanmayın. "Sizə azadlıq verəcəyik", - deyən daşnakların sözlərinə inanmayın və o qatillərə üz verməyin. Daşnaklara bu cavabı verin, sonra Görüşdəki qardaşlarınıza xəbər göndərin onlara ermənilərin etdikləri zülmləri deyin. Təcili onlardan yardım istəyin. Siz heç vaxt daşnakların qabağında tək qalmayacaqsınız və əlimizdən gələni edəcəyik. İnsanlığın düşməni olan daşnakların başını əzəcəyik. Son saatlarının yaxınlaşdığını başa düşən və canlarının qorxusundan hər tərəfə hücum edən daşnakların planlı hədələmələrinə inanmaym. Hamınızdan bunu gözləyirəm. Bu günə qədər namus və şərəflərini silahları ilə mühafizə edən fədakar və qəhrəman naxçıvanlılar şübhəsiz, belə edəcəklər. İçinizdə fitnə-fəsad törədən və sizi qorxutmaq istəyən varsa, onları dərhal aranızdan çıxarın. Batalyonlarınızı möhkəmləndirin. Təlim və nizamlanma ilə məşğul olun. Yaxınlardagörüşə gələcək Xəlil paşaya vəziyyəti bildirin. Hamınıza salamlarımı yetirirəm.[432]

Kazım Qarabəkir paşanın xəbərdarlıqları və təklifləri Naxçıvana çatdı. Bu vaxt erməni şərtlərinə görə şəhər və bilavasitə Milli Şura şok vəziyyətində idi. Bununla əlaqədar Veysəl bəy demişdi: "Ermənilərin qəbul edilməsi imkansız olan şərtləri siyasətçiləri narahat etmişdir. Xalq qəzəblənmiş vəziyyətdə idi. Cəhrili 80 yaşlı, vətənpərvərliyi ilə məşhurlaşan Kərbəlayı Kərəm adlı bir şəxs silaha sarılmış vəziyyətdə salona girdi. Heç kimdən söz almağı lüzum görmədi, açdı ağzını, yumdu gözünü, üzvlərə demədiyi qalmadı. Hamı quzu kimi susdu. Ondan sonra üzvlərdən biri Kərbəlayı Kərəm düz deyir, - deyə danışmağa başladı.[433] Müzakirələr həyəcanlı şəkildə davam edirdi. Veysəl bəy söz aldı. İlk əvvəl milli müdafiənin necə aparılmasına aid qərar qəbul edib və dərhal icrasına başlamaq lazım gəldiyini deyən Veysəl bəy təklif etdi ki, könüllülər komandanlığına general Həbib Səlimov təyin edilsin, hərbi vəziyyət elan olunsun, Naxçıvan və Şərurda idarə heyətləri qurulsun və nəqliyyat arabaları ilə dağılan əsgərlər toplansın.

---

[432]ATASE, A.6/6686, Kls.923. s.1-2, F.40.

[433] Ünüvar.Bolşeviklərlə 8 ay, s.31.

Şura heyəti təklifi ürəkdən qəbul etdi və icrasına başladı.[434] Bu vaxt ermənilərə veriləcək cavab müzakirə olundu və nəticədə bir çox qərarlar qəbul edildi:

1. Dəhnəboğazından Ordubada qədər olan hissədə müsəlman əhaliyə azadlıq verərlərsə, bu bölgənin Ermənistanın ayrılmaz bir parçası olduğunu qəbul edirlər;

2. Bu məsələnin həlli üçün İrəvanda müəyyən olunmuş bir gündə iki tərəfin nümayəndələri arasında və müttəfiq hökumət elçilərindən birinin sədrliyi ilə müzakirələr keçirilsin;

3. Ermənihökuməti şərtlərimizi qəbul edərsə, o vaxt sülh bağlanıncaya qədər atəşkəs elan edilsin;

4. Təklifolunan şərtlərin qalan 15 maddəsinə hələlik cavab verməyib, ilk maddə ilə bağlı İrəvanda keçiriləcək görüş zamanı bu məsələyə baxılsın.[435]

Naxçıvan camaatı müstəqilliyini itirəcəyini gördükdə dərhal hərəkətə başladı. Ermənilərin təkliflərinin əksinə qərar qəbul etdiyi kimi Veysəl bəyin vətənin müdafiəsi üçün təkliflərini də qəbul etmişdi. Naxçıvan Milli Şurası ilə münasibətlərin düzəlməsinə Veysəl bəy sevinirdi.[436] O, çox şən halda Naxçıvandan ayrıldı. Ancaq getdikdən 2 gün sonra Naxçıvanda baş verən 2 hadisə onu narahat edirdi. Bunlardan birincisi, Naxçıvan əhalisinin İranla birləşmək istəməsi ilə bağlı idi. Naxçıvandakı kapitan Kamal bəyin verdiyi məlumata görə, bölgə İrana birləşərsə, Maku xanın qüvvə və siyasi yolla ermənilərə qarşı çıxacağı barədə xəbər şəhərdə yayılırdı. Maku xanın oğlu Qulu xan da Naxçıvanda idi. Bundan başqa, ingilis nümayəndələrinin Naxçıvana gəlmək üçün İrandan yola düşməsi xəbəri xalq arasında yayılmışdı.[437] İkinci hadisə ilə bağlı xalq arasında yayılan xəbər doğru çıxmışdı. Naxçıvana gələn ingilis teleqraf agentliyi əməkdaşları buraya yenə bir telefon qoymuşdular. Bu xəbəri eşidən Veysəl bəy möhkəm əsəbiləşmişdi. Dərhal (23 iyui) Milli Şuraya və Naxçıvandakı türk hərbi nümayəndəsi

---

[434] Əsgərlərin toplanması üçün səlahiyyətli şəxslər müəyyənləşmiş və vəzifə bölgüsü aparılmışdı. Ancaq Veysəl bəyin özü qeyd edirdi ki, Naxçıvandan Şahtaxtıya getdiyi vaxt səlahiyyətli şəxslər mehmanxananın çayçısında nərd oynayırdılar. (ATASE, A. 6/6682, Kls.924, D.8-4, F. 1. Ünüvar. Bolşeviklərlə 8 ay, s.32).

[435] Ermənilərə verilən cavabın altında Naxçıvan Milli Şura sədri Cəfərqulu xanın imzası var idi. (Ünüvar, Bolşeviklərlə 8 ay, s.31-32). Məsələ ilə əlaqədar Tiflisdə çıxan "Yeni dünya" qəzeti Ermənistan qəzetlərindən "Araç"a istinad edərək bu məlumatı verir: Naxçıvanın Ermənistana döyüşsüz ilhaq etməklə əlaqədar Naxçıvan müsəlman nümayəndələri ilə müzakirəyə başlamışlar. "Araç" qəzetinə verdiyi məlumata əsasən nümayəndələr Naxçıvana qayıdıb erməni hökumətinin şərtlərini əhaliyə bildirdilər. Sonra qəbul etmədilər. Buna görə də ermənilər və müsəlmanlar arasında qanlı vuruşmalar gedir. Erməni qoşunu Naxçıvandan 30 verstlik məsafədədir. "Yeni dünya" (Tiflis) 30 sentyabr 1920. №7.

[436] 23 iyulda Veysəl bəy Şuraya bildirdi ki, İran tərəfə keçən mühacirlərdən Vedibasar, Əfşar, Şidli və Xalsa əhalisi Naxçıvan tərəfə keçmək istəyir. 2000 ev olan bu mühacirlər Naxçıvan ilə Qıvraq arasındakı kəndlərdən hansında yerləşdiriləcəksə, orada işlərin tənzimlənməsi üçün bir heyət göndərilməsini Veysəl bəy tələb etmişdi. ATASE, A. 6/6686, Kls.923. s.2-5.6.F-89.

[437] ATASE, A.6/6686, Kls.923, s.1-2, F.59-2.

Kamal bəyə teleqram göndərən Veysəl bəy bu saat telefonu götürərək türk ATS-nə qoşulmasını tələb etdi. İngilis telefonu götürülməzsə, Kamal bəy telefon üçün cavabdeh olan ingilisi həbs edəcəkdi.[438]

### 7) Şahtaxtının işğalı

Ermənilərin Naxçıvana verdikləri müddət iyulun 22-də qurtarırdı və Veysəl bəyə görə, ermənilərə edilən təklifdən əldə etdiyi vaxtda hissələr yaxşı istifadə etmişdi. Şahtaxtı ətrafını möhkəmləndirmişdilər.[439] Ancaq indi verilən müddət bitmişdi və ermənilər sərhəd boyunca yavaş-yavaş fəaliyyətə başlamışdılar. 22 iyulda Püsyan kəndinin 2 km şimalındakı türk kəşfiyyat hissələrinə zirehli qatardan, top və pulemyotlardan atəş açan ermənilər səhərisi gün yenə Püsyan kəndindəki könüllüləri atəşə tutmağa başladılar.[440] Əks-hücum nəticəsində erməni zirehli qatarı geri çəkilmiş, ancaq 70-ə qədər erməni piyadası 4 topdan açılan atəşlə Təzəkəndə hücuma başlamışdı. Üstün düşmən hücumu qarşısında bu kənddə olan Nehrəm batalyonu və süvariləri 3 şəhid, 12 yaralı verərək geri çəkilməyə məcbur oldular. Təzəkənd işğal edilmişdi. Bu vaxt Qıvraq kəndində olan atlı milis dəstəsi hər hansı bir əmr olmadan Püsyan istiqamətində hücuma keçdilər. Veysəl bəy bu məsələ ilə bağlı bunları demişdir: "Bu hərəkətin məqsəd və qayəsini öyrənmək məqsədilə Həbib paşanın döyüşü idarə etdiyi yerə getdim. Paşa da milislərin nə etdiklərini və düşmənin vəziyyətini hələ öyrənməmişdi. Milislər plandan kənar irəli getmişdilər. Geniş ovalıq cıdır meydanına dönmüşdü. Silah səsi yox, düşmən yox, skif üsulu ilə hücum təlimi aparırdılar. Arabir gələn məlumatlarda ancaq bu cümlə var: "Davanın şirin yerindəyik, döyüş sursatı göndərin! 30 qutu döyüş sursatı aldıqları halda hələ də döyüş sursatı istəyən və əllərindəki materialları boş-boşuna sərf edən milislər ermənilərin atəşlərindən dərhal geri çəkilməyə başladılar.[441]

İyul ayının 24-də səhər ermənilər Püsyan kəndinin cənubuna zirehli qatarlar vasitəsilə yaxınlaşmağa başladılar, ancaq səhra və dağ batalyonlarının atəşi nəticəsində geri çəkilməyə məcbur oldular.[442] Ancaq ardınca

[438] ATASE, A. 6/6686, Kls.923, D.2-5,6, F.76.

[439] Ünüvar.Bolşeviklərlə 8 ay. s. 30-32.

[440] ATASE, A. 6/6682, Kls.924, D.8-4, F.1, ATASE, A. 6/6686, KIs.923, D.2-6, F.75-1. Erməni hücumu başladığı vaxtlarda Şahtaxtıda sıxıntılı günlər yaşanırdı. Türk hərbi hissəsində qızdırma xəstəliyi yayılmışdı. 30-a yaxın əsgər Bəyazidə göndərildi. 23 iyulda 20 əsgər Şahtaxtıdakı xəstəxanaya aparıldı. Cavid bəy Kazım Qarabəkir paşaya təklif edirdi ki, Qızıl Ordu birlikləri Naxçıvana gəldikdən sonra Şahtaxtıda bir batalyon saxlasın, qalanlarını Bəyazidə göndərsin (ATASE, A.5/2793, Kls.814, D.5-9, F.159).

[441] ATASE, A.6/6682, Kls.924, D.8-4, f-1, 1-1, ATASE, A.5/2793, Kls.814, D.5-9, F.116, Ünüvar.Bolşeviklərlə 8 ay. s.33. Şərq cəbhəsi III c.s.108.

[442] Ermənilərin Şahtaxtıya hücumları ilə əlaqədar Kazım Qarabəkir paşa 24 iyulda Cavid bəydən Naxçıvana irəliləyən bolşevik qüvvələrinə ermənilərin Şahtaxtıya hücum etdiyini bildirilməsini və xalqın zülmdən qurtarılması üçün onların dərhal Şahtaxtıya gəlməsinin təmin edilməsini tələb etdi (ATASE, A.5/2793, Kls.814, D.5-9, F.167).

2000 piyada, 200 süvari və 8 topdan ibarət bir erməni qüvvəsi Daşarx və Püsyan arasındakı Qabıllı-Qıvraq və Püsyan-Təzəkənd istiqamətində cənubi-şərqə şose yolu ilə və Araz çayı boyu irəliləməyə başladılar. Ermənilər türk qüvvələrinə xeyli yaxınlaşdıqdan sonra könüllülərə yüngülcə atəş açdılar. Türk qüvvələrinin 2 səhra topu var idi, onlara qüvvətli atəş aça bilmədilər. Düşmənlər cəbhəyə lap çox yaxınlaşdıqda, könüllülər belə yaxın döyüşü davam etdirməyib geri çəkildilər. Həbib Səlimovun nə etdiyi haqqında məlumat yox idi. Hissə öz başının çarəsinə baxmalı idi. 34-cü alayın 1-ci batalyonu hər ehtimala qarşı sağ qanadın arxa tərəfinə keçirildi. Erməni piyadaları Qabıllı-Qıvraq xəttinə qarşı irəliləyirdi. Piyadaları geri çəkdirərək topçu hissəsini səngərlərin yanına gətirdilər və buradan düşmən piyadalarına açıq şəkildə atəş açmağa başladılar. Bu vaxt Veysəl bəy milis komandiri Həbib Səlimovun yanına əmr-zabiti Asim bəyi göndərərək bildirdi ki, könüllülər Şahtaxtının şimalındakı ikinci xətti dərhal tutsun.Amma Asim bəy aldığı əmri çatdırmamış könüllülər Şahtaxtını tamamilə tərk etmişdilər.

Hücumlarını davam etdirən erməni qüvvələri Qıvraq kəndini ələ keçirib və yandırmışdılar. Qaçqınlar yenə Şahtaxtı körpüsünün başına yığışmağa başladılar. Türk hissələri böyük qəhrəmanlıqla ermənilərə qarşı döyüşürdülər. Qıvraqdan Şahtaxtıya doğru irəliləyən üstün erməni qüvvələrinin sağ qanaddakı səngərləri ələ keçirməyə başladığını görən Veysəl bəy qrup komandanlığından aldığı əmrə əsasən geri çəkilməyi qərara aldı.[443] Yollar və Şahtaxtı körpüsü könüllülər və qaçqınlarla dolu olduğundan türk hissəsinin geri çəkilməsi çox çətin idi.[444] Türk qüvvələri bir müddət körpü başında qaçqınların rahat keçməsi və ermənilərin hər hansı bir hücumunun qarşısınıalmaq üçün təhlükəsizlik tədbiri gördü və sonra özləri də körpünü keçərək,[445] İran tərəfdəki Ərəblər kəndinin qərbində yerləşən düşərgəyə gəldilər.[446]

25 iyul səhərindən etibarən ermənilər heç bir müqavimət görmədən Şahtaxtını işğal etdilər. Beləcə Vedibasardan başlayan erməni hücumu Şahtaxtıda sona çatdı və bütün bu bölgələr istila edildi.

---

[443] Kazım Qarabəkir paşanın 3 avqust 1920-ci ildə baş ştaba göndərdiyi teleqramda Şahtaxtı ətrafındakı döyüşdə türk hərbi hissəsinin 1 şəhid verdiyini və 4 yaralı olduğunu, 1 yaralı əsir və 1 nəfərin itkin düşdüyünü bildirirdi. (ATASE, A, 1/4282, Kls 587, D.116-6, F-20).

[444]ATASE, A, 6/6682, Kls.924, D.8-4, f.1-1; ATASE A.5/2793, Kls. 814, D. 5-9, F.165,166; Ünüvar, Bolşeviklərlə 8 ay. s.33-34; Şərq cəbhəsi III c. s.108-109.

[445] Şahtaxtı hərbi hissəsinin İran tərəfinə nə vaxt keçməsi haqda müxtəlif zidd fikirlər mövcuddur. Veysəl bəy xatirələrində İran tərəfinin keçməyə izin verdiyini və türk hissəsinin də mühacirlərin keçməsini gözlədiyini, 25 iyulda saat 13.00-dan sonra İran tərəfə keçməyə başladıqlarını göstərmişdir (Ünüvar. Bolşeviklərlə 8 ay, s.34-35).24və24-25 iyul tarixli məlumatlarında saat olaraq "10" göstərilmişdir. (ATASE A.6/6682.Kls.924.D.8-4, F.1-1; ATASE A5/2793,Kls.814,D.5-9,F.165).

[446]ATASE, A. 5/2793, Kls.814, D.5-9, F.-165, ATASE, A. 6/6686, Kls.924, D.8-4, F.1-1, ATASE, A. 1\4282, Kls.587. s. 116-6, f.21, 21-l; Ünüvar, Bolşeviklərlə 8 ay, s.34-35, Şərq cəbhəsi, III s. 109.

Ermənilər həmişə elədikləri kimi ətraf kəndlərdəki müsəlmanları incitməyə başlamışdılar, hətta vəziyyətdən xəbərləri olmayan, İrana keçmək məqsədilə Şahtaxtıya gələn 500 nəfərdən ibarət bir müsəlman dəstəsini tamamilə məhv etmişdilər.[447] Alınan məlumatdan bəlli olurdu ki, ermənilərin içərisində ingilis, gürcü və denikinçilər var idi. Cavid bəy hissə komandirlərindən ermənilərin etdikləri zülmləri və vəziyyəti dərhal Qızıl Orduya bildirməsini tələb etdi.[448]

Şahtaxtının işğalı türk hərbi dairələrinin planları baxımından heç də xoş bir irəliləyiş olmadı. Şahtaxtının işğalı Türkiyə və Azərbaycan arasında bir müddət əlaqənin kəsilməsinə, Qızıl Ordu hissələri ilə əlaqələrin zəifləməsinə səbəb olmuşdu.[449] 25 iyul 1920-ci ildə Kazım Qarabəkir paşa TBMM sədrliyinə teleqram göndərmiş və bu teleqramda Şahtaxtı hadisələri haqqında məlumat vermiş, Çiçerinin məktubuna əsasən ermənilərin bu irəliləyişinə qarşı bir cavab verilmədiyini, ancaq ingilis siyasətinə alət olaraq türk və rus qüvvələri arasındakı əlaqəyə mane olmağa çalışan ermənilərə qarşı müştərək bir əməliyyat aparılmasının yararlı olduğunu biidirdi. O, belə bir təklif də irəli sürürdü ki, Naxçıvana gələcək rus Qızıl Ordu hissələri Şahtaxtıya hücum etsin və türk qüvvələrindən yardım istəsinlər. Yaxud da bütün cəbhələrdə ermənilərə qarşı hücum üçün bolşeviklərlə ortaq əməliyyat aparılsın. Bunun qəbul edilməsi üçün Rus Sovet hökumətinə və Moskvadakı heyətimizə məktub yazılmasının vacib olduğunu bilirdi.[450]

TBMM-nə regiondakı hadisələr haqqında məlumat verib, bir çox ricalar edən Kazım Qarabəkir paşa, digər tərəfdən 28 iyulda Sağ Cinah qrupu komandanlığına Şahtaxtı ətrafında görülməsi vacib olan işlərlə əlaqədar göstəriş verdi. Buna əsasən ermənilərin Arazın cənubuna keçmələrinin qarşısını almaq üçün çaydakı keçid yerləri nəzarət altına alınmalı və Şahtaxtı körpüsünün ermənilər tərəfindən dağıdılmaması üçün lazımi tədbirlər görülməli idi. Qaçqınların uzaq bölgələrə getmələrinin qarşısı alınmalı və əli silah tutanlardan dəstələr yaradılmalı və Arazın kənarına göndərilməlidir. Ermənilər hücum edərlərsə, Qızıl Ordu ilə razılaşmasalar belə onlara kömək ediləcək və Şahtaxtı geri alınacaqdı.[451] Kazım Qarabəkir paşadan aldığı göstərişi Cavid bəy həmin gün Veysəl bəyə təqdim etdi. Xüsusilə, Şahtaxtı körpülərinin mühafızəsi üçün ətraflı əmrlər verdi. Körpünü atəş altında saxlamaq üçün pulemyotlarin yerləşdirilməsini tələb etdi.[452] 29 iyulda

---

[447] ATASE, A. 1/4282, Kls.587, D.116-16, F.21, ATASE, A. 6/6686, Kls.923, D.1-2, F.63-2, Ünüvar, Bolşeviklərlə 8 ay, s.35, Şimşir, Atatürk, s. II s.300; Şərq cəbhəsi III.s.109

[448] ATASE, A.6/6682, Kls.923, D.2-5.6, F.102.

[449] ATASE, A.l/4282, Kls.586, D. 115-35, F.17. Şərq cəbhəsi III c. s.109-110.

[450] ATASE, A.l/4282, Kls.586, D.115-35, F.17.

[451] ATASE, A.5/2793, Kls.814, D.5-9, F.245, ATASE, A. 6/6686, Kls.923, D.2-5, 6, s.122.

[452] ATASE. A.6/6686, Kls.924, D.6-1. F.2-11. Ünüvar, Bolşeviklərlə 8 ay, s.35-36.

Veysəl bəy Cavid bəyə cavab verdi. Türk hərbi dairələri arasındakı telefon danışıqları iranlılar tərəfindən dinlənilərək ermənilərə xəbər verilirdi. İran hökumətinin Xoy tərəfindən gətirdiyi 40-a qədər əsgər ilə keçmiş Vedibasar komandiri Mustafa Kamal Əfəndinin əsgərləri Şahtaxtı körpülərini mühafızə edirdi. Erməni komandirləri hər gün Ərəblər kəndindəki Babur xanın yanına gedib gəlirdilər. Körpü yanında və Ərəblər kəndində bir fəaliyyət erməniləri şübhələndirə bilərdi. Hissənin gördüyü ən kiçik işlər haqqında belə ermənilərin məlumatı olduğundan onlar möhkəmləndirilmiş bölgələrinə gəlib türk əsgərlərinin təhlükəsizlik üçün gördükləri işlərə baxacaqdılar.Belə bir vəziyyətin qarşısını almaq məqsədilə ermənilərin İran tərəfə keçmələri qadağan olunmalı idi. Təzəkənd, Ərəblər və Yengicə kəndləri arasındakı əraziyə Yusif Çavuşun əmri altında olan 204 əsgər nəzarət edirdi və mühacirləri toplamaqla məşğul olurdular.İrana keçən qaçqınların silahları İran hökuməti tərəfindən yığılırdı.[453]

Şahtaxtının ermənilərin əlinə keçməsi və bölgədəki müsəlman əhalinin İrana köçməsi Naxçıvan şəhərində qorxu və həyəcan əmələ gətirmişdi.[454]Naxçıvan əhalisi müdafıə hazırlıqları yerinə şəhəri tərk etməyə başladılar.[455] Naxçıvanlıların qorxusu yersizdi.Çünki ermənilər Naxçıvan şəhərinə hücuma başlamamışdılar. Ermənistanın baş naziri H.Ohançanyanın fıkrincə, Ermənistandakı siyasət və müharibə şəraitində hökumət Naxçıvandakı hərbi fəaliyyəti dayandırmağa məcbur olmuşdu.[456] KazımQarabəkir paşanın fıkrincə, ermənilərin Naxçıvana hücumu 2 səbəbdən mümkün deyildi. Birincisi, dəmiryolu dağıldığından erməni zirehli qatarları hərəkət edə bilməyəcək və buna görə də digər hissələri möhkəmləndirmək mümkün olmayacaq. İkincisi, türk hərbi dairələri Naxçıvandakı təhlükəyə çox diqqət çəkir Qızıl Ordu hissələri sürətlə cənuba doğru irəliləyirdi. Bundan xəbəri olan ermənilərin Ərəblərdəki türk hərbi hissəsini nəzərə almadan Naxçıvana hücum etməsi mümkün deyildi.[457] Ermənilərin hərəkət etmədiyini görən

---

[453] ATASE, A.6/6686, Kls.924, D.6-1, F.2-12.

[454] Erməni qüvvələri Naxçıvanın 32 km-də idilər.Yeni Dünya .Tiflis, 30 sentyabr 1920, №7)

[455]ATASE,A.l/4282,Kls.587.D.116-6,F.21-1,ATASE,A.5/2793,Kls.814,D.5-9,F.216.Ünüvar. Bolşeviklərlə 8 ay, s.35. 24 iyul axşam saat 21-00-da Şahtaxtının işğalı xəbəri Naxçıvanda eşidildi. Əhalidə böyük bir qorxu yarandı. Əhali köçməyə qərar verdi. Milli Şura tərəfindən köçmənin qarşısını almaq üçün polislərə əmr verilmiş, ancaq xalq səhərə yaxın şəhəri tərk etməyə başladı. Əhalinin İrana köçməsindən istifadə edən bir çox adamlar dükanları qarət edir, bir çox adamları öldürürdülər. Qaraçuğ və Bulqan kəndliləri də öz bölgələrindən keçən qaçqınların qabağını kəsmiş, bir hissəsini öldürmüşlər.Araz çayında 100 nəfərə qədər itki verməklə 200-dən çox əhali İran tərəfə keçmiş və burada sıxıntılara, təzyiqlərə məruz qalmışdılar.

[456] Şimşir. Atatürk II c. s.300

[457]ATASE, A. 1/4282, Kls.587, s.116-6, F.17-3. Qızıl Ordu hissələrinin Gorusda görünməsi və ermənilərə hücumu Naxçıvanı böyük bir təhlükədən qurtarmışdı. (Şərq cəbhəsi III, s.104) Ümumi hərbi rəis İsmət bəyin bu məsələ haqqında fikri fərqlidir. O, 30 iyulda Şərq cəbhəsi komandanlığına və 4 avqust 1920-ci il tarixli TBMM-nə göndərdiyi məlumatlarda bildirir ki, Qızıl Ordu ermənilərin Naxçıvana hücum etməsinə laqeydcəsinə baxır. (ATASE, A. 1/4282, Kls.587, s.116-1, F.13,21) Digər tərəfdən ermənilərin imkan ola-ola Naxçıvanı işğal etməmələri 2 tərəf arasında müəyyən sərhəd daxilində bir müqavilə bağlandığını göstərir. Ermənilər və bolşeviklər arasında belə bir müqavilə yoxdu. İki tərəf

Naxçıvan Milli Şurası dərhal hərəkətə başlayaraq nümayəndələrini İrəvana göndərdi. İrəvandan Şahtaxtıya qayıdan Naxçıvan heyəti 28 iyulda general Şelkovnikov ilə danışıqlara başladı. Naxçıvan heyətinə mənsub Rəhim xanın oğlu İsgəndər xan və Heydərqulu bəy Milli Şura sədri Cəfərqulu xana işlərin normal getdiyini və yaxında Naxçıvana gələcəklərini bildirən bir məktub yazıb Babur xana verdilər.[458]

Yerasimov göstərirdi ki, 28 iyul görüşləri zamanı müsəlmanlar və ermənilər arasında bağlanmış müqaviləyə əsasən Şərur əhalisi bölgədən çıxarılmış və yerlərinə erməni qaçqınları yerləşdirilmişdi.[459] Ancaq 28 iyulda çoxdan gözlənilən bolşevik qüvvələri (28-ci diviziyaya aid 1 Qafqaz süvari alayı) Naxçıvana gəlmişdi və komandiri 29 iyulda ermənilərə ultimatum verdi və tələb etdi ki, Şahtaxtıdan çəkilsinlər və müzakirə üçün Naxçıvana nümayəndə göndərsinlər.[460] Deməк, Naxçıvan Milli Şurası nümayəndələri, əgər bir müqavilə bağlamış olsalar da belə, bu müqavilənin etibarı qalmamışdı. Bolşeviklərin ultimatumu müqabilində ermənilər də Naxçıvan Milli Şurasına 31 iyulda günorta vaxtı bir ultimatum verərək təslim olmadıqları təqdirdə hərbi əməliyyatlara başlayacaqlarını bildirdilər. Bu məqsədlə Qızıl Süvari alayı ilə bərabərNaxçıvana gələn Xəlil paşa Ərəblər kəndinin ətrafındakı türk hərbi hissəsinin təcili Naxçıvan şəhərinə gəlməsini istəyirdi. Kazım Qarabəkir paşanın razılığı ilə 31 iyulda Naxçıvana yola düşdü[461] və 1 avqust axşamı Naxçıvan şəhərinə gəldi.[462]

## 8. Naxçıvandakı Azərbaycan hərbi qüvvələri və onların Türkiyəyə gətirilməsi məsələsi

Bakıda idarəetmə sisteminin dəyişməsi və iqtidara bolşeviklərin gəlməsi ilə Qızıl Ordu Azərbaycanda hakimiyyəti qurmağa başlamış və bu vaxt keçmiş Azərbaycan Cümhuriyyətinin hərbi hissələri ilə bir sıra

---

arasında 10 avqustda bir müqavilə bağlanmışdı. (ATASE, A. 6/6686, Kls.924, s.6-1, F-16-1,5; Nassibian Armenian Question,s.205; Selahi. R.Sonyel Türk qurtuluş savaşı və xarici siyasət II, Ankara, 1986, s.27). Ancaq Yerasimosun Naxçıvana gələn Qızıl Ordu süvari alayı komandiri V.Tarhovun xatirələrindən aldığı məlumata əsasən ("Voennıy vestnikn" jurnalı, 15 aprel 1922 №8,) Ancaq bu jurnalı əldə edə bilmədik). Qızıl Ordu alayı Şahbuza gəlmiş, 3-cü günü Şahtaxtı hadisələrindən xəbər tutmuş və sürətlə hərəkət edərək 28 iyulda Naxçıvana gəlmişdi. (S.Yerasimos, Türk sovet münasibətləri oktyabr inqilabından Milli mübarizəyə, İstanbul, 1979 s.164) Bu cəhətdən vəziyyət maraqlıdır. Türk hərbi dairələri Şahtaxtı hadisələri haqqında fasiləsiz məlumat verir, Qızıl Ordu hissələrinin 40-45 km uzaqda yerləşib hadisələrdən xəbərdar olması imkansız idi. Qızıl Ordu alayı ya Şahbuzda 3 gün qalmadı və ya Şahtaxtı xəbərlərini eşitdiyi halda maraqlanmadı.

[458] ATASE, A. 6/6686, Kls.924, D.6-1, F.2-12. Bu heyət 31 iyulda axşam Naxçıvana qayıtmışdı. (Əliyev, Qanlı günlərimiz, s.131).

[459] Yerasimos .Millətlər və sərhədlər, s.337.

[460] ATASE, A. 6/6686, Kls.924, D.6-1, F.2-12, ATASE, A. 5/2793, Kls.814, D.5-9, f.266. Qarabəkir. İstiqlal müharibəmiz s.787. Şərq cəbhəsi III, s.110, Qızıl süvari alay komandanlığının ermənilərə verdiyi ultimatumun 27 iyul tarixli olduğu göstərilir. Bolşeviklərin 28 iyulda gəlməsi dəqiqdir. Çox güman 27 iyul tarixi səhvdir.

[461] ATASE, A. 5/ 2793 , kls 814. D. 5-9 F.278. ATASE, A.6/6686, Kls.924, D.6-1.F.2-13, ATASE A.1/4282. Kls.587. D.116-6. F.14. Ünüvar.Bolşeviklərlə 8 ay, s.37. Şərq cəbhəsi III, s.110

[462] TBMM . Z.C. Devrə 1. 3c. s. 208. Ünüvar.Bolşeviklərlə 8 ay,s. 38,40. Şərq cəbhəsi III, s.110-111

vuruşmaları olmuşdu. Nəticədə Qızıl Ordu qarşısında dayana bilməyən Azərbaycan qüvvələrinin çox hissəsi dağılmış, bir sıra hissəsi də Qızıl Ordunun qabağından qaçaraq İrana və Naxçıvana doğru çəkilməyə başlamışdı. Əslində bolşeviklərə məğlub olaraq əmri altındakı qüvvələrlə bərabər Ordubad yaxınlığındakı Xudafərin körpüsünə gələn Nuri paşa Xəlil bəy ilə yazılı əlaqə saxlamağa başladı və Naxçıvana gəlib-gəlməyəcəyini soruşdu.[463] Bir müddət sonra Nuri paşa əmri altındakı bir süvari alayı Naxçıvana gəldi, Qarabağ bölgəsinin keçmiş komandiri və Azərbaycanın baş ştab komandiri general Həbib Səlimov da onu müşayiət edənlərlə bərabər Ərdəbil-Təbriz yolu ilə Naxçıvana gəldi.[464] Daha əvvəl gələnləri də nəzərə alsaq, iyul ayının əvvələrində Azərbaycan qüvvələri 1 süvari alayından, bir piyada batalyonundan, bir batareya və bir çox zabitdən ibarət idi.[465]

Türk hərbi dairələri millətçi Azərbaycan qüvvələrinin Naxçıvana gəlməsindən çox narahat idilər. Çünki Qızıl Ordunun müəyyən bir hissəsinin Naxçıvana gəlməsi nəzərdə tutulan bir vaxtda Azərbaycan əsgərlərinin də burada olması böyük bir təhlükə yarada bilərdi. Onlarla bolşevik qüvvələrinin Naxçıvanda qarşılaşması yenə müharibəyə səbəb olardı. Bundan başqa, Azərbaycan qüvvələrinə güvənən regiondakı nüfuzlarını itirmək istəməyən xan və bəylər ermənilərlə də razılaşaraq bolşeviklərə qarşı bir blok yaratmağı nəzərdə tutardılar. Əslində bunu nəzərdə tutmuşdular. Türk-hərbi dairələri haqlı çıxmışdı.[466] Buna görə dəAzərbaycan qüvvələrini Anadoluya gətirdərək əsaslı qarışıqlıqların aradan qaldırılması məsələsi gündəlik məsələyə çevrildi. Kazım Qarabəkir paşa bununla əlaqədar məlumatları baş ştaba göndərdi. 6 iyulda İsmət bəy Kazım Qarabəkir paşaya göndərdiyi teleqramda Azərbaycan ordusu haqqında məlumat istədi və onların ən yaxın vaxtda Türkiyəyə gətirilməsini xahiş etdi.[467]

Ancaq Naxçıvandakı Azərbaycan qüvvələri Türkiyəyə gəlmək niyyətində deyildilər, digər tərəfdən də bu orduya istinad edərək bolşeviklərə qarşı çıxmaq istəyən Naxçıvan Milli Şurası bu Azərbaycan qüvvələrini bölgədə saxlamaq istəyirdilər. Veysəl bəy çox narahat idi. Buna görə də Sağ Cinah qrupu komandanlığına göndərdiyi 10 iyul tarixli teleqramda yazırdı: "Hazırkı vəziyyətə əsasən Azərbaycan qüvvələrinin Şərq cəbhəsi əmrinə göndərilməsi bizə olan etimadı artıracaqdır. Əhalinin bu qüvvələri burada

---

[463] ATASE, A. 1/4282, Kls.586, D.l 14-34, F.70-1, 52. Qarabəkir. İstiqlal müharibəmiz, s.771

[464] Qarabəkir. İstiqlal müharibəmiz, s.780. Şərq cəbhəsi III, c. 104

[465] Ünüvar, Bolşeviklərlə 8 ay.s.24. Şərq cəbhəsi, III, c.104

[466] ATASE, A. 1/4282, Kls.587, D. 116-6, F.17 Qarabəkir. İstiqlal müharibəmiz. s.783. Ünüvar, Bolşeviklərlə 8 ay s.24, Şərq Cəbhəsi III, s.102

[467] ATASE, A.1/4282, Kls.586, D.115-35, F.2

saxlamaq istəməsinə qarşı zor işlətməyə və qəti surətdə mane olmağa əmr verilə bilərmi?”.[468]

Həmin gün Kazım Qarabəkir paşa sərt və qəti cavab verdi. Azərbaycan qüvvələrinin nəyin bahasına olursa-olsun Naxçıvanda qalması məqsədə uyğun deyildi. Çünki bolşeviklərə qarşı çıxa bilərdilər, bu da Türkiyə və Naxçıvan üçün fəlakətin səbəbi olardı. Buna görə də Azərbaycan qüvvələri dərhal Bəyazidə göndərilməli idi. Əgər bu qüvvələr Naxçıvanda qalaraq bolşeviklərə qarşı müxalifət fıkirləri irəli sürsələr, bölgədəki türk qüvvələri çıxacaq, ermənilər Naxçıvanı istila edəcək, Naxçıvana yardım edilməyəcəkdi. Əhaliyə və regionun nüfuzlu şəxslərinə bildirilməli idi ki, bolşeviklərlə müharibə edilsə, türk qüvvələri Qızıl Ordu hissələrinə kömək etmək məqsədilə Naxçıvana gələcək.[469]

Vedibasar bölgəsində erməni təhlükəsi çıxan kimi Azərbaycan qüvvələrinin bir hissəsi cəbhədə yerlərini tutdular. Ancaq ehtimal ki, Naxçıvan Milli Şurasının və öz komandirlərinin təbliğatları nəticəsində onlar nə Vedi, nə Dəhnə döyüşlərində müvəffəqiyyət əldə edə bilmədilər.[470] Kazım Qarabəkir paşa Cavid bəyə fasiləsiz xəbərdarlıq edirdi ki, Azərbaycan ordusu içində bir çox təbliğatçılar Naxçıvanda fitnə-fəsadlar törədir. Onların Türkiyəyə dərhal gəlmələrinin təmin edilməsi vacibdir.[471]

Dalbadal gələn məğlubiyyətlərdən sonra türk hərbi dairələrinin istəyi az da olsa, gerçəkləşməyə başladı. Dəhnə məğlubiyyətindən sonra Azərbaycan ordusundan bir hissə Araz çayını keçərək Bəyazidə yola düşmüşdü.[472] Azərbaycan süvari alayının birinci rota komandiri kapitan Sultan bəy, leytenant Cəmil və Ömər bəylərin komandirliyi ilə 35 nəfərlik süvari dəstəsi 17 iyulda axşam Bəyazidə çatdı. Onlar çayın keçid yerlərini bilmədiklərindən Arazdan keçərkən 7 nəfəri suda yox olmuşdu. Çayı düşmən atəşi altında keçdiklərindən yoldaşlarından 5 nəfəri də o biri tərəfdə qaldı.[473]

Dəhnə döyüşü nəticəsində dağılan Azərbaycan Ordusunun çox cüzi bir hissəsi Türkiyəyə gəlmiş, əksəriyyəti Naxçıvana getmiş və bir hissəsi də Şahtaxtında qalmış,[474] müdafiə hazırlıqlarına başlayaraq yerlərini tutmuşdular. Ancaq Şahtaxtıdakı Azərbaycan qüvvələri lüzumsuz səbəblər irəli sürərək Naxçıvana gəlmələri və eyni zamanda Naxçıvandakı Azərbaycan qüvvələrinin

---

[468] ATASE, A.6/6686, Kls.924, D.6-1, F.1-2

[469] ATASE, A.6/6686, Kls.924, D.6-1, F.1-1

[470] ATASE, A.6\6686, Kls.924, D.6-1, F.1-7, ATASE, A.l/4282, Kls.586, D.115-35, F. 12-1, Ünüvar, Bolşeviklərlə 8 ay, s.26. Şərq cəbhəsi III, s.105.

[471] ATASE, A.6/6686, Kls.924, D.6-1, F.1-4

[472] ATASE, A.6/6686, Kls.923, D.1-2, F.31-2

[473] ATASE, A.5/2793, Kls.814, D.5-9, F.59, ATASE, A.l/4282, Kls.586, D.115-35, F.12-1; ATASE,A.5/2793,Kls.814, D.5-9, F.70; ATASE,A.1/4282,Kls.587, D.115-35, F.21-1

[474] ATASE, A.1/4282, Kls.586, D.115-35, F.12-1, ATASE, A. 5/2793, Kls5-9, f.70, ATASE, A. 1/4282, kls. 587, s.115-35, F.21-1

bütün tələblərə baxmayaraq, cəbhəyə getməmələri, Türkiyəyə gəlmək istəməmələri Cavid bəyi hərəkətə gətirdi və iyulun 16-da general Həbib Səlimovla bir görüş keçirdi. Bu görüşdə Azərbaycan Ordusunun cəbhədə yerlərini tutmalarını tələb etdi. Əgər müharibədə iştirak etməyəcəklərsə, bölgənin şərəfini qorumaq məqsədilə Azərbaycandan Naxçıvana gəlmiş qəhrəman Azərbaycan əsgərlərinin müqavilə ilə silahlarını və bölgələrini ermənilərə verməkdənsə, Türkiyəyə gəlmələrinin daha şərəfli olacağını bildirdi. Çünki hazırkı dövrdə naxçıvanlıların ermənilərlə döyüşməyəcəklərini bilirdi və bölgənin nüfuzlu adamları can və mal itkisi verməkdənsə, ermənilərlə razılaşmağı üstün tuturdular. Belə vəziyyətdə Azərbaycan əsgərlərini məcbur edəcəklər ki, ya silahı tərk etsinlər və ya gizlicə bölgədən qaçacaqlar. Buna yol verməmək üçün ermənilərlə vuruşmalı, sonra da Türkiyəyə gəlməlidirlər.[475]

Cavid bəyin xəbərdarlığı və bölgədəki bir çox siyasi hadisələr Azərbaycan Ordusunun müəyyən bir hissəsinin Şahtaxtıda yerlərini tutmalarına səbəb olmuş,[476] digərləri də Kazım Qarabəkir paşanın əmri ilə[477] Bəyazidə yola düşmüşdülər. İyulun 23-də axşam piyada, topçu və süvari olmaqla cəmi 19 zabit, 340 əsgər 260 heyvan ilə bərabər Bəyazidə gəlmişdi.Bəyaziddən Ərzuruma göndərilən 169 əsgərdən 75-i yolda fərarilik etmiş, qalan 93 nəfərdən 2-si əsgərliyə yaramadığından arxa cəbhəyə göndərilmiş, 15-i sənət sahibi olduqlarından məsləklərinə uyğun bölmələrə paylanmış və 75-i hərbi hissələrə daxil edilmişdi.[478]

Digər tərəfdən də Şahtaxtıdakı məğlubiyyət nəticəsində Azərbaycan süvari alayı 380 nəfər Naxçıvana gəlmiş, onlardan 210 süvari hissə-hissə Türkiyəyə keçərək Şərqi Bəyazidə gəlmişdi. Qalanlan da gəldikdən sonra bu alay Ərzuruma göndərildi, Şərq cəbhəsi əmrində isə 15-ci süvari alayı xidmət edirdi. Naxçıvandakı Azərbaycan dağ batareyası da Şahtaxtıdan geri çəkildikdən sonra Bəyazidə gəlmiş və buradan da Ərzuruma göndərilmişdi.[479] Həmin dövrdə İranda olan və Türkiyəyə gəlmək istəyən Nuru paşanın tabeçiliyindəki qüvvələr də Bəyazidə gəlmişdilər[480] və əvvəlcədən Türkiyəyə gələnlərlə birlikdə Həsənqalada toplanmış və daha sonra Ermənistana hücum üçün cəbhədəki yerlərini tutmuşdular.[481]

---

[475] ATASE, A.6/6686, Kls.923, D.1-2, F.32, ATASE, A.5/2793, Kls.814, s.5-9, F.38

[476] ATASE, A.6/6682, Kls.924, D.8-4, F.l

[477] ATASE, A.5\2793, Kls.814, D.5-9, F.98

[478] ATASE, A.5/2793, Kls.814, D.5-9, F. 183

[479] Şərq cəbhəsi III, s.100-109

[480] Həmid bəy.(Qapancı) Xatirə dəftəri. (Nəşr olunmamış xatirələri), s.174

[481] TBMM. Z C. Devre 1, C,3. s.209, Şərq cəbhəsi III, s.109. Kazım Qarabəkir paşaya görə, bu qüvvələrdən qərbdə yox, şərq cəbhəsində istifadə etmişdilər (Qarabəkir, İstiqlal müharibəmiz, s.783)

# V BÖLMƏ

## Türk-Sovet münasibətlərində Naxçıvan (1920-1921)

### A. Naxçıvanda Türk-Sovet görüşü

### 1. Türk-Sovet münasibətlərinin başlanması və Qızıl Ordunun Naxçıvana dəvət edilməsi

Mudros sazişini imzalayaraq Dünya müharibəsində məğlubiyyətə uğradığını qəbul edən Osmanlı dövləti müqavilənin müqabilində Antanta dövlətlərinin təzyiqlərinə məruz qalmağa başladı. Şərq məsələsini öz mənfəətlərinə uyğun həll etməyə çalışan Antanta dövlətləri müqavilədə öz əksini tapmayan şərtlər irəli sürür, Osmanlı dövlətinə qarşı parçala, böl siyasəti tətbiq edirdilər. Bu isə hərbi və mülki türk hakim dairələri arasında bir reaksiyaya səbəb olurdu.1919-cu ilin əvvəllərində Qarsda bölgədən çıxma işləri ilə məşğul olan müttəfiq nümayəndələrinə təzyiqlərdən bezən bir türk zabiti ölməmək üçün bizim bolşeviklərlə birləşməmizdən qorxmursunuz?-deyə soruşurdu. Yenə 1919-cu ilin iyul ayının axırlarında erməniləri Naxçıvandan çıxardan türklərin komandiri Xəlil bəy onu görməyə gələn müttəfiq dövlətlərin nümayəndələrinə türk milli hərəkatına məcburən qəbul etdirilən şərtlərə qarşı çıxmaq məsələsində bolşevizmlə bağlı olduğunu deyirdi.[482] Türk onu boğmağı qarşısına məqsəd qoyan Antanta dövlətlərinə qarşı yalnız bir dəstəyə ümid edirdi, bu məqsədlə Sovetlərə doğru yönəlirdi. İstanbulda yaradılmış Polis Cəmiyyəti də bolşeviklərdən faydalanmağı düşünürdü və bir çox gizli təşəbbüslər göstərməyə başlamışdılar.[483] Milli mübarizə liderləri də dövrün tələbinə uyğun bolşeviklərlə əlaqə yaratmaq istəyirdilər.[484] Ancaq əvvəlcə Milli Mübarizə liderləri bolşeviklərlə əlaqə yaratmağı nəzərdə tutmaqla bərabər, onlar və Antanta dövlətləri arasında bitərəf bir siyasət

---

[482] Pordebard. İran yolları qovşağında səyahət. İstanbul. 1341, s.109

[483] Fəthi Təvətoğlu. Milli mübarizə illərindəki quruluşlar. Ankara, 1988, s.35-36

[484] Hüsaməddin Ərtürk 1919-cu ilin iyul ayının evvəllərində Mustafa Kamal paşanın Havzadaolduğu günlərdə Budyonnı adlı rus polkovnikinin başçılığı ilə bir rus heyəti ilə görüşdüyünü göstərsə də (H. Ərtürk. İki dövrün pərdə arxası (yazan, Samih Nafiz Tansu) İstanbul 1969,s.344-348) Türk - Sovet münasibətlərini araşdıran Yerasimos və Gürün bu məlumata şübhə ilə yanaşırlar. Yerasimos bu dövrdə S.M.Budyonnının Türkiyədə olmasınınmüşküllüyünü göstərir. Belə bir görüş Odessada fəaliyyətdə olan Mustafa Sübhi ilə bağlı adamlarla keçirilə bilərdi. (S.Yerasimov. Türk-Sovet münasibətləri Oktyabr inqilabından milli Mübarizəyə, İstanbul 1979, s. 108-109) Gürün də yazır ki, belə bir görüş olsa idi, Mustafa Kamal paşanın qərargahında olan Xosrov bəyin Kazım Qarabəkir paşaya göndərdiyi 7 iyul tarixli məktubda öz əksini tapmış olardı. Belə bir məlumat yoxdu. (Gürün. Türk-Sovet münasibətləri 1920-1953, Ankara, 1991. s.8-9).

yürütmək məqsədi güdürdülər.[485]

Ancaq ingilis hərbi qüvvələrinin Qafqazdan çıxmağa başlaması və Antanta dövlətlərinin Türkiyə üzərində siyasi və hərbi təzyiqlərini artırmaları Milli mübarizə liderlərinin artıq bitərəf qalmamalarına gətirib çıxardı. Müstəqilliyin silah ilə əldə edilə biləcəyi qətiləşirdi. Bunun üçün kənardan yardıma ehtiyac var idi. Tək bir çıxış yolu türk qapısı və ya digər ifadə ilə desək, "Şərq qapısı" idi. Bu yolla lazımi yardım göstərilə bilərdi. Türkiyənin bolşeviklərə tərəf döndüyünü görən Antanta dövlətləri, bəlkə də, Türkiyəyə qarşı mülayim münasibət saxlamağa məcbur ola bilərdilər. Buna görə də bu məsələ Ərzurum konfransına hazırlıqla məşğul olan Mustafa Kamal paşa, Kazım Qarabəkir və Rauf bəy arasında müzakirə edilərək bolşeviklərlə əlaqə saxlamağın Kazım Qarabəkir paşaya həvalə olunması qərara alındı və Doktor Ömər Lütfı bəy Bakıya, Doktor Fuad (Sabit) bəy Moskvaya göndərildi.[486]

Sentyabr ayında Sivasa gələn keçmiş Şərq Orduları komandiri Xəlil paşaya Mustafa paşa tərəfindən Sovet Rusiyası, İran və Azərbaycan ilə əlaqə yaratmaq və müstəqillik mübarizəsi üçün lazımi yardımı təmin etmək tapşırılmışdı.[487] Xəlil paşa Ərzurum-Bəyazid yolu ilə Naxçıvana, oradan da Bakıya getmiş və türk-sovet əlaqələrinin formalaşmasında böyük bir rol oynamışdı.

Bu vaxt Polis Cəmiyyəti tərəfındən Baha Səid bəy bolşeviklərlə əlaqə yaratmaq məqsədilə Bakıya göndərilmişdi. Baha Səid bəy Bakıda olan digər türk nümayəndələri kimi dərhal bolşevik ruslarla əlaqə yaratmağa başlamış və hətta onlarla 11 yanvar 1920-ci ildə bir müqavilə imzalamışdı.[488]

1920-ci ilin ilk aylarında Qafqazda və Cənubi Rusiyada mühüm dəyişikliklər yaranmağa başladı. Şimali Qafqazda Denikinə qarşı başlayan üsyanlar Antanta dövlətlərinə olduqca böyük bir sıxıntı gətirmişdi. Belə bir şəraitdə Bakı neftini əldə saxlamaq, İran-İrak yolunu bağlamaq və Sovetlərlə Anadolu - hərəkatının birləşməsinin qarşısını almaq üçün Antanta dövlətlərinin əlində tək bir yol qalmışdı. Ermənistan, Gürcüstan və Azərbaycan-

[485]Kazım Qarabəkir. İstiqlal müharibəmiz. İstanbul, 1988, s.47-54, Gürün. Türk-Sovet münasibətləri, s.9-10

[486] Qarabəkir. İstiqlal müharibəmiz, s.70. S.Yerasimos, Türk-Sovet münasibətləri, s.110. Gürün, Türk-Sovet münasibətləri, s.12-19. Firidun Qandəmir. Atatürkün qurduğu Türkiyə Kommunist Partiyası və sonrası, İstanbul,1966, s.25

[487]Xəlil paşanın xatirələri. İttihat və tərəqqidən cümhuriyyətə bitməyən müharibə. (Hazırlayan M.Taylan Sorqun), İstanbul, 1972, s.303-304; Yerasimos. Türk-Sovet münasibətləri, s.111

[488]Təvətoğlu, Milli mübarizə illərində quruluşlar, s.36-50. Yerasimov, Türk-Sovet münasibətləri, s. 113-115, Gürün, Türk-Sovet münasibətləri, s.24-27; Məsud Aydın, Milli mübarizə dövründə TBMM hökuməti tərəfindən İstanbulda qurulan gizli qruplar və fəaliyyətləri, İstanbul 1992, s.43. Müqavilə maddələri üçün bax. (Qarabəkir İstiqlal müharibəmiz s.598-600) Baha Səid bəy müqaviləni 26 fevral 1920-ci ildə nümayəndələr heyətinə göndərərək təsdiq olunmasını istədi, bu müqaviləni heyət rədd etdi. Mustafa Kamal paşa Kazım Qarabəkir paşadan Baha Səidin məmləkət üçün heç bir səlahiyyəti olmadığını Bakıya bildirməsini istədi. (Atatürkün teleqram və bəyannamələri, IV, Ankara, 1991, s.244)

dan ibarət bir sədd yaratmaq lazım idi.Ancaq bu layihəni həyata keçirməyə Antanta dövlətlərinin gücü yetməzdi. İngilis qüvvələri 1919-cu ilin avqust və sentyabr aylarından etibarən Qafqazı tərk etməyə başlamışdı. Ancaq Batumidə bir qədər hərbi qüvvələri var idi. Bütün ümidlərini Denikinə bağlamışdılar. 1920-ci ilin əvvəllərindən etibarən o ümid də sönməyə başlamışdı.[489]

Mustafa Kamal paşa və Kazım Qarabəkir paşa Qafqazda baş verən hadisələri diqqətlə izləyirdilər. 1920-ci ilin fevral ayının 6-da Mustafa Kamal paşa Kazım Qarabəkir paşaya bir teleqram göndərmiş və bu teleqramda Qafqazdakı hadisələrdən bəhs etmiş, öz fikirlərini bildirmişdi. Onun fikrincə, Antanta dövlətləri özləri üçün zərərli olan türk-sovet yaxınlaşmasına mane olmaq üçün "Qafqaz səddi" yaratmaq fikrindədirlər. Belə bir planın həyata keçirilməsi Türkiyədəki Milli mübarizə hərəkatlarının boğulması deməkdir. Buna görə də Şərq cəbhəsində rəsmi və ya qeyri-qanuni səfərbərlik elan etməli, Qafqaz səddini arxadan yıxmaq üçün hərbi hazırlıq görülməli, Qafqaz hökumətləri ilə əlaqə yaradaraq Antanta dövlətlərinin planına qarşı niyyətləri müəyyənləşməli, uyğun cavab alınmazsa, hücumla əlaqədar bolşeviklərlə razılığa gəlməlidirlər. Kazım Qarabəkir paşa bu məsələdə Mustafa Kamal paşadan fərqli bir fikirdə idi. Bolşeviklər Qafqazları və Azərbaycanı keçib felən əlaqə yaratmadan hərbi əməliyyata başlamağı zərərli hesab edirdi. Bundan başqa, Ərzurumda olan ingilis nümayəndəsi podpolkovnik Alfred Ravlinsonun bu məsələdə fikir irəli sürməsi paşanı çox şübhələndirmişdi.[490]

Mart ayının əvvəllərində bolşeviklərin Qafqazda fəaliyyət göstərməsi və Denikin qüvvələrinin dalbadal məğlubiyyətləri Kazım Qarabəkir paşanı bolşeviklərlə əlaqə yaratmağa xeyli ümidləndirmiş və fəaliyyətə başlamasına səbəb olmuşdu. Azərbaycan hökumətinə göndərdiyi məlumatlarda bolşeviklərlə münasibəti tövsiyə edən paşa 12 martda Xəlil paşanı və Nuru paşanı da bu məsələdən xəbərdar etdi.[491]

1920-ci ilin mart ayının 16-da İstanbulun işğal edilməsi Milli mübarizə liderlərinin mövqelərinin qəti surətdə dəyişməsinə səbəb oldu. Bir tərəfdən İstanbula aid xəbərlər ətrafa yayılır, digər tərəfdən Ankara ilə Ərzurum arasında sürətli bir yazışma davam edirdi. Mustafa Kamal paşa Şərqə hücum məsələsində fikrini soruşduqda Kazım Qarabəkir paşa, İstanbuldakı vəziyyətin açıqca bəlli olmadığını, bolşevik ordusu ilə əlaqənin təmin edilmədiyini, bölgədə qar çox olduğuna görəaprel ayının əvvəli və ortalarından əvvəl bir əməliyyat aparılmayacağını, ancaq indi başlanğıc kimi Batumi

---

489 Yerasimos, Türk-Sovet münasibətləri, s. 115-118

490 Kazım Qarabəkir paşanın maşınkada yazılmış qeydləri, s.23,27; Qarabəkir. İstiqlal müharibəmiz, s.433-436

491 Qarabəkir. İstiqlal müharibəmiz. s.492-493

ətrafında bolşevizm elan edilməsini, Elviyeyi-Selasidə Gürcüstan və Azərbaycanda bolşevizmin yayılmasma kömək edilə biləcəyini bildirmişdi. Mustafa Kamal paşa da bu fikirdə idi.[492]

Kazım Qarabəkir paşa 17 martda Xəlil və Nuru paşaya göndərdiyi bir məktubda bolşeviklərin Qafqazı istila etməsini və hətta kiçik bir qüvvəilə Azərbaycana gələrək azərbaycanlılarla bərəbər sərhədə doğru hərəkatının Türkiyə üçün xeyirli olduğunu bildirmişdi.[493] Azərbaycan və Dağıstanda bolşevizm ideyalarının yayılmasının təmin edilməsinin məqsədəuyğun olduğunu bildirmişdi. Azərbaycan əməliyyata başladığı zaman Bəyaziddən Naxçıvana bir dəstə ilə teleqraf avadanlığı göndəriləcəkdi.[494]

Bu vaxt Bakıda olan və məqsədləri Anadoludakı milli hərəkatı genişləndirmək üçün bolşeviklərlə əlaqə yaratmaq istəyən Milli mübarizə liderləri nümayəndələri bolşeviklərlə işləyən türk döyüş əsirləri və polis cəmiyyəti səlahiyyətliləri bu məsələni müzakirə etmiş və birgəfəaliyyət göstərmək qərara alınmışdı.

Məqsədə çatmaq üçün Azərbaycan kommunistlərinin yardımı ilə Bakıda bir türk kommunist partiyası yaradıldı. Xəlil paşa, doktor Fuad Sabit, Baha Səid, baş komandan Mustafa, ehtiyatda olan zabit Süleyman, kapitan Yaqub, kiçik Tələt, keçmiş Zor qəza rəisi Salih Zəki, Süleyman Nuri, Hilmi kimi üzvləri olan bu partiya rus və Azərbaycan bolşevikləri ilə birlikdə çalışmış, Milli Mübarizə liderləri ilə bolşeviklər arasında əlaqə yaradılmasında bir körpü vəzifəsi daşımışdır.[495]

Sovet Rusiyası ilə Türkiyə arasında əlaqənin ancaq Naxçıvan-Zəngəzur yolu ilə təmin edilə biləcəyini çox yaxşı bilən və bu sahədə göstəriş alan Bakıdakı Türk Kommunist Partiyası mənsubları məqsədlərinə çatmaq üçün iki maneə görürdülər:

1.Ermənilər

2.Getdikcəingilislərə meyl edən Azərbaycan hökuməti

Buna görə də onlar bir tərəfdən Azərbaycan Ordusunu Ermənistana qarşıhərəkətə gətirməyə çalışır, digər tərəfdən də Azərbaycanda bolşevizmi hakimiyyətə gətirməyə cəhd edirdilər.[496]

---

[492] Qarabəkir. İstiqlal müharibəmiz. s. 503-504. Yerasimos. Türk-Sovet münasibətləri, s.123

[493] Qarabəkir. İstiqlal müharibəmiz. s.508-509. Xəlil paşa. Bitməyən müharibə, s.323-324

[494] Qarabəkir. İstiqlal müharibəmiz. s.509

[495] Qarabəkir. İstiqlal müharibəmiz. s.580. Fəthi Təvətoğlu. Türkiyədə sosialist və kommunist fəaliyyətlər (1911960), Ankara 1967, s.280-281. Yavuz Aslan. Türkiyə kommunist firqəsinin qurulması və Mustafa Sübhi (Nəşr olunmamış doktorluq dissertasiyası 1995, Ərzurum, s.105)

[496] Qarabəkir. İstiqlal müharibəmiz. s.509, 584, 618, 641. S.Yerasimos, Millətlər və sərhədlər, Balkanlar, Qafqaz və Orta Şərq. İstanbul, 1994, s.327.

Aprel ayının 27-dən etibarən Azərbaycanda Sovet hakimiyyətinin[497] qurulduğu vaxt və sonralar da Bakıdakı türk zabitlərinin bolşeviklərlə bərabər olduğu görünürdü.[498]

23 aprel 1920-ci ildə TBMM-nin açılması və Azərbaycanda bolşeviklərin hakimiyyətə keçməsi, Qızıl Ordunun da regiona gəlməsi şübhəsiz, türk-sovet münasibətlərinin dönüş nöqtəsini təşkil etmişdi.

TBMM-nin sədri Mustafa Kamal paşa Kazım Qarabəkir paşanm fikrinə əsasən 26 apreldə Sovet Rusiyası hökumətinə ilk rəsmi təklif hazırlamış və Bakıya çatdırılması üçün Ərzuruma göndərmişdi.[499] Kazım Qarabəkir paşa bu mətnə belə bir başlıq qoymuşdu: "Türkiyə Böyük Millət Məclisinin Moskva Sovet hökumətinə birinci təklifidir".[500]

Paşa bu mətni Bakıya göndərmək üçün dərhal işə başladı. Bakıdakı türk Kommunist Partiyasına yazılmış bir məktubla bərabər sovet hökumətinə göndəriləcək təklifin mətni Batumi yolu ilə Azərbaycana göndərilməsi nəzərdə tutulmuşdu. Ancaq Azərbaycanda bolşeviklərin iqtidara gəlməsi ilə ingilislərin yolu bağlaması bu yolun təhlükəli olmasına səbəb olmuşdu. 3 mayda paşa 11-ci diviziya komandanlığına göndərdiyi teleqramda göstərirdi ki, Bakıya çatdırılmalı sənəd Batumi yolu ilə göndərilmiş, ancaq daha əmin olmaq üçün Naxçıvan yolu ilə göndərilməsi lazımdır.[501] 5 mayda Kazım Qarabəkir paşanın TBMM-nin sədrinə göndərdiyi məlumata görə, ingilislər Batumi yolunu bağladıqlarından bu sənədlər Naxçıvandan Azərbaycana çatdırılacaqdır.[502]

Lazımi tədbir görüldü.[503] Buna görə də təkliflər mətninin ikinci bir nüsxəsi də çıxarıldı. Bakıdakı türk kommunist partiyasına da ikinci məktub

---

[497]Azərbaycanın sovetlənməsi üçün bax. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyətinin təşəkkülü, İstanbul, 1339-1341; s.107-111. Məhəmməd Şərif Əfəndizadə, Azərbaycan və İnqilabı, İstanbul, 1337-1921, s.40-44. Firuz Kazımzadə, The Struggle for Transcaucasia (1917-1921), New York 1951, s.276-285. Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası Bakı, 1990, s.38-41. Z.İbrahimov, Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi, B.,1957, s.574-576; Aslan. Türkiyə kommunist firqəsinin quruluşu, s. 108-110, G. Jaschke 28 maydan 27 aprelə qədər Milli Azerbaycan təqvimi, Qurtuluş, iyul-avqust 1936, №21. s.24-25

[498] Qarabəkir. İstiqlal müharibəmiz, s.618; Məhəmmədzadə Mirzə-Bala. Milli Azərbaycan hərəkatı Milli Azərbaycan Müsavat "Xalq Partiyası tarixi". İstanbul, 1938, s. 196-197. İslam-Türk Ensiklopediyası. C.1. s.732. İstanbul, 1940. Mirzə-Bala. Təqvim necə yazılır? 1920, Qurtuluş, aprel 1936 №18, s.516-517

[499] Akdəs Nemət Kurat Sovetlərə belə bir türk təklifinin olmadığı fikrindədir. (A. Nemət Kurat: Qurtuluş savaşının başlarında Mustafa Kamal tərəfindən Leninə yazıldığı iddia edilən bir məktubun mövcud olmadığı bəlli oldu, Türk kültürü. №97 (noyabr 1970) s.26-28

[500] Qarabəkir. İstiqlal müharibəmiz. s.638-639, 641. Atatürkün teleqram və bəyannamələri, s.318, Yerasimov. Türk- sovet münasibətləri. s.148-149. Hikmet Bayur. I Dünya müharibəsindən sonra müqavilələrimiz. Bulleten, XXX/117 (1996) 131-132

[501] ATASE, A.1/16, kls.813, s.88-19, F.6

[502]Qarabəkir. İstiqlal müharibəmiz. s.641,672-673. Kazım Qarabəkir paşanın 3 və 5 may tarixli teleqramlarında bir ziddiyyət var. Paşa 3 mayda sənədlərin Batumi yolu ilə Bakıya çatmasına inanırdı. 5 mayda, yəqin ki, bu yolun bağlı olduğunu ona bildirilmiş, Bakı üçün tək yol Naxçıvan olduğunu bəyan etmişdir.

[503] Kazım Qarabəkir paşa 3 mayda 11-ci diviziya komandanlığına verdiyi göstərişdə göndəriləcək sənədin çox mühüm olduğunu, düşmənin əlinə keçməməsi üçün hər cür tədbir görülməsini və çox təhlükəli bir vəziyyət yaranarsa dərhal yox edilməsini əmr edirdi, (ATASE, A.1/16, Kls.813, s.88-19, F.6) Türk hakim dairələrinin bu diqqətçiliyinə baxmayaraq,

yazıldı. Sovet Rusiyası hökumətinə çatdırılacaq bu təkliflər 8 iyunda leytenant İbrahim bəy vasitəsilə Novorossiysk yolu ilə Moskvaya göndərildi.

Bəyaziddən yola düşüb Naxçıvan yolu ilə Azərbaycana gedən şəxslərin məqsədi ancaq sənəd aparmaq deyildi. Onlar Azərbaycana yeni gəlmiş bolşeviklər haqqında geniş məlumat əldə edəcək və xüsusən bolşeviklərin ingilislərlə əlaqəsi olub-olmadığını müəyyənləşdirəcəkdilər. Bundan başqa, bölgənin qabaqcıl adamlarına bildirəcəkdilər ki, Azərbaycan tərəfindən Ermənistana hücum davam etdiriləcək və Naxçıvandakı türk qüvvələri ilə birləşəcəklər.

Bu tapşırığı yerinə yetirmək məqsədilə 11-ci diviziya ştab rəisi Veysəl bəy ilə leytenant Kamil bəy və Celal bəy may ayının 6-da Bəyaziddən yola düşdülər. 9 mayda Şahtaxtıya gələn zabitlər səhərisi gün Naxçıvana yollandılar. Ancaq aldıqları əmrə əsasən Veysəl bəy Naxçıvanda qaldı, Kamil və Cəlal bəylər Bakıya yola düşdülər.[504]

Elə bu tarixdən etibarən türk-sovet münasibətlərinin qurulmasında Naxçıvan bir keçid, koridor, baza xüsusiyyəti daşımağa başlamışdır. Ermənistana qarşı hərbi üstünlüyün təmin edilməsi cəhətdən böyük bir strateji əhəmiyyətə sahib və Azərbaycana açılan yeganə türk koridoru olduğundan 1918-ci ildən bəri Türkiyə və Azərbaycan hakim dairələrinin diqqətini çəkmiş, əldə etmək üçün çox zəhmətlər sərf edilmişdi. Naxçıvan yeni bir tarixi vəzifəyə hazırlaşırdı. Sovetlərin Qafqaza gəlməsi və Milli mübarizə liderlərinin bolşeviklərlə əlaqə yaratmaq və onlardan dəstək almaq istəmələri hər iki tərəf arasında əlaqə necə yaradılacaq sualını ortaya çıxarmışdı. Nəzərə alınsa ki, dəmiryolu və Qaradəniz ingilislərin nəzarəti altındadır, onda iki tərəf arasındakı əlaqə ancaq Anadolu-Naxçıvan, Zəngəzur və Qarabağ yolunu Azərbaycana bağlayan türk koridoru vasitəsilə yaradıla bilərdi.[505]

---

ingilis kəşfiyyat xidməti hər iki kanaldan Sovet hökumətinə göndərilən təklifdən xəbərdar idi. (Bilal Şimşir. İngilis sənədlərində Atatürk (1919-1938) s.2. Ankara, 1975, s.325; Selahi R.Sonyel. Qurtuluşmüharibəsi illərində ingilis kəşfiyyat xidmətinin Türkiyədəki fəaliyyəti, Ankara, 1995, s.112-113

[504] ATASE, A. 1/16, Kls. 813, D. 88-19, F.6, V. Ünüvar.Bolşeviklərlə 8 ay, (1919-1921) İstanbul, 1948, s.5-8. Qarabəkir. İstiqlal müharibəmiz. s.640-641. Şimşir. Atatürk. s.2 №121, s.325. Sonyel. İngilis kəşfiyyat xidmətinin Türkiyədəki fəaliyyəti. s.113. Yerasimos, Türk-Sovet münasibətləri, s. 149-150. Leytenant İbrahim bəy Moskvaya gəldikdən sonra 3 iyulda Sovet Rusiyasının Xarici İşlər Nazirliyinin cavabını alaraq 10 iyulda Trabzona gəldi. 5 iyulda Bakıya gələn leytenant Kamil və Cəlal bəylər Türkiyəyə qayıdarkən Şuşada Təki xan tayfasına mənsub yolkəsənlər tərəfindən şəhid edilmişdi. (Qarabəkir. İstiqlal müharibəmiz. s.672. Şimşir. Atatürk. s.2, s.325. Sonyel İngilis kəşfiyyat xidmətinin Türkiyədəki fəaliyyəti, s.113).

[505] Pridubard. İran yolları qovşağında səyahət, s.62; Yerasimos, Millətlər və sərhədlər, s.327. S.Sadiqov. Həqiqəti bilməli, Naxçıvan 1920-ci illərin burulğanında, Azərbaycan kommunisti, 1990, №11, s.731. Bu koridorun əhəmiyyəti Moskvada keçirilən türk-sovet danışıqlarında da öz əksini tapmışdır. Yusif Kamal bəy həmin məsələ ilə əlaqədar Çiçerin ilə olan görüşü haqqında məlumatları verir: Xüsusilə Şahtaxtı yolunu açaq, dedik. Niyə Şahtaxtıya əhəmiyyət verirsiniz? dedi. İcazənizlə izah edim: Şahtaxtı Naxçıvanın qərbindədir, şərqində Qarabağ yerləşir. Onun da o biri tərəfində Azərbaycan var. Naxçıvan çoxdan bəri özünü idarə edən şura hökumətidir. Bizim Qarakilsə - Bəyazid dəmiryolu Şahtaxtıya gedir. Bu gün Qarakilsəyə qədər dəmiryolu işləyir. Şahtaxtı-Culfa yolu İrana qədər uzanır. Buna görə də bu yol bizim və ya azərbaycanlıların əlində olmazsa bir dəfəlik bizim münasibət kəsilir. Onlar İran ilə birbaşa münasibətə başlayır. (TBMM. Gizli zabitləri, 1, Ankara, 1985, s.166).

Bolşeviklərin Azərbaycana gəlməsi və Daşnak Ermənistana ultimatum verərək Zəngəzur və Qarabağdan çıxmalarını tələb etmələri[506]və Ermənistanın rədd cavabına əsasən bu bölgələrdə hərbi əməliyyatların başlanması[507] Türk Milli mübarizə liderlərini bir tərəfdən sevindirir, digər tərəfdən də narahat edirdi. Qızıl Ordunun Türkiyə sərhədlərinə yaxınlaşması və türk-bolşevik münasibətlərinə mane olan Ermənistana qarşı hərbi əməliyyatların aparılması sevindirici hal idi. Milli Mübarizə liderləri beləliklə, ehtiyacları olan yardımı daha rahat əldə edə bilərdilər. Ancaq bölgəni yaxşı tanıyan Kazım Qarabəkir paşanın dediyi kimi, onlar bolşeviklərin sərhədə gəlib Türkiyəyə qarşı üstünlük əldə etməsini istəmirdilər. Buna görə də bolşeviklər hələ Azərbaycana gəlməmiş Kazım Qarabəkir paşa 28 mart 1920-ci ildə yaxınlaşan təhlükəni görmüş və Elviyeyi-Selasenin dərhal işğal edilməsi fürsətinin qaçırılmamasını istəmiş,[508] nümayəndələr heyəti adından Mustafa Kamal paşanın razılığı alınmışdı.[509] Digər tərəfdən də hərbi əməliyyatlara hazırlıq məqsədilə Naxçıvana bir hərbi hissəsinin göndərilməsi qərara alınmışdı.

Kazım Qarabəkir paşa bir tərəfdən Ermənistana qarşı hücum hazırlıqlarını davam etdirir, digər tərəfdən də yenə Ərzurumdan Sovet Rusiyası ilə əlaqə yaratmaq üçün böyük bir səylə çalışırdı. İlk dəfə may ayının 8-də Moskvaya, Sovet Rusiyasına göndərilən rəsmi təkliflərdən sonra rəsmi görüşlər üçün bir heyətin də göndərilməsi lazım idi. TBMM hökuməti (3 maydakı quruluşundan sonra) 5 mayda Moskvaya gedəcək Daxili İşlər Naziri Bəkir Sami bəydən, Maliyyə Naziri Yusif Kamal bəydən ibarət bir heyət təşkil etdi.[510]Bu vaxt Kazım Qarabəkir paşa çox narahat idi. 0, 5-6 mayda Mustafa Kamal paşadan Moskvaya gedəcək heyətin dərhal göndərilməsini xahiş etdi. Paşanın aldığı məlumata görə, ermənilər və gürcülər bolşeviklərlə əlaqə yaratmaq niyyətində idilər. Dərhal hərəkətə keçmək lazım gəlirdi. İtirilən bir gün belə ölkə üçün zərərli olacaqdı.[511]

Ankara ilə Ərzurum arasında yazışmalar davam edərkən, Moskvaya gedən heyət 25 iyulda Ərzuruma gəldi. Bəkir Sami bəyin dəniz yolu ilə getmək istəmədiyinə görə heyət Bəyazid-Naxçıvan yolu ilə getməyi qərara aldı. Makuya qədər getdilər. Ancaq 11-ci diviziya komandiri Cavid bəydən

---

506 Albayraq, 13 may 1920 № 91; Qarabəkir. İstiqlal müharibəmiz. s.683. Yerasimov, Millətlər və sərhədlər, s.334. Akaby Nassibian. Britain and the Armenian Question. New York 1988. S. 198. G.Jaşka Qarabağ, Zəngəzur və Naxçıvan sovet siyasətinin ticarət əmtəəsidir. Qurtuluş, 17 mart 1936, s.488

507 İstiqbal, 10 iyun 1920, № l45; Hakimiyyəti Milliyə. 14 iyun 1336 №38; Kazım Qarabəkir paşanın makina səhifəli qeydləri, s.40-52.

508 ATASE, A. 5/2793, Kls.324, s.9-4. f.25-24, HTVD, 26 dekabr 1958, s. №684, Türk İstiqlal müharibəsi III c, Şərq cəbhəsi, (1919-1921) Ankara, 1965, s.58

509 HTVD 26 dekabr 1958, s № 685, Şərq cəbhəsi III, s.58

510 Yusif Kamal Təngirsək. Vətən xidmətində. Ankara, 1981, s.140-141

511 Qarabəkir. İstiqlal müharibəmiz. s.673-675

alınan məlumata əsasən yol təhlükəli idi, buna görə də geri dönüb Qara dəniz yolu ilə 11 iyulda Sovet Rusiyasına yola düşdülər.[512]

Rusiyaya gedən rəsmi heyət Ankara-Ərzurum yolu ilə hərəkətinə davam edirdi, bu vaxt Moskvada bir çox mühüm hadisələr baş verdi. 9 aydan bəri Türkiyə ilə Sovet Rusiyası arasında yaradılması istənilən əlaqə qurulmağa başlamışdı. Xəlil paşa ilə doktor Fuad Sabit 16 mayda, Trabzondan yola düşən kuryer leytenant İbrahim bəy 17 mayda, Ənvər paşa və digər ittihadçılarla bərabər Almaniyada olan Camal paşa 27 martda, eləcə də doktor Bahəddin Şakir və Bədri bəylər Moskvaya gəldilər. Başda Xəlil paşa olmaqla digər liderlər Moskvada Sovet hakim dairələri ilə görüşlər keçirir, Türkiyə üçün lazımi yardım istəyir, rəsmi kuryer İbrahim bəy də Ankaradan gətirdiyi təklifləri Sovet Xarici İşlər Komissarlığına təqdim etmiş və Çiçerinin cavab məktubunu alaraq Anadoluya yola düşmüşdü.[513]

Ancaq Çiçerinin cavab məktubu Kazım Qarabəkir paşanın xoşuna gəlməmişdi. Çünki Çiçerinin Türkiyə ilə Ermənistan arasında münasibətləri və sərhədi sülh yolu ilə həlletmə təklifi[514] Ermənistana qarşı bir hücumla Sovet Rusiyasına qarşı çıxmaq istəməyən TBMM tərəfindən məqsədəuyğun hesab edilmiş və əməliyyatın təxirə salınması Kazım Qarabəkir paşaya bildirilmişdi.[515]

Əməliyyatların dayandırılması Kazım Qarabəkir paşanın və bilavasitə TBMM hökumətinin həyata keçirməyi nəzərdə tutduğu məqsədlərin yerinə yetirilməsini təxirə saldığı kimi, bolşeviklərlə əlaqə yaratmaq imkanım da hələlik yox etmişdi. Əslində, türk hakim dairələri yaxşı bilirdilər ki, qazanacaqları bir qələbə ilə Azərbaycanla əlaqəyə mane olan Ermənistanı bitərəf edəcəklər. Ancaq indi Sovet Rusiyasının işə qarışması, türk hücumunun təxirə salınması və bolşeviklərin Zəngəzurdakı hərbi əməliyyatları dayandırması erməniləri cəsarətləndirmişdi. Buna görə də onlar özləri üçün təhlükəli hesab etdikləriTürkiyə-bolşevik əlaqəsinə mane olmaq üçün Naxçıvan və Zəngibasar ətrafında hazırlıq görməyə başladılar.[516]Hətta 19 iyulda Zəngibasar bölgəsinə hücuma keçdilər[517] və ardınca Vedi ətrafında hərbi toplanış keçirdilər.[518]

Naxçıvana bir hərbi hissə göndərilmişdi. Ancaq bölgənin qorunması üçün bu, kifayət qədər deyildi. Türk Ordusu əməliyyat apara bilmirdi.

---

[512] Təngirsək. Vətən xidmətində. s.141-144

[513] Yerasimos.Türk-Sovet münasibətləri s.152-155

[514] Dokumentı vneşnoy politiki SSSR. Tom II, Moskva 1958, s.372. s.554-556. Qarabəkir. İstiqlal müharibəmiz, s.754, 752

[515] Qarabəkir paşanın makina səhifəli qeydləri, s.66; Qarabəkir, İstiqlal müharibəmiz, s.773; Şərq cəbhəsi III. s.94

[516]Şimşir,Atatürk s.2. s. №109. s.299-300

[517]ATASE, A.l/4282, Kls.586, D. 114-34, F.64, Şərq cəbhəsi III, s.101

[518]Şərq cəbhəsi III, s.104

Naxçıvan əhalisi təhlükə içində idi. Azərbaycanla əlaqə yaradacaq Zəngəzur yolunun dərhal açılması lazım idi.

22 iyunda Kazım Qarabəkir paşa Naim Cavad bəydən aldığı bir məktubdan bolşeviklərin Qarabağda fəaliyyətdə olduğunu və çox güman ki, Naxçıvana da gələcəklərini öyrənmişdi.[519] Bolşevikləri Naxçıvana gətirmək lazım idi. Bu fikirlər içərisində olan Kazım Qarabəkir paşa əvvəl nümayəndələr heyəti və TBMM hökuməti ilə müzakirə edilən[520] və hətta Bakıdakı Xəlil paşadan istənilən şəkildə[521] bolşevikləri sərhədə çağırmağa qərar verdi və şəxsən XI Qızıl Ordu komandanlığı və Azərbaycan hərbi komissarlığı qarşısında məsələ qaldırdı. 23 iyun tarixli məktubu ilə Azərbaycan hərbi komissarlığından ermənilərə qarşı daim döyüşə hazır olmalarını istəyən Paşa XI Qızıl Ordu komandiri Levandovskiyə göndərdiyi 24 iyul tarixli məktubda yazırdı: "Rus Sovet ordusu ilə Türk ordusu arasında sədaqətli bir əlaqə yaradılması lazımdır. İstər Türkiyənin qərb vilayətlərində imperialist ingilis və müttəfiqlərlə apardığı müharibə və istərsə də Azərbaycanda hələ də davam edən ingilis təbliğatına son qoymaq üçün, daha mühümü dərhal Zəngəzurun sizin tərəfinizdən işğal edilməsi və Naxçıvanda olan hissəmizlə əlaqə yaradılması lazımdır".[522]

Kazım Qarabəkir paşanın 3-cü məktubu Xəlil paşaya müraciətən yazılmışdı. Xəlil paşadan Zəngəzur-Naxçıvan yolunun açılması üçün əmək sərf etməsini istəyən Kazım Qarabəkir paşa bu yola Türkiyənin çox ehtiyacı olduğunu xatırlatmış və Nuru paşanın bolşeviklərə qarşı çıxması iləəlaqədar türklərə qarşı eşidilən narahatçılıqları aradan qaldırmağı tələb etmişdi.[523]

Yazılan məktublar şifrlə Trabzondakı 3-cü diviziya komandanlığına bildirilmişdi.[524]Diviziyanın kuryeri baş leytenant Şərif bəy məktubları alaraq 28 iyunda Bakıya yola düşmüşdü.[525] 8 iyulda Bakıya çatan baş leytenant Şərif bəy səhərisi gün XI Qızıl Ordu komandiri Levandovskini ziyarət

[519]ATASE, A.l/4282, Kls.586, D.l 14-34, F.83

[520]ATASE, A.1/105, Kls.259, s.21-20, F.7. Kazım Qarabəkir paşanın şəxsi arxivindən. Mustafa Kamaldan Kazım Qarabəkir paşaya göndərilən 11 aprel 1920-ci il tarixli teleqram. (Kazım Qarabəkir –"nümayəndələr heyəti tərəfindən bolşeviklərlə korpusun maddi əlaqəsi olub-olmadığı soruşulurdu" yazılmış və üstünə qələm çəkilmişdi. Kazım Qarabəkirdən nümayəndələr heyətinə 13 aprel 1920-ci il tarixli teleqram) Qarabəkir, İstiqlal müharibəmiz, s.590-591

[521]Qarabəkir. İstiqlal müharibəmiz. s.508-509. Xəlil paşa. Bitməyən savaş, s.323-324

[522]Cəbəsoy. Moskva xatirələri. s.40-41. Qarabəkir. İstiqlal müharibəmiz. s.774. Camal Kutay, Qarabəkir Ermənistanı necə yox etdi. Yaxın tarixin məchul səhifələri. İstanbul. 1956. s.7-10

[523] Qarabəkir, İstiqlal müharibəmiz. s.774-775. Yerasimos. Türk-Sovet münasibətləri. s.161

[524] Qarabəkir paşa TBMM sədrliyinə 26 iyulda göndərdiyi teleqramda bolşeviklərin Qarabağda fəaliyyətdə olduqlarını və Naxçıvana doğru gəlməyə başladıqlarını və Qızıl Ordu birliklərinə hörmət edərək Naxçıvana gətirilməsi üçün aid təşkilatlara lazımi əmrlər verdiyini bildirmişdi. (ATASE, A.1/4282, s.114-34, F.83).

[525]Kazım Qarabəkir Bakıdakı Qızıl Ordunu Naxçıvana dəvət etdiyi vaxtlarda Moskvada başqa ssenarilər oynanılırdı. Moskvada erməni-sovet görüşləri nəticəsində rusların Şərqi Anadolu məsələsində vasitəçilik etməsi şərtilə ermənilər Zəngəzur yolunu açmağı qəbul etdilər və vəziyyət erməni heyəti sədri Şant tərəfindən İrəvana bildirildi (Yerasimos Türk-Sovet münasibətləri s. 160)

edərək Kazım Qarabəkir paşanın məktubunu ona vermiş və bu cavabı almışdı: "Qızıl Orduya Naxçıvana getmək əmri verilmişdi, bunu nəzərə alaraq bütün məsuliyyəti öz üzərinə götürərək Zəngəzurun mərkəzi Gorusu[526] işğal etmək üçün hissəmizə əmr verdim. 8 iyul 1920-ci ildə erməni generalı Dro qüvvələrinə Gorusda təzyiq göstərdiyimizə görə Bazarçayı boyunca, Keşişkənd istiqamətindən Yeni Bəyazidə doğru qaçmağa başladılar. Hissəmiz tərəfindən Gorus da işğal edilib, əməliyyat isə dayandırılıb. Bundan sonra mərkəzdən alacağımız əmrə əsasən hərəkət edəcəyik. İrəvandakı erməni qüvvələri Zəngibasardakı əhalini incidərək Naxçıvana gəlirdilər. Bəyazid ətrafında olan hissəmiz bu erməni hərəkatinə mane ola bilməzmi?."

Şərif bəy Levondovski ilə görüşündən sonra rəsmi cavab almaq üçün bu vaxt Moskvadan Bakıya gələcək Şərq işləri komissarı G.K.Orconikidzeni gözləməyə başladılar. Ancaq bu vaxt o, boş durmamışdı. Azərbaycan hərbi komissarı Əli Heydər Qarayevlə görüşdü. Kazım Qarabəkirin məktubunu təqdim etdi. Qarayev Ermənistana hücuma keçmək fikrində olduqlarını bildirdi. Ardınca Mustafa Sübhü və keçmiş 3-cü diviziya komandiri Midhəm bəy ilə görüşən Şərif bəy Türkiyə kommunist təşkilatı və Bakıdakı əsarətdən qayıtmış türk zabitlərinin vəziyyəti ilə bağlı məlumat topladı. 17 iyulda Bakıya gələn Orconikidze ilə görüşdü. Orconikidze bütün məsələləri Xəlil paşa ilə müzakirə etdiyini və Türkiyəni Sovet Rusiyasına bağlayan dəmiryolunun sülh və ya hərb yolu ilə bir aya qədər açılacağını, bunun özləri üçün də əhəmiyyətli olduğunu bildirdi.[527] Artıq türk və sovet əsgərlərinin Naxçıvanda görüşməsi anı getdikcə yaxınlaşırdı. Münasibətlərin yaradılmasında hər iki tərəf üçün bölgə baza rolunu oynamağa başlamışdı. Xəlil paşa və yoldaşları tərəfindən Bakıda təsis edilən Türk Kommunist partiyası əsasında türk kommunist təşkilatı yaradan Mustafa Sübhi və yoldaşları[528] Naxçıvanın türk-bolşevik münasibətlərində əhəmiyyətini başa düşmüş və buranı Türkiyə ilə əlaqələrdə bir mərkəz şəklinə gətirməyi,[529] bilavasitə bir şöbə açmağı qərara almışdılar. Belə ki, Türkiyə Kommunist təşkilatına mənsub Camal Saleh Zəki, Hilmi, Haqqı və Nurəddin iyun ayının ortalarında Naxçıvana gəldilər.[530]

---

[526]Bu Goris, Gerus ve Gorus olaraq yazılır. Biz isə daha çox yazılmış Gorus sözündən istifadə edirik.

[527] Şərif bəy 18 iyulda Bakıdan çıxaraq Gorus-Naxçıvan-Bəyazid yolu ilə Ərzuruma gəlmiş və Şərq cəbhəsi komandanlığına ətraflı bir hesabat təqdim etmişdi. (ATASE, A.5/2793, Kls.815, s.11-69, f.12, 12-1, 12-2, 12-3) Kazım Qarabəkir paşa ona verilən hesabatı TBMM sədrliyinə və Baş ştab rəisinə təqdim etdi. (Qarabəkir. İstiqlal müharibəmiz. s.815-817).

[528] Aslan.Türkiyə Kommunist firqəsinin quruluşu s.112-115

[529] Aslan .Türkiyə Kommunist firqəsinin quruluşu, s. 127

[530]Türkivə Kommunist Partiyasının birinci konfransı B. 1920. s.28. Qarabəkir. İstiqlal müharibəmizin əsasları. İstanbul, 1990, s.255-256. Mətə Tuncay. Türkiyədə sol axınlar I (1918-1925) Sənədlər. 2. İstanbul, 1991. s.284.

Digər tərəfdən də Türkiyə Kommunist təşkilatı, türk və sovet hakim dairələri arasındakı yazışmalardan və ən mühümü, iki tərəf ordularının getdikcə bir-birlərinə daha da yaxınlaşmasından çox məmnun idilər. Təşkilatın orqanı olan "Yeni dünya" qəzetində bununla əlaqədar şad bir xəbər dərc olunmuşdu: "İnqilab orduları Naxçıvanda birləşdilər, Türkiyə inqilab qüvvələrindən 15-ci korpusun 11-ci diviziyasından bir neçə batalyon Naxçıvanı işğal edərək[531] orada Şura hökuməti qurulduğunu elan etmişlər. Qızıl Ordu da Zəngəzurun mərkəzi olan Gorus şəhərini tutaraq Naxçıvanla əlaqəyə girmişdi. Beləliklə, Şimal və Cənubun iki inqilabı arasındakı xain qüvvələr və qara maneələr aradan qalxmışdı. Bu müttəfiq iki ordunun birləşməsi xalqın ürəyincə olmuş, xalq sevinmiş, bu sevincin təzahürü olaraq böyük şənliklər keçirmişlər. Müjdələr və işıqlı günlər Anadoluya!, Nifrətlər və qorxular zalım Antantaya, Yaşasın inqilab, azad olsun Şərq və bütün dünya.[532]

Qızıl Ordu komandanlığından gözlədikləri cavab alınmadan türk hərbi dairələri bolşevikləri özlərinin müttəfiqi hesab etməyə başlamış və hətta Naxçıvanda onların hər hansı bir təhlükə ilə üz-üzə gəlməməsi üçün bir çox tədbirlər görməyə başlamışdılar.Bolşevikləri Naxçıvana dəvət edən türk hərbi dairələrinin qarşısında duran ən mühüm məsələ Naxçıvan əhalisinin, xanların və bu vaxt bölgəyə gələn Azərbaycan qüvvələrinin bolşeviklərə qarşı reaksiya göstərməsi və bilavasitə onları dəvət edən türk hərbi hissəsinə qarşı mövqe tutmaları idi. Ancaq Kazım Qarabəkir paşa türk-sovet münasibətlərinə xələl gətirə bilən bütün maneələri aradan qaldırmağı qərara almışdı. Paşa Naxçıvanda olan Azərbaycan qüvvələrinin dərhal bölgəni tərk etməsini əmr edir, onlar bolşeviklərə qarşı çıxarlarsa, bolşeviklərlə əməkdaşlıq edəcəyini xatırladır və Naxçıvanın gələcəyini, Türkiyə, Azərbaycan və Rus-sovet hökumətləri həll edib qərara alınacağını bildirirdi.[533]

16 iyul tarixli teleqramla Kazım Qarabəkir paşa Veysəl bəydən Naxçıvanda bolşeviklərlə yaradılacaq münasibətlər üçün bunları xahiş edirdi: "Şahtaxtıdakı hərbi hissəmiz ilk əvvəl bolşeviklərlə əlaqə yaradacaqdır. Bunların bolşeviklərə göstərəcəyi təsirdən alınacaq nəticə bütün məmləkətimiz üçün əhəmiyyətli olacaqdır. Bunun üçün daha çox bacarıq sərf etməliyik. İşin ən mühümü, gələcək hissənin komanda heyətləri ilə Veysəl və Əli Timur bəylər görüşməli və xalqımızın da, əsgərimizin də bolşeviklərə qarşı olan hörmət, səmimiyyət və qardaşlıq hissinin[534] könüllü olduğu bildirilməlidir. Bolşeviklərlə yaradılacaq bu ilk münasibətin bütün yurdumuza

---

Aslan. Türkiyədə sol hərəkətlər. (1871-1972) İstanbul 1972, s. 120-122. Aslan.Türkiyə Kommunist firqəsinin quruluşu s.123-124

[531] Bəyaziddən göndərilən hərbi hissə nəzərdə tutulmuşdur.

[532] Yeni dünya (Bakı) 12 iyul 1920, № 52-4

[533] ATASE. A.6/6686. kls.924. s.6-1. F.l-1, 1-2, 1-11

[534] Bu teleqramları araşdıran katib bir çox sözü oxuya bilməmişdir.

göstərəcəyi təsir nəzərə alınmalıdır. Ancaq əsgərin əmr və komandasına zərər verilməməlidir. Bolşevik ordusu Vediyə qədər olan bölgəni işğal edərək qaçqınları qurtarmalıdır. Qızıl Ordu içərisində bizim türk əsirləri də vardır. Onlar bolşevik təbliğatının təsiri altında idilər. Ancaq nə qədər olsa, əsgərdirlər. Əsgər geyimində bir neçə ağıllı zabit onlarla əlaqə yaratmalı, ölkənin vəziyyəti bildirilməli və razılıq əldə edilməlidir.Bizim əsgərlərin də kommunist təbliğatına uymamalarına diqqət yetirilməlidir”.[535]

Bolşeviklərlə yaranacaq xoş münasibətlərin ölkə üçün yararlı olduğuna inanan, ancaq əsgərləri kommunist fikirlərdən aralı tutmaq istəyən Kazım Qarabəkir paşa daim bolşeviklərin Naxçıvana gəlməsi ilə maraqlanırdı. Məqsədi bölgəyə gələcək bolşeviklərlə yaradılacaq münasibətin türk-sovet yaxınlaşmasının təzahürü olması və erməni hücumları qarşısmda çıxılmaz vəziyyətdə qalan Naxçıvanı azad etmək, eyni zamanda ermənilərə qarşı müştərək bir əməliyyat aparmaq idi.[536] Buna görə də Ermənistana qarşı hərbi hücumu müəyyən bir müddətdən bəri dayandırmış olan Qızıl Ordu birliklərinin iyul ayının əvvəllərində Zəngəzurun mərkəzi sayılan Gorusa hücum xəbəri[537] paşanı xeyli sevindirmişdi.

Qızıl Ordu ilə türk birlikləri arasında əlaqə yaranmaq üzrə idi.[538] Bolşevik qüvvələri Zəngəzurda Naxçıvanla əlaqəyə maneə olan erməni qüvvələrini təsirsiz hala gətirmək üçün çalışırdılar.

Kazım Qarabəkir paşa bu müsbət irəliləyişi 17 iyunda TBMM rəyasət heyətinə bildirdi, Naxçıvanda türk-sovet münasibətləri sahəsindəki fəaliyyətlərindən bəhs etdi.[539] Bolşeviklərin gəldiyi zaman heç bir problemlə rastlaşmamaları üçün lazımi tədbir görülmüş, Naxçıvandakı səlahiyyətlilərə göstəriş verilmişdi. Bundan başqa bu vaxtlarda, iyun ayının ortalarında Naxçıvanda bir şöbə açmaq və buradan Türkiyə ilə əlaqə yaratmaq[540]məqsədilə Bakıdan yola düşən, yolların bağlı olmasına görə yubanan Türkiyə Kommunist təşkilatına mənsub 5 nəfərlik heyət də Naxçıvana gəldi. Onlar Naxçıvana gələn Qızıl Ordu və onların içində olan ermənilərlə türk hərbi hissəsi arasında hər hansı bir anlaşılmazlığa yol verməməyə, Sovet Rusiyası ilə Azərbaycan və Anadolu arasında əlaqəni təmin etməyə və XV korpusla əlaqə yaratmağa çalışırdılar. Buna görə də həm türk kommunisləri ilə, həmçinin 8 iyulda Gorusu ələ keçirərək Naxçıvana çox yaxınlaşan Qızıl Ordu hissələri ilə əlaqə yaratmaq məqsədilə 12-ci diviziya piyada komandiri

[535]ATASE. A.6/6686. Kls.924. s.6-1. F.1-12

[536] Qarabəkir. İstiqlal müharibəmiz, s.783

[537]ATASE. A.6/6686. Kls.924. D.6-1. F.1-4

[538] Qarabəkir. İstiqlal müharibəmiz s.783

[539]ATASE A.l/4282. Kls.586. D.115-35. F.13, 13-1, 13-2

[540] Heyət üzvlərindən Saleh Zəkiyə Ərzurum, Sivas, Ankara və Trabzonda işləməsinə aid vəkalətnaməverilmişdi. (Türkiyə Kommunist Partiyasının birinci konfransı. s.28. Tuncay Türkiyədə sol axınlar. s.284)

polkovnik Rəşad bəy,[541] əsarətdən gələn təyyarəçi kapitan Fəxri bəy 17 iyulda Bəyazid yolu ilə Həsənqaladan Naxçıvana yola düşdülər.[542] Paşa teleqramın sonunda bolşeviklərlə türk qüvvələri arasında xəttin Araz çayı olacağını, əgər məqsədəuyğun hesab edilsə, bolşeviklərlə bərabər Makunun da işğal edilə biləcəyini bildirirdi.

Naxçıvana gələn türk Kommunist təşkilatına mənsub heyət Milli Şura sədri Cəfərqulu xan və digər Şura üzvləri ilə görüşmüş,[543] sonra da Şahtaxtıya getmişdi. 18 iyulda Şahtaxtıda keçirilən görüş və kommunist heyətin verdiyi məlumatlar Kazım Qarabəkir paşaya çatdırılmış, o da vəziyyəti bütün səlahiyyətli dairələrə də bildirmişdi. Buna görə də Azərbaycanda fəaliyyət göstərən Osmanlı zabitlərindən ibarət bu heyətə Türkiyə Kommunist təşkilatı və XI Qızıl Ordu komandanlığı tərəfindən səlahiyyət vəsiqəsi verilmişdi. Məqsədləri Türkiyə hərbi hissəsi ilə bolşevik Ordusu ilə, həmçinin Naxçıvandakı yerli qüvvələrlə türk hərbi hissələri arasında əlaqə yaratmaq idi. Qüvvələrin miqdarı və ehtiyacları haqqında Bakıya məlumat göndərəcəkdilər. Bundan başqa, M.Sübhünün raportuna əsasən Naxçıvana gələcək Qızıl Ordu içərisindən erməni əsgərləri çıxarılmışdı. 10 iyulda heyət Gorusda olduğu zaman 32-ci diviziya komandirinə çatan bir məlumata görə, Xəlil paşa XI Qızıl Ordu komandanlığına təyin edilmişdi[544] və 32-ci diviziya komandanlığına bildirilmişdi ki, o, Gorusa gələnə qədər hərəkətə başlamasınlar.[545]

Hadisələrin bu dəyişməsindən türk hərbi dairələri çox razı qalmışdı. Qızıl Ordu Naxçıvana lap çox yaxınlaşmışdı. Bakıdan müsbət xəbərlər gəlirdi. Ancaq Türkiyə tərəfindən bütün işlər normal vəziyyətdə getdiyi vaxtlarda Moskva və Bakıda heç ağla gəlməyən proseslər baş verirdi. Polşa cəbhəsində çətin vəziyyətə düşən bolşeviklər Qafqaz cəbhəsində sülhü təmin etmək məqsədilə dərhal ermənilərlə müqavilə bağlamaq yolunu seçdilər. Zəngəzur və Naxçıvanı ermənilərə təhvil vermək, Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan istifadə etmək istəyirdilər. Bu məqsədi həyata keçirmək üçün Orconikidze təcili olaraq Moskvadan Bakıya göndərilmişdi. Qızıl Ordu ermənilərə qarşı hücumunu dayandırmışdı və Xəlil paşanın yanına gələrkən Gorusa

---

[541] Böyük hücumda 57-ci diviziya komandiri olub, düşməndən bir təpəni qurtarmaq lazım idi. Ancaq vaxtında ələ keçirə bilmədiyi üçün intihar etmişdir.

[542] ATASE, A.l/4282, Kls.586, D.115-35, F.13, 13-1, 13-2, ATASE, A.6/3152, Kls.880, D.28-7, F.73-1, 65-1, 61-1. Qarabəkir. İstiqlal müharibəmiz. s.787.

[543] ATASE, A. 66/6686, Kls.923, D.2-5,6, F.72-3.

[544] Xəlil paşanın XI Qızıl Ordu komandanlığına təyin edilməsi Azərbaycana bolşevik qüvvələri gəlməmişdən əvvəl meydana çıxmış, ancaq gerçəkləşməmişdi.

[545] ATASE, A. 6/2865, Kls.849, D.2-86, F.l1-1, ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21-1, ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.14-3

gedib Naxçıvandakı türk hərbi hissəsinə təcili yardım xahişini Qızıl Orduya çatdıran mayor Naim Cavad bəy mənfi cavab almışdı.

15 iyulda Orconikidze Bakıya gəldi və tərəflər arasında Türkiyəyə açılacaq yol məsələsi müzakirə olundu. Qatarda Orconikidze ilə görüşən Xəlil paşa iki ordu arasında əlaqənin təmin edilməsini və Moskvanın vəd etdiyi silah və döyüş sursatını dərhal Türkiyəyə göndərmək üçün Tiflis-Gümrü-Qars dəmiryolunun və Gorus-Naxçıvan yolunun açılmasını xahiş etmişdi. Orconikidzenin dəmiryolunun açılması üçün Naxçıvanın ermənilərə verilməsi təklifı Xəlil paşanın çox sərt narazılığına səbəb olmuşdu. Ancaq danışıqlar nəticəsində GorusdakıQızıl süvari alaynın Xəlil paşanı Naxçıvana qədər aparması və türk əsgəri ilə əlaqə təmin etdikdən sonra qayıtması qərara alınmışdı.[546]

Günlər keçdikcə Kazım Qarabəkir paşanın səbri tükənmişdi. Qızıl Ordu hissələrinin dərhal Naxçıvana gəlməsini və əlaqənin təmin edilməsini istəyirdi. Bu məqsədlə 20 iyulda mayor Veysəi bəyin və Naxçıvanın Milli Şurasının dərhal Gorusdakı bolşevik diviziyası ilə əlaqəyə girməsi və bu işdə heç bir fədakarlıqdan çəkinilməməsi tələb edilirdi.[547] Əslində Veysəl bəy əvvəl aldığı əmrlərə əsasən bu sahədə işə başlamışdı və bununla əlaqədar Sağ Cinah Qrupu komandanlığına bu məlumatı vermişdi:

“1. Bolşeviklərin gəldiyi söylənilən Malakan kəndi Bazarçay kəndidir. İstər Naxçıvanın nümayəndələri, istərsə də Türkiyədən göndərilmiş hissənin nümayəndəsi Nəcmi əfəndi və Bakıdan gələn Hilmi 1920-ci ildə saat $9^{00}$-dan əvvəl Naxçıvandan yola düşdülər. İstər Nəcmi əfəndi və istərsə də Hilmi imkan daxilində bolşevikləri gətirməyə, Naxçıvanda müqavimətlə rastlaşmayacaqlarını bildirməyə cavabdeh idilər. Yazdığın məktublarda təminat verilmişdir.Dərhal gəlmələri, heç olmazsa, süvarilərin göndərilməsi xahiş edilmişdi.Naxçıvandan göndərilən heyət üzvlərindən biri şahtaxtılı İbrahim ağadır. Əvvəllər Naxçıvandan göndərilmiş heyət Naxçıvanda olan Azərbaycan hissələrinin bolşeviklərə müqavimət göstərməyəcəyi haqqında bolşeviklərə təminat vermək üçün göstəriş almışdılar. Bunu mənə bu gün Naxçıvandakı Şura şifahi şəkildə bildirdi.[548]

Göründüyü kimi, türk hərbi dairələrinin istəyi və hadisələrin təsiri ilə Naxçıvan Milli Şurası bolşeviklərin yanına heyət göndərmiş, müvafiq təminat vermişdilər. Qızıl Ordunun yanına yalnız Naxçıvan Miili Şurası və Türk hərbi hissəsi heyət göndərməmişdi. Keçmişdən bəri Naxçıvanda varlığına

[546] Kazım Qarabəkir paşanın şəxsi arxivindən: Xəlil paşadan Kazım Qarabəkir paşaya 3 avqust tarixli teleqram. Qarabəkir. İstiqlal müharibəmiz. Yerasimos. Türk-Sovet münasibətləri.
s. 161-162

[547] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.40-4

[548] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.40-3

şahid olduğumuz və kommunist ideologiyasını mənimsəmiş şəxslər də öz adlarından bir heyət yaratmış, hakim Əli Abbasov və müəllim Əbdüləli Rüstəmovun sədrliyi ilə heyət Gorusa yola düşdü.[549]

Naxçıvandan Zəngəzura heyətlər yola düşdüyü vaxt Kazım Qarabəkir paşa tərəfindən təyin olunan Rəşid bəy sədrliyindəki heyət 32-ci Qızıl Ordu diviziyasının qərargahının yerləşdiyi Şuşaya gəlmişdi. Özünü Qızıl Osmanlı Ordusu nümayəndəsi kımi təqdim edən Rəşid bəy lazımi görüşlər keçirdikdən sonra İran yolu ilə Naxçıvana qayıtdı.[550] Qızıl Ordunun yanına gedən heyətlər müsbət təəssüratla geri döndülər. Xəlil paşa və Orconikidzenin qəbul etdikləri plana əsasən 19 iyulda Gorusdakı Qızıl Ordu hissələri möhkəmləndirilmiş və V.Tarhovun komandanlığındakı Qafqaz süvari alayı Naxçıvan yolunu açmaq üçün hərəkətə keçmişdi. Qızıl Ordu hissələri irəliləməyə başlayan kimi türk və bolşevik qüvvələri qarşılıqlı olaraq yazışmağa, salamlaşmağa başladılar. Gorusdan hərəkətə başlayan Qafqaz süvari alayına mənsub 1-ci batalyon Malakan kəndi olan Bazarçayına gəlmiş və 20 iyulda batalyon komandiri Nikolay Jodluq buradan Şahtaxtıda olan türk hərbi hissəsinə belə bir məktub göndərdi:[551]

"Türkiyənin Qırmızı Ordu komandanlığınasalam olsun, Əziz qardaşlar!

Xahiş edirəm müfəssəl xəbər və məlumat verəsiniz. Harada nə etdiyiniz haqda qısa məlumat verin. Rus Qızıl ordu qardaşlarımıza çox lazımdır. Biz Zəngəzur ətrafındakı Malakan kəndindəyik, tezliklə Naxçıvana gələcəyik. Yaşasın Türkiyə Qırmızı Ordusu! Yaşasın bütün dünyada azadlıq yolunda çalışanlar! Rədd olsun despot hökumətlər və qulluqçuları. Əgər siz və bizlər bir az da çalışsaq, bütün dünya bolşevizm ilə idarə olunar. Rus Qızıl Ordusu yoldaşlarım təbrik edir. Türkiyə Qızıl Ordusu, cavab verin. Naxçıvandan Küküyə xəbər göndərin və oradan da buraya".[552] Səhərisi gün Veysəl bəy Qızıl Ordunun bu səmimi salamına eyni duyğularla cavab verdi:

"Gorusdakı 28-ci batalyon komandiri Nikolay Jodluq yoldaş vasitəsilə Rusiya və Azərbaycan Qırmızı Ordularına: Sizə səmimi salamlar olsun qardaşlar! Bizim harada, nə iş gördüyümüzü soruşursunuz. Ordularımız qərbdə, cənubda ingilis, fransız və Ədirnədə yunan imperialist dövlətlərinə qarşı müharibə etməkdədir. Şərqdə ordumuz sərhəddə ingilislərlə əlbir olan daşnaklar qarşısında süngü ilə durmuşdur. Bu ordunun bir hissəsi daşnakların Naxçıvan və ətrafını istila etməməsi üçün Dəhnə düzündə Araz kənarında daşnaklarla müharibə aparır. Bazarçayına gedən Hilmi və Nəcmi yol-

---

[549] Əli Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə. B.1960; s.20. Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. B.1958, Əli Əliyev . Qırmızı Tabur B.1990, s.21.

[550] Yerasimos. Türk-sovet münasibətləri, s.163. Rəşad bəy 27 iyulda Naxçıvandan Şahtaxtıya gəlmişdi. (Ünüvar. Bolşeviklərlə 8 ay. s.35)

[551] Məktubda olan cümlə anlaşılmazlıqlarına toxunulmamışdır.

[552] ATASE, A.6/6686, Kls.923, D.1-2, F.42-1, Kazım Qarabəkir paşa Qızıl Ordunun salamlarını aid dairələrə teleqramla bildirmiş və "İstiqbal" qəzeti yuxarıda qeyd olunan yazını qısa bir şəkildə oxucularına bildirmişdi. (İstiqbal, 25 iyul 1336/1920. №158)

daşlar bütün təfsilatı ilə məlumat verəcəklər. Siz öz vəziyyətinizi bildirin. Salamlarımızı teleqramla Anadoluya göndərdim.

Bu gün Anadoludakı ən uzaq yerlərə ordularımız gedəcək, şənliklər keçirəcəkdir. Yaşasın azadlıq üçün vuruşan ordular. Yaşasın Rusiya və Azərbaycan Qızıl Orduları və onun xidmətçiləri. Lənət olsun despotlara, yerə girsin imperialistlər, məhv olsun kapitalist orduları".[553]

Bu qarşılıqlı yazışmalardan məlum olur ki, türk və sovet orduları bir-birlərilə demək olar ki, müttəfiq, hətta fikirdaş olmağa başlamışdılar. Qızıl Ordu hissələri ilə aparılan bu səmimi yazışma və onların Naxçıvana lap çox yaxınlaşması Şahtaxtı ətrafında üstün erməni ordusu qarşısında dayanmağa çalışan türk hərbi hissə komandiri Veysəl bəyi çox sevindirmişdir. Buna görə də o, Qızıl Ordunun qabaqcıl hissələrinə məktub göndərmiş, həmin gün əmri altında olan hissələrə də sevindirici xəbəri vermişdi. Qızıl ordu ilə birləşib, qucaqlaşıb ermənilərin bitərəf ediləcəyini, onun üçün bir az dayanmalarını istədi.[554]23 iyulda Gorusdakı rabitə zabitindən gələn bir raportda[555] türk-bolşevik orduları ilə gözlənilən əlaqə üçün mühüm məlumatlar var idi.[556] Buna görə də Gorusdakı 1-ci və 3-cü Kuban alayları Naxçıvana getmək üçün 23 iyulda əmr almış və işə başlamışdı. Bundan başqa Qızıl Ordu komandanlığı tərəfindən Ermənistana bir nota verilmiş və Naxçıvana hücum etməmələri tələb edilmişdi. Veysəl bəy bu xəbəri dərhal hərbi hissələrə və milislərə çatdırmış, 2 günə qədər bolşeviklərin Naxçıvana gələcəklərindən söz açmış və möhkəm mətanət göstərmələrini bildirmişdi.[557]

Sağ Cinah qrupu komandiri Cavid bəy də bolşeviklərin Naxçıvana çox yaxınlaşdığına görə sevinirdi. O, inanırdı ki, Bolşeviklər Naxçıvana gələrlərsə, Şahtaxtıya edilən erməni hücumu dayanacaq və məsələ sülh yolu ilə həll ediləcək.[558] Ancaq hər an gözlədikləri Qızıl Ordu hissələri sərhədlərdə görünmürdü və 24 iyulda səhər erməni hücumu şiddətli şəkildə

---

[553]ATASE, A. 6/6686, Kls.923, s.-2, F.46-3. Qızıl Ordunun Naxçıvana irəliləməsi türk hakim dairələri ilə bərabər mətbuatı da sevindirmişdi. Trabzonda çıxan "İstiqbal" qəzeti Qızıl Ordunun Naxçıvana yaxınlaşaraq türk əsgərləri ilə birbaşa əlaqə yaratdığını bildirmiş və ağlı başında olan ermənilərin də türklərlə birləşməsini tövsiyə etmişdir. (İstiqbal, 25 iyul 1336/1920, №158) Nəşr olunduğu gündən bəri Qafqaz xəbərlərinə səhifələrində yer verən "Albayraq" qəzeti də türk bolşevik yaxınlaşmasını izləyirdi. 26 iyul tarixli sayında yazırdı: Müttəfiq bolşevik hissələri Qarabağı tamamilə işğal etmiş və 2 həftə ərzində ermənilərdən 10.000 silah topladıqları və yaxında Naxçıvana yeni bir qüvvə göndərərək ordumuzla birləşəcəkləri ştab tərəfindən bildirilmişdir. Beləliklə, Şərqlə münasibətimizi kəsən ingilis maneəsi ortadan qaldırılacaqdır.Dünyada sülh və ədalətin təmini üçün döyüşən bu iki haqq ordusunun birləşməsi tarixi hadisələr və millətimiz üçün xeyirli başlanğıcdır. (Albayraq, 26 iyul 1331/1920. № 102).

[554]ATASE, A.6/6686, Kls.923, D.1-2, F. 48

[555]ATASE, A.l/4282. Kls.587, D.116-6, F.10-3

[556]Rabitə zabiti Nəzmi bəy həmin gün Bazarçayda görüşdüyü bolşevik batalyonu ilə təəssüratını Veysəl bəyə bildirmişdi. Hər əsgərin papağının və ya sol qolunun üzərində qırmızı parçadan hazırlanmış bir ulduz işarəsi var idi. Bolşevik olan hər kəsdə bir işarə vardır. (ATASE, A6/6686, Kls.923, D.2-5,6. F.72-1).

[557]ATASE, A.6/6686, Kls.924, s.6-1, F.2-9. Gorusda olan 1-ci və 3-cü Kuban alaylarının Naxçıvana doğru gəlməsi Kazım Qarabəkir paşaya da çatdırılmış, o da 24 iyulda Baş ştaba bu məlumatı bildirmişdi. (ATASE, A.l/4282, Kls.587, D.l 16- 16, F. 10-3).

[558]ATASE, A.5/2793, Kls.814, s.5-9, F.159

böyüdü. Buna görə də Kazım Qarabəkir paşa həmin gün Sağ Cinah qrupu komandanlığına tapşırdı ki, bolşevik qüvvələrinə ermənilərin Şahtaxtıya hücumu haqqında dərhal xəbər göndərilsin və erməni təcavüzünün qarşısını almaq, fəqir xalqı qorumaq üçün dərhal Şahtaxtıya gəlməsini bildirsinlər.[559]

Ancaq Naxçıvana doğru yavaş-yavaş gələn[560] Qızıl Ordu hissələri gəlmədən ermənilər Şahtaxtını işğal etmişdilər. Bununla əlaqədar Kazım Qarabəkir paşa 25 iyulda TBMM sədrliyinə bir teleqram göndərdi. O bildirirdi ki, bolşeviklər Gorusdan Naxçıvana doğru irəliləyirdi. Ancaq iki tərəf arasında bir birləşmə yerinə yetirilmədən Şahtaxtı ermənilərin əlinə keçmiş, bu da Qızıl Ordu ilə əlaqənin kəsilməsinə səbəb olmuşdu. Sovet hökuməti istəmədiyi üçün korpus ermənilərə hücum etməmişdi. Ermənilərin irəliləməsi türk-sovet və Azərbaycan münasibətləri baxımından çox zərərli idi. Buna görə də paşa bolşeviklərlə bərabər ermənilərə bir hücum edilməsi zamanının gəldiyini bildirir və məsələ iləəlaqədar Moskvadakı heyətə bir məktub göndərilməsini istəyirdi.[561] KazımQarabəkirpaşanınTBMM-ətəklifgöndərdiyivaxtlardaMos-kvayaçatantürkheyətisovethakimdairələriiləgörüşmüşdü.

Türk heyəti ehtiyacları olan silah, döyüş sursatı və s. materialların Anadoluya göndərilməsi üçün təcili olaraq aradakı erməni yolunun açılmasını istəyirdi. Sovet Xarici İşlər Komissarı Çiçerinin müavini Lev Mixayloviç Qaraxan, Xəlil paşa və Ankaraya gedəcək səfirliyin katiblərindən biri ilə qızıl və silah göndərdiklərini, Qarabağ, Zəngəzur bölgələrindən Naxçıvana getmək üçün Azərbaycan lehinə işğal etmə əmri verildiyini, ancaq Polşa cəbhəsindən kifayət qədər qüvvə gətirilməyincə məsələnin həll edilə bilməyəcəyini bildirdi.[562]

Moskvada iki tərəf arasında görüş davam edərkən Qızıl Ordu hissələri artıq Naxçıvana girmək üzrə idi. Ancaq türk hərbi dairələri bir tərəfdən Naxçıvandakı görüşə hazırlıqlar görür, digər tərəfdən bolşeviklərdən narahat olmağa başlamışdılar. 27 iyulda Cavid bəy Veysəl bəydən ermənilərin müsəlman əhaliyə zülm etdiklərini və onların içində ingilis, gürcü və denikinçilərin olduğunu bolşeviklərə bildirməyi tələb edir, digər tərəfdən də düşmən haqqında əldə olunacaq məlumatın da Qızıl Orduya hələ çatdırılmamasını əmr edirdi.[563] Cavid bəyin düşmən haqqında məlumatların bolşeviklərə

---

[559]ATASE, A.5/2793, Kls.814, D.5-9, F.167

[560]Yerasimos Türk-sovet münasibətləri s. 164

[561]ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.17. Bu vaxt ümumi kəşfiyyat müdirliyinin tələbi ilə Tiflisdə çıxan rusca qəzetləri, İrəvanda çıxan ermənicə qəzetləri əldə etmək vəzifəsi Şahtaxdıdakı türk hərbi hissəsi komandanlığına tapşırılmış, Veysəl bəy də bu işi Bəbir xana həvalə etmişdi. (ATASE, A. 6/6686, Kls.923,D.2-5,6, F.84).

[562] Cəbəsoy. Moskva xatirələri s.79-80

[563] ATASE, A. 6/6686, Kls.923,D.2-5,6, F.101.

nəyə görə verilməməsi istəməyinin səbəbini bilmirik. Həmin vaxtlarda baş ştab rəisi İsmət bəyin də Qızıl Ordu və Sovetlərə görə narahatçılıqları var idi. Yolun qısa olmasına baxmayaraq, bolşeviklərin Naxçıvana gec gəlmələri, ermənilərin Şahtaxtıya hücum etmələrinə laqeyd qalmaları, Şahtaxtının işğal olunması, fürsət olduğu halda Naxçıvana hücum etməmələri İsmət bəyin bolşeviklərin ermənilərlə bir müqavilə bağladığına inanmasına səbəb oldu.[564]

0,bu fikirləri 30 iyulda Kazım Qarabəkir paşaya bildirmiş[565] və səhərisi gün paşa cavab vermişdir: “Belə deyilir ki, Qızıl Ordu hissələrinin erməni hərəkatı qarşısında sakit durmaları çox güman ki, Xəlil paşa gələnə qədər irəli hərəkət edilməməsi üçün IX Ordu tərəfindən 28-ci diviziyaya məlumat göndərilməsi olmuşdur. Bu əmrin verilməsinə səbəb zənn edirəm ki, Gorusa gələn Qızıl Ordu hissələri komandirinin Naxçıvan xalqının bolşevikləri istəməməsi haqqında bir məlumat göndərilməsi ehtimalıdır. Bundan başqa, Gorusa gələn Qızıl Ordu hissələrinin arxa bölgələrdə silah toplaması, əks-inqilab ehtimalını aradan qaldırmağı və bunlara qarşı tədbir görmək məqsədilə ətraf kəndlərə getməsi ermənilərin cənuba doğru irəliləməməsinəsəbəb olmuş, mütəəssir olması indidən bəlli edir. Hətta bu gün Naxçıvana gəlmiş Kuban alayı da gürcülər olduğundan Xəlil paşa arxadan əlavə qüvvə alana qədər Şahtaxtıdakı Osmanlı hərbi hissələrini möhkəmləndirməyi tələb etməyə məcbur olmuşdu.[566]

Türk hərbi dairələrinin dəvətinə uyğun olaraq Qızıl Ordu hissələrinin Naxçıvana gəldiyi günlərdə İsmət bəy, 9-cu diviziya komandiri Xalid bəy bolşeviklərdən şübhələnməyə başlamışdılar. İsmət bəy onların Türkiyəyə zidd hərəkətlər etməsinə dair məlumatlar aldığını Şərq Cəbhəsi komandanlığına bildirir və bolşeviklərin məqsədlərini öyrənmək üçün Naxçıvana bacarıqlı şəxslərin göndərilməsini təklif edirdi.[567]

## 2.Naxçıvanlıların Türk-Sovet yaxınlaşmasına etirazları

Bakıda bolşeviklərin iqtidara gəlməsi, Qızıl Ordu hissələrinin Azərbaycana girməsi Cənubi Qafqazda tarazlığın pozulmasına səbəb olmuşdu. Artıq ingilis və amerika siyasətlərinin yerini Kommunist təbliğatı və fəaliyyətləri tutmağa başlamışdı. Sovet Rusiyası Qafqazda nüfuzunu artırmaq və

[564] Əgər Yerasimosun ifadə etdiyi şəkildə 1-ci Qafqaz süvari alayı Şahbuza gəlişinin üçüncü günü Şahtaxtı hadisələrindən xəbər tutdusa, İsmət bəyin narahat olmaqda haqlı olduğu deyilə bilər.

[565] ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21.

[566] ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.17, 17-1. İsmət bəy bolşeviklərlə bağlı narahatçılığı və Kazım Qarabəkir paşa ilə yazışması haqqında 4 avqustda TBMM sədrliyinə məlumat vermişdir. ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21

[567] ATASE, A.5/2793, Kls.815, D.69-11, F.10

bilavasitə 1918-ci ilin iyun ayının əvvəllərində müstəqilliklərini elan etmiş Ermənistanı, Gürcüstanı və Azərbaycanı nəzarət altına almaq istəyirdi.

Sovet Rusiyasının bu məmləkəti ələ keçirməsinin 2 əsas yolu var idi: Birincisi kommunist təbliğatçılar, ikincisi Qızıl Ordu hissələri. Bolşeviklər Azərbaycanda iqtidarı ələ keçirmişdilər. Qarabağ və Zəngəzurun üzərinə hərəkətə hazırlaşdıqları vaxt kommunist təbliğatçıları fəaliyyətə başladılar. Onların vəzifəsi bolşeviklərə qarşı hüsn-rəğbət yaratmaq, keçmiş rus zülmkarlığını unutdurmaq, bolşevizmin səadət və rifah gətirdiyini göstərərək millətlərin içərisinə girməyə keçidi açmaqdır.

Elə bu məqsədlə işə başlayan kommunist təbliğatçıların 1920-ci ilin may ayının əvvəllərindən etibarən Naxçıvan regionunda yerli bolşeviklərin dəstəyi ilə fəaliyyətə başladıqları bəllidir.

Naxçıvandakı bolşevik təbliğatının şübhəsiz ən qüvvətli ismi, keçmiş mühacir və yetim uşaqlar komissiyasının sədri Behbud Şahtaxtinskidir.[568] Behbud bəyin rəhbərliyi ilə ətrafdan gələn təbliğatçılarla bir çox mitinqlər keçirilir, xalqa kommunizmin prinsipləri xoş, yumşaq sözlərlə izah edilir, eyni zamanda Mustafa Kamal və Kazım Qarabəkir paşa hörmət və ehtiramla xatırlanırdı.

Xalq bu cür toplantılarda çox az iştirak edirdi. Bolşevizmin nə olduğunu bilən yox idi. Onlara görə, bolşevizm məmləkətdə aclıq və səfaləti yox edəcək, hər kəslə insan kimi davranacaqdı. Buna görə də əhali kənardan gəlmiş kommunistə xoş bir niyyət bəsləyirdi. Rəhbərlər də təhlükəni hiss etməmişdi ki, bu cür fəaliyyətlərə etiraz etmirdilər.[569]

Ancaq Azərbaycandan gələn xəbərlər Naxçıvandakı siyasi havanı dəyişdirmişdi. Türklərin bolşeviklərlə razılaşdığı, türk zabitlərinin Azərbaycanda iqtidarın sovetləşməsində aktiv rol oynadıqları və daha mühümü Qızıl Ordu hissələrinin müsəlman əhalini yox etmək üçün göstərdiyi zülm, qarət, soyqırımı siyasətləri Naxçıvan camaatında etiraz hissi yaratmışdı. Qızıl Ordunun qarşısından qaçan bir çox Azərbaycan əsgərinin Naxçıvana gəlməsi və daha da ətraflı, bir az da şişirdilmiş şəkildə Azərbaycan hadisələrindən bəhs etmələri etirazların daha da artmasına səbəb olurdu. Keçən sərin bolşevizm havası bu dəfə müdhiş bir fırtınaya çevrilmişdi. Azərbaycandakı bolşevik zülmü erməni vəhşiliklərini unutdurmuşdu. Naxçıvanlıların etirazı indi də türk hərbi dairələrinə çevrilmişdi. Onlar türkləri Sovet Rusiyası ilə müttəfiq olmaqda günahlandırırdılar. Keçirilən yığıncaqlarda Azərbaycan hadisələrindən söz açılır, bolşeviklərə lənətlər yağdırılır və "Türkiyə özünü qurtarmaq üçün bizi qurban edir, əgər bolşeviklərin xətri üçün hücum fikrindən

---

[568] Ünüvar. Bolşeviklərlə 8 ay. s.18. Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması s.17-18.
[569] Ünüvar. Bolşeviklərlə 8 ay. s.17-19.

daşınmasaydılar indi biz iki düşmən arasında qalmazdıq" deyirdilər.[570] Kazım Qarabəkir paşaya görə, Azərbaycan inqilabından sonra nüfuzlarının sona çatdığını düşünən Naxçıvan xan və bəyləri Azərbaycan Ordusunun hissələri Naxçıvana gəldikdən sonra müsəlman əhali arasında yayılan bolşevik əleyhdarlarından qüvvə alaraq bolşeviklərin Naxçıvana gəlməməsinə çalışaraq, həyatlarına və xanlıqlarına toxunulmaması üçün ermənilərlə razılığa gəlməyə, onlarla birgə bolşeviklərə qarşı müqavimət göstərməyə qərar vermişdilər. Buna dair bəzi dəlillər əldə edilmişdi.[571]

Naxçıvan regionunun qabaqcıl şəxsləri ermənilərlə razılığa gəlmək istəyirdilər.[572] Ancaq ermənilərin nə fikirdə olduqlarını bilən yox idi. Milli Şura tərəddüd içində idi. İrəvana göndərilən heyəti ermənilər həbs etmiş, cavab belə verməmişdilər. Bolşeviklərə qarşı çıxmanın və bilavasitə öz nüfuzlarını saxlamağın tək bir yolunun ermənilərlə razılığa gəlməkdə olduğuna inanan Naxçıvan yerli rəhbərləri bu yolda onlara tək maneə olaraq Türkiyə əsgərini görürdülər. Onlar sülh yolunda ermənilərə səmimiyyətlərini göstərmək məqsədilə silahlarını təhvil vermək, müqavimət göstərməmək istəyir, könüllü qüvvələrin ermənilərə qarşı çıxmasının qarşısını almaq üçün də türk hərbi hissəsi əleyhinə təbliğat aparır, eyni zamanda türk hissələrinin əlində olan döyüş sursatı, qida və pul kimi müdafiə vasitələrini almaqla məşğul olurdular. Türk hərbi hissəsini üçüncü dərəcəli düşmən saymağa başlamışdılar.[573]

Bölgə müfəttişi olan mayor Veysəl bəy bu hadisələrdən çox narahat idi. Bu məqsədlə 11 iyul 1920-ci ildə Veysəl bəy Sağ Cinah qrupu komandanlığına şifrli bir teleqram göndərdi: "Azərbaycanda bolşeviklərin etdikləri zülm, müxtəlif şəxslərin raportlarında göstərilən vəhşiliklər Naxçıvanda bütün təfsilatı ilə yayılmışdır. Naxçıvan regionunda baş verən hadisələrdən və Azərbaycandan gələn əsgər və zabitlərin ifadələrindən belə qənaətə gəlmək olar ki, bolşevikləri Azərbaycana cəlb edərək Gəncəni xarabalığa çevirən, Bakının qarətinə, əhalinin öldürülməsinə səbəb olanlar osmanlılar, osmanlı siyasətidir. Buna görə də Naxçıvanı da müttəfiqimiz bolşeviklərə verəcəyimizdən qorxaraq bizdən və siyasətimizdən narahatdırlar, qorxurlar. Bu səbəbdən də Azərbaycandan gələn əsgərləri Naxçıvanda saxlamaq və Naxçıvanı Azərbaycanın bir parçası saymaq istəyirlər:

---

570 Ünüvar. Bolşeviklərlə 8 ay, s.24.

571 ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.17.

572 Naxçıvanın öncül şəxslərinin Türkiyə və bolşeviklərə qarşı çıxmaq üçün ermənilərlə əlaqə yaratmaq istəmələri İranda olan ingilislər tərəfindən müəyyən edilmişdi. Ancaq onlar yuxarı dairələrinə 2 tərəf arasında müqavilə bağlandığını bildirərək səhv məlumat vermişdilər. (Brisitsh Documents On Foreign Affairs Turkey, Tran and the Middle East (1918-1939) Vol: 16, Persias 1, University Publications of America, 1990, Doc.368. c.270).

573 Ünüvar. Bolşeviklərlə 8 ay. s.24.

1.Naxçıvan əyaləti haqqında hökumətimizin fikri nədir? Türkiyəyə və Azərbaycana bağlı olacaq, yoxsa müstəqil bir hökumət qurulacaq? Bu son 2 şərtə görə, biz necə olacağıq?

2.Deyəbilərik ki, artıq bolşeviklər bizim müttəfiqlərimizdir. Bundan bəhs etməyə imkan olmadığı üçün təhlükəsizlik və etimadlarını cəlb etməyə (oxumaq mümkün olmadı) göstərişi bu vəziyyətdən (oxumaq mümkün olmadı) ... müşkül olacağından (oxumaq mümkün olmadı).[574] Bolşevizmə və bolşeviklərə qarşı hərəkət necə olacaqdır? Bölgənin əksər əhalisi əsasən bolşeviklərə qarşı müqavimət göstərməyə qərar vermişdir.

3.Hazırkıvəziyyətdə Azərbaycanın hərbi hissəsinin Şərq cəbhəsi əmrinə göndərilməsi bizə olan etimadı artıracaqdır. Həmin hərbi hissənin burada qalması üçün zor işlətmək və mane olmaq əmr edilirmi?.[575]

Çoxdan bəri Kazım Qarabəkir paşa izlədiyi Naxçıvan hadisələrinin türk-sovet münasibətlərinə zərər verəcəyini çox yaxşı bilirdi. Naxçıvandakı bolşevik əleyhdarlarının fəaliyyətinə icazə verilə bilməzdi.[576] Buna görə də paşa həmin gün Bəyaziddəki 11-ci diviziya vasitəsilə Veysəl bəyə cavab verdi və türk hərbi dairələrinin bolşeviklərlə münasibətinə böyük əhəmiyyət verdiklərini çox açıq şəkildə göstərən bir göstəriş verdi:

l.Azərbaycan qüvvələrinin nəyin bahasına olursa-olsun Naxçıvanda qalmaları mümkün deyildir. Çünki(oxumaq mümkün olmadı) bolşeviklərə müqavimət göstəriləcək. Bu, həm bizim, həm də naxçıvanlıların fəlakətinə səbəb olacaqdır. Buna görə də təcili Bəyazidə göndərilməsi lazımdır.

2. Əgər, bu qüvvə orada qalırsa və bolşeviklərə qarşı bir müxalifət fikir hiss edilsə, Naxçıvandakı hissəmizi oradan çıxaracağıq. Ermənilər Naxçıvanı istila etsə, biz yardım etməyəcəyik, bolşeviklərlə müharibə etsələr, biz də qüvvəmizlə bolşeviklərə kömək etmək üçün Naxçıvana gələcəyik. Bu, açıq şəkildə onlara bildirilməlidir.[577]

Kazım Qarabəkir paşa qeyd etdiyimiz göstərişlə kifayətlənmədi. Əhaliyə bununla əlaqədar məlumat vermək lazım idi. Xalqa xitabən yazılmış bəyannaməni 14 iyulda Bəyazid yolu ilə Naxçıvana göndərdi: “Fransız və ingilis hökumətləri Türkiyənin və islamiyyətin məhvi üçün çalışırdılar. Bu səbəbdən də bizim bütün müsəlman dünyası üçün çarə bolşeviklərlə əlaqə yaratmaqdadır. Buna qərar verilmiş və siyasi işə başlanılmışdır.

---

[574] Yazılar çox pozulmuşdur, cırılmışdır. Yazının 2-ci hissəsi çox pozulmuş və cırılmışdır.

[575] ATASE, A. 6/6686, Kls.921,s.6-1, F.1-2,1-3

[576]Türk hərbi dairələrinin milli mübarizəyə dəstəyi təmin etmək məqsədilə Sovet Rusiyası ilə münasibət saxlamaları, Azərbaycanın, hətta Naxçıvanın bolşevikləşdirilməsində təsirli rol oynamışdır. Bu isə Türkiyənin Azərbaycan türkünə xəyanəti kimi dəyərləndirilmişdir. İlk baxışda bu, doğru görünə bilər. Ancaq bu bir həqiqət deyildir. Çünki, türk hərbi dairələri olmadan da bu bölgələr sovetləşəcəkdi. Onların bolşeviklərə qarşı çıxacaq qüvvəsi yox idi. Türk zabitlərinin rolu hadisələri tezləşdirmək olmuşdur.

[577] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.1-1

Şübhəsiz, naxçıvanlıların müqəddəratını Türkiyə, Azərbaycan və Rus sovet hökuməti müzakirə edərək müəyyənləşdirəcəkdir. Naxçıvan əhalisi bunu yaxşıca başa düşüb, fikirləşməli və bolşeviklərlə birləşməyə səy göstərməlidir. Biz naxçıvanlılara ən zəif, ən kədərli, ən dərdli vaxtlarında belə hər cür fədakarlıq etdik. Bundan artıq millətin imkanı yoxdur.

Belə bir vəziyyətdə Naxçıvanda bizimlə bolşeviklərin birləşməsinə mane olan şəxslərin olmasını və bolşeviklərə müqavimətə cəhd göstərildiyini eşitdikdə dilxor oldum. Əgər Naxçıvan hələ xilas olduğunu görə bilmirsə, fəlakətlərə hazır olsun.

Mənim tanıdığım Naxçıvan fədakardır, mərddir. Bəzi cibini sevənlərin şərindən biçarə xalqı qurtarmaq üçün Sizə bildirirəm ki, çıxış yolu bolşeviklərlə Azərbaycan hökumətinin razılığa gəlməsidir. Belə etsəniz, həm özünüzü, həm də bizi qurtararsınız. Bolşeviklərin Azərbaycanda elədikləri haqqındakı sözlər iftiradır. İngilis intriqasıdır. Azərbaycandan gələn zabitlərimiz Türkiyədə daxili və xarici vəziyyəti gördükdən sonra Qarabağda onlara qarşı olan hərəkətlərdə gizli ingilis barmağı olduğunu vaxtında başa düşmüşlər və elədikləri xətaya görə vicdan əzabı çəkirlər.[578]

Türkiyənin sovetlərlə razılıq siyasətinin əlverişli bir qərar olduğunu Kazım Qarabəkir paşa Naxçıvana fasiləsiz bildirirdi. Paşa keçmiş Azərbaycan hökuməti ilə yeni bolşevik hökumətini qarşılaşdırır, yeni hökumətin Türkiyəyə yardım etdiyini, Bakıdakı daşnakları güllələdiyini bildirir, gileylə müsavatçılardan söhbət açırdı.[579] Paşa[580] bir tərəfdən Veysəl bəyə xəbərdarlıq edir ki, Kalbalı xan bolşeviklərə qarşı ermənilərlə razılaşa bilər, digər tərəfdən TVMM sədrliyinə göndərdiyi 17 iyul tarixli teleqramda Naxçıvanda bolşeviklərin hər hansı bir təhlükə ilə üz-üzə gəlməməsi üçün lazımi tədbirlər gördüyünü ifadə edir, bu sahədə də məclisin işə başlamasını, Naxçıvandakı türk dairələrinə göstəriş verilməsini və əhaliyə müraciətən bir bəyannamə nəşr edilməsini istəyirdi.[581]

Türk hərbi dairələri Naxçıvanda bolşeviklərə qarşı münasibəti dəyişdirməyə çalışdığı vaxtlarda bir çox yeni bolşevik təbliğatçıları Naxçıvana gəlməyə başladı. Belə ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsi əhalini bolşevizmə alışdırmaq üçün bir qrup təbliğatçı göndərdiyi kimi,[582] Bakıdakı Türk Kommunist təşkilatının göndərdiyi və 5 nəfərdən ibarət bir heyət də Ordubada gəlmiş, 17 iyulda

---

[578] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.1-11

[579] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-8. Bakıda daşnak partiyasına mənsub ermənilərin Azərbaycan Sovet hökuməti tərəfindən edam edildiyi "Albayraq" vasitəsilə oxuculara çatdırılmışdır. ("Albayraq", 26 iyul 1336/1920, №102)

[580] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.1-13

[581] ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.13.

[582] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.68.

Naxçıvana yola düşmüşdü. Naxçıvanda bir şöbə açıb burdan da Türkiyə ilə əlaqə yaratmaq istəyən türk kommunistlərin bir məqsədi də Naxçıvanda olan bolşeviklər əleyhinə qruplarla Türkiyə və Qızıl Ordu arasında əlaqə yaratmaq, münasibətləri düzəltmək idi.[583] Məqsədlərini yerinə yetirmək üçün Naxçıvanda Milli Şura sədri Cəfərqulu xan ilə bir görüş keçirdilər,[584] ardınca 18 avqustda Şahtaxtıya gələrək türk hərbi dairələri ilə əlaqə yaratdılar.[585]

Türk kommunistlərinin Naxçıvana gəlib, işə başladıqları vaxt regionda siyasi hava da dəyişməyə başlamışdı. Türk hərbi dairələrinin təzyiqi və Kazım Qarabəkir paşanın açıq və sərt şəkildə müttəfiqimiz dediyi[586] Qızıl Ordunun Naxçıvana daha yaxınlaşması, bolşeviklərə qarşı çıxmaq istəyən Azərbaycan süvarilərinin yavaş-yavaş Bəyazidə getməyə başlaması,[587] Ermənistanın bütün Naxçıvanı istəmək təklifi[588] kimi səbəblər Naxçıvan Milli Şurasının siyasətini dəyişdirməsinə, Türkiyə və bilavasitə bolşevik əleyhdarlarından əl çəkməsinə səbəb olmuşdur.

Bir tərəfdən Veysəl bəy ilə münasibətlərini düzəltmək üçün işə başlayan Naxçıvan Milli Şurası,[589] digər tərəfdən də Bazarçayına gələn Qızıl Ordunun yanına türk hərbi hissəsi ilə birgə 19 və 20 iyul tarixlərində 2 ayrı-ayrı heyət göndərilmiş və bolşeviklərə təminat verilmişdir ki, Naxçıvanda olan Azərbaycan qüvvələri onlara qarşı çıxmayacaq.[590] Beləcə Naxçıvanda bolşevik əleyhdarları fırtınası dayandırıldığından türk hərbi dairələri rahat bir nəfəs aldılar.

### 3. Qızıl Ordu Naxçıvan yolunda

Azərbaycanda bolşeviklərin iqtidara gəlməsinə əsasən yeni hökumətin ilk işlərindən biri Bakıda olan Sovet Rusiyası nümayəndəsi ilə bərabər, 2 may 1920-ci ildə Ermənistana nota vermək olmuşdur.[591] Ermənistandan Qarabağ və Zəngəzurdan çıxması tələb edilirdi. Əks təqdirdə Azərbaycan Ermənistanı ona müharibə elan etmiş hesab edəcəkdi.[592] Ermənistan hökuməti

[583] ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.13.13-1. ATASE, A. 6/2865 kls.849. s.2-86. F.11-1. Türkiyə Kommunist Partiyasının birinci konfransı D.28. Tuncay. Türkiyədə sol axınlar 1. s.284.
[584] ATASE, A. 6/6686, Kls.923,D.2-5,6, F.72-3.
[585] ATASE, A. 6/2865 kls.849. s.2-86. F.11-1. ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.14-3.
[586] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.40.
[587] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.31-2. ATASE, A.5/2793, Kls.814, D.5-9, F.59.
[588] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.41, Ünüvar. Bolşeviklərlə 8 ay. s.30-31.
[589] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.39-1, Ünüvar. Bolşeviklərlə 8 ay. s.30-31.
[590] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.40-3.
[591] Azərbaycan hökuməti adından notanı Xarici İşlər Komissarı müavini M.D.Hüseynov vermişdir. (Nəsib Nəsibzadə. AKP və vətənin bütövlüyü problemi, Azadlıq, 9 avqust 1991).
[592] Albayraq, 13 may 1336/1920. №91 Qarabəkir. İstiqlal müharibəmiz. s.683. Yerasimos. Millətlər və sərhədlər s.334. Jaske Qarabağ, Zəngəzur və Naxçıvan s.488 Nəsibzadə. Vətənin bütövlüyü problemi.

təklifləri qəbul etməmiş, yayındırıcı cavablar vermiş, digər tərəfdən, Moskva ilə razılığa gəlmək üçün fəaliyyətə başlamışdı.[593] Ermənistanın rədd cavabından sonra bolşevik qüvvələri Qarabağ və Zəngəzura hücum üçün hazırlıq işlərinə başladılar.[594]

Ancaq Qızıl ordu hissələri ermənilərə qarşı hərəkətə başlayıb Naxçıvana gəlməyi nəzərdə tutduğu vaxtlarda Nuri paşanın liderliyində Gəncədə sovetlərə qarşı bir üsyan başladı. 9 iyulda Nuri paşa Qızıl Orduya məğlub olaraq Qarabağa, oradan da Ordubad yaxınlığındakı Xudafərin körpüsünə doğru geri çəkildi.[595] Anadoludakı Milli mübarizə haqqında sovetlərin şübhələri artdığı bir vaxtda Qızıl Ordu hissələri də Nuri paşanın ardınca Qarabağa girdi.[596] Orconikidze erməni ordusundan Qarabağdan çıxmağı tələb etdi, ingilislərə arxalanıb cəsarətlənən ermənilər rədd cavabı verdilər. Buna görə də Qızıl Ordu hissələri hərəkətə keçərək Qarabağı işğal etdilər.[597] Zəngəzura təzyiq göstərməyə başladılar. Bu vaxt Qarabağda olan Naim Cavad bəyin Şərq cəbhəsi komandanlığına göndərdiyi və 22 iyunda alınan məktubda bolşeviklərin Zəngəzur yolu ilə Naxçıvana gəlmələrinin dəqiq olduğunu bildirdilər.[598] Ancaq Qızıl Ordunun qabağında ciddi maneələr var idi. Naxçıvanda feodalların və Azərbaycan zabitlərinin qızışdırılması ilə bolşeviklər əleyhinə bir fəaliyyət başlanmışdı. Bolşeviklər üçün Anadolu və İran yolunu bağlamaq istəyən ingilislərin təsiri ilə erməni hökuməti 6.000 nəfərlik Qızıl Ordunun Zəngəzur və Naxçıvana gəlməsinə mane olmaq istəyirdi. Polşa tərəfində müharibə başlanması X Qızıl Ordunun bu cəbhəyə göndərilməsinə səbəb oldu və digər tərəfdən, bu vaxt Moskvada Sovet Rusiyası ilə Ermənistan heyətləri arasında görüşlər keçirilirdi.[599] Məhz bu səbəblərə görə Qızıl Ordunun Naxçıvan yolundakı hərəkəti dayanmışdı. Sovet dairələri də daha çox Moskvada keçiriləcək görüşlərin nəticəsini gözləyirdi.

Nəticədə iki tərəf arasında iyun ayı ərzində davam edən görüşlərdə rusların Anadolu məsələsində vasitəçilik etməsi şərti ilə yolun açılması

---

[593] Albayraq, 13 may 1920. №91. Qarabəkir. İstiqlal müharibəmiz. s.683. Nəsibzadə. Vətənin bütövlüyü problemi,Nassibian Armenian Question. s.198

[594] TBMM (GCZC, D.1C.1.s.22) C.1 s.22, Albayraq, 13 may 1336/1920. №91. Batumidə dərc olunan İslam Gürcüstanı qəzeti Ermənistanın Zəngəzur və Qarabağdan çıxması üçün ultimatum verilməsi və hərbi əməliyyat üçün hazırlıq görməsi haqqında oxuculara məlumat vermişdir. Azərbaycan hökuməti Azərbaycan Qızıl əsgərinin Ermənistana hücumu və Anadolu Osmanlı türkləri ilə birləşmək üçün işə başladığını elan etmişdir. (“Albayraq”, 10 may 1336 №90. Kazım Qarabəkir paşanın makina səhifələri qeydləri.s.40-41)

[595] ATASE, A. 1/4282, Kls.586, D.114,34, F.70-1, 52. Qarabəkir. İstiqlal müharibəmiz. s.771. Yerasimos Türk-sovet münasibətləri s. 160. Yerasimos. Millətlər və sərhədlər, s.336.

[596] Çox güman ki, Gəncədəki üsyana səbəb Çiçerinin Orconikidzeye göndərdiyi 2 iyun tarixli teleqramında Bakı hökumətinə indilik Şuşa və Cəbrayıl bölgələrini nəzarət altına alabiləcəklərini,Naxçıvan və Culfanın ələ keçirilməsinin bu vəziyyətdə mümkün olmadığını bildirməsi də olmuşdur. (Nəsibzadə. Vətənin bütövlüyü problemi).

[597] Yerasimos. Millətlər və sərhədlər, s.336

[598] ATASE, A. 1/4282, Kls.586, D.114-34, F.83

[599] Qarabəkir. İstiqlal müharibəmiz. s.800. Yerasimos Türk-sovet münasibətləri s. 160.

qərara alındı. 1 iyulda erməni heyətin sədri Şant vəziyyəti hökumətinə bildirdi. Ermənilər yolun açılması şərtini qəbul etdilər. 12 iyulda Xəlil paşa yanında Sovet səfirliyinin katibi Y.Y.Upmal Anqarski sədrliyindəki bolşevik heyəti Bakıya yola düşdü. Onlar Türkiyəyə yardım məqsədilə 500 kq qızıl və s. aparırdılar.[600]

Ancaq Xəlil paşanın dəstəsi yolda ikən Ermənistan hökuməti ingilislərin təsiri ilə Zəngəzur yolunu bağladı. Belə bir vəziyyətdə 11-ci Qızıl Ordu komandiri Levandovski bütün məsuliyyəti öz üzərinə götürərək 5 iyulda Şuşada olan 32-ci piyada diviziyasına Zəngəzurun mərkəzi Gorusu işğal etmək əmrini verdi. 8 iyulda Gorus ətrafındakı Dro komandanlığındakı erməni qüvvələrinə hücum edilmiş, onlar Bazarçayı boyunca Yeni Bəyazidə doğru çəkilməyə başladılar və həmin gün Gorus bolşeviklərin əlinə keçdi.[601] Ancaq Moskva bu əməliyyata tərəfdar deyildi.Polşa cəbhəsində döyüşlər şiddətləndiyindən Qafqazdakı hərbi hissələrin mühüm hissəsi bu cəbhəyə göndərilmişdi. Onlar müvəqqəti olsa da, Qafqazda sülh yaratmaq istəyirdilər. Buna görə də Zəngəzur və Naxçıvanı ermənilərə vermək, bunun müqabilində ermənilərdən Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan istifadə izni almaq ümidilə Orconikidzeni təcili Bakıya göndərdilər.[602]

Bu vaxt Gorusda olan Qızıl Ordu hissələri əməliyyatı tamamilə dayandırmışdı. Şərq işləri komissarı Orconikidze Bakıya gəlməmişdən Levandovski əməliyyat üçün əmr verməyəcəyini bildirdi və hətta 32-ci diviziya komandiri, Gorusda onunla görüşən və Naxçıvana kiçik bir hissə göndərilməsini təklif edən Naim Cavad bəyin xahişini qəbul etmədi. 15 iyulda Orconikidze Bakıya gəldi və Xəlil paşa onunla Qızıl Ordunun yolu açması məsələsini müzakirə etdi. Orconikidze əvvəlcə hökumətinin ermənilərlə razılığa gəlmək üçün irəli sürdüyü təklifi dilə gətirəndə Xəlil paşa qəti etirazını bildirdi, buna görə də hələlik Gorus-Naxçıvan yolunun açılması məsələsində razılığa gəldilər, hətta Orconikidze bu məsələ ilə əlaqədar Rostovdakı Qafqaz Ümumi Komandanlığının etirazına belə məhəl qoymadı. Qəbul edilmiş qərara əsasən Gorusdan yola düşən Qızıl Ordu hissələri Xəlil paşanı və Türkiyəyə gedəcək Sovet heyətini Naxçıvana gətirəcək, sonra qayıdacaqdı.[603]

---

[600] Yerasimos. Türk-sovet münasibətləri s. 160. Yerasimos. Millətlər və sərhədlər, s.336. Sovet heyəti Çiçerin tərəfindən M.K.Paşaya yazılmış bu məktubu da Türkiyəyə gətirdi. (Dokumentı i vneşnoy politiki SSSR. T.III. Moskva 1959. s. №2. s.11).

[601] ATASE, A.5/2793, Kls.815, D.11-69, F.12. Qarabəkir. İstiqlal müharibəmiz. Yerasimos Türk-sovet münasibətləri s. 161. Yerasimos. Millətlər və sərhədlər, s. 336-337. Bəzi türk mənbələrində Gorusun 4 iyulda Qızıl Ordu tərəfindən işğal edildiyi göstərilir. (ATASE, A. 6/2865 kls.869. D.2-86. F.11-1); ATASE, A. 1/4282, Kls.587, s.116-6, F.21-1, "Albayraq" 26 iyul 1920. №102. "İstiqbal" 25 iyul, 1920, №158 ) Levandovskinin göstərdiyi 8 iyul tarixini daha dəqiq hesab edirik.

[602] Yerasimos. Türk-sovet münasibətləri s. 162

[603] ATASE, A. 1/4282, Kls.586, s.115-35, F.25-13, 25-14, 25-16. Kazım Qarabəkir paşanın şəxsi arxivindən. Xəlil

Bakıda qəbul edilmiş qərarlara əsasən 19 iyulda Gorusdakı Qızıl Ordu hissələri möhkəmləndirilmiş və 28-ci diviziyaya bağlı 1-ci batalyon hərəkətə keçərək 20 iyulda Bazarçayına gəldi.[604] Digər tərəfdən türk rabitə zabitinin bildirişinə görə, Gorusda olan 1-ci və 3-cü Qafqaz (Kuban) alayları aldıqları əmrə əsasən 23 iyulda Naxçıvana yola düşmüşdülər.[605] Onlardan 3-cü Qafqaz alayı bölgədə qaldı.[606] V.Tarhov komandasındakı 1-ci Qafqaz alayı yoluna davam etdi. Ancaq çox ağır-ağır irəliləyirdi.[607]Çünki erməni müqaviməti ilə o qədər də qarşılaşmayan Qızıl ordu hissələri dayandıqları yerdə xalqla birlikdə mitinqlər keçirir, inqilabi komitələr təşkil edirdi.[608]

## 4. Gözlənilən görüş

Gorusdan cənuba doğru ağır-ağır irəliləyən Tarhov komandasındakı 1-ci Qafqaz süvari alayı, Yerasimovun dediyinə görə[609] Şahbuza gəlmiş və buraya gəlmələrinin üçüncü günü Şahtaxtı hadisələrindən xəbər tutmuşdular. Onlar sürətlə hərəkət edərək 28 iyulda[610] Naxçıvana gəldilər.[611] Qızıl süvari alayı əhalinin alqışları altında türk hissəsinin yavəri tərəfindən türk ordusu adından qarşılanmış və müxtəlif çıxışlar edilmişdir. Alay komandiri Tarhov müsəlman qaçqınlarının vəziyyətindən çox məyus olduqlarınıvə daşnakların yaxın bir zamanda Denikinin uğradığı qorxunc aqibətlə

paşanın Qarabəkir paşaya göndərdiyi 3 avqust tarixli teleqram. Kazım Qarabəkir, İstiqlal müharibəmiz. s.807. Yerasimos. Türk-sovet münasibətləri, s. 162

[604]Bazarçayına gələn Qızıl Ordu batalyonu ilə Şahtaxtıdakı türk hissəsi arasında 20 və 21 iyulda qarşılıqlı anlaşmalar olmuşdu. (ATASE, A. 6/6686, Kls.923,s.1-2, f.42-1, 46-3) Qızıl Ordunun hərəkətə keçməsi ilə əlaqədar Ermənistan hökuməti Çiçerinə, Tiflisdəki Sovet Rusiyası nümayəndəsinə və Azərbaycan Xarici İşlər komissarlığına protest etdi. (İstiqbal, 21 iyun 1920, №157) "İstiqbal" 25 iyul 1920, №158. Albayraq, 26 iyun 1920, № 102

[605]ATASE, A. 1/4282, Kls.587, s.116-6, F.10-3, 21-1. ATASE, A. 6/6686, Kls.924,s.6-1,F.2-9

[606] Kazım Qarabəkir paşa belə fikirləşirdi ki, 3-cü Qafqaz alayı Gorus-Naxçıvan yolunu ermənilərdən qorumaq üçün bölgədə qalmasına aid əmr almışdır. (ATASE, A. 1/4282, Kls.587, s.116-6, F.171).

[607] Kazım Qarabəkir paşaya görə, Qızıl Ordu hissələri Naxçıvan yolunda ermənilərdən 10.000 silah toplamış, qabaqcıl şəxsləri də həbs etmişdi.

[608]Yerasimos Türk-sovet münasibətləri, s. 164

[609]Yerasimos. Türk-sovet münasibətləri, s. 164

[610]Qızıl Ordunun Naxçıvana gəlmə vaxtı haqqında ziddiyyətli fikirlər var. Bir mənbədə saat $10.^{00}$da (ATASE, A.5/2793, Kls.814, D.5-9, F.258) digər bir mənbədə günorta vaxtı (ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.69) Ünüvar. Bolşeviklərlə 8 ay. s.34) göstərilmiş, Mədətov isə Qızıl Ordunun Naxçıvana axşam üstü gəldiyini göstərmişdir. (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.72)

[611]ATASE, A.5/2793, Kls.814, D.5-9, F.258; ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.69, ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21-1; ATASE, A. 1/4282, Kls.586, D.115-35, ATASE, A. 1/4282, Kls.588, D.36-118, F.6, ATASE, A. 1/4282, Kls.587, s.116-6, F.21,23; TBMM. GCZC,D.1. 35. III c.s.208. Borba, 5 avqust 1920 №175. Qarabəkir. İstiqlal müharibəmiz. D.787-798. Atatürkün çıxış və nitqləri. s.99. Ünüvar. Bolşeviklərlə 8 ay. s.36. Zülfəli İbrahimov. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının zəfəri, B.1973, s.421. Şəmsəddin Bağırov. Bir qaragün dostluğu, s.49. Jaske. Qarabağ, Zəngəzur və Naxçıvan s.488. Əli Əliyev. Bu məsələ barədə ilk dəfə, Araz-türk respublikası, Yaddaşdan xatirələr, Azərbaycan, 1 may 1991. №18(81); Naxçıvana Qızıl Ordu hissələrinin gəlməsi 4 avqustda Sovet Rusiyası Xarici İşlər Komissarı müavini Qaraxan tərəfindən Moskvadakı türk heyətinə bildirilmişdi. (Tengirşek Vətən xidmətində s.153. Cəbəsoy. Moskva xatirələri, s.80-81).

üzləşəcəyini bildirdi.[612]

850 əsgər, 30 pulemyot, 4 rus dağ topu ilə[613] Naxçıvana gələn rus qızıl alayını böyük sıxıntılar gözləyirdi. Şahtaxtını işğal edən ermənilərin Naxçıvana hücum edəcəkləri haqqında şəhərdə və bölgədə böyük bir panika var idi. Erməni təhlükəsindən qaçan əhali axın-axın İrana mühacirət edirdi. Şahtaxtının əldən çıxması ilə Türkiyə-Sovet Rusiyası əlaqəsini təmin etmək sahəsində mühüm bir qapı bağlanmışdı. Elə bu səbəblərə görə I Kuban alayı komandiri Tarhov 29 iyulda ermənilərə bir ultimatum verdi. Şahtaxtının boşaldılması tələb edilərək müzakirə üçün nümayəndələrini Naxçıvana göndərmələri bildirildi.[614] Həmin günün axşamı Xəlil paşa,[615] yanında Naim Cavad bəy və 200 süvari Naxçıvana gəldilər.[616] 30 iyulda ermənilər Naxçıvan Milli Şurasına ultimatum verdilər. Onlar xəbərdarlıq edirdilər ki, 31 iyul, günortaya qədər təslim olsunlar, əks-təqdirdə hərbi əməliyyatlara başlayacaqlar.[617] Çox güman ki, Xəlil paşanın təsiri ilə Tarhovun imzası ilə ermənilərə bir ultimatum verildi. Türk və bolşevik ordularının[618] Naxçıvan və ətrafını nəzarət altına aldığı, məqsədləri ermənilərə hücum etmək olmadığı, ancaq baş verə biləcək bir hücumun qarşısını almaq üçün belə bir xəbərdarlıq edildiyi bildirilirdi.[619]

---

[612] ATASE, A. 1/4282, Kls.586, s.115-35, F.23, ATASE, A. 6/6686, Kls.923,s.1-2, F.63. Qarabəkir. İstiqlal müharibəmiz. s.798, Yerasimos. Türk-sovet münasibətləri, s. 164.

[613] ATASE, A.5/2793, Kls.814, s.5-9, F.258, ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21-1, ATASE, A. 6/6686, Kls.923,s.1-2, F.69. Qarabəkir. İstiqlal müharibəmiz. s.787. Ünüvar əsərində süvari alayı deyə cəbhə komandanlığına bildirilən bolşevik qüvvəsinin 50-ə qədər atlı türk və erməni kommunistlərindən ibarət olduğunu bildirir. Xəlil paşanın rəhbərliyində 50-ə qədər atlı Naxçıvana gəlmişdi. (Ünüvar. Bolşeviklərlə 8 ay. s.44). Mənbələrdən məlumdur ki, bir qızıl ordu süvari alayının Naxçıvana gəlməsi dəqiqdir. Bu rəqəmin 50 olması mümkün deyil. 50 əsgərin 30 pulemyotdan, 4 topdan istifadə etməsi mümkün deyildir. Süvari alayında türk əsirlərindən ibarət əsgərlərin olması o demək deyildir ki, Qızıl Ordu türk və ermənilərdən ibarətdir. Cəbhə komandanlığına mütəmadi göndərilən raportlarda, şəxsən Veysəl bəyin 29 iyul tarixli raportunda (ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.69) süvari alayının tərkibi yuxarıda qeyd olunan kimi göstərilmişdi. Naxçıvandakı bolşeviklərlə əlaqə yaratmaq həvalə olunan podpolkovnik Rəşad bəyin Kazım Qarabəkir paşaya verdiyi raporta əsasən Naxçıvandakıbolşevik qüvvələri 1000 süvaridən, 5 top və 30 pulemyotdan ibarətdir. (ATASE, A. 6/3152 Kls.880. d.28-7. F-65-1).

[614] ATASE, A.5/2793, Kls.814, D.5-9, F.266. Qarabəkir. İstiqlal müharibəmiz. s.787. Tarhov nümayəndə olaraq türk, rus və naxçıvanlı – 3 nəfərlik bir heyəti İrəvana göndərmiş, ancaq sonra rus və naxçıvanlı qayıtdığı halda türk Hüseyn qayıtmamışdı. Alınan məlumatlardan bəlli olur ki, o, Şahtaxtıya çatar-çatmaz öldürülmüşdü. Buna görə də oktyabr ayında Ermənistan hökumətinə bir protest verildi, təzminat istənildi. (ATASE, A. 6/6686, Kls.814,D.5-9, f.69).

[615] Xəlil paşanın Şahbuz ətrafina gəlməsi Naxçıvan əhalisini və mühacirlərini sevindirmişdi. (Ə.Əliyev. Qanlı günlərimiz, Naxçıvan 1918-1920. B.1993. s.132).

[616] ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21. Qarabəkir. İstiqlal müharibəmiz. Xəlil paşa, Bitməyən savaş, s.334. Yerasimos. Türk-sovet münasibətləri, s. 164. Veysəl bəy bildirirdi ki, Xəlil paşa 28 iyulda Naxçıvana gəlmişdi. (Ünüvar. Bolşeviklərlə 8 ay. s.44) Əliyev isə 31 iyul axşamı Xəlil paşanın Şahbuza, oradan da Naxçıvana yola düşdüyünü göstərir. (Əliyev. Qanlı günlərimiz s.131) Hadisələrin inkişafı bu 2 ifadəyə ziddir.

[617] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-13, ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.14, ATASE, A.5/2793, Kls.814, D.5-9, F.278, ATASE, A. 1/4282, Kls.587, s.7-117, F.1.

[618] Bu vaxt Naxçıvanda bir-iki türk zabitlərindən başqa nümayəndə yox idi. Ermənilərə qarşı qüvvətli görünmək üçün türk qüvvələrinin varlığından bəhs edilmişdi.

[619] Bir hərbi raportda göstərilirdi ki, Tarhov tərəfindən ermənilərə verilən ultimatumda Şahtaxtının 48 saat ərzində boşaldılması tələb edilirdi. Ancaq başqa sənədlərə əsasən deyə bilərik ki, 29 iyulda Şahtaxtını boşaltmaq üçün bir

Digər tərəfdən də Xəlil paşa və Tarhov ermənilərin hücumundan narahatçılıq keçirdilər. Çünki bolşevik qüvvələri belə bir hərbi əməliyyata qarşı çıxacaq gücdə deyildilər. Naxçıvanın yerli hərbi təşkilatı, demək olar ki, dağılmışdı. Əhalinin İrana mühacirəti azalsa da yenə də davam edirdi. Buna görə də Tarhovun təklifi və Xəlil paşanın razılığı ilə Veysəl bəyin komandanlığı altındakı türk hərbi hissəsinin Naxçıvana çağırılması məqsədəuyğun görüldü. Hissəyə lazımi əmrin verilməsi üçün Xəlil paşa 30 iyulda Şərq Cəbhəsi komandanlığına bir teleqram göndərdi. Səhərisi gün teleqram mətni saat 5:30- da bolşevik süvari alayı yavəri Ştul və Türkiyə Kommunist təşkilatına mənsub Camal tərəfinden Ərəblərdəki hərbi hissə qərargahına, sonra isə dərhal telefonla Bəyazidə çatdırıldı. Xəlil paşa Naxçıvanda Qızıl ordu hissələrinin kifayət qədər olmadığından bəhs etmiş, əlavə qüvvə göndərənə qədər türk hərbi hissəsinin Naxçıvana gəlməsini, bolşevik qüvvələri ilə əlaqə yaratmasını istəyirdi.[620] Veysəl bəyə görə isə Xəlil paşa teleqramda,"hərbi hissənin Naxçıvandan çıxması bolşeviklər tərəfindən qorxaqlığımız hesab ediləcək", - deyir və hissənin təcili Naxçıvana göndərilməsini tələb edirdi.[621]

Kazım Qarabəkir 28-29 iyulda Bəyazid yolu ilə göndərdiyi göstərişdə bolşevik qüvvələrinin Naxçıvana gəldiyini bildirərək, hissənin Şahtaxtının qarşısındakı Muradlı və Ərəblər ətrafında yerləşməsini və buradan Qızıl Ordu qüvvələri ilə əlaqə yaratmasını tələb etmiş, bolşeviklərlə ermənilər arasında döyüş başlarsa, hissənin Şahtaxtıya hücum etməsini, Araz keçidlərini və körpünün mühafizə olunmasını əmr etmişdi.[622]

Bu vaxt Qızıl Ordunun Naxçıvana gəlməsi Ərəblər kəndi ətrafında olan türk hərbi hissəsini çox sevindirmişdi. Veysəl bəy aldığı göstərişlər əsasında müəyyən işlərlə məşğul olur, digər tərəfdən bolşeviklərin gəlməsini sevinclə əmri altındakılara bildirirdi. Bolşeviklər gəldikdən sonra müsəlman əhaliyə zülm edən ermənilərə lazımi cavab veriləcəkdi. Türk əsgəri çəkdiyi əzabların mükafatını alacaqdı. Qızıl Ordu ilə yaxşı münasibətlər yaratmaq məmləkət üçün böyük fürsət idi. Bu məqsədlə hər kəs əlindən gələni edəcək və bu dost ilə münasibəti qoruyacaqdı. Çünki Anadolunu qurtarmaq üçün orduya lazım olan hər şey bu yoldan gələcəkdi.[623] Xəlil paşanın istəyi Azərbaycan ilə əlaqə yolunun bağlanmaması, nüfuz qazanmaq və bolşeviklərlə müştərək hərəkət edildiyini göstərmək idi. Bolşeviklərin etimadını qazanmaq məqsədilə Kazım

---

ultimatum verən Tarhovun səhərisi gün belə bir təklif etməsi mümkün deyildir. Digər sənədlərdə 30 iyul tarixli ultimatumdan bəhs edilirdi.

[620] ATASE, A.5/2793, Kls.814, D.5-9, F.278, ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.6-14, 17, 22. Ünüvar. Bolşeviklərlə 8 ay. s.37. Qarabəkir. İstiqlal müharibəmiz. s.787. Yerasimos. Türk-sovet münasibətləri, s. 164

[621] Ünüvar. Bolşeviklərlə 8 ay. s.37

[622] ATASE, A.5/2793, Kls.587, D.5-9, F.245, ATASE, A. 6/6686, Kls.923,D.2-5, 6, F.122. ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-11 Ünüvar. Bolşeviklərlə 8 ay. s.36

[623] ATASE, A. 6/6686, Kls.923,D.1-2, F.69

Qarabəkir paşa tərəfindən qəbul edilmiş[624] və 31 iyulda səhər Veysəl bəyə belə bir əmr verilmişdi: "Veysəl bəyin hərbi hissəsindən süvari rotası Şahtaxtı keçidini ermənilərdən mühafizə edəcək, ermənilər çıxdıqdan sonra qalan qüvvələrlə Qaraçuq keçidi yolu ilə Naxçıvana gələcək və Xəlil paşanın əmri altına daxil olacaq.[625]Kazım Qarabəkir paşa həmingün Baş Komandanlığı hadisələrdən xəbərdar etmişdi.[626]

Veysəl bəyin komandirlik etdiyi 3 batalyon, 1 batareya topçudan ibarət olan hissənin Naxçıvana getmək və Xəlil paşanın əmri altına girmək üçün yol hazırlığı gördüyünü də bildirdi.[627] Veysəl bəy bu məsələ ilə əlaqədar əsgərlərə lazımi göstərişlər verdi və 31 iyul axşamı yola düşəcəklərini bildirdi[628] Yol hazırlığı və yola düşmək haqqında Veysəl bəy bu məlumatı vermişdi: "Əmr 31 iyulda səhər gəlmişdi. Həmişəki işlərdən başqa, bir də o zabitlərin rütbə məsələsi var idi, bolşeviklər paqonlara, gümüşü saplara düşmən imişlər. Dostlarımı da çətin vəziyyətə salmamaq üçün rütbə işarələrini çıxardıq, papaqlarımıza qırmızı bezdən bir ay-ulduz tikdik. Həmin gün saat $16^{00}$-da 2 yol ilə hərəkət etdik. Hissənin yavəri Asim bəyin müəyyən etdiyi, arabaların keçməsinə əlverişli olan yolu topçulara və ağır arabalara verdik, cığır isə piyada və yükdaşıyan heyvanlar üçün nəzərdə tutduq. 1920-ci ilin avqust ayının 1-də saat 3-də piyada, saat 10-da topçu və arabalar Şibli kəndinə çatdı. İran ərazisində yerləşən Şiblidə hissəni qarşılayan Xəlil paşa, Naim Cavad bəy və Bağırov yoldaş Veysəl bəyin gecikməsindən giley və şikayətlərini bildirdilər.

Onlar narahat idilər ki, ermənilər Naxçıvana hücum edib bolşevikləri məyus edərlər, ayıb olar, buna görə də hissənin sürətlə hərəkət etməsini istəyirdilər.

Veysəl bəy Şibli kəndinin önündə erməni qüvvələrinə qarşı bir sıra təhlükəsizlik tədbirləri gördükdən sonra yola düşdü və Araz çayının

---

[624] ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.22

[625] ATASE, A.5/2793, Kls.814, D.5-9, F.269. Ünüvar. Bolşeviklərlə 8 ay, s.38. Kazım Qarabəkir paşa türk hərbi hissəsinin Naxçıvanda bolşeviklərlə əlaqəyə girməsindən qorxanların çox olduğunu, hətta 11-ci diviziya komandiri Cavid bəyin öz əlimizlə atəşə atılırıq yazdığını bildirmişdi. (Qarabəkir. İstiqlal müharibəmiz. s.787)

[626] ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.14, ATASE, A.5/2793, Kls.814, D.5-9, F.814, Kazım Qarabəkir paşa 31 iyul tarixli teleqramından xəbərdar olan Baş ştab rəisi İsmət bəy hərbi hissənin Naxçıvana gedib Xəlil paşanın əmri altına girməsini məqsədəuyğun hesab etmirdi. Nəyə görə gec cavab verdiyi bilinməyən İsmət bəy bu teleqrama cavab olaraq göndərdiyi 4 avqust tarixli şifrli teleqramda bildirirdi ki, Naxçıvanda Xəlil paşanın əmrində olan hissə bir möhkəm erməni hücumundan dağıla və bununla da regionda Türkiyə varlığı sona çata bilər. Bolşeviklərin kifayət qədər qüvvəsi olduğu halda, türk qüvvələrindən yardım istəməsi onların ermənilərlə döyüşmək istəməməsini göstərir. Azərbaycanda sərbəst surətdə silahların toplanması onu düşündürür. Türk qüvvələrinin Naxçıvana göndərilməsi Arazın cənubunda qalması lazımdır. Ermənilərlə münaqişə olsa, Qızıl süvari alayı və milis qüvvələrinə yardım edilməsinin lazım olduğunu Kazım Qarabəkir paşaya bildirməlidi. (ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.21). Ancaq bu vaxt hissə Naxçıvana gəlmiş, Kazım Qarabəkir paşa 5 avqustda verdiyi cavabda yuxarıda qeyd etdiyimiz səbəblərə görə Naxçıvana göndərdiyini,ancaq 11-ci diviziyanın qüvvəyə ehtiyac olduğu zaman Qızıl Ordu hissələri gələn kimi hissənin qayıtmasını xahiş etdiyini bildirirdi. (ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.22).

[627] Kazım Qarabəkir hissənin hərəkət saatını 30/31 iyul gecəsi kimi göstərirdi, ancaq yuxarıda qeyd etdiyimiz hadisələr zamanı bu ifadənin dəqiqliyi ortadan qalxırdı. Ya paşa səhv etmişdi, ya da baş ştab tələm-tələsik hərəkət üçün bu ifadəyə yer vermişdir.

[628] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-13.

keçidindən digər tərəfə, yəni Naxçıvan torpaqlarına girdi.[629] Saat 18-də Naxçıvana doğru hərəkət edən hərbi hissə şəhərə yaxın bir yerdə 1 Qafqaz süvari alayı komandiri Tarhov və siyasi komissar yanlarında 30-a qədər atlı olduğu halda bayraqla və III İnternasional marşı çalınaraq qarşılandı.[630] Bunun müqabilində hissə də Aç bağrını, biz gəldik" marşını söyləyərək bolşevikləri salamladı.[631] Kazım Qarabəkir paşa tərəfindən Naxçıvandakı bolşeviklərlə əlaqə yaratmaq məqsədilə göndərilən podpolkovnik Rəşad bəyin ilk təəssüratlarına görə, türk hissəsi Qızıl Ordu birlikləri tərəfindən səmimi bir şəkildə qarşılanmışdı. İki tərəf arasında dostluq görüşmələri davam edirdi.[632]

Artıq gözlənilən görüş həqiqətə çevrilmiş, Şərqin iki güclü və eyni zamanda bir-birinə ehtiyac duyan ordusunun nümayəndələri Naxçıvanda görüşmüşdülər. Bu görüşün türk tərəfi üçün böyük əhəmiyyəti var idi. Çünki bolşeviklərlə yaranan səmimi əlaqə nəticəsində onlardan lazımi yardım alına bilərdi. Bu işdə əsas vəzifə Naxçıvanda olan türk hərbi hissəsinin üzərinə düşürdü. Şəxsən Kazım Qarabəkir tərəfindən bu məsələ ilə əlaqədar daha əvvəl verilmiş göstəriş Veysəl bəyin ürəyincə idi.[633] O, 2 avqustda hissəyə verdiyi gündəlik əmrdə göstərirdi:

"Dünən 1 avqust Anadolu və rus ordularının əl-ələ verdikləri tarixi bir gün oldu. Hissəmizin qazandığı bu şərəfin yoldaşlarımız tərəfindən unudulmamasını çox xahiş edirəm. Bu məmləkətdə edəcəyimiz ən kiçik bir səhv Anadoludakı həmvətənlərimizin üzünü qızardacaq, mərd hərəkətlərimiz isə buradan dünyanın hər tərəfinə yayılacaq, Anadolu qardaşlarımıza şərəf qazandıracaqdır. Bizə yaxşı ad lazımdır. Rus Qızıl Ordusunun zabit və əsgərləri ilə dost və səmimi olacağıq".[634]

Bolşeviklərlə səmimi münasibət yaratmağa çox böyük əhəmiyyət verildiyi və diqqət göstərildiyi bir vaxtda, əsgərlərin kommunist təbliğatına uyub nizamı pozmamasına çalışılırdı. Başda Cavid bəy olmaqla bir çox şəxs bolşeviklərlə əlaqə yaratdıqdan sonra əsgərin nizam-intizamı

---

[629] Ünüvar. Bolşeviklərlə 8 ay. D.39-40.

[630] ATASE, A. 6/3152, Kls.880, D.28, F.73-1, ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.30, Ünüvar. Bolşeviklərlə 8 ay. s.404. Şərq cəbhəsi s.110-111. Qarabəkir paşanın şəxsi kuryeri baş leytenant Şərif bəy də rus əsgərlərinin türklərə qarşı ehtiram göstərdiyini, Naxçıvana gələn hissəni təmtəraqla qarşılandığını bildirdi. (ATASE, A.5/2793, Kls.815, D.69-11, f.12) 14 avqust TBMM-də çıxış edən Mustafa Kamal paşa Türk və bolşevik qüvvələrinin Naxçıvanda birləşmiş olduğunu dedikcə deputatlar alqışladılar. (TBMM, Z C.D.1 c III. s.208) .

[631] Axşam Xəlil paşanın verdiyi yeməkdə ruslar türk marşını bəyəndiklərini bildirmiş və adını soruşmuşlar. Veysəl bəy də Türk inqilab marşı demişdir. (Ünüvar. Bolşeviklərlə 8 ay. s.40).

[632] ATASE, A.6/3152, Kls.880, D.28-7, f.73-1, 73-2, ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.-30.

[633] Əvvəlcə göstərdiyimiz kimi, Kazım Qarabəkir paşa bolşeviklərlə səmimi münasibətlərin məmləkətin gələcəyi üçün çox əhəmiyyətli olduğunu ifadə edir, ancaq əsgərlərin bolşevik fikirlərə uymaması üçün çox diqqətli olmağı əmr edirdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.1-12)

[634] ATASE, A. 6/6686, Kls.925,D.8-4, F.1.

pozulacağından qorxur və bunun Türkiyə üçün təhlükəli olacağını ifadə edirdilər.[635]

Bu məqsədlə tez-tez Veysəl bəyə xəbərdarlıq edilir, zabit və əsgərlərə diqqətli olması tapşırılırdı.[636] Ancaq Kazım Qarabəkirin ifadə etdiyi kimi hərbi hissə Naxçıvana çatdıqdan sonra ilk günlərdə nizam-intizamda hər hansı bir dəyişiklik olmadı. Qızıl Ordu hissələri ilə dostluq münasibəti yaradan zabit və əsgərlər yenə əvvəlki kimi öz vəzifələrini müntəzəm bir şəkildə yerinə yetirirdilər.[637]

Naxçıvana 500 zabit və əsgər,[638] 4 top, 2 pulemyot və 190 heyvanla gələn hissə dəhşətli bir mənzərə ilə qarşılaşdılar. Əhalinin əksəriyyəti çıxarılmış olan bu şəhərin küçələri xəstə adamların iniltiləri ilə sızlayırdı. Şəhərdəki adamlar evlərinə girmiş, qaranlıqlara, matəmlərə bürünmüşdülər. Hissəni şəhərdə qonaq etmək məqsədilə qarşılayanlar Naxçıvanda yerləşmiş keçmiş türk əsgərləri idi və o axşam Xəlil paşa zabitlərin bolşevik zabit işarələrindən istifadə etməsini əmr etmişdi.[639]

Digər tərəfdən, 2 avqustda daha əvvələr Naxçıvanda yerləşmiş türk əsgərlərindən təşkil olunmuş inzibati rota hərbi hissəsinin əmrinə verilmişdi.[640] Türk hissəsi Naxçıvan kazarmalarından Araz çayına qədər olan regionun müdafiəsini öz üzərinə götürmüşdü.[641] Hərbi hissənin daxilindəki batalyonlar bu bölmə içində yerləşdirilmişdi.[642] Bolşeviklərin xoşuna gəlsin deyə Şərq Cəbhəsi Komandanlığının əmri ilə Naxçıvandakı hərbi hissə Türkiyə İnqilabı Qızıl hərbi hissəsi adlandırılmış, Veysəl bəy də 5 avqustda bunu əmri altındakılara bildirmişdi.[643] Türk Qızıl hərbi hissəsinin nə zamana qədər Naxçıvanda qalacağı bəlli deyildi. Xəlil paşa 3 avqust tarixli raportla vəziyyəti Kazım Qarabəkir paşaya bildirdi.[644]

Xəlil paşanın yenə 7-8 avqust tarixli bir başqa raportunda göstərildiyi kimi Şuşadakı Qızıl diviziya komandanlığı tərəfindən 31 iyul tarixində yazılıb 3 avqustda Naxçıvana çatan bir əmrə görə süvari rotası

---

[635] Qarabəkir. İstiqlal müharibəmiz. s.787.

[636] ATASE, A. 6/6686, Kls.923,D.2-5, 6, F.122-1.

[637] ATASE, A. 1/4282, Kls.588, D.36-118, F.6; ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.30, ATASE, A. 6/3120, Kls.880, D.28-7, F.73-2. Qarabəkir. İstiqlal müharibəmiz. s.788. Bir müddət sonra bolşeviklərin təsiri altına düşmə baş versə də bu, fərdi idi, ümumi hesab edilməzdi. Məlumat üçün bax: Ünüvar. Bolşeviklərlə 8 ay. s. 42-43.

[638] "Şərq cəbhəsi" əsərində hissədəki əsgər və zabitlərin sayı 487 olaraq göstərilmişdi.

[639] Ünüvar. Bolşeviklərlə 8 ay. s. 40-41.

[640] ATASE, A. 6/6686, Kls.925,D.8-4, F.1. Şərq cəbhəsi III c. s.111

[641] Moskvada türk-sovet heyətləri arasında görüş davam etdiyi zaman (4 avqust) Qaraxan Naxçıvanda iki tərəf ordularının görüşdüyünü bildirdi. Türk qüvvələri şəhərin ətrafında bolşeviklərin də içində olduğunu və kuryerlər vasitəsilə görüşdüyünü deyincə, bu məsələ türk heyətinin diqqətini çəkmişdi.

[642] ATASE, A. 6/6686, Kls.925,D.8-4, F.3. Şərq cəbhəsi III c. s.111.

[643] Ünüvar əsərində bu adı İnqilabı Türkiyə Şərq Cəbhəsi Qızıl hərbi hissəsi yazsa da (Ünüvar. Bolşeviklərlə 8 ay. s.41) özü 5 avqust tarixli əmrində bu adı yuxarıdakı kimi yazmışdı. (ATASE, A. 6/6686, Kls.925,D.8-4, F.8).

[644] ATASE, A. 1/4282, Kls.592, D.12-132, F.5.

Naxçıvanda qalmalı idi.[645] Naxçıvanda bolşeviklərlə əlaqə yaratmaq həvalə olunmuş, podpolkovnik Rəşad bəyin Kazım Qarabəkir paşaya təqdim etdiyi bir raportda maraqlı bir cəhət var idi. Əvvəlcə 850 bolşevik əsgər olaraq göstərilən bu rəqəm 1000, 4 top da 5 olaraq qeyd edilmişdi.[646] Bu artımın Xəlil paşanındəstəsindən gələn süvarilər hesabına olduğu qəti ifadə edilməsə də, bir həqiqət var idi: Avqust ayının əvvəlindən etibarən Naxçıvanın taleyi türk-bolşevik hissəsinin əlində idi. İki tərəfin də ürəyi burada döyünürdü

## B. Qızıl Ordu nəzarətində Naxçıvan

### 1.Naxçıvanda sovetləşmə

#### a) Revkomun[647] (Naxçıvan İnqilab Komitəsi) quruluşu və üzvləri

Qızıl Ordunu Naxçıvana çağıran Türk hərbi dairələri yaxın zamanlarda regionda idarəetmə sisteminin dəyişəcəyini bilirdilər. Çünki onlar yaxşı başa düşürdülər ki, bolşeviklər getdikləri hər yerdə öz təşkilatlarını yaradır, köhnə idarəetmə sistemini ləğv edirdilər. Naxçıvanda bolşeviklərin təşkilat təsis etmələri, türk hərbi dairələrinə qarşı çıxmağı demək deyildi, əksinə, belə bir təşkilatı dəstəkləyəcəklər. Bildiyimiz kimi Veysəl bəy Naxçıvan Milli Şurasının üzvü idi. Buna görə də Cavid bəy 19 iyul tarixli teleqramda Veysəl bəyə xəbərdarlıq etmiş və artıq təyin yolu ilə deyil, xalqın əksəriyyətinin iştirakıyla qurulacaq Revkom və ya komitə tərzli heyətlər vasitəsilə Naxçıvanın idarə olunacağını, buna görə də Milli Şuraya üzv olmasının məqsədəuyğun sayılmayacağını bildirmişdi.[648]

Naxçıvanda türk və bolşevik qüvvələri görüşdükdən sonra yeni bir təşkilat mərhələsi başlamış[649] yerli əhalinin nümayəndələrinin, rusların və Azərbaycan zabitlərinin[650] iştirakı ilə Revkom yaradılmışdı.[651] Əvvəlcədən Naxçıvanda bolşevik ideyalarını müdafiə edən M.Bektaşov, A.Qədimov, Q.Əsgərov, F.Mahmudbəyov, Ç.Babayev, H.Əliyev, Nəcəfqulu Nəcəfov və

---

[645] ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-16, 25-17, 25-18, Kazım Qarabəkir paşanın şəxsi arxivi, Qarabəkir. İstiqlal müharibəmiz. D.806-807. Xəlil paşanın Şərq cəbhəsi komandanlığına 7.8.36 tarixli məlumatı

[646] ATASE, A. 6/3152, Kls.880, D.28-7, F.61-1, 65-1.

[647] Ревалюционной комитет. Türk hərbi sənədlərində bu ad refkom şəklində yazılmışdır. Əslində isə revkom yazılmalıdır.

[648] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.7-14.

[649] Mədətov. Naxçıvanda İnqilab Komitəsinin 29 iyulda yaradıldığını göstərmişdir. (Mədətov. Sovet hakimiyyətinin qurulması s.72-73). Kazım Qarabəkir paşa Baş ştaba göndərdiyi 5 sentyabr 1920-ci il tarixli teleqramında göstərmişdir ki, həmin komitə türk hərbi hissəsi bura gəldikdən sonra yaradılmışdır. (ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.6-1).

[650] Əvvəllər bolşeviklər əleyhinə olan general Həbib Səlimov Qızıl Ordu Naxçıvana gəldikdən sonra, görünür, dəyişmiş ki, Hərbi komissar təyin edilmişdi. (ATASE, A. 6/6686, Kls.923,D.5-3, F.30).

[651]ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.6-1

Əhməd Əzimov bu komitədə yerlərini tutmuşdular.[652] Hacı Məhsudi Ərzaq komitəsi sədri,[653] general Həbib Səlimov isə hərbi komissar təyin edilmişdi.[654] Revkomun gördüyü işlərdən birincisi, ermənilərin vaxtı günortaya bitən ultimatumuna cavab vermək olmuşdu. Ermənilərə verilən ultimatumda Şahtaxtı bölgəsinin boşaldılması tələb edilmişdi.[655]Bundan başqa, 10 avqustda Revkom tərəfindən NərimanNərimanova göndərilən bir məktubda xalqın əksəriyyətinin istəyi ilə Naxçıvan regionunu Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz parçası kimi qəbul etdikləri bildirilmişdi.[656]

Mədətovun fikirincə, Azərbaycan İnqilab Komitəsinin verdiyi göstərişə əsasən inqilab komitəsinin vəzifəsi:

a) Keçmiş Naxçıvan Milli şurasının bütün hakimiyyət orqanlarını ləğv edib, sovet idarəetmə sistemini yaratmaq:

b) Burjuaziya torpaq mülkiyyətini ləğv etmək, kəndliləri siyasi mübarizəyə cəlb etmək, onları dövlət işində söz sahibi etmək.[657]Belə məqsədlərə istinad edərək Revkom öz idarəetmə sistemini regionda yaratmağa başladı. Bolşevik əleyhdarlarına qarşı tədbir görülməyə başlanıldı. Xüsusilə keçmiş xan və bəylərin mal-mülkləri müsadirə edildi. Digər tərəfdən, qaçqınlarla maraqlanan Revkom bu sahədə də bir sıra işlər gördü. İran tərəfə keçən qaçqınların gətirilməsi və yerləşdirilməsi üçün 19 avqust 1920-ci ildə bir komissiya yaradıldı.[658]

Ancaq işlər heç də yaxşı getmirdi. Naxçıvandakı hərbi qüvvələrin xüsusilə, türk Qızıl hərbi hissəsinin və əhalinin ərzaqla təmin edilməsi çətin idi. Bu məqsədlə avqust ayının sonlarında Revkom üzvləri arasında köklü dəyişiklik edildi. Revkomda türk zabitləri vəzifə aldılar. Naim Cavad bəy hərbi, doktor Dərviş bəy səhiyyə, kapitan Fuad bəy Ərzaq komissarlığına, baş leytenant Asim bəy ərzaq komissarının müavini və Vergi Hərbi komissiyası üzvlüyünə təyin edilmişdilər.[659]

---

[652] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.73. Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.21. Aydın Hacıyev. Qars və Araz-türk respublikaları tarixindən, B.1994, s.114. C.B.Quliyev, Q.E.Mədətov, A.A.Nadirov. Sovet Naxçıvanı, Bakı, 1984. s.34. Şəmsəddin Bağırov. Bir qaragün dostluğu. s.149

[653] ATASE, A. 6/6686, Kls.923,D.7-8, F.10-2, 10-3

[654] ATASE, A. 6/6686, Kls.923,D.5-3, F.30. Revkomda yer tutan digər üzvlərin hansı vəzifələrə təyin edilməsi haqqında məlumat əldə edə bilmədik.

[655] ATASE, A. 6/3152, Kls.880, D.28-7, F.65-1, 61-1

[656] Ə.Əliyev. Qırmızı tabur. Bakı, 1990. s.24

[657] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.73

[658] Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.22. Mədətov Mühacir komissiyasının 23 avqustda qurulduğunu göstərmişdi. (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.77)

[659] ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.6-1, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-25

Revkom sədri İbrahim ağa idi.[660] Revkom üzvləri dəyişildikdən sonra Naxçıvan və Ordubadda yerli təşkilatların qurulmasına başlanılmış[661] Revkom adından 24-cü alay 2-ci batalyon yavəri Tahir bəy Ordubad bölgəsi komandiri təyin edilmişdi. Türk Qızıl hərbi hissəsindən Naxçıvan bölgəsi komandiri vəzifəsi üçün zabit istənilmişdi. Veysəl bəy də əmri altında kifayət qədər zabit olmadığından 29 avqustda Sağ Cinah qrupu komandanlığına vəziyyəti bildirmiş, korpusda və ya diviziyada olan bacarıqlı və etimad göstərilən bir şəxsin Naxçıvana göndərilməsini xahiş etmişdi. Naxçıvan komandanlığında bir türk zabitinin varlığı gələcəkdə Veysəl bəy üçün faydalı olacaqdı.[662]

Türk zabitlərinin iştirakı Revkomu həqiqətən gücləndirmişdi. Revkom türk və bolşevik Qızıl Ordu ilə əməkdaşlığa girərək İran sərhədini nəzarət altına almağa başlamışdı. Revkomun icazəsi olmadan heç kim İran ərazisinə keçməyəcəkdi. İcazəsiz keçirilən ərzaq, əşya və silah müsadirə edilərək sahibi ilə birlikdə Revkoma göndəriləcəkdi.[663]

Sovet idarəetmə sisteminə keçid mərhələsində Naxçıvanda Kommunist Partiyası yaratmaq üçün bir erməni gəlmiş və ətrafına topladığı adamlarla 5-6 dəfə iclas keçirmiş və sonra partiya üzvlüyünə qeydə almağa başlamışdılar.[664] Bu vaxt nahiyə və kəndlərdə revkomlar (inqilab komitələri) təşkil edilirdi.[665]

Naxçıvan Revkomunun qərarı ilə 13 oktyabr 1920-ci ildə köhnə məhkəmələr ləğv edilmiş, yerinə xalq məhkəmələri qurulmuşdu.[666]

### b) Keçmiş rəhbərlərin aqibəti

Bolşeviklərin gəlməsi və bilavasitə Naxçıvanda idarəetmə sisteminin qurulması dövründə bolşeviklər əleyhinə çalışmış keçmiş Naxçıvan rəhbərlərinin vəziyyəti təhlükəli idi. Onlar da bu təhlükəni bildiklərindən təcili Naxçıvanı tərk etmişdilər. Veysəl bəyin Sağ Cinah qrupu komandanlığa

---

[660] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.13, K.Rəhimov, S.Sadiqov. Həqiqəti bilməli. Naxçıvan 1920-ci illərin burulğanında. Dirçəliş №1. (Bakı 1992 s.43).

[661] ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.6-1

[662] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-25

[663] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-26

[664] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.3.

[665] ATASE, A. 6/6686, Kls.924,D.5-1, F.92-3, Veysəl bəyin fikrincə Revkom rəis təyin edərkən müqəvva kimi istifadə edəcəkləri şəxsləri seçdilər. Bax: Ünüvar. Bolşeviklərlə 8 ay, s.50-51

[666] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.75-76,79. Mədətov Revkom içərisində olan türk zabitləri və türk Qızıl hərbi hissələri əleyhinə məlumat vermişdi. Məs: Revkomda yer tutan türk zabitlərinin qəbul etdiyi bir qərarla türk ordusu xeyrinə zəkat topladıqlarını, türk əsgərlərinin ərzağının müftə təmin edilməsi və bunların xalq arasında narahatçılıq yaratdığını və s. Naxçıvanda belə bir vergi toplanmamışdı, çünki əvvəlcədən türk əsgərlərinin ərzağı və zabitlərin maaşı naxçıvanlılar tərəfindən ödənilirdi.

göndərdiyi 14 avqust tarixli raporta görə Naxçıvan xanlarının vəziyyəti belə idi:

"Türk hərbi hissəsi Naxçıvana gəlməmiş Kalbalı xan Xəlil paşadan Bəyazidə getmək üçün sənəd almış və regionu tərk etmişdi. Onun Qızılqışlaqda olması göstərilirdi. Atası Cəfərqulu xan isə bir həftə əvvəl icazə alaraq Təbrizə getmişdi. Rəhim xan Naxçıvanda, oğlu İsgəndər xan Təbrizdə idi. Bakıdan gələn və bolşevizmi mənimsəyən Böyük xan Təbrizdə, qardaşı Məhəmməd Əli xan da Naxçıvanda idi.[667]

Məlum olduğu kimi, yeni rəhbərlik tərəfindən avqust ayının ilk yarısında Naxçıvan xan və bəylərinə qarşı heç bir şey edilməmişdi. Ancaq bir müddətdən sonra Revkom Naxçıvandakı bolşevik qüvvələrinin dəstəyi ilə hərəkətə keçdi. Bölgənin nüfuzlu şəxslərindən Naxçıvanı tərk etməyib bilavasitə kommunizmi mənimsəməyənləri həbs etməyə başladılar.[668] Onlar arasında bir zamanlar regionun 2 nüfuzlu ismi, Təbrizdən Naxçıvana qayıtmış Cəfərqulu xan və qardaşı Rəhim xan var idi. Həbs olunanlar Bakıya göndərilmişdilər.[669] Cəfərqulu xan və Rəhim xan Şuşa həbsxanasına göndərilmiş və onlar 1943-cü ildə orada ölmüşdülər.Cənubi Azərbaycana gedən Kalbalı xan isə İstanbul və Tehranda yaşamış və Milli Azərbaycan demokratik hərəkatının qurucuları ilə birgə çalışmışdı.[670]

## 2.Türkiyəyə gedən ilk sovet heyəti və Gorus-Naxçıvan yolunun bağlanması

Əvvəl qeyd etdiyimiz kimi, Sovet Rusiyasının yardımını ala bilmək üçün rəsmi və qeyri-rəsmi bir çox şəxslər[671] Moskvaya getmiş, Türkiyə ilə Sovet Rusiyası arasında səmimi əlaqələr yaratmaq üçün işə başlamışdılar. TBMM hökumət adından Mustafa Kamal paşanın Çiçerinə yazdığı və leytenant İbrahim bəy vasitəsi ilə Moskvaya göndərilən ilk rəsmi məktubdan sonra iki tərəf arasında səmimi əlaqələr yaradılmışdı. Xüsusilə Xəlil paşanın çoxlu səyi nəticəsində Sovet Rusiyası hökuməti xoşniyyətini göstərmək məqsədilə bir səfirlik heyəti ilə bərabər 500 kq ilk qızıl yardımını Türkiyəyə göndərməyi qərar vermiş,[672] bu iş Ankara səfiri Şalva Eliavaya həvalə

[667]ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.16.

[668] 7 sentyabr bolşeviklər nəşr etdirdikləri bir bəyannamədə elan etmişdilər ki, bəylər, xanlar, müsavatçılar və erməni varlıları 2 xalqı illər boyu bir-birlərinə qırdırmışlar. Bolşeviklər bunun qarşısını almaq üçün gəlmişdilər.

[669] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s. 75-76, Hacıyev. Qars və Araz-türk respublikaları. s.114-115.

[670] Hacıyev. Qars və Araz-türk respublikaları. s.115. Kalbalı xan haqqında bir başqa məlumatda onun İran ordusunda bir vəzifə daşıdığı və 1931-ci ildə Kiçik Ağrı ətəklərində üsyançılarla döyüşlərdə öldüyü göstərilir. Bu məsələdə ilk dəfə Araz-türk respublikası, Yaddaşdan xatirələr, "Azərbaycan", 1 may 1991, №18 (81).

[671] Xəlil paşa, Fuad Sabit, Camal paşa, doktor Bəhəddin Şakir və Baha Səidkimi.

[672] Yerasimos. Türk Sovet münasibətləri, s.159.

edilmişdi. Ancaq o, xəstələndiyindən bu vəzifə səfirliyin katibi Y.Y.Upmal Anqarskiyə tapşırılmışdı.[673]

Xəlil paşa ilə birlikdə bu heyət 16 iyulda yola düşməli idi. Ancaq sovetlərin TBMM hökuməti əleyhinə şübhəyə düşməsi səbəbilə heyət ancaq 2 iyulda Moskvadan yola düşə bilmişdi.[674]

Bakıya gələn heyətin Türkiyəyə getməsi üçün tək bir yol var idi: Qarabağ-Zəngəzur-Naxçıvan-Maku. Ancaq Zəngəzur-Naxçıvan yolu nəzarət altına alınmadan belə bir səfərin təmini mümkün deyildi. İngilislərin təsiri ilə hərəkət edən və başlarında Dro olan erməni qüvvələri buna icazə verməyəcəkdilər. Bu məqsədlə Orçonikidze ilə görüşən Xəlil paşa onu iki tərəf arasındakı əlaqələr baxımından və bu heyətin təhlükəsiz Türkiyəyə çatması üçün Zəngəzur yolunun açılmasına razı salmışdı.[675]

Beləcə hərəkətə keçən Qızıl Ordu hissələri yolu açmağa başlamışdılar.

Səfirlik heyəti ilə birlikdə 18 iyulda Bakıdan yola düşən Xəlil paşa 26 iyulda Gorusa gəldi.[676] Bundan sonrakı yol təhlükəsiz olduğundan heyəti Gorusda qoyan paşa təkbaşına yola çıxaraq bolşevik alayının ardınca 29 iyulda Naxçıvana gəldi. Ancaq səhərisi gün yola düşən Sovet heyətini böyük bir təhlükə gözləyirdi. 31 iyulda hərəkətə keçən ermənilər Əngələvutun qərbində yolu kəsmişdilər. Yolda olan səfirlik heyəti Əngələvuta qaçmış, 8 camış arabasına yüklənmiş qızıllar isə qalmışdır.[677]Səhərisi gün heyət Gorusa qayıtmışdı. Dro qüvvələri isə Əngələvuta girdilər.[678]

Yolun bağlanması və heyətin geri dönməsi xəbəri Naxçıvana çatan kimi Xəlil paşa dərhal Gorusdan rus piyada diviziya komandanlığına bir məktub göndərdi və ermənilərə qarşı hərəkətə keçərək yolun açılmasını xahiş etdi.[679] Digər tərəfdən, yolun kəsilməsi bolşevikləri çox əsəbiləşdirmişdi. Onlar ermənilərlə sülh danışıqları apardığı bir zamanda belə bir hücum gözləmirdilər. Bu həyəcan içində 1 avqustda IX Qızıl Ordu komandanlığı tərəfindən Ermənistan Baş komandanlığına bir ultimatum verildi. Qısaca belə yazılmışdı:"Zəngəzur və Naxçıvan bölgələrində ermənilər və türklər arasında müharibə getməkdədir, müdafiəsiz və məsum, fəqir ailələr məhv edilir, bütün kəndlər dağıdılır. Bu münaqişəni dayandırmaq üçün qeyd olunan

---

[673] Aslan. Türkiyə kommunist firqəsinin quruluşu. s.392.

[674] Yerasimos. Türk Sovet münasibətləri, s.159-160.

[675] Xəlil paşa. Bitməyən savaş. s. 332-333.

[676] Xəlil paşa. Bitməyən savaş. s.333. Şimşir. Atatürk. II c. S.326. Yerasimos. Türk Sovet münasibətləri, s. 164.

[677] Daha sonra Sovet heyətinin bildirdiyinə görə, bu arabalardan 7-si yolda qalmış, qalan bir araba yola yaxın bir samanlıqda gizlədilmişdi. Daha sonra buradakı kəndlər sıxışdırılmış və bir az əksik halda qızılları geri almışdılar. (Xəlil paşa. Bitməyən savaş. s.335).

[678] Xəlil paşa. Bitməyən savaş. s.335. Ünüvar. Bolşeviklərlə 8 ay, s.44. Yerasimos. Türk Sovet münasibətləri, s.164-165.

[679] Xəlil paşa. Bitməyən savaş. s.334.

bölgələrə Qızıl Ordu hissələri girmişdir. Ancaq siz bizim qüvvələrə hücum edərək Ermənistan əhalisi əleyhinə qəti surətdə əməliyyat aparmaq istəməyən Qızıl Orduya meydan oxuyursunuz. Biz sizə xəbərdarlıq etməyə məcburuq. Hücumlarınızı dayandırmasanız, Qızıl Ordu lazımi cavabı verəcəkdir. Cavabınızı 5 avqusta qədər gözləyirik".[680]

Qızıl Ordu komandanlığı bir tərəfdən ermənilərə ultimatum vermək üçün hazırlanır, digər tərəfdən bilirdi ki, bu ultimatum Dro qüvvələri üçün təsirsiz olacaqdı. 31 iyulda Şuşadan bir süvari alayı, iki piyada batalyonu və 2 topdan ibarət bir dəstə Əngələvut üzərinə göndərilmişdi.[681]

Ancaq Şuşadan yola düşən əlavə qüvvələr bölgəyə çatmamış erməni hücumlarından məğlub olan Qızıl Ordu hissələri Gorusdan çıxaraq Şuşaya doğru çəkilməyə başlamışdılar. Əlavə qüvvələrin yetişməsi və Naxçıvandan da bir süvari rotanın Əngələvut üzərinə göndərilməsi nəticəsində bolşevik hissələri ermənilərə hücum edərək Gorusu, Bazarçayını və Əngələvutu yenidən ələ keçirdilər.[682] Əvvəl ermənilərin əlinə keçən qızılların çox hissəsi geri alındı.[683] Bu vaxt Tiflisdə sovet və erməni nümayəndələri arasında danışıqlar da sona çatmış, 10 avqustda Ermənistan və Sovet Rusiyası arasında bir müqavilə imzalanmışdı. Müqaviləyə görə, Qarabağ, Zəngəzur və Naxçıvan sovetlərin müvvəqəti nəzarəti altında qalacaq, Gümrü-Şahtaxtı-Culfa dəmiryolu mülki məqsədlərdən istifadə üçün ermənilərə veriləcəkdi.[684] Məhz müqaviləyə görə və Qızıl Ordu hissələrinin müvəffəqiyyətli əməliyyatları nəticəsində 12 avqustda Gorus-Naxçıvan yolu açılmış, Sovet səfirlik heyəti yoluna davam edə bilmişdi.[685]

Naxçıvana gələn[686] Sovet səfirlik heyətinin ilk hissəsi 18 avqustda səhər

---

680 Ultimatumun altında IX Qızıl Ordu komandiri Vasilenko və Hərbi inqilab Şurası üzvü Lukinin imzası var idi. (Борьба. 5 avqust 1920, №175) Əli Fuad paşanın dediyinə görə, Kazım Qarabəkir paşa 29 iyunda Bakıda olan XI Qızıl Ordu komandanlığına bir məktub göndərmiş, ermənilərin Zəngəzur yolunu kəsməyə çalışdıqlarını bildirmiş, daşnakların yolunda durmayaraq, döyüş etməməyi, Qars yolundan istifadə etmək üçün ermənilərə ultimatum verilməsini xahiş edirdi. Əks-təqdirdə türk-sovet ordularının Ermənistana qarşı müştərək bir hücuma başlamalarını təklif edirdi. (Cəbəsoy. Moskva xatirələri, s. 42-43).

681 ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-16, 25-17, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-17, ATASE, A. 6/6686, Kls.925,D.8-4, F.2, Kazım Qarabəkir paşa. Şəxsi arxiv. Xəlil paşadan Şərq Cəbhəsi komandanlığına 3 avqust tarixli teleqram. Qarabəkir. İstiqlal hərbimiz, s.806-807.

682 ATASE, A. 1/4282, Kls.597, D.117-7, F.29, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-18, ATASE, A. 6/6686, Kls.925,D.8-4, Şərq Cəbhəsi III, s.12.

683 ATASE, A. 6/6686, Kls.924,D.6-4, F.2-18, Sovet Rusiyası ermənilərin əlinə keçən qızılları almaq üçün diplomatik yolla da təşəbbüs etmişdi. (Cəbəsoy. Moskva xatirələri, s.86-87).

684 ATASE, A. 1/4282, Kls.588, D.111-36, F.6-3, ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.53, Atatürkün teleqram və bəyannamələri. C.IV.s.365, Şərq Cəbhəsi III, s. 133-134. Sonyel. Türk qurtuluş savaşı. II. s.27. Nassibian Armenian Question s.205. Yerasimos. Türk Sovet münasibətləri, s.165.

685 Yerasimos. Türk Sovet münasibətləri.

686 Bu vaxt Kazım Qarabəkir Maliyyə vəkilliyinə göndərdiyi teleqramda sovet heyətinin 500 kq qızıl gətirdiyini və bu qızıl tədavülə çıxmazsa, indidən pul çıxarılacağının məqsədəuyğunluğunu bildirmişdi. (ATASE, A. 5/2793, Kls.815, D.69-11, F.14).

Bəyazidə yola düşdü.[687] Xəlil paşa və səfirlik heyətinin ikinci hissəsi 23 avqustda Naxçıvandan çıxmış, 24 avqustda Makuya[688] və səhərisi gün Bəyazidə[689] çatmışdı. Bəyaziddə polkovnik Cavid bəy tərəfindən qonaq edilən Xəlil paşa və sovet səfirlik heyəti sonra yola düşərək 27 avqustda Qarakösəyə (Ağrıya) çatmış və burada Şərq cəbhəsi Baş ştab rəisi polkovnik Kazım (Orbay) bəy tərəfindən qarşılanmışdılar. Xəlil paşa heyəti və qızılları Kazım bəyin nəzarətinə verərək Naxçıvana qayıtmış,[690] heyət də yoluna davam edərək Ərzuruma çatmışdı.[691] Beləliklə, illərdən bəri gözlənilən an həqiqətə çevrilmiş və iki ölkə arasında sağlam bir körpü salınmışdı.

## 3. Sovet Rusiyası - Ermənistan müqaviləsi (10 avqust 1920) və Naxçıvan

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Qızıl Ordu hissələri Ermənistan və Gürcüstan üzərinə hərəkətə başlasa da, Lehistan cəbhəsində döyüşün şiddətlənməsi və Azərbaycanda bir sıra üsyanların baş verməsi bu niyyətin gerçəkləşməməsinə səbəb oldu. Sovet Rusiyası hökuməti məqsədinə çatmayınca Gürcüstan və Ermənistan hökumətləri ilə anlaşmaq üçün cəhd göstərməyə başladı. Onlar Qafqazı nəzarət altına almadan Türk ordusunun bir hücumla torpaq əldə etməsinin qarşısını almaq, Gürcüstanı və Ermənistanı nisbətən ingilis siyasətinin təsirindən qurtarıb, öz tərəfinə çəkmək və Qafqazdakı müvəqqəti gücsüzlüyünü yox etmək üçün fəaliyyət göstərməkdə idilər. 7 mayda Moskvada Gürcüstan hökuməti ilə bağlanan müqaviləyə görə Batuminin Gürcüstana aid olduğu qəbul edilmiş, beləliklə Gürcüstan mükafatlandırılmış, Türkiyə də gizlicə xəbərdar edilmişdi.

Digər tərəfdən, ermənilərlə anlaşmaq istəyən Sovet Rusiyası hökuməti mütəmadi Türkiyənin zərərinə və Ermənistanın xeyrinə bir siyasət yeritməyə başlamışdı. Bu siyasətin əsas prinsipində Ermənistana bir sıra torpaqlar vermək yolu ilə onları öz tərəfinə çəkə bilmək idi. 30 may 1920-ci ildə Moskvaya çatan heyəti ilə aparılan danışıqların əsasını Ermənistanın Sevr müqaviləsindən əl çəkməsi, bunun müqabilində Sovet hökumətinin

---

687 İstiqlal, 22 avqust 1920. №166.

688 İngilis xəfiyyələri Xəlil paşanın daxil olduğu heyətin Makudan Bəyazidə keçdiyini öyrənmiş yuxarı təşkilatlara bildirmişdilər.

689 ATASE, A. 1/4282, Kls.587, D.6-1, F.36. Xəlil paşa. Bitməyən savaş. s.335.

690 Xəlil paşa. Bitməyən savaş. s.335.

691 Türkiyəyə gətirilən qızıllar haqqında bir ziddiyyətin meydana çıxdığını görürük. Yerasimos Qarakilsəyə çatan sovet heyətində 400 kq qızılı qaldığını bildirmişdi. (Yerasimos. Türk-Sovet münasibətləri, s.105). Sovet xarici siyasət sənədlərində bu 200,6 kq göstərilmişdir. (Документы внешной политики СССР. т. II с. 675. Bayur isə Ərzuruma gələn Sovet heyətində 1 milyon rubl. (118-120 min qızıl lirə) olduğunu qeyd etmişdi).

Ankaradan Van və Bitlisi istəməsi təşkil edirdi.[692] Aparılan danışıqlar nəticəsində rusların Şərqi Anadolu məsələsində ermənilərə kömək etmək şərti ilə ermənilər Zəngəzur-Naxçıvan yolunu açmağı qəbul etmişdilər. Ancaq ingilislərin təzyiqi ilə Ermənistan hökuməti yolu açmağı rədd etmiş, bu səbəbdən də 11-ci Qızıl Ordu komandiri Levandovskinin əmri ilə hərəkətə keçən bolşeviklər Gorusu işğal etmişdilər. Lehistan cəbhəsinə hissələr göndərildiyindən Qafqazda gücsüz qalan Sovet hökuməti sülhsevər siyasət aparmaq niyyətində qaldı. Bu məqsədlə Zəngəzur və Naxçıvanın ermənilərə verilməsi müqabilində ermənilərdən Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan istifadə izni alınması məqsədilə Orconikidze təcili Bakıya göndərilmişdi.[693]

Ancaq Bakıda Xəlil paşa ilə görüşən Orconikidze sərt bir cavab və ağıllı bir siyasət ilə qarşılaşan kimi, hökumətinin göstərişinin əksinə olaraq Zəngəzur-Naxçıvan yolunun açılması üçün hərbi qüvvələrdən istifadə etmiş, nəticədə Qızıl ordu hissələri və Xəlil paşa Naxçıvana gəlmişdi.[694]

Bir sıra hərbi fəaliyyətlərə baxmayaraq, Sovet Rusiyası hökuməti ermənilərlə bir müqavilə bağlamaq qərarında idi. Buna görə də Gorus-Naxçıvan yolunun bağlandığı 31 iyul tarixində Sovetlərin Qafqaz nümayəndəsi B.V.Leqran ilə erməni nümayəndələri A.Jamalyan və A.Babalyan arasında Tiflisdə yenidən danışıqlar başladı. İki tərəf də təcavüzkar mövqedə idi. Danışıqlar 10 avqustda sona çatdı və həmin gün Sovet Rusiyası hökuməti ilə Ermənistan arasmda bir tək müqavilə imzalanmışdı.[695] Müqaviləyə görə, Qarabağ Zəngəzur və Naxçıvan sovetlərin müvəqqəti nəzarəti altında qalacaq, Gümrü-Şahtaxtı və Culfa dəmiryolu hərbi məqsədlər istisna olmaqla ermənilər tərəfindən işlədiləcəkdi.[696] Bundan başqa, daha sonra sovet hakim dairələrinin türk hakim dairələrinə bildirdiyinə görə, ermənilərin Gümrü-Culfa dəmiryolundan istifadə etməsi müqabilində Qars-

---

[692] Afanisyanın fikrincə, Sovet Azərbaycanı liderlərindən Nərimanov, Axundov və Mikoyan Sovet Rusiyası hökuməti ilə Ermənistan arasında bağlanacaq müqaviləyə mane olmaq istəyirdilər. Bu vaxt türk heyətinin Moskvaya gəlməsi erməni heyətini təlaşlandırmışdı. Çiçerin onları sakitləşdirmək üçün xarici işlər naziri Ohancanyana göndərdiyi teleqramda Sovetlərin Qafqazda etdikləri bir hərəkətin erməni xalqının sülhə dayanan varlığını təhlükəsizlik altına almaq olduğunu bildirmişdi. (Afanisyanı Armenia ı Azerbaidjan Et la Georgie dejdance İmdepenal intauration du pouvoir sovietique (1917-1923)).

[693] Yerasimos. Türk Sovet münasibətləri, s.161-162.

[694] ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-13, 25-14, 25-16. Qarabəkir. İstiqlal müharibəmiz, s.800-801; 806-807.

[695] Yerasimos. Türk Sovet münasibətləri, s.165; Nasibian Armenian Question s.205.

[696] ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.6-3. Qarabəkir. İttihat və tərəqqi, s.24. Atatürkün teleqram və bəyannamələri IV c. s. 348. Qarabəkir. İstiqlal müharibəmizin əsasları. Şimşir. Atatürk II c.s. 90. s. 250. Yerasimos. Türk Sovet münasibətləri, s.165. Şərq cəbhəsi. s.133-134. Sonyel. Türk qurtuluş müharibəsi və xarici siyasət. II c.s.27; Yerasimos. Millətlər və sərhədlər, s.337-338

Sarıqamış dəmiryolu xəttindən də Türkiyə üçün lazım olan materiallar gətiriləcəkdi.[697]

Maraqlı burasıdır ki, 10 avqustda İstanbul hökumətinin Sevr müqaviləsini təsdiq etdiyi və həmin vaxtda Aharonyanın bu müqaviləni Parisdə imzaladığı[698] bir dövrdə bir müqavilə ortaya çıxmışdır.

Sovet-Ermənistan müqaviləsi ingilis və türk hakim dairələrinin narazılığına səbəb oldu. Tiflisdə olan ingilis nümayəndəsi Luka erməni hakim dairələri tərəfindən bu müqavilə haqqında məlumat verilincə, çox əsəbləşdi. Ermənistanın şimal-qərbi İrana və Türkiyəyə olan yollarının açılmasında çaşıb qalan Luka Ermənistana xeyli miqdarda ingilis döyüş sursatının göndərildiyi bir dövrdə imzalanan bu müqaviləni Ermənistana olan etibara xəyanət, İngiltərəyə qarşı isə aldatma hərəkəti hesab edirdi. Luka və İrəvandakı nümayəndələri kapitan Qresi tərəfindən məlumatlandırılan İngiltərə hökuməti də bu müqavilədən çox narahat idi və bu, Qresi tərəfindən erməni hakim dairələrinə bildirilmişdi. Erməni hakim dairələri də Sovet Rusiyası qarşısında dayanacaq gücləri qalmadığını səbəb göstərərək özlərini müdafiə edir və İrana gedibçıxan Şahtaxtı-Culfa dəmiryolundan istifadə haqqını almalarına diqqəti çəkirdilər. Bundan başqa, bolşeviklər Naxçıvandan çıxmasalar, bu arada əldə edilmiş müddətdə müqaviməti möhkəmləndirəcəklərini bildirirdi.[699] Sovetlərlə səmimi münasibət və dostluq yaratmaq sahəsində xeyli irəliləyən türk hakim dairələri belə bir müqavilədən olduqca narahat olmuş və açıq şəkildə ruslardan incimişdilər. Çünki Türkiyə ilə Azərbaycan arasında təhlükəsiz bir yolun açılması üçün çox zəhmətlər çəkildiyi bir vaxtda, bu yolun ən strateji hissələrindən olan Şahtaxtı-Culfa xəttinin ermənilərin istifadəsinə verilməsi müxtəlif sualları meydana çıxarır, ziddiyyət yaradırdı. Ermənilərin Şahtaxtı-Culfa yolundan istifadəyə başlaması Azərbaycan yolunu bağlayacaq, bilavasitə sovetlərin ciddi bir şəkildə Türkiyəyə hərbi yardım etməsinin qarşısına sədd çəkəcəkdi. Bundan başqa, ərzaq sıxıntısı çəkən Ermənistan dəmiryol vasitəsi ilə ingilislərin nəzarətində olan İrandan istədiyi qədər material alacaq və ermənilərin daha çox təcavüzkarlığına səbəb olacaqdı.

Bolşeviklərlə bir ittifaq yaratmaq, hərbi və maddi yardımı təmin etmək və Bəyazid-Naxçıvan yolu ilə Qafqazla əlaqə yaratmaq məqsədilə Moskvada ruslarla danışıqlar aparan və onlardan müsbət cavablar alan türk

---

[697] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.6. 16-1, Müqavilə ilə əlaqədar məlumat verən mənbələrdə bu məsələyə aid məlumat verilməməsi bu maddənin gizli olmasını və ya rusların türk tərəfinin etirazını azaltmaq üçün ortaya atdıqlarını göstərir.

[698] Qarabəkir. İstiqlal müharibəmiz, s. 266. Yerasimos. Millətlər və sərhədlər, s.337. Nasibian Armenian Question, s.205

[699] Şimşir. Atatürk II c. s. №90, s.250. Nasibian Armenian Question s.205-206

heyəti[700] birdən-birə, heç gözləmədiyi bir hərəkətlə qarşılaşmışdı. Rusiya ilə Türkiyə arasında şose yolunun açılması, yəni erməni maneəsinin ortadan qaldırılması məsələsi gündəlikdə olduğu bir vaxtda Çiçerin ermənilərlə bir müqavilə bağladıqlarını və Şahtaxtı-Culfa dəmiryolunun ermənilərin himayəsinə verildiyini bildirmişdi. Buna görə də Yusif Kamal bəy də etirazını belə dilə gətirdi: "Bizim buradan çıxıb getməyimiz lazımdır. Bunca zamandır sizdən yolun açılmasını xahiş edirik, siz isə yolu bağlayırsınız".

Türk heyəti daha sonra bu məsələ ilə əlaqədar Leninlə görüşdü. Lenin ermənilərlə başlanan bu müqavilənin bir səhv olduğunu və həmin səhvi düzəltməyə çalışacaqları mümkün olmazsa, Türkiyənin düzəldə biləcəklərini türk heyətinə bildirdi.[701] Çiçerinin türk heyətinə Şahtaxtıya niyə bu qədər əhəmiyyət verirsiniz sualına Yusif Kamal bəy belə izahat verdi: "Naxçıvanın qərbində Şahtaxtı, Naxçıvanın şərqində Qarabağ vardır. Ondan o tərəfdə Azərbaycan vardır. Naxçıvan özü-özünü idarə edə bilən Şura hökumətidir. Bizim Qarakilsə-Bəyazid dəmiryolu Şahtaxtıya gedir. Bu gün yol Qarakilsəyə qədər işləyir. Şahtaxtı-Culfa yolu İrana qədər gedir. Əgər bu yol bizim və ya Azərbaycanın əlində olmayıb, bir başqasının əlində olacaqsa, onda bizim bir dəfəlik münasibətimiz kəsilir. Ermənilər İran ilə birbaşa münasibətə başlayır. Bu ölkə ingilislərin əlində, iqtisadiyyatı da onlara bağlı. Artıq yolu açmağımıza bir etirazınız varmı?".[702]

Türk heyəti Moskvada Sovet Rusiyası hakim dairələrinə etirazını bildirir,[703] Kazım Qarabəkir paşa da boş durmurdu. 13 sentyabrda Bakıdakı Xəlil paşaya göndərdiyi bir məktubda belə yazırdı: "Qızıl Ordu ilə Anadolu arasında yeganə tarixi əlaqəmiz olan Naxçıvan regionunda Şahtaxtı-Culfa dəmiryolunun ermənilərə verilməsi kimi haqsızlığa icazə verən rus-sovet hökumətinin bu icazəsinin tətbiqinə mane olmaq üçün lazımi dairələr qarşısında qəti etirazlar edilməsini xahiş edirik. Şahtaxtı-Culfa yolunun ermənilərə verilməsini 11 sentyabr 1336-cı il tarixli teleqramla Azərbaycan Sovet Cümhuriyyəti Şura rəisi doktor Nərimanova və 11 -ci Qızıl Ordu komandirinə mənim tərəfimdən etiraz edildi".[704]

Türk səlahiyyətliləri sovet hakim dairələrinə etirazlarını bildirir, digər tərəfdən də bolşeviklərin niyə belə etdiklərini düşünməyə başdayırdılar. Kazım Qarabəkir paşaya görə, bu müqavilə ilə ruslar Lehistan səfərini

---

700 Hüseyn Cahid Yalçın. Tarixi məktublar 6 dekabr, 1944. № 4454-423

701 TBMM. GCZS, I c.s.166. Təngirşek. Vətən xidmətində s.158. Cəbəsoy. Moskva xatirələri, s.86-87, 92. Bayur. I Müharibədən sonrakı müqavilələrimiz II. s.142-143

702 TBMM. GİZS, I c.s. 166. Bayur. I dünya müharibəsindən sonra müqavilələrimiz s.142-143.

703 Moskvadakı türk heyətinin Ankaraya göndərdiyi bir raportda göstərildiyinə görə, Azərbaycanda Sovet Rusiya hakim dairələri 10 avqust tarixli müqaviləni protest etmişdir. (Atatürkün teleqram və bəyannamələri, IV c.s.365).

704 Qarabəkir. İttihad və tərəqqi. s.25

bitirənə qədər ermənilərin fikrini yayındırmaq istəyirdi.[705]Moskvaya gedən türk heyətində hərbi müşavir olan podpolkovnik Seyfəddin bəyin verdiyi bir raporta görə, Şahtaxtı və Culfa dəmiryolunun ermənilərə verilmə səbəbi erməniləri qərbdə dəstəkləyən sosialistləri[706] və eyni zamanda Ermənistanı məmnun etmək idi. Yenə Seyfi bəyin fikrincə, ruslar bir sıra siyasi manevrlərə başlamışdılar. Onlar bir tərəfdən qərb ictimaiyyətini və erməniləri sevindirərkən, digər tərəfdən Şahtaxtının Türkiyə tərəfindən işğal edilməsini, onların sıxışdırılmasını istəyirdi.[707]

Sağ Cinah qrupu komandiri Cavid bəyin 8 sentyabrda Naxçıvanın Qızıl hərbi hissəsinin komandanlığına göndərdiyi bir teleqramda bolşeviklərin daşnaklara qarşı əsaslı bir hücumu nəzərdə tutmadıqları və onların bir dəfə gəldikləri Naxçıvandan məğlub şəkildə ayrılmamaq üçün belə bir müqavilə bağlayaraq, ermənilərin Naxçıvana hücumunu ortadan qaldırdıqlarını bildirmişdi. Yenə Cavid bəyin fikrincə, qərb cəbhəsində bolşeviklərin vəziyyəti ağır idi. Onlar türk-rus Qızıl Ordu qüvvələri ilə yerli könüllülərin Şahtaxtıya hücumunu məqsədəuyğun saymaya bilirdilər.[708]

Sovetlərin ermənilərə verdikləri bu güzəşt haqqında Veysəl bəyin fikri fərqli idi.[709] O, apardığı araşdırmaların nəticəsini 19 sentyabr 1920- ci il tarixli teleqramında Cavid beyə belə çatdırmışdı:

"1. Erməni kommunistlər Bakı və Moskvada yüksək mövqe sahibidirlər. İstər onlar, istərsə də erməni mətbuatı Türkiyə əleyhinə, Ermənistan lehinə iş aparırlar. Artıq buna nail olmuşlar və Moskvada belə fikir yaratmışlar ki, türklər millətçidirlər. Azərbaycanda əks- inqilabın səbəbi də onlardır. Birgün gələcək, türklər Azərbaycanı alacaqlar. Onların qarşısına erməni, gürcü maneəsini qoymaq lazımdır.

Moskvanın ermənilərlə bağladığı 10 avqust müqaviləsinin əsas stimulları bunlardır".[710]

Sovet Rusiya hökuməti Şahtaxtı-Culfa dəmiryolunu bir tərəfli olaraq ermənilərə versə də, sentyabr ayının əvvəllərinə qədər yolun açılması üçün heç bir təşəbbüs edilməmişdi. Ermənilərin Şahtaxtı ətrafındakı qəddar

---

[705] Qarabəkir. İstiqlal müharibəmiz, s.808

[706] Şərq cəbhəsi, s.134

[707] ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.59-1

[708] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.5

[709] Bolşeviklərin Naxçıvanda xalqa qarşı pis davranmaları və Sovet Rusiya hökumətinin Şahtaxtı-Culfa dəmiryolunu ermənilərə verməsi Veysəl bəyi narahat etmişdi və 5 sentyabrda Cavid bəyə istefa ərizəsi təqdim etmiş, lakin istefa qəbul olunmamışdı. (Ünüvar. Bolşeviklərlə 8 ay).

[710] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.7-14. Qarabəkir. İttihad tərəqqi, s.61-62

hərəkətləri və Gorus ətrafında Dronun qüvvələri ilə Qızıl Ordu hissələri arasında davam edən döyüşlər belə bir təşəbbüsə mane olurdu.[711]

Ancaq ermənilər də bu güzəştdən əl çəkmək fikrində deyildilər. 6 sentyabr 1920-ci ildə erməni tərəfi Naxçıvana bir məktub göndərdi və Şahtaxtı-Culfa dəmiryolunun verilməsini tələb etdi. Bununla əlaqədar Veysəl bəylə rus suvari alayı komandiri arasında bir görüş keçirildi. Veysəl bəyin 7 sentyabrdan 8 sentyabra keçən gün tarixli teleqramla Sağ Cinah Qrupu komandanlığına verdiyi məlumata görə, rus komandiri də bildirmişdir ki, dəmiryolunu ermənilərə vermək haqqında əmr almışlar, ermənilər xətti təmir edəcək, onlara mane olmayacaqlar, buradan hərbi qatar keçməyəcək. Veysəl bəydən də bu işə mane olmamaq üçün Türk Qızıl hərbi hissəsinə əmr verilməsini xahiş etdi.

Veysəl bəy də məsələnin Naxçıvan və Türkiyədə pis təsir yaradacağını, bolşevizm əleyhdarlarına fürsət verəcəyini, bölgədəki milyon ac camaatın dərdinə çarə axtarıldığı bir vaxtda ermənilərə güzəşt edilməsini mənfi bir hal kimi qiymətləndirdiyini bildirərək, rus komandirindən bunu yuxarı dairələrə yazmasını xahiş etmişdi. Bolşevik komandiri Tarkov özü də bu işdən narazı qaldığını, Moskvanın məqsədinin dünyada sülhsevər siyasətini göstərmək olduğunu, xəttin açılması ilə daşnakların hücum edib müharibəyə səbəb olacaqlarını, Ermənistanda daim təbliğat aparılacağını və Moskvanın verdiyi qərar əleyhinə heç bir şey yazmayacağını, ancaq yuxarı dairələrə bölgənin vəziyyəti haqqında məlumat verəcəyini bildirdi. Veysəl bəy dəmiryolunun rus ordusu tərəfindən mühafizə edilməsini təklif etmiş və nəticədə dəmiryolunun müştərək mühafizə edilməsinə, Naxçıvan stansiyasına rus qüvvələrinin yerləşdirilməsinə və erməni qatarlarına nəzarət edilməsinə qərar verir.[712] Qəbul edilmiş qərarları 9 sentyabrda Veysəl bəy Türk Qızıl hərbi hissəsinə bildirdi. Belə ifadə olunmuşdu:

"l.Rus-sovet hökuməti ilə Ermənistan hökuməti arasında 10 avqust 1920-ci ildə imzalanan müqaviləyə uyğun Qars-Sarıqamış xətti Türkiyəyə, müqabilində isə Şahtaxtı-Culfa xəttinin işlədilməsi ermənilərə verilmiş, rus hərbi hissəsinə ermənilərin Culfa xəttinin təmirinə müqavimət göstərməyəcəyi haqqında əmr vermişdir. Hərbi hissə buna tabe olacaqdır".

Rus komandiri ilə müştərək qəbul edilmiş qərara görə, nəzarət məqsədi ilə türk postu və əlavə bir rus postu yaradılacaq, onlar gələn qatarların işində əsgər və hərbi materialın olub-olmayacağını yoxladıqdan sonra qatar gedə biləcəkdi. Əsgər və hərbi material olsa, qatar saxlanılacaq.

---

[711] Kazım Qarabəkir bu məlumatı 5 sentyabrda Baş Ştaba göndərmişdi. (ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.6-3).

[712] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.4. Kazım Qarabəkir paşa Veysəl bəydən aldığı bu məlumatı 12 sentyabrda Baş Ştaba bildirmişdi. (ATASE, A. 1/4282, Kls.588, D.118-36, F.11-1, 11-2).

Qatarların yoxlanması bir-iki rus və osmanlı əsgəri tərəfindən müştərək aparılacaqdır.[713] Veysəl bəy rus qızıl alayının 20 sentyabr tarixli məlumatına əsasən bir-iki günə erməni qatarının gələcəyini hərbi hissəyə bildirmiş və əvvəl verdiyi əmrə görə, lazımi yoxlamanın aparılmasını tapşırmışdı.[714]

Ancaq bu məlumatlara və vaxtın keçməsinə baxmayaraq, Ermənistan tərəfindən qatar gəlmirdi. Məsələ ancaq türk və sovet hakim dairələri arasında müzakirə edilirdi. Ermənilər tərəfindən təşəbbüs göstərilmirdi. Məsələ Naxçıvandakı türk və rus səlahiyyətliləri arasında gündəlik məsələyə çevrilmişdi. 23 sentyabrda Şuşadan gələn 28-ci diviziya komandiri Nikolay[715] ilə Veysəl bəy arasında bu məsələ ilə əlaqədar danışıqlar keçirildi. Veysəl bəy bildirirdi:

1.Şahtaxtı-Culfadəmir yol xətti müqavilə əsasında ermənilərə verilmişdir. Bu da hissəmizə pis təsir etmişdir. Ermənilər Naxçıvan sərhədindən bir silahlı adam və bir nəfərlik belə ərzaq keçirə bilməyəcəklər. Yoxlama üçün tədbir görülmüşdür. Buna əməl etməsələr və "Naxçıvanı işğal etməyə təşəbbüs göstərsələr, müharibəyə başlayacağıq",-deyə firqə komandiri bildirdi.

2.10 avqust müqaviləsində Qars dəmir yol xəttindən türklər üçün hər bir şey keçirilməsi haqqında maddə olduğunu eşitdiyimi dedim və niyə tətbiq edilmədiyini soruşdum. Cavabda isə belə bir maddənin olması mümkündür. Ancaq niyə tətbiq edilmədiyini bilmirəm",[716] -dedi.

Naxçıvandakı Qızıl Ordu nümayəndələri Şahtaxtı-Culfa dəmiryolunu diqqət mərkəzində saxlayır, erməni qatarlarının sərhəddi keçməsini gözləyirdilər. Bu vaxt Moskvada vəziyyət dəyişməyə başlamışdı. Türk heyətinin təzyiqi və Zəngəzurda hələ Qızıl Orduya qarşı ermənilərin hücumlarının davam etməsi Sovet Rusiyası hökumətinin Ermənistanı sıxışdırmasına səbəb olmuş və buna görə də Şahtaxtının türk Ordusu tərəfindən alınmasına etiraz etməyəcəyini bildirmişdi.[717]

Beləcə erməni-sovet müqaviləsinin Şahtaxtı-Culfa dəmiryolu ilə əlaqədar hökmü, felən aradan qalxmış və bir müddət sonra türklər Şahtaxtını geri almışdılar.

---

[713]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.6

[714]ATASE, A. 6/6686, Kls.924,s.5-3, F.53

[715]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.14,15

[716]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-1. ATASE, A. 1/4282. Kls.591. D.129, 140. F.31-2.

[717]ATASE, A. 1/4282, Kls.587, s.116-16, F.59-1, 45, Cəbəsoy. Moskva xatirələri. s. 93-106.

## 4. Türk Qızıl hərbi hissəsinin müxtəlif fəaliyyətləri

1 avqust 1920-ci ildə Naxçıvana gələn türk hərbi hissələri şəhərdə heç də yaxşı olmayan bir mənzərə ilə qarşılaşdılar. İrana köçən əhalinin çox hissəsi qayıtmamışdı. Ailələrini Arazın İran tərəfindəki sahilinə keçirən kişilər gündüz Naxçıvan tərəfinə gəlir, işlərini görür, axşam təkrar Arazın cənubuna keçirdilər. Naxçıvana qayıdan bir çox əhali isə tarla və bağçalarda işləyirdi. Ancaq əsil qorxunc olan Naxçıvanın ölü bir şəhərə çevrilməsi idi. Bir zamanlar nəşə ilə dolub daşan, canlı, qələbəlik şəhər indi çox sakit və qaranlıqdı. Başqa bölgələrdən qaçıb gəlmiş qaçqınlar Naxçıvanın xarabalıqlarına və küçələrinə dolmuşdular. Küçələrdəki xəstələr və onların iniltiləri şəhərdəki həyatın yeganə əlamətləri kimi gözə çarpırdı. Naxçıvanın böyük prospekti gecələr uzun bir yataqxana mənzərəsinə çevrilirdi. Aclıq, səfalət, xəstəlik qaçqınları qırıb qurtarırdı.[718] Belə bir şəraitdə Naxçıvana gələn türk hərbi hissəsinin komandiriVeysəl bəy ilk olaraq xəstəxana açmağı qərara aldı və 4 avqust tarixdə əmri altındakılara lazımi işləri görmək üçün əmr verdi.[719] Digər tərəfdən şəhərdəki vəziyyəti görən zabit və əsgərlər fəaliyyətə başladılar. Rastlaşdıqları sahibsiz uşaqları öz yanlarına gətirir, qayğısına qalırdılar. Ancaq Veysəl bəyin fikrincə, bu işi bir qaydaya salmaq və uşaqlara yaxşı bir təhsil vermək lazım idi. Buna görə də Veysəl bəy 29 avqustda bir əmr vermiş və günortadan sonra uşaqlara təmizlik, nəzakət, nəğmə, hərbi işlər, əqli tərbiyə, oxumaq, yazmaq öyrədiləcəkdi. Dərslərdən sonra uşaqlar valideynlərin, yaxud da himayə edənlərin yanına gedirdilər. Uşaqların ərzaq və geyim ehtiyaclarını təmin etmək üçün hərbi hissə əlindən gələni edəcəkdi. Bundan başqa zabit və əsgərlər kimsəsiz uşaq gördükdə, onlar da bu uşaq bölməsinə daxil olub, verilən imkanlardan istifadə edəcəkdilər.[720]

30 avqustda Veysəl bəy Naxçıvandakı uşaq evlərini, xəstəxanaları və mühacirxanaları gəzərək gördüklərinə dair səhərisi gün Revkoma məlumat verdi. Həqiqətən vəziyyət dəhşətli idi. Yatacaq yerləri və su yox idi. Gündə ancaq bir dəfə isti şorba içə bilirdilər. Belə bir vəziyyətdə Veysəl bəy yetimxananı türk Qızıl hərbi hissəsinin himayəsinə almış, uşaqlara ərzaq verilməsi, ətrafın təmizliyi, xəstələrin müalicə etdirilməsi və bolşevik prinsiplərinin mənimsənilməsi kimi işlər bir zabitə tapşırılmışdı. Mühacirxana da pis vəziyyətdə idi. Aclıq, xəstəlik ölüm gətirirdi. Təcili yardım göstərilməli idi. Xəstəxananın tibbi ehtiyaclanın türk həkimləri ödəsə də yataq,

---

[718] ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.16-1, 16-2. Ünüvar. Bolşeviklərlə 8 ay, s. 40-41, 43

[719] ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.5.

[720] ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.15

paltar, su qabı kimi ehtiyaclar var idi. Bu ehtiyacların ödənilməsini Veysəl bəy Revkomdan xahiş etdi.[721]

Digər tərəfdən, Naxçıvanda kimsəsiz uşaqların, qaçqınların, "əhali xəstəxanası" və Qızıl uşaqlar bölməsinin xeyrinə "Xeyriyyə təşəbbüs heyəti" yaradıldı. Bu heyət doktor Dərvişdən, mexanikləşdirilmiş rota komandiri Vəhbidən, leytenant Şövkətdən və topçu komandiri Hüsnü bəydən ibarət idi. Veysəl bəyin fikrincə, arzu edən zabit və əsgərlər bu heyətə daxil ola bilərdilər.[722]

Bu vaxt Rusiyadan əsarətdən qayıdan və Türkiyəyə getmək üçün Naxçıvana gələn türk əsirləri ilə bağlı türk Qızıl hərbi hissəsi yuxarı dairələrdən aldığı əmrlər əsasında bir sıra tədbirlər görməyə başladı.Türk hərbi dairələri gələn əsirlərdən çəkinirdilər, çünki onlar yiyələndikləri bolşevik ideyalarını daxil olacaqları hissədəkilərə də mənimsədə bilərdilər. Buna görə də Veysəl bəy 13 avqustda belə bir əmr verdi. Əmrə görə, gələn əsirlərdən heç birini hərbi hissəyə daxil etməyəcəklər, əsgərlərlə əlaqəyə imkan verməyəcəklər və diviziyanın xəbəri olmadan heç kim qəbul edilməyəcək. Türk hərbi hissələrinə daxil olmaq istəyənlərin hərbi hissəyə müraciət etmələri lazım idi.[723]

Türk Qızıl hərbi hissə komandanlığının mütləq icra etməli olduğu əsas məsələlərdən biri türk fərariləri ilə bağlı idi. Əvvəlki illərdə türk ordusundan fərarilik edərək İran və Naxçıvana gedən əsgərlərin bir hissəsindən Naxçıvanda cərimə bölüyü təşkil edilmişdi. Ancaq digər fərarilər bölgədə evlənmiş və boş-boşuna gəzirdilər. Naxçıvana gələn Veysəl bəy bu fərarilərdən 43 nəfərini 34-cü alayın 2-ci batalyonuna təhvil vermək üçün göndərmişdi, ancaq 30 nəfəri yolda qaçmışdı. Veysəl bəyin Sağ Cinah Qrupu komandanlığına 9 avqustda verdiyi məlumata görə onlar regionda qeyri-qanuni hərəkətlər edərək türk əsgərinin adını ləkələyirlər. Onlar regiondan çıxarılsa, asayiş bərpa olunar.[724]

Veysəl bəyin dediyi kimi, türk fərariləri Naxçıvan bölgəsində asayişi pozmağa başlamışdılar. Revkom fasiləsiz bu hadisələrlə əlaqədar Veysəl bəyə şikayət edirdi. Veysəl bəy də 16 avqustda Revkom rəisinə bir məktub göndərdi və bildirdi ki, türk ordusundan fərarirlik edən əsgərlərin qeyri-qanuni hərəkətlərindən xəbəri var və yenə xahiş edirdi ki, sənədi olmayan şəxsləri Revkom tutub türk hissəsinə versin, əks-təqdirdə bu işlərdə türk hərbi hissəsi məsuliyyət daşımayacaq. Bundan başqa, şəhər kənarındakı

[721]ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.16. Veysəl bəy Revkom rəisinə göndərdiyi 27 avqust tarixli bir məktubda türk əsgərləri olduğu binanın ətrafındakı mühacirlərin başqa yerlərdə yerləşdirilməsini xahiş etmişdi. Əks təqdirdə əsgərlər mühacirlərdən xəstəlik tutacaqlar. ATASE, A. 6/6686, Kls.925,D.6-1, F.2-24.

[722]ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.17

[723]ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.16-2

[724]ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.13

quldurluq, yolkəsənlik və s. hərəkətlərin türk fərariləri tərəfindən edildiyini düşünmək səhvdir. Əlində silahı olan yoxsul mühacirlərin və yerli adamların da hadisələrdə iştirakı ola bilərdi. Bundan sonra Veysəl bəy giley və istəklərini belə ifadə edirdi: "Cinayət edənləri cəzalandıran bir təşkilat olmalıdır. Bir cinayət olar-olmaz türk hərbi hissə komandanlığına məlumat yazmaqla məsələ bitməz. Türk əsgəri adından cinayət törədənin izi yox olur. Beləcə günahkarlar rahat-rahat işlərini davam etdirirlər.[725]

Regionda bu hadisələrlə bağlı Revkoma da yazışmalar davam edirdi.

Veysəl bəy də Revkoma türk fərarilərinin bəzi kənd və qəsəbələrdə gizləndiyini və əhaliyə qarşı narahatçılıqlar törətdiklərini bildirərək yazırdı ki, bu əsgərlərə hərbi hissədən sənəd almaları üçün 3 gün müddət verilmişdir. Kənd və məhəllə məclisləri bunu fərarilərə bildirməlidirlər, əks-təqdirdə sənədi olmayanlar həbs olunub hərbi hissəyə verilməlidir.[726] Görünür, görülən tədbirlərin bir nəticəsi olmuşdur ki, avqust ayının axırlarında fərarilərlə əlaqədar məktublaşma sona çatdı.

Naxçıvanda türk Qızıl hərbi hissəsi adı ilə tanınan, işarət və əlamətləri bolşeviklərə oxşayan türk qüvvələri kommunist fikirlərdən çəkilsələr də, özlərini onlarm ideyalarını qəbul etmiş kimi göstərirdilər. Ancaq buna baxmayaraq, türk əsgərlərinin bir neçəsi bolşevizmlə çox maraqlanırdı. Buna görə də bolşeviklərin iç üzünü göstərmək məqsədilə Veysəl bəy bolşevik süvari alayında olan bir neçə türk kommunisti əsgərlərə mühazirə oxumaq üçün dəvət etdi. Mövzu bolşeviklərin əsgərlik məsələsi ilə əlaqədar idi. Veysəl bəyə görə, məruzəçilərin yalan sərt çıxışları kommunistlərə qarşı bir narazıçılığın yaranmasına səbəb olmuşdu.[727]

Yenə Naxçıvana Kommunist Partiyası təsis etmək üçün gələn biri rus, digəri erməni olan 2 nəfər, türk əsgəri ilə söhbət etmək istəyirdi. Bunu Veysəl bəyə bildirdilər. Veysəl bəy razılıq verdi və lazımi tədbirlər gördü. Veysəl bəy, türk əsgərinin bolşevik prinsiplərini qəbul etdiyi təəssuratını yox etməmək məqsədilə batalyonun komandirini və etimad göstərdiyi bir zabitini çağırdı, kommunistlərin hansı suallar verə biləcəyini və sualların cavablarının əzbərlətdi. Veysəl bəy 21 sentyabrda Bəyazidə bir teleqram göndərmiş və bildirmişdir ki, bu görüşü təxmin etdiyi kimi keçirmişdir[728] və nələrdən danışıldığı ona bildirilmişdi.

---

[725]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.10

[726]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.26-1

[727]Ünüvar. Bolşeviklərlə 8 ay, s.43.

[728]ATASE, A. 6/6686, Kls.924,D.1-2, F.12. D.1-2. F.12

## 5. Türk Qızıl hərbi hissəsinin ərzaq məsələsi

1avqustda Naxçıvana gələn türk hərbi hissəsi bir müddət sonra ərzaq sıxıntısı çəkməyə başladı. Naxçıvan ərzaq komissiyası ərzaq azaldığına görə türk və rus Qızıl Ordu hissələrinə çörəyi az verəcəyini bildirmiş və belə də etmişdi.[729]Əvvəllər bu ərzaq çatışmazlığından bəzi türk əsgərləri əhalinin bağ-bağçalarına girir, onlara zərər verirdilər. Bu, Revkomun ərzaq komissarlığı tərəfindən Veysəl bəyə bildirilmiş,[730] çox narahat olmuşdu. 14 avqustda onun zabit və əsgərlərə verdiyi məlumatda belə deyilirdi: "Hissəmizdəki bütün zabit və əsgərlər bilməlidirlər ki, ətrafda edilən ən kiçik bir narahatçılıq bir şəxsin deyil, bütün türk millətinin adınadır. Bizi buraya yol kəsməyə və tərbiyəsizlik etməyə göndərməmişlər. Bütün zabitlərə xəbərdarlıq edilsin. Götürülən otların pulu ödənilməyibsə, pulunu Hacı Məhsudiyə versinlər. Əgər bundan sonra belə bir hərəkət edən görsəm, onu və komandirini cəzalandıracağıq".[731]

Veysəl bəy Revkomun şikayətlərinə narazıçılığını bildirdi. Türk Qızıl hərbi hissəsi də Revkoma bağlı ərzaq komissarlığından Xəlil paşaya şikayət edirdi. 17 avqust tarixli şikayətinə görə Naxçıvan ərzaq komissiyası ruslara ət verdiyi halda türklərə 7 gündən bəri ət vermirdi. Hissənin ehtiyat əti qurtarmışdı. Revkoma edilən müraciətləri Hacı Məhsudiyə vermişdilər, o isə boş-boş danışmaqdan başqa bir iş görmürdü.[732] Şikayət Hacı Məhsudiyə dərhal çatdırılmış və həmin gün türk Qızıl hərbi hissəsinə cavab göndərmişdi: "Ərzaq komissiyası iki Qızıl hərbi hissə arasında fərq qoymadığını, ancaq ərzağın azlığından belə sıxıntı çəkildiyini və sıxıntının aradan qaldırılması üçün əlindən gələni edəcəyini bildirdi".[733]

Hacı Məhsudi 17 avqustda Türk Qızıl hərbi hissəsi komandanlığına bir məktub göndərərək türk zabitlərindən şikayətini-onların icazəsiz ot apardıqlarını bildirdi.[734] Veysəl bəy səhərisi gün verdiyi cavabda bildirmişdir ki, ərzaq komissiyasının tələbi ilə əsgərlər kəndlərdən sənədlə ot alırlar və indi ot almaq istəyənlər komissiyadan icazə almalıdır, bu da bir ziddiyyət yaradacaqdır.[735]

Gün keçdikcə ərzaq sıxıntısı artdığından Revkom ilə türk Qızıl hərbi hissə arasındakı münasibətlər pisləşdi. Veysəl bəy 22 avqustda Sağ Cinah qrupu komandanlığına bir teleqram göndərdi. Bu teleqramda ərzaq

[729]ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.10-1.
[730]ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.10-10
[731]ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.12
[732]ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.9-9
[733]ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.10-2
[734]ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.10-3
[735] Bu yazıda Veysəl bəy kimin otunu kim sənədsiz almışsa, bildirilməsini xahiş etmişdir. (ATASE, A. 6/6686, Kls.924,D.7-8, F.12-3).

çatışmazlığından və bəzi intriqalardan bəhs edilir. Teleqramda yazılmışdı: "Hissəmizin ərzağı çətinliklə təmin edilirdi, bəzən günlərcə ət və arpa almırıq, ərzaq sənədlə verilir və bu işin başında fitnə-fəsadçı olduğundan müxtəlif dedi-qodular yaranır, ruslar ərzaqlarını nəqd pul ilə aldıqlarından onlara istədikləri hər şey verilir. Onlardan artıq qalsa, bizə verirlər. Bu halın məmləkətin şərəf və nüfuzu üçün yaxşı şey olmadığı fikrindəyəm".

Veysəl bəy türk Qızıl hərbi hissəsinə göstərilən etinasızlıqdan pərt olmuşdu. Revkom və ərzaq komisssiyasının sədri Hacı Məhsudinin yerli-yersiz şikayətlərini Veysəl bəy türk hərbi hissəsinin Naxçıvanda olmasını istəməməsi kimi qiymətləndirir və hətta ermənilərə qarşı bir əməliyyat zamanı hərbi hissənin tamamilə ərzaqsız qalacağından qorxurdu.[736] Bu aralarda Naxçıvan hərbi komissarı Həbib Səlimovun türk hissələrinə verilən ərzaq müqabilində döyüş sursatı istəməsi iki tərəf arasında münasibətlərin pozulmasına gətirib çıxardı. Veysəl bəy hərbi komissarlığa 3 qutu mauzer patronu verdiyini, ancaq belə bir tələbin məqsədəuyğun sayılmadığını, türk hərbi hissəsi Naxçıvanı qoruduğundan onları ərzaqla naxçıvanlıların təmin etməsinin lazım olduğunu Cavid bəyə bildirir, bu vəziyyəti Revkoma da bildirəcəyini qeyd edir və ordu komandanlığının işə qarışmasını xahiş edirdi.[737]

Sağ Cinah Qrupu komandanlığının işə qarışması, Veysəl bəyin sərt çıxışları və Naxçıvanda ərzaq çatışmazlığının son həddə çatması və s. səbəblərə görə Revkom rəhbərliyi dəyişmiş, türk tərəfdarlarının və zabitlərinin daxil olduğu yeni rəhbərlik avqust ayının axırlarında işə başlamışdı. Bu yeni mərhələdə hərbi hissənin ərzaq xərci və zabitlərin iki aylıq maaşlarının ödənilməsi gündəlik məsələyə çevrilmiş, Revkom sədri İbrahimağa lazımi pulu Bakıdan istəmişdi.

### 6. Qızıl Ordu ilə ermənilər arasında döyüşlər

Naxçıvanda görüşən türk və sovet Qızıl Ordu qüvvələri iki ölkə münasibətlərinin ittifaq təşkil etməsində körpü vəzifəsi rolunu oynayırdı və Naxçıvanın mühafizəsini müştərək olaraq üzərlərinə götürmüşdülər.[738]

---

[736]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-21

[737]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.13

[738] Ermənistana hücum hazırlıqları görən Sağ Cinah qrupu komandanlığı türk hərbi hissəsini sentyabr ayında Bəyazidə çağırmaq istəyirdi, Naxçıvandakı rus alay komandiri ehtiyat qüvvə gələnə qədər türk qüvvələrinin bölgədə qalmasının əhəmiyyətli olduğunu bildirir, bundan başqa, əlavə qüvvələr gəlsə belə, dost hissəni itirmək istəmirdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.11). Bağırov göstərirdi ki, avqust ayında Qızıl Ordu komandanlığı ilə türk hərbi rəhbərləri arasında danışıqlar aparılmışdır. Məsələ türk hərbi hissəsinin Naxçıvandan çıxması idi. Türklər burdan getməyi qəbul etməmişlər. Yuxarıdakı sənəd bunu təsdiq edir. (Şəmsəddin, Bağırov. Bir qaragün dostluğu,s.149).

Öz aralarında müəyyənləşdirdikləri bölgələri müdafiə edirdilər.[739] Şahtaxtını ələ keçirən ermənilər Naxçıvana hücum etmədilər.[740] Yalnız sərhəd bölgələrində iki tərəfin kəşfiyyat hissələri arasında kiçik münaqişələr olurdu. Türk və rus Qızıl Ordu hissələri erməni zirehli qatarlarının hücumunun qarşısını almaq üçün dəmiryol xəttini dağıtmış və nəzarət altına almışdılar.[741] Naxçıvan bölgəsinə ilk ciddi erməni hücumu 9 avqustda Cəhrinin 8 km şimal-şərqindəki Tırkeşdə olmuşdur. 500 əsgər və 2 pulemyotdan ibarət erməni qüvvəsi milis və Qızıl qüvvələr tərəfindən darmadağın edilmişdi.[742] 24 avqust səhəri başlayan erməni hücumu iki tərəf arasında qısa müddətli şiddətli bir döyüşə səbəb olmuşdu. Bu səbəblə də, türk və rus Qızıl Ordu hissələri Şahtaxtıya hücum etməyi qərara almışdılar.[743] Ancaq erməni hücumunun qısa olması və həmin gün bir hücuma təşəbbüs göstərməmələri 24 avqust saat 12-də planlaşdırılmış hücumun təxirə salınmasına səbəb oldu. Bolşevik alay komandirinin ifadəsinə görə, yerli könüllülər dəstələri öz yerlərini almaq üçün hücumları dəstəkləyəcəkdi və 28-ci diviziyaya da əhalinin evlərini almaq üçün hücuma keçdiyini bildirəcəkdi.[744]

Sentyabr ayının əvvəllərində ermənilərin Naxçıvana hücumları arabir davam edirdisə də,[745] ermənilərlə Qızıl qüvvələr arasında əsl döyüşlər Ordubad-Meğri arasında oldu. Bazarçay, Əngələvut və Gorus ətrafında ermənilərin bolşeviklərə qarşı hücumu nəticəsində bu yol təhlükəli yerə çevrilmiş, buna görə də Naxçıvandakı Qızıl süvari alayı ilə Şuşadakı diviziya arasın-

---

[739] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-17

[740] Türk Qızıl hərbi hissəsinə sığınan iki erməni əsgərinin verdiyi məlumata görə Şahtaxtıda 2 piyada alayı, 600 milis, 200 nəfərlik yunan batalyonu, 100 nəfərlik yezidi qüvvələri var idi. (ATASE, A. 7/3178, Kls.935, D.7-7, F.18, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-19).

[741] ATASE, A. 6/6686, Kls.925,D.8-4, F.2. ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-14,2-18, Şərq cəbhəsi III s.112.

[742] Qarabəkir. İstiqlal müharibəmiz, s.807. Veysəl bəyin məlumatına görə, 21 avqustda daşnaklar Qars tərəfindən köçən 7300 müsəlmandan yollarda ölən 1300 nəfərdən başqa, qalanlarını Şahtaxtı bölgəsinə gətirmiş və məcburən Araz çayından İran tərəfə keçirmişlər. İran hökuməti onların zərər çəkmədən Şahtaxtı körpüsündən keçirilməsini tələb etmişdi, ermənilər qəbul etməmişdilər. Ermənilər onların əlindən at, öküzü almış və guya ki, öz razılıqları ilə vermələrinə dair onlardan yazı almışlar. Bundan başqa, ermənilərin aclıqdan Şahtaxtıya qaçan mühacirləri öldürdükləri də bəllidir. (ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.27, 27-1). Erməni və gürcülər tərəfdən müsəlman əhaliyə edilən zülm 1-7 sentyabrda Bakıda keçirilən Şərq millətləri qurultayı bölgə nümayəndələri tərəfindən dilə gətirilmişdir. (Esin Dayı Elviyeyi Selasi (Batumi, Qars, Ərdahan) və Milli təşkilatların yaradılması. (Çap olunmamış namizədlik dissertasiyası, Ərzurum, 1991,s.168. sayılqan. Türkiyədə sol hərəkatlar. s.138-139)

[743] Xəlil paşa Şərq cəbhəsi komandanlığına verdiyi bir raportda göstərirdi ki, bolşevik süvari alayının 21-25 avqustda Şahtaxtıya hücum etmək qərarı qəbul edilmişdir. 28 avqustda Xəlil paşa yazdığı bir başqa raporda hücumun tarixinin müəyyənləşmədiyini göstərirdi. (ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-29).

[744] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2-22.

[745] Ermənilərin bu hücumunu rus süvari rotası ilə Sələsüz batalyonu dəf etmiş, ancaq Sələsüz batalyon komandiri müavini baş çavuş Mühiddin şəhid olmuşdu. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.7).

da əlaqə zəifləməyə başlamışdı.[746] Yəqin ki, bu səbəbdən Şuşadakı28-ci bolşevik diviziyasının Meğri tərəfdən Ordubada gəlməsi qərara alınmışdır.[747] Bu qərarın həyata keçirilməsi məqsədilə Ordubaddan Meğriyə hücum edilməli, oradakı ermənilər təsirsiz hala gətirilməli idi. 23 sentyabrda Naxçıvana gələn Şuşadakı bolşevik diviziya komandiri Nikolay[748] türk qüvvələrinin yardımı ilə belə bir əməliyyatı apara biləcəyini bildirmiş və süvari alay komandirindən türk Qızıl hərbi hissəsinin Ordubada çağırılmasını xahiş etmişdi.[749]

Diviziya komandirinin planına görə, piyada alayı Şuşadan Madənə, Astazora hərəkət edəcək, müttəfiq qızıl qüvvələr isə Ordubad tərəfdən Meğri yolunu açacaq və beləliklə, Şuşa-Naxçıvan əlaqəsi yaradılacaqdı. Veysəl bəy Şuşadan qızıl qüvvələrin Naxçıvana gələcəyini eşidən kimi sevinmişdi[750] və ondan tələb edilən türk qüvvələrinin Ordubada göndərilməsini məqsədəuyğun sayaraq lazımi hazırlıq işlərinə başlamışdı.[751] Ancaq Cavid bəyin razılığını almaq vacib idi. Bu məqsədlə 23 sentyabrda o, Sağ Cinah Qrupu komandanlığına vəziyyəti bildirdi və icazə istədi.[752] Ermənilərə qarşı hücumun son hazırlıq işlərini görən türk hərbi dairələri əvvəlcə buna razı olmadılar. 26 sentyabrda Veysəl bəyə axşam bolşevik qüvvələri ilə bərabər Şahtaxtıya bir zahiri hücum edilməsi bildirildi.[753] Veysəl bəy çətin vəziyyətdə qalmışdı. Bəyaziddən lazımi əmr gəlmədən hissədən bir batalyon Ordubada yola düşmüşdü. Səhərisi gün batalyonu geri çağırmaq üçün Veysəl bəy hazırlığa başladı. Bu vaxt Cavid bəydən bir əmr gəldi, Veysəl bəy bir qədər sakitləşdi, çünki bu əmrə əsasən hissənin hərəkəti sərbəst idi.

Veysəl bəy Ordubada daxil oldu və burada bolşeviklərlə müştərək Meğriyə hücumun planlarını hazırlamağa başladı. Bolşevik süvari alayı

---

[746]„Şərq cəbhəsi" adlı əsərdə 10 avqustda hücuma keçən ermənilərin Qızıl Ordu hissələrini Bazarçaydan və Gorusdan çıxartdıqlarını, yolu tamamilə bağladıqlarını yazırdılar (Şərq cəbhəsi s.112). 3 sentyabrda Naxçıvandan ayrılan Xəlil paşanın, Gorusdakı Qızıl Ordu hissələri ilə görüşmək üçün Gorusa gəlməsi və bu yoldan Bakıya getməsi, (ATASE, A.1/4282,Kls.586,D.115-35, F.25-29; ATASE, A.1/4282,Kls.924,D.6-1,F.14) 23 sentyabrda Şuşadakı 28-ci diviziya komandirinin Naxçıvana səfəri sübut edir ki, yol tamamilə bağlanmamışdır. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.14).

[747] Ünüvar. Bolşeviklərlə 8 ay. Şərq cəbhəsi III s.113.

[748] Veysəl bəyin Sağ Cinah Qrupu komandanlığına göndərdiyi 24 sentyabr tarixli teleqrama görə, Nikolayın məqsədi İranda vəziyyət haqqında tədqiqat aparmaq və Ordubad ətrafında ermənilərin silahlarını toplamaqdı. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.15).

[749]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.14.

[750] Veysəl bəy Şuşadan gələcək piyada alayı ilə bərabər ermənilərə qarşı üstünlük əldə edəcəyini düşünürdü. (Ünüvar. Bolşeviklərlə 8 ay, s.46).

[751] Veysəl bəy bolşeviklərin bir sıra mənfi davranışları ilə qarşılaşanda Şahtaxtıya hücum nəzərdə tutduğu bir vaxtda türk hərbi hissəsinin Ordubada çağırılması, məğlub olduğu halda əməliyyatın davam etdirilməsi və s. ona qəribə gəlirdi və şübhə ilə baxırdı (Ünüvar. Bolşeviklərlə 8 ay s.73).

[752] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-7, Ünüvar. Bolşeviklərlə 8 ay, s.46-47, Şərq cəbhəsi III, s.113

[753]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-7.

komandiri xəstələndiyindən Veysəl bəyin əmrində olan 500 milis, 60 türk və 40 rus əsgəri 29 sentyabrdan hücuma keçərək qısa döyüşlərdə Soyuq və Xorhad dağlarını işğal etdi. Şuşa tərəfdən gələn bolşevik qüvvələri gecikirdi. 2 oktyabrda erməni qüvvələri Qızıl Ordu qüvvələrini mühasirəyə aldılar. Meğriyə hücum sona çatdı. Bolşevik qüvvələri mühasirədən çıxaraq Ordubada qayıtdılar. Bu vaxt Meğriyə yeni hücum üçün rus alay komandiri Veysəl bəyin imzası ilə bir türk batalyonunu Ordubada gətirmişdi. Ancaq Veysəl bəy rus alay komandirinin planını müvafiq hesab etmədi,[754] yeni gələn batalyonla bərabər, 9 oktyabarda Naxçıvana qayıtdı.[755] Veysəl bəy getdikdən sonra 10 oktyabrda rus alay komandiri bölgədəki türk, rus qüvvələrini və milisləri yenidən Soyuq dağa göndərdi və dağı işğal etdilər. Ancaq 12 oktyabrda ermənilərin hücumu nəticəsində bu qüvvələr dağılmış, Ordubada qayıtmışlar.[756] Bu tarixdən etibarən Soyuğa daha bir neçə dəfə hücum təşəbbüsü oldu, ancaq müvəffəqiyyət əldə edilmədi və nəticədə 19 oktyabrda bütün qüvvələr Naxçıvana çəkildi.[757] Beləcə, bu bölgədəki döyüşlər sona çatdı, Qarçivan-Meğri tərəfdən Azərbaycan ilə əlaqə yaratmaq planını həyata keçirə bilmədilər.[758]

## C. Naxçıvanda ərazi bütövlüyünün təmin edilməsi

### 1. Şahtaxtının işğalı üçün hazırlıqlar

1920-ci ilin iyul ayında Naxçıvana başlanan erməni hücumu müvəffəqiyyətlə irəliləyirdi. Böyük Vedi, Dəvəli, Dəhnə boğazı, Şərur və nəhayət, Şahtaxtı işğal edilmişdi. Xüsusilə, Şahtaxtının işğalı Türkiyə üçün təhlükəli bir vəziyyət yaratmışdı. Çox böyük əhəmiyyət verilən Türkiyə-Azərbaycan Sovet Rusiyası quru yolları nisbətən bağlanmışdı, Şahtaxtı-Bəyazid-Ağrı arasındakı işə salınması nəzərdə tutulan dəmiryolu xətti işə salınmamış, ermənilər İran ilə münasibət yaratdıqlarından həm geniş ərzaq mənbələri əldə etmiş və eyni zamanda ingilislərin dəstəyi ilə Qərbi İran və Türkiyə üçün təhlükə yaratmağa başlamışdılar.[759] Bunlara baxmayaraq,

---

754 3 oktyabrda Veysəl bəy Sağ Cinah Qrupu komandanlığına müvəffəqiyyət əldə edə bilmədiklərindən Ordubada çəkildiklərini, rus alay komandirinin yeni bir hücum planı hazırladığını və bu vəziyyətdə müvəffəqiyyətli olmayacağını bildirdi. O, qüvvələrin bir hissəsi Ordubadda qalacağından Şahtaxtıya hücumun təxirə salınmasını istəyirdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-8).

755 Ünüvar. Bolşeviklərlə 8 ay, s.47-49, Şərq cəbhəsi III s.114.

756 Məğlubiyyət nəticəsində bolşevik alay komandiri Veysəl bəydən qüvvə göndərilməsini istədi. Veysəl bəy də Bəyazidə qüvvə göndərdiyindən Ordubada əlavə qüvvə göndərə bilməyəcəyini və oradakı batalyonun əmrində olduğunu bildirdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-2).

757 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-14, 17. Şərq cəbhəsi s. 114-115.

758 ATASE, A. 6/6686, Kls.924,s.4-8, F.2.

759 ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-20, 25-21.

Sovetlər işə qarışdığından Şərqcəbhəsi komandanlığı erməni hücumuna birbaşa müdaxilə edə bilməmişdi.

Ancaq Şahtaxtının əldən verilməsi türk hərbi dairələrini olduqca narahat edirdi. Buna görə də Şahtaxtının dərhal işğal edilməsi vacib idi. Bolşevik süvari alayının 28 iyulda Naxçıvana gəlməsi bu sahədə mühüm addım kimi qiymətləndirilmişdi. Türk və bolşevik qüvvələrinin müştərək şəkildə ermənilərə hücum etməsi nəzərdə tutulurdu. Şahtaxtı və Şəruru işğal edən ermənilərin yavaş-yavaş bolşevik qüvvələrinin nəzarətində olan bölgələrə hücum etmələri, şübhəsiz, türk hakim dairələrinə axtardıqları fürsəti vermişdi. Türk və bolşevik komandirləri 21-25 avqustda Şahtaxtıya hücum etməyi qərara almışdılar.[760] 24 avqust səhəri ermənilərin geniş ölçüdəki qısa hücumuna qarşı həmin gün saat 12.00-da hücum qərara alındı. Lazımi planlar hazırlandı, hazırlıqlar görülməyə başlandı.[761] Ancaq erməni hücumu 15 dəqiqədən artıq davam etmədi, bolşevik süvari alayı komandiri hücum fikrindən daşındı və vəziyyəti Xəlil paşaya bildirdi. Alay komandiri Xəlil paşaya bildirdi ki, könüllü qüvvələr Şahtaxtıda olan əməliyyatları dəstəkləyəcək, 28-ci bolşevik diviziyası da müdafiə edəcək. 28 avqustda Xəlil paşa Şərq cəbhəsi komandanlığına bildirdi ki, Şahtaxtı istiqamətinə hücum dəqiqdir, lakin vaxtı bəlli deyil. Bu vaxt Estoniyada baş verən hadisələrə görə Xəlil paşa bu hücumun təxirə salınacağını fikirləşdi. Bu səbəbdən də Gorus və Bakıdakı Qızıl Ordu komandirləri ilə görüşmək istədi.[762]

Ancaq sentyabr ayının əvvəllərindən etibarən müəyyən bir müddətdə müştərək hücumdan bəhs etmək mümkün deyildi. Çünki 10 avqustda bağlanan rus-erməni müqaviləsinə əsasən Şahtaxtı və Culfa dəmiryolunun istifadə məqsədilə ermənilərə verilməsi Naxçıvandakı Qızıl Ordu hissələrinə bildirilmiş və bununla əlaqədar lazımi işlər də görülmüşdü.[763] 23 sentyabrda Naxçıvana gələn 28-ci bolşevik diviziya komandiri Nikolay da qələm ilə imzalanan müqaviləni balta ilə qırmaq mümkün deyildir - deyərək, Şahtaxtının işğalına tərəfdar olmadığını bildirdi.[764]

Ancaq bu vaxt Moskvanın məsələyə münasibəti dəyişmişdi. Moskvadakı türk heyətinin 10 avqust tarixli müqaviləyə etirazı, hələ Zəngəzurda ermənilərin Qızıl Orduya qarşı hücumlarını davam etdirməsi,

---

[760] ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-20, 25-29. Xəlil paşa Kazım Qarabəkir paşaya göndərdiyi teleqramda bildirirdi ki, Şahtaxtının əldə edilməsi Türkiyə üçün çox əhəmiyyətlidir, eyni zamanda Maku yolunun açılması Qızıl Ordunun taxılla təmin edilməsində əhəmiyyət daşıyır. (ATASE, A. 1/4282, Kls.586, D.115-35, F.25-21, 25-221). Xəlil paşanın bu fikri bolşeviklərə bildirilməsi ehtimal olunur.

[761] ATASE, A. 1/4282, Kls.586, D.116-6, f.37.

[762] ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.2-22. ATASE, A. 1/4282, Kls.586, D.115-35, f.25-29.

[763] ATASE, A. 6/6686, Kls.921,D.6-1, f.4. ATASE, A. 1/4282, Kls.588, D.118-36, f.11, 11-1, 11-2.

[764] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16.

İrəvandakı ingilis təsirinin davamı və s. belə səbəblərə görə Sovet Rusiyası hökuməti Ermənistanı sıxışdırmaq istəyərək, Şahtaxtı və Sarıqamışın türklər tərəfindən işğal edilməsinə etiraz etməyəcəyini bildirdi.[765]

Türk Ordusunun yolu artıq açılmışdı. Elə bu aralarda ermənilərin Oltu və Bardız bölgələrində Türkiyə sərhəddinə hücum etmələri TBMM hökumətinə və bilavasitə Şərq Cəbhəsi komandanlığına istədiyi fürsəti vermişdi. 1920-ci ilin mart ayında gözlənilən an gəlmişdi.20 sentyabrda TBMM Şərq Cəbhəsi komandanlığına Ermənistana hücum etmək üçün icazə vermiş və Şərq Cəbhəsi komandanlığı da ümumi bir hücum üçün 27 sentyabr səhərini müəyyənləşdirmişdi.[766]

Baş stab rəisi İsmət bəy 24 sentyabrda Şərq cəbhəsi komandanlığında Ermənistana hücum üçün müəyyən olunan 27 sentyabr tarixini ermənilər xəbər tutmasın deyə Naxçıvandakı türk hərbi hissəsinə ancaq əməliyyat günü səhər bildirilməsini tapşırmışdı.[767]Ancaq həmin gün bu teleqram gəlməmişdən əvvəl Kazım Qarabəkir paşanın imzası ilə Veysəl bəyə bir teleqram göndərilmiş və səhərisi gün Cavid bəy vasitəsilə Naxçıvana çatdırılmışdı. Buna görə də Veysəl bəy bolşevik alayı komandiri ilə görüşüb, 27 sentyabr səhəri və ya sonrakı günlərdə ediləcək hücumla Şahtaxtı işğal ediləcəkdi.[768] İsmət bəyin teleqramına əsasən Kazım Qarabəkir paşa Veysəl bəyə ikinci dəfə teleqram göndərdi. 24 sentyabr günü havanın yağışlı olması səbəbilə əməliyyatın təxirə salındığı, hücum başlanan kimi xəbər ediləcəyini, ancaq bolşeviklər xəbərdar olarsa, ermənilər tərəfindən bilinəcəyi üçün çox gizli hərəkət edilməsini tapşırdı. Və Sarıqamış cəbhəsində hücum başlamadan ermənilərə qarşı hər hansı bir hücum olmamasını və bolşeviklərlə bu məsələ haqqında danışıq olub-olmadığının bildirilməsini tələb etdi.[769]

Kazım Qarabəkir paşanın əməliyyatın vaxtı haqqında Veysəl bəyə düzgün məlumat verməməsi Naxçıvanda hücum məsələsi ilə əlaqədar bolşeviklərlə razılaşıb Şahtaxtıda müştərək əməliyyat aparılmasını mümkünsüz edərdi. Bu vaxt Şuşa-Astazordan gələn bolşevik alayını qarşılamaq məqsədilə Naxçıvandakı süvari alayı komandiri Ordubada getdi və Meğriyə hücum başladı, hətta bu məqsədlə türk hərbi hissəsindən bir batalyonun Ordubada gəlməsini Veysəl bəyə təklif etdi. Əvvəl qeyd etdiyimiz kimi, gələcəkdə bolşeviklərin yardımını təmin etmək məqsədilə Veysəl bəy bu

---

[765]ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.59-1, 45

[766] Şərq cəbhəsi III c.s. 145-146. Fəxri Bələn. Türk qurtuluş savaşı. Ankara, 1983, s.242.

[767]ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.61.

[768]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-2, 16-3. Kazım Qarabəkir paşa Naxçıvandakı bolşevik qüvvələrin əməliyyatda iştirak edəcəyindən əmin idi. (Kazım Qarabəkir. Makina səhifəli qeydləri s.70).

[769] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-5.

təklifi qəbul etdi və bir batalyonu Ordubada göndərdi. Ancaq 26 sentyabr axşamı alınan əmrə əsasən bolşeviklərlə bərabər Şahtaxtıya hücum tələb ediləndə Veysəl bəy çətin vəziyyətdə qaldı. Ancaq səhərisi gün bu əmr ləğv edildi və yeni əmrə əsasən bu hərbi hissəyə hərəkətlərində sərbəst olduğu bildirildi. Veysəl bəy Ordubada getdi və Meğri əməliyyatlarında iştirak etdi.[770] Bu əməliyyat məğlubiyyətlə nəticələndi. Ordubada qayıdan Veysəl bəy Cavid bəyə Şahtaxtıya hücumun təxirə salınmasını təklif etdi.[771]

Ordubad bölgəsində Qızıl Ordu ermənilərlə döyüşə başladığı vaxtda türk ordusu da 28 sentyabr səhəri Ermənistana qarşı hücuma başladı. Əməliyyat müvəffəqiyyətlə başa çatdı. 29 sentyabr səhəri Sarıqamış, axşamı isə Çatak, Divik, Bəzirgan keçidi, 30 sentyabrda Mərdənik (Gölə), 1 oktyabrda Kağızman ələ keçirildi.[772]

İğdır üzərinə geniş şəkildə bir hücuma hazırlanan Sağ Cinah qrupu komandanlığı 7 oktyabr 1920-ci ildə Naxçıvandakı türk Qızıl hərbi hissəsindən, cəbhəyə ordu toplayan ermənilərə və onları dəstəklədiyindən şübhə edilən Maku sərdarına qarşı döyüşmək üçün bir batalyon və topçu rotası istəmiş, Veysəl bəy də 18-ci alayın 1-ci batalyonu ilə pulemyot və topçu rotalarının Bəyazidə yola düşəcəklərini bildirdi.[773] Ancaq Ordubad bölgəsindəki batalyonun gecikməsinə və Naxçıvandakı batalyonlarda Naxçıvan-Maku yolunu mühafizə edə bilən bacarıqlı zabitin olmamasına görə Veysəl bəy 13 oktyabrda Sağ Cinah qrupu komandanlığına 34-cü alayın 1-ci batalyonunun Makuda saxlanılmasını, Ordubaddan gələcək 34-cü alayın 2-ci batalyonunun Bəyazidə göndərilməsini təklif etmiş və bildirmişdi ki, məqsədəuyğun görərlərsə, 12 saat ərzində 18-ci alayın 1-ci batalyonunu da Makuya göndərər.[774]

Digər cəbhələrdə ermənilərə qarşı başlanan hücumun Naxçıvanda da baş verməsi vacib idi. Şərq Cəbhəsi komandanlığı Qarsın alınması üçün əməliyyata başlayacağından İğdır və Şahtaxtıya hücumlarını mümkün qədər tezləşdirməyi, beləcə Şahtaxtı və İğdır tərəfindən İrəvanı hədələmək lazım olduğunu 18 oktyabrda Sağ Cinah Qrupu komandanlığına bildirdi.[775] Cavid bəy həmin gün bu əmri Veysəl bəyə çatdırdı və İğdırda müvəffəqiyyət əldə edilərsə, Naxçıvana əlavə qüvvə göndərəcəyini bildirdi.[776]

---

770 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.14, 16-7. Ünüvar. Bolşeviklərlə 8 ay, s.46-49.

771 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-8.

772 Hakimiyyəti-milliyə, 5 oktyabr 1920, №62. Oktyabr, 1920. Kazım Qarabəkir. İstiqlal müharibəmiz, s.848-849. Kazım Qarabəkir. Makina səhifəli qeydləri, s.71, F.Bələn Türk qurtuluş savaşı, s.245. Kazım Qarabəkir. Qeydlər.

773 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-9.

774 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-14.

775 Şərq Cəbhəsi III s.210.

776 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-10.

Qrup komandanlığı Veysəl bəyə əməliyyata başlamaq əmri verdi. Bu vaxt Naxçıvanda hücum üçün ciddi işlər görülürdü.[777] Ordubad tərəfdəki məğlubiyyətə görə Veysəl bəy bolşevik komanda heyəti ilə Şahtaxtının alınmasını, Türkiyə ilə əlaqəni təmin etməyi və qaçqınları yerlərinə yerləşdirməyi, ərzaq çatışmazlığını aradan qaldırmağı qərara aldılar. Hücumun icrası türk Qızıl hərbi hissəsinə[778] həvalə olundu və "Naxçıvan Müdafiə Komitəsi" yaradıldı, Veysəl bəy də sədr təyin olunmuşdu.[779] Hücumdan əvvəl regionda türk və bolşevik qüvvələrin kifayət qədər olmadığını görən Veysəl bəy Qrup komandanlığı tərəfindən Şahtaxtıya hücum əmri verilən gün, yəni 18 oktyabrda[780] Naxçıvanda səfərbərlik elan etdi. Bildirdi ki, Naxçıvanın yerli əhalisindən 18 yaşından 35 yaşına qədər olan kişilərin silahı olanlar silahı ilə, olmayanlar silahsız 19 oktyabr səhər saat $9:^{00}$-da komissarlıqda olmalıdırlar. Gəlməyənləri və adını qeyd etdirməyənləri inqilab qanunu ilə cəzalandıracaqlar.[781]

Səhərisi gün könüllülər qeydə alınmağa başlandı, qaçqınlar içərisində də könüllülər var idi. Silahlar da toplamağa başlandı.[782] Qaçqınlar içərisində ən çox rəğbət görən qrup isə illər uzunu ermənilərə sədd çəkən Abbasqulu Şadlinskinin rəhbərlik etdiyi vedililərdi. Naxçıvanın fövqəladə komissarı Bahadur Vəlibəyov Şadlinskini İrandan gətirmək üçün xüsusi nümayəndələr göndərmiş və dəvəti qəbul edən Şadlinski 200 nəfərlik silahlı qüvvə ilə və digər qaçqınlarla Naxçıvana gəlmişdilər. Burada yeni yaradılmış qızıl birliklərlə Şadlinskinin qüvvələri birləşərək Qırmızı Tabur təşkil etmişdilər.[783]

Veysəl bəyin raportlarında göstərildiyinə görə, indiyə kimi çəkdikləri fəlakətlərə baxmayaraq, naxçıvanlılar döyüşmək istəmirdilər.

Könüllü toplamaq üçün yerli təşkilat yox idi. Tapşırılan məmurlar bu işə maraqlı deyildilər. Təyin edilən xüsusi məmurlar vasitəsilə 150-yə qədər silahsız, paltarsız, nisbətən qüvvətli qaçqın cəbrən toplanmışdı. Qaçqınlar

---

[777] Bu vaxt N.Nərimanov tərəfindən Naxçıvana fövqəladə komissar təyin olunan Bahadur Vəlibəyov bölgəyə gəlmiş və Veysəl bəylə görüşmüşdür. O bildirmişdir ki, Şahtaxtı alınmalı, ermənilərin Maku ilə əlaqəsi kəsilməlidir. Makudan alınacaq ərzaq ilə ordu və mühacirlərin ehtiyacı təmin ediləcəkdir. Veysəl bəy də dedi ki, Bakıdan türk əsgərinin ərzağı təmin edilərsə, Şahtaxtı alınar. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.16-12).

[778] Bu vaxt türk hərbi hissəsində ərzaq çatışmazlığı başlamışdı, beş gün ət verilməmiş, ət ehtiyatları qurtarmışdı. Veysəl bəy vəziyyət barədə fövqəladə komissar Vəlibəyova müraciət etmiş və lazımi tədbir görülməsini istəmişdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-5).

[779] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.2, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-8. Rəhimov- Sadıqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.43.

[780] Veysəl bəy əsərində bu tarixi 8 oktyabr olaraq göstərir. (Ünüvar. Bolşeviklərlə 8 ay, s.53). Özünün bu tarixdə Ordubadda olması və milis toplanmasına dair öz imzası ilə verdiyi bəyannamənin 18 oktyabr tarixli olması bu yazının səhv olduğunu göstərir.

[781] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-8.

[782] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-19, ATASE, A. 6/6686, Kls.924,s.4-8, F.2.

[783] Əliyev. Qırmızı Tabur, s.29-30

silahlarını satdıqlarına və ya gizlətdiklərinə görə istənilən qədər silah toplanmamışdı. Könüllülərdə də bu vəziyyət mövcud idi. Onlar silahlarını gizlədir və bu yolla müharibəyə getməməyə çalışırdılar. Bundan başqa, Veysəl bəyin əmri ilə hərbi vergi - ərzaq toplanılmasına başlanılmış və qrup komandanlığından hərbi ləvazimat tələb edilmişdi.[784]

Veysəl bəyin, Kazım Qarabəkir paşanın və Cavid bəyin razılığı ilə Naxçıvanda Hərbi Divan təşkil edildi. Əhaliyə və əsgərlərə bildirildi ki, fərarilər, günah işlədənlər Hərbi Divana veriləcək.[785]

Bu çalışmalar və alınan tədbirlər nəticəsində 650 piyada, 400 süvari könüllü qeydə alındı. Bir araba dəstəsi, bir tibbi, bir döyüş hissələrindən, 2 pulemyotdan ibarət bir ağır mexanikləşdirilmiş dəstə yaradılmışdı.[786] Naxçıvan batalyonunun 35 silahlı könüllü şəxs toplanan qaçqınlarla birlikdə kömək məqsədilə iki türk batalyonuna verildi. Mustafa Kamal əfəndi komandasında 35-ə qədər fərari Osmanlı əsgəri, 50-ə qədər kürd, 25-ə qədər tumbullu və digər iki hissə milis və 150 nəfərlik müstəqil bir könüllü hissə var idi. 70 nəfərlik Qaraçuq batalyonu müstəqil hərəkət etmək üçün leytenant Xəlil İbrahim bəyin komandanlığına verildi. Digər tərəfdən, daha əvvəlcədən mövcud olan 150 nəfərlik Dizə batalyonu və 50 nəfərlik Nehrəm batalyonu Şahtaxtıya hücum heyətinə daxil edildi. Yaycı və Ordubad batalyonları öz cəbhələrində qaldılar.[787] Demək olar ki, hazırlıqlar tamamlanmışdı. 4 noyabr 1920-ci ildə Türk və bolşevik Qızıl Ordu hissələri birgə ermənilərə qarşı əməliyyat aparmağı qərara almışdılar. Veysəl bəyin 3 oktyabrda Sağ Cinah Qrupu komandanlığına bildirdiyinə görə qüvvələr belə idi: "Qüvvəmiz 400 rus, 500 yerli süvari və türk hərbi hissə döyüşçüləri ilə bərabər 800-ə qədər piyada, 6 ağır pulemyot və bir topdan ibarətdir".[788]

Hücum hazırlıqları görüldüyü zaman ermənilər haqqında məlumat almaq üçün təşəbbüslər göstərilir, ancaq istənilən nəticə heç cür əldə edilmirdi. Məlumat mənbəyi Ərəblər kəndindəki qaçqınlar idi. Onlar ermənilərlə müharibə tez olsun deyə səhv məlumat verirdilər. Belə ki, bir gün Şahtaxtıda 150 erməni əsgəri olduğu bildirilir, səhər isə heç kim qalmadığı bildirilirdi. Veysəl bəy isə belə ehtimal edirdi ki, Şərq cəbhəsində başlayan hücuma görə ermənilərin ən azı 400 nəfərlik bir alayı ilə 2 topu var, ehtiyatlar isə Qarabağda saxlanılır.[789]

---

[784]ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.2, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.17-16, 17-19

[785]ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.70, ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.23

[786]Ünüvar. Bolşeviklərlə 8 ay, s.53

[787]ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.2

[788]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.7-23

[789] ATASE, A. 6/6686, Kls.924,D.4-8, Veysəl bəy imzası ilə bu məlumatı qrup komandanlığına verdi. Ermənilərin 2 alayı və əsgər varsa, bir ehtiyat alayı ola bilərdi. (Univar. Bolşeviklərlə 8 ay, s.58).

Qarşı tərəfin hazırlıqlarını və bilavasitə yaxınlaşan təhlükəni hiss edən ermənilər həmişəki kimi bu səfər də Şahtaxtıda və Qarabağda evləri yandırmışlar.[790] Veysəl bəy də hücum planını hazırlamışdı. Buna görə də bütün cəbhələrdə milislər zahiri bir əməliyyat aparacaq, nizamlı hissələrsə, erməni cəbhəsinin orta hissəsindən, Sust kəndindən 4 noyabr günü saat 6.00-da hücuma başlayacaqlar.[791] Əliyevin fikrincə, bu vaxt Abbasqulu Şadlinskinin rəhbərlik etdiyi Qırmızı Tabur Əznəbürd-Qarabağlar dağ ətəkləri ilə hərəkət edərək Bağırsaqdərə-Sədərək arasında mövqe tutacaqdılar.[792]

Naxçıvanda hücuma hazırlıqlar görüldüyü zaman 20-21 oktyabrda Sağ Cinah Qrupu komandanlığı İğdıra hücuma başlamış, ancaq müvəffəqiyyət əldə edilməmişdi. 24 oktyabrda edilən ikinci dəfəki hücumda Erhacı-Xələfli (Xalqalı)-Xoşxəbər xətti işğal edildisə də, əsas hədəf olan İğdır və Markara körpüsü ələ keçirilmədi.[793] Digər tərəfdən, 30 oktyabrda Qarsa edilən türk hücumu müvəffəqiyyətlə nəticələndi. Türk qüvvələri demək olar ki, heç bir yerdə müqavimətə rast gəlmədən günorta vaxtı Qarsı tamamilə nəzarət altına aldılar.[794]

## 2. Naxçıvanda son qələbə

3 noyabrda türk, bolşevik və yerli könüllülər erməniləri üçüncü və son məğlubiyyətə uğratmaq üçün Naxçıvandan cəbhəyə yola düşmüşdü. Şiddətli qar fırtınasına baxmayaraq, həmin gün bütün qüvvələr müəyyən edilmiş mövqelərdə yerlərini tutmuş, hücumu düşünməyə başlamışdılar. Ancaq noyabrın 4-də gecə saat $1^{00}$-da Veysəl bəyə gələn bir xəbər bütün hücum planının alt-üst olmasına səbəb oldu. Rus qüvvələri könüllülərlə bərabər cəbhəni tərk edərək Naxçıvan şəhərinə getmişdilər. Xəbər verilmədən cəbhənin tərk edilməsi böyük bir təhlükə meydana gətirdiyindən Veysəl bəy hücum planından daşınmış, əmrindəki hissələrlə səhər saat $7^{00}$-da Naxçıvana yola düşmüşdü.[795]

Naxçıvana qayıdan Veysəl bəy rus süvari alayı komandiri ilə görüşdü və onların üşüdüklərindən cəbhəni tərk etdiklərini öyrəndi. Artıq

---

[790] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.7-22, 7-23

[791] Ünüvar. Bolşeviklərlə 8 ay, s.53

[792] Əliyev. Qırmızı tabur, s.25

[793] Kazım Qarabəkir paşanın makina səhifəli qeydləri, s.71; Şərq cəbhəsi III, s.210-211.

[794] Qarsda bir çox erməni general, zabit və əsgər əsir alınmış, çoxlu qənimət əldə edilmişdi. (Albayraq, 1 noyabr 1920, №116, "Albayraq", 15 noyabr 1920, №118).

[795] Bu gecə Cəhridəki leytenant Təhsin bəy tabeliyindəki qüvvələrlə ermənilərə hücum edib mövqelərini işğal edərək onları ziyana salmışdı. (ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.2-2).

Veysəl bəy yeni hücum planında bolşeviklərlə əlbir olmamağı qərara almışdı və belə də etdi. Hücum üçün 7 noyabr müəyyənləşdirildi.[796]

Noyabrın 6-dan 7-ə keçən gecə Naxçıvandan yola düşdülər. Əsas hücumdakı qüvvə 45 piyada, 310 könüllü, 2 ağır, 4 yüngül pulemyot və 1 topdan ibarət idi. 7 noyabr səhəri bu hissə Xok kəndinə yaxınlaşanda sol tərəfdəki erməni qüvvələri geri çəkildilər. Hərbi hissə Xok kəndinə yaxınlaşdığı zaman Xəlil İbrahim bəyin qüvvələri ilə könüllülərin qarşısındakı ermənilər də geri çəkilməyə başladılar. Saat 13[30] da Xok kəndi alındı. Hücumun ikinci hissəsinə Xok ətrafından başlanıldı. Kənd tərəfdə olan və müqavimət göstərən erməni qüvvələrinə qarşı 18-ci alayın birinci batalyonu vuruşurdu. 34-cü alayın ikinci batalyonu və ağır mexanikləşdirilmiş hissə düşmən cəbhəsi ilə Qarabağlar arasındakı meşə tərəfdən hərəkət etdi. Erməni qüvvələri arxadan mühasirəyə alındı və yerinə yetirilən düzgün plan nəticəsində düşmən cəbhəsi dağıdıldı, geri çəkilən ermənilər Şahtaxtını da boşaltmışdılar.[797]Türk hərbi hissəsi qələbə qazanmış, xeyli qənimət ələ keçirmişdi,[798] amma erməni toplarının atəşləri altında bolşevik süvari alayı irəliləyə bilməmişdi.[799]

8 noyabrda səhər batalyonlar, könüllü qüvvələr Qarabağlar və Xok kəndlərindən Baş Noraşenə yola düşdülər. Türk hərbi hissəsi Baş Noraşeni, könüllü dəstələr də Mahmud kəndi ələ keçirdilər və 7 noyabrda ermənilər tərəfindən boşaldılan Şahtaxtıya daxil oldular.[800] İrəliyə kəşfiyyat hissələri göndərildi.[801]

Mənzərə dəhşətli idi. Məğlubiyyətdən sonra bölgədə yerləşdirilən erməni qaçqınları İrəvana getməyə başlamışdı. Ancaq getdikləri zaman Şahtaxtı və Şərur ətrafındakı bütün kəndləri atəşə tutmuş, xarabalığa çevirmişdilər.[802]

Noyabr ayının 9-da səhər ermənilərlə atəşkəs müqaviləsi bağlanması

---

[796]ATASE, A. 6/6686, Kls.924,D.4-8, f.2-2. Ünüvar. Bolşeviklərlə 8 ay, s. 55-57.

[797] Ermənilərdən 180 əsir, 2 dağ topu, 11 ağır pulemyot alınmışdı. (Ünüvar. Bolşeviklərlə 8 ay, s.59; Şərq cəbhəsi III, s. 212; Qarabəkir. İstiqlal müharibəmiz s.280).

[798] Şahtaxtının alınması həmin gün Şərq Cəbhəsi komandanlığına, ordanda Baş ştaba bildirilmişdi. (ATASE, A. 1/4282, Kls.588, D.121-8, F.28). 9 noyabrda Şahtaxtı məsələsi TBMM-nin gündəliyinə salındı. İsmət bəy cavab vermişdi: Şahtaxtı da işğal olunmuşdur. Şahtaxtı Azərbaycan ilə aramızdadır. Dəmiryol xəttinin üzərindədir. Bu cəhətdən də əhəmiyyəti böyükdür. Hərbi əməliyyatla əlimizə keçmişdir. (TBMM.CD.1.D.5. s. 336) Milli mübarizə mətbuatı da Şahtaxtının alınmasını oxucularına bildirmişdi., əhəmiyyətinə diqqəti cəlb etmişdi. (İstiqbal, 10 noyabr, 1920. №18; "Albayraq", 15 noyabr 1920. №188; "Hakimiyyəti-milliyyə", 10 noyabr 1920. s.73).

[799] Veysəl bəy bolşeviklərin hərbi xidmətdən çox siyasətlə məşğul olduqlarını bildirir və könüllü süvariləri onların əmrinə verməklə səhv etdiyini göstərir. (Ünüvar. Bolşeviklərlə 8 ay, s.59).

[800] Türk və bolşevik qüvvələrinin erməniləri məğlub edərək Şahtaxtını ələ keçirməsi və onların taxıla olan ehtiyaclarının bilinməsi, Təbrizdəki avropalılar arasında bir təlaş yaratdı. Avropalı qadınlar və uşaqların ardınca digər səlahiyyətlilər də Təbrizi tərk etdilər. İmperial bankı qapılarını bağladı. (British Dokuments on Foreigin Affairs, Vol.16. Doc. №37, s.264-35).

[801] ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.2-1, Ünüvar. Bolşeviklərlə 8 ay, s.57-59, Şərq Cəbhəsi III s.211-212

[802] Albayraq, 15 noyabr 1920, Hakimiyyəti-Milliyə, 15 noyabr 1920, №76.

xəbəri Naxçıvana çatdı. Ancaq Dəhnə boğazı istiqamətində hərəkət edən kəşfiyyat hissəsi ilə ermənilər arasında qısa bir döyüş oldu. Bu vaxt Veysəl bəy atəşkəs əmrini bolşevik qüvvələrinə çatdırmaq istəsə də, alay komandiri verilən məktubu oxuduğu halda məktubu gətirənə onun orada olmamasını deməsini xahiş etmişdi. Veysəl bəy bunu bolşeviklərə bildirməyi 2 rus əsgərinə tapşırmışdı, ancaq bu təşəbbüslər bir nəticə vermədi.[803]

Qarsdan hərəkət edən türk qüvvələri Gümrüyə doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın əmrindəki hissələr erməniləri məğlub edərək Gümrünü mühasirəyə almışdılar. 6 noyabrda ermənilər atəşkəs bağlanmasını xahiş etmişdilər, türklər də bunun müqabilində Gümrünün təslim olmasını tələb etdilər. 7 noyabrda Gümrü türk qüvvələrinin əlinə keçdi. 10 noyabrda türk tərəfinin atəşkəs şərtlərinə ermənilər mənfi cavab verdilər və müharibə yenidən başladı. Naxçıvan regionundakı məğlubiyyətləri görən ermənilər 12 noyabr 1920-ci ildə İğdırdan çıxdılar, Markara körpüsünü[804] yandıraraq şimala çəkildilər. Erməniləri təqib edən türk hərbi hissələri həmin gün İğdıra girdilər.[805]

Naxçıvan regionunda tərəflər arasında ciddi bir döyüş olmurdu.[806] Erməni zirehli qatarı Dəhnə boğazı ilə Yengicə stansiyası arasında gəzir və ətrafda olan kəndləri atəşə tuturdu.[807] 12 noyabrda ermənilər Quşçu, Dəmirçi, Düdəngə və Zeyvə kəndlərinə kəşfiyyat xarakterli hücumlar etmiş, atəşlə qarşılanmış və geri çəkilmişdilər. Veysəl bəy buna etiraz etdi və atəşkəsə tabe olmalarını ermənilərə bildirdi. Ermənilər də atəşkəs üçün şərt qoymuşdular. Qaratəpənin təslim olmasını istəyirdilər və zirehli qatarla ətraf kəndlərə hücum edirdilər. Veysəl bəy dəmiryol körpüsünü uçuraraq zirehli qatarı təsirsiz hala gətirmək istəyirdi. Bolşeviklər isə qatarı və onları canlı ələ keçirəcəklərini bildirərək hərəkətə keçdilər.[808] Ancaq 14 avqustdakı bu cəhdlər məğlubiyyətlə nəticələndi. Bu zaman türk hərbi hissələri ilə könüllü batalyonları Baş Noraşendə və Ulya Noraşendə, bolşevik qüvvələri də Quşçu və cənubunda idilər.

15noyabrda Mahmudkənddə olan Abbasqulu Şadlinskinin tabeliyindəki Vedi könüllü dəstələrinə ermənilər hücum etməyə başladılar. Türk hərbi hissəsinin qarşısında, yəni Dəhnə boğazında general Şelkovnikovun rəhbərliyi altındakı erməni qüvvələri tamamilə hərəkətsiz idi. Bu fürsətdən

---

[803]ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.2-1, Ünüvar. Bolşeviklərlə 8 ay, s.60.

[804] Türkiyə və Ermənistan arasında Əlican körpüsü və ya Əlican qapısı.

[805]Hakimiyyəti-Milliyə, 9 noyabr 1920, №73. Qarabəkir. İstiqlal müharibəmiz s.861. Qarabəkir. İstiqlal müharibəmizin əsasları s. 280-281. Şərq Cəbhəsi III s. 219-220.

[806] Ermənilər Gümrünü təslim etməklə atəşkəs müqaviləsi bağlamağa razı olmuşdular. Ancaq daha sonra bu şərtləri ermənilər qəbul etmədikdə türk ordusu yenidən hərbi fəaliyyətə başlamış, ancaq vəziyyət Veysəl bəyə bildirilməmişdi. (ATASE, A. 6/6686, Kls.924,D.4-8, f.3-10. Ünüvar. Bolşeviklərlə 8 ay, s.61).

[807] ATASE, A. 6/6686, Kls.924,D.4-8, F.3-10, Ünüvar. Bolşeviklərlə 8 ay, s.61.

[808] Bolşeviklərin bu hərəkətindən Veysəl bəy narahat olmuşdu və şübhələnmişdi. Belə deyirdi: Bu zirehli qatarı atlı hücumlarla zəbt edə bilməyəcəklərini anlamayacaq qədər gicdirlər (Ünüvar. Bolşeviklərlə 8 ay, s.73)? Necə olsa da erməni kommunistləri tərəfindən onlara veriləcək silahın xarab olmamasını istəyirdilər.

istifadə edən Veysəl bəy Zeyvə və Qaratəpə arasında olan hissələri Zeyvəyə topladı. Bolşeviklərdən buraya gəlməsi tələb edildi, iki tərəf arasında anlaşılmazlıq yarandı. Ancaq Veysəl bəy planı yerinə yetirirdi və buna görə də Qaratəpəyə hücum edən ermənilərin sağ və yan tərəflərini tutmaq üçün 34-cü alayın 4-cü batalyonu bu yerə göndərildi. Məğlub olduqlarını başa düşən ermənilər geri çəkildilər. Bu vaxt 18-ci alayın 1-ci batalyonu Vəlidağa doğru hücuma keçmişdi. Top atəşindən hay-küyə düşən ermənilər geri çəkilməyə başladılar. Bolşevik və könüllü qüvvələr onları təqib edirdilər. Ermənilər Vəlidağ ətrafından geri çəkilirdilər, hər iki türk batalyonu yan və arxa tərəfi açıq olan Dəhnə boğazına göndərildi. Dəhnə boğazı mühasirəyə alındı. Ermənilər İrəvana doğru geri çəkilməyə başladılar. Qaranlıq düşəndə türk hərbi hissəsi, Mustafa Kamal və Abbasqulu Şadlinskinin rəhbərlik etdiyi könüllülər Sədərəkdə toplandılar.[809]

16noyabrda milislər Vedi üzərinə hərəkət edərkən, türk və bolşevik qüvvələri Baş Noraşenə qayıtdı.[810] Veysəl bəyin ifadəsi ilə desək, Qaratəpədən çıxan ermənilər Arpa vadisinin girəcəyini tutmuşdular və ani bir hücum çox təhlükəli ola bilərdi. Könüllü qüvvələr Dəvəlini işğal etdilər, keçmiş kəndlərini geri alırdılar, türk və bolşevik hissələri də Noraşendəki keçmiş qərargahlarına çatmışdılar. Səhərisi gün Qaratəpəyə gedən Veysəl bəy kəşfiyyat üçün fəaliyyətə başladı. Bolşeviklər Veysəl bəyi dəstəkləmədilər. Ancaq irəli gedən kəşfiyyat hissələri ermənilər haqqında kifayət qədər məlumat gətirmişdi. 20 noyabrda Veysəl bəyə bildirildi ki, ermənilərlə atəşkəs əldə edildiyindən bundan sonra kəşfiyyat hissələrinin müəyyən edilmiş sərhədi keçməməsi lazımdır.[811]Cəbhələrdə sakitlik hökm sürürdü.[812]

Beləliklə, ermənilər Naxçıvan regionunda son zərbə aldılar, sülh dövrü başlandı.

Türk qüvvələrinin bütün cəbhələrdə göstərdiyi müdhiş hücumlarına erməni birliklərinin tab gətirəcək gücləri qalmamışdı. Buna görə də

---

[809]ATASE, A. 1/4282, Kls.588, D.121-8, F.38, Ünüvar. Bolşeviklərlə 8 ay, s.63-67. Şərq Cəbhəsi III s.218-219. Şahtaxtı və Dəhnə boğazından alınan əsirlər 500-dən artıq idi və onlar Naxçıvana göndərilərək Revkoma verilmişdi, (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.23-1).

[810] Noraşenə qayıdan zaman bolşeviklərin Vedi üzərinə getmək istəməmələri (Şərq Cəbhəsi III s.219) Veysəl bəyin də çox haqlı olduğunu göstərir.

[811] Naxçıvana atəşkəs şərtləri bildirilməmişdi. Buna görə də Naxçıvandakı bolşeviklər Kazım Qarabəkir paşaya teleqram göndərərək məlumat öyrənmək istəmişdilər, bir nəticə əldə edilmədi. Paşanın yanına nümayəndə göndərmək istədilər. Bu heyət kəndləri Ermənistanın sərhədləri daxilində qalan mühacirlərə edilən davranışları da öyrənəcəkdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.22).

[812]ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.73, Ünüvar. Bolşeviklərlə 8 ay, s.67-69, Şərq Cəbhəsi III s.219. Kazım Qarabəkir paşa qələbələrə görə türk hərbi hissəsini 7-8 dekabrda təbrik etmişdir. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.15).

ermənilər 17 noyabrda Şərq Cəbhəsi komandanlığına müraciət edərək əvvəllər təklif edilən sülh şərtlərini qəbul etdiklərini bildirdilər.[813]

21 noyabrda Şərq Cəbhəsi komandanlığı da bütün hissələrə ermənilərin şərtləri qəbul etdiklərini bildirdilər.[814]

Bu şərtləri qəbul etdiklərinə baxmayaraq, onların bir sıra tələbləri də var idi. İki tərəf arasında müqavilə ilə əlaqədar işlər görüldüyü zaman erməni nümayəndələri Sürməli bölgəsini öz arzuları ilə boşaltdıqlarını və müqavilədə Arazın cənubundan söz açılmadığını, bundan başqa Şərur bölgəsi ilə əlaqədar ruslarla bir müqavilə bağladıqlarını irəli sürərək, buraların boşaldılmasını tələb etdilər. Kazım Qarabəkir paşa bu tələblərə mənfi cavab verdi və 19 noyabrda Veysəl bəyə xəbərdarlıq etdi ki, ermənilər bir hərbi əməliyyat apara bilərlər.[815] Bu zaman Gümrüdə türk və erməni baş komandanlıqları arasında qəbul edilən müvəqqəti bir qərarla 28 noyabrdan etibarən Şərurbitərəf bölgə sayıldı.[816]

Naxçıvan bölgəsində döyüşlər sona çatdıqdan sonra ərzaq çatışmazlığı ilə əlaqədar könüllüləri tərxis etməyə başladılar.[817] Erməni əsirlərinin aqibəti də gündəlik məsələyə çevrildi. Kazım Qarabəkir paşanın əmrinə görə, Naxçıvandakı bolşevik qüvvələrin əlində əsir olarsa, dəyişdirəcəkdilər, ancaq türk hərbi hissəsi tərəfindən lazımi göstəriş verilənə qədər əsirlər haqqında bir iş görülməyəcək.Naxçıvandakı bolşevik alay komandiri Veysəl bəyə bildirdi ki, onlar ermənilərlə rəsmən müharibə etmədiklərini göstərmək məqsədilə erməni hakim dairələrinə əsir mübadiləsi ilə əlaqədar müraciət etməyəcəklər. Türk hərbi hissəsi ermənilərlə əsir mübadiləsi aparılsa, türk əsirlər alındıqdan sonra qalan erməni əsirlərin müqabilində bolşevik əsirlərin dəyişdirilməsini təklif edirdi. Veysəl bəy də bildirdi ki, bu məsələ ilə əlaqədar təklif etməyəcəyini rus komandirinə bildirmiş və Şərq Cəbhəsi komandanlığını vəziyyətdən xəbərdar etmişdi.[818]

---

[813] 15 noyabr 1920-ci ildə ermənilər Gümrü və Dəhnə boğazında aldıqları məğlubiyyətə görə əvvəlcə təklif edilən atəşkəs şərtlərini qəbul etdiklərini bildirmək üçün həmin gün bir kapitanı Gümrüyə göndərmişdilər. Erməni kapitanı vəzifəsini yerinə yetirmişdi. Veysəl bəy əsərində göstərirdi ki, Dəhnə boğazındakı məğlubiyyət erməniləri müqavilə bağlamağa məcbur etmişdir. Ermənilər özlərini çox güclü hesab etdikləri cəbhədə məğlub olmuşdular, çoxlu əsir vermişdilər. İrəvan yolu tamamilə açılmışdı. Keçmiş yurdlarını və intiqamlarını almaq istəyən vedili, zəngibasarlı, gərnibasarlı milislərin İrəvanı alt-üst etmələrinə mane olacaq erməni qüvvəsi yoxdu. (Ünüvar. Bolşeviklərlə 8 ay, s.70-71).

[814] Şərq Cəbhəsi, s.220

[815] ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.72

[816] Türk qüvvələri və milislər Vediyə qədər irəliləmişdilər, ancaq bu dövrə Şərur bölgəsinin bitərəf bölgə edilməsinin məqsədini bilmirik. Bu sahədə hər hansı fəaliyyət olmamış və Naxçıvan qüvvələri bölgəni boşaltmamışlar. Ancaq Ermənistanda bolşeviklər iqtidara gəldikdən sonra ermənilər Dəvəlinin boşaldılmasını istədilər, Kazım Qarabəkir paşa da bildirdi ki, Şərurla əlaqədar qəbul edilmiş qərar atəşkəslə bağlıdır. Gümrü müqaviləsi bağlandıqdan sonra bu qərar ləğv edilir və cavabın ermənilərə bildirilməsini xahiş etmişdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.25-12, ATASE, A. 1/4282, Kls.590, D.123-37, F.36-1, 36-2).

[817] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.21-22.

[818] ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.75-1, 76, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.23-21.

Veysəl bəy komandanlığındakı türk hərbi hissəsi Ermənilərlə sülh müqaviləsi bağlanana qədərBaş Noraşen və ətraf hissəsini mühafizə etmək əmri almışdı. Kazım Qarabəkir paşa 2 dekabrda Veysəl bəyə teleqram göndərmiş və bildirmişdir ki, türk hərbi hissəsi kimi bolşevik qüvvələri hərəkətlərində sərbəstdirlər.[819] 8 dekabra qədər türk hərbi hissəsi Baş Noraşendə qaldı və aldığı əmrə əsasən həmin gün Şahtaxtıya yola düşdü.[820]

## D. Gümrü müqaviləsinə görə Naxçıvanın statusu və sonrakı proseslər
### 1. Gümrü müqaviləsinə görə Naxçıvan

Türk tərəfinin irəli sürdüyü sülh şərtlərini ermənilər qəbul etdikdən sonra 25 noyabrda Gümrüdə türk və erməni nümayəndələri arasında sülh danışıqları başladı. Kazım Qarabəkir paşanın sədrliyindəki türk heyəti Ərzurum millət vəkili Süleyman Necatidən (Günər) və Ərzurum valisi Həmid (Qapancı) bəydən, A.Xatisyanın sədrliyindəki erməni heyəti isə Avram Gülhandanyan və Stepan Qordanyandan ibarət idi.[821]

İki tərəf arasında danışıqlar 2 dekabrda sona çatdı və həmin gün, yəni dekabrın 2-dən 3-nə keçən gecə saat $24^{\circ\circ}$-də Gümrü müqaviləsi imzalandı.[822] 18 maddədən ibarət müqavilənin[823] 2-ci və 12-ci maddələri Naxçıvanla bağlıdır. 2-ci maddəyə görə, Naxçıvanın sərhədləri və statusu belə müəyyənləşmişdi:

2-ci maddə: Kükü dağı 10282-8022 - Kamasor dağı 8160 – Qurdqulaq kəndi-Sayat dağı 7868 - Arpa çayı üzərində 3080 - Gömürlü dağı 6930 - Saray bulağı-8071. Ararat stansiyası, Araz çayı, Aşağı Qarasu töküldüyü yerdən keçən zolağın cənubundakı Naxçıvan, Şahtaxtı, Şərur bölgəsində ümumi səsvermə yolu ilə idarəetmə forması müəyyənləşəcək və bu idarənin əhatə edəcəyi torpaqlara Ermənistan müdaxilə etməyəcək və bu bölgədə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaq;

---

819 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.23-7.

820 ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.23-10, Ünüvar. Bolşeviklərlə 8 ay, s.74.

821 Qarabəkir. İstiqlal müharibəmiz, s.861, Şərq Cəbhəsi III s.308. İsmayıl Soysal. Türkiyənin siyasi müqavilənamələri, (1920-1945), Ankara 1989, s.19. İsgəndər Yılmaz. Gümrü müqaviləsi. (Nəşr olunmamış doktorluq dissertasiyası. Ərzurum,1995, s.99, 113, 121-122).

822 ATASE, A. 1/4282, Kls.591, D.129-40, f.36. "Albayraq", 12 dekabr 1920, №122. Qarabəkir. İstiqlal müharibəmiz, s. 862, Şərq Cəbhəsi III s.225. İsgəndər Yılmaz. Gümrü müqaviləsi. s.125. Türkiyənin siyasi müqavilələri, s.19, Jean Pierre Alem L'Armenia. Paris 1962, s.73

823 Maddələr üçün bax: ATASE, A. 1/4282, Kls.591, D.129-40, f.36, 36-1, 36-2. Naxçıvan Mərkəzi Dövlət arxivi. F.34. Op.18. 1.128-133, "Albayraq", 12 dekabr 1920, №122, Şərq Cəbhəsi III s.308-311. Soysal. Türkiyənin siyasi müqavilələri. s.19-23. İsgəndər Yılmaz Gümrü müqaviləsi, s.126-132. T.Bıyıqoğlu, Osmanlı və Türk Şərq hüdud siyasəti. İstanbul 1958, s.29-30. Afanasyan, L'ArmeniaEt La Georgie, s.152

12-ci maddə:Türkiyə hökuməti, Şərur-Naxçıvan-Şahtaxtı və Culfa yolu ilə İran-Maku-Ermənistan arasında tranzit yolunun təhlükəsizliyinə təminat verməyi öz üzərinə götürür.

Gümrü müqaviləsinə görə Dəvəli və Arazdəyəndən başqa, bu günkü Naxçıvan sərhədləri demək olar ki, müəyyənləşmiş, nədənsə tarixən türk bölgələri olan Uluxanlı, Qəmərli və ən mühümü 1920-ci ilə qədər Naxçıvanı erməni hücumlarından qoruyan Böyük Vedi və ətrafındakı bir çox kəndlər ermənilərə verilmiş,[824] Naxçıvanın şimal-qərb sərhədi Dəvəli olmuşdu. Naxçıvan regionunda referendumdan sonra yaradılacaq idarəetmə sisteminə Ermənistan müdaxilə etməyəcək və bölgədə Türkiyənin nəzarəti altında yerli bir idarə yaradılacaqdır. Türk hakim dairələri bu müqaviləyə görə bolşeviklər Naxçıvana gəldikdən sonra yaradılan Sovet idarəetmə sistemini ləğv edərək, özlərinə uyğun bir idarəetmə sistemi yaradacaqdır. Beləcə, 1918-ci ilin yayında Qars, Ərdahan, Batumidə edilənlər burada təkrar olunacaqdı. Kazım Qarabəkir paşanın Veysəl bəyə göndərdiyi 26 dekabr tarixli teleqram da Ermənistan və Azərbaycanın Naxçıvana müdaxilə etməsinin doğru olmadığını və bu iki ölkənin Naxçıvana fövqəladə komissar təyin edə bilməyəcəyini və belə bir şəraitdə Türkiyə Naxçıvanı öz parçası kimi dəyərləndirdiyindən türk hökuməti tərəfindən lazımi tədbirlər görüləcəyini bildirmişdi.[825] Daha sonra Naxçıvanın Azərbaycana və Ermənistana verilməməsi sahəsində fəaliyyətlər başladı. Kazım Qarabəkir paşanın 4 yanvar 1921-ci il tarixli teleqramı Moskvaya gedəcək heyətin ruslarla Naxçıvan məsələsini müzakirə etmədən əvvəl Veysəl bəydən bölgənin vəziyyəti ilə əlaqədar məlumat istəməsi, buranı necə əldə saxlaya biləcəyini,[826] soruşması kimi yazışmalar bunu sübut edirdi. Yenə bu müqavilə ilə Türkiyə və Ermənistanın illər boyu həsrətini çəkdikləri nəqliyyat problemi həll edilmiş oldu. Artıq Türkiyə Azərbaycan və Sovet Rusiyası hökumətindən istədiyi yardımı nəqliyyat sıxıntısı olmadan ala biləcək, Ermənistan da Şahtaxtı-Naxçıvan-Culfa yolu ilə ingilislərin təsiri altında olan İrana gedəcək, ərzaq problemi aradan qaldırılacaq.

1920-ci ilin dekabr ayının 3-də Cavid bəy Naxçıvandakı türk hərbi hissəsinə Gümrü müqaviləsinə əsasən Naxçıvanın statusunu bildirdi.[827] Gec də olsa, müqavilədən xəbərdar olan xalq Türkiyənin himayəsinə keçdiklə-

---

[824] Müqavilə bağlandığı, Vedibasar bölgəsinin bir hissəsinin milislər tərəfindən ələ keçirildiyi bir vaxtda bu bölgənin ermənilərə verilməsini başa düşmək imkansızdı. İran torpağında səfalətdə yaşayan vedibasarlılar belə bir vəziyyətdə çaşıb qalmışdılar. İllər boyu bura ermənilər üçün təhlükəli olmuş, Amerika və İngiltərənin dəstəyi ilə bunu ələ keçirə bilməmişlər. Ancaq indi milislərin kiçik bir hücumu ilə İrəvana qədər çatmaq mümkün olduğu halda iş tərsinə döndü və ermənilərin xəyalları gerçəkləşdi. Qəhrəman Vedi bu tarixdən sonra tarixin səhifələrində qalacaqdır.

[825] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-12.

[826] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-17.

[827] ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.80; ATASE, A. 1/4282, Kls.588, D.121-8, F.62.

rindən sevinmişdi. 21 fevral 1921-ci ildə Ordubad qəzası İnqilab Komitəsi rəisi Abbasqulu Şadlinski Veysəl bəyə göndərdiyi məktubda yazmışdı: "3 ildən bəri həyatlarını, sinələrini daşnak qatillərinin qanlı süngülərinə sipər edib hər bir fəlakətə dözərək nicat və səadət gözləyən əhalimiz Şərq Qızıl ordusunun səyi nəticəsində nail olduğunu əks etdirən teleqramı sevinclə oxuduq. Bu teleqram ildırım sürəti ilə bütün qəzaya yayıldı, əhalini sevindirdi. Daşnak adını daha eşitməmək ümidi ilə, Böyük Türkiyənin himayəsi altında yaşamaq səadətinə nail olan xalqımız bu sevinci Ordubad qəzasında təntənə ilə qarşıladı. Bu xoş xəbərin birinci günü bayram elan edildi. Əhali bir-biri ilə bayram əhval-ruhiyyəsi ilə görüşür, Daşnak quduzlarına vurulan zərbədən nəşə ilə danışırdılar. Qızıl Ordunun müvəffəqiyyətlərindən fərəhlə bəhs edirdilər. Bu işdə şəhid olanların ruhları şad olsun. Məzlum millətimizin səadəti və rifahı üçün inqilab silahına sarılmış böyük qəhrəman türk inqilab ordusunun qüvvəsinin artmasını cənabi Allahdan diləmək məqsədilə bütün əhali məscidlərə yığılır, mərasimlər keçirir, dualar oxuyurlar. Bu münasibətlə sizi təbrik edir və sizin vasitənizlə əhalimizin səmimi təbriklərini Böyük Osmanlı Millət Məclisinə və Ordu Komandanlığına bildiririk. Şərqi inqilab məzlumlarının azadlığı yolunda əhalimiz heç bir fədakarlıqdan çəkinməyəcək".[828]

Gümrü müqaviləsi əhalini sevindirmiş, türk hərbi dairələrini rahatlandırmışdı.2 dekabrda sovetləşən Ermənistanda[829] sovet hakimiyyəti quruldu. Naxçıvan və Zəngəzuru Ermənistanabağışlayan bu müqaviləni Azərbaycan[830] və Sovet Rusiyası bəyənməmişdi. Ermənistana qalan torpaqların onların olacağına və hökmranlıq edəcəyinə inanan Sovet Rusiyası hökuməti Gümrü müqaviləsindən olduqca narahat idi. Gümrü danışıqları zamanı Sovet Rusiyası yenə vasitəçilik etmək istəmiş, ancaq nümayəndələri P.B.Q. Midivaninin və V.B. Leqranın müdaxilə təşəbbüslərinə türk dairələri mane olmuşdular.[831] Sovet Rusiyası nümayəndələrini narahat edən məsələlərdən biri müqavilə əsasında Türkiyənin Naxçıvanı öz himayəsinə almağı öhdəsinə götürməsi idi. Onlar Ermənistanın bolşevikləşməsi üçün ermənilərə illərdən bəri döyüşərək ala bilmədikləri Naxçıvan və Zəngəzuru Azərbaycan vasitəsilə hədiyyə etdirmiş və bunu onlara vermişdi.[832] İndi Türkiyənin Naxçıvanı himayəsi altına alması onların planlarını alt-üst edirdi. Buna görə də müqavilə imzalanan günün səhəri Midivani Kazım Qarabəkir paşanın

[828] Ordubad camaatının bu səmimi sözləri Kazım Qarabəkir paşa tərəfindən TBMM-nə çatdırılmış və 5 mart tarixli iclasda oxunmuşdur. (TBMMZC, D.1. C9 1.26-27).
[829] V.İ.Lenin, Azərbaycan haqqında. Bakı 1958, s.137. İ.V.Stalin. Əsərləri. IV c., Bakı, 1947, s.456.
[830] Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. s.138; Məmməd Cəfər. Tarixin dərsləri. Elm və həyat, s. №4-6, 1992, s.2.
[831] İsgəndər Yılmaz. Gümrü müqaviləsi, s.117-121
[832] Sonyel. Türk qurtuluş savaşı, II c,s.34

yanına gələrək Naxçıvanın ermənilərə verilməsini xahiş etmiş və kəskin şəkildə rədd cavabı almışdı.[833] Digər tərəfdən, Sovet Rusiyası hökuməti Gümrü müqaviləsini qəbul etmirdi, çünki müqaviləni daşnaklar imzalamışdı, indi isə iqtidara bolşeviklər gəlmişdi.[834] İrəvanda hakimiyyət başına gələn bolşeviklər də rəhbərləri kimi sərt bir dillə Gümrü müqaviləsinə qarşı çıxır, bu müqavilənin Ermənistanı Türkiyənin mühafizəsi altına gətirdiyini irəli sürürdü.[835] Müxtəlif vasitələrlə Gümrü müqaviləsini tanımadıqlarını bildirən, Qars və Gümrünü geri istəyən ermənilər[836] müqaviləni imzalayan Xatisyanı da xain elan etdilər.[837] Keçmiş rəhbərlik tərəfindən fövqəladə şərtlərlə imzalanan bu müqaviləni tanımadıqlarını və yeni müqavilə imzalamaq üçün yenidən toplanmaq lazım olduğunu bildirən ermənilər 10 dekabr 1920-ci ildə Xarici İşlər Naziri Bekzadyanın imzası ilə Türkiyə hökumətinə bir nota verdilər.[838] Digər tərəfdən daşnakların Gümrü danışıqları zamanı 28 noyabrda atəşkəslə əlaqədar türk tərəfi ilə imzaladıqları və Şərur bölgəsini bitərəf bölgə kimi təsdiqləyən müvəqqəti bir qərara istinad edərək türk hərbi dairələrindən Dəvəli və Arazdəyənin boşaldılmasını istəyirdilər.

21 yanvar tarixli bu tələb həmin gün Şərq Cəbhəsi komandanlığına çatdırıldı. Səhərisi gün Kazım Qarabəkir paşa ermənilərə lazımi cavab vermişdi. Buna görə də Şərurun bitərəf bölgə olması haqqındakı 28 noyabrda imzalanan qərar bir müqavilə xarakterli olmayıb, baş komandanlıqların atəşkəs zamanı iki tərəfin arasında qəbul olunmuş müvəqqəti bir qərar idi. Bu müvəqqəti qərar 2 dekabrda imzalanan Gümrü müqaviləsi ilə qüvvədən düşmüşdü və iki tərəf arasında qəbul edilən sərhəd bunu sübut etmişdi. Bilavasitə Dəvəli stansiyası vəArazdəyən Naxçıvan sərhədləri içərisindədir.[839] Sovet rəhbərlərinin əmri ilə hərəkət edən Azərbaycan liderləri də Gümrü müqaviləsini tanımadıqlarını bildirmişlər.

Bununla əlaqədar N.Nərimanov, M.D.Hüseynov və B.Şahtaxtinski tərəfindən imzalanıb Azərbaycan Sovet hökumətinin fikrini əks etdirən bəyannamədə göstərilir ki, Daşnak hökuməti erməni əhali tərəfindən

---

[833] Həmid (Qapancı) bəy. Xatirə dəftəri. s.188

[834] Təngirşək. Vətən xidmətində. s.208

[835] Sonyel. Türk qurtuluş savaşı, II c.s.35

[836] Vəhdət, 23 fevral 1921, 3. Vəhdət, 1 mart 1921. № 6

[837] Hatisyan. Verçinlorun müxbirinə müqaviləni nəyə görə imzaladığını belə ifadə etmişdir: Bir nümunə olsun deyə bolşeviklər may inqilabında öldürülən 4 yoldaşlarını qəbirdən çıxardılar. Pəncərəmizin qarşısında Kazım Qarabəkir paşanın əmri ilə 2 dar ağacı quruldu. Kazım Qarabəkir tamaşa edənləri qorxutmaq üçün belə etdi. Ordumuzun mənəvi qüvvəsi qırıldı. Digər tərəfdən Kazım Qarabəkir İrəvana girəcəyini tez-tezbildirirdi. Bizə hər tərəfdən hər şey müqaviləni imzalamaq lazım olduğunu göstərirdi. Bolşeviklərin qüvvələri yox idi. Onlar da bizə eyni sözləri təkrarlayırdılar. Və nəticədə Gümrü müqaviləsini imzaladıq. (Vəhdət, 23 fevral 1921. №3).

[838] “Документы внешней” СССР т. III №217. s.378-379. Şəmsəddinov, Bağırov. Bir qaragün dostluğu s.158.

[839] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-12, ATASE, A. 1/4282, Kls.590, D.123-37, F.36-1, 36-2

devrilmişdir, buna görə də onların imzaladığı bu müqavilə hüquqa ziddir.[840] Ancaq bəyanat və çıxışlarla Gümrü müqaviləsindəki Naxçıvan maddəsinin dəyişməyəcəyini və buranın Ermənistana verilməyəcəyini görən erməni və azəri liderlər Sovet Rusiyasının göstərişləri istiqamətində Naxçıvanda əl altından bir sıra siyasi intriqalara başladılar.

## 2. Gümrü müqaviləsinə görə Naxçıvandakı dəmiryollarından ermənilərin istifadəsi üçün görülən işlər

Gümrü müqaviləsi imzalandıqdan sonra 12-ci maddənin qüvvəyə minməsi lazım idi. Buna görə də 5 dekabr 1920-ci ildə Kazım Qarabəkir paşa Naxçıvandakı türk hərbi hissəsi komandanlığına lazımi əmr verdi. Buna əsasən erməni ticarət qatarları İrana gedib-gələ bilərdi. Qatarların Naxçıvandan və Şahtaxtıdan keçməsinə mane olmayacaqlar, ancaq çox ciddi yoxlayacaqdılar. Hərbi material göndərilməyəcək, ticarət qatarları ilə Daşnak komitəsinə mənsub şəxslərin İrana fərari kimi getmələrinə imkan verilməyəcək, şübhəli şəxslər həbs olunacaqdır.[841]

Kazım Qarabəkir paşanın verdiyi bu göstərişə əsasən türk hərbi hissəsinin nəzarətində erməni qatarları Naxçıvana gedib-gəlməyə başlamışdı. Veysəl bəy lazımi tədbirlər görmüş və bunları 20 dekabrda yuxarı dairələrə bildirmişdi. Əllərində İrəvandakı türk nümayəndəsi tərəfindən verilmiş vəsiqəsi olmayan silahlı və silahsız erməni əsgərləri tutulub geri qaytarılacaqdı. Sərhəddə silah və döyüş sürsatı yoxlandıqdan sonra 4 mühafizəçi qatara minib Şahtaxtıya gələcək və stansiyalarda qatara şübhəli şəxslərin minib-minmədiyini öyrənəcəkdir. Naxçıvandan gələn qatarlardan ermənilərə aid olanlar əllərindəki vəsiqəyə əsasən sərhədi rahat keçəcəkdilər. Ancaq Naxçıvana mənsub qatarların sərhədi keçməsinə icazə verilməyəcəkdi.[842] Qatarların hərəkəti müqavilədə göstərilən şərtlər əsasında və türk hərbi hissələrinin nəzarətində davam edirdi. Ermənistanda hakimiyyətə gələnlər bir tərəfdən keçmiş rəhbərlərin imzaladığı müqavilədən faydalanır, digər tərəfdən Gümrü müqaviləsini tanımayacaqlarını elan edən bolşevik-erməni liderləri türk dairələrini çox narahat edirdilər. Buna görə də Kazım Qarabəkir paşa 21 dekabrda Veysəl bəyə göndərdiyi bir teleqramda ermənilər Gümrü müqaviləsini təsdiq edənə qədər erməni qatarlarının sərhəddən içəri girməmələrini əmr etdi.[843] Ancaq bir müddətdən sonra qatarların hərəkəti yenidən başladığı bir vaxta ermənilərə İranla ticarət əlaqələri qadağan edildi.

---

[840] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.90
[841] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.23-9
[842] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-5
[843] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-8

7 fevral 1921-ci ildə Kazım Qarabəkir paşanın Veysəl bəyə göndərdiyi teleqramda yazılmışdı:

1.Ermənilərlə Naxçıvan arasında qatar işləyirmi? Ermənilərin və Naxçıvan əhalisinin qatar nəqliyyatından istifadəsi necədir? Naxçıvan hökumətinin lokomativi və s. vardırmı? Naxçıvandakı təmirin işlərinin yerli müsəlman işçiləri tərəfindən icrası həyata keçirilirmi?

2.Yeni Ermənistan hökuməti Gümrü müqaviləsini tanımadığı və bizi çətinliyə saldığı üçün Ermənistanın Naxçıvan vasitəsilə İranla yaradacağı qatar əlaqəsinin kəsilməsi məqsədəuyğun sayılır.[844]

Veysəl bəyə 10 fevraldan 11 fevrala keçən gecə çatan bu suallara o, 13 fevralda cavab verdi:

1.İrəvan və Naxçıvan arasında qatarlar ehtiyac olduqca hərəkət edir. Həftədə ancaq iki qatar keçə bilirdi. Naxçıvanlılar ermənilərə duz və üzüm verib müqabilində qumaş parça, kargüzarlıq məhsulları alırdılar. Qatarlar daha çox rus qüvvələrini və xəstələri daşıyırdı.

2.Naxçıvan hökumətinin 3 lokomotivi, 50-yə qədər vaqonu vardı. Naxçıvan sərhədi daxilində işlər və dəmiryolunun təmiri yerli müsəlmanlar həyata keçirilirdi.

3.İndilik Ermənistanın İran ilə əlaqəsi yoxdu.[845]

Veysəl bəyin əmrinə əsasən qatarlar çox ciddi yoxlanılır, istər İrəvan və istərsə də Naxçıvan tərəfindən gələn müsəlman, erməni və rus sərnişinlərin silah və döyüş sursatları alınırdı. Xüsusilə qatarlardakı sərnişin türk kommunistlərə çox tələbkar yanaşılır və lazımi məlumat hərbi hissəyə çatdırılırdı.[846]

## 3. Naxçıvanın Ermənistana bağlanması məsələsi

### a) Sovet Azərbaycanının Ermənistana hədiyyəsi

Qafqaza gələn və Azərbaycanı nəzarət altına alan bolşeviklər kifayət qədər hərbi gücə sahib olmadıqlarından Gürcüstan və Ermənistan ilə əvvəlcə müqavilə yolunu qəbul etmişdilər. Məqsədləri öz gücsüzlüklərini hiss etdirmədən bir sıra vədlərlə bu ölkələri ingilis təsirindən çıxarmaq, hər dəqiqə bir hərbi əməliyyata başlaması mümkün olan Türkiyənin qarşısını kəsmək və siyasi təbliğatla bu dövlətlər içərisində öz lehlərinə ictimai rəy yaratmaq idi. Menşevik Gürcü hökuməti ilə imzaladıqları 7 may tarixli müqavilə ilə Batuminin Gürcüstana aid olduğunu qəbul edən Sovet Rusiyası hökuməti;[847] digər tərəfdən, Naxçıvan və Zəngəzuru Ermənistana vermək

[844] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.26-2
[845] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.26-3
[846] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.27-4
[847] Yerasimos. Türk sovet münasibətləri. s.152.

üçün çalışırdı. Türk səlahiyyətlilərinin imkan verməməsi nəticəsində onlar məqsədlərini həyata keçirə bilməmişlər, 10 avqust tarixli müqavilə ilə Şahtaxtı - Culfa dəmiryolunu istifadə etmək üçün ermənilərə vermişdilər. Ancaq müxtəlif səbəblərlə bu həyata keçə bilməmişdi.

1920-ci ilin oktyabr və noyabr aylarında Ermənistanda bolşeviklər iqtidara gəlmiş və Qızıl Ordunun dəstəyi ilə bir fəaliyyət başlanmışdır. 29 noyabrda Karvansaray (İcevan) və Dilican ələ keçirilmiş, hətta həmin gün Karvansarayda Ermənistan Sovet Sosialist Respublikasının ilk addımı olan, İnqilab Komitəsi yaradılmışdı.[848] Ancaq Sovet Rusiyası Ermənistanın sovetləşməsini istəyir və beləliklə daşnak rəhbərliyinə istədiyi şərtləri qəbul etdirməklə Türkiyənin qarşısını kəsmək istəyirdi. Sovet Rusiya hökuməti bu işləri necə yerinə yetirəcəyini planlaşdırmışdı. Daşnakların illərdən bəri döyüşərək ala bilmədiyi Naxçıvan və nisbətən nəzarət etdikləri Zəngəzur Ermənistana hədiyyə ediləcəkdi. Beləcə döyüşlə alına bilməyən bölgələr qələmlə hədiyyə edilərək daşnakları gözdən salacaq, əhalinin sovet idarəetmə sisteminə hüsnü-rəğbəti təmin ediləcəkdi.[849]

Bundan sonra 30 noyabrda Azərbaycan Kommunist partiyasının siyasi və təşkilat bürosunun müştərək toplantısında Sovet Ermənistanı ilə yaradılacaq münasibətlər müzakirə edildi. Sovet Ermənistanı ilə sərhədlərin açılması, Ermənistan ilə hərbi ittifaq yaradılması və neft əməkdaşlığı etmək, Ermənistana qarşı hərbi fəaliyyətlərin dayandırılması, Qarabağa öz gələcək müqəddəratını təyin etmək səlahiyyətinin verilməsi və Naxçıvan və Zəngəzurun Ermənistana hədiyyə edilməsi qərara alındı. Qəbul edilən qərarları elan etmə vəzifəsi Nərimanova həvalə edildi.[850] Bakı Sovetinin 1 dekabr tarixli toplantısında Nərimanov ona inananların etibarını itirməmişdi. Çıxışında Sovet Azərbaycanına məxsus Naxçıvan və Zəngəzuru Ermənistana hədiyyə etdiyini elan etdi. Ona görə artıq Naxçıvan və Zəngəzur Ermənistanın ayrılmaz parçaları olmuşdu.[851]

N.Nərimanovun bu əliaçıqlığı Sovet Rusiya hökumətinin nümayəndələri və ermənilər tərəfindən böyük məmnunluqla qarşılandı. Həmin gün Orconikidze erməni kommunist liderlərindən Nazaretyana Nərimanovun

---

[848] Stalin. Əsərləri. IV c. s.456, Şəmsəddin, Bağırov. Bir qaragün dostluğu, s.28; Nəsibzadə. Vətənin bütövlüyü problemi. G.Jaschke. zaqafqaziyanın Rusiya Qızıl Ordu siyasətinin örnəyi. Qurtuluş, №13,14. 1935, s.383

[849] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-5; ATASE, A.6/6686,Kls.D.4-8,F.45-1, 46; Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.45, Bayur, I Dünya müharibəsindən sonra anlaşmalarımız, II, s.148

[850] Nəsibzadə. Vətənin bütövlüyü problemi.

[851] ATASE, 6/6686, Kls.924, D.6-1, F.24-18. Rəsulzadə. Azərbaycan Cümhuriyyəti, s.120-138. Mirzəbala. Milli Azərbaycan hərəkatı. s.182-183. Stalin. Əsərləri. s.456. Kazımzadə. Transcaucasia. s.120-138. Aydın Balayev. Nəriman Nərimanov. Şirin xülyalar və tarixi həqiqət. Qurtuluş, №1. B.1992. s. 34. Türk islam ensiklopediyası, İstanbul, 1940, s.734, M.Cəfər. Tarixin dərsləri, s.2; Rəhimov, Sadiqov Naxçıvan 1920-ci illərin burulğanında, s.45. Nəsibzadə. Vətənin bütövlüyü problemi, Jacke. Qızıl Rusiyasının istilasının bir nümunəsi s.383. Bayur. I Dünya müharibəsindən sonra müqaviləmiz II. s. 148

bəyanatını çatdırmış və xoş xəbəri vermişdi. Nazaretyan çox sevinmişdi və cavabında mətbuatda "Bravo azərbaycanlılar!", - deyə xalqa lazımi məlumatı çatdıracaqlarını deyirdi.[852] Digər tərəfdən Azərbaycan liderləri bağışladıqları hədiyyənin xalqın narazıçılığına səbəb olacağını bildiklərindən Nərimanovun bəyanatı 2 dekabr tarixli "Kommunist" qəzetində rusca dərc olunmuş, beləcə hadisəni xalqdan gizlətmək istəmişdilər.[853] Digər tərəfdən Naxçıvanın sözlə Ermənistana bağlanmayacağını, Gümrü müqaviləsi ilə regionu öz himayəsinə aldığını ermənilərə qəbul etdirən Türkiyənin razılığının vacib olduğunu görən Sovet Rusiya nümayəndəsi Midivani 3 dekabrda Kazım Qarabəkirdən Naxçıvanın Ermənistana verilməsini xahiş etmiş, ancaq sərt bir şəkildə xahişi rədd olunmuşdu.[854] Buna baxmayaraq, Gümrü müqaviləsini tanımadığını elan edən Sovet Ermənistanının İnqilab komitəsinin revkom rəisi Kasyan, üzvləri Avis və Bekzadyan tərəfindən 26 dekabrda dərc olunan bir bəyannamədə Azərbaycanın onlara hədiyyə etdiyi Naxçıvanın Ermənistanın ayrılmaz parçası olduğu göstərilirdi.[855]

### b) Naxçıvanlıların etirazı

Azərbaycanın Naxçıvanı Ermənistana hədiyyə etmə xəbəri 5 dekabrdan etibarən Naxçıvan regionunda dildən-dilə gəzdi. Əhali həyəcan içində idi. İngilislərin Naxçıvanı ermənilərə verdiyi günlərdəki təlaş, stress, həyəcan, qorxu üzlərdən oxunurdu. Əvvələr Milli Şuraya toplanan əhali indi də axın-axın İnqilab Komitəsinə (Revkoma) yığışırdılar.

Eşitdiklərinin doğru olub-olmadığını öyrənmək istəyirdilər. 1920-ci ilin dekabr ayının 15 də Naxçıvana gələn Azərbaycan İnqilab Komitəsinin üzvü və Ədliyə komissarı Behbud Şahtaxtinski əhaliyə həqiqəti dedi. Naxçıvan Ermənistana verilmişdi və əgər özü bu qərar verildiyi zaman Bakıda olsaydı razı olmayacaqdı.[856] Sonrakı günlərdə Behbud bəy və Vəlibəyovun iştirakı ilə Naxçıvan şəhərində, Şərur və Ordubadda mitinqlər keçirildi. Əhalinin əksəriyyəti Naxçıvanın Azərbaycanın himayəsində müstəqil Sovet Respublikası olmasını arzu edirdilər. Mitinqlərin nəticəsi haqqında Azərbaycan və Ermənistan İnqilab Komitələrinə məlumat verdilər.[857]

Əhali illərlə müstəqillik uğrunda mübarizə apardı Naxçıvanın

---

[852] Nəsibzadə. Vətənin bütövlüyü problemi

[853] Orconikidze Bakı Sovetinin 7 dekabr tarixli toplantısındakı çıxışında hədiyyə edilən bölgələrin əhəmiyyətsiz torpaq parçaları olduğunu ifadə etmişdir. Rəhimov, Sadiqov Naxçıvan 1920-ci illərin burulğanında, s.45

[854] Həmid bəy, Xatirə dəftəri, s.188

[855] Bu bəyanat "Kommunist" qəzetinin 27 dekabr tarixli sayında dərc olunmuşdu. Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.41-71

[856] Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.45-46. Sadıqov Naxçıvan 1920-ci illərin burulğanında s.71

[857] Sadıqov. Naxçıvan 1920-ci illərin burulğanında s.71

ermənilərə, qanından, canından artıq sevdiyi Azərbaycan tərəfindən peşkəş edilməsindən çox narahat idilər. Ancaq əvvəlcə olduğu kimi, indi də torpaqlarını qorumağa hazır idi. Onlara yardım edəcək, dərdlərini öz dərdləri sayan bir qüvvə var idi: Türkiyə. Buna görə də onlar Şahtaxtıda olan türk hərbi hissəsinə gedib, dərdlərini anlatmağa çalışmışdılar. Veysəl bəyin Şərq cəbhəsi komandanlığına və Sağ cinah qrupu komandanlığına göndərdiyi 19 dekabr tarixli teleqram bu dövrdəki Naxçıvan əhalisinin vəziyyətini əks etdirməsi cəhətdən çox əhəmiyyətli idi. Veysəl bəy vəziyyəti bu cümlələrlə ifadə edirdi: "Naxçıvanın Ermənistana verilməsi haqqındakı qərarla əlaqədar Naxçıvan əhalisinin 100 nəfərdən ibarət nümayəndələri hərbi hissəmizin qərargahına gələrək məkrli qərarı rədd etdiklərini və etirazlarını Şərq cəbhəsi komandanlığına bildirməyimizi xahiş etdilər. Ordubad, Şərur və bütün kəndlərin nümayəndələri eyni məqsədlə yola düşdüklərini telefonla bildirdilər. Cəbhələrdə bütün əsgərlər mitinq keçirmək məqsədilə Naxçıvana yola düşmüşdülər. Bütün regionda bir həyəcan hökm sürürdü.

Etirazlarda bildirdilər ki, 3 ildən bəri tökdüyümüz qanlar nahaqmış, yenə qanımızı tökəcəyik. İstədiyimizə nail ola bilməsək, Türkiyəyə gedəcəyik".[858]

Naxçıvan əhalisi yenə qan tökməyə hazır idi. Ancaq tək başına bir şey edə bilməyəcəklərini bildiklərindən hər zamankı kimi türk hakim dairələrinə müraciət edildi. Naxçıvan, Şərur, Vedibasar və Ordubad əhalisi adından nümayəndə təyin edilən Hacı Cabbar Şeyxzadə Şərq cəbhəsi komandanlığı vasitəsilə TBMM-nə yanıqlı hisslərlə yardım istəyən bir teleqram göndərmişdi:

"Biz – Naxçıvan əhalisi, illərdir ki, türk duyğusu, türklük və türk birliyi üçün qəlblərimiz döyünmüş və bu hisslərlə, alqışlarla müzəffər türk ordusunu qarşılamış, müsəlman qardaşlarımızı bağrımıza basmışdıq. Fələk çox gördü. Nəhayət, sevgili əsgərlərimizi ağlamaqdan şişmiş, qızarmış gözlərlə uzaqlara yola saldıq. Ancaq erməni zülmü bizə qadın kimi ağlamaqdan bir fayda olmadığını göstərdi. Kişi kimi döyüşdük, istiqlalımızı aldıq, istiqbalımızı qurtardıq, siyasətə görə Türkiyə ilə birləşdik. Azərbaycana əl uzatdıq. Son illərin döyüşləri sizə məlumdur. Bütün erməni qüvvələri üzərimizə gəldi. Qaçqın olduq, aclıqdan öldük, ancaq erməni olmadıq. Ankaradakı Böyük Millət Məclisimizin son qərarı imdada yetişdi. Şərq cəbhəsi qüvvələri ermənilərin üzərinə yürüdü. Biz də hərəkətə keçdik, vətənimizi qurtardıq. Ancaq əhali yandırılmış kəndlərinə ac, çılpaq qayıdırdılar. Vətən rahiyəsi, Vətən torpağı, Vətən otları ilə yaşayırdılar. Azərbaycanın bizləri ermənilərə hədiyyə etdiyini eşitdik. Əsarətdən çıxalı, azadlığa qovuşalı neçə

---

[858]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-2

illər keçmişdir. Biz nəyik? Satlıq mal kimi başqa bir millətə hədiyyə etmək olarmı? Ağıla sığmayan bu hərəkətə necə etiraz edəcəyimizi bilmirik. Bizi heyrətə gətirən bir məsələ var ki, ərz etməmək mümkün deyil, bu gün məmləkətimizdə möhürlə əlaqədar (teleqramda oxumaq mümkün deyildir) açılmış, müsavat idarəsi yaradılmış, kasıb-füqəranı müharibə səfalətlərindən qurtarmaq əvəzinə rus və Azərbaycan Sovet hökumətləri biz kasıb füqəranı inqilabi əsaslara zidd olaraq heyvan sürüsü kimi illər uzunu düşmənimiz olan ermənilərə peşkəş etdilər. Bəs deyirdilər kommunizmdə millətlər öz müqəddəratlarını özləri həll edəcəkdilər? Bilmirik. Xahiş edirəm fəryadımızı Sovet hökumətinin səfirliyinə bildirin. Paşa həzrətləri müraciətim Sizə deyil, Böyük Millət Məclisinədir. Bu qədər tökülən qan və qurbanlardan sonra bizi siz də erməni etmək istəyirsiniz? Ey möhtərəm məclis, heç olmazsa Sovet də olsa, bizi müstəqil Türk Sovet Cümhuriyyəti adı altında, ancaq erməni idarəçiliyi, erməni zülmü, erməni hökmranlığından uzaq olsun, türkləri yaddan çıxarmayın. Naxçıvan, Şərur, Ordubad, Vedibasar,[859] əhalisinin – gecə-gündüz göz yaşı tökən, sizdən imdad gözləyən yüz minlərlə əhalinin bu fəryadını ərz etdim və cavab gözləyirik”.[860]

### c. Naxçıvanın Ermənistana verilməsinə Türkiyənin münasibəti

Naxçıvan əhalisi haqlı olaraq etiraz edirdi. Azərbaycanın Ədliyyə komissarı Behbud bəy və Veysəl bəy də onları sakitləşdirməyə çalışırdılar. Naxçıvanın Ermənistana verilməsi təklifini rədd edən Kazım Qarabəkir paşanın əmri ilə Veysəl bəy Naxçıvan sərhədlərində bir sıra tədbirlər gördü. Ordubad, Şahtaxtı və Noraşen Revkom sədrlərinə və tabeliyindəki birliklərə müraciətən 20 dekabr tarixdə dərc etdirdiyi bəyannamədə Naxçıvan regionunun Gümrü müqaviləsinə əsasən Türkiyə himayəsində olduğunu, Türk əsgərlərinin sərhədləri qoruduğunu və TBMM-nin Naxçıvana göndərəcəyi fövqəladə komissar gələnə qədər bu vəzifəni özü icra edəcəyini bildirdi.[861] Digər tərəfdən Kazım Qarabəkir paşa Veysəl bəyə bildirdi ki, Ermənistan və Azərbaycan Naxçıvana müdaxilə etməyəcək və özü ona dəstək olurdu.[862] Xalqı sakitləşdirməyə və regionu Azərbaycan ilə Ermənistanıngizli siyasi planlarından qorumağa xidmət edən bu fəaliyyətləri Behbud bəy də dəstəkləyirdi. Azərbaycanın təyin etdiyi fövqəladə komissar Bahadur Vəlibəyovun bölgədən çıxmasını təsdiq edən və Türkiyənin nə istərsə edəcəyini bildirən

[859] Mətndəki yer adları səhv yazıldığı üçün düzəldilmişdir.
[860] TBMM, ZC3, D1, C8, s.62
[861] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-3, 24-4; ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.92-3.
[862] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-3, 24-4, ATASE,A.6/6686.Kls.924, D5-3, F.92-3

Behbud bəy[863] digər tərəfdən həyəcan içində olan xalqa müraciət edirdi: Mən Azərbaycan inqilab komitəsinin üzvü olaraq Vəlibəyovu vəzifəsindən azad edərək Bakıya aparacağam. Siz torpağınızla bərabər öz müstəqilliyinizi istəyirsinizsə, burada güvənə biləcəyiniz yeganə qüvvə Türkiyə əsgərləridir. Xalq bu əsgərlər ətrafında möhkəmcə birləşməlidir. Sizin müstəqilliyinizi və torpaqlarınızı ancaq onlar qoruyacaq bu ağır fəlakətlərdən qutraracaqdır.[864]

Hökumətin bu səhvinin yerinə yetirilməsinə mane olmağa çalışan Behbud bəyin, Veysəl bəyin səyləri və bir sıra tədbirlər nəticəsində Naxçıvan əhalisi nisbətən sakitləşdi, onlar Gümrü müqaviləsinə görə Türkiyənin Naxçıvanı himayəsinə almasına və sərhədlərinin qorunmasma çox sevinmişdilər.

Bu vaxt əhalini sevindirən başqa bir hadisə də baş verdi. Əhalinin etirazları, Türkiyənin Veysəl bəy vasitəsiiə Naxçıvanda gördüyü tədbirlər nəticəsində, Sovet Rusiya hökumətinin tövsiyəsi ilə[865] Ermənistan taktikasını dəyişdirdi. Onlar təbliğatla, hiyləli yollarla naxçıvanlıları inandırmağa xidmət edən bəyannamə hazırladılar. Naxçıvana öz gələcəyini təyin etmə səlahiyyəti verən bu bəyannamə 26 dekabrda Baş Noraşendə Vəlibəyov tərəfindən xalqa elan edildi.[866] Digər tərəfdən həmin gün yenə erməni liderlərinin imzası ilə Naxçıvanın Ermənistanın ayrılmaz parçası olduğunu əks etdirən bir bəyannamə dərc etdirildi.[867] Ancaq 28 dekabrda erməni rəhbərliyi daha bir bəyannamə dərc etdirdi. Buna görə Ermənistan hökuməti Naxçıvanı müstəqil bir sovet cümhuriyyəti kimi tanıyır və daşnak partiyasının bu bölgə ilə əlaqədar torpaq iddiaları rədd edilirdi.[868] Bu mərhələdə Veysəl bəy Naxçıvanda erməni və rus oyunlarına mane olmağa çalışır, TBMM və hökumət də boş durmurdu. 3 fevralda TBMM- də naxçıvanlı Hacı Cabbar bəyin teleqramı oxunduqdan sonra millət vəkilləri bunu müzakirə etməyi qərara aldılar. 19 fevralda Hüseyn Avni bəy tərəfindən qaldırılan bu məsələyə xarici işlər naziri Əhməd Muxtar bəy cavab vermişdi: "Gümrü müqaviləsinə görə Naxçıvan Türkiyənin himayəsində idi və türk əsgərləri bölgədə nəzarəti əllərində saxlayırdı".[869]

TBMM bu məsələyə diqqətlə yanaşırdı. Xarici işlər naziri Muxtar

---

[863]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-5, 24-10.

[864] Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.46.

[865] Jackeyə görə (Rus istilasının bir nümunəsi s.384) Türkiyənin arzusu ilə Lenin Ermənistana 1dekabrda Azərbaycan tərəfindən verilən hədiyyənin qaytarılmasını əmr etmişdir. Ermənistanın Naxçıvan ilə əlaqədar iddialarından Leninin əmri əsasında əl çəkdiyini açıqlaması ilə bağlı tarix göstərməmişdir, biz də əsaslandıra bilmirik.

[866]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-18.

[867] Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.71, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.71

[868] Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında s.71

[869]TBMM Z C D I, VIII c., s.62, 440-441.

bəyin 27 dekabrda Çiçerinə göndərdiyi sənəddə heç bir səbəb olmadan Ermənistana verilən Naxçıvan və Qarabağ əhalisinin geniş etirazlarından bəhs edilmişdi.[870] Sovet Rusiya hökuməti ilə görüşmək üçün gedən türk heyətini düşündürən ən mühüm məsələlərdən biri Naxçıvan məsələsi idi. Mustafa Kamal paşa Yusif Kamal bəyə Naxçıvanın türk qapısı olduğunu xatırlatmış və buna uyğun hərəkət edilməsini tapşırmışdı.[871] Mustafa Kamal paşanın bu sözlərindən və Kazım Qarabəkir paşanın Veysəl bəy ilə yazışmalarından məlum olur ki, Türkiyə Naxçıvanı vermək istəmirdi.[872] Ancaq Moskva danışıqlarında türk təklifi Rusiya tərəfindən qəbul edilmədikdə türk heyəti Naxçıvanın Türkiyə və Azərbaycanın himayəsində qalmasını təklif etmişdi.[873]

Nəticədə Sovet Rusiyasının təzyiqi altında Azərbaycanın Naxçıvanı Ermənistana verməməsi üçün türk heyəti Moskva müqaviləsinə xüsusi bir şərt qoydurmuşdu.[874] Müqavilə üçün Bakıya gələn türk heyəti ilə Nərimanov arasında bir danışıq oldu. Bir gün Nərimanov xarici işlər komissarı ilə gəldi. Gəldi, bizə dedi ki, sizinlə bağlanacaq müqaviləmiz vardır? Dedik bəli! Naxçıvan məsələsi. Çünki biz Naxçıvanı Azərbaycana bir şərtlə veririk. O da Azərbaycanın himayə hüququnun üçüncü dövlətə verilməməsi idi. Bir gün olar aralarındakı kommunist münasibəti qələbə qazanar. Azərbaycan Naxçıvanı Ermənistana və ya Rusiyaya vermiş olarsa, o zaman biz Azərbaycanı Naxçıvanın himayə təəhhüdündən azad edərik.[875]

Türk heyəti Naxçıvan məsələsində Nərimanovu xəbərdarlıq edir və Moskvada qəbul edilmiş qərarın Azərbaycan tərəfindən qəbul edilməsini istəyirdi. Nəticədə Türkiyə Rusiya ilə bağladığı müqaviləni Qarsda üç Qafqaz cümhuriyyətinə-Gürcüstana, Ermənistana və Azərbaycana da qəbul etdirmiş və digər sahələrdə olduğu kimi Naxçıvanın statusu qəti şəkildə müəyyənləşdirilmişdi.[876] Beləcə Sovet Rusiyası ilə bərabərAzərbaycanın və Ermənistanın Naxçıvanın statusunu dəyişdirmək ehtimalı aradan qaldırılmışdır.

[870] Atatürkün milli xarici siyasəti (1919-1923), I Ankara 1981. s. 242-244
[871] M.Kamal paşa, Naxçıvan türk qapısıdır, Türk dünyası tarix dərgisi. №64. s.5-6.
[872] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-12, 24-17.
[873] Təngirşək. Vətən xidmətində, s. 210.
[874] TBMM ZM. I c. XI c. s.222. Cəbəsoy. Moskva xatirələri, s.193. Hakimiyyəti-milliyə, 25 mart 1921, №141. Təngirşək. Vətən xidmətində, s. 216.
[875] TBMM, Z C. D, I c., s.227.
[876] Varlıq. 14 oktyabr 1921. №7. Qars müqaviləsi, İstanbul, 1923.

**d) Veysəl bəy və Vəlibəyov mübarizəsi**

Qarabağ Revkom rəisi ikən Nəriman Nərimanov tərəfindən Naxçıvan fövqəladə komissarlığına[877] təyin olunan Bahadur Vəlibəyov 7 oktyabrda Talıbzadə Yusif Ziya bəy[878] və Əsgərovla birlikdə Naxçıvana gəlmişdi.[879] Veysel bəy Ordubada qayıdanda oktyabr ayının 9-da Vəlibəyovla görüşdü, səhərisi gün qrup komandanlığına lazımi məlumat verdi.[880]

Ermənilərin Naxçıvandan çıxarıldığı və sonrakı günlərdə Veysəl bəy ilə Vəlibəyov arasında münasibətlər yaxşı davam edirdi. Veysəl bəy hərbi işlərlə, Vəlibəyov isə idari-inzibati işlərlə məşğul olurdu. Veysəl bəyin sözlərindən bəlli olurdu ki, o, bu dövrdə çox idari işlərlə məşğul olmurdu[881] və buna görə də ruslar və Vəlibəyov istədikləri kimi hərəkət edirdilər.[882] Bu dövrdə Revkom sədrliyinə Vəlibəyovla birlikdə Bakıdan gətirilən Əsgərov,[883] Naxçıvan hərbi komissarı baş leytenant Hikmət bəy, rus səlahiyyətli nümayəndəsi Mixail Yanqvitiç və 12 nəfərlik bir qrup 9 dekabrda Təbrizə gəlmiş və İran səlahiyyətliləri ilə görüşmüşdü. Taxılla dəyişdirmək məqsədilə 4 vaqon pambıq gətirən Vəlibəyovun iranlılardan xahişləri bunlar idi: İranın Sovet Rusiya hökuməti ilə bir müqavilə bağlaması, Maku, Xoy və Təbrizdə sovet konsulluqlarının açması,[884] Şahtaxtı-Maku-Bəyazid dəmiryolunun təmir etdirərək istifadəyə verilməsi, İrandan kifayət qədər miqdarda taxıl verilməsi. Təbriz valisi taxıl verəcəyini bildirdi, digər məsələlərin hökumətə aid olduğunu bildirmiş və hökumətə lazımi məlumat vermişdi, Vəlibəyov sədrliyindəki heyətin bir üzvü Təbrizdə qaldı, digərləri 13 sentyabrda Təbrizdən yola düşdülər.[885]

---

[877] Rəhimov və Sadiqova görə Naxçıvana fövqəladə komissar təyin edilməsi bölgənin hiylə ilə Ermənistana verilməsi üçün idi. (Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.42).

[878] Azərbaycan türklərindən olan Talıbzadə Yusif Ziya bəy I Dünya müharibəsində türk ordusunda mayor idi və Ənvər paşa tərəfindən Təbrizdə İttihadi-İslam təşkilatına göndərilmişdi. (Qarabəkir. İstiqlal müharibəmiz, s.888).

[879] Rəhimov və Sadiqov Vəlibəyovun Naxçıvana gəlməsini 5 oktyabr olaraq göstərirlər. (Rəhimov, Sadiqov Naxçıvan 1920-ci illərin burulğanında s.42, 71, 72). Əliyev isə bu tarixi 10 oktyabr olaraq göstərir. (Əliyev. Qanlı günlərimiz).

[880] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-12.

[881] Şahtaxtı Revkom sədri Farizqulu Əlinin Naxçıvan Revkomu tərəfindən geri çağırılmış, əhali də Veysəl bəydən bu işin dayandırılmasını xahiş etmişdi və o, Revkom sədri Əsgərova bir məktub göndərmişdi. (ATASE, A. 6/6686, Kls.924,D.(7,8), F.310).

[882] Dekabr ayının əvvəllərində Vəlibəyov İrəvana gedərkən vəzifəsini icra etməyi Veysəl bəyə tapşırmışdı, o da bunu qəbul etmişdi. Vəlibəyovun getməsi ilə əlaqədar Veysəl bəyin ətrafı şikayətçilərlə dolmuşdu. Bolşeviklər bundan narahat olmuşdular. Buna görə də Vəlibəyov teleqramla vəzifəsinin icrasını başqasına həvalə etdiyini bildirmişdi. (Ünüvar. Bolşeviklərlə 8 ay, s. 75-72).

[883] ATASE, A. 6/6686, Kls.924,D.(7,8) 7, F.3,10

[884] Bolşeviklərin İranda konsulluq açdığını bilirik. 1920-ci ilin mart ayında İranın Naxçıvanda bir konsulluğu açılmışdı. (ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.192).

[885] İrandakı ingilis səlahiyyətliləri Vəlibəyovu rus və türk mülki nümayəndəsi kimi tanıyırdılar. British. Documents of Foreign Affairs Vol: 16, Persia I Doc. 372. s. 276-277. Doc. 402. s.294. Doc. 483. s. 351-352. Doc. 503. s.367-368.

Vəlibəyov Naxçıvanın daxili və xarici işləri ilə məşğul olduğu zamanda regionun statusu dəyişməyə başladı. Azərbaycanın Naxçıvanı Ermənistana hədiyyə etməsinə əhali həyəcanla, etiraz edirdi. Gümrü müqaviləsindən yaranan hüquqlara əsasən Türkiyə Naxçıvanda yerli vəzifələri öz üzərinə götürməyə başladı. Türk hərbi hissəsi Gümrü müqaviləsinə görə ona verilən səlahiyyətlərə əsasən Naxçıvan sərhədlərini nəzarət aitına aldı. Lazımi vəzifə bölgüsü apardı. 3 nöqtədəki-Sədərək və Dəvəli dəmiryolları stansiyalarına hərbi hissələr yerləşdirildi, İrəvan-Naxçıvan arasındakı qatarın hərəkəti nəzarət altına alındı.[886]

19 dekabrda Cavid bəy Veysəl bəyə bir məktub göndərdi və məktubda Naxçıvan regionunda yerli hökumətin Türkiyə himayəsi altında olduğu xatırladılmış, TBMM tərəfindən Naxçıvan hökuməti yanında siyasi məmur göndərincəyə qədər onun türk hərbi hissə komandiri vəzifəsində qalmaqla Şərq Cəbhəsi adından siyasi nümayəndə təyin edildiyi bildirilmiş və bunun Naxçıvan yerli hökumət rəisinə bildirilməsi xahiş olunurdu.[887]

Cavid bəyin bu məktubundan sonra Naxçıvanın gələcəyi məsələsində Veysəl bəy ilə Vəlibəyov arasında münaqişə başlandı. Veysəl bəy dərhal bu vaxt Naxçıvanda olan Behbud bəy və Vəlibəyovla bərabər bir toplantı keçirdi. Türkiyənin Naxçıvanı himayəsi altına almaqla bərabər, bölgədə bir diktator kimi hərəkət edən, ruslara meyl edən Vəlibəyovu vəzifəsindən götürmək lazım idi və belə də oldu. Vəlibəyovun Naxçıvandan çıxması,[888] türk siyasi nümayəndəsinin işə başlaması və sərhəd polis təşkilatlarına türk əsgərlərinin daxil edilməsi qərara alındı. Belə bir vəziyyətdə 20 dekabr səhəri Vəlibəyov İrəvana getmək üçün stansiyaya yola düşdü, Veysəl bəy də vəzifəsinə başladı. Revkoma və digər rəsmi dairələrə yazı göndərərək mövcud pulun kassaya daxil edilməsini, kassa və anbarlardakı mövcudiyyət haqqında məlumat bildirilməsini istədi.[889] Bundan sonra Ordubad, Şahtaxtı və Noraşen Revkom sədrlərinə və əmrindəki 1-ci və 2-ci batalyonlara müraciətən bir bəyannamə dərc edildi: Türkiyə-Ermənistan sülh müqaviləsinin 2-ci maddəsinə görə Şərur-Şahtaxtı-Naxçıvan-Ordubad əhalisinin müəyyənləşdirəcəyi idarə forması və onun əhatə edəcəyi torpaqlara ermənilər müdaxilə etməyəcək və bu məntəqə türk himayəsində olacaqdı. Müqavilə bağlandıqdan sonra bu himayə felən mövcud olmuş və Türkiyə əsgərləri sərhədləri qorumaqdadırlar. TBMM-nin Naxçıvana

---

[886]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-4
[887] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-3
[888] Behbud bəy çıxışında Vəlibəyovu işdən azad etdiyini və Bakıya aparacağını ifadə etmişdi. (Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.46).
[889] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-5

göndərəcəyi fövqaladə komissar gələnədək bu regionun fövqaladə komissarı vəzifəsini aldığım əmr üzrə icra edəcəyəm.

Burda bu gün mövcud Şura hökumətini möhkəmləndirmək üçün hər kəs vəzifəsini bilir, üç ildən bəri gedən müharibələrin açdığı yaraları qızıl bayrağımız altında sağaltmaqla birlikdə çalışmaq birinci vəzifəmizdir.[890]

Veysəl bəy səlahiyyətli dairələrə Türkiyənin regionu himayəsinə aldığını və özü də felən vəzifəyə başladığını elan etmişdir. Naxçıvandan çıxmaq üzrə olan Vəlibəyov saat 15-dən sonra Veysəl və Behbud bəylərəvə Revkom sədri Əsgərova 3 məktub göndərdi.

Vəlibəyov Veysəl bəyi əksinqilabçı adlandırıb, ondan Kazım Qarabəkir paşaya şikayət edəcəyini bildirdı. Veysəl bəy də cavabında bildirdi ki, o Naxçıvanda olduğu müddət ərzində əks-inqilab baş verməyəcək və indiki idarə onun vaxtından da yaxşı idarə ediləcək. Behbud bəyə görə Vəlibəyov qatara mindikdən sonra“Erməni havası” çalmağa başladı, bununla da Veysəl bəyə qarşı qeyri-qanuni hərəkətlərini ört-basdır etmək istəyirdi. Onun haqqında qanuni iş qaldırılacaqdı. Bu məsələ ilə əlaqədar Veysəl bəy hərbi komissar baş leytenant Hikmət bəy və Əsgərovla görüşdü.[891]

Ancaq onlar və Vəlibəyov Veysəl bəyin yerinə Hikmət bəyin fövqəladə komissar olmasını arzu edirdilər və Behbud bəyə bu təklifi vermişdilər. Behbud bəyin fikri bəlli idi. Türkiyə kimi istəsə, onu da təyin edəcəkdi. Türkiyənin təyin etdiyi bir şəxsə heç kim mane ola bilməzdi.[892]

Naxçıvanın türk himayəsi altına girməsi ilə əlaqədar idari işlərdə bir sıra dəyişikliklər baş verdi. Naxçıvanın yerli idarəetmə sistemində vəzifəsi olanların əksəriyyəti azərbaycanlılar idi. Behbud bəy hələlik bu işçilərin öz yerində qalmasını və türk nümayəndəsinin nəzarət edəcəyini məqsədəuyğun sayırdı.[893] Türk siyasətinə uyğun fəaliyyət göstərən Behbud bəy Vəlibəyov məsələsində Veysəl bəyin diqqətini çəkmiş, onun ermənilər tərəfindən Naxçıvana fövqəladə komissar təyin edildiyini ehtimal etmişdir, gələrsə sərhəddən buraxılmamasını demişdir.[894] Həqiqətən Ermənistan sərhəddinə gələn Vəlibəyov Türkiyəyə, bilavasitə Veysəl bəyə müxalifətdə dururdu. Naxçıvan Revkom sədri Əsgərova bir teleqram göndərən Vəlibəyov Veysəl bəyin tanınmamasını bildirmişdi[895] və bütün səlahiyyətlərin Revkoma aid olduğunu göstərmişdir.

---

[890] ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.92-3, Sadiqov göstərirdi ki, Veysəl bəy həbsdəki müsavatçıları azad etmişdir. (Naxçıvan 1920-ci illərin burulğanında s.73).

[891]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-5.

[892]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-10.

[893] Veysəl bəy 22 dekabr tarixli teleqramla qrup komandanlığına vəziyyəti bildirdi. (ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.947).

[894]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-10.

[895]ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.94-95.

Veysəl bəy qrup komandanlığından və bilavasitə Şərq Cəbhəsi komandanlığından aldığı əmrlər əsasında fəaliyyətini davam etdirirdi.[896] Fövqəladə komissar səlahiyyətinə uyğun hərəkət edən Veysəl bəy bir tərəfdən yerli işlərlə məşğul olurdu, digər tərəfdən də Türkiyənin İrəvandakı rabitə zabiti Bahəddin bəy Naxçıvanın nümayəndəliyinin icrası üçün ona etimadnamə göndərmişdi.[897]

Ancaq Veysəl bəy Naxçıvan kimi mürəkkəb siyasi bölgədə komissarlıq etmək istəmirdi. Həm də Naxçıvanın sərhədlərini mühafizə edən hərbi hissəyə komandirlik və həm də idari işləri də aparmaq asan deyildi. Buna görə də 21 dekabrda komissarlıq vəzifəsindən azad edilməsini tələb etdi.[898]

Ancaq Veysəl bəy vəzifəsindən azad edilməyi gözlərkən, Kazım Qarabəkir paşadan xəbərdarlıq dolu məktub gəldi. Veysəl bəy ona verilən siyasi nümayəndəlik vəzifəsini səhv başa düşmüş və regionun daxili və xarici işlərinə birbaşa müdaxilə etməyə başlamışdı. Gec də olsa, Kazım Qarabəkir paşa Veysəl bəyə xəbərdarlıq etməyi lazım bilmişdi. Veysəl bəyin fovqəladə komissar vəzifəsini icra etməsi və Bahəddin bəyi Naxçıvan nümayəndəsi təyin etməsi doğru deyildi. Gümrü müqaviləsinə uyğun Naxçıvan yerli hökumətinə muxtariyyət verilmişdi. Bütün daxili və xarici işlərdə yerli işçilərin olması lazım idi. Yoxsa, xarici aləmdə bütün nəzarətin Türkiyənin əlində olması təəssüratı yaranardı və bu siyasətə uyğun deyildi. Türk hərbi hissəsi himayə vəzifəsinə uyğun sərhədləri qoruyacaq, Veysəl bəy də yerli rəhbərlərin yanında Şərq Cəbhəsinin siyasi nümayəndəsi olacaqdı. Naxçıvan yerli hökumətinin daxili və xarici işlərində Veysəl bəyin əlaqəsi olmamalı idi. Ancaq əvvəlcədən Naxçıvan Yerli hökuməti Revkomda işləyən türk zabitləri vəzifələrində yenə işləyəcəklər, Naxçıvanı himayəsinə alan bir dövlətin nümayəndəsi kimi Veysəl bəy də yerli rəhbərliyin daxili və xarici siyasətlərinin Türkiyənin zərərinə olmamasına çalışacaq və nüfuzunu qoruyacaqdı. Naxçıvan yerli hökumətinin Ermənistan ilə olan münasibətləri yaratmaq və davam etdirmək üçün İrəvana dərhal etibarlı bir nümayəndə göndərməsi lazım idi. İrəvandakı Türk əlaqə zabitinin Bahəddin bəyə Naxçıvanla əlaqədar məsələlərlə maraqlanması tapşırılmışdı, Naxçıvandan göndəriləcək nümayəndənin də onunla əlaqə yaratması lazım idi.

Ermənistan və hətta Azərbaycanın Naxçıvana fovqəladə komissar təyin etməsi və göndərməsi Gümrü müqaviləsinə zidd idi. Azərbaycan və

---

[896] Kazım Qarabəkir paşanın Veysəl bəyə göndərdiyi 21 dekabr 1920-ci il tarixli teleqramda Naxçıvanın taleyinin 1920-ci ildə Bakıda keçiriləcək bir konfransda müəyyənləşəcəyi bildirilirdi. O zamana qədər Türkiyənin himayəsində qalacağı bəlli olurdu (ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.24-8).

[897] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-12.

[898] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-10.

Ermənistanın Naxçıvanın yerli hökumətinin işlərinə qarışması məqsədəuyğun deyildi. Ancaq belə bir müdaxilə ortaya çıxarsa, onlar yerli hökumət tərəfindən tanınmayacaq və təbii ki, Türk hökuməti də lazımi tədbirlərə əl atacaqdı. Gümrü müqaviləsinə görə aldığı statusa əsasən Vəlibəyovun regionda rəsmi bir şəxs olmaması lazım idi- deyən Kazım Qarabəkir paşa Veysəl bəyə belə suallarla müraciət edirdi: Vaxtı ilə Azərbaycandan göndərilən bu şəxs kimdir? Nə iş görür, necə tanınır? Hansı şəxsi işlərlə məşğul olur?[899]

Veysəl bəy Kazım Qarabəkir paşanın əmri ilə fövqəladə komissarlıq vəzifəsini və bilavasitə idari səlahiyyətlərini yerə qoydu, ancaq İrəvanda bu vaxt yeni bir ssenari fəaliyyətə başladı. İrana gedib səlahiyyətli şəxslərlə görüşən Vəlibəyova 24 dekabrda Ermənistan tərəfdən Naxçıvan fövqəladə komissarı vəzifəsi verildi.[900] 26 dekabrda Baş Noraşenə, səhərisi gün də Naxçıvana gələn Vəlibəyov[901] Ermənistan hökuməti tərəfindən imzalanan bir yazı gətirmişdi.[902] Buna görə də Ermənistan, Azərbaycan tərəfindən ona verilən Naxçıvana gələcəyini təyin etmə hüququnu tanıyırdı. Və Vəlibəyov həmin gün keçiriləcək bir mitinqdə vəziyyəti əhaliyə elan edəcəkdi.[903]

27 dekabrda Vəlibəyov haqqında aldığı ilk məlumatları Şərq Cəbhəsi və Qrup komandanlığına[904] göndərən Veysəl bəy 29 dekabrda həmin dairələrə ətraflı məlumat verdi. Regionun istiqlalını göstərən yazı, 20 milyon manat[905] pul və özünün istifadə edəcəyi bir faytonla Vəlibəyov Naxçıvana gəlmişdi. Bunun ardınca, həmin gün xüsusi bir mərasimlə Naxçıvan Ermənistanın hədiyyəsi kimi elan edilmiş, Ermənistan rəhbərliyi adından Naxçıvanın pul, aparat və s. kimi bütün ehtiyaclarının İrəvandan təmin edilməsi haqqında təbliğat aparılırdı. 28 dekabrda rəsmi dairələrdəki bütün işçilər ehtiyaclar haqqında siyahı hazırlanması üçün səfərbər edilmiş, siya-

---

[899] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-12.

[900] Rəhimov, Sadiqov Naxçıvan 1920-ci illərin burulğanında s.46.

[901] Rəhimov və Sadiqov göstərirdi ki, Vəlibəyovun qatarı Şahtaxtıda 1 gecə-gündüz saxlanılmış və şəhərə buraxılmamışdı. (Rəhimov, Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında s.46). Vəlibəyov İrəvandan döndükdən və 26 dekabrda Noraşendə ermənilərin ona verdiyi "İstiqlal" vəsiqəsini xalqa elan etdikdən sonra (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-18) Veysəl bəy Naxçıvana gəlmişdir. (ATASE, A. 6/6686, Kls.921,D.6-1, F.24-13). Bu yolda bir maneə olmadığını göstərir.

[902] Erməni Revkom sədri Kasyan, üzvlər Avis, Süleyman Nuri, Bekzadyan, Dövlətyan, Moravyan, Tergayerliyan və Kabet Baydiyetov tərəfindən imzalanan Naxçıvana müraciətən hazırlanan bəyannamədə yazılmışdı: Ermənistanda zalım və mənfur Daşnak hökuməti dağıldıqdan sonra Azərbaycan hökuməti iki qardaş arasında illər uzunu qan tökməsinə səbəb olan Naxçıvanı Ermənistana hədiyyə etdi. Ermənistan Sovet hökumətinin də Naxçıvana gələcəyi regionun əziyyət çəkmiş əhalisinin qərarına bağlıdır. Əhali bu münasibətləri açıq söyləyə bilər. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-18).

[903] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-13.

[904] Sağ Cinah komandiri polkovnik Cavid bəy Qars Mövqe komandanlığına təyin olunması münasibətilə 22 dekabrda Naxçıvandakı türk hərbi hissəsinə bir vida məktubu göndərdi. Yerinə podpolkovnik Rəşad bəy təyin edildi. (ATASE, A. 6/6686, Kls.924,D.5-3, F.29-3).

[905] Bu rəqəm şişirdilmişdir. Ermənistanın bu miqdarda pul göndərməsi mümkün deyildi.

hılar hazırlanmış və İrəvandan gətirmək xəzinə məmuru Nağdəliyevə tapşırılmışdı. Nağdəliyev həmin gün yüz pud duz və İrəvan Revkomuna təşəkkür məktubu götürərək İrəvana yola düşmüşdü. Beləcə, Naxçıvan Revkomu İrəvanın bir şöbəsi kimi fəaliyyətə başlamışdı. Veysəl bəyin fikrincə, bu dövrdə Naxçıvanın yerli rəhbərliyi xalqdan tamam ayrı idi. Region əhalisi ilə əlaqəsi yox idi, onu təmsil etmirdi. Mövcud hökumət Rus Qızıl alayının gətirdiyi Vəlibəyov, Əsgərov. Kommunist Partiyası Siyasi büro üzvlərinin nəzarəti altında idi. Naxçıvanda tam bir diktatorluq hökm sürürdü. Hökumətə mənsub ən kiçik bir işçinin dediyi söz qanun idi. Əhali inqilab qanunları ilə cəzalanmaqdan və ya əksinqilabçı kimi ittiham olmaqdan qorxurdu. Kommunist təşkilatlarına mənsub olanlar və məmurlar vəzifəsinə görə danışa bilmirdilər. Buna görə də Vəlibəyova sən kimsən? İrəvandan bu sənədi hansı məqsədlə gətirdin? Hansı səlahiyyətə görə sənə bu vəzifəni verdilər? Gətirdiyin bu sənədə görə ermənilərə nə vəd etdin? - deyə əhali soruşa bilmədi. Bir neçə gün içində Naxçıvanda qurultay keçiriləcək və yeni hökumət fəaliyyətə başlayacaqdı. Ancaq yenə xalqın bir söz deməyə hüququ olmayacaq və əvvəlkindən başqa bir rəhbərlik olmayacaqdı. Bu şəraitdə fövqəladə komissar təyin olunan Vəlibəyovun fəaliyyəti və erməni rəhbərlərinin Azərbaycan və Rusiyadan aldığı hər şeyi ehtiyac içində olan Naxçıvana göndərməsi bununla yanaşı, erməni təbliğatı geniş, çox təsirli bir şəkil alırdı.[906] Göründüyü kimi, Veysəl bəy Vəlibəyovun Ermənistan adından fövqəladə komissar vəzifəsini icra etdiyini bilməsə də, şübhələrinin doğruluğuna inanırdı. Digər tərəfdən də Vəlibəyovu sıxışdırırdı. Ondan hansı səlahiyyətlərlə fövqəladə komissarlıq vəzifəsini icra etdiyini, səlahiyyət və pulu kimdən aldığını soruşurdu. Vəlibəyov isə yayındırıcı cavablar verirdi. Rusiya Azərbaycan və Ermənistan tərəfindən göndərildiyini, Mərkəzi Kommunist Partiyasının ona fövqəladə komissarlıq səlahiyyətini verdiyini, XI Qızıl Ordu Hərbi Şurasının vəkili olduğunu, gətirdiyi 20 milyon rubl pulu isə Rus sovet rəhbərliyinin Azərbaycan vasitəsilə Ermənistana verdiyi puldan götürüldüyünü deyirdi.[907]

Kazım Qarabəkir paşanın Veysəl bəyi Naxçıvan idarəetmə sisteminə qarışmaqda günahlandırması və bilavasitə nəzarətdən uzaqlaşdırması Vəlibəyovun fövqəladə komissarlıq vəzifəsini icra etməsinə, regionda əvvəlcədən mövcud olan qarışıqlığın artmasına səbəb oldu. Onlara sərbəst hərəkət meydanı yaranmışdı. Vəlibəyov və tərəfdarları öz əməllərini davam

[906] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-14
[907] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-18

etdirirdilər. Bir tərəfdən özlərinə rəqib saydıqları adamları həbs edir,[908] digər tərəfdən də bir çox qeyri-qanuni işlər görürdülər.[909]Ancaq belə bir şəraitdə Vəlibəyov və ya Revkomun öz adamları olan Abbasqulu haqqında hər hansı bir qanunu tədbir görülməsi mümkün deyildi. Abbasqulu da Naxçıvan üçün səhnələndirilmiş ssenarinin baş aktyorlarından biridir.Veysəl bəyin Şərq Cəbhəsi və qrup komandanlığına göndərdiyi 3 yanvar 1921-ci il tarixli teleqramında göstərilirdi ki, Böyük vediliAbbasqulu bəy keçiriləcək qurultayla əlaqədar xalqa təzyiq göstərir,"ruslari istəyin, yoxsa ölürsünüz" – deyirdi.[910] Digər tərəfdən, idarəçiliyi tamam ələ keçirmək məqsədilə hərbi komissar baş leytenant Hikmət bəyi vəzifədən azad etmək üçün işə başlamışdılar. Azərbaycandan gətirilən Hüseynov, Hikmət bəyə:"Mən səni tanımaq istəmirəm, hərbi komissar mənəm" – deyərək vəzifədən götürmək istəmişdi, ancaq Hikmət bəyin əmri ilə həbs olundu. Veysəl bəyin razılığı ilə Hüseynov buraxılsa da, Revkomun Hikmət bəyin vəzifədən uzaqlaşdırılması planları bitmədi. Naxçıvanda türk və yerli əsgərlərdən yaradılan Trotski alayının komandiri olan Hikmət bəyin güclü, nüfuzu, şəxsiyyəti Vəlibəyovu narahat edirdi. Buna görə də Hikmət bəyi vəzifəsilə əlaqədar Qars və İrəvana göndərmək istəsə də, Veysəl bəy və Hikmət bəy buna imkan vermədilər.[911]

Regiondakı hadisələr Şahtaxtıdakı hərbi hissənin komandiri olan Veysəl bəyi narahat edirdi. Taxıl anbarı sayılan Şərurda hər gün 15-20 adam aclıqdan ölürdü. Bolşeviklər İran tərəfdən ərzaq gətirilməsinə mane olurdu. 3 yanvarda İrəvandan 2 erməni, 1 müsəlman kommunist Naxçıvandakı qaçqınlara paylamaq üçün 3 vaqon buğda və müəyyən qədər çay gətirmişdilər. Onlar özləri belə edirdilər ki, aclıq çəkən əhali Ermənistanın yardımına möhtac olsun. Buna görə də İrandan ərzaq göndərilməsinə mane olurdular. Veysəl bəyin Naxçıvandakı rabitə zabiti və eyni zamanda hərbi komissar olan Hikmət bəyə göndərdiyi 6 yanvar tarixli teleqramda Vəlibəyov və tərəfdarlarının apardığı siyasətlə bağlı qısaca bunları bildirirdi: "Erməni pulu ilə yaşayan Vəlibəyov və tərəfdarlarının məqsədi Naxçıvan regionundakt müsəlmanları bir- birlərinə qırdırmaq və bu qarışıqlıqdan istifadə edərək kənardan qüvvə gətirib əhalini yox etməkdir. Onlar ermənilərin Daşnak hökuməti zamanında edə bilmədiklərini kommunist maskası altında

---

[908] 31 dekabrda regionun irəli gələnlərindən milis batalyon komandiri Məmməd Rəhim, İbrahim xan, Fətəli xan, İsgəndər və adı bilinməyən bir nəfər həbs olunmuş, 25 nəfərin həbs edilməsinə çalışmışdılar. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-38).

[909]ATASE, A. 6/6686, Kls.924,D.(7,8) 7, F.17-1, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-16, ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.38

[910] Bu məlumat II batalyon komandiri Emin bəy tərəfindən 2 yanvar 1921-ci ildə Veysəl bəyə çatdırılmışdı. (ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.33).

[911] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-16.

etmək istəyirlər. Ancaq məsum insanlar onların məqsədini bilmir, insanlıq xatirinə etdiklərini düşünürdülər. İnsanlıq üçün çalışan adam xalqı təzyiq altında saxlamaq üçün xərclədiyi pulla gündə 25-30 adamın qarnını doyura bilər". Veysəl bəy teleqramın sonunda Hikmət bəydən Naxçıvan və ətraf kəndlərdə əhaliyə edilən zülm və aclıq haqqında məlumat toplamasını xahiş edir və Sovet Rusiyası hökumətinin Ermənistan nümayəndəsiLeqran haqqında xəbərdarlıq edirdi. Çünki Leqran kommunist maskası altında çalışan bir daşnak olub, Behbud bəyin düşməni idi.[912]

Veysəl bəyi Naxçıvan işlərinə nəzarət etməkdən uzaqlaşdıran Kazım Qarabəkir paşa digər tərəfdən də regionu türk idarəetmə sistemi altına almaq yollarını 4 yanvar tarixli teleqramla soruşurdu. Paşanın məqsədi Moskvaya gedəcək türk heyətinə Naxçıvanla əlaqədar aparacaqları danışıqlardan əvvəl əldə əsaslı məlumatlar olması idi. Buna görə Naxçıvanın gələcəyini necə görürdü? Mövcud şəraitə görə regionun idarə olunması lehimizə necə davam edə bilər? Regiondakı Azərbaycan və Ermənistan siyasətləri Türkiyə üçün zərərli olduğuna görə naxçıvanlılar bu siyasətdən necə uzaqlaşdırıla bilər? Kazım Qarabəkir paşa Veysəl bəydən mümkünsə, Vəlibəyovun gətirdiyi "İstiqlal Bəyannaməsi"nin mətnini, kimin tərəfindən imzalandığı, möhürü və s. məlumatla birlikdə təcili Şərq Cəbhəsi komandanlığına göndərilməsini tələb edir, Vəlibəyovun hansı səlahiyyətlə regionda olduğunu soruşurdu. Əgər Ermənistanın Naxçıvana müdaxilə etdiyi bəlli olarsa, Gümrü müqaviləsindən doğan hüquqlara əsasən Sovet Ermənistanına etiraz edilməsi üçün hökumətə müraciət ediləcək və erməni məmurlarının Naxçıvandan çıxarılması üçün bütün təşəbbüslərə əl atacaqlar.[913]

6 yanvar 1921-ci ildə Veysəl bəy Kazım Qarabəkir paşanın istədiyi məlumatların bəzilərinə cavab verdi. Vəlibəyovun gətirdiyi "İstiqlal bəyannaməsi" ilə əlaqədar keçirilən toplantıları bildirdi. Vəlibəyovun fövqəladə komissarlıq vəzifəsini icra etdiyini, bu vəzifəni kimdən alması haqqında aydın bir cavab vermədiyini, İrəvandan gətirilən pulları Rusiyanın Azərbaycan vasitəsilə Ermənistana göndərdiyini bildirdi.[914]

Regiondakı hadisələrin getdikcə Türkiyə əleyhinə çevrilməsi, Vəlibəyov və tərəfdarlarının Türkiyəyə etinasızlığı, ondan soruşulan suallara düzgün cavab verməməsi Veysəl bəyi çox əsəbləşdirmişdi. Buna görə də

[912] ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.38, 1-2 dekabr gecəsi Naxçıvana gələn Leqran yanındakı erməni (ATASE, A. 6/6686, Kls.925,D.4-8, F-32) nümayəndəsi ilə birlikdə Sədərəkdə, Baş Noraşendə, Yaycıda, Şahtaxtıda və Naxçıvan şəhərində ermənilər lehinə mitinqlər keçirirdi. Ancaq əhalinin Azərbaycanı istəməsi Sadiqov tərəfindən bildirilirdi. (Sadiqov, Naxçıvan 1920-ci illərin burulğanında s.71). Bölgədəki bütün məlumatları Kazım Qarabəkir paşaya göndərən Veysəl bəyin Leqran ilə əlaqədar bir teleqrama rast gəlməməsi maraqlıdır. Belə görünür, Leqran geniş şəkildə təbliğat aparsa idi, onunla əlaqədar bir sənədə rast gələrdik. Çünki Veysəl bəyin həftədə bir neçə dəfə Kazım paşaya göndərdiyi teleqramlar əlimizdədir.

[913] ATASE, A. 6/6686, Kls.921,D.6-1, F.24-17.

[914] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-18.

Veysəl bəy 8 yanvarda Vəlibəyova rabitə zabiti Hikmət bəy vasitəsilə[915] bir ultimatum göndərdi.[916] Qısaca belə yazılmışdı: "MənŞərq Cəbhəsinin siyasi nümayəndəsi olaraq rus hökumətinə bildirmək üçün sizə rəsmən bu sualları verirəm:

1.Meydana gələn şərtlərlə əlaqədar Naxçıvan fövqəladə komissarı olduğunuza dair haradan əmr (mandat) almısınız? Bunu Hikmət bəyə təqdim etmənizi və bir surətini də mənə göndərmənizi xahiş edirəm. Bu mümkün deyilsə, səbəblərini izah edin.

2.7 yanvar 1921-ci il tarixdə bir erməni mitinq keçirərək əhaliyə Ermənistan hökumətinin salamını yetirmiş, Ermənistana bağlanmaq üçün imza toplamaq istəmişdi. Bu erməni kimdir? Rəsmi bir şəxs olan bu erməninin səlahiyyətlərini Naxçıvan hökumətinə bildirmək lazımdır. Nəyə görə siz İrəvan inqilab komitəsindən bu erməniyə yardım etmək üçün göstəriş almadınız? Əmr almışsınızsa, bir surətini mənə göndərmənizi xahiş edirəm.

3.Naxçıvan hökuməti Türkiyədən gələcək bir yoldaşa Türkiyə lehinə mitinq keçirmək icazəsi verəcəkmi? İcazə verməyəcəksə, səbəbini izah edin.

4.Əhali məsələnin mahiyyətini bilmədiyi halda partiya liderinə qədər hər kəs kəndlərə gedib Ermənistan təbliğatı aparır, türklərin etdikləri zülmlərlə əlaqədar hekayələr danışırdılar. Bununla əlaqədar əlimizdə sənədlər var.[917] Sovet hakimiyyətində əhaliyə özlərini idarə edə biləcəklərini deməyib, başqa bir dövlətə bağlanın demək də varmı? Sabah türklər belə bir şey edərsə və iki tərəf bir-birini qırarsa, cavabdeh kim olacaqdır? Türklərə aiddirsə, niyə ermənilər lehinə təbliğatlar aparılır, türklər lehinə yox?

5.Gümrü müqaviləsinə görə türk Qızıl hərbi hissəsi Naxçıvan yerli hökumətinin hamisidir. Ermənilərin son hücumunda Abbasqulu bəy Axılkənddən İrana 3 pulemyot gətirmişdi. Hərbi hissədə istintaq sənədi olduğu və dəfələrlə sizə məlumat verildiyi halda siz bu şəxs haqqında istintaq qurtarmadan, küçələrdə adamlar acından öldüyü bir vaxtda İrəvandan gətirdiyiniz pulun böyük bir hissəsini ona verərək İrəvana[918] göndərdiniz. Belə bir şəraitdə oğruların hamisi olmursunuz? Bu vəziyyətdə türk Qızıl hərbi

---

[915] ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.41.

[916] Vəlibəyova göndərilən ultimatumun surəti Şərq Cəbhəsi komandanlığına, İrəvan və Naxçıvan zabitlərinə, Naxçıvan Kommunist Partiyasına və Naxçıvan İnqilab Komitəsinə göndərilmişdi. (Naxçıvan Muxtar Respublikası. MDA, F.314, Op.5, D.15, L.17-19;
ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-19);

[917] Vəlibəyov və tərəfdarları Ordubad revkom sədrinə 600.000 manat, 300 pud buğda və s. verərək türklər əleyhinə təbliğat aparılmasını istəmişdilər. Ordubad əhalisi vəziyyəti bir teleqram ilə Veysəl bəyə çatdırmış, o isə Şərq Cəbhəsi komandanlığına bildirmişdi. (ATASE, A. 6/6686, Kls.924,s.(7-8),-7, F.18)

[918] ATASE sənədlərində Abbasqulu bəyin İrəvana göndərildiyi göstərilmir, Naxçıvan MDA-dan alınan sənədlərdə İrana getdiyi göstərilir. Biz türkcə olan sənədi əsas götürdük.

hissəsi xalqı əzən, oğruları qoruyan bir hökuməti himayə etmiş olur. Hərbi hissə vəziyyətəetiraz edir.

6.Dəlilsiz-sübutsuz silah satanları və ya üstündə silah gəzdirən bir qocaları da həbs edirsiniz. Ancaq Abbasqulu bəyin 3 pulemyotu İrana aparıb satması haqqında əldə fakt olmasına baxmayaraq onu həbs etmirsiniz. Böyük bir miqdarda pulla İrəvana göndərirsiniz.Kommunistlərin qanununda oğruya mükafat vermək vardırmı? Yoxsa bu xətanı törədən kommunistlər özlərini cəzalandırmırlar? Yoxsa bizim bildiyimiz səhvdir? Kommunist olmaq istəyən inqilabçı türklər bu məsələlər haqqında məlumat almaq istəyir.[919]

Veysəl bəyin bu ağır və sərt ultimatumunun ardınca Naxçıvandakı rabitə zabiti Hikmət bəy Vəlibəyovla onun evində görüşmüş və Veysəl bəyə ətraflı məlumat hazırlamışdı. Buna görə Vəlibəyov bu ultimatumdan çox narahat olmuş və vəzifəsindən uzaqlaşmaq istəyirdi. "Kim tərəfindən fövqəladə komissar təyin edilmişdir" - sualına Kommunist Partiyasının Mərkəz Komitəsindən deyə yayındırıcı bir cavab vermişdi. Əlində hər hansı bir sənəd olmadığı bəlli olurdu. Ermənilərin lehinə bir mitinq keçirilməsindən xəbəri olmadığını və digər suallar haqqında şəxsən Veysəl bəyə cavab verdiyini deyirdi.[920] Veysəl bəyin bu əməllərdən xəbər tutması və bunları bir şəkildə sənədləşdirməsi, ətrafdan gözlədiyi yardımı ala bilməməsi və vəziyyətin onun əleyhinə çevrilməsi Vəlibəyovu sıxıntıya salmışdı. Bu məqsədlə o Hikmət bəyə sülh təklif etdi. Bölgədə türk dairələrinin istəmədiyi Kəblə Muxtar ilə Mahmudovu işdən azad edəcəyini, bundan sonra Naxçıvanda keçirilən bütün işlərdə Hikmət bəy ilə məsləhətləşəcəyini bildirmiş, keçmişdəki hərəkətlərin unudulmasını və dost kimi davranılmasını istəyirdi. Hikmət bəy bilirdi ki, Vəlibəyov bölgədə olduğu müddət ərzində Türkiyə əleyhinə çalışacaq. Ona mane olmaq üçün bu sülh təklifini qəbul etdi. Buna görə də Naxçıvan klubunda bir toplantı keçirilməsi, əhali qarşısında iki tərəf arasında heç bir problemin olmadığı elan edilməsi qərara alındı.

Naxçıvan klubu tamamilə dolmuşdu. İlk sözü Vəlibəyov söylədi, türklərlə aralarında heç bir problem olmadığını bildirdi. Sonra kürsüyə çıxan Hikmət bəy xalqın qarşısında, əlindəki fürsətdən istifadə etmiş, Naxçıvan üçün yüzlərlə övladını şəhid verən türklərin əleyhinə təbliğat aparıldığını, bəyannamələr dərc edildiyini bildirmişdi. Uzun müddətdən bəri türk əsgərinə hüsn-rəğbət göstərməyən əhali bu çıxışdan sonra türklər lehinə rəğbət

---

[919] Naxçıvan MR. MDA. F.314. Op.5. L. 17-19. ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-19. Rəhimov, Sadiqov Naxçıvan 1920-ci illərin burulğanında s.72.

[920] Veysəl bəyin Şərq Cəbhəsi və qrup komandanlığına göndərdiyi 15 yanvar tarixli teleqramında göstərildiyi kimi adamlara cavab verməmişdi. ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.45, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-5.

göstərməyə başlamışdı. Hikmət bəy "Əhali türkləri istəmir",- deyən Vəlibəyova yaxşıca bir dərs vermişdi.[921]

Vəlibəyov və tərəfdarlarının qanunusuz hərəkətləri əhalinin etirazına səbəb olmuşdu.Onun nüfuzu ancaq Naxçıvan şəhəri və ətrafındakı kəndlərdə mövcud idi.Yaycı kəndi və Ordubad bölgəsi özlərini idarə etməyə başlamışdılar. Türk hərbi hissəsinin, bəlkə də, təsirindəndir ki, onların Şahtaxtı və Şərurda nüfuzu yox idi. Naxçıvandakı Trotski alayı Türkiyə lehinə fəaliyyət göstərirdi. Arabir üsyan edərək Vəlibəyov və ya ruslar tərəfindən həbs olunanları azad etdirirdi. Hikmət bəy Veysəl bəyə bildirmişdi ki, Vəlibəyovun hərəkətlərindən rusların xəbəri var. Sovet Rusiyasının və Ermənistanın özəl bir işçisi olduğuna artıq şübhə yox idi. Əhalini Ermənistanın lehinə çevirmək üçün əlindən gələni edirdi. İran ilə ticarətə icazə verilmişdi. İrəvandan qaçqınlara gətirilən un, kakao,süd və s. mallar təbliğatın əsas malı kimi istifadə edilirdi.[922]

Yuxarıda göründüyü kimi, Vəlibəyov əhalinin etirazına və içlərində türk fərariləri olan alayının tutduğu mövqeyə əsasən çətin vəziyyətə düşmüşdü. Əhali Vəlibəyovdan İrəvandan gətirdiyi pulun hesabını soruşurdu. Öz Revkomlarını (İnqilab komitəsi) seçmək istəyirdi. Buna görə də o, özünü daha qüvvətli hiss etmək və rəqiblərini bitərəf edərək hərəkət etmək üçün bir rus süvari rotasını Naxçıvana gətirtmişdi. Rus rotasının Naxçıvana gəlməsi əhaliyə olan təzyiqləri artırmış, Trotski alayının silahları toplamasına dair xəbərlər şəhərdə yayılmağa başlamışdı. Naxçıvanda hər an bir münaqişə çıxa bilərdi. Vəlibəyov telefon danışığını qadağan etmişdi. Daxili müharibə vəziyyətində olan əhalinin yenə qaçqın olacağını və Vəlibəyovun qarışıqlıqdan istifadə edərək Ermənistandan əsgər gətirə biləcəyini 11-12 yanvarda yuxarı dairələrinə bildirən Veysəl bəy dərhal hərəkətə başladı. Həmin gün rus alay komandiri ilə görüşərək Vəlibəyov bu kimi hadisələrə meydan verməməsini, sabah rus komandiri ilə bərabər Naxçıvana gələcəyini bildirdi.[923]

Həqiqətən də, Naxçıvanda işlər möhkəmcə qarışmış, şəhər ikiyə ayrılmışdı. Bir tərəfdə Vəlibəyov tərəfdarları ilə rus qüvvələri, Trotski alay komandiri ilə hərbi komissar Hikmət bəyin[924] rəhbərliyindəki əhali isə digər tərəfdə idi. 11-12 yanvar gecəsi rus qüvvələri hərbi komissar Hikmət bəyin evini, xalq və Trotski alayı da rus süvarilərini mühasirəyə almışdılar. Tam elə bu

---

[921] ATASE, A. 6/6686, Kls.925,D.4-8, F-41.

[922] Veysəl bəy Hikmət bəydən aldığı məlumatları 9 yanvarda Şərq Cəbhəsi və qrup komandanlığına bildirmişdi. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.-25)

[923] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-3, 25-4.

[924] Hikmət bəy Vəlibəyovun İrəvana gedişinə vəkalət etmiş, ancaq Vəlibəyov Türkiyə əleyhinə, Ermənistanın lehinə təbliğata başlaması iki tərəf arasında münasibəti gərginləşdirdi. ATASE, A. 6/6686, Kls.921,D.6-1, F.25-5, ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.-45.

vaxt Şahtaxtıdan gələn əmrə əsasən rus qüvvələri geri çəkildilər. Trotski alayı da kazarmaların ətrafına bir kimsənin yaxınlaşmasına imkan vermirdi. Kəndlərdən əhalinin üsyana hazırlaşması xəbərləri gəlirdi. 12 yanvarda[925] axşam rus alay komandiri ilə birlikdə Naxçıvana gələn Veysəl bəy Vəlibəyov ilə görüşdü. Onun üsyançıların yox edilməsi təklifini rədd etdi, Hikmət bəyin evində qonaq qaldı. Naxçıvanlılar və Trotski alayı bolşeviklərdən narazı idi. Məmləkətdə qızıl qoymadıqlarını, xalqın ac qaldığını, bir çox qiymətli adamın məhv olduğunu, humanist bir idarəçilik yaratmaq üçün bolşeviklərin çıxmasını, əkstəqdirdə onları da buradan çıxardacaqlarını bildirirdilər.

13 yanvarda səhər Veysəl bəy Trotski alayına bir heyət göndərdi, dağılmalarını xahiş etdi. Ancaq onlar Vəlibəyovdan şikayət etdilər, alayın ləğvini qəbul etmədilər. Belə olduqda Veysəl bəy rus alay komandiri ilə Trotski alayının kazarmasına getdi. Onlar Naxçıvandakı vəziyyətin ancaq dövlətlər arasında həll edilə biləcəyini bildirdi. Əks-təqdirdə hərbi hissə çağırılacaq ruslarla birlikdə onlara qarşı əməliyyat aparılacaq. Səhərisi gün birinci türk fərariləri Veysəl bəyin sözünə əməl edərək kazarmanı tərk etdilər. Ardınca yerli türklər də silahlarını yerə qoyaraq evlərinə qayıtdılar. Veysəl bəy türk fərarilərini Şahtaxtıya, Hikmət bəyi də öz ordusu ilə Qarsa göndərdi.[926] Münaqişə aradan qaldırılmış, Vəlibəyovun kənardan qüvvə gətirmə ehtimalı yox olmuşdu. Trotski alayı kimi rəqibi olan hərbi qüvvənin dağılması şübhəsiz Vəlibəyovu sakitləşdirmişdi.

Bəlkədə bu sakitliyin təsirindəndir ki, Veysəl bəy və bolşevik süvari alay komandiri Naxçıvandan çıxdıqlan 14-15 yanvar gecəsindən etibarən Vəlibəyov Türkiyə və türklər əleyhinə təbliğata başlamışdı. O, gecə keçirilən toplantıda deyirdi: "Gördünüzmü sizi dəstəkləyən türklərin hamısı qaçdı? Onlar həmişə gəlir, ciblərini doldurur, qız və arvadlarınızı alıb gedirdilər. Çox yaxında Anadolunun zavallı əhalisini dəqurtaracağız".[927]

Naxçıvandakı hadisələrdən xəbəri olan, ancaq felən müdaxilə edə bilməyən Veysəl bəy Revkom sədrinə və Kommunist Partiyasının katibinə bir məktub göndərdi. Belə deyilirdi:

1. 14-15 yanvar 1921-ci ildə klubda keçirilən mitinqdə türklər və Anadolu haqqında iftira və təhqirlərinizi eşitdim. Bunun üçün Anadolunun apardığı siyasəti izah etmək istəyirəm. 600 ildən bəri istibdad altında yaşayan, 2 ildir hüquq əldə etmiş Anadolu istəyir ki, xalq qoşa öküz kimi bir

[925] 12 yanvarda Kazım Qarabəkir paşa Veysəl bəyə göndərdiyi bir teleqramda Naxçıvanın din və məzhəblərə görə ətraflı statistik məlumatının hazırlanmasını istəyirdi. (ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.-42).

[926] ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.45. ATASE, .6/6686, D.6-1, F.25-5 Sadiqov məsələsində 9-11 tarixləri arasında Naxçıvanda bolşevik əsgərlərin üsyan etdiyini, Veysəl bəy və Vəlibəyovun cəhdlərinə baxmayaraq əsgərlərin Naxçıvandan qaçaraq İrana getməsini və orda yolkəsənlik etmələri nəticəsində Maku xanı ilə münasibətlərin kəsildiyini göstərirdi. (Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında, s.74). Sadiqovun bəhs etdiyi qrup Troçki alayı idi. Bu aralarda başqa bir hadisə olmamışdır.

[927] ATASE, A. 6/6686, Kls.925,D.4-8, f.45-1, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-5.

tək boyunduruqdan çıxarılıb bir başqasının boyunduruğuna salınmasın. Anadolunun siyasəti budur.

2. Sizin siyasət budur: Sizin dediklərinizə görə Ermənistan sovetləşər-sovetləşməz Azərbaycan Naxçıvanı Ermənistana vermişdi. Erməni millәti görsün ki, Daşnak Ermənistanı iki ildən bəri müharibə ilə ala bilmədiyi bir yeri Sovet Ermənistanı bir söz ilə ala bilir. Bu yolla Ermənistanın milli arzuları həyata keçdiyi üçün erməni milləti Sovetə öz milli arzularını yerinə yetirən bir ümid yolu kimi baxırdı. Naxçıvan regionunuda bu arzunuzu yerinə yetirmək üçün hər cür əzab tətbiq etməkdən çəkinmirsiniz.

16 yanvar 1921-ci ildə nümayəndələrimiz Qarsdan Moskvaya yola düşdülər. İki tərəf arasında qəbul edilən qərar region üçün qüvvədə olacaqdır. Buna görə də məqsədinizi gerçəkləşdirmək üçün əhaliyə göstərdiyiniz təzyiq Komitənin etibarını azaldır. Xahiş edirəm yersiz hərəkətlərdən çəkinin, Naxçıvan qurultayını keçirin, xalqı Şura rejiminin nemət və ədalətindən faydalandırın.[928]

Vəlibəyovun Veysəl bəyə nə cavab verdiyini bilmirik. Ancaq o məlumdur ki, 1921-ci ilin yanvar ayının 19-da Vəlibəyov Kazım Qarabəkir paşaya məktub göndərmişdir. Məktubda heç bir şey yoxmuş kimi, elə bil ki, hər gün Türkiyə əleyhinə təbliğat aparan bu deyilmiş kimi, Türkiyə Milli Mübarizə hərəkatı haqqında tariflər yağdıran Vəlibəyov Ermənistanın Naxçıvan haqqında yayınladığı "İstiqlal bəyannaməsi"ni Sovet hakimiyyətinin bir iltifatı kimi göstərir[929] və Naxçıvanda olan türk nümayəndələrinin onunla əlaqəsini davam etdirmələrini istəyirdi.[930]

Ancaq onu da qeyd etməliyik ki. Vəlibəyov Kazım Qarabəkir paşaya dostluq məktubu göndərdiyi bir vaxtda Naxçıvanda vəziyyət möhkəmcə qarışmağa başlamişdı.Naxçıvan şəhərində müxalifət aradan qaldırıldıqdan sonra Vəlibəyov və onun nəzarətindəki yerli idarə orqanları tamam nəzarətsiz qalmış, məqsədlərinə çatmaq üçün xalqa təzyiqi artırmışdılar. Veysəl bəyin Kazım Qarabəkir paşaya göndərdiyi 22 və 26 yanvar tarixli teleqramlara görə Naxçıvanda axşam saat 19.00-dan sonra şəhərə çıxmaq qadağan olunmuş və hər kəs silahını təhvil verməlidir. Silah yığmaq bəhanəsi ilə evlər talan edilməyə başlanmış, 21 yanvarda 28 nəfər həbs olunmuşdu. 500-ə qədər vətənpərvər ölkəni tərk etmişdi. Vəlibəyov özünü və tərəfdarlarını oğru adlandıran Behbud bəy haqqında əhalidən məcburi imza

[928]ATASE, A. 6/6686, Kls.925,D.4-8, F.46.

[929]Sadiqov göstərirdi ki, Vəlibəyovun məktubunda Naxçıvanın istiqlalının Azərbaycan, Ermənistan, Dağıstan, Ukrayna, Maku xanı və Təbriz valisi tərəfindən tanındığını və Türkiyəyə Naxçıvanın Azərbaycan himayəsində idarə oluna biləcəyinə əmin olması ifadə olunurdu. (Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında s.73). Məktubun sonunda Sadiqov fərqli cümlələr işlətmişdir. Ermənistan üçün çalışan Vəlibəyovun Naxçıvanı Azərbaycanın himayəsində göstərməsi və İranla bağlı iki əyalətin hakimiyyəti tanımasıdır. Bizcə, müəllif bu son cümlələrlə bağlı olaraq fərqli bir məktubdan istifadə etmiş və ya səhv etmişdir.

[930] Naxçıvan MR. MDA. F.314. Op.5. D.16. L.1.

toplamış və onun əhalini zəhərlədiyini isbat etmək üçün İrəvana getmişdi. Onunla bərabər həbsdən çıxarılmış bir çox oğrular da var idi. Şəhərdəki əhali türk əsgəri ilə salamlaşmaqdan qorxurdu. Veysəl bəy əhalinin türk əsgərinə olan etimadını itirməməsi üçün həbs olunanların azad edilməsini və Naxçıvan hökumətinə etiraz edilməsinin lazım olduğunu bildirdi. Beləcə onların ermənilərlə münasibəti bəlli olurdu.

Bolşeviklərin kəndlərdən silah toplamaq təşəbbüsünə əhali etiraz edir, onlar Revkomu tanımamağa başlamışdılar. Kənd əhalisi tamamilə türk tərəfdarı idi və Çul kəndində əhaliyə Ermənistanı tərifləyib, Türkiyəni pisləyən bir kommunisti biabır etmişdilər. Ermənistandan qaçqınlara göndərilən təbliğat materialları bir həftədən artıq müddət idi ki, göndərilmirdi. Rus əsgərlərinə heç bir yerdən ərzaq gəlmədiyindən onlar müsadirə yolu ilə yarıac dolanırdılar. İranlılar rusları mümkün qədər çətin vəziyyətə salırdılar. Əhalinin də vəziyyəti pis idi. Əkinçilərin öküzləri ac qalmış, ot və samanları əllərindən alınmışdı. Revkom bir tərəfdən türk hərbi hissəsindən yardım istəyir, digər tərəfdən də əhaliyə zülm edirdi.[931]

Regiondakı hadisələri yaxından izləyən Kazım Qarabəkir paşa Vəlibəyovla əlaqədar rus nümayəndəsi Midivani qarşısında məsələ qaldırmış, bu məsələ Xarici İşlər Nazirliyinin gündəliyinə daxil edilmişdi. Kazım Qarabəkir paşa Veysəl bəyin teleqramlarına qarşılıq olaraq 29 yanvarda belə bir teleqram göndərmişdi:

1. Naxçıvandakı bu üzücü hadisələrin davam etməsinə çalışan Vəlibəyovun rəsmi səlahiyyətinə və fəaliyyətinə son vermək, göstərilən regiondan çıxarılması üçün rus nümayəndəsi Midivaniyə tərəfimizdən yazılmış məktuba cavab verilmiş və göstərilmişdir ki, şəxsiyyəti və vəzifəsi bəlli olmayan Vəlibəyov haqqındakı raport rus Sovet hökumətinin Qafqazdakı komissarı Orconikidzeyə çatdırılmışdır. Midivani cavabında Naxçıvanın Rus Sovet hökuməti tərəfindən Azərbaycanla Ermənistan arasında mübahisəli ərazi kimi tanındığını, dörd hökumət arasmda mübahisəli olan Naxçıvanın gələcəyinin əsaslı münaqişələrə səbəb olduğunu qeyd etmişdir.

Vəlibəyovun nüfuz və mənafeyimizə zərər gətirən fəaliyyətləri bizim məqsəd və arzularımıza zidd olmuş və şübhəsiz, narahatçılığa səbəb olmuşdur. Ümumi siyasətimiz üçün Naxçıvan məsələsi arzu edilməyən bir şəkil alır. Moskva konfransının nəticəsinə əsasən rəsmi və felən hərəkət edilməsi zəruridir.

Ancaq Naxçıvandakı lehimizə olan hadisələrin, xüsusilə Vəlibəyovun gətirəcəyi zərərlərin bildirilməsi və eyni zamanda islami hüququn qorunması üçün rəsmi və qeyri-rəsmi təşəbbüs və fəaliyyətlərlə

[931]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-10, 25-13

Vəlibəyovun qüvvə toplamasına imkan verilməməsi məqsədəuyğundur. Naxçıvandakı zərərli fəaliyyətlərin qarşısını almaq təklifi irəli sürülmüşsə də, Xarici İşlər Nazirliyi tərəfindən bu üzücü siyasi təşəbbüs kimi dəyərləndirilmiş, müharibədəki çətinliklər olmasını, Naxçıvan haqqında Sovet Rusiyasının məlum olan səbəbdən, qəti bir nəticəni əldə etməsinə ümid edilmir. Naxçıvanın gələcəyini nəzərdə tutduğumuza görə, Moskva konfransının nəticəsinə qədər Naxçıvandakı nüfuzumuzun artırılmasına çalışmaq lazımdır.

Gümrü müqaviləsinə görə Ermənistan Naxçıvan sərhədləri daxilində qeyri-qanunihərəkətlər edə bilmədiyi üçün Sovet Ermənistanının adından meydana çıxacaq qeyri-rəsmi təşəbbüslərin qarşısını dərhal almaq lazımdır.

Cavab olaraq Baş komandanlıq tərəfindən gərəkli məlumat Veysəl bəyə və 11-ci diviziya komandanlığına bildirilmişdir.[932]

Sovet Rusiyası ilə bağlanacaq müqavilədən əvvəl Naxçıvan məsələsi ilə əlaqədar ruslarla münasibətlərin pozulmasının milli mübarizə üçün bir maneə olacağını bilən Kazım Qarabəkir paşa ruslara qarşı çox diqqətli davranılmasını Veysəl bəydən tələb edirdi, digər tərəfdən regionda Türkiyə nüfuzunun artırılması davam etməli idi. Naxçıvandakı vəziyyət üçün bu çox əlverişli bir siyasət deyildi. Əslində Naxçıvandakı vəziyyəti qarışdıran, regionu Ermənistana bağlamaq üçün fəaliyyət göstərən Vəlibəyov və tərəfdarlarının rus dairələrinin göstərişi ilə hərəkət etdiyinin göz qabağında olması,[933]Vəlibəyovun ruslardan dəstək alması aşkar ikən,[934] Türkiyənin Naxçıvanda nüfuzunun fəal şəkildə davam etdirilməsi mümkün deyildi. Əvvəl türk dairələri himayə sahəsindəki ən böyük dəstəyi Naxçıvan əhalisindən alırdı. Bütün əks təbliğatlara baxmayaraq əhali türk tərəfində idi. Türk hərbi hissəsi ermənilərə qarşı sərhədlərə nəzarət edir. Ancaq Naxçıvanda ermənilər lehinə aparılan təbliğatlara və əhaliyə göstərilən təzyiqlərə qarşı təsirli tədbirlər görə bilmirdilər.

Fevral ayı ərzində Türkiyənin bu normal siyasəti davam etdi. Kazım Qarabəkir paşa mütəmadi Veysəl bəyə bildirirdi ki, Gümrü müqaviləsindən irəli gelən hüquqlara əsasən Naxçıvan sərhədləri ermənilərdən qorunmalı və əhalinin istədiyi idarəetmə sistemini təsis etməkdə sərbəst olması bildirilməlidir.[935]

Ancaq Veysəl bəyin də dediyinə görə, Naxçıvan əhalisi öz idarəçiliyini yaratmaq vəziyyətində deyildi. Bu sistem Vəlibəyov və

[932]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-15
[933]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.26-3
[934]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-13
[935]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.27-2, 29-3, 32-1.

tərəfdarlarının, bilavasitə rusların əlində idi. Kommunistlər xalqı düşünmək əvəzinə öz məqsədləri uğrunda fəaliyyət göstərdikləri bir həqiqətdir.[936]

Ancaq fevralın 16-dan 17-nə keçən gecə Ermənistanda bolşeviklərə qarşı başlanan üsyana görə Naxçıvandakı rus qüvvələri Ermənistan hərəkatında iştirak etmək üçün regionu tərk edincə,[937] Vəlibəyov və tərəfdarları xeyli çətin vəziyyətdə qaldı. Artıq güvənəcəkləri bir qüvvə qalmamışdı, Ermənistanda da daşnaklar 28 fevralda İrəvanı ələ keçirib, iqtidarı ələ keçirmişdilər.[938] Vəlibəyov və adamları fəaliyyətlərini davam etdirirdilər. Vəlibəyov bu vaxtdan etibarən Ermənistan lehinə çalışa bilmədisə, adamları, o cümlədən Abbasqulu bəy qarışıqlıq yaradaraq, fəaliyyətini davam etdirirdi. Veysəl bəy inanırdı ki, Vəlibəyovun provakasiyası nəticəsində rusların başına bəla gələcəkdi.[939] Ancaq Vəlibəyovun regiondakı fəaliyyəti uzun müddət davam etmədi.[940] 16 mart 1921-ci ildə Moskva müqaviləsi bağlandıqdan sonra türk dairələrinin cəhdləri onun Naxçıvandakı fəaliyyətinə son qoydu. Kazım Qarabəkir paşanın Veysəl bəyə göndərdiyi 23 mart tarixli teleqramda göstərilirdi ki, Naxçıvan Revkomunun yeni hərbi komissarı Talıbzadə Yusif Ziya bəy Vəlibəyovun Azərbaycana qayıtması haqqında rəsmi məlumat gətirdi. Talıbzadə kimi bir şəxsin iş başına gəlməsinə Naxçıvanda ədalətli bir idarəçiliyə başlayacağına Kazım Qarabəkir paşa inanırdı və Veysəl bəydən əhalinin sovetlərdən ayrılmaması üçün məlumatlandırılmasını istəyirdi.[941]

### 4. Naxçıvanda türk-rus gərginliyi

Naxçıvanda təntənə ilə bir-birlərini salamlayan türk və bolşevik qüvvələri bir müddət birgə hərəkət etdilər. İki tərəf arasında fərdi hadisələr[942] ümumi fəaliyyəti pozmurdu. Ermənilərin Naxçıvandan çıxarılması zamanı rus qüvvələri bir az ağır davransalar da, nəticədə əməliyyatın ortaq aparılması üçün tərəflər arasındakı münasibəti çox zədələməmiş, Veysəl bəy və rus alay komandiri Baş Noraşendə dekabr ayının 8-nə qədər eyni bir evdə dost kimi qalmışdılar.[943]

---

[936] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.29-5, ATASE, A. 1/4282, Kls.590, D.126, (11-1), F.80.

[937] Ünüvar. Bolşeviklərlə 8 ay, s.82.

[938] Vəhdət. 3 mart 1921-ci il, №8; 5 mart №10, Ünüvar. Bolşeviklərlə 8 ay, s.. 82.

[939] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.27-8, 28-1.

[940] İrəvandakı əlaqə zabiti Bahəddin bəy Naxçıvanda əhalinin Vəlibəyova qarşı üsyan edib, onu həbs etdiklərini, iqtidara türklər keçdiyini eşitdiyini bildirmiş, 4 may tarixli bu xəbər doğru deyildi. (ATASE, A. 6/6686, Kls.924,D. (7-8) 7, F.24-1, 24)

[941] ATASE, A. 4/6633, Kls. 720, s.27-26, F.56, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.37.

[942] 12 oktyabr 1920-ci ildə rus hərbi hissəsi qadınlar hamamına girmişdi. Türk hərbi hissəsi bundan xəbər tutduqdan sonra bolşevikləri zor ilə hamamdan çıxarmışdı, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.16-18.

[943] Ünüvar. Bolşeviklərlə 8 ay, s.73-74.

Ancaq bolşeviklər Ermənistanda nəzarəti ələ keçirdikdən sonra Naxçıvandakı Qızıl Ordunun türk hərbi hissəsinə münasibəti dəyişdi. Məqsədləri təcili türk qüvvələrini regiondan çıxarmaq, rahat hərəkət etmək və Naxçıvanı Ermənistana verməkdi. Bu məqsədlə onlar türk əsgərləri ilə münasibətləri pozmaq üçün bir sıra haqsız işlər görür,[944] digər tərəfdən də "ermənilərdən qorxmuruq. Biz də burdayıq. Artıq sizin burada qalmağınıza lüzum yoxdur"- deyə 21 yanvar 1921-ci ildə Veysəl bəydən Naxçıvandan çıxmasını istəmişdilər. Veysəl bəy də Moskva konfransının nəticələrinə qədər regionda qalacaqlarını demişdi.[945] Rus Ordu qüvvələri bu tarixdən sonra türk hərbi hissəsi əleyhinə gizli siyasətlərini daha da artırdılar. Bu sahədə Vəlibəyov və tərəfdarlarının dəstəyini görən rus qüvvələri türkləri xalqa zülm etməkdə günahlandırır, keçmişdə olduğu kimi xalqın türk qüvvələri ilə münasibətinə mane olur və türk əsgərlərini təbliğat yolu ilə əldə etməyə çalışırdılar.[946] Bundan başqa, xalqı təsirsiz hala gətirmək məqsədilə silah toplamaq və s. bəhanələrlə adamları həbs etməyə başlamışdılar. Ruslar adından bu işləri görən yerli səlahiyyətlilər Veysəl bəy tərəfindən sıxışdırılınca qarşısında həmişə olduğu kimi rusları görürdü. Vəziyyəti Kazım Qarabəkir paşaya bildirən Veysəl bəy haqsız hərəkətlərə görə ciddi bir müdaxilə edilməsini istəyirdi, əks-təqdirdə əhali türklərə olan inamını itirəcəkdi.[947] Yəni ruslarla qarşı-qarşıya gəlməmək imkansız olmuşdu.

Kazım Qarabəkir paşa başqa fikirdə idi. Ölkənin gələcəyi onu tələb edirdi. Moskvada türk-rus danışıqlarının keçiriləcəyi bir vaxtda Türkiyənin o dövrdəki siyasətində ikinci dərəcəli əhəmiyyət kəsb edən Naxçıvan məsələsinə görə xoşa gəlməyən bir vəziyyətlə qarşılaşmaq heç yaxşı hal deyildi. Buna görə də Kazım Qarabəkir paşa 29 yanvar tarixli teleqramla Veysəl bəyə əmr etdi ki, Moskva konfransının nəticələrinə qədər rəsmi və felən hərəkətlərdən uzaq olmalı, Sovet Rus hökuməti və Qızıl Ordu mənsubları ilə Türk hərbi hissəsi arasında hər hansı bir hadisə meydana çıxmamalıdır.[948]

Həqiqətən də Naxçıvandakı türk və rus qüvvələri arasında hər an bir hadisə çıxa bilməsi mümkündü. Qızıl Ordu hissələrinin əhaliyə qarşı edilən ağır hərəkətlərini gözləri ilə görən türk əsgərləri bolşeviklərə düşmən olmuşdu.Vəziyyəti belə görən Veysəl bəy hər hansı bir hadisənin çıxmaması üçün ruslara""əsgərlərimiz dağlıdır, zarafat etməzlər, zabitlərindən başqa

---

[944] İrandan türk hərbi hissəsi adına gətirilən arpa və buğdaları rus Qızılqüvvələrinin müsadirə etdiyinə görə iki tərəf arasında çıxacaq münaqişənin son dəqiqədə qarşısı alınmışdı. Veysəl bəyə verilən məlumata görə türklər və ruslar arasında böyük bir münaqişə çıxa bilər. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.24-1)

[945]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-10, Ünüvar. Bolşeviklərlə 8 ay, s.76.

[946] Ünüvar. Bolşeviklərlə 8 ay, s.76.

[947]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-10, 25-13

[948]ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.25-15

heç kimə qulaq asmazlar, onlara qarışmayın, nə istəsəniz mənə deyin", - deyə xahiş edirdi. Ancaq rus qüvvələri türk hərbi hissəsi kimi xoş niyyətli deyildi. 12 fevralda Şahtaxtına gələn bir bolşevik batalyonu toplarını türk hərbi hissəsi qərargahına çevirmişdi, bir başqa batalyon Xok kəndinə, bir batalyon da Qıvraq kəndinə gəlmişdi. Onların Naxçıvan şəhərindəki qüvvələrini də nəzərə alan Veysəl bəy bu vəziyyəti Şahtaxtının mühasirəyə alınması kimi şərh edirdi. Çünki onlar türk hərbi hissəsinə görə aclıq və hədələmə yolu ilə Naxçıvandakı məqsədlərinə çata bilmirdilər və indi hərəkətə keçmək qərarı verilmişdi.[949] Buna görə də Veysəl bəy hər hansı bir hücuma qarşı tədbirlər görmüşdü.[950]

Fevralın 16-dan 17-nə keçən gecə Ermənistanda bolşeviklərə qarşı üsyan çıxdığına görə Naxçıvan regionundakı rus qüvvələrinin çox hissəsi İrəvana getmiş və Veysəl bəyin dili ilə desək, qalan rus Qızıl Ordu qüvvələri türklərə hüsn rəğbət bəslədilər. Veysəl bəyə hörmətlə yanaşırdılar.[951] Ermənistan cəbhəsində bolşevik qüvvələri çox çətin vəziyyətə düşmüşdü, qorxu içində idilər. Buna görə də Kazım Qarabəkir paşa 21 və 26 fevralda Veysəl bəyə əmr verdi ki, İrəvan və Zəngəzur tərəflərdə Qızıl Ordu ilə əlaqələri kəsilən rus əsgərlərini himayə altına alsın və daşnaklarla ruslar arasındakı mübarizədə bitərəf olsunlar[952] Əmrə əsasən Veysəl bəy regiondakı rus qüvvələrini türk hərbi hissəsini himayə altına almaq üçün hərəkətə başladı və eyni zamanda Vəlibəyovun qızışdırıcı fəaliyyətləri nəticəsində yarana bilən üsyanda rus əsgərlərinin zərər görməməsi üçün Naxçıvana bir türk birliyi göndərilmişdi.[953]

Türk tərəfinin bu xoş niyyətinə qarşı rus dairələri başqa cür düşünürdü. Onlar türklərin daşnaklara və İrandakı əks-inqilabçılara dəstək verdiyini açıq şəkildə bildirirdilər.[954] Kazım Qarabəkir paşa bu xəbəri eşidən kimi 28 fevralda Veysəl bəyi təhlükəli vəziyyətdən xəbərdar etdi. Daşnakların üsyanında türk qüvvələrinin iştirak edib-etmədiyini soruşdu. Rusların türk tərəfinin müsafiri olduğunu bir daha xatırlatdı. Bundan başqa, Türkiyənin xeyri üçün regiondakı kommunistləri və əks-inqilabçıları təsirsiz hala gətirmək üçün Veysel bəyin Naxçıvana qüvvə göndərilməsi təklifini məqsədəuyğun hesab etməyən paşa əhalinin mənafeyini nəzərə almalarını,

---

[949] Rusların yanında tərcüməçi olan bir müsəlman Veysəl bəyə bildirmişdi ki, Qızıl Ordu hissələrinin Şahtaxtını mühasirəyə almaqda məqsədləri Türk hərbi hissəsinin silahlarını almaqdı. (ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.8).

[950] Ünüvar. Bolşeviklərlə 8 ay, s.76, 77, 81-82.

[951] Ünüvar. Bolşeviklərlə 8 ay, s.82.

[952] ATASE, A. 6/6686, Kls.924,D.6-1, f.27-2, ATASE, A. 6/6686, Kls.925,D.4-8, f.95.

[953] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.27-8.

[954] Mədətov əsərində göstərirdi ki, İrəvandakı türk əlaqə zabiti Bahəddin bəy daşnaklara, Naxçıvandakı bir türk zabiti də İrandakı inqilabı gerçəkləşdirənləri dəstəkləməyə söz vermişlər. (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi s.94-96).

bu məqsədlə öz idarəetmə sisteminin qurmaları üçün məsləhət verilməsini və Naxçıvan xalqının Ermənistan üsyanında bitərəf qalmalarını və xüsusilə vedililərin[955] bolşeviklərlə birlikdə ermənilərə qarşı vuruşmasının gərəksiz olduğunu bildirirdi.[956] Veysəl bəy Kazım Qarabəkir paşanın sual və xahişlərinə 1 mart 1921-ci ildə cavab verdi. Xalqın idarə edilməsi rusların əlində idi. Yaradılan idarə xalqa deyil, rusların mənafeyinə xidmət edirdi. Türk tərəfindən daşnaklara kömək edən yox idi. Öz əməllərini həyata keçirmək üçün rus nüfuzunu artırmağa çalışan bir çoxları türk hərbi hissəsi əleyhinə təbliğat aparır, rusları türklərə düşmən edirdilər. Belə fikirləşirdilər ki, daşnaklarla bağlanan müqaviləyə əsasən türk hərbi hissəsi Şahtaxtıda toplanmışdı. Buna görə də ruslar türk hərbi hissəsindən çəkinirdilər.[957] Belə bir şəraitdə Ermənistandakı rus Qızıl qüvvələri komandanlığı 3 martda Veysəl bəyə bir teleqram göndərdi və türk tərəfindən hiss etdikləri narahatçılıqları bildirdilər. Vəziyyəti Kazım Qarabəkir paşaya bildirən Veysəl bəy 5 martda rus Qızıl Ordu qüvvələri komandanlığına cavab verdi:

"Gümrü müqaviləsindən irəli gələn hüquqlara uyğun hər hansı bir səhvə yol verməmək üçün Türk hərbi hissəsi Şərurdakı qüvvələrini Şahtaxtıya gətirmişdi. Əvvəllər qeyd etdiyimiz kimi Türk hərbi hissəsi regionda olduğu müddətdə Rus Qızıl Ordu qüvvələrini müdafiə və himayə edəcəkdi və qardaşlıq və yoldaşlıq münasibətlərinə qarşı heç bir hərəkət etməyəcəkdi.[958] Məsələyə diqqətlə yanaşan, Rus-Türk münasibətlərinin pozulmasını istəməyən Kazım Qarabəkir paşa fəaliyyətə başladı. 5 mart 1921-ci ildə XI Qızıl Ordu komandiri A.Gekerə bir teleqram göndərdi:

"l.Naxçıvan regionundakı Qızıl ordu hissələri ilə aramızda daimi-dostluq münasibəti olmuş və olmalıdır, bu səmimiyyəti pozmaq məqsədilə əleyhimizə bir sıra təbliğatlar aparırlar. İrəvanda dərc olunan bolşevik qəzetləri də bu qəbildən təbliğatlar aparır. Ermənistanda baş verən hadisələrdən bizə heç bir məlumat verilməməkdədir. Pis adamlar tərəfindən aparılan bu təbliğatlara mane olmalı və bizə bir dost ordu kimi baxmaları üçün Naxçıvandakı Qızıl Ordu hissələrinə əmr vermənizi xahiş edirəm.

2.Son vaxtlarda Naxçıvan və Şərurdakı hissəmizə göstərilən etimada və bizim ermənilərlə Aleksandropol müqaviləsinə uyğun vəziyyəti nəzərə alaraq və heç bir narahatçılığa səbəb olmamaq məqsədilə Şərur və Naxçıvandakı hərbi hissələrimizi Şahtaxtıya gətirdik. Şərurda kifayət qədər rus Qızıl Ordu hissələri var. Bu bölgədəki Qızıl Ordu hissələrin daşnak ordusuna həddini bildirməyə qüdrəti var idi. Bunu nəzərə alaraq hərəkət

---

[955] Vedililərin yaratdığı və Abbasqulu Şadlinskinin rəhbərlik etdiyi Qırmızı tabur nəzərdə tutulur.

[956] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.28-1, 29-3; ATASE, A. 1/4282, Kls.590, D.126, (11-1) F.80

[957] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.29-5

[958] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.30, 30-1, 30-4, ATASE, A. 1/4282, Kls.590, D.126, (11-1) F.80

etdik. Şahtaxtıdakı türk hərbi hissəsi ehtiyac olduqda Qızıl Ordu qüvvələrinə kömək edəcəkdir. Bunu türk hərbi hissəsi komandirinə bildirmənizi xahiş edirəm. Səmimi hisslərimi bildirirəm”.[959]

Türk dairələrinin təskinlik və güvənverici bəyanatları rusların münasibətini dəyişdirmədi. Onlar Naxçıvan regionunda özləri üçün təhlükəli hesab etdikləri türk hərbi hissəsinin təcili regiondan çıxması üçün fəaliyyətlərini davam etdirirdilər. Naxçıvandakı və Şahtaxtıdakı türk qüvvələrinə qarşı tədbirlər görməyə başlamışdılar. Şahtaxtındakı silahlı kommunistlərin, Kommunist partiyasına daxil olan türk fərarilərinin Naxçıvana çağırılması və bütün kommunistlərin birdən Şahtaxtını tərk etməsi Veysəl bəyi belə bir qənaətə gətirirdi ki, ruslar və tərəfdarları türk hərbi hissəsinin əlindəki silahları almaq üçün belə hərəkət etmişdilər. Buna görə də o, hər ehtimala qarşı 6 martda Kazım Qarabəkir paşadan göstəriş istədi.[960]

Veysəl bəy lazımi göstəriş almamış regionda ikinci bir qarışıqlıq meydana çıxdı. Ruslar Naxçıvanda səfərbərlik elan edərək 18 yaşından 48 yaşına qədər bütün kişiləri əsgər aparırdılar. Kəndlərə hərbi qüvvə göndərən bolşeviklər əhalini hədələyir, evlərini yandıracaqlarını bildirərək əsgər yığmağa başlamışdılar. Adamlar ruslara əsgər olmamaq məqsədilə qaçır, türk hərbi hissəsinə qeydə düşmək üçün müraciət edirdilər. 8 martda Kazım Qarabəkir paşa tərəfindən vəziyyət Baş ştaba bildirildi və iki tərəf arasında bir sıra yazışmalar davam etdi. İ8 martda Xarici İşlər Nazirinə məlumat verildi və Gümrü müqaviləsinə əsasənTürkiyənin himayəsində olan bir regionda səfərbərlik elan edilməsi ilə əlaqədar lazımi siyasi tədbirlərin görülməsi xahiş edildi.[961]

Türk dairələri Naxçıvan məsələsində ruslara qarşı hər hansı bir tədbir görməmiş, əhali isə öz tədbirini görməyə başlamışdı. Sələsüz və bir çox digər yerlərdə bolşeviklərə qarşı üsyanlar baş verirdi. Veysəl bəyin fıkrincə, qısa bir zamanda bu, inqilaba çevrilə bilərdi. 13 və 14 martda o, Şərq Cəbhəsi komandanlığından rus qüvvələri əhali üzərinə hərəkət edərsə, nə edəcəklərini soruşdu.[962] 15 martda Kazım Qarabəkir paşa cavab göndərdi ki, əhalinin öz gələcəyini təyin etmək üçün apardığı bu hərəkata qəti surətdə müdaxilə etməsinlər.[963] Göründüyü kimi, Kazım Qarabəkir paşa sovetlərə qarşı üsyan edən naxçıvanlıların hərakatına müdaxilə edilməsini istəmirdi. Ancaq artıq çox gec idi. 16 mart 1921-ci ildə bağlanan Moskva müqavi-

---

[959] Kazım Qarabəkir paşa Geterə göndərdiyi teleqramın bir surətini Baş ştaba göndərmişdi. (ATASE, A. 1/4282, Kls.590, D.123-37, F.71)

[960] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.31.

[961] ATASE, A. 1/4282, Kls.590, D.123-37, F.78, 78-1, 78-2

[962] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.32

[963] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.32-1

ləsinə əsasən Naxçıvan Sovet Azərbaycanına verilmişdi. Buna görə də regionun ruslara qaldığını yaxşı bilən Kazım Qarabəkir paşa Veysəl bəyə əmr göndərdi və tələb etdi ki, regiondakı əhalini ruslarla barışdırsın, əhalinin gələcəyi üçün ruslara qarşı çıxmamasını təmin etsin.[964]

Bu tarixdən etibarən türk və rus qüvvələri arasında bir çox anlaşılmazlıqlar çıxdı.[965] Yenə təbliğatlar işə başladı. Kazım Qarabəkir paşa təbliğatlara əhəmiyyət vermir, həqiqətlərin ortaya çıxmasını istəyirdi və Naxçıvandan çıxmazdan əvvəl ruslarla münasibətlərin pozulmamasını istəyirdi.[966] Veysəl bəy əlindən gələni etməsinə baxmayaraq, 11-12 apreldə iki tərəf arasında gərgin anlar baş verdi. Tibbi yefreytor, əvvəlcədən Naxçıvanın müdafiəsində xidmətləri olmuş Mustafa Kamal Əfəndini zorla həbs etmək istəyən rus komandirinə qarşı Veysəl bəy ciddi tədbir gördü. Bu səbəbdən də ruslar çəkildi,[967] beləcə, iki tərəf arasında ortaya çıxan son anlaşılmazlıq da ortadan qaldırıldı.

### 5. Naxçıvan əhalisinin bolşeviklərə qarşı üsyanı

Türk dairələrinin dəvəti ilə Naxçıvana gələn bolşeviklər regionda Sovet hakimiyyətinin qurulması sahəsində fəaliyyətə başlamışdılar. Başda Naxçıvan şəhəri olmaqla digər yerlərdə də İnqilab Komitələri (Revkom) təşkil edilir, xalqın Kommunist partiyasına üzv olmasına və fikirlərinin mənimsədilməsinə çalışırdılar. Ancaq gözlənilən nəticə heç cür əldə edilmirdi. Vəlibəyovun Naxçıvana gəlməsi və bir çox Azərbaycan kommunistlərinin Revkomda vəzifə tutmaları əhaliyə göstərilən təzyiqlərin artmasına səbəb oldu. Xüsusilə, türk hərbi hissəsi Naxçıvan şəhərindən çıxan kimi bolşeviklər istədikləri əməllərə başladılar. Ermənistana gedən Vəlibəyovun yerinə Naxçıvana gəlib onun vəzifəsini icra edən Veysəl bəy çoxlu şikayətçilərlə qarşılaşdı. Əhali nə edəcəyinə çaşıb qalmış, kimə kimdən şikayət edəcəyini bilmirdi.[968]

Azərbaycanın Naxçıvanı Ermənistana hədiyyə etməsi ilə regionda narahatçılıq daha da artdı. Vəlibəyov bir tərəfdən aclıqdan qırılan əhaliyə İrəvandan gətirdiyi ərzaqla onları susdurur, digər tərəfdən də müxalifətdə duranları təsirsiz hala gətirməyə çalışırdı. Ancaq Naxçıvan regionunda bolşeviklərə qarşı hərəkətlər başlamışdı. Yaycı kəndində və Ordubadda Naxçıvan Revkomunu tanımır, səs birliyi ilə özlərini idarə etməyi qərara

---

[964] ATASE, A. 4/6663, Kls.720, D.27-26, ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.37

[965] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.41

[966] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.42

[967] ATASE, A. 6/6686, Kls.924,D.6-1, F.42-6, Ünüvar. Bolşeviklərlə 8 ay, s.85-86

[968] Ünüvar. Bolşeviklərlə 8 ay, s.77

almışdılar. Naxçıvan şəhərindəki Trotski alayı da arabir qiyam qaldırır, Vəlibəyov tərəfindən həbs olunanları azad etdirirdi.[969] Ancaq Vəlibəyovun intriqalar nəticəsində qiyam qaldıran Trotski alayı dağıdılan kimi Naxçıvan şəhəri və ətrafında bolşeviklərin ağlasığmaz əməlləri başlanmışdı. Naxçıvanda fövqəladə vəziyyət elan edən bolşeviklər rəqiblərini silah toplamaq bəhanəsi ilə həbs etməyə başlamışdılar. Regionun tanınmış adamlarından 500 nəfəri İrana qaçmışdı.[970] İran hökuməti də ona sığınanları dəstəkləyir, rusları çətin vəziyyətə salır və onlara ərzaq verməməyə başlamışdı.

Xüsusilə, kəndlilərin səbri tükənmişdi. Heç bir tərəfdən ərzaq almayan ruslar kəndlilərin ot, saman və qoyunlarını əllərindən alırdı. Buna görə də Naxçıvanın şərqində yerləşən kəndlər mövcud hökuməti tanımamaq üçün hazırlıqlar görür, qoyun aparmaq üçün gələn məmurları qovurdular.[971]

Fevral ayında Ermənistanda daşnak üsyanı başlayan kimi Naxçıvan bölgəsində də bolşeviklərə qarşı hərəkat sürətləndi. Ordubad və Yaycı kəndlərinin ardınca Qaraçuğ və Bulqan qiyamçıların əlinə keçdi.[972] Qaraçuğda Pəpiş Mustafa çavuşun, Culfa-Yaycı ətrafında Ağanın və Ordubadda Çolaq Sadığın rəhbərlik etdiyi üsyanlar qısa bir zamanda digər bölgələrə də yayıldı.[973] Kəndlərdə üsyançılara qoşulanlara ingilis paltarı və silahı verilməsi xəbəri yayılmışdı.[974] Tırkeş və Cəhri əhalisi bolşeviklərə qarşı üsyan qaldırmış və onun üstünə göndərilən hissəni təsirsiz hala gətirmişdilər. Eyni vaxtda Naxçıvanın 25 km şimalındakı Şahboğaz və Şələsüz ətrafındakı kəndlərdə əhali qiyama qoşulmuş və bolşevik qüvvələrini məğlub etmişdilər.[975]

Naxçıvan regionunda meydana gələn qiyamlarda xalqın öz gələcəyini özü təyin etməsi prinsipinə uyğun olaraq Türk hərbi hissəsi bitərəf qaldı.[976]Əhaliyə edilən təzyiqlərin qarşısını almaq üçün təşəbbüslər göstərildi. Ancaq qiyamçıların ingilis paltarı və silahı ilə təmin edilməyə başlanması və türk hərbi hissələrinə qarşı çıxmaları Veysəl bəyi hərəkətə gətirdi. Həm bolşeviklərə, həm də qiyamçılara göz dağı vermək üçün Kazım Qarabəkir paşadan əlavə qüvvə istədi.[977] Kazım Qarabəkir paşa bunu məqsədəuyğun hesab etmədi və xalqın öz gələcəyini özü təyin etməsi, hərbi hissə-

---

[969] ATASE, A. 6/6686, Kls 924, s.6-1, F.25

[970] ATASE, A. 6/6686, Kls 924, s.6-1, F.25-10

[971] ATASE, A. 6/6686, Kls 924, s.6-1, F.22-13

[972] ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.22-13

[973] Əliyev. Qırmızı tabur, s.35-36

[974] ATASE, A. 6/6686, Kls 924, s.6-1, F.28-1

[975] ATASE, A. 1/4282, Kls.590, D.123-37, F.92. Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi, s.95-97. Əliyev. Qırmızı tabur, s.36

[976] ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.27-2

[977] ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.28-1

lərin yaradılması sahəsində məlumatlandırılmasını xahiş etdi.[978] Bolşeviklərin bölgədəki fəaliyyətindən narahat olan Kazım Qarabəkir paşa əhalinin bu qiyamını alqışlayır, onları haqlı sayır və bəlkə də xalq idarəetmə sistemini ələ keçirərsə, regionun Türkiyə himayəsində qalma şansının daha da artacağına inanırdı. Buna görə də o, Veysəl bəyin "ruslar qiyamçılara qarşı hərəkətə başlayarlarsa, nə edəcəyik" sualına belə cavab vermişdi: "Əhalinin öz müqəddəratını təyin etmək üçün başladığı hərəkata müdaxilə etməmək lazımdır.[979] Bu məsələdə Kazım Qarabəkir paşanın fikri bəlli idi. Ancaq Moskva müqaviləsinə görə Naxçıvanın Azərbaycana və bilavasitə Sovet Rusiyasına verilməsi haqqındakı müqavilə paşanın fıkrini dəyişdirdi. O, Veysəl bəydən əhalinin ruslarla barışdırılmasını, onların ruslar əleyhinə fəaliyyətlərinin qarşısını almaq üçün tədbir görməsini tələb etdi. Çünki əhalinin gələcəyi ruslarla yaxınlaşmasını tələb edirdi.[980]

Moskva müqaviləsindən sonra üsyanlar davam etdi. İrandan güclü dəstək alan üsyançılar Ordubadda və ətrafında çox güclü idilər.[981] Ancaq Talıbzadə Yusif Ziya bəyin Naxçıvan Hərbi Komissarlığına təyin edilməsi[982] və onun təmkinli fəaliyyəti nəticəsində bu qiyam hadisələrində zəifləmə hiss olunurdu. Ordubad bölgəsini nəzarət altına almaq mümkün olmamışdı. Talıbzadə Yusif Ziya bəy aprel ayında buradakı hadisələri yatırmağa çalışırdı.[983] Təbii ki, Ordubadda üsyanın uzun müddət davam etməsi mümkün deyildi. Ermənistanı təkrar nəzarət altına alan Qızıl Ordu hissələri üçün belə bir hadisənin yatırılması çətin deyildi.

## E.Müqavilələrlə Naxçıvanın statusunun müəyyənləşdirilməsi
## 1. Moskva müqaviləsi və Naxçıvan

19 iyulda Naxçıvana çatan[984] Bəkir Sami və Yusif Kamal bəylərdən ibarət türk heyətinin Sovet rus hakim dairələri ilə müzakirə edəcəyi məsələlərdən biri də Naxçıvan-Zəngəzur tərəfdən əlaqəni təmin edəcək bir

[978] ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.29-3. ATASE, A. 1/4282, Kls.590, D.126 (11.-1), F. -80

[979] ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.32, 32-1

[980] ATASE, A.6/6663, Kls. 720, s.27-26, F.56. ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.37 Mədətov göstərirdi ki, türk hərbi hissəsi üsyançıları dəstəkləyir. Ancaq sənədlər, rusların əhalini daşnakların hər hansı bir hücumundan qorumaq üçün gördüyü tədbirlər, bu məqsədlə Naxçıvana qüvvə göndərməsi bu fikrin səhv olduğunu göstərir. (ATASE, A. 6/6686, Kls.925, s.4-8, f.95). ATASE, A. 6/6686, Kls.925, D.4-8, F.95.

[981] ATASE, A. 6/6686, Kls.925, D.4-8, F.168, ATASE, A. 6/6683, Kls 720, D.27-26, F.81. ATASE, A. 6/6686, Kls 924, D.6-1, F. 42-3.

[982] ATASE, A. 6/6683, Kls 720, D.27-26, F.56, ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.37.

[983] ATASE, A. 6/6686, Kls.925, s.4-8, F.152.

[984] Yerasimos. Türk-sovet münasibətləri, s.166.

koridorun açılması idi.[985] Sovet Rusiya hökumətinin Ermənistan ilə bağladığı 10 avqust tarixli müqavilə ilə Şahtaxtı-Culfa dəmiryolunun istifadə üçün ermənilərə verilməsini Moskvadakı türk heyəti etirazla qarşıladı.[986] Türk heyəti Şahtaxtı yolunun Türkiyə üçün əhəmiyyətini Sovet səlahiyyətli dairələrinə demiş[987] və nəticədə Şahtaxtının işğal edilməsi üçün ruslarla razılığa gəlmişdilər.[988] Ancaq rusların Ermənistan adından Şərqi Anadoludan torpaq istəməsi nəticəsində danışıqlar yarımçıq qalmış və türk heyəti Türkiyəyə qayıtmışdı.[989]

Türkiyənin Ermənistana qarşı hərbi əməliyyatlara başlaması və ardınca Gümrü müqaviləsinin imzalanması Sovet Rusiyası dairələrini narahat etmişdi. Ancaq Türkiyənin qərb dövlətləri ilə razılaşacağını ehtimal edən Sovet Rusiya hökuməti Şərqi Anadoludan Ermənistana torpaq verilməsi fikrini dəyişdirdi. Sovet nümayəndəsi Midivani Ermənistana torpaq verilməsi işinin səhv başa düşüldüyündən irəli gəldiyini bildirir, Çiçerin Türkiyəyə göndərdiyi notada "Türk Ermənistanı" ifadəsinə yer vermirdi. Buna görə də İqtisad naziri Yusif Kamal, Maarif naziri Rza Nur və hərbi məsləhətçi Səffət (Arıkan) bəylərdən ibarət bir heyətin Rusiyaya göndərilməsi qərara alındı. 14 dekabrda Ankaradan yola düşən heyət 7 yanvar 1921-ci ildə Qarsa gəldi və burada Türkiyənin Moskvadakı səfiri təyin olunan Əli Fuad Paşa ilə görüşdü. Türk heyəti bir müddət Qarsda iki ölkə arasında bir sıra yazışmaların aparılmasını gözlədi. 15 yanvarda Qarsdan yola düşdü və 18 fevralda Moskvaya çatdı.[990]

Türk heyətinin Moskvada ruslarla müzakirə edəcəyi mühüm məsələlərdən biri də Naxçıvan məsələsi idi. İllərdən bəri Ermənistanın ərazi iddiaları etdiyi fasiləsiz mübarizələrə, bilavasitə erməni hücumlarına məruz qalan və Türkiyənin fəal yardımı ilə ayaq üstündə dura bilən və bu dövrdə rus və türk qüvvələrinə bağrında yer verən və nəhayət, Azərbaycan tərəfindən Ermənistana hədiyyə edilən Naxçıvan sözsüz ki, türk və rus tərəfləri arasındakı danışıqlarda əsas məsələ olacaqdı. Bildiyimiz kimi, Nax-

---

985 Yalçın. Tarix məktubları, Tanım 6 dekabr 1944, № 454-423, Təngirşək. Vətən xidmətində s.158.

986 Cəbəsoy. Moskva xatirələri, s.86, 87-92. Təngirşək, Vətən xidmətində, s.158

987 TBMM, GCZC. c.1. s.166; Bayur. I Dünya müharibəsindən sonra müqavilələrimiz II, s.152-153

988 ATASE, A. 1/4282, Kls.587, D.116-6, F.45, 59-1. Cəbəsoy. Moskva xatirələri, s.93-106. Bu dövrdə Moskvaya gələn Azərbaycan heyətinin sədri Behbud Şahtaxtinski və Azərbaycan nazirlərindən Hacınski türk heyəti ilə görüşmüşdü. Onlar görüş zamanı Moskvada olan erməni heyətinin Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi üçün Sovet Rusiya hökumətindən razılıq aldıqlarını, Behbud bəyin və tərkibində ermənilər olan Azərbaycan KP tərəfindən bu təklifin qəbul edilmədiyini demişdilər. Behbud bəy Naxçıvanın Azərbaycan və ya Türkiyəyə verilməsi təklifini partiya qəbul etdiyini və Moskvaya getdikdə Rus hökumətinə də bunu qəbul etdirdiklərini demişdi.( Cəbəsoy. Moskva xatirələri s.84-85).

989 Bayur. I Dünya müharibəsindən sonra müqavilələrimiz, II c.s.145.

990 Türk heyətinin Moskvaya getməsi haqqında bax: Təngirşək. Vətən xidmətində. s.190, 203. Cəbəsoy. Moskva xatirələri s.144, 158-163, Yerasimos. Türk-sovet münasibətləri, s. 202-212. Bayur. I Dünya müharibəsindən sonra müqavilələrimiz, II c.s. 149,151.

çıvan Türkiyə üçün çox əhəmiyyətli idi. Orta Asiyaya açılan bir qapı olması, Ermənistana və İrana qarşı strateji bir üstünlük təşkil etməsi, əhalinin tamam türk olması Naxçıvanı Türkiyə üçün əhəmiyyətli edən səbəblərdən idi.

Belə ki, Rusiyaya göndərilən heyətin tərkibində olan Yusif Kamal bəy Ankaradan yola düşmədən bir gün əvvəl (13 dekabr) Mustafa Kamal paşa ilə görüşmüş və soruşmuşdu: "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə nə edək?." O, isə cavab vermişdi: "Naxçıvan türk qapısıdır, bunu nəzərə alaraq əlinizdən gələni edin".[991] Digər tərəfdən Kazım Qarabəkir paşa da 4 yanvar tarixli teleqramda Veysəl bəyə Naxçıvanla bağlı suallar verirdi. Bunlar Moskvaya gedəcək heyət üçün lazım idi. Bu cavablar əsasında türk heyəti Sovet Rusiya hökumətinin nümayəndələri ilə Naxçıvanın gələcəyini həll etmək üçün danışıqlara başlayacaqdılar. Naxçıvandakı mövcud vəziyyətə görə bu regionun idarə olunması hansı tərzdə lehimizə davam etdirilə bilərdi? Naxçıvanın gələcəyi necə görünürdü? Naxçıvanlıları Azərbaycan və Ermənistanın təsirinə salmamaq üçün nələr etmək lazım idi?[992] Türk hakim dairələri Gümrü müqaviləsindən doğan haqlardan Naxçıvan üçün istifadə etmək istəyirdi. Buna görə də Kazım Qarabəkir paşa Veysəl bəyə Ermənistan və Azərbaycanın Naxçıvana fövqəladə komissar təyin etməsini və regionun işlərinə qarışmalarının Gümrü müqaviləsinə zidd olduğunu bildirirdi. Belə bir müdaxilə olarsa, Türk hökuməti lazımi tədbirlər görəcəkdir.[993]

18 fevral 1921-ci ildə Moskvaya gələn türk heyəti yuxarıdakıları nəzərə alaraq hərəkət edəcəkdi. Yusif Kamal, Rza Nur və Əli Fuad paşadan ibarət türk heyəti və Xarici İşlər Komissarı Çiçerin, Pan Rus mərkəzi icrayiyə komitəsi üzvü Cəlaləddin Qorxmazovdan ibarət Sovet heyəti arasında danışıqlar başladı, iki tərəf arasındakı mübahisəli məsələlərdən biri Gümrü müqaviləsi oldu. Türk heyəti Gümrü müqaviləsini müdafiə edirdi, Rus heyəti isə bu müqaviləni tanımadığını bildirirdi[994] və Türkiyənin Naxçıvan üzərində himayə hüququnu qəbul etmirdilər. Bu vaxt Azərbaycan və Sovet hökumətinin razılığı ilə mart ayının əvvələrində Moskvaya gələn Behbud Şahtaxtinski[995] də rusların tərəfini saxlayırdı. Türk heyətinin Stalinlə apardığı danışıqda onun fikri soruşulduqda, o cavab vermişdi:

[991]Mustafa Kamal paşa. Naxçıvan türk qapısıdır, s.5-6

[992]ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.24-17

[993]ATASE, A. 6/6686, Kls 924, D.6-1, F.24-12

[994]Təngirşək. Vətən xidmətində. s.208. Türk qurtuluş savaşı II c.s. 54-55

[995] Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında s.76. Rza Nur Behbud bəy üçün deyirdi: Bütün varlığı ilə ruslara xidmət etmək və yaltaqlanmaq fikrindədir və edir. Bizi tez-tez ziyarət edir, bizdən öyrəndiklərini ruslara çatdırırdı. Casusluq edirdi. Özünü elə göstərirdi ki, bizə xidmət edir, əslində ruslara xidmət edirdi. (Qarabəkir. İstiqlal müharibəmiz s.913).

"Sizin Naxçıvanla nə münasibətiniz var? O, Rusiyanındır".[996]

Ancaq türk heyətinin Behbud bəyin və rusların fikri ilə razılaşması mümkün deyildi. Buna görə də Naxçıvanla bağlı müzakirələr uzandı. Stalin Yusif Kamal bəydən soruşmuşdu: Canım, Naxçıvan məsələsində niyə bu qədər israr edirsiniz? O isə cavabında demişdir: "Orası türk qapısıdır da ondan.[997] Əldə hər hansı bir sənədin olmamasına baxmayaraq, türk heyəti əvvəlcə Naxçıvanın Türkiyəyə və ya Türkiyə himayəsinə verilməsi üçün çalışırdı. Ancaq sovet nümayəndələri bu təklifə soyuq münasibət bəslədilər. Ruslar Naxçıvanı Türkiyəyə vermək istəmirdilər. Məsələni digərlərinə zərər vermədən həll etmək lazım idi. Yusif Kamal bəyin qeyd etdiyinə görə ruslara başqa təklif etdilər. Biz ən nəhayət," Naxçıvanın Türkiyə və Azərbaycanın himayəsi altında müstəqil bir dövlət olmasına razı olacağımızı bildirdik.[998]Bu təklif Sovet hakim dairələri tərəfindən qəbul edilmədi və nəticədə 9 mart tarixli danışıqlarda Naxçıvana muxtariyyat verilməklə və başqa bir dövlətə verilməmək şərti ilə Azərbaycanın himayəsinə verilməsi qərara alındı.[999] Bunun müqabilində Şərq sərhədlərinin mühafizəsi üçün Türkiyə Maku xanlığı daxilində bəzi tədbirlər görərsə, Sovet Rusiyası 1907-ci il müqaviləsinə görə müdaxilə etməyəcəkdi.[1000]

Aralarındakı digər məsələləri də həll edən türk və sovet nümayəndələri 18 mart 1921-ci ildə xüsusi bir mərasimlə Moskva müqaviləsini imzaladılar. İngilislər ilə bağladıqları ticarət müqaviləsinə və ruslar üçün əlverişli olduğuna görə müqavilənin altında İstanbulun işğalının il dönümü olan 16 mart tarixi yazıldı.[1001]

Moskva müqaviləsinə[1002] görə Naxçıvanın statusu və sərhədləri aşağıdakı kimi müəyyənləşməsi nəzərdə tutulmalıdır. Naxçıvan regionu müəyyən edilən sərhədlər daxilində, əsla 3-cü bir dövlətə verilməməsi şərti ilə Azərbaycanın himayəsinə verilmişdi. Naxçıvan ərazisi Araz talveq xəttinin şərqi ilə Dəhnə dağı (3829)-Vəli dağ (4121)-Bağarsıq (6587)-Kömürlü dağı (6930) xətti arasına girmiş üçbucaqlı şəkildə bu torpaqların

---

[996] Qarabəkir. İstiqlal müharibəmiz, s.913. Təngirşək. Vətən xidmətində, s.210-225.

[997]Mustafa Kamal paşa. Naxçıvan türk qapısıdır, s.6.

[998]Təngirşək.Vətən xidmətində. s.210.

[999]Türk heyəti Naxçıvanın Türkiyə himayəsində qalması məsələsində ruslarla mübahisəyə girə bilməzdi. Çünki, daha böyük məsələlər var idi. Kazım Qarabəkir paşa 29 yanvar tarixli teleqramla Veysəl bəyə bildirdi ki, bu dövrdə Naxçıvan məsələsi Türkiyə siyasətində ikinci dərəcəli əhəmiyyətə malikdir. (ATASE, A. 6/6686, Kls.924, s.6-1.F. 25-15)

[1000]Təngirşək. Vətən xidmətində. s.212-213

[1001]Təngirşək. Vətən xidmətində. s.217-218. Yusif Kamal bəy Moskva müqaviləsinin imzalandığı tarixi 18 və 19 mart göstərmişdir. Biz isə 18 mart tarixini uyğun gördük.

[1002]Müqavilənin maddələri üçün bax: Документы и внещней СССР III c. .D. 342. s. 597. 604. TBMM ZC. D.1,c.IX,s.321-325, Hakimiyyəti-Milliyə, 23 mart 1921, № 140; 25 mart 1921. №141; 23 iyul 1921, № 243. Qarabəkir. İstiqlal müharibəmiz. s. 900-904. Təngirşək. Vətən xidmətində, s.277-288. Şərq cəbhəsi III, s.312-315.

Kömürlü dağından (6930) başlayıb, Saray bulaq (8071)- Dəvəli (Ararat) stansiyasından keçərək Qarasunun Araz ilə birləşdiyi yerdə sona çatan sərhəd xətti Türkiyə, Azərbaycan və Ermənistanın səlahiyyətli nümayəndələrindən ibarət bir komissiya vasitəsilə müəyyənləşəcəkdi. Buna əsasən Naxçıvan ərazisi Dəvəli stansiyası-Saray Bulaq dağı (8071)-Kömürlü dağı (3080)-Sayad dağı (7868)–Qurdqulaq kəndi Camasur dağı (8160-7022)-Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədinin şərqi, yəni bu gün Ordubadın Ermənistan ilə olan sərhədi Gümrü müqaviləsində Naxçıvan üçün müəyyən edilmiş sərhədlər qorunmuş[1003] və yuxarıda qeyd edildiyi kimi regionun Azərbaycan tərəfindən bir daha Ermənistana verilməməsi üçün Türkiyə və Rusiya qarantiya ölkəsi olmuşdu. Türk heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməmişdi. Ancaq regionun yenə türklərin əlində qalması təmin edilmiş, Naxçıvan Azərbaycanın himayəsinə verilmişdi. Yusif Kamal bəyin göstərdiyinə görə, Naxçıvan müsəlmanları bir də soyqırımına məruz qalarsa, türk ordusunun buna biganə qalmayacağı[1004]rəsmi olaraq sənədləşdirilmişdi.

Naxçıvanın Azərbaycana bağlanması Mustafa Kamal paşa tərəfindən müsbət qarşılanmış və Ankaraya qayıdan Yusif Kamal bəy:"Möhtərəm paşam! Naxçıvan üçün əlimizdən gələni etdik. demişdi. Paşa: Yusif Kamal bəy! Qapımız mövcudluğunu mühafizə edir, bizim üçün mühüm olan budur" - cavabını vermişdi".[1005] Naxçıvanın Azərbaycana bağlanması o dövr üçün Sovet Rusiyasına verilməsi mənasına gəlirdi, digər tərəfdən də Ermənistanın əməllərinə sədd çəkildiyini düşünəndə türk heyətinin Moskvadakı müvəffəqiyyəti gözümüz önünə gəlir.[1006]

Türkiyə Naxçıvanın statusunu sərhəd ölkələrinə qəbul etdirməyə çalışırdı. Moskvadan Bakıya gələn türk heyəti Nərimanov ilə görüşmüş və ona Naxçıvanın üçüncü bir dövlətəverilməməsi şərti ilə Azərbaycanın himayəsinə verildiyini xatırlatmış və bununla əlaqədar iki tərəf arasında müqavilə bağlanmasının lazım olduğunu bildirmişdi. Beləcə, irəlidə Azərbaycan yenə kommunist münasibətləri səbəbiylə Naxçıvanı Ermənistana və ya Rusiyaya verərsə, o zaman türk tərəfi Azərbaycanı Naxçıvanın himayəsindən əl çəkmiş hesab edəcəkdi.[1007] Daha sonra qeyd edəcəyimiz Qars konfransının keçirilmə səbəblərindən biri də Naxçıvanın statusunu sərhəd ölkələrinə bildirmək idi.

---

[1003] Faiq Əhməd bəyin "İstiqbal" qəzetinin 21 oktyabr 1921-ci il tarixli nüsxəsində göstərdiyinə görə, Moskva müqaviləsinə uyğun Naxçıvan bölgəsində bəzi sərhəd düzəlişləri olacaqdı. (Faiq Əhməd Qars müqaviləsi, İstiqbal, 21 oktyabr 1921, №435).

[1004] Təngirşək. Vətən xidmətində. s.225-226.

[1005] M.Kamal paşa. Naxçıvan türk qapısıdır, s.6

[1006] Bu günkü azərbaycanlı müəlliflər o dövrdə Türkiyənin Naxçıvan məsələsində apardığı siyasətdən məmnuniyyətlə bəhs etmişlər. Azərbaycanın Naxçıvanı Ermənistana hədiyyə etdiyini və Türkiyənin bunu qəbul etmədiyini qeyd etmişdik. Bunu nəzərə alsaq, Naxçıvanı Azərbaycan qədər Türkiyənin qoruduğunu görərik.

[1007] TBMM. GCZC. D.1,c. II, s.227

Moskva danışıqları nəticəsində müəyyən edilən Naxçıvan statusu Kazım Qarabəkir paşa tərəfindən Veysəl bəyə çatdırılmışdı. Naxçıvana Azərbaycan himayəsində muxtariyyat verilmişdi. Türkiyə, Ermənistan və Azərbaycan nümayəndələri Naxçıvanda olacaqdı.[1008] Moskva müqaviləsindən sonra Vəlibəyovun regionu tərk etməsi təmin edilmiş, Talıbzadə Yusif Ziya bəy kimi sakit bir şəxsin Naxçıvan hərbi komissarlığına təyin olunmasını təmin edən türk dairələri qəti şəkildə Sovet idarəçiliyində qalan Naxçıvan bölgəsi əhalisi ilə bolşevikləri barışdırmaq istəyirdi. Buna görə Kazım Qarabəkir paşa 23 martda Veysəl bəyə bir teleqram göndərmiş və bildirmişdir ki, regionu tərk etməmişdən əvvəl əhali ilə bolşeviklərin barışdırılması türk hərbi hissəsinin dini və vicdani bir vəzifəsidir.[1009] Əkstəqdirdə bölgə əhalisi gələcəkdə heç də xoş olmayan vəziyyətlərlə qarşılaşa bilərdi.

### a) Türk hərbi hissəsinin Naxçıvanı tərk etməsi

Moskva müqaviləsinin Naxçıvanı Muxtar respublika kimi Azərbaycanın himayəsinə verməsi ilə türk hərbi hissəsinin vəzifəsi də felən sona çatdı. Müqavilədən sonra hərbi hissə o saat regionu tərk etmədi. Kazım Qarabəkir paşa 20 martda Veysəl bəyə göndərdiyi bir teleqramda göstərirdi ki, Moskva müqaviləsi TBMM-də təsdiq olunana qədər[1010] türk hərbi hissəsi regionun indiki vəziyyətini mühafizə etməlidir. Ancaq 23 martda verilən bir əmrlə türk hərbi hissəsinin Naxçıvandakı vəzifəsi sona çatdı.[1011] Yəni Moskva müqaviləsi TBMM-də təsdiq edilməmiş hərbi hissə Naxçıvanı tərk edəcəkdi. Belə də oldu. Kazım Qarabəkir paşa 24 martda Veysəl bəyə bir teleqram göndərdi və bildirdi ki, müharibə qurtardığından Naxçıvandakı türk (Şahtaxtı) hərbi hissəsi və İğdır qrupu komandanlıqları ləğv ediləcək, Şahtaxtı hərbi hissəsindən bir piyada batalyonu və bir dağ topu Makuda qalacaq, qalan qüvvələr Kağızmana gələcəkdi. Veysəl bəy də Cəbhə qərargahına gedəcəkdi.[1012] Bu tarixdən etibarən türk hərbi hissəsi

---

[1008] ATASE, A. 6/6686, Kls.924, D.6-1, F.32-1, ATASE, A. 6/6686, Kls.925, D.4-8, F-132, ATASE, A. 4/6663, Kls.720. D. 27-26. F.46-1. Kazım Qarabəkir paşa Moskva müqaviləsinin imzalanması münasibəti ilə Veysəl bəyin rus komandirlərini təbrik etməsini istəmişdi. ATASE, A. 6\6686, Kls.925, D.4-8, f.126, 137

[1009] ATASE, A. 4/6663, Kls.720, D.27-26, F.56, ATASE, A. 6/6686, Kls.924, s.6-1, F.37

[1010] Kazım Qarabəkir paşa müqavilənin Məclis tərəfindən təsdiq olunacağına inanırdı. ATASE A.6/6686. kls.925. D.4- 8. F 126. Moskva müqaviləsi BMM tərəfindən 21 iyulda 1921-ci ildə təsdiqlənmişdir.TBMM ZC.D. 1CX1 s.333

[1011] ATASE, A. 6/6686, Kls.925, D.4-8, F.126, ATASE, A. 6/6686, Kls 924, D.6, 1, F.37. ATASE, A. 6/6663 Kls.720. D. 27-26, F.56.

[1012] ATASE, A.6/6686, Kls.924, D.6-1, F.38, Şərq cəbhəsi, II c. s. 246

Şahtaxtıdan yavaş-yavaş ayrılmağa başlamışdı.[1013] Kazım Qarabəkir paşa 14 aprel 1921-ci ildə Naxçıvandan tamamilə çıxma əmri verdi:

"1. Şahtaxtı hərbi hissəsinin Şahtaxtıda qalan hissəsi Arazın şərq tərəfini tamamilə boşaldacaq, ərzaq almaq üçün Makuya gedəcək və Makudakı hissə ilə birləşdikdən sonra bərabər, imkan daxilində ərzağı göndərmək üçün Makunu tərk edəcək, Şahtaxtı hissəsi İğdıra gələcəkdir".[1014]

Veysəl bəy ona göndərilən əmri 15 apreldə aldı və Şahtaxtını boşaltma işlərinə başladı. Nəhayət, 16 apreldə Naxçıvan ərazisi tamamilə boşaldıldı.[1015] Beləliklə, 1918-ci ilin may ayından başlayan Naxçıvan günləri bitdi və Naxçıvan əhalisi Sovet idarəetmə sistemi iləbaş-başa qaldı.

## 2. Qars müqaviləsi və Naxçıvan

Moskva müqaviləsi əsasən Şərq sərhədlərini müəyyənləşdirən Türkiyə, Sovet Rusiyası ilə bağlanan müqaviləyə uyğun sərhəd qonşuları olan Azərbaycan, Gürcüstan və Ermənistanla münasibət saxlamaq istəyirdi. Sərhədlərin qəti surətdə müəyyənləşdirilməsinə baxmayaraq, Türkiyənin Gürcüstanla Batumi, Ermənistanla Ərdahan, Azərbaycanla isə Naxçıvan problemləri mövcud idi.

O dövrdə və SSRİ-nin dağılmasına qədər çox əhəmiyyətli sayılmasa da, indiki şəraitlə bağlı Gürcüstana Batuminin muxtariyyətliyinin, Qars, Ərdahan və Sürməlinin Türkiyəyə, Naxçıvanın isə Azərbaycana aid olduğunun Ermənistana qəbul etdirilməsi və Azərbaycana Naxçıvanı bir başqa ölkəyə hədiyyə verə bilməyəcəyini təsdiq etdirilməsi lazım idi. Bundan başqa, Faiq Əhməd bəyin göstərdiyi kimi, Moskva müqaviləsinə əsasən Naxçıvan sərhədlərində bəzi dəyişikliklər etmək lazım idi və bu, ancaq aid ölkələrin birgə konfransında həll oluna bilərdi.[1016]

Bu məqsədlə 19 aprel 1921-ci ildə Moskvada olan türk heyəti, Azərbaycan Xarici işlər komissarı Hüseynov və Ədliyyə komissarı Behbud bəy iki ölkə arasında müqavilə bağlanmasını və Qarsda görüşməyi qəbul etdilər.[1017] Moskvadan Bakıya gələn türk heyəti Nərimanova Naxçıvan məsələsi ilə əlaqədar, iki ölkə vətəndaşlarını maraqlandıran məsələlərlə bağlı Azərbaycan ilə bir müqavilə bağlanmasının lazım olduğunu bildirmişlər.[1018]Sovet Rusiyası hökumətinin razılığı ilə Azərbaycan, Ermənistan,

[1013]ATASE, A.6/6686, Kls.924, D.6-1, F.42-2, Şərq cəbhəsi, III c. s. 250

[1014] ATASE, A. 6/6686, Kls.925, D.4-8, F.171

[1015]Ünüvar. Bolşeviklərlə 8 ay. s.87. Qarabəkir. İstiqlal müharibəmiz. s.907

[1016] Faiq Əhməd. Qars müqaviləsi. Bu məsələdə başqa bir mənbə əldə edə bilmədik. Qars müqaviləsinə uyğun Naxçıvan sərhədlərində bəzi dəyişikliklər edilməsi ilə biz bu məlumatı doğru qəbul etməliyik.

[1017]Təngirşək.Vətən xidmətində s.228

[1018]TBMM. GCZC. D.II, s.227

Gürcüstan və Türkiyə arasında Qarsda bir konfrans keçirilməsi qərara alınmışdı. Türk tərəfi avqust ayında nümayəndələrini müəyyənləşdirmişdi.[1019] Ancaq Sovet Rusiya hökuməti bir müddət Türkiyəyə soyuq münasibət bəsləmiş, bu səbəbdən də konfransın keçirilməsi gecikmiş, Sakarya qələbəsindən sonra sovetlərin siyasəti dəyişmiş və Qars konfransının keçirilməsi hazırlıqlarına başlanmışdı.[1020] Türk və Sovet nümayəndələri arasında 23 sentyabr 1921-ci ildə Qarsda keçirilən bir mərasimlə Moskva müqaviləsi təqdim edildi.[1021] 26 sentyabr saat 10.00-da Qars konfransında iştirak edəcək Sovet Rusiyası, Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələri Qarsa gəldilər və həmin gün saat 19.30-da Qars konfransı təntənə ilə açıldı.[1022]

Konfransda Türkiyə tərəfindən[1023] Şərq Cəbhəsi komandiri Kazım Qarabəkir paşa, Burdur millət vəkili Vəli Saltıqgil, keçmiş inşaat işləri üzrə məsləhətçi Muxtar və Türkiyənin Azərbaycan nümayəndəsi Məmduh Şövkət bəy, Ermənistan tərəfdən Xarici İşlər komissarı İskinaz Maravyan və Daxili İşlər komissarı Boqos Makenzyan, Azərbaycan tərəfdən Xalq Ədliyyə Komissarı Behbud Şahtaxtinski, Gürcüstan tərəfdən Quru və dəniz qüvvələri komissarı Şalva Eliava, Daxili və maliyyə işləri komissarı Aleksandr Şvanidze, Rusiya tərəfdən Latviya nümayəndəsi Jan Xanteski iştirak edirdi.[1024]Şübhəsiz, Qars konfransının mühüm məsələləri arasında Batumi və Naxçıvan məsələləri var idi. Bu məqsədlə türk heyəti qeyd olunan bölgələr haqqında məlumat istəmişdi. Behbud bəy Naxçıvanla əlaqədar bu məlumatı vermişdir:

"Naxçıvan bölgəsi Azərbaycanın himayəsi altında Muxtar Xalq Şuralar Cümhuriyyəti elan edilmişdir. Bu Cümhuriyyətin özünün Xalq Komissarları Şurası var. Azərbaycanın bu Cümhuriyyətdə bir nümayəndəsi var. İndiyə kimi Naxçıvanın maliyyə ehtiyacları Azərbaycan tərəfindən təmin edilmişdir. Azərbaycan hökumətinin müəssisə və məktəbləri milliləşdirmək haqqındakı əmrləri tədricən bu bölgədə də tətbiq edilir. Məzhəb və vicdan azadlığından danışmağa lüzum yoxdur. Çünki bunlar sovet idarəetmə sistemindəki mövcud qaydalardan birisidir.[1025]

18 gün davam edən və işində 6 dəfə fasilə verilən[1026] konfrans nəticəsində tərəflər 13 oktyabr 1921-ci ildə Qars müqaviləsini imzaladılar.

---

[1019]Hakimiyyəti-Milliyə, 24 avqust 1921 №282

[1020] Sonyel.Türk qurtuluş savaşı II c, s. 184-185

[1021] Hakimiyyəti-Milliyə, 25 sentyabr 1921, №303

[1022] Hakimiyyəti-Milliyə, 29 sentyabr 1921, №307

[1023] Veysəl bəy Qars konfransında hərbi müşavir kimi iştirak etmişdir. (Qarabəkir İstiqlal müharibəmiz s.956).

[1024]Qars müqaviləsi, İstanbul, 1923, s.3-4. Şərq Cəbhəsi III c, s.119. Türkiyənin siyasi müqavilələri,s.41

[1025] Varlıq. 14 oktyabr,1921 №7. Kazım Qarabəkir paşaya görə Behbud bəy Naxçıvan haqqında bu məlumatı vermişdir. Rəsmi dairələrdə dil ruscadır. Elm sahibləri azdır, ibtidai məktəblər türk dilindədir, üç illikdir. (Qarabəkir. İstiqlal müharibəmiz s.964).

[1026]Varlıq. 14 oktyabr,1921 №8.

Bəzi dəyişiklikləri nəzərə almasaq, deyə bilərik ki, Moskva müqaviləsinin bənzəri olan Qars müqaviləsinə görə,[1027] Naxçıvan regionunun statusu belə müəyyənləşmişdir:

"Beşinci maddə Türk hökuməti, Ermənistan və Azərbaycan Şura hökumətləri belə fikrə gəlmişlər ki, bu müqavilənin 3№-li maddəsində müəyyən edilən sərhədlər daxilində Naxçıvan regionu Azərbaycanın himayəsi altında muxtar bir ərazi təşkil etsin.

Naxçıvan ərazisi: Urmiya kəndindən düz bir xətt ilə (Arazdəyən) stansiyasına (bu stansiya Ermənistan SSR tərkibində qalacaq), sonra yenə bir düz xətt ilə Qərbi Daşburun (3142) dağına, su ayrıcı xətti ilə Şərqi Daşburun dağına (4108), Cəhənnəm dərəsi, Bağırsaq dağının (6607) və ya (6587) - su ayrıcı xətt üzrə Ravona (bulaq) cənubunda qurtarır. Oradan da keçmiş İrəvan Qafqazının və Şərur-Dərələyəz xəttini izləyərək 6629 rəqəmli təpədən Kömürlü dağ (6839-6930) və oradan 3080 rəqəmli təpəyə Sayad dağ (7868) (Qurd qulaq) kəndi Gamasor dağ (8160)-8022 rəqəmli təpə və Göy dağ (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədinin şərqi.

Göründüyü kimi, Naxçıvan sərhədləri Gümrü-Moskva müqaviləsinə görə kiçilmiş, Dəvəli və Arazdəyən Ermənistana verilmişdi. Danışıq protokolları əlimizdə olmadığından bunun səbəbini izah edə bilmirik. Bildiyimiz ancaq budur ki, tarixən iki türk yaşayış mərkəzi Ermənistana verilmişdir. Artıq Naxçıvanın Şimal-Qərbdə Ermənistan ilə olan sərhədinin üç nöqtəsini Sədərək təşkil edir.

Müqavilənin mühüm tərəflərindən biri budur ki, Ermənistan Naxçıvanı Azərbaycanın torpağı kimi qəbul etmişdir. Beləcə, 1918-ci ilin yaz aylarından bəri Naxçıvan regionunu ələ keçirmək istəyən, ətrafı qan gölünə çevirən Naxçıvan və Şərursuz Ermənistan yaşaya bilməz deyən ermənilərin qarşısına sədd çəkilmişdi.Moskva və Qars müqavilələrinə görə Türkiyənin Naxçıvanın statusunda tərəf ölkə kimi müəyyənləşməsi göstərilmişdir ki, ermənilik bir iş qalmamışdı.

Ancaq Sovet Sosialist Cümhuriyyətləri içərisində həmişə təsir qüvvəsinə malik ermənilər, təbii ki, Türkiyənin xəbəri olmadan Naxçıvan regionuna aid bir çox kəndləri hiylə ilə öz sərhədləri daxilinə almağı bacarmışdılar. Sadiqovun qeyd etdiyinə görə, Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan MR-ə aid 9 kənd (Şərurdan Uaraqulaq, Xaçik, Horadiz,Şahbuzdan Ağbinə, Sultanbəy, Ağxaç, Almalı, İtqıran, Ordubaddan, Qarçevan) Ermənistan sərhədlərinə daxil edilmişdi.[1028]

---

[1027]Müqavilə haqqında bax: Varlıq, 14 oktyabr 1921 №7. İstiqbal, 23 oktyabr 1921,№436. TBMM ZC. D1,c.XIII, S.259-261. Dokumentı vneşney politiki 4-cü c, s.264. s. №264, s.420-429. Qars müqaviləsi, s.4-13. Qarabəkir. İstiqlal müharibəmiz, s.970-973

[1028]Sadiqov. Naxçıvan 1920-ci illərin burulğanında. s.78

# NƏTİCƏ

Çar Rusiyasının dağılması Osmanlı dövlətinin itirdiyi torpaqları yenidən ələ keçirməsinə, Qafqazda bir sıra hərbi və siyasi hadisələrə səbəb olmuşdu. Bölgədə müxtəlif millətlər müstəqilliklərini əldə etmək üçün fəaliyyətə başlamışdılar. Ancaq Azərbaycan türkləri, gürcülər və ermənilər bir tərəfdən siyasi bir qurum ətrafında birləşməyə çalışır, digər tərəfdən Cənubi Qafqazdakı mirası paylaşmaq üçün bir-birilə qanlı mübarizəyə başlamışdılar. Bəlkə də, sayca az olmasına baxmayaraq, rusların dəstəyini alan və torpaq mirasından aslan payı almaq istəyən ermənilər, şübhəsiz, bu mübarizənin baş rolunu oynayanlar idi. Şərqi Anadoluda olduğu kimi Sürməli, Naxçıvan, İrəvan, Zəngəzur və Qarabağda yaşayan türk əhalisi erməni dəstələri ilə üz-üzə qalmışdı. Bölgədə acı fəryadlar yüksəlirdi.

Elə bu vaxtlarda türk ordusunun Qafqaza doğru hərəkəti başladı. Türk ordusu kənd, qəsəbə və şəhərləri bir-bir azad edərək, 1828-ci ilin sərhəddini keçdilər. 1917-ci ilin axırlarından etibarən qanlı hadisələrə səhnə olan Naxçıvan bölgəsi tamamilə nəzarət altına alındı. Türk əhalisini yox etməyə çalışan Andranik kimi dəstə başçıları təsirsiz hala gətirildi. Bölgədə 1918-ci ilin noyabr ayının əvvəllərinə qədər davam edən Osmanlı idarəetmə sistemi başladı. Yeni bir idarə etmə sistemi yaradılmış, keçmişin qanlı izlərini silməyə çalışırdılar. Naxçıvan əhalisi dəfələrlə türk ordusunu Naxçıvana çağırır və onları burada görməkdən məmnun olurdu. Ancaq döyüşdüyü digər cəbhələrdə alınan nəticələrin əleyhinə çevrilməsinə görə ANTANTA dövlətləri ilə sülh bağlamaq ümidində olan Osmanlı hökuməti Azərbaycan, Dağıstan və Batumi müqaviləsi ilə əldə etdiyi bölgələrdən çıxmağı qərara aldı. Mudros sazişinin imzalanması ilə bölgədən çıxmaq işləri sürətləndi.

Türk ordusunun çıxması xəbəri Araz vadisi əhalisini şok vəziyyətinə saldı. Çünki onlar bilirdilər ki, nisbətən dövlət halına gəlmiş ermənilərlə baş-başa qalacaqlar. Ancaq qısa bir müddətdə türk hərbi dairələrinin rəhbərliyi altında Araz vadisi əhalisi qorxu və kədərdən əl çəkərək təşkilatlar yaratmağa başladılar. 18 noyabr 1918-ci ildə türk tarixində mühüm yer tutan Araz-Türk hökuməti yaradıldı. Bölgədə erməni təhlükəsinə qarşı, ciddi bir təşkilatlar yaranmağa başladı. Ancaq türk ordusu çıxdıqdan sonra başlayan erməni hücumları nəticəsində Araz-Türk hökuməti Qəmərli, Uluxanlı və İğdır kimi bölgələrini itirdi. Hökumət üzvləri Naxçıvana gəldilər. Dəhnə boğazında və Şərurda ermənilərlə qanlı döyüşlər oldu. Məğlubiyyətlər nəticəsində Araz-Türk hökuməti dağıdıldı. Yerinə dalbadal may ayına qədər davam edən üç hökumət quruldu.

1919-cu ilin yanvar ayında ermənilərlə aparılan qanlı döyüşlər nəticəsində Böyük Vediyə qədər olan bölgə yenidən Naxçıvan türklərinin əlinə

keçdi. Bölgədə torpaq bütövlüyünün qorunması məqsədi ilə Naxçıvanda ingilis general-qubernatorluğu (valiliyi) yaradıldı. Əvvəlcə münasibətlərin çox yaxşı olmasına baxmayaraq, erməni dairələrinin "Ermənistan Naxçıvan və Şərursuz yaşaya bilməz" ideyaları altında ingilis generalı Tomson əhalinin əksəriyyəti türk olan Naxçıvanı Ermənistana hədiyyə etdi. Əhalinin və Azərbaycanın etirazları fayda vermədi. İngilis əsgərlərinin nəzarətində Naxçıvanda erməni hakimiyyəti quruldu. Sonra ingilislər bölgəni tərk etdilər.

Naxçıvanın ermənilərə verilməsi və bölgədə türk əhaliyə edilən zülm türk və Azərbaycan dairələrini hərəkətə gətirdi. Naxçıvanın Türkiyə və Türk dünyası üçün əhəmiyyətini yaxşı bilən Kazım Qarabəkir paşa region əhalisinin qurtuluş mübarizəsinə dəstək olmaq üçün əvvəllər orada komandir olmuş Xəlil bəyi kiçik bir dəstə ilə Şahtaxtıya göndərdi. Azərbaycan da öz torpağı hesab etdiyi Naxçıvana hərbi və maddi yardım göstərdi. Naxçıvan əhalisi cüzi də olsa, aldığı bu dəstək nəticəsində erməni hakimiyyətini ləğv etdi. Böyük Vedidən Ordubada qədər olan bölgədə yeni hegemonluq yarandı. Xəlil bəy Kazım Qarabəkir paşanın razılığı ilə Naxçıvanın Azərbaycana bağlandığını, Səməd bəy Cəmilinskinin Azərbaycan valisi təyin olunduğunu elan etdi. Bu dövrdən sonra Xəlil bəyin nəzarəti altında regionda idarəetmə və hərbi təşkilatlar yaradıldı. Region erməni hücumlarından müdafiə olundu. Ermənistanın ali komissarı polkovnik Haskelin Naxçıvanda bitərəf bölgə və Amerika general-qubernatorluq yaratmaq cəhdləri ilə Naxçıvan ingilislərin oyununa məruz qalmış region oldu. Xəli bəyin mövqeyi müttəfiq dövlət nümayəndələrini narahat edirdi.

Kazım Qarabəkir paşa əvvəlcə Naxçıvana gizli yardım edirdi, ancaq İstanbulun işğalından sonra Xəlil bəy rəsmən 11-ci diviziyanın əmri altına girdi. Əvvəllər Bəyazidlə gizli şəkildə aparılan və surətləri yandırılan məktub və teleqramlar açıq şəkildə göndərildi. Bu tarixdən sonra Milli mübarizə liderləri bölgəni Ermənistana qarşı mübarizədə və sovetlərlə münasibətdə bir baza halına gətirmək üçün hərəkətə keçdilər. Naxçıvana bir hərbi hissə göndərildi. Azərbaycana gələn Qızıl Ordu hissələri Naxçıvana dəvət edildi və burada onlar "qızıl qüvvələr" adı altında hərəkətə keçdilər. "İmperialist qüvvələrə" qarşı əməliyyatlar apardılar. Regionda türk qüvvələri bolşeviklər kimi hərəkət edirdilər.

Türk dairələri Naxçıvanda yaranan münasibət ilə bolşeviklərin könlünü almaq istəyirdilər.

Ancaq bu münasibətlər içində regionun gələcəyini təhlükəyə ala bilən hadisələrə də yol vermirdilər. Gümrü müqaviləsi ilə Naxçıvanı himayəsinə alan Türkiyə Sovet Rusiyasının istəyi ilə Azərbaycanın Naxçıvanı Ermənistana hədiyyə etməsini sərt qarşılamışdı. Naxçıvandakı türk hərbi

hissəsinin komandiri mayor Veysəl bəyin fəal çalışmaları ilə Sovetlərin bu əməlinin qarşısı alındı. Bu tarixdən sonra türk dairələri məsələdən əl çəkmədilər. Mustafa Kamal paşaya görə “türk qapısı”, Kazım Qarabəkir paşaya görə “Şərq qapısı” olan Naxçıvan məsələsi stol arxasında ciddi şəkildə müzakirə olundu. Moskva danışıqlarında Naxçıvanı öz himayəsinə ala bilməyən Türkiyə regionun bir türk dövləti olan Azərbaycanın himayəsinə girməsini təmin etdi. Bundan başqa “kommunist yoldaşlığı xatirinə” Naxçıvanı Ermənistana hədiyyə etməməsi üçün lazımi tədbirlər gördü. Moskva və Qars müqavilələrində Naxçıvanın torpaq bütövlüyü və statusu müəyyənləşdi. Türkiyə himayədar ölkə oldu.

Naxçıvanın Azərbaycanın himayəsinə verilməsinin SSRİ dövrü üçün çox əhəmiyyətli olmadığını düşünənlər var idi. Günümüzün şərtləri daxilində isə Türk Milli Mübarizə liderlərinin bu sahədəki fəaliyyətlərinin böyük bir qələbə olduğu gözlərimizin qarşısına gəlir.

Azərbaycanın himayəsində Sovet idarəetmə sisteminə verilən Naxçıvanın Türkiyə ilə münasibətləri 1924-cü ilə qədər davam etdi. Türk hərbi attaşesi 1924-cü ilin iyul ayına qədər Naxçıvanda fəaliyyət göstərmiş, naxçıvanlı nümayəndə Balayev də Qarsda idi. Münasibətlər kəsildikdən sonra ermənilərin təsiri ilə hərəkət edən Qafqaz Mərkəzi İcra Komitəsi sərhədi müəyyənləşdirmək bəhanəsi ilə Naxçıvanın 9 kəndini Ermənistana verdi. Ancaq Türkiyə ilə müqaviləyə görə çox irəli gedə bilmədilər və Naxçıvan Muxtar Cümhuriyyət kimi günümüzə qədər varlığını qorudu. Dünən olduğu kimi, bu gün də Türkiyə Naxçıvan türkünün istəklərinə imkanı daxilində cavab verir, region əhalisinin ümidi olmağa davam edir.

# BİBLİOQRAFİYA

## A. ARXİV

Baş Nazirlik Osmanlı arxivi
Baş qərargah Hərbi Tarix və Strateji etüd Dairəsi arxivi
Azərbaycan Respublikası Mərkəzi Dövlət Ən Yeni Tarix arxivi
United States of America National Archives
Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət arxivi
Kazım Qarabəkir Paşa özəl arxivi
Türkiyə Böyük Millət Məclisi arxivi
Saip Tellioğlu özəl arxivi

## B. RƏSMİ NƏŞRLƏR VƏ PROTOKOLLAR

Millət vəkilləri iclaslı protokolları, C.III, Dövrə: 3, İctimai ili 4, Ankara, 1991. Düstur, C.X, 2.Tertip
Türkiyə Böyük Millət Məclisi protokolları Dövrə: I, C. II, Ankara, 1981.
Türkiyə Böyük Millət Məclisi protokolları Dövrə: I, C .III, Ankara,1983.
Türkiyə Böyük Millət Məclisi protokolları Dövrə: I, C V, Ankara,1981.
Türkiyə Böyük Millət Məclisi protokolları Dövrə: I, C.VIII, Ankara, 1945.
Türkiyə Böyük Millət Məclisi protokolları; Dövrə: I, C .XI, Ankara, 1954
Türkiyə Böyük Millət Məclisi protokolları Dövrə: I, C .XI, Ankara, 1958
Türkiyə Böyük Millət Məclisi Gizli İclas Protokolu, Dövrə: I, C.II, Ankara, 1985.
Türkiyə Böyük Millət Məclisi Gizli İclas Protokolu, Dövrə: I, C.III, Ankara, 1985

## C. NƏŞR QAYNAQLAR

Бorba za Pobedu Sovyetskoy Vlasti v Azerbaydjane Dokumentı iMaterialı,Bakı,1957
British Documents on Foreign Affairs, Part II, Series: B, Turkey, İran and the Middle East (1918-1939), Vol: 16, Persia I, January 1919-June 1921, University Publications of America, 1990.
British Documents on Foreign Affairs, Part II, Series B, Turkey-İran and the Middle East, Vol: 17, Persia II, July 1921-June 1922, University Publications of America 1990.
Dokumentı i Materialı po Vneşney Politike Zakavkazya i

Gruzii,Tiflis,1919
Dokumenü Vneşney Politiki SSSR, Tom: I, Moskva 1957
Dokumenü Vneşney Politiki SSSR, Tom: II, Moskva, 1958
Dokumenü Vneşney Politiki SSSR, Tom: III, Moskva, 1959
Dokumentı Vneşney Politiki SSSR, Tom: IV, Moskva, 1960
Documents on British Foreign Policy First Series Vol: III,
London,1958.
Documents on British Foreign Policy 1919-1939, First Series, Vol: IV, London, 1952
Qars müqaviləsi, İstanbul, 1339
Türkiyə Kommunist partiyasının konfransı, Bakı, 1920

**D. UZUNMÜDDƏTLİ NƏŞRLƏR**

**1 - Qəzetlər**

Açıq Söz (Bakı)
Albayrak
Ati
Azadlıq (Bakı)
Azərbaycan (Bakı)
Bakinski Raboçiy (Bakı)
Borba (Tbilisi)
Respublika
Hakimiyyət-i Milliyə
İrade-i Milliyə
İstikbal
İsiklăl (Bakı)
Kavkazskoye slovo (Tbilisi)
Kommunist (Bakı)
Sayyare-i Yeni Dünya
Sovet Gürcüstanı (Tbilisi)
Şərq Qapısı (Naxçıvan)
Tanin
Təsvir-i Efkar
The Trans-Caucasian Post (Tbilisi)
Vəhdət
Varlıq
Yeni Dünya (Bakı)
Yeni Dünya (Tbilisi)
Biblioqrafiya
453

**2 – Jurnallar**

Asia (American Magazine on the Orient)

Hərbi Məcmuə
Hərbi Tarix Sənədləri Jurnalı (ATBD)
Azərbaycan Arxivi jurnalı
Azərbaycan Respublikası
Azərbaycan Kommunisti
Azərbaycan Mədəniyyət Jurnalı
Bülleten
Die Welt des Islams
Dirçəliş
Documents
Hərbi Tarix vəsiqələri Jurnalı (HTVD)
Həyat Tarix Məcmuəsi
Elm və Həyat (Bakı)
İzvestiya (Bakı)
Qurtuluş (Bakı)
Qurtuluş (Berlin)
Naxçıvan yaşayır döyüşür
Revue Des Etudes Armeniennes
Tezislər II.Türk tarixi
Türk Dünyası Tarix jurnalı
Türk mədəniyyəti
Uçyoniye Zapiski İnstituta Vostokovedeniya Akademik Nauk SSSR.

**E. Ensiklopediyalar**

İslam-Türk Ensiklopediyası, İstanbul, 1940.
İslam Ensiklopediyası, İstanbul C.IX, 1993.
F. KİTABLAR MAKALELER VƏ Tezislər
1 – Kitablar
335-36-cıillər Qafqazda müsəlmanlara qarşı edilən erməni Zülmü Qars, 1337/1921
1335-cı ilin iyul ayında Qafqazda müsəlmanlara qarşı edilən erməni zülmühaqqında alınan xəbər, İstanbul, 1335/1919
AFANASYAN, Sergei, L'Armenii L'Azerbaidjan Et La Georgie de L'Independence a'l'instauration du Pouvoir soviétique (1917-1923), Paris, 1981
Ağaoğlu, Səməd, Atamın yoldaşları, İstanbul, 1969.
AKGÜN, Seçil, General Harbord'un Anadolu Gezisi və(Erməni məsələsinə dair Hesabatı (Qurtuluş Döyüşü başlanğıcından), İstanbul, 1981
ALƏMİ, Jean Pierre, L'Armenii, Paris, 1962.
Alı Azeri, Azadistan dövləti və Şeyx Məhəmməd Xiyabani (1918-1920) (Çev: Eloğlu. Hazırlayan: Seyfetün Altaylı), Ankara,1994
Əliyev, Əli, Qırmızı Tabur, Bakı, 1990
Naxçıvanda Sovet hakimiyyətinin qurulması və

möhkəmləndirilməsi uğrunda mübarizə, Bakı, 1960
Əliyev, Mirzə Bağır. Qanlı Günlərimiz (1918-1920 Naxçıvan)
(Haz.Tərlan Quliyev), Bakı, 1993
Allen,W.E.D. MURATOFF, Paul, Caucasion Battlefıelds,
A.HİstorУ of the Wars on the Turcs-Caucasion Border 1928- 1921, Cambridge, 1953.
ASLAN, Yavuz, Türkiyə Kommunist Firqəsini quruluşu və
Mustafa Sübhi (çap olunmamış namizədlik dissert.), Ərzurum, 1995.
Atabek, Server, LEtad su Sud Quest Du Caucase, Batum,1919.
Atatürkün Milli Xarici Siyasəti 1919-1923, CI, Ankara, 1981.
Atatürkün teleqram və bəyannamələri, C.IV, Ankara, 1991.
Atatürkün, M.Kamal, Çıxışları C. III, vəsiqələr, İstanbul, 1967.
ATNUR, İbrahim Ethem, Mühacirətdən qayıdan rum və
ermənilərin yenidən yerləşdirilməsi(çap olunmamış magistr
dissert. ), Ərzurum, 1991.
AVALOV, Z., Nezavisimost Gruzii V.Mejdunarodnoy Politike, Paris, 1924.
AYDIN, Məsud, Milli Mübarizə dövründə TBMM hökuməti tərəfindən İstanbulda yaradılanan gizli qruplar və fəaliyyətləri, İstanbul, 1992.
Aysan, E., Böyük müharibədə İran Cəbhəsi, C.III, İstanbul, 1938
Baddeley, Con F., Rusların Qafqazı istilası və Şeyx Şamil
(Çev: Sedat Özden), İstanbul
Belen, Fəxri., Birinci Dünya müharibəsində türk hərbi 1918-ci il hərəkatları. C.V. Ankara, 1967.
Bıhl, Wolfdıeter , Die Kaukasus- politik der Mittemächte
Teil II, Die-Zeit Versucheten Kaukasischen Staliche it (1917-1918), Köln, 1992.
BIYIKLIOĞLU, Tofiq, Osmanlı və türk Şərq sərhəd siyasəti, İstanbul, 1958.
Birinci Dünya müharibəsində Türk Hərbi Qafqaz Cəbhəsi 3-cü.Ordu hərəkatı, C.II, Ankara, 1993.
Birinci Qafqaz korpusunun 334 ilindəki hərəkat və
******Meşhudatı Hakkında General Harbord rəhbərliyindəki
Amerika heyətinə təqdim edilən hesabat surətidir. Ərzurum,
1335-1919.
Ərzurum Konfransı (Haz.M.Faxrəddin Kırzıoğlu hesab), C.İ
Ankara, 1993.
Biblioqrafiya
CABAĞI, Wassan-Giray, Qafqaz - Rus Mübarizəsi, İstanbul,
1967.
CEBESOY, Əli Fuad, Moskva xatirələri, Ankara, 1982.
Cihangiroğlu İbrahim Bəy, Əl yazması. Xatirələr.
Çakmak, Fevzi, Böyük döyüşlərdə Şərq cəbhəsi hərəkatı . Şərq vilayətlərimizdə Qafqazda və İranda, Ankara, 1936.
Çankaya Əli, Yeni mülkü tarix və vətəndaşlar, C.IV,
Ankara,1968-1969.
Dayı (Derinsu ), Esin, Elviye-i Selase də (Qars, Ərdahan

Batum) milli təşkilatların yaradılması (çap olunmamış aspirantura dissert ).Ərzurum, 1991.
Əfəndizadə , Məmməd Şərif, Azərbaycan və İnqilabı, 1921
Ələkbərli, Əzim. Türk-Oğuz Yurdu "Ermənistan", Bakı, 1994
Eloğlu Sabahaddin., Zəngəzur**** hadisələri, Bakı, 1992
Erdaş (Akgül), Nilgün. Milli Mübarizə dövründə Qafqaz Cümhuriyətləri ilə əlaqələr (1917-1921), Ankara, 1994
Ərdoğan, Fəxrəddin, Türk ellərində xatirələrim. Ankara, 1954
Ertürk, Hüsaməddin. İki dövrün pərdə arxası (Yazan: Samih Nafiz Tansu), İstanbul, 1969.
Ərzurum Konfransı ilə əlaqədar sənədlər (Iyu: Bəkir Sıtkı Baykal), Ankara, 1969
Övliya Çələbi Məmməd Zilli İbn-i Derviş. Övliya Çələbi səyahətnaməsi, C.II, Dersaat 1314.
Genosid Armiyan V.Osmanskoy İmperi i (Haz.MGNersisyan), Yerəvan,1982.
Göydəmir, Nadir. Cənubi Qərbi Qafqaz hökuməti, Ankara, 1989.
Quliyev ,Q.B.Mədətov , Q. E.Nadirov, A .., Sovet Naxçıvanı, Bakı, 1984.
Gurko-kryajin, V.. Armiyanskiy vopros . Bakı, 1990.
Gürün, Kamuran. Türk-Sovet əlaqələri, Ankara, 1991.
Hacıyev.Aydın. Qars və Araz Türk respublikalarının tarixindən, Bakı, 1994.
Xəlil paşa.İttihat və Tərəqqidən cümhuriyətə qədərki döyüşlərin ölməz qəhrəmanı Xəlil paşanın xatirələri (Haz.M. Taylan Sorgun), İstanbul, 1972.
Həmid (Qapancı).Xatirə dəftəri.
Dünya müharibəsində Osmanlı cəbhələri, İstanbul, 1338.
Harbord, James. General, Report of the American Military Mission to Armenia, Waşinqton, 1920.
Hovannisian , Richard G., Armenia on the Road to Independence 1918, Los Angeles, 1967.
-, The Republic of Armenia, Vol: I, The First Year, 1918-1919, Los-Angeles,
1971.
--, The Republic of Armenia 1919-1920, Vol: II, Los Angeles, 1982.
İ.V.Lenin, Azərbaycan haqqında, Bakı,
İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918 ci İllər), Bakı, 1957.
---, V.İ. Lenin və Azərbaycanda Sosialist inqilabının zəfəri, Bakı, 1973.
İNİSİMOF, Sergei, Qafqaz i bələdcisi İstanbul, 1926.

İslam əhalinin düçar olduqları zülm haqqında. Vesaike Müstenid məlumat, İstanbul, 1335-1919.
GASCHKE Gotthard. Qurtuluş döyüşü ilə bağlı İngilis sənədləri (Çev.Cemal Körpülü), Ankara, 1991
Türk azadlıq döyüşü xronologiyası. Mondrostan Mudanyaya qədər (30 oktyabr 1918-11 Oktyabr 1922), Ankara, 1989.
J.V.Stalin, Əsərləri, C.IV, Bakı, 1947.
J.V .Stalin, Əsərləri (Çev.İsmail Yarkın), C.IV, İstanbul, 1990.
KAÇAZNUNİ-OV, Daşnaksutyun bolşe Neçevo delat, Bakı, 1990.
KADİŞEV, AB, İnterventsiya I qrajdanskaya voyna v Zakavkazye, Moskva, 1960.
Kandemir-Ferudun, Atatürkün qurduğu Türkiyə Kommunist Partiyası və Sonrası, İstanbul, 1966.
Karabekir, Kazım, İstiqlal müharibəm iz, İstanbul, 1988.
İstiqlal müharibəmizdə Ənvər Paşa və İttihat və Tərəqqi, İstanbul,1990.
İstiqlal müharibəmizin əsasları, İstanbul, 1990.
Qars bölgəsi ətrafında erməni zülmü. 1918-1920 ( haz: M.Fahrettin Kırzıoğlu), Ankara, 1970.
KAZAMZADEH, Firuz, The Struggle For Transcaucasia (1917-1921), New York, 1951.
Kazım Qarabəkir Paşanın .Qeydləri.(yazı makinəsində yazılmış)
Kazım Karabekir. Şərqin Qurtuluşu (Ərzincan və Ərzurumun azad edilməsi. Sarıkamış, Qars və ətrafı ), Ərzurum, 1990.
KILIÇ, Selami, Brest-Litovsk müzakirələri və sülhü (çap olunmamış namizəd.dis), Ərzurum-1995.
Kırzıoğlu Fəxrəddin. Ədəbiyyatımızda Qars II, İstanbul, 1958
Qars tarixi I, İstanbul, 1953.
Milli mübarizədə Qars, I.Kitap Sənədlər, İstanbul, 1960.
Kirakosyan, D .J. Moladotürki nered istorii,İrəvan, 1986.
Zapadnaya Armeniya vi qodı Pervoy Mirovoy voynı, İrəvan, 1971
KURAT, Akdes Nemət. Türkiyə və Rusiya, Ankara, 1990.
KUTAY, Camal, Qarabəkir Paşa Ermənistanı necəyox etdi? Yaxın tarixinin meçhul səhifələri, İstanbul, 1956.
KÜRKÇÜOĞLU, Erol, 1918-1920 Türkiyə-Azərbaycan əlaqələri (çap olunmamış namizədlik dis.), Ərzurum, 1994.
Majewsky (Rus Generalı), Ermənilərin törətdiyi qırğınlar (Çev: Əzmi Bəzəkli), Ankara, 1986.

Mədətov Qaraş. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili, Bakı, 1958.
Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan Hərəkatı, Milli Az. "Müsavat", Xalq " partiyası tarixi, Berlin, 1938.
M əmmədov Rauf. Naxçıvan şəhərinin tarixi oçerki, Bakı, 1977.
Mir Yacoub. Le Problemi du Caucaisia, Paris, 1939.
MOSELY-, Van Horn General, Mandatory Overy Armenia Report, Vaşinqton, 1920.
Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, Bakı, 1973.
Nassıbıan , Akaby, Britain and the Armenian Question 1915-1923, New York, 1984.
Nəcəfov Bəxtiyar, Azərbaycan Demokratik Respublikası (daxili və xarici siyasət i), Bakı, 1992.
Nəsibzadə Nəsib. Azərbaycan Demokratik Respublikası, Bakı, 1990.
ONK, Nizaməttin, Qafqaz səfərimiz 1918, Bakının alınışı və milli meyxana, İstanbul 1977.
---- Yaradılmasının 50-ci ildönümü, "12 Noyabr İğdır". İğdır, 1970.
Ordubad, Məmməd Səid, Qanlı İllər 1905-1906 ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi,Bakı, 1991.
Önal, Sami, Milli Mübarizədə Oltu, Ankara, 1968.
Öngör, Sami, Coğrafiya lüğəti İstanbul, 1961.
PAMİANKOWSKİ, Cozef, Osmanlı İmperatorluğunun sükutu. (Çev: Kamal Kara), İstanbul, 1990.
POIDEBARD, A., İran Yolları qovşağında səyahət (Çev: Mayor Nəzmi və Emin), İstanbul, 131.
,== Role Militaire Des Arméniens sur Le Front Du Caucase après La Defection
De L'Armen Russ (Decembre 1917-November 1918), Paris, 1920.
RəhmənzadəFazil. Əsrə bərabər gecə., Bakı, 1991.
Rawlinson A., Advantures In the near East 1918-1922, New York, 1924.
RAYEVSKI, A., Müsavat skoye praviltestovo na Versalskoy konferençii, Bakı, 1931.
Rəsulzadə Məmməd Əmin, Azərbaycan Respublikası keyfiyyət-i təşəkkülü və indiki vəziyyəti, İstanbul, 1339-1341.
Sabis, Əli İhsan.Birinci Dünya müharibısi, C.IV, İstanbul, 1991.
Sarkisyan, E.K.Ekspansionistskaya politika Osmankoy İmperii v Zakavkazıe nakunune İ V Godi Pervoy Mirovoy Voynı, Erivan, 1962.
Sayılgan Aclan, Türkiyədə sol hərəkatlar (1871-1972), İstanbul, 1972.

Sonyal, Salahi R., Azadlıq döyüşü günlərində İngilis kəşfiyyat xidmətinin Türkiyədəki fəaliyyəti, Ankara, 1995.
Türk Qurtuluş Döyüşü və Xarici Siyasət, C.II, Ankara, 1986.
-Sosialİ, İsmayıl, Türkiyənin siyasi müqavilələri , C.I. (1920-1945), Ankara, 1989.
STAVROSVKİY, A.L. Zakavkaze posle Oktyabıya, Moskva, 1925.
SUNY, Qriqori, Bakı Kommunası (Rus İnqilabında milliyyət və sinif), İstanbul, 1990.
Süleyman İzzət, Böyük müharibədə (1334-1918) 15-ci piyada diviziyasının Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, İstanbul, 1936.
Süleyman Necad (Güneri), Xatirələr.(əl yazması şəklində)
Svietosnovski Tadeusz. Müsəlman camaatdan milli şəxsiyyətə. Rus Azərbaycanı 1905-1920 (Çev. Nuray Mert), İstanbul, 1988.
ŞEMSUTDİNOV, A.-Bağırov, Y .A. Bir qaragün dostluğu azadlıq döyüşü illərində Türkiyə-Sovet İttifaqı əlaqələri (Çev: A.Hasanoğlu), Ankara, 1946.
ŞETYN, BE, Russkiy Vapros na Parijkoy mirnoy Konferentsii (1919-1920), Moskva, 1949.
ŞİMŞİR, Bilal, İngilis sənədlərində Atatürk (1919-1938), C. I, Aprel 1919-Mart-1920, Ankara, 1973.
ŞİMŞİR Bilal. İngilis sənədlərində Atatürk (1919-1938), C.II, Aprel-Dekabr 1920, Ankara, 1975.
Tengirşək , Yusuf Kamal. Vətən xidmətində Ankara, 1981.
Təvətoğlu Fəthi, Türkiyədə sosialist və kommunist fəaliyyətlər (1910-1960), Ankara, 1967.
Milli Mübarizə illərində təşkilatlar Ankara, 1988.
Tuncay, Mete, Türkiyədə Sol cərəyanlar (1908-1925), Sənədlər 2, İstanbul, 1991.
Türk İstiklakla müharibəsi III Şərq Cəbhəsi (1919-1920), Ankara, 1965.
Türk İstiklal müharibəsi Mondros Müqaviləsi və icrası, Ankara, 1982.
URAN, Hilmi. Xatirələrim Ankara, 1959.
Uras, Esat, Tarixdə ermənilər və erməni məsələsi, İstanbul, 1987.
Ünivar Veysəl, İstiklal müharibəsində bolşeviklərlə səkkiz ay, İstanbul, 1948.
YERASİMOS, Stefanos.Millətlər və sərhədlər Balkanlar Qafqaz və Orta şərq (Çev: Şirin Təkəli), İstanbul, 1994.
Türk-Sovet əlaqələri "Oktyabr İnqilabından Milli Mübarizə" yə İstanbul, 1979.

YILMAZ, İskəndər, Gümrü müqaviləsi (çap olunmamış), Ərzurum, 1995
ZAVRİYEV, D.S. K., Noveyşey istorii Severo-Vastoçnıy vilayetov Trutsii, Tiflis, 1947.
ZİYADHANLI, Adil xan, Azərbaycan (Çev: Asif Rüstemof), Bakı, 1990.
ZÜRCHER, Erik, Can., Milli mübarizədə İttihatçılıq (Çev: Nüzhet Salihoğlu), İstanbul, 1987.
ZÜRRER, Werner, Kaukasien (1918-1921), Düsseldorf, 1978.
2- ci Məqalələr
Abasov, T., "Araz Türk Respublikası" Açıq Söz, İş Mart 1992, No: 9 (57).
Axundzadə Sadiq, "Saxta ispatlar", Azərbaycan, 11 Qanun-ı Sani/11 Yanvar 1920, No.9.
Əliyev Əli, "Araz-Türk Respublikası. Yaddaşdan xatirələr", Azərbaycan, 1 May 1991, No: 18 (81).
Balayev, Aydın, "Nəriman Nərimanov, Şirin yuxular və Tarixi Həqiqətlər", Qurtuluş, Sayı: 1 (Bakı 1992), s. 34-35.
Baykara, Hüseyn, "Azərbaycanda erməni təzyiqi və Naxçıvan məsələsi", Türk Kültürü, Ədəd: 92 (İyun 1970), s. 560-564.
Bayur, Hikmət, "IDünya müharibəsindən sonar müqavilələrimiz II",BelletenXXX/117 (1966), s. 130-156.
BAZİYANTS, A.J, "K voprosu zaxvatniçeskoy politike SŞA v Azerbaydjane" (1919 - 1920) Uçyoniye zapiski İnstituta Vostokovenediypa Akademik Nauk SSSR, C.XIX (Moskva 1958), s. 24-30.
BIYIKLIOĞLU, "Mondros sülhündən Elviye-i Selase ilə bağlı yeni vəsiqələri", Belleten, XXI/84 (1957), s. 557-580.
CƏFƏR, Məhəmməd, "Tarixin dərsləri", Elm və Həyat, 4-6 (Bakı-1992), s. 1-2.
Respublikaçı, "Vəziyyət-i İyun", İstiqlal, 20 Aprel 1920.
ERDAL, Rifat, "Bir ehtiyat zabitin I. Dünya müharibəsindəki xatirələri 3, Azadlıq mübarizəsi başlayır", Həyat tarix məcmuəsi C.II / IX (1971), s. 73-80.
Faiq Əhməd (Barutçu), "Qars müqaviləsi", İstikbal, 21 teşrin-i əvvəl 1337/21 Oktyabr 1921, No. 435.
GÖKDEMİR, Ender, "Araz Türk hökuməti 3 Noyabr 1918", Beşinci Türkoloji konfrans, İstanbul, 23-28 Sentyabr 1985, Tezislər III. Türk Tarixi, C.I, İstanbul, 1985, s.237-243.
HIBBEN, Paxton, "Keeping the Peace inTranscaucasia" Asia (American Magazine onthe Orient), Avqust 1920, s. 723-730.
Hüseynzadə, Latif, "Tarix nümunə və I brət dərsləri", Şərq Qapısı, 31 Mart 1993.
Tarix,nümunə və ibrət dərsləri "Şərq Qapısı", 3 Aprel 1993.
JASCHKE, Gotthard, "28 maydan 27 aprelə qədər Milli

Azərbaycan təqvimi” Qurtuluş, No: 19 (May 1936), s. 543-547.
“28 maydan 27 Aprelə qədər Milli Azərbaycan təqvimi”, Qurtuluş, No: 21 (İyul-avqust 1936), s. 19-21.
“Der Freıheıtskampf Des Turkıschen volkes, ein Beitrag zur PolitischenGeschichte deyər Nachkriegszeif ”, Die Welt des İsläms, Band14 (Berlin 1932), s. 1-16.
“Qarabağ-Zəngəzur və Naxçıvan-Sovet siyasətinin ticarət əmtəəsidir”,Qurtuluş, No: 17 (Mart-1936), s. 488-489.
“Zaqafqaziya-Qırmızı Rus istila siyasətinin bir nümunəsidir”, Qurtuluş, No. 13, 14 / Noyabr-Dekabr, 1935), s. 379-387.
KAYABALI, İsmayıl-Arslanoğlu Cemender, “Azərbaycan türkləri mədəniyyət tarixinin əsas yönləri”, “Azərbaycan Türk Mədəniyyət” jurnalı, sayı: 222 (Aprel-May-İyun 1977), s. 84-85.
Kırzıoğlu Fəxrəddin, “Cənub-Qərbi Qafqaz Respublikası (Qars Milli Şura Hökuməti)”, Türk Kültürü, say;72 (Oktyabr 1968), s. 957-958.
Köçərli, T., “Azərbaycan Demokratik Respublikası vəAzərbaycanın ərazi bütövlüyü məsələsi" Kommunist 30 sentyabr 1990, No. 266 (21294).
Kurat Akdes Nemət, “Azadlıq mübarizəsinin əvvəllərində Mustafa Kamal tərəfindən Leninə yazıldığı iddia edilən” Bir Məktubun olmadığı aydın oldu “, Türk Kültürü, Ədəd: 97, (Noyabr 1970), s. 26-28.
Le Transcaucasie et la Republique D'Armenii Dans Les Textes Dilomatiques Du Traite De Brest-Litovsk Au Traite De Qars 1918-1921, Revue Des Etudes Armeniennes, Tom: IV, Fascicule I (Paris, 1924), s. 37-50.
M.B. “Naxçıvan-Şərur Məsələsi I” Azərbaycan, 17 İyul 1919, No. 227.
“Naxçıvan-Şərur Məsələsi II”, Azərbaycan, 20 İyul 1919, No:229
“Naxçıvan-Şərur Məsələsi III”, Azərbaycan, 22 İyul 1919, No:231
Mədətli Eynulla. “1918-1920-ci illərdə Naxçıvanda azadlıq mübarizəsi”, Şərq Qapısı, 28 May 1993, No: 40, (16.260)
Mirzə Bala, “Təqvim necə yazılır? (27 aprel istilası münasibətilə) 1920, 27 Aprel 1936”, Qurtuluş, No: 18 (Aprel 1936), s. 516-517.
Muciri, Aleksandr, “Birlik Olsa İdi” Sovet Gürcüstanı, 20 sentyabr 1990, No: 11 (9806).
Musayev, İsmayıl, “1919-cu ildə Naxçıvan bölgəsində vəziyyət və ABŞ-ın siyasəti”, (çap olunmamış bəyannamə), s. 1-6.
Mustafa Kamal Paşa, “Naxçıvan Türk qapısıdır”, (dinləyib nəql: Faruk Sümer), Türk Dünyası Tarix Jurnalı, Sayı: 64

(Aprel 1992), s. 5-6.
NAĞDALİZADE Tağı, “Naxçıvan fəlakətlərinin tarixçəsi”, İstiqlal, 5 Aprel 1919, No:9.
“Naxçıvan ətrafında”, İstiqlal, 14 Fevral 1919, No: 2.
Nəsibzadə Nəsib, “AKP və Vətənin bütünlüyü problem”, Azadlıq, 9 Avqust 1991.
ONK Nizamettin, “Türk Ordusu Azərbaycanda (1918)”, Türk dünyası tarix dərgisi.Sayı: 84 (dekabr 1993), s. 45-53.
“Parisdəki Sülh Konfransında Qafqaz Azərbaycanı Sülh heyətinin tələbləri”, (Çev: Vilayət Quliyev), Azərbaycan Demokratik Respublikası, Bakı, 1992, s. 177 - 178.
Rəhimov K., Sadiqov-S., “Həqiqəti bilməli Naxçıvan 1920-ci illərin burulğanında”, Dirçəliş No: 1 (Bakı-1992), s. 40-56.
Rüştü, “Böyük müharibədə Bakı Yollarında 5. Qafqaz Piyada dəstəsi “, Əsgəri
Məcmuanın Tarix bölməsi, sayı : 34, (1 İyun 1934), s.5-218.
Sadiqov S., “ Həqiqəti bilməli Naxçıvan 1920-ci illərin Burulğanında”, Azərbaycan Kommunist, No: 11 (1990), s. 70-80.
Tağıyeva Şövkət-Nəsibzade Nəsib, “1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri” və “Azadistan məsələsi”, Azərbaycan Demokratik Respublikası, (Bakı, 1992), s. 63-73.
Tamaşaçı, “Naxçıvan Məktubatı I ermənilər Naxçıvana necə sahib oldular?” Azərbaycan, 9 İyul 1919, No. 220.
“Naxçıvan Məktubat II-III”, Azərbaycan, 14 İyul 1919, No:224
“Naxçıvan Məktubat IV” , Azərbaycan, 15 İyul 1919, No: 225
“Naxçıvan Məktubat V-VII”, Azərbaycan, 16 İyul 1919, No: 226
“Naxçıvan Məktubat VIII-IX”, Azərbaycan, 18 İyul 1919, No: 228
“Naxçıvan Məktubat X-XI”, Azərbaycan, 21 İyul 1919, No:230
Yalçın, Hüseyn Cahit, “Tarixi məktublar”, Tanin, 6 Dekabr 1944, No: 4454-429

# KATALOQ

Oxucuya asanlıq üçün Türk-Türklər, Erməni-Ermənilər, Naxçıvan-naxçıvanlılar kimi sözlər hər səhifədə keçdiyi üçün indeksə alınmamışdır.

-A-

A.Qədimov, 368
A.Haqverdiyev, (İrəvandakı Azərbaycan səfiri),
233n, 236, 256, 257, 289 Abbas Ağa Kəngərlinski, 115n Abbas
Əli Kərimzadə, 28 Abbas Mirzə ordusu, 3
Abbasqulu Bəy Şadlinski (Vedililərin lideri), 64, 117, 164,
197, 212n, 279, 310, 393, 395, 398,419,420, 422, 423n, 429,
433n Abbasqulu (Ordubad inqilab komitəsinin sədri), 403
Abbasqulu bəyTahirov, 26, 29, 34, 55, 90,107n,
142, 272 Abbasqulu Xan, 161 Abbasqulu Xan İrəvanski, 107n
Abbasqulu, Hacı Rza Məşədi, 26 Abbaskənd, 322
Əbdurrəhmanoğlu İbrahim, 199
Əbdülazım Rüstəmov, 140
Əbdülqədir Bəy (Kapitan), 115
Əbdülkərim Paşa (Mirliva Gürcüstandakı Osmanlı Nümayəndəsi), 19
Abudu, 66
Acarlar (müsəlman gürcülər), 17 Afanasyan Sergey, 375n
Afrika,17n Əfşar Kəndi 137, 144 Ağbinə, 446
Agulis. (Akulis), 166, 192, 262, 263, 271-275
Ağa (Culfa vəYaycı ətrafındakı üsyançıların lideri), 436
Ağamalov (İrəvan Bələdiyyə rəisi), 4
Ağayans (Naxçıvan Erməni Komitəsi rəisi), 34
Ağbaba, 218n Ağdam (Akdam), 150, 169
Ağhaç, 446
Ağrı, 166, 246, 250, 340, 374, 377, 387, 3
Aharonyan (Erməni xarici işlər nazirinin), 182, 376
Axılkələk, 13, 16-19, 23n, 30, 56, 72, 73, 80, 81n, 83 , 109,
130, 131, 144n, 159, 161, 163, 180n, 184, 219, 239, 249
Axıska (Ahısha), 13, 16n, 17, 18, 23n, 30, 56, 73, 80, 83, 109 , 130, 131, 144n, 159, 163, 239
Axıska müvəqqəti hökuməti, 130
Ahjikənd, 422
Əhməd Əzimov, 287n, 368
Əhməd Həmdi Əfəndi (Kapitan), 292
Əhməd İzzət Paşa, 74n, 75
Əhməd Muxtar bəy (Xaric Vəkili) , 412

Əhməd İzzət Paşa hökuməti, 72
Axund Əli Həsənzadə, 140, 192
Axundov (Sovet Azərbaycan liderlərindən), 375n
Axurf kəndi, 278
Akbaba, 57
Ağbaş, 95
Akbulak, 77
Axçabaş kəndi, 112
Akif bəy, 52n
Axtaban dağı, 19
Akulis (Əylis), Bkz.Agulis
Alagöz, 58
Alagöz Milis Batalyonu, 94
Albayraq qəzeti, 205n, 243, 245, 256n, 270, 280n, 356n
Aleksandrapol sülhü. Bax: Gümrü müqaviləsi
Aleksandrapol, Bax.Gümrü,
Əli Əsgər Ağa, Bkz. Meşhedi Əli Əsgər Ağa Ham-zaza
Əli Əsgər Ağa Həmzəzadə, baxın. Məşədi Əli Əsgər Ağa Həmzəzadə
Əli Azəri, 24n
Əli Əkbər bəy, 125
Əli Əşrəf bəy (General) 98
ƏliFuad Paşa, 373n, 439
Əli Xan (Pənah xanın oğlu), 116n
Əli Xan İrəvanski, 321n
Əli Xan Makinski, (İrəvan Müsəlman Milli Komitəsinin Başçısı), 26, 27, 256, 280 Əli İhsan Paşa (IV. Korpus komandiri), 49, 50, 52n
Əli Mərdan Topçubaşov, 250, 255n
Əli Paşa Şıxlinski, 278n
Əli Rifat Bəy (12-ci Diviziya komandiri), 80, 91
Əli Səbri bəy, 204
Əli Səbri Qasımov 231
Əli Şəfiq Bəy (Mayor, Naxçıvan Yerli Hökümət rəisi), 55, 57, 58, 79, 81, 82, 85, 86n 89, 90, 93,105 n, 106,118 n
Əli Şəfik Bəy (Podpolkovnik) (Dəmiryol əməliyyat müdiri), 59n
Əli Teymur bəy (Mayor), 245, 295, 300-302, 304 –313, 317, 318, 345 Əliabad, 52
Əlibəyzadə Məmməd Bəy, 131
Alicin, 19
Əliqulu Əliş bəy Sultanov, (Naxçıvan milli komitəsinin sədri 176-178
Əliqulu Xan (İran xarici işlər naziri), 249, 250
Əlişbə (İrəvanlı), 169
Əliyev, Əli 116n 287n, 395

Əliyev, Mirzə Bağır, 22n, 26n, 29n, 43n, 46n, 52n, 54n, 55n, 57, 60n, 96n, 97n, 98n, 105n, 116n, ll7n, 122n, 132, 133, 135n, 136n, 140n, 141n , 146n, 176n, 177, 192n, 195, 196n.
Əlizadə Dəmir bəy, 124
Allahyar bəy, 115 almalı, 213, 276, 446
Alman / Almanlar, 7-9, 18, 94, 158, 160
Alman Əsgərləri, 75
Alman Baş komandanlığı, 7
Alman Şərq Cəbhəsi komandanlığı, 7
Almaniya, 8, 10 , 18, 341
Altıncı Ordu, 38, 48, 50
Amazasp (Erməni lideri), 284
Amerika / Amerika Birləşmiş Ştatları, 10, 106, 143, 172, 175, 180, 219, 220, 222, 236, 262, 264, 402n,
Amerika Heyəti / heyətləri / Amerika Heyəti / Amerikalı Heyət, 142, 220, 221n, 219,229, 230n, 234, 235n, 236, 260, 262, 263. 264, 265, 268, 273
Amerika nümayəndələri, 27 Amerika yardim üzrə səlahiyyətli şəxslər, 262
Amerikalı / Amerikalılar, 108n, 180n, 201, 202. 215, 219-221, 230 234 - 237, 265, 266, 268 269, 274
Amerika, 22n, 157, 158, 159, 164, 169, 175. 181n, 194n, 195n, 196n, 208, 211, 219. 220, 226, 230, 233, 234, 235n, 256, 258. 260-266, 268, 271, 273, 283, 284
ABŞ zabitləri, 21 ln, 237, 266
ABŞ Hərbi Valiliyi (qubernatorluğu) 274
ABŞ hakimiyyəti, 230n Amerikan Xəstəxanası, 213n
Amerika Resursları, 231n
Amerika Komissiyası, 142
Amerika səfiri, 268
Amerika Missiyası, 158, 237
Amerika Hesabatı / Hesabatları, 211, 213n, 230n. 237
Amerika Siyasəti, 232
Amerika nümayəndələri, 216
Amerika valiliyi, 21n, 222, 223, 230-235, 256, 262, 263, 266, 273
Amerika Varlığı, 238
ABŞ vətəndaşları, 223
Amerikai / heyətləri, 217, 220,222n, 237, 283n,
Amerikan yardımİdarəsi (ARA), 217
ABŞ Kömək Təşkilatlar; 141
Amerika Kömək Missiyası, 222
Amerika Kömək Personal, 213
Amerikan Rəhbərliyi, 221, 222, 232
Amet (vis Admiral), 84

Anadolu, 9, 31, 47. 80, 108n, 240, 243, 249,259 n, 292, 296, 320, 331, 337, 340, 346, 349, 351, 358, 359, 364, 366, 378, 426
Anadolu Hərəkatı, 335
Angelaut (Əngələvüt), 277, 304, 372, 373, 387
Ankara, 241, 244-246, 295, 297, 298, 304, 329,336, 341, 346n, 375, 378n, 410,439
Andranik bax .Ozanyan, Andranik qoşunu, 48, 50, 67
Əbrəqunus kəndi, 45, 69n
Apresniank (Erməni polkovnik), 195 Ərəblər Kəndi, 309, 320, 322 , 327, 328, 330 Araçin
*Araç qəzeti* (Daşnak Partiyasının nəşr orqanı),230, 324
Aralıq, 66
Aralıq (paytaxt), 111, 130, 157, 162, 208, 276, 281
Aralıq paytaxt 267
Aram (erməni dəstə başçısı), 24n
Ərəb Əbdülqadir Bəy (Kapitan), 115
Ərəb qəbilələri, 2
Ərəb valilər.1
Ərəblər, 363
Ararat (bax: Dəvəli)
Ararat Stansiyası, 401, 441
Araz, 3, 15 , 36, 49, 50, 52n, 53, 97, 105, 109, 114, 124,125,135,153, 155,156,159-161,163, 165,168,169,175, 202, 231, 381, 441, 443
Araz Respublikası, 85n,101 n
Araz Çayı, 194
Araz keçidləri, 363
Araz ətrafı, 103
Müvəqqəti Araz Hökuməti, 103
Araz Hökuməti, 96n
Araz Körpüsü, 41
Araz çayı, 3, 42, 49, 64, 117, 124, 194, 237, 250n, 276, 280, 296, 304, 311, 326, 329, 332, 346, 365, 387n, 401
Araz Türk hökuməti, 88, 89, 92n, 95-97, 98n, 99, 100, 101, 103, 105-109,110n, 111, 112, 114-120, 122n, 124, 126, 127-133, 135, 143, 251
Araz Türk hökuməti Heyəti, 115
Araz Türk hökuməti ordusu, 122
Müvəqqəti Araz Türk Hükümi, 99, 100, 103n
Araz Türk hökumət səlahiyyətliləri, 118,126,128
Müvəqqəti Araz Türk , 132
Araz Vadisi əhalisi, 96
Aras Vadisi Müsəlman nümayəndələri, 267Araz Vadisi, 50, 63, 77, 87, 90, 96n 101, 108, 109, 111, 119, 120, 129, 131-134, 145, 148n, 150,160, 200-203, 205,

208, 219, 231, 234, 237, 241, 243, 244, 251, 252, 254-256, 266n, 267, 277, 281, 282, 299
Arazdəyən, 58n, 120, 136, 137n, 138, 153, 402,404 -446
Arazdəyən Stansiyası, 445
Arcut, 15
Ərdahan, 9, 11, 13, 38, 39, 56, 72, 76, 130, 131,249, 402,443
Ərdanuç, 56
Ərəf qəzeti, 191n, 193n
Arnis, 293
Ankan 93 Saaffət 438
Arpa (Kəndi), 19, 43, 78, 213, 276
Arpa Vadisi, 399
Arpaçay / Arpaçayı, 14, 19, 32n, 34, 35, 67, 74, 108,282, 401
Aslan Həsən Bəy, 122n
Artvin, 56, 130
Əsgər-I Osmaniye bax. Osmanlı qüvvələri
Asim Bəy (baş leytenant), 365, 369
Əsgər sovetləri, 20
Əsgərov / Askerov 413416, 418
Aser, Verney (General), 144, 154, 161
Astazor, 388, 392
Asur, 1
Asiya, 1,439
Aşağı Acara, 56
Aşağı Əylis, 269, 275
Aşağı ÇANAKÇI, 19
Aşağı Qarabağlar kəndi, 19
Aşağı Qarasu, 401
Aşağı Muğancıq, 322
Atabəyi, Sərvər, 130
Atgız kəndi, 274
Avetisyan Mushegh, 185
Avice (Sovet Azərbaycanı Liderlərindən), 375n
Avis (Ermənistan Revkomu üzvü), 408
Avropa/ Avropalılar, 201n, 264, 397n
Avşar (Kəndi), 154, 197, 324n
Avstriya-Macarıstan, 7
Aydoğmaz kəndi, 64
Ayer, C.S., 229, 263, 273
Ayer, M.Carlton, 222
Aysan, E, 74n
Aza (Kəndi), 19, 66, 278

Azərbaycan, 14, 17-19, 20, 21n, 30, 31, 41, 47, 52n, 60, 62, 65, 66, 68, 72, 83, 100n 101n, 119, 129n, 137, 141, 143n, 145-148, 150, 155 - 159,161-165,167-169,171, 172-175, 179n, 181, 182, 184, 185, 186n, 191, 192, 195n, 197, 198, 203, 204-207, 209, 210n, 211n, 214n, 221, 223-230, 232-234, 235n, 239 - 243, 245, 248-259, 261, 262, 264, 268, 269, 275, 277, 283, 285-287,289n, 295, 299, 335-340, 342, 346, 356, 374, 376, 379, 389, 396n, 402, 403, 407, 409-414, 419, 421, 426, 428, 437-445
Azərbaycan Hökuməti, 234
Azərbaycan Əsgəri Heyəti , 143n
Azərbaycan bolşevikləri, 337
Azərbaycan Respublikası, 1, 16, 18, 62, 231, 232, 248, 255
Azərbaycan daxiliyə nəzarəti (Daxili İşlər Nazirliyi), 126
Azərbaycan qəzeti, 114n, 116n, 119, 126, 130 193, 205, 208n, 209, 214n, 231n, 256n, 270
Azərbaycan hakimiyyəti, 228
Azərbaycan xalqı, 229
Azərbaycan Xanlıqları, 3
Azərbaycan Hərbi Komissarlığı, 342.
Azərbaycan Hərbi nəzarəti, (müdafiə nazirliyi)148
Azərbaycan Xarici Komissarlığı, 360n
Azərbaycan Xaric nəzarəti, 204
Azərbaycan Heyəti, 146, 150, 251
Azərbaycan Himayəsi, 427n, 440
Azərbaycan Hökumət səlahiyyətliləri, 119, 223
Azərbaycan Hökumət sənədləri, 358n
Azərbaycan hökuməti, 119, 120, 126, 143, 144n, 145, 146, 148-150, 167, 168, 175n, 192, 195, 197, 203-205, 207, 223, 225, 227-229, 231-233, 236, 249, 251 - 254, 256-259, 264, 267, 268-271, 273, 274-277, 279-281, 282n, 284, 287-289, 303, 306, 336, 337, 356, 358, 418n, 445
Azərbaycan İnqilab Komitəsi, 357, 369, 409, 411
Azərbaycan Qanunları, 287
Azərbaycan Resursları, 67n, 140n, 143n
Azərbaycan Qırmızı əsgəri, 358n
Azərbaycan qanunu, 355
Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, 357
Azərbaycan Kommunist Partiyası, 407, 438n
Azərbaycan Kommunist, 337-
Azərbaycan ordusu, 218, 277, 278, 283, 284, 292, 299, "302, 303, 306, 311 - 314, 320, 331,332 Azərbaycan Liderləri, 405, 408
Azərbaycan Orqanları , 213n
Azərbaycan Atəşpərəst, 143
Azərbaycan Ordusu, 303, 337

Azərbaycan Parlamenti, 119n, 120n, 125, 126,224, 251, 283
Azərbaycan Sovet hökuməti, 285
Kommunistlər, 435
Azərbaycanlı Sosyalistlər, 21n
Azərbaycanlı Nümayəndələr, 233
Azərbaycanlılar, 340n, 408
Əziz b.Xatim, 1
Əznəburd / Əznəburt (Kəndi), 23, 51, 213, 395-B-

-B-

B.Şahtaxlı. Bax. Şahtaxtinski, Behbud Babalyan A. (Erməni nümayəndəsi), 375 Babayev (Naxçıvan Post Komandiri), 210
Babək, 1
Bab-ı Əli, 85
Babur Xan, 309, 322, 328, 329
Badamlı, 69n Bağırov YA, 295, 386
Bağarsıq, 441 Boğarsıq Dağı, 445
Bağır Bəy (Rızazadə), 98, 106, 111, 117, 128, 132
Bağır Bəy Məhəmmədbəyzadə, 82
Bağır Bəy Rızayev, Bkz.Bağır Bəy Rzazadə Bağırov (Naxçıvan Milli Komitə üzvü), 207
Bağırsaqdərə, 395
Bağratuniər, 2
Baha Səid Bəy, 335 , 337, 371n
Bahəddin Bəy (İrəvandaki Türk Əlaqə Zabiti), 430n, 432n
Bahadur Vəlibəyov, (Naxçıvan Fövqəladə Komissarı), 393, 409, 411-415, 417-421, 422n, 423-432, 435, 436, 442
Bahəddin Şakir bəy (Doktor), 341, 371n,
Bakrof -Bagırov ( Yoldaş)365
Bahudi, 66
Bakı, 3, 9, 12n, 17n, 24n, 84n, 96n, 119, 120,143, 145, 150, 189n, 204, 207, 223, 224, 227, 228, 233 248, 249, 250-252, 254, 255, 257, 258n, 261, 270, 278, 280n, 282n, 287, 289, 298n, 299, 301, 303, 330, 335, 337, 338, 339, 342-344, 346-348, 352, 354, 356 -362, 365, 371, 372, 373n, 375, 378, 379, 386, 387n, 390, 393n, 409, 411, 413-415, 416n, 442, 444
Bakı-Culfa dəmir yolu, 225, 227, 228
Bakı Hökumətl əri, 198n, 358n
Bakı Müsəlman Cəmiyyət-i xeyriyəsi, 28
Bakı nefti 335
Bakı Soveti, 408
Balkanlar, 17n

**Bambaşı, 58n
Baranovski (İrəvan valisi), 4
Baranyans (Erməni lideri), 284
Bardız, 391
Sülh çağırışı, 6, 7
Sülh Konfransı, 227, 229, 232, 235
Barmasa, 58
Barıtçı, Faiq Əhməd, 441n, 444
Baş-Garni milisləri, 272
Baş Noraşen, 58n, 63, 64, 118, 119, 154, 162, 165, 213, 216, 322,397, 399, 400, 412, 418, 421, 430
Başaraban, 15
Başkomandanlıq,Baş ştab, 76, 79n, 80
Başkomandanlıq, nazirlik, 37n, 39, 58
Qərb İran, 390
Batlamyos (Coğrafiyaçı), 1
Batum, 9, 11, 13, 15-19, 27, 30, 48, 56, 72, 74, 76, 84,130, 131, 134, 152, 159, 164, 249, 336, 338, 358n, 402, 407, 443, 445
Batum müqaviləsi, 19, 35, 38n, 39, 40, 43n, 48, 50n, 54-56, 62, 64, 65, 72, 84, 87, 100n, 129, 239, 248
Batumi Bölgəsi, 444
Batumi Konfransı, 16, 30, 234n
Batumi briqadası, 56
Batumi Sülh Müqaviləsi (Bax.Batumi müqaviləsi)
Batumi Sülh Müqaviləsi (Bkz.Batum Anlaşması)
Batum Vilayəti, 16n, 39, 40, 41n, 53n, 56, 57,182n, 201n
Bayburd, 10
Bayur, Yusuf Hikmət, 374n
Beach, Viliam Henry (General), 144n, 249
Bədri Bəy, 341
Behbud bəy (bax.Behbud Bəy Şahtaxtinski)
Behbud bəy Şahtaxtinski, 353, 405, 409, 411, 415, 416, 421, 427, 438n, 440, 444, 445
Behçət Bəy (İğdır İcra Komitəsinin sədri), 22n
Bəhram xan Naxçıvanski (Naxçıvan Şura Hökumətinin Xaric. İşlər Naziri), 120n, 122n, 128n, 138,141, 142, 144, 191 252
Bəkir Ağa Kəngərlinski, 259n
Bəkir Sadiq Əfəndi, 28
Bəkir Sami Bəy, 341, 438
Bəkzadyan (Ermənistan xarici işlər naziri), 204,281,404,408, 418n
Bendukidze, (Mavera-yı Qafqaz komitəsindəki Ordubad

nümayəndəsi), 20 Bəyazid, 13, 15, 27, 28, 33n, 71, 76, 80, 83, 85, 86n, 116n, 124, 125, 127, 134n, 138n, I87n, 188n, 198, 199, 20In , 209, 210, 212n, 242, 244-247, 249, 250, 261n, 266n, 275, 277n, 281, 282, 290, 291, 294-297, 301, 302, 304, 310, 312, 313, 315, 318, 323, 325, 331, 332, 333, 335, 337, 339, 340n, 341, 344, 346, 355, 356, 357, 359, 363, 370, 374, 377, 386n, 388, 389, 392 Bəyazıd Mövqe Kumandanlığı, 291
Bəyazıd Bayrağı, 244
Bəyazıd qarnizonun, 247
Bəylərağa Kəngərlinski, 26, 49n
Bəzirgan Keçidi, 392
Birinci Dünya müharibəsi, 9, 219, 334
Birinci Qafqaz korpusu, 14, 15, 33n, 36, 49, 50, 52, 58, 60, 62, 63, 66, 72, 73, 74n, 77, 94n
Birinci Qafqaz korpusu qərargahı, 58, 59
Birinci Qafqaz korpusu komandalığı, 73, 74
Birinci Qars konfransı, 130
Birinci Rus İran Müharibəsi, 3
Bist, 69n
Bitlis, 6, 187n, 375
Bizans, 1, 2
BMM rəyasət heyəti T.B.M.M. rəyasət heyəti
BMM Hökuməti T.B.M.M. Hökuməti,
Bolşevik / ler, 6, 20, 21n, 9, 30, 48, 243, 287n, 292, 296, 299-303, 319, 321, 308n, 329n, 336, 337, 339, 340, 342, 343, 345, 348, 352, 353, 355, 359, 364, 370, 371n, 375, 376, 378, 384, 387, 390n, 391, 392, 396-399, 404, 407, 420, 425, 427, 430, 431, 433-437, 442
Bolşevik cərəyanlar, 20
Bolşevik əsgərləri, 425n
Bolşevik erməni rəhbərləri, 406
Bolşevik qəzetləri, 433
Bolşevik heyəti, 359
Bolşevik hökuməti, 356
Bolşevik İdarələr / İdarəsi, 20n, 59n
Bolşevik komanda heyəti, 393
Bolşevik Qüvvələri, 345, 347, 348, 350 , 358, 361n, 362, 364n, 370, 391n, 397-400, 432, 436
Bolşevik Ordusu / Orduları, 296, 297, 330, 336, 347
Bolşevik prinsipləri, 384
Bolşevik təbliğatı, 345
Bolşevik Süvari alayı, 363, 384, 387n, 390, 396
Borba qəzeti, 205
Borçah / Borçalu, 17, 19, 249

Borçka, 56
Bolğan (Belgan), 70
Brest-Litovsk (müqaviləsi)7-12, 16, 19, 44, 55, 72,73, 78, 81, 87n, 296
Brest-Litovsk sərhədi, 86
Bristol (Admiral), 236
Buduyenni SM (Polkovnik), 334n 468
Bulaqbaşı Mövqeyi, 304
Bulqan kəndi), 191, 192n, 193, 206, 212, 436
Burhan bəy Maqsudbəyov, (Zaqafqaziya Komitəsi nəzdindəki Naxçıvan Təmsilçi) 20
Burhan-həqiqət məcmuəsi, 105n
Böyük Xan İrəvanski, 26
Böyük Xan Naxçıvanski, 26, 34, 138, 193, 234,259n, 285, 288, 371
Böyük Xanın evi, 234n
Böyük Millət Məclisi, 410
Böyük Osmanlı Millət Məclisi, 403
Böyük hücum, 346n
Böyük Vedi Bölgəsi, 117
Böyük Vedi, 64, 78, 94, 140, 157, 195-198, 204, 214, 217, 218, 225, 227, 264, 276, 278, 389, 402, 434
Böyük vedililər, 144, 204

-C-

Cabbar Ağa Vəzirov, 55, 260
Cabbar bəy, 243, 298
Cabbar Kələntərov, 55
Cabbar Məmmədzadə, 27
Cabbarzadə Nağı (Naxçıvan ətrafı rəisi), 200n
Cəfər Məmmədov, 234
Cafərqulu Xan Naxçıvanski, (Naxçıvan Milli Şura rəisi), 4, 26,29, 55, 101n, 126n, 136, 140, 142, 145-147, 149, 150, 157, 161, 171, 193n, 252, 288, 315 , 321, 324, 329, 346, 357, 370, 371
Cağaloğlu xadim Cəfər Paşa, 2
Cavid bəy (11. Diviziya Komandiri), 45, 46, 51n, 52n, 107, 239, 247, 282, 290, 292, 293 , 295, 296, 307, 310-316, 318-321, 323, 325n, 326n, 327, 328, 332, 333, 341, 350, 351, 364n, 366, 368, 374, 378, 379, 386, 388 , 389, 391-394, 402, 414, 415, 418n
Cavid / Cavad bəy (Naxçıvan Jandarma Kuman-dani), 55, 86n
Cebaçlı kəndi, 283
Cəbrayıl, 358n
Cəbrayıl-Şimali İran yolu, 251
Cəhənnəm dərəsi, 445

Cəhri( kəndi), 25, 41, 45n, 67,78 n, 111, 140, 147,173, 206, 387
Cəhri əhalisi, 436
Cəhri bölgəsi, 396n
Cəhri batalyonu, 94, 111, 119
Cəhrili Kərbəla Abbas Hacı Kərimoğlu Bayramov, 52n
Cəhrililər, 213
Cəlal bəy (Leytenant), 301, 339
Camal Paşa, 341,371 n
Camal (Türkiyə Kommunist Təşkilatı üzvü), 344, 363
Camalbəyov (Azərbaycan Parlament üzvü),120n, 143
Cəmil (Leytenant), 304
Cənabı Əhməd Paşa, 2
Cənnətabad, 304
Cənub-I Qərb Qafqaz milli müvəqqəti hökumət, 131
Cənub-i Qərb Qafqaz Hökuməti, 127n, 131, 134
Charles (Leytenant), 154, 216
Cahangiroğlu İbrahim Bəy, 31, 55, 89, 91, 92, 97, 98, 99, Loon, 101, 106n, 107, 108, 111, 112,115-118,121,122,124,126-133,134 n 172
Cahangirzadə Həsən Safvət, 259n
Clarck, Hoover, H., (Müttəfiqlərin Kömək İşləri Ümumi Koordinatoru), 232
Cory G.N. (General), 180, 182, 208n, 215, 218
Culfa Anbar məmurluğu, 55
Culfa stansiyası, 53
Culfa körpüsü, 25n, 41, 42, 50, 63, 213 Culfa dəstəsi, 41n
Culfa, 3, 5n, 13, 14, 18, 21-23, 24n, 25, 34, 37,38 n, 41, 42, 47, 49, 50, 51,52 n, 53,55 n, 58, 60 - 65, 67, 68, 83, 88n, lOln, 146,153, 155, 159, 162, 173, 177, 179n, 183, 186, 188, 213, 217, 224, 237, 250, 252, 263, 269, 278, 286, 301n, 303n, 310, 358n, 401, 402, 436, 419n
Respublika qəzeti, 247n, 300n
Respublikaçı, 285
Curzon (Lord, İngilis Xarici işlər naziri), 202n, 221-

-Ç-

Ç. Babayev, 368
Çapakçur, 322
Çərxi idarəsi, 20
Çar Rusiyası, 248
Çar Rusiya Ordusu, 5
Çar Rusiyası, 4
Çatak, 392
Çəmənkənd, 64

Çhenkeli, A.J. (Qafqaz Heyəti sədri), 11,12, 15, 16
Çığın Adası, 64 Çıldır, 56
Çiçerin (Sovet Xarici işlər komissarı) 298, 327, 340, 341, 351, 358n, 359, 360n, 371, 375, 377, 412, 438, 439
Çimənkənd, 197
Civə (kəndi), 276, 278, 319, 321
Çolaq Sadiq , 436
Çöl, 67
Çul (kəndi), 276, 277, 304, 427
Çürüksu, 56

-D-

Dağıstan, 9,17 n, 72,168, 228, 249, 337,427
Daxili İşlər Nazirliyi, 40, 56, 83n, llOn, 125, 127n,187n, 202n, 248, 282
Daley, Edmund L. (Polkovnik), 233-238, 266, 269
Darabas, 66
Darıkənd, 67
Davin (General), 177-181, 184-186, 189, 191, 203
Davud bəy, 127n
Dəhnə, 188
Dəhnə Boğazı, 121, 122, 125, 127, 136, 139, 166, 211, 305, 307, 308, 310, 311, 321, 324, 389, 397, 398, 399n
Dəhnə Dağı, 308, 441
Dəhnə döyüşü / müharibələr, 122n, 128, 137, 332,399n
Dəli Kazon, 64
Dəlican, 14, 188n, 407
Dəmirçi (kəndi), 118, 121, 122, 136, 322
Dəmirçi Quşçu (kəndi), 122,136, 398
Denikin ordusu 297, 336
Denikin Ordusu / ları, 250, 284, 296
Denikin, 278, 335
Dərbəndi, 249
Dərbəndi, 3
Dərələyəz, 23, 64, 65n, 68, 71, 78n, 99, 111, 116, 125, 194n, 224, 227, 228, 232, 249, 267, 272, 277, 302
Dərələyəz Bölgəsi, 226
Dərviş Bəy (Doktor) , 369, 382
Dəvəli / Ararat (Kəndi), 58, 59, 64, 117, 118, 136, 139, 144, 154, 155, 158, 163-166, 173, 180n, 181, 185, 214, 276, 298, 301, 302, 305, 306, 389, 399, 400, 402, 404, 414, 441, 446
Dəvəli Stansiyası, 405, 441

Ali Osman Dövləti bax:.Osmanlı Dövlət Dilman, 15, 50, 83
Dilucu Bölgəsi, 51n, 121n dividə, 392
-Dizə, 25n 304, 313, 322
Dizə batalyonu, 119, 394
Şərqi Anadolu, 9, 343n 359, 375, 438
Şərq Cəbhəsi, 245-247, 260, 279, 280, 282, 283, 290, 294, 295, 298, 301, 302, 304, 305, 308, 311, 326, 327, 329, 332, 333
Şərq Hudutları / sərhədləri 440,443
Doqquzuncu Ordu, 38, 3 Sınırları, 440, 443
Şərq Şüregel, 13043, 50, 51, 53, 58, 62-64,67, 71-74, 77, 79, 80, 83, 93, 94, 96
Doqquzuncu Qırmızı Ordu komandanlığı, 372
Doqquzuncu Ordu komandanlığı, 37n, 38, 43, 51, 58, 59, 63, 68-71,75 n, 77 , 78, 81, 82, 84, 88, 91, 95, 96n, 102,105, 109, 125
Donald, A.Robinson (Podpolkovnik), 263
Donald, MC, 274
Dördüncü korpus, 13-15, 38, 39, 41, 42, 49, 50, 53, 73
Dördüncü korpus komandanlığı, 48
Dördüncü Murad, 2
Dro (Arampaşa, erməni Şəbəkə rəisi), 24n, 64, 165, 166, 167, 169, 170, 176, 184, 185, 188, 196, 216, 218, 283, 284, 323, 343, 359, 372,379
Dro Qüvvəütləri , 373
Dulxanov (Polkovnik), 116,123 n, 136, 137
Düdəngə, 398

E-

Eçmiadzin Qəzası, 249
Eçmiadzin / Eçmiyazin, 16, 17, 19, 63, 68, 77, 78, 83, 100, 109n, 116, 130, 144n, 215, 219, 249, 256, 266, 281, 28
Ədib Bəy (baş leytenant, Ordubad bölgəsi komandanı), 247,260, 275, 278,279,300
Əfəndi Fazil, 70
Əkbər bəy Əkbərov, 28, 97, 98n, 100, 116
Əkbər Xan Naxçıvanski, 25, 259
Oktyabr üsyanı, 5, 248
Elam, 1
Eldənizli (İldenizli) Atabəylər, 2
Ələkli, 275
Yelenovka kəndi, 41
Eliava,Şalva (Sovet Elçisi), 371, 445
Əlincəçay (Nahiyesi), 140, 147, 275
Əlpinçay, 19

Elviye-i Səlasə, 9, 13, 55, 56, 72n, 76, 86, 101n, 129,131, 201, 239, 280, 296, 297, 336, 340
Emin Bəy (Cahangiroğlu İbrahim bəyinMuavini), 85,111,117
Əmr Bəy Nərimanbəyov, Bkz.Emir Bəy Zima-Beyza
Əmr Bəy Vəzirov, bax:.Emir Bəy Zimanbəyzadə Əmr Bəy
Zimanbəyzadə, (Araz Türk hökuməti Başçısı), 91, 92, 97-101, 104, 111, 115 - 118,126, 128, 129,132,133, 140-142, 147
Əmirov bax:.Mirza Nəsrullah Bəy Əmirov
İmperial Bankı, 397n
Əndülüs, 43
Engizisyon, 43
Ənvər Paşa, 7, 10, 12n, 14, 16n, 31, 72, 235n, 341
Ənzəli, 297
Ərdəbil, 330
Ərdoğan, Fəxrəddin, 61, 85n, 131
Ərhacı, 395
İrəvan, 3, 9, 14, 15, 16n, 19, 20, 23n, 24, 26, 28, 41n, 49, 64n, 65, 67, 69, 77, 78n, 82, 97n, 100, 105, 109, 113, 115-117, 124, 135-137, 139, 140n, 141, 144, 149, 152, 153, 154, 155, 157-165, 167, 170, 174, 177, 179, 180n, 181,182, 184, 186,188 n, 191, 194n, 195, 196n, 202, 203, 205, 207-211, 214 - 220, 225, 227, 233, 236, 238,240, 248-250, 253, 256, 266, 270, 279, 280, 281, 283, 289, 296, 298, 343, 351n, 362n, 376, 391, 393, 397, 404n, 405, 406, 419-421, 422n, 423, 424, 427, 430n, 432,433, 436
İrəvan Vilayəti Müsəlmanları, 28n, 270, 280
İrəvan Qubernatorluğu, 4
İrəvan Quberniyası, 248, 265
İrəvan Xanlığı, 3
İrəvan Hökumət,65, 239
İrəvan İnqilab Komitəsi, 422
İrəvan islam birliyi 283
İrəvan İslam Şurası, 105
İrəvan Qafqaz, 446
İrəvan mühacirləri, 105
İrəvan Müsəlman Milli Komitəsi (İrəvan Milli Şurası), 17, 27
İrəvan şəhəri, 27, 113n
İrəvan Şura Hökuməti, 298n
İrəvan Uyezdi, 116n
İrəvan və Dərələyəz qəzaları, 267
İrəvan Vilayəti, 17, 23, 27, 28, 113, 143, 149, 229, 249
İrəvan Vilayəti həmşəhərli (həmyerli) Yardımlaşma
Cəmiyyəti,96n, 120, 143,145,146, 251
İrəvan Vilayəti Müsəlmanları, 27, 120

İrəvan Vilayəti Müsəlmanları Yardımlaşma Cəmiyyəti.bax:.
İrəvan Vilayəti həmyerlilərin yardımlaşma Cəmiyyəti
İrəvan Vilayəti Türk müəllimləri İttifaqı, 105n
İrəvan-Culfa dəmir yolu, 230
İrəvanlı Abuş Bəy Mirzəbağır Sükuf, 123n
İrəvanlı Xanlar, 115
Baş stab , 187n, 301n, 344n, 350, 364, 368n, 379n, 380n, 396n, 434
Erməni kəndləri, 62
Erməni əhali / si, 43, 69, 78n, 224, 271, 405
Erməni Hərbi dairələri, 208
Erməni əsgərləri / Qüvvələri / Gücləri / Birlikləri, 6, 9, 10, 12, 15, 23, 35, 37, 41, 49, 50, 53, 64n, 78, 102, 115, 117n, 120-124, 126, 127, 136, 137, 140n 155, 159 175, 178, 180, 184-186, 188,190, 191-196, 197, 209 - 214, 216, 218, 265, 271,274,
278, 280, 284, 326, 343, 363, 396, 397, 398, 410
Erməni Respublikası (Bax..Ermənistan Cumhuriyyəti)
Erməni dəstələri, 10, 36, 42, 60, 61, 62, 66, 68,145, 250
Ermənistanın Xarici İşlər Nazirliyi, 109, 113
Erməni qəzetləri, 379
Erməni hakimiyyəti, 48, 173, 217, 232, 281
Erməni Xalq nümayəndələri Soveti, 9n
Erməni xalqı, 35, 375n
Erməni hərəkatı, 352
Erməni heyəti, 19, 115, 226-228, 438n
Erməni hücumları, 124-128,133-135, 140, 153
Erməni hökumət İdarəsi, 189
Erməni hökuməti, 41n, 48, 65, 69, 109, 113, 116n, 124, 154-157, 162, 163, 165, 166, 173 , 176,179-181,184,185, 189, 219, 222, 230, 233, 245, 262, 264, 272, 276, 278, 283, 299, 310, 401
Erməni Ordusu, 13, 35, 40, 148n, 181, 188n, 237,196, 220, 222
Erməni hücumu / ları, 242, 261, 279n, 283, 302, 304, 305, 327, 350, 364, 387, 389, 398, 439
Erməni nümayəndələri, 128, 228
Erməni idarəetməsi İdarəsi, 215, 223, 258, 262, 264, 412
Erməni-Gürcü Döyüşü, 136n
Erməni-Sovet Andlaşması, 381
Ermənistan, 1, 18, 19, 47, 48, 64n, 65, 66, 69, 75, 77, 78n, 101n, 109, 113, 114, 116n, 149, 150,153,154,156,157,159-170,172-174, 177, 178n, 179n, 180, 181-186, 187n, 193, 194, 204, 205, 207, 208, 213, 214n, 215, 216, 218-222, 224-227, 229n, 230, 232, 233n, 236, 237, 239-242, 245, 246, 248, 249,250-257, 259, 262-265, 267, 269, 271, 276, 280, 281, 284, 285, 289n, 292, 296, 297, 298n, 299, 302, 303, 308n, 319, 321, 322, 324, 329, 333, 335, 337, 339-343,

346, 350-352, 357, 358, 359, 360, 362, 372-375, 377-381, 386n, 388, 391, 392, 397n
399n, 400-403, 405, 409, 411-422, 424, 426-430, 432, 433, 435-438, 439, 441 - 446
Ermənistan Sosialist Respublikası, 44
Ermənistan Baş komandanlığı, 372
Ermənistan cəbhəsi, 432
Ermənistan Respublikası,, 109, 116n, 155, 167,177,179 n, 185, 219
Ermənistan dəmiryolu şəbəkəsi, 225
Ermənistan dəmir yolu, 377
Ermənistan dövlət Bankı, 184
Ermənistan dövləti, 187n
Ermənistan Xaric nəzarəti Bax..Erməni Xarici İşlər Nazirliyi
Ermənistan haqda məlumat, 19
Ermənistan hökuməti,110n, 139, 185, 215, 224, 225, 237, 253n, 255, 272, 273,, 279 285, 358, 360n, 362n, 375, 406, 412
Ermənistan mandatı, 221, 222
Ermənistan Məclisi, 221n
Ermənistan ordusu, 237
Ermənistan sərhədləri, 446
Ermənistan Sovet Sosialist Respublikası, 407
Ermənistan Şurası, 409
Ermənistan səlahiyyətliləri, 281
Ermənistan Ali Komissarlığı, 223
Ertoba qəzeti, 230n
Ərtürk, Hüsaməddin, 334n
Ərzincan, 6, 7, 9, 10
Ərzurum, 6, 10, 76, 125, 168, 198-201, 239, 241, 244, 246, 250, 257, 280, 282, 291, 293,294, 297, 299, 300, 307, 333, 336, 338, 341, 346n, 374
Ərzurum Konqresi, 199, 239, 335
Ərzurum Müdafiə-i Hüquq Cəmiyyəti, 199
Ərzurum valiliyi, 125,127 n, 282
Ərzurum vlayəti, 187n
Ərzurum- Bəyazid yolu, 335
Əsəd Paşa, 38, 39
Əsəndal, Məmduh Şövkət, 444
Köhnə İrəvan vilayəti, 131
Estoniya, 390
Övliya Çələbi, 1, 2
Evoglu, 42
Əzneburd Bkz.Əznəburd

-F-

F. Mahmudbəyov, 368
F. Vekilov (Azərbaycanı Gürcüstan səfiri, 207,228
Fəxri bəy (Kapitan), 346
Fərhat Paşa, 2
Fətəli Xan Xoyski (Azərbaycan-Bakı Nazirlər Şurası sədri), 252, 143, 150, 260, 419n
Fəthi Bəyzadə Bədri Bəy, 124
Fətullah Hüseynov, 119
Fələstin cəbhəsi, 6, 71
Füzuli, 150, 252
Forbes, Stevart, (Mayor), 217, 220
Fransa, 8, 68n, 172, 220n
Fransız, 75, 106n, 158, 160, 208, 21 ln, 216, 356
Fuad Bəy (Kapitan), 335, 337, 341, 369, 371n

-G-

G. Əsgərov, 368
Gacinski, (Azərbaycanlı nazir), 438n
Qafan, 3, 274, 283
Qafqazıya bax. Kafkasya
Qamasor dağı, 441, 446
Qəni bəy Vəzirov, 54, 55
Qaraçuq.Bax.Karaçux
Qaraş Mədətov, 55n, 85n, 101, 107, 143n, 289n,290, 369, 432, 437n
Qarçevan, 446 Qaşi, 197
Qaşlı 197
Qegeçkori (Gürcüstan xarici işlər naziri), 281
Geker A. (XI.Qızıl Ordu Komandiri), 433, 434n
Geleban, 197
Gəncə, 3, 14, 17n, 23n, 37, 114, 164, 205, 248, 249, 283, 297, 303, 354, 358472
Qənizade (Dr "Azərbaycanlı rəsmi), 150n, 252, 280
Qərnibasar, 16n, 96, 102, 103
Qərus Bax.Gorus
Qibbon, W.Dş, 137, 139n, 153, 153
Giülnazaryan, Movses (Erməni Şəbəkə rəisi), 272, 274
Göghtan Təhlükəsizlik Birliyi, 214n, 272
Gordanıyan, İstepan, 401

Goris, 225, 277, 278, 283, 323, 329n, 343, 344, 346-348, 350, 351, 359-361, 371-375, 379, 387, 388n, 390
Göycə Göl, 41, 69n, 77, 114,194 n
Göydağ, 446
Göydəmir, Nadir, 92n, 96n, 107
Gölə, 56
Qracey (Kapitan), 376
Gratten-Bellev, Charles (Polkovnik), 216, 217
Qulubəy (Dizə Batalyonu Əmr), 119
Gurogulak, 446
Gülhandanyan, Avram, 401
Gülüstan müqaviləsi, 3
Gülüstan, 276
Gömrü, 4, 5n, 13-16n, 17, 18, 30, 43, 47, 50, 53, 56, 58, 59, 61, 65n, 72, 73, 80, 81n, 83, 96, 99,100, 109,159, 165, 171,182,188 n, 204, 249, 397, 399n, 401, 404, 411
Gömrü Anlaşması, 401-406, 408, 411, 412, 414, 417, 421, 422, 428, 429, 433, 434, 438-441
Gömrü danışıqları, 404
Gömrü Mövqe Komandanlığı, 95
Gümrü müqaviləsi Bax.Gömrü Anlaşması
Gömrü-Şahtaxtı-Culfa dəmir yolu, 373
Gömrü-Qars dəmir yolu, 347
Gömrü-Şahtahtı və Culfa dəmir yolu, 360, 376
Günəri, Süleyman Necaüti, 401
Güney Azərbaycan, 24, 58, 263, 371
Güney Azərbaycan Türkləri, 24n
Cənubi Qafqaz, 3, 75, 149, 151, 178n, 208, 219,220, 230, 248, 249, 252, 352
Cənubi Qafqaz Konfransı, 279
Cənubi Qafqaz Ofisi, 202n
Cənub Rusiya, 335
Cənub-qərb Azərbaycan müsəlman nümayəndələri, 231
Gürcüstan, 18, 19, 53n, 149, 168, 181, 205, 207, 219n, 221, 228, 232, 237, 248, 278, 281, 283, 299, 335, 336, 352, 374, 407, 413, 443-445
Gürcü / ler, 5, 6, 11, 16-18, 76, 77, 80, 82, 83, 89n, 127,129, 132 387
Gürün, Kamran, 334n
Gözəl Əli Paşa, 2

-H-

H. Aliyev, 368
Həbib b.Maslama, 1

Həbib Selimov (General), 305, 307, 313, 314, 316, 319, 320, 322, 324, 325, 326, 330, 332, 368n, 386
Hacı Abdullah Şeyxzadə, 34
Hacı Əbdülabbas Şeyxzade, 130
Hacı Əli Əsgər Hüseynov, 26
Hacı Cabbar (Kömək), 198
Hacı Cabbar Ağa / Bəy / Tağızadə, 118, 199, 210,212n, 243, 247, 410, 412
Hacı Cabbar Allahyar, 131
Hacı Cabbar Şeyxzade, 410
Hacı Hüseynli Qurbanov, 138
Hacı Mahsudi (Naxçıvan ərzaq Komissiyası sədri), 368, 385, 386
Hacı Mehdi Bağırov (Naxçıvan Yerli Hökumət Rəisi), 25,107 n,, 137-142
Hacı Məmmədoğlu Məmmədzadə Mirzə Cabbar, 130
Hacı Mirbağır Ağa, 136 Hacı Rəcəb, 130
Hacı Şeyx Əli Axund (Zəngibasar nümayəndəsi), 280n
Hacı Zeynalabidin Oğlu Mirzə Ah Bəy, 105
Hacıyev (Naxçıvan Hökuməti daxili işlər Naziri),195, 142n, 259, 260
Hacıyev, Aydın, 55,101,, 107, 119n, 126n, 128, 134, 179n, 196n, 207, 214, 228n, 235n
Hacı, 446
Xaçın, 63, 67
Haqqı (Türkiyə Kommunist Təşkilatı üzvü), 344
Haqverdiyan, Hovhannes (General, Ermənistan Müdafiə naziri), 125n, 136n, 216
Xalça əhalisi, 324n
Xələfli (Halkalı), 395
Xalid bəy (9 diviziya komandiri ), 293, 294
Xəlil Ağa Ağalarov, 140 Xəlil bəy ( millət vəkili Məclisi rəisi), 18, 234n
Xəlil bəy (Naxçıvan ətrafı komandiri), 16, 17, 25-27, 29-42n, 43 - 46n, 47-49, 51, 52n, 62, 63, 66, 67, 70, 85, 86, 91,100n, 107, 108, 112n, 115n, 118, 121n, 122n, 123, 127n, 132,133, 136,138,161,188, 207, 210-217, 220, 222, 223, 230, 231, 233-
237, 255n, 258n, 273n,, 240-242, 244-247, 255, 257 - 264, 266, 269, 274, 276-278, 281n, 282,285-293, 295, 302, 308, 315, 317, 318, 330, 334
Xəlil İbrahim Bəy (leytenant), 394, 396
Xəlil İbrahim Əfəndi (kiçik leytenant), 86n, 138
Halil İbrahim Əfəndi (baş leytenant), 211
Xəlil Paşa (Şərq Orduları qrup komandiri), 235, 242, 248, 261, 275, 277, 284, 294, 297n, 323, 330, 335-337, 341-344, 347, 348, 351, 352, 359-367, 370, 371, 372, 374, 375, 378, 385, 387n, 388n, 390
Xalis Turqut bəy (Naxçıvan qəza rəisivəkili),40n, 54n, 57
Haus, 197

Həmdi Əfəndi, 302
Həmzəyev, 122n
Xan Təkinski (Azərbaycanın Ermənistan səfiri), 167, 168, 174, 175, 180n, 191, 195, 203 - 205, 207, 208, 217n, 218, 250, 253, 254, 255
Xan Təkinski Hökuməti, 254
Xanaqara, 15
Xanlıqlar (Kəndi), 32n, 211, 214, 271, 273
Xanteski, Jak (Latviya nümayəndəsi), 445
Hanvalı, 43n Hanzirik, 304
Xarazyan, Ero (Naxçıvan Erməni Qarnizon Komandiri, 25, 26, 33-35, 41n, 44-47, Hərbi nazirlik 59n, 76, 81n, 84, 97, 113, 121n, 124, 125, 145, 180n, 187n, 188, 201, 202, 203n , 214, 280 n
Harbord (General), 10, 221, 223n, 232, 250n,, 263, 264
Harbord Heyəti, 222, 223, 263, 264
Xaric İşlər Nazirliyi, 18, 72, 73, 76, 84, 125n 167,202, 205
Xaric İşlər Nazirliyi, 434
Həsən Ağa Kuğuşov, (polkovnik), 143n, 145, 146, 147, 148, 165, 251
Həsən ağa Səfizadə, 98
Həsən bəy, 52n, 131
Həsən xan, 304
Həsən Şahverdioğlu, 119
Həsənqala, 346
Haskel, William N "(Polkovnik), 202n, 220-224, 226 - 230, 232-234, 236, 237, 256, 258, 262, 263, 267, 269, 273, 281
Xatisyan, Aleksandr (Ermənistan Dövlət katibi) 177-179, 181, 182, 186, 189, 191, 203-205, 215, 226, 228,, 284 401, 404 hövzə, 334n
Hayastani Aşhatavor qəzeti, 230n
Heydər Bammat (Şimali Qafqaz Respublikasının nümayəndəsi, 16
Heydər bəy (Van Valisi), 187, 247
Heydərqulu bəy. bax Muradəsilov Heydərqulu Bəy
Muradəsilov Heydərqulu Bəy 136,176,192,234258-260, 285, 329
Xəzər dənizi, 48
Həzrət Müaviyə, 1
Həzrəti Osman, 1
Nümayəndə heyəti, 244,279, 335n, 340, 342
Hibben, Paxton (Kapitan), 233, 234
Hicaz, 59n
Hikmət bəy (Naxçıvan Hərbi komissarı), 414,416, 420-425
Qırmızı Aypara cəmiyyəti, 266n
Hilmi (Türkiyə Kommunist Təşkilatı üzvü), 337,344, 348, 349
Hilmi bəy (Qars mutasarrıfı), 83n, 129
Hilmi Bəy, 49n

Yardım cəmiyyəti, 89n
Yardım qrupu, 21
Hindistan, 221
Xok (Kəndi), 396, 397, 431
Horadis, 67, 446
Xorasan, 57
Xosrov Bəy (Sultanov, Qarabağ valisi), 264, 286,287
Hoşap, 13
Xoşxabər, 395
Xoşulu, 25n
Hotel Oriental (Tbilisi), 18
Hovannisian, Richard, 101, 113, 117n, 125, 136, 139n, 141n, 177, 181,191, 194, 195n, 197, 201n, 204, 208, 210, 212, 213n, 215, 231, 234n, 254, 275, 281
Xoy, 3, 14, 24, 120n 121, 29, 32, 42, 50, 83, 127, 414
Xudafərin Körpüsü, 117, 299, 330, 358
Yerli hökumət rəisləri / Rəislikləri, 54, 57n, 73,78
Yerli hökumət, 33, 37, 38n, 40, 57, 58, 70, 81,90,138
Hökumət-i Osmaniyə Bax:.Osmanlı Hökuməti
Hökumət-i Səniyə Bax.Osmanlı Hökuməti
Hüseyn Ağa Novruzov, 29
Hüseyn Əliyev, 119
Hüseyn Əvni Bəy, 49n, 89n 107, 108, 412
Hüseyn Cavid, 143
Hüseyn Rauf bəy (Miralay), 11
Hüseyinqulu bəy Safiyev, 123n.
İ.Hüseynzadə, Lətif, 21n, 25n, 52n, 143n
Hüsnü Bəy (Topçu kapitan), 31-34, 112n
Xosrov bəy (Mayor, III.Ordu Hərəkat Şöbə Müdürü), 8, 334n

-I-

İğdır, 13, 15, 22, 23n 28, 36, 48, 54n, 59, 61, 73, 80, 83, 88-92, 94, 95, 96n, 98, 99,100, 103 - 105, 106, 111, 123 , 124, 125, 130, 131, 134, 140n, 156, 158, 188n, 194n, 201n, 219, 276, 279, 280n, 281-283, 292, 296, 392, 393, 395, 397
İğdır əhalisi, 110n
İğdır bölgəsi, 215n, 279
İğdır İcra Komitəsi, 22n
İğdır qəsəbəsi, 94, 97
İğdır komandanlığı, 104
İğdır Mövqe komandanlığı, 95, 108
İğdır Milli Komitəsi, 22n
İraq, 31, 50, 38n, 335

-İ-

İbrahim ağa (Revkom Başçısı), 369, 386
İbrahim ağa (Şahtaxtlı), 302, 348
İbrahim ağa Karslı.Bax:.Cahangiroğlu İbrahim Bəy
İbrahim bəy (leytenant), 339, 341, 371
İbrahim bəy bax:Cahangiroğlu İbrahim Bəy
İbrahim bəy Qədimov, 55
İbrahim əfəndi, 38, 39
İbrahim xan Axundov (Müəllim), 119
İbrahim Xəlil əfəndi (Ordubad bölgəsi komandiri), 302
İbrahim xan, 419n
İbrahim paşa Kəngərlinski, 55
İhsan (ehtiyatda olan zabit), 282
İkinci Qafqaz korpusu, 10, 37n, 58
İkinci Qars konfransı, 130, 131, 134
İlhanlı, 1
İngilis / yer, 13, 36n, 42, 48, 50, 75, 83, 85, 106n, 108n, 127n, 131n, 136n, 137, 144n, 145, 150, 152, 153, 156, 159, 160, 162, 164, 165, 168, 172, 175n, 179-182n, 183, 191, 194, 198, 206-209, 21 ln, 213, 215, 220, 221n, 230, 234, 235n, 236, 237n, 245, 254 , 266, 287, 339, 342, 351, 356, 376, 391, 407, 409, 440
İngilis Hərbi Birlikləri / Gücləri, 215n, 219, 194, 335
İngilis Hərbi dairələri , 150-152, 155, 159, 163, 164, 178, 180, 182, 184, 191, 253n, 279, 354n
İngilis Hərbi Nümayəndəliyi / səlahiyyətliləri, 68n, 144
İngilis Heyəti, 141
İngilis Kəşfiyyat Servisi / İşçiləri / Kəşfiyyatçıları 221, 339n, 374n
İngilis Komandanlığı 137n
İngilis qüvvələri, 13, 84n, 181, 216, 336
İngilis ordusu, 181
İngilis zabitləri / Əlaqə zabitləri, 84n, 208
İngilis nümayəndələri, 183
İngilis valiliyi / Hərbi Valiliyi, 144, 151, 251
İngilis səlahiyyətliləri/ Səlahiyyətli Orqanları, 143, 144
İngilis rəhbərliyi, 156, 164
İngilis-Hindistan Telqraf xətti, 237
İngiltərə, 8, 75,152, 160,164,175,183, 217, 220n,265, 402n,
İngiltərə Hökuməti, 376
İnqilab Komitəsi / ləri bax :Revkom İnqilab Orduları, 344
İran, 3, 5n, 13-15, 27n, 19, 23, 24n, 25n, 34, 38n, 41n, 42, 48, 50, 53n, 58, 71-74, '88n, 97n, llln, 113, 114 , 115n, 119, 121, 124-126, 128, 134, 135, 136n,

137, 139, 143, 145, 149, 150, 153, 155, 156, 163, 169, 171, 172,174-177,183, 198, 204 , 213,
221, 225, 240, 241, 242, 249-252, 254, 256, 267, 270, 271, 276, 283, 286, 288, 294, 296, 300, 301n 304, 309-311, 320, 321, 324, 325, 327, 328, 330, 333-335, 348, 359, 362, 364, 369, 370, 376, 377, 381, 383, 390, 393, 401, 402, 405, 406, 414, 420, 422-424, 432, 436, 437, 439
İran əhalisi, 249
İran Hərbi rəhbərliyi, 135n
İran Culfası, 53n
İran demokratları, 36n
İran heyəti, 136, 139
İran hökuməti 135n, 270, 328
İran inqilabı, 100
İran Ordusu , 371n
İran şahzadələri, 3
İran Şahı, 135
İran Torpaqları, 402n
İran vəliəhdi, 60, 139, 145
İranlılar, 427
İrlik, 66
İskəndər xan, 208, 329, 371, 419n
İslam əhalisi, 26, 61, 62,63, 65-67, 69, 78n 80-82, 90, 96, 97, 99, 109, 112, 114, 124, 125, 140, 146, 163, 172, 190, 192, 193, 198, 202, 203, 206, 210, 239, 246, 251, 266, 280, 284, 308, 387n
İslam xeyriyyə cəmiyyəti 105n
İslam uşaqları, 219n
İslam Gürcistarn Gazecesi, 358n
İslam kəndləri, 25
İslam Milli Şurası (İrəvan), 106n
İslam mühacirləri, 361
İslam Orduları, 1
İslam Ordusu,, 20, 30, 36, 38, 39, 64, 66, 67, 85, 138.
İslam Ordusu komandanlığı, 38, 39, 65, 67, 78n İslam Ordusu hissələri 68
İslam Bayrağı, 145
İsmət Bəy (baş stab rəisi),329, 331, 352, 364, 391, 396n
İstanbul, 19, 54, 59n, 75,149, 201, 232n, 244, 283,292, 334, 336, 371
İstanbul mətbuatı / qəzetləri, 19n, 48n, 201n
İstanbul hökuməti, 16, 376
Kəşfiyyat müdirliyi), 351n
İstiqlal qəzeti, 349n, 441 n
İstiqlal Bəyannaməsi, 421, 427

İstiqlal qəzeti, 42, 43n , 150, 284
İtaliya / İtalyan, 106n, 172n, 175, 228
İtaliya hökumətləri, 220n İtqıran, 446
İtilaf Dövlətləri nümayəndələri, 84, 121n, 125
Antanta dövlətləri, 6, 9, 75, 84, 86, 87, 108, 114, 115, 116, 120, 124, 125, 129, 144n, 152, 187n, 291, 292, 334, 335, 336
Antanta orduları, 71
İttihad-ı Millət firqəsi, 91, 92
İttihat və Tərəqqi, 234n
İyov, 137, 197
İzmir, 40n, 256, 270, 271
İzzət Bəy, 66n
İzzət Paşa, 85

-J-

Jaeschke, Gotthard, 411n
agovurd qəzeti, 230n
Jamalyan A. (Erməni nümayəndəsi), 375
Yaponiya, 4
Jodluk, Nikolay, (28.Qızı l diviziya komandiri),349, 380, 388n, 391
Cordanya (Gürcüstan Hökumət Başqa), 278

-K-

K.M. Əskərov, 231 Qabullu, 326 Qacar sülaləsi, 3
Kaçaznuni kabineti, 139
Kaçaznuni, O.V, 184, 218
Qaçqınlar Komitəsi, 267
Qafqaz / lar, 30n, 61, 232, 248, 265, 336, 339, 407
Qafqaz əhali-i İslamiyəsi, 102
Qafqaz Cəbhəsi, 6, 7, 49, 50, 59, 71
Qafqaz Respublikası / ləri, 13, 19, 165
Qafqaz Hökuməti / ləri, 11, 14, 15, 19, 38, 40, 73, 165, 336,
Qafqaz İslam Ordusu Bax:.İslam Ordusu Qafqaz
Müsəlmanları, 102, 119n
Qafqaz Orduları Başkomandanlığı, 11
Qafqaz Ordusu, 38
Qafqaz neftləri / Neft resursları, 221
Qafqaz səddi, 336
Qafqaz süvari alayı, 348, 352n, 361
Qafqaz nümayəndələri, 19, 106

Qafqaz, 1, 5, 22, 23n, 25n, 27, 28, 30, 61n, 72, 74, 75n, 84, 88n, 106n, llOn, 144n, 200, 205, 215, 219, 220, 222, 223, 236, 237, 244, 245, 248, 250-252, 256, 262, 269, 280, 281, 292, 293, 296, 297, 335,, 350n, 374, 375, 377
Qafqaz Hərbi komandanlığı, 3
Qafqaz Azərbaycanı, 3
Qafqaz bölgəsi, 59
Qafqaz mətbuat, 230n
Qafqaz Mərkəzi İcra Komitəsi, 446
Qafqaz müsəlmanla, 251
Kağızman, 15, 28n , 38, 39, 57, 74, 80, 86, 92n, 127, 131, 134n, 146n, 21 ln, 280n, 392, 443
Qal, 69n
Qaladərəsi, 66n
Kalba Kərim, 119
Kalba Muxtar, 119
Kalloch, Parker C. (Mayor), 233
Kamasor Dağı, 401
Kamerli / Qəsəbəsi, 24n, 47, 55n, 58n, 63, 71, 73, 77, 87-89,91-100, 103, 104, 106, 111, 112, 113n, 115-117, 123-125, 128, 130, 131, 134, 145, 149, 155, 156, 158, 163, 184, 188, 194n,197, 203n, 214-216, 218, 276, 402
Kamil bəy (Leytenant), 301, 339
Kamran Xan, 55n
Kanal hərəkatı, 6
Qənbər Əli bəy Binenikari, 98,140, 142n
Qanuni Sultan Süleyman, 2
Qapancı, Həmid bəy, 401
Qarababa, 69n
Qarabağ, 3, 41, 46n, 53, 65, 66, 114, 137n, 144, 159, 163, 169, 172, 177n, 230,, 243, 249, 250, 259, 264, 268, 277, 285-287, 289, 292, 303, 330, 340, 343, 350, 351, 353, 356, 358, 359, 361, 372, 373, 375, 377, 407, 412
Qarabağlar, 19, 67, 395, 396, 397
Qarabəy (Naxçıvan Qubernatoru), 257
Qarabığ, 59n
Qarabürç, 322
Qaraçux, 25, 36, 44, 46, 70, 192,193, 436
Qaraçux batalyonu, 394
Qaraçuxlular, 191
Qaradağ kəndi 283
Qaradəniz, 339
Qaraguluk, 58n
Qaraxaç, 19
Qaraxan, 351, 361n

Qaraqala, 25, 58
Qarakeşişov (Polkovnik), 188, 210-212
Qarakilsə (Ermənistan), 14, 15, 66, 67, 188n, 246
Qarakilisə Bax:.Ağrı
Polis bölməsi Cəmiyyəti, 334, 335, 337
Qarabucaq Bax: Ağrı
Qaralar, 218
Qaralar  milis batalyonu, 305
Qaralax Əlməmməd xətti, 305
Qaranlıq dağları, 19
Qarasu, 441
Qaratəpə, 398, 399
Qaradurna, 19
Qarayev, Əli Heydər (Azərbaycan  Hərbi Kommisarı), 343
Qarçivan, 38
Qarğa Bazar kəndi, 283
Qars, 9, 11-14, 16, 17n, 37-39, 56, 57n, 59, 61, 72 - 74n, 75,76, 82, 90, 95n, 99, 100n, 101n, 105-107n, 116n, 117, 124, 127, 128, 129n, 131, 134n, 150, 157, 158, 161, 163-165, 167-169, 180, 181, 185-187n, 188n, 194n, 222n, 239, 240, 249,
251, 252-260, 262 - 270, 274-280, 284-289, 295, 298n, 334, 373n, 387n, 392, 395, 397, 402, 404, 413, 420, 425, 426, 438,443,444
Qars müqaviləsi, 445
Qars İslam Şurası, 89n, 92n, 129-131, 239
Qars İslam Şurası hökuməti, 132, 134
Qars Konfransı 442, 444, 445
Qars konqreslərin, 133
Qars briqadası, 56
Qars Milli Şura Hökuməti, 133
Qars Milli Şurası, 106n
Qars  müqaviləsi , 444n
Qars Müsəlman Millətlər Şurası, 130n
Qars dəmiryol    xətti, 381
Qars vilayəti, 249
Qars-Sarıqamış dəmiryolu, 376
Qars-Sarıqamış xətti, 380
Qasyan (Sovet Ermənistan Revkom rəisi), 408
Keşdaz Kəndi, 193,199
Qafqazskoe slovo qəzeti, 66n
Qazax (Qazax), 17n, 19, 259
Kazım bəy (Polkovnik, XV.Kolordu komandir və-kih), 243, 374

Kazım Qarabəkir Paşa, 14, 15, 22n, 30n, 43n, 52, 58, 60, 61,65-67, 70, 74, 75, 77, 78, 180n, 181, 187n, 188, 196n, 197n, 200, 201, 202, 209, 210, 214, 217n, 219n, 234n, 239, 240, 241, 244-247, 255n, 258, 259n, 261, 277n 278, 280n, 282, 288n, 290 -298, 300, 301, 303, 304, 306-308, 311-314n, 316-319, 321, 322n, 323, 325-344n, 345, 347-349n, 350, 351-353, 355, 357, 358 , 360n, 361n, 363 - 368n, 373n, 374n, 378, 379n, 380n, 390n, 391, 392, 394, 397, 399n, 400, 401, 402, 403n, 404-406, 408, 411, 412, 416 , 417, 419, 421, 425n, 426-435, 437, 439, 440n, 442-445n Keçih Kəndi, 285
Kalbalı Xan, 25n101n, 107n, 126n, 135, 136, 137,141, 142, 144,146-148, 154, 157, 161, 162, 172, 174, 177, 179, 193, 209, 210, 223, 230, 231 , 234, 237n, 256, 258, 259, 260, 261, 262, 263, 264, 278, 285, 286, 287, 289n, 290, 305, 307, 312, 313, 314, 315, 316, 356, 370 , 371n
Kəlbə Muxtar, 423
Kamal bəy (kapitan), 325
Kəpənəkçi Emin ağa, 130
Kərbala xan Hacı Muxtar (Nehrəm Tabur Komandanı), 107n, 126, 140, 212, 287 Kərbəla Həbib bəy, 119
Kərbəla Məmməd bəy, 118
Kərbəla Abbas Bayramov, 176
Kərbəla Xudayar, 130
Kərbəla Kərəm, 324
Kərbəla Muxtar Nehrəmi, 176
Kerenski, 5, 20
Kərim xan İrəvanlı, 29, 107n, 118, 122n, 127,137, 141,142,147, 153,156, 206
Karvansaray / İcevan, 407
Keşişkənd, 67, 343
Kığı, 274
Kığı dərəsi , 274
Xınalı Qaraxaç, 124n
Qırmızı Tabur, 348, 394, 395, 433n
Osmani dəstələri Bax :.Osmanlı Qüvvətləri
Qıvraq kəndi, 311, 312, 313, 320, 324n 325, 326, 431
Qırmızı Uşaqlar bölüyü, 382
Qırmızı İnqilabı, 403
Qırmızı Ordu hissələriBax:.Qızıl Ordu Qüvvətləri
Qırmızı Ordu komandanlığı, 342, 345, 350, 373, 386n
Qırmızı Ordu nümayəndələri, 381
Qırmızı Ordu / Birlikləri / Qüvvətləri, 240, 243, 285, 296, 299, 303, 321, 325, 327-332, 338, 340, 343, 344, 346, 348, 349n, 350, 351, 353 - 360, 364n, 365, 366, 372-375, 378, 379, 389, 390n, 391, 403, 407, 429-432,437
Qızılı Ruslar, 431
Qəzılı süvari alayı, 329n, 347

Qızılvəng, 58n
Qızılbuğa, 213
Qızılboğaz , 29, 58
Qızılbulyan, 41
Qızılçek, 66
Qızılyar, 3
Qoçaryan, Gahazar (Bash-Garni Milis Şefi), 272,274
Kolabad, 278
Kommunist qəzeti, 408
Qorxmazov, Cəlaləddin, 439
Kömürlü dağı, 401, 441, 446
Kükü dağı, 304, 349, 401, 441
Qulp (Tuzluca), 125, 211n, 283
Qulplu Şamil Bəy Şurası, 282
Kurat,Akdes nemət, 338n
Qurban Əli Abbasov, 126n
Qurd Qulaq kəndi, 401, 441, 446
Qurd keçidi, 136n
Qurd qapısı, 121n, 154, 166, 168, 214, 225, 253
Quşçu, 322
Quşçu Dəmirçi, 398
Milli quvvələr 261
Şimali İran, 13, 14, 29, 40, 41, 48, 50, 53, 58, 75,83, 84, 85,208
Şimali Qafqaz Respublikası, 16
Şimali Qafqaz, 16, 18, 20, 72, 335
Şimal-qərb İran, 83
Kiçik Ağrı, 37 ln
Kiçik Tələt, 337
Kiçik Vedi, 197
Kültəpə, 1
Kür vadisi, 17n
Kürd tayfa rəisləri, 280
Kürdlər, 80, 91, 98n, 118, 122, 249, 279
Kütays, 12n

-L-

Laughton, F.E. (Naxçıvan İngilis Hərbi Qubernatoru), 141, 144-146, 148, 149, 153-158, 161-164, 169, 183, 230n
Legran .B.V. (Sovetlərin Qafqaz nümayəndəsi), 375,403, 421
Lehistan cəbhəsi, 374, 375
Lehistan səfəri, 378

Lenin V.İ., 9, 45, 377,411
Lənkəran, 277
Levandovski, M.K. (XI.Qızılordu Komandiri),342, 343, 359, 360, 375
Levon Ağa, 26
London, 183
Lori, 184
Luki (IX.Qızıl Ordu Hərbi İnqilab Şura üzvü), 373n, 376

-M-

M. Bektaşov, 368
M.D. Hüseynov (Xarici işlər komissar müavini),358n 405, 420, 444
M.Yusuf Cəfərov, (Azərbaycan Xaric işlər Nazırı),25,149, 204, 227, 228, 232, 233n, 236
Mahmud Bəy, 70
Mahmudkənd, 322, 397, 398
Mahmudov, 423
Maxta kəndi, 123,136, 322
Makenzyan, Boğos (Ermənistan Terapiya Komi-ardıcıl), 445
Maku, 3, 14, 24, 25, 29, 49, 116, 127, 134n, 157, 158, 208, 217, 242, 245, 250, 254, 296, 309, 311, 316, 322, 325, 341, 346, 374n, 390, 392,401,414, 443
Maku-Bəyazid Yolu, 392
Maku Xam / Sərdar, 24, 25n, 29, 145, 213, 242, 245, 254, 286, 288, 322, 325, 392
Maku xanlığı, 286, 425n, 440
Malakan kəndi, 347, 348
Malakanlar, 67, 68
Maliyyə Nazirliyi, 374n
Malta, 127n
Mamaxatun (tercan), 10
Manukyan, Aram, 23n
Maradit, 56
Maravyan, İskinaz (Ermənistan xarici işlər Komi-ardıcıl), 445
Markara Körpüsü, 61, 395, 397
Markara, 58n
Martiros, 276
Zaqafqaziya Respublikası, 12, 15, 16, 248
Zaqafqaziya Dəmiryolları, 18
Zaqafqaziya Federasiyası, 18, 30, 38n
Zaqafqaziya Heyeti, 16, 17
Zaqafqaziya Hökuməti, 11,12, 15, 28
Zaqafqaziyas Komissarlığı, 5, 7, 11, 21, 29, 248

Zaqafqaziya Komitəsi (OZAKOM-Osobıy Za-qavqazskıy Komitet), 20, 21, 248 Zaqafqaziya seymi, 11
Zaqafqaziya, 15
Məzlumların Müdafiə Komitəsi, 21
Millətvəkillər məclisi, 292
Məclis-i Vükela, 56, 59n, 72n, 84
Megri, 3, 387 -389, 392, 274, 283
Megri Harçkätı, 392
Mehdiqulu Xan Diyarbəkir, 24, 34, 35,115 n, 137, 138, 175
Məhəmməd Əli Xan / Bəy, 70,, 107n, 141, 288n,258, 371
Məhəmməd Əli Şükürof, 42
Məhəmməd İmanov, 29
Məmməd Əli Paşa (İrfvandaki Osmaniyə Təmsilçisi), 19, 78n, 104, 105, 109, 113n
Məmməd Muhiddin Bəy (İğdır Yerli Hökumət rəisi və Mövqe Əmr), 80, 89, 90, 91,94, 105
Məmməd Rahim, 419n
Məmməd Sadiq Bəy, 259n
Məmməd Sultan, 56
Məhəmmədzadə Mirzə Bala, 47n, 90, 145
Məmməd Əlizadə, 259n
Məmməd Bəy (Polkovnik), 197, 281n
Məmməd Beyza, 98 Məvməd Çavuş, 197
Məléklə Kəndi, 22n
Məlik Namazliyev, (Zəngəzurdaki Azərbaycan Komandiri), 68
Məmməd Rəhimov, 206
Məmməd Rza Bəy, 119
Menşevik Gürcü Hökuməti, 407
Merdenik (Gölə), 392
Məscidi Məscidi, 25, 106, lll, 115n, 127
Məsuməli bəy Binenikari, 140
Məşədi Abbas Əli Hacı Kərimoğlu İrəvani, 140
Məşədi Heydər Əkbərov, 26, 29, 31, 45n
Məşədi Məhəmməd Rəfıyalov, 24
Məşədi Məhəmmədli Bayramov, 26
Məşədi Sadiq, 140
Məşədi Abbas Bayramzadə, 129,130
Məşədi Əli Əsgər Ağa Həmzəzadə, 34, 89, 118, 119, 121, 122n, 126, 128, 130n, 136, 140n, 141,162, 183,191
Məşədi Xəlil, 280n
Məşədi rəssam Bəy Topçubaşıyev, 125
Mezga, 58

Mezrea-Erniç Xatun, 304
Midiyani, 1
Midivani, P.B.G., (Sovet Rusiya nümayəndəsi), 403,404, 408,411,428, 438
Mixailoviç, Lev (Çiçerinə müavini), 351
Mikoyan (Sovet Azerbaycan liderlərindən), 375n
Mihs Qüvvətləri, 399 Milistan, 231, 232
Milh Mübarizə Hərəkatı, 426
Milh tayfası, 124
Milli Azərbaycan Demokratik Hərəkatı, 371
Milli Komitə, 28, 31, 35, 45, 54, 55n, 176, 178,189, 190, 208n
Milli Mübarizə Hərəkatı, 336n
Milli Mübarizə, 243-245, 248, 292, 329, 355n, 429
Milli Şura, 140-142, 147, 148, 176, 208, 233, 255, 258-260, 263 , 297, 312, 315, 317-319, 321 - 325, 328, 329, 409
Milli Şura Hökuməti, 135n, 141, 219
Milli Şura üzvləri, 141
Milli Şura İcra heyəti, 146
Milne (General), 167, 182, 201 , 202, 204, 215
Mir Abbas bəy Bağırov, (Azərbaycanlı nümayəndə), 96n, 120, 145, 146, 148, 149, 157, 158, 251, 252
Mir Babayev, 115, 251
Mir Cəfər Ağa, 115
Mirbağır Ağa, 116n
Mirzə Abbas Qədimov, 140
Mirzə Cabbar bektaşi, 138
Mirzə Cabbar Məhəmmədağa, 176
Mirzə Cabbar Məhəmmədov, 141, 153
Mirzə Əkbər Xan (Polkovnik), 24n
Mirzə Hüseyn Mirzə Həsənzadə, 98
Mirzə Mehdi Bayramov, 34
Mirzə Məmməd Xan, 90
Mirzə Nəsrullah Bəy Əmirov, 24, 26, 28, 29, 31, 32n, 33-35,44, 82, 85, 90, 106, 107n, 127n, 146,176,192,195, 290
Mirzə Nəsrullah Əmr Bəy Bax..Mirzə Nəsrullah Bəy Əmirov479
Mirzali Bəy Bektaşev, 206, 287n
Miyane 297
Monqollar, 2
Molla Mahmud Çaker (Məzlumların Müdafiə Komitəsi sədri, 21
Mondros Müqaviləsi, son, 68n, 75, 79n, 86, 129,239, 244, 334
More, Burger Benjamin (Amerika missiyasının Tbilisi bölməsi müdiri), 142n
Mosely Van Horn, (General), 222, 263-266, 268
Mosesyans, Aşot Məlik, 192

Moskva, 240, 250, 298n, 328, 329, 335, 339, 340n, 341, 343, 351 , 359, 361n, 366n, 371, 374, 375n, 377-381, 391, 402, 412, 413, 421, 426, 431, 438-440, 442, 444
Moskva müqaviləsi, 412, 430, 435, 437, 438 , 440,441n-445
Moskva danışıqları,442
Moskva Konfransı 428, 430, 431
Moskva Sovet hökuməti, 338
Möhsün Camalov, 119
Mühacir (qaçqın) Məsələsi, 266
Məhəmməd Əli Xan, 193n
Məhəmməd Şah (İran vəliəhdi), 61
Muhiddin (Başçavuş), 387n
Muhittin (Kapitan), 282
Muxtar bəy (Nafia müşaviri), 444
Muradh, 363
Muradyan (İrəvan hərbi hissəsi stab rəisi)185
Murtazaqulu Xan (Maku sərdarı), 24
Musaoğlu Ağa (vedibasarlı, 199
Müsavat partiyasının, 21
Musavatçılar, 356, 371
Musayan, Məlik (Daşnak nümayəndəsi), 35, 47, 272
Musayev, İsmayıl, 228n, 235n
Mustafa (Türk Çavuşu), 44, 46
Mustafa Bəy, 337
Mustafa Kamil Əfəndi, 310, 394, 399, 435
Mustafa Kamal Paşa, 187n, 239, 240, 243, 245, 247n, 279n,292, 297, 298, 300n, 320, 334 - 336, 338, 340, 341, 353 , 359,365n, 371, 412, 439, 440, 441
Mustafa Sübhi, 343, 344
Mosul, 30
Muş, 6
Müfti xoca Ekid əfəndi, 98 Müftizadə Sarı Bəy (Naxçıvan bölgəsi rəis müavini, 200
Mükerrem Humayun, 106n
Münir bəy (Ərzurum valisi), 187n
Müsəlman əhali, 22, 41n, 53n, 65n, 76, 81, 83,117,
131,160,169,183, 223, 225 Müsəlman heyəti, 29
Müsəlman Komitəsi, 29, 33, 35
Müsəlman Şurası, 217
Müsəlman liderlər, 222, 234
Müsəlman Milli Komitəsi, 24, 25, 28, 33n, 34, 35,36n, 44, 45
Şəxsi erməni Komissiyası sədri, 43
Müttəfiq dövlətlər, 268
Müttəfiq nümayəndələri, 217, 218, 244, 255, 256,257, 269, 285, 334

Müttəfiq Yüksək Komissarlığı, 225

-N-

Naci bəy (baş leytenant, Şərur bölgəsi Əmr),211, 247, 260, 278
Nadir Şah, 3
Nağdaliyev. Baxın. Tağı bəy Nağdalizadə
Naxçıvan əhalisi / xalqı, 21,38, -39,106, 136, 169, 175, 206, 233, 236, 271, 342, 354, 362, 406, 409-411,429,432
Naxçıvan əsgərləri, 122n, 147
Nalıçıvan bölgəsi əhalisi, 5, 394, 442
Naxçıvan bölgəsi / havalısı, 20-23, 25, 26, 28-31, 35, 36, 43n, 47, 49, 51, 53, 55, 57n-59, 61 - 63, 68, 70, 74, 81n, 94, 101n, 123n, 149n, 154. I79n, 186, 194, 207, 208, 214, 215, 223, 230n, 232, 237, 255, 353, 369, 394, 399, 402, 409, 411, 426, 433, 434, 436, 437, 441, 442, 445, 446
Naxçıvan çayı, 46, 50, 51
Naxçıvan Ərzaq Komissiyası, 384, 385
Naxçıvan xanı, 25n
Naxçıvan xanları, 29, 31, 370
Naxçıvan xanlığı, 3, 286n
Naxçıvan Hərbi Komissarlığı, 442
Naxçıvan bölgə komandanlığı, 26n
Naxçıvan bölgə Müdafiə Komitəsi, 393
Naxçıvan müsəlmanları, 144n
Naxçıvan Heyəti, 106n, 136, 139, 175, 252
Naxçıvan hüdudu / Sınrları, 44, 406, 421, 428, 429, 446
Naxçıvan İslam Hökuməti, 260
Naxçıvan yerli hökumət rəyasət , 81n
Naxçıvan yerli hökuməti 79
Naxçıvan mülki hökuməti, 57
Naxçıvan Hökuməti, 135n, 138, 142n, 145, 147, 149,151,155-157, 184, 406, 422, 427
Naxçıvan İnqilab Komitəsi, 422n
Naxçıvan inzibati dəstəsi, 304
Naxçıvan İslam əhalisi, 80
Naxçıvan İslam Komitəsi, 41n
Naxçıvan stansiyası, 380
Naxçıvan azadlıq mübarizəsi, 138
Naxçıvan kəndi, 74n
Naxçıvan Qəzası, 25, 29, 38n, 42, 44, 55, 90, 93,101n, 112n, 441, 446
Naxçıvan qızıl ordu komandanlığı, 378
Naxçıvan klubu, 423

Naxçıvan Kommunist Partiyası, 422n
Naxçıvan komandanlığı, 370
Naxçıvan qüvvələri, 137n, 274, 276-278
Naxçıvan yerli hökumət başçısı, 90
Naxçıvan yerli hökumət, 135, 140, 422
Naxçıvan məsələsi, 412, 429, 431, 434, 439, 440n, 444
Naxçıvan mövqe komandanlığı, 94n
Naxçıvan milis batalyonu, 94
Naxçıvan milisləri, 277
Naxçıvan Milli Komitəsi, 22n, 137, 203, 208
Naxçıvan Milli Şurası, 55n, 300n, 305, 310, 311,314-319, 321, 322, 324, 330-332,357
Naxçıvan Muxtar Cümhuriyyəti 118n, 51n, 53n,121n, 446
Naxçıvan qəza rəisliyi, 38, 39
Naxçıvan revkomu, 370, 416, 430, 436
Naxçıvan qəzası, 114
Naxçıvan şəhəri, 1, 2, 23, 37, 38n, 46, 52, 70, 86n, 121n, 135, 138, 186, 191, 212, 234, 262, 424, 435, 436
Naxçıvan Şura Hökuməti, 120n, 129n, 141
Naxçıvan batalyonu, 394
Naxçıvan Türk hökuməti, 143
Naxçıvan Türk Milli Komitəsi, 24, 26
Naxçıvan türkləri, 46, 145, 177, 230n
Naxçıvan vadisi, 66
Naxçıvan və ətraf komandanlığı, 30
Naxçıvan vilayəti 55n
Naxçıvan-Yerevan Fəlakətzadələrinə Muavinət Komitəsi, 270
Naxçıvan-Şərur məsələsi, 288n
Naxçıvan-Türk hərbi hissələri, 399n Naxçıvan-Zəngəzur yolu, 231, 337
Naim Cavad bəy, 342, 359, 360, 362, 365, 369
Nəsrullah Bəy. Bax: Mirzə Nəsrullah Bəy Əmirov
Nasturi / ler, 15, 50
Nazarbekov (Erməni Ordusu komandiri), 13, 15, 40, 43, 47, 65
Nazaretyan (Erməni kommunist lider), 408
Nəzmi Bəy, 348, 349, 350n
Nəcəfqulu Nəcəfov, 287n, 368
Neçili kəndi, 115,130
Nəfs-i İğdır qəsəbəsi, 125
Nəfsi-Qars, 56
Nehrəm kəndi, 33n, 45, 46, 49n, 58, 70, 140,147,193 n, 212
Nehrəm batalyonu, 119, 287, 325, 394
Nehrəm və Qaraçux milis batalyonu, 313

Nehrəmlilər, 45
Nejde (Erməni Şəbəkə rəisi), 117n, 272, 274, 275, 283
Nərimanov Nəriman, 369, 375n, 378, 393, 405,408, 413, 442, 444
Nəsib bəy Yusufbəyov (Azərbaycan baş naziri),227, 228, 231,256, 267
Novruz Bayramı, 22n, 146
Nilis,(Amerikalı topçu kapitanı), 201
Nor Aşhatovar qəzeti, 197
Noraşen, 58n, 63, 64, 74n, 77, 88, 93, 95, 105, 118n, 121 , 122n, 126, 127, 136, 145, 158, 159, 176, 181, 185, 188, 211, 212, 286, 307,309, 399, 411
Novo Bəyazıd, 213, 343
Novorossiysk, 339
Nuh (Peyğəmbər), 1
Nurəddin (Türkiyə Kommunist təşkilatı üzvü), 344
Nuri bəy (İrəvan səfiri, 104
Nuri bəy (Türk zabiti), 278
Nuru Paşa (İslam Ordusu komandiri), 20, 26n, 30, 31, 37, 62, 66, 67, 72n, 85, 138, 299, 330, 333, 336, 343, 358

-O-

Oba, 280
Odesa, 334
Odişelidze (Rus Ordusu komandiri), 10
Ohancanyan (Ermənistan xarici işlər nazir )375n
Oxçu, 274
Oltu bölgəsi, 294
Oltu cəbhəsi, 294
Oltu Milh Şurası, 282
Oltu, 57,130,131,245, 391
On beşinci korpus komandanlığı, 187n, 261, 295
On beşinci korpus, 234n, 239, 243, 245, 261, 277,280n, 281, 291, 302,
On birinci Qırmızı Ordu Hərbi şurası, 419
On birinci Qırmızı Ordu komandanlığı, 373n, 347
On birinci qızıl Ordu, 257
Ordubad, 1, 3, 4, 18n, 19-21, 25, 37, 38n, 42, 43, 55n, 58, 62, 63, 65-67, 70, 77, 85, 89-91, 100, 114, 120, 129-131, 134, 138, 140, 143n, 145, 146, 148, 149, 155, 158, 165, 166, 169, 172, 190, 192, 193n, 199, 203, 206, 208, 214, 223, 228, 231, 235, 251, 252, 254-256, 258, 259, 260, 261, 263, 269, 272-275, 278, 279, 284, 297, 299, 302, 310, 324, 330, 357, 358, 369, 387-389, 392, 393, 403, 409411, 413, 434, 436, 437, 441, 446
Ordubad əhalisi, 119n, 146, 251, 403n, 409, 410, 422n,
Ordubad bölgəsi komandanlığı, 369

Ordubad bölgəsi, 62, 63, 192, 278, 369, 424, 436, 437
Ordubad cəbhəsi, 279
Ordubad qəzası, 192, 403
Ordubad nahiyəsi, 4
Ordubad batalyonu, 119
Ordubadlılar, 43, 192, 193
Osmanı ordusu 100, 132
Orxan Bəy (Batum Konfransındakı Türk Tərcüməçisi 16
Orconikidze, G.K, 303, 343, 347, 348, 358, 360,372,375,408, 428
Orta Asiya Türk dünyası, 240
Orta Asiya türkləri, 240
Orta Asiya, 239
Orta Batum, 56
Osman Nuri (Leytenant), 43, 44, 52n, 247
Osmanlı Hərbi Orqanları, 79, 96n, 108, 110
Osmanlı Dövləti, 6, 18, 19, 36, 40n, 54n, 56, 75n,82, 84, 114, 152, 202n, 239, 296, 334
Osmanlı Hökuməti, 11, 29, 40, 54n, 55, 67, 72, 76,83, 92n, 102, 103, 106n, 109, 110n 113, 125, 163, 187n, 200, 202n, 241, 244, 280, 291
Osmanlı İdarəsi, 2, 54, 149
Osmanlı Kumandanlığı, 29
Osmanlı Qüvvələri / hissələri 2, 28, 69n, 71, 72n,84, 85,103,125, 148n, 219
Osmanlı məqamla, 85n, 124, 132, 187, 200n
Osmanlı Muavinət Mərkəzi Komitəsi, 270
Osmanlı dəstə komandanlığı, 315
Osmanlı hərbi hissələri 247
Osmanlı Ordusu / Orduları, 6, 30n, 62, 77, 79, 85,100n, 109,110n,131,217,244,248
Osmanlı zabitləri, 279, 280n, 347
Osmanlı türklər, milli qüvvvələr 358n
Osmanlı türklərləri, 25, 31
Osmanlılar, 46, 123n
Ozakom. Bax: Zaqafqaziya Komitəsi
Ozanyan, Andranik (Erməni dəstə rəisi), 15, 26, 36, 37, 40-51, 53, 64-68, 77, 106, 114, 117, 137n, 139, 152, 187n, 201n,283

-Ö-

Ömər Lütfi bəy (Dr.), 335
Ömər Lütfi bəy (III.Ordu qərargah rəhbəri), 8

-P-

Paxlalı, 66
Paris, 182n, 201n, 227, 232, 255n, 269, 376
Paris Sülh Konfransı, 178n, 184, 208, 220, 226,231, 249, 253n, 264
Paşa Bayramov, 119, 120, 126, 129n, 143, 146
Bazarçay, 67, 343, 347, 349, 350n, 357, 360, 373,387, 388n
Bazarçayı Suyu, 359
Pencab dəstələri , 182, 215
Pəpiş Mustafa Çavuş, 436
Perjevalski (General), 7
Pernavuldu Şamil Bəy 130
Petroqrad, 20
Pirdov, 274
Piroğlu Fəxrəddin bəy, 129
Piroğlu Məmməd Bəy, 130
Plovden, J.C. (podpolkovnik), 181, 182, 195, 202, 203,205, 208-210, 215-218
Poidebard, Antoine (kapitan), 216
Polşa cəbhəsi 351, 359
Poshof, 57
Pozatlı Bəkir bəy Şurası, 282
Primov (general), 64, 144
Pulkənd, 66
Pusyan kəndi, 320, 325, 326 - R-
R.İsmayılov,150n, 252

-R-

Rəhm Xan Nahçivanski, 24-26, 52n, 55, 60n, 161,208, 231, 329, 370, 413n
Rajput şərəf dəstəsi, 177
Rauf Bəy, 12, 244, 335
Ravona (bulaq), 446
Rawlinson, Alfred, 201, 336
Relyan çayı, 19
Rəsulzadə, Məmməd Əmin, 16, 214n, 250n, 255, 277n
Rəşad bəy (podpolkovnik), 346, 348, 361n, 365, 367, 41
Rəşad Hikmət Bəy (Xarici işlər nazirliyi müşaviri), 76
Rəvan mühacirləri, 97 Revan Vilayəti, 97
Revkom, 368-371, 382-386, 399n, 409, 411, 414,415, 417-120, 427, 435, 437
Reyhanlı, 137, 218
Rhea, Ceyms C "(polkovnik), 232-237, 261n, 263, 266, 269, 278, 286n
Rza Bəy (Ordubad bələdiyyə komitə sədri), 129

Rza Bəy (İğdır Milli Komitəsi sədri, 22, 438,439, 440n
Robinson (podpolkovnik), 231-234, 263
Ruben Babaxanov, 26
Ruben Ter-Minasyan, 226
Rum batalyonu, 387n
Rumiyə gölü, 48, 50
Rumiye 13,15
Rumlar 81n
Rus / lar, 3, 4, 6, 8, 15, 19n, 27, 54n, 58n, 59n, 61, 107n, 240,248, 250, 261, 299, 337, 365, 368, 378, 384, 385, 402, 404, 406, 412, 414, 424, 425, 427, 429-441
Rus hərbi idarəsi, 3
Rus əsgəri / ləri, 5, 9, 10, 20, 21, 23, 25n, 66n
Rus Başkomandanlığı, 7
Rus hərbi hissələri, 23n, 425
Rus Culfası, 53
Rus Eslihası, 71
Rus Hakimiyyəti, 3
Rus Heyəti, 8
Rus Hökuməti Bax:iRus-Sovet hökuməti
Rus İdarəsi, 87
Rus idarəetmə sistemi, 28
Rus kazakları, 22
Rus kazakları, 4
Rus QızılOrdusu, 349
Rus Qızıl batalyonu, 361, 380, 418
Rus Qızıl Ordu komandanlığı, 433
Rus Qızıl Ordusu 431
Rus Qızıl briqadası 380
Rus Qızıl Ordu Birlikləri, 327
Rus Qızıl Ordusu, 366
Rus Qüvvələri, 3, 10, 380, 396, 406, 425, 430, 432, 435
Rus zülmü 353
Rus nümayəndələri, 7
Rus əhali, statistikləri 22n
Rus orduları Başkomandanlığı, 7
Rus ordusu /ları, 9n, 126n
Rus Piyada Diviziya komandanlığı, 372
Rus İctimai Demokrat İşçi Partiyası (RSDİP), 21n
Rus Sovet Cümhuriyyəti, 410
Rus süvari batalyon komandanlığı, 422n
Rus süvari dəstəsi/ süvarləri, 387n, 424, 425

Rus nümayəndələri, 440
Rus və Azərbaycan sovet hökumətləri, 410
Rus-Qafqaz cəbhəsi, 6
Rus-Qafqaz Ordusu Başkomandanlığı, 7
Rus-Qafqaz Ordusu, 7
Rus-Sovet Hökuməti, 356, 378, 380, 428, 438n
Rusiya Cümhuriyyəti, 44
Rusiya, 3, 6-13, 17, 20, 27, 44, 53, 54n, 72n, 157, 183, 240, 285, 295, 299, 303, 382, 419, 421, 433, 439, 441, 442
Rusiya İmperatoru, 4
Rusiya Orduları, 365
Rusiya Şura Hökumətləri, 295
Rut, 66
Rüştü bəy (Polkovnik, 9-cu diviziya komandiri)64, 67 - 71, 74, 77, 85, 88-91, 94-96n, 97, 99, 105, 118n, 246

-S-

Sacilər 2
Sadəddini (kiçik leytenant), 314
Sadiq Axundzadə(Azərbaycanın Zengezur nümayəndəsi), 274, 284
Sadıqov, K "413n, 425, 427, 446
Səfəvilər, 2, 3
Sağ Cinah qrupu komandanlığı, 302n, 306n, 311, 317, 318, 328, 331, 347, 350, 354, 370, 369, 379, 383, 385, 386, 388, 389n, 394, 395,409
Sakarya zəfəri, 444
Saleh Zəki ( Zor qəza rəisi), 337, 344, 346
Səməd bəy Cəmilinski, (Azərbaycanı Naxçıvan Qubernatoru) 192, 223, 231, 234, 235n, 236, 255, 258n
Səməd bəy Mehmandarov, (Azərbaycan Xarici İşlər Naziri), 227, 228, 242, 255-261, 263, 264, 267, 268, 273, 279, 284-290
Səməd bəy, Bax Səməd Bəy Cəmilinski
Səmədbəyov 191
Sami bəy, 111, 117
Samsun, 76
Saray 13
Saray bulaq dağı 441
Saray bulaq 401, 441
Sarıqamış, 6, 12, 53n, 57, 59, 76, 86n, 92n, 187n, 188n, 297, 306, 391, 392
Sarıqamış cəbhəsi, 391
Sarıqamış hərəkatı, 6
Sərkisyan Leon, 273, 295n

Saruxanlı, 322
Sarvanlar, 25n
Sasani, 1
Sason süvari dəstəsi 185
Sayat dağı, 401, 441, 446
Schwind, FL, (İngilis nümayəndəsi), 153, 180, 182, 202n, 209, 210, 213
Sədərabad əhalisi, 80n
Sədərək, 1, 51, 63, 64, 67, 93, 95, 118-121, 123, 124, 126,128,145,153-155,162,165,166, 173,188, 214, 253, 395, 399,414, 421, 446
Sədərək batalyonu, 305
Sədrinə, 323
Selanik, 201n
Səlcuqlu, 1
Səlcuqlu İmperatorluğu, 2
Səlcuqlular, 2
Sələsüz, 147, 436
Sələsüz batalyonu, 387n
Salmas, 3, 15, 24n, 29
Sərdar Şüca, 106n
Sərdərabad, 15, 47, 51, 88, 90, 94, 95, 100, 105,130, 140n
Sərdarabad bölgəsi, 60
Sərdarabad stansiyası, 95, 64
Sərvər xan, 193
Sevr müqaviləsi 376
Seyfəddin Bəy (podpolkovnik), 378
Seym 11n, 18, 29
Seyid Həsən, 124
Shelly.James (Podpolkovnik), 233
Shulaver, 23n
Silikian (Erməni dəstə rəisi), 24n
Simko (Kürd lider), 208, 254
Simpson (Podpolkovnik, Naxçıvan Qubernatoru), 176, 180
Sis, 276
Sisyan, 47, 53, 274, 277
Sivas, 40, 57, 201, 335, 346n
Skobof (General), 304
Smirnov, A.L. 8
Sofiyan, 48
Soğanlı keçidi, 297
Sonyel, Şelahi R., 295n
Sosialist fikirlər, 21
Sosialist qruplar, 21

Sovet Azərbaycanı, 407, 408, 435
Sovet Respublikası, 409, 412, 444, 446
Sovet xarici siyasət sənədləri, 374n
Sovet səfirlik heyəti, 374
Sovet Ermənistanı, 407, 421, 426
Sovet hakimiyyəti, 422, 427
Sovet Heyəti, 8, 334n, 359, 371, 374, 439
Sovet hökuməti Bax..Sovyet Rusiya hökuməti
Sovet İdarəetmə Sistemi, 370
Sovet üsyanı, 8
Sovet Orqanları, 351, 359, 378, 432, 438, 440
Sovet Ordusu, 285
Sovet Rus hökuməti nümayəndələri, 439
Sovet Rus nümayəndələri, 403, 440
Sovet Rusiyası, 18, 44, 45, 183, 240, 243, 257, 285, 303, 335, 337, 339, 340, 341, 342, 343, 346, 352, 353, 355n, 356, 358, 360n, 361, 362, 371, 373, 376, 389, 403, 405, 412, 413, 414, 421, 424, 428, 429, 435, 437, 440, 441, 443, 444
Sovet Rusiya xarici işlər Komissarlığı, 339n
Sovet Rusiya Hökuməti, 6, 7, 338, 339, 351, 371 - 373n, 374, 375, 379, 381, 391, 402-405, 407, 408, 411, 412, 418 , 431,438, 440, 444
Sovet Rusiya səlahiyyətliləri, 285
Sovet rəhbərliyi, 402, 407, 442, 443
Sovet-erməni müqaviləsi, 376, 390
Soyuq Dağ, 389
Stalin İ., 9,14, 45, 440
Sultan Alparslan, 2
Sultan Bəy, 276, 446
Sultanov, (Dr, İrəvan müsəlmanlarının lideri)176, 177n, 231n
Sust Köyü, 395
Süleyman (ehtiyatda olan zabit ), 337
Süleyman Nuri (Türkiyə kommunist təşkilatı üzvü, 337, 418n
Sürəyya bəy (Naxçıvan Yerli Hökumət rəisi və 11 batalyon komandiri), 40, 54, 55, 57
Sürməli, 13, 16, 18, 19, 30, 56, 72, 97, 100, 113, 120, 124, 130,131, 149, 157, 158, 159 , 162, 163, 215, 231, 249, 250n, 256, 261, 266, 281, 283, 444
Sürməli Çuxuru, 15
Sürməli düzənliyi, 121n
Sürməliqəzası 56n
Svanidze, Aleksandr (Gürcüstan xarici işlər və maliyyə
Komissarı), 445484

-Ş-

Şabadin kəndi 274
Şadlinski bilərsiniz. Abbasqulu Bəy Şadlinski
Şagablu, 19, 67
Şahahsevan (Şahseven) Qəbilələri, 300n Şahboğazı, 436
Şahbuz əhalisi, 122n Şahbuz, 1, 329n, 352n, 362n, 446
Şahtahu, 5, 20, 29, 31-38, 41, 43, 46, 48-51, 53, 58 , 62-64, 70,77, 85, 88, 91, 93, 112n, 122n, 123, 126-128, 134n, 159, 173, 176, 180, 183, 188, 209, 213, 248, 250, 260 , 261, 271, 272, 276, 296, 301, 302, 307, 309-320, 324-330, 333, 339, 340n, 346, 350, 352, 357, 377, 378, 379, 381, 387, 388n , 389 - 393, 395, 396, 401, 402, 405, 411, 424, 425, 431, 433, 434, 438, 443
Şaxtaxtı əhalisi, 211
Şaxtaxtı bölgəsi, 387n, 434
Şaxtaxtı keçidi, 363
Şaxtaxtı stansiyası, 20, 178n , 211
Şaxtaxtı körpüsü, 287n, 309, 311, 320, 326, 328
Şaxtaxtı hərbi dəstələri, 313, 314, 443
Şaxtaxtı nahiyəsi, 93
Şaxtaxtı hadisələri, 361
Şaxtaxtı hücumun, 394
Şaxtaxtı-Culfa dəmir yolu, 376, 379n, 381, 390, 438
Şaxtaxtı-Culfa xətti 340n, 376, 380
Şaxtaxtı-Culfa yolu, 377, 378
Şaxtaxtılı kapitan Çingiz bəy Şura Hökuməti, 276, 282
Şaxtaxtı-Naxçıvan-Culfa dəmir yolu, 407
Sant (Erməni nümayəndə heyətinin rəhbəri), 343, 359
Şərq Cəbhəsi komandanlığı, 344n, 352, 359, 363, 367, 386n, 387n, 390, 391, 396n, 399, 400, 404, 409, 410, 416, 422n, 435
Şərq Cəbhəsi Qüvvələri, 410
Şərq Cəbhəsi və Qrup Komandanlığı, 420
Şərq Cəbhəsi, 336, 355, 390, 391, 395, 418, 421,422,423 n
Şərq İnqilab, məzlumları, 403
Şərq Qapısı qəzeti, 21 n Şərq Qapısı,335
Şərq Qızıl Ordusu, 403
Şərq Məsələsi, 33
Şərq millətləri qurultayı, 387n
Şərq Orduları Qrupu komandanlığı, 37-39, 43,48, 50, 54, 58, 59n, 65, 72, 88
Şamuyan, Stepan (Sovet Qafqaz Komissarı), 9, 45
Şavşat, 56,131 Şefegli, 64
Şəhər Batalyonu, 119
Şəki, 66, 249

Şelkovnikov (General), 184-186, 188, 190, 212,213, 329, 398
Şamaxı, 249
Şəmsəddinov, Rəşid bəy, 116, 130
Şəmsutdinov A. 295
Şərif bəy (baş leytenant), 343, 344n, 365n
Şərur, 1, 3, 16-20, 23, 24n, 30-38, 41, 43, 48, 51, 55n 62, 70, 71, 87, 89, 91, 92, 96, 97, 99, 100,103,104,111,116,118-121,123,125 - 130, 136n, 137, 138, 140, 142, 143n, 144, 147,148, 149,151,155,157-159, 161, 162, 163, 165, 167, 172, 175-177, 179n, 181, 183, 184, 186n, 190, 191, 193, 194, 195n, 197n, 199, 203, 206, 208, 212, 215, 216, 218n, 224, 227, 228, 230n, 231, 233, 234, 235, 237n, 249, 251, 252, 259, 260, 261, 267, 271, 272, 273, 277, 278, 286, 297, 302, 307 - 309, 311, 312, 316, 320-322, 330, 389, 390, 397, 401, 404, 409, 410, 424, 433,446
Şərur əhalisi, 141, 194
Şərur bölgəsi, 28, 128, 140n, 141, 210, 211n, 288
Şərur nahiyəsi müdirliyi, 55
Şərur düzənliyi, 123
Şərur və Naxçıvan qəzaları, 267
Şərur və Şahtaxtı əhalisi, 271
Şərur-Dərələyiz bölgələri, 23, 29, 91, 113, 118, 221,225
Şərur-Dərələyiz qəzası / lan. 4, 22n, lOln, 223,224, 229, 231
Şərur-Dərələyiz, 446
Şərurlular, 141
Şərur-Vedibasar, 16n
Şövkət (Leytenant), 382
Şövqü Paşa Bax.Yakup Şövqü Paşa Şeyx Kərim Axundzadə, 55, 115n
Şıxmahmud (), 52, 212
Şeyxov (İrəvan müsəlmanları rəisi), 203
Şeyxov Hacı Abdulla, 55
Şıxlar, 218
Şibli kəndi 365
Şidli 324
Dəmiryol idarəsi, 59
Dəmiryol istismar müdirliyi 59n
Şirazlı, 137, 197, 218 Ştul, 363
Fevral inqilabı 6, 20-22n
Şura milis təşkilatları, 297
Şuşa, 23n, 65, 225, 339n, 348, 358n, 359, 367, 371,373, 380, 387-389, 392
Şükrü Bəy (kapitan), 49
Şükür Məlikli, 66
Şüregel, 56

Dabanı yastı Məmməd Paşa, 2
Tağı bəy Nağdəlizadə, 24n, 26n, 42, 43, 55, 120 - 122, 126, 128, 130, 137n, 150, 288, 307, 418
Tehran, 175, 371
Təhsin Bəy (leytenant), 396n
Tələt Paşa, 8
Talış dağları, 3
Talıbzadə Yusuf Ziya Bəy, 413n, 430, 437
TarhovV. (Rus Birinci Qafqaz Süvari Qızıl süvari batalyon komandiri), 329n, 361, 362, 363
Təsvir-i Əfkar qəzeti, 222n
Daşburun dağı, 445
Daşburun, 445
Daşnak / lar, 21, 25n 47, 64, 115, 137n, 162, 178n, 192,193,196, 205, 230n, 298n, 356, 373n, 380, 387n, 403, 404, 407, 412, 429, 432, 433, 437n
Daşnak dəstə rəisləri, 283
Daşnak dəstələri, 276
Daşnak Ermənistanı, 285, 340, 426
Daşnak quldurlar 231
Daşnak Hökuməti, 405, 420
Daşnak üsyan, 432, 436
Daşnak Komitəsi, 405
Daşnak quldurları, 403
Daşnak qüvvələri, 274, 284
Daşnak Milis təşkilatı , 277
Daşnak Ordusu, 434
Daşnak idarəetməsi 407
Tatvan, 293
Tavuzkənd 57
Təzəkənd, 64,153, 320, 325, 326, 328
TBMM prezidiumu, 294, 327-329n, 338, 343, 344n,346, 351, 352n, 356
TBMM hökuməti, 240, 297, 298, 341, 342, 371,391, 398n, 412, 414 Təbriz, 2, 3, 14, 22n, 24n, 30, 32, 47, 48, 53, 55, 58,60, 61, 66, 74, 83,88 n, 100, 121, 158, 175, 180n, 183, 213, 220, 222, 237, 268, 269, 297, 300n, 330, 370, 397, 413, 414
Təbriz Stansiyası, 60
Hərbi vergilər kommisiyası 369
Təki xsan tayfası, 339n
Təkinski Bax .Xan Təkinski
Tamaşaçı, 179, 190

Xeyriyyə təşəbbüs heyəti, 382 tofiq Paşa, 110n
Tevzaya V., 8
Teymur bəy Makinski, 150n, 252
Thomson, Vilham M. (General), 47, 139, 143, 150, 151,161-163, 166, 167, 171, 173-175, 185,252
Tbilisi, 7, 11, 12, 14, 20, 23, 24n, 82, 120, 122n, 129n, 143-146n, 149, 150, 158, 161-164, 166, 167, 168, 174, 185, 193n, 201, 203, 204, 207-209, 217, 218, 221, 223, 224, 226 - 230n, 231-233, 249, 250, 251-254, 255, 267, 269, 272, 281, 283,
324n, 347, 351n, 373, 375, 376
Tbilisi vilayəti, 23n
Times, 221n
Teymur, 2
Tirkeş, 387, 436
Tumbul, 394
Trabzon, 6, 10-12, 16, 187n, 339n, 346n, 341n,343n, 349n
Trabzon konfransı, 12, 15
Trotçki batalyonu, 420, 424, 425, 436
Trotskiy, 8
Tumbul kəndi, 4, 34
Türk – Rus Qızıl Qüvvələri, 378, 387, 389 Türk əhali, 26, 29, 46, 64, 96n, 125n, 175, 181, 183, 186, 192, 193, 220, 225, 229, 258, 272, 298, 321
Türk hərbi dairələri 30, 37, 48, 49, 52, 54, 55, 69-71, 81n, 83, 85, 87, 88n, 92, 96, 102, 105, 107n, 112, 148n, 345, 351 , 353, 355, 357, 358, 368, 383, 388, 390, 403, 404
Türk hərbi hissələri, 10, 12, 13-15, 29, 30, 37, 39, 42, 59, 61, 63, 64 , 69, 70, 72, 83-86, 90n, 96n, 107, 108, 111, 117, 118, 132, 257, 305, 314-316, 318, 319, 321, 325, 327 - 329, 331, 332 , 346, 381, 406
Türk səfirləri , 139n
Türk Ermənistanı, 438
Türk əsirləri, 345, 382
Türk qaçqınları 383, 425, 434
Türk xalqı, 52n, 209, 234, 285
Türk heyəti, 7, 16, 17, 139n, 351 , 361n, 366n, 375n, 377, 378, 391, 401, 412, 421, 438 - 442, 444, 445
Türk hökuməti, 11, 35, 402, 439
Türk İdarəsi, 54, 215, 226, 421
Türk İnqilab Ordusu, 403
Türk qapısı, 335, 412, 439, 440
Türk hərbi hissələri 434
Türk Qızıl dəstə komandanlığı, 383, 385
Türk Qızıl, dəstələri 367, 369, 379, 380, 382,384,-387n, 392, 396, 422, 423

Türk Kommunist firqəsi 337-339
Türk Kommunist təşkilatı, 344
Türk kommunistləri, 357,406
Türk dəhlizi, 339
Türk kəndləri sl40, 218, 284, 304
Türk Qüvvələri, 10, 12-14, 27, 28, 29, 37, 44, 46, 48, 49n, 51-53, 58, 61, 62, 64-66n, 67, 68, 86, 92n, 121, 122, 136, 137n, 138, 186, 218, 273, 303-305, 307, 309, 310, 312, 315, 339, 346, 383, 384, 395, 397, 399, 400, 430, 431, 432
Türk Orqanları, 258, 281, 310, 334, 339n, 342, 349, 376, 390, 402, 403, 406, 423, 429, 430, 434, 435, 439, 442
Türk könüllər, 211, 214, 216, 218, 220, 273
Türk milli hərəkatı, 334
Türk mühacirləri , 270
Türk hərbi dəstələri, 295, 308, 317, 319, 325, 326, 329, 345, 347, 348-350, 354, 357, 360n, 363, 365, 368n, 370, 383, 384, 386n, 388n, 391, 392, 393n , 396, 398, 400, 402, 405, 409, 414, 417, 418n, 419n, 424, 427, 429-435, 437, 442, 443
Türk həbi dəstələr qərargahı 431
Türk hərbi dəstə komandanlığı, 351n 405
Türk qaçqınlar, 237
Türk ordusu, 7, 11, 13, 14, 17, 18, 21n, 27, 28, 32, 37, 42, 43, 52n, 53n, 58, 62, 65, 78, 80, 82, 83n, 85, 87 , 88, 91, 97n, 92, 99, 102, 103, 105n, 108, 111, 113, 114, 129, 132, 118n, 217n, 241, 243, 271, 282, 291, 297n, 298,, 342, 361, 370n, 381, 383, 391, 392, 398n, 413n, 441
Türk Sovet Respublikası, 410
Türk zabitləri, 29, 31, 89n, 158, 163, 197, 208,217, 263, 299, 343, 369, 370n, 417 Türk hücumu, 381,395
Türk batalyonu, 389, 398
Türk nümayəndələri, 231, 427
Türk və bolşevik ,qızıl ordusu 370, 390, 394
Türk və bolşevik qüvvələri, 390, 397n, 399 , 430
Türk və erməni komitələri, 24
Türk və erməni Milli Komitələri, 49
Türk və rus qüvvələri, 431, 435
Türk və sovet nümayəndələri, 440, 444
Türk səlahiyyətliləri, 378
Türk-bolşevik gözətçiləri, 367
Türkiyə-Ermənistan hüdudu, 43n
Türk-erməni müharibəsi, 24, 262
Türk-islam əhalisi, 28, 42, 43, 64, 80, 87, 97n, 101,114,132, 251
Türk-rus danışıqları, 431
Türk-sovet danışıqları, 340n
Türk-sovet əlaqələri, 335, 339

Türkistan, 17n
Türkiyə, 1, 6-14, 16n, 17-20, 25n, 28-30, 36n, 38 - 41n, 47, 48, 51n, 55, 56n, 64, 68, 69, 71, 78, 79, 87, 99, Loon, 107n, 112, 119, 134, 138, 151, 157, 162, 168, 183, 185, 198, 203, 209, 211n, 214n, 217n, 239-246, 248, 250, 255, 257, 258-261, 269, 270, 277, 280, 287-292, 298, 302, 303, 306, 307, 309-311, 314, 327, 330-334n, 335, 339-341, 343, 352, 355n, 356, 360, 362, 371, 372, 376, 379, 382, 389, 393, 397n, 401, 403, 407 - 412, 422, 424,425 n, 426, 427n, 429, 431, 432, 438, 440-444, 446
Türkiyə Böyük Millət Məclisi / TBMM 295n,297, 338, 415
Türkiyə Respublikası, 121n
Türkiyə himayəsi, 440, 441
Türkiyə hökuməti, 401, 404, 445
Türkiyə İdarəsi, 402
Türkiyə İnqilabi qızıl ordusu, 367
Türkiyə İştirakıyun təşkilatı, 347
Türkiyə Kommunist partiyası, 337, 338, 344, 346
Türkiyə Kommunist Təşkilatı, 343, 346
Türkiyə hərbi dəstəsi, 346
Türkiyə Ordusu, 106n
Türkiyənin Qızıl Ordusu komandanlığı, 349
Türkm

-U-

Ukrayna 8, 427n
Uluxanlı, 24n, 47, 51, 58, 77, 87, 94, 95, 100, 109, 112, 113n, 115-117, 123-125, 130, 131, 134, 149, 156, 158, 163, 402
Ulya Noraşen 398
Urmiye kəndi, 24n, 445
Ussher D.Clarence (Dr.), 217, 220, 222, 229, 262, 263, 271, 273

-Ü-

Üç Kilsə bax..Eçmiadzin
Üçüncü internasional marşı, 365
Üçüncü Qars konfransı, 130
Üçüncü Murad, 2 DİZİ 87
Üçüncü Ordu komandanlığı, 7
Üçüncü Ordu, 6, 7, 10, 12n, 16, 37n, 38n

-V-

Van, 6, 13, 17n, 41, 76, 83, 85, 157, 162, 187, 240,244, 247, 260, 263, 293, 375
Van ermənilləri, 41n
Van gölü, 13
Varshamyan,Gevorg (Naxçıvan Qubernatoru), 177, 178,179, 186, 189, 190
Vedi, 124, 143n, 145, 148, 149, 182n, 195, 214, 254, 271, 276, 279, 298, 305, 306, 309, 310, 319, 332, 345, 399 , 402
Vedi əhalisi, 65, 140n, 197, 271
Vedi bölgəsi, 113n, 204
Vedi cəbhəsi, 304, 305
Vedi çayı, 64n, 67, 154, 162, 165
Vedi məsələsi, 217, 227n
Vedi milisləri, 398
Vedi döyüşü, 195 , 208, 254
Vedi türkləri, 206
Vedibasar, 64, 65, 71, 91, 96n, 100, 103, 111, 124, 126, 147, 148n, 199, 205, 206, 209, 217, 218n, 229, 231, 232, 235, 243, 256, 271, 278, 279, 308-310, 322, 324, 327, 328, 332, 410
Vedibasar əhalisi, 402n
Vedibasar bölgəsi, 64, 237n, 237, 271n
Vediliier, 64, 137, 196, 226, 393, 433 Vedrinskiy, 8
Vəhbi (Mexanikləşdirilmiş dəstənin komandiri), 382
Vehip paşa, 7, 10-13, 16, 17n, 27, 38n, 29
Vəli (Burdur millətvekili), 444
Vəli ağa Kəndlinski, 55
Vəli dağ, 398, 441
Vəlibəyov bax.. Bahadır Vəlibəyov
Vəlidağ, 121n
Vəlidağ təpələri, 122n
Verçinlor, 404
Vesilenko (IX. qız idi Ordu Komandiri), 373n
Veysel Bəy (Mayor), 136n, 239, 246, 298, 301, 300n, 301n-303, 305-328, 331, 339, 345, 347, 349, 350, 351, 354-357, 361n-370, 379, 380, 382-387n, 388, 389, 391-400, 402, 403, 405, 406, 409, 411-422n, 423 - 435, 437, 439, 440n, 442 - 444n
Vəzirov, (müsəlman komissar), 41n
Viladiqavqaz, 12n
Villaret, Gustave (Kapitan), 222, 263, 264
Vişinskiy (General, Qafqaz Ordusu Qərargah Başqanı), 8

-W-

Waite, Sumner (Podpolkovnik), 233
Walker, Corc T. Foresder, (General), 144
Wardrop (Bakıdakı İngilis nümayəndəsi), 228
Wilson prinsipləri, 88n
Wilson, W, 229, 262

-Y-

Qarətçi, 33
Qarətçi, 93
Yaxın Şərq Amerika Kömək Heyəti (ACRNE), 217
Yaxın Şərq  Kömək Komitəsi, 225
Yaqub bəy (kapitan), 8
Yaqub Şövqü  paşa, 38, 59, 74, 75, 77, 79, 80, 81n, 82, 85, 87-90, 92, 93, 95-99, 105-107, 109, 113,114, 121,124, 125, 129,146 n ,
Yangvitc, Mixail (rus səlahiyyətli), 414
Yapun (Erməni Çeteci), 36, 41, 64, 65n 68, 78n, 117, 124
Yaycı, 42, 43n, 45, 49n, 166, 192, 206, 280
Yaycı soyqırımı  42
Yaycı kəndi  müsəlmanları, 42
Yaycı  döyüşü, 42
Yeni Bəyazid, 4, 17, 77, 194, 283
Yeni Dünya qəzeti, 324n
Yeni Səlim mövqeyi, 12
Yenicə, 63, 64, 88, 89, 93, 95, 118, 122, 130, 136,197, 210, 247, 262, 322, 328
Yenice  stansiyası, 118, 188, 212
Yenice nahiyəsi, 138n
Yenice nahiyəsi  müdirliyi, 90, 118n
Yerasimos Stefanos, 330
Yezidilər, 77
Yuxarı Açara, 56
Yuxarı Əylis 269, 275
Yuxarı Muğancıq, 322
Yunanlılar, 182n Yusuf   (Çavuş), 328
Yusuf  bəy  Qazıyev, 120,143,146
Yusuf İzzet Paşa (Şimali Qafqaz Cümhuriyyətindəki Osmanlı nümayəndəsi), 20 Yusuf Kamal Bəy, 240, 340n
Yuva (Şaumyan) kəndi, 144, 145

-Z-

Zaqavkom, 248
Zalka, 16n
Zaraşad, 57
Zəki əfəndi, 306
Zəngilan, 65
Zəngəzur, 9, 17n, 60, 62, 65-67, Loon, 114, 137n, 140, 185, 192n, 194n, 213n, 218, 221n, 225, 226, 233n, 240, 245, 250, 256, 259, 266, 268-272, 274-278, 283, 284, 285, 287, 289, 292, 293, 302, 303, 322, 323
Zəngəzur bölgəsi, 285
Zəngibasar, 71, 91, 96n, 99, 100, 103, 111, 113, 116n, 148n, 244, 256, 276, 280n-283, 295n, 304, 308
Zəngibasar Şura qüvvələri, 283
Zeynal Abidin Şeyx Əlioğlu, 195
Zehni bəy dəstəsi
Zilan tayfası, 94
Zinəddin, 212
Zob Bəy (Türk Zabiti), 278

**İbrahim Ethem Atnur**

***Osmanlı idarəçiliyindən***
***Sovet idarəçiliyinə qədər Naxçıvan***
***(1918-1921).***

*Yığılmağa verilmiş 01.04.2013.*
*Çapa imzalanmış 30.05.2013.*
*Formatı 70X100 1/16 "Tayms" qarnituru.*
*Ofset çap üsulu. Ofset kağızı. Həcmi 31.0 ç.v.*
*Sifariş № 532. Tiraj 300 nüsxə.*

*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.*
*Naxçıvan şəhəri, Təbriz küçəsi,1*